Azərbaycan Diasporu: 2010

Tərtib edən: Məhbubə Tağıyeva

Azərbaycan diasporunun etibarlı hamisi

Azərbaycan xalqı, dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımız hər il dekabrın 31-də milli həmrəylik gününü qeyd edir. Qədim tarixə malik xalqımız bu əlamətdar bayramı uzun illərdən bəri yaranmış, qorunub saxlanılmış ənənələrinə, mədəniyyətinə, tarixi köklərinə xas olan xoş amallarla, duyğularla keçirir. Bu bayram ildən-ilə daha geniş vüsət alır, ürəklərdə vətən eşqi, milli-mənəvi birlik hissləri bəsləyən hər bir soydaşımız tərəfindən güclü dəstək alır. İlk dəfə 18 il əvvəl həmrəylik və birlik arzuları ilə dillərə gətirilən və rəsmiləşdirilən bu bayram ürəklərdə uzun illərdən bəri qorunan azadlıq və birlik hisslərinin təzahürüdür.

Milli səviyyədə keçirilən bayram ulu öndər Heydər Əliyevin uzaqgörənliyini, xalqı öz ətrafında birləşdirmək məharətini bir daha nümayiş etdirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il dekabrın 16-da "Dünya Azərbaycanlarının həmrəylik və birlik günü haqqında" qərarı yenicə müstəqilliyini elan etmiş Azərbaycanın yeni tarixində fundamental sənədlərdən biridir. Çünki 1991-ci ilin oktyabrında canı, qanı bahasına müstəqilliyə qovuşmuş Azərbaycanda cəmiyyətin qütbləşərək parçalanması, milli maraq və mənafelər ətrafında səfərbər olunmaması, birlik və həmrəylik ideyalarının özünə yer tapmaması ciddi problem kimi göstərilmiş, milli inkişafı əngəlləyən amilə çevrilmişdi. Bunun nəticəsi kimi də 1993-cü ilin iyun ayınadək ölkədə vətəndaş sülhü və həmrəyliyi mövcud olmamış, cəmiyyətdəki siyasi konfrontasiya kəskinləşərək ağır siyasi böhrana gətirib çıxarmış, bütövlükdə, respublika parçalanmaq və müstəqil dövlətçiliyini itirmək təhlükəsi ilə üzləşmişdi.

Bu arzuolunmaz vəziyyət yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra aradan qalxmış, ulu öndər müxtəlif səbəblərdən Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımızın vahid ideologiya və milli-mənəvi dəyərlər sistemi ətrafında birləşməsinə, onların malik olduğu güclü potensialın ümummilli problemlərinin həllinə yönəldilməsinə xidmət edən bir sıra tədbirlər həyata keçirmişdir. İndi siyasi baxışından asılı olmayaraq hamı etiraf edir ki, Heydər Əliyevin 1993-cü ildə xalqın istəyilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biridir. Heydər Əliyev dühası Azərbaycana ikinci rəhbərliyi dövründə vətəndaş sülhü və ümumxalq həmrəyliyinin möhkəmləndirilməsi xəttini davam etdirmiş, bu siyasi xətti özünün konkret addımları ilə kamil elmi-nəzəri konsepsiya səviyyəsinə qaldırmışdır.

Bu gün aydın görünən həqiqətlərdən biri də məhz budur ki, ulu rəhbərin Azərbaycan tarixindəki möhtəşəm izləri yalnız müstəqil dövlət quruculuğu və onun siyasi-iqtisadi əsaslarının möhkəmləndirilməsi ilə yekunlaşmır. Ulu öndər həm də bütün dünya azərbaycanlılarının milli birliyinin yaranmasında fövqəladə rol oynamışdır. Heydər Əliyev milli dövlət quruculuğunun, dövlətçilik ənənələrinin formalaşdırılması istiqamətində əməli iş görmək, fəaliyyətini milli mənafe kontekstində qurmaq üçün var gücü ilə çalışır, xalqı səfərbər edirdi.

Böyük strateq Heydər Əliyev azərbaycanlıların vahid xalq kimi monolitliyinin möhkəmləndirilməsi, milli diasporun formalaşdırılması baxımından ana dilinin də roluna xüsusi önəm verirdi. Çıxışlarında daim vurğulayırdı ki, milli dövlət quruculuğunun mühüm şərtlərindən biri ədəbi dilin zəminində xüsusi rəsmi dil üslubunun formalaşmasıdır. Dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan dilinin dövlət dili kimi işlədilməsinə əlverişli şərait yaranmışdı. Belə böyük və məsuliyyətli vəzifəni az qala, təkbaşına həyata keçirən Heydər Əliyevə qarşı çıxanlar, min bir əziyyətlə yaratdığı dövlətçiliyimizə zərbə vurmaq istəyənlər də az deyildi. Lakin bu maneələri inamla dəf edən ümummilli lider Heydər Əliyevin "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli fərmanı ilə xalqımızın əlamətdar bayramları sırasına biri də əlavə olundu. 8 il əvvəl imzalanmış həmin fərmana əsasən, avqust ayının 1-i hər il respublikamızda Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi geniş qeyd olunur. Məhz Heydər Əliyevin qətiyyəti, siyasi iradəsi və prinsipiallığı nəticəsində respublikamız həmin tarixdən etibarən tam şəkildə yeni əlifbaya - latın qrafikalı Azərbaycan əlifbasına keçdi. Heydər Əliyevin ana dilinə böyük qayğısı, sədaqəti, dərin məhəbbəti onun yalnız əsl vətəndaşlıq, ana dilini sevmək, yüksək qürur hissləri ilə bağlı deyildi. Bu, eyni zamanda, onun öz ana dilini dərindən bilmək, həmin dilin bütün sirlərinə, gözəlliklərinə vaqif olmaq, onlardan məharətlə istifadə edə bilmək qabiliyyətindən irəli gəlirdi. Ulu öndər xaricdə yaşayan soydaşlarımızla görüşlərində onlara ilk növbədə, məhz milli dili unutmamağı tövsiyə edirdi.

Bütün məşhur siyasi xadimlər kimi, Heydər Əliyev də öz xalqının, ölkəsinin iqtisadiyyatı, maddi rifah halının yaxşılaşması ilə bərabər, onun ümummədəni tərəqqisinin qayğısına qalmış, xalqımızın dünyada layiqli yer tutmasına, obyektiv səbəblərdən bütün dünyaya səpələnmiş soydaşlarımızın ümummilli məqsədlər ətrafında birləşməsinə çalışmışdır. 1997-ci ildə ABŞ-a rəsmi səfəri zamanı ümummilli lider Heydər Əliyev Azərbaycan diasporu qarşısındakı çıxışında qarşıda duran vəzifələrdən danışarkən demişdir: "Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəli gedər, Azərbaycan diasporu da inkişaf edər. Bilirsiniz, xaricdə yaşayan azərbaycanlıların çoxu Azərbaycanda doğulmayıb.

Nə olsun. Məgər Amerikada yaşayan ermənilər Ermənistanda doğulub, məgər onlar Dağlıq Qarabağda doğulub? Amma ermənidirlər, ona görə də Ermənistan haqqında düşünürlər. Amerikada yaşayan azərbaycanlıların isə biri deyir, mən İranda doğulmuşam, o biri deyir mən Turanda doğulmuşam. Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan".

1994-1995-ci illərdə Azərbaycanın ciddi təhlükələrlə üzləşdiyi zaman ümummilli lider Heydər Əliyevin çağırışı ilə yüz minlərlə həmvətənimizin ölkə başçısının ətrafında toplaşması, ona dəstək verməsi milli birlik və həmrəyliyimizin tarixində ən parlaq səhifələrdən birinə çevrilmişdir. İctimai-siyasi sabitliyin, vətəndaş sülhünün təmini, habelə 1996-cı ildən başlayaraq ölkədə aparılan quruculuq tədbirləri, bazar iqtisadiyyatının elmi əsaslarının formalaşması, hüquqi dövlət quruculuğu, sosial sahənin inkişaf etdirilməsi milli diaspor quruculuğu prosesinə başlamaq üçün etibarlı zəmin formalaşdırmışdır. Bütün bu proseslər dünyanın müxtəlif bölgələrinə səpələnmiş, qəlbi vətən eşqi ilə döyünən soydaşlarımızın diqqət mərkəzində olmuş, onlarda böyük qürur və sevinc hissləri doğurmuşdur. Respublikamızın beynəlxalq aləmdə daha geniş tanınması, dünya ölkələri ilə siyasi-iqtisadi, mədəni əlaqələrinin inkişaf etdirilməsi xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması prosesinə ciddi dəstək vermişdir. Onlar yaşadıqları dövlətlərin iqtisadi, ictimai-siyasi həyatında fəal iştirak etməklə, elmin, mədəniyyətin inkişafına töhfələr verməklə yanaşı, həm də Azərbaycan xalqının maddi-mənəvi dəyərlərinin, dilinin, tarixinin, mədəniyyətinin, mütərəqqi ənənələrinin daşıyıcıları olaraq ölkəmizi dünyaya tanıtmaq üçün yeni imkanlar qazanmışlar.

Ulu öndər özünəməxsus uzaqgörənliklə ilk gündən xarici siyasətdə strateji hədəfləri düzgün müəyyənləşdirərək demişdir ki, müasir dövrdə hər bir dövlətin qüdrəti yalnız iqtisadi resurslarla deyil, həm də onun xaricdə formalaşdırdığı diaspor və lobbinin gücü ilə ölçülür. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə hansısa ciddi nailiyyətlər qazanmaq, habelə milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyil. Xarici ölkələrdə yaşayan soydaşlarımızla çoxşaxəli münasibətlər qurmaq, onları ideoloji-siyasi müstəvidə silahlandırmaq və ümummilli mənafelər naminə səfərbər etmək Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən birinə çevrilmişdir. Bu sahədə dövlət siyasətinin məqsədi də xaricdə yaşayan soydaşlarımızın milli özünəməxsusluğunu qorumaq və inkişaf etdirmək, Azərbaycanla əlaqələrini genişləndirmək, habelə digər hüquqlarını reallaşdırmaqdan ibarətdir.

Azərbaycan diasporunun təşkilatlanması prosesində ən mühüm, taleyüklü hadisə isə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi olmuşdur. Ümummilli lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı sərəncama əsasən keçirilmiş qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması, Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi baxımından yeni mərhələ açmışdır.

Qurultayda dərin məzmunlu nitq söyləyən ümummilli lider Heydər Əliyev dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, ana dilinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi haqqında fikirlərini açıqlamışdır. Eyni zamanda, Ermənistanın təcavüzkarlıq siyasətinin ifşası, bədnam erməni lobbisinə qarşı sistemli və ardıcıl əks-hücumun təşkili məsələlərini xüsusi diqqətə çəkmişdir.

"Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" - deyən ümummilli lider Heydər Əliyevin Dünya Azərbaycanlılarının I qurultayında söylədiyi fikirlər bu gün hər bir azərbaycanlının milli qürur hissinin ifadə formasına çevrilmişdir. Millətdə qürur, fəxarət hissi yaşadan, milli mənsubluğa görə qürur duymağın şərəfliliyini öyrədən dahilər isə dünyaya tək-tək gəlir. Ulu öndər Heydər Əliyev məhz belə dahilərdən olaraq xalqımızın tarixən tapındığı azərbaycançılıq ideologiyasının vacib sistem halına salınmasına, birləşdirici faktora çevrilməsinə də uğurla nail olmuşdur.

Ümummilli lider Heydər Əliyev bu sahədə sistemli dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə 2002-ci ildə "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə" fərman imzalamışdır. Komitənin yaradılması xaricdəki Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən koordinasiyasına, habelə onların dövlət qayğısı ilə əhatə olunmasına geniş imkanlar açmışdır. Komitə qısa müddətdə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası və Azərbaycan dövləti ətrafında birləşməsi istiqamətində xeyli iş görməyə müvəffəq olmuşdur.

2002-ci ildə Milli Məclisdə qəbul olunmuş "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu xaricdəki azərbaycanlılara dövlət qayğısının hüquqi əsaslarını müəyyənləşdirir. Sənədə əsasən, xaricdə yaşayan, fəaliyyət göstərən soydaşlarımızın hüquqları Azərbaycandövləti səviyyəsində qorunur. Habelə imkanlı azərbaycanlıların ölkə iqtisadiyyatına sərmayə qoyması üçün qanunda vergi, gömrük güzəştləri nəzərdə tutulur.

Qürur doğuran haldır ki, ulu öndərin layiqli siyasi davamçısı Azərbaycan Prezidenti İlham Əliyev də diaspor və lobbi quruculuğuna mühüm məsələlərdən biri kimi yanaşır. Ötən 6 ildə bu yöndə ardıcıl və sistemli tədbirlərin həyata keçirilməsini təmin edən Prezident müxtəlif ölkələrə səfərləri çərçivəsində soydaşlarımızla keçirdiyi görüşlərdə milli diaspor təşkilatlarının vahid, mütəşəkkil qüvvə kimi təşkilatlanması zərurətini önə çəkir. Dövlət başçısı müasir dövrdə bu sahəyə xüsusi diqqət ayırmadan xarici siyasətdə hansısa ciddi uğur qazanmağın qeyri-mümkünlüyünü çıxışlarında dəfələrlə vurğulamışdır.

Təsadüfi deyildir ki, cənab İlham Əliyev 2004, 2006 və 2008-ci illərdə diplomatlarımızla keçirdiyi görüşlərdə diaspor və lobbi quruculuğu işinin keyfiyyətcə yeni dövrün tələbləri səviyyəsində qurulmasını strateji hədəflərdən biri kimi müəyyənləşdirmişdir: "Xaricdə yaşayan azərbaycanlılar bu və digər məsələlərdə səfirliklərə öz köməyini göstərə bilərlər. Mən demək olar ki, səfər etdiyim əksər ölkələrdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşlər keçirmişəm. Biz, bir tərəfdən, onları qorumalıyıq, müdafiə etməliyik. Çalışmalıyıq ki, onlar yaşadıqları ölkələrin bütün təbəqələrində təmsil olunsunlar. Həm icra orqanlarında, həm qanunvericilik orqanlarında, həm də biznes sahəsində onların mövqeləri daha da güclənsin. Yəni, bu, bizim vəzifəmizdir. Eyni zamanda, onlar da öz doğma vətənlərinə xidmət etməli, kömək göstərməlidirlər. Ona görə də səfirliklər Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi ilə sıx əlaqədə olmalıdırlar və xaricdə yaşayan soydaşlarımızla işlər daha yüksək səviyyədə qurulmalıdır. Mən bilirəm ki, bu iş bir çox ölkədə gedir. Səfirliklər bu baxımdan işləyirlər. Mən bunu bilirəm. Amma, əlbəttə, istərdik ki, bunun böyük nəticəsi, səmərəsi olsun".

Hazırda dünyada elə diasporlar var ki, hələ öz dövləti yaranmamışdan xeyli qabaq formalaşmış, təşkilatlanmışdır. Onlar bu gün də fəaliyyət göstərdiyi ölkələrin ictimai-siyasi həyatına fəal təsir imkanlarına malikdirlər. Məsələn, bu gün İsrail dövləti məhz güclü yəhudi lobbisinin və diasporunun mütəşəkkil fəaliyyəti ilə dünya miqyasında öncül mövqe tutur. Beynəlxalq aləmdə məşhurlaşmış "Soxnut" yəhudi təşkilatının illik büdcəsi 600 milyon ABŞ dollarına yaxındır və bu qurum İsrailə külli miqdarda yardım edir. Azərbaycan Prezidenti diaspor quruculuğu sahəsində qabaqcıl dövlətlərin təcrübə və köməyindən istifadəni də zəruri sayır. Eyni zamanda, müxtəlif ölkələrdəki Azərbaycan icmalarının fəaliyyətinin gücləndirilməsini, çevikliyinin artırılmasını, bu təşkilatların vahid mərkəz ətrafında birləşdirilməsini strateji məqsədlərdən biri kimi önə çəkir.

Diaspor quruculuğu sahəsində həyata keçirilən ardıcıl işlər nəticəsində Amerika, Avropa, Asiya və Şimali Afrikanın ayrı-ayrı ölkələrində 100-dən çox yeni azərbaycanlı icması yaradılmış, bununla da, xaricdəki soydaşlarımızı birləşdirən qurumların sayı 400-ü ötmüşdür. Hazırda bir ölkə daxilində fəaliyyət göstərən ayrı-ayrı icma və qurumların tədricən vahid mərkəzdə birləşməsi prosesi başlanmışdır. Ukrayna (1997-ci il) və Rusiyanın (2000-ci il) ardınca, 2004-cü ilin mayında 18 icma və təşkilatı birləşdirən Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının təsis konfransı keçirilmiş, 2005-ci ilin aprelində isə Kanadada Azərbaycan Təşkilatları Federasiyası yaradılmışdır. 2004-cü ilin aprelində Avropa Azərbaycanlıları Konqresinin (AAK) təsis edilməsi isə soydaşlarımızın artıq qitə miqyasında təşkilatlanmağa başladıqlarını nümayiş etdirmişdir.

AAK-nın Nizamnaməsində regionda məskunlaşmış azərbaycanlıların milli-mədəni xüsusiyyətlərini qorumaq, insan hüquq və azadlıqlarının qorunmasının həyata keçirilməsi Konqresin əsas vəzifələri kimi təsbit edilmişdir. Ötən beş il ərzində AAK Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, soydaşlarımız arasında birliyin və həmrəyliyin təmin olunması, milli-mənəvi dəyərlərimizin qorunması, mədəni irsimizin təbliği ilə bağlı bir sıra layihələr həyata keçirə bilmişdir. Bu gün AAK-da təmsil olunan diaspor təşkilatlarının sayı 65-ə çatmış, qurumun dəstəyi ilə Avropanın bir çox ölkələrində yeni diaspor təşkilatları yaradılmışdır. AAK-nın yaradılması Avropa ölkələrində yaşayan azərbaycanlıların təşkilatlanması prosesini daha da sürətləndirmiş, diaspor təşkilatlarının fəaliyyətini keyfiyyətcə yeni müstəviyə çıxarmışdır. Azərbaycan həqiqətlərinin Avropa ictimaiyyətinə çatdırılması, soydaşlarımızın hüquq və azadlıqlarının müdafiəsi, cəmiyyətə inteqrasiyası, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, mədəni irsimizin təbliği sahəsində daha genişmiqyaslı işlərin aparılmasına imkan yaradılmışdır.

Cənab İlham Əliyevin 8 fevral 2006-cı il tarixli sərəncamı ilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II qurultayının keçirilməsi diaspor quruculuğu işinə yeni nəfəs verməklə, ötən 6 ilin ən əlamətdar hadisələrindən biri kimi yadda qalmışdır. Dünya Azərbaycanlılarının II qurultayının keçirilməsində məqsəd hesabat dövründə diaspor quruculuğu istiqamətində görülmüş işləri dəyərləndirmək, habelə xaricdə yaşayan soydaşlarımızın üzləşdiyi bəzi problemləri, yaşadıqları ölkələrin iç siyasətinə təsir imkanlarını öyrənmək, onların tarixi Vətənlə daha geniş əlaqələrinin qurulmasına xidmət edən tədbirlərin hazırlanmasını təmin etməkdən ibarət olmuşdur. 2006-cı il martın 16-da keçirilmiş qurultayda Azərbaycan diasporunun hazırkı vəziyyəti müzakirə edilmiş, bu sahədə çalışan təşkilatların fəaliyyətinin əlaqələndirilməsi işinin təkmilləşdirilməsi qərara alınmışdır. Həmçinin ölkə həqiqətlərinin, xalqımıza qarşı törədilmiş terror və soyqırımı aktları ilə əlaqədar çoxsaylı faktların dünya ictimaiyyətinə çatdırılmasının daha müasir metodlarının hazırlanması, digər xalqların diaspor təşkilatları ilə əlaqələrin gücləndirilməsi məsələləri xüsusilə önə çəkilmişdir.

Yüksək mütəşəkkillik və ruh yüksəkliyi ilə başa çatan qurultayın nəticəsi kimi Azərbaycan diasporunun fəaliyyət konsepsiyasının hazırlanması barədə qərarın qəbul edilməsi, dünya azərbaycanlılarına müraciətin, habelə Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı xüsusi bəyanatın, işğal olunmuş ərazilərdə tarixi abidələrimizin, mədəni irsimizin dağıdılması ilə bağlı beynəlxalq təşkilatlara müraciətlərin və digər sənədlərin qəbulu istər təbliğatı, istərsə də səmərəli əks-hücumun təşkili baxımından böyük əhəmiyyətə malikdir.

Hazırda Azərbaycan inkişafının elə yüksək mərhələsindədir ki, respublikamızın bütün həyati əhəmiyyətli sahələrdə qazandığı böyük uğurlar beynəlxalq səviyyədə geniş təbliğ olunmalıdır. Prezident İlham Əliyevin qurultaydakı proqram xarakterli, dərin məzmunlu nitqi də məhz diaspor quruculuğu sahəsində perspektiv fəaliyyət prioritetlərinin müəyyənləşdirilməsi baxımından son dərəcə maraq doğurur. Dövlət başçısı bütün sahələrdə yüksək dinamizmlə inkişaf edən Azərbaycanın beynəlxalq arenadakı nüfuz və mövqelərinin daha da gücləndirilməsini, respublikamız haqqında tam obyektiv, dolğun informasiyaların dünya ictimaiyyətinə çatdırılmasını milli diaspor təşkilatları qarşısında vacib məsələ kimi qaldırmışdır. Son illər Cənubi Qafqazda həyata keçirilən bütün qlobal enerji və kommunikasiya layihələrinin lokomotivi qismində çıxış edən Azərbaycan dünyada kifayət qədər tanınsa da, bu sahədə hələ çox iş görülməli, erməni lobbisinin, bütövlükdə isə antiazərbaycançı şəbəkənin respublikamıza qarşı apardığı əks-təbliğatın qarşısı daha müasir, səmərəli vasitələrlə alınmalıdır.

Dövlət başçısı İlham Əliyev Dünya Azərbaycanlılarının II qurultayındakı çıxışında respublikamız haqqında məlumat qıtlığının tamamilə aradan qaldırılması vacibliyini bəyan etmişdir: "Azərbaycanın addımları bütün sahələrdə, o cümlədən xarici siyasətdə müsbət nəticələrini verməkdədir... Əfsuslar olsun ki, Azərbaycan həqiqətləri dünya ictimaiyyəti tərəfindən o qədər də yaxşı dərk edilmir. Məlumat qıtlığı var, bəzi hallarda informasiya blokadası ilə də üzləşirik. Çünki bizim əleyhimizə dünyanın erməni lobbisi fəaliyyət göstərir və hər vəchlə çalışır ki, Azərbaycanı ləkələsin, Azərbaycanda gedən proseslərə mənfi don geyindirsin və beləliklə, Azərbaycanı təcrid edilmiş vəziyyətə salsın".

Prezident İlham Əliyev xarici ölkələrdə yaşayan hər bir azərbaycanlının maraq və mənafeyinin qorunmasını dövlətin başlıca vəzifəsi hesab edir. Rusiyada miqrantlara qarşı münasibətin kəskin dəyişməsi ilə əlaqədar olaraq 3 il öncə Moskvada ticarətlə məşğul olan azərbaycanlıların üzləşdiyi problemlərin aradan qaldırılması üçün xüsusi dövlət komissiyası yaradan, çevik tədbirlər həyata keçirən cənab İlham Əliyev milli diasporumuzun etibarlı hamisi olduğunu təsdiqləmişdir. Bu addımı ilə ölkə başçısı Azərbaycan dövlətinin heç bir vətəndaşının taleyinə biganə olmadığını, onlara daim sahib çıxacağını bildirmişdir. Cənab İlham Əliyevin diasporumuzun tanınmış nümayəndələrini mühüm dövlət mükafatları, fəxri adlarla təltif etməsi də onun qayğıkeş rəhbər olmasından irəli gəlir.

Dövlət başçısı İlham Əliyev diaspor quruculuğu baxımından ümumtürk birliyinin möhkəmləndirilməsi xəttini də xarici siyasətdə mühüm istiqamətlərdən biri kimi müəyyənləşdirərək, təkcə Türkiyə ilə deyil, Orta Asiyanın türkdilli dövlətləri ilə münasibətləri gücləndirmək xəttinə üstünlük verir. Prezident türkdilli xalqların oxşar milli irsinə, ülvi və pak dəyərlərinə, mental xüsusiyyətlərinə həm də ümumi müqaviməti və səfərbərliyi təmin edən güclü ideoloji-siyasi təsir vasitəsi kimi yanaşır. 2007-ci ilin mart ayında Bakıda Azərbaycan və türk diaspor təşkilatlarının I Forumunun keçirilməsi də iki qardaş və dost ölkənin xaricdəki diaspor təşkilatları qarşısında duran strateji vəzifələri müzakirə etmək, bu sahədə fəaliyyətin səmərəli koordinasiyasına nail olmaq məqsədi daşımışdır. Qurultayda Azərbaycan və Türkiyənin diaspor təşkilatlarının daha sıx əməkdaşlıq etməsini, bədnam erməni lobbisinə qarşı fəal mübarizə aparmasını nəzərdə tutan bir sıra razılaşmalar, bəyanatlar qəbul olunmuşdur.

2009-cu ilin oktyabrında Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyasının birinci sammitinin keçirilməsi ümumtürk birliyinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü strategiyanın uğurlu davamıdır. İlk dəfə 2006-cı ildə türkdilli ölkələrin dövlət başçılarının sammitində Prezident Nursultan Nazarbayev Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması ideyasını irəli sürmüşdür. Ortaq mədəni irsə, dinə, dilə malik olan dövlətləri bir araya gətirdiyi üçün assambleya böyük rol oynayır. Sammit iştirakçılarının ümumi fikri bundan ibarət olmuşdur ki, türkdilli dövlətlərin yerləşdikləri bölgələrin dünya siyasətində və iqtisadiyyatında artan rolu türkdilli xalqlar ailəsinin bütün üzvləri arasında sıx birliyi, əməkdaşlığı zəruri edir. Türkdilli Ölkələrin Parlament Assambleyası parlamentlərarası ünsiyyətin demokratik forumu kimi təşəkkül tapacaq, bölgələrin əmin-amanlıq və inkişaf ərazilərinə çevrilməsi məqsədi ilə müxtəlif təşəbbüslərin irəli sürülməsinə və həyata keçirilməsinə əlverişli şərait yaradacaqdır.

Türkdilli ölkələrin dövlət başçılarının oktyabrda Naxçıvanda keçirilmiş IX zirvə görüşü Türkiyə, Azərbaycan, Qazaxıstan və Türkmənistan arasında münasibətlərin keyfiyyətcə yeni mərhələdə intensiv inkişafı, ümumi səylərin vahid məqsədlər naminə səfərbər olunması baxımından mühüm nəticələrlə yadda qalmışdır. Faydalı müzakirələrlə yadda qalan zirvə toplantısında türk dövlətləri arasında hərtərəfli siyasi, iqtisadi və mədəni əlaqələrin yaradılmasının vacibliyini önə çəkmişlər. Eyni zamanda, türkdilli dövlət başçıları ildə iki dəfə - rəsmi və qeyri-rəsmi görüşmək barədə razılığa gəlmişlər.

Rəsmi imzalanmış Naxçıvan bəyannaməsinə görə isə yaxın perspektivdə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması nəzərdə tutulur Prezident İlham Əliyev zirvə toplantısındakı dərin məzmunlu çıxışında türkdilli dövlətlərin birliyini zəruri edən amilləri bir daha diqqətə çəkmişdir: "Biz bilirik ki, beynəlxalq müstəvidə öz mövqeyini müdafiə etmək bəzi hallarda o qədər də asan olmur. Biz birlikdə olsaq, müəyyən məsələlərdə vahid mövqedən çıxış etsək və bu birliyi mütəmadi işlərlə möhkəmləndirsək, bizim beynəlxalq mövqelərimiz daha da güclü olacaqdır. Çünki türkdilli ölkələrdə bütün imkanlar vardır - təbii sərvətlər, neft-qaz yataqları, əlverişli coğrafi vəziyyət, güclü iqtisadiyyatlar, insanların istedadı, mövcud olan yeni infrastruktur. Bütün bu imkanları biz əgər bir yerə toplasaq və bir yerdə cəmləşdirsək, türkdilli ölkələr dünya miqyasında böyük gücə çevriləcəkdir. Bu gücə çevrilmək üçün biz səmərəli işləməliyik. Bu, bizim əlimizdədir, bizim iradəmizdən asılıdır. Mən çox şadam ki, bizim aramızda olan birlik son illər ərzində daha da güclənir".

Müasir dövrdə diaspor quruculuğunun konkret zamanla məhdudlaşmayan, daim fəallıq və zəhmət tələb edən uzunmüddətli proses olduğunu xüsusi vurğulamağa ehtiyac yoxdur. Reallıq göstərir ki, xaricdəki Azərbaycan diasporunun imkanlarından geniş istifadə olunması, ölkə həyatının müxtəlif sahələrində meydana çıxan problemlərin həllində onun fəal iştirakının gerçəkləşdirilməsi yolunda hələ çox işlər görülməlidir. Prezident İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması deməyə əsas verir ki, yaxın illərdə Azərbaycan diasporu daha da güclənəcək, ölkənin taleyüklü problemlərinin həllində daha yaxından iştirak edəcəkdir.

Elşad Abdullayev, hüquq elmləri doktoru, professor
“Azərbaycan” – 2010 - 1 yanvar - N 1.-S.4.

Virtual dünya diaspor quruculuğu işinə rasional yanaşma tələb edir

Müsahibimiz Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Rasim Əliquliyevdir

- Rasim müəllim, xaricdə yaşayan soydaşlarımızın vahid informasiya məkanı ətrafında konsolidasiyası qloballaşma dövrünün diktə etdiyi zərurətdir. Bu istiqamətdə hansı addımlar atılmışdır?

- Qloballaşan dünyada dövlətlərin xarici siyasət və diplomatiya sahəsində qazandığı nailiyyətlər bir sıra meyarlarla yanaşı, həm də onun xaricdə formalaşdırdığı diasporun potensial imkanları ilə ölçülür. Azərbaycan dövləti də məhz bu reallıqdan çıxış edərək, müxtəlif səbəblərdən xarici dövlətlərdə yaşamağa məhkum olunmuş soydaşlarımızın Ana Vətənlə əlaqələrini genişləndirmək, onların milli-mənəvi birliyinə nail olmaq üçün ardıcıl və sistemli tədbirlər həyata keçirir. Son illər diaspor quruculuğu sahəsində gerçəkləşdirilən vahid dövlət siyasətinin prioritet məqsədi xaricdə yaşayan soydaşlarımızda milli özünüdərki gücləndirmək və onları milli mənafelər naminə səfərbər etməkdir.

Bəşəriyyətin mövcudluq tarixi göstərir ki, xalqların taleyində mühüm rol oynamış, davamlı milli inkişaf strategiyasının müəllifinə çevrilmiş böyük siyasi liderlər həm də birləşdirici keyfiyyətləri ilə əbədiyaşarlıq hüququ qazanmışlar. Bu gün hamı etiraf edir ki, məhz ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın istəyilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biridir. Xalqın təhtəlşüurunda bütöv, milli şəxsiyyət kimi təcəssüm olunan Heydər Əliyev dühası Azərbaycana ikinci rəhbərliyi dövründə vətəndaş sülhü və ümumxalq həmrəyliyinin möhkəmləndirilməsi xəttini davam etdirmiş, bu siyasi xətti özünün konkret addımları ilə kamil elmi-nəzəri konsepsiya səviyyəsinə qaldırmışdır. Ümummilli lider cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər görmüş, ümumxalq birliyinin politoloji-nəzəri əsaslarını irəli sürmüşdür. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam" - deyən ulu öndər yeritdiyi siyasətlə dünya azərbaycanlılarının siyasi-mənəvi liderinə çevrilmişdir.

2003-cü ildən ölkəmizə rəhbərlik edən Prezident İlham Əliyev ötən müddət ərzində Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımızın vahid ideologiya və milli mənəvi dəyərlər sistemi ətrafında birləşməsinə, onların malik olduğu böyük potensialın ümummilli problemlərinin həllinə yönəldilməsinə xidmət edən bir sıra tədbirlər həyata keçirmişdir. Respublikamızın hazırkı dinamik inkişaf mərhələsində dünya azərbaycanlılarının milli məqsədlərin reallaşdırılması ruhunda köklənməsi, qarşıda duran strateji hədəflərin dəqiq müəyyənləşdirilməsi zərurətə çevrilmişdir. Eləcə də, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, xaricdə yaşayan soydaşlarımızın birlik və həmrəyliyinin möhkəmləndirilməsi, mədəni irsimizin qorunması və təbliği, digər xalqların diasporları ilə hərtərəfli əlaqələrin inkişafı, türk dünyasının birliyi istiqamətində fəaliyyətin intensivləşməsi, virtual dünyanın sərhədsiz imkanlarından səmərəli istifadə edilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir.

- Virtual Azərbaycanın yaradılması istiqamətində həyata keçirilən tədbirlər haqqında məlumat verərdiniz?

- Virtual dünya XXI əsrin başlanğıcında real dünya ilə həmahəng formalaşan, İnternet vasitəsi ilə insanları bir-birinə bağlayan, onlar arasında heç bir məhdudiyyət olmadan sosial kommunikasiya mühiti yaradan, obrazlı desək, "dünyanı kiçildən" bir gerçəklikdir. Coğrafi məkan üzərində formalaşmış virtual məkan Yer kürəsinin yeni xəritəsini, siyasi-coğrafi arxitekturasını müəyyənləşdirir. Virtual dünyanın formalaşması vasitələri kimi isə ilk növbədə informasiya-kommunikasiya texnologiyaları çıxış edir.

Virtual məkan, virtual dünya reallıqları hələlik insanlar tərəfindən tam mənası ilə qavranılmasa da, irəlidə gözlənilən təzahürlər dərk olunmasa da, qarşısıalınmaz proses olaraq indiyədək coğrafi məkan anlamında yanaşdığımız vətən anlayışına yeni baxış formalaşdırır. İndiyə qədər vətən anlayışı konkret ərazi, məkan hüdudlarında (dövlət, mahal, bölgə və s.) dərk edilirdisə, XXI əsrin yeni reallıqları artıq "virtual vətən" anlayışını da meydana çıxarır. Başqa sözlə, cəmiyyətin müxtəlif sferaları qloballaşdığı kimi, vətən hissi də, qüruru da qloballaşır.

Zaman və məkana sığmayan virtual Vətən insanın duyğu orqanları ilə deyil, təfəkkürü, yüksək intellekti, düşüncəsi ilə dərk olunur. Bu kontekstdə vətən təkcə üzərində gəzdiyimiz, son mənzildə baş qoyduğumuz torpaq deyildir. Vətən, eyni zamanda, əsrlərdən bu yana folklorumuzu, adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi, dilimizi, dinimizi, tariximizi özündə əks etdirən informasiya məkanıdır. Xalqımızın milli informasiya məkanı min illərdən bu günə gəlib çatmış, zəngin, dəyərli informasiyalar əsasında formalaşmışdır. Tarixən müxtəlif xalqlar bir coğrafi məkandan digərinə köçüb məskunlaşmağa, yaşadıqları coğrafi ərazini bu və ya digər səbəblərdən tərk etməyə məcbur olmuşlar. Lakin bir müddətdən sonra məskunlaşdıqları məkanı vətən kimi qəbul etməyə başlamışlar.

Çünki həmin insanlar məskunlaşdıqları coğrafi məkana həm də milli mənəvi dəyərlərini, adət-ənənələrini, bir sözlə, bu xalqa məxsus informasiya məkanını da gətirmiş, qərinələr boyu formalaşmış informasiya mühitində özlərini vətəndəki kimi hiss etmişlər. Başqa sözlə, tamamilə özgə, yad olan coğrafi məkan da Ana Vətənin bir hissəsi olan informasiya mühitinin təsiri altında tədricən doğmalaşır, vətənə çevrilir.

Dünya azərbaycanlılarının həmrəyliyinin təmin olunması istiqamətində qarşıda duran ən mühüm vəzifələrdən biri milli informasiya məkanını qloballaşdırmaq, həmvətənlərimiz arasında ortaq informasiya mühitinə çevirmək, milli mənəvi dəyərlərin daşıyıcısı olan informasiya resurslarına çıxışı təmin etmək və bu sahədə mövcud olan problemləri həll etməkdir.

Beləliklə, XXI əsr inanılmaz elmi-texnoloji inkişafı ilə yeni bir Azərbaycanın yaranışına bünövrə qoyur. Bu, virtual məkanda formalaşan, konkret ərazi hüdudları və sərhədlərlə məhdudlaşmayan virtual Azərbaycandır. Qloballaşan dünyanın sərt reallıqları konkret ərazi, sərhəd, dil, din, milli mənəvi dəyərlər əsasında formalaşan Azərbaycan dövləti ilə yanaşı, "virtual Azərbaycan"ın da yaradılmasını son dərəcə aktual məsələyə çevirir. Virtual Azərbaycan elə Virtual Vətən deməkdir. Virtual məkanın hansı bir nöqtəsində Azərbaycan dəyərlərini, həqiqətlərini əks etdirən bir kontent-sərvət varsa, o da vətənin bir damlasıdır.

Yer kürəsinin müxtəlif guşələrinə səpələnmiş azərbaycanlılar virtual informasiya məkanı ilə ana vətəni, qohum-əqrəbası, yaxınları ilə əlaqə saxlamalı, adət-ənənələrini, dəyərlərini unutmamalı, onları qorumalı və inkişaf etdirməlidir. XXI əsrdə dünya azərbaycanlıları dedikdə, təkcə coğrafi deyil, həm də virtual Azərbaycanın "sakinləri" olan soydaşlarımız nəzərdə tutulmalıdır. Ana Vətəndən ayrı düşmüş azərbaycanlılar məhz müasir informasiya texnologiyalarının köməyi ilə "Virtual Vətən" formalaşdırmalıdırlar.

Müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların coğrafi vətənlə bağlılığının təmin edilməsi baxımından virtual Azərbaycanın yaradılması istiqamətində əməli tədbirlər həyata keçirməyin vaxtı çatmışdır. Nəzərə almaq lazımdır ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar təkcə coğrafi məkandan - Ana torpaqdan deyil, həm də milli informasiya məkanından kənar düşmüşlər. Qeyd etmək lazımdır ki, Virtual Vətən yaratmağa nail olmuş bir sıra xalqlar nəinki özlərini bu təhlükədən hifz etmiş, həm də təşkilatlanaraq, həmrəylik nümayiş etdirərək, dünya siyasətinə əhəmiyyətli dərəcədə nüfuz imkanları qazanmışlar. Bu baxımdan, hazırda qarşımızda duran ən başlıca vəzifə dünya azərbaycanlılarını məhz virtual məkan üzrə səfərbər etmək, milli mənəvi və ideoloji dəyərlər əsasında silahlandırmaqdır. Yalnız Virtual Azərbaycan vasitəsilə formalaşacaq milli informasiya mühiti xaricdəki soydaşlarımızın vahid məram və məqsədlər ətrafında konsolidasiyasına etibarlı zəmin formalaşdıra bilər.

Əslində, bunu XXI əsrin ideologiyası diktə edir. Bu barədə akademik Ramiz Mehdiyev "Azərbaycan 2003-2008: reallığa çevrilən qeyri-adi zaman" əsərində haqlı olaraq yazır ki, XXI əsrdə bəşəriyyəti ağuşuna almış qloballaşma dalğası, xüsusən də müstəqilliyini yenicə qazanmış dövlətlər qarşısında zamanla ayaqlaşmaq, onun tələblərinə uyğun siyasət yeritmək, müasir dünya siyasətinin reallıqlarını düzgün dəyərləndirmək kimi mühüm vəzifələr müəyyənləşdirmişdir. Eyni zamanda, amerikalı filosof T. Fridmanın bu fikrini də bölüşür ki, əgər ötən əsrdə böyük dövlətlər kiçikləri udurdularsa, XXI əsrdə "sürətli" dövlətlər "ləng", "astagəl" dövlətləri həzm edəcəklər.

Bununla filosof hazırda dünya nizamında yeni geosiyasi reallıqların meydana çıxdığına, çevik xarici və daxili siyasət yeridən kiçik dövlətlərin beynəlxalq münasibətlər sistemindəki mövqeyinin əsaslı dərəcədə möhkəmləndiyinə işarə edir. Yəni "virtual dünya"da hər bir dövlətin gücü və qüdrəti onun intellektual potensiala, informasiya texnologiyalarına nə dərəcədə yiyələnməsi, informasiya resursları vasitəsilə qloballaşan dünyaya təsir imkanları ilə müəyyən olunacaqdır. Biliklərə əsaslanan iqtisadiyyat quran, virtual informasiya məkanının reallıqlarına uyğun çevik siyasət yeridən dövlətlər qloballaşan dünyanın yeni siyasi simasının müəyyənləşməsində əsas söz sahibi kimi çıxış edəcəklər.

Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi siyasətin fövqündə məhz ölkənin virtual dünyada layiqli yerinin təmin edilməsi, informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı yolu ilə ölkədə insan kapitalının möhkəmləndirilməsi məqsədi dayanır. Dövlət başçısı çıxışlarında daim vurğulayır ki, ölkədə həyata keçirilən yeni neft strategiyasının, sosial-iqtisadi islahatların uğurları davamlı və tarazlı inkişaf baxımından zəruri olan zəngin intellektual resursların, insan kapitalının formalaşmasına xidmət etməlidir: "İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, onlarda uğurun əsas səbəbi neft-qaz deyil, bilikdir, savaddır, müasirlikdir. Bizdə isə həm bu olmalıdır, həm də əlbəttə ki, təbii ehtiyatlar da var. Bu amillərin sintezi Azərbaycanı çox qabaqcıl, müasir ölkəyə çevirəcəkdir".

- Dünya azərbaycanlılarının həmrəyliyi istiqamətində mövcud olan əsas problemlərdən biri də transliterasiya ilə bağlıdır. Elə son əsrdə ölkəmizdə 3 qrafikadan - ərəb, kiril və latın qrafikalarından istifadə olunması indiyə qədər dərc olunmuş informasiya resurslarının - kitab, jurnal və digər yazı materiallarının təşkil etdiyi milli informasiya məkanımızı da 3 hissəyə bölür.

Bunun da hansı problemlər yaratdığı hamıya məlumdur. İnformasiya texnologiya-larının imkanlarından istifadə etməklə bu problemi necə həll etmək olar?

- Bəli, xarici ölkələrdə yaşayan soydaşlarımız Azərbaycan dilində danışsalar da, obyektiv və subyektiv səbəblərdən müxtəlif əlifbalardan istifadə edirlər. Bunun da hansı problemlər yaratdığı hamıya məlumdur. Ona görə də bütün dünya azərbaycanlıları arasında qrafika problemini aradan qaldırmaqla ümumi informasiya mühitini yaratmaq üçün müxtəlif dillərin əlifbasında olan hərflərin qarşılıqlı çevrilməsini - konvertasiyasını həyata keçirən xüsusi proqram təminatı vasitələrinin hazırlanması aktual məsələlərdən biri kimi qarşımızda durur. Bunun da nəticəsində dünyanın istənilən ölkəsində yaşayan hər bir azərbaycanlı kompyuterin ekranında yerləşdirilmiş cədvəldə bir düyməni basmaqla istədiyi qrafikanı seçib lazımi məlumatı oxuyacaq, eyni zamanda, digər qrafikadan istifadə edən azərbaycanlılarla heç bir maneə olmadan elektron yazışmalar aparacaq.

Transliterasiya probleminin həll olunacağı halda, İnternetdə Azərbaycana məxsus tarixi, coğrafi, musiqi, folklor və s. incilərin adları da müəyyən bir standart əsasında başqa dillərin qrafikalarında yazılar, virtual məkanda axtarış vaxtı bu adlarla bağlı çoxçeşidli adlar meydana gəlməz.

- Virtual məkanda hər bir dövlətin gücü və qüdrəti həm də onun malik olduğu elektron informasiya resurslarının çəkisi ilə ölçülür. Azərbaycanda bu istiqamətdə aparılan işləri qənaətbəxş hesab etmək olarmı?

- Təsadüfi deyildir ki, hazırda dünyanın inkişaf etmiş bir sıra dövlətləri virtual məkanda özünü qabarıq göstərən "informasiya savaşı"nda qalib gəlmək üçün sistemli və ardıcıl iş aparırlar. Hazırda milyonlarla informasiya resursunu özündə birləşdirən, 2001-ci ildən fəaliyyətə başlayan Wikipedia adlı nəhəng "İnternet ensiklopediya"sında yaxşı təmsil olunmaq həmin dövlətlərin siyasətində mühüm yer tutur. Azərbaycan haqqında dolğun informasiyanın, məqalələrin, audio-video materialların Wikipediaya daxil edilməsi yeni dövrün tələbi kimi qarşımızda durur.

Unutmamalıyıq ki, Wikipediada hansı millət yaxşı təmsil olunursa, o, öz tarixini, mədəniyyətini, ədəbiyyatını, incəsənətini və s. daha yaxşı təbliğ edir, virtual dünyada özünü göstərən sərt rəqabətə tab gətirir. Şübhəsiz, bu prosesdə təkcə dövlət qurumları, ayrı-ayrı təşkilatlar və vətəndaşlar deyil, həm də dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimiz də yaxından iştirak etməlidirlər. Wikipediada ölkəmiz, tarixi həqiqətlərimiz, milli-mənəvi dəyərlərimiz haqqında təkcə Azərbaycan dilində yox, həmçinin dünya xalqlarının dillərində, xüsusən də, geniş yayılmış dillərdə çoxlu kontentlər yerləşdirilməlidir. Əlbəttə, digər saytların yaradılması, dünya azərbaycanlılarının müxtəlif qrupları arasında on-layn forumların (gənclər, alimlər, yazıçılar və s.) keçirilməsi də məqsədəuyğun olardı.

Fikrimizcə, dünya azərbaycanlılarının milli mənəvi sərvətlərə çıxışının daha da yaxşılaşdırılması baxımından İnternet-televiziyanın yaradılması da aktual layihələr sırasındadır. Belə ki, bu layihə çərçivəsində milli musiqi, kino, teatr və s. sənət incilərini özündə toplayan yeni televiziya texnologiyası heç bir məkan və zaman məhdudiyyəti olmadan Yer kürəsinin istənilən ölkələrdə yaşayan hər bir azərbaycanlının xidmətində olacaqdır.

- İnformasiya cəmiyyətinin zənginləşməsi, əhatə dairəsinin genişlənməsi istiqamətində hansı işlər görülür?

- İnformasiya cəmiyyətinin qurulması müstəqil Azərbaycan Respublikasının dövlət siyasətinin əsas istiqamətlərindəndir. Son illər bu sahədə həyata keçirilən ardıcıl, məqsədyönlü tədbirlər informasiya texnologiyalarının cəmiyyət həyatındakı rolunu xeyli artırmışdır. Belə bir fikir deyilir ki, informasiya demokratiyanın valyutasıdır. İnformasiya cəmiyyətinin yaranması qlobal prosesdir. Bu, elə inteqrasiyanın özüdür. Azərbaycan isə bu istiqamətdə kifayət qədər əhəmiyyətli işlər görüb. Bu gün Azərbaycan qlobal informasiya cəmiyyətinin qurulmasında ən öndə gedən ölkələrdən biridir. Ölkəmizdə uğurla formalaşan informasiya cəmiyyəti istiqamətində əldə olunan nailiyyətlər, həmçinin digər ölkələrdə İnternetin sürətlə inkişafı bu layihələrin həyata keçirilməsi üçün real zəmin yaradır. Heç şübhəsiz, Respublika Prezidenti cənab İlham Əliyevin qayğısı nəticəsində ölkəmizdə formalaşan elektron Azərbaycan da virtual Azərbaycanla tamamilə inteqrasiya olunaraq vahid bir orqanizmə çevriləcəkdir.

Müxtəlif səbəblərdən xarici ölkələrdə yaşayan soydaşlarımızla əlaqələrin genişləndirilməsini xarici siyasətdə prioritet istiqamətlərdən biri kimi nəzərdən keçirən dövlət başçısı İlham Əliyev ölkədəki sosial-iqtisadi inkişaf strategiyasının mahiyyətinə uyğun olaraq, xaricdə yaşayan həmvətənlərimizlə dövrlə səsləşən genişmiqyaslı tədbirlərin həyata keçirilməsini vacib sayır. Bu yöndə aparılan dövlət siyasətinin mahiyyəti dünya azərbaycanlılarının potensial imkanlarını müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həlli naminə səfərbər etmək, milli birliyə, həmrəyliyə və mütəşəkkilliyə nail olmaqdır. İnanırıq ki, dövlətin iqtisadi imkanları artdıqca, dünya azərbaycanlılarının "virtual Azərbaycan" ətrafında möhkəm birlik və həmrəyliyinin təmin edilməsinə xidmət edən bütün layihələr gerçəkləşəcək, yeni keyfiyyət mərhələsinə qədəm qoyacaqdır.

Şəmsiyyə Əliqızı
"İki sahil". -2010 - 6 yanvar -N.1.-S.10.

Diaspor - faciələrimiz, problemlərimiz və uğurlarımız

(Milli birlik haqqında düşüncələr)

"Bugün harada yaşamasından asılı olmayaraq, Azərbaycanı özlərinin tarixi vətəni sayan bütün insanlar ölkəmizin müstəqilliyini qoruyub saxlamaq naminə dövlətçilik ətrafında sıx birləşməli və sarsılmaz həmrəylik nümayiş etdirməlidirlər. Yalnız bu yolla biz Azərbaycanı dünyanın ən qüdrətli dövlətlərindən biri edə bilərik".

Heydər Əliyev.

Bəlkə də dünyada elə bir mühit, elə bir xalq yoxdur ki, azərbaycanlılar qədər zaman-zaman belə müsibətlər, məşəqqətlər, faciələr yaşasın. Yəqin ki, bu gün dünyada elə bir mühit də yoxdur ki. azərbaycanlılar kimi torpaqları tikə-tikə, parça-parça bölünsün və yadellilərin ayaqları altında tapdalansın. Bu millət artıq iki yüz ilə yaxındır ki, birləşmək həsrətilə, bütöv olmaq eşqiylə yaşayır, lakin bu ona heç cür nəsib ola bilmir. Üstəlik də torpaqlarımızın böyük bir hissəsi- İrəvan, Göycə, Dərələyəz, Zəngəzur, Qarabağ, başqa mahallar uzun illərdir ki, yağı düşmənlər tərəfindən işğala məruz qalsalar da hələ də həmin torpaqları qaytara bilmirik. Çünki aralarında milli birlik olmayan millətin tarixlər boyu torpağı həmişə yadellilər tərəfindən işğal və zəbt olunur. Aramızda birlik olmadığına görə dünyada özlərini sülh, bərabərlik, birlik, demokratiyanın tərəfdarları, carçıları adlandıran qüdrətli dövlətlər tərəfindən də millətimizin haqq səsi eşidilmir. Aramızda milli birlik olmadığına görə, zaman-zaman millətimizin haqqı tapdalanıb. Bir vaxtlar onu farslar və ruslar iki yerə bölüb. Şimalda yaşayan azərbaycanlılar rus, cənubda yaşayanlar fars adlandırılıb. Ən böyük faciə də odur ki, sayı artıq əlli milyonu keçən bu millətin öz ana dili əsrlər boyu dövlət dili sayılmayıb. Axı bu müsibətlər, faciələr bir millətin başına tarixlər boyu niyə gətirilməli idi? Və yenə də niyə gətirilir? Nədir bu millətin günahı? Üstəlik də bu millətin aparıcı liderlərinin zaman-zaman bir-birilə yola getməməsi, bu milləti xanlıqlara bölməsi, birinin sözünü o birinin eşitməməsi və bu pis adətin bu gün də davam etməsi faciə deyilmi?..

Bəlkə də torpağının altı da, üstü də qızıl, bol-bərəkətli olmasındandır ki, hələ çox-çox qədimlərdən yadellilər, fatehlər bu torpağı işğal etməyə can atıblar və çox vaxt da öz istəklərinə nail olublar. Bəlkə bu diyar şərqlə qərbin kəsişdiyi yerdə bir körpü olduğuna görədir ki, hələ eramızdan əvvəllər və sonralar fatehlər bu torpağı döyüş meydanına, vuruş mərkəzinə, faciələr çanağına çevirib millətimizi pərən-pərən salıblar? Və bu millət də öz canını, öz ailəsini qorumaq məqsədilə dünyanın hər yerinə səpələnib. Axı bu gün əlli milyondan artıq olan bu xalqın on bir milyonundan çoxu dünyanın ayrı-ayrı məmləkətlərində yaşayır və oranı özlərinə ikinci vətən seçiblər. Çox acınacaqlı haldır ki, həmin on bir milyonun da demək olar artıq yarısı assimilyasiya olmaqla öz dillərini, adət və ənənələrini də unudublar. Yəqin elə buna görədir ki, atalarımız yana-yana deyiblər: "Dilini unudan, anasını da tanımaz". Qəriblikdə yaşayan həmvətənlərimiz isə belə bir atalar sözü də yaradıblar: "Qərib quşun vətəni olmaz". Qəriblikdə dərdlərini dağıtmaq, ürəklərinin harayını Vətənə çatdırmaq üçün belə bayatılar da qoşublar.

Bu dağlar ulu dağlar,
Çeşməli, sulu dağlar.
Burda bir qərib ölmüş,
Göy kişnər, bulud ağlar.

Dağlar dağımdı mənim,
Qəm ortağımdı mənim.
Dindirsən qan ağlaram,
Qərib çağımdı mənim.

Əzizim yar ağlasın,
Tar, saz, kaman ağlasın.
Qərib eldə ölürəm,
Dərdimə el ağlasın.

Doğrudan da çox qəmli, niskilli atalar sözü, ağılar və bayatılardır.

Bu tarixi bir həqiqətdir ki, biz azərbaycanlılar heç vaxt istilaçı, qəsbkar olmamışıq və başqa millətlərin torpaqlarını işğal etməmişik. Amma öz torpaqlarımız zaman-zaman işğala məruz qalıb. Bax, budur tarixi haqsızlıq. Budur tarixin acı dərsi. Keçmiş tariximizə nəzər saldıqca azərbaycanlıların başına gətirilən faciələr aydın görünür və bu müsibətlər də bizi həmrəyliyə, birliyə səsləyir. Amma ən dəhşətlisi budur ki, bütün hunları hamımız bilsək də, o istəklə yaşasaq da birləşmək istəmirik. Axı niyə? Nədir bunun səbəbi? Niyə biz beləyik? Niyə birləşmirik? Buna mane olan, bunun qarşısını alan nədir?

Hələ eramızdan əvvəl və eramızın ilk əsrlərində farslarla yunanların müharibələri, Makedoniyalı İsgəndərin, Pompeyin Azərbaycana, Şərqə yürüşləri, Xilafətin Azərbaycana gəlişi, monqol - tatarlarının istilası, çar Rusiyasının torpağımızı işğal etməsi və onun iki yerə bölünməsinin səbəbkarlarından biri olması, bu tarixi haqsızlığa rəvac verməsi, 1920-ci ildə bolşeviklərin məmləkətimizə qırmızı imperiya toxumu səpməsi, Birinci və İkinci Dünya Müharibələrinin xalqımıza vurduğu zərbələr, XX əsrin ikinci yarısında İranda baş verən siyasi hadisələr, şah rejiminin devrilməsi və İslam rejiminin hakimiyyətə gəlməsi, sonra da Sovetlər Birliyinin süqutu, hələ çox qədimlərdən başlayaraq, yüzlərlə belə dəhşətli hadisələr Azərbaycan xalqından yan keçməyib və bu millətə görünməmiş müsibətlər gətirib. Bu qanlı tarixi hadisələr nəticəsində eramızdan əvvəl və eramızın ilk əsrlərində azərbaycanlılar Şərq ölkələrinə səpələnməyə məcbur olublar.

Xilafət ordularının yürüşlərində azəri sənətkarlarının və elm adamlarının, şairlərinin ərəb ölkələrinə, şəhərlərinə axını başlayıb. Monqol-tatarların yürüşü zamanı minlərlə azərbaycanlı ailələri zorla Orta Asiyaya, Əfqanıstana, Pakistana, Hindistana, Çinə aparılıb və orada məskunlaşdırılıb. Çar Rusiyasının işğalından sonra azərbaycanlı hərbçilər, tacirlər və başqa sənət adamları Rusiya şəhərlərində məskunlaşıb. Sovetlərin işğalından sonra Azərbaycan burjuaziyasının nümayəndələri, elm adamları, sənətkarları, ziyalıları Qərbi Avropada, Amerikada və Türkiyədə sığınacaq tapıblar. Sovetlərin, qırmızı imperiyanın millətimizə qarşı apardığı qanlı siyasət nəticəsində 1937-38-ci illərdə minlərlə düşünən beyinlərimiz güllələnib və Orta Asiyaya, Sibirə sürgün olunublar. İkinci Dünya Müharibəsi vaxtı əsir düşən həmvətənlərimiz də Stalinin qorxusundan müharibədən sonra geri dönməyib, Avropada, Türkiyədə, Amerikada məskunlaşıblar. SSRİ-nin süqutundan sonra isə yenə də millətin başına gətirilən müsibətlər nəticəsində minlərlə həmvətənlərimiz, Türkiyəyə, Avropaya, Amerikaya mühacirət ediblər. Eləcə də İranda baş verən tarixi hadisələr zamanı da milyondan artıq azərilər Amerikaya və Avropaya səpələniblər. Hələ bütün bunlar azmış kimi keçən əsrin əvvəllərindən başlayaraq, 1988-ci ilə kimi bir milyondan artıq azərbaycanlı da dədə-baba yurdu olan Ermənistandan qovulub və didərgin düşüblər. Bir vaxtlar əhalisinin səksən faizi azərbaycanlılar olan İrəvan şəhərində bu gün bir nəfər də millətimizin nümayəndəsi yaşamır.

Yeddi yüz mindən artıq azərbaycanlı isə erməni və rus siyasətinin, məkrinin nəticəsində Qarabağ kimi dilbər guşəmizdən qaçqın düşməyə məcbur olublar... Beləliklə, təkcə XX əsrdə artıq on bir milyondan çox azərbaycanlı dünyanın ayrı-ayrı ölkələrinə səpələniblər. Bu da tarixi faktdır ki, həmin azərbaycanlıların səkkiz milyondan çoxu vaxtilə Şimali Azərbaycanın vətəndaşı olublar. Axı bütün bunların, bu faciələrin hamısından dünyanın hegemon dövlətlərin rəhbərlərinin, beynəlxalq təşkilatların xəbəri var. Bəs niyə onlar bu haqsızlığa göz yumurlar? Niyə bizim haqqımızı, haqq sözümüzü, haqq fikrimizi müdafiə etmirlər? Deməli, onlar yalandan özlərini bizə dost kimi göstərirlər... Onlar bizimlə yalançı dostluq oyunu oynayırlar... Deməli, onlara bu torpağın var-dövləti, nefti, qazı lazımdır, millətinin taleyi, onun xoş gələcəyi yox. Bu gün təkcə Rusiyada üç milyondan artıq həmvətənlərimiz yaşayır. Amerikada bir milyon, İraqda Ьır milyon, Türkiyədə üç milyon və qalanları isə dünyanın ayrı-ayrı ölkələrində yaşayırlar. Hamısı birlikdə on bir milyondan artıqdır. Yuxarıda yazdığım kimi, əlli milyondan çox azərbaycanlı da artıq assimilyasiya olaraq, millətini, dilini, dinini, adını da dəyişib. Azərbaycanlıların ən çox yaşadığı qitə Asiyadır. Bu qitədə otuz altı milyondan artıq azərilər yaşayır və onların da otuz milyonu öz doğma vətənləri olan Cənubi Azərbaycandadır. Bu gün azərbaycanlılar hətta Avstraliyada, okean ölkələrdə və Afrikada da məskən salıblar. Bax, budur millətin başına gətirilən oyunlar, müsibətlər.

Başlarına gətirilən bütün bu müsibətlərdən, faciələrdən ruhdan düşməyən həmvətənlərimiz də çoxdur. Onlar yaşadıqları həmin ölkələrdə özlərinin diaspor təşkilatlarını yaratmaqla bir fikir, bir ideya ətrafında birləşirlər. Və bu gün çox sevindirici haldır ki, dünyada üç yüzdən artıq azərbaycanlıların inkişaf etmiş diaspor təşkilatları yar. Bu da bizə həyata nikbin baxmağa imkan verir ki, ilk diaspor təşkilatımızın yaranmasından cəmi altmış il vaxt keçdiyi bir müddətdə ictimai təşkilatlarımız belə çox artıb.

İlk diaspor təşkilatımızın həyata vəsiqə alması, yaranması Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məmməd Əmin Rəsulzadənin adı ilə bağlıdır. O, 1949-cu ildə Türkiyədə "Azərbaycan Kültür Dərnəyi" yaratmaqla bu işin əsasını qoyub. Yeddi il sonra isə Azərbaycan Xalq Cümhuriyyətinin başqa bir aparıcı nümayəndəsi və həmin vaxtlar Amerikada yaşayan Nağı Şeyxzamanlının oğlu Saleh Şeyxzamanlı ABŞ-da "Amerikanın Azərbaycan Cəmiyyəti" təşkilatını yaradıb. Beləliklə də, bu gün həmin estafetin davamı olaraq, yuxarıda yazdığımız kimi dünyada üç yüzdən artıq Azərbaycan icma və birlikləri fəaliyyət göstərir.

Bu gün Müstəqil Azərbaycan ölkəsinin rəhbərinin və əsas aparıcı liderlərinin vəzifəsi də bu olmalıdır ki, həmin təşkilatları vahid mərkəzdə birləşdirməyi qarşılarına əsas məqsəd kimi qoysunlar. Çünki bunu bizdən bu günkü zaman tələb edir. Necə ki, dünyanın çox ölkələri yüz ildən artıqdır ki, bu işləri görürlər. Elə bədnam qonşularımız ermənilər bir neçə əsrdir ki, bu sahədə çox ciddi işlər aparırlar. Onların pullu adamları bu Hətta ermənilərin, guya soyqırıma məruz qaldıqları ağ yalanı yolda öz sərmayələrini çox böyük həvəslə xərcləyirlər.

Bütün dünya xalqlarına sübut etməkçün milyardlarla dollarından keçirlər. Dünyanın çoxlu aparıcı informasiya vasitələrini pulla ələ alıb, bu işə yönəldirlər. Bu gün Türkiyədə bir qrup adamın qondarma erməni soyqırımını müdafiə etməsi, guya olmuş hadisəyə görə ermənilərdən üzr istəməsi elə buna bariz bir sübutdur. Görürsünüzmü, erməni siyasətçiləri hansı oyunlar qururlar? Türkdilli xalqları tarix boyu bir-birinin üstünə qaldırdığı kimi, bu gün də həmin oyundan necə ustalıqla istifadə edirlər? Amma türkdilli xalqlar hələ də bunu başa düşüb, birləşmək, bir olmaq, bir diaspora ətrafında birləşmək istəmirlər. Təsəvvür edin ki, əgər türkdilli xalqlar bir diaspora ətrafında birləşsələr görün dünyada necə qüvvətli və qüdrətli təşkilat ola bilər.

Dünyanın işinə baxın ki, erməni olmamış soyqırımı dünya millətlərinə sırıya bildiyi halda, biz Xocalı faciəsini, həqiqətən olmuş qanlı hadisəni, əsl soyqırımı, hələ də layiqincə dünya xalqlarına sübut edə bilmirik. Bu həqiqəti dünya xalqlarına lazımı səviyyədə çatdıra bilmirik. Onlara bu qanlı faciəni, genosidi inandıra bilməmişik. Dünyanın aparıcı beynəlxalq təşkilatlarını bu işin həllinə yönəldə bilməmişik. Bütün bunlar da ondan yaranır ki, biz hələ də kiçik, cılız hisslərlə yaşamaqla millətin bu çətin məqamında düşmənlərimizin bizi üzük qaşı kimi əhatəyə aldığı bir vaxtda birləşmək, bir ideyaya, bir fikrə gəlmək istəmirik. Nə iqtidar, nə də müxalifət qəlbində olan cılız kini, küdurəti, mənəm-mənəmliyi, hikkəni kənara atıb xalqın müqəddəs işləri, əsl həmrəyliyi yolunda birləşmək istəmirlər. Əslində, müharibə gedən ölkədə heç bir iqtidar və müxalifət olmamalıdır. Axı biz on beş il bundan qabaq atəşkəs elan etsək də, düşmənlərimiz olan ermənilər buna heç vaxt əməl etməyiblər. Hər gün neçə-neçə əsgər oğullarımız, dinc həmvətənimiz sərhəd bölgələrində düşmən gülləsinə tuş gəlir. Məgər bütün bunlar bizə dərs deyilmi? Bax bütün bunları hər gün görsək də biz birləşmək istəmirik.

Bütün bu xaoslarla, hərc-mərcliklə birlikdə sevindirici haldır ki, ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə keçən əsrin axırlarından başlayaraq, bu sahədə maraqlı işlər görülməyə başlanılıb. Belə ki, 1991-ci ilin dekabr ayının 16-da Naxçıvan Respublikasının Ali Məclisinin sədri Heydər Əliyev 31 dekabr Dünya Azərbaycanlılarının həmrəylik günü kimi qeyd olunması təşəbbüsü ilə çıxış edib və bu haqda Naxçıvan Ali Məclisində qərar qəbul olunub. Yenə də ümummilli liderimizin təşəbbüsü ilə 1997-ci ilin dekabr ayının 27-də Respublika Sarayında keçirilən toplantı da bu sahədə əsas addımlardan biri olub. Və onun həmin toplantıda dediyi bu sözlər bura toplaşan həmvətənlərimizi həqiqi mənada silkələyib: "Biz bu torpaqda yaşayan azərbaycanlılar, başqa ölkələrdə yaşayan soydaşlarımız haqqında həmişə düşünürük. Onlarla əlaqə yaratmaq istəyirik və həmişə onlara həmrəyliyimizi bildirməyə çalışırıq... Onu da bilin ki, bu günkü müstəqil Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının dayağıdır. Və bütün dünya azərbaycanlıları üçün örnəkdir. Azərbaycan xalqı, milləti yaşayıb, yaşayır və yaşayacaqdır!" Bu fikri ilə birlikdə, əbədiyaşar prezidentimiz, xalqımızın sevimlisi Heydər Əliyev həmişə dünya azərbaycanlılarının tarixi Vətənlə hərtərəfli münasibətlərini möhkəmləndirməyi, milli özünəməxsusluğu qorumağı, diasporlar arası əlaqələri genişləndirməyi, xaricdə yaşayan soydaşlarımızın hüquqlarının müdafiəsini çox vacib hesab edirdi.

2001-ci ilin noyabr ayının 9-10 tarixlərində Dünya Azərbaycanlılarının Bakıda keçirilən 1 Qurultayı böyük tarixi hadisə olmaqla, bütün həmvətənlərimizin vahid ideya- azərbaycançılıq ideyası ətrafında birləşməsi yolunda əhəmiyyətli bir addım oldu. 2002-ci ilin iyununda prezident Heydər Əliyevin fərmanı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması böyük tarixi hadisə olmaqla Azərbaycan diasporunun formalaşmasında və təşkilatlanmasında müstəsna əhəmiyyət kəsb etdi. Bu Komitə qısa bir vaxtda Dünya Azərbaycanlılarının həmrəyliyinə, soydaşlarımızın mənəvi birliyinin yaradılmasına mühüm təkan verdi. 2002-ci ilin dekabr ayının 27-də isə növbəti maraqlı bir addım atıldı. "Xaricdə Yaşayan Azərbaycanlılarla bağlı Dövlət Siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu Qanun da xaricdə yaşayan azərbaycanlılar arasında çox böyük perspektivlər açdı. Onların Azərbaycanın mənafeyi ətrafında sıx birləşməsinə yaxşı şərait yaratdı. Azərbaycanın həyatında ən böyük tarixi hadisə isə XXI yüzillikdə əbədiyaşar prezidentimiz, böyük siyasətçi Heydər Əliyevin ideyası, uzaqgörən siyasəti ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi oldu. Təsəvvür edin ki, məşhur türk fatehləri Çingiz xan, Əmir Teymur, İldırım Bəyazit, Şah İsmayıl, Sultan Səlim və başqaları türkdilli xalqları qılınc gücünə birləşdirmək istəsələr də, tarixlər boyu bu istəklərinə nail ola bilmədilər. Amma Heydər Əliyev neft və qaz kəmərləri, Bakı-Tiflis-Qars dəmir yolu xətti ilə həm iqtisadi, həm sənaye, həm mənəvi, həm mədəniyyət və həm də ədəbiyyat sahələrilə bütün türkdilli xalqları birləşdirdi. Beləliklə, onları bir ideya ətrafına cəlb etdi. Yəqin elə buna görədir ki, ulu öndər və əbədiyaşar prezidentimiz Heydər Əliyev sağlığında tez-tez bu atalar sözlərini işlədirdi: "Ağıl olan yerdə gücə heç bir hacət yoxdur ". Azərbaycan diasporunun həyatında ən mühüm hadisələrdən biri də 2004-cü ilin oktyabr ayında oldu. Bu da Azərbaycan və Rusiya prezidentlərinin iştirakı ilə Ümumrusiya Azərbaycan Konqresinin II Qurultayının keçirilməsi olmuşdur. Bu Qurultay da azərbaycanlıların Rusiyada sıx birləşməsinə, eyni fikrə gəlməsinə böyük təkan verdi. 2006-cı ilin mart ayının 16-da Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi böyük tarixi hadisə olmaqla sübut elədi ki, həmvətənlərimiz istəsələr tezliklə böyük birlik, həmrəylik yarada bilərlər. Elə həmin gün "Dünya azərbaycanlıları" 3 cildli kitabının birinci cildinin də çapdan çıxaraq, Qurultay iştirakçılarına paylanması tarixi hadisə oldu.

Çünki bu kitab diaspor aləmində ilk samballı toplu olmaqla, həm də ilk qaranquş idi. Və bu kitabdakı dörd fəsildə Rusiya və MDB məkanında yaşayan ən aparıcı həmvətənlərimiz, elm, ədəbiyyat, incəsənət xadimlərimiz, iş adamlarımız, Dövlət səviyyəli rəhbərlərimiz, məşhur sənətkarlarımız təmsil olunmuşdur. Bununla birlikdə isə həmvətənlərimiz fəslində Azərbaycanda doğulan və heç vaxt bu yerləri yaddan çıxarmayan, yaratdıqları, gördüyü işlərdə Azərbaycanı həmişə təbliğ edən, həm də bu gün MDB məkanında məşhur olan şəxslər də kitabda layiqincə təmsil olunub. Mən çox sevinirəm ki, həmin kitabın işıq üzü görməsində az da olsa xidmətim olub.

Keçən ilin dekabr ayının 18 və 19-da Bakı şəhərində keçirilən Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının iclası da böyük tarixi hadisə oldu. Belə ki, toplantıda yeddi yüz nəfərdən artıq həmvətənlərimizin, xarici qonaqların, bütün ölkələrdəki diaspor rəhbərlərinin iştirak etməsi maraqlı hadisə idi. Bu tədbirdə Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyasının layihəsi müzakirə olunaraq qəbul olundu. Bu sənədin də əsas məqsədi diasporun qarşısında duran vəzifələri müəyyənləşdirmək, Azərbaycan lobbiçiliyini qurmaq, xarici ölkələrdə yaşayan azərbaycanlıların sosial, mənəvi, iqtisadi fəaliyyətinə dəstək verməkdir.

Bütün bunlar diaspor işimizdə uğurlar kimi qiymətləndirilsə də, hələ görüləsi çox işlərimiz var.

Ağalar İdrisoğlu, **yazıçı-rejissor**
“Azad Azərbaycan”.-2009 - 30 dekabr - N.191.-S.

Qürbətdə vətən eşqi ilə döyünən ürək

Dünyada ən müdrik fəlsəfə millətlərarası dostluq fəlsəfəsidir. Biz bu fəlsəfənin real gücünü əsası 2001-ci ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və o vaxtadək Rusiyada pərakəndə dəstələr şəklində fəaliyyət göstərən bütün regional təşkilatları öz ətrafında birləşdirməklə, qısa bir zaman çərçivəsində çox güclü, nüfuzlu bir struktura çevrilmiş Ümumrusiya Azərbaycan Konqresinin timsalında daha aydın görürük.

Bu təşkilatın istər Rusiyada yaşayan azərbaycanlıların hüquqlarının müdafiəsi, onların qardaş ölkədə gedən ictimai siyasi proseslərə daha fəal cəlb edilməsi, istərsə də müstəqil ölkələrimiz arasındakı mehriban qonşuluq əlaqələrinin genişlənməsi və möhkəmlənməsi sahəsində böyük xidmətləri olub. Bu gün həmin təşkilat öz sıralarında minlərlə azərbaycanlını birləşdirir. Öz soy-kökünə, milli adət-ənənələrinə qırılmaz tellərlə bağlı olan, Azərbaycanımızın haqq səsini arasında yaşadığı xalqa çatdırmağı özünə mənəvi borc bilən nüfuz sahiblərindən biri də 1925-ci ildə Bakının Əmircan kəndində dünyaya göz açan, hazırda Moskvada yaşayıb-yaradan Əbdül Ənbiya oğlu Hüseynovdur.

İkinci cahan hərbi başlananda Əbdül də silaha sarılıb, dünyanı qan dəryasında boğmağa çalışan Hitler faşizminə qarşı ölüm-dirim savaşına atıldı. Baltik respublikalarının, Bolqarıstanın, Rumıniyanın, Macarıstanın düşmən tapdağından xilası naminə döyüşlərin iştirakçısı oldu. Moskvadan Berlinə qədər şərəfli döyüş yolu keçdi. Döyüş cəbhələrində göstərdiyi hünər və rəşadətə görə sinəsi orden və medallar sərgisinə döndü. Müharibədən sonra tale onu yenə dünyanın ən nəhəng elm və mədəniyyət mərkəzlərindən biri olan Moskvaya qaytardı. İmtahan verib, Lomonosov adına Moskva Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil oldu. Universiteti "əla" qiymətlərlə başa vuran Əbdül sonradan zəngin biliyinin və yüksək intellektinin köməyilə daha bir ali təhsil müəssisəsində - Türkmənistan Dövlət Universitetinin hüquq-tarix fakültəsində təhsilini uğurla başa vurdu.

Həmin vaxtdan etibarən onun qarşısında yeni yaradıcılıq üfüqləri açıldı. Uzun illər Moskva Dövlət Universitetində və Moskva Beynəlxalq Əlaqələr İnstitutunda pedaqoji fəaliyyətlə məşğul oldu. İran, Türkiyə, Monqolustan və digər ölkələrdə diplomat kimi fəaliyyət göstərdi. Müxtəlif vaxtlarda Türkmənistanda mədəniyyət nazirinin müavini, Moskvada Kino Birliyinin direktoru vəzifələrində çalışdı.

Əbdül Hüseynov dünyanın bir çox ölkələrində nümayiş etdirilmiş 7 bədii, xeyli sənədli filmin ssenari müəllifi, planetimizin müxtəlif mətbu orqanlarında rus, ingilis, yapon, türk, fransız, italyan, Çin və digər dillərdə dərc olunmuş bir çox elmi-publisist məqalələrin, 20-dən artıq tarixi roman və povestin yaradıcısı kimi də tanınıb. Bu görkəmli şərqşünas alim qürbətdə yaşasa da, daim Azərbaycanla nəfəs almış, belə bir ulu məmləkətin övladı olmaqdan qürur duymuşdur. Onun Şirvanşah I İbrahimin həyatından bəhs edən "Əkinçi taxtda", "Qan qardaşları", "Mustafa xanın xəzinəsi", xalqımızın görkəmli poeziya ustadı Xaqani Şirvaninin ağır, keşməkeşli həyatının salnaməsi olan "Şirvanlı səyyah", "Cənuba yürüş" və digər əsərləri maraqla oxunur. Özünün dediyi kimi, onu tarixi romanlar yazmağa ruhlandıran hər şeydən öncə yaddaşların o tayında qalıb unudulmuş tarixi gerçəklikləri diqqətlə araşdırıb üzə çıxarmaq, onları ən qiymətli töhfə kimi bugünkü və gələcək nəsillərə ərməğan etmək, həm də qədim, zəngin tariximizi Rusiya xalqlarına və digər millətlərə tanıtmaqdır.

Müəllifin ən qiymətli əsərlərindən biri də qüdrətli tarixçi-filosof, "Gülüstani-irəm" əsərinin müəllifi Abbasqulu ağa Bakıxanovun şərəfli ömür yolundan bəhs edən "Cənuba yürüş" romanıdır. Müəllif bu əsərində A. Bakıxanovun həyatı ilə əlaqədar nəinki xalqımıza, hətta ən görkəmli tarixçi alimlərimizin belə əksəriyyətinə məlum olmayan bir çox həqiqətləri üzə çıxarmağa nail olmuşdur. Yeri gəlmişkən onu da qeyd edək ki, Əbdül Hüseynovun anası da Bakıxanovlar nəslindəndir.

Çağdaş tariximizin elə bir səhifəsi olmayıb ki, görkəmli tarixçi alim onu öz beyin süzgəcindən keçirib rəyini bildirməsin. O, "Saqqalların zəmanəsi" və "Xocalı faciəsi" sənədli povestlərində insanlıq simasını itirmiş erməni qəsbkarlarının Xocalıda əliyalın, günahsız insanların başına gətirdikləri ağlasığmaz faciələri tutarlı faktlarla əks etdirmiş və həmin əsərləri əcnəbi dillərə tərcümə etdirərək dünyanın bir çox ölkələrində yaymışdır. Onun "Napoleonun şəxsi qvardiyasının zabiti" əsəri də oxucular tərəfindən böyük rəğbətlə qarşılanıb. Povest vaxtilə Avstriyada, İtaliyada və Afrikada misilsiz qəhrəmanlıqlar göstərmiş, əslən Qarabağdan olan azərbaycanlı zabit Rüstəm bəy haqqındadır.

Müəllif bu fakta məşhur rus akademiki Neçkinanın kitabında rast gəlib. Qəribədir ki, ermənilər onu da dünyaya öz milli qəhrəmanları kimi təqdim edirdilər. Akademik Neçkina isə onu "musilmanin iz Karabaxa Rustam bek" adlandırmışdır. Bu fakta istinad edən Əbdül Hüseynov müxtəlif arxivlərdə ciddi araşdırmalar aparmış və nəhayət, dünyanın ən böyük hökmdarlarından və sərkərdələrindən biri olan Napoleonun sədaqətli silahdaşı, xalqımızın qəhrəman oğlu Rüstəm bəy haqqında zəngin faktlarla dolu çox maraqlı bir əsər qoymuşdur ortaya. Həmin qiymətli əsər hazırda dünyanın bir çox kitabxanalarını zinətləndirməkdədir.

Əbdül Hüseynovun çoxillik zəhmətinin bəhrəsi olan "XX əsrin 100 görkəmli azərbaycanlısı" kitabı isə onun öz ana məmləkətinə və sevimli xalqına tükənməz məhəbbətinin bariz nümunəsi kimi dəyərləndirilməlidir. Öz fədakar zəhmətlərilə Azərbaycanımızı Yer kürəsində tanıdıb şöhrətləndirmiş insanları - görkəmli ictimai-siyasi xadimlərimizi, elm və mədəniyyət korifeylərimizi, digər sahələrdə nailiyyətlər qazanmış soydaşlarımızı dünya xalqlarına tanıtmağı qarşısına məqsəd qoymuş müəllif rus və Azərbaycan dillərində 10 min tirajla nəşr etdirdiyi həmin publisist məqalələr toplumunu ingilis, ərəb və türk dillərində də çap etdirmiş, Moskvada, Nyu-Yorkda, Tokioda və İstanbulda təqdimat mərasimlərini keçirmişdir.

Ümumrusiya Azərbaycan Konqresinin dövlət əhəmiyyətli elə bir tədbiri yoxdur ki, Əbdül Hüseynovun səsi oradan gəlməsin. O, həm də Rusiyada yaşayan azərbaycanlıların Milli Mədəni Muxtariyyətinin Federal Şurasının ən fəal üzvlərindən biridir. Əbdül Hüseynov deyir ki, Rusiya və Azərbaycan xalqları yüzilliklər boyu ümumi tarixi bir tale yaşayıblar. İstər Rusiyada, istərsə də Azərbaycanda hər bir milli qurum öz ana dilində təhsil almaq, mədəniyyətini, adət və ənənələrini, həyat tərzlərini davam etdirmək imkanlarına malikdirlər. Vətəndən uzaqlarda yaşasaq belə, əsas məqsədimiz millətimizə xas olan milli-mənəvi keyfiyyətləri qoruyub saxlamaqdır. Çünki bizim bir vətənimiz, bir xalqımız və eyni tarixi köklərimiz var. Bizi qürbət ellərdə yaşadan, bizə həyat cövhəri, yaşam həvəsi verən də məhz vətənimizə, xalqımıza, milli kökümüzə qırılmaz tellərlə bağlılığımızdır.

Zeynal Vəfa
“Azərbaycan” – 2010 -7 yanvar -N 3.-S.5.

DAK-lara birləşmək təklif olunur

Paşa Qəlbinur: "Birləşməyə hazırıq, ancaq müəyyən razılaşmalar olmalıdır"
Sabir Rüstəmxanlı: "Bizdən sonra eyniadlı qurum yaradırlar, indi də birlikdən danışırlar"

İzmirdəki Azərbaycan Kültür Mərkəzinin başqanı Camal Mehmetxanoğlu və Azərbaycan-Belçika Dostluq Cəmiyyəti başqanı Ayxan Dəmirçi Dünya Azərbaycanlıları Konqresi adı altında fəaliyyət göstərən təşkilatları birləşməyə çağırıb.

Bu haqda onların yaydığı müraciətdə deyilir.

"Dəyərli dostlar, diaspora, ikiyə bölünmüş DAK-ın rəhbərləri və üzvləri, Azərbaycanın xaricdəki təşkilatlarının sədrləri, qısası dünyanın harasında olmasından asılı olmayaraq, güneyli - quzeyli azərbaycanlı, türkiyəli - türk qardaşlarımız, birliyə və bərabərliyə çox ehtiyacımız olduğu bu günlərdə xalqımızın ümid etdiyi təşkilatlarımız təəssüflər olsun ki, bölünmüş, parçalanmış durumdadır", - deyə bildirilən müraciətdə eyni amal uğrunda mübarizə aparan DAK fəallarının heç bir ciddi səbəb olmadan iki təşkilata bölünmüş vəziyyətdə olduqları qeyd edilir. Müraciət müəllifləri "bölünüb parçalandıqca, azalırıq" deyərək, gücün birlikdə olduğunu vurğulayıblar.

Kültür başqanları 21 Azər hərəkatı ilə bağlı Hollandiyanın Amsterdam şəhərində ötən ilin dekabrında keçirilən toplantıya işarə edərək, "bu yığıncaqda indiyə qədər DAK-a sədrlik etmiş, idarə heyətlərinin üzvü olmuş insanların bir yerdə olması tədbirə əlavə güc verdi" fikriylə hər iki tərəfi bir növ birləşməyə razı salmaq da istəyirlər (APA). Müəlliflər diaspor təşkilatlarının birliyə doğru addımı kimi DAK-ların birləşməsi təklifini irəli sürürlər.

İkinci DAK-ın həmsədri Paşa Qəlbinur edilən müraciəti müsbət qarşıladığını bildirdi. Onun "Ekspress"ə bildirdiyinə görə, həm adi vətəndaş, həm də təşkilatın sədri kimi eyni məqsədə qulluq edən təşkilatlar gec, ya da tez birləşir. "Ayrı-ayrılıqda da fəaliyyət göstərmək olar. Ancaq birləşdiyimiz zaman güclü oluruq. İşimizin effekti də daha çox olur. Birləşməyə hazırıq, ancaq müəyyən razılaşmalar olmalıdır", - deyən Qəlbinur bu razılaşmaların təşkilatın üzvlərinə yönəlik olduğunu söylədi. Həmsöhbətimizə görə, təşkilatın üzvlərindən sorulmalıdır ki, onlardan neçəsi birləşməni dəstəkləyir, neçəsi dəstəkləmir. Hər iki tərəfin də arqumentləri dinlənilməlidir. Bununla belə ikiyə bölünmüş DAK-lardan birinə rəhbərlik edən P. Qəlbinur müraciət olunarsa, eyni masa arxasında oturmağa hazır olduqlarını da vurğuladı.

Birinci DAK-ın həmsədri Sabir Rüstəmxanlı ayrı-ayrı təşkilatların bu yöndə fəaliyyətində heç bir problem görmədiyini vurğuladı: "Biz 50 milyonluq xalqıq. Azərbaycanla bağlı müxtəlif qurumlar, QHT-lər fəaliyyət göstərə bilər. Əsas odur ki, iş getsin. Biz hazırda yeganə təşkilatıq ki, bu yöndə fəaliyyət göstəririk. Müəyyən addımlar da atmışıq. İmkan olsa, birlik də yaratmaq olar".

Birləşməklə bağlı S. Rüstəmxanlıya P. Qəlbinurun fikirlərini çatdıranda, o, bir qədər incikliklə "niyə bizim konqresimizdən 2 həftə keçdikdən sonra gedib eyniadlı təşkilat yaratdılar? İndi də birləşməkdən danışırlar", dedi. Ancaq yenə də DAK sədri birləşmək fikrinə müsbət yanaşdığını bildirdi.

Aytən Fərhadova
“Ekspress”. -2010 - 8 yanvar - N.3.-S.4.

“Norveçdə Azərbaycanı tanıyırlar və sevirlər”

Ramil Əliyev: ”Norveçliləri Azərbaycanda daha çox “Yanar dağ” və “Qobustan” maraqlandırır”

Azərbaycanlı gənclər müxtəlif xarici ölkələrdə müəyyən mövqe tutub və Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün bir sıra layihələrlə çıxış edirlər. Eyni zamanda gənclərlə bağlı olan diaspor təşkilatları ölkəmizin milli mənəvi dəyərlərini, tarixini, mədəniyyətini, dilini və müasir həyatını əcnəbilərə çatdırmaq üçün bir sıra məqsədyönlü işlər həyata keçirirlər. Qeyd etdiyimiz meyarları fəaliyyətində əsas götürən belə təşkilatlardan biri də Norveç Azərbaycanlıları Gənclər Təşkilatıdır(NAGT). Biz də bu qurumun fəaliyyəti ilə daha yaxından tanış olmaq üçün, ötən il Norveçdə ilin ən aktiv və akademik gənci seçilmiş, NAGT-nın sədri Ramil Əliyevlə həmsöhbət olduq. O bizimlə söhbətə rəhbəri olduğu təşkilatın fəaliyyəti haqqında danışmaqla başladı.

- Rəhbəri olduğum Norveç Azərbaycanlıları Gənclər Təşkilatı 2006-cı ildən yaradılıb. Təşkilatımızda aktiv kütlə, yəni həm norveçli və həm də azərbaycanlı gənclər təmsil olunur. Onu da qeyd edim ki, təşkilatımızın başqa diaspor təşkilatlarından fərqi ondadır ki, biz Azərbaycanı xaricdə akademik səviyyədə təmsil edirik. Təşkilatımız tərəfindən bir sıra maraqlı layihələr həyata keçirilib. Belə ki, Oslo Universitetində “Azərbaycanın Cənubi Qafqazdakı geosiyasi rolu”, “Qafqaz müharibədən sonra” mövzusunda seminarlar keçirmişik. Bu seminarlardan sonra bir qrup norveçli tələbələrdə Azərbaycana çox böyük maraq yaranıb. Həmin tələbələr bizimlə əlaqə yaradıb və Azərbaycana gəlmək istədiklərini bildiriblər. Beləliklə təşkilatımızın təşəbbüsü ilə Azərbaycana bir qrup norveçli gəncin gəlməsinə nail olduq. Onlar ölkəmizə gəldikdə maraqlı məlumatlarla və xoş təəssüratlarla Norveçə dönüblər. Artıq bu cür layihələr səbəb olub ki, biz orda Azərbaycanın dostları olan kiçik bir cəmiyyət formalaşdırmışıq. Bundan başqa biz daha maraqlı bir mədəniyyət layihəsiylə də çıxış etmişik. Bu layihə Azərbaycandan gələn müğənnilərin sayına görə, ifaçıların janr müxtəlifliyinə görə, həm də auditoriyada olan insanların say çoxluğuna görə fərqli və maraqlı bir layihə olub. Eyni zamanda bu layihənin özəlliyi ondan ibarət idi ki, biz sözügedən layihə çərçivəsində Norveçdə olan Azərbaycan təşkilatları ilə əməkdaşlıq etdik və həmrəy olduq.

- “Virtual Həftə Sonu” məktəb layihəsinin dünya azərbaycanlıları üçün əhəmiyyətini necə dəyərləndirirsiniz?

Bilirsiniz, bu çox vacib bir layihədir, ona görə ki, Norveçdə yaşayan azərbaycanlıların Azərbaycan dilində akademik təhsil almaq imkanları yoxdur. Ailədə isə onlar, ancaq Azərbaycan dilində ünsiyyəti öyrənirlər. Bu baxımdan da xaricdə yaşayan azərbaycanlılar əsasən də Cənubi azərbaycanlılar və gənc nəslin nümayəndələri olan azərbaycanlıların Azərbaycan dilini akademik səviyyədə bilməsi çox vacibdir. Bilirsiniz xaricdə yaşayan azərbaycanlıların əksəriyyəti ana dilində yazıb oxuya bilmirlər, ancaq danışa bilirlər. Bu bizim əsas problemimizdir. Hazırda dünyada internet şəbəkəsi çox yaxşı inkişaf edib və hər kəsin evində də kompüter var. Onun üçün də “ Virtual Həftə Sonu” məktəb layihəsinin yaranması çox önəmlidir.

Bir maraqlı faktı da qeyd edim ki, mən Azərbaycana gəlməmişdən əvvəl Norveçdə olan başqa azərbaycanlı təşkilatlarla görüşüm olub ki, onlarla birgə Azərbaycan dili məktəbləri yəni, dərnəklər yaradaq. Və bu dil kurslarında Norveçdə təhsil alan azərbaycanlı tələbələr orda yaşayan azərbaycanlılara dil öyrətsinlər. Əminəm ki, yaxın gələcəkdə bu layihəmizdə gerçəkləşəcək.

- Təşkilatınızın saytı varmı?

- Əvvəla onu qeyd edim ki, təşkilatımız 2009-cu ildə Norveçin Gənclər Konsuluna üzv seçilib. Xatırladım ki, sözügedən təşkilat “çətir” altında Norveçdə aktiv olan 70-dən çox təşkilatı birləşdirir. Çox sevindirici haldır ki, bizdə belə bir təşkilata üzv olduq. Bura qəbul olunmağın əsas şərtlərindən biri odur ki, təşkilat demokratik və aktiv olmalıdır. Bu göstəricilər təşkilatımızda olduğu üçün bizi üzv kimi qəbul etdilər. Bundan sonra ANGT haqqında müəyyən məlumatlar virtual olaraq yayımlandı.

Amma buna baxmayaraq təşkilatımız haqqında ətrafda daha dolğun məlumatın olması üçün biz internet səhifəmizi(www.nayo.no) yaratdıq. Hazırda internet səhifəmiz üzərində işləyirik və formatını dəyişmək istəyirik. Bu səhifəni yaratmaqda əsas məqsədimiz o oldu ki, Norveçdə Azərbaycan haqqında elmi tədqiqat aparan, elmi iş yazan şəxslər bizim internet səhifəmizdən ölkəmiz haqqında dolğun və dəqiq informasiya ala bilsinlər.

- Təşkilatınızın neçə nəfər üzvü var?

- Təşkilatımızın üzvlərinə gəldikdə qeyd edim ki, 2009-cu ilə qədər marağımızda deyildi ki, üzvlərimiz arasında sənədləşmə aparaq. Çünki, biz buna ehtiyac hiss etmirdik. Ona görə ki, biz seminarlar, konsertlər və s. bir sıra başqa maraqlı layihələr həyata keçirmişik. Bu tədbirlərdə 340-600 nəfər arasında iştirakçı olub. Yəni biz həmişə kiçik, ancaq insanların marağına səbəb olan müxtəlif layihələr keçirdiyimizə görə, ola bilsin ki, üzvlərimiz zövqlərindən asılı olaraq bütün tədbirlərə eyni sayda gələ bilməyiblər.

Hər kəs öz zövqünə və istəyinə uyğun tədbirə gəlir və iştirak edir. Amma biz Norveçin Gənclər Konsulluğuna üzv olduğumuz üçün, onlar bir növ üzərimizə öhdəlik qoydular ki, biz üzvlərimizin sayını sənədləşdirməliyik. Bundan irəli gələrək 2009-cu ilin aprel ayından bu sənədləşmə işini apardıq. Bu gün təşkilatımızın təxminən 150-160 yaxın üzvü var. Qeyd edim ki, bunlar yalnız 26 yaşından aşağı olan gənclərdir.

Onu da qeyd edim ki, təşkilatımızın adında olan gənclər sözü sizi çaşdırmasın. Biz orda həqiqətən Azərbaycanla bağlı böyük siyasi, ictimai layihələr həyata keçiririk. Məlumat üçün qeyd edim ki, 2007-ci ildə Norveçin Menicment İnstitutunda "Azərbaycanın yüksələn iqtisadi investisiya imkanları" mövzusunda biznes forum keçirmişik. Forumda Norveçin böyük firmaları, banklar və başqa bir sıra nüfuzlu təşkilatlar iştirak ediblər. Bundan əlavə Norveçin Xarici İşlər İnstitutunda Azərbaycanın Cənubi Qafqaz geopolitikasında rolu" mövzusunda seminar keçirmişik. Bu tədbirdə Norveçdə olan xarici ölkə səfirləri və parlament üzvləri iştirak ediblər.

- Siz hesab edirsiniz ki, artıq diaspor təşkilatları təşkilatlanma işini bitirib praktik fəaliyyətə başlayıblar?

- Mən ancaq Norveç haqda danışa bilərəm. Bilirsiniz təşkilatların formatları başqadır. Məsələn, bizim təşkilat qeyd etdiyim kimi Azərbaycanın müsbət imicini akademik səviyyədə xaricdə təmsil edir. Biz təşkilatlanma mərhələsinə təşkilatımız yaranandan yəni, 2006-cı ildən başlamışıq. Artıq bu mərhələ arxada qalıb. Eyni zamanda Norveçdə olan başqa təşkilatlarla əlaqə saxlayırıq və əməkdaşlıq da edirik. Diaspor Komitəsinin keçirdiyi layihələr çərçivəsində Azərbaycana tez-tez dəvət olunuram.

Bu zaman çox gözəl imkanlar yaranır ki, başqa ölkələrdə yaşayan azərbaycanlı təşkilatlarla ünsiyyət quraq və tanış olaq. Ötən ilin yayında Norveçdə konsert təşkil etdiyimiz zaman İsveç və Danimarkadan olan Azərbaycan təşkilatları da bizə qatılmışdı. Orda olan azərbaycanlılar konsertə gəlmişdilər. Gələcək layihələrimizin birində Norveçə Estoniyada fəaliyyət göstərən istedadlı sənətkar Rauf Avşarovun rəhbəri olduğu Kukla Teatrını dəvət edəcəyik. Eyni zamanda orda azərbaycanlıların radiosu var və həftədə iki dəfə efirə çıxır.

- Ümumilikdə xarici ölkələrdə Azərbaycanla bağlı kitablar azdır. Bəs, Norveçdə bu istiqamətdə vəziyyət necədir?

- Bəli, məndə sizinlə razıyam ki, bu gün Azərbaycanla bağlı xarici ölkə kitabxanalarında kitablar azlıq təşkil edir. Çox istərdim ki, ölkəmiz haqqında Avropa düşüncəsinə uyğun olan elmi və tarixi kitablar yazılsın. Bizdə onları imkanımız daxilində çalışdığımız xarici ölkələrdə kitabxanalar və insanlar arasında yayaq.

- Bəs siz Azərbaycan haqda materialları haradan əldə edirsiniz?

- Əvvəla onu deyim ki, artıq təşkilatımızda belə bir ənənə formalaşıb ki, keçirdiyimiz sərgilərdə, tədbirlərdə Azərbaycanla bağlı kitab, jurnallar, broşurlar tədbirə gələn norveçlilərə və əcnəbilərə hədiyyə edirik. Bizə əsasən dediyim istiqamətdə materiallar, kitablar Heydər Əliyev Fondu və Diaspor Komitəsi tərəfindən verilir, eyni zamanda Norveçə gələn azərbaycanlı elm adamları ilə görüşəndə hədiyyə edirlər.

- Bu gün Norveçdə nə qədər azərbaycanlı gənc var və onların əsas problemi nədir?

- Gənclər haqqında konkret say söyləməkdə çətinlik çəkirəm. Biz Norveçdə Azərbaycan Gənclər Təşkilatı adı altında fəaliyyət göstərsək də üzərimizdə elə bir iddia yoxdur ki, Norveçdə olan bütün azərbaycanlı gəncləri təmsil etməliyik. Biz konkret məqsədləri olan bir təşkilatıq. Yəni qeyri siyasi, qeyri dini və qeyri kommersiya təşkilatıyıq. Təşkilat olaraq, ancaq yüksək səviyyədə inandığımız layihələri həyata keçiririk. Amma sırf mənim marağım diaspor və lobbi yanaşması, eyni zamanda Norveç və Azərbaycan xalqları arasında dostluq əlaqələrini inkişaf etdirməkdir.

Gənclərin probleminə gəldikdə, düzdür mən buna problem deməzdim, bir arzu və istək kimi, biz gənclər istərdik ki, Norveçdə Azərbaycan Evi olsun. Çox istərdim ki, orda Azərbaycan məktəbi olsun. Bu dediyim fikirləri gerçəkləşdirmək təşkilatımızın gələcək layihələrinə daxildir.

- Diaspor Komitəsi ilə əlaqələriniz necədir?

- Komitə ilə əlaqələrimiz yaxşıdır. Komitə metodiki cəhətdən bizi istiqamətləndirməkdə yardımçı olur. Eyni zamanda bir sıra layihələrdə iştirakımıza imkan yaradır.

- Norveçdə Azərbaycanla bağlı olan əlamətdar günləri necə keçirirsiniz?

- Biz milli bayramlarımızı, xalqımızın yaddaşına yazılmış tarixi faciələri hər il orda olan azəri diaspor təşkilatları ilə həmrəy olaraq yüksək səviyyədə həyata keçiririk. Tədbirlər də azərbaycanlılarla yanaşı norveçlilər və digər əcnəbilərdə iştirak edirlər. Bu il Norveçdə Novruzu təntənəli şəkildə keçirməyi planlaşdırırıq.

- Norveçliləri Azərbaycanla bağlı daha çox nə maraqlandırır?

- Yeni müstəqillik qazanmış dövlət kimi ümumilikdə Azərbaycan Norveç cəmiyyəti üçün yenidir və maraqlıdır. Eyni zamanda Azərbaycanda Norveçin böyük iqtisadi maraqları var. Hazırda bir sıra Norveç şirkətləri Azərbaycanda çalışır. Bu səbəbdən də Azərbaycanda cərəyan edən bir sıra siyasi ictimai hadisələr Norveç mətbuatında işıqlandırılır. Elə bu da səbəb olur ki, norveçli tələbələr Azərbaycana gəlmək istəyirlər. Biz də imkan yaradırıq ki, qeyri-azərbaycanlılar ölkəmizə gəlsinlər Azərbaycan haqqında ətraflı öyrənsinlər.

Məsələn bizim təşkilatın təşəbbüsü ilə polşalı fotoqraf xanım və bir norveçli jurnalist Azərbaycana gəlmişdi. Fotoqraf Azərbaycan haqqında maraqlı sərgi təşkil etmiş, jurnalist xanım məqalələrini Norveç mətbuatında dərc etmişdi. Bu cür layihələr səbəb olur ki, Norveçdə Azərbaycanı tanıyırlar və sevirlər. Norveçlilərin ölkəmizdə daha çox sevdiyi tarixi məkanlar "Yanar dağ" və "Qobustan" Tarixi-Memarlıq qoruğudur.

- Bakı haqqında təəssüratlarınız.

- Ümumiyyətlə xaricdə yaşayan azərbaycanlıların qürur mənbəyi Azərbaycandır. Ölkəmizin bütün regionlarında olan nailiyyət bütövlükdə Azərbaycanın nailiyyətidir. Xaricdə yaşayan azərbaycanlı kimi mən Vətənimə-Azərbaycana gəldikdə və burda hər hansı yeniliyi gördükdə qürur hissi keçirirəm. Eyni zamanda bizimlə bura gələn əcnəbilərdə yenilikləri maraqla qarşılayır. Azərbaycanın həqiqətən mədəni və sivil bir ölkə olduğunu görürlər. Bu cür təəssüratın onlarda yaranması ölkəmizin ürək açan nailiyyətindən xəbər verir.

Günay
"Paritet". -2010 – 9 - 11 yanvar - N.1.-S.7.

Vidadi Salahov: "Azərbaycanlılar Qazaxıstanın bütün dövlət orqanlarında çalışırlar"

Xaricdə yaşayan soydaşlarımız arasında siyasi-iqtisadi, sosial-mənəvi birliyin olması ilə yanaşı onların qarşısında azərbaycançılıq ideologiyasına əsaslanan bir sıra tarixi vəzifələr durur. Burada Azərbaycan reallıqlarının dünyaya olduğu kimi çatdırılması, eləcə də vətənə sədaqətlilik kimi meyarlar öz əksini tapıb. Bu **amala sadiq qalan xaricdəki diaspor təşkilatlarımız fəaliyyətlərini daha da gücləndirirlər. Hazırda öz fəaliyyəti ilə seçilən belə diaspor təşkilatlarından biri də Qazaxıstandakı "Xəzər" Azərbaycan diaspor təşkilatıdır. Təşkilatın sədri Vidadi Salahov güclü diasporun xalqımız üçün önəm daşıdığını deyir:**

- Bu gün əqidəsindən, dünyagörüşündən asılı olmayaraq Azərbaycanı özünə tarixi Vətən bilən hər bir azərbaycanlının vahid amal uğrunda birləşməsi, həmrəylik nümayiş etdirməsi tarixi missiya, dövrün tələbi və zamanın çağırışıdır. Milli birlik, vətəndaşlıq birliyi olmadan tərəqqiyə, əmin-amanlığa və firavanlığa qovuşmaq çətindir. Otuz iki ildən artıqdır ki, mən Qazaxıstanda yaşayıram və orada diaspor işi ilə məşğul olmağımla yanaşı Qazaxıstanda yayımlanan 20 min tirajlı, üç dildə (Azərbaycan, qazax və rus) nəşr edilən həftəlik və beynəlxalq "Turan Ekspress" qəzetinin baş redaktoru və təsisçisiyəm. İctimai işlər həyatımın ayrılmaz bir hissəsidir.

Onu da qeyd edim ki, Qazaxıstanda üç yüz minə qədər azərbaycanlı və türklər yaşayır. Azərbaycanlı və türklərdən təşkil olunmuş diaspor ətrafında toplaşanlar o zaman, yəni 1937-44-cü illərdə Gürcüstandan və Azərbaycandan sürgün olunmuş insanların nəsillərindəndir. Ancaq hazırda Qazaxıstanda məskunlaşan azərbaycanlıların əksəriyyəti təhsillə əlaqədar olaraq və ya işləmək məqsədilə özləri könüllü şəkildə burada yaşayırlar. Ən sonuncu miqrasiya isə ermənilər tərəfindən zəbt olunmuş Dağlıq Qarabağ və onun ətraf şəhərlərindən məcburi köçüb gələnlərdir. Hazırda Qazaxıstandakı məcburi köçkünlərin sayı 10 mindən çoxdur.

Diasporumuzun fəaliyyətinə gəldikdə isə Qazaxıstanda 14 vilayətdə diasporun tərkibinə daxil olan Mədəni Mərkəzlər fəaliyyət göstərir. Eyni zamanda həmin mərkəzlərin daxilində "bazar günü" azərbaycandilli məktəbləri və özfəaliyyət dərnəkləri mövcuddur. Onların fəaliyyətlərinin əsasında azərbaycançılıq ideyası durur. Azərbaycanın zəngin tarixi, misilsiz mədəni irsi və görkəmli ziyalıları haqqında ətraflı məlumat verilir.

Hər il Azərbaycanla bağlı olan bayramlar və anım mərasimləri ilə əlaqədar olaraq soydaşlarımızla birgə silsilə tədbirlər keçiririk. Bütün bu işləri həyata keçirməkdə bir məqsədi-miz də odur ki, Qazaxıstanda yaşayan və gələcəyimizin təminatçısı olan uşaqlara, gənclərə yaşadığı ölkənin adət-ənənəsini, dilini bilməklə yanaşı doğma vətəninə sevgi, xalqına, millətinə, dilinə həmişə sadiq qalmalarını da tövsiyə edirik. Fikrimcə, bu bir neçə komponentə sadiq qalmaq və qorumaq hər bir vətəndaşın mənəvi borcudur.

- Bu gün önəmli amillərdən biri də diasporun həmin ölkənin ictimai həyatında təmsil olunmasıdır. Qazaxıstanda yaşayan azərbaycanlılar daha çox hansı sahələrdə çalışırlar?

- Sevindirici hallardan biri do odur ki, Qazaxıstanın bütün dövlət strukturlarında azərbaycanlılara rast gəlmək olur. Bu da bizim diaspor fəaliyyətinin güclü bir qüvvə ilə əhatə olunduğu göstərir. Konkret olaraq hər hansı bir sahənin adım çəkmək çətin olar. Onu deyə bilərəm ki, Qazaxıstanda yaşayan azərbaycanlıların çoxşaxəli fəaliyyət istiqamətləri var. Yəni orada yaşayan azərbaycanlılar iki qrupa bölünür. Onların bir qismi Qazaxıstana işləmək üçün gəlmiş Azərbaycan vətəndaşlarıdır, digər qrup isə Qazaxıstan vətəndaşı olan soydaşlarımızdır.

Artıq Qazaxıstan vətəndaşlığını qazanmış azərbaycanlılar bütün sahələrdə fəaliyyət göstərirlər. Azərbaycandan olan vətəndaşlar isə daha çox tikinti, ticarət, neft və qaz sənayesi sahəsində çalışırlar. Eləcə də digər sahələrdə həmvətənlərimizə rast gəlmək olur. Bu hal da bir azərbaycanlı kimi mənə öz soydaşlarımla böyük bir qürur hissi duymağa imkan verir.

- Diasporumuzun inkişafı istiqamətində bir sıra addımlar atılır. Ümumiyyətlə, diaspor təşkilatlarının bugünkü fəaliyyəti sizi qane edirmi?

- Diasporumuzun fəaliyyəti getdikcə güclənir. Lakin bununla yanaşı mən bugünkü zamanda müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarımızın fəaliyyətlərindən tam razı qala bilmərəm.

Ona görə ki, biz hələ Azərbaycan həqiqətlərini dünyaya yetərincə çatdıra bilməmişik. O zaman diasporların fəaliyyətindən razı qalmaq olar ki, həmin təşkilatların köməyilə Xocalı faciəsini və xalqımızın illərdir məruz qaldığı digər dəhşətləri dünyaya çatdıra və qəbul etdirə bilək. Deyərdim ki, bu gün diasporlarda təşkilatlanma işləri gedir. Ancaq xaricdə yaşayan azərbaycanlıların potensialını nəzərə alanda görülən işlər çox azdır.

Hazırda Azərbaycandan kənarda yaşayan azərbaycanlıların diaspor təşkilatlarında fəaliyyət istiqaməti gərək hərtərəfli inkişaf etsin ki, həmin qurumlar yaşadıqları ölkələrin dövlət strukturlarına təsir etmək gücünə malik olsun. Onu da qeyd etmək istərdim ki, son illər müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarının birləşməsi və inkişafı istiqamətində Diasporla İş üzrə Dövlət Komitəsi çox böyük işlər görür.

- Diasporumuz tərəfindən Xocalı faciəsini dünyaya çatdırmaq və qəbul etdirmək önəmli amillərdən biridir. Sizin təşəbbüsünüzlə Qazaxıstan parlamentində bu istiqamətdə hər hansı bir məsələ qaldırılıbmı?

- Bəli, şəxsən mənim 3 il bundan əvvəl parlamentə müraciətim olub. Cavab da almışam ki, Qazaxıstan bu soyqırımı, bu faciəni qəbul edir. Qazaxıstan bu soyqırımı rəsmən tanımağa bir qədər ehtiyat edir, ancaq belə bir soyqırımın baş verdiyini onlar artıq dərk etməyə başlayıblar. Bu da təbii bir haldır. Ona görə ki, bu istiqamətdə təbliğat azdır. Elə əslində hər şeyi də bundan başlamaq lazımdır. Güclü təbliğat olmalıdır. Özü də təbliğat əyani vəsaitlər və dəqiq faktlar əsasında dünyaya çatdırıl-malıdır. 2-3 il bundan əvvəl, yəni qəzetimiz orada geniş yayılmayana qədər və mənim universitetlərdə çıxışlarım olmadığı zamana qədər qazaxıstanlıların çoxunun Xocalı hadisələri ilə bağlı heç bir məlumatı yox idi. Birinci dəfə olaraq redaktoru olduğum "Turan Ekspress" qəzetinin bir nömrəsini Xocalı faciəsinə həsr etdim və bu hal orada böyük bir rezonans doğurdu. Mən onu demək istəyirəm ki, indiki zamanda Azərbaycandan kənarda fəaliyyət göstərən diaspor təşkilatları birləşərək informasiya blokadasını yarmalı və Azərbaycan həqiqətlərini yaşadığı ölkənin dilində həmin ölkənin vətəndaşlarına çatdırmalıdır.

- Diasporumuzun fəaliyyət istiqamətlərinin öz əksini tapdığı Həmrəylik Xartiyası ilə bağlı fikirlərinizi bilmək maraqlı olardı.

- Hər bir uğurlu iş yaxşı təklifdən irəli gəlir. Yəni yaradılan bu Xartiya birliyə və həmrəyliyə yönəlibsə, bundan yaxşı nə ola bilər? Mən böyük məmnuniyyətlə və ruh yüksəkliyi ilə bu sənədi qəbul edirəm. Xartiyada bəzi çatışmazlıqlar və tamamlanmamış bir sıra məsələlərin olmasına baxmayaraq bu sənədin yaradılması böyük bir irəliləyişdir. Hazırda Xartiyanın daha da təkmilləşməsi üzərində iş gedir. Ən əsası bu, bizlər üçün çox vacib bir sənəddir. Hansı məsələləri sənəd formasında qəbul etmək istəsən, həmin sənədə əlavələr etmək olar. Əsas onun yerinə yetirilməsidir. Mən də çox istərdim ki, Xartiyada hansı məsələlər yer alıbsa, onları yerinə yetirək. Qeyd edim ki, bu Xartiyada kifayət qədər maraqlı işlər yer alıb və bu işlərin icrası bizim üçün çox yaxşı olardı.

- Orta Asiya ölkələrində fəaliyyət göstərən digər diaspor təşkilatlan ilə əlaqələriniz varmı?

- Demək olar ki, bütün diaspor təşkilatları ilə əlaqələrimiz mövcuddur. Bilirsiniz ki, Qazaxıstan çox böyük bir ölkədir. Qazaxıstanda olan on dörd vilayətin özünün bir-birinə inteqrasiyası məsələlərinə səylərimizi yönəltmişik. Həmin vilayətlərin bir-biri ilə əlaqəsi bir çox işlərin icrasına kömək edər, eyni zamanda güclü bir diaspor formalaşar. Onu da vurğulayım ki, həmçinin Azərbaycandan da dəstək alırıq. Komitə tərəfindən həm mənəvi, həm də maddi dəstək görürük. Bizə lazım olan bir çox materialları komitənin köməyilə əldə edirik. Bir sözlə, biz istər Azərbaycan dövlətinin, istərsə də komitənin diqqət mərkəzindəyik və bu diqqət də bizi Azərbaycanın çiçəklənməsi naminə daha səylə işləməyə vadar edir.

Nigar

“Palitra”. -2010 - 8 yanvar - N.2.-S.5.

Dünya azərbaycanlılarının bir Vətəni var – Azərbaycan

Hər bir azərbaycanlı dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, Azərbaycan dövlətinin, cəmiyyətinin problemləri ilə yaşamalı, onların həlli üçün mənəvi məsuliyyət hiss etməlidir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə dünya azərbaycanlıları on səkkiz ildir ki, hər il dekabrın 31-ini milli birlik və həmrəylik günü kimi böyük təntənə ilə qeyd edirlər. Bu bayram milli-mənəvi dəyərlərimizin təbliği, doğma Vətənə bağlılıq dünyanın müxtəlif diyarlarında yaşayan soydaşlarımızın yekdilliyi və mütəşəkkillik ideyalarını təcəssüm etdirir. On səkkiz ildir ki, dünya azərbaycanlılarının həmrəyliyi dövlət siyasətimizin əsas istiqamətlərindən birini təşkil edir. Bu illər ərzində soydaşlarımızın yaşadıqları ölkələrdə təşkilatlanması, güclənməsi və əlaqələrinin möhkəmləndirilməsi istiqamətində xeyli işlər görülmüş, bir-birindən əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Dünya azərbaycanlılarının vahid məqsəd ətrafında birləşdirilməsi ideyasının müəllifi böyük tarixi şəxsiyyət Heydər Əliyevdir. Ulu öndər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən belə bir təşəbbüs irəli sürmüş və Ali Məclis 1991-ci il dekabrın 31-in Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü elan olunması haqqında qərar qəbul etmişdir. Həmin günün bütün ölkə miqyasında dövlət bayramı kimi qeyd olunması üçün Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Ali Soveti qarşısında vəsatət qaldırmışdı. Lakin hakimiyyəti hələ bir müddət də əlində saxlamağa çalışan o vaxtkı iqtidarın başı öz şəxsi mənafelərini qorumağa qarışdığından belə əhəmiyyətli və vacib məsələyə "vaxt tapmamışdı". 1993-cü ildə xalqın təkidi ilə yenidən siyasi hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev xarici ölkələrdə yaşayan soydaşlarımızın birləşməsi, məskunlaşdıqları dövlətlərin ictimai-siyasi həyatında yaxından iştirak etməsi doğma Vətənlə əlaqələrinin möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlər həyata keçirdi. Soydaşlarımızın hüquqlarının qorunması və qarşılaşdıqları problemlərin aradan qaldırılmasını diqqət mərkəzində saxladı.

Sirr deyil ki, ulu öndər Heydər Əliyev Kremldə tutduğu vəzifəsindən istefa verdikdən sonra Azərbaycana qarşı təzyiqlər güclənmişdi. Bütün sahələrdə ermənilərə güzəştə gedən, daha dəqiq desək, millətlər arasında ayrı-seçkilik salan, bəzilərinə, xüsusilə ermənilərə xüsusi münasibət bəsləyən SSRİ-nin o vaxtkı rəhbəri Mixail Qorbaçovun dövlət başçısına xas olmayan bu hərəkətindən sonra Azərbaycana qarşı münasibət beynəlxalq aləmdə də pisləşmişdi. Ermənilərə yaradılmış şərait onları xeyli fəallaşdırmış, Azərbaycana qarşı informasiya blokadasını daha da gücləndirmişdi. Əsl həqiqətlər, reallıqlar olduğu kimi yox, ermənilərə sərf edən formada yayılırdı. Xarici ölkələrdə yaşayan soydaşlarımızla əlaqə çox zəif olduğundan, diasporlar arasında həmrəylik olmadığından, onların fəaliyyəti nəzərə çarpmadığından Azərbaycan reallıqları dünya ictimaiyyətinə olduğu kimi çatdırılmırdı. Erməni diasporları və lobbisi bundan yetərincə faydalanır, öz çirkin niyyətlərini asanlıqla yerinə yetirirdilər. Lakin 1993-cü ildən sonra həyat tədricən öz axarına düşdü. Ümummilli lider Heydər Əliyev xarici ölkələrdə Azərbaycan diasporunun formalaşdırılmasını, lobbiçilik fəaliyyətinin gücləndirilməsini prioritet vəzifə kimi qarşıya qoydu. Ulu öndərin təşəbbüsü və himayədarlığı ilə 2001-ci ilin noyabrında Bakıda keçirilmiş Dünya azərbaycanlılarının ı qurultayı xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması baxımından tarixi dönüş nöqtəsi oldu. Bu qurultay xaricdəki soydaşlarımızın ümumi məqsəd, vahid azərbaycançılıq ideyası ətrafında sıx birləşməsi yolunda böyük əhəmiyyət kəsb etmişdir.

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmalarının, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi məhz birinci qurultayda reallaşdı. Ulu öndər xaricdə yaşayan soydaşlarımıza xitabən demişdir: "Bizim hamımızın bir Vətəni var bu, Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır".

Qurultaydan sonra dünyanın, demək olar ki, hər yerində Azərbaycan dövlətinin diaspor quruculuğu istiqamətində səyləri gücləndi. Sistemli dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədi ilə ümummilli lider Heydər Əliyev 2002-ci ilin iyununda "Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə" fərman imzaladı. Bu sahənin fəaliyyətinin daha da gücləndirilməsi üçün qanunvericilik bazasının da zənginləşdirilməsi qarşıya qoyulmuş əsas vəzifələrdən biri idi. 2002-ci ilin dekabrında "Xarici ölkələrdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun qəbul olunması bu sahədə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərini və hüquqi prinsiplərini müəyyənləşdirdi. Belə bir qanunun qəbul edilməsi dünya azərbaycanlılarının təşkilatlanmasını, diaspor quruculuğunu daha da sürətləndirdi, onlar arasındakı əlaqələri möhkəmləndirdi və bir bayraq altında cəmləşdirdi.

Dövlət maraqları ilə milli mənafeyin uzlaşdırılmasının mahir bilicisi, kamil ustası olan ümummilli lider Heydər Əliyevin Türk dünyasında, ümumilikdə dünya azərbaycanlıları arasında böyük nüfuza sahib olması diaspor quruculuğunda böyük rol oynadı. Bununla yanaşı, ulu öndərin xarici ölkələrdə soydaşlarımızın təşkil etdikləri qurumlar, cəmiyyətlər və təşkilatlarla sıx əlaqə yaratması, problemləri ilə müntəzəm maraqlanması diasporlarımızın formalaşmasını xeyli sürətləndirdi, onların fəaliyyətini stimullaşdırdı. Ulu öndərin diasporların qarşısına qoyduğu ən mühüm vəzifələrdən biri də azərbaycançılıq məfkurəsinin bir ideologiya kimi qəbul edilməsi və dünyanın hər yerində yaşayan soydaşlarımızın bu ideologiya ətrafında birləşməsinə nail olunması idi. İllər keçdikcə diasporlarımızın fəaliyyəti daha da gücləndi.

Artıq Azərbaycan həqiqətləri dünyanın ən yüksək tribunalarından dünya ictimaiyyətinə olduğu kimi çatdırıldı. Azərbaycan informasiya blokadasından nəinki azad oldu, hətta bu sahə əksər ölkələri geridə qoydu. Beynəlxalq aləmə bəlli oldu ki, Azərbaycan hökumətinin heç bir dövlətin ərazisində gözü yoxdur. Əksinə, ölkəmiz işğala məruz qalmış dövlətdir. Dövlət başçımızın yeritdiyi daxili və xarici siyasət, həmçinin diasporlarımızın fəaliyyəti hesabına dünya ictimaiyyəti şahidi oldu ki, Azərbaycan sülhsevər, Ermənistan isə işğalçı dövlətdir. Başqa dövlətlərin əraziləri hesabına özünü müstəqil dövlət kimi tanıdan Ermənistan Azərbaycanın ərazisinin 20 faizini işğal etmiş, bir milyondan artıq soydaşımızı öz ata-baba yurdundan didərgin salmışdır. Təəssüf ki, beynəlxalq aləm bu ədalətsizliyə hələ də dözür. Ermənistanın işğalçılıq missiyasını davam etdirməsinə ikili standartdan yanaşır.

Heydər Əliyevin siyasi uzaqgörənliyi, milli təəssübkeşliyi və böyük təşkilatçılığı sayəsində formalaşan diasporlarımız möhtərəm Prezidentimiz İlham Əliyevin uğurlu fəaliyyəti ilə daha da möhkəmləndi, inkişaf etdi. Möhtərəm Prezidentimizin ölkəyə rəhbərlik etdiyi dövrdə irəliyə doğru atdığı hər bir qətiyyətli addımını müstəqil dövlətimizin beynəlxalq aləmdəki nüfuzunu getdikcə yüksəltməsi və Azərbaycanın iqtisadi qüdrətinin artırması xaricdə yaşayan soydaşlarımızı daha da ruhlandırdı, onları xalqımızın milli maraqları ətrafında daha sıx birləşdirdi.

Ölkə Prezidenti fəaliyyətinin ilk günlərindən bəyan etdi ki, hər bir dövlətin xarici siyasətinin uğur qazanmasında mükəmməl formalaşmış və təşkilatlanmış diaspor və lobbinin fəaliyyətinin rolu böyükdür. Ona görə də diaspor quruculuğu işinə xüsusi önəm yetirildi. Biz hadisələrin sonrakı gedişində də bunun şahidi olduq. Artıq dünyanın tanınmış beynəlxalq qurumları və inkişaf etmiş dövlətləri ölkəmiz haqqında əsl reallıqlarla barışmaq məcburiyyətində qaldılar.

2006-cı ilin martında Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Bakıda Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi diaspor quruculuğu sahəsinə xüsusi diqqətin yetirilməsindən xəbər verirdi. Bu qurultayın keçirilməsində əsas məqsəd diaspor quruculuğu istiqamətində görülmüş işləri qiymətləndirmək, xaricdə yaşayan soydaşlarımızın üzləşdiyi problemləri, yaşadıqları ölkələrin daxili siyasətinə təsir imkanlarını öyrənmək, onlara bu sahədə kömək etmək, tarixi Vətənlə əlaqələrinin genişləndirilməsinə maddi və mənəvi dayaq olmaqdan ibarət idi. Qurultayda xüsusi olaraq qeyd olunmuşdur ki, son illər Azərbaycan Respublikası iqtisadi inkişaf yolu ilə inamla irəliləmiş, ümumi daxili məhsulun və sənaye istehsalının artım tempinə görə dünyanın lider dövlətinə çevrilmişdir.

Həyata keçirilən iqtisadi islahatlar və qlobal əhəmiyyətli transregional layihələr ölkəyə investisiya axınını sürətləndirmiş, adambaşına düşən xarici sərmayələrin həcminə görə onu MDB və Şərqi Avropa məkanında ön mövqelərə çıxarmışdır. Qısa vaxt ərzində respublikanın əksər rayonlarının, xüsusən Bakı şəhərinin siması xeyli dəyişmiş, əhalinin rifahının yaxşılaşdırılması istiqamətində təsirli tədbirlər həyata keçirilmişdir.

Ölkənin hərbi qüdrəti ildən-ilə artmış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində çox ciddi işlər görülmüşdür. Bu müddət ərzində aparılan hüquqi və siyasi islahatlar müstəqil dövlətimizin demokratik, vətəndaş cəmiyyəti quruculuğu yolu ilə inamla addımladığını təsdiqləmiş, ölkəmizin beynəlxalq nüfuzunu xeyli yüksəltmişdir. Təbii ki, bütün bu uğurlarda diasporlarımızın fəaliyyətini qeyd etmək mütləq vacibdir.

2007-ci ildə Azərbaycan Prezident İlham Əliyevin ideyası ilə Bakıda keçirilmiş Azərbaycan və türk diaspor rəhbərlərinin I forumu da mühüm əhəmiyyətli bir tədbir kimi tarixə əbədi həkk olundu. Bu, dövlət başçımızın iki xalq arasında, həmçinin türk xalqları arasında birliyin möhkəmləndirilməsinə xüsusi diqqət və qayğısının təzahürü idi. Bu forum iki dövlətin diasporları arasındakı münasibətləri daha da yaxşılaşdırmış, əlaqələri möhkəmləndirmişdir. Beynəlxalq miqyaslı tədbirlərdə Azərbaycan və türk diasporlarının bir mövqedən çıxış etmələri onların düşmənlərinə, xüsusilə güclü erməni lobbisinə sarsıdıcı zərbə vurmuşdur.

Azərbaycan diasporunun vahid təşkilatda birləşməsi istiqamətində görülən işlər artıq öz bəhrəsini verməkdədir. Bunun nəticəsidir ki, diaspor təşkilatlarımızın müxtəlif ölkələrdə bir araya gəldikləri Ümumdünya Azərbaycan Konqresi, Avropa Azərbaycanlıları Konqresi, Türkiyə Azərbaycan Dərnəkləri Federasiyaları, Benilüks Azərbaycanlıları Konqresi, Kanada Azərbaycan Təşkilatları Federasiyası, həmçinin digər qurumlar yaradılıb. Bu sıraya Avropa Azərbaycanlıları Konqresini də əlavə etsək, son illər vahid diaspor təşkilatlarının sayının artdığının şahidi olarıq.

Bu isə bizim gücümüzün bir yerə cəmləşməsi və artması deməkdir. Artıq dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların hamısı dərk edir ki, bizim bir Vətənimiz var-bu da Azərbaycandır. Bizim xalqımız böyükdür, çox böyük! Biz 50 milyonuq, dünya miqyasında böyük bir xalqıq! Bir bayraq altında birləşən 50 milyonluq xalqın qarşısında düşmən tab gətirə bilərmi? Sözsüz ki, yox! Ona görə də doğma Vətənimizin qüdrətini daha da artırmaq, möhkəmləndirmək və dünyanın ən inkişaf etmiş ölkələri sırasına qaldırmaq üçün bir olmalıyıq!

Əliqismət Bədəlov
"Xalqqəzeti".-2010 - 12 yanvar - N 7.-S.4.

"Almaniyadakı türk toplumu Qarabağ məsələsində Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir"

Azər Babayev: "İnanmıram ki, Dağlıq Qarabağ münaqişəsinin həllində əhəmiyyətli irəliləyişlər olmayınca, sərhədlər açılsa belə, Türkiyə ilə Ermənistan arasında normal münasibətlər qurulsun"

Xatırlayırsınızsa, qəzetimizin 19 dekabr 2009-cu il tarixli sayında Günaz.TV- nin müxbiri Elnur Eltürkün Almaniyada yaşayan azərbaycanlı gənc tədqiqatçı Azər Babayevlə müsahibəsini dərc etmişdik. Bu günlərdə vətənə dönən Azər Babayev redaksiyamızın da qonağı oldu. Azərbaycana məzuniyyətə gələn qonağımızla söhbət zamanı məlum oldu ki, o, ötən ilin sonlarında Almaniyada sosial elmlər doktoru tituluna layiq görülüb. Azərbaycanlı Tələbələr və Elmi İşçilər Birliyinin üzvü A. Babayev Almaniyanın Mannheim Universitetində "Keçid cəmiyyətlərində siyasi transformasiya: tarixi –institutionalist təhlil" mövzusunda doktorluq işini uğurla müdafiə edib. Qonaqla söhbətimizin bəzi məqamlarını oxuculara təqdim edirik.

- Azər bəy, öncə sizi doktorluq titulu almağınız münasibətilə təbrik edirik. Oxucularımıza özünüz haqqında məlumat vermənizi istərdik.

- Azərbaycanın Gədəbəy rayonunda anadan olmuşam. 1997-ci ildə Gərgər kənd orta məktəbini bitirib, elə həmin il də Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsinə daxil olub, beynəlxalq münasibətlər ixtisasına yiyələnmişəm. 2001-ci ildə universitetin bakalavr pilləsini bitirəndən sonra Almaniyanın Ayxştet - İnqolştadt Universitetində beynəlxalq münasibətlər üzrə master təhsili almışam.

Qeyd edim ki, doktorluq təhsilimi başa vurduğum Mannheim Universiteti Baden-Vürttemberg əyalətində yerləşir və xüsusən sosial və iqtisadi elmlər sahəsində Almaniyanın və Avropanın aparıcı ali məktəblərindən hesab olunur. Hazırda Almaniyanın tanınmış tədqiqat institutlarından olan HSFK-da (Frankfurt Sülh Tədqiqatları İnstitutu) elmi əməkdaş kimi çalışıram. "Hakimiyyət və sosial sülh" elmi proqramı çərçivəsində post-dok üzrə akademik təhsilimi davam etdirməklə yanaşı, Cənubi Qafqaz üzrə həmin institutda ekspert kimi fəaliyyət göstərirəm.

Almaniyanın ilk və ən böyük sülh tədqiqatı institutu olan HSFK 1970-ci ildə Hessen əyalət hökuməti tərəfindən yaradılmışdır və Almaniya üzrə 86 tədqiqat institutunu birləşdirən Leibniz cəmiyyətinin üzvüdür. Frankfurt Sülh Tədqiqatları İnstitutunun əsas məqsədi beynəlxalq və daxili münaqişələrin araşdırılması, sülh şərtlərinin tədqiq edilməsi, habelə sülh ideyasının dəstəklənməsidir. Həmçinin siyasi məşvərət funksiyasını həyata keçirən institutun əldə etdiyi tədqiqat nəticələri alman federal hökumətinin bu istiqamətdə konkret siyasi qərarlarının qəbul olunmasına da öz töhfəsini verir. Bununla yanaşı, HSFK müvafiq mövzularda alman ictimai fikrinin formalaşmasında da önəmli rol oynayır.

- Azər bəy, bəs necə oldu ki, təhsilinizi davam etdirmək məqsədilə məhz Almaniyanı seçdiniz?

- Orta məktəbdə oxuyarkən alman dilini xarici dil kimi öyrənmişəm və o ölkəyə də maraq burdan başlayıb. BDU-da təhsil aldığım ərəfədə Bakıda Almaniya universitetlərinin DAAD (Alman Akademik Mübadilə Xidməti) adlı müştərək təşkilatı fəaliyyət göstərirdi. DAAD təşkilatı Almaniyada master və doktorantlıq üzrə təhsil alan gəncləri təqaüdlə təmin edirdi. Mən təşkilatın keçirdiyi proqramlarda fəal iştirak edirdim. Odur ki, BDU-da təhsilimin bakalavr pilləsini bitirdikdən sonra təşkilatın xətti ilə Almaniyaya gedərək Ayxştet - İnqolştadt Universitetində beynəlxalq münasibətlər üzrə mastet təhsili aldım. Sonra Mannheim Universitetində doktorluq işini uğurla müdafiə edərək elmlər doktoru adına layiq görüldüm. Hazırda isə qeyd etdiyim kimi, Frankfurt Sülh Tədqiqatları İnstitutunda elmi əməkdaş kimi çalışıram.

- Azərbaycanın təhsil sistemi ilə müqayisədə Almaniya təhsil sisteminin özəllikləri barədə nə deyə bilərsiniz?

- Almaniyanın təhsil sistemindəki özəlliklərdən biri ixtisas seçiminin kifayət qədər azad olmasıdır. Eyni zamanda əlavə, köməkçi ixtisasların da seçimi azaddır. Bundan başqa, tələbələrin bütün professorların mühazirələrini dinləməsi məcburi deyil. Belə ki, tələbə istədiyi professorun mühazirəsini dinləyə bilər. Azərbaycanda isə birinci kursdan başlayaraq axıra kimi bütün dərslərdə iştirak etməyə məcbursan. Onu da deyim ki, oradakı azadlıq da mütləq deyil, məcburi fənlər də var ki, onlardan mütləq imtahan verməlisən. Bu, 30-40 faiz təşkil etsə də, təhsilini azad seçim üzərində qura bilirsən.

Bildiyiniz kimi, Almaniya inkişaf etmiş ölkələr sırasındadır, elm-texnika kifayət qədər yüksək səviyyədədir. Professorlar mühazirələrdə proyektorlardan istifadə edirlər. İnternet çox yüksək səviyyədə tətbiq olunub. Hətta mühazirələr xülasə şəklində əvvəlcədən tələbələrin elektron ünvanına göndərilir. Bununla da tələbənin keçiriləcək dərs haqqında əvvəlcədən anlayışı olur. Almaniyadakı universitetlərdə kitabxana işinin təşkili də çox mükəmməldir. Tələbə lazımi kitabın təhsil aldığı universitetin kitabxanasında olub-olmadığını internet vasitəsilə öyrənə bilir. öz universitetlərinin kitabxanasında olmayan kitabı internet vasitəsilə digər kitabxanalardan sifariş verir və tez bir zamanda əldə edir. İnternetin yaratdığı bu cür üstünlüklərin universitet həyatına inteqrasiyası təhsili olduqca asanlaşdırır. İstənilən elmi məqaləni, yeni çıxan dərgiləri, qəzetləri, jurnalları internet vasitəsilə əldə etmək olur.

- İnternetdən söz düşmüşkən, Vyana Beynəlxalq İnstitutunun "Münaqişə Menecmentliyi" layihəsi çərçivəsində "Dağlıq Qarabağ uğrunda müharibə: Qafqaz regionunda böhran və münaqişələr menecmentliyi" adlı kitabın nəşr edilməsi ilə bağlı məlumatı da internet vasitəsilə əldə etmişdik. Həmin kitabda "Dağlıq Qarabağ münaqişəsinə Azərbaycanın mövqeyindən baxış" adlı araşdırmanız yer alıb. Oxucularımıza kitab haqqında məlumat vermənizi istərdik.

- Qeyd edilən kitabda Almaniya, Avstriya, Rusiya və Türkiyədən region üzrə tanınmış mütəxəssislər Dağlıq Qarabağ münaqişəsinin səbəbləri, böyük güclərin bu münaqişə ilə bağlı maraqları, habelə münaqişə həllinin perspektivlərinə dair araşdırmaları yer alıb. Burada həmçinin münaqişə ətrafında aktual vəziyyət və onun regional və geostrateji aspektləri araşdırılır. ümumən 281 səhifəlik bu kitab münaqişə ilə bağlı 13 araşdırma-məqalədən ibarətdir.

- Siz araşdırmanızda Cənubi Osetiya hadisələrinin münaqişənin Azərbaycanın maraqları baxımından ədalətli həlli üçün əlavə imkanlar yaratdığı tezisini irəli sürürsünüz. Sizcə, bu imkanlar nədən ibarətdir?

- Fikrimcə, Cənubi Osetiya hadisələrindən sonra Qərb faktorları regionla bağlı siyasətlərinə düzəlişlər etməyə can atırlar və xüsusən də Rusiya tərəfindən dövlət müstəqilliklərinin tanındığı Cənubi Osetiya və Abxaziyanın Dağlıq Qarabağ üçün peresedent hala çevrilməsinə qarşıdırlar. Bununla yanaşı, Qərb siyasi dairələri ümumən ərazi bütövlüyü prinsipinin bu tip münaqişələrin həllindən xüsusi rolunu önə çəkməyə başlayıblar. Bu məsələdə Rusiya da, göründüyü qədər Qərblə konfrontasiyaya getmək istəmir. Digər tərəfdən, Ermənistanın regional təcrid vəziyyəti Cənubi Osetiya hadisələri kontekstində bir daha üzə çıxardı ki, rəsmi İrəvan uzun müddətə Dağlıq Qarabağın müstəqilliyini təmin etmək gücündə deyil. Bu mənada, regional sabitliyin, xüsusən də iki vacib qonşu dövlət - Türkiyə və Azərbaycan ilə normal münasibətlər qurmanın əhəmiyyəti Ermənistan üçün çox artmışdır. Son dövrdə Türkiyə ilə yaxınlaşmaya rəsmi İrəvanın xüsusilə can atmasını da bu mənada dəyərləndirmək olar.

- Qeyd etdiyiniz kimi, kitabda bir cox ölkələrdən araşdırmaçılar iştirak edib. Onların münaqişənin həlli ilə bağlı qısa da olsa fikirlərini bilmək maraqlı olardı.

- Bu layihədə iştirak edən araşdırmaçılar əsasən münaqişənin həllində əsas problemin Dağlıq Qarabağın statusu məsələsi ilə bağlı olmasını önə sürürlər. Bu üzdən, münaqişənin tezliklə paket həllinin mümkünsüzlüyü qeyd edilir. Amma münaqişənin sülh yolu ilə pilləli həlli real hesab olunur. Burada xüsusən diqqətimi çəkən Dağlıq Qarabağın status məsələsinin həllini dondurmaq və ilk öncə digər məsələləri həll etmək ideyasıdır. Belə ki, işğal olunmuş ərazilər erməni qoşunları tərəfindən boşaldılır və qaçqınlar öz vətənlərinə qayıdır. Daha sonra Azərbaycan və Ermənistan arasında normal münasibətlər qurulur. Və nəhayət, iki ölkə arasında müəyyən dərəcədə (xüsusən siyasi) etimad yarananda sonra status məsələsi ilə bağlı tərəfləri real bir nəticəyə götürə bilən müzakirələrə başlanılır.

Digər vacib bir məqam xarici faktorların münaqişənin həlli ilə bağlı konstruktiv mövqe tutması məsələsidir. Burada xüsusilə ABŞ-ın və Rusiyanın regionda yürütdüyü illərdən bəri hələ də ənənəvi imperial rəqabət çalarlarını özündə daşıyan maraqlar siyasətinin münaqişə həllinə mənfi təsirini qeyd etmək olar. Ona görə bu iki əsas faktorun səmimi formada konfliktinin real və ədalətli həllinə çalışmaları da çox vacibdir.

- Siz Almaniyada çalışdığınıza görə qərbin siyasi institutları ilə təmasda olursunuz. Onların münaqişənin həlli ilə bağlı baxışları nədən ibarətdir?

- Müşahidələrim əsasında qısaca deyə bilərəm ki, istər siyasi, istərsə də elmi dairələrdə ərazi bütövlüyü prinsipinə etnik münaqişələrin həllində xüsusi önəm verilməsi tendensiyası üstünlük təşkil edir. Çünki öz müqəddəratını təyin etmə prinsipini rəhbər tutaraq bu cür münaqişələrin həllinə çalışmanın ümumən etnik-separatist tendensiyaların gücləndirməsində nə qədər təhlükəli olacağı göz qabağındadır. Və bu tendensiyanın sonda hətta dünyada sülhə və təhlükəsizliyi təhdid edə bilməsini belə istisna etmək olmaz.

- Azər bəy, ümumiyyətlə, Almaniyada Qarabağ məsələsi ilə bağlı informasiya hansı səviyyədədir?

- Təəssüf ki, Qarabağ məsələsi ilə bağlı Almaniya ictimaiyyətində informasiya çox azdır. Bunu nəzərə alaraq, eyni zamanda ixtisasım mənə imkan verir ki, Azərbaycanın ən aktual problemi olan Qarabağ məsələsi ilə bağlı həqiqətlərin dünyaya çatdırılmasında əlimdən gələni etməyə çalışıram. Buna misal olaraq, qeyd edim ki, 2007-ci ilin mart ayında Qarabağ problemi ilə bağlı seminarın keçirilməsinə nail oldum. Habelə 2008-ci ilin noyabr ayında Almaniyanın tanınmış "Osteuropa" jurnalında münaqişə ilə bağlı digər bir araşdırmam işıq üzü gördü. Hazırda Azərbaycana məzuniyyətə gəlişim çərçivəsində Türkiyə-Ermənistan yaxınlaşması müstəvisində Qarabağ sülh prosesində hansı təsirlərin olması ilə bağlı araşdırmalarımı davam etdirirəm. İnşallah, yaxın zamanlarda çap etdirəcəyim bu araşdırmam, hesab edirəm ki, Almaniyanın elmi dairələrində Qarabağ məsələsi ilə bağlı fikir formalaşdırmasında müəyyən rol oynayacaq.

- Bəs Almaniyada böyük gücə malik olan türk toplumunun Dağlıq Qarabağ məsələsi ilə bağlı mövqeləri nədən ibarətdir?

- Qeyd etmək olar ki, Almaniyadakı türk toplumu Qarabağ məsələsində Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir. Təbii ki, bu sahədə hələ görüləsi işlər çoxdur və biz Almaniyada türk diasporası ilə bu sahədə daha sıx informasiya və fikir mübadiləsi aparmalıyıq. Diaspor dairələrində siyasi maarifləndirmə bu mənada çox önəmlidir.

- Hazırda Almaniya türk diasporu Türkiyə-Ermənistan danışıqlarını neçə qarşılayırlar?

- Aydındır ki, Almaniya türk diasporu Türkiyə-Ermənistan yaxınlaşması prosesını diqqətlə izləyirlər. Burada mühüm olan məsələ odur ki, diaspor nümayəndələri bu yaxınlaşmaya prinsipial şəkildə qarşı olmasalar da, bu prosesin Dağlıq Qarabağ sülh nizamlanması ilə paralel getməsinə önəm verirlər.

- Sizcə, Türkiyə-Ermənistan yaxınlaşması hansı sonluqla bitə bilər?

- İnanmıram ki, Dağlıq Qarabağ münaqişəsinin həllində əhəmiyyətli irəliləyişlər olmayınca, sərhədlər açılsa belə, Türkiyə ilə Ermənistan arasında normal münasibətlər qurulsun. Bu cəhətdən Türkiyə ilə Azərbaycanı birləşdirən bağlar çox möhkəmdir və Türkiyə bu məsələdə Azərbaycanın haqlı mövqeyini tam şəkildə dəstəkləyir.

Elbar Şirinov

“Təzadlar”. -2010 – 2 - 4 – fevral -№21-22.-S.7.

“Hollandiya və Belçika kitabxanalarına Azərbaycanla bağlı kitablar təqdim etmişik”

Xaricdəki diaspor təşkilatlarımızın sayı getdikcə artmaqdadır. Belə təşkilatlardan biri də Hollandiyada fəaliyyət göstərən "Vahid, bölünməz və demokratik Azərbaycan uğrunda birlik" Cəmiyyətidir. Müsahibimiz bugünlərdə Bakıda səfərdə olan cəmiyyətin sədr müavini Selman Qasımovdur:

- Bizim cəmiyyət 2005-ci ildə qeydiyyatdan keçib. Cəmiyyətin əsas məqsədi Hollandiyada yaşayan xalqlara Azərbaycanın mədəniyyətini, milli adət-ənənələrini, bir sözlə, ölkəmizlə bağlı olan hər bir reallığı çatdırmaqdır. Bu məqsədlə də bir sıra tədbirlər həyata keçiririk. Belə tədbirlərdən biri də 2008-ci ildə Valkenburq şəhərinin Sibbe qəsəbəsində təşkil olundu. Belə ki, həmin qəsəbədə biz Novruz bayramı münasibətilə şənlik keçirdik. Məhz bu tədbirdə də məqsəd Azərbaycana xas olan məqamları holland əhalisinə çatdırmaq idi. Bu tədbir yalnız şənlik deyil, həm də aksiya oldu. Həmin qəsəbədə yerləşən böyük bir məktəbin rəhbərliyi ilə danışıqlar apardıq. Həmin məktəbdə dərslər bir gün təxirə salındı və orada Novruz şənliyi təşkil olundu. Hətta həmin şənlikdə “Bahar qızı” holland qız, onu müşayiət edən isə bizim milli geyimdə holland oğlan iştirakçı oldu. Orada milli geyimlərimizdə rəqslərimizi ifa etdilər. Azərbaycan dilində açılış etdilər, şeirlər söylədilər.

Çox yaxşı bir tədbir keçirildi və burada holland uşaqları tərəfindən bizim milli şirniyyatlar hazırlanıb təqdim edildi. Bu tədbirdə yerli icra hakimiyyətinin nümayəndələri, Azərbaycanın Belçika səfirliyinin nümayəndəsi Fuad Hümbətov da iştirak etdilər. Eyni zamanda həmin tədbirdə Azərbaycanla bağlı televiziya filmi nümayiş olundu. Holland uşaqlar milli rəqslərimizi ifa etməklə yanaşı həm də Azərbaycanla bağlı rəsmlər çəkirdilər. Yerli televiziyada həmin tədbirdən hazırlanmış veriliş təqdim olundu. Bizə hörmət əlaməti olaraq məktəbin həyətində öncə Azərbaycan, sonra holland bayrağı asılmışdı. Bundan başqa 2008-ci ildə Brüssel şəhərində Azərbaycan diaspor təşkilatları tərəfindən Avropa Komissiyasının, Ermənistan səfirliyinin qarşısında Xocalı faciəsi ilə bağlı mitinq keçirildi. Həm AK, həm də Ermənistan səfirliyinə məktub təqdim etdik.

- Ölkəmizlə bağlı reallıqlar holland ictimaiyyəti tərəfindən necə qarşılanır?

- Bizim yaşadığımız Maastriht şəhəri ermənilərin çoxluq təşkil etdiyi və lobbisinin güclü olduğu bir şəhərdir. Buna baxmayaraq biz orada əlimizdən gələni etməyə çalışırıq. Məsələn, həmin şəhərdə böyük bir kitabxana var ki, oranın 60 min kitab tutumu var. Bu kitabxanada bir dənə də olsun Azərbaycanla bağlı kitab yox idi. Biz orada Azərbaycan guşəsi yaratdıq və Qarabağla bağlı kitablar təqdim etdik. Onu da qeyd edim ki, bu kitabları çox çətinliklə götürürlər. Yəni siyasətlə bağlı hesab etdikləri üçün qəbul etməkdən çəkinirlər. Biz həmin kitabları cəmiyyətin adından təqdim edirik və onları başa salırıq. Hətta Qarabağla bağlı kitabı Ermənistan şöbəsinə daxil etmişdilər. Cəmiyyətimizin sədri onlara tarixi faktlarla izah etdi ki, Qarabağ Azərbaycan torpaqlarıdır və ermənilər tərəfindən işğal olunub. Kitabxananın rəhbərliyi bizdən üzr istədi və həmin kitabı da yeni yaradılan Azərbaycan guşəsinə yerləşdirdilər. Hazırda biz oraya üç kitab təqdim etmişik ki, onlardan birində ingilis dilində DVD, CD var və istənilən şəxs həm onlara baxa, həm qulaq asa, həm də kitabdakı rəsmlərə baxa bilər. Beləliklə, biz Hollandiyanın 5, Belçikanın 2 kitabxanasına belə kitablar təqdim etmişik. Kitabxanaya təqdim etdiyimiz kitabları Belçika səfirliyindən əldə etmişik.

Bu kitabları kitabxanaya təqdim etməklə yanaşı onları qeydiyyatdan da keçirmişik. Həmçinin oradakı DVD və CD-lərə maqnit siqnallar qoyurlar ki, heç kəs onları götürə bilməsin. Hətta Novruz şənliyi ilə bağlı bizə bildirilmişdi ki, siyasi fikirlər öz əksini tapmamalıdır. Lakin istər-istəməz ağrılı yerimiz var və bu məqsədlə də Belçika səfirliyinin nümayəndəsinin vasitəsilə yerli icra hakimiyyətinin nümayəndəsinə də belə bir kitab təqdim olundu. Yaşadığımız şəhərdə azərbaycanlılar çox azdır. Ancaq cəmiyyəti yaratmaqda məqsədimiz odur ki, sözümüzü deyə bilək. Yəni fərdi şəkildə fikirləri, faktları çatdırmaq olmur, bu baxımdan təşkilat şəklində fəaliyyət göstərmək vacibdir. Cəmiyyət üzvlərinin sayını artırmaq asandır, ancaq əsas iş görməkdir. Holland dostlarımız çoxdur və biz keçirdiyimiz tədbirdə də məhz onların iştirakına üstünlük veririk ki, onlar bizi tanısın. Ermənilər bizim milli xörəkləri özlərininki kimi təqdim edirlər. Biz yeni tədbirimizdə bunları daha geniş sərgiləyəcəyik.

- Vacib amillərdən biri də xaricdə yaşayan azərbaycanlı uşaqların təhsili ilə bağlıdır. Sizin yaşadığınız ərazidə "bazar günü" məktəbi fəaliyyət göstərirmi?

- Mənim övladlarım holland məktəbində təhsil alır. Eyni zamanda Azərbaycan dilini, himnini çox gözəl bilirlər. Hər ikisi cüdo idman növü ilə məşğul olur. Əsas odur ki, dilimizi, mədəniyyətimizi bilsinlər. Onlar iki mədəniyyətdə böyüyürlər. Təbii ki, yaşadığın ölkənin dilinə, adət-ənənələrinə də hörmətlə yanaşılmalıdır. Rotterdam, Amsterdam kimi böyük şəhərlər bizim yaşadığımız ərazidən 250 km uzaqdır. Həmin şəhərlərdə azərbaycanlılar çoxluq təşkil edir və orada Azərbaycan məktəbi fəaliyyət göstərir. İstərdik ki, bizim yaşadığımız ərazidə də məktəb olsun və bu da gələcəyə bağlıdır. İstərdik ki, yalnız azərbaycanlı deyil, holland uşaqlar da burada təhsil alsınlar.

- Bakıya hazırkı səfəriniz nə ilə bağlıdır?

- Səfərim işgüzar məqsəd daşıyır. Diasporla İş üzrə Dövlət Komitəsində oldum və komitənin bir sıra nümayəndələri ilə görüşdüm. Bizim cəmiyyət artıq bir neçə ildir ki, fəaliyyət göstərməsinə baxmayaraq DİDK ilə sıx əlaqələrimiz olmayıb. Bizi çox yaxşı qarşıladılar və istərdik əlaqələrimiz daha da genişlənsin. Yəni biz istədik ki, ilk olaraq Hollandiyada özümüzü tanıdaq və az da olsa buna nail ola bilmişik. Hətta 2010-cu ildə keçirəcəyimiz tədbirdə bizə yardım etmək istəyirlər. Bundan başqa mən 20 yanvar hadisələrinin şahidi olmuşam və 20 illiyi ilə bağlı gəlib Şəhidlər xiyabanını ziyarət etdim. Eyni zamanda Gözdən Əlillər Cəmiyyətində oldum. Holland xeyriyyə cəmiyyətinin ayırdığı vəsait hesabına gözdən əlil uşaqlar üçün dərslik kitablarını çap edən aparat almaq istəyirik. Hazırda burada belə bir aparat var və onu Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva təqdim edib.

- Digər diaspor təşkilatlarımız internet saytları vasitəsilə əlaqələrini daha da genişləndirirlər. Siz fəaliyyətinizi bu istiqamətdə necə qurmusunuz?

- Bizim cəmiyyətin hazırda internet saytı yoxdur. Lakin belə bir fikrimiz var. Məlumatları müxtəlif orqanlara, dövlət qurumlarına bu vasitəylə çatdırmaq mümkün olur. Digər diaspor təşkilatlarımızla əlaqələrimiz var. Bu əlaqələri daha da genişləndirmək niyyətindəyik. İnternet saytı DİDK ilə də sıx əlaqələrin qurulmasına imkan verir. Fəaliyyət genişləndikcə həm maddi, həm də mənəvi ehtiyac artır. İmkanlar nə qədər geniş olarsa, o qədər geniş səviyyəli tədbirlər həyata keçirmək olar.

- Cari ildə hansı tədbirləri reallaşdırmaq niyyətindəsiniz?

- Hazırda cari ilin mart ayında Heerlen şəhərində daha böyük bir məktəbdə Novruz şənliyi keçirməyi nəzərdə tuturuq. Yenə də bu şənlikdə holland uşaqlar əsas obrazda çıxış edəcək. Cəmiyyətin rəhbəri İradə Uluxanlı ötən tədbirdə olduğu kimi, yenə də holland uşaqlarına milli rəqslərimizi, mətbəximizdən nümunələrin hazırlanmasını öyrədəcək. Bu tədbiri daha geniş şəkildə təqdim etməyi planlaşdırırıq. Yerli icra hakimiyyətinin, Belçika, Hollandiyadakı səfirliyimizin, qəzet, televiziyaların nümayəndələri dəvət olunacaq. Əvvəlki tədbirdə olduğu kimi, bu dəfə də toplanan vəsaiti Azərbaycandakı Gözdən Əlillər Cəmiyyətinə təqdim edəcəyik. Belə ki, gözdən əlil uşaqlar üçün keyfiyyətli eynəklər, dərs vəsaitləri almağı nəzərdə tutmuşuq. Orada fəaliyyət göstərən bir holland xeyriyyə təşkilatı var ki, məhz bizim bu məqsədimizlə bağlı cəmiyyətimizə ayrılan vəsaiti 70 dəfə artırdı. Ötən tədbirdən sonra orada qəzetdə "Azərbaycan harada yerləşir?" adlı bir məqalə dərc olundu ki, bu məqalədə icra hakimiyyəti, müəllim və şagirdin xəritədə Azərbaycanı göstərdiyi təsvir olunmuşdu. Bundan başqa orada bilik yarışı təşkil olunmuşdu ki, burada müxtəlif ölkələrin nümayəndələri təmsil olunurdu. Holland dilində imla yarışından ibarət olan bu yarışmada cəmiyyətin sədri İ. Uluxanlı qalib gəldi. Qəzetdə dərc olunan məqalə "Azərbaycanlı holland imlasını uddu" başlığı ilə dərc olunmuşdu.

- Hollandlarla azərbaycanlılar arasında oxşar və fərqli əlamətlər varmı?

- Hollandlar çox sakit xalqdır və hər bir şeyə sakit, təmkinlə yanaşırlar. Həyata tərzinə görə bizdən fərqlənirlər. Bəzi şeylərdə oxşar əlamətlər görmək olar. Orada cənubi azərbaycanlılar da çoxdur. Hətta "Eurovizion" yarışmasında onlar azərbaycanlı iştirakçılara çox səs verdilər. Hollandiya elə bir dövlətdir ki, hər şey icazə əsasında həyata keçirilir. Adi bir faktı qeyd edim ki, bir tonqal yandırmaq üçün yanğınsöndürmə idarəsindən icazə almalısan. İcazə üçün də nümayəndələri gəlib baxırlar, yer təyin edirlər. Mən öz vətənimi hər bir ölkədən çox istəyirəm. Mənim üçün Azərbaycan həmişə birinci yerdədir. Övladlarım Azərbaycanı bəlkə də məndən daha çox sevirlər. Bakıya gəlməkdən əlavə daim orada televiziya vasitəsilə izləyirlər. Hər bir uşaq kökünün haradan gəldiyini bilməlidir.

Nigar

“Palitra”. -2010 - 2 fevral - N.12.-S.10.

Qadınlar diaspor işində

Gülşən Lətifxan: «Avropa Qadınlar Birliyinin yaradılması istiqamətində iş aparırıq»

Bu gün xaricdə fəaliyyət göstərən diaspor təşkilatları Azərbaycanın tarixi, mədəniyyəti və turizm potensialı ilə bağlı mövzulara həsr olunmuş konfranslar və elmi simpoziumlar keçirirlər. Eyni zamanda xarici kütləvi informasiya vasitələrində Azərbaycan haqqında materialların dərc olunmasına və KİV nümayəndələrinin Azərbaycana gəlməsinə şərait yaradır, onları ölkəmizlə yaxından tanış edirlər. Bugünlərdə ölkəmizdə qonaq olan müəllim, tərcüməçi, hüquqşünas, Azərbaycan Yazıçılar Birliyinin və Hollandiya Yazıçılar, Ssenaristlər və Kinematoqrafçılar Birliyinin üzvü, çoxlu sayda povest, hekayə və ssenarilərin müəllifi, Hollandiya-Azərbaycan Qadınlar Birliyinin sədri Gülşən Lətifxanla həmsöhbət olduq.

Diaspor işində qadınların rolundan danışan G. Lətifxan bildirdi ki, bu yaxınlarda Frankfurtda Avropa Azərbaycanlılar Konqresinin və türk təşkilatları rəhbərlərinin birgə tədbiri keçirilib: «Bu tədbirdə mən Avropa Qadınlar Birliyinin yaradılması və bununla bağlı təşəbbüs qrupunun formalaşdırılmasını təklif etdim. Təklifim tədbir iştirakçıları tərəfindən müsbət qarşılandı. Hazırda işçi qrupu yaradılıb və həmin təklif üzərində iş aparılır. Çalışacağıq ki, Avropanın müxtəlif ölkələrindən - Danimarka, Hollandiya, İsveçrə, Almaniya və başqa ölkələrdən olan bir qrup fəal qadınları Avropa Qadınlar Birliyində toplayaq və maraqlı layihələr həyata keçirək».

Azərbaycan diasporunun bu gün Avropada çox geniş rolu və imkanlarının olduğunu deyən həmsöhbətimiz bildirdi ki, müxtəlif ölkələrdə fəaliyyət göstərən diasporların bir-biri ilə yaxından əməkdaşlıq etməsi vacibdir: «Avropada olan Azərbaycan təşkilatları Avropada Azərbaycanın təqdimatı ilə məşğul olur və eyni zamanda sivilizasiyalararası dialoqlarda bir körpü olaraq özünü təqdim edir. Bu gün Avropada türk təşkilatları ilə azərbaycanlı təşkilatların birgə fəaliyyəti bizim diasporunun irəli sürdüyü məqsədyönlü layihələr çərçivəsində gerçəkləşib. Azərbaycan diasporu hazırda Avropa ölkələrində və toplumda Şərqlə Qərb, Şimalla Cənub arasında bir körpü rolunu oynayır və bu istiqamətdə məqsədyönlü layihələr həyata keçirir».

G.Lətifxan deyir ki, Avropada erməni lobbisinin güclü olmasına baxmayaraq, diaspor təşkilatlarımızın birgə fəaliyyəti ölkəmiz haqqında həqiqətlərin dünyaya çatdırılmasına təkan verir: «Erməni lobbisi yüz ildən çoxdur ki, Avropada kök salıb. Ancaq yeni-yeni qanad açan, möhkəmlənən və ilk addımlarında olan Azərbaycan diasporunun gücü heç də onlardan geridə qalmır. Diasporumuzun işi koordinasiya olunur və bu istiqamətdə daim yeni-yeni layihələr həyata keçirilir. Bu gün Azərbaycan diaspor təşkilatlarının həm türk, həm rus koordinasiya şurası ilə işbirliyi, digər xarici ölkə diasporlarına və millətlərə aktiv özünü təqdimetmə müsbət hal kimi qiymətləndirilməlidir. Bütün bunların bir yaxşı nəticəsi də odur ki, indi Azərbaycan xaricdə 5-10 il bundan əvvəlki kimi tanıdılmır».

Qadınların diaspor işindən danışan həmsöhbətimizin dediyinə görə, azərbaycançılıq ideyasının yayılmasında sivilizasiyalararası dialoqun rolu çox böyükdür: «İki il bundan öncə Bakıda keçirilən "Sivilizasiyalararası dialoqda qadınların rolu" mövzusunda keçirilən forumda iştirak etdim. Həmin forumdan ruhlanaraq xaricdə yaşayan və fəaliyyət göstərən qadınlar diaspor işində daha fəal oldular. Hazırda bizimlə birgə işləyən hollandiyalı və azərbaycanlı xanımlar var. Onların diaspor fəaliyyətində rolu əvəzsizdir».

Qeyd edək ki, Gülşən Lətifxan yazıçıdır. Onun müəllifi olduğu "Azər və Aida" əsəri ictimaiyyət tərəfindən maraqla qarşılanmışdı. Bu barədə danışdıqda Gülşən xanım özünü peşəkar yazıçı hesab etmədiyini dilə gətirdi:«Azər və Aida» hələlik rus və Azərbaycan dillərindədir. Əsərin digər xarici dillərə tərcümə olunması prosesi ləngiyir. Bu səbəbdən əsər Avropada o qədər də yayılmayıb. Tərcümə işi vaxt aparan prosesdir. Buna baxmayaraq, bu əsər oxuyanlar tərəfindən xoş qarşılandı. Hazırda mənim hekayələrim holland dilinə tərcümə olunur. Hollandiyada fəaliyyət göstərən nəşriyyatlarla danışıqlar aparırıq. Əgər razılığa gələ bilsək, onda bir ad altında əsərlərimi toplayıb kitab çıxaracağıq».

Fəxriyyə Abdullayeva
"Mədəniyyət". -2010 - 3 fevral - N.8.-S.4.

"İranda islam rejimi süquta gedir"

Səftər Rəhimli: "Azərbaycan türkləri bu tarixi şansdan yararlanmalı, öz qurtuluşuna nail olmalıdır" Qarşıdan 20-ci əsrin ən dəhşətli faciəsi-ermənilərin azərbaycanlıların başına gətirdiyi Xocalı soyqırımının növbəti ildönümü gəlir. Bəşəriyyəti dəhşətə gətirmiş faciənin 18-ci ildönümündə bir sıra anım tədbirləri keçiriləcək. Dünya Azərbaycanlıları Konqresi Xocalı soyqırımının ildönümünə hazırlaşır. Bu ərəfədə qurumun Bakı ofisinin rəhbəri, tanınmış hərəkatçı Səftər Rəhimli ilə görüşdük. Onunla DAK-ın hazırladığı anım tədbirləri, Güney Azərbaycan türklərinin problemləri Konqresin qarşıdakı qurultayı və digər təşkilati işlərdən danışdıq.

- Səftər bəy, ötən illərə qədər DAK-ın adına iddialı qruplarla problemləriniz vardı. Hazırda vəziyyət nə yerdədir?

- Mən üç aydır ki, DAK-ın Bakı nümayəndəliyinə rəhbər təyin olunmuşam. Məndən öncə bu vəzifədə İsmayıl Ağayev işləyirdi. İsmayıl müəllim yeni bir təşkilat-Diaspora Mərkəzi yaratdı və təklif etdi ki, mən DAK-ın Bakı nümayəndəliyinə rəhbər təyin olunum. İdarə Heyəti məsələyə baxdı və mən nümayəndəliyə rəhbər təyin olundum. Bundan öncə də DAK-da fəaliyyətim vardı. Gənclər qrupu yaradıb, ona rəhbərlik etmişəm. DAK sədrinin müşaviri olmuşam. 2008-ci ildə Almaniyanı Köln şəhərində keçirilən qurultayda isə DAK İdarə Heyətinin üzvü olmuşam. Azərbaycan nümayəndəliyinə gəlincə, qurumla bağlı bəzi planlarım var. Düşünürəm ki, Dünya Azərbaycanlıları Konqresi tarixi ədalətsizliyə məruz qalmış azərbaycanlıların məsələsini beynəlxalq təşkilatlar, nüfuzlu dövlətlər, diplomatik korpus qarşısında yüksək səviyyədə qaldırmağı bacaran bir təşkilat halına gəlib çıxıb. DAK illər öncəki qurum deyil. Konqres hədəfi bəlli, ideoloji cəhətdən bitkin insanların rəhbərlik etdiyi təşkilata çevrilib. Adından da bəllidir ki, DAK konqres halında fəaliyyət göstərir. Qarşıdan gələn qurultaya bir sıra təkliflərim var. Təklif edəcəyəm ki, DAK özünün aşağı palatasını seçsin. Aşağı palata təşkilatın daha çevik fəaliyyəti təmin edən qurumu-yuxarı palatanı seçsin. Yuxarı palata isə digər strukturları yaratsın. Komitələrin yaranmasını təklif edəcəyəm. Düşünürəm ki, DAK-ın siyasi, hüquqi, gənclər və digər komitələri olsun. Təsəvvür edin ki, DAK-ın hüquq komitəsinin sədri gedir xaricdə bir senatorla, konqresmenlə görüşür. Bu, artıq təşkilatın nüfuzundan xəbər verir. Komitələrin rəhbərləri öz komandalarını formalaşdırır. Bu şəkildə təşkilat da böyük görsənir. Bilirsiniz, DAK diaspora təşkilatıdır. Amma eyni zamanda qarşısında hədəfləri olan milli bir təşkilatdır. Azərbaycan yenicə müstəqilliyə qovuşmuş dövlətdir. Amma 60 milyonluq Azərbaycan türkləri tək Azərbaycan Respublikasında yaşamırlar. İran adlanan ölkədə 35 milyon soydaşımız yaşayır. Onların adi milli hüquqları tapdalanır, millətimiz assimilyasiyaya uğrayır. Bir tərəfdə ən böyük problemimiz olan Dağlıq Qarabağ və Ermənistanın təcavüzü var. Bütün bu işlərlə məşğul olan, Azərbaycan həqiqətlərini dünyaya çatdırmağı hədəfləyən təşkilat güclü, çevik olmalı, bütün təzyiqlərə, təpkilərə sinə gərməyi, ayaqda qalmağı, bütöv olmağı bacarmalıdır. Bu baxımdan DAK həm Qarabağ, həm Güney Azərbaycan həqiqətlərini dünyaya yaymalı, həm də ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikası ətrafında birləşməsinə çalışmalıdır. DAK ən böyük diaspora təşkilatı olaraq türk dünyasının inteqrasiyasına çalışmalıdır. Vaxtilə DAK adına iddialı qurumlar mövcud olub. Amma DAK qanuni şəkildə qurultayını keçirib, özünə həmsədrlər seçib. Sonuncu qurultayda tanınmış ziyalımız, millət vəkili Sabir Rüstəmxanlı və Avropada tanınmış güneyli ziyalı Firudin Pərvizniya DAK-ın həmsədrləri seçiliblər.

- Növbəti qurultay nə vaxta planlaşdırılıb?

- DAK-ın növbəti qurultayı ilə bağlı bir neçə təkliflər var. Yəqin ki, qurultaya Avropa ölkələrinin birində keçiriləcək. Qurultayın Vyanada keçirilməsi təklif olunur. Son illər baş verən neqativ proseslərdə DAK-dan bəzi nüfuzlu, dəyərli ziyalılarımız gediblər. Gedənlərin hər birinə hörmətimiz var və DAK-ın qapıları hər kəsin üzünə açıqdır. Qurultayda hamını dəvət edəcəyik. DAK həmişə Azərbaycanın ümummilli problemlərinə diqqətlə yanaşıb. Güney Azərbaycanla, Qarabağla, Borçalı, Dərdəndlə bağlı tədbirlərimiz olub, bundan sonra da olacaq. Doğu Türküstanla bağlı tədbirlərimiz keçirilib. DAK əvvəllər yalnız qurultaydan qurultaya daha çox fəaliyyəti gözə dəyirdi. Artıq bu təşkilatın mahiyyətini bilən insanlar konqresdə təmsil olunur. DAK-da Azərbaycanın hər iki tayından olan nüfuzlu ziyalılar, aydınlar var.

- DAK-ın Güney Azərbaycanla bağlı fəaliyyəti nə yerdədir? Milli Hərəkatla təmaslarımız varmı?

- DAK ona çalışan təşkilatdır ki, Güney Azərbaycanda xalq öz ana dilində təhsil almaq hüququ əldə etsin. Azərbaycan türklərinin hüquqları tanınsın, azərbaycanlılara "ikinci sort" millət kimi baxılmasın. Hazırda İranda baş verən hadisələr onu deməyə əsas verir ki, Azərbaycan türkləri üçün tarixi şans yaranıb. İranda sistem böhranı var. İslam reyimi süquta doğru gedir. Belə bir situasiyada Azərbaycan türkləri mümkün qədər korrekt davranmalı, molla rejiminin tuzağına düşməməlidir.

- Demək istəyirsiniz ki, Güney Azərbaycan Milli Hərəkatı yaşıl inqilaba dəstək verməməlidir...

- Onsuz da Güney Azərbaycan Milli Hərəkatı yaşıl inqilabın yanında deyil. Yaşıl inqilabın lideri Mirhüseyn Musəvi azərbaycanlıdır, onun dediklərinin əksəriyyəti doğrudur. Onun fikirləri İran gəncliyinin, İranın dəyişməsini istəyən insanların mövqeyidir.

Dünyanın tərəqqi istəyən xalqları da İranın dəyişməsini arzulayır, istəyir ki, İran dünya xalqlarının təhlükəsizliyinə təhlükə yaratmasın. Amma unutmaq olmaz ki, Mirhüseyn Musəvi bu reyimin öz balasıdır. Onun silahdaşları kimlərdir? Məhəmməd Xatəmi, Əli Əkbər Haşimi-Rəfsəncani İran rejiminin ən sadiq rəhbərləri olublar. Onların dövründə Azərbaycan türklərinin hüquqları daha çox tapdalanıb. Güney Azərbaycan türkləri bunu unutmamalıdır. Yaşlı inqilabın istəyi nədir? İranı dəyişmək. Necə dəyişmək? Onlar İranı necə görmək istəyir? Onların quracağı "Yeni İran"da Azərbaycan türklərinin statusu necə olacaq? Azərbaycan türklərinin assimilyasiya siyasəti dayanacaqmı? Məsələ budur.

Mənə elə gəlir ki, Azərbaycan Milli Hərəkatı öz yolundan sapmamalı, panfarsizmin əlində alətə çevrilməməlidir. Güney Azərbaycan türkləri yaşıl inqilaba qoşulsa, enerjisi boşuna xərclənəcək, Güneyin qurtuluş hərəkatı daha neçə illər ertələnəcək. Güney Azərbaycan Milli Hərəkatı öz hədəfini bilən hərəkatdır. Bizim istəyimiz nədir? Quzeyli, güneyli olaraq istəyirik ki, tarixi ədalətsizliyə son qoyulsun. Azərbaycan xalqı iki yerə bölünüb, bu ədalətsizlik aradan qaldırılmalıdır. Nə vaxta qədər bizim xalq parçalanmış halda yaşayacaq? Azərbaycanın bütövləşməsi həm də digər problemlərimizin həllinə işıq sala bilər. Əbülfəz Elçibəyin bir söz vardı: "Qarabağın həlli Təbrizdən keçir". Həqiqətən də Qarabağ problemlərinin həlli, türk dünyasının daha yaxından inteqrasiyası Güney Azərbaycanın İran əsarətindən qurtulmasından keçir. Farslar özünə demokratik dövlət qurur, qursun. Bizə öz torpaqlarımız, xalqımızın assimilyasiyadan qurtulması lazımdır. Bunu isə bizə asan yolla verməyəcəklər.

Mübarizəmizi davamlı etməli, Güney Azərbaycanın qurtuluşuna nail olmalıyıq. Yayda, prezident seçkiləri zamanı Təbrizin Musəviyə dəstək verməməsi bəzilərini təəccübləndirmişdi. Amma inqilablar şəhəri Təbriz müdrikdir. Bir işin mahiyyətində hiylə olunca, İranın rəngini dəyişib, özünü qoruyub saxlamaq olunca Təbriz bu işə qol qoymaz. Qoymadı da. DAK Güney azərbaycanlıların milli qurtuluş hərəkatına öz dəstəyini verəcək. Biz çalışırıq ki, Azərbaycan xalqının "parçalanmış xalq" statusunu əldə edək. Dünya bilsin ki, bu xalq bir olub, iki imperiya arasında parçalanıb. Qərb dövlətləri İranı dəyişmək istəyirlər. Amma onların görmək istədiyi İranı bizim maraqlarımıza cavab verəcəkmi? İslam rejiminin yerində qurulacaq başqa bir fars reyimi Güney Azərbaycan türklərinin, bəlucların, kürdlərin hüquqlarını tanıyacaqmı? Panfarsizmin mahiyyətini hər kəs bilir. Bilirik, panfarsizm rəngini, cildini dəyişər, amma hakimiyyəti, dövləti əldən verməz.

O zaman hüquqlarımız yenə pozulacaqsa, dilimiz sıxışdırılacaqsa "vahid İran", "demokratik İran" bizim nəyimizə lazımdır? Azərbaycan türkləri öz hüquqları uğrunda sona qədər mübarizə aparmalı, milli qurtuluşa nail olmalıdır. Bir şeyi dəqiq bilmək lazımdır. Nə qədər ki panfarsizm var, İran dövləti var və güclüdür vahid Azərbaycanın reallaşması sual altındadır. Biz türk düşüncə sistemli vahid Azərbaycana nail olmalıyıq. Rəngi necə olur-olsun fars dövləti, İran dövləti Azərbaycan türklərinin hüquqlarını tanımayacaq, milli kimliyimizi danacaq, dilimizi sıxışdıracaq. Yaşıl hərəkatın rəhbərləri İran dövlətinin adından "islam" sözünü götürüb, "İran cümhuriyyəti" yaratmaq istəyirlər.

Bu, Azərbaycan türklərinin və digər qeyri-fars millətlərinin maraqlarına cavab vermir. Güney Azərbaycan Milli Hərəkatının bəzi nümayəndələri İranın federallaşmasından danışırdılar. İran rejiminin hələ dəyişiklik istəyən "mütərəqqi" qüvvələri belə federasiyadan danışmır, İranın vahidliyini, unitarlığını əsas götürürlər. İrandakı reyimin molla və ya qalstuklu texnokrat olmasının bizim üçün fərqi nədir ki? Bizə xalqımızın müstəqilliyi, qurtuluşu lazımdır. Bu da Milli Hərəkatını güclənməsindən, milli iradənin qələbəsindən keçir.

Elman Cəfərli
"Olaylar". -2010 - 3 fevral - N.16.-S.7

Ukraynadakı Azərbaycan diasporundan ermənilərə ciddi zərbə

Azərbaycan və Ukrayna Dövlət televiziyalarının birgə çəkdiyi "Qarabağ tarixinin burulğanında" filmi böyük əks səda doğurdu

Azərbaycan və Ukrayna dövlət televiziyalarının birgə istehsalı olan "Qarabağ tarixin burulğanında" adlı film erməni diasporunun ciddi narazılığı ilə qarşılanıb. Film hələ ilk dəfə Ukraynanın dövlət televiziyasında efirə getdikdən sonra ermənilər birinci kanala etiraz məktubları göndəriblər. Filmdə səslənən fikirlərin, ortaya qoyulan tutarlı faktların həqiqətə uyğun olmadığını iddia edən ermənilər onların da mövqeyinin işıqlandırılması tələbini irəli sürüblər. Erməni diasporu bu xəyalla yaşadığı vaxt isə gözlənilmədən ikinci zərbəylə üzləşiblər. Belə ki, "Qarabağ tarixin burulğanında" filmi ikinci dəfə Ukraynanın dövlət televiziyasında yayımlanıb. Filmin xüsusilə Xocalı soyqırımının 18-ci ildönümü ərəfəsində – fevralın 21-də təkrar efirə verilməsini ermənilər hiddətlə qarşılayıblar. Ukraynadakı Azərbaycan diasporu isə təbii ki, ermənilərlə informasiya müharibəsindəki bu uğurdan məmnunluğunu gizlətmirlər. Həqiqətən Ukraynada Xocalı həftəliyi çərçivəsində keçirilən tədbirlərdə iştirak etmək üçün sözügedən ölkədə olarkən belə bir tarixi faktlarla zəngin, erməni vəhşiliyini özündə əks etdirən kəsərli bir filmin Ukraynanın dövlət televiziyasında efirə verilməsini görüb həm təəccübləndim, həm də qəhərimi gizlədə bilmədim. Mən indiyədək Xocalı faciəsini dəfələrlə öz yerli televiziya kanallarımızda izləmişəm. Amma bilmirəm başqa ölkədə olduğumdanmı, yaxud başqa bir ölkənin televiziyasında efirə getdiyindənmi, sanki filmə baxdıqdan sonra Xocalı faciəsini yenidən yaşadım. Donetsk şəhərində bütün azərbaycanlılar bir-birilərinə telefon açıb filmlə bağlı təəssüratlarını bölüşürdülər. Hamı belə bir filmin ərsəyə gəlməsində çəkiliş qrupuna göstərdiyi maddi və mənəvi dəstəyə görə Dünya Azərbaycanlıları Konqresinin Ukrayna nümayəndəliyinin rəhbəri Möhlət Hüseynova minnətdarlıqlarını bildirirdilər. O isə dərindən köksünü ötürüb "Biz bunu çoxdan, özü də lap çoxdan etməliydik. Deməli, istək olsa ,təşəbbüs olsa hər şeyə nail olmaq olar" – deyə cavab verirdi. Zənglər içərisində bir ukraynalı qadının ağlaya-ağlaya danışığını eşitdim. Möhlət müəllimə deyirdi: "Həqiqətənmi Azərbaycanda belə bir vəhşilik törədilib. Bu, həqiqətən vəhşilikdir, bu insanlığa qarşı törədilən böyük bir cinayətdir. Mən bu kadrlara baxdıqdan sonra yata bilməyəcəyəm. Uşaqları, qadınları, qocaları necə öldürmək olar". Möhlət müəllimin isə gözlərində bir damla yaş topalanıb qalmışdı. Yummağa belə ehtiyat edirdi. Bəlkə də ürəyində fikirləşirdi ki, ağlamaq kişiyə yaraşmaz. Siqaretini yandırıb qəhərli-qəhərli bir söz işlətdi: "Bu faciənin dünya ictimaiyyətinə vaxtında çatdırılmamasına görə hamımız günahkarıq". Elə bundan sonra başladı filmin yaranma tarixcəsindən danışmağa.

"Filmin çəkilməsi ideyasını Azərbaycan dövlət televiziyasının Ukrayna və Şərqi Avropa ölkələri üzrə nümayəndəliyinin rəhbəri Möhsüm Qədiroğlu irəli sürüb. Mən isə o zaman sadəcə, əgər bunu eləmək mümkünsə, əlimdən gələni əsirgəməyəcəyimi söyləmişdim. Sözün düzü nə vaxtsa Dağlıq Qarabağın tarixi, Xocalı faciəsi, bir sözlə ermənilərin son iki əsrdə Azərbaycan xalqının başına gətirdikləri faciələri, ölkəmizə qarşı yürütdükləri işğalçılıq siyasətini özündə əks etdirən belə bir filmin Ukrayna televiziyasında, özü də dövlət televiziyasında efirə verilməsini ağlıma belə gətirməzdim. Amma Möhsüm müəllimlə danışığımızdan bir iki ay sonra mənə zəng olundu və deyildi ki, çəkiliş qrupu filmi çəkmək üçün Azərbaycana getməyə hazırdı. Mən sadəcə onların Azərbaycana gedib-gəlmələrini, orada qalmaq və digər xərcləri üzərimə götürdüm. Hətta özüm də onlarla Bakıya, oradan isə Ağdama və Tərtərə, bir sıra rayonlara getdim. Qaçqın düşərgələrində çəkilişlər aparıldı. Azərbaycan televiziyasının arxivləri ukraynalı jurnalistlərin üzlərinə açıldı. Ukraynalı jurnalistlər təkcə bizim faciəli tariximizlə deyil, həmçinin qonaqpərvərliyimiz, zəngin mədəniyyətimiz, qədim adət ənənələrimiz, əsasən də xalqın dövlət başçısına sonsuz hörməti və məhəbbəti ilə tanış oldular. Və nəticədə belə bir tarixi film ərsəyə gəldi. Film efirə verilməmişə qədər onun Ukrayna dövlət televiziyasında göstəriləcəyinə inana bilmirdim. Bu mənada, mən Ukraynada yaşayan yüz minlərlə azərbaycanlı adından filmin yaradıcı qrupuna, Azərbaycan və Ukrayna dövlət televiziyalarının rəhbərlərinə dərin minnətdarlığımı bildirirəm".

"Xocalıya ədalət" kampaniyası çərçivəsində Kiyev şəhərində keçirilən tədbirdə Azərbaycan televiziyasının Ukrayna və Şərqi Avropa ölkələri üzrə xüsusi müxbiri Möhsüm Qədiroğlu ilə də görüşdük. İndiyədək Azərbaycanla Ukrayna dövlət televiziyalarının birgə layihələrinə əsasən Azərbaycan haqda 6 sənədli filmin çəkildiyini bildirən Möhsüm Qədiroğlu efirə getməsi ilə Ukrayna ictimaiyyətində böyük əks-səda, erməni diasporu tərəfindən isə etirazla qarşılanan "Qarabağ tarixin burulğanında" filminin yaranma tarixcəsindən danışdı:

– Düzü, ilk günlər Ukraynanın dövlət televiziyasının rəhbərliyini Qarabağın tarixi ilə bağlı filmi hazırlamağa razı salmaq heç də asan başa gəlmədi. Buna baxmayaraq, danışıqları vaxtaşırı davam etdirib, ermənilərin həqiqətən də Azərbaycan xalqının başına gətirdikləri faciələri, Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu, ümumiyyətlə, indiki Ermənistan dövlətinin Azərbaycanın əzəli torpaqları üzərində qurulduğunu bir sıra əyani vəsaitlərin və xarici mənbələrin vasitəsi ilə onlara çatdırıb ümumi rəy yarada bildik.

“Hə” cavabı alınandan sonra biz çəkiliş qrupu ilə birgə Azərbaycana getdik və son olaraq belə bir tarixi filmi istehsal edib 48 milyonluq Ukrayna xalqına təqdim etdik. Nəzərinizə çatdırım ki, bu filmlər Azərbaycanla Ukrayna televiziyalarının birgə layihələri əsasında çəkilir. Mən fürsətdən istifadə edib filmin başa gəlməsinə görə Azərbaycan Teleradio Verilişləri QSC-in sədri Arif Alışanova, Ukrayna Milli televiziyasının prezident Vasili İlaşuka, o cümlədən çəkiliş qrupuna göstərdiyi maddi və mənəvi dəstəyə görə Dünya Azərbaycanlıları Konqresinin Ukraynadakı nümayəndəliyinin rəhbəri Möhlət Hüseynova dərin minnətdarlığımı bildirirəm

– Film efirə getdikdən sonra erməni diasporu bərk narahat olub Bu haqda nə deyə bilərsiniz?

– Bəli, Ukraynadakı erməni diasporu öz etirazlarını bildirib. Amma Ukrayna dövlət televiziyasının onlara cavabı da birmənalı olub Əgər Qarabağda yaşamağınızın 150 ildən o tərəfə tarixi varsa, gəlin, sizin haqda da film çəkib göstərək. Mənə elə gəlir ki, son illər Azərbaycan prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində dünyanın bütün ölkələrində həyata keçirilən tədbirlər ermənіləri öz yalan və uydurmaları ilə üz-üzə qoyub. Məhz bizim bu filmdə də ermənilərin xalqımıza yönəlik tarixi cinayətləri olduğu kimi Ukrayna ictimaiyyətinə təqdim olunub.

Filmə ssenarini Ukrayna dövlət televiziyasının aparıcı jurnalisti Georgi Spasokukotski və Azərbaycan televiziyasının Ukrayna və Şərqi Avropa ölkələri üzrə xüsusi müxbiri Möhsüm Qədiroğlu yazıblar. Əsas yüklərdən biri də rejissorlar İqor Rıjenko və Anar Tahirovun üzərinə düşür. Filmi peşəkar səviyyədə hazırlamaq üçün gecəsini gündüzünə qatan bu dörd istedadlı jurnalistin səyi nəticəsində ortaya çox keyfiyyətli məhsul qoyulub. Yaradıcı heyət təkcə apardığı çəkilişlərlə deyil, həm də yerli və xarici telekanalların arxiv materiallarından istifadə etməklə Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəbləri, xalqımızın başına gətirilən müsibətlərlə bağlı əsl həqiqəti tamaşaçıya çatdıra biliblər.

Sənədli filmin təqdimat mərasimi fevralın 18-də keçirildi, elə həmin gün axşam milyonlarla ukraynalı televiziya vasitəsilə ermənilərin törətdiyi vəhşiliklərə şahid oldu. Bəlkə də sıravi tamaşaçı üçün 30 dəqiqəlik bu filmin efirə verilməsi asan görünə bilər. Amma, bir daha qeyd etmək lazımdır ki, bu iş ağır zəhmət, uzunmüddətli çətin danışıqlar nəticəsində ərsəyə gəlib. 48 milyon əhalisi olan Ukraynanın sıradan bir kanalında deyil, dövlət televiziyasında Dağlıq Qarabağ, yəni onlar üçün yad bir ölkənin üzləşdiyi problemlə bağlı obyektiv bir filmin göstərilməsi ermənilərlə apardığımız informasiya mübarizəsində ciddi bir uğur kimi qiymətləndirilməlidir. Bilənlər bilir ki, qardaş Türkiyəni çıxmaqla bu günə qədər heç bir xarici ölkənin televiziyasında erməni vəhşilikləri, Qarabağ həqiqətləri ilə bağlı əsl həqiqətlər tamaşaçıya çatdırılmayıb. Ukraynada yaşayan üç soydaşımızın, diasporumuzun ən fəal nümayəndələrindən olan Möhlət Hüseynovun, jurnalistlər Möhsüm Qədiroğlunun və Anar Tahirovun fədakarlığı nəticəsində bir ilkə imza ata bildik...

Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyev də bizimlə söhbətində belə bir filmin Ukraynanın dövlət televiziyasında göstərilməsini mühüm hadisə kimi dəyərləndirdi. O, bir müddət əvvəl Ukraynanın özəl “İnter” telekanalında Qarabağla bağlı qeyri-obyektiv verilişin yayımlanmasına diqqət çəkdi və vurğuladı ki, “Qarabağ tarixin burulğanında” filminin dalbadal iki dəfə efirdə göstərilməsi erməni diasporuna ağır zərbə olub: “Azərbaycan və Ukrayna dövlət televiziyalarının birgə layihəsi əsasında çəkilmiş bu film həm son iki əsrdə ermənilərin Azərbaycan xalqına qarşı vəhşilikləri haqda Ukrayna ictimaiyyətinə böyük bilgilər verdi, həm də erməni diasporunu narahat etməklə tarixi cinayətlərindən nəticə çıxarmağa vadar etdi. Əlbəttə, erməni diasporu narahat olacaq. Onlar tarixi cinayətlərinə görə dünya birliyi qarşısında cavab verməlidirlər”.

Ukraynadakı diaspor təşkilatlarımızın fəalları da eyni fikirdədirlər.

Bəli, Azərbaycan Ukrayna və Azərbaycan televiziyalarının timsalında ermənilərə qarşı informasiya müharibəsində növbəti uğurunu əldə etdi. Ümid edirik ki, digər ölkələrdəki fəaliyyət göstərən televiziya nümayəndəlikləri və diaspor təşkilatlarımız da Ukraynada təməli qoyulan bu işi layiqincə davam etdirəcəklər.

Aydın Bağırov, Bakı-Kiyev-Bakı
“525-ci qəzet”.-2010 - 27 fevral - N.38.-S.8.

Neftin iyi çoxlarını Azərbaycana aşiq edir

Almaniyada yaşayan azərbaycanlı şairə Nuridə Atəşi "Azadlıq" a müsahibəsi:
Vətən aşiqləri cəzalara, neft aşiqləri mükafatlara layiqdirlərmi?
«Məni yüz ildən sonra oxuyacaqlar, yüz ildən sonra anlayacaqlar, yüz ildən sonra bəlkə də sevəcəklər»
N. Atəşi
Azərbaycanı indi sevmək çox asandır…

Almaniyada yaşayan azərbaycanlı şairə Nuridə Atəşi "Azadlıq" a müsahibə verib:

- Nuridə xanım, Almaniyadan Azərbaycan necə görünür?

- Adətən görünmür. Almaniyanın başı indi ölkəsini böhrandan necə çıxarmağa qarışıb. Indi onlar sarı-yaşıl partiyaların (CDU və FDP) koalisiyasından sonra ölkəni birlikdə idarə etməklə məşğuldur. Hakimiyyət Bundestaq seçkiləri ilə zatən dəyişdi. Azərbaycanla, Qafqazla məşğul olan millət vəkillərinin çoxu seçilmədi. Başqa dövlət orqanlarında strukturlarda köklü dəyişikliklər oldu və demək olar, hamısı təzələndi. Bu anlamda indi heç görünmür, göründüyü zaman isə açığı çox zaman neqativ görünür. Bəzən də ortaya Azərbaycanın mədəniyyətindən, tarixindən anlamayan alman "azərbaycanşünaslar" çıxardırlar. Onlar da bu etibardan sonra tez-tələsik "professionallaşaraq" Azərbaycan haqda kürsülərdən moizələr oxumağa başlayırlar və bir göz qırpımında Azərbaycanın ekspertinə çevrilirlər. Amma onların hər addımında şəxsi mənfəətlərinin olmasını ağıllı və idraklı insanlar dərhal hiss edirlər. Bu adamlar açıq-aşkar hətta Azərbaycan üçün lobbiçilik də edirlər. Və səndə ani olaraq bir sual ortaya çıxır. Bu kimdir, haradan peyda oldu? Bu niyə Azərbaycana birdən-birə belə dəlicəsinə aşiq oldu? 10-15 il bundan qabaq o haralarda idi və Azərbaycan üçün nə edirdi? Almaniyadan Azərbaycanı görmək onu göstərə bilmək qədər çətindir. Azərbaycanı Sovetlərin zamanında, Qarabağ müharibəsi zamanında, Xocalı faciəsi günlərində, çətin vəziyyətlərində sevmək lazım idi. İndi yığışıb belə tədbirlər keçirmək, kürsülərdən pafoslu şüarlar yağdırmaq böyük fədakarlıq istəmir. Azərbaycanı indi sevmək çox asandır. Çünki indi dövlətin pulu var, nefti var. Neftin iyi çoxlarına Azərbaycanı sevdirir. Təəssüf ki, bu sevgilər Azərbaycanı çox vaxt məst edir və əsl sevgiləri təmənnalı sevgilərdən seçə bilmir. Yeni Azərbaycan aşiqləri isə neftin qoxusundan və səxavətli ölkənin comərdliyindən şirniklənərək kürsülərdən (amma hansı kürsülərdən) yağdırdıqları sağlıqlarla, tostlarla yalnız özlərini məst edə bilirlər. Amma belə sevgilərin ömrü uzun olmur. Bunu təcrübələrimiz göstərir, zaman-zaman təsdiqləyir və getdikcə də daha çox edəcək.

- Siz bir şair kimi Almaniyada özünüzü təsdiq etmirsiniz. Sizcə, Azərbaycan Respublikası demokratik ölkə olaraq özünü Almaniyada təsdiq edə bilibmi?

- Yox, əlbəttə. Bunu belə tez gözləmək, buna inanmaq çox böyük sadəlövhlük olardı! Avropa və Almaniya illərdir çalışır Azərbaycanı demokratik yola çəksin və bu yolda inkişaf etdirsin. Bu, Azərbaycan üçün əlbəttə, çox da asan deyil. Amma Azərbaycan həmişə çalışır ki, özünü demokratik ölkə kimi göstərsin. Bu çox yaxşıdır. Amma buna Almaniyanı və Avropanı inandırmaq həmişə Azərbaycana müyəssər olmur. Bunun üçün ölkəmiz illərlə öz üzərində ciddi işləməlidir.

Cənnət də azadlıq kimidir, onu qazanmaq lazımdır

- Bu qədər maddi resursuna baxmayaraq Azərbaycan nəyə görə "kiçik cənnət" ola bilmir?

- Cənnət qapılarını hələlik ölkəmizin üzünə açmayıb. Axı cənnətə hər insanı və hər ölkəni də buraxmırlar. Cənnətə düşmək üçün insan gərək ömrü boyu xeyirxahlıq eləsin, gözəl işlər görsün. Cənnət də azadlıq kimi verilmir, onu qazanmaq lazımdır. Amma mən pessimist deyiləm. Cənnət bir gün ölkəmizə qucağını açacaqdır. Bunu biz görməsək də övladlarımız, nəvələrimiz mütləq görəcəklər.

Jurnalistlərin həbsi başımızı hər yerdə aşağı edir

- Qənimət Zahid, Eynulla Fətullayev və bloggerlər həbs edilib. Bu həbsə münasibətiniz necədir?

- Bütün demokratik, tərəfsiz, Azərbaycanın adının uca tutulmasını sevən idraklı insanlar kimi əlbəttə, mən də buna çox heyfsilənirəm. Bu, Azərbaycanın beynəlxalq imicinə çox zərər vurur və başımızı hər yerdə aşağı, dilimizi isə çox zaman qısa edir. Mən Jurnalistlər Birliyinin Almaniyada və Avropada nümayəndəsiyəm. Alman jurnalistlər Birliyi ilə əməkdaşlıq edirəm, alman mətbuatı, mediasında öz çəkim var. Müxtəlif beynəlxalq təşkilatların nümayəndəsiyəm. İnanıram və arzu edirəm ki, Azərbaycan dövləti böyüklük edərək bu jurnalistlərin azadlığa buraxılmasına çalışacaq. Amma bir şeyi də gəlin öz aramızda etiraf edək ki, insanların şəxsi həyatını məsxərəyə salmaq, başqalarının şəxsiyyətini təhqir etmək, insanları ləkələmək əsl jurnalistliyə, heç insanlığa da yaraşmayan sifətlərdir. Təbii ki, söhbət həbsdə olan jurnalistlərdən getmir. Mən bunu jurnalistikamızın problemi kimi qeyd edirəm.

Göyə sovrulan pullar

- Hazırda Almaniyada Azərbaycanı təmsil edənlər kimlərdir? Siyasi, iqtisadiyyat və mədəniyyət sahəsində.

- Bütün hakimiyyət demək olar ki, hazırda bir-iki qrupun əlindədir. Mən bunu sadəcə olaraq düzgün saymıram və əvvəlcədən də qəbul etməmişəm. Almaniyada diaspor sahəsində on illərlə çalışan fədakar diaspor üzvlərimiz var. Onları kənara itələyərək yeni "azərbaycanşünaslar" yetişdirməyə çalışmaq cəhdləri qəbuledilməzdir. Əlbəttə, burada maraqlar çox müxtəlifdir, gəlin bu dərinliklərə baş vurmayaq, yoxsa qəzetin səhifələri tutmaz bunları. Bundan başqa, əlbəttə, Almaniyanın və Avropanın digər böyük şəhərlərində çoxlu vəsaitlər ayrılaraq dəbdəbəli ofislər də açılır. Lakin alman və Avropa siyasətindən uzaqlaşdırılmış adamlar üçün belə böyük vəsaitlər ayırmaq əhəmiyyətsiz investisiyadır və göyə sovrulan paralardır (Əlbəttə, bu paraların hesabını sormaq mənim ixtiyarımda deyil). Belə insanların Almaniya və Avropa dövləti qarşısında artıq heç bir məsuliyyəti yoxdur, onlar qatığa bu gün ağ deyə bilirlər, sabah qara.

Öz dövlətləri onların Azərbaycan neftinin qoxusundan bihuş olduqlarını, çoxusunun şəxsi mənafeləri naminə bunları etdiklərini gözəlcə dərk edir və ehtiyatla onlara sərhəd qoyurlar. Bu halda yalnız kimlərisə tərifləmək, günlük siyasəti dəstəkləmək, yaxud da prezidentin və nazirlərin qarşısında onları tərifləyib göyə qaldırmaq üçün (belə tərifləri biz etmədiyimiz üçün kənarlaşdırılırıq) bunları saxlamağa doğrudanmı Azərbaycan dövlətinin ehtiyacı var? Bu sual məni həmişə düşündürür, lakin fikirləşəndə ki, gur çaylar tez axıb keçir və bütün, çör-çöpü, çürük kötükləri aparıb gedir, o zaman indilik susmağa üstünlük verirəm.

İnanın ki, belə "ekspertlər", daha doğrusu yeni aşiqlər, əlbəttə, Azərbaycan aşiqləri yox, neftin aşiqləri Azərbaycanın nə tarixində, nə mədəniyyətində, nə də siyasətində yaşayacaqlar. 5-10 ildən sonra onların isimləri heç bir yerdə çəkilməyəcək. 10-15 il bundan əvvəl olan, ortada meydan sulayanlardan bir iz qalmadığı kimi. Bu barədə arxivim çox zəngindir.

Bunlar hamısı bizim gözümüzün qarşısında baş verir. Mən düz 15 ildir bu səhnələri ən ön cərgədə sakitcə oturaraq, amma çox diqqətlə izləyirəm və 21 əsr mühacir tariximizin yaddaşına olduğu kimi köçürməyə çalışıram. Yazar olaraq bu mənim borcumdur. Bu barədə hətta ayrıca kitab yazıram. İsimlərlə, faktlarla və açıq-aşkar müsahibələrlə. Əminəm ki, həm Azərbaycan, həm də Almaniya oxucuları üçün çox maraqlı və orijinal kitab olacaq.

Çoxlu rəqib, çoxlu sərvət deməkdir

- **Nuridə xanım, sizi hələ də qəbul etməyənlər var. Hətta sizdən "yuxarılara" donoslar da gedib**.

- Bilirəm. Mən neftin aşiqi deyil, cənnət ölkəmin, demokratik dövlətimin və firavan xalqın aşiqi olduğum üçün bunlar məni qətiyyən narahat etmir. Əsəd Bəydən də donoslar gedirdi. Ağıllı adamlar bunları kimin yazdığını, daha doğrusu yazdırdığını və nə üçün yazdırdığını gözəl anlayırlar. Axı baxın, mənim bu baxışlarımı, bu fikirlərimi oxumaq, onları dəstəkləmək, qəbul eləmək, intiqam hisslərinə dərhal qapılmamaq hələ üstəlik, mənimlə iş birliyi qurmaq hər kəsin qüdrətində ola biləcək böyüklük deyil, bunu gözləyəcək qədər sadəlövh deyiləm artıq! Mən belə yazıları "Ayna" qəzetində çox yazırdım, daha çox demokratiya, düzgünlük tələb edirdim.

Yeni və təcrübəsiz "güclü kresloların" sayəsində göydən qəfil zənbillə qarşımıza salınıb bizə dərs keçməyə gəlmiş "Ustadlardan" düzgünlük və obyektivlik tələb edirdim. Bu, əlbəttə, onları çox narahat etdi. Məni pisləməklə, donoslarla susdurmağı bir Amazondan gözləmək çox zəiflik və siyasi təcrübəsizlik idi. Bütün bunlar bilsəniz məni nə qədər güclü və mübariz edir. Almanlar demiş, "Çoxlu rəqib, çoxlu sərvət deməkdir". Bu sərvətlər məni daha böyük nailiyyətlərə itələyir. Bu, daha böyük DƏSTƏKDİR!

Vətən, yoxsa neft aşiqləri…

- Bəli, siz bir alman yazarı olaraq "Müasir alman poeziyası və nəsri" analogiyasına salındınız. Avropanın aparıcı kişi və qadınları ensiklopediyasına düşdünüz. Alman ədəbiyyatı tarixində ilk dəfə Azərbaycan klassik ədəbiyyatının alman dilinə tərcüməçisi kimi əbədiləşdirildiniz. Sizin 15-ci kitabınız olan "Od qızı" Almaniya kitab bazarında uğurla satılır, hətta bir çox alman şairləri oradakı bəzi şerləri dünya ədəbiyyatı səviyyəsində şerlər olaraq qiymətləndiriblər. "Od qızı" əsərinizə 9 hissəli simfoniya yazılaraq Almaniyanın Detmold şəhərində Nordrhein - Westfalen Ölkə Musiqi Şurası ve Nordrhein - Westfalenin dəstəyi ilə "Horizonte" ansamblının ifasında "Od qızı" (Feuertochter) adlı konsert verilmişdir. Əsərləriniz Drezden Dövlət kitabxanasında (Dədə Qorqudun əlyazması ilə bir şöbədə) və Leypsiq Dövlət kitabxanasında kataloqlaşdırılmışdır.

- Görürsünüzmü, deməli, rəqiblərin olması insana həmişə zərər vermir. Onlar insanı daha güclü və əzmli edir. Rəqiblərimə hər zaman minnətdaram. Mənə mübarizə ruhunu bağışladıqları üçün. Amma hər halda hamının susmasına və susdurulmasına çalışmaq cəhdi məncə, gərəksiz bir alətdir. Cəmiyyət içində tanınan, xüsusən də Avropada simi, ağırlığı olan insanların susdurulması və müxtəlif böhtanlarla ləkələnməyə çalışması cəhdləri doğru olmadığı qədər də zəiflik və siyasi təcrübəsizlikdir.

Zatən ağıllı insanlar hər şeyə və hər kəsə özləri qiymət verməyi bacarırlar. Zaman kimin haqlı, kimin haqsız olduğunu gec-tez ortaya qoyur. Amma hər halda biz göz qabağındayıq. Bizə edilən bu cür təzyiqlər və maneələr inan ki, Azərbaycanın demokratiyasına jurnalistləri həbs etməkdən də çox zərər vurur. Bizim Kanslerimiz belə şeylərə çox diqqət yetirir və bizim haqlarımızı çox müdafiə edir.

Mən Əsəd bəyin tədqiqatı ilə məşğul olarkən Romada Elxan Əliyev adlı bir dəyərli soydaşımızla görüşdüm. O, BMT-də məsul vəzifədə çalışır. Mən Pozitanoya Əsəd Bəyin (Qurban Səid) məzarını, İtaliya dövlət səviyyəsində rəsmi icazəsi ilə, onun son vəsiyyətinə uyğun olaraq üzü Məkkəyə dəyişdirdim. O zaman Elxan Əliyev bir çox dəyərli azərbaycanlıları və hətta İmam belə dəvət edərək Romadan Pozitanoya gəldi. O, BMT idarəsində yüksək vəzifəyə seçilərkən bir çox ölkə rəsmilərindən ona təbriklər gəldi. Amma bizim Romadakı səfirliyimiz ona nəinki təbrik göndərdi, hətta onu Azərbaycan tədbirlərinə belə dəvət etmirlər. Ona görə ki, o, neft aşiqi deyil, Azərbaycana gözəl və demokratik gələcək arzu edir, bu yolda öz dəstəyini ölkəsinə təklif edir. Axı hamımız yalançı, riyakar, ikiüzlü, əqidəsiz olsaq, susdurulsaq, mənəviyyatsızlaşsaq necə demokratik, güclü və sağlam nəsil yetişdirə bilərik? Gənc nəsil qorxaq və yaltaq böyüməməlidir. Axı biz Azərbaycanın düşməni deyilik, o yeni Azərbaycan aşiqlərindən, pardon, neft aşiqlərindən vətənimizi daha çox sevir, ölkəmizin, dövlətimizin gələcəyi üçün daha çox həm də təmənnasız can yandırırıq.

Bizim gözümüz onların bərəlmiş gözləri kimi neft quyularında deyil, biz ölkəmizdən, dövlətimizdən sadəcə sevgi və obyektivlik gözləyirik. Bunu ummağa bizim haqqımız var axı! Neftin pulları da bir gün tükənəcək, yalançı aşiqlərin də Azərbaycan sevdası bir gün keçəcək, lakin bizim vətən uğrunda çabalarımız da, sevgilərimiz də, fədakarlıqlarımız da son nəfəsimizə qədər bitməyəcək. Vətən aşiqləri cəzalara, neft aşiqləri mükafatlaramı layiqdir?

- Estetikasıyla Qərbə dönüş edən Nuridə xanım Azərbaycanın yolunu necə görür? Qərb demokratiyasına, yoxsa Şərq mütləqiyyətinə?

- Qərb demokratiyasına öyrəşmək Azərbaycan üçün çox çətindir. Əlbəttə, Azərbaycanda çox demokratik insanlar, qərb mədəniyyətini düzgün dərk edən insanlar var. Amma bütünlükdə xalq Qərb demokratiyasını qəbul etməyə hazır deyil. Şərq despotizmi Azərbaycanda hələ keçir. Bir də qərb mədəniyyəti, azadlığı və demokratiyası cəmiyyətə hər zaman doğru başa salınmır. Məncə, bunun üzərində də işləmək lazımdır.

Amazonları anlamağın faydası

- Siz uzun illərdir ki, amazonların tədqiqatı ilə məşğulsunuz. Dünya mədəni irsinə aid olan Qobustanın Ana zağa mağarasının dünyada amazonların ilk mağarası olduğunu, Şimali Qafqazın bir çox şəhərlərinin, Qəbələ, Oğuz, Qax, Dərbənd və xüsusilə Qarabağın Amazonların ilkin məskənləri olduğunu, amazon adının Alazan çayından götürüldüyünü, Novruz bayramının bütün şərq dünyasına amazonların irsi olduğu iddiaları ilə çox cəsarətli çıxışlar edirsiniz. Amazonların bu günkü Azərbaycan qadınlarının ulu əcdadları olduqlarını dünyaya sübut etməyə çalışır, Azərbaycanda Qafqaz Amazonları muzeyinin açılmasının zəruriliyindən danışırsınız. Sizcə, bu Azərbaycana nə verəcək ki?

- Çox şey! Bununla ilk olaraq Qarabağa sahib çıxmış olacağıq. İkinci Alban tarixinə sahib çıxmış olacağıq. Üçüncü Novruz bayramına sahib çıxmış olacağıq. Mən bilirəm amazonları anlamaq məni anlamaq, qəbul və dərk eləmək qədər çətindir. Amma mən bütün Qafqazda 15 ilə yaxındır bu tədqiqatla məşğulam. Hətta Braziliyada belə çox ciddi tədqiqat apardım. Tədqiqatımı tarixi, etnoqrafik, arxeoloji, kulturoloji əsaslarla bütün dünya ictimaiyyətinə sübut edəcəyimə tam əminəm. İnsan əqidəsini dəyişə bilmədiyi zaman yerini dəyişə bilər və bütün gücünü, bacarığını başqa istiqamətə yönəldə bilər. Ağıllı güclü, əqidəli və bacarıqlı insanlar harada olmasından asılı olmayaraq hər zaman yeniliklər, xariqələr yarada və ölkəsinə başucalığı gətirə bilər. Amazonları 5 min ildən sonra anlamağa, dərk eləməyə başlayırıq, ümid edirəm ki, Nuridə Atəşini anlamaq, dərk eləmək üçün bu qədər gözləmək lazım olmayacaq.

Qan Turalı
“Azadlıq”- 2010 - 2 mart - №47.-S.13.

Türkdilli xalqların diasporları arasında əməkdaşlıq yeni mərhələdə

İstanbulda Türkiyə Hökumətinin Xaricdə yaşayan türklərlə iş üzrə Baş İdarəsinin yaradılması ilə əlaqədar toplantı keçirilib

Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən verilən xəbərə əsasən, dövlət naziri Faruk Çelikin təşkilatçılığı ilə keçirilən tədbirə ABŞ-dan Avstraliyaya qədər bütün dünyada yaşayan türk icmaları ilə yanaşı Türkiyədəki Qafqaz, Balkan dərnəklərinin təmsilçiləri də qatılıblar.

Toplantıda Azərbaycandan Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov, Türkdilli Dövlətlərin Parlament Assambleyasının baş katibi Ramil Həsənov və Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşlarından ibarət nümayəndə heyəti iştirak edib. Tədbirə həmçinin, Avropa Azərbaycanlıları Konqresinin prezidenti Başar Kömür, Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti Natiq Ağamirov, Benilüks Azərbaycanlıları Konqresinin fəxri prezidenti Sahil Qasımov, Ukrayna Azərbaycanlıları Konqresinin sədri Akif Gülməmmədov, Belarus Azərbaycanlıları Konqresinin sədri Natiq Bağırov və digər Azərbaycan diaspor təşkilatlarının rəhbərləri də qatılıb.

Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın da iştirak etdiyi toplantıda bu idarənin yaradılması haqqında hazırlanmış qanun layihəsinin mahiyyəti barədə məlumat verilib, müzakirələr nəticəsində diaspor nümayəndələrinin də rəy və təklifləri öyrənilib.

Azərbaycan nümayəndə heyəti adından tədbirdə çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Azərbaycan Respublikası Prezidentinin salamlarını toplantı iştirakçılarına çatdırıb. N. İbrahimov Azərbaycan dövlətinin türkdilli xalqların diasporları arasında əməkdaşlığın inkişafına xüsusi önəm verdiyini bildirib. Dövlət Komitəsinin sədri 2007-ci ildə Bakı şəhərində prezidentin təşəbbüsü ilə Azərbaycan və türk diaspor təşkilatlarının forumu və Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının keçirildiyini xatırladıb. N. İbrahimov qeyd edib ki, Türkdilli xalqların problemlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından diasporlar arasında əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir.

Tədbirdə çıxış edən Türkiyə Respublikasının baş naziri Rəcəb Tayyib Ərdoğan bütün türkdilli xalqların bir-birinin problemlərinə, yaşadığı üzüntülərə hər zaman yüksək həssaslıqla yanaşdığını vurğulayıb. O, Türkdilli ölkələr arasında əməkdaşlığın türk xalqlarının rifahına və təhlükəsizliyinə xidmət etdiyini vurğulayıb. Baş nazir Xocalı soyqırımının 18-ci ildönümün tamam olduğunu xatırladaraq qeyd edib ki, bu cinayəti törədənlər ədalət məhkəməsi qarşısında cavab verməlidir. “Biz qətliamları yaşamaq istəmirik. Lakin, qətliamlara məruz qalanlarla onların iztirabını bölüşürük. Eyni zamanda bu qətliamları törədənlərin də Avropa İnsan Haqları Məhkəməsi və ədalət divanı qarşısında cavab verməsini istəyirik” - Türkiyənin baş naziri belə deyib.

Qeyd edək ki, tədbirdə çıxış edən Amerika Türk Dərnəkləri Federasiyasının rəhbəri Kaya Boztəpə də Xocalı soyqırımı haqqında danışıb. O, bu soyqırımın insanlığa qarşı bir cinayət olduğunu bildirərək, türkdilli xalqların diasporlarını Xocalı soyqırımı barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında fəal iştirak etməyə çağırıb.

Xatırladaq ki, Türkiyə hökumətinin tərkibində yaradılacaq sözügedən baş idarə xaricdə yaşayan türklərin cəmiyyətə inteqrasiyası, hüquq və azadlıqlarının qorunması, milli-mənəvi dəyərlərinin mühafizəsi, Türkiyə Respublikası ilə əlaqələrinin inkişafı, xaricdə təhsil alan türk tələbələrin problemlərinin həlli, türkdilli xalqlarla əlaqələrin möhkəmləndirilməsi istiqamətində fəaliyyət göstərəcək. İdarə həmçinin xaricdəki türkləri ayrı-seçkilik, assimilyasiya və bu kimi digər problemlərdən qorumaq məqsədi daşıyacaq.

“Kaspi” - 2010 - 2 mart -N.38.-S.9.

Xaricdə yaşayan türklərlə iş üzrə idarə yaradılıb

Məqsəd Türkdilli xalqlarla əlaqələri möhkəmləndirməkdir

Fevralın 27-də İstanbulda "Cəvahir" otelində Türkiyə hökumətinin Xaricdə yaşayan türklərlə iş üzrə Baş idarəsinin yaradılması ilə əlaqədar toplantı keçirilib. Dövlət naziri Faruk Çelikin təşkilatçılığı ilə keçirilən tədbirə ABŞ-dan Avstraliyaya qədər bütün dünyada yaşayan türk icmaları ilə yanaşı Türkiyədəki Qafqaz, Balkan dərnəklərinin təmsilçiləri də qatılıblar. Toplantıda Azərbaycandan Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov, Türkdilli Dövlətlərin Parlament Assambleyasının baş katibi Ramil Həsənov və Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşlarından ibarət nümayəndə heyəti iştirak edib. Tədbirə həmçinin Avropa Azərbaycanlıları Konqresinin prezidenti Başar Kömür, Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti Natiq Ağamirov, Benilüks Azərbaycanlıları Konqresinin fəxri prezidenti Sahil Qasımov, Ukrayna Azərbaycanlıları Konqresinin sədri Akif Gülməmmədov, Belarus Azərbaycanlıları Konqresinin sədri Natiq Bağırov və digər Azərbaycan diaspor təşkilatlarının rəhbərləri də qatılıb.

Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın da iştirak etdiyi toplantıda bu idarənin yaradılması haqqında hazırlanmış qanun layihəsinin mahiyyəti barədə məlumat verilib, müzakirələr nəticəsində diaspor nümayəndələrinin də rəy və təklifləri öyrənilib.

Azərbaycan nümayəndə heyəti adından tədbirdə çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Azərbaycan prezidentinin salamlarını toplantı iştirakçılarına çatdırıb. N.İbrahimov Azərbaycan dövlətinin türkdilli xalqların diasporları arasında əməkdaşlığın inkişafına xüsusi önəm verdiyini bildirib. Dövlət Komitəsinin sədri 2007-ci ildə Bakı şəhərində Azərbaycan prezidentinin təşəbbüsü ilə Azərbaycan və türk diaspor təşkilatlarının forumu və Türk dövlət və cəmiyyətlərinin dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının keçirildiyini xatırladıb. N.İbrahimov qeyd edib ki, türkdilli xalqların problemlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından diasporlar arasında əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir.

Tədbirdə çıxış edən Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan bütün türkdilli xalqların bir-birinin problemlərinə, yaşadığı üzüntülərə hər zaman yüksək həssaslıqla yanaşdığını vurğulayıb. O, türkdilli ölkələr arasında əməkdaşlığın türk xalqlarının rifahına və təhlükəsizliyinə xidmət etdiyini vurğulayıb. Baş nazir Xocalı soyqırımının 18-ci ildönümünün tamam olduğunu xatırladaraq qeyd edib ki, bu cinayəti törədənlər ədalət məhkəməsi qarşısında cavab verməlidir. "Biz qətliamları yaşamaq istəmirik. Lakin, qətliamlara məruz qalanlarla onların iztirabını bölüşürük. Eyni zamanda bu qətliamları törədənlərin də Avropa İnsan Haqları Məhkəməsi və ədalət divanı qarşısında cavab verməsini istəyirik". Türkiyənin baş naziri belə deyib.

Qeyd edək ki, tədbirdə çıxış edən Amerika Türk Dərnəkləri Federasiyasının rəhbəri Kaya Boztəpə də Xocalı soyqırımı haqqında danışıb. O, bu soyqırımın insanlığa qarşı bir cinayət olduğunu bildirərək, türkdilli xalqların diasporlarını Xocalı soyqırımı barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında fəal iştirak etməyə çağırıb.

Xatırladaq ki, Türkiyə hökumətinin tərkibində yaradılacaq sözügedən baş idarə xaricdə yaşayan türklərin cəmiyyətə inteqrasiyası, hüquq və azadlıqlarının qorunması, milli-mənəvi dəyərlərinin mühafizəsi, Türkiyə Respublikası ilə əlaqələrinin inkişafı, xaricdə təhsil alan türk tələbələrin problemlərinin həlli, türkdilli xalqlarla əlaqələrin möhkəmləndirilməsi istiqamətində fəaliyyət göstərəcək. İdarə həmçinin xaricdəki türkləri ayrı-seçkilik, assimilyasiya və bu kimi digər problemlərdən qorumaq məqsədi daşıyacaq.

P. Sultanova
"525-ci qəzet"- 2010 - 2 mart - N.39.-S.1, 5

Azərbaycan və türk icmalarının nümayəndələri Stokholm şəhərinin mərkəzi meydanında etiraz aksiyası keçirmişlər

İsveç parlamentində qondarma erməni soyqırımının tanınmasına dair qətnamənin qəbulu ilə əlaqədar bu ölkədə yaşayan Azərbaycan və türk icmalarının nümayəndələri Stokholm şəhərinin mərkəzi meydanında etiraz aksiyası keçirmişlər. Tədbirdə, həmçinin ermənilərin Azərbaycana qarşı törətdikləri cinayətlər, Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması, o cümlədən Xocalı soyqırımının tanınması ilə bağlı şüarlar səsləndirilmişdir.

Havanın soyuq və yağışlı olmasına baxmayaraq, iki saat davam edən aksiyada iki mindən çox adam iştirak etmişdir. Erməni yalanlarına etiraz edən nümayiş İsveşdəki Türk Federasiyası və dərnəkləri tərəfindən təşkil olunmuşdur.

02 mart 2010

DAK-ın XI qurultayı keçiriləcək

Almaniyanın Köln şəhərində Dünya Azərbaycanlıları Konqresi (DAK), Azərbaycan Federal Demokrat Hərəkatı (AFDH) və Kölndə fəaliyyət göstərən Azərbaycan Kültür Ocağı XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımı ilə əlaqədar birgə konfrans keçirib. Bu barədə "525"ə DAK-ın mətbuat xidmətindən məlumat verilib. Konfransda DAK həmsədri, millət vəkili Sabir Rüstəmxanlı, deputat Baba Tağıyev, Konqresin həmsədri Firidun Pərviznia, qurumun Daimi Şurasının sədri Əjdər Tağızadə, Səftər Rəhimli, təşkilatın Rusiya nümayəndəliyinin sədri Mirəşrəf Fətiyev, habelə İdarə Heyətinin digər üzvləri və başqaları iştirak edib.

Konfransda XX əsrin ən dəhşətli soyqırımı olan Xocalı faciəsinin dünyada tanıdılmasının zəruriliyi qeyd olunub. Eyni zamanda tədbirdə Qarabağın işğaldan azadlığının vacibliyi, Güney Azərbaycan probleminin azərbaycanlıların məsələsi olduğu, Azərbaycanın İranda yaşayan 40 milyona yaxın soydaşımızı himayə etməsini vacib olduğu bildirilib. Bundan əlavə, konfrans iştirakçıları Azərbaycan Respublikasında Güney Azərbaycanda I Dünya müharibəsi zamanı erməni soyqırımına məruz qalmış soydaşlarımızın xatirəsinə abidə ucaldılmasını, bunun üçün prezidenti İlham Əliyevə müraciət olunmasını, ümumiyyətlə, ermənilərin son 200 ildə Azərbaycan türklərinin başına gətirdiyi faciələri özündə əks etdirən muzeyin yaradılmasını və bu məsələlərin dünya ictimaiyyətinə çatdırılması üçün diaspor təşkilatlarının birgə tədbirlər keçirməsini məqsədəuyğun sayıblar.

Sonda Azərbaycan diaspor təşkilatlarına müraciət qəbul olunub. Sənəddə diaspor qurumlarına Qarabağın işğalıyla bağlı həqiqətlərin və XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması və bu faciənin dünya ölkələrinin parlamentləri tərəfindən soyqırım kimi tanınması istiqamətində fəaliyyətlərini əlaqələndirməsi və gücləndirməsi tövsiyə olunub.

Bununla yanaşı Bonn şəhərində DAK İdarə Heyətinin növbəti iclası da təşkil edilib. Yığıncaqda DAK İdarə Heyətinin Azərbaycan, Türkiyə, İsveç, Rusiya və Almaniyadan olan üzvləri iştirak edib. İclasda DAK həmsədrləri Sabir Rüstəmxanlı və Firidun Pərviznia, DAK Daimi Şurasının sədri Əjdər Tağızadə və DAK-ın Azərbaycan nümayəndəliyinin sədri Səftər Rəhimli qurultaydan sonra görülən işlərlə bağlı geniş məruzəylə çıxış ediblər. DAK İdarə Heyətinin üzvləri iki ilə yaxın müddət ərzində görülən işləri yekdilliklə yüksək qiymətləndiriblər. Bundan əlavə, yığıncaqda İranda siyasi vəziyyət, Azərbaycan türklərinə qarşı artan təzyiqlər müzakirə edilib və bu ölkədə insan haqları pozuntularının dünya ictimaiyyətinə çatdırılması üçün beynəlxalq təşkilatlarla əlaqələrin gücləndirilməsi məqsədəuyğun sayılıb. İclasın yekununda DAK-ın XI Qurultayının bu il keçirilməsi qərara alınıb. Bu məqsədlə Qurultaya hazırlıq işləri üzrə Təşkilat Komitəsi yaradılıb.

Aqil

"525-ci qəzet" - 2010 - 4 mart - N 41 - S.2.

“Bu, maliyyə vəziyyəti yaxşı olan bir siyasi lobbinin apardığı kampaniyadır”

“Qardian” qəzeti: “Soyqırım kimi ciddi bir sözün qəbul edilməsi haqda qərarı əxlaqi cəhətdən şübhəli olan siyasətçilər verməməlidir”

ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsində “erməni soyqırımı” qanunun müzakirəyə çıxarılaraq qəbul edilməsi dünya gündəliyindən düşmür. Dünyanın bir sıra qəzetlərində bu barədə şərhlər edilir. “Qardian(The Guardian)” qəzetindəki yazısında Marsel Berlins adlı müəllif qəbul edilmiş qərarın düşünülməmiş, kimlərinsə maraqlarına xidmət etmək məqsədilə atılmış addım olduğunu göstərir. Müəllif konqresmenlərə çoxlarını düşündürən sual ünvanlayır. “ABŞ Nümayəndələr Palatası Xarici Əlaqələr Komitəsi 1915-ci ildə ermənilərin öldürülməsinin soyqırım xarakteri daşıması haqqında bir qanun qəbul etdi. Bu onların işidir?”

Qərarın doğru olub olmadığına heç bir münasibət bildirməyən müəllif, belə bir savadsız müdaxilənin bəşər tarixindəki ən dəhşətli bir hərəkət hesab edilən suçun bu sahədə heç bir bilgisi olmayan insanlar tərəfindən müzakirə edilməsinə və maliyə vəziyyəti yaxşı olan bir siyasi lobbinin gerçəkləşdirdiyi kampaniyaya dəstək vermək məqsədi ilə cahil parlamentarilərin səsverməsi ilə siyasi bir oyuna çevrilməsinə təəssüf edir. Berlins “həddini aşan” hesab etdiyi qanunun növbəti mərhələlərdən keçməyəcəyini qeyd edir. “ABŞ prezidenti Barak Obama bu qanunun əleyhinədir. 2007-ci ildə də Nümayəndələr Palatasının eyni məsələ ilə bağlı qərarı keçmiş prezident Corc Buş siyasi maraqlarına zidd olduğu üçün qanuniləşməşdi.”

Soyqırım cinayətinin qanuniləşdirilməsini ilk dəfə 1944-cü ildə vəkil Rafael Lemkinin təklif etməsindən sonra dünyada bir sıra cinayətlərin baş verdiyi bildirən Berlins, soyqırım cinayətlərinin qarşısının alınması və suçluların cəzalandırılması məqsədi ilə BMT-nin 1948-ci ildə bunu qanun kimi qəbul etdiyini vurğulayır. Həmin qanunda nə qədər insanın hansı şəraitdə ölməsi deyil, əsas məsələnin bu insanların dini, irqi, milli fərqliliklərinə görə öldürülməsinin soyqırım hesab olunduğu göstərilir. Ötən əsirdə dünya ictimaiyyəti tərəfindən birmənalı şəkildə qəbul edilən iki soyqırım yaşanıb- Holokost və Ruanda. Berlins Darfur və Srebrinitsada soyqırım törədilməsinə də şübhə ilə yanaşaraq, soyqırım kimi ciddi bir sözün qəbul edilməsi qərarının əxlaqi cəhətdən şübhəli olan siyasətçilər tərəfindən deyil, şahidlər və tarixçilərdən yardım alan məhkəmələr tərəfindən verilməsinin daha ədalətli olacağını göstərir.

Erməni patriarxı niyə öldürdülər?

Oksford Universitetində müasir tarix professoru Norman Stoun isə Londonun “Tayms(Times)” qəzetində yazır: “Osmanlı Türkiyəsində erməni faciəsi haqda ən düzgün sözü 1894-cü ildə İstanbulda erməni patriarxı Aşikyan söyləyib. 1915-ci il hadisələrindən hələ 21 il qabaq Aşikyan İstanbulun əsas erməni kilsəsində ibadət vaxtı deyirdi: “Biz türklərlə min illərdir yanaşı yaşamışıq, böyük rifaha nail olmuşuq. Əgər millətçilər bu elədikləri kimi (terror kampaniyasına başlamaq - “Tayms”ın qeydi) hərəkətlər eləmək yolunu tutsalar, onda milləti məhv edəcəklər”. Patriarx haqlı çıxdı. Ancaq erməni millətçilər onu və belə danışan başqa ermənilər güllələdilər. İndi Amerikanın Nümayəndələr Palatasının komitəsi 1915-ci ildə baş verənlərə soyqırımı deyir.? 1914-cü ilin oktyabrında ermənilərlə problemi birdəfəlik yoluna qoymaq üçün ermənilərin liderinə Türkiyə hökumətinin üzvü olmaq təklif olundu. Ancaq o, bu təklifdən imtina etdi. Erməni liderinin izahı maraqlıdır. O dedi ki, Türkiyə hələ inkişaf edib, bu həddə çatmayıb. Türkiyə həmin 1915-ci il hadisələrinə görə 1600 adamı məhkəmə qarşısına çıxartdı və qubernatoru cəzalandırdı. 1918-ci ildən sonra Türkiyə arxivlərini 4 il araşdıran britaniyalı burda soyqırımı sübut edən bir sənəd belə tapmayıb. Ancaq fransız məktəbində işləmiş bu britaniyalının araşdırması yaddan çıxdı.

Qəzet yazır ki, Osmanlı Türkiyəsi imperiya kimi dağılanda, o biri imperiyalar dağılanda olduğu kimi hamı əzab çəkib, hamı qırılıb. O vaxtkı xəstəliklər, qırğınlar Türkiyənin şərqindəki əhalisinin üçdə birini məhv edib, milliyyətindən asılı olmayaraq: ”Hər bir türk bilir ki, Birinci Dünya müharibəsi vaxtı Türkiyədə dəhşətli hadisələr olub. Ancaq konqresmenlər bu qədər qırılan arasında təkcə ermənləri ayırıb-seçəndə, bu türklərin doğrudan da xətrinə dəyir”.

“Müharibə şəraitində aparılmış uğursuz təhlükəsizlik tədbiri olub, nəinki soyqırım”

Masaçuset Universitetinin professoru Günter Lyui isə BBC-yə açıqlamasında deyib ki, 1948-ci ildə qəbul edilmiş Genosid Konvensiyasına əsasən, soyqırım üçün əsas şərt məqsədin olmasıdır. Hansısa milli, etnik, irqi və ya dini qrupu məhv etmək niyyəti. Ona görə bu müzakirədə həlledici sual Osmanlı dövlətində yaşayan ermənilər arasında nəhəng itkilərin olub-olmaması deyil, Gənc Türklər rejiminin bilərəkdən onları qırıb sonuna çıxmaq niyyətində olub-olmamasıdır.

O qeyd edir ki, ola bilsin ki, ermənilərin əksər hissəsinin Osmanlı dövlətinin içərilərinə köçürülməsi müharibə şəraitində aparılmış uğursuz təhlükəsizlik tədbiri olub, nəinki bilərəkdən ermənləri öldürmək proqramının bir hissəsi. İstanbul, İzmirin iri erməni icmaları heç yerə köçürülməmiş və müharibədən demək olar ki, salamat çıxmışdılar: "Analoq gətirsək, bu elə bil ki, Hitlerin Berlin, Köln və Münhendə yaşayan yəhudiləri holokost proqramına daxil etməməsinə bərabərdir. Coğrafi yerindən və yerli rəsmilərin münasibətindən asılı olaraq, deportasiyanın həyata keçirilməsi tərzi fərqli idi. Bir çox yerlərdə protestant və katolik ermənləri heç yerə köçürmədilər. Eyni şeyi müsəlmanlığı qəbul edən və ya buna məcbur edilən ermənilər haqda demək olar. Cənubi Suriyaya və Fələstinə göndərilən ermənilərin əhəmiyyətli hissəsi sağ qaldı. Biz etiraf etməliyik ki, söhbət olduqca böyük tarixi ziddiyyətdən gedir. Bu ziddiyyəti isə siyasətçilər deyil, alimlər çözməlidirlər".

Xatırladaq ki, Osmanlı tarixinin ən tanınmış tədqiqatçıları Bernard Lüiz və Əndrü Manqo da soyqırım möhürünün yersiz olması fikrindədirlər.." Fransa mətbuatı isə Konqresin Nümayəndələr Palatasının xarici əlaqələr komitəsinin uydurma "erməni soyqırımı"nın tanınması barədə qərarının ABŞ üçün problemlər yaradacağını bildirir. Nüfuzlu "Le Monde" qəzeti bununla əlaqədar "Hillari Klinton Ermənistana dair Konqresin səsverməsinə mane olmaq istəyir" sərlövhəli yazı dərc edib.

Məqalədə bildirilir ki, Amerikanın Dövlət katibi martın 5-də verdiyi bəyanatda Osmanlı imperiyası dövründə "ermənilərin kütləvi şəkildə "soyqırımı"na məruz qalması" barədə konqresin qərarının ləğv edilməsi üçün Amerika administrasiyasının "çox ağır vəziyyətdə" işləməli olacağını bildirib. Xanım Klinton bununla Türkiyəni sakitləşdirməyə çalışır.

Qeyd olunur ki, Türkiyə rəsmiləri Konqresin bu qərarının nəinki Türkiyə-Amerika əlaqələrinə, habelə son vaxtlar Türkiyə ilə Ermənistan arasında əldə edilmiş razılıqlara ciddi təsir göstərəcək. Məqalədə qərarın Türkiyədə böyük əks-səda doğurduğu, ölkənin İstanbul və digər şəhərlərində izdihamlı mitinq və nümayişlərin keçirildiyi bildirilib.

Yazıda Amerika Konqresinin bu qərarına qardaş Türkiyəni həmişə dəstəkləyən ölkəmizin münasibətinə toxunulub. Qeyd olunub ki, Azərbaycan parlamenti ermənipərəst konqresmenlər tərəfindən səs çoxluğu ilə qəbul edilmiş qərarın regionda stabilliyin qorunmasına mənfi təsir göstərəcəyini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini çətinləşdirəcəyini bəyan edib. Fransanın "Le Fiqaro", "Les Echos", "Liberation" və digər mətbu orqanları da Amerika Konqresinin bu qərarını pisləmiş, Amerikanın bütün sahələrdə yaxın tərəfdaşı olan Türkiyə kimi bir dövləti itirmək təhlükəsi qarşısında olduğunu, islam dövlətlərindəki nüfuzuna ciddi təsir göstərəcəyini vurğulayıb.

S. Şəldiyev
"Paritet" – 2010 - 11-12 mart - N.24.-S.3.

“Güclü lobbiçilik üçün bir sıra yollar aranmalıdır”

Ayxan Dəmirçi: ”Azərbaycan-Belçika Dostluq Cəmiyyətinin əsas istiqaməti Azərbaycan mədəniyyətinin təbliğidir”

Azərbaycanın dünyada hərtərəfli tanıdılmasında diaspor təşkilatlarımızın və onların rəhbərlərinin üzərinə böyük məsuliyyət düşür. Son zamanlar müxtəlif xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarının rəhbərləri ilə tez-tez həmsöhbət olub və onların həyata keçirdiyi layihələrlə yaxından maraqlanırıq. Bu tanışlıqlar zamanın onların Azərbaycanı dünyada tanıtmaq üçün müxtəlif vasitələrdən istifadə etdiyinin şahidi oluruq. Fəaliyyətində qeyd etdiyimiz meyarları əsas götürən belə təşkilatlardan biri də Azərbaycan-Belçika Dostluq Cəmiyyətidir. Bizdə virtual olaraq ABDC-nin sədri Ayxan Dəmirçi ilə əlaqə yaratdıq və suallarımızı ona ünvanladıq.

- İlk olaraq özünüzü bizə tanıdın..

- Mən, Ayxan Dəmirçi Türkiyənin İqdır şəhərində anadan olmuş azərbaycanlıyam. Doğulduğum şəhərdə təhsilimi başa vurduqdan sonra bir neçə il Türkiyədə işləmişəm. 1980-ci ildə Belçikaya getdim. Artıq 30 ildən artıqdır ki, burda yaşayıram. Bu şəhərə gəlməkdə əsas məqsədim təhsil almaq idi. Belçikaya gəldikdən bir neçə ay sonra təşkilati işlə məşğul oldum və bu gündə bu işimi davam etdirirəm. Xoşbəxt ailəm, üç övladım var.

- ABDC nə vaxt yaranıb və əsas fəaliyyət istiqaməti nədir?

- İlk əvvəl fəaliyyətə Azərbaycan mədəniyyət dərnəyi kimi başladıq. Və 1999-cu ildən bu günə kimi isə Azərbaycan-Belçika Dostluq Cəmiyyəti adı altında fəaliyyət göstəririk. Onu da qeyd edim ki, bu birliyimizi Belçikanın müxtəlif şəhərlərində yaşayan dostlarımızla birgə yaradıb qurmuşuq. Sözügedən birliyi yaratmaqda əsas məqsədimiz Azərbaycanı və azərbaycanlıların mədəniyyət və adət-ənənələrini Avropada yaşatmaq və əcnəbilərə çatdırmaq olub. Əsas məqsədimiz müstəqillik əldə etdikdən sonra, Azərbaycanın varlığını, mədəniyyətini, qarşılaşdığı problemləri və üzləşdiyi haqsızlıqları Avropaya müxtəlif vasitələrlə çatdırmaq və onların bu işlər haqda həqiqətləri bilməsinə rəvac verməkdir.

- Ümumilikdə bu gün Belçikada nə qədər azərbaycanlı yaşayır?

-Türkiyə azərbaycanlısı da daxil olmaqla, ümumilikdə orada dörd minə yaxın azərbaycanlı yaşayır. Bunların 150 ailəyə qədəri şimaldan olan azərbaycanlılardır. Sayı tam məlum olmasa da, bunlar arasında Cənubi Azərbaycandan da olan ailələr də var. Azərbaycanlıların daha çox yaşadıqları şəhərlər Brüssel, Liyəs, Antvərpən, Məchələn, Bernigendir. Təhsilə gədikdə isə, azərilər yaşadıqları şəhərlərdə yaxşı təhsil verən məktəblərdə və bir sıra şəhərlərdə olan öncül universitetlərdə təhsil alırlar.

- Diaspor Komitəsi və ya Dünya Azərbaycanlıları Konqresi ilə əlaqələriniz varmı?

- Əvvəllər Diaspor Komitəsi ilə əlaqələrimiz vardı. İndi isə komitə ilə heç bir əlaqə və dialoqumuz yoxdur. Ancaq Dünya Azərbaycanları Konqresi ilə əlaqələrimiz var.

- Belçikada yaşayan soydaşlarımızın ana dilində təhsil alması üçün Bazar günü məktəbləri varmı?

- Belçikada yaşayan azərbaycanlıların ana dilində təhsil alması üçün hər hansı bir məktəb və özəl olaraq dərs aldığı Bazar günü məktəbi yoxdur. Düzdür, bir müddət əvvəl bu barədə düşündük və fikir mübadiləsi apardıq, ancaq reallaşdırmaq mümkün olmadı. Səbəb isə məktəbyaşlı uşaqların az olması və ayrı-ayrı şəhərlərdə yaşamasıdır. Amma indi Belçikada Azərbaycan dilində məktəb və hər hansı özəl dərs günləri-kurslar ola bilər. Çünki keçmişə nisbətən bu gün azəri əsilli məktəb yaşlı gənclərin sayı çoxdur.

- Azərbaycanla bağlı materialları hardan əldə edirsiniz?

- Azərbaycanla bağlı kitab, buklet və digər məlumatları yaxınlarımızdan alırıq. Eyni zamanda özümüz də fərdi şəkildə dialoq qurduğumuz dostlardan Azərbaycanla bağlı məlumatlar əldə edirik. Belçikadakı səfirliyimiz və Azərbaycanın bəzi dövlət qurumlarında tanıdıcı və məlumatverici kitablar bizə təqdim edilir. Amma əldə etdiyimiz bu materiallar Azərbaycanı tanıtmaq üçün kifayət etmir və bu sahədə çatışmazlıqlarımız var.

- Belçika rəsmi dairələri təşkilatınıza kömək edirmi?

- Belçika rəsmi dairələri az da olsa, diaspor təşkilatlarının həyata keçirdiyi layihələrə kömək edirlər. Amma biz rəsmi dairələrin bu imkanlarından faydalanmırıq. Təşkilatımızın maliyyə dəstəyini 2003-cü ildən çətində olsa öz imkanlarımız hesabına həll edirik.

- Milli bayramlarımızı orda necə qeyd edirsiniz?

- Maliyyə imkanlarımız çox olmasa da, həmişə çalışırıq ki, milli bayramlarımızı yaxşı təşkil edən və hər kəs də maraq yaradaq.

- Maraqlıdır, yaşadığınız ölkə vətəndaşlarının Azərbaycan haqda məlumatları hansı səviyyədədir və onları daha çox nə maraqlandırır?

- Belçikalıların Azərbaycan haqqında geniş məlumatları olmasa da, ancaq Azərbaycan haqqında məlumatları olanlar da var. Səmimi olaraq deyim ki, belçikalılar Azərbaycanı o qədər də tanımırlar, amma son illər bizim təşkilatın və Belçikadakı səfirliyimizin həyata keçirdiyi tədbirlər sayəsində Azərbaycanı daha çox tanıyırlar. Məlumdur ki, heç nə öz-özlüyündə tanınmır, tanıdılma üçün kampaniyalar, nəşrlər, televerilişlər hazırlanmalıdır. Bu qeyd etdiyim layihələri geniş şəkildə həyata keçirmək üçün yekdilliklə düşünməliyik. Ümid edirəm ki, biz birləşsək və bu istiqamətdə birgə iş aparsaq, uğur əldə edəcəyik. Onu da qeyd edim ki, belçikalıların daha çox maraq göstərdiyi əsas sahə turizmdir. Azərbaycan yeni müstəqillik qazanmış ölkə kimi belçikalıların marağını çəkir. Bunun üçün maraqlı layihələr həyata keçirməklə belçikalılarda Azərbaycan haqqında maraq yaratmaq olar.

- Başqa ölkədə olan diaspor təşkilatları ilə əlaqələriniz varmı?

- Əlbəttə, başqa ölkələrdə olan bir sıra diaspor təşkilatları ilə də əlaqələrimiz və müxtəlif məsələlər üzrə dialoqlarımız var. Eyni zamanda birgə layihələrimiz olduğu və mütəmadi olaraq əlaqə saxladığımız və bir-birimizə daim yardım etdiyimiz təşkilatlarda var.

- Orda yaşayan soydaşlarımızın əsas problemi nədir?

- Hazırda Belçikada yaşayan soydaşlarımızın başlıca və əsas problemləri bunlardır: işsizlik, mühitə uyğunlaşmamaq, dil və sosialyönlü problemlər.

- Diaspor sahəsində hansı yenilikləri görmək istərdiniz?

- Diaspor sahəsində görmək istədiyim yeniliklər əslində çoxdur, amma bunlardan bəzilərini söyləyəcəyəm. Birincisi fəal və şüurlu çalışmaq, diasporu təmsil edəcək şəxsi düzgün seçmək lazımdır. Yəni, faydalı, fəal, bilikli, ağıllı, karyeralı və insanların yaxşı tanıdığı bir adam olmalıdır. Fəaliyyəti çoxşaxəli olmalıdır və Avropanın müxtəlif yerlərində tədbirlər təşkil etməlidir. Məsələn, bu tədbirlər universitetlərdə, Avropa qurumlarında olmalıdır. Azərbaycanın güclü lobbiçiliyi üçün bir sıra yollar aranmalıdır. Ölkə xaricində yaşayan soydaşlarımızla daim geniş dialoqlar qurulmalı, birlik və bərabərlik saxlanmalıdır. Bəzi ayrı-seçkiliklər aradan qaldırılmalı və diaspor təşkilatları da tərəfsiz olaraq fəaliyyət göstərməlidir.

- Təşkilatınızın saytı və mətbu orqanı varmı?:

- Hazırda təşkilatımızın mətbu orqanı ya saytı yoxdur. Bizim təşkilatın əvvəlki yerləşdiyi ünvan Brüsseldə idi. Bu ünvan yaşadığımız bölgəyə uzaq idi. Bu da işlərimizə mane olurdu, onun üçün Brüsseldə olan birliyimizi bağlayıb indi yaşadığımız yerdə birliyimizi qurduq. İndi yeni məkana köçdüyümüzdən sayt və mətbu orqanımız hələ ki yoxdur. Amma yaxın gələcəkdə olacaq. Ancaq birgə çalışdığımız sayt və mətbu orqan var.

- Bakıya tez-tezmi gəlirsiniz?

- Bakıda bir neçə dəfə olmuşam. İki ildən artıqdır ki, gəlmirəm. İnşəallah yaxınlarda gəlməyi düşünürəm .Bir neçə tədbirimiz var, onları gerçəkləşdirdikdən sonra gələcəyəm. Bakı gözəl və "şirin" bir şəhərdir. Bakı mənim çox sevdiyim şəhərdir. Amma məni Bakı ilə bağlı bir məsələ narahat edir ki, şəhərdə çoxlu göydələnlər tikilir. Bu da şəhərin mənzərəsini və gözəlliyini pozur. Amma Bakı gözəl şəhərdir, insanları da, yeməkləri də çox gözəldir. Azərbaycanın hər bir yerinin öz gözəlliyi var. Əslində dediklərim bununla bitmədi, çox deyiləsi sözlərim var... Sizin vasitənizlə bütün Azərbaycan xalqına salamlarımı yetirirəm.

Günay
"Paritet" – 2010 - 11-12 mart - N.24.-S.10.

Diasporumuz etiraz edir

İki mindən artıq məktub hazırlanacaq

İsveç Krallığında fəaliyyət göstərən bir neçə Azərbaycan diaspor təşkilatının üzvləri dünən toplantı keçiriblər. Onlar İsveç Riksdaqının (parlament) uydurma erməni «soyqırımı» ilə bağlı martın 11-də çıxardığı məlum qərarına etiraz əlaməti olaraq yaxın günlərdə aksiya keçirməyi qərara alıblar. Bu barədə «Mərkəz»ə Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən məlumat verilib. İsveçdəki «Azərbaycan Naminə» cəmiyyətinin sədri, «Qarabağ üzrə iş Komitəsi»nin üzvü Nadir Hollenbrand dövlət komitəsinə bildirib ki, parlamentin çıxardığı qərar hələ də protokollaşdırılmayıb.

Belçikada fəaliyyət göstərən Dünya Azərbaycanlıları Birliyi (DAB) isə ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsində və İsveç Riksdaqında qəbul edilən qərarlara etiraz etmək və ermənilərin əsl kimliyini dünya ictimaiyyətinə çatdırmaq üçün böyük bir məktub kampaniyası keçirməyi planlaşdırıb. DAB-ın sədri Ədalət Quliyevin qəzetimizə verdiyi məlumata görə, ABŞ prezidenti Barak Obamaya, vitse-prezident Cozef Baydenə, dövlət katibi Hillari Klintona, ABŞ-ın Belçikadakı səfirinə, beynəlxalq təşkilatlara, BMT-nin baş katibi Pan Ki Muna və bu qərarları dəstəkləyən hər bir ABŞ konqresmeninə, senatoruna, İsveç parlamentinin deputatına ayrı-ayrılıqda məktublar hazırlayırlar: «Qondarma soyqırımı məsələsini Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin müzakirəsinə çıxaran demokrat konqresmen Adam Şiffə və onu dəstəkləyən 136 konqresmenə, layihəni Senatın Xarici Əlaqələr Komitəsinə çıxarmağa çalışan demokrat senator Robert Menendezə və onu dəstəkləyən 13 senatora xüsusi müraciətlər hazırlanır. Hazırladığımız məktubları Azərbaycan Prezidenti İlham Əliyevə, xarici işlər naziri Elmar Məmmədyarova, Türkiyə prezidenti Abdullah Gülə, xarici işlər naziri Əhməd Davudoğluna və Türkiyənin Belçikadakı səfiri Nazif Murat Ərsavcıya da göndərəcəyik. Bundan əlavə hazırladığımız etiraz məktubları xarici media orqanlarına təqdim olunacaq».

Ə. Quliyev onu da qeyd edib ki, məktublar fərdi qaydada 2 mindən artıq fiziki və hüquqi şəxsə göndəriləcək. Məktublarda ABŞ Konqresində qəbul edilmiş qətnaməyə indiyədək Türkiyə və Azərbaycanda bildirilən münasibətlər və Azərbaycanın zəbt olunmuş torpaqları ilə bağlı BMT və Avropa Şurasında qəbul olunmuş qətnamələr öz əksini tapıb. Məktublarda Xocalı soyqırımı məsələsinə də xüsusi yer ayrılıb.

Azəri-Türk Qadınlar Birliyi də həm ABŞ, həm də İsveç qanunverici orqanlarında «erməni soyqırımı» ilə bağlı qəbul edilən sənədləri pisləyən bəyanatla çıxış edib. Bəyanatda deyilir: «Yüz ildən artıqdır türklər, xüsusilə Azərbaycan türkləri ermənilər, onların terror təşkilatları tərəfindən soyqırıma məruz qaldıqları və öz ata-baba torpaqlarından didərgin salındıqları halda dünya dövlətləri yenə də terrorçuların «məzlum», «qırılan xalq» olduqlarını təsdiqləməkdə davam edir. Halbuki, Azərbaycan türklərinin Ermənistan adlanan tarixi Azərbaycan torpaqlarından didərgin salındıqları, bir milyondan artıq soydaşımızın köçkün olduğu, ermənilərin türklərə qarşı bir əsrdir etnik təmizləmə siyasəti apardığı beynəlxalq ictimaiyyətə yaxşı məlumdur. Azərbaycan türklərinin 1905, 1918, 1947, 1953-cü illərdə və nəhayət, 1988-ci ildən başlayaraq bu günə kimi erməni hərbi birləşmələri tərəfindən soyqırıma məruz qalması, Quba, Bakı, Şamaxı, Zəngəzur, Naxçıvan, Gəncə, bütövlükdə Qərbi Azərbaycan torpaqları və İrəvanda azərbaycanlılara qarşı ermənilərin törətdikləri vəhşiliklər, 1992-ci ildə baş vermiş Xocalı qətliamı haqqında dünya dövlətlərinin çox geniş bilgisi var. Ermənistanın Azərbaycana qarşı ərazi iddiası və ölkəmizin 20 faizdən artıq torpağının işğal olunması isə günümüzün reallığıdır. Beynəlxalq güclər işğalçı bir dövlətin həyata keçirdiyi vandalizmə baxmayaraq, yenə də qondarma erməni soyqırımını tanımaqda davam edirsə, bu artıq ədalətin deyil, ədalətsizliyin, ikili standartların təzahürüdür».

Bəyanatda qeyd olunur ki, bu qərarlar təkcə Türkiyə-ABŞ və Türkiyə-İsveç deyil, həm də Azərbaycan-ABŞ və Azərbaycan-İsveç münasibətlərinə öz mənfi təsirini göstərəcək. Birlik bu ölkələrin təzyiq mexanizmi üzərində qurulan xarici siyasətinə qarşı olduğunu bəyan edib.

Səxavət Həmid
"Mərkəz" – 2010 - 13 mart -N.46.-S.13.

Moldovadakı soydaşlarımız vahid ideya ətrafında birləşmişlər

Xalqımız dövlət müstəqilliyini bərpa etdikdən sonra milli birliyin təminatı, dünya azərbaycanlılarının vahid milli mənafe ətrafında birləşdirilməsi dövlət quruculuğunun əsas vəzifələrindən biri kimi meydana çıxdı. Azərbaycançılıq yalnız Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların deyil, həm də bütün dünya azərbaycanlılarının milli-mənəvi maraqlarını ifadə edən məfkurə kimi xalqımız tərəfindən qəbul olunmuşdur.

2006-cı il martın 16-da Bakıda Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi həmvətənlərimizin təşkilatlanması prosesində əhəmiyyətli dönüşə gətirib çıxaran addım olmuşdur. Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilmiş bu tarixi hadisə Azərbaycan diasporunun daha mütəşəkkil və dinamik fəaliyyətinə təkan vermişdir.

Bakıda Dünya azərbaycanlılarının II qurultayının keçirilməsindən dörd II keçir. Ötən müddətdə dünyanın bir çox ölkələrində olduğu kimi, dost Moldovada da əsl milli özünüdərk və ümummilli ideya olan azərbaycançılıq məfkurəsi, müstəqil dövlətçilik və milli-mənəvi dəyərlər ətrafında sıx birləşmək prosesi başlamış və bu ölkədə yaşayan soydaşlarımız monolit qüvvəyə çevrilmişlər. Biz Moldova Azərbaycanlıları Konqresinin sədri, milli diasporumuzun formalaşmasında böyük zəhməti olan Vüqar Novruzovla görüşüb söhbət edərkən, o, Dünya azərbaycanlılarının II qurultayından sonra keçən dövr ərzində görülən işlərdən danışaraq dedi:

-Prezident İlham Əliyevin diaspor quruculuğu sahəsindəki siyasəti milli öndərimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş ideya və prinsiplərin konseptual istiqamətlərinə əsaslanır. Bu siyasətin əsas məqsədi ümummilli liderimizin müəyyənləşdirdiyi siyasi xəttə uyğun olaraq, dünya azərbaycanlılarının vahid təşkilatda birləşdirilməsinə nail olmaqdır. Moldovada dünya azərbaycanlılarının birliyi məsələsi— azərbaycançılıq ideologiyasının reallaşdırılması mexanizmi kimi qəbul edilir və bu sahədə həyata keçirilən bütün tədbirlər hə-min amala əsaslanır.

Vurğulamaq lazımdır ki, bu gün Moldovada yaşayan həmvətənlərimizin sürətlə təşkilatlanması prosesi müşahidə edilməkdədir. Azərbaycan Respublikası bu prosesə dəstək verir və onu daha da təkmilləşdirməyə, soydaşlarımızın diaspor quruculuğu sahəsində fəaliyyətini koordinasiya etməyə çalışır, məhz buna görə də həmvətənlərimiz mütəşəkkil qüvvəyə çevrilmişlər.

Moldovada məskunlaşmış soydaşlarımız arasında milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, adət-ənənələrimizin yaşadılması istiqamətində ardıcıl və məqsədyönlü işlər görülür. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə müxtəlif səpkili tədbirlər: etiraz aksiyaları, mitinqlər, küçə yürüşləri elmi-praktik konfranslar, simpoziumlar, foto və rəsm sərgiləri keçirilir, 20 yanvar, Xocalı soyqırımı, mart qırğını ilə bağlı filmlər nümayiş etdirilir. Moldovanın kütləvi informasiya vasitələrində müvafiq materialların dərc olunması üçün geniş iş aparılır. Azərbaycanın mövqeyini dəstəkləyən nüfuzlu şəxslərlə əlaqələrin qurulmasına xüsusi diqqət yetirilir.

Qeyd etmək lazımdır ki, hazırda Moldovada 5 mindən çox soydaşımız yaşayır. Onların arasında tanınmış mədəniyyət və incəsənət xadimləri, alimlər, ziyalılar və iş adamları az deyildir. Bütün bunlar isə bir daha təsdiqləyir ki, iki dövlət arasında strateji tərəfdaşlıq əsasında iki xalq arasındakı dərin tarixi köklərə malik dostluq ənənələrinə əsaslanır.

Müsahibimiz son olaraq vurğuladı ki, Dünya Azərbaycanlılarının II qurultayından keçən dörd il ərzində Azərbaycan və türk icmaları arasında getdikcə inkişaf etməkdə olan əməkdaşlıq əlaqələri güclü Azərbaycan lobbisinin formalaşmasında mühüm rol oynayır. Müasir dünyanın reallıqlarından çıxış edərək, tam məsuliyyətlə demək olar ki, hazırkı şəraitdə Azərbaycan və türk diaspor təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi, onlar arasında əməkdaşlığın inkişafı hər iki xalqın maraqlarına xidmət edir.

Türkiyə və Azərbaycanın milli mənafeləri, dövlət maraqları, tarixin sınaqlarından çıxmış dostluq telləri iki xalqın diasporlarının sıx əməkdaşlığını, taleyüklü məsələlərin həllində birgə fəaliyyətini zərurətə çevirmişdir. Azərbaycan və türk diaspor təşkilatlarının işbirliyi erməni lobbisinin və diasporunun apardığı təbliğatın zəiflədilməsinə, iki xalqın maraqlarının dünya miqyasında etibarlı müdafiəsinə stimul verən mühüm addım kimi qiymətləndirilməlidir.

Qədir Aslan

“Respublika”- 2010 - 16 mart - N 58.-S.5.

Azərbaycan diasporu yeni inkişaf mərhələsində

Müasir dünya siyasətində diasporların müstəsna rolu var və onlar dövlətlərin xarici siyasətində mühüm yer tutur. Diasporun əsas məqsədi mənsub olduqları dövlətin maraqlarını yaşadıqları ölkədə təbliğ etməkdir. Diasporun tarixi məqsədləri haqqında çox fikirlər yazılıb. Diaspor bu və ya digər dövlətlərin idarə etdiyi bir silahdır ki, bu silahın vasitəsilə dövlət özünə müsbət imic qazanmağa səy göstərir. Diaspor sözü qədim yunan sözü olub səpələnmə, dağılma, köçmə mənasını verir. Diaspor termini ən qədim zamanlarda Heredotun, Sofoklun əsərlərində istifadə olunub. Sonrakı dövrlərdə bu terminə "İncil"də də rast gəlmək olar. "İncil"də diaspor termini bütpərəstlərin arasında yer tutan yəhudilərə şamil olunub.

Hər bir xalqın diasporu öz inkişafına uyğun fəaliyyət göstərir. Belə ki, dünyada öz sayına, maliyyə imkanlarına və mütəşəkkilliyinə görə güclü diasporlar da var. Bu diasporlar çox güclü təşkilatlara və yaşadıqları dövlətlərin siyasi həyatına nüfuz etməyə qadirdirlər. Sirr deyil ki, dövlətlərin böyük əksəriyyəti beynəlxalq aləmdə diasporlarının gücündən istifadə edərək, böyük uğurlar qazana bilirlər. Dünya diasporlarının mərkəzi kimi ABŞ-ı, Qərbi Avropanı, Rusiyanı göstərmək olar.

Azərbaycanın da özünəməxsus diasporu var. Təqribi sayı 50 milyon nəfər olan dünya azərbaycanlılarının 10 milyondan çoxu hazırda mühacirətdə yaşayır. Dünyanın 5 qitəsində məskunlaşan azərbaycanlıların siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait, mənəvi dəyərlər kimi müxtəlifdir. XX əsrin əvvəlləri-nə qədər respublikadan xaricə mühacirət edən azərbaycanlıların şəxsiyyət vəsiqələrində "rus təbəəsi" yazılması onların milliyyətinin də "rus" kimi təqdim edilməsi ilə nəticələnmişdir. O dövrdə qonşu Rusiyaya köçən azərbaycanlılar "tatar", Türkiyədə məskunlaşanlar isə "Azərbaycan türkü" kimi tanınır və qeydə alınırdı. Müasir İran ərazisində yaşayan azərbaycanlıların isə "İran təbəəsi" kimi təqdimatı prosesi gedirdi. Belə arzuolunmaz vəziyyət xarici ölkələrdə yaşayan azərbaycanlıların rus, türk və fars diasporlarının tərkib hissəsi kimi qəbul edilməsinə səbəb olmuş, nəticədə azərbaycanlılar başqa xalqların diasporları içərisində assimilyasiya olunmaq təhlükəsi ilə üzləşmişlər. Lakin bütün bu çətinliklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaq dəyərlərini qoruyub saxlamış, tarixi vətənlə əlaqələrini itirməmişlər.

Azərbaycan diasporunun yaranmasının və inkişafının bir neçə mərhələsi var. XIX əsri Diasporumuzun kortəbii yaranması tarixi kimi xarakterizə etmək olar. Belə ki, Çar Rusiyası dövründə azərbaycanlıların zadəgan zümrəsinə daxil olanlar Rusiyanın müxtəlif yerlərində təhsil alır və yaşayırdılar. Onlar Rusiyanın müxtəlif əyalətlərində azərbaycanlıların problemlərini arabir önə çəkirdilər. Buna baxmayaraq, Azərbaycan diasporu mütəşəkkil xarakter daşımırdı.

Azərbaycan diplomatiyasının ilk inkişaf dövrü 1918-ci ildə yaranmış və cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlıdır. Cümhuriyyətin dünya miqyasında de—fakto tanınmasında Azərbaycan diplomatiyasının böyük xidməti olmuşdur. Cümhuriyyətin süqutundan sonra Azərbaycan ziyalılarının böyük bir qismi repressiyalara məruz qaldı, güllələndi. Xaricə mühacirət edən Azərbaycan ziyalıları AXC-nin işğal olunmasını, fəaliyyətini, azərbaycanlıların öz vətənlərində əzilməsi və s. faktları dünyaya çatdırmağa çalışmışlar. Həmin dövrdə Cənubi Azərbaycanda mühacirlərin sayı artmışdı. Bu dövrdən sonra Azərbaycan diasporu ABŞ, Fransa, Almaniya, Böyük Britaniya, Türkiyə, Skandinaviya ölkələrinə yayıldı. Bu ölkələrə mühacirət etmiş soydaşlarımızı idarə edən yeganə qüvvə diasporumuz idi. Azərbaycan diasporu xaricdəki soydaşlarımıza Azərbaycandakı vəziyyət haqqında məlumat verir, onları təhsil almağa və xaricdə də öz vətəninə xidmət etməyə çağırırdı.

II Dünya müharibəsi dövründə əsir düşmüş soydaşlarımızın bir qismi xaricdə qaldı. 1946-cı il İranda milli azadlıq hərəkatının məğlubiyyətindən sonra repressiyalarla bağlı yeni mühacirət dalğası yarandı. Bu faktlar diasporumuzun həmin dövrlərdə geniş yayıldığını göstərir. Lakin xaricdə yaşayan soydaşlarımızın çox olmasına baxmayaraq, həmin dövrdə müstəqil dövlətimizin olmaması diasporumuzun mütəşəkkil qüvvəyə çevrilməsinə imkan vermirdi.

1946-cı ildə Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti təsis olundu. 1960-cı ildən qəzet nəşr edən cəmiyyət həmin qəzeti bir neçə dildə, həm də ərəb, fars və latın əlifbası ilə buraxmağa başladı. Bu qəzet xarici ölkələrdəki Azərbaycan cəmiyyətlərinə göndərilirdi. Şübhə-siz ki, bu qəzet DTK tərəfindən xüsusi nəzarətlə buraxılırdı. 1989-cu il dekabrın 31-də Türkiyənin İstanbul şəhərində ilk dəfə olaraq Ümumdünya Azərbaycanlılar Konqresi keçirildi. Bu həmin dövr üçün çox böyük əhəmiyyət daşıyırdı. Xaricdəki soydaşlarımızın fəallıqlarını artırmaları təqdirəlayiq bir hadisə idi.

1990-cı ildə Türk Dünyası Araşdırmalar Vəqfinin təşəbbüsü ilə Qayseridə I Millətlərarası Böyük Azərbaycan Konqresi baş tutdu. 1988-ci ildən etibarən, Azərbaycanın müxtəlif yerlərində milli azadlıq hərəkatı başlandı. 1989-cu il dekabr ayının 31-də azadlıq hərəkatının nümayəndələri tərəfindən Naxçıvanda Sovet Azərbaycanı ilə İran sərhədləri söküldü. Həmin vaxt bu aksiyaya Cənubi Azərbaycandakı soydaşlarımız da qoşuldu. SSRİ kimi super dövlətin, güclü hərb maşını belə, xalqımızın birliyini əlindən ala bilmədi.

Xalqımızın gözünü qorxutmaq üçün sərhədlərin sökülməsindən 19-20 gün sonra Sovet ordusu Bakıda qırğın törətdi. Bu, xalqımızı qorxutmadı, əksinə, xalqımız daha da birləşdi, daha da yetkinləşdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il dekabr ayının 16-dan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qərarı ilə 31 dekabr hər il Dünya azərbaycanlılarının həmrəylik günü kimi qeyd olunur. Bu addım xaricdə yaşayan soydaşlarımızla Azərbaycandakı azərbaycanlıları birləşdirən bir zəncir, dəyər oldu, lobbimizin formalaşmasına bir az da təkan verdi.

Diasporumuzun inkişafı ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı orada yaşayan həmvətənlərimizlə görüşür, onlara dəyərli məsləhətlər verirdi. Heydər Əliyev xaricdə yaşayan həmvətənlərimizə deyirdi: **"Azərbaycan bütün dünya azərbaycanlılarının dayaq** və **cazibə mərkəzidir, onların ümid və məhəbbətlə baxdıqları müqəddəs bir yerdir. Buna görə də bütün azərbaycanlılar müstəqil dövlətimizin ətrafında daha sıx birləşməli, Azərbaycanın azad, firavan, daha da güclü, qüdrətli olması üçün mümkün olan hər şeyi etməlidirlər".**

Ulu öndərimizin təşəbbüsü və iştirakı ilə 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya azərbaycanlılarının I qurultayı keçirildi. Müstəqilliyimizin 10-cu ildönümünün ölkəmizdə təntənə ilə qeyd olunduğu bir ərəfədə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın Vətənə—Dünya azərbaycanlılarının qurultayına gəlib iştirak etmələri böyük siyasi hadisə idi. Müstəqilliyimizin bərpasından keçən çox qısa vaxt ərzində xalqımızın mütəşəkkil birləşməsi dünya dövlətlərini belə heyran qoymuşdu. Dünya azərbaycanlılarının I qurultayına 35 xarici dövlətdə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200- dən çox müxtəlif təşkilatı təmsil edən 403 nümayəndə və 63 qonaq qatılmışdır.

Qurultayda ABŞ, Rumıniya, Türkiyə, Avstriya, Rusiya, Böyük Britaniya, Kanada, İsveçrə, Norveç, Özbəkistan, Ukrayna, Danimarka, Latviya, Litva, Gürcüstan, İran, Fransa və başqa dövlətlərdə yaşayan, fəaliyyət göstərən Milli Mədəniyyət mərkəzlərinin və cəmiyyətlərinin nümayəndələri iştirak etmişlər. Bundan əlavə, qurultayda siyasi partiyaların, elm, mədəniyyət və digər təşkilatların təmsilçiləri də iştirak edirdi. Ümummilli liderimiz Heydər Əliyev qurultaydakı proqram xarakterli nitqində diasporumuzun keçdiyi uzun, məşəqqətli, lakin şərəfli yolu və bu günkü diasporumuzun vəziyyətini təhlil etmiş və bildirmişdir ki, diasporumuz hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulmasında böyük rol oynayır. Qurultayda bir sıra vacib tarixi qərarlar qəbul olunmuşdur. 2002- ci il iyulun 5-də ulu öndər Heydər Əliyevin fərmanı ilə yaradılmış "Xarici ölkələrdə Yaşayan Azərbaycanlılarla
İş üzrə Dövlət Komitəsi" diaspor hərəkatının daha da genişlənməsinə güclü təkan vermişdir".

16 mart 2006-cı ildə isə Bakı şəhərində Dünya azərbaycanlılarının II qurultayı keçirilmişdir. Qurultayda Azərbaycan Prezidenti İlham Əliyev geniş nitq söyləmiş, Dünya azərbaycanlılarının qarşısında mühüm vəzifələr qoymuşdur. Dünya Azərbaycanlılarının II qurultayında diasporumuzun gələcək fəaliyyətini nəzərdə tutan bir sıra tarixi sənədlər qəbul edilmişdir.

Hazırda dünyanın müxtəlif dövlətlərində yaşayan azərbaycanlıların sayı Azərbaycandakı azərbaycanlıların sayından çoxdur. Bu böyük bir ordudur. Bu ordunun səfərbər edilməsi dövlətimizin və xalqımızın ən ağrılı problemləri olan Dağlıq Qarabağ probleminin həll olunmasında mühüm rol oynayır. Nəzərə almaq lazımdır ki, Azərbaycan üzərinə xarici ölkələrdəki erməni diasporu tez-tez ideoloji hücumlar edir. Azərbaycan diasropu tərəfindən bu hücumların qarşısı alınır və lazımi zamanlarda əks hücumlar edilir. Bu il Xocalı soyqırımı ilə bağlı Londonda, İstanbulda, Ankarada, Moskvada, Vaşinqtonda olan aksiyalar diasropumuzun gücünü göstərdi. Azərbaycanda və Azərbaycandan kənarda yaşayan soydaşlarımızın bir yumruq kimi birləşməsi və eyni nöqtəyə zərbə vurması olduqca vacibdir. Bu, dünyada Azərbaycanın imicinin daha da möhkəmlənməsinə təsir edən ən böyük amillərdəndir.

Nihad Mustafazadə
Dövlət İdarəçilik Akademiyasının tələbəsi
“Respublika” - 2010 - 16 mart - N 58.-S.5

Bezanson şəhərində keçən əsrin 90-cı illərinin əvvəllərindən ənənə halını almış "Dünya ətrafına 80 boşqabla səyahət" adlı tədbir keçirilmişdir

Martın 16-17-də Fransanın Bezanson şəhərində keçən əsrin 90-cı illərinin əvvəllərindən ənənə halını almış "Dünya ətrafına 80 boşqabla səyahət" adlı tədbir keçirilmişdir. Tədbirdə 20–dən artıq ölkənin mədəniyyəti, milli mətbəx nümunələri, geyimləri və rəqsləri şəhər sakinləri və turistlər qarşısında nümayiş etdirilmişdir. Yaponiya, Türkiyə, İran, Amerika Birləşmiş Ştatları, Yunanıstan, Braziliya, İspaniya, Malayziya, Çin və digər ölkələrlə yanaşı, Azərbaycan da bu tədbirdə təmsil olunmuşdur.

İştirakçılar Bezansonda yaşayan soydaşlarımızın hazırladıqları milli mətbəximizin nümunələri - yarpaq və kələm dolması, dovğa, Novruz bayramında süfrələrin bəzəyi olan paxlava və şəkərbura, Şəki paxlavasından, səfirlik tərəfindən göndərilmiş ölkəmizin tarixi, mədəniyyəti və incəsənəti, habelə, Azərbyacan həqiqətləri, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kitab və broşürlərdən ibarət güşəyə xüsusi maraq göstərmişlər. Fransızlara yarpaq dolması, paxlava və şəkərbura daha çox xoş gəlmişdir. Onlar ölkəmizə dair suallar vermiş, tariximizin, mədəniyyətimizin, mətbəximizin və incəsənətimizin zənginliyinə heyran qaldıqlarını gizlətməmiş, Azərbaycan haqqında az məlumatları olmasına təəssüf etdiklərini bildirmişlər. Bezansonun ali təhsil ocaqlarında təhsil alan tələbələrimizin ifasındakı milli rəqslərimiz də qonaqlara xoş təsir bağışlamışdır.

Yerli jurnalistlər Azərbaycan guşəsi və Bezansonun müxtəlif universitetlərində oxuyan azərbaycanlı gənclər haqqında ayrıca məqalə ilə mətbuatda çıxış edəcəklərini vəd etmişlər.

16-17 mart 2010

Özbəkistandakı diasporumuz dünya parlamentlərini ədalətli qərarlar çıxarmağa çağırır

Akif Ağatalıbov: "Daşkənddəki Babur parkında "Özbəkistan bizim ümumi evimizdir" adı altında Novruz şənliyi təşkil olunacaq"

Son günlər yenə də gündəmə gələn qondarma "erməni soyqırımı"na etiraz olaraq diasporumuz aktivləşib. Bu məsələ ilə bağlı ABŞ Konqresinin Xarici Əlaqələr Komitəsinin qərar qəbul etməsi Özbəkistandakı diaspor üzvlərimiz də hiddətləndirib. Daşkənddəki Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyasının sədri Akif Ağatalıbov "Paritet"ə açıqlamasında qətnaməni kəskin pisləyib: "Özbəkistanda yaşayan 62-mindən çox soydaşlarımızın hamısı bundan çox narahatdır. Vətəndən kənarda yaşayan azərbaycanlılar hər zaman türkləri özlərinə qardaş sayıblar. Biz Türkiyəni Azərbaycanla ayrılmaz ölkə bilmişik. Türkiyəyə qarşı olan qondarma iddia, bizə olan iddia kimi qəbul edirik. Artıq biz Özbəkistanda etiraz olaraq təbliğat işlərinə başlamışıq. Türk diaspor nümayəndələri ilə görüşlər keçirib həmrəyliyimizi bildirmişik".

A. Ağatalıbov bu qətnamənin qəbul olunmasını Qərb dünyasında, o cümlədən ABŞ-da dövlətlərarası münasibətlərə ikili standartlarla yanaşmanın təzahürü və bölgədə vəziyyətin daha da gərginləşməyinə xidmət edən addım kimi dəyərləndirdi: "Yüz ildən artıqdır türklər, xüsusilə azərbaycanlılar ermənilər, onların terror təşkilatları tərəfindən soyqırıma məruz qaldıqları və öz ata-baba torpaqlarından didərgin salındıqları halda dünya dövlətləri yenə də terrorçuların "məzlum", "qırılan xalq" olduqlarını təsdiqləməkdə davam edir. Halbuki azərbaycanlıların Ermənistan adlanan tarixi Azərbaycan torpaqlarından didərgin salındıqları, bir milyondan artıq soydaşımızın köçkün olduğu, ermənilərin türklərə qarşı bir əsrdir etnik təmizləmə siyasəti apardığı beynəlxalq ictimaiyyətə yaxşı məlumdur.

Azərbaycanlıların 1905, 1918, 1933, 1947, 1953-cü illərdə və nəhayət, 1988-ci ildən başlayaraq bu günə kimi erməni hərbi birləşmələri tərəfindən soyqırıma məruz qalması, Quba, Bakı, Şamaxı, Zəngəzur, Naxçıvan, Gəncə, bütövlükdə Qərbi Azərbaycan torpaqları və İrəvanda azərbaycanlılara qarşı ermənilərin törətdikləri vəhşiliklər, 1992-ci ildə baş vermiş Xocalı qətliamı haqqında dünya dövlətlərinin çox geniş bilgisi var".

Qətnamənin cəfəng arqumentlərə, yanlış və ermənipərəst mənbələrə əsaslandığını vurğulayan AMMA sədri bu sənədin ədalətli sayılmasını mümkün hesab etmir: "Qətnamənin qəbulu regionda sülhün, sabitliyin və təhlükəsizliyin qorunmasına ciddi zərbə vuracaq, həmçinin Dağlıq Qarabağ probleminin həllini çətinləşdirəcək. Belə bir addımın ABŞ-ın təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə də nüfuzuna zərər verəcəyini düşünürəm".

Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvü olan A. Ağatalıbov ABŞ Konqresinin fəaliyyətini bütünlüklə türk soyuna qarşı düşmən mövqenin sərgilənməsi kimi səciyyələndirdi. Təşkilat sədri bildirdi ki, erməni lobbisinin, erməni milyonçularının əlində oyuncağa çevrilən bəzi konqresmenlər fərdi maraqlarını ABŞ-ın milli və qlobal maraqlarından üstün tutaraq, Qafqazda sabitliyi pozmağa çalışırlar.

A. Ağatalıbov İsveç parlamentinin də erməni məsələsini tanınmasına etiraz etdi və belə bir aktın qəbul olunmasını qloballaşan dünyada separatizmin, xalqlar arasında nifrət hissinin artmasına gətirib çıxaracağını dedi: "Heç bir hüquqi və mənəvi dəyərlərə sığmayan bu qərar Özbəkistandakı azəri diasporunda İsveç parlamentinin ədalət və insan hüquqlarına hörmət, reallığa münasibətdə ölçü hisslərinin olmasına şübhə doğurur. Ermənistanın Azərbaycana qarşı ərazi iddiası və ölkəmizin 20 faizdən artıq torpağının işğal olunması günümüzün reallığıdır. Beynəlxalq güclər işğalçı bir dövlətin həyata keçirdiyi vandalizmə baxmayaraq, yenə də qondarma "erməni soyqırımı"nı tanımaqda davam edirsə, bu artıq ədalətin deyil, ədalətsizliyin, ikili standartların təzahürüdür".

DAƏŞ-nın üzvü bildirdi ki, bu gün dünya azərbaycanlıları beynəlxalq aləmi ermənilərin törətdikləri vəhşiliklərə inandırmağa çalışmalıdır: "Biz diaspor fəallarının iştirakı ilə Özbəkistanda 20 yanvar, Xocalı faciələri, habelə 31 mart qırğını ilə bağlı daimi anım mərasimləri keçiririk. Həmin tədbirlərdə azsaylı xalqların nümayəndələri də iştirak edirlər. Mərasimlərdə zaman-zaman türk xalqlarına qarşı düşmənçilik mövqeyində dayanan erməni terrorçuları və onların havadarları ifşa olunur. Erməni vəhşiliklərindən bəhs edən filmlər, qəzet, jurnal və kitablar nümayiş etdiririk". O qeyd etdi ki, Azərbaycan lobbisinin formalaşması istiqamətində bir sıra işlər apararaq tanınmış siyasət adamları, ictimai xadimlər, ziyalılarla əlaqələri inkişaf etdirir, Azərbaycana dost münasibət bəsləyən insanlarla əməkdaşlığı genişləndirirlər.

Yeri gəlmişkən həmsöhbətimiz dedi ki, AMMA Novruz bayramı münasibətilə də Daşkənddə tədbir keçirəcək. Bu tədbir martın 21-də Özbəkistanın ən böyük parkında-Babur parkında "Özbəkistan bizim ümumi evimizdir" adı altında təşkil olunacaq: "Bayram şənliyinə Özbəkistanın dövlət müəssisələrinin, ictimai birliklərinin rəhbərləri, Daşkənddə akkreditə olunmuş səfirlik və digər xarici nümayəndəliklərin təmsilçiləri, həmçinin, başqa xalqların diaspor fəalları da dəvət olunacaqlar. Tədbirdə Novruz bayramının xüsusiyyətlərindən danışılacaq, Azərbaycan xalqının milli adət-ənənələri barədə ətraflı məlumat veriləcək. Bayram şənliyində qonaqlara və təşkilat üzvlərinə kiçik hədiyyələr də paylanacaq".

Qeyd edək ki, artıq Babur parkında AMMA-nın qərargahı yaradılıb və təşkilat şöbəsi bununla bağlı iş aparır: “Bu tədbirə Assosiasiyanın gənclər təşkilatı, ağsaqqallar şurası, qadınlar cəmiyyəti də cəlb olunub. Şənlikdə bütün Novruz şirniyyatları nümayiş olunacaq, Azərbaycan bayrağı dalğalanacaq. Orada “Azəri qızlar” ansamblı, Yusif Əliyev, Rano Şodiyeva və digərləri çıxışlar edəcək”.

Onun sözlərinə görə, Novruz şənliyi nəinki Daşkənddə, eyni zamanda təşkilatın Səmərqənd, Buxara, Sırdərya, Cizax, Fərqanə və şəhərlərdəki bölmələrində belə mərasimlər təşkil olunacaq: “Biz hər zaman uşaq evlərinə novruz sovqatları aparırıq. Tədbirlərimizin ən əsas proqramı bundan başlayır.

Bu artıq bizim üçün ənənəyə çevrilib və bu ildə həmin ənənə davam etdirilir. Onlarla görüş keçirir, orada şənlik proqramları təşkil edirik. Bizim millətimiz həmişə tolerant olub. Əslən Azərbaycandan olsaq da Özbəkistanın uşaq evlərindəki körpələrə də öz balamız kimi baxırıq. Bunla da özbək və digər xalqlara öz humanistliyimizi, azərbaycançılığımız göstəririk”.

Fuad
“Paritet” - 2010 - 18-19 mart -N.27.-S.11.

Türkdilli Xalqların diaspor rəhbərliyi "Bakı-Xəbər"in qonağı oldu

Həmzət Qastamirov: "Azərbaycanın regionda rolunu qiymətləndirməmək qeyri-mümkündür"
Mahir Hənifəsoy: "Nazim İbrahimovun təşkilatımızın yaranmasında böyük xidmətləri olub"

Son illər xaricdə yaşayan azərbaycanlıların diaspor fəaliyyətində xeyli irəliləyişlər əldə olunub. Onlar Azərbaycanın maraqlarını uğurla təmsil edir. Bu istiqamətdə Çeçenistanda fəaliyyət göstərən türkdilli və Azərbaycan diaspor təşkilatlarının da xidmətləri böyükdür. Belə təşkilatlardan biri Qroznıda fəaliyyət göstərən "Türkdilli Xalqların Mədəniyyət Mərkəzi" adlı Çeçenistan Respublikasının Regional İctimai Xeyriyyə Cəmiyyətidir. Sözügedən cəmiyyət burada yaşayan türkdilli xalqların tarixinin, mənəvi sərvətlərinin qorunub-saxlanması istiqamətində, hər bir şəxsin hüquq və azadlığının təmin edilməsinə yardım sahəsində özünəməxsus xidmətlər göstərib. Mərkəzin rəhbəri milliyyətçə çeçen olan Həmzət Qastamirovdur. Onun müavini isə azərbaycanlı Mahir Hənifəsoydur. O, həm də buradakı Azərbaycan diasporunun rəhbəridir. Həmzət Qastamirov 1975-ci ildə anadan olub. Ali təhsili İstanbulda alıb. Bir müddət Türkiyə səfirliyində təbliğat və din üzrə köməkçi vəzifəsində çalışıb. Hazırda ictimai fəaliyyətlə məşğuldur, Şimali Qafqazın Türkdilli Xalqların Mədəni Mərkəzinin şura sədridir. Mahir isə Naxçıvanda anadan olub. Xeyli müddətdir Rusiyada yaşayır, ali təhsili də burada alıb. 2001-ci ildə Həmzət bəylə tanış olub, o gündən bir yerdə fəaliyyət göstərirlər. Bu günlərdə onlar Bakıda səfərdədir. Səfərdə məqsəd əlaqələrin daha da genişlənməsinə nail olmaqdır. Dünən onlar redaksiyamızda oldular. Bizimlə söhbətdə bu iki şəxs təşkilatın məqsəd və məramları, görülən və görüləcək işlər barədə məlumat verdilər.

- Maraqlıdır, milliyyətcə türk olmayan bir şəxs, necə oldu ki, belə bir mərkəzə rəhbər seçildi?

Həmzət Qastamirov:

- Bu maraqlı təklif Azərbaycan tərəfindən gəlmişdi. Mənim öz təşəbbüsüm olsaydı, bunu heç kimə başa sala bilməyəcəkdim. Təklif Azərbaycan, konkret olaraq Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun gəldi.

- Səhv etmirəmsə, siz Məshədovun hakimiyyəti dönəmində də vəzifədə işləmisiz, xarici işlər nazirinin müavini olmusunuz. O dövrdəki vəzifə ilə indiki hakimiyyət dönəmindəki vəzifəni bir-birilə necə əlaqələndirə bilirsiniz? Bu Sizə çətinlik yaradır ki?

- Hər bir dövlətdə hakim qüvvə var. Hakim qüvvə isə hansısa bir məmur vəzifəsilə bağlı deyil. Onlara çox sağ ol deyirəm ki, mənim intellektimdən bu və ya digər qurumun mənafeyi naminə istifadə ediblər. İşləmək üçün müraciət etmişdilər. Türk və Azərbaycan dillərini gözəl bilirəm. Azərbaycan regionun lideridir. Bizim böyük qardaşımızın azərbaycanlılar olduğunu nəzərə alsaq, onun regionda rolunu qiymətləndirməmək qeyri-mümkündür. Görünür, mənim təhsilim və intellektim hansısa quruma lazım olduğundan, hər iki dönəmdə işləməyə dəvət ediblər. Çeçenistan çox kiçik ölkədir. Burada öz işinin peşəkarı olanları qiymətləndirirlər. Məshədovun dönəmində işləyənlərin əksəriyyəti indi Kadırov zamanında da işləyir. Bununla bağlı üzərimdə hansısa bir çətinlik hiss etməmişəm. Heç bir yerdə heç nə ilə bağlı olmamışam. Hara göndəriblər, orada çalışmışam.

- Onda mümkünsə o dövrlə indiki dövrü müqayisə edərdiniz...

- Bugünkü stabillik, sosial müdafiənin təmini, yaşlı insanlara pensiya, uşaqlara müavinətlərin vaxtlı-vaxtında verilməsi, gənc ailələrin dövlətdən pulsuz mənzil alması, insanların açıq fəaliyyət göstərməsi - bütün bunlar inkişafın nəticəsidir. Çeçenistanda 420 yaşayış məskəni var. Hər yaşayış məskənində azı iki məscid fəaliyyət göstərir. Qroznıda 10 min sakini qəbul edə biləcək məscid var. Urus-martan rayonunda isə 5 minlik məscidin tikintisi gedir. Bütün bunlar insanlara qayğının göstəricisidir. İnsan üçün artıq bütün imkanlar yaradılıb. Yaradılan imkanları nədən müdafiə etməyək? Ramzan Kadırovun səyləri sayəsində Çeçenistan və paytaxt Qroznı Fransaya oxşayır. Bunları görməmək qeyri-mümkündür. Xaricilər də gələndə Şimali Qafqazda 49 mərtəbəli binanın, böyük ticarət mərkəzinin tikildiyinə heyran qalır. Bizim səhiyyə Moskva və Sankt- Peterburqdan sonra öz inkişafına görə ölkədə üçüncü yeri tutur. Bütün göstəricilərə görə respublikamız ən mədəni və təhlükəsiz bölgələrdən birinə çevrilib. Bunları görə-görə Ramzan Kadırovu dəstəkləməmək mümkün deyil. Məhsədovun dövründə respublikamızda yaşayan türkdilli xalqları eşitmək belə istəmirdilər. İndi isə onların hamısı üçün mədəni mərkəzlər yaradılıb, öz məktəbləri var. Kadırovun hakimiyyəti dönəmində o qədər xoşbəxt yaşayırıq ki, Məhsədov dövrünü xatırlamaq belə istəmirsən.

Mahir Hənifəsoy:

- Yerli xalqın bizə münasibətində o dövrlə bu dövr arasında elə bir fərq görmürəm. Çeçen millətinin bizə olan səmimiyyəti Məhsədovun dövründə də, indi də eynidir. Çeçenlərin bizlərə münasibətindən tam razıyam. İndi daha rahat və əminamanlıqda yaşayırıq. Ramzan Kadırov bizim millət üçün də böyük səylər göstərib. Həmzət Qastamirovun da orada yaşayan azərbaycanlıların bir yerə toplanmasında böyük xidmətləri olub. Keçən il Novruz bayramını məhz o təntənəli şəkildə təşkil etmişdi.

Əlaqələrimizin genişlənməsində yaxın zamanlarda açılacaq Bakı-Qroznı avtobus marşrutunun da böyük rolu olacaq. Çeçenistanda bu gün tam sabitlikdir, bizim təşkilat üçün də geniş imkanlar yaradılıb. Təşkilatımızda hazırda 1764 nəfər təmsil olunur. Hər birilə sıx əlaqəmiz var. Xocalı faciəsi günündə tədbirlər keçiririk".

- Bütün Qafqazın türkdilli xalqlarının mədəni-dini əlaqələrinin inkişafında Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin xidmətləri danılmazdır. Siz onun bu rolunu necə dəyərləndirirsiniz?

Həmzət Qastamirov:

- Bütün Qafqaz üçün Allahşükür Paşazadə nəinki şeyxülislamdır, o hətta bizim hamımızın ağsaqqalıdır. Hamımız onu qiymətləndirir və hörmət edirik. O, gərgin fəaliyyətdə olmasına baxmayaraq, heç vaxt bizi unutmayıb. Daimi olaraq bizim mədəni mərkəzlə əlaqə saxlayır və himayə edir. Şeyxülislam təkcə dini qurumun deyil, mədəni qurumun fəaliyyətində də bizə geniş yardım əlini uzadıb.

- Buna baxmayaraq, Rusiyanın tanınan qəzetlərindən olan "İzvestiya"da Qafqaz müsəlmanları ilə bağlı məqalələrdən birində Qafqazın dini rəhbərlərinin adı hallansa da, burada Allahşükür Paşazadənin adına, nədənsə, rast gəlinmir. Halbuki, Çeçenistan rəhbəri Kadırov Şeyxülislamın xidmətlərini dəfələrlə qeyd edib. Sizcə, bu nə ilə bağlıdır?

- Qəzetlər bəzən belə səhvlərə yol verir. Amma şəxsən mən bir insan kimi Şeyxülislamın böyük təsir gücünə malik olduğunun şahidi olmuşam. Qroznıdakı ən böyük İslam Universitetinin açılışına gələn çoxsaylı xarici qonaqlar arasında şeyxin böyük nüfuz sahibi olduğunu gördüm. O, Ramzan Kadırovla yaxın münasibətdə olduğundan, ona öz yaxın qohumu kimi yanaşırdı.

- Rəhbərlik etdiyiniz qurumun Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsilə münasibətləri nə səviyyədədir, əlaqələri koordinasiya edirsinizmi?

- Nazim İbrahimov olmasaydı, diasporumuz belə aktiv işləməzdi. Ona qulaq asaraq şuraya sədr gəlmişəm.

Mahir Hənifəsoy:

Nazim İbrahimovun təşkilatımızın yaranmasında böyük xidmətləri olub. O, əlindən gələn hər bir köməkliyi və böyüklüyü bizdən əsirgəməyib. Əlaqələrimiz çox gözəldir, gözəl cəmiyyətimiz var.

- Xalqlar arasında əlaqələrin qurulması və möhkəmlənməsində Mədəniyyət və Turizm, habelə Gənclər və İdman nazirlikləri kimi qurumların da böyük xidmətləri var. Azərbaycandakı bu tip nazirliklərlə əlaqələriniz varmı?

Həmzət Qastamirov:

- Bizim bütün qurum və nazirliklərlə əlaqələrimiz qeyri-rəsmi şəkildədir. Kim dəvət edir, böyük məmnuniyyətlə orada iştirak edirik.

- Respublikada yaşayan türkdillilərin ictimai-siyasi həyatda fəaliyyəti nə səviyyədədir? Onlardan parlamentdə, müxtəlif nazirliklərdə təmsil olunan varmı? Ümumiyyətlə, burada nə qədər türkdilli xalq yaşayır?

- Fəxr edirəm ki, parlamentimizdə 4 nəfər türkdilli deputatımız var. Bir çox nazir müavinləri, yerli administrasiya rəhbərləri türkdilli qardaşlarımızdır. Bu o deməkdir ki, biz bir-birimizi tamamlayırıq. Burada 16 min kumık, 11 min noqay, ümumiyyətlə 36 min türkdilli xalqlar yaşayır.

- Bildiyimiz kimi, təbliğat, prosesində elektron KİV-nin böyük rolu var, bu mənada televiziyalarla əlaqə qurmağın əhəmiyyəti böyükdür. Sizin necə, Azərbaycan televiziyaları ilə əlaqələriniz varmı?

- Əlbəttə. İlk günlərdən ATV kanalı bizi müdafiə edib. Bundan başqa, ANS və bir sıra digər kanallarla da əlaqə qurmuşuq.

- Müharibə ilə əlaqədar olaraq xeyli sayda çeçen Bakıda məskunlaşmağa məcbur olub. Bura gələrkən onlarla əlaqə saxlayırsınızmı?

- Vaxtilə 9 min çeçen burada məskunlaşmışdı. İndi onların sayı azalıb. Bir çoxları Avropaya üz tutub, buna baxmayaraq, Ramzan Kadırovun çağırışından sonra əksəriyyəti geri dönüb. Bakıda olarkən burada yaşayan çeçenlərlə də imkan daxilində görüşürəm.

- Bəs ermənilər necə, respublikanızda yaşayır?

- Sovet dönəmində yaşayıblar. Ermənilər, hər yerdə olduğu kimi, çeçenləri də satıb. Onlar guya bizimlə bir yerdə idi, qardaş idik. Müharibə başlayan kimi isə, son mismara kimi, hamısını özlərilə daşıyaraq Rusiyanın müxtəlif yerlərinə qaçdılar. Ümid edirəm ki, bundan sonra da respublikamızda erməni və onların diasporası olmayacaq.

- Əldə etdiyimiz məlumata görə, bu ilin aprelində Bakıda Şeyxülislamın və Rusiya patriarxı Kirillin rəhbərliyilə din xadimlərinin beynəlxalq konfransı keçiriləcək. Siz bu tədbirə dəvət edilmisiniz?

- Mərkəzin nailiyyətləri belə dəvətlərlə qeyd olunur. Rusiyadan təkcə bizim ictimai təşkilat həmin tədbirə dəvətlidir. Şeyxülislam Allahşükür Paşazadənin bizə göstərdiyi qayğıdan qürur duyuram. O, ağsaqqal kimi bizim qayğımıza qalır.

- Mətbuatın yazdığına görə, orada Sizin aktiv iştirakınızla Heydər Əliyev adına park yaradılır.

- Bu mənim və müavinimin şəxsi təşəbbüsüdür. Təşəbbüslə çıxış edərkən onun belə müvəffəqiyyətlə davam edəcəyini düşünmürdük. Rusiyada və Türkiyədə 8 hektarlıq park ümumiyyətlə yoxdur. Müraciətimizə cavab olaraq, bizə keçmiş İnşaatçılar parkını məsləhət gördülər. Ümid edirəm ki, yaxın zamanda burada Heydər Əliyev adına parkın əsası qoyulacaq. Bizim təşəbbüsümüz və Şeyxülislamla millət vəkili Mehriban Əliyevanın xeyir-duası ilə Bakıdan start götürərək Moskvada başa çatacaq 3 min kilometrlik motoyürüş təşkil etməkdəyik. Motoyürüşün marşrutu boyu müxtəlif yaşayış məntəqələrində türkdilli xalqların mədəniyyəti, tarixi, bədii sərvət nümunələrilə tanışlıq məqsədilə tədbirlərin keçirilməsi nəzərdə tutulub. Respublikamızda Əhməd Kadırova həsr olunan 56 ölkə nümayəndəsinin iştirak etdiyi beynəlxalq konfrans keçirilib. Burada çıxış edərək, milli lider Heydər Əliyevin ideyalarını müdafiə etmək və onun haqqında danışmaq həmin sammitin böyük uğuru idi. Bu çıxış burada iştirak edənləri şoka saldı.

Mahir Hənifəsoy: **- Azərbaycanın hazırkı prezidenti İlham Əliyevin də bizim diasporumuza böyük dəstəyi olub.**

Qroznıda Heydər Əliyev adına park salmaq bizim ideyamızdır. Sevinirik ki, çeçen tərəfi də həmin məsələyə razılıq verib. Onu da qeyd edim ki, həmin parkın tikintisində Heydər Əliyev Fondunun rolu böyükdür. Ramzan Kadırov da bizə böyük dəstək verir. Münasibətlərin güclü olmasında Şeyxülislam Allahşükür Paşazadənin də xidmətləri danılmazdır.

“ Bakı xəbər” – 2010 - 19 mart - N 312.-S.6.

Domodedovo şəhərində, "Bor" sanatoriya-sağlamlıq kompleksində
Novruz bayramı təntənəli şəkildə qeyd edilmişdir

Moskva ətrafındakı Domodedovo şəhərində, "Bor" sanatoriya-sağlamlıq kompleksində Novruz bayramı təntənəli şəkildə qeyd edilmişdir. Bayram tədbiri Domodedovoda yerli azərbaycanlıların "Vətən" ictimai təşkilatının yaradılmasına həsr edilmişdir. Cəmiyyətin sədri vəzifəsinə həmvətənimiz, Rusiya Federasiyasının əməkdar inşaatçısı, "Günay" inşaat şirkətinin prezidenti Əlizaman Rəhimov seçilmişdir. Domodedovo şəhər dairəsi administrasiyasının başçısı Dmitri Qorodetski tədbiri açaraq, Azərbaycan xalqını qədim Novruz bayramı münasibətilə təbrik etmiş və xüsusi vurğulamışdır ki, Azərbaycan ən dinamik inkişaf edən, Rusiya və rus xalqı ilə sıx dostluq telləri ilə bağlı olan dövlətdir.

O, tədbirin təşkilatçısı Əlizaman Rəhimova təşəkkürünü bildirərək qeyd etmişdir ki, onun bu şəhər qarşısında xidmətlərini lazımınca qiymətləndirmək çətindir. D.Qorodetski demişdir: "O, köhnəlmiş mənzil fondunu boşaldır, şəhər üçün təmtəraqlı yaşayış kompleksləri ucaldır və ümumiyyətlə, infrastrukturun inkişafı üçün çox iş görür. Təsadüfi deyildir ki, Əlizaman Rəhimova Prezident Dmitri Medvedevin Sərəncamı ilə "Rusiyanın əməkdar inşaatçısı" fəxri adı verilmişdir". Azərbaycanın Rusiyadakı səfirliyinin müşaviri Ağalar Atamoğlanov səfir Polad Bülbüloğlunun tədbir iştirakçılarına təbrikini oxumuşdur.

Təbrikdə bu təntənəli tədbirin təşkilatçılarına, "Vətən" ictimai təşkilatının rəhbərlərinə Novruz bayramına həsr edilmiş tədbir keçirmək təşəbbüsünə və bu tədbirin hazırlanmasına görə təşəkkür edilir. Məktubda deyilir: "Domodedovo şəhərində bayram keçirilməsi, habelə azərbaycanlıların "Vətən" ictimai təşkilatının təsis edilməsi bu gün diasporun həyatında baş verən mühüm prosesləri əks etdirən əlamətdar hadisədir və onun Rusiyanın ictimai həyatında fəal iştirak etdiyini göstərir". Bayram tədbirinin rəsmi hissəsinin aparıcısı Azərbaycanın əməkdar artisti Səməd Səmədov idi. Rəsmi hissədən sonra görüş Rusiyanın və Azərbaycanın tanınmış mədəniyyət və incəsənət ustalarının konsert proqramı ilə davam etmişdir.

19 mart 2010

Avstraliya Azərbaycan Türk Dostluğu Birliyi Novruz bayramı münasibəti ilə Obörn şəhərində yerləşən Türk Evində şənlik keçirmişdir

Martın 20-də Avstraliya Azərbaycan Türk Dostluğu Birliyi Novruz bayramı münasibəti ilə Obörn şəhərində yerləşən Türk Evində şənlik keçirmişdir. Yeni Cənubi Uels (YCU) ştatının yerli hakimiyyət naziri xanım Barbara Perri, ahıllar, əlillər və yerli əhali üzrə nazir Pol Cerald Linç, Türk Rifah Assosiasiyasının prezidenti Beşir Karasu, Yeni Cənubi Uels Türk Assosiasiyaları Şurasınn prezidenti Dursun Qandemir, Türkiyə konsulluğunun nümayəndəsi Yusuf Yurt, Obörn şəhər Şurasının məsləhətçisi İzzet Anmak və digər qonaqlar bayram şənliyinə qatılmışlar. Tədbirin açılış mərasimində Avstraliyanın, Azərbaycanın və Türkiyənin dövlət himnləri səslənmişdir. Yeni Cənubi Uels Universitetinin tələbəsi Nicat Qasımov Novruz bayramının yaranma tarixindən söz açmış, onun Azərbaycanın əziz bayramlardan biri olduğunu vurğulamışdır. Digər natiqlər Azərbaycan və Novruz bayramı haqqında xoş sözlər söyləmişlər. Azərbaycanın milli musiqiləri səslənən tədbirin sonunda iştirakçılar milli mətbəximizin nemətlərindən dadmışlar.

20 mart 2010

Azərbaycanın Belçika Krallığında və Lüksemburq Hersoqluğundakı səfirliyi və Avropa İttifaqı yanında daimi Nümayəndəliyi ilə birlikdə martın 23-də Novruz bayramı münasibətilə qəbul təşkil etmişdir

Azərbaycanın Belçika Krallığında və Lüksemburq Hersoqluğundakı səfirliyi və Avropa İttifaqı yanında daimi Nümayəndəliyi ilə birlikdə martın 23-də Novruz bayramı münasibətilə qəbul təşkil etmişdir. Səfirliyin mətbuat xidmətindən bildirmişlər ki, səfir Emin Eyyubov Novruz bayramının xalqımızın tarixində, həyatında və mədəniyyətindəki rolu barədə məlumat vermişdir. Qəbulda iştirak edən gənclər və idman naziri Azad Rəhimov Azərbaycan rəhbərliyinin təşəbbüsü ilə BMT-nin hər il martın 21-ni "Beynəlxlaq Novruz Günü" elan etdiyini iştirakçıların diqqətinə çatdırmışdır. Tədbirdə Azər Qəribovun "Azərbaycan xaricilərin gözü ilə" sənədli filmi nümayiş etdirilmiş, əməkdar artist Tünzalə Ağayevanın ifasında xalq mahnılarımız səsləndirilmişdir.

İştirakçılara milli mətbəximizin nümunələri və Novruz süfrəsinin bəzəyi olan şirniyyatlar təqdim edilmişdir. Qəbulda Milli Məclisin deputatı Fuad Muradov, ölkəmizin Fransada, Avstriyada və Almaniyadakı səfirləri, NATO və Avropa Şurası yanındakı Daimi Nümayəndəliklərin rəhbərləri, Avropada təhsil alan azərbaycanlı tələbələr və soydaşlarımız iştirak etmişlər.

23 mart 2010

Avropada təhsil alan Azərbaycanlı Tələbələrin (FASE) dördüncü forumu keçirilir

Brüsseldə “Birgə işləmək uğurdur” başlığı altında Avropada təhsil alan Azərbaycanlı Tələbələrin (FASE) dördüncü forumu keçirilir. Avropa Parlamentinin binasında keçirilən tədbirdə Avropa ölkələrində təhsil alan 100-ə yaxın azərbaycanlı tələbə, Avropa Parlamentinin üzvləri, dövlət və hökumət nümayəndələri, eləcə də Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının sədri, Milli Məclisin deputatı Fuad Muradov iştirak edirlər. Toplantıda Avropada təhsil alan azərbaycanlı gənclərin həyatı, onlar arasında əlaqələrin qurulması, ölkəmizi tanıtmaq məqsədi ilə birgə fəaliyyəti mövzularında müzakirələr aparılacaqdır. Forum martın 25-də başa çatacaqdır.

24 mart 2010

Almaniyada, Qazaxıstanda Novruz Bayramı münasibətilə bir neçə tədbir keçirilib

Almaniyada Novruz Bayramı münasibətilə bir neçə tədbir keçirilib. Martın 20-də Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzində Novruz Bayramı uşaqların ifasında maraqlı bədii proqramla qeyd olunub. Kiçik yaşlı soydaşlarımız "Novruz tövhələri" adlı musiqili-bədii bayram şənliyində Novruza aid şeirlər söyləyib, mahnılar oxuyub, oyunlar oynayıb, rəqs ediblər. Uşaqlar rəmzi bayram tonqalı da qalayıblar. AAKM-nin icraçı direktoru Samirə Patzer Ismayılova uşaqları bayram münasibətilə təbrik edərək, onlara Novruz Bayramının tarixi və adətləri barədə məlumat verib. O, kiçik soydaşlarımızın ana dilində sərbəst danışmasını, milli adətlərimizə bağlı olmasını, onların öz alman və digər xalqlardan olan dostlarına xalqımız haqqında bilgilər verməsini yüksək qiymətləndirib və buna görə bütün valideynlərə təşəkkür edib.

Tədbirdə iştirak edən Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Səadət Məmmədova Dövlət Komitəsi rəhbərliyinin bayram təbriklərini soydaşlarımıza çatdırıb. O, Novruz Bayramını xarici ölkələrdə yaşayan həmvətənlərimizin yüksək səviyyədə qeyd etməsini, bunun mədəniyyətimizi və xalqımızın adət-ənənələrini dünyada tanıtması işində önəmini qeyd edib və bildirib ki, bu il BMT-nin martın 21-ni Beynəlxaql Novruz Günü elan etməsi və Novruz Bayramını dünyanın qeyri-maddi irsinin siyasıhına daxil etməsi çox sevindirici hadisədir. Onun sözlərinə görə, bu qərar Azərbaycan mədəniyyətinin dünyada daha geniş təbliginə və Novruz vasitəsilə folklorumuzu, milli adətlərimizi digər ölkələrdə daha ətraflı tanıdılmasına imkan verəcək. Qeyd edək ki, AAKM-dəki uşaqların bayram tədbirinin ssenarisi Naibə Turala, musiqi hissəsinin hazırlanması isə KamaləMəmmədovaya məxsus idi.

Martın 22-də isə Azərbaycan Respublikasının Almaniyadakı Səfirliyində Novruz Bayramı qeyd olunub. Tədbirdə qonaqları salamlayan Azərbaycanın Almaniyadakı səfiri Pərviz Şahbazov Novruz bayramı, onun tarixi, xalqımızın qədim mədəniyyətinin dünyada tanıdılmasında bu bayramın rolu, eləcə də Azrbaycan dövlətinin Novruz Bayramına verdiyi önəm, hər il bu bayramın ölkəmizdə yüksək səviyyədə və təntənə ilə keçirilməsi barədə məlumat verib. Səfirlikdə keçirilən bayram tədbirində Bundestaqın üzvü, eks iqtisadiyyat naziri M.Qlos, Bundestaqın xarici əlaqələr komissiyasının üzvü, Xristian Demokrat Partiyasının xarici məsələlər üzrə sözçüsü Mistfelder, Bundestaqda Xristian Demokratlar və Xristian Sosialistlər fraksiyasının icraçı katibi M.Qrunt, islam elmləri üzrə alim, professor Ştaynbax, Bundestaqın, Almaniya XİN-nin əməkdaşları, alimlər, Almaniya ictimaiyətinin tanınmış nümayəndələri iştirak ediblər. Bayram mərasimində Azərbaycandan dəvət olunmuş incəsənət xadimləri-xalq artisti Səkinə Ismayılova, əməkdar artist Teyyub Aslanov, əməkdar artist Elşən Mansurov (kamança) və Əliağa Sədiyevin (tar) ifasında muğamlardan parşalar və xalq mahnılarımız səslənib. Sonda qonaqlar üçün milli mətbəximizin nümanələrindən ibarət bayram süfrəsi açılıb.

Martın 23-də isə Azərbaycanın Almaniyadakı səfirliyi "Mayster" konsert salonunda soydaşlarımız və alman ictimaiyyətinin təmsilçiləri üçün Novruz bayramı münasibətilə geniç konsert təşkil edib. Konsertdən əvvəl çıxış edən Azərbaycanın Almaniyadakı səfiri Pərviz Şahbazov Novruz ənənələri, eləcə də Azərbaycanın zəngin mədəniyyəti haqqında qonaqlara bilgi verib. Səfir Konserin təşkilində göstərdiyi köməyə görə Diasporla İş üzrə Dövlət Komitəsinə, Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinə, Avropa Azərbaycanlıları Konqresinə, Atatürk Düşüncə Dərnəyinə təşəkkürünü bildirib. Konsertdə xalq artisti Səkinə Ismayılova, əməkdar artist Teyyub Aslanov, əməkdar artist Elşən Mansurov və Əliağa Sədiyevin təqdim etdiyi 2 saatlıq proqram qonaqlara əsl bayram sevinci yaşadıb.

Qazaxıstanın Aktau şəhərinin dəniz kənarı parkında keçirilən Novruz şənliklərində Azərbaycanın Aktaudakı Baş konsulluğunun və "Dostluq" Azərbaycan Mədəniyyət Mərkəzinin üzvləri də iştirak etmişlər. Tədbir çərçivəsində burada Azərbaycanla bağlı ayrıca guşə yaradılmış, Azərbaycanın tarixi abidələri, səfalı yerləri, təbiəti və Novruz bayramı ilə bağlı foto stendlər nümayiş etdirilmişdir. Azərbaycan guşəsinə gələn qonaqlara milli yeməklərimiz-plov, dolma, balıq, toyuq ləvəngisi, şəkərbura, paxlava və digər şirniyyatlar təqdim olunmuşdur. Qazaxıstanın əmək və sosial müdafiə naziri Gülşara Abdukalikova, Aktau şəhər akimi Salimqerey Bekberqenov, Məngistay vilayət akiminin müavini Jumabay Karayev və digər rəsmi şəxslər Azərbaycan guşəsinə baxmış, Baş konsulluq və Azərbaycan diasporu tərəfindən hazırlanmış guşənin genişliyini, şəhər sakinlərinə təmənnasız olaraq milli yeməklərimizin və şirniyyatlarımızın təklif olunmasını yüksək qiymətləndirmişlər.

Baş konsul Rəşad Məmmədov Novruz bayramının tarixi, adət-ənənələrimiz barədə məlumat vermiş, martın 21-nin "Beynəlxalq Novruz Günü" elan olunması barədə BMT-nin qərarından söhbət açmışdır. Nazir Baş konsulluğun ölkələrimiz arasında əlaqələrin genişlənməsi və inkişafı istiqamətində böyük işlər gördüyünü qeyd etmiş, gələcək işlərində konsulluğa uğurlar arzulamışdır. "Azəri" rəqs qrupu milli rəqslərimizi ifa etmişdir.

24 mart 2010

Avropa Azərbaycan Cəmiyyəti (AAC) Böyük Britaniyanın baş naziri Qordon Braunun rəsmi internet saytında müraciətlə çıxış edib

Avropa Azərbaycan Cəmiyyəti (AAC) Böyük Britaniyanın baş naziri Qordon Braunun rəsmi internet saytında müraciətlə çıxış edib. Cəmiyyətdən APA-ya daxil olan məlumata görə, Böyük Britaniya vətəndaşlarının da imzalamağa çağırıldığı müraciətdə Xocalı qətliamının qınanılmasına çağırış edilib. Müraciətdə həmçinin Ermənistan hökumətindən BMT Təhlükəsiz Şurasının 4 qətnaməsinə uyğun olaraq suveren Azərbaycan ərazisindən öz ordusunu çıxartmaq tələb edilib. Müraciətdə həmçinin bildirilib ki, Ermənistanla Azərbaycan arasındakı münaqişə tez-tez "dondurulmuş münaqişə" kimi təqdim olunsa da, "təmas xəttində" mütəmadi olaraq atəşkəs rejimi pozulur: "Elə ötən həftələr ərzində Azərbaycan Ordusunun üç əsgəri cəbhə xəttində baş vermiş atışma nəticəsində şəhid olub".

Avropa Azərbaycan Cəmiyyətinin təşəbbüsü ilə Böyük Britaniyanın parlamentlərinin klubu olan Erkən Gün Hərəkatı da (EGH) (Early Day Motion (EDM)) Xocalı faciəsi ilə bağlı müzakirələr aparıb. Qeyd edək ki, EGH –də müzakirə olunan məsələlər daha sonra burda təmsil olunan parlament üzvləri tərəfindən rəsmi iclaslarda da gündəliyə gətirilir. EGH-da Xocalı soyqırımı ilə bağlı aparılan müzakirələr nəticəsində Böyük Britaniya hökuməti Xocalı soyqırımının 17-ci ildönümünü tanımağa, bundan istifadə etməklə yeni beynəlxalq sülh səylərinə başlamağa çağırılıb. Həmçinin bu münaqişənin həllini tapmadığı müddətdə bütün Qafqaz bölgəsinə, o cümlədən Böyük Britaniyanın Azərbaycandakı maliyyə yatırımlarına təhlükə yarandığı qeyd edilib.

Müraciətdə həmçinin münaqişənin sülh yolu ilə həll olunması, Ermənistan Ordusunun Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması və bir milyon Azərbaycan vətəndaşının öz evinə geri qaytarılmasını tələb etmək, BMT Təhlükəsiz Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrinin Ermənistan tərəfindən icra olunmaması səbəbindən iflasa uğradığını qeyd etməklə bağlı da hökumətə çağırışlar səslənib. Həmçinin Böyük Britaniyanın Azərbaycanda ən böyük maliyyə yatırımçısı olduğu, bu ölkənin Azərbaycanda 5000 vətəndaşının yaşadığı, sərmayəsi olduğu xüsusilə qeyd edilib. Qeyd edək ki, müraciətdə 1992-ci ilin fevral ayında Ermənistan Silahlı Qüvvələrinin işğalı nəticəsində Xocalı şəhərinin 613 sakini – kişilər, qadınlar və uşaqların vəhşicəsinə qətlə yetirildiyi, ümumilikdə, Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayonun işğalı nəticəsində, 25.000-ni azərbaycanlı olmaqla, 30.000-dən artıq insan öldürüldüyü də qeyd olunub. Müraciəti Böyük Britaniya parlamentinin və Erkən Gün Hərəkatının üzvü olan 32 parlamentari imzalayıb.

25 mart 2010

Azərbaycanlı Tələbələrin IV Forumu çərçivəsində etiraz aksiyası keçirilmişdir

Martın 25-də Brüsseldə Avropada təhsil alan Azərbaycanlı Tələbələrin IV Forumu çərçivəsində etiraz aksiyası keçirilmişdir.

Robert Şuman meydanında, Avropa Komissiyasının binası qarşısında "Erməni təcavüzünə son qoyulsun!" şüarı altında keçirilmiş aksiyada tələbələr "Dağlıq Qarabağ - Azərbaycan torpağıdır!", "Xocalı soyqırımı terrorçu ermənilərin əməlidir!", "Ermənistan, Azərbaycan torpaqlarından rədd ol!" şüarları səsləndirmişlər.

Gənclər fransız və ingilis dillərində çap olunmuş, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətləri əks etdirən bukletləri meydana toplaşanlara paylamışlar.

25 mart 2010

Buxarestdəki Avropa Nikolae Titulesku Fondunda bu ölkədə təhsil almış azərbaycanlı tədqiqatçıların doktorluq elmi işlərindən ibarət kitabların təqdimat mərasimi keçirilmişdir

Azərbaycanın Rumıniyadakı səfirliyindən bildirmişlər ki, Buxarestdəki Avropa Nikolae Titulesku Fondunda bu ölkədə təhsil almış azərbaycanlı tədqiqatçıların doktorluq elmi işlərindən ibarət kitabların təqdimat mərasimi keçirilmişdir. Bunlar ölkəmizin Rumıniyadakı səfirliyinin əməkdaşı Fəxri Kərimlinin "Azərbaycan Respublikası və Rumıniya arasında münasibətlər (1993-2004)", Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyinin direktoru İqbal Hacıyevin "Azərbaycan və Mərkəzi Asiya dövlətləri arasındakı əlaqələr" (1991-2003)", ARDNŞ-nin Rumıniya nümayəndəliyinin direktoru Həmzə Kərimovun "Neft sənayesində investisiya qərarının əsaslandırılması" kitablarıdır. Avropa Nikolae Titulesku Fondunun icraçı direktoru professor Corce Potra bildirmişdir ki, üç gənc azərbaycanlı müəllifin rumın dilində elmi iş müdafiə etmələri və kitablarının nəşri böyük əhəmiyyət daşıyır. Belə ki, onların sayəsində rumın ictimaiyyəti region və Azərbaycan haqqında daha geniş məlumat almaq imkanı qazanır. Babeş-Bolyai Universiteti Türkologiya və Mərkəzi Asiya Araşdırmalar İnstitutunun direktoru, Rumıniyanın Azərbaycan və Türkmənistandakı keçmiş səfiri professor Təhsin Cəmil Rumıniyanın tanınmış ali təhsil ocaqlarında doktorluq elmi dərəcəsinə layiq görülmələri münasibətilə gənc tədqiqatçıları bir daha təbrik etmiş, Avropa İttifaqının üzvü olan Rumıniyanın Qafqaz və Orta Asiya regionu, xüsusilə Azərbaycan ilə əlaqələrinin inkişafına xüsusi diqqət yetirməsinin vacib olduğunu bildirmişdir. Rumıniya İqtisadi Elmlər Akademiyasının professoru Floriana Bran Azərbaycanın neft və qaz ehtiyatlarının bütün Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm roldan bəhs etmişdir.

Buxarest Yazıçılar Assosiasiyasının sədri Horia Qırbea, Spiru Haret Universitetinin məsul işçisi Lyudmila Rotaru, nüfuzlu "Geopolitika" jurnalının redaktoru Vasile Similyanu və digərləri də nəşrlərin məziyyətlərindən danışmışlar. Mərasimdə Azərbaycanın Rumıniyadakı səfirliyinin əməkdaşları, Rumıniyanın Postsovet Araşdırmaları İnstitutunun rəhbərliyi, region ölkələrindəki keçmiş səfirləri, tanınmış din, ədəbiyyat və incəsənət xadimləri, Buxarest şəhərində akkreditə olunan xarici ölkələrin diplomatları, Rumıniyanın ictimai təşkilat və fondlarının üzvləri, Buxarest şəhəri 2-ci sektoru parlamentinin təmsilçiləri, Rumıniyada yaşayan həmvətənlərimiz, o cümlədən bu ölkədə təhsil alan azərbaycanlı tələbələr iştirak etmişlər. Təqdimat mərasimi Rumıniyanın dövlət televiziyası "TVR 1" də daxil olmaqla, müxtəlif yerli və xarici KİV tərəfindən geniş işıqlandırılmışdır.

29 mart 2010

31 Mart - Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar diaspor təşkilatları müxtəlif tədbirlər keçirir

31 Mart - Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar diaspor təşkilatları müxtəlif tədbirlər keçirir, ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı faktlarının dünya ictimaiyyətinə çatdırılması üçün konfranslar, dəyirmi masalar, sərgilər təşkil edir, müxtəlif təbliğat materialları yayırlar.

Bu gün-martın 30-da Hollandiyanın Den Haaq şəhərinin mərkəzi kilsəsində 31 Mart - Azərbaycanlıların soyqırımı gününə həsr olunmuş tədbir keçiriləcək. Tədbir bu gün Bakı vaxtı ilə 22.30-da başlanacaq). Benilüks Azərbaycanlıları Konqresi, NACC-Niderland Kültür Cəmiyyəti və Ana Vətən-Hollandiya Azərbaycanlı Qadınlar Birliyinin təmsil olunduğu "Xocalıya Ədalət" kampaniyasının Niderland üzrə Komitəsinin təşkil etdiyi tədbiri komitənin rəhbəri Gert van Dam açacaq. Azərbaycanın Niderland Krallığındakı səfiri Fuad İskəndərovun çıxışından sonra isə 31 Mart soyqırımından bəhs edən sənədli film nümayiş etdiriləcək. Tədbirdə Holland-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Marion van der Vegt, Amsterdamda yaşayan azərbaycanlı həkim Kərim Göycəli və digər qonaqların da çıxışı nəzərdə tutulub. Sonda Hollandiyanın məşhur antifaşist hərbi xoru soyqırım qurbanlarının xatirəsinə mahnılar ifa edəcək. Sabah isə 31 Mart-Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar Almaniyadakı Azərbaycan Evi, Azərbaycanlıların Koordinasiya Mərkəzi, Alman–Azərbaycan Həmrəylik Cəmiyyəti və Azərbaycan Kültür Ocağı Berlində Ermənistan səfirliyinin binası qarşısında etiraz mitinqi keçirəcəklər. Almaniyadakı diaspor təşkilatlarımız ermənilərin 1918-ci ilin martında Bakıda və Azərbaycanın müxtəlif rayonlarında azərbaycanlılara, türklərə, yəhudilərə və digər millətlərə qarşı törətdikləri soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün materiallar hazırlayaraq yayacaqlar. Martın 31-də Tallində "Aydan" Estoniya-Azərbaycan Mədəniyyət Mərkəzi, Riqada "Ocaq" Mədəniyyət Mərkəzi, Kişineuda Moldova Azərbaycanlıları Konqresi, Praqada isə "Azər-Çex" cəmiyyəti soyqırım qurbanlarını yad edəcəklər. Buxarestdə Rumıniya Azərbaycan Gənclər və Mədəniyyət Assosiasiyası Budapeştdə isə "Macar-Azərbaycan Dostluq Cəmiyyəti" Azərbaycanın bu ölkələrdəki səfirlikləri ilə birlikdə soyqırımla bağlı tədbirlər keçirəcəklər.

Ümumrusiya Azərbaycan Konqresinin bütün reional təşkilatlarında 31 mart - Azərbaycanlıların soyqırım günü ilə bağlı müxtəlif tədbirlər keçiriləcək. Ukrayna və Belarusdakı diaspor təşkilatlarımız da soyqırımın xatırlanmasına dair tədbirlər planı hazırlayıblar. Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası isə bu hadisənin 92-ci ildönümü ilə əlaqədar mətbuat üçün açıqlama verəcək. Kanadadakı diaspor təşkilatları 31 mart-Azərbaycanlıların soyqırım günü ilə bağlı aprelin 24-də - ermənilərin "qondarma erməni soyqırımı"nı qeyd etdikləri gün Ottavada Ermənistanın Kanadadakı səfirliyinin və Kanada Parlamentinin önündə etiraz aksiyası keçirməyi qərarlaşdırıblar.

Birləşmiş Ərəb Əmirliklərinin Dubay Əmirliyində fəaliyyət göstərən "Azərbaycan" Cəmiyyəti 31 Mart Azərbaycanlıların soyqırımının 92-ci ildönumu ilə bağlı tədbir keçirib. Bu ölkədə yaşayan müxtəlif xalqların nümayəndələri qatıldığı tədbirdə son yüz ildə erməni terrorçularının Azərbaycan, türk və digər xalqlara qarsı törətdikləri soyqırımı hadisələrini özündə əks etdirən sənədli film göstərilib. Cəmiyyətin sədri Samir İmanov öz çıxışında ermənilərin ötən 200 ildə 1 milyondan artıq azərbaycanlını vəhşicəsinə qətlə yetirməsi barədə faktlar diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan yenidən müstəqilliyini əldə etdikdən sonra milli lider Heydər Əliyevin imzaladığı sərəncamla 1918-ci ilin hadisələri hər il martın 31-də Azərbaycanlıların soyqırımı günü kimi qeyd edilir. Cəmiyət rəhbəri bu faktı vurğulayıb ki, ermənilər BMT və İslam Konfransı Təşkilatının qətnamələrinə hələ də məhəl qoymayaraq Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayırlar. Tədbirdə iştirak edən yerli hakimiyyət təmsilçiləri və qonaqlar baş verən hadisələri bəşəriyyətə və insanlığa qarsı vəhşilik adlandırıblar. Tədbirdə erməni terrorunu əks etdirən fotosərgi də nümayiş olunub, Diasporla İş üzrə Dövlət Komitəsinin təqdim etdiyi müxtəlif dillərdə kitablar, video-disklər və bröşürlər paylanıb. Martın 30-da isə "Azərbaycan" Cəmiyyəti adından Dubay Şeyxinin Aparatına, Birləşmiş Ərəb Əmirlikləri Parlamentinin Sədrinə və Insan Hüquqları Təşkilatına 31 Mart soyqırımı ilə bağlı müraciət göndərilib.

AzərTAc bildirir ki, martın 30-da İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetində (TDU) Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılmış "Azərbaycanın dostları klubu" auditoriyasında azərbaycanlı ziyalıların, tələbələrin iştirakı ilə Azərbycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdən əvvəl Azərbaycan Respublikasının Gürcüstandakı səfiri Namiq Əliyev Gürcüstan parlamentinin vitse-spikeri Rusudan Kervalişvilini auditoriya ilə tanış etmiş, burada keçirilən tədbirlər barədə ətraflı məlumat vermiş və ona Azərbaycan həqiqətləri əks olunmuş kitablar bağışlamışdır. Namiq Əliyev tarixi faktlara əsaslanmaqla iştirakçılara yalnız Azərbaycan üçün deyil, bütün Cənubi Qafqaz üçün təhlükə törədən erməni separatizmi, "böyük Ermənistan" xülyası və s. barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, martın 31-i ulu öndər Heydər Əliyevin Fərmanı ilə Azərbaycanlıların Soyqırımı Günü elan olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diplomatlara digər sahələrlə yanaşı, Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, dünyada özünü "əzabkeş xalq" kimi göstərməyə çalışan erməni qəsbkarların əməllərinin faktlarla ifşa olunması və s. göstərişləri istiqamətində yeridilən siyasət artıq öz bəhrəsini verməkdədir.

Azərbaycan öz haqq işi uğrunda mübarizəsini bir an da olsa dayandırmır və Prezidentimizin tarazlı siyasəti nəticəsində əsl həqiqət tezliklə dünya ictimaiyyətinə çatdırılacaq, torpaqlarımız xain ermənilərdən xilas ediləcəkdir. Ermənilər öz xarici himayədarlarının dəstəyi və fitnəkar siyasəti ilə Cənubi Qafqazda monoetnik zonalar yaratmaqdadır. Rus çarizminin yürütdüyü ədalətsiz siyasət nəticəsində Cənubi Qafqazda öz dövlətçiliyini yaratmış ermənilər, sonradan himayədarlarının hərtərəfli yardımı ilə Ermənistanda yerli azərbaycanlılara qarşı soyqırımı həyata keçirərək onların əzəli və əbədi torpaqlarında etnik təmizləmə aparmış, Azərbaycan Respublikasının Qarabağ bölgəsində monoetnik zona yaratmışlar. Bu siyasət Gürcüstanın Samtsxe-Cavaxeti bölgəsində də davam etdirilmiş və təəssüf ki, yenə də davam etdirilməkdədir. Yeri gəlmişkən, hələ ötən əsrin 40-cı illərində Gürcüstanın Samtsxe-Cavaxeti bölgəsindən mesxet türkləri də məhz ermənilərin, o vaxtlar SSRİ-də məsul vəzifə tutan Anastas Mikoyanın hiyləsi ilə öz doğma yurdlarından didərgin salınmışlar ki, bu bölgəyə köçürülmüş ermənilər burada çoxluq təşkil etsinlər. Belə məkrli siyasəti ilə indiyədək dünya ictimaiyyətini çaş-baş salmağa çalışan ermənilərin iç üzü getdikcə açılır və onlar ifşa olunurlar. Azərbaycan rəhbərliyinin uğurlu siyasəti erməni yalanlarını ifşa etməkdədir.

Cənubi Qafqaz üçün təhlükə olan erməni separatizmi, deyərdim ki, abxaz və osetin separatçılığını da qidalandırdı, Gürcüstan xeyli ərazisini itirmək məcburiyyətində qalmışdır. Azərbaycana qarşı bəzi qüvvələri ermənilərin maliyyələşdirdiyi danılmazdır. Ancaq onlar öz istəklərinə nail ola bilməyəcəklər. Ermənilər hər vəchlə çalışırlar ki, Cənubi Qafqazda sabitlik pozulsun, hərc-mərclik olsun, bununla özgə torpaqlarını özününküləşdirib "böyük Ermənistan" yaratsınlar. Məhz buna görə də Cənubi Qafqazın sağlam qüvvələri birləşib ermənilərin bu bölgədə monoetnik zonalar yaratmasının qarşısını almalıdırlar. TDU-nun tələbələri Elnur Əliyev, Orxan Əliyev, Tbilisi Texniki Universitetinin tələbəsi İlham Əsədov və başqaları çıxışlarında ötən əsrin əvvəllərindən ermənilərin azərbaycanlılara qarşı törətdikləri qətliamlar barədə məlumatları tarixi sənədlər əsasında geniş şərh etmişlər. Gürcüstan parlamentinin deputatı Ramin Bayramov belə bir tədbirə tələbə gənclərin cəlb olunmasını alqışlamış, ermənilərin azərbaycanlılara qarşı yeritdikləri xain, xəbis siyasətin iç üzünün gürcü ictimaiyyətinə çatdırılmasında bu cür tədbirlərin mühüm rol oynayacağına əmin olduğunu vurğulamışdır. Tələbələr dünya ictimaiyyətinə azərbaycanlıların soyqırımı ilə bağlı müraciət hazırlamaq niyyətlərini bəyan etmişlər. Namiq Əliyev təşəbbüsü alqışlamış və səfirliyin dəstək üçün hazır olduğunu bildirmişdir. İştirakçılara Heydər Əliyev Fondunun dəstəyi ilə müxtəlif dillərdə çap olunmuş kitablar paylanmışdır. Bu nəşrlərdə tarixi faktlar əsasında erməni siyasətinin iş üzü açıqlanmış, Azərbaycan həqiqətləri öz əksini tapmışdır.

Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası və Kocaeli Azərbaycan Evi Dərnəyi 31 Mart Azərbaycanlıların soyqırımı günü ilə bağlı bəyanat yayıb. Bəyanatda deliyir ki, 1918-ci ildə bolşevizm adı altında birləşən erməni silahlı dəstələri əvvəlcədən planlaşdırılmış şəkildə Bakı, Naxçıvan, Quba və digər şəhərlərdə on minlərlə günahsız azərbaycanlını vəhşicəsinə qətlə yetiriblər. Sənəddə qeyd olunub ki, misli görünməmiş vəhşiliklər törədən ermənilər, eyni zamanda, mədəni soyqırımı da həyata keçiriblər. Məktəblər, mədəniyyət ocaqları, kitabxanalar, Müsəlman Xeyriyyə Cəmiyyətinin fəaliyyət göstərdiyi "İsmailiyyə" binası və digər tarixi abidələr yandırılıb, dağıdılıb. Bəyanatda ermənilərin törətdikləri və bir ay davam etmiş qırğınların Qafqaz İslam Ordusunun Azərbaycan torpaqlarını düşmən işğalından azad etməsi ilə sona çatdığı vurğulanır.

Azərbaycanın Rusiyadakı səfirliyində 31 Mart-Azərbaycanlıların soyqırımı gününə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə tanınmış Azərbaycan tarixçisi Solmaz Rüstəmova–Tohidinin "1918-ci ilin martı. Bakı. Azərbaycanlıların qırğını sənədlərdə" kitabının təqdimatı olmuşdur. Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu tədbiri açaraq bildirmişdir ki, 31 mart bütün dünyada Azərbaycanlıların soyqırımı günü kimi qeyd olunur. Bu soyqırımının qurbanlarını xatırlamaq və 1918-ci ilin dəhşətli hadisələrini hafizələrdə canlandırmaq məqsədi ilə səfirlik tanınmış tarixçi Solmaz Rüstəmova-Tohidinin böyük tədqiqat işləri nəticəsində ərsəyə gəlmiş bu qiymətli kitabın təqdimatı üçün onu Moskvaya dəvət etmişdir.

Səfir vurğulamışdır ki, kitab Azərbaycanın, xalqımızın tarixi üçün çox əhəmiyyətlidir. Tarixçi alim qiymətli arxiv sənədləri toplayaraq böyük iş aparmış, o dəhşətli hadisələr barədə kitab yazmışdır. P.Bülbüloğlu arxivlərdə işləmək imkanının yaradılmasına və kitabın nəşrinə göstərilən dəstəyə görə Milli Təhlükəsizlik Nazirliyinə və şəxsən nazir Eldar Mahmudova dərin minnətdarlığını bildirmişdir. Səfir demişdir: "Bu nəşrin əhəmiyyəti böyükdür. Heç şübhəsiz, kitab dünyanın başqa dillərinə də tərcümə olunacaqdır. Odur ki, onun təkcə Rusiyada deyil, həm də Avropa ölkələrində yayılması olduqca vacibdir. Çünki bədnam qonşumuzun saxta "soyqırımı" siyasəti süni surətdə bu ölkələrdə yeridilir və hətta parlamentlərin müzakirəsinə çıxarılır.

Azərbaycan ərazisində Azərbaycan xalqının başına gətirilən vəhşiliklərdən isə çox az adam xəbərdardır". P.Bülbüloğlu bildirmişdir ki, bütün bunları gənc nəslə ötürmək lazımdır ki, onlar bu hadisələri, öz tarixlərini heç vaxt unutmasınlar. Belə kitablar özünü, öz köklərini, öz tarixini dərindən öyrənməyə, azərbaycanlıların yaşadıqları müsibətləri anlamağa kömək edir. Kitabın müəllifi Solmaz Rüstəmova-Tohidi bildirmişdir ki, belə kitabların nəşri Azərbaycan alimlərinin və tarixçilərinin borcu və vəzifəsidir. O xüsusi vurğulamışdır ki, dövlətimiz alimlərin arxivlərdə işləmələri və tarixi sənədlərə əsaslanan belə kitabları nəşr etdirmələri üçün hər cür şəraitin yaradılmasına xüsusi diqqət yetirir.

Üç il ərzində ərsəyə gətirdiyi kitabdan danışan tarixçi demişdir ki, 1918-ci ilin mart hadisələri haqqında ötən əsrin 20-30-cu illərdə az-çox danışılsa da, sonralar bu barədə susmağa üstünlük verilmişdir. Tarix saxtalaşdırılmış, mart hadisələrinin əksinqilabçı qiyam olduğu iddia edilmişdir. Lakin bu qiyamdan cəmi üç gün əvvəl 12 min dinc azərbaycanlının və digər xalqların nümayəndələrinin vəhşicəsinə qətliamı barədə bir kəlmə də danışılmamışdır. Yalnız Azərbaycan Xalq Cümhuriyyətinin banilərinin müstəqil dövlət quruculuğunun elə ilk günlərində bütün çətinliklərə baxmayaraq, fövqəladə istintaq komissiyası yaratmaları sayəsində həqiqət bizə gəlib çatmışdır. Komissiya Bakı, Quba, Şamaxı və Azərbaycanın digər bölgələrində ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər barədə cəmi bir ay yarım ərzində 36 cilddə 3500 səhifədən ibarət material toplamışdı.

Solmaz Rüstəmova-Tohidi 31 martın Azərbaycanlıların soyrıqımı günü kimi qeyd olunması barədə ümummilli lider Heydər Əliyevin Fərmanının tarixi əhəmiyyətini yüksək qiymətləndirmişdir. Tanınmış Rusiya tarixçiləri Aleksandr Qaryanin və Rudolf İvanov Azərbaycan tarixçisinin bu cəsarətli tədqiqat əsərini yüksək qiymətləndirərək vurğulamış və onu tarixin öyrənilməsinə və obyektiv şərhinə müəllifin töhfəsi adlandırmışlar. Tədbirdə Moskvadakı Azərbaycan icmasının nümayəndələri, Rusiyanın elm və ictimai xadimləri, RAGT-nin təmsilçiləri və Moskva ali məktəblərinin tələbələri iştirak etmişlər.

31 mart 2010

Hollandiya telekanalları Xocalı soyqırımı haqda film göstərib

Elsevər Məmmədov: "Bu da oradakı diasporumuzun güclü fəaliyyətinin nümunəsi idi"

Son zamanlar müxtəlif xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarımız intensiv olaraq Azərbaycanla bağlı bir-birinin ardınca silsilə tədbirlər keçirirlər. O cümlədən Benilüks Azərbaycanlıları Konqresidə(BAK) bu işdə özünəməxsus bir formada fəallıq göstərir.

BAK-nin sədri Elsevər Məmmədov qəzetimizə verdiyi müsahibədə rəhbəri olduğu təşkilat barədə ətraflı məlumat verib.

- Benilüks Azərbaycanlıları Konqresi 2006-cı ilin noyabr ayında təşkil olunub. Hazırda 15 təşkilatdan ibarət olan Konqres bu müddət ərzində çox mühüm işlərə imza atıb. Məqsədimiz təşkilatımızın əsas mövqeyi olan azərbaycançılıq, dövlətçilik və türkçülük ideyasını Avropada yaşayan soydaşlarımız arasında təbliğ etməkdir. Azərbaycanın tarixini, mədəniyyətini, mövcud reallıqları Avropada yaşayanlara olduğu kimi çatdırmaqdır. Əsas məqsədlərimizdən biri də gənclərimizin Avropaya inteqrasiya olunması ilə bağlıdır. Hazırda Hollandiyada "Ana dili məktəbi"miz fəaliyyət göstərir. Onlardan biri Amsterdam, digəri Rotterdam şəhərində yerləşir. Həmin məktəblər yeni açıldığı zaman tələbələrin sayı bir o qədər çox olmasa da, hazırda müraciət edən insanların sayı artmaqdadır. Artıq valideynlər özləri müraciət edərək uşaqlarını həmin məktəbə gətirmək istəyirlər. Həmin məktəbdə onlar artıq doğma dili öyrənərək Azərbaycanın bayrağı, harada yerləşməsi ilə bağlı məlumatla yanaşı ölkəmizin himnini, şeirlərini öyrənirlər. Bundan başqa konqres tərəfindən orada gənclərimiz üçün idman məktəbi yaradılıb. Burada gənclər kinqboksla yanaşı minifutbol oyunları da öyrənirlər. Həmçinin bizim ingilis və holland dili kurslarımız var. Avropaya inteqrə olunmaq üçün önəmli amillərdən biri də məhz həmin xalqların dilini yaxşı bilməkdir. Bu, yaşlı nəsil üçün də çox önəmlidir və hazırda həm orta, həm də yaşlı nəsil üçün holland dilində kurslar keçirilir. Bundan başqa BAK Hollandiyada yeni açılan Azərbaycan səfirliyi ilə çox sıx əməkdaşlıq edir. Hətta biz orada məktəblər açarkən Azərbaycandan bizə çox böyük dəstək gəldi. Belə ki, məktəb tələbələr üçün kitablar, çantalar, kompyuter vasitələri ilə təmin edildi.

- Maraqlıdır təşkil etdiyiniz tədbirlər holland cəmiyyəti tərəfindən necə qarşılanır?

- Ümumiyyətlə, bu gün bir faktdır ki, Hollandiyada Azərbaycan diasporu gündən-günə güclənir. Məsələn, bunu Avropa mətbuatında izləmək mümkündür. Yaxud "Avroviziya -2009" yarışmasında Azərbaycanı təmsil edən iştirakçılara Hollandiya 10 xal verdi və bu, diasporumuzun fəallığının bariz nümunəsi idi. Onu da qeyd edək ki, bizim diaspor orada uzun bir tarixdə deyil, əsasən son 10-15 ildə formalaşıb. Azərbaycanlıların ən böyük qələbələrindən biri də Hollandiyanın ən tanınmış telekanalında həmin ölkənin məşhur tarixçi alimi Aleksandr Dexotun çıxışı oldu. Telekanalda Konqresin son qurultayından hazırlanmış veriliş efirə getdikdən sonra həmin tarixçi alim canlı yayımla çıxış edərək ermənilərin azərbaycanlılara qarşı törətdiyi Xocalı soyqırımı ilə bağlı videolenti təqdim etdi və orada şəhid olanların sayını bildirdi, eləcə də ermənilər işğalçı və separatist adlandırdı və Azərbaycanın 20 faiz torpaqlarını işğal etməsi ilə bağlı məlumatları çatdırdı. Bu da oradakı diasporumuzun güclü fəaliyyətinin nümunəsi idi.

Bundan başqa konqresimiz Azərbaycanın tarixi günləri, bayramlar, faciələrlə bağlı tədbirlər keçirir. Belə ki, 20 Yanvar, Xocalı faciəsi, 31 mart azərbaycanlıların soyqırımı ilə bağlı tədbirlər yüksək səviyyədə təşkil olunaraq avropalıların diqqətinə çatdırılır. Məsələn, cari ildə 31 mart tarixində Konqres tərəfindən təşkil edilən Rotterdamın mərkəzində səssiz yürüş keçirildi. Hətta hollandların özləri də bizim diasporun mədəni, səviyyəli şəkildə keçirdiyi bu aksiyanı təqdir etdilər və hətta özləri də aksiyada iştirak etdilər. Bu aksiya zamanı insanlara həmin hadisələr zamanı həlak olanlar haqqında 10 mindən artıq məlumat paylanıldı. Həmin aksiyanın önəmli tərəflərindən biri də odur ki, bəziləri 31 mart tarixində Azərbaycanda hansı hadisə baş verdiyini bilmirlər. Həmin tədbirdə litvalıların, hollandların, polşalıların, türklərin, İraq türkmənlərinin bizim diasporumuzla birgə iştirakı böyük effekt verdi. Bu ildə 31 mart tarixində tədbir keçirməyi planlaşdırırıq.

- Bildiyimizə görə, ötən il qurultayınız keçirilib. BAK-ın bu qurultayı hansı yeniliklərlə yadda qaldı?

- Ötən il 7 martda Amsterdam şəhərində BAK-ın qurultayı keçirildi. Demokratik şəkildə keçirilən həmin seçkilərdə mən sədr, konqresin məndən öncəki sədri Sahil Qasımov isə fəxri sədr seçildi. Həmin qurultayda Azərbaycanın Hollandiyadakı səfirindən başqa Gürcüstan, Ukrayna, Qazaxıstan, Sloveniyanın səfirləri də iştirak edirdi. Yüksək səviyyədə təşkil olunan həmin tədbirdə Azərbaycandan olan bir neçə millət vəkilləri də təmsil olunurdu. İdarə heyətinə 12 nəfər nümayəndə seçildi. Ümumiyyətlə, konqresdə sədr 2 il müddətinə seçilir. Konqresdə 15 təşkilat birləşib ki, buraya federasiya şəklində İraq türkmənləri də daxildir. Düşünürük ki, azərbaycanlıların problemləri bütün türk xalqlarının, onların da problemləri bizim problemimiz olsun. Ümumiyyətlə, hər bir təşkilat üçün təşkilatlanma ilə bağlı tədbirlərin, qurultayların keçirilməsi vacibdir ki, bu da fəaliyyətin daha da güclənməsi üçün lazımdır.

- Sizin təşkilat başqa diaspor təşkilatları ilə əməkdaşlıq edərək, birgə layihələr reallaşdırırmı?

- Əlbəttə, digər diaspor təşkilatları ilə birgə əlaqələrimiz var. Adətən türk diasporu ilə davamlı olaraq iş qururuq. Eyni zamanda rus, yəhudi diasporu ilə sıx əməkdaşlığımız var. Bir çox tədbirlərdə yəhudi diasporu diaspor nümayəndələri bizimlə birgə çıxış edirlər. Hətta yəhudi diasporu ilə birgə bu il bir tədbir hazırlayacağıq. Bu tədbirdə Ermənistandan başqa keçmiş SSRİ-yə daxil olan ölkələr iştirak edəcək. Orada erməni diasporu da var və bəlkədə bizə qarşı hansısa addımlar atmaq istəyirlər. Amma Hollandiya hüquqi bir dövlətdir və orada heç kəs kimsənin qarşısını ala bilməz. Hazırda Hollandiya parlamentində təmsil olunan türk millət vəkilləri, yüksək vəzifələrdə çalışan türklər daim bizim yanımızdadırlar. Digər xalqların diaspor təşkilatları ilə yanaşı başqa xarici ölkələrdəki Azərbaycan diaspor təşkilatları ilə də əlaqələri davam etdiririk. Avropa Azərbaycanlıları Konqresində bir araya gəlib məsləhətləşmələr aparırıq və yeni layihələri müzakirə edirik.

- Benilüksdə nə qədər azərbaycanlı yaşayır və həmvətənlərimiz orda əsasən hansı sahədə çalışırlar?

- Bizim diasporun orada formalaşma tarixi uzun bir müddət deyil. Eyni zamanda orada gənclərimizin 8-10 il müddətinə təhsil almaları, təcrübə toplamaları müəyyən zaman tələb edir. Artıq bizim orada gənc hüquqşünaslarımız yetişir və eləcə də müxtəlif partiyalarda təmsil olunurlar. İnanırıq ki, qısa müddətdə olmasa da, yaxın bir 5-10 il ərzində soydaşlarımız orada müxtəlif dövlət qurumlarında təmsil olunacaqlar. Çünki oradakı gənclərimizin təhsilə, siyasətə qoşulmağa marağı çoxdur. Ümumiyyətlə, Benilüksdə 30 minə yaxın azərbaycanlı var. Yeni formalaşmağa başlayan diasporumuz daha da güclənməyə çalışır və bu istiqamətdə müəyyən işlər görür. Bəzi səhvlər də ola bilər. Amma bu bir faktdır ki, diasporumuz gündən-günə güclənir və inteqrasiya yüksək səviyyədə həyata keçirilir.

- Qarşıda hansı yeni layihələri reallaşdırmağı planlaşdırırsınız?

- Qarşıda reallaşdırılacaq bir sıra yeni layihələrimiz var. Ancaq həmin layihələri açıqlamaq istəmirik. Çünki bu, Azərbaycan diasporunu sevməyən qüvvələrin də əlinə keçə bilər və bu, milli məsələlərlə bağlı layihələrdir.

Bizlər yəni, xaricdə yaşayan soydaşlarımızın hər biri ümumiyyətlə, Azərbaycanda əldə edilən bütün sahələrdəki uğurlara sevinir. Onu da qeyd edim ki, Bakı öz görkəmini yaxşı istiqamətdə dəyişib və gözəlləşib. Bu da məni bir azərbaycanlı kimi çox sevindirir.

G. Əsədova
"Paritet" – 2010 - 30-31 mart -N.29.-S.5.

Qılıncoynatma üzrə Dünya Çempionatı keçirilmişdir

Bakıda qılıncoynatma üzrə Dünya Çempionatının keçirilməsi Azərbaycanın dünyada təbliği üçün önəmli vasitədir. Trend-in məlumatına görə, bunu cümə axşamı jurnalistlərə Azərbaycan Qılıncoynatma Federasiyasının prezidenti Nazim İbrahimov deyib."İrimiqyaslı çempionatlar Azərbaycanda qılıncoynatmanın inkişafına kömək edir", - İbrahimov əlavə edib.

Aprelin 2-10-da Bakıda keçiriləcək gənclər və yeniyetmələr arasında qılıncoynatma üzrə Dünya Çempionatında 87 ölkədən 1565 idmançının iştirakı gözlənilir. Çempionatın rəsmi açılışı aprelin 2-də saat 18:00-da Heydər Əliyev adına İdman-Konsert Kompleksində olacaq. İlk üç gündə yeniyetmələr, sonrakı üç gündə gənclər yarışacaqlar. Bundan sonra komanda yarışları keçiriləcək. İbrahimovun sözlərinə görə, Beynəlxalq Qılıncoynatma Federasiyasının nümayəndələrinin çempionatın təşkili barədə fikirləri bunu deməyə əsas verir ki, Azərbaycanda qılıncoynatma üzrə daha böyük yarışlar keçirmək mümkündür.

Bu gün Bakıda Beynəlxalq Qılıncoynatma Federasiyanın Baş Assambleyasının iclası keçirilib. İclasda 100-dən artıq federasiya nümayəndəsi iştirak edib. İclasda federasiyanın 2010-cu il üçün büdcəsi və digər məsələlər müzakirə edilib. Federasiyanın prezidenti Alişir Usmanov bildirib ki, gələn il üçün federasiyanın büdcəsinin artırılması gözlənilir, region federasiyalarının inkişafına dəstək artırılacaq.

01 aprel 2010

N.İbrahimov: "Əlişir Usmanov bizim türk qardaşımızdır"

Bakıda keçiriləcək dünya çempionatının təşkilati işləri hansı səviyyədədir?

- Son illər Azərbaycanda həyatın bütün sahələrində inkişaf var. Ölkəmizin iqtisadiyyatı inkişaf sürətinə görə dünyada birinci yerdədir. Nəinki iqtisadiyyat, bütün sahələrdə Azərbaycan dünyada öncül ölkələrdən birinə çevrilib. İdmana prezident İlham Əliyev tərəfindən göstərilən diqqət və qayğı sayəsində həqiqətən də ölkəmiz dünyanın idman mərkəzinə çevrilməyə başlayıb.

Son illər Azərbaycanda çox yüksək səviyyəli beynəlxalq turnirlər, Avropa və dünya çempionatları keçirilir. Bu baxımdan, Bakıda start götürəcək qılıncoynatma üzrə yeniyetmələr və gənclər arasında dünya çempionatı böyük hadisələrdən biridir. Belə mötəbər yarışda dünyanın 87 ölkəsinin 1500-dən çox idmançısı iştirak edəcək. Eyni zamanda, Beynəlxalq Qılıncoynatma Federasiyasının Baş Assambleyasının Bakıda keçirilməsi, dünyanın 100-dən artıq ölkənin federasiya prezidentlərinin paytaxtımıza gəlişi bir daha sübut edir ki, Azərbaycanda idmana olan diqqət sayəsində həqiqətən də yaxın gələcəkdə Bakı şəhəri dünyanın neft mərkəzindən başqa, idman mərkəzinə də çevriləcək.

Elə Baş Assambleyada və digər tədbirlərdə iştirak edən bütün qonaqlar da ölkəmizin bu qədər sürətlə inkişafını öz gözləri ilə görüb, Bakıya heyran qaldıqlarını bildirirlər. Bu da Azərbaycanın, onun inkişaf istiqamətlərinin təbliği üçün çox önəmlidir. Dünyanın bəzi ölkələrində bəzən Azərbaycan haqda bir çox əsassız yazılar yazılır. Zamanında Bakını dünyanın ən çirkli şəhərləri arasına salan bəzi yazılar da dərc olunmuşdu. İndi isə hər kəs görüb, söyləyir ki, həqiqətən də Bakı dünyanın ən gözəl şəhərləri sırasına aiddir. Bunu ona görə söyləyirəm ki, idman və digər sahələrdə keçirilən beynəlxalq tədbirlər Azərbaycanın təbliği üçün çox önəmli vasitədir. Hətta minlərlə insan Azərbaycanı öz gözləri ilə görərək, öz ölkələrinə qayıdarkən, gördüklərini tanıdıqları ictimaiyyətə, tanıdıqları ətrafa söyləyəcəklər.

Bura gələn qılıncoynadanlar öz ölkələrinin yığma komandalarının üzvləridirsə, bu, o deməkdir ki, onlar yaşadıqları ölkələrdə tanınmış insanlardırlar, böyük auditoriyalarda çıxış edirlər. Onlar öz ölkələrinə getdikdən sonra Azərbaycan, Bakı, burada gördükləri haqda danışacaqlar. Hesab edirəm ki, dünya çempionatının ən önəmli məqamlarından biri də budur.

- Dünya çempionatında Ermənistan yığması iştirak edir?

- Çox təəssüf ki, Ermənistan qılıncoynadanları yarışa gəlməkdən imtina ediblər. Təhlükəsizlik baxımından heç bir problemimiz yoxdur. Çünki 2007-ci ildə keçirilmiş dünya çempionatına Ermənistan güləşçilərinin gəlişinə heç bir məhdudiyyət qoyulmayıb. Əlbəttə, onlara bütün təhlükəsizlik təminatı verilmişdi. Amma imtina edərək, gəlməmələri onların özlərindən irəli gəlir.

- Beynəlxalq Qılıncoynatma Federasiyasının prezidenti Əlişir Usmanov İngiltərənin "Arsenal" futbol klubunun əsas səhmdarlarındandır. Onun Azərbaycanda da futbol sahəsinə sərmayə qoymaq fikri var?

- Belə bir söhbət yoxdur. O, Bakıya Beynəlxalq Qılıncoynatma Federasiyasının rəhbəri kimi gəlib. Azərbaycanı çox sevən insandır. Özü də bizim türk qardaşlarımızdandır. Yəni, özbək əsilli türk qardaşımızdır. Bakıya bir neçə gündür ki, gəlib. Paytaxtımızın nə qədər gözəl olduğunu, Bakıya heyran qaldığını bildirir. Hesab edirəm ki, bu yarışın Azərbaycana salınmasında, dünya çempionatının və Baş Assambleyanın Bakıda keçirilməsində cənab Usmanovun özünün də çox böyük rolu var. Onun Azərbaycana sərmayə qoymasının nə dərəcədə mümkünlüyünə gəldikdə, biz belə məsələləri müzakirə etməmişik. Çünki əsas işimiz idmanın inkişafına nail olmaq və bu sahədə müzakirə aparmaqdır.

- Gələcəkdə ölkəmizdə qılıncoynatma üzrə daha hansı yarışların təşkili mümkündür?

- Bakı şəhəri 2012-ci ildə qılıncoynatma üzrə böyüklər arasında Avropa çempionatını keçirməyə namizəddir. Yəqin ki, biz bu yarışı paytaxtımızda təşkil edəcəyik. Beynəlxalq Qılıncoynatma Federasiyasının məsul əməkdaşlarının burada gördükləri və çıxışlarına əsasən, bizdə əminlik yaranıb ki, onlar yaxın illərdə böyüklər arasında dünya çempionatının da paytaxtımızda təşkilində maraqlı olacaqlar. Əlbəttə, böyük bir çempionatın təşkili Azərbaycanda qılıncoynatmanın inkişafına yardım edəcək və daha çox insan qılıncoynatma bölmələrinə öz uşaqlarını yazdıracaqlar. Bu da gələcəkdə Azərbaycanın da qılıncoynatma üzrə müvəffəqiyyətlərini təmin edəcək.

- Azərbaycan qılıncoynadanlarından dünya çempionatında hansı nəticələr gözləyirsiniz?

- İdmançıdan hər zaman ən yüksək nəticəni gözləmək lazımdır. Əlbəttə, nəyə nail olacaqlarsa, bu, onların özlərindən asılıdır. Azərbaycanda qılıncoynatmanın çox böyük ənənəsi olub. Olimpiya, dünya çempionlarımız olub. Bir ara bu iş bir qədər başlı-başına buraxılıb. Amma indi çalışırıq ki, o səhvləri düzəldək, Azərbaycanın qılıncoynatma ənənələrini özünə qaytaraq, mötəbər yarışlarda yüksək yerlər tutaq.

- Bu gün bir neçə dünya çempionatını təşkilatçıları məlum olacaq. Namizədlər arasında ölkəmizin də adı var?

- Xeyr. Yəqin ki, gələcəkdə Beynəlxalq Qılıncoynatma Federasiyasının Baş Assambleyası və digər tədbirlərində Bakıda daha mötəbər turnirlərin təşkili haqda qərar qəbul olunacaq.

Çünki təşkilati işlər onu göstərir ki, Azərbaycanda olan texniki imkanlar və yarış zalları ən yüksək səviyyədədir. Yeniyetmələr və gənclər arasında dünya çempionatının keçiriləcəyi Heydər Əliyev adına İdman Konsert Kompleksindən dünyanın heç bir yerində yoxdur. Bu tipli yarışların təşkili üçün bu kompleks ideal məkandır. Hətta digər mötəbər yarışlarda iştirak edənlər deyirlər ki, belə bir idman qurğusu qılıncoynatma tarixində heç bir yerində olmayıb, digər ölkələrdəki texniki imkanlar aşağı səviyyədə olub.

Elşən Məmmədov
www.lent.az
01.04.2010

"Azərbaycan və Türkiyə diasporu birləşib Xocalı soyqırımını dünyaya tanıda bilər"

Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin (ATXƏM) sədri İlham İsmayılov, Prezident Administrasiyası ictimai-siyasi şöbənin diasporla iş üzrə sektor müdiri Qafar Əliyev və ATXƏM-in sədr müavini Zeyqəm Süleymanov Türkiyədə işgüzar səfərdə olublar. Bu barədə SİA-ya ATXƏM-in mətbuat xidmətindən məlumat verilib. Səfər çərçivəsində nümayəndə heyəti İstanbul "Azeri Kültür Evinin qonağı olub, birgə əməkdaşlıq məsələlərini və son dövrlər Türk dünyası ilə bağlı gedişatı müzakirə ediblər.

Daha sonra Azərbaycan nümayəndə heyəti İstanbul "Azeri Kültür Evi"nin mərkəzi ofisində Kazım Qarabəkir Paşanın qızı Timsal Qarabəkirlə görüşərək, Kazım Qarabəkir Paşanın erməni işğalçılarına qarşı Naxçıvanda apardığı mücadiləni, onun Türk dünyası ilə bağlı olan önəmli fəaliyyətini müzakirə ediblər.

Səfər zamanı ATXƏM sədri İlham İsmayılov və Zeyqəm Şüleymanov Ankara şəhərində Türk Gastroenteroloji Dərnəyinin başkanı prof. dr Ali Özdənlə görüşərək, onunla iyunun 28-29-da Naxçıvanda gerçəkləşəcək Türk dünyası Gastroenteroloji konfransının gündəliyini müzakirə ediblər.

Həmçinin Ankarada səfərdə olan ATXƏM sədri Türkiyə Azərbaycan Dərnəkləri Evi Federasiyası (TADEF) rəhbəri Aziz Kayğısız, Bizim İğdır Mədəniyyətini Qoruma və Yaşatma Dərnəyinin sədri Ənvər Türkoğlu, 21.yüzil Türkiyə İnstitutunun bölmə rəhbəri Əli Əskər, Türk Halkbilimi Araşdırma Mərkəzinin rəhbəri Yaşar Kalafat və digərləri ilə görüşüb qarşılıqlı əməkdaşlıqla bağlı məsələləri müzakirə ediblər. Bundan əlavə ATXƏM sədri səfər çərçivəsində TÜRKSAM başkanı Sinan Oğanın dəvətiylə TÜRKSAM-da düzənlənə "Erməni sorunu" adlı beyin fırtınası toplantısına qatılıb.

Toplantıda "Türkiyə-Ermənistan-Azərbaycan əlaqələri; Protokollar və Erməni Tasarıları" mövzusu ekspertlər tərəfindən müzakirə olunub.

Toplantıda çıxış edən ATXƏM sədri İlham İsmayılov Türkiyə-Ermənistan əlaqələrinin qurulmasına münasibət bildirərək, qeyd edib ki, biz Azərbaycan tərəfi olaraq bu əlaqələrin qurulmasına yalnız Ermənistanın işğalçılıq siyasətinə son qoyulduqdan və 20 ilə yaxın bir vaxt ərzində işğal altında tutduğu Qarabağ ərazilərindən çəkildikdən sonra razı ola bilərik: "Ermənilər qondarma soyqırım iddialarını ortaya atmaqla dünyada türk millətinə qarşı anti-təbliğat aparır, hətta 2015-ci ilə qədər bütün dünya parlamentində bu soyqırımı tanıtdırmağa çalışırlar. Amma Azərbaycan və Türkiyə diasporu birləşərək, ermənilərin bu yalanlarına qarşı öz həqiqətlərimizi - ermənilərin törətdiyi Xocalı soyqırımını dünyaya tanıda bilərik. Biz bu birliyin bariz nümunəsini bu il fevralın 27-də Strasburqda keçirdiyimiz Xocalı mitinqində gördük. Azərbaycan və Türk diaspor təşkilatlarının birgə əməkdaşlığı nəticəsində Strasburqda - Avropanın paytaxtında Xocalı soyqırımını tanıtmağa çalışdıq. inanıram ki, bu əməkdaşlığın daha da genişlənməsi nəticəsində biz Xocalı soyqırımını bütün dünyada tanıtmağa nail olacağıq".

Sonda İlham İsmayılov Türkiyədə fəaliyyət göstərən aparıcı televiziyaları ermənilərin Azərbaycanda törətdiyi soyqırımlarla tanış olmaq üçün Azərbaycana dəvət edib.

"Paritet" – 2010 - 1-2 aprel -N.30.-S.7.

Berlində etiraz aksiyası keçirilib

Almaniyada fəaliyyət göstərən “Azərbaycan evi” cəmiyyəti, “Alman-Azərbaycan Həmrəylik cəmiyyəti”, “Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi” (AAKM) və “Ocaq mədəniyyət cəmiyyəti”nin təşəbbüsü və ölkəmizin bu ölkədəki səfirliyinin dəstəyi ilə 31 Mart - Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar Ermənistanın Almaniyadakı səfirliyi qarşısında piket keçirilib. Etiraz aksiyasında adı çəkilən təşkilatların fəalları, Almaniyanın müxtəlif şəhərlərindən gəlmiş soydaşlarımız və vaxtilə Azərbaycanda yaşamış, indi Berlində məskunlaşan yəhudi icmasının üzvləri iştirak ediblər. Bir saat davam edən aksiyada piketçilər Azərbaycan bayraqlarını, müvafiq transparantları əldə tutaraq, səs gücləndiricilər vasitəsilə Azərbaycanın dövlət himnini oxuyub, Qarabağa aid şüarlar səsləndirib və “Çırpınırdı Qara dəniz” mahnısını ifa ediblər. Daha sonra, 1918-ci ilin mart-aprel aylarında ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırım haqqında hazırlanmış müraciəti piketçilər meqafon vasitəsilə səsləndiriblər.

Müraciət Ermənistanın səfirliyinə təqdim edilib. Tədbirin davamı olaraq, AAKM-in ofisində anım mərasimi keçirilib. Mərasimdə çıxış edən Azərbaycanın Almaniyadakı səfiri P.Şahbazov aksiyanın təşkilinə verdikləri dəstəyə və fəal iştiraklarına görə diaspor nümayəndələrinə minnətdarlığını bildirib, gələcəkdə keçiriləcək bu kimi tədbirlərdə azərbaycanlıların daha aktiv olmasını tövsiyə edib. Səfir 1918-ci ilin mart-aprel aylarında Azərbaycanda ermənilər tərəfindən törədilmiş soyqırımı haqqında məlumat verib, 31 mart tarixinin 1998-ci ildən etibarən Azərbaycanda soyqırımı günü kimi tanınmasında, tarixi araşdırmaların aparılmasında və bu tarixin dünyanın bir çox ölkələrində Azərbaycan icması tərəfindən qeyd olunmasında milli lider Heydər Əliyevin rolu barədə danışıb. O, ermənilərin Azərbaycana qarşı apardığı siyasətin nəticəsi olaraq, azərbaycanlıların öz doğma torpaqlarından çıxarılması kimi faktların Avropa və o cümlədən alman ictimaiyyətinə çatdırılmasının zəruriliyini bildirib. Səfir Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycan dövlətinin mövqeyini açıqlayıb, Ermənistanla Azərbaycan arasındakı danışıqlar barədə məlumat verib, həmçinin ölkəmizdə həyata keçirilən iqtisadi layihələr barədə söhbət açıb.

05 aprel 2010

Diaspor təşkilatlarının fəaliyyəti Prezident İlham Əliyevin diqqət mərkəzindədir

Dövlətimizin diaspor siyasətinin möhkəm dayaqlar üzərində qurulması, xaricdə yaşayan hər bir azərbaycanlıdan daha fəal olmağı tələb edir

Məlum olduğu kimi, bu il məşhur Çanaqqala zəfərinin 95-ci ili tamam oldu. Başdan-başa qəhrəmanlıq səhifələrini əhatə edən və hər saatı, hər dəqiqəsi cəsurluq mücəssiməsi olan Çanaqqala savaşı türk dünyasının ən böyük, ən möhtəşəm tarixlərindən biridir. Bu da bir həqiqətdir ki, 95 il əvvəl Çanaqqala döyüşlərində düşmənə qarşı amansızlıqla və mərdliklə, türk qardaşları ilə çiyin-çiyinə, türk torpağı uğrunda döyüşənlər arasında Azərbaycandan gəlmiş cəsur igidlər də olub. Çanaqqalada Azərbaycan türkləri də ölüm-dirim savaşlarında şəhid olublar. Bununla belə, uzun müddət Çanaqqalada həlak olmuş azərbaycanlılar barədə məlumat olmayıb. Ötən il Beynəlxalq Diaspor Mərkəzinin (BDM) sədri İsmayıl Ağayev və "Diasporun səsi" jurnalının baş redaktoru, professor Vaqif Arzumanlı Çanaqqala döyüşlərinin 94-cü ildönümündə iştirakı isə bu istiqamətdə addımın atılmasına təkan verib.

Belə ki, tədbirlər zamanı onlar fürsət tapıb Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, müdafiə naziri Vecdi Gönül və Çanaqqala valisiylə görüşüb, Azərbaycandan gəlib türk qardaşlarının köməyinə çatan və şəhid olmuş soydaşlarımız barədə məlumat verib və onların da şərəfinə Çanaqqalanın Anıt Məzarlığında xatirə lövhəsinin qoyulması barədə təklif səsləndiriblər. Beləliklə, aparılan fəaliyyət nəticəsində bu ilin martında Çanaqqala döyüşlərinin 95-ci ildönümünün qeyd olunduğu ərəfədə BDM-in sədri İsmayıl Ağayev, millət vəkili, BDM-in Məşvərət Şurasının sədri Gülər Əhmədova, professor Vaqif Arzumanlı, BDM-in Rusiya Federasiyası üzrə nümayəndəsi Ələmdar Nəbiyev və digər şəxslərin iştirakı ilə Çanaqqaladakı Anıt Məzarlığında 1915-ci ildə şəhid olmuş azərbaycanlıların şərəfinə əklil qoyduqdan sonra Xatirə lövhəsi ucaldılıb. "Yeni Azərbaycan" qəzeti olaraq həm bu məsələni, həm də, ümumiyyətlə, dövlətimizin diaspor siyasəti ilə bağlı bəzi məqamları müzakirə etmək üçün Gülər Əhmədova, İsmayıl Ağayev və Ələmdar Nəbiyevi redaksiyamıza dəvət etdik.

- Gülər xanım, Milli Məclisin üzvü, həmçinin, diaspor siyasətinin həyata keçirilməsində iştirak edən Beynəlxalq Diaspor Mərkəzinin Məşvərət Şurasının sədri kimi dövlətimizin diaspora siyasətini necə dəyərləndirirsiniz?

- **Gülər Əhmədova**: Bildiyiniz kimi, Azərbaycanda diaspor fəaliyyətinin başlanması konkret olaraq Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ümumiyyətlə isə, bu, bizim yaxın keçmişimizdir. O baxımdan da, diaspor siyasətimizin qədim tarixinin olduğunu deyə bilmərik. Azərbaycan xalqı həddindən artıq torpağına, kökünə, həmçinin, adət-ənənələrinə bağlı bir xalq olduğu üçün bizdə heç bir zaman müxtəlif ölkələrdə kök salmaq kimi meyllər olmayıb. Bu baxımdan da, diasporun formalaşması prosesi kifayət qədər uzaq keçmişə malik deyil. O ki qaldı diaspor siyasətimizin mütəşəkkil şəkil almasına və dövlət tərəfindən dəstəklənməsinə, yalnız onu demək olar ki, bu gün diasporumuzu ayaqda saxlayan şübhəsiz ki, Azərbaycan dövləti və Azərbaycan Prezidentidir. Ölkəmizdə diaspor təşkilatları ilə bağlı keçirilən bütün tədbirlər, həmçinin, Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması konkret olaraq, dövlət başçısının bu sahədə atdığı addımların nəticəsidir. Bütün bunlarla yanaşı, bəzi məqamları da qeyd etməyi vacib bilirəm. Belə ki, dövlət və şəxsən Prezident tərəfindən göstərilən xüsusi diqqətə baxmayaraq, bəzi diaspor təşkilatlarımız heç də lazımi şəkildə fəaliyyət nümayiş etdirə bilmirlər. Bunun əsas səbəblərindən biri, xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımızın, yaxud da həmin təşkilatların rəhbərlərinin özlərini ön sırada görmək istəyi ilə bağlıdır. Əlbəttə ki, liderlik xüsusiyyətləri çox gözəldir. Amma diaspor fəaliyyəti komanda oyunu tələb edir.

Əgər hər hansı bir ölkədə fəaliyyət göstərən üç-dörd diaspor təşkilatı birləşə bilmirsə, hər hansı xarici ölkədə yaşayan azərbaycanlılar ayrı-ayrılıqda yalnız özlərinin nümayiş etdirdiyi fəaliyyəti uğurlu hesab edirlərsə və bu səbəbdən də bir-birilərinə qarşı çoxsaylı tənqidlər səsləndirirlərsə, bu heç bir halda bizim ümumi işimizə xeyir verən deyil. Bu cür fəaliyyət konkret olaraq azərbaycançılıq ideyasının zəifləməsinə gətirib çıxaran bir faktordur. O baxımdan mən çox istərdim ki, hər bir kəs istənilən diaspor təşkilatının özünəməxsus güclü tərəflərinin olduğunu bilsin. Yəni, həmin tərəflər ümumi iş naminə birləşdirilməlidir ki, sonda vahid mövqedən çıxış edə bilək. Ümumiyyətlə, diaspor təşkilatı istənilən halda düşməni, eləcə də, tarixdə torpaqları, müstəqilliyi ilə bağlı problemləri olan ölkələr tərəfindən yaradılır. Məsələn, hollandların, yaxud da danimarkalıların hər hansı diaspor təşkilatı yoxdur. Çünki onların buna ehtiyacları yoxdur. Daha dəqiq desək, bu ölkələrə qarşı heç bir başqa dövlət tərəfindən ərazi iddiası irəli sürülməyib. Eyni zamanda, onların müstəqillikləri ilə bağlı heç bir problemləri yoxdur.

- İsmayıl müəllim, necə fikirləşirsiniz, xaricdəki diaspor təşkilatlarımızın vahid komanda şəklində fəaliyyət göstərə bilməməsinin səbəbi nədir?

- **İsmayıl Ağayev**: Bəzən ölkəmizdən kənarda yaşayan azərbaycanlı iş adamları, ümumiyyətlə isə, diaspor fəaliyyəti ilə məşğul olan insanların əksəriyyəti öz fəaliyyətlərinə görə, hansısa tərif və ya təşəkkür gözləyirlər. Halbuki bu, olduqca yanlış fikirdir. Çünki diaspor fəaliyyəti, əslində, hərbi xidmət qədər şərəfli və vacib bir missiyadır.

Ölkəmizdən kənarda yaşayan hər bir azərbaycanlı bu istiqamətdə gücü çatan işi görməklə ümumilikdə Azərbaycana kömək etmiş olur. Digər tərəfdən, bu da danılmaz bir faktdır ki, diaspor təşkilatlarının fəaliyyəti şəxsən Prezident İlham Əliyevin diqqət mərkəzindədir.

Dövlət başçısının öz fəaliyyətində fərqlənən diaspor təmsilçilərinin müxtəlif dövlət mükafatları ilə təltif edilməsi ilə bağlı Sərəncamları da deyilənlərin əyani sübutudur. Bütün bunlar, eyni zamanda, dövlətimizin diaspor siyasətinin möhkəm dayaqlar üzərində qurulması, xaricdə yaşayan hər bir azərbaycanlıdan daha fəal olmağı tələb edir. Lakin hörmətli Gülər xanımın da qeyd etdiyi kimi, diasporumuzun vahid komanda şəklində fəaliyyət göstərə bilməməsi isə bu istiqamətdə tam uğurların əldə edilməsini ləngidir. İnanıram ki, tez bir zamanda xaricdəki soydaşlarımız bu problemin də öhdəsindən layiqincə gələ biləcəklər. Beynəlxalq Diaspor Mərkəzi olaraq biz xaricdəki soydaşlarımıza həmin məsələdə yardım etməyə hazırıq.

- Konkret olaraq bu istiqamətdə hansı addımları atmağı vacib sayırsınız?

- **İ.A**: Biz BDM olaraq möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının 2006-cı ilin martında Bakıda keçirilən Dünya Azərbaycanlılarının II Qurultayında bəyan etdiyi "Azərbaycan xalqı böyük xalqdır. Biz 50 milyonuq. Bizim hamımızın bir vətəni var -Azərbaycan. Çalışmalıyıq ki, doğma vətənimizi möhkəmləndirək, qüdrətli dövlətə çevirək" sözlərini rəhbər tutaraq, Azərbaycandan kənarda yaşayan bütün soydaşlarımızın azərbaycançılıq məfkurəsi ətrafında birləşdirilməsi istiqamətində aparılan siyasətə öz dəstəyimizi veririk. Bundan başqa, həmin bu istiqamətdə müəyyən proqramların, fəaliyyət planlarının hazırlanmasında yaxından iştirak edirik. Biz hesab edirik ki, xaricdəki soydaşlarımız öz fəaliyyətlərini yeni və strateji layihələrin həyata keçirilməsi istiqamətində qurmalıdırlar. Eyni zamanda, son zamanlar diaspor fəaliyyətində əldə edilən uğurlara görə, ancaq və ancaq möhtərəm Prezidentimiz İlham Əliyev cənablarına təşəkkürümüzü bildirməliyik.

- Gülər xanım, bəs bir millət vəkili olaraq QHT-lərin dövlətin diaspor siyasətindəki rolunu necə görürsünüz?

- **G.Ə**: Öncə, təəssüflə bir məqamı qeyd etmək istəyirəm. Hər kəsə bəlli olduğu kimi, Azərbaycanda fəaliyyət göstərən QHT-lərin bir çoxu siyasiləşib. Konkret olaraq diaspor fəaliyyətindən danışmağımıza baxmayaraq, bəzi paralelləri də aparmalıyıq. Məsələn, sözdə insan haqlarının müdafiəsi ilə məşğul olduqlarını bəyan edən bəzi QHT-lərin hansı şəkildə fəaliyyət göstərdiyi və hansı korporativ maraqlara xidmət göstərdiyi hər kəsə bəllidir. Daha dəqiq desək, bələləri hər hansı bir siyasi partiyanın, yaxud da fərdlərin arzusu ilə formalaşan təşkilatlardır. Mən heç vaxt istəməzdim ki, diaspor fəaliyyəti ilə məşğul olan QHT-lərimizdə də bu cür mənfi hallar baş versin. Çünki azərbaycançılıq ideyasında iqtidar-müxalifət ola bilməz.

Bu, konkret olaraq ümummilli məsələdir və çox sevindirici haldır ki, bu günə kimi həmin istiqamətdə hər hansı fikir ayrılığı ortaya çıxmayıb. Konkret olaraq sualınıza gəlincə, hesab edirəm ki, QHT-lərin dövlətin diaspor siyasətindəki rolu böyük olmalıdır. Çünki dövlət tərəfindən yaradılan Diasporla İş üzrə Dövlət Komitəsi heç bir halda bütün dünyada təkbaşına bu işləri həyata keçirə biləcək nə ştata, nə də maliyyə vəsaitinə malikdir. Düzdür, onlar bütün sahələri əhatə etməyə çalışırlar. Amma QHT-lər bu işdə daha geniş fəaliyyət göstərməlidirlər. Lakin təəssüflər olsun ki, bu gün diaspor fəaliyyəti ilə məşğul olma görüntüsünü yaradan bəzi QHT-lər də var.

- Görüntü deyərkən, nəyi nəzərdə tutursunuz?

- **G.Ə:** Guya diaspor fəaliyyəti ilə məşğul olduğunu iddia edən bu təşkilatların fəaliyyəti Azərbaycandan kənara çıxmır. Əslində isə, diaspor fəaliyyəti ölkədən kənarda olmalıdır. Yəni, diaspor təşkilatı dedikdə o başa düşülür ki, həmin təşkilatın üzvləri yaşadıqları ölkələrdəki insanları öz ətraflarında birləşdirərək Azərbaycan haqqında həqiqətləri həmin ölkələrdəki sadə vətəndaşlara, həmçinin, ictimai-siyasi qurumlara çatdırmalıdırlar. Şəxsən BDM olaraq biz məhz bu istiqamətdə fəaliyyət göstəririk. Lakin bir daha təəssüflə qeyd edirəm ki, diaspor fəaliyyəti ilə məşğul olduğunu bəyan edən bəzi QHT-lər Azərbaycandan kənarda heç bir əməli addımlar atmırlar.

- Bəs, Azərbaycan dövlətinin diaspor təşkilatlarına yaratdığı şəraitdən həmin diasporyönümlü QHT-lər nə dərəcədə bəhrələnə bilirlər?

- **G.Ə**: Öncə qeyd etmək istəyirəm ki, Azərbaycan dövləti digər sahələrdə olduğu kimi, diaspor fəaliyyəti ilə məşğul olan QHT-lər üçün də hər cür şərait yaradıb. Çünki bu gün həm Azərbaycan Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası tərəfindən, həm də Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilən proqramlarda bütün təşkilatların əhatə olunması və heç kimin diqqətdən kənarda qalmaması üçün xüsusi həssaslıq göstərilir.

- Ələmdar müəllim, burada açıq şəkildə bütün məqamlar qeyd olundu. Yəni, dövlətin vahid diaspor siyasəti və bu siyasəti reallaşdırmaq üçün dəstəyi mövcuddur. Belə olan təqdirdə xaricdə yaşayan soydaşlarımızın yetərincə fəaliyyət göstərməmələrinin səbəbi nədir? Konkret olaraq, Rusiyada diaspor təşkilatları arasında önə çıxma mübarizəsi gedirmi?

- **Ələmdar Nəbiyev:** Mən də xüsusi olaraq, qeyd etməyi vacib bilirəm ki, şəxsən cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən diaspor siyasəti öz müsbət nəticəsini göstərir.

Təbii ki, əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu siyasətin dövlətimizə və xalqımıza daha çox xeyir verməsi üçün bizlər-yəni, xaricdə yaşayan azərbaycanlılar öz fəaliyyətimizi daha da genişləndirməliyik. Bu gün xaricdəki diasporumuzun vahid komanda halında fəaliyyət göstərməməsi kimi problemin olduğu isə inkar edilməzdir. İstər Rusiyada, istərsə də digər ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarımız arasında bu problem mövcuddur. Amma bunu da təbii saymaq olar.

O baxımdan ki, Azərbaycanın diaspor fəaliyyəti yeni formalaşdığı üçün müəyyən problemlərin ortaya çıxması təbiidir. Eyni zamanda, birmənalı olaraq qeyd etmək istəyirəm ki, bizlər həmin problemin tezliklə aradan qaldırılması istiqamətində də əməli fəaliyyət göstəririk. Şəxsən Rusiyada bu istiqamətdə narazılıqların və pessimizmin arxada qaldığını söyləyə bilərəm. Artıq mövqeyindən, vəzifəsindən və yaşından asılı olmayaraq, Rusiyadakı hər bir azərbaycanlı Vətənimiz Azərbaycanın üzləşdiyi problemlər barədə daha geniş məlumatların verilməsi üçün vahid mövqedən çıxış edir. Amma bəzi iş adamlarımızın bu prosesdə daha fəal iştirak etməsinin qarşısını alan müəyyən problemlərin də olduğunu söyləmək vacibdir.

- Məsələn, hansı problemlər?

- Ə.N: Əvvəla, zamanında bəzi diaspor təşkilatlarımız bu cür insanlarla sıx təmaslar qura bilməyib. Digər tərəfdən, onların bəziləri, konkret olaraq Rusiyadakı azərbaycanlı milyonçuların bir qismi bu proseslərdə birbaşa deyil, dolayı şəkildə iştirak etməyə üstünlük verirlər. Bu da təbiidir. Çünki ermənilərin hansı mövqeyə malik olduqları, eyni zamanda, daima öz çirkin niyyətlərini həyata keçirmək üçün terrora baş vurduqları heç kəsə sirr deyil. Bu baxımdan, Rusiyadakı azərbaycanlı iş adamlarının diaspor fəaliyyətində daha qabarıq şəkildə iştirakı onları düşmənlərimizin hədəfinə sala bilər. Yəni, yuxarıda bəhs etdiyim problemlərin bir qismi bunlarla bağlıdır.

- G.Ə: Mən qeyd etmək istəyirəm ki, hazırda Rusiyadakı diaspora fəaliyyətimiz çox yaxşı vəziyyətdədir. Belə ki, bu ölkədə yaşayan imkanlı soydaşlarımız artıq Ümumrusiya Azərbaycanlıları Konqresində birləşiblər. Onlar bizim diaspor siyasətimizə yaxından dəstək verirlər. Amma bunu digər təşkilatlar barədə demək mümkün deyil. Mən istəməzdim ki, biz ermənilərı təkrar edək. Lakin ümumiyyətlə düşmənin hər zaman nə etdiyini də öyrənmək lazımdır. Bu misalı səbəbsiz çəkmədim. Belə ki, bu günlərdə qondarma "erməni soyqırımı" ilə bağlı keçirilən tədbirlərlə bağlı çox maraqlı bir fakta rast gəldim. Qeyd olunurdu ki, dünyanın hər bir şəhərində yaşayan ermənilər üçün çağırış edilib. Həmin çağırışa əsasən hər bir erməni yalnız 50 sent yardım etməlidir. Əgər bu gün Ukraynada və ya digər ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin müxtəlif KİV-ində Xocalı soyqırımı, Dağlıq Qarabağ münaqişəsi, erməni təcavüzü ilə bağlı əsil həqiqətləri çap etdirmək üçün sadəcə, hərəsi 50 qəpik versə, kifayətdir. Yəni, bu cür işin görülməsi üçün heç bir milyonçuya ehtiyac yoxdur. Əgər bu pul yığılarsa, Rusiya telekanallarında təbliğat üçün vaxt almaq mümkündür. Mən hesab edirəm ki, heç bir azərbaycanlı ümummilli məsələ ilə bağlı 50 qəpik yardım etməkdən çəkinməz.

- Bəs onda, bu niyə edilmir?

- G.Ə: Bunun kökü ötən əsrin 90-cı illərinin əvvəllərinə gedib çıxır. O zaman xaricdəki azərbaycanlı iş adamları diaspor fəaliyyəti ilə bağlı məsələlərə çox böyük həvəslə pul xərcləyirdilər. Lakin sonralar məlum oldu ki, onların verdikləri pullar bir çox hallarda diaspor təşkilatlarının keçirdikləri tədbirlərə deyil, kimlərinsə şəxsi işlərinə xərclənib. Bu cür mənfi məqamları görən iş adamları sözügedən sahəyə pul ayırmalarına son qoydular. Yəni, onlar bir daha diaspor işi dəllallarının qurbanına çevrilmək istəmirlər. O baxımdan da mən iş adamlarını sona kimi qınaya bilmirəm.

- Yəni, bu məsələnin kökündə inamın itməsi faktoru dayanır...

- G.Ə: Əlbəttə. Bu inamın itməsində isə konkret "əməyi" olan azərbaycanlılarımız var və belələrini Azərbaycanda da, Rusiyada da, Ukraynada da hamı tanıyır. Hər kəs bilir ki, bu adamlar, sadəcə, fırıldaqçılardır.

- Ələmdar müəllim, Gülər xanım çox ciddi və ağrılı bir məsələyə toxundu. Fəaliyyət göstərdiyiniz Rusiyada bu istiqamətdə vəziyyət nə yerdədir?

- Ə.N: Çox təəssüflər olsun ki, Gülər xanımın da qeyd etdiyi kimi, bu cür diaspor fırıldaqçılarına hər bir ölkədə rast gəlmək mümkündür. Lakin onların diaspor kimi müqəddəs bir işdən öz mənfəətləri naminə istifadə etdikləri zamanlar artıq arxada qalıb. Bu gün Rusiyada yaşayan soydaşlarımız diaspor fəaliyyəti ilə bağlı məsələlərdə ön sırada dayanırlar. Yəni, hazırda Rusiyada istər diaspor təşkilatları, istərsə də Azərbaycanla bağlı digər qurumlar tərəfindən mühüm işlər həyata keçirilir. Bu istiqamətdə Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyi və bu nümayəndəliyin rəhbəri Leyla xanım Əliyevanın fəaliyyətini xüsusi olaraq qeyd etmək istəyirəm. Son illər ərzində Rusiyada bu istiqamətdə böyük canlanma baş verib.

- İ.A: Bu gün möhtərəm Prezidentimiz İlham Əliyevin diqqət və qayğısı diaspor təşkilatlarımızın fəaliyyətinə stimul verir. Məhz bu diqqət və qayğını, Azərbaycan dövlətinin hərtərəfli dəstəyini hiss edən xaricdəki soydaşlarımız və diaspor təşkilatlarımız öz fəaliyyətlərini daha da gücləndirməyə çalışırlar. Heydər Əliyev Fondunun, bu fondun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın ölkəmizin diaspor siyasətinin reallaşdırılması istiqamətində gördüyü işləri də xüsusi olaraq qeyd etmək yerinə düşər.

Yəni, bu gün Azərbaycan diasporu məhz bu qayğı və diqqət nəticəsində varlığını hər bir ölkədə əyani şəkildə ortaya qoya bilir. Təbii ki, bizlər də bu diqqət və qayğını göz önünə alaraq öz fəaliyyətimizi daha dinamik və səmərəli istiqamətdə qurmağı planlaşdırırıq.

- Təxminən bir il öncə, "Yeni Azərbaycan" qəzetində keçirilən Dəyirmi masada Çanaqqalada şəhid olan soydaşlarımızın xatirəsinə ehtiram əlaməti olaraq xatirə lövhəsinin qoyulması məsələsi səslənmişdi. O zaman bu, bir az əlçatmaz görünmüşdü desək, yanılmarıq. Amma üstündən cəmisi bir il keçdi və bu məsələ reallaşdı...

- İ.A: Sizin də qeyd etdiyiniz kimi, bir il öncə səsləndirilən bu fikrin reallaşacağına çox az adam inanırdı.

Hətta həmin Dəyirmi masada iştirak edən bəzi millət vəkillərimiz belə, sözügedən məsələyə şübhə ilə yanaşırdılar. Lakin biz qarşımıza qoyduğumuz məqsədə nail olmaq üçün bütün mümkün addımları atdıq və nəticə bu gün göz qabağındadır. Təbii ki, bu məsələnin reallaşmasında bizə ən böyük dəstəyi verən dövlət oldu. Məhz ölkə rəhbərliyinin xeyir-duası ilə bu arzumuzu reallığa çevirdik. Həmin vaxt biz bu məsələni reallaşdırmaq üçün xarici işlər naziri Elmar Məmmədyarova, parlamentin spikeri Oqtay Əsədova və başqa bir sıra rəsmi şəxslərə müraciətlər etdik. Həmin müraciətlərə lazımi formada diqqətlə yanaşan və bizə dəstək verən bu şəxslərə minnətdarlıq etmək istəyirəm. Mən xüsusilə ölkə başçısı, Prezident İlham Əliyev cənablarına və Prezident Administrasiyasının rəhbəri, akademik, Ramiz Mehdiyevə öz minnətdarlığımı bildirmək istəyirəm. Dövlət rəhbərliyi ən yüksək səviyyədə bu layihənin reallaşması üçün səylərini əsirgəmədi və nəticəyə nail olundu. Çanaqqalada xatirə lövhəsinin qoyulması bir daha göstərdi ki, Prezident İlham Əliyev türk birliyinin daha da möhkəmləndirilməsi, qəhrəmanlıq tariximizin daha dərindən öyrənilməsi və təbliği istiqamətində əsl qətiyyət nümayiş etdirir.

- G.Ə: Mən də öncə bu işdə bizə dəstək olan xarici işlər naziri Elmar Məmmədyarova, parlamentin spikeri Oqtay Əsədova, həmçinin, digər bütün qurum və şəxslərə qəzetiniz vasitəsilə təşəkkür etmək istəyirəm. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, məhz xarici işlər naziri Elmar Məmmədyarovun diqqəti və məsələyə operativ yanaşması nəticəsində bir gün ərzində bizim işə ən yüksək səviyyədə xeyir-dua verildi. Bu işin görülməsi üçün səfirliyə xüsusi tapşırıqlar verildi. Eyni zamanda, qeyd etmək istəyirəm ki, bu bir qeyrət məsələsi idi. Həmin məsələnin reallaşması üçün üzərimizə düşən bütün vəzifələrin öhdəsindən layiqincə gəlmək borcumuz idi. Bu ilin martında Çanaqqalada məlum xatirə lövhəsinin qoyulması bizim öz işimizin öhdəsindən, ən azından bu istiqamətdə gəldiyimizi deməyə əsas verir. İsmayıl müəllimin, bu işdə dövlətin bizə yaxından dəstək verdiyinə dair fikirlərini bir daha xatırlatmaqla yanaşı, onu da qeyd etmək istəyirəm ki, istər mənim, istərsə də digər iki millət vəkilinin BDM-də təmsil olunmağı heç də sıradan bir məsələ deyil. Yəni, bizlər bu quruma, sadəcə, üzv olmaq üçün gəlməmişik. Şəxsən mən biləndə ki, BDM-də doğrudan da, səmimiyyətlə, ürəkdən bu işləri həyata keçirmək istəyən insanlar var, şübhəsiz ki, həmin insanlarla birgə bu işləri görməyə razılaşdım. Mənim digər həmkarlarım da BDM-ə məhz bu məqamlara görə gəliblər. Lakin biz bu işləri yalnız ona görə bu cür yüksək səviyyədə görə bilirik ki, həmin işlərin təməlində məhz Azərbaycan dövlətinin siyasəti dayanır. İsmayıl müəllim də mənimlə razılaşar ki, məhz tədbir keçirdiyimiz ölkələrdəki Azərbaycan səfirlərinin, həmçinin, səfirlik nümayəndələrinin xüsusi diqqət və qayğısı bizim fəaliyyətimizə əlavə güc qatıb. Onların bizə göstərdiyi köməyi, verdiyi mənəvi dəstəyi heç zaman unutmaq olmaz. Onların bizə qarşı bu qədər diqqət və hörmətlə yanaşmaları məhz Azərbaycan dövlətinin dəstəyi deməkdir.

- Bəs, xatirə lövhəsinin qoyulması ilə bağlı yaşanan anlaşılmazlıqların səbəbi nə idi?

- G.Ə: Sadəcə olaraq, kiçik bir bürokratik əngəl vardı. Anlaşılmazlıq, sadəcə, texniki problemlər səbəbindən ortaya çıxmışdı. Biz xatirə lövhəsinin üzərindəki yazıları dəyişsək də, bu barədə zamanın azlığı ucbatından müvafiq yerli qurumları xəbərdar edə bilməmişdik. Bunu nəzərə alan Türkiyə tərəfi protokola uyğun olaraq bildirdi ki, həmin lövhəni tədbirdən bir müddət sonra qoya bilərik. Təbii ki, bu bizi qane etmirdi. Çünki bir həftə sonra o lövhənin qoyulması eyni effekti verməyəcəkdi. Həmin gün Çanaqqalada mərasim keçirilirdi və bu tədbir bütün türk dünyasının diqqət mərkəzində idi. Beləliklə, İsmayıl müəllimin cəsarətli mövqeyi, həmçinin, digər qardaşlarımızın gördükləri işlər nəticəsində, eyni zamanda, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın bizə çox böyük lütfkarlıqla dəstək verməsi nəticəsində elə tədbir çərçivəsində həmin lövhənin açılışını etdik. Güman edirəm ki, bu da taleyin bir xoş sürprizi idi. Bəlkə də, bizim həmin gün bu lövhəni ora yerləşdirməyimiz 95 il əvvəl Çanaqqalada türk qardaşları ilə çiyin-çiyin vuruşaraq qəhrəmancasına şəhid olan azərbaycanlıların ruhunu şad etdi. Bununla bir daha sübut olundu ki, insan iradəsi hər şeyə qadirdir.

- İ.A: Əslində, xatirə lövhəsinin qoyulması BDM-in Türkiyədə keçirdiyi birinci və sonuncu tədbir deyil. Belə ki, biz ötən il Türkiyədəki həmkarlarımız, diaspor təşkilatlarımızla bərabər, Əlican keçid məntəqəsinə gedərək orada Türkiyə-Ermənistan sərhədlərinin açılmasına qarşı etiraz aksiyası keçirmək qərarı vermişdik. Həmin aksiya çox mütəşəkkil şəkildə təşkil olundu və bütün dünya bildi ki, Azərbaycan və Türk xalqları sərhədlərin açılmasına qarşıdır. Azərbaycan və Türkiyə bayraqlarını dalğalandıran 10 minə yaxın insanın iştirak etdiyi həmin aksiyada "Sərhədlərin açılmasına yox!" və "Qondarma "erməni soyqırımı" iddialarını rədd edirik!" şüarları səsləndirildi. Bundan başqa, BDM Türkiyədə diaspora fəaliyyəti ilə bağlı keçirilən bir sıra tədbirlərdə də yaxından iştirak edib.

- Bu xatirə lövhəsinin qoyulmasından sonra Çanaqqalada atılacaq növbəti addım nədən ibarət olacaq?

- İ.A: Sualınıza cavab verməmişdən öncə mən, Çanaqqalada xatirə lövhəsinin qoyulmasında bizə göstərdiyi dəstəyə və yardımlara görə Türkiyənin Azərbaycandakı səfiri cənab Hülusi Kılıca da dərin minnətdarlığımı bildirmək istəyirəm. Çünki bu işlərin reallaşması istiqamətində ilk addımlar cənab səfirin müvafiq məktubundan sonra atılmağa başladı. Çanaqqalada atılacaq növbəti addımın nədən ibarət olacağına gəldikdə isə, bizim bir sıra təkliflərimiz var.

Həmin təklifləri paket halında müvafiq qurumlara təqdim etmişik. Məsələn, həmin xatirə lövhəsinin yerində abidənin ucaldılması, abidənin ətrafında isə bir bağçanın salınması təkliflər paketinə daxildir. Hesab edirik ki, abidənin arxasında Azərbaycan bayrağı dalğalanmalı, önündə isə, Çanaqqalada şəhid olmuş azərbaycanlıların adları yazılmalıdır. BDM olaraq biz, həm də həmin şəhidlər haqqında tarixi araşdırmaların aparlımasını vacib bilirik. Kim bilir, bəlkə də bu araşdırmalar nəticəsində onların Azərbaycanda olan qohumlarını tapa biləcəyik. Təbii ki, görüləcək işlər çoxdur və biz bu istiqamətdə fəaliyyətimizi davam etdiririk.

- Ə.N: Çanaqqala səfərində iştirak edən nümayəndə heyətinin üzvü kimi bir məsələyə xüsusilə toxunmaq istəyirəm. Bu gün istər BDM, istərsə də diaspora fəaliyyəti ilə məşğul olan başqa təşkilatlar Azərbaycanımız naminə müvafiq addımları atır və bu istiqamətdə çabalar göstərir. Lakin bunu da etiraf etməliyik ki, həmin təşkilatlara kənardan verilən hər hansı mənəvi dəstəyin özü fəaliyyəti daha da effektli edir.

Mən bunu təsadüfən demədim. Çanaqqalada xatirə lövhəsinin qoyulması ilə bağlı aparılan işlər, konkret olaraq sonuncu gün ortaya çıxan bəzi problemlərin həll edilməsi bir tərəfdən BDM-in fəaliyyəti ilə bağlı idisə, digər tərəfdən də Gülər xanım kimi millət vəkilimizin bizim yanımızda olması, atdığımız hər bir addımda bizə dəstək verməsi və hadisələrin önündə getməsi ilə əlaqədar idi. Yəni, demək istəyirəm ki, istər Gülər xanımın, istərsə də digər millət vəkillərimizin bu cür məsələlərdə bizlərə dəstək verməsi böyük önəm daşıyır. Bizim xarici ölkələrdə keçirdiyimiz tədbirlərdə dəyərli millət vəkillərimizin də iştirak etməsi rastlaşa biləcəyimiz istənilən problemlərin həllinə də yardımçı olur.

- G.Ə: Mən, sadəcə, bir millət vəkili olaraq deyil, eyni zamanda, bir azərbaycanlı qadın kimi bu işlərdə öz üzərimə düşən vəzifənin öhdəsindən gəlməyə çalışıram. Hazırda müharibə şəraitində olan, torpaqlarının bir hissəsi ermənilər tərəfindən işğal edilən bu Vətənin hər bir övladı dövlətin apardığı siyasətə öz dəstəyini verməlidir. Digər tərəfdən, mən görəndə ki, Azərbaycan Respublikasının Prezidentinin ailəsindən olan iki xanım-YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyeva bu gün dövlət siyasətimizin inkişaf etdirilməsi istiqamətində örnək olaraq öndə addımlayırlar, mən bu prosesdən kənarda qala bilmərəm. Çünki bu məsələ ümummilli əhəmiyyət daşıyır və hər bir azərbaycanlı bu məsələdə qətiyyət göstərməli, əlindən gələn yardımı etməlidir.

Onu da bildirmək yerinə düşər ki, bizim Çexiya və Belarusdakı tədbirlərimiz Leyla xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan "Xocalıya ədalət" kampaniyasına dəstək şəklində həyata keçirildi. Bütün yuxarıda deyilənlərlə yanaşı, mən bir məqama da toxunmaq istəyirəm. Bu gün hər kəs, hər bir azərbaycanlı anası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar olduğunu bəyan edir. Lakin təəssüflər olsun ki, qadınlarımızın, analarımızın əksəriyyəti məsələnin sülh yolu ilə öz həllini tapması üçün dövlətə hansısa kömək edə biləcəklərini unudurlar.

Əgər biz analar öz övladlarımızı çox istəyiriksə, onlara müharibəsiz, problemsiz bir ölkə qoyub getmək istəyiriksə, o zaman hər birimiz əməli fəaliyyət göstərməliyik. Mən qəzetiniz vasitəsilə istər hakim Yeni Azərbaycan Partiyasında təmsil olunan bütün xanımlara, istərsə də ümumilikdə Azərbaycan qadınlarına müraciət edirəm. Əgər biz istəyiriksə ki, münaqişə sülh yolu ilə həllini tapsın, o zaman hər birimiz xarici ölkələrdə yaşayan xanımlara müraciət etməli, onlara dövlətimizin bu mübarizədə haqlı olduğunu təsdiqləyən məlumatlar verməliyik.

Qoy xanımlarımız xarici ölkələrdəki alim, ictimai fəal qadınları Azərbaycana dəvət etsinlər, üzləşdiyimiz işğal problemi ilə onları əyani şəkildə tanış etsinlər. İnanın ki, bu çox böyük effekt verə bilər. Biz Çexiyaya gedəndə orada çex alimlərinə Xocalı faciəsi ilə bağlı film göstərdik. Həmin alimlər filmə baxandan sonra ağlayaraq, "biz 18 il bundan öncə burada oturub yeyib-içərkən, Xocalıda günahsız insanlar vəhşiliklərin, işgəncələrin qurbanı olub" deyirdilər. Demək istəyirəm ki, bu cür təbliğatın böyük önəmi var və həmin işdə dövlətlə yanaşı, sadəcə, vətəndaşlar, xüsusilə də, analarımız fəallıq göstərməlidirlər. Əgər kimsə, bizim bu çağırışımıza qoşulmaq istəyirsə, o zaman müxtəlif ölkələrin universitetlərinə müraciət etsinlər, tanınmış tarixçi xanımları, həmçinin, xaricdə yaşayan ictimai fəal qadınları Azərbaycana dəvət etsinlər.

- Ə.N: BDM olaraq biz bu məsələdə, yəni, xarici ölkələrdə yaşayan tanınmış xanımlarla əlaqələrin qurulması məsələsində yardım etməyə hazırıq. Əgər kimsə bu təşəbbüsə qoşulmaq istəyirsə, o zaman BDM-ə müraciət etsin və biz müvafiq koordinatları verək.

- G.Ə: Son olaraq qeyd etmək istəyirəm ki, Yeni Azərbaycan Partiyasının orqanı olan "Yeni Azərbaycan" qəzeti hər zaman bu məsələləri diqqətdə saxlayıb. Diaspor məsələlərini xüsusi olaraq diqqətdə saxladığınıza görə, bütün kollektivinizə təşəkkür edirəm. Eyni zamanda, çox istərdik ki, bu gün bizim səsləndirdiyimiz ideyaların reallaşdırılması işində siz də iştirak edəsiniz.

- İ.A: Mən də BDM-in rəhbəri olaraq, bu istiqamətdəki fəaliyyətinə görə, "Yeni Azərbaycan" qəzetinə minnətdarlığımı bildirirəm. Sizin dövlətimizin diaspor siyasətini daim gündəmdə saxlamanız, mütəmadi olaraq bununla bağlı Dəyirmi masalar təşkil etməyiniz təqdirəlayiq haldır.

Pərviz Sadayoğlu, Nadir Azəri
"Yeni Azərbaycan ". -2010 -7 aprel - N.58.-S.7, 8 aprel, N.59.-S.7.

Niyazi Hacıyev: "Mən şadam ki, Estoniyada azərbaycanlılar haqqında yaranmış stereotip aradan qaldırılıb"

Estoniyanın novosti.err.ee portalı "Vestnik Kavkaza" saytına istinadla xəbər verir ki, Estoniyadakı Azərbaycan diasporu ruslarla estonlar arasında dialoqa kömək edir. Bunu AzərTAc-a Estoniyadakı "Aydan" Azərbaycan Mədəniyyəti Mərkəzinin sədri Niyazi Hacıyev bildirmişdir. N.Hacıyev demişdir: "Estoniyada Azərbaycan cəmiyyəti yaradılmasının tarixi 1988-ci ildə başlanmışdır. O vaxt mən burada yaradılmış "Ocaq" mədəni birliyinin sədri seçilmişdim. Həmin dövrdə cəmiyyətimizin üzvlərinin sayı 2 min nəfərdən çox deyildi, lakin biz çox fəal idik və cəmiyyətimiz Estoniya Respublikasının müstəqilliyini birinci olaraq dəstəkləyənlərdən olmuşdu. Yadımdadır, biz 40 min rubl məbləğində sovet pulu yığıb, üzərində Azərbaycanın milli bayrağı təsvir edilmiş yapışdırma şəkillər buraxdıq və Bakıya göndərdik". Mədəniyyət Mərkəzinin sədri sözünə davam edərək demişdir: "Azərbaycanın üçrəngli bayrağı Estoniyada ilk dəfə 1988-ci ildə icmamızda üzə çıxarıldı.

O vaxtadək çoxları heç bilmirdi ki, Azərbaycanın öz bayrağı vardır. Hətta bəzi dövlət orqanları o vaxt bizi milli ayrı-seçkiliyi qızışdırmaq adı ilə təqib edirdi. Hərçənd, biz yalnız bunu deyirdik ki, bütün insanlar öz fikirlərini sərbəst ifadə edə bilər. Həmin illərdə azərbaycanlılar passiv deyildilər. Estonlar və onların ictimai təşkilatları bunu bilirlər. Mən o vaxt hələ tələbə idim. Biz milli azlıqların forumunda iştirak edirdik. İndi də mövcud olan bu forum yaranan vaxt - 1988-ci ildə Estoniya cəmiyyətində iki əsas düşərgə vardı - estonlar və ruslar. Biz Estoniyanı eyni dərəcədə sevən estonlar və ruslar arasında bir növ əlaqələndirici kimi çıxış edirdik". Niyazi Hacıyev daha sonra demişdir: "Əldə etdiklərimizə görə qürur duyuram.

Əldə etdiyimiz isə bu olmuşdur ki, sovet dövründə, elə indi də Estoniyada bizim xalq barəsində "bazar adamları", "alverçilər" kimi təsəvvür yaratmaq cəhdlərini təkzib edərək, özümüzü başqa keyfiyyətdə təqdim etmişik. Estoniya Respublikasının təşəkkülü dövründə hökumət üzvləri əsasən estonlardan ibarət idi, onların arasında başqa millətlərin nümayəndələri yox idi. Yalnız bir nəfər həmyerlimiz – o vaxt Narva şəhərinin meri, sonradan Estoniyanın əhali məsələləri üzrə naziri olmuş Eldar Əfəndiyev Estoniya hökumətində milliyyətcə eston olmayan ilk nümayəndə idi. Bu gün Eldar Əfəndiyev Estoniya parlamentinin üzvüdür. Mən şadam ki, azərbaycanlılar haqqında Estoniyada yaranmış stereotip aradan qaldırılmışdır".

08 aprel 2010

Nyu-York şəhərində yerləşən Türk Mərkəzində Novruz Bayramı münasibəti ilə tədbir keçirilib

Aprelin 8-də Nyu-York şəhərində yerləşən Türk Mərkəzində Novruz Bayramı münasibəti ilə tədbir keçirilib. Bu barədə APA-ya Azərbaycanın BMT yanındakı daimi nümayəndəliyindən məlumat verilib. Azərbaycanın, Qazaxıstanın, Türkmənistanın, Türkiyənin, Özbəkistanın BMT yanında Daimi Nümayəndəlikləri həmçinin, Türkiyənin, Qazaxıstanın və Özbəkistanın Nyu-Yorkdakı Baş Konsulluqlarının təşkilatçılığı ilə keçirilən tədbirdə Novruz bayramının qeyd edilməsinin tarixi, onun nəyinki Azərbaycanda, o cümlədən dünyanın bir çox ölkələrində təntənəli şəkildə üç min ildən artıqdır ki qeyd edilməsi barədə məlumat verilib.

Bu bayramın özündə mehriban qonşuluq, qarşılıqlı hörmət, dözümlülük kimi qədim adət-ənənələri əks etdirdiyi vurğulanıb. Eyni zamanda, Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş və mədəniyyətlərarası dialoqun və anlaşmanın təşviqi, xalqlar arasında dözümlülüyün, mehriban qonşuluğun və həmrəyliyin təşviq edilməsi məqsədilə Novruz bayramının, yəni 21 mart tarixinin Beynəlxalq Novruz Günü kimi tanınmasına dair BMT Baş Assambleyasının cari ilin 23 fevral tarixində qəbul edilmiş qətnamənin əhəmiyyəti qeyd edilib. Tədbirin sonunda qeyd edilən ölkələrin mədəniyyət nümayəndələrinin iştirakı ilə konsert proqramı təşkil edilib və tədbir iştirakçılarına milli mətbəxlərin nümunələri təqdim edilib. Tədbirdə BMT yanında xarici dövlətlərin Daimi Nümayəndələri, Baş Konsulları və BMT rəsmiləri iştirak ediblər.

08 aprel 2010

Türkiyədəki diasporumuz ermənipərəst yalanı ifşa etdi

Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası "Doğan" holdinqin iddialarına cavab verdi

Türkiyənin tanınmış jurnalisti, "Kanal D" televiziyası ana xəbər bülleteninin aparıcısı və "Posta" qəzetinin baş redaktoru Məhmət Əli Birant Ermənistan Mədəniyyət Universitetinin nəzdindəki Qlobal Siyasi Elmlər Mərkəzinin dəvəti ilə bir neçə gün bu ölkədə səfərdə olub. O qayıtdıqdan sonra həm qatıldığı toplantıdan olan təəssüratları, həm də Türkiyə, Azərbaycan, Ermənistan münasibətləri haqqında silsilə yazılar yazıb. M.A. Birantın yazıları "Posta" qəzetinin 27,30,31 mart və 2-3 aprel tarixli saylarında, eləcə də "Doğan" holdinqə daxil olan "Hurriyet" və "Milliyyet" qəzetlərində dərc olunub. Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının rəhbəri Bilal Dündar M.Ə. Birantın yazıları və tutduğu mövqe ilə bağlı ona məktub ünvanlayıb.

Məktubda tarix boyu, o cümlədən ötən əsrin əvvəllərində, hələ Osmanlı İmperatorluğu dönəmində ermənilərin türklərə qarşı törətdiyi soyqırımlar, qətliamlar tarixi faktlar və şahidlərin ifadələri ilə qeyd olunub. "Ermənilərlə heç problem yaşanmadan, illərə söykənən yaxşı qonşuluq əlaqələri içində birlikdə yaşadıqlarını atalarımız və analarımız canlı tarix olaraq izah edərdilər. O dövrü yaşayan bir çox insandan eyni cümlələri qulaqlarımla eşitdim. Yeri gəlib evlərindəki bir qaşıq şorbanı, bir parça çörəyi, yanacaq odunu, təzəyi və geyiləcək paltarları paylaşıblar. Bu qədər sevgi, hörmət və həmrəylik mühiti təəssüf ki, birdən-birə yerlə yeksan edilib." Bilal Dündar xatırladıb ki, Erməni komitəçilər Lemis, Ardos kəndlərini yandırıb yaxaraq hər kəsi öldürüblər: "Qulaqlarımıza inana bilmədik. Qaçanlar oldu. İnanmayıb qalanlar oldu.

Fahralı Əhməd baba mən qaçmadım , amma özümü zəmanətə götürmək üzrə saxlandım dedi. Bir saat kimi bir zaman sonra kəndi komitəçilər basdı. Evlərdən döyərək çıxardıqları insanları samanlıqlara doldurub atəşə verərək diri-diri yandırdılar. Qaçmaq istəyənləri balta, kəsər və çubuqlarla bağrıda- bağrıda parçaladılar. Güllə sərf etməmək üçün samanlıqları toplu ölüm yeri seçdilər. Gözəl qızların və qadınların ismətlərinə tapdadıqdan sonra onları da öldürdülər. Kəndlərdə top yekun ölüm reallaşdırıldıqdan sonra başqa kəndlərdə eyni qırğınları etdilər. Bu tragediya günlərlə davam etdirildi. Qırğından təsadüfən xilas olanlar azlıqda idi. Bəzilərini erməni qonşularımız evlərində saxlamaq, gizləmək surəti ilə canlarını qurtaranlarda ədəd tərəfindən az deyildi". O bildirib ki, rəqəmlərə və coğrafiyaya diqqət edilsə, hadisənin mahiyyəti daha yaxşı və aydın olacaq: "Ağrı, Van, Ərzurum bölgələrində ermənilər tərəfindən qırğına uğrayan insanların sayı 122 min olaraq bilinir. Bu bölgələrdə erməni komitəçilərin etdiyi qırğınların rəqəmi təsbit edilib. Bu rəqəmlər göstərir ki, Şərqi Anadoluda sıxlıqla digər bölgələrdə də qismən olmaq üzrə bu faciələr yaşanıb. Osmanlı İmperiyası dövründə birinci növ vətəndaş olan ermənilər dövlətin ali postlarına qədər yüksəliblər. Hətta orduda general belə olublar. O günün şərtlərində yəni 100 il əvvəlində yaşananları da bu günə daşımaq bu nəsilli məsul tutmaq da ağıl, vicdan sahibi kimsənin müdafiə edəcəyi bir yol olmamalıdır. Kin, nifrət, stereotip, yalan və qışqırıq heç kimə bir şey də qazandırmaz".

O xatırladıb ki, o gün yaşananları bir hesabatla müəyyən yerlərə çatdırması lazımdırsa, bu da Ararat respublikasının baş naziri Kaçanuzinin "Bizlər də günahsız deyilik, bizlərə də qırğın edildi amma bizlərdə qırğın etdik və rahat dayanmadıq" sözləridir. İngilis yazar Peter Hopkirk "Bitməyən oyun" adlı kitabında bu sistematik hücumun, bu qırğının bir məqsədinin də ingilislərin tərəfindən almanların Hindistana gedən yollarını kəsmək olduğunu yazır. B. Dündar bildirib ki, ermənilər hərəkət və ifadələrində səmimi deyillər: "Hələ Türkiyədəki yeddi vilayəti xəritələrində göstərməkdə və Ağrı dağını "Ararat" adıyla milli simvol olaraq istifadə etdikləri hər kəsə bəllidir. Ermənistanda hələ də yaşayıb bura mənim torpağımdır deyən nə bir türkə, nə də azəriyə rast gəlmək mümkün deyil. Halbuki bizim aramızda on minlərcə erməni əslli vətəndaşımız vardır".

TADEF sədri müxtəlif tarixi mənbələrə istinadən ermənilərin öz dilindən onların türklərə qarşı soyqırım törətdikləri barədə etiraflarını da diqqətə çəkir. Məktubda deyilir: "Türkiyə tarixi zənginliyi və strateji əhəmiyyəti etibariylə böyük potensiala sahib olan ölkədir. Bu baxımdan Türkiyə nə vaxt daxili sabitliyə və davamlı inkişaf tempinə nail olsa, bu ölkəni içəridən qarışdırmaq və iqtidarsızlığa, hakimiyyət böhranına sürükləmək ssenariləri ortaya çıxır. Xüsusilə 1970-ci illərdə Türkiyə cəmiyyətində bu cür ssenarilər bir-birinin ardınca reallaşdırılıb və nəticədə vətəndaşlar müxtəlif fraksiyalara bölünərək illərcə bir-biri ilə qarşı-qarşıya durublar. Bu isə on minlərlə insanın həbsinə, minlərlə adamın təhsilini yarımçıq qoymasına gətirib çıxarıb. Türkiyə bu proseslər nəticəsində iqtisadi, siyasi və mədəni inkişafdan xeyli geri qalıb. Təəssüf ki, bu mənada Türkiyə onun bölgədə təsir dairəsinin genişlənməsini istəməyən qlobal güc mərkəzlərinin nəzarətində və maraq çevrəsindədir". Məktubda daha sonra Türkiyə ilə Azərbaycan münasibətləri barədə ətraflı məlumat verilir. Qeyd olunur ki, Azərbaycan tarixin hər dönəmində Türkiyənin yanında olub. Ötən əsrin əvvəllərində Qurtuluş Savaşı vaxtı Azərbaycan 4 il yarım ərzində neft və neft məhsullarını Türkiyəyə təmənnasız verib:"Bir mərmiyə, bir çıraga belə ehtiyacımız olduğu zamanda Azərbaycan xəzinəsindəki qızılı Rusiyaya sataraq əvəzində aldığı silahları Türkiyəyə göndərib, hətta gənc qadınlar öz zinət əşyalarını belə Türkiyəyə yardım üçün əsirgəməyiblər" .B. Dündar əlavə edir ki, məhz belə qardaş yardımına görə Atatürk Azərbaycanın o vaxtkı dövlət rəhbəri N. Nərimanova "Borcumuzu ən qısa zamanda ödəyəcəyik" deyə təşəkkür məktubu yazıb.

N.Nərimanovun isə əsla unudulmayacaq cavabı belə olur: “Qardaşın qardaşa borcu olmaz, qardaş qardaşın əlini tutar”. Müstafa Kamal Atatürkün “Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir” fikrini də Azərbaycan heç vaxt unutmayıb. Ulu öndər Heydər Əliyev isə “Biz bir millət, iki dövlətik” deməklə aramızdakı tarixi dostluq, qardaşlıq bağlarını ən yüksək səviyyəyə qaldırıb. TADEF rəhbəri məktubunda Azərbaycanın ən yeni tarixində Türkiyə ilə münasibətlərinin təhlilinə də xüsusi yer ayırıb. Dağlıq Qarabağ münaqişəsindən, ayrıca olaraq Xocalı faciəsindən ətraflı bəhs edən B. Dündar M.A. Biranta Azərbaycan reallıqlarına aid 2 kitab və Xocalı faciəsinin dəhşətli nəticələrini əks etdirən CD göndərib. “Heç kim görmək istəməyəcək qədər kor, eşitmək istəməyəcək qədər kar, yerimək istəməyəcək qədər topal ola bilməz” deyən Bilal Dündar Azərbaycan torpaqlarının işğalı və nəticədə 1 milyonadək insanın doğma yurdundan didərgin düşməsi faktını yada salaraq deyir: “Sizin də öz yazınızda bəhs etdiyiniz kimi bu işğala, qətliama və insanların qaçqın düşməsinə etiraz əlaməti olaraq Türkiyə 1993-cü ildə Ermənistanla sərhədlərini bağlayıb. İşğal edilmiş torpaqlar geri qaytarılmayınca bu sərhədlər açılmayacaq.

Bu, sadəcə Azərbaycanın deyil, hər kəsin anladığı həqiqətdir”. Azərbaycanın işğal altındakı əraziləri azad edilməyincə Ermənistanla hər hansı yaxınlaşma, imzalanmış hər hansı protokolun həyata keçirilməsi və tətbiqinin mümkünlüyünə inanmadığını vurğulayan məktub müəllifii fikirlərini belə yekunlaşdırıb: “Hörmətli Birant, sizi xanımınızla birlikdə fəxri qonağım olaraq bir həftəlik Azərbaycana dəvət edirəm. Hər şeyi öz gözlərinizlə görməyiniz, bilməyiniz və təhlil etməyiniz bizi məmnun edəcək”. Məktuba Məhmət Əli Birantın ofisindən dərhal reaksiya verilib. Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının rəhbəri ilə telefon əlaqəsi yaradan ofis nümayəndəsi tanınmış jurnalistin məktubunu diqqətlə oxuyub incələdiyini, həqiqətən də indiyədək bilmədiyi bəzi gerçəkliklərlə qarşılaşdığını bildirib.

Günay Əsədova
“Paritet” – 2010 – 8 - 9 aprel-N.33.-S.5.

Rusiya Qəhrəmanı David Paşayev 70 yaşında Moskvada vəfat etmişdir

Ümumrusiya Azərbaycan Konqresindən AzərTAc-a bildirmişlər ki, həmyerlimiz, "Sevmaş"ın keçmiş baş direktoru, Rusiya Dövlət Atom Gəmiqayırma Mərkəzinin (RDAGM) prezidenti, Rusiya Qəhrəmanı David Paşayev 70 yaşında Moskvada vəfat etmişdir. D.Paşayev 1963-cü ildə Ural Politexnik İnstitutunu bitirmiş, təyinatla Severodvinskdəki "Sevmaş" zavoduna işləməyə göndərilmişdir.

Usta köməkçisindən baş direktoradək şərəfli əmək yolu keçmiş David Paşayev Rusiya Qəhrəmanı adına, Dövlət mükafatına, "Rusiya Donanmasının 300 illiyi" medalına layiq görülmüşdür. 2002-ci ildə hərbi gəmiqayırma sahəsində görkəmli xidmətlərinə görə ona "İlin adamı" adı təqdim olunmuşdur. David Paşayev "Sevmaş"ın tarixində kollektiv tərəfindən seçilən yeganə rəhbər olmuşdur. O, 1983-cü ildə zavodun direktoru seçilmişdir. Onun rəhbərlik illəri gəmiqayırma sənayesinin çiçəklənən dövrü idi.

"Sevmaş" "Akula", "Antey", "Bars" gəmilərini inşa etmişdi. 2004-cü ildə D.Paşayev səhhəti ilə əlaqədar vəzifəsindən getmişdir. RDAGM-in prezidenti və İctimai Palatanın üzvü kimi o, Rusiya atom gəmiqayırma sənayesinin problemləri ilə məşğul olmuşdur. Ömrünün son illərini Moskvada yaşamışdır.

09 aprel 2010

Tariyel Azərtürk: Amerika Güney Azərbaycana dəstək versə, İran bir ilin içində diz üstə çökər

Amerikada yaşayan həmyerlimiz, tanınmış araşdırmaçı Dr. Tariyel Azərtürkün GünAzTv Mətbuat mərkəzinə verdiyi müsahibəsinin birinci hissəsini oxucularımıza təqdim edirik:

- Tariyel bəy, xoş gördük Sizi. İlk öncə oxucularımıza özünüz haqqında bilgi vermənizi istərdik:

- Xoş gördük Elnur Bəy! Özüm Zəngəzur mahalının Nüvədi adlı qədim kəndində anadan olmuşam. Araz qırağı adlı yerdə. Orta məktəbi əla qiymətlə bitirib, Azərbaycan Dövlət Tibb Universitetinin farmasiya üzrə ixtisas fakultəsinə daxil olmuşam. Oraya, necə deyərlər, zorunan salıblar. Həkim olmaq eşqilə imtahan verdim, imtahanlardan topladığım balım da məqsədim üçün yetərli idi. Lakin o zaman məni adamsız görüb sevmədiyim ixtisasa itələdilər. Oranı da 4-5-lə qurtarsamda, bircə gün də aptekdə işləmədim. Qəti sevmədiyim ixtisas idi.

- Təyinatla məni Ermənistana işləməyə göndərdilər. O zaman bu respublikada bu ixtisas üzrə ali təhsil məktəbi yox idi. Mən də öz rayonumuzda işləyəcəyim, qoca valideynlərimə dayaq olacağım ümidiylə İrəvana getdim. Lakin idarə müdirliyi rayonumuz olan Meğrinin adını belə çəkmək istəmirdi. İki ayağın bir başmağa dirəmişdi ki, gərək Sisiyanın təzə salınmış Şamp qəsəbəsinə aptek müdiri gedəsən. Mən də getmədim. Uzun dava-dalaşdan sonra rədd cavabı yazılmayan təyinatımı müdir üstümə tulladı. Dedi gedirsən get, ancaq sən bizə lazımsan. Lazım olsaydım da, bir də İrəvana dönmədim. Açıq qalmış təyinatımı götürüb Bakıya qayıtdım və Azərbaycanın o zamankı Səhiyyə nazir Fəxri Vəkilov məni başa düşüb təyinatımı dəyişdi. Akademiyada işə düzəldim.

- Odur ki, bir il Bakıda qalmaq məqsədi ilə, Azərbaycan EA-da necə deyərlər, başımı girələdim, ikinci il Tibb İnstitutunda Latın dilindən saat hesabı müəllimliklə yanaşı, 1 Nömrəli Bakı Tibb kollecində də Latın dili və Farmakologiya üzrə əsas müəllim vəzifəsinə düzəldim. Bu da məni qane etmədi. Amacım özümü elmə həsr etmək idi. Odur ki, bir il müəllimlikdən sonra Akademiyaya qayıdıb biokimya üzrə aspiranturaya girdim. Bakı və Kiyevdə elmi işimi başa vurub biokimya üzrə də alimlik dərəcəsi aldım. Sonrakı illər Akademiyada və Bakı Dövlət Universitetində baş elmi işçi və Laboratoriya müdiri kimi fəaliyyət göstərdim. 1990-da Universitetdən işdən çıxardılar. Düz bir il Vətəndə işsiz qaldım. 1991-də Amerika laboratoriyalarına göndərdiyim rezyümelər əsasında, Alyaskadan işə dəvət aldım.

Sovet sisteminin yıxıldığı Amerikada müxtəlif sahələrdə çalışsam da, əsas məqsədim Azərbaycanın itmiş tarixini araşdırmaq olub. Odur, 1994-də "The Turkic World-Türk Dünyası" adlı jurnal nəşr etməyə başladım. Bu sahəyə marağım hədsiz idi. Sovet İttifaqında Türkologiyaya aid çoxlu əsərlər oxumuşdum və "şumer" deyilən məfhumla ciddi şəkildə maraqlanırdım. Elə həmin ildən də Amerikadakı zəngin ədəbiyyatdan istifadə edib gil lövhələrə aid materialların tədqiqinə girişdim. 1994-də mixi yazılı ilk mətnin azərbaycanca olduğunu özüm üçün dəqiqləşdirəndən sonra isə özümü tamamilə bu sahəyə vurdum. İndi özümü qanadların şəmin oduna vurub yandıran pərvanəyə bənzədirəm. Gecə-gündüz antik əsərlərin yeni tərcüməsi ilə məşğulam. Və etdiyim yüzlərcə mətn azərbaycan türkcəsində tamamilə fərqli və daha elmli, həyati səslənir. Yuxarıda dediyim jurnalın adını ilk baxışda uyuşmayan məfhumları uyuşduran (buna latınca sinkretizm deyirlər) "Babylon-Azerbaijan" adı ilə nəşr etməyə başladım. Onun indiyə kimi 15 nömrəsi çıxıb.

- Amerika Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin erməni "soyqırımı"nı tanımasından sonra, Türkiyə-Amerika münasibətləri əvvəl kimi isti olacaqmı?

- Əlbəttə. İndiyə kimi 20-dən çox ölkə parlamenti Türkiyə əleyhinə böhtan və şər dolu qətnamələr qəbul edib. Və görünür, fəaliyyətsizliyimiz sayəsində bu cür şərin dünya boyu yeriməsinə start verilib. Sabah bu rəqəm 120 də ola bilər və yəqin ki, olacaq. Bu cür "tanıyanların" içərisində Rusiya da var. Və zənnimcə ilkinlərdən biridir o. Rusiya əslində Türkiyə əleyhinə yeridilən bu siyasətin də, haqqında bu qədər geniş danışılan hadisələrin də əsas baiskarıdır. Yəni Türkiyə ermənilərini Ottoman imperiyasına qarşı qaldıran da odur, indi bu cür yalanlara qığılcım verən də odur. Ermənləri I Dünya müharibəsi dövründə Ottoman əleyhinə qaldıran və ona silah verib, dayaq duran dövlətdir. Və o zamandan indiyə kimi də onları bizim əleyhimizə şirnikdirən şər qüvvədir. 1915-ci ildə ermənilər 600 il tərkibində olduqları Osmanlı İmperiyasına arxadan xəncər sapladıqları bəd əməllərinə görə deportasiya olunmuşdular deyək ki.

- Və əvvəl Bizans, sonra da Ottoman tərkibində kiçik bir xalq kimi heç dövləti də yox idi. Ancaq nüvəsində Rusiyanın durduğu Sovet dövləti cəmi bir neçə ilə onlara Qərbi Azərbaycan torpaqlarında son min illik tarixlərində ilk erməni dövləti yaratdı. Cəmisi bir neçə ilə. Fəqət Roma İmperatoru Pompey dövründən İsrail-Fələstin torpaqlarından qovulmuş yəhudi kimi bacarıqlı, təcrübəli, zəkalı bir xalq öz dövlətini 2000 il sərgərdan həyat sürdükdən sonra qura bildi. Dayağın gücünü, türkə düşmənçiliyin səviyyəsini görürsünüzmü? Rusiya daima türklüyə, Türkiyəyə qənim kəsilib. Mən, rusların bir xalq kimi formalaşdığı andan (bizim eranın 10-cu əsrindən sonra) indiki Rusiya çöllərində min illərlə mövcud olmuş türkdilli peçeneqlərin, polovetslərin, kıpçakların, krım türklərinin, bulqarların, vaxtilə əsrlər boyu Bizans İmperiyası ilə dünya siyasi durumunu balanslaşdırmış Türkdilli xalqların konglrmeratından ibarət olmuş Xəzər kimi qüdrətli Xaqanlığın (İmperiyanın) axırına çıxdığı tarixi faktları nəzərdə tuturam.

- İndi də Rusiya ermənilərin əliylə Türkiyəni, Azərbaycanı vurur. Bizə düşmən kəsdirdiyi pis günə özünün saldığı xalqın çətin anlarında hətta canlı qüvvə ilə də ona dəstək verir. İndi ermənilərin parlamentlər boyu yürüşündə də ilk dəstəkçi Rusiyadır. Bu açıq-aşkar görünür. Bununla belə, bildiyiniz kimi, bu gün Rusiya-Türkiyə iqtisadi, qarşılıqlı ictimai münasibətləri öz apogeyinə çatıb. Vaxtilə biz ruslardan qız alırdıq, indi Türkiyə türkləri bu səmtə yönəliblər. Ruslarla təkcə alver etmirlər, biznes qurmurlar, həm də qohumluq münasibətləri qurur və genetik əlaqələr yaradırlar.

- Bu baxımdan bütün "soyqırımı" tanıyan və tanıyacaq ölkələrlə işbirliyini heç cürə kəsmək olmaz. Bir neçə il bundan qabaq elə bu iş üstündə Fransa ilə münasibətlər pozuldu. İndi deyəsən yenə də həmən daş, həmən tərəzidir. Türkiyə qətnamələrin qəbulu günlərində, səfirlərini geri çağırsa da, özünü dünyadan təcrid edə bilməz. Həyatda ən pis şey ətrafdakılardan təcrid olunmaqdır. Bu, ailədə də, kollektivdə də ən gərgin yaşanan, ağrılı bir durumdur. Hətta heyvan sürülərindən belə təcrid olunanının nə hala düşdüyünü seyr etmək göynərtili məqamdır. Düşmən də elə buna çalışır.

Türkiyə isə əli qoynunda durub, günəbaxan Günəşə baxan kimi, parlamentlərə baxıb diksinir, diksindirir bizi. Nə etmək olar ki, düşməni tərksilah edəsən? Burada bir neçə dəfə Türkiyə rəhbərlərinə etdiyim müraciətləri olduğu kimi vermək istərdim.

Sayin CUMHUR BASHKANI ABDULLA GUL:

ABD kongresinin Dishishleri bakanliginın ardincan İsvec parlamentosunda ermeni tasarisinin (qetnamesinin) tesdqi tun Turk dunyasi icin rusvayci bir karardir. Hepsimizi sonsuz uzuyor. Onun bu yil, ya başka bir yil ABD Senatından da kececeyi shuphesiz gorunur. Shu, yalniz Turkiye icin degil, tun Turk dunyasi icin töhmetdir, rüsvayçılıqdır.

Turkiye bir hey ermenilere muraciet yapib, "gelin arshivleri acalim!" diyor. Aslinde Turk kelimesi "arxa-arka"-dan yaranmish "arxiv-arshiv" kelimesi ermenini, biz "soykirim" kelimesinden korkan gibi korkuduyor. Onlara arshiv yok, Turkiyeyi, hepsimizi daim gerginlikde saklamak ve sonradan tezminat almak ve Turkiye topraklarina iddialarini esaslandirmak lazimdir. Ve bu yolda dunyaboyu uzanan yolun esas hissesini kecibler. Turkiyenin fealiyyetsizliyi, Azerbaycanin acizliyi fonunda.

Elbette, Azerbaycandaki saldiri onlara kol-kanad verdi. Onlara arshiv yok, tezminat, Turkiyeden taleb etdikleri 6 vilayet lazimdir. Bu anlamda, shimdi onlara sifirdan bashlamak qeti shekilde el vermir. Onlar yalan dediklerinin farkindadirlar.

Bu yalanı, yalnız sizin arshivler ortaya koymak iktidarinda, Cenab Cumhur Bakani: Turkiye devleti dunya ilim adamlarina muraciet yapmalidir: "Gelin uz-uze oturalim, arxivleri acalim"ı dünya alimlerine demelidir. Ve her isteyeni Turkiye arshivlerine getirmelidir pulsuz-parasiz. Bu ishi bu yilin Mart-Nisan aylarinda bashlamak lazimdir.

Sonra zaman-zaman dünya ilim adamlarına muraciet yapmali, onlari Ankaraya, Istanbula, Izmire, Erzruma davet etmeli ve shu sahedeki materiallari ortaya koymak icin cabalar gosterilmeldir. Her yil azindan 2-3 defa ILIM KONGRELERI yapilmalidir Turkiyede, Azerbaycanda, diger memleketlerde. Orada dunya alimleri "1915. yilin olaylari"na resmi kiymet vermelidirler. Alinacak yekun cevaplar dünya medialarına, Internet portallarina, (ermenilerin minlerle soykirim saytlari fealiyyetde bu gun), dunya PARLAMENTOLARINA, prezidentlerine, BMT"ye, YUNESKO"ya, NATO"ya, Avropa Birliyi, Avropa Ittifaki parlamentolarina, Dini kurumlara, Islam Olkeleri Kongreyine, Kralliklara, diger egitim teshkilatlarina gonderilmeli. Ermenilerin iftira, yalan ve uydurmalari rusvay edilmeli.

İs o yere catib ki, Isvec Parlamentosunun turk esilli uyesi Mehmet Kaplan dushmen terefinde cikish edir. Orkan Pamukun "Beni soykirim didiyime gore olkemden kovubar" iftirasi Turkiye aleyhine silah gibi ishledilir.

Yalniz ilim yolla Turkiyeye ve turkluye atilan camurun karshisini almak mumkun. Lap Amerika kongreyi, yarin İngiltere, İspaniya kongreleri ermeni tasarisini tanısa bile, "1915. yilin olaylari" adi altinda ilim kongreleri daim yapilmali, dunya tarihcileri, arhivshunaslari, siyasetcileri, parlamento uyeleri (kim istese) ermenisiz de bir araya getirilmeldirler - dunyanin muhtelif sheherlerinde - yilda 2-3 defa!

Siz tun turk halkinin ve tun turk dunyasinin namuslu insanlarinin taleyine bigane kala bilmezsiniz. Tasari her kere her hanki parlamentoda "evet" alanda, coklarimiz hayatimiz icin tehlikeli olan kritik anlar yashiyoruz.

Saygilarimla, Dr. Tariyel Azətürk, Sietl, ABD,

- Bunun əvəzində sayin Baş Bakan Erdoğan 100 min illegal erməni vətəndaşını ölkəsindən qovacağı ilə hədələyir. Lap qov. Onların həyasızcasına tələb etdikləri 400 milyardlıq təzminatı və 6 vilayət boyu zəngin torpaqları 100 min vətəndaşlarının müvəqqəti qazanc itirmələrinə çox asanlıqla qurban verəcəklərinə şübhə yoxdur. Bir də ki, sən qovduğun illeqalları daha zəngin İsveçin, Fransanın, İngiltərənin, Amerikanın qəbul etməyəcəklərinə kim zəmanət verər? O zaman tamaşa bütün çılpaqlığı ilə bizi rüsvay etməyə yönələcək. Və bunu qəsdən edərlər də.

- Son vaxtlar Türkiyə mediasında belə bir yazılar getdi ki, erməni məsələsi komitədə səsə qoyularkən Azərbaycan diasporu türk diasporunun yanında olmayıb və öz mənəvi köməkliyini göstərməyib. Amerikada yaşayan bir şəxs kimi deyilən fikirlərlə razılaşırsınızmı?

- Mən doğrusu bu günü Konqresdə aparılan şouya internetlə yayımlanan Türkiyənin TRT türk kanalı vasitəsilə baxırdım. Bütün günü dilxor idim, heç nədən məlumatım yox idi. Mən kanalı açan kimi, Türkiyədən aparıcının dediyi təki "futbol matçında olduğu kimi hesab bizim xeyrimizə 22:19" idi. Azca keçmişdi ki, hesabda düşmən bir səs (oy) qazandı. Sonrakı bir saat ərzində onların və Bermanın fəaliyyəti sayəsində hesab 22:23 oldu və bir nəfərin də səsini (oyunu) gözləmədən "hakim" Berman "fiti çalıb" oyunun qurtardığını xəbər verdi. Biz uduzduq. Yaşlı bir türk repartyoru məlumatı birbaşa zaldan verdiyindən, orada nə baş verdiyini görmək olurdu. O deyirdi ki, bu məclisə Ermənistanın ABŞ-dakı səfiri də qatılıb. Bununla özünün guya təəccübünü izhar edirdi: "Əgər Ermənistan Türkiyə ilə diplomatik münasibətlər qurmağa səy göstərirsə, öz səfirini dəxli olmayan bir iclasa niyə göndərib?" mənasında.

Yadınıza gəlirmi, qətlə yetirilmiş bir erməni jurnalistinin dəfnində neçə yüz min türk insanı dövlət tərəfindən küçələrə tökdürülmüş və "Hepimiz ermәniyiz!" sloqanları bir ağızdan deyirdilər. Bizim xalq mahnımız olan Sarı gəlin havasını hayasızcasına erməni matəm himninə çevirmişdilər. Əsl şou o idi. Cəmi on beş il ondan öncə 25 min azərbaycan türkünü qətlə yetirmiş, on minlərlə yurd yerlərimizi viranəyə çevirmiş bir millətə bu qədər sevgi hardandır? Anlamaq çox çətin olduğu qədər də, bu səhnəni müşahidə etmək ziyada ağrılı idi. Bu gün sanki Türkiyəyə hər şeyi unutdurmuşdular.

Erməni terroristləri tərəfindən qətlə yetirilən 35-dən çox həmən jurnalistdən min dəfə dəyərli Türk diplomat oğullarını da. Bu mənada bu cür taleyüklü məsələlərdə də Türkiyənin, onun liderlərinin düşməndən mərhəmət gözləməsi ağlasığmazdır. Dediyim nə? İclas zamanı kameralar zalı göstərsəydilər də, küçəni nümayiş etdirmirdilər. Orada Azərbaycan diasporunun olub-olmamasını dəqiq deyə bilmərəm. Bizimkilərin olmaması xəbərini mən, Yeni Müsavat qəzetindən oxudum. Qəzet, diasporu etiraza təşkil etmədiyinə görə. Amma inandırıcı faktdır ki, azərbaycanlılar Türkiyənin yanında olsalar da, Azərbaycan canı-dildən, arzu olunan səviyyədə Türkiyəylə işbirliyi qura bilmir. Burada hər iki tərəfin günahı var.

Yadıma gəlir, qəzetlər yazmışdılar o zaman, Kəlbəcərin işğalı zamanı Prezident Əbülfəz Elçibəy güman bəslədiyi Türkiyəyə zəng vurub, Baş nazirdən 2-3 helikopter verməsini xahiş etmişdi ki, düşmən əhatəsində olan əliyalın camaatı təhlükə zonasından çıxarsınlar. Baş bakan cavabında nə desə yaxşıdır? "Bizim sizinlə ümumi sınırlarımız yok, biz size hansı yolla helikopter göndere bilerik, efendim?". Ancaq Rusiya rəqibə milyard dollarlıq silah-sursatı gözünü qırpmadan verirdi. Onun da düşmən ölkəylə sərhədləri silinmişdi, hələ müharibədən qabaq..

- Sonra Azərbaycandan xəbərsiz Sürixdə ermənilərlə iki il gizli danışıqlar aparmaq... Bu əsl qardaş yanğısından xəbər verir, deyilmi?

- Avropa Birliyində Kipr məsələsi həll olunanda isə bizim nümayəndə heyətinin zalı tərk etməsi;

Düşmən bunlardan məharətlə istifadə edir. İndinin özündə belə, nə Türkiyə, nə Azərbaycan heç bir fəaliyyət göstərmir. Heç kəs heç olmasa aldığı rüşvətlə ulu bir millətə qara ləkə yaxan, Sayin Tayyip Erdoğanın dediyi kimi, "Heç Ermənistanın nerede yerleshdiyini haritede göstere (men Türkiyeni de bura daxil ederdim) bilmeyen" Hovard Bermanı, hə deyən konqresmenləri oda, atəşə tutmur. Konqres də bu cür ətaləti qiymətləndirir. Bu mənada bəli, Azərbaycan Diasporunun iştirak etməməsi söz-söhbəti inandırıcı görünür. Hər halda, hələ heç bir diaspor liderindən bu irada cavab verən olmayıb.

- Amerika-İran münasibətləri neçə illərdir ki, gərgindir. Bütün bunların fonunda Güney Azərbaycana baxış neçədir. Ümumiyyətlə yerli mediada bu məsələ haqqında nəsə yazılırmı? Və əgər yazılırsa da hansı mövqedən yanışılır?

- Bu siyasi fonda "Güney Azərbaycan faktoru" termini ilə adlandırdığım faktoru işə salmalıyıq. Bu bir tarixi fürsətdir və bu fürsətdən məharətlə istifadə etməliyik. Nədir dediyim faktor? Biz Amerikaya da, İsrailə də, mesajlar ötürməklə, müharibənin "qaçılmaz olduğu" iddiasından onları əl çəkməyə məcbur edirik. Onlara anladırıq ki, siz əgər İranı zəiflətmək istəyirsinizsə, yüz milyardlarla dollar və minlərlə vətəndaşınızın həyatı bahasına başa gələcək "zərbə endirmək" planlarından əl çəkin. Onlara göstərməliyik ki, hərbi müdaxilə boyda seysmik gücə malik zərbə İranın öz içindədir. Həmin gücü təlatümə gətirmək lazımdır.

Yəni Güney Azərbaycan faktorunu. Bu, ən müasir, ən sivil, ən insani yoldur. Millət ayağa qalxır xarici super güclərin dəstəyi ilə öz müqəddəratını həll edir. Yəni siz uzaq vuran raketlərlə işləyincə, Güney Azərbaycana dəstək verin, İranı bircə ilə dizi üstə çökdürsün! Birlikdə, ölüm-itimsiz, qansız-qadasız, topsuz-tüfəngsiz!

Azərbaycan ayrılıb, quzeylə birləşsə, İranın İsraili hədələməsinə, uran zənginləşdirməsinə taqəti qalacaqmı? Hər halda, özünə gəlmək üçün Rusiya kimi ona da on illərlə zaman lazım olacaq. Amma biz Amerika və İsrail siyasi və hərbi qüvvələrini bu istiqamətə yönəldəcək ixtiyara, gücə malikikmi? Siyasi kuluarlarda ali qüvvələri xeyrimizə işlədəcək lobbimiz, Amerika və İsrail dövlət orqanlarında sözümüzü deyəcək adamımız yox. Azərbaycan lobbisi və kapitalı isə hələ indi-indi yaranır. Qəzetlərin yazdıqlarına görə, təkcə elə Azərbaycanda 3500 milyonçumuz var. Yəqin ki, qeyri leqal milyarderləri saya bilsəydik, 15-20-yə çatardı sırası. Həmən kapital son 15-20 il ərzində yaranıb, yaranır. Buna şükür etməliyik. Bu cür sürətlə varlanmağımız düşmənin kürkünə birə salır. Amma indi gəlin görək, bu kapitaldan bircə manatı milli məsələlərdə yararlanmağımıza xərcləyirikmi? Necə deyərlər, "çölüm özgəni yandırır, içim özümü".

Bu mənada medianın çiyinlərinə ağır yük düşür. Nəinki hər iki Azərbaycan vətənpərvərlərinin, hətta bütün dünyanın nəzərini bizə yönəltmək yükü. Bilirsiz, 1990-cı illərdə birdən-birə "İkiyə bölünmüş Azərbaycan" mövzusu dünya mediasına yol açdı. Sanki möcüzə baş vermişdi. Vaxtilə Azərbaycanda tək-tük şairlərimizin "dərdi" olan bu mövzu Amerika və Avropa qəzetlərində işıqlandırılırdı. Lap gənclik illərindən bu məsələni düşünən bir adam kimi təəccübdə qalmışdım.

Sən demə, təəccüblü heç nə yoxdur. Çünki o zaman bu mövzu Azərbaycan dövlətinin rəsmi siyasətinə çevrilmişdi. Azərbaycanın o zaman ki, prezidenti mərhum Əbülfəz Elçibəy bütün dünyaya səs salmışdı: "Axı nə təhər olur ki, deyirdi o, İran hökuməti hesabatlarında ölkədə neçə milyon baş qoyunun olduğunu dəqiq rəqəmlərlə göstərə bilir, ancaq neçə milyon Azərbaycan türkünün sayını bilmir?". Bütün dünya İrana gülürdü.

Əbülfəz Elçibəy Bakını tərk edib gedəndən sonra parçalanma söhbəti həm Azərbaycan, həm dünya mediasında unuduldu. Yeddi ildən sonra o yenidən Bakıya qayıdıb bu problemə yeni nəfəs üfürmək istədi. Bütöv Azərbaycan Birliyini yaratdı. Amma ömür vəfa vermədi. Yadınıza gəlirmi, bir dəfə Bakıda keçirilən Diaspor qurultayında (ili yadımda deyil indi) prezident İlham Əliyev elan etdi: "Mən 50 milyonluq azərbaycanlıların prezidentiyəm!". Bilirsiniz, dünya azərbaycanlılarının ümid çırağı yandı, adamlar qaynaşırdı, hamının qəlbi qürur hissi ilə vurmağa başladı. Xüsusilə bütövləşmə közərində ömürlərini öləziməkdə olan şam kimi əridənlər lərzəyə gəlmişdilər. Nicat qapılarının Bakıdan açıldığı qərarını verənlər göylə uçurdular. İnanıram ki, yenə də nicat Müstəqil Quzey Azərbaycandan, Bakıdan enməlidir. Lakin bunun üçün Güney Azərbaycanlı doğmalar inadkarlıqla, cəsurluqla, qətiyyətlə və əsası, ardıcıllıqla öz müstəqilliklərini tələb etməlidirlər. O zaman gözlədiyimiz "Vahidlik Peyğəmbəri"nin də şimaldan da zühur edəcəyinə inam çoxdur. Bizə ilk növbədə hadisələri içindən qızışdırıb, xalqı mübarizə yoluna çıxaracaq bir ilkin Peyğəmbər lazımdır.

- Beynəlxalq münasibətlər sisteminin çətin olduğu XXI əsrdə, iri beynəlxalq birliklərin mövcud olduğu dönəmdə dediyimiz faktorlar millətimizin birləşməsi üçün əngəl yaratmayacaq ki?

- Yaradacaq, özü də çox böyük əngəl yaradacaq. Suala yuxarıda qismən cavab verdim. Ancaq ağrılı yerimizə toxundunuz.

1946-da Güney Azərbaycan Sovet sisteminin ən böyük arzusunu həyata keçirmişdi. Azərbaycan türkləri yeganə millət idi ki, Rusiyadan sonra kapitalist ölkələrindən birində inqilab edib, hakimiyyəti ələ almışdı. Bu, Kubadakı Fidel Kastro inqilabından 14 il qabaq bizdə baş vermişdi. Qalan ölkələrə sistem öz zəhərli toxumunu Qızıl ordunun işğalçı əlilə və az sonra II Dünya müharibəsindəki ümumi qələbənin hesabına səpmişdi. Axı o zaman Lenin-Stalin siyasəti "sosialist inqilabını ixrac edirdi". Lap əmtəə kimi. Ancaq Güney Azərbaycanda inqilab ixracsız millətin azadlıq ruhundan alovlanmışdı. Və hələ Dəli Pyotrun arzuladığı Rusiyanın Sakit Ümmana çıxış yolunun ən böyük addımını da atmışdı.

Qədim adı türkcə səslənən Kəngər (indiki Fars) körfəzinə çıxmaq üçün tarixi amac və şansına yaxın olduğu məqamda belə, bir tərəfdən milli mənafelər (Stalin və Mikoyanı nəzərdə tuturam), digər tərəfdən siyasi mənafelər (ABŞ-ı və İngiltərəni nəzərdə tuturam) Azərbaycan İnqilabını qan gölündə boğdular. Təzəcə doğulmuş körpəmizi belə canavar kimi didib-dağıtdılar super dövlətlər. Biz dörd dövlətin əlində olan ən müasir silahlarla qanımıza qəltan edildik. Fiziki və mənəvi soyqırımına məruz qaldıq. Hələ heç olmasa bu soyqırımını səsləndirməyə belə cıqqırımız çıxmır. Çünki bizi eşidəcək superlərin özü törədiblər onu.

Bu mənada arxalanmağa adamımız yox. Bizə arxa yalnız Prezident İlham Əliyevin dediyi "50 milyonluq" xalqdır. Bilirsiz bir vacib detalı da qeyd etməmək olmur. Bunu nəzərdən qaçırmamalıyıq. Görürsünüzmü, Amerika və Avropa dövlətləri bir hey İranı hədələyirlər. Lakin son məqamda qərar verən yoxdur. Burada süni yaradılmış "Hind-Avropa" kökənliyi də, yəni "ari"çilik qan qohumluğu da öz işini görür. Yəni son anda Avropa liderləri anlayırlar ki, "yuxarı tüpürsələr bığ, aşağı tüpürsələr saqqaldır".

Yəni uzaq-uzaq qohumluq telləri hər halda ürəkləri gizildədir. Hamımız insanıq. İrana həqiqətən zərbə vurmaq istəyən bir qüvvə var ki, o da Əhmədinejatın qaraqışqırıqlarla gah "Alaskaya köçürmək istədiyi", gah "Süpürgə ilə Yer üzündən süpürmək" istədiyi, hər çıxışında həm də "Holokostu" inkar ertməsi ilə yarasının qaysaqlarını sıydırdığı İsraildir. Sami mənşəli İsrail. Yəni öz "ari"çiliyini dünya "ari"çiliyinə qatmayan İsrail. Məhz onda dediyim "bığ-saqqal" məsələsi yoxdur. Bax buna görə də "Güney Azərbaycan faktoru"ilə işləmək lazımdır. Çünki İsrail 2500 il öncə I Daranın yəhudilərə etdiyi yaxşılığı unutmasa da, Əhəmdinejatın hədələrindən boğaza yığılıb.

Ancaq biz bu gücdən hər vasitə ilə istifadə etməliyik. Anlamalıyıq ki, itirilmiş torpaqlarımızın qaytarılmasının, Araz sahillərinə yenidən çıxmağımızın, Naxçıvanla quru yolları kol-kosdan təmizləməyimizin müqəddəs yolu Güney Azərbaycanın müstəqilliyi üstündən keçir. Çabalar bu səmtdə qardaşlaşmağa səy göstərdiyimiz İsraillə birgə aparılmalıdır.

Söhbətləşdi: Elnur Eltürk

“Ədalət” -2010 - 2 aprel - N.55.-S.6., N.60.-9 aprel.-S.7.

Ukraynanın Dnepropetrovsk şəhərində bu ölkədəki azərbaycanlı gənclərin forumu keçiriləcək

Aprelin 24-də Ukraynanın Dnepropetrovsk şəhərində bu ölkədəki azərbaycanlı gənclərin forumu keçiriləcək. Ukrayna Azərbaycanlıları Konqresinin sədri Akif Gülməmmədovun Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətinə verdiyi məlumata görə, forumun məqsədi Ukraynada yaşayan azərbaycanlı gəncləri bir araya gətirmək, onları diaspor işindəki fəallığını artıqmaq, Ukraynadakı Azərbaycanlı Gənclərin Qurultayına hazıqlaşmaq və digər məsələləri müzakirə etməkdir.

Foruma Ukraynanın bütün bölgələrini təmsil edən gənclər təşkilatlarının nümayəndələri qatılacaqlar. Toplantıda bu ölkədəki azərbaycanlı gənclərin fəaliyyətinə dair konsepsiya qəbul olunacaq, əlaqələndirmə şurası yaradılacaq. Şura Ukraynadakı gənclərimizin qurultayının vaxtını müəyyən edəcək və bu tədbirin təşkili ilə məşğul olacaq. Ölkənin hər regionundan bir gənc qurultaya nümayəndə seçiləcək. Qurultayda isə Ukrayna Azərbaycanlıları Konqresinin nəzdində Ukrayna Azərbaycanlı Gənclər Təşkilatı yaradılacaq, eyni zamanda Dünya Azərbaycanlı Gənclərinin Forumuna nümayəndələr seçiləcək.

Akif Gülməmmədov deyib ki, forumun məhz aprelin 24-nə-ermənilərin bütün dünyada qondarma "erməni soyqırımı"nı qeyd etdikləri günə salınması təsadüfi deyil. Tədbirdə uydurma erməni soyqırımını pisləyən və bu tarixin dünyada rəsmiləşdirilməsinin, qəbul etdirilməsinin əleyhinə çıxan bəyanat qəbul olunacaq.

12 aprel 2010

Ermənilərin həyata keçirdiyi soyqırım və deportasiya siyasətini...

İsmayıl Ağayev: "Dünyaya çatdırmalıyıq"

"Hər il 31 mart-Azərbaycanlıların Soyqırım Günü və Xocalı soyqırımı ərəfəsində Avropanın hansısa ölkəsi və ya şəhərində aksiya keçirib həmin hadisələrə etiraz etməklə bu soyqırımları tanıda bilmirik.

"Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri deportasiya və soyqırımları dünya ictimaiyyətinə çatdırmaq məqsədilə intensiv və koordinasiya edilmiş şəkildə fəaliyyət göstərməliyik. Belə bir açıqlama ilə çıxış edən Beynəlxalq Diaspora Mərkəzinin sədri İsmayıl Ağayev bu məqsədlə rəhbərlik etdiyi qurumun həyata keçirdiyi tədbirlər və gördüyü işlər barədə məlumat verib. İl ərzində dünyanın bir sıra ölkələrində bu istiqamətdə silsilə tədbirlərin keçiriləcəyini deyən İsmayıl Ağayev bu məsələdə geniş təbliğat imkanlarından istifadə etməyi də zəruri sayır. BDM sədri hesab edir ki, aparılan işin daha effektli nəticələr verməsi üçün bu istiqamətdə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarına həm maddi, həm də mənəvi dəstək verilməlidir. İsmayıl Ağayevin sözlərinə görə, yalnız bu halda Azərbaycanın apardığı iş öz müsbət nəticəsini verər, ermənilərin zaman-zaman azərbaycanlılara qarşı həyata keçirdikləri deportasiya və soyqırımlar barədə dünya ictimaiyyətini məlumatlandıra, soyqırımları dünya ölkələrində tanıda bilərik.

- İsmayıl müəllim, ermənilərin zaman-zaman Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırım və deportasiya siyasətinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Beynəlxalq Diaspora Mərkəzi olaraq hansı addımlar atırsınız?

- Ermənilərin zaman-zaman Azərbaycan xalqına qarşı həyata keçirdikləri deportasiya və soyqırım siyasətinin dünya ictimaiyyətinə çatdırılması Beynəlxalq Diaspora Mərkəzi olaraq bizim ana xəttimizdir. Diaspora Mərkəzi olaraq bu bizim yaralı yerimizdir. Ermənilərin deportasiya və soyqırım siyasətinə məruz qalmış insanların ərizələri məhz ilk dəfə olaraq Beynəlxalq Diaspora Mərkəzi tərəfindən fransız dilinə tərcümə edilərək Avropa İnsan Hüquqları Məhkəməsinə göndərildi. Lakin bu prosesi davam etdirmək istiqamətində bir sıra problemlərlə üzləşdik. Çünki bizim diaspora və qeyri-hökumət təşkilatlarımız bir işə başlasalar da, həmin işin davamlı şəkildə həyata keçirilməsinə nail ola bilmirlər. Yaxud bu istiqamətdə birgə, komanda şəklində mübarizə aparmağı bacarmırlar. Ona görə də Azərbaycan tərəfi olaraq hələ də zaman-zaman üzləşdiyimiz deportasiya və soyqırımlar, eləcə də Xocalı soyqırımı barədə əsl həqiqətləri dünyaya tam mənada çatdıra bilməmişik.

Hər il 31 mart-Azərbaycanlıların Soyqırım Günü və Xocalı soyqırımı ərəfəsində Avropanın hansısa ölkəsi və ya şəhərində aksiya keçirib həmin hadisələrə etiraz etməklə bu soyqırımları tanıda bilmirik. Hesab edirəm ki, bu işin mahiyyətini ümumilikdə kökündən dəyişməliyik. İnsanların çoxu başa düşmür ki, söhbət nədən gedir. Biz bu tədbirləri həmin ölkələrin ali təhsil ocaqları, parlamentləri və televiziyaları vasitəsilə dünyaya çatdırmalıyıq. Yalnız o halda biz başımıza gətirilən müsibətlər, deportasiya və soyqırımları dünya ictimaiyyətinə çatdıra biləcəyik. Onu da qeyd edim ki, bu il Beynəlxalq Diaspora Mərkəzi olaraq Belarus, Polşa və Çexiyanın bir neçə ali təhsil ocağında Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət" kampaniyası çərçivəsində millət vəkilləri ilə birlikdə tədbirlər təşkil etdik. Çexiyanın Masariq Universitetində tələbə və müəllim heyəti qarşısında Xocalı soyqırımı ilə bağlı film nümayiş etdirildi. Həmin film əvvəlcədən çex dilinə tərcümə edilmişdi.

Film nəticəsində universitetin tələbələrində Xocalı soyqırımı barədə məlumat oldu və ali təhsil ocağının müəllim və tələbə heyəti Xocalıdakı vəhşiliklər barədə məlumatlandırıldı. Onlar "Azadlıq" radiosuna müsahibə verərkən bildirdilər ki, Xocalıda ermənilər azərbaycanlılara qarşı əsl soyqırım həyata keçiriblər. Tam əminliklə deyə bilərəm ki, artıq Çexiyanın bir neçə ali təhsil ocağında buna nail olmuşuq və ermənilərin iç üzünü açmışıq. Mərkəz olaraq bu istiqamətdə tədbirlərimizi davam etdiririk. Beynəlxalq Diaspora Mərkəzi aprel ayını qondarma "erməni soyqırımı"nı boykot ayı elan edib və ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən diaspora təşkilatlarına məktub göndərmişik ki, bu istiqamətdə birgə mübarizə aparsınlar. Biz ilk növbədə fəaliyyətimizi koordinasiya etməli, mübarizəmizi intensivləşdirməliyik. Bunun üçün ali təhsil ocaqları ilə iş aparılmalı, universitetlərin müəllim-tələbə heyəti ilə iş qurulmalı, çoxlu sayda kitablar, bukletlər çap edilməlidir. Məhz bu halda bir neçə ildən sonra ayrı-ayrı ölkələrin parlamentləri və ali təhsil ocaqlarında bizim sözümüzü deyən tapılacaq. Əgər işimizi bu cür qurmasaq onda öz dediyimizi elə özümüz də eşidəcəyik. Həmin mübarizəni aparan insanlara də hörmətlə yanaşılmalı, onlara həm maddi, həm də mənəvi dəstək verilməlidir. Əksinə o təşkilatların ayağından çəkilməməli, onlara şər-böhtan atılmamalıdır.

- Beynəlxalq Diaspora Mərkəzi olaraq dövlətin bu sahədə həyata keçirdiyi tədbirlər və gördüyü işlər sizi qane edirmi?

- Azərbaycan dövlətinin bu sahədə çox gözəl bir proqramı var. Azərbaycan dövlətinin başında duran möhtərəm prezidentimiz İlham Əliyev cənabları bu istiqamətdə ardıcıl şəkildə iş aparır və öz mövqeyini açıq-aydın ortaya qoyub.

Bizdən asılı olan isə odur ki, qeyri-hökumət təşkilatları olaraq bu işləri həyata keçirməyi bacaraq. Bu istiqamətdə BDM olaraq Diasporla İş üzrə Dövlət Komitəsi ilə əlaqələrimizi düzgün istiqamətdə qurur, Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə yaxından əməkdaşlıq edirik. Bu gün məsələyə o prizmadan yanaşmaq düzgün olmaz ki, kifayət qədər maddi imkanı olan hansısa məmur millətini, dövlətini məndən çox sevir. Mənim ürəyimdə olan vətən, torpaq sevgisi bəlkə də onlarda olan sevgidən on dəfə çoxdur. Ona görə ki, mənim baba və nənələrimin, yaxınlarımın qəbri hələ də erməni girovluğundadır. Mənim erməni daşnaqlarına nifrətim, deportasiya və soyqırım məsələlərinə münasibətim onların münasibətindən qat-qat artıqdır. Çünki onlar ev, torpaq, vətən itgisi nə olduğunu bilmirlər.

- Deportasiyaya məruz qalmış azərbaycanlılarla bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə göndərilmiş ərizələrə baxılma proseduru hansı səviyyədədir?

- Deportasiyaya məruz qalmış 40-a yaxın azərbaycanlının ərizələri fransız dilinə tərcümə edilərək ilkin baxışa çıxarılıb. Artıq Avropa İnsan Hüquqları Məhkəməsindən bizə cavab gəlib və ərizələrin qəbul edildiyi bildirilib. Ancaq təəssüf hissi ilə qeyd edirəm ki, maddi imkansızlıq bizə bu məsələnin axırına çıxmağa əngəl oldu. Buna baxmayaraq biz şəxsi imkanlarımız və Beynəlxalq Diaspora Mərkəzinin imkanları hesabına bu işləri davam etdiririk. Əgər bu gün bizə dövlət tərəfindən ciddi dəstək olsa biz daha böyük işlər görə bilərik. Biz hər bir sahədə ermənilərdən güclüyük və öz sözümüzü deyə bilərik. Sadəcə bu istiqamətdə çalışan insanlara, ayrı-ayrı təşkilatlara sahib çıxmaq lazımdır. Bəzən elə məsələlər olur ki, onu dövlət qurumu olaraq Diasporla İş üzrə Dövlət Komitəsi açıq şəkildə deyə bilmir. Həmin anda bizim gücümüzdən istifadə etmək lazımdır. Hesab edirəm ki, bu məsələlər tənzimlənməlidir.

- Haqlı olaraq qeyd edirsiniz ki, istər 31 mart-Azərbaycanlıların Soyqırım Günü, istərsə də Xocalı soyqırımı ilə bağlı il boyu tədbirlər keçirmək lazımdır. Beynəlxalq Diaspora Mərkəzi olaraq bu ilin sonuna qədər bu istiqamətdə hansı tədbirlər keçirməyi nəzərdə tutmusunuz?

- Hazırda Beynəlxalq Diaspora Mərkəzinin ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən nümayəndəliklərinin rəhbərləri Azərbaycana dəvət edilib. Həmin nümayəndəliklərin rəhbərləri bizim tərəfimizdən təlimatlandırılır və bir neçə gündən sonra onlar öz ölkələrinə qayıdacaqlar. Mərkəzin xarici ölkələrdə fəaliyyət göstərən nümayəndəliklərinin rəhbərlərinə həmin ölkələrin ali təhsil ocaqlarında deportasiya və erməni soyqırımı ilə bağlı silsilə tədbirlər keçirmək tapşırılıb. Həmin tədbirlər zamanı iştirakçılara Xocalı soyqırımı ilə bağlı çap edilmiş materiallar, kitab və bukletlər paylanır. Bu məqsədlə Heydər Əliyev Fondu tərəfindən hazırlanmış disklər və bukletlər əldə etmişik. Bununla kifayətlənməyərək həmin buklet və disklərin sayını artırmışıq və öz vəsaitimiz hesabına onların üzünü çıxarmışıq. Çap materialları, əyani vəsaitlərlə təminat məsələsində bizə Milli Təhlükəsizlik Nazirliyi, Əsir və İtgin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla İş üzrə Dövlət Komissiyası, Xarici İşlər Nazirliyi, eləcə də Mədəniyyət və Turizm Nazirliyi istənilən dəstəyi verir. Həmçinin Heydər Əliyev Fondu ilə yaxından əməkdaşlıq edirik. Ona görə də Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya, millət vəkili Qənirə Paşayevaya öz təşəkkürümü bildirirəm.

- Azərbaycanlıların deportasiya və soyqırımı ilə bağlı tədbirlərin konkret hansı ölkələrdə keçirilməsi nəzərdə tutulub?

- Beynəlxalq Diaspora Mərkəzi olaraq yaxın vaxtlarda azərbaycanlıların deportasiyası və soyqırımı ilə bağlı Çexiyada və Türkiyədə tədbirlər keçirməyi planlaşdırmışıq. Ən geniş tədbirimiz Türkiyənin İstanbul şəhərində keçiriləcək. Həmin tədbirə Azərbaycanlıların Dayanışma Dərnəyi və Türkiyədə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları və cəmiyyətlər də öz dəstəyini verəcək. Keçən il oxşar tədbiri Türkiyənin İqdır vilayətində, Əlican keçid məntəqəsi yaxınlığında keçirmişdik. Aprelin 15-dən 20-ə qədər olan müddətdə isə analoji tədbirin Çexiyada keçirilməsi nəzərdə tutulub.

Süleyman
"Olaylar" – 2010 - 13 aprel -N.54.-S.4.

Diaspor + Lobbiçilik

www.bulentgurcam.az gurcam.b@hotmail.com bulentgurcam@skynet.be

Bir müddətdən bəri internet yazışmalarında xaricdə yaşayan azərbaycanlılar və Türk diasporunun fəaliyyət göstərdikləri ölkələrdə fəaliyyətsizlik və ya zəif hərəkətlərindən söhbət gedir. Hər bir həmvətənlimiz öz fikrini istədiyi kimi ifadə edir. Bu şərhləri edənlərin içində tanınan insanlar da var və əgər diqqət edilərsə, hamı bir-birini suçlayır. Hansısa ölkənin parlamenti sözdə erməni soyqırımını qəbul edibsə, suç söhbətsiz orada yaşayan Türk və ya Azəri Türklərinin üzərinə atılır.

Biz buna elə şərtləndirilmişik ki, suç və suçlu sabitdir, gerisi önəmli deyil.

Qısa bir müddətdir izləyirəm. Hamının bir şeylər demək haqqı qədər, özümün də deməyə haqqım olduğunu düşünərək bu sabah keçdim kompüterin önünə. Öncə xəbərlərə baxdım. Bir misal da çəkim ki, "bəd xəbər tez duyulur". Və bu səhər mən də İsveçin erməni soyqırımını qəbul etməsi xəbərini oxudum. Amma diqqət də etsəniz hər parlamentdə 1 səs çoxluğu ilə olur bu hadisə. Maraqlıdır, niyə?

Mən 30 illik qürbət həyatımda çox hadisələr yaşamışam, çox hadisələrin şahidi olmuşam. Diaspor sözünü birə-bir yaşamışam, lobbiçilik deyilən sözün tam içində olmuşam və dolayısı ilə bu təcrübələrimi indiyə kimi yayımlanan yazılarımda öz xalqımla paylaşmışam. Geriyə dönüb yazdıqlarıma baxarkən, bu günü əslində biz illər öncələr yaşayacağımızı bilirdik və onun siqnallarını vermişdik.

Səsim çıxdığı qədər bağırmışam, imkan olanda bir-iki iclasda göz-gözə baxıb da dediyim günləri xatırlayıram. Məsələn, illər öncə Diaspor Komitəmizin Hollandiyada düzənlədiyi bir iclasda mənə söz veriləndə çıxıb Komitə sədrimizin də gözlərinin içinə baxa-baxa bunları dediyimi xatırlayıram və Komitə sədri məndən sonra söz alıb dediklərimin doğru olduğunu və Komitənin hələ gənc olduğunu, lakin irəlidə bunları diqqətə alacaqlarını dediyini də xatırlayıram.

Sözümü heç bir gün əsirgəmədim. Nə düşündüyümü yazılarımda çox açıqca yazdım, bu gün də elə edirəm. Amma deyəcəksiniz nə dəyişdi ? Heç nə ! Əksinə hər şey tərsinə getdi. Mən yazdıqca birilərinin gözündən düşdüm, danışdıqca istənilməyən adam oldum. Çox ciddi tədbirlər hazırladıq, beynəlxalq aləmdə sözü keçən qurumların içində lobbiçilik etdik, amma özümüzünküləri başa sala bilmədik.

Dünyanın BMT-dən sonra ikinci təşkilatı sayılan Dünya Gömrük Təşkilatının (197 ölkə üzvdür bu quruma) önünə "Dədə Qorqud" heykəli qoyduq, xaricdə yaşayan azərbaycanlılar komitəsinin işçiləri gəlib görəndə (başda İlham Məmmədov) buraya bu heykəli niyə qoyduğumuzu soruşdular. Bu gün dünyanın dörd bir yanında Azərbaycan diasporunun işi düzgün getmirsə, mənə görə onun sorumlusu var : Diasporla İş Üzrə Dövlət Komitəsi! Beli, bunu açıqca deyirəm və bunu hər platformada sübut etməyə hazıram. Açın baxın illər öncə yazdığım yazılara, bunu hər zaman dedim, çünki iş düz getmirsə, siz ordan düzgün nəticə gözləyə bilməzsiniz.

Mən fikrimi açıqca yenə bəyan etməyi uyğun görürəm. Bizimlə bağlı iş görülməsi, bizi məlumatlandırması, bizi təşkilatlandırması, informasiya və məlumat verməsi, fikir ürətməsi üçün qurulmuş bu qurumun içində hələ bu sadaladıqlarımdan bixəbər insanlar iş başındadır. Yenə burda açıqca etiraf edirəm ki, Komitə sədrinə qarşı bir ittihamım yoxdur. Özünə sayğım və hörmətim böyükdür, gözəl işlər görmək istədiyinə də inancım çoxdur. Amma onun ətrafında olan və min bir oyun oynayan şöbə müdirləri və ya bölgə sorumluları- hər kəs öz aləmində və Komitə sədrinə yanlış informasiya verməklə məşğuldurlar. Bunu ən yaxşı bilənlərdən biri olaraq deyirəm və burada Brüsseldən bunu isbat etməyə hazıram.

Siz diaspor işini, diaspordan anlamayan birilərinə tapşırırsanız, ancaq bu qədər yol gedə bilərsiniz. Baxın, bir xırda təşkilat olaraq bir qəzet ("Euro Xəbər", 2004-cü ildən). bir turizm və ölkəmizi tanıdan 5 dildə yayımlanan və pulsuz paylanan jurnal (I am in Baku), fransız dilində "Azərbaycan Milli Mətbəxi" kitabı xaricdə satışa çıxarılmış və birinci basqısı bitmişdir. Yenə də fransız dilində ilk dəfə Qarabağ həqiqətlərini avropalılara anladan kitab "Əsir Torpaq Qarabağ" hal-hazırda satışdadır, bu yaxınlarda işıq üzü görəcək "Azərbaycan Folkloru" (fransız dilində) bundan əlavə CD-lər və sair.

Biz bunlarla məşğulkən, çətin imkanlarımızla bu işləri görərkən biriləri Antalyada, İzmirdə, Frankfurtda və Hollandiyada 5 ulduzlu otellərdə yeyib-içib, musiqi dinləməklə məşğul olublar. Baxın bu günki vəziyyətin sorumluları ələ bunlardır. Uşaqkən bizə "Qarışqa ilə Çəyirtkə"nin nağılını danışardı böyüklərimiz. O zaman o qədər də anlamazdıq söhbətin nədən getdiyini, insanın başına gələndə o günlərin qiyməti daha çox anlayır. Bəli, qarışqa ilə çəyirtkənin hekayəsi! Anlayan anladı! Burda bir məsələ çox aydın olmalıdır. Xaricdə görüləcək işlər ancaq və ancaq xaricdə yaşayan insanlarımızın fikirləri ətrafında cərəyan etməlidir. İndiyə qədər bir çox böyük tədbir oldu. Dəvət edildiklərimdə bir ay öncədən çıxış istədiyimi anlatdım və çıxış mətnimi yazılı olaraq komitəyə çatdırdım, amma heç biri qəbul olunmadı, daha doğrusu qorxuldu. Bəli, tamamilə düz dedim, qorxuldu və bu qorxu sözü də mənə bir gün deyildi özləri tərəfindən. Biz səndən qorxuruq, çünki sən deyirsən !

Bəli, deyirəm, deyəcəm, hətta bir gün ölkə başçısına da demək imkanı tapsam inanın deyəcəm. Çünki bu gün uğradığımız bu hazimətin səbəbi budur. O gün məndən qorxduqlarını deyən şəxslər daha soma isə Frankfurtda mənim onlara düşmən olduğumu demək cürətində bulundular bu İlham Məmmədov və onun kimilər.

Baxın, biz Brüsseldəyik, İsveçdəyik, Amerikadayıq, Almaniyadayıq...və gördüyümüz ya da görəcəyimiz, görməyi planladığımız işləri çox yaxşı bilirik, ancaq buna maddi və mənəvi kömək lazımdır. Dünya bunu belə edir, heç kəs çıxıb deməsin ki, bizə heç nə lazım deyil! Bizə hər şey lazımdır, ölkə-mizin haqq səsini müdafiə etməyə qalxmışıq, ölkə başçımız da bunu bizdən tələb edərək "Hücuma keçməyimizi" istəyib. Bizə ölkəmizin dəstəyi lazımdır və biz işimizi bilirik, bizi parçalamaq istəyən, işlərə əngəl yaratmaq istəyən, öz şəxsi mənfəətləri üçün iş görənlər bizə lazım deyil, bir yetərik zatən ! Biz Brüsseldə hazırıq işləməyə !

“EURO Xəbər” - 2010 - 31 mart - 14 aprel.-N.6.-S.3.

Bakıda keçirilmiş qılıncoynatma üzrə kadetlər və gənclər arasında dünya çempionatının yekunları ilə bağlı mətbuat konfransı keçirilib

Aprelin 11-də "Trend" mətbuat mərkəzində Bakıda keçirilmiş qılıncoynatma üzrə kadetlər və gənclər arasında dünya çempionatının yekunları ilə bağlı mətbuat konfransı keçirilib. Tədbirdə Beynəlxalq Qılıncoynatma Federasiyasının (FİE) baş katibi Maksim Poromonov, Avropa Qılıncoynatma Konfederasiyasının prezidenti Frantişok Yanda və Azərbaycan Qılıncoynatma Federasiyasının (AQF) baş katibi Ramin Məmmədov, iştirak ediblər. FİE-nin baş katibi Azərbaycanın yalnız idman nailiyyətləri ilə deyil, həm də mötəbər yarışların təşkili sahəsindəki uğurları ilə də tanındığını vurğlayıb. O, AQF-nin prezidenti Nazim İbrahimova çempionatın yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirib, 87 ölkədən 1565 idmançının qatıldığı yarışda heç bir problemin yaşanmadığını diqqətə çatdırıb. Bütün bunların nəticəsidir ki, bir çox beynəlxalq idman qurumları dünya miqyaslı yarışların Azərbaycanda təşkilinə tərəddüd etmədən razılıq verirlər.

Bunun Azərbaycanın etibarlı tərəfdaş kimi qəbul edilməsinin göstəricisi olduğu bildirilib. Avropa Qılıncoynatma Konfederasiyasının prezidenti F.Yanda isə Azərbaycanın 2012-cil ildə qılıncoynatma üzrə böyüklər arasında Avropa çempionatının Bakıda keçirilməsinə ən iddialı ölkələrdən biri olduğunu deyib. O, yenicə başa çatmış dünya çempionatının yüksək səviyyədə təşkil olunduğunu və digər mötəbər tədbirlərin Azərbaycanda keçirilməsi üçün geniş imkanların mövcudluğunu bildirib. Azərbaycan qılıncoynatma federasiyasının baş katibi Ramin Məmmədov deyib ki, Dünya çempionatının Azərbaycanda keçirilməsinin əsas məqsədi qılıncoynatma idman növünün ölkədə və regionda geniş yayılmasına nail olmaqdır.

O, dövlətin dəstəyi və ölkədə qılıncoynatmaya qarşı marağın yüksəlməsi sayəsində, Azərbaycanda yaxşı idmançıların yetişəcəyinə ümid bəslədiyini deyib. Mətbuat konfransında Azərbaycanda qılıncoynatma idman növünün çox qədim tarixə malik olduğu, növbəti yarışlarda qılıncoynadanlarımızın böyük uğurlar əldə edəcəyinə əminlik vurğulanıb və azərbaycanlı ikiqat Olimpiya çempionu İlqar Məmmədovun qılıncoynatma tarixində qazandığı nailiyyətlərdən söz açılıb.

11 aprel 2010

N.Nərimanovun 140 illik yubileyi Rusiya Federasiyasında və Gürcüstanda qeyd edilir

Nəriman Nərimanovun ev-muzeyindən AzərTAc-a bildirmişlər ki, görkəmli ictimai-siyasi xadim, yazıçı-publisist N.Nərimanovun 140 illik yubileyi Rusiya Federasiyasında və Gürcüstanda qeyd edilir. Aprelin 6-da Rusiyanın Həştərxan şəhərində böyük ədib və ictimai-siyasi xadim Nəriman Nərimanovun yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.

Tanınmış mütəffəkirin yubileyi onun doğulduğu Gürcüstanda da qeyd olunacaqdır. Aprelin 14-də Kvemo Kartli-Borçalı bölgəsinin Marneuli şəhərində, N.Nərimanovun adını daşıyan küçədə yazıçı-publisistin abidəsi önünə gül dəstələri qoyulacaq və xatirəsini anma mərasimi keçiriləcək. Həmçinin, Azərbaycanlıların Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə M.F.Axundovun Tbilisidəki ev-muzeyində N.Nərimanovun xatirəsi yad ediləcək.

13 aprel 2010

Almaniyanın Maynts şəhərində SWR televiziyasının binasının önündə bu ölkənin ARD telekanalında "Aghet" adlı filmin yayımlanmasına etiraz məqsədi ilə mitinq keçirilib

Aprelin 13-də Almaniyanın Maynts şəhərində SWR televiziyasının binasının önündə bu ölkənin ARD telekanalında "Aghet" adlı filmin yayımlanmasına etiraz məqsədilə mitinq keçirilib. Qeyd edək ki, qondarma "erməni soyqırımı"na həsr olunan bu filmdə ermənilərin bütün dünyaya söylədikləri yalan və uydurmaların gerçək olduğu göstərilir. 2009-2010-cu illərdə çəkilmiş 90 dəqiqəlik film bu günlərdə Berlindəki "Vavilon" kinoteatrında da nümayiş etdirilib. Bu filmi daha geniş auditoriyaya göstərən teleşirkətin binası qarşısında keçirilən etiraz aksiyasında Almaniyadakı Türk və Azərbaycan diasporunun rəhbərləri, fəalları iştirak ediblər.

Türk diasporu adından "Rheinland-Pfalz Türk Toplumu"nun başkanı Neset Hizir SWR televiziyasının təmsilçisi Dr.Simone Sanftenbergə etiraz məktubu təqdim edib. Avropa Azərbaycanlıları Konqresinin prezidenti Başar Kömür isə Azərbaycan diasporu adından hazırlanmış etiraz məktubunu ARD və NDR televiziyalarının rəhbərliyinə çatdırmaq üçün xanım Sanftenbergə verib. Mitinqdən sonra keçirilmiş mətbuat konfransında Almaniyadakı Türk və Azərbaycan icmaları adından çıxış edən Neset Hizir hər iki xalqın "Aghet" filminin bu ölkənin tanınmış telekanalında nümayişini etirazla qarşıladığını bildirib. O deyib: "Alman xalqına yalan danışmaqla tarix yazılmaz, tarixi tarixçilər yazmalıdır. Bu problemi siyasətçilər həll edə bilməz. Xocalı soyqırımını və Qarabağ müharibəsi zamanı Azərbaycan xalqının başına gətirələn digər müsibət və qətliamları görməyənlər 95 il öncəyə aid yalanı necə görürlər?! "Aghet" filmini çəkənlər və göstərənlər xalqlar arasındakı sülhə dəstək vermirlər. Biz soyqırım törətməmişik, soyqırımı tarix boyu ermənilər dəfələrlə Azərbaycan və türk xalqlarına qarşı həyata keçiriblər. Dünya buna göz yummamalıdır". Sitat Neset Hizirdandır. Aksiyanın sonunda televiziya binasının qarşısına üzərinə "AGHET" ƏN BÖYÜK YALAN sözləri yazılmış qara çələng qoyulub.

Həmin gün Kölndə də bu filmin nümayişinə etiraz məqsədilə şəhərin mərkəzində yerləşən WDR telekanalının binası qarşısında aksiya keçirilib. Kölndəki mitinqi Dysburq şəhərindəki türk icmasının rəhbəri Dr.Əli Söyləməzoğlu, Vahid Azərbaycan Cəmiyyətinin rəhbəri Elxan Kərimov, eləcə də Yunus Əmrə Cəmiyyəti, Türk Qardaşlıq Cəmiyyəti təşkil edib. Aksiyada erməni yalanlarını təbliğ edən filmin nümayişini pisləyən bəyanatlar səslənib.

13 aprel 2010

“Kaşqar ekspediyası: mavi qızılın izi ilə” adlı verilişdə
Azərbaycandan geniş bəhs edilmişdir

AzərTAc xəbər verir ki, Avropanın bir çox ölkələrində yayımlanan ARTE televiziya kanalının fransız versiyasında aprelin 14-də getmiş “Kaşqar ekspediyası: mavi qızılın izi ilə” adlı verilişdə Azərbaycandan geniş bəhs edilmişdir. Bir sıra ölkələrə səfərə çıxmış üç fransız jurnalistinin Cənubi Qafqaz bölgəsi ilə tanışlıq üçün ilk olaraq Azərbaycanı seçməsinin heç də təsadüfü olmadığı, ölkəmizin bir tərəfdən qədim ipək yolunun üzərində yerləşməsinin, digər tərəfdən Qərblə Şərq arasında körpü rolu oynamsının, yeraltı sərvətlərlə zənginliyinin, öz mühüm enerji daşıyıcıları ilə Avropanın enerji təhlükəsizliyinin aradan qaldırılmasında mühüm rolunun və nəhayət bu bölgədə lider dövlətə çevrilməsinin onlarda böyük maraq oyatdığı göstərilir.

Azərbaycan xalqının qonaqpərvərliyi, səmimiliyi və ürəkaçıqlığı haqqında fransız tamaşaçılarını məlumatlandıran veriliş müəllifləri bu ölkənin paytaxtı Bakı şəhərinin Avropanın inkişaf etmiş dövlətlərinin paytaxtlarından heç də geri qalmadığını, Şərq və Qərb mədniyyətlərini özündə əks etdirən bu şəhərin hətta bəzi məsələlərdə onları qabaqladığı, şəhərdə gedən tikinti, abadlıq və bərpa işlərinin, möhtəşəm yeni layihələrin həyata keçirilməsinin Azərbaycan iqtisadiyyatının sürətli inkişafından xəbər verdiyi xüsusi vurğulanmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunulmuş, Ermənistanın apardığı işğalçılıq siyasəti nəticəsində ölkəmizin ərazisinin 20 faizinin zəbt edilməsi, bir milyondan artıq qaçqın və məcburi köçkünün öz doğma yurdlarından didərgin düşməsi verilişdə öz əksini tapmışdır. Fransız jurnalistləri Azərbaycanın qədim və zəngin mədəni irsə malik olduğunu xatırlatmış, Atəşgah, Qız Qalası, Şirvanşahlar sarayı və digər abidələr barədə söhbət açmış, Bakının qədimliyindən xəbər verən İçərişəhərə heyran qaldıqlarını etiraf etmiş, bu tarixi kompleksin dövlət tərəfindən qorunduğunu qeyd etmişlər.

Verilişin müəllifləri Azərbaycanın iqtisadiyyatı, xüsusilə neft və qazla zəngin olması barədə fransız tamaşaçılarına ətraflı məlumat vermiş, ölkənin iqtisadi yüksəlişində bu sərvətlərin mühüm rol oynadığını bildirmişlər. Xəzər dənizinin sahilində yerləşən Bakının füsunkar gözəlliyinə, onun xüsusilə dənizdən möhtəşəm gornüçünə heyranlıqlarını gizlətməyən müəlliflər azərbaycanlıların adət və ənələri ilə avropalılardan fərqlənsələr də, geyim mədəniyyətinə, intellektual səviyyələrinə və dünyagörüşlərinə görə onlardan heç də fərqlənmədiklərini qeyd etmişlər. Səfərlərini Bakı-Tblisi-Ceyhan neft kəmərinin keçdiyi yerlərlə davam etdirmiş jurnalistlər Gurcüstanda olmuş, bu ölkənin geosiyasi vəziyyəti haqqında məlumat vermişlər. Bir gürcü ailəsinin qonağı olmuş fransızlar BTC-dən söhbət salarkən fransızca sərbəst danışan ev sahibəsi bu neft kəmərinin Gürcüstan üçün xüsusi əhəmiyyəti olduğunu, əhalinin sosial vəziyyətinin yaxşılaşmasında mühüm rolunu qeyd etmiş, coğrafi şəraitə görə qonşu olan azərbaycanlılarla gürcülər arsında qədim dostluqdan söhbət açmışdır.

Müəlliflər Gürcüstandan sonra öz səfərlərini Türkiyədə davam etdirmiş, qardaş ölkə, onun iqtisadiyyatının müxtəlif sahələri barədə fransız tamaşaçılarına məlumat vermişlər. Veriliş Azərbaycan haqqında fransızlarda müəyyən təsəvvür yaratmaq və ölkəmiz barədə məlumatlarını zənginləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

16 aprel 2010

Lobbiçilik və diaspor işində keyfiyyətcə yeni mərhələ

Diaspor təşkilatlarının fəaliyyəti Prezident İlham Əliyevin diqqət mərkəzindədir

Dünya azərbaycanlılarının lobbiçilik və diasporunun yaradılması istiqamətində ümummilli liderimiz Heydər Əliyevin əvəzsiz xidmətləri bizim hamımız üçün bir məktəb və örnəkdir. Dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımız arasında əlaqələrin genişlənməsi və intensivləşməsi, Avropa ölkələrində Azərbaycan diasporunun və lobbisinin fəaliyyətinin gücləndirilməsi bu gün xüsusilə vacibdir.

Dünyada yaşayan hər bir azərbaycanlı üçün müstəqil Azərbaycan Respublikası vardır və o, bütün azərbaycanlıların Vətənidir-hamı bu Vətən uğrunda çalışmalıdır-fikrini uzaqgörənliklə söyləmiş ümummilli liderimiz Heydər Əliyevin bu istiqamətdə Avropa dövlətlərində və dünyanın digər ölkələrində soydaşlarımızla görüşləri çox əhəmiyyətli olmuşdur. Bu tövsiyələr soydaşlarımız arasında əsl vətənpərvərlik devizinə çevrilmişdir.

Dünya azərbaycanlılarının birliyi və həmrəyliyinin əsasını, azərbaycançılıq və Azərbaycan dövlətçilik ideyaları təşkil edir. Azərbaycançılıq ideyası, hər şeydən əvvəl, xalqımızın milli mənlik şüurunun, milli-mənəvi dəyərlərinin, dilinin, mədəniyyətinin, əsrlərin sınağından çıxmış adət-ənənələrinin yaşadılmasını, bu ideya əsasında bütün azərbaycanlıların tarixi Vətənlə və öz aralarında birliyinin yaradılmasını nəzərdə tutur. Eyni zamanda müstəqil Azərbaycan dövləti dünya azərbaycanlılarının həmrəyliyinin güclü faktoru, onların təşkilatlanması, beynəlxalq aləmdə nüfuzlu bir qüvvə kimi çıxış etməsi üçün etibarlı dayaq nöqtəsidir. Azərbaycan dövləti dünya azərbaycanlılarının hüquqlarının, qanuni maraq və mənafelərinin müdafiəçisi kimi çıxış edir. Azərbaycan dövləti xalqımızın tarixən dünya mədəniyyətinə verdiyi zəngin maddi, mənəvi-əxlaqi, intellektual sərvətlərinin müdafiəçisi və sahibidir.

Dünya azərbaycanlılarının ən mühüm, müqəddəs vəzifələrindən biri Azərbaycan xalqının tarixi nailiyyəti, bütün dünya azərbaycanlılarının mənəvi-siyasi iradəsinin nəticəsi olan müstəqil dövlətçiliyi qoruyub saxlamaqdan, milli dövləti-mizin beynəlxalq birlikdə özünəməxsus yer tutmasına nail olmaqdan ibarətdir.

Müstəqil Azərbaycan dövlətinin mövcudluğu, onun demokratik, dünyəvi, hüquqi cəmiyyət yaradılması yolu ilə inamla irəliləməsi yalnız Azərbaycan Respublikası vətəndaşlarının deyil, bütün dünya azərbaycanlılarının milli müstəqillik və dövlətçilik təfəkküründün inkişafına, onların həmrəyliyinə təkan verir. Bu baxımdan Avropa və dünya məkanında yaşayan azərbaycanlılar arasında intensiv əlaqələrin genişlənməsi, onların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştiraklarına, güclü Azərbaycan diasporunun yaradılmasına, fəaliyyətinin güclənməsinə, digər xalqlar və dövlətlərin müstəqil Azərbaycan dövlətini daha yaxından tanıması işinə xidmət edir. Buna görə soydaşlarımız Azərbaycan dövlətçiliyi ideyaları ətrafında sıx birləşməli, ümummilli məsələlərdə sarsılmaz həmrəylik nümayiş etdirməli, bu məqsədlə azərbaycanlı icmalarının, mədəniyyət mərkəzlərinin və dostluq cəmiyyətlərinin imkanlarından geniş istifadə olunmalıdır. Dünya azərbaycanlılarının birliyi, həmrəyliyi onların daimi yaşadığı ölkələrdə və bütün dünyada güclü və monolit bir qüvvə kimi çıxış etmələrinə, öz milli və vətəndaş haqlarını daha dolğun qorumalarına da əhəmiyyətli təsir göstərməkdədir.

Bu gün müstəqil Azərbaycanda dünya azərbaycanlılarının milli birlik və həmrəylik məsələsi dövlət siyasəti səviyyəsinə qaldırılmış, Azərbaycan diasporunun formalaşdırılması, dünya azərbaycanlılarının bir-biri ilə və tarixi Vətənlə əlaqələrinin yaradılması və möhkəmləndirilməsi bilavasitə gündəmə gətirilmişdir. Dünya azərbaycanlılarının əsl milli özünüdərk və ümummilli ideya-azərbaycançılıq, müstəqil dövlətçilik və milli mənəvi dəyərlər ətrafında birləşməsi prosesi başlanmışdır. Əminik ki, xaricdə yaşayan azərbaycanlıların mütəşəkkilliyi, diaspor hərəkatı getdikcə güclənəcək və bütün dünyada azərbaycançılıq ideyaları qorunacaqdır. Bu, həm də dünya dövlətlərinin ictimai-siyasi, iqtisadi-mədəni həyatında, siyasi dairələrində azərbaycanlıların təsirini getdikcə gücləndirəcəkdir. Bu gün öz tarixinin məsul və şərəfli mərhələsini yaşayan dünya azərbaycanlıları vahid bir xalqı, bir milləti, bir tarixi Vətəni təmsil edirlər. Azərbaycanlılar dünyanın bütün ölkələrində Azərbaycan mədəniyyətinin, dilinin, adət-ənənələrinin, mentalitetinin layiqli daşıyıcıları kimi çıxış etməlidirlər. Buna görə də harada yaşamasından asılı olmayaraq, milli adət-ənənələrin, mədəni-mənəvi dəyərlərin qorunub saxlanması, gənc nəslə ötürülməsi dünya azərbaycanlılarının tarixi Vətən qarşısında müqəddəs borcudur.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət diaspor quruculuğu işinin daha da təkmilləşdirilməsini, dünya azərbaycanlıları arasında ideya birliyinin möhkəmləndirilmə-sini özündə əks etdirir. Təqdirəlayiqdir ki, son dövrdə Azərbaycan və türk diaspor təşkilatları arasında sıx səmərəli əməkdaşlıq əlaqələri yaradılmışdır.

Beynəlxalq Diaspor Mərkəzinin (BDM) Avropa nümayəndəliyi tərəfindən Azərbaycan lobbiçiliyinin formalaşması istiqamətində bir sıra mühüm işlər görülmüş, tanınmış siyasət adamları, ictimai xadimlər, alimlərlə əməkdaşlığın genişləndirilməsinə nail olunmuşdur.

Məhz bu əməkdaşlıq nəticəsində bir neçə ay əvvəl bir qrup avropalı alim BDM-in dəvəti ilə Azərbaycana gəlmiş, soyqırım, deportasiya faktları ilə yaxından tanışlıq məqsədilə Quba məzarlığında olmuş, respublikamızın müxtəlif yerlərində-Şamaxı, Bərdə, Tərtər, Gəncə bölgələrində məskunlaşmış qaçqınlarla görüşmüşlər. Qonaqlar Vətənə döndükdən sonra təəssüratları barəsində dünya ictimaiyyətinə, geniş oxucu kütləsinə məlumat vermək üçün kitabların nəşr olunmasına söz vermişlər. Bu ilin fevral ayında əsrin faciə-si-Xocalı soyqırımının ildönümü ərəfəsində BDM Avropa nümayəndəliyi ilə birlikdə İslam Konfransı Təşkilatının Gənclər Forumunun "Mədəniyyətlərarası dialoq" layihəsinin baş koordinatoru Leyla Əliyevanın təşəbbüsünə uyğun "Xocalıya ədalət" kampaniyasına dəstək olaraq Avropa ölkələrində tədbirlər keçirmişdir.

Nümayəndə heyəti tərkibinə BDM-in məşvərət şurasının sədri, millət vəkili Gülər Əhmədova, DAK İH-in üzvü, "Diasporun səsi" jurnalının baş redaktoru professor Vaqif Arzumanlı, BDM icra aparatının rəhbəri Samir Adıgözəlli, BDM-in sədri İsmail Ağayev, BDM-in Avropa təmsilçisi professor Azər Kərimov daxil olmuşdur. İlk görüş respublikamızın Belarusdakı səfirliyində oldu. Səfir Əli Nağıyevlə nümayəndə heyətinin görüşündə maraqlı məsələlər, soyqırımla bağlı tədbirlər planı müzakirə olundu. Sonrakı görüşlər Belarus Dövlət İqtisad Universitetində, Baranoviç şəhər Dövlət Universitetində, Baranoviç şəhər sovetində, Qrodno Dövlət Universitetində, Qrodno şəhərində fəaliyyət göstərən "Şərur" Azərbaycan diaspor nümayəndəliyində davam etdirildi.

Nümayəndə heyətinin Minsk, Baranoviç, Qrodno şəhərlərində keçirdiyi görüş tədbirləri çox maraqlı və məzmunlu idi. ilk adıçəkilən şəhər universitetlərində olan görüşlər aktuallığı baxımından mühüm əhəmiyyət kəsb etdi. Bu qədim universitetlərin rektorları, professor Vasili Koçurko, professor İqor Nikolayeviç, professor Yevgeni Rovbo rəhbəri olduqları universitetlərlə Azərbaycanın universitetləri, elm-tədris ocaqları arasında inteqrasiya-kooperasiya məqsədli mümkün əlaqələrin yaranmasına razılıqlarını bildirdilər. Azərbaycan, onun tarixi mədəniyyəti ilə daha yaxından tanış olmaq üçün universitetdə Azərbaycan guşəsi açılmasına razılıq verdilər. Həmin gün nümayəndə heyətinin Qrodno şəhəri "Şərur" mədəniyyət mərkəzində soydaşlarımızın Azərbaycan diasporunun üzvləri ilə görüşü keçirildi.

Nümayəndə heyəti soydaşlarımızın problemləri və qayğıları ilə yaxından tanış oldu. Millət vəkili, BDM-in məşvərət şurasının sədri Gülər Əhmədova öz çıxışında real faktlara istinad edərək qeyd etdi ki, Azərbaycan həqiqətlərini dünyaya yaymaq üçün yeni qurumun yaradılması dünya azərbaycanlılarının birliyinin əldə edilməsi, ulu öndərimiz Heydər Əliyevin xarici siyasətinin ana xəttini təşkil edirdi. Bütün xarici səfərlərdə azərbaycanlılarla görüşüb onların qayğılarıyla yaşamaq, onların arasında ünsiyyət yaratmaq, ulu öndərin səfər proqramlarına daxil edilmiş və bu, dünya azərbaycanlılarının birliyinin təməl daşları idi. Bu gün Azərbaycan diasporu artıq güclüdür.

Polşa Respublikasında nümayəndə heyətini səfirimiz Vilayət Quliyev qarşıladı. Görüş zamanı maraqlı fikir mübadiləsi aparıldı. Azərbaycanlıların soyqırıma məruz qalmasının Xocalı timsalında dünya ictimaiyyətinə onların ziyalıları vasitəsilə çatdırılması məqsədəuyğun hesab olundu. Nümayəndə heyətinin sonrakı maraqlı görüşləri Çexiya və Avstriyada davam etdirildi. BDM-in Çexi-ya Respublikası üzrə nümayəndəliyi paytaxt Praqadan sonra ikinci şəhər olan Brnoda yerləşir. Nümayəndəlik yeni müasir kompyuter, internet və başqa avadanlıqlarla təchiz olunmuş lazımi şəraitdə fəaliyyət göstərir. Bu məsələ BDM rəhbərliyi və Brno şəhər Texniki Universitet rəhbərliyinin Azərbaycanla tarixi bağlılığı və respublikamıza, xalqımıza olan xüsusi diqqəti, köməyi nəticəsində həll olunmuşdur.

Məlumdur ki, müstəqil Azərbaycanın dünyaya inteqrasiyası bilavasitə təhsildən, milli-mənəvi dəyərlərdən keçir. Şübhəsiz ki, Azərbaycan elminin, iqtisadiyyatının, sənayesinin və digər sahələrinin Avropanın qədim mədəniyyət mərkəzi olan belə bir dövlətlə yaxınlaşması Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mühüm rol oynaya bilər. Səmərəli görüşlər zamanı Azərbaycanın elm ocaqları ilə Şərqi Avropa və Avropa dövlətləri, o cümlədən Belarus, Polşa, Çexiya, Avstriya, Slovakiya, Macarıstanın Elmlər Akademiyası, universitetləri və digər elm ocaqları arasında görülən işlərin vacibliyi vurğulanmışdır. Respublikamızdan bu ölkələrə təhsil almağa, aspiranturaya, magistraturaya, doktoranturaya ixtisas artırmağa gedən təmsilçilərimizə ayrılan müvafiq kvotaların artırılmasına razılıq əldə olunmuşdur.

Təəssüf ki, hələ də riyakar düşmənlərimiz tərəfindən təhrif olunmuş tarixi faktlar, xalqımızın məruz qaldığı əsl soyqırım, deportasiyanı inkar edən materiallar çex, Avropa mətbuatında özünə yer tapmaqdadır. Çex həmkarlarımızın köməyi, BDM-in Avropa nümayəndəliyinin xətti ilə bu kimi materiallarının toplanaraq Azərbaycan Elmlər Akademiyasına, Respublika Ensiklopediya Mərkəzinə göndərilmiş, iqtisadçılarımızın, tarixçilərimizin, elm adamlarının layiqli cavab materialları Çexiya mətbuatına verilməsi ön plana çəkilmişdir. Nümayəndə heyəti həmin ölkədə bir sıra universitet rəhbərliyi tərəfindən qəbul edilmiş, onlara tariximiz, milli mədəniyyətimizlə daha yaxından tanış olmaq üçün müxtəlif dillərdə nəşr olunan kitablar, bukletlər təqdim olunmuş, universitetlərin tədris korpusunda geniş müəllim, tələbə auditoriyası qarşısında Azərbaycan xalqının məruz qaldığı soyqırım, deportasiyaları əks etdirən təbliğat vasitələri, təhrif olunmuş tarixi xəritələr, kinofilmlər nümayiş etdirilmişdir. Bütün səfər müddətində və görüşlər zamanı Azərbaycan barəsində əsl həqiqətlər, problemlərimiz və uğurlarımız haqqında dərin faktlara əsaslandırılmış təhlil maraqla dinlənilmişdir.

Görüşlər zamanı dəfələrlə çıxış edən, "Diasporun səsi" jurnalının baş redaktoru professor V. Arzumanlı tarixi qaynaqlara əsaslanaraq xalqlarımız arasında oxşar münasibətlərin olmasını auditoriyaya çatdırmışdır. Azərbaycanda maraqla oxunan Avropa yazıçılarının əsərlərinin adını çəkmiş, maraqlı tarixi faktlar söyləmişdir. Çex və başqa Slavyan dövlətlərinin dilinin Bakı Slavyan Universitetində tədris olunması, öyrənilməsi, Praqa, Brno, Bakı şəhərlərində qədim Alban memarlıq ənənələrinin oxşar cəhətlərinə hər addımda rast gəlinməsi, bu əlaqələrin yaranma tarixini əks etdirən maraqlı faktlar göstərildi.

Səfərin əlamətdar görüşlərindən biri BDM-in nümayəndə heyətinin Brno şəhərində yerləşən Avropanın tanınmış "Kostianka" adlı uşaq tibbi reabilitasiya-müalicə mərkəzində olmuşdur. Mərkəzin baş həkimi Prof. Dr. M. Budlinski tibb mərkəzinin yaranma tarixi, hazırkı vəziyyəti barədə nümayəndə heyətinə ətraflı məlumat vermiş, tibb mərkəzinə ekskursiya təşkil olunmuşdur. Avropanın qabaqcıl müalicə mərkəzlərindən biri olan "Kostianka"nın ən müasir tibb avadanlıqları ilə təchiz olunduğunu deyən mərkəz rəhbərliyi bu sahədə Azərbaycanın uyğun tibb mərkəzləri ilə gələcək əməkdaşlıq işlərində yardımçı olacağına söz vermişdir. Millət vəkili G. Əhmədova bu istiqamətdə Azərbaycan Respublikasında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tərə-findən müasir tələblərə uyğun layihələrin uğurla aparıldığını söyləmişdir. Bundan başqa, BDM-in nümayəndə heyəti səfərin son günündə, Praqa və Avstriyanın Vyana şəhərlərində Xocalı soyqırımının ildönümünə həsr olunmuş soyqırım tədbirlərində iştirak etmişdir. BDM-in nümayəndə heyətinin bu tədbirlərdəki iştirakı Türkiyə və Avstriya, Azərbaycan KİV-ləri vasitəsilə geniş işıqlandırılmışdır.

Nəticədə görüş iştirakçılarının universitet elm ocaqları rəhbərlərinin, həmçinin digər ölkələrin elm xadimlərinin, ziyalılarının iştirakı ilə Bakıda "Azərbaycanlıların ermənilər tərəfindən soyqırıma məruz qalması, deportasiya, faciələr, qaçqınlar problemi" mövzusuna həsr olunmuş elmi-praktik konfransın keçirilməsinin əhəmiyyəti və vacibliyi qərara alınmışdır. Əminik ki, əsrin faciəsi olan Xocalı soyqırımının ildönümünə həsr olunmuş silsilə tədbirlərdən ibarət bu səfər müstəqil Azərbaycan Respublikasının Avropa, dünya miqyasında artmaqda olan imicinin daha da yüksəlməsində mühüm addım, layiqli töhfə, BDM-in fəaliyyətində parlaq səhifə olacaqdır.

Azər Kərimov, Beynəlxalq Diaspor Mərkəzinin Avropa təmsilçisi, professor
“Respublika” – 2010 - 18 aprel -N 81.-S.4.

Türkiyə və Azərbaycan diasporunun nümayəndələri Türkiyənin Sidneydəki Baş Konsulluğun önünə toplaşıb

Avstraliya Gənc Ermənilər Federasiyası adlı təşkilat uydurma "soyqırım"ın ildönümü ilə əlaqədar Türkiyənin Sidneydəki Baş Konsulluğunun qarşısında aksiya keçirməyə cəhd göstərib. Aksiyadan xəbər tutan Türkiyə və Azərbaycan diasporunun nümayəndələri Baş Konsulluğun önünə toplaşıb. Onlar əllərində Türkiyə, Azərbaycan və Avstraliya bayraqları tutaraq ingiliscə Türkiyə lehinə şüarlar qışqırıblar.

Konsulluq binasının dəmir hasarına Türkiyə bayraqları asılıb. Binanın qarşısına gələn ermənilərdən bəziləri qarışıqlıq yaradıb və polisə müqavimət göstərib. Qarışıqlıqda bəzi ermənilər bayılıb. Hadisə yerinə atlı polislər də göndərilib. Türkiyə və Azərbaycan cəmiyyətlərinin təmsilçiləri ermənilərə 1915-ci il hadisələrinin böyük bir yalan olduğunu, əsl soyqırımın Xocalıda baş verdiyini deyiblər: "Kirli siyasətiniz Ağdamı, Kəlbəcəri, Laçını unutdura bilməyəcək. Yalanınızla əvvəl-axır dünyaya rəzil olacaqsınız".

19 aprel 2010

Ottava şəhərində parlamentin binası qarşısında bu ölkədəki Azərbaycan icmasının üzvləri Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti əleyhinə nümayiş keçirmişlər

AzərTAc bildirir ki, aprelin 16-da Kanadanın paytaxtı Ottava şəhərində parlamentin binası qarşısında bu ölkədəki Azərbaycan icmasının üzvləri Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti əleyhinə nümayiş keçirmişlər. Nümayişdə ötən yüzillikdə erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı yürüdülmüş etnik təmizləmə siyasətinə və 1988-ci ildən davam edən işğala qarşı şüarlar səsləndirilmişdir.

Nümayiş iştirakçıları Ermənistanın yürütdüyü bu siyasətin dayandırılmasını tələb etmiş, Kanada parlamenti üzvlərini bu məsələlərə siyasi qiymət verməyə və Ermənistana təzyiq göstərməyə çağırmışlar. Nümayiş iştirakçıları Ermənistanın Ottavadakı səfirliyi qarşısında piket keçirmişlər.

19 aprel 2010

“Can Azərbaycan” televiziyasında əsasən milli mədəniyyətimiz təbliğ olunur

“Biz dünyada yaşayan 50.000.000-dan çox azərbaycanlının televiziyası olmaq istəyirik”

Bu gün Azərbaycanın müxtəlif ölkələrdə mövcud olan diaspor təşkilatları son illər fəaliyyət istiqamətlərini genişləndiriblər. Belə ki, onlar Azərbaycanın milli bayramları, tariximizdə yer almış qanlı hadisələrlə bağlı silsilə tədbirlər keçirib, bu haqda məlumatları dünyaya çatdırmaqla yanaşı, həm də əsas təbliğat vasitələrindən biri olan medianın imkanlarından da geniş istifadə edirlər. Bu sahədə İzmir Azərbaycan Mədəniyyət Mərkəzi (İAMM) çox aktiv fəaliyyəti ilə seçilir. Artıq bir neçə müddətdir ki, sözügedən mərkəzin təşəbbüsü ilə virtual olaraq dünyada yaşayan azərbaycanlıların, türklərin evlərinin virtual qonağı “Canaz“ TV fəaliyyət göstərir. İAMM-nin rəhbəri və “Canaz “.TV-nin (“Can Azərbaycan “www. canaz. tv.) yaradıcısı Cəmal Məmmədxanoğlu ilə həmsöhbət olduq.

- Cəmal bəy, özünüzü neçə təqdim edərdiniz?

- Mən Qərbi Azərbaycandan Türkiyəyə 1915-18-ci illər arasında və 1931-ci ildə köçən iki azərbaycanlı ailənin nəvəsiyəm. 30 ildir ki, İzmir şəhərində yaşayıram. İzmir Azərbaycan Mədəniyyət Mərkəzinin sədri və “Canaz “ Tv qurucusuyam. İndi 53 yaşım var. Həyat yoldaşım bakılıdır. Eyni zamanda Bakıda qohumlarım yaşayır. Qısaca olaraq bu qədər.

- Hansı ehtiyacdan irəli gəldi ki, siz internet yayımı ilə yayımlanan “Can Azərbaycan “Televiziyasını yaratdınız?

- İzmirdə 40.000-dən və Türkiyədə 5.000.000-dan çox olan azərinin bir çox şəhərlərdə cəmiyyətləri var, amma böyük əksəriyyəti, təşkilatsız və bir-birindən, Azərbaycandan və dünya azərbaycanlılarından xəbərsiz yaşayırlar. Bunların, bir-birlərindən, Azərbaycan Respublikasından və Dünya Azərbaycanlılarından xəbərdar olmaları və öz mədəniyyətlərini daha yaxından tanımaları və yaşamaları üçün, “Can Azərbaycan “Televiziyasını yaratdıq.

- Sizin kanala dünyanın bütün yerlərində yaşayan azərbaycanlıların və türklərin baxmaq imkanı varmı?

- Biz hələlik internet yayımı ilə yayımlanırıq, ona görə də, dünyanın hər yerindən bizə baxırlar. “Google”nin statistikası belədir: Türkiyə 7.618, Azərbaycan 3.756, İran 2.045, Almaniya 1. 412, Rusiya 1.346, Kanada 336, Norveç 218, Finlandiya 111, Fransa 102, Qazaxıstan 100, Avstriya 72, Yaponiya 59, İtaliya 28, Özbəkistan 27, Gürcüstan 23, İsrail 20, Estoniya 35, Birləşmiş Ərəb Əmirlikləri 10, Səudiyyə Ərəbistanı 10, Latviya 9, Malayziya 8, Pakistan 8, Misir 5, Braziliya 5, Qətər 4, Moldova 4, İraq 3 və s. Bu statistik göstəricilərdən məlum olur ki, bizim kanalı daha çox Türkiyədən izləyirlər, ikinci sırada Azərbaycan, üçüncü sırada Cənubi Azərbaycan, sonra isə, sırayla Almaniya, Rusiya və s. ölkələrdə baxırlar.

- Bu , virtual televiziya nə vaxtdan efirə çıxır, neçə nəfər kollektiviniz var və hansı proqramlar yayımlanır?

- Bizim kanal bu ilin 1 fevral tarixindən internetdən yayımlanmağa başlayıb. 2010 ilin sonuna qədər, Türksat peykindən yayımlanmağı nəzərdə tutmuşuq. Mərkəz studiyamızda 4 nəfər işləyir: İkisi Türkiyədən, bir nəfər Bakıdan, bir nəfərdə Təbrizdən. Bunlardan başqa dünyanın müxtəlif şəhərlərində bizə kömək edən və könüllü məlumat verənlərimiz var. Bunların sayı 15 nəfərdən çoxdur. Ümumiyyətlə, qeyd edim ki, “Can Azərbaycan “Televiziyası, Türkiyədə yaşayan azərilər adına yayıma başlayıb, ancaq dünyada yaşayan 50.000.000-dən çox Azərbaycan türkünün televiziyası olmaq istəyindədir. “Canaz“ Tv Türkiyədə yaşayan azərbaycanlıların Türkiyə dövlətinin əsl ünsürlərindən bir olduğunu düşünür. Fikrimcə, azərilər Türkiyənin onurğa sütunlarından biridir.

“Canaz“ Tv milli bir televiziyadır, yəni hər hansı bir dövlətə, sərmayə qrupuna, mənfət qrupuna bağlı deyil. O vətəndaş cəmiyyət təşkilatı xüsusiyyətlərini daşıyır. Eyni zamanda “Can Azərbaycan”, əsas olaraq mədəni bir televiziyadır. Kanalımız imkan daxilində Azərbaycan mədəniyyətinə xidmət edir. Mədəniyyətimizin, yaşaması, inkişafı, sevilməsi, unudulmamasına çalışır. “Canaz“ TV dünyada yaşayan azərilərin ən əhəmiyyətli iki milli məsələsində, əlindən gələn hər şeyi edər.

Bu məsələlərdən birincisi; xalqımızın böyük bir əksəriyyəti, ana dildə təhsil haqqından məhrum yaşayır və bu səbəblə, ana dilində təhsil haqqı üçün böyük mübarizə aparır. Televiziyamız, bu mübarizənin hər vaxt yanında olacaq. İkinci məsələmiz isə, 1 milyondan çox vətəndaşımızın, doğma torpaqları, vətənləri işğal edilib. “Canaz“ TV, işğal edilmiş torpaqlarımızda, Qarabağda işğalın sona çatdırılması üçün verilən bütün mübarizələrin yanında olacaq. “Canaz“ TV şovnizimə, irqçiliyə qarşıdır. Heç bir millətin digərinə görə daha üstün olduğunu iddia etmir.

- Bu kanalı yatarmaqda məqsədiniz nədir?

- Hazırda dünya əhaliləri arasında bizdən daha az saylı millətlərin onlarla televiziyaları var. Yaşadığımız dövr informasiya dövrüdür. Belə bir zamanda beynəlxalq arenada millətlərin bacarığı onların informasya sahəsindəki müvəffəqiyyətləriylə paralel gedir. Azərilərin də, haqlı iddialarını dünyaya anlatmaq, öz xalqı arasında birlik yaratmaq üçün, daha çox informasiya kanallarına ehtiyac var. "Can Azərbaycan" televiziyası, bu ehtiyacın nəticəsi olaraq ortaya çıxdı və hazırda da fəaliyyət göstərir.

- Kanalınızda yalnız Azərbaycan mahnıları gedir yoxsa, digər millətlərin də musiqiləri səsləndirilir?

- Yalnız Azərbaycan mahnıları səsləndirilir. Çünki bu gün qeyri millətlərin musiqilərini, səsləndirən minlərlə televiziya var.

Biz əsasən mədəniyyət kanalıyıq. Amma bütöv Azərbaycanın tarixini, şəhərlərini, problemlərini, sənətçilərini, elm adamlarını, mahnılarını və s. tanıtdırmağa çalışırıq. Və bu istiqamətdə imkanımız daxilində əlimizdən gələni edirik.

- Hansı azərbaycanlı sənət adamları sizin kanalın qonağı olub?

- Bizim televiziyamızda, istedadlı sənətkar Flora Kərimova, Təbrizdən olan "Dalğa" qrupu, İzmirdən isə Arif Manaflı, Rza Təbrizli Ranjazmay, Elgün Quliyev, Təranə Abbaszadə qonaq olublar. Amma nəzərə almaq lazımdır ki, biz hələ 2,5 aylıq keçmişi olan bir televiziyayıq. Lakin bizim dərnəyimizin qonaqları çox olub. Belə ki, görkəmli sənətkarlar Lütfiyar İmanov, İlhamə Quliyeva, İlahə İbadova, Mütəllim Dəmirov, Cavid Təbrizli və başqalarının adını çəkmək olar.

- Azərbaycanda hər hansı bir telekanalla əməkdaşlığınız varmı?

- Hələ ki, Azərbaycanda yayımlanan heç bir kanalla əlaqəmiz yoxdur, ancaq gələcəkdə olmasını istərdim.

- Azəri iş adamları kanalınızın yayımlanmasına kömək edirmi və ümumilikdə kanalınızın fəaliyyəti üçün maliyyəni hardan əldə edirsiniz?

- Yox , hələlik kanalımızın fəaliyyətinə heç kəsin maliyyə tərəfdən köməkliyi yoxdur. Öz imkanlarım hesabına bu televiziyanı qurdum və indi də fəaliyyətimi davam etdirirəm. Amma televiziyamızın Türksatdan yayımlanması üçün, mütləq bizə kömək edilməsi lazımdır. Altıncı ayın sonuna qədər, yayım keyfiyyətimizi istədiyimiz nöqtəyə çatdırmağa çalışırıq. Ondan sonra isə, Türksatdan yayımlanmağı fikirləşirik.

- Kanalınızın yayımlanması üçün müstəqil studiyanız varmı?

- Bəli, bir studiyamız var. Xəbər proqramlarımızı və danışıqlarımızı oradan edirik. Hər gün və 24 saat efirdəyik. 12 saat canlı, 12 saat lentdən təkrar yayımlanırıq.

- Bildiyimizə görə, Novruz bayramı ilə bağlı maraqlı bir proqramınız olub. Bu barədə məlumat verməyiniz bizim üçün maraqlı olardı?

- İlk olaraq onu qeyd edim ki, bizim Mədəniyyət Mərkəzimiz artıq üç ildir ki, "Azərbaycan Novruz Festivalı" adıyla bir festival keçirir. Bu il bu festivalın üçüncüsünü etdik. Builki festivalımızda, Bakı Gecəsi , görkəmli sənətkar Rəşid Behbudovu, Şəhriyarı anma gecələri keçirdik və nəfəsli alətlər ansamblının konserti oldu. Eyni zamanda Təbriz gecəsi. Novruz mərasimi və yaşıl axşam adlı 6 tədbirimiz oldu. Bu ilki festivalımızın fəxri qonağı xalq artisti Flora Kərimova idi. Təbriz gecəmizə, Təbrizdən 6 nəfərdən ibarət Aşıq Çingiz və "Dalğa" musiqi qrupu qatıldı. Bu festivalın bütün proqramları "Canaz" TV tərəfindən qeyd edildi və yayımlandı.

Ən əhəmiyyətli planımız və məqsədimiz televiziyamızın peykdən nəşr etməsini təmin etmək və Dünya Azərbaycanlıları tərəfindən izlənilə bilməkdir. Sonrasında isə, məqsədimiz Qeyri-Hökumət Təşkilatı kimi, dünya Azərbaycanlılarının problemlərini (iki əhəmiyyətli sonununu) müdafiə etməkdir. Mədəniyyətimizi ən yaxşı şəkildə təbliğ etmək, əvvəlcə Türkiyədəki və sonrada dünya azərbaycanlıları arasında mədəni, ictimai əlaqələr yaratmaq, və ortaq ruh meydana gətirməkdir...

Sonda sizin qəzetə mənimlə müsahibə edərək "Canaz" Tv-nin fəaliyyətini daha çox insana çatdırmağa kömək etdiyiniz üçün təşəkkür edirəm və azərbaycanlılara salamlarımı çatdırıram.

Günay

"Paritet" - 2010 - 20-21 aprel -N.38.-S.11.

Ştutqart şəhərində "Uzaq Qafqaz ümidi- Azərbaycanda alman izləri" sənədli filminin təqdimatı olub

Aprelin 21-də Almaniyanın Ştutqart şəhərində "Uzaq Qafqaz ümidi- Azərbaycanda alman izləri" sənədli filminin təqdimatı olub. Film Azərbaycanın "Salnamə" studiyası və Almaniyanın "Züdost" informasiya (mətbuat) agentliyinin birgə iştirakı ilə çəkilib. Alman dilində hazırlanmış 82 dəqiqəlik bu filmin rejissoru Mojkan Ehraridir. Qeyd edək ki, filmin hazırlanmasına Azərbaycanın Almaniyadakı Səfirliyi də dəstək verib. Məsləhətçilər arasında Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin icraçı direktoru Samirə Patzer-İsmayılovanın da adı var. "Uzaq Qafqaz ümidi-Azərbaycanda alman izləri" sənədli filminin məzmunu beledir: "Hadisələr Qafqaz sıra dağlarının ətəyində yerləşən bir alman kəndinə-Azərbaycanın Göy Göl rayonundakı Helenendorf kəndinə aiddir. 80 il əvvəl bu kənddə, həyatı ciddi qayda-qanunla nizamlanmış alman koloniyasında Otto Hurr və Günter Hummel doğulub. Söylədiklərinə görə, onlar axar çay kənarında sonsuz oyunlarla, "toyuq-cücə oğurluğu", yeni tikilmiş musiqi məktəbində fortepiano dərsləri ilə yaddaşa həkk olan xoşbəxt uşaqlıq çağları yaşayıblar. XIX əsrdə Vürttemberq əyalətinin şəhər və kəndlərindən Azərbaycana pənah gətirmiş alman köçkünləri milli adət-ənənələrini də özləri ilə birgə gətiriblər. Burada böyüyən nəsil öz mədəniyyətindən, milli ənənələrindən uzaqlaşmayıb. Lakin xoşbəxt uşaqlıq o dövrlərdə SSRİ-də baş alıb gedən faciəvi deportasiya ilə sona çatıb.

1941-ci ildə İ.Stalinin əmri ilə Azərbaycanda məskən salmış 20 min almanın artıq bu ölkədə doğulmuş, böyümüş nəsli Qazaxıstan və Sibirə sürgün olunub. Bu gün sürgündən sağ çıxan almanların Rusiya almanları adlandırılan gənc nəsli Almaniyada yaşayır. Onlar köçkün yoxsa yerli əhalidir? Azərbaycandakı almanlarının bu günkü davamçıları ölkəmizdə indiyə qədər yaşayan həmvətənlərinin izlərini axtarırlar. Onlar Helenendorfun-Azərbaycandakı alman kəndinin salnaməsini yazmaq fikrindədirlər. 71 yaşlı Gizela Rasper və onun 18 yaşlı nəvəsi Sara həmin izləri bərpa edən almanlardandır." Sənədli filmin müəllifləri Alman və Azərbaycan tarixçiləri, həmin kəndin əhalisi və canlı şahidlər vasitəsilə şərabçılıqla məşhur olmuş Helenendorf kəndinin həyatını yenidən canlandırmağa çalışıblar.

Bu layihəni Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Almaniyanın Xarici İşlər Nazirliyi və "EnBV" Enerji Baden-Vürttemberq AG maliyələşdirib.

21 aprel 2010

Stokholmda 1918-ci ilin martında ermənilərin Azərbaycanda həyata keçirdikləri soyqırımı ilə bağlı simpozium keçirilib

Dünya Azərbaycanlıları Konqresinin (DAK) və "Odlar Yurdu" dərnəyinin təşkilatçılığı ilə İsveçin paytaxtı Stokholmda 1918-ci ilin martında ermənilərin Azərbaycanda həyata keçirdikləri soyqırımı ilə bağlı simpozium keçirilib. DAK-ın mətbuat xidmətindən daxil olan məlumata görə, tədbirdə DAK həmsədri Firidun Pərviznia, Daimi Şurasının sədri Əydər Tağızadə, millət vəkilləri Baba Tağıyev, İsveç Azərbaycan Federasiyasının sədri Səttar Sevigin və Azərbaycan diasporunun nümayəndələri iştirak edib. Millət vəkili Baba Tağıyev çıxışında ermənilərin ötən yüz ildə Azərbaycanda həyata keçirdiyi soyqırımlar barədə danışıb. O, Azərbaycanın 20 faiz torpağının erməni işğalı altında olduğunu, bir milyon insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü deyərək, ancaq dünya ictimaiyyətinin bütün bunlara hələ də göz yummasından təəssüfləndiyini vurğulayıb.

DAK Daimi Şurasının sədri Əydər Tağızadə isə 1918-ci ildə ermənilərin Azərbaycan türklərinə qarşı soyqırımı aktlarını məhz rusların yardımı ilə, onların verdiyi silahla həyata keçirildiyini qeyd edib: "Bu gün də türk dünyasının ayağa qalxmasının, bütövləşməsinin qarşısını almağa çalışırlar". İsveçdə olan DAK rəhbərliyi həmçinin, İsveç parlamentində bir qrup millət vəkili ilə görüş keçiriblər. B. Tağıyev İsveç parlamentində qondarma erməni soyqırımı barədə qərar qəbul edilməsinə öz etirazını bildirib, Azərbaycan ictimaiyyətinin bu məsələdən narahat olduğunu diqqətə çatdırıb.

21 aprel 2010

Gürcüstan Azərbaycanlılarının Konqresinin (GAK) üzvləri Türkiyənin Tiflisdəki səfirliyi qarşısında aksiya keçirib

Gürcüstan Azərbaycanlılarının Konqresinin (GAK) üzvləri aprelin 22-də Türkiyənin Tiflisdəki səfirliyi qarşısında aksiya keçirib. APA-nın Gürcüstan bürosunun məlumatına görə, aksiyada Gürcüstan ali məktəblərində təhsil alan azərbaycanlı gənclər iştirak edib. GAK-ın sədri Əli Babayev bildirib ki, Türkiyə Cümhuriyyətinin Gürcüstandakı səfiri Murad Burhana ünvanladıqları məktub səfirliyə təqdim edilib: "Türkiyə Azərbaycanı heç vaxt darda qoymayıb, bizi müdafiə edib.

Biz də türk millətinin nümayəndəsi kimi yeri gələndə onları müdafiə etməyə borcluyuq. Ermənilər Bakıda, Qubada, Şamaxıda, Xocalıda soyqırım törədiblər. Bunlara heç kim qiymət vermir. Ermənistanda 500 minə qədər azərbaycanlıya aman verm̈ədilər, soyqırım törətdilər, qovdular. "Erməni soyqırımı"nı qəbul edən ölkələr nədənsə ermənilərin törətdiyi soyqırımları tanımır. Biz bu gün Türkiyə ilə bir olaraq "erməni soyqırımı" məsələsinin Gürcüstan parlamentində müzakirəsinə "yox" deyirik".

22 aprel 2010

«Diasporun mövqeyni qətiyyətlə pisləyirəm»

Fəzail Ağamalı: «Məhkəmələr korporotiv maraqlardan ədalətsiz hökmlər çıxarır»

«Sizin bu dəqiqə ağzınızdan od-alov yağır, iqtidarı da, məni də ittiham edirsiniz"

- Bəs uydurma erməni soyqırımı Konqresdə müzakirə olunarkən nədən Azərbaycan dəstək verməndi? Baş nazir Ərdoğan da bununla bağlı narazılığını ifadə etdi...

- Əgər baş nazirin dediyi kimidirsə, mən Azərbaycan diasporunun mövqeyini qətiyyən pisləyirəm, onlara qəti etirazımı bildirirəm. Bir daha təkrar edirəm, Türkiyənin maraqları Azərbaycanın maraqlarıdır, eyni zamanda Azərbaycanın maraqları Türkiyənindir. Biz bütün məsələlərimizi uyğunlaşdırmalı və hərtərəfli köməklik göstərməliyik. İkinci, hər iki ölkənin rəsmi dairələri problemləri müzakirə edib ortaq nöqtələr taparlarsa, QHT-lər və diasporlar da bu sistemlə işləməlidirlər.

- Niyə Siz Xocalı qətliamını törədən 366-cı alayın sahibi Rusiyanı yox, Türkiyəni ittiham edirsiniz? Axı Azərbaycan torpaqlarının işğalında Rusiyanın müstəsna xidməti var?

- Türkiyəni kim ittiham edir?

- Siz etmirdinizmi?

- Mən sadəcə olaraq vaxtı ilə Türkiyədə yaranmış vəziyyəti önə gətirərək və protokolların imzalanması ilə bağlı futbol diplomatiyasından istifadə edərək, Azərbaycanın məlumatsızlığını önə çəkərək fikirlərimi bildirdim. Eyni zamanda, Rusiya haqqında söyləmişik. Moskva nə zaman Ermənistana yardım edibsə, eyni bəyanatla Rusiyanın hakim dairələrini ittiham etmişik.

- Məgər, Bu gün Rusiya dəstək vermir?

- Mən arxada nə olduğunu bilmirəm. Hər halda Rusiya Minsk Qrupunun həmsədri kimi problemin həlli üçün çalışır.

- Yəni Amerika və Türkiyədən fərqli olaraq?

- Yox, Türkiyə daha çox çalışır. Sən Türkiyəni Rusiya və Amerika ilə qarışdırma. Ankara ərazilərimizin azad olunması üçün bütün diplomatik imkanlarını ortalığa qoyubdur. ABŞ, Fransa və Rusiyanın mövqeyinə gəldikdə, həmsədr ölkələr kimi onlara bəslənən ümidləri doğrultmurlar. 18 ildir Minsk qrupu üzərinə düşən missiyanı yerinə yetirmir, yəni təcavüzkara sərt münasibət göstərmir, sanksiyalar tətbiq etmir.

- Fəzail bəy, Minsk qrupu ilə bağlı dediklərinizdə dəqiqləşdirmələrə ehtiyac var. Minsk qrupu problemi həll etməyi üzərinə götürməyib, qurumun missiyası vasitəçilikdən ibarətdir. Belə olanda problemi neçə illərdir xalqa vəd verən hakimiyyət həll etməlidir...

- Elə deyil. Əgər dediyiniz kimidirsə, üç həmsədr ölkə zəhmət çəkib kənarda dayansınlar və bəyan etsinlər ki, onlar problemə müdaxilə etmirlər. O zaman erməni və Azərbaycan xalqı problemi çox asanlıqla həll edəcək.

- Əgər ortalıqda referenduma razılıq varsa, bu hakimiyyətin həddən artıq güzəştə getməsi və təslimçilik deyilmi?

- Xeyr. Azərbaycan heç bir təslimçiliyə getmir və güzəşt də yoxdur. Əksinə, prezident dəfələrlə ərazi bütövlüyünün müzakirə predmeti olmadığını bəyan edib.

- Bəs referendum nə deməkdir?

- Razılıq verilibsə, bu da konstitusiya çərçivəsində həyata keçiriləcək bir hadisədir. Yəni referendum bəzilərinin düşündüyü kimi Dağlıq Qarabağ ərazisində yaşayan əhali arasında keçirilməyəcək.

- Söhbətin yönünü dəyişək. Avropa Məhkəməsi müavininiz Zahid Orucun mandatına kölgə salan qərar qəbul etdi. Qərara görə cəbhəçi Nemət Əliyevə mənəvi qələbə verildi. Bu hadisəni necə qarşıladınız?

- Əslində məsələyə yanaşma doğru deyil. Məhkəmədə Nemət Əliyevin Zahid Oruc üzərində qələbəsi təsdiqlənməyib, sadəcə Azərbaycanın məhkəmə proseduruna etiraz ifadə olunub. Yəni Nemət Əliyev şikayətlərini məhkəmələrə verib, baxmayaraq ki, heç bir arqument və sənəd yoxdur. Bu, Avropa Məhkəməsinin yerli məhkəmələrin proseduru üzrə qərarıdır. Əvvəl də belə qərarlar olub.

- Deməli, məhkəmələrin sifarişlə qərar çıxardığını deyirsiniz?

- Demirəm. Sadəcə, bu cür məsələlər Avropa Məhkəməsinə çıxırsa, deməli yerli məhkəmələrdə problem var. Problemləri də aradan qaldırmaq üçün Azərbaycan məhkəmələrində sözün həqiqi mənasında müasir dəyərlərə, prinsiplərə və qanunlara hörmət formalaşmalıdır. Çox təəssüf edirəm ki, Azərbaycanda haqqa söykənən məhkəmələr olduğu kimi, bir sıra hallarda ya biganəlikdən, ya da korporotiv maraqlardan ədalətsiz hökmlər çıxarılır.

- Onda Ramiz Rzayevi niyə yenidən Ali Məhkəmənin sədri təyin edirlər?

- Rzayev Ali Məhkəmənin sədridir və ona qədər məhkəmənin bir neçə pilləsi var. Azərbaycanda məhkəmələr təkcə Ramiz Rzayevdən ibarət deyil.

- Əgər korporotiv maraqlardan danışırsınızsa, deməli Zahid Orucla bağlı hökmlərdə bu amil rol oynayıb...

- Xeyr, prosedur səhvlərdir, bu, korporotiv maraqlar deyil. Bilirsiniz, Zahid Orucun bu barədə geniş yazısı olub, əgər tanış olsanız suallarınız cavab alarsınız.

- Bəzi məlumatlara görə hakimiyyət Sizi növbəti parlamentdə görmək istəmir…

- Onu kim bilər? Bunu seçici və Fəzail Ağamalı bilər. Əgər mən seçkiyə qatılsam və seçicilər səs versələr seçiləcəm.

- Hansı dairədən namizəd olacaqsınız?

- Çox ehtimal ki, 60 saylı Salyan-Neftçala dairəsindən namizədliyimi qeydə aldırmaq fikrindəyəm. Ümidvaram ki, seçicilərim bir daha mənə etimad göstərəcəklər. Çünki deputat olaraq onların etimadsızlığına səbəb ola biləcək hərəkətə yol verməmişəm.

- Deməli, seçicilərniz gölməçədə Sizə səs verəcəklər?

- Gölməçə Allahın gətirdiyi fəlakətdir. Buna Fəzail Ağamalı nə etsin?

- Neçə ildir Azərbaycan hakimiyyəti Salyanın gölməçəyə qərq olunmasının qarşısını ala bilmirsə, hansı analoqu olmayan inkişafdan danışılır?

- Təbii fəlakətdir, nə etmək olar? İslandiyada vulkan baş verib, hakimiyyət orqanları və deputatları nə edə bilir ki?

- Təxminən 4-5 il əvvəl həmkarınız Gültəkin Hacıbəyli mənə demişdi problemi həll etmək olar, sadəcə səy göstərmək lazımdır...

- Bilmirəm ki, Gültəkin Hacıbəylinin problemdən nə dərəcədə xəbəri var, amma mən kifayət qədər məlumatlıyam. Məsələnin həlli üçün konkret layihə də mövcuddur, Salyanı qrunt sulardan azad etmək üçün həmin suyun məcrasını dəyişmək lazımdır. Bu da mütəxəssislərin rəyinə əsaslanmalıdır. Daha sonra yağışlar artanda Kür boyu bütün əraziləri su basır.

- Bəlkə, yerli icra orqanları pul "silmək" üçün problemə biganə yanaşırlar?

- Yox, yenə deyirəm, yağış çox yağır və su da basır.

- Fəzail bəy, problem 1, ya da 2-3 il həll olunmaya bilər, ancaq 5 ildən çoxdur ki, məsələni aradan qaldıra bilmirlərsə, nə ilə müdafiə edirsiniz?

- Bunun bir səbəbi odur ki, vaxtı ilə Kürün Xəzərə qovuşduğu yerdə gəmilər çox işlədiyindən lilləmə yox idi. indi gəmi işləmədiyindən xeyli lil toplanıb suyun axınında problem yaradır.

- Ancaq bir neçə il əvvəl lil təmizləyən maşın gətirmişdilər, sonra həmin texnika da yoxa çıxdı...

- Təbii ki, problem var, ona görə həll olunmalıdır.

-YAP-ın icraçı katibi Əli Əhmədov AVP-in birləşmək bağlı təklifinə "birləşməkdən yox, qoşulmaqdan söhbət gedə bilər" deyə sərt açıqlama verdi. Bu, Sizə hakim partiyanın aşağılayıcı münasibəti deyilmi?

- AVP-nin belə təşəbbüsü olmayıb, bu, sadəcə Zahid Orucun şəxsi fikri olub. Həmin mövqe partiyanın fikri deyil. Ona görə də Əli Əhmədov o cür deyib və mən onun söylədiklərini ədalətli sayıram. YAP bu gün hansısa partiyanın özünə birləşməsində ehtiyac duymur. Çünki bu, heç bir güc gətirmir.

- Deməli, sizlər zəifsiniz də?

- Sənin çox özünə məxsus qəribə məntiqin var və bu, arqumentə söykənmir. Sadəcə, subyektiv fikirlərinizi deyir və məni sözümü deməyə imkan vermirsiniz. YAP-ın hansısa partiya ilə birləşməsi ilə əlavə güc qazanmağa ehtiyacı yoxdur. AVP-də bir partiya olaraq Azərbaycan qanunları çərçivəsində fəaliyyət göstərir və YAP-la təməl prinsiplərimiz üst-üstə düşür.

- Ölkədə total şəkildə qanunsuzluqlar, özbaşınalıqlar olur, amma bir dəfə də etiraz etmirsiniz?

- Ölkədə dediyiniz qədər özbaşınalıqlar və qanunsuzluqlar hökm sürmür. Ölkə kifayət demokratik və qanunlarla idarə olunur.

- Necə idarə olunur ki, məhkəmələrdə sifarişli hökmlər çıxarılır, həbs olunanlardan işgəncə vasitəsi ilə ifadə alırlar?

- Aparıcı beynəlxalq institutlar da etiraf edir ki, Azərbaycan dünyanın ən sabit və demokratik inkişaf edən ölkələrindən biridir.

- Konkret hansı beynəlxalq təşkilat bu bəyanatı səsləndirib?

- Avropa Şurası və Avropa İttifaqı.

- Axı bu qurumlar dəfələrlə hesabatlarında Azərbaycanda korrupsiyanın və mətbuata təzyiqin olduğunu olduğunu səsləndirib...

Hər halda həbsxanada olanlar Sizə bəllidir. İkinci, mətbuata nə təzyiq var? Sizin bu dəqiqə ağzınızdan od-alov yağır, iqtidarı da, məni də ittiham edirsiniz. Fikirlərinizdə kifayət qədər çox sərbəstsiniz, amma məndən sərt mövqe yoxdur.

Sizə qarşı hər hansı təhqir söylənilmir. Eyni zamanda müsahibəniz dərc olunsa da, güldən ağır söz deyilməyəcək, qəzetiniz bağlanmayacaq. Əgər jurnalist peşə etikasını kənara qoyaraq təhqirlə məşğul olursa, bu və ya digər cinayətə yol verirsə və buna uyğun olaraq məsuliyyətə cəlb olunursa, bu, mətbuata təzyiq sayılmamalıdır.

- Əgər mətbuatın yazdığı qanunsuzluqlara rəsmi reaksiya verilmirsə, nə üçün məmur etikasından yox, jurnalist etikasından danışırsınız?

- Bu sualı məmurlara yönəldin. Mən deputatam, nə iradınız varsa, üzümə deyin.

Natiq Cavadlı
"Bizim yol" – 2010 - 23 aprel -N 70.-S.7.

Hollandiyanın Margraten bələdiyyəsinin ərazisində olan "To-Zai" cüdo klubunda Azərbaycan cüdosu günü keçirilib

"Vahid, Bölünməz və Demokratik Azərbaycan Uğrunda Birlik" cəmiyyətinin təşəbbüsü ilə aprelin 23-də Hollandiyanın Margraten bələdiyyəsinin ərazisində olan "To-Zai" cüdo klubunda Azərbaycan cüdosu günü keçirilib. Tədbir respublikamızda idmanın bu sahəsində əldə edilmiş nailiyyətləri holland cəmiyyətinə çatdırmaq məqsədilə təşkil olunub. Tədbirin açan klubun rəhbəri, cüdo ustası, 4-cu Dan Qara Kəmər sahibi Erik Klaessens Azərbaycan idmançılarının bu sahədəki uğurlarını alqışlayıb. Sonra Azərbaycanın tarixindən və müasir ictimai-siyasi durumunu əks etdirən müxtəlif kitablar klubun fonduna təqdim edilib.

Daha sonra "To-Zai" idman klubunun üzvü, 10 yaşlı soydaşımız Cavidan Qasımov respublikamizi olimpiya yarışlarında layiqincə təmsil edən və xalqımızı öz ugurları ilə sevindirən Elnur Məmmədli, Elmar Qasımov və digər cüdoçularımız haqqında klub üzvlərinə məlumat verib. "To-Zai" klubunun digər üzvləri də öz növbəsində Azərbaycanda idmanın inkişafına və idmançılarımıza olan maraqlarından danışıblar, gələcəkdə azərbaycanlı həmkarları ilə əməkdaşlıq arzusunda olduqlarını bildiriblər və dostluq rəmzi olaraq Azərbaycan cüdoçularına kubok və bir sıra medallar hədiyyə göndəriblər. Tədbirdən sonra holland cüdoçularına içərisinə Azərbaycan bayrağı həkk olunmuş saatlar və digər suvenirlər hədiyyə olunub.

23 aprel 2010

Amerika Türklərindən və Amerika Azərbaycanlılarından ibarət 300 nəfərlik dəstə erməni nümayişçilərə və onların yalanlarına etiraz olaraq Türkiyənin Vaşinqtondakı Səfirliyi qarşısına toplaşıb

Əsasən Amerika Türklərindən və 30 nəfərədək Amerika Azərbaycanlılarından ibarət 300 nəfərlik dəstə aprelin 24-də erməni nümayişçilərə və onların yalanlarına etiraz olaraq Türkiyənin Vaşinqtondakı Səfirliyi qarşısına toplaşıb. Bu barədə APA-nın Vaşinqtondakı müxbiri xəbər verib. Azərbaycanlı tələbələr yürüşə qoşularaq Türkiyə diasporuna dəstək şüarları söyləyiblər.

Bütün yürüş boyunca Azərbaycan və Türkiyə bayraqları havada dalğalanıb. Ermənilərin sayı təxminən 500 nəfərdən ibarət olub. Türk və azərbaycanlılarla müqayisədə erməni nümayişçilər əsasən yeniyetmə və tələbələrdən ibarət olub. Türkiyənin ABŞ-dakı səfiri Namiq Tan Türkiyə diasporuna göstərdiyi dəstəyə və həmin problemdə Türkiyə ilə həmfikir olduğuna görə Azərbaycan icmasına təşəkkürünü bildirib.

26 aprel 2010

Ukraynada yaşayan Azərbaycanlı gənclərin 1-ci Forumu keçirilmişdir

Ukrayna Azərbaycanlıları Konqresinin Dnepropetrovsk vilayət təşkilatının təşəbbüsü ilə Dnepropetrovsk şəhərində Ukraynada yaşayan Azərbaycanlı gənclərin 1-ci Forumu keçirilib. Ukraynanın 27 vilayət və şəhərlərindən 700-dən çox gəncin qatıldığı foruma Azərbaycan və Ukraynanın dövlət himnlərinin səslənməsi altında start verilib. Forumda Ukrayna Azərbaycanlıları Konqresinin sədri Akif Gülməmmədov, Diasporla iş üzrə Dövlət Komitəsinin nümayəndəsi Ruslan Quliyev , Dnepropetrovsk şəhərinin meri İvan Kuliçenko, Dnepropetrovsk vilayət radasının deputatları və rəsmiləri çıxış edərək Ukraynada böyüyüb boya-başa çatan Azərbaycanlı gənclərin 1 ci Forumunun Dnepropetrovsk şəhərində keçirilməsini tarixi hadisə adlandırıblar. Azərbaycan və Ukraynanın milli mənəvi dəyərlərini özlərində birləşdirən gənclərə gələcək işlərində böyük uğurlar arzulayıblar.

Forumda təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Dünya Azərbaycan Diasporunun inkişaf tarixindən söz açan UAK-ın Dnepropetrovsk vilayət təşkilatının sədri Qüdrət Hacıyev sədr müavinləri Nadir Zeynalzadə, Eldar Tağıyev, Qadınlar cəmiyyətinin sədri Şahnaz Əliyeva və digər natiqlər xalqımızın qədim adət ənənələrinin zəngin tarixinin və mədəniyyətinin Ukraynada təbliğ olunmasında o cümlədən Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Ukraynada yaşayan gənclərin üzərinə düşən vəzifələrdən danışdılar və milli məfkurə altında bir araya gələn azərbaycanlı gənclərə sarsılmaz birlik və həmrəylik arzuladılar. Qeyd olundu ki, belə bir tarixi forumun keçirilməsi uzun illər Ukraynada doğulub boya-başa çatan azərbaycanlı gənclərin vahid amal ətrafında birləşmələrində onların Ukraynanın ictimai, mədəni, sosial-iqtisadi, elmi və siyasi həyatına o cümlədən dövlət və hakimiyyət orqanlarına inteqrasiya olunmalarında ən əsası isə Azərbaycanla Ukrayna arasındakı tarixi dostluq əlaqələrinin möhkəmləndirilməsində müstəsna rol oynayacaq.

Forumda Kiyev şəhərindəki Heydər Əliyev adına Sosial Elmlər və Beynəlxalq Əlaqələr İnstitutunun məzunu, Ukrayna MEA-nın aspirantı Anar Tahirov çıxış edərək dahi Heydər Əliyevin 50 milyonluq Azərbaycan dünyasına ərməğan qoyub getdiyi sarsılmaz və qüdrətli Azərbaycan dövlətinin daha da inkişaf etdirilməsində, onun ölməz ideyalarının həyata keçirilməsində hər bir azərbaycanlı gəncin üzərinə düşən tarixi missiyadan danışdı. Bu gün dahi Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirərək Azərbaycanı beynəlxalq arenada qüdrətli nüfuz sahibinə çevirən möhtərəm Prezidentimiz İlham Əliyevin istər vətənimizin inkişafında istərsədə Dağlıq Qarabağ probleminin həlli istiqamətində yürütdüyü prinsipal mövqeyi xaricdə yaşayan biz azərbaycanlı gənclərin qürur və fəxarət mənbəyinə çevrilməlidir. Bu baxımdan Ukraynada yaşayan 10 minlərlə gənc öz üzərlərinə düşən tarixi missiyanın məsuliyyətini hiss etməli, tarixi vətənimizə olan övladlıq borcunu vermək üçün əlindən gələni əsirgəməməlidir. Biz Ukraynada özümüzü yüksək əxlaqi dəyərlərə malik azərbaycanlı kimi təsdiq etməli, qloballaşan dünyanın ümumbəşəri dəyərlərini dərindən mənimsəməli, bu istiqamətdə yüksək birlik və həmrəylik nümayiş etdirməklə Azərbaycanın beynəlxalq imicinə xələl gətirməyə çalışan mənfur erməni ideologiyasına qarşı mübarizədə bütün gücümüzü səfərbər etməliyik. Özümüzü hər zaman Azərbaycanın sıravi əsgərləri hiss etməklə ana vətənimizə olan övladlıq borcumuzu yerinə yetirməliyik. Ermənilərin ideoloji təxribatlarına cavab vermək üçün təklif edirəm ki, hər il 24 aprel tarixi Ukraynada yaşayan azərbaycanlı gənclərin həmrəylik günü elan olunsun.

Forumda Dnepropetrovsk şəhərindən Fazilə Zeynalzadə, Elza Bəkirova, Kiyev şəhərindən Cavid Hüseynzadə, Ayaz Salmanov, Krım Muxtar Respublikasından Firudin Orucov, Donetsk şəhərindən Razim Əhmədov, Pərviz Rzayev, Zaporoje vilayətindən Turxan Seyidov Nikoloyev vilayətindən Fatimə Ağayeva və başqaları çıxış edərək belə bir tarixi forumun təşkil olunmasına görə UAK-ın Dnepropetrovsk vilayət təşkilatının rəhbərliyinə minnətdarlıqlarını bildirdilər. Ukraynada yaşayan azərbaycanlı gənclərin vahid mərkəz ətrafında birləşməsi üçün gənclərin Əlaqələndirmə Şurasının yardılmasının vacib amil olduğunu bildirdilər.

Forumda Ukraynada yaşayan azərbaycanlı Gənclərin Əlaqələndirmə Şurası yaradıldı və Heydər Əliyev adına Sosial Elmlər və Beynəlxalq Əlaqələr İnstitutunun məzunu, Ukrayna MEA-nın aspirantı Anar Tahirov Ümumukrayna Azərbaycanlı Gənclərin Əlaqələndirmə Şurasının sədri seçildi. 24 aprelin Ukraynada yaşayan azərbaycanlı gənclərin həmrəylik günü kimi qeyd olunmasına dair qərar qəbul edildi.

Rəsmi hissənin sonunda forum iştirakçıları adından Azərbaycan və Ukrayna prezidentlərinə müraciət qəbul edildi. Tədbir rəngarəng konsert proqramı ilə başa çatdı.

İbrahim Ömərov
"Xalq qəzeti" – 2010 - 27 aprel - N 89.-S.6.

Moskvada "Ukrayna" mehmanxanasının yeni "Radisson Royal Hotel, Moscow" brendi adı altında təntənəli açılış mərasimi keçirilib

Moskvada "Ukrayna" mehmanxanasının yeni "Radisson Royal Hotel, Moscow" brend adı altında təntənəli açılış mərasimi keçirilib. APA-nın Moskvadakı müxbirinin verdiyi məlumata görə, açılış mərasimində Moskva meri Yuri Lujkov, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, müxtəlif dini konfesiyaların nümayəndələri, ictimai-siyasi xadimlər, iş adamları, elm və mədəniyyət adamları iştirak ediblər. Rəsmi olaraq "Radisson" adlanacaq, lakin tarixi adını simvol olaraq qoruyacaq. Otelin qarşısında digər ölkələrin bayraqları ilə yanaşı Azərbaycanın da üçrəngli bayrağı dalğalanır. Azərbaycan mediası üçün keçirilən brifinqdə mehmanxananın həmtəsisçilərindən və tərəfdaşlardan biri İlham Rəhimov bildirib ki, otelin qarşısında Azərbaycan bayrağının dalğalanması təşəbbüsü ona məxsusdur: "Otelin daxilində, interyerdə Azərbaycanla bağlı çox şeylər var. Hətta bəzi otaqlarda Azərbaycanın interyer üslubunda milli xalçalardan, ornamentlərdən istifadə olunub. Bu addım məqsədyönlü olaraq atılıb. Bununla nümayiş etdirmək istəmişik ki, Rusiyada yaşayan azərbaycanlılar nəinki otel alıblar, həm də onun əsaslı şəkildə yenidən qurulmasına çoxlu pul xərcləyiblər. Burada heç bir sirr yoxdur. Otel 275 milyon dollara alınıb, onun yenidən qurulmasına isə 300 milyon dollar sərf olunub".

İlham Rəhimov Azərbaycanla Rusiya arasında münasibətlərin bütün sahələrdə inkişaf etdiyini deyib: "Lakin fikrimcə, ikitərəfli əməkdaşlığı inkişafına Rusiyada Vladimir Putinin hakimiyyətə gəlməsi böyük təkan verib. Putin 2001-ci ildə Azərbaycana tarixi səfər edib, o müddətdən iki ölkə arasında münasibətlər dinamik, aktiv xarakter almağa başlayıb".

29 aprel 2010

"I Gürcü Rəqs Olimpiadası" keçirilib

Tbilisi şəhərindəki İdman Dzü-do Kompleksində Gürcüstanın Müasir və Estrada Rəqsləri Federasiyası Tbilisi Meriyasının dəstəyi ilə ilk dəfə "I Gürcü Rəqs Olimpiadası» keçirib. Məqsəd ölkədəki istedadlı rəqs kollektivlərini üzə çıxarmaq və eyni zamanda Avropa Rəqs Çempionatlarında Gürcüstanı layiqincə təmsil edə biləcək rəqqasları tapmaqdır. Federasiyanın Prezidenti Valentina Kuzmedi **Marneulidəki Azərbaycanlıların Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən "SARVAN" rəqs qrupunu da** Olimpiadaya dəvət edib. Olimpiadada qatılanlar rəqs kollektivləri 30 nominasiya üzrə çıxış ediblər. 1000-nə qədər olimpiada iştirakçısı arasında Gürcüstanın bütün regionlarından, hətta Ermənistanda rəqqaslar olub.

Soydaşlarımızın "Sarvan" folklor rəqs qrupu 4 nominasiya üzrə səhnəyə çıxıb. Münsiflər heyətində rəqs sahəsində dünyada tanınmış şəxslər-Rusiyadan YUNESKO–nun üzvü, Beynəlxalq dərəcəli hakim, Umümrusiya Rəqs Olimpiadasının banisi Andrey Kokoulin, Amerikadan Müasir rəqslər üzrə hakim Tea Qoçiridze, Gürcüstandan Teymuraz Metreveli, Gürcüstanın Müasir və Estrada Rəqsləri Federasiyasının vitse- prezidenti Nataliya Diqmelaşvili təmsil olunublar. İki hisədən ibarət olan çıxışların sonunda "Sarvan" folklor rəqs qrupu 3 qızıl, 1 bürünc medal, diplomlar və kubok qazanıb.

29 aprel 2010

Azərbaycan lobbisi Ağ Evə hücuma keçir

Dağlıq Qarabağa yardımlar dayandırılmalı, 907-ci düzəliş isə ləğv edilməlidir

ABŞ Konqresinin Nümayəndələr Palatasında fəaliyyət göstərən Azərbaycan üzrə işçi qrupunun üzvləri Konqresin təxsisatlar komitəsinin dövlət, xarici əməliyyatlar və müvafiq proqramlar üzrə alt komitəsinin sədri xanım Nita Louiyə məktub ünvanlayıblar. "AzərTAc"ın məlumatına görə, işçi qrupunun həmsədrləri Bill Şuster, Solomon Ortiz, eləcə də fəal üzvləri Maykl Mak-Mahon və Eddi Bernis Conson tərəfindən imzalanan məktubda qanunvericilər alt komitə sədrini 2011-ci maliyyə ili büdcəsinə baxılarkən ABŞ - Azərbaycan münasibətlərinin möhkəmlənməsinə səbəb olan yardım proqramlarını dəstəkləməyə çağırıblar. Konqresmenlər vurğulayıblar ki, bir sıra mühüm məqamlar nəzərə alınmalıdır. O cümlədən Vaşinqton tərəfindən hər il Dağlıq Qarabağın separatçı rejiminə vəsaitin ayrılması dayandırılmalıdır.

Bununla bağlı narahatlığını ifadə edən Konqres üzvləri nəzərə çatdırıblar ki, beynəlxalq icma tərəfindən suveren Azərbaycanın ərazisi kimi tanınan Dağlıq Qarabağda etnik azərbaycanlı qalmayıb. Münaqişə həm Ermənistan, həm də Azərbaycan üçün olduqca həssas məsələdir.

Bəzi qruplar isə Konqresin iradəsindən öz siyasi məqsədləri üçün istifadə edirlər. Konqres üzvləri xatırladıblar ki, ATƏT-in Minsk Qrupunda həmsədr ölkə kimi təmsil olunan ABŞ münaqişədə bitərəf mövqedən çıxış edir. Alt komitə bu bitərəfliyi pozan, bölgədə ABŞ-ın etibarlı tərəfdaşı olan Azərbaycanla münasibətlərə xələl gətirən hər bir addımdan çəkinməlidir. Azərbaycanla bağlı işçi qrupunun üzvləri məktubda, həmçinin 1992-ci ildə "Azadlığa dəstək aktı"na əlavə edilən 907-ci düzəlişin birdəfəlik aradan qaldırılmasına çağırıblar. Onlar qeyd ediblər ki, bu düzəliş ABŞ-ın Azərbaycana birbaşa yardımını qadağan edərək ölkələrimiz arasında strateji tərəfdaşlığın genişlənməsinə ciddi əngəl törədir. Konqres üzvləri bildiriblər ki, müsəlman dünyası ilə münasibətləri yaxşılaşdırmaq Obama hakimiyyətinin xarici siyasət prioritetlərindən biri olduğu təqdirdə ABŞ-ın enerji təhlükəsizliyi, beynəlxalq terrora qarşı mübarizə və digər sahələrdə etibarlı tərəfdaşı olan Azərbaycanla münasibətlər daha da qüvvətləndirilməlidir. Qrup üzvləri xanım Louidən bütün bu məqamları nəzərə alaraq həmin qeydləri qanun dilində 2011-ci maliyyə ilinin büdcəsinə daxil etməyə çağırıblar.

Azad
“Həftə içi”. -2010.-30 aprel.-N.75.-S.1.

“Dəfələrlə birləşmə adı altında DAK ən nüfuzlu ziyalıları itirib”

SƏFTƏR RƏHİMLİ: “BİRLƏŞMƏ İLƏ BAĞLI ÇABA GÖSTƏRİLMİR”

Dünya Azərbaycanlıları Konqresi(DAK) sentyabr ayında növbəti qurultayını keçirəcək. Buna qədər isə DAK bir sıra ölkələrdə müxtəlif tədbirlər təşkil edəcək. “525”ə müsahibəsində DAK-ın Azərbaycan nümayəndəliyinin rəhbəri Səftər Rəhimli bu tədbirlər, perspektivdə nəzərdə tutulan layihələr barədə daha ətraflı danışıb.

– Hazırda biz qurultaya hazırlaşırıq. Qurultayı iyun ayında keçirmək istəyirdik, amma ümumi Təşkilat Komitəsinin qərarı ilə bunu sentyabrın 15-nə təyin etdik. Eyni zamanda Kanadada, Amerikada bir sıra tədbirlər keçirməyi nəzərdə tutmuşuq. Güneydə Babək qalası ilə bağlı da tədbirlər olacaq. DAK-ın son fəaliyyəti demək olar ki, həm xaricdə, həm də Azərbaycanda yüksək qiymətləndirilir. Ona görə biz, DAK-ın İdarə Heyətinin üzvləri bu yaxınlarda Türkiyədə toplaşacaq, orda təşkilatın gələcək fəaliyyəti ilə bağlı müzakirələr aparacağıq. İdarə Heyətində 17 nəfər var və onların hər biri dünyanın fərqli ölkələrində yaşayırlar. Biz toplaşıb müzakirələr aparırıq.

İki ay əvvəl Frankfurtda, 1 ay əvvəl Kölndə toplaşdıq. Yəni müzakirələrimiz İdarə Heyəti çərçivəsində olanda ya ayda bir dəfə, görüşürük bir iki dəfə isə poltak vasitəsilə ümumi fəaliyyətimizi müzakirə edib, gündəliyimizi tərtib edirik. Ona görə də iyunda Türkiyədə görüş olacaq. Bu gün bizim Diaspora Komitəsi ilə yaxşı münasibətlərimiz var, ortaq layihələrimiz mövcuddur. Xaricdə yaşayan azərbaycanlılarla da münasibətlərimiz yüksək səviyyədədir. Azərbaycan dərnəklər ilə də iş aparırıq. Hələ qurultay ərəfəsindəyik və hazırlıqlar tamamlanmayıb.

– Bayaq qeyd etdiyiniz tədbirləri keçirməkdə məqsəd nədən ibarətdir?

– Tədbirlər əsasən bizim xaricdə yaşayan azərbaycanlılarla bağlı fəaliyyətimizin, onlarla ortaq işlər görməyin bir hissəsini təşkil edir. Nyu-Yorkda mənim də iştirak edəcəyim bir tədbir keçiriləcək orda həmçinin türk yürüşü olacaq. Həm mayın 23-ün də türk yürüşünə qatılacağıq, həm də orda İdarə Heyətinin toplantısı olacaq.

– Hazırda iki DAK fəaliyyət göstərir. Birləşmə istiqamətində hər hansı inkişaf varmı?

– Azərbaycan mətbuatında da iki DAK-ın olması barədə yazılır. Amma DAK-ın qurultayı keçirilir və orda 17 nəfər İdarə Heyətinin üzvündən 14 nəfərin verdiyi qərar yekdilliklə qəbul olunur. 14 nəfərin qərarı həlledici olursa, qurultaya gedilir. 3 nəfər DAK-ın qurultayında iştirak etmək istəmir və ayrılır, sonradan özləri yeni bir DAK qurultayı keçirmək kimi elan verirlər. Topaşıb qurultay keçirib “biz də DAK-ık” deyə ortaya çıxırlar. Mən DAK yaranandan, 97-ci ildən təşkilatın sıravi üzvü olmuşam. Sonradan bir sıra vəzifələrdə çalışmışam, bu ildən isə Azərbaycan nümayəndəliyinin sədriyəm. Yəni mən DAK-a gələndə bu gün orda olan bir çox dostlarımızın əksəriyyəti yox idi. DAK öz hədəflərin doğru-düzgün müəyyən edib və bu hədəf uğrunda az da olsa günü gündən irəli addımlayan bir təşkilatdır.

DAK ideya təşkilatıdır. Əsas fəaliyyətimiz üç istiqamətdən ibarətdir. Birinci, xaricdə yaşayan azərbaycanlılarla iş, ikinci, Azərbaycan dövlətinin xaricdə təbliğatı, üçüncü, parçalanmış Azərbaycanın bütövlüyü, tarixi ədalətsizliyə son qoyulması, oradakı insanların haqları. Kim bu ideyanı sevir, bu ideyaya yaxındır, onu özünün həyat fəlsəfəsinə çevirib, DAK-da qalır. Bura başqa məqsədlə gələn insanlar təbii ki, qala bilmir və çox az zaman keçmiş müəyyən fəsadlar törədib ayrılır. Bizim təşkilatı bu gün İran sevmir. İranını “Səhər” kanalı gecə gündüz DAK-ı, onun həmsədrlərini, İdarə Heyəti üzvlərini təhqir etməklə məşğuldur. Yəni təşkilatımız heç də hamar bir müstəvidə irəliləmir.

– Hər iki DAK-ın hədəfi, qarşıya qoyulan məqsədlər eynidirsə, bir yerdə hərəkət etməyə nə mane olur?

– DAK-da çox adam olsun, birgə fəaliyyət göstərək kimi fikirlər var. Amma bütün cəmiyyətlərdə 5 faiz pasionar qüvvə var ki, onlar məsələni həll edir. 5 faiz doğrudan da millidirsə, hədəfini düzgün müəyyənləşdiribsə, hədəfə varacaq. Təbii, ola bilər ki, bizim, cəmiyyətimizin, toplumun məsələyə baxmasında yanlışlığı olub. Ortada iki DAK anlayışı var. Amma bu, hüquqi baxımdan belə deyil. Bu gün həm dövlətimizin, həm QHT-lərin, iqtidarın, müxalifətin, hər kəsin iştirak etdiyi qurultaylar var. Məsələ qurultaylarda həll olunduğu üçün deməzdim ki, iki DAK var. Amma belə bir tendensiya gedir.

Digər tərəfdən, birləşib də burda nəyə nail olacağıq? Dəfələrlə birləşmə adı altında DAK bölük-bölük oldu. Dəfələrlə birləşmə adı altında burdan ən nüfuzlu ziyalılarımızı, aydınlarımızı itirdik. Ona görə də deyirəm ki, bu çox təbii prosesdir və bəlkə bir gün gələcək özünü DAK elan edən qarşı tərəf gəlib bizimlə birgə qurultayda iştirak edəcək və orda seçim imkanı olacaq, bəlkə də orda DAK-ın sədri olacaqlar. Belə bir açıq müstəvidə fəaliyyətimiz var. Münasibətlərimiz çox normaldır. Mən Amsterdamda tədbirdə oldum. Mehriban şəkildə işlərimiz var. Mən də istəyirəm bir olaq. Amma hələ bununla bağlı bir sifariş, çaba göstərilməsini görmədiyim üçün bir şey deyə bilmərəm.

– Bu gün dünyanın Cənubi Azərbaycanda insanların haqlarının pozulmasına yanaşmasını necə qiymətləndirirsiniz?

– Bizim işimiz bir qədər çətindir. Çünki Azərbaycandan Avropaya, Amerikaya köçən insanlarla danışmaq çox çətindir. Çünki bizim diasporamızın əsas qüvvəsini təşkil edən Güney Azərbaycandan gedən insanlardır. Onlar da fərqli zamanlarda köç ediblər. Baxın Şeyx Məhəmməd Xiyabani, Səttarxan, Pişəvəri, Şah, İslam inqilabı dönəmində və ondan sonrakı proseslərdə insanlar bölük-bölük xaricə köçüblər. Bunların çoxu siyasi fəaliyyətlə məşğul olan insanladır və onlar köçüb ordakı ideyanı da özləriylə götürüblər. Amerikada, Avropada bu ideya onun üçün çox əzizdir və onu saxlayır. Bəzən elə olur ki, dostlarımızla danışırıq, baxmayaraq ki, dünya dəyişib, onlar ABŞ-da, Avropada yaşayırlar, bunlar üçün İrandan gətirdikləri ideya çox müqəddəsdir. Ona görə elə bir fəaliyyət qurmaq istəyirik ki, burda hər kəs rahat olsun.

Avropanın Amerikaya münasibəti var, bunlar onu da saxlayırlar. Bəzən Avropa ölkələrinin birinin digərinə münasibəti pisdir, onda bu insanlarımızın da həyat tərzində, davranışlarında sezilir. Diaspora işi ilə bağlı bəzən qəzetlərdə oxuyuram ki, Azərbaycan diasporunun apardığı siyasət düzgün deyil, gördüyü bir iş yoxdur. Amma diaspora işi şou biznes işi deyil ki, tezliklə nəticə alınsın. Diaspora bir millətin, bir dövlətin uzun illər alt qatda sütunları düzəldə biləcək bir maşınıdır. Hesab edirəm ki, bizim çox yaxın zamanlarda diasporamızın fəaliyyətinin nəticəsi olacaq. Buna əminəm. O sütunlar hələ yeni-yeni qoyulur. Bir neçə formatlardan istifadə olunur. Yəni bu gün bəlli bir diaspora, lobbi fəaliyyətləri var. Biz onlardan istifadə edə bilmirik. Çünki bizim millətimizin öz xarakteri, dünyagörüşü, məsələlərə yanaşması, həyat tərzi var. Fərqliliklərimiz olduğundan biz bir neçə formatdan istifadə edirik. İnanıram ki, nəticəsi olacaq.

– Bu il keçiriləcək parlament seçkilərində iştirak etmək niyyətiniz var. Hansı dairədən namizədliyinizi verəcəksiniz?

– Namizədliyimi Nizami 25-ci seçki dairəsindən irəli sürəcəyəm. 20 ildir Nizami rayonunun ərazisində yaşayıram. Buradakı insanların problemlərindən yaxından xəbərdaram. Burda yaşayan insanlar orta statistik azərbaycanlılardır. Düşünürəm ki, bu rayondan millət vəkili seçilərəmsə, insanlara daha yaxın olub, onların problemlərinin həllinə çalışaram. İnsanlar yalnız iş yeri, rahat yollar arzusunda deyil, onlar həm də Qarabağ probleminin həllini, Təbrizdə soydaşlarının tapdanan haqlarının bərpasını tələb edirlər. Mənim həyat fəlsəfəmlə bu rayonun dəyərləri eynidir. Uzun illərdir diaspora işi ilə məşğulam və millətin haqlarının qorunmasında fəal iştirak etmişəm. Millət vəkili olaramsa, bu istiqamətdə işimi daha keyfiyyətlə həyata keçirə biləcəyimə əminəm. Mən rayonun insanlarına güvənirəm və dəstək alacağıma əminəm. Parlamentin halının dəyişməsi Azərbaycanın xaricdəki siması üçün önəmlidir. Azərbaycanın dəyərli insanları onu təmsil etməlidir. Bir millətə dəyər verərkən onun parlamentindəki vəziyyət əsas götürülür. Mənim üçün bu məsələdə müxalifət, iqtidar, bitərəf anlayışı yoxdur, insanlara ləyaqətinə, vətənə sevgisinə, ideyalarına görə dəyər vermək vacibdir. Nə edirsən et, ləyaqətlə et. Çünki ləyaqətindən keçən şəxs millətindən, dövlətindən də keçəcək. Mənim siyasi mənsubiyyətim yoxdur, seçkilərə bitərəf kimi qatılmaq fikrim var. DAK-ın namizədi olsam, mənim üçün daha yaxşı olar. Amma seçkilərə bitərəf kimi qatılmaq fikrim var.

P. Sultanova

“525-ci qəzet” – 2010 - 30 aprel -N.76.-S.5.

“Azərbaycan və Avstriya dostluq görüşü” adlı konsert keçirilib

Avstriyanın paytaxtı Vyana şəhərində Avropanın ən məşhur konsert salonlarından olan “Vyanakonzerthaus” (Wienerkonzerthaus) zalında “Azərbaycan və Avstriya dostluq görüşü” adlı konsert keçirilib. Konsertdə dünya şöhrətli Vyana Kamera Orkestri (Wienerkammerorchester) ilə bərabər xalq artisti, tarzən Ramiz Quliyev, müğənni Fəramərz Gərmrudi (İran), dirijor Əyyub Quliyev, Ceyhun Allahverdiyev (fortepiano) və Ramiz Quliyevin rəhbərlik etdiyi “Odlar Yurdu” ansamblı- Elşən Mansurov (kamança), Şirzad Fətəliyev (balaban, tütək, zurna) və Kamran Kərimov (nağara) iştirak ediblər. Əyyub Quliyevin APA-ya verdiyi məlumata görə, Vyana Kamera Orkestri ilk dəfə Azərbaycan bəstəkarları-Ü. Hacıbəyovun, Q.Qarayevin, F.Əmirovun, həmçinin, Avstriya bəstəkarı Motsartın müxtəlif janrda yazılmış əsərlərini ifa edib. Konsert proqramında Azərbaycan klassik muğamları və xalq mahnılarına da geniş yer ayrılıb.

Bəstəkar C. Allahverdiyev tərəfindən solo vokal və kamera orkestri üçün işlənilmiş Azərbaycan xalq mahnılarının F. Gərmrudi və “Odlar Yurdu” ansamblı tərəfindən ifası da böyük marağa səbəb olub. Bununla bərabər, professor Ramiz Quliyevin Avstriya və Azərbaycan bəstəkarlarının əsərlərinin ilk dəfə olaraq “Vyanakonzerthaus” salonunda ifası alqışlarla qarşılanıb. Tanınmış Avstriya bəstəkarı Maynxard Rüdenauer tərəfindən xüsusi olaraq bu gecə üçün bəstələnmiş “The İnner Waltz” (“Ürəklərdə yaşayan Vals”) əsərinin premyerası da konsertin maraqlı məqamlarından olub. Həmin kompozisiyada müəllifin arzusu ilə Azərbaycan milli musiqi alətləri – tar və balabandan istifadə olunub.

03 may 2010

Azərbaycançılıq ideyası azərbaycanlıların milli birliyinin təminatçısıdır

Gənc tədqiqatçı Yəhya Babanlı: "Hazırda regionda qüdrətli, dünyada nüfuzlu Azərbaycanın hərtərəfli inkişaf etməsinin səbəbi birinci növbədə bu ideya üstündə köklənməsidir

Son dövrlərdə gənc tədqiqatçılar elmə daha həvəslə gəlməkdədirlər. Bu isə elm sahəsinin gəncləşməsi, bu sahədə varislik prinsipinin qorunması baxımından müsbət hadisədir. Ona görə də bu cür gənc tədqiqatçıların da ictimaiyyətdə tanınması, onların fikir və təkliflərinin öyrənilməsi məqsədəuyğun olardı. Belə olduğu halda, həmin gənclər ictimaiyyətdə və elmi dairələrdə daha yaxından tanınacaq.

Bu baxımdan azərbaycançılıq ideologiyası ilə bağlı olaraq gənc tədqiqatçı, AMEA Tarix İnstitutunun Diaspor şöbəsinin aspirantı Yəhya Babanlı bizə fikirlərini bildirdi. Y. Babanlı azərbaycançılıq ideologiyasının meydana çıxdığı şəraiti belə xarakterizə edir:

- Qədim dövlətçilik tarixinə malik Azərbaycan bəşər mədəniyyətinin inkişafına hərtərəfli töhfələr bəxş edib. Bura maddi mədəniyyət abidələrindən tutmuş, elmi, intellektual potensiala malik şəxsiyyətlər də daxildir. Bu amil müasir tarixdə Heydər Əliyevin dahi simasında öz təsdiqini tapdı. Heydər Əliyevin həyat fəlsəfəsinə müxtəlif prizmalardan yanaşmaq olar. 20-ci əsrin sonunda ümumbəşəri dəyərlərə, hüquqi, demokratik, dünyəvi prinsiplərə və milli dövlətçilik ənənələrinə əsaslanan müasir Azərbaycan Respublikasının banisi, xalqımızın dünya şöhrətli dahi şəxsiyyəti, ümummilli lider Heydər Əliyev özünün fenomenal yaddaşı, yüksək təşkilatçılıq bacarığı, tükənməz enerjisi və zəhmətsevərliyi, cəsarəti, qətiyyəti və dəmir iradəsi, eyni zamanda insanpərvərliyi və qayğıkeşliyi ilə tariximizə adını qızıl hərflərlə həkk edərək yaddaşlarda əbədi izlər buraxıb.

Heydər Əliyev dühasının Azərbaycan Respublikasına Sovet Azərbaycanı KP MK-nın birinci katibi kimi rəhbərlik etdiyi (1969-1982) 14 il ərzində, Moskvada Sovet İKP MK Siyasi Büro üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi (1982-1987) Azərbaycanın tarixi keçmişinə, ulu babalarımızdan miras qalan adət-ənənəsinə, Vətəninin fundamental dəyərlərinə bağlılığı bugünkü və gələcək nəsillərə böyük hədiyyəsi olub, onun şəxsiyyətinin, dünyabaxışının milli mənəviyyatımızın ən uca zirvəsində durduğunu göstərir.

Gənc yaşlarından hüquq-mühafizə orqanlarında fəaliyyətə başlayan Heydər Əliyev o zamanın antiazərbaycan mövqeyinə sərt sinə gərərək mili məsələyə həssaslıqla yanaşmağa başlayıb. Sonradan dövlət təhlükəsizlik orqanlarında işləyərkən milli dərnəklərin yaradılmasına nail ola bilib. Bu dərnəklər vasitəsi ilə o, xalqımızın nümayəndələrində özünüdərki, milli baxışın formalaşmasına, gələcəkdə yaranan situasiyada milli dövlətçiliyin qurulmasına sıçrayan qığılcımların yaranmasına əsas vasitəçi ola bilib O biri tərəfdən isə ulu öndər milli adət-ənənələrimizin, dinimizin, tariximizin, maddi-mədəniyyətimizin dolayısı yolla saxtalaşdırılmasının qarşısının alınması ilə yanaşı mühafizəsinə xidmət edirdi.

Təsadüfi deyil ki, artıq indi-indi cəmiyyətimizə məlum olur ki, bu dövrdə millətçilik üstündə həbs olunan insanların azad olması və onların həbsinin qarşısının alınması, ulu babalarımızdan miras qalan məxsusi tarixi əşyaların, arxeoloji materialların, milli ornamentli xalçaların və incəsənət-mədəniyyət nümunələrinin qorunması ulu öndərin gizli səylərinin nəticəsi idi.

Onu xüsusilə vurğulamaq lazımdır ki, Heydər Əliyev təkcə çevik hüquq-mühafizə işçisi, peşəkar əməliyyatçı, zamanı qabaqlayan şəxsiyyət, nüfuzlu dövlət xadimi olmaqla yanaşı, həm də dərin tarixi biliyə malik tarixçi idi. Həm də Vətəninin tarixini dərindən bilən tarixçi. Bir maraqlı faktı qeyd etmək yerinə düşər. Hələ orta məktəbdə oxuduğum dövrdə yay tətillərinin birində Bakıya istirahətə gəlmişdim. Atam öz dünyagörüşünə uyğun olaraq məni muzeylərlə, teatrlarla və tarixi memarlıq abidələri ilə tanış edə-edə Azərbaycan SSR Kommunist Partiyasının Mərkəzi Komitəsinin yerləşdiyi, İndiki Azərbaycan Respublikasının Prezident Sarayı adlanan-Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının və İşlər İdarəsinin yerləşdiyi inzibati binanın önünə gətirərək bina haqqında söhbət açdı. Orada qeyd edilən fikir hələ də yaddaşımda qalmaqdadır.

Binanın Heydər Əliyevin birinci katib olduğu dövrdə, onun təşəbbüsü ilə tikildiyini və binanın səkkiz guşəli ulduzlarla bəzədildiyini söylədi. Səkkizguşəli ulduzun tarixi keçmişimizin simvolu olduğunu vurğuladı və cümhuriyyət dönəmində atributlardan biri olduğunu qeyd etdi. Bu kiçik bir nüans da o dövrdə milli dünyagörüşə sahib şəxsiyyətin xalqı üçün mətinliklə çalışdığını bariz göstərir. Öncə qeyd edim ki, tarixən ziddiyyətlərin coğrafiyası sayılan Azərbaycan keşməkeşli tarix salnaməsində milli birlik baxımından özünü təsdiq etməkdə ilk anlarda çətinlik çəkib.

Xalqımız bəşəriyyətin ən qədim xalqlarından olub, dünyəvi prinsipləri özündə əks etdirən, uca Tanrıya tapınan bir ümmət kimi humanizm keyfiyyəti ilə eyni zamanda başı bəlalar çəkib. Bunun əsas səbəblərindən biri vahid ideyanın, milli özünüdərkin olmaması, milli mənlik məsələsində hamı tərəfindən ortaq məxrəcə gəlinməməsi idi. Məhz belə bir milli ehtiyac zəminində Heydər Əliyev tarix səhnəsinə çıxmışdı. Ümummilli lider mövcud dövrə qədər heç kimin bacarmadığını bacardı.

Onun millətə rəhbərlik etdiyi ilk dövrlərdən elan etdiyi, mesajlarını ötürdüyü yeni məfkurə millətin yeganə ideoloji istinadgahına çevrildi. Belə ki, tarixən yer adı kimi səslənən bir məkanın adından istifadə olunmaqla millibirliyin təminatçısı olan ideologiya yarandı. Bu yeni məfkurə birmənalı olaraq millət tərəfindən qəbul olunan
"azərbaycançılıq" idi.

- Azərbaycançılığın ideologiya kimi xüsusiyyətlərini necə xarakterizə etmək olar?

- "Azərbaycançılıq" təkcə Azərbaycanın hüdudları çərçivəsində yaşayan 9 milyonluq polietnik xalqın birləşdiricisi yox, həm də planetdə yaşayan 50 milyonluq azərbaycanlının və özünü azərbaycanlı hesab edən hər bir dünya vətəndaşının milli kimliyinin təsdiqçisidir.

Geniş fəlsəfi anlamı özündə cəmləşdirən bu ideya həm milli birliyimiz, həm də coğrafi bütövlüyümüzə özül olmaqla yanaşı milli-psixoloji vəziyyətimizi sabitləşdirə bildi.

Hazırda regionda qüdrətli, dünyada nüfuzlu Azərbaycanın hərtərəfli inkişaf etməsinin səbəbi birinci növbədə bu ideya üstündə köklənməsidir. İdeya milli inkişaf modelinin şaxələnməsində bir nömrəli amildir. Bu nəzəriyyə milli strateji məqamı özündə cəmləşdirərək özünüdərk və özünütəsdiqlə nəticələndi. Belə ki, planetin bugünkü mənzərəsində heç də yalnız siyasi və iqtisadi maraqlar kəsişmir, eyni zamanda milli-mənəvi inkişaf mühüm əhəmiyyət kəsb edir. Ulu öndər milli dövlətçiliyə həssaslıqla yanaşaraq belə fikir söyləmişdi: "Dövlətçilik insanlarda vətənpərvərlik duyğusunu, Vətən anlamının milli mənə daxil edilməsini nəzərdə tutur. Əgər hər hansı bir ölkədə hər kəs təkcə öz mənafeyini, ailəsinin mənafeyini düşünürsə, xalqın taleyinə, ümummilli siyasi və iqtisadi mənafelərə biganədirsə - deməli, burada dövlətçilik ənənələri yoxdur.

Gərək hər bir vətəndaş ölkəsinin böyük siyasəti haqqında düşünsün". Mövcud dövrə qədər xaricdə yaşayan azərbaycanlılar pərakəndə şəkildə icmalarda təmsil olunurdularsa, artıq bu paradiqma bütövləşməni təşkil edərək diaspor təşkilatlarında təşəkkül tapdı. İcmaçılıq diasporçuluqla əvəz olundu. Diasporçuluq isə lobbiçiliyə meyilləndi. Məhz Heydər Əliyev insanların şüurunda fərdi yanaşmanı kollektiv düşüncə tərzi ilə əvəz edə bildi. O, Azərbaycanın diaspor siyasətinin parametrlərini, lobbi fəaliyyətinin istiqamətlərini müəyyənləşdirdi.

- Azərbaycançılığın intişar tapması yolunda ilkin dövrlərdə görülən real tədbirlər barədə daha nələri demək olar?

- Bir məsələyə də diqqət yönəltmək istərdim. Bu, milli kadr potensialının formalaşdırılmasıdır. Bu məsələ forma baxımından adi görünsə də, dərin məzmun daşıyır. Beləliklə, o dövrdə istər daxili ali orta ixtisas məktəblərində, istərsə də xaricə təhsil almağa göndərilən Azərbaycan vətəndaşları içərisində çoxluğu qeyri-azərbaycanlılar təşkil edirdi. Lakin əbədiyaşar liderimizin şəxsi səyi nəticəsində bu sahədə köklü dəyişiklik edildi. Ələlxüsus da strateji sahələr üzrə… Bura hərbi, aviasiya, diplomatiya və başqa ixtisas sahiblərinin yetişdirilməsi kimi sahələr aid edilə bilər. Bu sahələrdə məhz Heydər Əliyevin siyasəti nəticəsində azərbaycanlılar dominantlıq təşkil etməyə başladı ki, bu da çox uzaqgörən və milli birliyin gücləndirilməsinə hesablanan siyasətin nəticəsi idi.

Bu dövrdə respublikada yürüdülən təhsil siyasətinin uğurlu nəticələrindən biri də ondan ibarət oldu ki, 1970-ci ildən etibarən hər il 1000-ə yaxın azərbaycanlı gənc Azərbaycandan kənarda - keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində təhsil almaq imkanı əldə etdi. Bu, milli kadr potensialının keyfiyyətinin yüksəldilməsi baxımından çox böyük əhəmiyyət kəsb edən məsələ idi. Məhz elə bu dövrdən başlayaraq Azərbaycanın hüdudlarından kənarda elmi-diaspor potensialımız yaranmağa başladı.

Azərbaycanda təhsil, elm sahələrində təkamülün yeni mərhələsi başladı və təhsil işçilərinə, elm adamlarına xüsusi diqqətlə yanaşılmaq ənənəsi qoyuldu. Bu zamandan başlayaraq azərbaycanlı alimlər ən yüksək dövlət mükafatları ilə təltif olunur və ittifaq miqyasında tanınmağa başlayırdılar. Dövlətin dəstəyi ilə onların əsərləri Rusiyada, hətta xarici ölkələrdə çap edilirdi, respublikada böyük elmi konfranslar keçirilirdi.

Tez-tez qeyd edilən bir fikri təkrarlamaq istəyirəm. 1972-ci ildə Naxçıvanski adına hərbi məktəbin açılması, hərbi sahədə milli kadrların hazırlanması suverenliyimiz yönündə atılan ilk böyük addım idi. Bu məsələ çox önəmli və dövlətçilik üçün taleyüklü məsələ idi. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunarkən müasir Azərbaycan artıq müstəqil bir dövlət kimi yaşamağa tamamilə hazır idi.

O cümlədən xüsusi vurğulamaq lazımdır ki, Heydər Əliyevin müasir Azərbaycanı Şərqdə ilk dəfə demokratik dövlət kimi dünya tarixinə düşən Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etməsi tarixi keçmişimizə, milli mənəviyyatımıza verilən ən yüksək dəyərin təcəssümü idi. Bir sözlə, Heydər Əliyev Azərbaycanın milli dirçəlişinin, həmrəylik və birliyinin, qurtuluşunun banisidir. Bu gün ulu öndərin bəşəri dəyərlər və milli meyarlar əsasında davam etdirilən dövlətçilik strategiyasını Prezident İlham Əliyevin yeni çalarlarla yürütməsinin nəticəsidir ki, müstəqil Azərbaycan keçmiş sovetlər məkanında ən dinamik inkişaf edən dövlət statusu qazanmaqla geosiyasi qüdrətə malik dövlətə çevrilib.

Məhz bu ideya dünyada yaşayan Azərbaycan toplumunu bir araya gətirməyə müvəffəq oldu. Bakı şəhəri Azərbaycanın deyil, dünyanın beş qitəsinin paytaxtına çevrildi. Beləliklə, Bakı şəhəri Azərbaycan tarixinin ən önəmli hadisələrindən sayılan 23 may 2001-ci ildə Heydər Əliyevin sərəncamı ilə 9-10 noyabr 2001-ci ildə Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayının, Prezident İlham Əliyevin fərmanı ilə 2006-cı il mart ayının 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsinə ev sahibliyini etdi. Bu işlərlə dünyada yaşayan soydaşlara-həmvətənlərə qucaq açıldı, onların bir mərkəzdən koordinasiya olunmalarına mesaj verildi, onların arxalarında müstəqil, müasir dövlətin olduğu rəsmi bəyan edildi. Həmçinin Azərbaycan Prezidentinin 2002-ci il 5 iyun tarixli 730 saylı fərmanına uyğun olaraq Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi yaradıldı. Daha sonra bu məsələyə konseptual yanaşılaraq işlərin daha da geniş müstəviyə çıxarılması üçün 21 fevral 2003-cü ildə "Xaricdə Yaşayan Azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq edildi.

Dövlət-diaspor münasibətlərində yeni mərhələnin yaranmasına şərait yarandı. 19 noyabr 2008-ci il tarixində Prezident İlham Əliyev bu sahədə konkret işin görülməsi və zamanın tələblərinə uyğun iş mexanizmin fəaliyyəti üçün Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin əsasında Azərbaycan Respublikasının Diaspor ilə İş üzrə Dövlət Komitəsi yaradılması barədə sərəncam imzaladı. Görülmüş işlər içərisində 2006-cı il iyunun 5-də Türkiyənin Antalya şəhərində Dünya azərbaycanlıları ziyalılarının I forumunun keçirilməsi, Dünya Azərbaycanlılarının Həmrəylik xartiyasının təsdiqi, Avropa Azərbaycanlılar Konqresinin və digər təşkilatlarının fəaliyyət proqramlarının təsdiqi, o cümlədən, gənclər təşkilatlarının geniş vüsət alması mühüm hadisələrdəndir. Eyni zamanda 2010-cu ildə dünyada yaşayan azərbaycanlı gənclərin I forumunun keçirilməsi nəzərdə tutulub ki, bu da diasporun gəncləşməsi, lobbi fəaliyyətinin yeni vüsətlə inkişafına töhfə olacaq. 2007-ci il martın 9-da Bakı şəhərində Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumunun keçirilməsi və birgə fəaliyyət haqda Bəyannamənin, Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyasının qəbul edilməsi də bu sahədə keyfiyyətcə yeni mərhələdən xəbər verir. Bütün bunlar bir daha sübut edir ki, ümummilli liderin banisi olduğu azərbaycançılıq ideyasının dünya azərbaycanlılarının konsolidasiyasında, milli mənlik şüurunun tamamlanmasında və milli özünüdərk qabiliyyətinin yüksək mərhələyə gəlib çatmasında önəmli rolu danılmazdır. Millətimiz ulu öndərin azərbaycanlıları bir amal uğrunda birləşdirən bu nəhəng azərbaycançılıq missiyasını lazım olduğu qədər qiymətləndirir, onun əhəmiyyətini zaman keçdikcə daha aydın və dərindən dərk edir. Bu gün də onun millətimiz üçün qoyduğu bu sarsılmaz yolla inamla irəliləməkdəyik.

İlkin
“Palitra” – 2010 - 4 may -N.47.-S.5.

Məmməd Xəlil oğlu Məmmədovun xatirəsi xüsusi ehtiramla anılmışdır

Mayın 4-dən başlayaraq Niderlandın bütün şəhər və yaşayış məntəqələrində 1941-1945-ci illərin Böyük Vətən müharibəsinin iştirakçılarına həsr olunmuş silsilə tədbirlər keçirilib.Azərbaycanın Hollandiyadakı səfirliyindən bildirmişlər ki, Oistervayk şəhərində təşkil olunmuş mərasimdə Niderlandın Antifaşist Müqavimət Hərəkətinin fəallarından biri kimi tanınan azərbaycanlı Məmməd Xəlil oğlu Məmmədovun xatirəsi xüsusi ehtiramla anılmışdır.

1923-cü ildə Zaqatala rayonunda anadan olmuş və 1941-ci ildə sovet ordusuna hərbi xidmətə çağırılmış Məmməd Məmmədov Ukraynanın Don şəhəri ətrafındakı döyüşlər zamanı əsir düşmüş, 1943-cü ildə faşistlərin Niderlandın Oistervayk şəhərində yerləşən əsir düşərgəsinə göndərilmişdir. Lakin o, bir müddət sonra buradan qaçmağa nail olmuş və "Medo" adı altında Hollandiyanın azadlığı uğrunda Şimali Brabant meşələrində aparılan müqavimət hərəkatında fəal iştirak etmişdir.

Müharibədən sonra müqavimət dövründə ona yardım göstərmiş hollandiyalı Mariya Sebreqtlə ailə qurmuş və Oistervayk şəhərində məskunlaşmışdır. 2003-cü ildə vəfat etmiş Məmməd Məmmədov müharibə zamanı göstərdiyi qəhrəmanlıq və Hollandiyanın müharibədən sonrakı yenidənqurma işlərində xidmətlərinə görə bu ölkənin ən yüksək hərbi ordeni – "Oranc-Nassau Kral ailəsinin Cəngavəri", "Müqavimət döyüşçüsü" və "Sədaqətli Xidmət" medalları ilə Kraliça tərəfindən təltif edilmiş, həmçinin 26 minlik Oistervayk şəhərinin ilk fəxri vətəndaşı adına layiq görülmüşdür.

Anma mərasimində Oistervaykın meri Hans Yanssen əfsanəvi "Medo"nun Niderlandın faşizmdən azad olunmasında göstərdiyi xidmətlərini və təltiflərini xüsusi vurğulamış, Məmməd Məmmədovun xatirəsinin şəhərdə əbədiləşdirilməsinin zəruriliyini qeyd etmişdir. Hans Yanssen şəhər meriyasının dəvəti ilə mərasimdə iştirak edən Azərbaycanın Niderlanddakı səfiri Fuad İsgəndərova və səfirliyin əməkdaşlarına minnətdarlığını bildirmiş, Azərbaycan hökumətinin müharibə iştirakçıları olmuş həmvətənlərinin talelərinə olan marağını yüksək qiymətləndirmişdir.

Sonda Məmməd Məmmədovun məzarı üzərinə və İkinci Dünya müharibəsinin iştirakçılarının xatirəsinə həsr edilmiş abidənin önünə əklil və güllər qoyulmuşdur.

04 may 2010

DİDK-nın sədri Nazim İbrahimov İsrail Baş nazirinin dəftərxanası yanında əlaqələr üzrə büronun rəhbəri ilə görüşüb

Bu gün İsraildə səfərdə olan Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov İsrail Baş nazirinin dəftərxanası yanında əlaqələr üzrə büronun rəhbəri xanım Naomi Ben-Ami ilə görüşüb. Görüşdə Azərbaycan ilə İsrail arasında münasibətlər, hər iki ölkənin KİV-ləri arasında əlaqələrin genişləndirilməsi, Azərbaycan və yəhudi diapsorları arasında əməkdaşlığın potensialı və perspektivləri və digər aktual mövzular müzakirə olunub.

Söhbətdə İsraildə Azərbaycan haqqında daha geniş və dolğun məlumatların, eləcə də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əsl həqiqətlərin İsrail ictimaiyyətinə çatdırılması üçün bu ölkənin KİV nümayəndələrinin Azərbaycana səfərinin təşkilinin əhəmiyyəti vurğulanıb, jurnalistlər arasında təcrubə və informasiya mübadiləsinin genişləndirilməsinin, qarşılıqlı səfərlərin təşkilinin əhəmiyyəti xüsusi qeyd edilib. Bir sıra məsələlərdə beynəlxalq tribunalarda Azərbaycan və İsrail diaspor təşkilatlarının eyni mövqedən çıxış etməsinin vacibliyi bildirilib.Daha sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

05 may 2010

Təl-Əvivdə "Ön Asiya: kütləvi informasiya vasitələri və regional münaqişələr" mövzusunda beynəlxalq konfrans keçirilib

Bu gün İsrailin Təl-Əviv şəhərində «Ön Asiya: kütləvi informasiya vasitələri və regional münaqişələr» mövzusunda beynəlxalq konfrans işə başlayıb. Konfransda ABŞ, Almaniya, Gürcüstan, Ukrayna və Rusiyadan politoloqlar, jurnalistlər və ictimai xadimlər iştirak edirlər. Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının təşkilatçılığı ilə təşkil olunmuş tədbirin məqsədi dövlət rəsmlərinin, regiondakı prosesləri dərindən bilən politoloqların və mütəxəssislərin, habelə Azərbaycan, İsrail, ABŞ, Rusiyada, Ukrayna, Gürcüstanda fəaliyyət göstərən rusdilli kütləvi informasiya vasitələri rəhbərlərinin iştirakı ilə medianın münaqişələrin həllində roluna dair müzakirələr aparmaqdır.Azərbaycanı bu tədbirdə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun rəhbərliyi ilə geniş nümayəndə heyəti təmsil edir.

Konfransı Azərbaycan-İsrail Beynəxalq Assosiasiyasının rəhbəri İosif Şaqal açaraq tədbirin əhəmiyyətindən danışıb, onun iştirakçı dövlətlərin mətbu orqanları arasında əlaqələrin inkişafında mühüm rol oynadığını söyləyib. İlk çıxış edən İsraili Baş nazir dəftərxanası yanında əlaqələr üzrə büronun rəhbəri xanım Naomi Ben-Ami konfransın əhəmiyyətindən danışıb, konfransın işinə uğurlar arzulayıb. Konfransda Dövlət Komitəsinin sədri Nazim İbrahimov çıxış edərək Azərbaycanda həyata keçirilən islahatlar, İsrail-Azərbaycan münasibətlərinin inkişaf perspektivləri, əlaqəklərin inkişafında dövlətlərimizin başçılarının rolu, Dağlıq Qarabağ münaqişəsi, İsrai-Azərbaycan arasında əlaqələrin genişlənməsində və möhkəmlənməsində diasporun rolu və digər məsələlər barədə ətraflı məlumat verib.

Daha sonra çıxış edən Knessetin deputati, "İsrail bizim evimizdir" partiyasinin parlamentdəki fraksiyasının rəhbəri Robert İlatov Azərbaycan və Israil dövlətləri arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edib, ölkəsinin Azərbaycanla əlaqələrin hərtərəfli olduğunu maraqlı olduğunu vurğulayıb. R.İlatov regionda mövcud olan problemləyin həllində KİV-in rolunu qeyd edib, bu baxımdan konfransın mühüm əhəmiyyət kəsb etdiyini bildirib. Konfrans iki gün davam edəcək.

05 may 2010

Nazim İbrahimov mayın 6-da İsrailin xarici işlər naziri Aviqdor Libermanla görüşüb

İsraildə səfərdə olan Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov mayın 6-da İsrailin xarici işlər naziri Aviqdor Libermanla görüşüb. Nazim İbrahimov Azərbaycanın iqtisadi inkişafı, həyata keçirilən islahatlar, ölkəmizin regionda və dünyada möhkəmlənən mövqeyi barədə ətraflı məlumat verib. Dövlət Komitəsinin sədri bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkələrimiz arasındakı dostluq münasibətləri yeni müstəviyə qədəm qoyub. N.İbrahimov münasibətlərimizin yüksək səviyyəyə çatmasında Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevin xidmətlərini xüsusi qeyd edib, milli liderin siyasi kursunu Prezident İlham Əliyevin uğurla davam etdirdiyini bildirib.

Aviqdor Liberman əlaqələrimizin inkişaf səviyyəsindən razılığını vurğulayıb, münasibətlərimizin daha da genişlənməsində dövlət başçılarının rolunu xüsusi qeyd edib. İsrailin xarici siyasət idarəsinin rəhbəri Azərbaycanın regionda və dünyada artan nüfuzunu yüksək qiymətləndirib.

Söhbətdə ölkələrimizin arasında bütün sahələrdə əlaqələrin inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb. Dostluq münasibətlərinin inkişafında diaspor təşkilatlarının iştirakı ilə beynəlxalq tədbirlərin, "dəyirmi masa"ların, görüşlərin keçirilməsinin vacibliyi qeyd olunub.

06 may 2010

Dünya azərbaycanlılarının diaspor kimi təşkilatlanması
Ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır

Bu gün dünyada gedən proseslər, torpaqlarımızın bir hissəsinin işğal altında olması, ölkəmizə qarşı fəaliyyət göstərən erməni diasporunun mövcudluğu dünya azərbaycanlılarının birliyini zəruri edən başlıca amillərdir. Əslində, bu birlik, həmrəylik zərurəti hər zaman olub. Lakin xalqımızın bir zamanlar çar Rusiyası, daha sonra isə SSRİ adlı imperiyanın əsarəti altında qalması bir çox sahələrdə olduğu kimi, milli ideologiya və diaspora quruculuğu sahəsində də hər hansı addımın atılmasının qarşısını alıb. Daha doğrusu, sözügedən imperiyaların yürütdükləri siyasət ucbatından ortaya çıxan bu və digər amillər dünya azərbaycanlılarını bir hədəf ətrafında birləşdirə biləcək, xalqımızın və dövlətimizin milli maraqlarını müdafiə edəcək ideoloji konsepsiyanın işlənib hazırlanmasına, həmçinin, diasporumuzun formalaşmasına mane olurdu. Bununla belə, son illər xaricdə yaşayan həmvətənlərimiz yeni tarixi şəraitin tələbinə uyğun olaraq milli-mədəni yöndə təşkilatlanmağa başlayıblar. Bu təşkilatlanmanın əsasını isə xalqımızın və dövlətimizin xilaskarı, Ulu öndər Heydər Əliyev qoyub.

Daha doğrusu, bütün dünyadakı azərbaycanlıları bir çətir altında birləşdirəcək ideoloji konsepsiyanın hazırlanması kimi məsuliyyətli, tarixi və şərəfli missiyanı da həyata keçirən məhz müstəqil və müasir Azərbaycan dövlətçiliyinin banisi, Ümummilli liderimiz Heydər Əliyev oldu. Bu konsepsiya xaricdəki Azərbaycan diasporunun əməli fəaliyyəti üçün proqram rolunu oynadı. Əslində, Ulu öndər bu işin əsasını 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəldiyi zaman qoymuşdu. Çünki dünyada yaşayan azərbaycanlıların bir-biri ilə əlaqə saxlaması Heydər Əliyevin hələ sovet Azərbaycanına rəhbərliyi zamanında diqqət mərkəzində idi. Ulu öndər Heydər Əliyev o dövrdə azərbaycanlı gəncləri sovetlər ittifaqının tanınmış ali məktəblərinə təhsil almağa göndərərkən diaspor işinin təməlini qoyurdu. İllər sonra Ümummilli lider Heydər Əliyev həmin dövrü belə xatırlayırdı: "O vaxtlar azərbaycanlıları başqa yolla sovetlər ittifaqına səpələyib dayaq yaratmaq istəyirdim. İndi isə sərhədlər açılıb, azərbaycanlılar hər yerdə yaşaya bilər. Bir şərtlə ki, gərək millətini, dinini, torpağını və ana Vətənini unutmayasan".

Ötən əsrin 90-cı illərin əvvəllərindən etibarən isə Ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri kimi SSRİ dönəmində başladığı işi davam etdirdi. Belə ki, məhz Ümummilli liderimizin təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" qəbul olunan qərar Azərbaycan diasporu arasında əlaqələrin möhkəmlənməsi yolunda çox mühüm addım oldu. Bu qərarın qəbulundan başlayaraq hər il dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunur.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən ölkə rəhbərliyinə gələn Ulu öndər tezliklə diasporumuza sahib çıxdı. Məhz Onun rəhbərliyi ilə müxtəlif ölkələrə səpələnmiş azərbaycanlıların vahid ideologiya, bir məqsəd ətrafında təşkilatlanması üçün əməli tədbirlər görülməyə və uzunmüddətli perspektivlərə hesablanmış siyasət yürüdülməyə başlandı. Həmin illərdə Ulu öndər Heydər Əliyevin dövlət başçısı kimi rəsmi və işgüzar səfərləri çərçivəsində xaricdə yaşayan azərbaycanlılarla görüşməsi, onların fəaliyyətləri ilə tanış olması, soydaşlarımızı Azərbaycanda investisiya layihələrində iştirak etməyə dəvət etməsi bu istiqamətdə göstərilən diqqətin bariz nümunəsidir. Diaspor nümayəndələri ilə görüşmək, onların Azərbaycana gəlməsini təşviq etmək ənənəsinin əsasını qoyan ilk dövlət başçımız Ulu öndər Heydər Əliyev oldu. Dövlət başçısı seçildikdən üç ay sonra (1994-cü ilin yanvarında) Ümummilli lider Heydər Əliyev Almaniyada yaşayan soydaşlarımızın bir qrupunu qəbul etməklə böyük bir ənənənin əsasını qoydu. Əksər ekspertlərin də qeyd etdikləri kimi bu görüşün Avropadakı soydaşlarımızın milli-ictimai fəaliyyətinə təsiri böyük oldu və dövlət-diaspor əlaqələrində yeni mərhələ başladı.

Məhz Heydər Əliyevin produktiv fəaliyyəti, qayğısı və böyük diqqəti sayəsində xaricdə yaşayan soydaşlarımız Azərbaycanın milli maraqları uğrunda daha əzmlə fəaliyyət göstərməyə başladı, doğma vətənləri ilə əlaqələrini möhkəmləndirdi, ölkəmizin dövlət quruculuğu prosesində yaxından iştirak etməyə və burada gördükləri real həqiqətləri bütün dünyaya yaymağa başladı. Ulu öndər Heydər Əliyev dövlət başçısı kimi fəaliyyət göstərdiyi ilk illərdə müstəqil dövlətimizin haqq səsini, həqiqətlərini dünya azərbaycanlıları vasitəsilə yaymağı qarşısına məqsəd qoyan xüsusi qurumun yaradılması sahəsində ilk addım atdı, Prezidentin İcra Aparatında Dünya azərbaycanlıları və beynəlxalq qeyri-hökumət təşkilatları ilə iş bölməsi yaradıldı. Bu instansiya Ümummilli liderimiz Heydər Əliyevin bilavasitə rəhbərliyi altında geniş fəaliyyət göstərərək, dünyada yaşayan azərbaycanlılarla əlaqə yaratdı və onların təşkilatlanması, milli birliyin möhkəmlənməsi istiqamətində böyük işlər gördü.

Bu işlərin nəticəsi olaraq xaricdə yaşayan soydaşlarımız arasında milli birlik ideyalarının gücləndirilməsi məqsədilə 2001-ci il noyabrın 9-10-da Bakıda dünya azərbaycanlılarının birinci qurultayı keçirildi. Qurultayda proqram xarakterli nitq söyləyən dünya azərbaycanlılarının lideri Heydər Əliyev haqlı olaraq bu tədbirin təşkil edilməsini müstəqil dövlətçiliyimizin böyük tarixi nailiyyəti hesab etdiyini bildirdi.

Beləliklə, tarixdə ilk dəfə olaraq, dünya azərbaycanlılarının vətənimizin paytaxtı Bakı şəhərində belə bir mötəbər qurultaya toplanması birmənalı olaraq Ulu öndər Heydər Əliyevin adı və fəaliyyəti ilə əlaqələndirilməlidir. Belə ki, 2001-ci il mayın 23-də xüsusi Sərəncam imzalayan Ümummilli lider Heydər Əliyev belə bir qurultayın Bakı şəhərində keçirilməsini zəruri hesab etmişdi. Məlumat üçün vurğulamaq yerinə düşər ki, dünya azərbaycanlılarının, xalqımızın həyatında möhtəşəm tarixi hadisə hesab olunan bu qurultayda 35 xarici dövlətdə yaşayan həmvətənlərimizin birləşdiyi 200-dən çox müxtəlif təşkilatı təmsil edən 403 nümayəndə və 63 qonaq iştirak etmiş, çıxış edən soydaşlarımız bu mühüm tədbiri ümumxalq bayramı kimi qiymətləndirmişdilər. Qurultayda geniş nitq söyləyən Ulu öndər Heydər Əliyev bütün azərbaycanlılar üçün proqram vəzifələr müəyyənləşdirdi. Azərbaycanın mühüm problemlərinin həll olunmasında xaricdə yaşayan soydaşlarımızın qüvvəsindən səmərəli istifadə olunması məsələsini prioritet kimi ortaya qoydu: "Hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar iqtisadi cəhətdən daha da möhkəmlənib, yaşadıqları ölkələrin iqtisadi-siyasi həyatında fəal iştirak etsinlər, o ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də, müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər".

İstər bu qurultayın keçirilməsi, istərsə də Ulu öndərin xarici dövlətlərə səfərləri zamanı həmin ölkələrdə yaşayan azərbaycanlılarla görüşməsi, onların fəaliyyətləri, problemləri ilə maraqlanması soydaşlarımızın fəaliyyətinə stimul verdi. Lakin sadəcə mənəvi dəstəklə kifayətlənməyən Ümummilli lider Heydər Əliyevin 5 iyul 2002-ci ildə verdiyi Fərmanla Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Komitə xaricdə yaşayan azərbaycanlılara, onların yaratdıqları qurumlara, kütləvi informasiya vasitələrinə beynəlxalq hüquq normaları çərçivəsində öz tarixi Vətəni ilə əlaqə yaratmaq, ana dilini, milli-mənəvi dəyərləri mənimsəmək, yaşatmaq və inkişaf etdirmək məqsədilə müxtəlifyönlü təşkilati, informasiya, maddi və mənəvi yardım göstərir.

Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması ilə dövlət-diaspor əlaqələrinin daha da möhkəmlənməsi üçün ideya-nəzəri və təşkilati şəraitin hazırlanması işi başa çatdı. Bu tədbirlər yetərincə hazırlıqlı olan milyonlarla soydaşımızı "Vahid Azərbaycan dövləti və Azərbaycançılıq" ideologiyası ətrafında sıx birləşdirdi. Eyni zamanda, "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu diaspor ilə iş istiqamətində fəaliyyətin düzgün qurulması məqsədinə xidmət edir.

Bununla yanaşı, sevindirici hal ondan ibarətdir ki, Ulu öndər Heydər Əliyevin diaspor quruculuğu sahəsində apardığı uzaqgörən siyasət bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Prezident İlham Əliyev 2008-ci ilin noyabr ayında Azərbaycan Respublikasının Diaspor ilə İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında Sərəncam imzalamaqla bir daha dövlətin diaspora siyasətinin gücləndirilməsində maraqlı olduğunu təsdiqləyib.

Yəni, Ümummilli liderin diaspor quruculuğu sahəsindəki fəaliyyətini uğurla davam etdirən Prezident İlham Əliyev də öz növbəsində ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəldilməsinə, onların vahid ideologiya və məqsədlər ətrafında birləşməsinə çalışır. Prezident İlham Əliyev bildirir ki, yalnız güclü diaspora malik xalqlar xarici siyasətdə mühüm uğurlar qazanır, dünya miqyasında mənafelərini hər zaman layiqincə qoruyur, ümummilli problemlərinin həllinə nail olur, öz dilini, mədəniyyətini, incəsənətini, tarixini lazımi səviyyədə təbliğ edir. Dövlət başçısı 2004-cü il iyulun 27-də ölkə diplomatlarının iştirakı ilə Bakıda keçirdiyi müşavirədə diaspor quruculuğu işini xarici siyasət sahəsində prioritet istiqamətlərdən biri elan etdi. 2006-cı ilin dövlət büdcəsindən diaspor quruculuğu sahəsinə 5 milyon manatın ayrılması da bu diqqət və qayğının bariz nümunəsi idi. 2006-cı ilin martında Prezident İlham Əliyevin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının II qurultayının keçirilməsi ilə xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması və diaspor quruculuğu siyasətində yeni mərhələnin təməli qoyuldu. Heydər Əliyevin azərbaycançılıq, türkçülük ideyalarının təbliği ilə bağlı siyasətinin davamı olaraq, türkdilli xalqların birliyinin nümunəsi kimi Bakıda Azərbaycan və türk diaspor rəhbərlərinin birinci Forumu, Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq, Əməkdaşlıq qurultayı və digər tədbirlər keçirildi. Prezident İlham Əliyev dövlətin təkcə öz ərazisində yaşayanlar üçün yox, həm də bütün dünyadakı azərbaycanlılar üçün çalışmasını əsas qayəsinə çevirən liderdir. Dövlət başçısı, eyni zamanda, deyir: "Bizim gücümüz sizin fəaliyyətinizdir. Sizin gücünüz isə Azərbaycan dövlətinin güclü olmasıdır".

Bir sözlə, Prezident İlham Əliyev Ümummilli liderin bütün sahələrdə olduğu kimi, diaspora sahəsindəki arzu və istəklərini reallaşdırdı. Bu gün Azərbaycan diasporasının formalaşması və onun dövlətimizin xaricdəki mənafelərini yüksək səviyyədə müdafiə etməsi bu siyasətin uğurlu davamına daha bir sübutdur. Məhz aparılan bu uğurlu siyasətin nəticəsində dünyada yaşayan bütün azərbaycanlılar Azərbaycan Respublikasını özlərinin vətəni sayır və azərbaycanlı olmaları ilə fəxr edirlər.

Son olaraq onu qeyd etmək yerinə düşər ki, Ulu öndər Heydər Əliyev özünəməxsus uzaqgörənliklə qloballaşan, köklü transformasiya dövrünü yaşayan dünyanın tələblərini öncədən görür və bu səbəbdən xaricdə yaşayan soydaşlarımız arasında möhkəm həmrəyliyi həyati məsələ kimi ortaya qoyurdu. Çoxşaxəli siyasi fəaliyyətində daha bir tarixi missiyanı-dünya azərbaycanlılarının milli birliyinin ideoloqu, təbliğatçısı və təşkilatçısı kimi çətin, ancaq vacib bir missiyanı üzərinə götürən Ümummilli lider diasporumuzun formalaşmasının əsasını qoydu.

Ümummilli lider Heydər Əliyevin diaspor siyasətinin əsasını milli birlik, həmrəylik, vətəndaşlıq borcu, Azərbaycançılıq kimi prinsiplər təşkil edirdi. Bu gün həmin prinsiplər əsasında öz fəaliyyətini günün tələblərinə uyğun olaraq daha dinamik şəkildə quran, Heydər Əliyev ideyalarından mənəvi qida alan Azərbaycan diasporu ölkəmizin haqq işinin, Prezident İlham Əliyevin rəhbərliyi ilə gerçəkləşən islahatların mahiyyətini dünyaya olduğu kimi çatdırmaq üçün gecə-gündüz çalışır.

İsmayıl Ağayev
“Yeni Azərbaycan” – 2010 - 6 may -N.79.-S.3.

Hadera şəhərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adını daşıyacaq xiyabanın təməlqoyma mərasimi olub

Mayın 6-da İsrailin Hadera şəhərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adını daşıyacaq xiyabanın təməlqoyma mərasimi olub. Mərasimdə çıxış edən Hadera şəhərinin meri Xaim Avinat deyib ki, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev dünya tarixində ədalətli və insanpərvər dövlət başçısı kimi yaddaşlarda yaşayır. Heydər Əliyev Azərbaycanda olan millətlər arasında heç bir fərq qoymayıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan dünyanın ən tolerant ölkəsi kimi tanınır. "Haderada bu parkın yerləşdiyi küçəyə Yəhudi dövlətinin əsasını qoymuş dahi insan Hertselin adı verilmişdir. Bu küçədə yəhudi xalqının yaxın dostu və lideri Heydər Əliyevin adını daşıyan parkın açılması bizim ürəyimizcədir" deyən mer əlaqə edib ki, biz dünya miqyaslı bir siyasi xadimin - Heydər Əliyevin adının Haderada əbədiləşdirilməsindən qürur duyuruq. Xaim Avinat deyib ki, məhz bu küçədə Heydər Əliyev parkının yanında musiqi məktəbi açılacaq, kompleks yaradılacaq. Bu həm də Azərbaycanla Hadera arasında dostluq körpüsünün təməlidir. Mer, ulu öndər Heydər Əlieyev siyasi kursunu layiqincə davam etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq edib, dostluq əlaqələrimizin bundan sonra da inkişaf edəcəyini bildirib. Sonra çıxış edən Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov ilk növbədə, ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı qərara görə Azərbaycan hökuməti adından xarici işlər naziri Aviqdor Libermana, Hadera şəhərinin meri Xaim Avinata və bütün şəhər ictimaiyyətinə minnətdarlığını ifadə edib və xiyabanın açılışının xalqlarımız arasındakı dostluq əlaqələrinin daha da möhkəmlənməsinə, həyatımızın bütün sahələrindəki əməkdaşlığın genişlənməsinə xidmət edəcəyinə əmin olduğunu bildirib. O deyib ki, ulu öndər Heydər Əliyev ölkəmizdə tolerantlığın möhkəmlənməsində müstəsna xidmətlər göstərib. Heydər Əliyevin diqqət və qayğısı sayəsində respublikada qədim ənənələrə malik olan yəhudi icmasının mədəni irsi dövlət tərəfindən daim qorunub. Məhz bu diqqət və qayğının təzahürü olaraq, Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ibrani bölməsi açılıb, Azərbaycan Milli Elmlər Akademiyasının Etnoqrafiya İnstitutu isə Rusiyanın "Yəhudi mədəniyyətinin qorunması və inkişafı fondu" ilə birgə "Yəhudilər Azərbaycanda" kitabını hazırlayıb. DİDK sədri onu da qeyd edib ki, bu gün respublikada 7 yəhudi dini icması qeydiyyatdan keçib. Bakıda nəzəriyyəçi-fizik, Nobel mükafatı laureatı Lev Landau, respublikanın əməkdar həkimi Solomon Qusman, müharibə qəhrəmanı Albert Aqarunov və digər tanınmış yəhudi şəxsiyyətlərinin yaşadıqları binalarda xatirə lövhələri qorunub saxlanılır. Milli lider Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ildən sonra dövlət daha iki sinaqoqu yəhudilərə qaytarıb. Indi Bakıda 3, Oğuz və Qubada isə 1 yəhudi sinaqoqu mövcuddur, 2003-cü ildə Bakı şəhərində açılmış sinaqoq hazırda Avropada yerləşən ən böyük sinaqoqdur. Nazim İbrahimov deyib ki, Azərbaycanda yəhudi mədəniyyət mərkəzləri, dini icmalar, məktəblər fəaliyyət göstərir. 2003-cü ilin sentyabrında Bakıda ilk ümumtəhsil yəhudi məktəbi açılıb. "Milli lider Heydər Əliyev yəhudi icmasının Azərbaycanın iqtisadi və sosial-mədəni inkişafındakı rolunu həmişə çox yüksək qiymətləndirib" deyən Komitə sədrinin sözlərinə görə, Hadera şəhərinin mərkəzində Azərbaycan xalqının ümummilli liderinin adını daşıyan xiyabanın təməlqoyma mərasiminin keçirilməsi Yəhudi xalqının böyük dövlət xadimi Heydər Əliyevin xatirəsinə dərin ehtiramının və Azərbaycana olan sevgisinin parlaq təzahürlərindən biridir. "Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsasını ulu öndər Heydər Əliyevin qoyduğu tarixi ənənələri uğurla davam etdirməkdədir.

Azərbaycan Prezidenti ölkəmizdə tolerantlığın qorunub saxlanılması, qarşılıqlı etimada dayanan vətəndaş həmrəyliyinin möhkəmləndirilməsinə istiqamətlənmiş siyasət yürüdür. Əminəm ki, bizim birgə, qarşılıqlı fəaliyyətimiz Azərbaycan və İsrail xalqları əlaqələrin daha da möhkəmlənməsinə xidmət edəcək". Nazim İbrahimov belə deyib. İsrail Knessetinin deputatı xanım Faina Kirşenbaum isə çıxışında deyib ki, beynəlxalq aləmdə siyasi proseslərin gərgin olduğu bir vaxtda Azərbaycan-İsrail əlaqələrinin yaxınlaşması hamıya yaxşı nümunə olmalıdır. Bu gün Hadera şəhərində İsrail xalqının yaxın dostu, öz ədalətliyi, prinsipiallığı və insanpərvərliyi ilə seçilmiş Heydər Əliyevin adının əbədiləşdirilməsi bizi daha da yaxınlaşdırır, dostluğumuzu daha da möhkəmləndirir. Biz Heydər Əliyev kimi tarixi şəxsiyyətin adının əbədiləşdirilməsindən qürur duyuruq.
Sonra xatirə lövhəsinin təməlqoyma mərasimi olub. Xatırladaq ki, İsraildə fəaliyyət göstərən Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının (Azİs) müraciəti əsasında Hadera şəhər bələdiyyəsi Azərbaycan xalqının milli lideri Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında qərar qəbul edib. Məhz bu qərara əsasən, Hadera şəhərinin mərkəzində yerləşən xiyabanda ulu öndər Heydər Əliyevin xatirə lövhəsinin təməl daşı qoyulub və xiyaban Azərbaycanın milli liderinin adını daşıyacaq. Xiyabanda əsaslı yenidənqurma və abadlaşdırma işləri də aparılacaq. Qeyd edək ki, Haderada əslən Azərbaycandan olan böyük icma yaşayır. Bu şəhər Tel-Əvivin yaxınlığında yerləşir, yaşıllıqla zəngin ərazidir, ulu öndər Heydər Əliyevin adına verilən xiyaban isə şəhərin mərkəzindədir. Xiyabanın açılışında Milli Məclisin üzvü Yevda Abramov, İsrailin 7 şəhərinin vitse-meri, Azərbaycandakı KİV orqanlarının, yəhudi icmalarının rəhbərləri, bir neçə ölkənin İsraildə akkreditə olunmuş səfirliklərinin əməkdaşları və şəhər ictimaiyyətinin nümayəndələri, eləcə də digər şəhərlərdə yaşayan Azərbaycan əsilli yəhudilər iştirak etmişlər. Tədbir Azərbaycan və İsrail incəsənət ustalarının ifasında konsert proqramı ilə başa çatıb.

06 May 2010

Hollandiyada erməni təbliğatı daha güclüdür

İradə Uluxanlı: "Azərbaycan diasporu qonşularımıza nisbətən daha sağlam təbliğat üsullarından istifadə edir","Gördüyümüz işlər müsbət nəticəsini verir"

Dünyanın müxtəlif ölkələrində olduğu kimi Hollandiyada fəaliyyət göstərən Azərbaycan diasporu da ölkəmizin üzləşdiyi problemlər, Ermənistan-Azərbaycan münaqişəsi və ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım siyasətinin holland ictimaiyyətinə çatdırılması istiqamətində fəal rol oynayır. Bu ölkənin Maastrixt şəhərində fəaliyyət göstərən "Vahid, bölünməz və demokratik Azərbaycan Uğrunda Birlik" Cəmiyyətinin sədri İradə Uluxanlı deyib ki, Azərbaycan diasporunun bu sahədə gördüyü işlər öz müsbət nəticəsini verir və holland cəmiyyəti Azərbaycan həqiqətləri barədə məlumatlandırılır. Rəhbərlik etdiyi cəmiyyətin fəaliyyət istiqamətləri barədə də məlumat verən İradə Uluxanlı qurumun yaxın vaxtlarda Hollandiyada həyata keçirəcəyi tədbirlərdən də danışıb.

- İradə xanım, rəhbərlik etdiyiniz "Vahid, bölünməz və demokratik Azərbaycan Uğrunda Birlik" Cəmiyyəti əsasən hansı istiqamətlərdə fəaliyyət göstərir?

- "Vahid, bölünməz və demokratik Azərbaycan Uğrunda Birlik" Cəmiyyəti olaraq Azərbaycanı hər bir sahədə təmsil edirik. Təbii ki, bunlar da müxtəlif tədbirlər keçirilməsi şəklində olur. Azərbaycan siyasətini kitab yayımı şəklində təbliğ edirik. Bu yaxınlarda isə Azərbaycanın idman sahəsində əldə etdiyi uğurları təbliğ etdik. Hollandiyanın Maastrixt şəhərindəki idman zallarından birində Azərbaycan idman günləri keçirildi. Həmin tədbirdə Azərbaycan cüdoçularının əldə etdikləri nailiyyətlər, müxtəlif beynəlxalq yarışlarda qazandıqları uğurlardan danışıldı. Bundan başqa cəmiyyət olaraq Azərbaycanın milli-mədəni sərvətləri, milli bayramlarımızı təbliğ edirik. Bir sözlə cəmiyyətin fəaliyyəti genişdir və bütün sahələrdə Azərbaycanı layiqincə təmsil etməyə çalışırıq.

- Azərbaycan həqiqətləri, Dağlıq Qarabağ problemi, xüsusilə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım siyasətini holland ictimaiyyətinə çatdırmaq istiqamətində cəmiyyət hansı işlər görür?

- Sözügedən istiqamətlərdə bu günə qədər keçirdiyimiz tədbirlər ümumi xarakter daşıyıb. Sırf Dağlıq Qarabağ problemi və ya Xocalı soyqırımı ilə bağlı tədbirlərimiz olmayıb. Ancaq cəmiyyətin keçirdiyi əksər tədbirlərdə adı çəkilən məsələlərə də diqqət yetirilib. Bununla yanaşı biz qeyd edilən məsələlərlə bağlı xüsusi tədbirlər keçirməyi nəzərdə tuturuq. Hesab edirəm ki, növbəti tədbirlərimiz bu istiqamətlərdə olacaq. Ümumiyyətlə isə Hollandiyada bu işlə məşğul olan bir neçə cəmiyyət var ki, onlar Hollandiya Azərbaycan Cəmiyyətində birləşərək Azərbaycanın Dağlıq Qarabağ problemini bu ölkənin ictimaiyyətinə çatdırmağa çalışırlar. Həmin cəmiyyət Hollandiyada mütəmadi olaraq Dağlıq Qarabağ problemi ilə bağlı tədbirlər keçirir. Onu da qeyd edim ki, sırf siyasi xarakterli tədbirlər keçirəndə holland cəmiyyəti buna bir qədər baş cür yanaşır, həmin tədbirlərdə iştiraka o qədər də maraq göstərmirlər. Ancaq başqa ad altında keçirilən tədbirlərdə həmin mövzuları da proqrama daxil edirik. Bu yolla nəsə əldə etmək olur. Həmin tədbirlərdə biz ən çox kitab yayımına üstünlük veririk.

- Ümumiyyətlə, Hollandiyadakı Azərbaycan cəmiyyətləri Dağlıq Qarabağ problemi ilə bağlı bu ölkənin ictimaiyyətini tam mənada məlumatlandıra bilibmi?

- Əlbəttə ki, çatdıra biliblər. Məhz bunun nəticəsidir ki, artıq Amsterdamda da bir sıra Azərbaycan cəmiyyətləri yaradılıb. Hətta bəzi cəmiyyətlər hollandların əli ilə Azərbaycanın tarixi ilə bağlı bəzi tədbirlər hazırlayırlar. Hesab edirəm bu aparılan təbliğatın nəticəsidir ki, gördüyümüz işlər öz müsbət nəticəsini verir.

- Hollandiyada Azərbaycan diasporunun bu günkü vəziyyətini necə qiymətləndirirsiniz? Bu ölkədəki Azərbaycan diasporunun fəaliyyətini qaneedici saymaq olarmı?

- Etiraf etmək lazımdır ki, ümumilikdə Hollandiyada diasporamızın vəziyyəti istədiyimiz səviyyədə deyil. Ölkənin şimal bölgəsində cənuba nisbətən Azərbaycan diasporu daha aktivdir. Hesab edirəm ki, bunun da müxtəlif səbəbləri var. Birincisi, Hollandiyaya azərbaycanlılar, diaspora yerli əhaliyə qaynayıb qarışmalı, kifayət qədər inteqrasiya olunmalıdır ki, onları ələ ala bilsinlər. İkincisi, ondan ibarətdir ki, Hollandiyada erməni təbliğatı bizə nisbətən daha güclüdür. Ancaq sağlam yolla təbliğata qaldıqda, əlbəttə ki, Azərbaycan diasporu qonşularımıza nisbətən daha sağlam təbliğat üsullarından istifadə edir.

- Əksər ölkələrdə ermənilər müxtəlif vasitələrlə Azərbaycan tarixi, ərazi bütövlüyünü təhrif etməyə çalışırlar. Hollandiyada da belə hallar baş verirmi və cəmiyyət olaraq buna qarşı hansı tədbirlər görürsünüz?

- Ermənilər daima qeyri-sağlam vasitələrdən istifadə edərək Azərbaycana qarşı antitəbliğat işləri həyata keçirirlər. Ermənilər Azərbaycan tarixini, ərazi bütövlüyünü təhrif edib hollandlara çatdırmaq üçün həmişə qeyri-sağlam metod və vasitələrə əl atırlar. Biz də öz növbəmizdə əlimizdə olan imkanlar və vasitələrdən istifadə edərək bu cür təxribat hallarının qarşısını almağa çalışırıq.

Hollandiyada fəaliyyət göstərən bir neçə Azərbaycan cəmiyyəti birləşərək müxtəlif tədbirlər keçirir və bununla da ermənilərin antitəbliğatının qarşısını almağa çalışır. Xüsusilə hollandları bu işə cəlb edirik ki, özləri işin içində olmaqla məsələnin məğzinə varsınlar və görsünlər ki, əsl həqiqət hansıdır. Bizim ən vacib olan məsələ ondan ibarətdir ki, yerli əhalini bu işə cəlb edə bilək və yerli əhali həmin tədbirlərdə aktiv şəkildə iştirak etsin. Hesab edirəm ki, belə olan halda keyfiyyət daha yaxşı olur.

- Hollandiyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları və cəmiyyətlərinə ermənilərin təsir imkanları nə dərəcədədir və ermənilər sizin təşkil etdiyiniz bu və ya tədbirləri pozmağa çalışırlarmı?

- Təbii ki, dünyanın hər bir ölkəsində olduğu kimi Hollandiyada da ermənilər Azərbaycan diasporunun fəaliyyətinə mane olmağa çalışırlar. Ermənilər Hollandiyada hakimiyyət orqanları kimi yerli əhalini ələ ala biliblər. Onlar bizim keçirdiyimiz bu və ya digər tədbirlərə mane olmağa çalışsalar da, istənilən nəticəni əldə edə bilmirlər. Çünki həqiqət həmişə zəfər çalır. Çünki yalan nə qədər ayaq açıb yerisə də, bir gün dayanacaq. İstənilən halda ermənilər müxtəlif vasitələrlə Azərbaycan diasporunun fəaliyyətinə mane olmağa çalışsalar da, istənilən nəticəni əldə edə bilmirlər.

- Azərbaycan diasporunun Hollandiyanın hakimiyyət dairələri, siyasi elitası ilə əməkdaşlığı hansı səviyyədədir?

- Bu barədə dəqiq bir şey söyləyə bilmərəm. Çünki biz cəmiyyət olaraq diaspora nümayəndələri, cəmiyyət rəhbərləri ilə tədbirlərdən tədbirlərə görüşürük. Bu həm vaxtla, həm də bir-birimizdən uzaq olmağımızla bağlıdır. Elə bir ciddi iş və ya layihə olmayıb ki, hakimiyyət orqanlarına müraciət edək. Ancaq təbii ki, belə bir əməkdaşlıq olmalıdır.

- Keçirdiyiniz tədbirlərdə iştirakçıları təbliğat vasitələri, kitab və broşurlarla təmin etmək üçün hansı vasitələrdən istifadə edirsiniz? Diasporla İş üzrə Dövlət Komitəsi, eləcə də Azərbaycanın digər müvafiq qurumları sizi lazımı təbliğat vasitələri ilə təmin edirmi?

- Cəmiyyət olaraq bizim Diasporla İş üzrə Dövlət Komitəsi ilə çox gözəl əməkdaşlığımız var və Dövlət Komitəsi istədiyimiz materialı, vəsaiti bizə ayırır. Nə istəsək Dövlət Komitəsi bizə yardım göstərir. Belçika və Haaqada yerləşən Azərbaycan səfirlikləri də bizə lazımı qədər material, təbliğat vasitəsi verir və biz də onlardan istifadə edirik. Ümumiyyətlə cəmiyyət olaraq bu sahədə bizim heç bir problemimiz yoxdur.

- Yaxın vaxtlarda rəhbərlik etdiyiniz cəmiyyət konkret hansı tədbirlər keçirməyi nəzərdə tutub?

- Yaxın bir həftə ərzində cəmiyyət özünün növbəti tədbirini keçirdi. Ona görə də yaxın günlərdə cəmiyyətin hansısa tədbiri planlaşdırılmayıb. Ola bilsin ki, yaxın iki-üç ay ərzində Hollandiyada Azərbaycan Musiqi Günləri keçirildi. Həmin tədbirdə Fransa və Almaniyadan gələn musiqiçilər iştirak edəcək. Onlar bizə Azərbaycan musiqilərini səsləndirməyə maraqlı olduqlarını bildiriblər. Bizdən notları istəyiblər ki, biz Azərbaycan musiqisi ifa etmək istəyirik. Bakıdan Hollandiyaya qayıtdıqdan sonra həmin tədbirə hazırlıq istiqamətində ciddi məşğul olacağıq.

- Azərbaycan Musiqi Günləri Maastrixt şəhərində təşkil ediləcək?

- Azərbaycan Musiqi Günlərinin hansı şəhərdə keçiriləcəyi hələlik tam dəqiqləşməyib. Çünki həmin musiqiçilərin bir hissəsi Fransada, digər hissəsi isə Almaniyada yaşayır, orada fəaliyyət göstərirlər. Onlar tez-tez Hollandiyanın Maastrixt şəhərinə gəlirlər. Hətta həmin musiqiçilərdən biri bizim bir müddət əvvəl keçirdiyimiz tədbirdə fleytada "Sarı gəlin" əsərini ifa etmişdi. Ondan sonra həmin şəxs bildirmişdi ki, biz qrup şəklində mütləq yenidən həmin əsəri, eləcə də bir sıra Azərbaycan mahnısını ifa etmək istəyirik.

- Hollandiyada keçiriləcək Azərbaycan Musiqi Günlərində Azərbaycanın incəsənət xadimlərinin də iştirakı nəzərdə tutulub?

- Bu dəfəki tədbirdə Azərbaycan incəsənət ustalarının iştirakı nəzərdə tutulmayıb. Cəmiyyətin bir müddət əvvəl keçirdiyi tədbirdə Azərbaycanı Türkiyədə təmsil edən, gözəl skripkaçımız Larisa Hüseynova iştirak edirdi. Həmin xanım Türkiyənin Tokat Universitetinin dosentidir və dəvətimizi qəbul edərək Hollandiyaya gəldi, təmənnasız olaraq bizim tədbirdə iştirak etdi. Larisa Hüseynova həmin tədbirdə Arif Məlikov, Fikrət Əmirov, Qara Qarayevin əsərlərini ifa etdi.

Süleyman

"Olaylar" – 2010 - 7 may.-N.72.-S.4.

Berlin şəhərində Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə beynəlxalq boks turniri keçirilmişdir

Almaniyanın Berlin şəhərində Azərbaycandan olan boksçuların iştirakı ilə xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə beynəlxalq boks turniri keçirilmişdir. Almaniyanın Maqdeburq şəhərində fəaliyyət göstərən LBN Boxpromotion idman klubunun təşkilatçılığı ilə keçirilən bu turnir Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, eləcə də ölkəmizin Almaniyadakı səfirliyi tərəfindən dəstəklənmişdir. Beynəlxalq turnirdə Azərbaycan, Almaniya, ABŞ, Ukrayna, Avstriya, Rusiya və digər ölkələrin boksçuları iştirak etmişlər. Turnirin ən maraqlı döyüşü hazırda Almaniyada yaşayan azərbaycanlı boksçu Azad Əzizov ilə Amerika Birləşmiş Ştatlarını təmsil edən Nasser Athumani arasında olmuşdur. Qarşılaşmada yüksək ustalıq nümayiş edirən həmyerlimiz 12 raundluq döyüşün 7-ci raundunda rəqibini nakaut vəziyyətinə salaraq görüşü vaxtından əvvəl başa çatdırmışdır. Qalibin şərəfinə Azərbaycan dövlət bayrağı qaldırılmış və himnimiz səsləndirilmişdir. Döyüşdən sonra Azad Əzizov barəsində fikirlərini söyləyən Beynəlxalq Boks Təşkilatının (IBO) prezidenti Benedetto Montella həmyerlimizin artıq dünyanın ən güclü boksçuları sırasında yer aldığını qeyd etmişdir. O, Azad Əzizovun peşəkar boksda yüksək karyera qazanacağına ümid etdiyini vurğulamışdır.

Almaniyanın nüfuzlu RBB telekanalı Azad Əzizovun döyüşündən canlı yayımla reportaj vermişdir.

07 may 2010

Böyük Vətən müharibəsində Qələbənin 65-ci ildönümü münasibət ilə tədbir olmuşdur

AzərTAc bildirir ki, Moskvadakı "Baku" kino-konsert kompleksində Böyük Vətən müharibəsində Qələbənin 65-ci ildönümü münasibətilə tədbir olmuşdur. Ümumrusiya Azərbaycan Konqresi (ÜAK) tərəfindən təşkil edilmiş görüşə Böyük Vətən müharibəsi veteranları, əmək cəbhəsinin tanınmış nümayəndələri, Moskva ictimaiyyətinin təmsilçiləri dəvət edilmişdi. ÜAK rəhbərliyi adından çıxış edən icraçı direktor Eldar Quliyev müharibə iştirakçılarını Böyük Qələbə münasibətilə təbrik etmiş, faşizm üzərində qələbəyə Azərbaycanın və azərbaycanlıların töhfəsi barədə söhbət açmışdır. "Yedinaya Rossiya" partiyasının nümayəndələri, Moskvanın Şimal inzibati dairəsi üzrə bu partiyanın icraiyyə komitəsinin rəhbəri Vladimir Osipov, ÜAK-ın Moskva regional bölməsinin rəhbəri İlqar Hacıyev və başqaları da qonaqları salamlamışlar. Rəsmi təbriklərdən sonra müharibə veteranları üçün konsert olmuş, sonra onlar nahara dəvət edilmişlər. Veteranlara Qələbənin 65 illiyi münasibətilə ÜAK-ın sifarişi ilə hazırlanmış xatirə medalları və Azərbaycanın rəmzi olan suvenirlər təqdim edilmişdir.

Veteranlar da öz növbəsində Azərbaycan diasporunun onlara diqqətinə və onların şərəfinə təşkil etdiyi bayrama görə dərin minnətdarlığını və təşəkkürünü bildirmişlər. Onlar qeyd etmişlər ki, bu, vaxtilə sovet xalqı adlanan bütün insanların ümumi bayramıdır.

07 may 2010

“Kükenhof” gül parkında ulu öndər Heydər Əliyevin adına yetişdirilmiş zanbaq əkilmişdir

AzərTAc bildirir ki, Azərbaycanın Niderlanddakı səfirliyindən bildirmişlər ki, bu ölkənin dünya şöhrətli “Kükenhof” gül parkında ulu öndər Heydər Əliyevin adına yetişdirilmiş zanbaq əkilmişdir. “Kükenhof” gül parkının baş direktoru Piter de Fris bildirmişdir ki, ümummilli lider Heydər Əliyevin adına yetişdirilmiş qızılı-bənövşəyi rəngli zanbaq parkın ən möhtəşəm yerində-Şöhrət xiyabanda əkilmişdir və onun rəhbərlik etdiyi təşkilat bu mühüm hadisədən fərəh duyur.

P.Fris demişdir: “Biz əminik ki, Azərbaycan üçün əlamətdar olan 10 may günü ərəfəsində parkımızın Şöhrət xiyabanında əkilmiş Heydər Əliyev zanbağının çiçəkləməsi Azərbaycandan gələn qonaqlarımızın sayını artıracaqdır. Ümidvarıq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yaxın gələcəkdə parkı və xalqınızın ümummilli liderinin adına yetişdirilmiş zanbağı ziyarət etmək imkanı tapacaqdır”.

07 may 2010

Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibəti ilə bir çox ölkələrdə bir sıra tədbirlər keçirilmişdir

Mayın 8-də Gürcüstanın Kvemo Kartli-Borçalı bölgəsinin Marneuli şəhərindəki Heydər Əliyev adına Gürcüstan-Azərbaycan Humanitar Universitetində Azərbaycan və gürcü ictimaiyyəti nümayəndələrinin iştirakı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə tədbir keçirilmişdir. Mərasim Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş filmin nümayişi ilə başlanmışdır. Universitetin rektoru professor Novruz Bayramov ulu öndərin zəngin dövlətçilik irsindən, Gürcüstandakı soydaşlarımıza qayğısından, Azərbaycan-Gürcüstan münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsində əvəzsiz xidmətlərindən ətraflı danışmışdır. Akademik Konstantin Ramişvili, professor Şurəddin Məmmədli, Marneuli rayon Məclisinin sədri Ayvaz İsmayılov, universitetin müəllimi Əhməd Əhmədov və başqaları görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan-Gürcüstan dostluq əlaqələrinə töhfələrindən, bu ənənələrin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışmışlar. Universitetin tələbələri Heydər Əliyevə həsr olunmuş şeirləri Azərbaycan və gürcü dillərində söyləmişlər. Rusiya Federasiyası Murmansk vilayətinin qubernatoru yanında millətlərin işləri üzrə Məşvərət Şurasının üzvü Əlihüseyn Şükürov bildirmişdir ki, Ümumrusiya Azərbaycan Konqresinin Murmansk şöbəsinin mərkəzi ofisində "Heydər Əliyevin müstəqil Azərbaycanın yaranmasına və inkişafına töhfələri" adlı kitab sərgisi və fotosərgi açılmışdır. Sərgiləri vilayət gənclər və tələbələr klubu təşkil etmişdir. Sərginin açılışında çıxış edən soydaşlarımız tədbirin əhəmiyyətindən, müasir müstəqil Azərbaycan dövlətinin yaranmasında və inkişafında ulu öndər Heydər Əliyevin rolundan danışmışlar. Tədbirdə Rusiya ilə Azərbaycan arasında dostluğun qorunmasının və möhkəmləndirilməsinin vacibliyi diqqətə çatdırılmışdır. Sərgidə "Görkəmli adamların həyatı. Heydər Əliyev", "H.Əliyev və Şərq", "Heydər Əliyev mənim həyatımda", "Millətin xilaskarı", "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti", "Heydər Əliyevin siyasi obrazı" kitabları və ümummilli liderin müxtəlif illərdə çəkilmiş fotoşəkilləri nümayiş etdirilir. Qəhrəman şəhərdə Heydər Əliyevin xatirəsinə həsr edilmiş bayram konserti təşkil olunacaqdır. Konsertə Murmansk vilayətinin ictimai xadimlər, hökumət və bələdiyyə üzvləri, vilayətin bir sıra şəhərlərindən qonaqlar, eləcə də mətbuat işçiləri dəvət olunmuşlar.

Mayın 9-da Azərbaycanlıların Marneulidəki Mədəniyyət Mərkəzində ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə tədbir keçirilmişdir. Tədbir iştirakçılatrı əvvəlcə ulu öndərin Tbilisidəki büstünü ziyarət etmiş, önünə əklil qoymuşlar. Mədəniyyət mərkəzinin rəhbəri Fazil Həsənov ümummilli lider Heydər Əliyevin Azərbaycanın inkişafı, xalqın rifahı naminə xidmətlərindən danışmış, hər yerdə olduğu kimi, gürcüstanlı soydaşlarımızın da onun xatirəsini əziz tutduğunu bildirmişdir. Azərbaycan-Gürcüstan parlamentlərarası dostluq qrupunun rəhbəri Qənirə Paşayeva qeyd etmişdir ki, Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycanın müstəqilliyi əbədi və dönməz olmuş, həm xarici, həm də daxili düşmənlərin dövlətçiliyimizi dağıtmaq cəhdləri puça çıxmışdır. Ulu öndərin gürcüstanlılara qayğısından danışan deputat Azərbaycanla yanaşı, bütün bölgədə sabitliyin bərpa olunması, ölkəmizin dünya dövlətləri birliyində layiqli yer tutması, bölgədə lider dövlətə çevrilməsi istiqamətində onun müdrik siyasətinin bəhrələrini vurğulamışdır. Gürcüstan parlamentinin deputatı Azər Süleymanov, Kvemo-Kartli bölgəsinin qubernatorunun müavini Hüseyn Yusifov və başqaları ulu öndərin millli dövlətçiliyimizin qorunub saxlanmasında əvəzsiz xidmətlərindən danışmışlar. Tədbirdə Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən kitabların sərgisi də təşkil edilmişdir. Azərbaycanın Aktau şəhərindəki baş konsulluğu ulu öndər Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş tədbir keçirmişdir. AzərTAc bildirir ki, diasporumuzun üzvlərinin, ictimaiyyətin nümayəndələrinin, Aktauda təhsil azan azərbaycanlı tələbələrin, jurnalistlərin iştirak etdikləri mərasim keçirilən salonda Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş fotosərgi və ulu öndər haqqında nəşr olunmuş kitablar nümayiş etdirilmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin həyatına həsr olunmuş videofilmin nümayişindən sonra baş konsul Rəşad Məmmədov dünya ulu öndərin dövlətçiliyimizin möhkəmlənməsindəki əvəzsiz xidmətlərindən danışmışdır. Baş konsul müasir Azərbaycanın qurucusu Heydər Əliyevin banisi olduğu və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində Azərbaycanın qazandığı nailiyyətlər haqqında geniş məlumat vermişdir. "Dostluq" Azərbaycan Mədəniyyət Mərkəzinin sədri Yusif Quliyev, istefada olan zabir Bəxtiyar Məsimov, həkim Vaqif Nəqiyev dünya şöhrətli siyasətçi Heydər Əliyevin Azərbaycanın inkişafında göstərdiyi xidmətlərdən danışmışlar. Vilayətdəki "Dostluq" Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə Aktau şəhərindəki qocalar və əlillər evində ümummilli lider Heydər Əliyevin doğum gününə həsr olunmuş xeyriyyə tədbiri keçirmişdir. Burada yaşayan 150-dən çox kimsəsiz qoca və əlilin hər birinə Azərbaycan şirniyyatları və meyvələrdən ibarət bağlamalar paylanmışdır. AzərTAc xəbər verir ki, Macarıstanın Xarici Ədəbiyyat Kitabxanasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü ilə əlaqədar tədbir keçirilmişdir. Kitabxananın direktoru xanım Mender Tiborne ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti, Azərbaycan üçün olduqca ağır bir dövrdə yenidən hakimiyyətə qayıtması, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, ölkənin tərəqqisi və əhalinin firavanlığı işinə verdiyi töhfələr barədə ətraflı söhbət açmış, Heydər Əliyev siyasi kursunun hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulamışdır.

Çıxışlarda Azərbaycan və Macarıstan xalqları arasında tarixi yaxınlığa, iqtisadi və siyasi sahələrdə mövcud əlaqələrə toxunulmuş və qeyd edilmişdir ki, Prezident İlham Əliyevin iki dəfə Macarıstana səfər etməsi bir tərəfdaş kimi Azərbaycanın Macarıstana verdiyi yüksək qiymətin göstəricisidir. Çıxışlardan sonra kitabxanaya Azərbaycana aid yeni kitablar təqdim olunmuşdur. Həmin kitablar arasında səfirlik tərəfindən Avropa Folklor İnstitutu ilə birgə "Azərbaycan mədəniyyəti Macarıstanda" seriyası ilə nəşr etdirilmiş macar dilində "Azərbaycanlıların etnogenezinə dair", "Azərbaycan dolması", "Macarıstanda Azərbaycan türk əlyazmaları" kitabları, rus dilində "Macarıstan mətbuatı Azərbaycan haqqında" və səfir Həsən Həsənovun müsahibələrindən ibarət "Azərbaycanlılar macarları qohum xalq hesab edirlər" topluları, o cümlədən Azərbaycanın xarici siyasəti və mədəniyyəti ilə bağlı kitablar da vardır. Daha sonra ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı qısametrajlı film nümayiş etdirilmişdir. Kitabxanada tədbirlə əlaqədar əvvəlki illərdə səfirlik tərəfindən kitabxanaya hədiyyə olunmuş ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin həyat və fəaliyyətini əks etdirən kitabların sərgisi təşkil olunmuşdur. Tədbirdə, həmçinin Heydər Əliyevin həyat yolu haqqında Azərbaycan, macar və ingilis dillərində məlumatın əks olunduğu plakat nümayiş etdirilmişdir. Plakat səfirlik tərəfindən hazırlanmışdır. Tədbir səfirlik tərəfindən təşkil olunmuş qəbulla davam etmişdir. Tədbirdə Türkiyə, Rusiya, Belarus səfirləri, diplomatik korpusun üzvləri, habelə Macarıstan ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Xatırladaq ki, Azərbaycanın Macarıstandakı səfirliyinin təşəbbüsü ilə 2005-ci ildə Macarıstanın Xarici Ədəbiyyat Kitabxanasında Azərbaycan ədəbiyyatı bölməsi açılmışdır. Hər il ümummilli lider Heydər Əliyevin ad günü ərəfəsində kitabxanaya ölkəmizlə bağlı müxtəlif mövzularda kitablar hədiyyə edilir və həmin bölmə yeni nəşrlərlə zənginləşdirilir.

AzərTAc bildirir ki, Azərbaycanın milli lideri Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə ölkəmizin Türkiyədəki səfirliyi bir sıra tədbirlər keçirmişdir. Mayın 10-da səfir Zakir Həşimov "TRT Avaz" və İctimai Televiziya və Radio Yayımları Şirkətinin müştərək hazırladığı "Yeni gün" proqramında iştirak etmiş, ümummilli liderimizin həyat və fəaliyyəti ilə bağlı sualları cavablandırmışdır. Bu televiziya kanalında ümummilli lider Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın həyatından bəhs edən "Bir məhəbbətin tarixçəsi" sənədli filmi də nümayiş etdirilmişdir. Filmi telekanala səfirlik təqdim etmişdir. Həmin gün Ankaradakı Heydər Əliyev parkı ziyarət edilmiş, ulu öndərin heykəlinin önünə əklil qoyulmuşdur. Ziyarətdə soydaşlarımız, Heydər Əliyev adına məktəbin müəllim və şagird heyəti, Ankarada təhsil alan tələbə və müdavimlərimiz, paytaxt ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Sonra səfirliyimizdə Heydər Əliyevin xatirəsinə həsr olunan anma mərasimi keçirilmişdir. Mərasimdə çıxış edən ölkəmizin Türkiyədəki səfiri Zakir Həşimov Heydər Əliyevin Azərbaycan xalqı və türk dünyası qarşısında xidmətlərindən bəhs etmişdir. O demişdir ki, ulu öndərin xalqımız qarşısında xidmətlərinin nəticələrini görmək üçün bu gün sürətlə inkişaf edən və güclü Azərbaycana baxmaq lazımdır. Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov vurğulamışdır ki, ulu öndərin qəlbi hər zaman "bir millət, iki dövlət" kəlamı ilə xüsusi rəğbət bəslədiyi Türkiyənin yanında olmuşdur. Bu gün Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin siyasətində də Türkiyənin əhəmiyyəti böyükdür. Bu siyasət, dünyadakı dəyişikliklərdən asılı olmayaraq, qardaş ölkələrimizin milli maraqlarını birgə qorumaq və xarici təhdidlərə birlikdə cavab verməkə təməli üzərində qurulmuşdur. Ulu öndər Heydər Əliyevin dostu, Türkiyənin doqquzuncu Prezidenti Süleyman Dəmirəl çıxışında bildirmişdir ki, Türkiyə "soyuq müharibə" başa çatdıqda və yeni dünya meydana gəldikdən sonra yaranmış vəziyyətə hazır deyildi. Ankara, başda Azərbaycan olmaqla müstəqilliyini bərpa etmiş türk cümhuriyyətlərini tanıdı. Lakin, o zaman Azərbaycanın içərisində böyük sıxıntılar, qeyri-sabitlik var idi. Belə ağır bir zamanda tarixi şəxsiyyət - Heydər Əliyev siyasi hakimiyyətə qayıtdı. O zaman Türkiyənin hökumət rəhbəri kimi ona deyirdim ki, sən Naxçıvandan Bakıya getməlisən, Bakı səni gözləyir. Həmin vaxt Elçibəy də mənə telefon etdi. Ona söylədim ki, Heydər Əliyevlə birlikdə hərəkət et və hakimiyyəti küçələrə təslim etmə. Beləliklə, Heydər Əliyev Azərbaycanın rəhbəri oldu. Sonrakı mərhələdə sabitlik bərpa olunmalı, Azərbaycan xalqı yoxsulluqdan qurtulmalı, beynəlxalq aləmdə öz yerini tutmalı idi. Bunları yalnız Heydər Əliyev edə bilərdi. O, hürriyyət sevən Azərbaycan xalqına azadlıq bəxş etdi. Heydər Əliyev dünyaya qucaq açdı və "Əsrin müqaviləsini" imzalamaqla iqtisadiyyata nəfəs verdi. Bu böyük siyasətçi "bir millət, iki dövlət" kəlamını söyləyərək Türkiyə ilə qardaşlıq əlaqələrinin möhkəmlənməsinə misilsiz töhfələr verdi. Heydər Əliyev bütün türk dünyasının böyük şəxsiyyətidir. O, dünya lideri olmuş siyasətçidir. Bu gün Prezident İlham Əliyev onun siyasətini layiqincə davam etdirir. Süleyman Dəmirəl çıxışını bu sözlərlə tamamlamışdır: "Heydər Əliyevin qurduğu Azərbaycan Cümhuriyyətinin təməlinə qoyduğu sevgi əbədi olaraq yaşadılmalıdır". Mərasimin bədii hissəsində Azərbaycan bəstəkarlarının əsərləri İhsan Doğramacı Universitetinin azərbaycanlı musiqiçiləri tərəfindən ifa olunmuşdur. Tədbirdə Türkiyənin rəsmi dairələrinin, ictimaiyyətinin nümayəndələri, səfirliklərin əməkdaşları, soydaşlarımız, tələbələr, yerli jurnalistlər iştirak etmişlər. AzərTAc xəbər verir ki, 10 may ABŞ-ın Nyu-Meksika ştatının paytaxtı Santa-Fe şəhərində "Heydər Əliyev günü" elan edilmişdir. Azərbaycanın Loc-Ancelesdəki Baş konsulluğundan bildirmişlər ki, Santa-Fe şəhərinin meri Devid Koss müstəqil Azərbaycanın qurulmasında və Qərb ölkələri ilə tərəfdaşlıq münasibətlərinin yaradılmasında ümummilli lider Heydər Əliyevin oynadığı tarixi rolu nəzərə alaraq, mayın 10-nu "Heydər Əliyev günü" elan etmişdir. Nyu-Meksika Azərbaycanın Los-Ancelesdəki Baş konsulluğunun dairəsinə daxil olan 13 qərb ştatından biridir.

Azərbaycanın Qırğızıstandakı səfirliyində ulu öndər Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü ilə əlaqədar mərasim keçirilmişdir. Tədbirdə Bişkekdə yaşayan diasporumuzun üzvləri, paytaxtın ali məktəblərində təhsil alan azərbaycanlı tələbələr, jurnalistlər iştirak etmişlər. Əvvəlcə ümummilli lider Heydər Əliyevin səfirlikdəki büstünün önünə əklil qoyulmuş, mərasim iştirakçıları böyük siyasətçinin həyat və yaradıcılığı ilə bağlı səfirlikdə yaradılmış fotosərqi ilə tanış olmuşlar. Azərbaycanın Qırğızıstandakı səfiri Arif Ağayev dünya şohrətli siyasi xadim Heydər Əliyevin mənalı və şərəfli ömür yolundan, Azərbaycan xalqı və dövləti qarşısındakı böyük xidmətlərindən danışmışdır. Onun sözlərinə görə, Heydər Əliyev Azərbaycanı dünyaya tanıtmış, "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmuş, digər neft layihələrinin həyata keçirilməsi üçün əlverişli zəmin yaratmışdır. Ulu öndərin əsasını qoyduğu layihələr artıq öz bəhrəsini verir, Azərbaycan bölgədə qüdrətli dövlətlərdən birinə çevrilmişdir. Qırğızıstandakı "Azəri" Azərbaycan Mədəniyyət mərkəzi sədrinin müavini Əsəd Həsənov, Bişkekdə çap edilən "Türkel" qazetinin baş redaktoru Ramiz Məşədihəsənli, diasporu fəal üzvü Əsəd Əsədov ulu öndərin müasir Azərbaycan dövlətinin qurulması və inkişafında göstərdiyi böyük xidmətlərdən danışmışlar. Sonra Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunmuş "Dünyaya pəncərə" adlı sənədli film nümayiş etdirilmiş, tədbir iştirakçılarına ziyafət verilmişdir. Ulu öndərin həyat və fəaliyyəti ilə bağlı məlumatlar toplusu tədbir iştirakçılarına, həmçinin Bişkekdəki səfirlik və nümayəndəliklərə, həmçinin KİV-lərə göndərilmişdir.

AzərTAc bildirir ki, İstanbulun Sarıyer rayonundakı Heydər Əliyev parkında ulu öndərin anadan olmasının 87-ci ildönümünə həsr edilmiş mərasim keçirilmişdir. Mərasim iştirakçıları Heydər Əliyevin abidəsinin önünə tər çiçək dəstələri qoymuş, əziz xatirəsini ehtiramla yad etmişlər. Mərasimi Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Səyyad Salahlı açaraq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin türk dünyası qarşısında xidmətlərini diqqətə çatdırmışdır. Mərasimdə çıxış edən Sarıyer bələdiyyəsinin sədri Şükrü Gənc, "SOCAR-Turgas" konsorsiumunun icraçı direktoru Kənan Yavuz, Azərbaycan Mədəniyyət Evi Dərnəyinin sədri Erol Göllü türk dünyasının dahi şəxsiyyəti Heydər Əliyevin Türkiyə ilə qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində atdığı mühüm addımlardan danışmışlar. Natiiqlər vurğulamışlar ki, uzaqgörən siyasətçi olan Heydər Əliyev qardaş ölkələrimiz arasında iqtisadi əməkdaşlığın gücləndirilməsinə xüsusi əhəmiyyət verirdi. Məhz onun səyləri nəticəsində nəhəng enerji layihələri həyata keçirilmiş, xalqlarımızın rifahı naminə digər böyük işlər görülmüşdür. Mərasimin sonunda Azərbaycan və Türkiyə incəsənət ustalarının iştirakı ilə konsert olmuşdur.

Bakı, 10 may (AzərTAc). Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü ilə əlaqədar ölkəmizin Londondakı səfirliyində tədbir keçirilmişdir. Səfirlikdən bildirmişlər ki, tədbirdə Böyük Britaniyada fəaliyyət göstərən Azərbaycan təşkilatlarının təmsilçiləri, diasporumuzun nümayəndələri iştirak etmişlər. Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin səfirlikdəki büstünün önünə əklil qoymuş, ümummilli liderin xatirəsinə ehtiramlarını bildirmişlər. Səfir Fəxrəddin Qurbanov ümummilli lider Heydər Əliyevin həyat yolundan və zəngin siyasi irsindən danışmışdır. Diplomat ölkəmizin müstəqilliyinin gücləndirilməsində və dövlətçiliyin qorunub-saxlanmasında, beynəlxalq aləmdə özünün layiqli yerini tutmasında dahi şəxsiyyət Heydər Əliyevin müstəsna rolunu və xalqımız qarşısındakı unudulmaz xidmətlərini diqqətə çatdırmışdır. Ölkəmizdə bütün istiqamətlərdə müşahidə olunan inkişafın, Azərbaycanın regionun aparıcı dövlətinə çevrilməsinin məhz ulu öndərin uzaqgörən siyasəti sayəsində mümkün olduğunu vurğulamış, bu siyasi kursun uğurlarının xalqımızın rifah və firavanlığına təminat verdiyini bildirmişdir. Səfir gənc nəslin ümummilli liderin həyat və fəaliyyətini dərindən öyrənməsinin vacibliyini qeyd etmişdir. Mərasimdə ulu öndər Heydər Əliyevin həyat yolundan bəhs edən film nümayiş olunmuşdur.

Berlində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş fotosərgi açılmışdır. Sərgi Heydər Əliyev Fondunun və Azərbaycanın Almaniyadakı səfirliyinin dəstəyi ilə təşkil olunmuşdur. Çoxsaylı tamaşaçının ziyarət etdiyi fotosərgini Bakı-Berlin qalereyasının rəhbəri İbrahim Əhrari açmışdır. Azərbaycanın Almaniyadakı səfiri Pərviz Şahbazov ümummilli lider Heydər Əliyevin həyat yolu, Azərbaycan xalqı qarşısındakı böyük xidmətləri, eləcə də onu dünya liderlərindən fərqləndirən xüsusiyyətləri barədə tamaşaçılara ətraflı məlumat vermişdir. Səfir Heydər Əliyevin ölkənin ağır vaxtında xalqın istəyi ilə siyasətə qayıtmasının və Azərbaycanı parçalanmaqdan qurtarmasını ümummilli liderin dövlət və xalq qarşısında göstərdiyi ən mühüm xidmətlərindən olduğunu vurğulamışdır. Çıxışının sonunda tədbirin baş tutmasına əsaslı dəstək göstərən Heydər Əliyev Fondunun və Bakı-Berlin qalereyasının rəhbərliyinə təşəkkürünü bildirən P.Şahbazov gələcəkdə Heydər Əliyevin xatirəsinin yad edilməsi ilə bağlı tədbirlərin keçirilməsində uğurlu əməkdaşlığın davam etdirilməsini arzu etdiyini vurğulamışdır. Sərgidə nümayiş etdirilən fotolar tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır. Mayın 10-da Gürcüstanın Rüstavi şəhərində Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü ilə bağlı tədbir keçirilib. APA-nın Gürcüstan bürosunun məlumatına görə, tədbirdə bundan sonra Heydər Əliyevin adını daşıyacaq istirahət parkında qoyulacaq abidənin təməlqoyma mərasimi də düzənlənib. Tədbirdə Azərbaycanın Gürcüstandakı səfiri Namiq Əliyev, ARDNŞ-in Gürcüstan nümayəndəliyinin rəhbəri Mahir Məmmədov, Gürcüstan parlamentinin deputatı Azər Süleymanov, Kvemo-Kartli bölgə qubernatorunun müavinləri Hüseyn Yusifov və Koba Kobiaşvili və digər rəsmilər iştirak ediblər.

Rustavidəki 18 saylı orta məktəbin Azərbaycan şöbəsinin şagirdləri Heydər Əliyevə həsr edilmiş şeirləri gürcü və Azərbaycan dillərində söyləyiblər. Tədbir zamanı burada tikiləcək Heydər Əliyev adına istirahət parkının maketi də nümayiş etdirilib.

Mayın 10-da Tiflisin "Köhnə Metexi" mehmanxanasında Azərbaycanın Gürcüstandakı səfirliyinin təşəbbüsü ilə "Azərbaycanın ümummilli lideri Heydər Əliyev poçt markalarında" adlı sərgi açılıb. APA-nın Gürcüstan bürosunun məlumatına görə, Heydər Əliyevin doğum gününə həsr edilən tədbiri Azərbaycanın Gürcüstandakı səfiri Namiq Əliyev açıb. Sərginin açılışında Gürcüstanın birinci xanımı Sandra Rudolfs çıxış edərək, bu sərginin çox maraqlı olduğunu bildirib: "Azərbaycan qardaş ölkədir. Burada çox maraqlı və orijinal poçt markaları nümayiş etdirilir. Heydər Əliyevə aid olan bu markalar çox maraqlıdır. O, təkcə Azərbaycan üçün deyil, eyni zamanda bütün dünya üçün vacib şəxs idi". Tədbirdə Gürcüstanın parlamentinin və Reinteqrasiya Nazirliyinin rəsmiləri, Gürcüstanda çalışan iş adamları, parlamentin azərbaycanlı deputatları, gürcü və azərbaycanlı ziyalılar iştirak ediblər.

Daşkənddəki Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyasının hamilik etdiyi 31 nömrəli məktəb-uşaq evində ulu öndər Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə mərasim keçirilmişdir. Tədbirdə məktəbin müəllim və şagirdləri, qardaş özbək xalqının nümayəndələri, jurnalistlər iştirak etmişlər. Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyasının sədri Akif Ağatalıbov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və onun fəaliyyəti haqqında ətraflı məlumat vermiş, dövlət quruculuğu sahəsində onun xidmətlərindən danışmışdır. A.Ağatalıbov demişdir ki, Heydər Əliyev ancaq Azərbaycanın deyil, türk dünyasının tanınmış siyasi xadimi idi. Ulu öndər Özbəkistanı və özbək xalqını çox sevirdi. Mərasim Azərbaycan və özbək mahnılarından ibarət geniş konsert proqramı ilə başa çatmışdır.

Mayın 10-da Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzində ulu öndər, Heydər Əliyevin anadan olmasınıın 87-cı ildönümü munasibətilə xatirə gecəsi keçirilib. AAKM-nin Azərbaycan Respublikasının Almaniyadakı Səfirliyinin dəstəyi ilə təşkil etdiyi tədbirin hazırlanmasında Avropa Azərbaycanlıları Konqresi, Alman-Azərbaycan Forumu da iştirak edib. Xatirə gecəsini AAKM-nin icraçı direktoru Samirə Patzer-İsmayılova açaraq qonaqları salamlayıb. Azərbaycan Respublikasının Almaniyadakı səfiri Pərviz Şahbazov dünya şöhrətli siyasətçi, dövlət xadimi Heydər Əliyevin həyat yolu və fəaliyyəti barədə fikirlərini bölüşüb, ümummilli liderin uzaqgörən siyasətçi, Azərbaycan xalqının və dövlətçiliyinin xilaskarı olan, eləcə də Azərbaycanı dünyada tanıdan şəxsiyyət kimi tarixi xidmətlərindən danışıb. Sonra çıxış edən AAK-nin fəxri prezidenti Bahəddin Qaya ulu öndər Heydər Əliyevin Türkiyə-Azərbaycan münasibətlərinin ən yüksək səviyyəyə qaldırılmasında tarixi rolundan geniş söhbət açıb. Onun sözlərinə görə, ümummilli lider Heydər Əliyevin vaxtilə keçmiş SSRİ ölkələrinə gənc ixtisasları işləməyə göndərməsi bugünkü diasporun yaranmasının təməli olub. Alman-Azərbaycan Forumunun icraçı direktoru Pərviz Yazdani isə Heydər Əliyevin xalqının, Vətəninin müstəqilliyə qovuşması, müasir Azərbaycan dövlətinin qurulması istiqamətindəki fəaliyyəti barədə qonaqlara alman dilidə məlumat verib. Almaniyadakı Azərbaycan Cəmiyyətləri Federasiyasının sədri Nüsrət Delbəstə də öz çıxışında ulu öndərin əsasını qoyduğu uğurlu siyasətini yüksək qiymətləndirib və bu siyasəti Prezident İlham Əliyevin layiqli şəkildə davam etdirməsini alqışlayıb. O deyib ki, 10 May Azərbaycan xalqı üçün zəfər günüdür. Sonda Samirə Patzer-İsmayılova azərbaycançılıq, Azərbaycan diasporu anlayışının məhz ümummilli liderin adı ilə bağlı olduğunu qeyd edərək, qonaqlara Diasporla iş üzrə Dövlət Komitəsinin hazırladığı H.Əliyevin həyat və fəaliyyətindən bəhs edən "Azərbaycan deyəndə..." sənədli filmini təqdim edib.

Ümummilli lider Heydər Əliyevin əziz xatirəsi Azərbaycandan köçmüş yəhudilərin qəlbində əbədi yaşayacaq. Azərbaycandan köçərək İsrailin Təl-Əviv, Hadera, Hayfa və digər şəhərlərində yaşayan yəhudilər belə deyirlər. Hadera şəhərində yaşayan kolleksiyaçı İsay Skvirski AzərTAc-a deyib ki, Bakıda yaşadığı illərdə bir neçə dəfə ulu öndər Heydər Əliyevlə görüşmüşdür. Dünya şöhrətli siyasi xadimdən mükafatlar da almışdır. İsrailə köçdükdən sonra da Heydər Əliyevi unuda bilməmişdir. Baxmayaraq ki, ona yaşadığı şəhərdə hər cür şərait yaradılmışdır və normal təqaüd də alır. Amma Azərbaycanla, xüsusilə də Heydər Əliyevlə bağlı xatirələri onun üçün çox əzizdir. Doğma Bakını heç cür unuda bilmir. İsay Skvirski deyir ki, indi onunun üçün ən əziz məşğuliyyət üzərində Azərbaycanın dövlət rəmzləri, eləcə də ümummilli lider Heydər Əliyevin və Azərbaycan Prezidenti İlham Əliyevin şəkilləri olan poçt markalarını, açarlıq və döş nişanlarını toplamaqdır. Hadera şəhərində parka ümummilli lider Heydər Əliyevin adının verilməsi və xatirə lövhəsinin qoyulması hamımızın ürəyincədir. Ona görə ki, məhz Heydər Əliyevin müdrikliyi sayəsində Azərbaycanda dini dözümlülük, bərabərlik, ictimai-siyasi sabitlik yaranmışdır. Prezident İlham Əliyev də ulu öndərin siyasi kursunu ləyaqətlə davam etdirir. Biz Azərbaycandan gəlmiş yəhudilər, elə burada doğulub boya-başa çatanlar da Heydər Əliyevi çox sevirik. Onun əziz xatirəsi bizim qəlbimizdə daim yaşayacaq. Qeyd edək ki, İsay Skvirski Azərbaycan nümayəndə heyətinin İsrailə səfəri çərçivəsində "Heydər Əliyevin siması İsay Skvirskinin kolleksiyasında" adlı fotosərgi açmışdır.

May 2010

Heydər Əliyev və milli dövlətçilik təlimi – azərbaycançılıq

“Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!”

Heydər Əliyev,
Ümummilli lider

Dünyada təxminən irili-xırdalı 5000-dən artıq xalq mövcud olsa da, BMT iqamətgahında bayrağı dalğalanan müstəqil dövlətlərin sayı bu gün 200-dən bir qədər çoxdur. Azərbaycanın da bu sırada öz yerini tutması xalqımızın böyük tarixi nailiyyəti kimi qiymətləndirilməlidir.

Hər bir xalqın müstəqil dövlət quruculuğu yolu bir sıra mühüm daxili və xarici amillərlə şərtlənir. Azərbaycan xalqı əlverişli tarixi şəraitdən və özünün siyasi, iqtisadi, mədəni və intellektual potensialından istifadə edərək XX əsrin sonunda öz istiqlal arzusunu gerçəkləşdirmişdir. Müstəqillik dövrünün qısa tarixi ümummilli lider Heydər Əliyevin belə bir fikrini təsdiq edir ki, “müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir.”

Azərbaycanın müstəqil dövlətçilik tarixinin təhlili göstərir ki, dövlət qurmaq kimi çətin, mürəkkəb və şərəfli missiyaya iradəli, geniş və qlobal dünyagörüşlü, xalqın dəstəyinə malik və onun milli liderinə çevrilmiş şəxs rəhbərlik edə bilərdi. XX əsrin 90-cı illərinin sonunda Azərbaycanda belə rola iddia edə bilən və bu işlərin öhdəsindən gəlmək iqtidarında olan yeganə lider Heydər Əliyev idi.

Heydər Əliyevin əməli və nəzəri fəaliyyətinin mühüm bir hissəsini onun milli dövlətçilik təlimi, milli-mənəvi və ideya-siyasi dünyagörüşü təşkil edir. Onun bu sahə üzrə toplanmış zəngin irsinin tədqiqi təkcə bugünkü ictimai-siyasi dairələr üçün deyil, həm də gələcək nəsillər, Azərbaycana rəhbərlik edəcək bütün liderlər üçün örnək rolunu oynamağa layiqdir. Müasir Azərbaycanın möhkəm özülünü qoymuş bu tarixi şəxsiyyətin ideya dünyası onun davamçılarının yoluna həmişə işıq salacaq.

Heydər Əliyevin ideya və fikirləri, həyata keçirdiyi siyasət Azərbaycan şəraitində sosialist ictimai-iqtisadi sistemindən yeni cəmiyyətə keçidin elmi-nəzəri əsaslarını yaratmışdır. İmperiya və sosialist sistemindən azad olaraq müstəqillik yolu tutmuş, lakin region və dünya güclərinin üst-üstə düşməyən, kəsişən maraqları ilə üz-üzə qalmış, qloballaşan dünyada öz yerini axtaran, maraqlarını qorumağa çalışan gənc Azərbaycan üçün Heydər Əliyevin dövlətçilik təlimi əsl fəaliyyət strategiyası idi. Uzun illər öz dövlətçiliyindən və milli-mənəvi köklərindən ayrı salınmış, milli və dövlətçilik maraqları tapdanmış Azərbaycan xalqının özünə qayıdış və özünütəsdiqində Heydər Əliyevin əməli fəaliyyəti və ideya-siyasi baxışlarının çox böyük rolu olmuşdur.

Heydər Əliyev 1993-cü ildə yenidən Azərbaycanın rəhbərliyinə gələndə bitkin dövlət konsepsiyasına malik idi. Bu konsepsiyanın bəzi tezisləri onun 1992-ci ildə Azərbaycan ziyalılarına ünvanlanmış müraciətində və Yeni Azərbaycan Partiyasının proqramında öz əksini tapmışdır. Bu müraciətdə tezislər şəklində həmin dövrün ictimai-siyasi vəziyyəti, müstəqil dövlət quruculuğunun şərtləri, regionumuzda və beynəlxalq aləmdə baş verən hadisələr və cərəyan edən proseslərin xarakteri, Azərbaycanın daxili vəziyyəti, başlanmış iqtisadi, siyasi və milli böhran və ondan çıxış yolları və s. taleyüklü məsələlər özünün əsl elmi-nəzəri cavabını tapmışdır.

Heydər Əliyevin dövlət təlimində güclü dövlət anlayışı və özünün bütün atributları ilə birgə onun iqtisadi, siyasi, sosial və mənəvi əsasları öz əksini tapmışdır. Heydər Əliyevin düşündüyü güclü dövlət təkmil mərkəzi və yerli idarəetmə mexanizmi, ictimai-siyasi həyatı sabit, işlək qanunları, ədalətli cəmiyyəti olan, insanları dəyərləndirilən və qabiliyyətinə görə proseslərə cəlb edilən, milli birliyə malik bir sistem tələb edirdi.

Heydər Əliyev hər bir dövlətin varlığının əsasını təşkil edən iqtisadi inkişafı dövlət həyatının ən vacib vəzifəsi hesab edirdi. O öyrədirdi ki, dövlət qurarkən cəmiyyətin yaşam tərzini, ictimai həyat normalarını, idarəçiliyi, qanunçuluğu, sabitliyi, vətəndaş birliyini, milli həmrəyliyi, beynəlxalq təhlükəsizliyi və s. vəzifələri o zaman dolğun və davamlı təmin etmək olar ki, dövlətin iqtisadiyyatı normal vəziyyətdə olsun və qarşıya qoyulmuş vəzifələrə cavab versin. Heydər Əliyev hər bir Azərbaycan vətəndaşını milli əxlaqa və güclü iradəyə malik, qlobal və azad düşüncəli, təşəbbüskar, fəal, ölkədaxili və beynəlxalq proseslərdən baş çıxara bilən, təhsilli, ədalətli, vətəni və xalqı üçün gərəkli insan kimi görmək istəyirdi.

Heydər Əliyev nəinki müstəqil Azərbaycan dövlətinin yaradılması konsepsiyasını həyata keçirdi, eyni zamanda Azərbaycan vətəndaşlarını birləşdirən, xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında səfərbər edən milli təlim - azərbaycançılıq ideologiyasını da yaratdı. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələndə Azərbaycanda keçmiş kommunist ideologiyasından imtina edilmişdi. Lakin xalqı səfərbər edən, onun kimliyini, yaratdığı dövlətin xarakterini, milli-mənəvi dəyərlərini qoruyub saxlayacaq və yönəldəcək milli sistem və ideya da ortaya qoyulmamışdı. Keçmişin bütün varlıqlarından, o cümlədən elmi, intellektual, mənəvi, ictimai dəyərlərindən total imtina meyli Azərbaycanda sözün həqiqi mənasında ciddi ideoloji boşluq yaratmışdı.

Əlbəttə, cəmiyyətin ideyasızlaşdırılması meyli bir tərəfdən keçmiş kommunist rejiminə nifrətdən qaynaqlanırdısa, digər tərəfdən 1991-1993-cü illərdə Azərbaycanı idarə edənlərin aydın məqsəd və məramının yoxluğundan, idarə etdikləri dövlətin siyasi, iqtisadi, mədəni, mənəvi inkişafı haqqında dolğun təsəvvürə malik olmamamasından irəli gəlirdi.

Heydər Əliyevin dövründə Azərbaycan vətəndaşlarını vahid amal, ideya və məqsəd ətrafında birləşdirəcək milli ideologiyanın yaradılması dövlət siyasəti səviyyəsinə qaldırıldı. Bir faktı xüsusi vurğulamalıyıq ki, başqa sahələrdə olduğu kimi milli ideoloji baxışlar sisteminin formalaşmasında da Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin varislik prinsipini saxladı və vaxtilə məhz onların birləşdirici ideya kimi irəli sürdüyü azərbaycançılıq ideologiyasına müraciət etdi. Heydər Əliyev qeyd edirdi ki, milli ideologiya tarixi keçmişimizlə, millətimizin adət-ənənələri, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır.

Məlum olduğu kimi, azərbaycançılıq ideyasının tarixi son iki əsri əhatə edir. XIX əsrin milli maarifçi hərəkat nümayəndələrinə qədər azərbaycançılıq əsasən vətənçilik, vətənsevərlik mənasında işlədilirdi və onun milli səfərbəredici təsiri çox aşağı idi. Lakin XIX əsrin maarifçilik hərəkatı nümayəndələri, xüsusən M. F. Axundov, A. Bakıxanov, H. B. Zərdabi, N. B. Vəzirov, C. Məmmədquluzadə, Ö.F. Nemanzadə, N. Nərimanov və başqaları azərbaycançılığı xalqımıza qarşı həyata keçirilən işğalçılığa, milli məhrumiyyətlərə müqavimət reaksiyası, tarixi yaddaşın qorunması, ana dilinin, milli adət-ənənələrin, mənəviyyatın yaşadılması, inkişafı, milli şüurun oyanışı və s. vasitəsi kimi təbliğ edirdilər.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları – Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Məmməd Əmin Rəsulzadə və başqaları ilk dəfə azərbaycançılıq ideyasını bir az başqa məzmunda dövlət siyasəti səviyyəsinə qaldırmağa cəhd göstərmiş və Xalq Cümhuriyyətinin fəaliyyətini bu ideya istiqamətində qurmağa çalışmışlar. Lakin Xalq Cümhuriyyətinin süqutu ilə azərbaycançılıq ideyası da sıxışdırılaraq kommunist ideologiyasının kölgəsinə salınmışdır. Sovet dövründə azərbaycançılıq ideyası yalnız bədii əsərlərdə, adət-ənənələrdə yaşamış və təbii ki, dövlət ideologiyasına çevrilə bilməmişdir.

Lakin bir faktı xüsusi vurğulamalıyıq ki, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə – 60-80-ci illərdə azərbaycançılığın inkişafı üçün əlverişli ictimai-siyasi, elmi-mənəvi şərait yaradılmışdır. Bu şəraitdən o dövrdə tarixçilər, ədəbiyyatçılar, dilçilər, filosoflar və başqa intellekt sahibləri geniş bəhrələnərək çoxsaylı əsərlər yaratmışlar. Bu illərdə yazılmış əsərlərdə azərbaycançılığın mühüm sahələri olan milli dilin, milli şüurun, adət-ənənələrin inkişafı və dünyada təbliğ edilməsi, gənc nəslin azərbaycançılıq ruhunda tərbiyə edilməsi sahəsində böyük irəliləyiş müşahidə olunmuşdur.

Azərbaycançılıq ideyasının formalaşmasında 90-cı illərdə, dövlət müstəqilliyinin bərpası ərəfəsində başlanmış əvvəlcə xalq, sonra isə milli azadlıq hərəkatının əhəmiyyətli rolu olmuşdur. Bu dövrdə azərbaycançılıqla bağlı müxtəlif əsərlərin yenidən çap olunması və yayılması, yeni məqalə və s. əsərlərin yazılması, milli şüurun, ruhun yüksəlişinə xidmət edən xalq hərəkatının vüsət alması insanların kütləvi düşüncə tərzinə öz müsbət təsirini göstərdi. Lakin təəssüf hissi ilə qeyd edilməlidir ki, o illərdə Azərbaycanı yönəldən qüvvələr, xüsusən AXC-Müsavat dairələri respublikanın milli-etnik xüsusiyyətlərini nəzərə almadan, meydan əhval-ruhiyyəsi altında azərbaycançılığın təbliğində kobud səhvlərə yol verdilər. Onlar azərbaycançılığı ümumtürklük ideyası ilə eyniləşdirərək ölkədaxili etnik və milli etimadsızlıq toxumu səpdilər ki, bu da azərbaycançılıq ideyasını müəyyən müddət ciddi iflasa uğratdı.

1993-cü ildən Heydər Əliyevin siyasi rəhbərliyə gəlişi ilə bütün Azərbaycan vətəndaşlarının, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, ölkənin istiqlaliyyətini dəstəkləyən insanların vahid dövlətçilik ətrafında birləşdirilməsi üçün ciddi iş aparıldı. Cəmiyyətdə hakim olan istiqlal arzusu, azərbaycançılığın müstəqil dövlətin bütün əhalisinin ali ideologiyasına çevrilməsi, ümummilli birliyin təmin olunması zərurəti tezliklə ictimai-siyasi və mənəvi dairələrin gündəliyinə çıxarıldı.

Heydər Əliyev azərbaycançılıq ideyasına tamamilə yeni bir məzmun verərək onu Azərbaycanın milli-etnik xüsusiyyətlərinə, müasir dövrün tələblərinə və dünyanın müasir şəraitinə uyğunlaşdırdı. Odur ki, Heydər Əliyevi müasir azərbaycançılıq ideologiyasının - dövrün, zamanın tələblərini, dövlətçiliyin əsaslarını, milli-etnik şəraiti nəzərə alan milli təlimin banisi hesab etmək olar. Azərbaycançılıq ideologiyası məhz Heydər Əliyevin dövründə mükəmməl bir ideoloji təlim kimi ölkənin dövlət siyasətinə çevrildi. Heydər Əliyev azərbaycançılığı bütöv bir xalqın – bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycanla bağlılığı olan bütün soydaşlarımızın və həmvətənlərimizin söykəndiyi milli birlik platformasına çevirdi. Əgər Heydər Əliyevə qədər bu ideya əsasən etnolinqvistik, etnoqrafik, ədəbi, mədəni-estetik, fəlsəfi və mənəvi dəyər kimi mövcud idisə, onun dövründə ciddi sosial-siyasi məzmun kəsb edərək ümumi ideyalar sisteminə-dövlət quruculuğunun ayrılmaz tərkib hissəsinə çevrildi. Azərbaycan dilinin rəsmi dövlət statusu alması və latın qrafikasının tətbiqi, Azərbaycanın milli-mənəvi əyərlərinin qorunması və inkişafı, azərbaycançılıq ideyalarının, milli dəyərlərin bütün dünyada yaşayan həmvətənlərimiz arasında geniş yayılması, hər il 31 dekabrın Dünya Azərbaycanlılarının Birlik və Həmrəylik Günü kimi qeyd edilməsi və bu münasibətlə bütün xarici ölkələrdə yaşayan soydaşlarımızın iştirakı ilə təşkil edilən toplantılar, xarici səfərlər zamanı Heydər Əliyevin onlarla keçirdiyi görüşlər və s.

1993-cü ildən başlayaraq azərbaycançılıq ideologiyasının dövlət səviyyəsində həyata keçirilməsinin tam olmayan nümunələri idi. 2001-ci ildə Bakıda tarixdə ilk dəfə Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi və minlərlə soydaşımızın iştirakı ilə azərbaycançılığın əsaslarının müzakirə edilməsi, mövcud vəziyyətin qiymətləndirilməsi və gələcək vəzifələrin müəyyən olunması azərbaycançılıq ideologiyasının tarixində yeni bir mərhələ kimi dəyərləndirilə bilər. Azərbaycançılıq ideyasını Heydər Əliyev həm də ölkədaxili ictimai-siyasi qüvvələrin, sosial, milli və dini qrupların birləşdirici amili kimi dəyərləndirirdi. O qeyd edirdi ki, hakimiyyətə, iqtidarlara və onların fəaliyyətinə müxalifətdə durmaq olar. Lakin dövlətə, dövlətçiliyə, milli birliyə, Vətənin, xalqın ümumi marağını ehtiva edən azərbaycançılıq ideyasına, milli-mənəvi dəyərlərə, milli məsləkə, milli dilə, milli varlığa heç zaman müxalifətdə durmaq olmaz.

Heydər Əliyevin bəhs etdiyi azərbaycançılıq ideologiyası və onun məzmununa daxil edilmiş əsas prinsiplər həm də 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Bu ideologiya artıq hansısa siyasi liderin, partiyanın, yaxud siyasi təşkilatın deyil, bütün xalqın ümumi marağının ifadəsinə çevrilmişdir. Belə olan halda bu ideologiyaya müxalifətdə durmaq ümumxalq maraqlarına, ümumxalq fikrinə və mövqeyinə müxalifətdə durmaq kimi dəyərləndirilməlidir. Azərbaycançılıq ideologiyası bu anlamda xalqın istək və arzusu ilə, onun iradəsinin nəticəsi kimi qurulmuş dövlətin, bu dövlətin müəyyən olunmuş daxili və xarici siyasət strategiyasının, daimi yaşam və fəaliyyətinin əsasını, başlıca prinsiplərini təşkil edir. Deməli, onun həyata keçirilməsi və qorunması Azərbaycanda yaşayan, fəaliyyət göstərən, bu dövlətin idarəçiliyinə iddia edən hər bir vətəndaş və təşkilat üçün əsas olmalıdır. Əgər hər hansı şəxs və yaxud təşkilat yaşadığı cəmiyyəti, təmsil etdiyi dövləti, konstitusiya ilə müəyyənləşdirilmiş ölkədaxili münasibətlər və dəyərlər sistemini qəbul edirsə, deməli dövlətin bu sistemin qarantı olmasını da mütləq qəbul etməlidir. Heydər Əliyev azərbaycançılıq ideologiyasını müəyyən edərkən həm də beynəlxalq aləmdə cərəyan edən hadisələri, müasir dünya siyasətinin, qloballaşan və transmilliləşən dünyanın inkişaf tendensiyalarını nəzərə alırdı. Əlbəttə, qloballaşan dünyada ölkələrin milli sədlərini, milli-mənəvi dəyərlərini, vətəndaşların milli maraqlarını qorumaq o qədər də asan olmur. Transmilli şirkətlər və onların arxasında duran fövqəldövlətlər ölkələrin milli inkişafı, milli maraqları, milli-mənəvi dəyərlərin qorunması və s. proseslərini çox qısqanclıqla qarşılayırlar. Heydər Əliyev bütün bu reallığı nəzərə alaraq, bir tərəfdən azərbaycançılıq ideologiyasını ümumbəşəri dəyərlər fonunda formalaşdırır, digər tərəfdən dövlət quruculuğu proseslərində xarici təsirləri milli ideologiya süzgəcindən keçirirdi.

Heydər Əliyevin azərbaycançılıq ideologiyası milli-mənəvi dəyərləri, tarixi keçmişimizdən bizə irs qalmış milli varlığımızı və onu fərqləndirən bütün atributları qorumaqla, Azərbaycanı eyni zamanda müasir, inkişaf etmiş, xalqın maddi-mənəvi tələbatını təmin edə bilən, daxili həyatı sabit, milli-sosial birliyə qovuşmuş bir dövlət kimi görürdü. Heydər Əliyev azərbaycançılıq ideologiyasının əsasına ilk növbədə dünyada yaşayan 40 milyondan çox azərbaycanlının maraqlarını təmin edə biləcək, bütün ölkə vətəndaşlarının sabit, firavan və dinamik inkişafına cavab verən milli dövləti-müstəqil Azərbaycan dövlətini qoyurdu. Heydər Əliyev çıxışlarında bu məsələyə belə şərh verirdi: Müstəqil Azərbaycan dövləti bizim üçün ən qiymətli tarixi nailiyyətdir və onun qorunması, əbədiyaşar edilməsi hər bir azərbaycanlının müqəddəs borcudur. Milli ideologiyadan danışarkən biz ilk növbədə bütün xalqımızı, xüsusən gəncləri Azərbaycanın müstəqil dövlətçiliyi prinsiplərinə sadiq olmaq ruhunda tərbiyə etməliyik. Heydər Əliyev Azərbaycan dövlətini azad, ədalətli, demokratik, siyasi plüralizmin hökm sürdüyü, vətəndaş cəmiyyətinə malik bir ölkə kimi görmək istəyirdi və daim buna çalışırdı. 1995-ci ildə çoxpartiyalı sistem əsasında ilk parlament seçkiləri keçirilməsi, ölkənin ilk Konstitusiyasının qəbul edilməsi, Avropanın demokratik institutları ilə Azərbaycanın əlaqələrinin gücləndirilməsi və Qərbə inteqrasiya xəttinin götürülməsi bu böyük liderin öz ölkəsinin gələcəyi ilə bağlı mövqeyinin göstəricisi idi. Azərbaycanda əsl çoxpartiyalı sistem, azad, plüralist cəmiyyət, qeyri-hökumət strukturlarının, müstəqil mətbuatın yaradılması və inkişafı da Heydər Əliyevin bilavasitə səyi ilə həyata keçirilmişdir.

Heydər Əliyevin dövlət təlimi və milli ideyasında ikinci əsas yeri insan faktoru - millətini və xalqını sevən, dövlətinin yolunda hər bir şücaətə hazır olan, milli-mənəvi dəyərlərini yaşadan, ana dilini bilən və sevən, ədalətli və təşəbbüskar, fəal mövqeli və iradəli Azərbaycan vətəndaşı tuturdu. Ulu öndər öyrədirdi ki, hər hansı dövlətlərin gücü heç də onun böyüklüyü, yaxud kiçikliyi ilə ölçülmür. Əgər ölkənin vətəndaşı gördüyü işin onun özünə, ailəsinə və xalqına gətirəcəyi xeyri əvvəlcədən anlayır və ədalət prinsipi ilə öz zəhmətinin nəticəsini alırsa, həmin ölkə vətəndaşları daha ideyalı, əzmli və iradəli, belə ölkələr isə bir qayda olaraq güclü, qüdrətli və əzəmətli olurlar. Heydər Əliyevin dövlət təlimində dinindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq bütün ölkə vətəndaşları qanun və ölkənin bütün maddi və mənəvi dəyərləri qarşısında bərabər idi. Təsadüfi deyil ki, 1993- cü ildə Heydər Əliyevin idarəçilik fəaliyyətinin mühüm bir sahəsini Azərbaycanda ədalətli vətəndaş cəmiyyətinin yaradılması, insan potensialının quruculuq işlərinə cəlb olunması, sosial ədalət prinsiplərinin bərqərar olması və insanların öz dövlətinə və dövlətçiliyinə inamının artırılmasına xidmət təşkil etmişdir.

Heydər Əliyevin milli həmrəylik və vətəndaş birliyi ideyası, insan resurslarından düzgün istifadə edilməsi, hər bir vətəndaşın özünü dövlətinə və dövlətçiliyinə bağlı hesab etməsi, dövlətin hər bir insana, hər bir insanın isə öz dövlətçiliyinə xidmət etməsi amalı 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyada da öz əksini tapmışdır. Azərbaycançılıq ideologiyasının mahiyyətini təşkil edən əsaslardan biri də Heydər Əliyev üçün milli-mənəvi dəyərlərin, ana dilinin və mədəniyyətin qorunub saxlanması və inkişaf etdirilməsi idi. Bununla bağlı ulu öndər qeyd edirdi ki, bizim milli ideologiyamızın konsepsiyası tarixi keçmişimizi, milli adət-ənənələrimizi, dilimizi, dinimizi və mədəniyyətimizi əks etdirməli, bu dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsinə xidmət etməlidir. "Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir.

Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" Bu ifadələr ümummilli liderimizin milli-mənəvi dünyasını, vətəndaş aləmini və varlığını göstərən, öz milli köklərinə bağlılığını sübut edən tarixi bir bəyanat idi. Heydər Əliyev azərbaycançılıq ideologiyasından danışarkən layiqli vətəndaş məsələsini də xüsusi fərqləndirirdi. O qeyd edirdi ki, biz elə bir nəsil yetişdirməliyik ki, o öz dövlətini sevsin, onu qorumağı, yaşatmağı və bütün dünyada tanıtmağı, ölkəsini layiqincə təmsil etməyi bacarsın. Bundan başqa, Heydər Əliyev gənc nəslin öz milli adət-ənənələrinə sadiqliyini, milli əxlaqlı olmasını, dilini, mədəniyyətini gözəl bilməsini və sevməsini həmişə tövsiyə edir, eyni zamanda onları təhsilli, müasir, Avropa dəyərlərini və dillərini bilən insanlar kimi görmək istəyirdi.

Heydər Əliyev Azərbaycan gənclərini sərbəst düşüncə tərzinə malik, cəmiyyətdə və dünyada gedən proseslərdən baş çıxara bilən, vətənpərvər, dövlətçilik təfəkkürü güclü olan savadlı, bacarıqlı, intellektli insanlar kimi görürdü. Müasir Azərbaycanın mürəkkəb və taleyüklü tarixi dövründə dövlətə rəhbərliyin ağır məsuliyyətini öz üzərinə götürmüş Heydər Əliyevin müstəqil dövlət təlimi və onun ayrılmaz tərkib hissəsi olan azərbaycançılıq ideologiyasının həyata keçirilməsi müstəqil dövlətimizin bugünkü varlığının və gələcək inkişafının əsasını təşkil edir.

Ulu öndərin siyasi xəttini davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin və xalqımızın firavan gələcəyinin təmin edilməsində Heydər Əliyevin müstəqil dövlət təliminin və azərbaycançılıq ideologiyasının alternativsiz bir yol olduğunu dəfələrlə bəyan etmişdir. Ölkə başçısı Azərbaycan xalqının zamanın sınaqlarına sinə gərərək, müasir dünya xalqları sırasında layiqli yer tutmasını öz dili və mədəniyyətini qoruması, milli-mənəvi dəyərlərinə arxalanması ilə sıx bağlı olduğunu qeyd edir. Buna görə də bu gün elm və mədəniyyətə, vətənpərvərlik tərbiyəsinə, xalqımızın tarixi irsinə yetirilən diqqət dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub Heydər Əliyevin dövlətçilik təliminin yaradıcı şəkildə inkişafının təzahürü kimi özünü göstərir.

Əli Həsənov, tarix elmləri doktoru, professor
"Xalq qəzeti" – 2010 - 9 may -N 100.-S.3-4.

Azərbaycanın Almaniyadakı səfirliyi və "Azərbaycan evi" Cəmiyyətinin birgə təşkilatçılığı ilə Almaniyada yaşayan II Dünya müharibəsinin azərbaycanlı veteranları ilə görüş keçirilmişdir

Mayın 9-da Azərbaycanın Almaniyadakı səfirliyi və "Azərbaycan evi" Cəmiyyətinin birgə təşkilatçılığı ilə Almaniyada yaşayan II Dünya müharibəsinin azərbaycanlı veteranları ilə görüş keçirilmişdir. Səfir Pərviz Şahbazov tədbiri açaraq bəşər tarixinin ən dəhşətli müharibəsi olan II Dünya müharibəsində faşizm üzərində əldə edilən tarixi Qələbə münasibətilə veteranları təbrik etmişdir. P.Şahbazov Azərbaycanın şanlı Qələbənin əldə edilməsinə verdiyi böyük töhfədən söhbət açaraq bu gün də ölkəmizdə II Dünya müharibəsi veteranlarına göstərilən dövlət qayğısından bəhs etmişdir. Sonra səfir P.Şahbazov Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi və "Azərbaycan evi" Cəmiyyəti tərəfindən hazırlanmış hədiyyələri, habelə Azərbaycanın Almaniyadakı səfirliyinin pul mükafatlarını veteranlara təqdim etmişdir.

Çıxış edən veteranlar onlara göstərilən diqqətə görə Azərbaycan dövlətinə minnətdarlıq etmiş, ölkəmizin getdikcə tərəqqi edərək çiçəklənməsinin onlarda qürur hissi oyatdığını bildirmişlər.

09 may 2010

Amerikada yaşayan azərbaycanlılar Şuşa şəhərinin ermənilər tərəfindən işğal olunmasının 18-ci ildönümü ilə bağlı bəyanat yayıblar

Amerikada yaşayan azərbaycanlılar Şuşa şəhərinin ermənilər tərəfindən işğal olunmasının 18-ci ildönümü ilə bağlı bəyanat yayıblar.APA-nın Vaşinqton müxbirinin verdiyi məlumata görə, Azərbaycan-Amerika Şurasının yaydığı bəyanatda qeyd olunur ki, 18-ci əsrdə Pənahəli Xan Cavanşir Ziyadoğlu tərəfindən müstəqil Qarabağ xanlığının paytaxtı kimi əsası qoyulan Şuşa Azərbaycan mədəniyyətinin, ədəbiyyatının və musiqisinin beşiyinə çevrilib.

Şura Azərbaycanın bütün dostlarını, ABŞ dövlət rəsmilərini və medianı Şuşa və Azərbaycanın digər rayonlarının işğalını və oradakı etnik təmizləmə siyasətini pisləməyə çağırıb. Qarabağın ermənilər tərəfindən işğalının nəinki Qafqazın zəngin mədəni irsini, həm də regionda hər hansı sülh perspektivini təhlükə altına aldığını bildirən Azərbaycan-Amerika Şurası təkcə Azərbaycanda yox, bütün regionda sülhə səsləyib.

10 may 2010

Fransanın azadlığı uğrunda döyüşlərdə azərbaycanlı döyüşçülərin xatirəsi yad edilmişdir

İkinci Dünya müharibəsinin qızğın dövründə Fransanın Midi-Pirene regionunun Aveyron departamentində yaradılmış xüsusi düşərgələrdə müxtəlif xalqların nümayəndələrindən ibarət dəstələr hazırlanaraq müxtəlif əməliyyatlar aparmağa yola salınırdılar. Alman əsirliyindən qaçaraq həmin dəstələrə qoşulmuş yüzlərlə azərbaycanlı Fransanın azadlığı uğrunda döyüşlərdə əsl qəhrəmanlıq göstərmişdir. Onların bir çoxu alman faşistləri ilə qanlı döyüşlərdə həlak olmuş və Fransa torpağında əbədiyyətə qovuşmuşdur.

Azərbaycan dövləti vətənlərindən uzaqda başqa millətlərin nümayəndələri ilə Fransanın azadlığı uğrunda çiyin-çiyinə vuruşaraq həlak olmuş azərbaycanlı döyüşçüləri unutmamış, onların xatirəsini əbədiləşdirmək məqsədi ilə Aveyron departamentinin paytaxtı Rodez şəhərinin qardaşlıq qəbiristanlığında onların xatirəsinə abidə ucaltmışdır.

Alman faşizmi üzərində Qələbənin 65-ci ildönümünün ayrı-ayrı ölkələrdə təntənəli şəkildə qeyd edildiyi vaxtda Azərbaycanın Fransadakı səfiri Elçin Əmirbəyov azərbaycanlı döyüşçülərin xatirəsini yad etmək üçün Rodezdə səfərdə olmuşdur.

Mayın 8-də səfir şəhər parkında Qələbənin 65 illiyi ilə əlaqədar təşkil olunmuş mərasimdə iştirak etmiş, Fransanın azadlığı uğrunda həlak olmuş fransız döyüşçülərinin xatirəsinə ucaldılmış abidənin önünə səfirlik adından əklil qoymuşdur.

Sonra səfir şəhər rəsmiləri, müharibə veteranları və ictimaiyyətin nümayəndələri ilə birlikdə şəhər ətrafında almanlar tərəfindən qətlə yetirilmiş yüzlərlə əsirin dəfn edildiyi yerə baş çəkmiş, burada ucaldılmış abidənin qarşısına da əklil qoymuşdur.

Sonda E.Əmirbəyov və onun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti şəhər yaxınlığındakı qəbiristanlıqda olmuş, azərbaycanlı döyüşçülərin xatirəsinə ucaldılmış abidənin önünə Azərbaycan hökuməti adından əklil qoymuş, qəhrəmanların xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

11 may 2010

"50 milyonluq Azərbaycan güclü dövlətə çevriləcək"

"GünAzTV" bu istiqamətdə çalışır

Əhməd Obalının "Həftə içi"nə eksklüziv müsahibəsi

Amerikanın Çikaqo şəhərində fəaliyyət göstərən "GünAzTV"nin 5 yaşı tamam olur. Televiziya bu illər ərzində mühüm təbliğat işləri aparıb və bütöv Azərbaycan ideologiyasının təbliğatçısıdır.

Azərbaycanda səfərdə olan "GünAzTV"nin rəhbəri Əhməd Obalı "Həftə içi"nə müsahibəsində görülən işlər, gələcək planlar və Güney Azərbaycandan danışdı.

- "GünAzTV"nin 5 illiyi ilə bağlı bu ay bir neçə tədbir keçirəcəyik. Ayın 6-da Bakıda artıq bir tədbirimiz reallaşıb. Əlavə olaraq da Çikaqodakı studiyamızdan canlı yayımımız baş tutacaq.

- Hazırda "GünAzTV"nin əməkdaşları hansı şəraitdə işləyirlər və yayım hansı peyk vasitəsilə həyata keçirilir?

- Televiziya 5 il ərzində "Telestar 12" peykindən daha çox Güney Azərbaycanda yayımlanır. Ona görə də Güney Azərbaycan məsələsinə daha çox önəm vermişik. Ara-sıra "Türksat" və başqa peyklərdən də yayımlanmışıq. Həm də internet vasitəsilə canlı olaraq 24 saat ərzində "GünAzTV"ni izləmək mümkündür.

- Maliyyəni hardan alırsınız? Azərbaycanlı iş adamları dəstək verirlərmi?

- Əlbəttə, bu işi yardımsız həyata keçirmək mümkün deyil. Bu, böyük maliyyə tələb edir. Düzdür, biz tam olaraq televiziya kimi fəaliyyət göstərə bilmirik. Güneyli-quzeyli iş adamlarımız, milli fəallarımız, xüsusilə də ABŞ və Rusiyada yaşayan soydaşlarımızın köməyi həddindən artıq çoxdur. Onların köməyi olmasaydı, televiziyanın fəaliyyətini davam etdirməyimiz mümkünləşməyəcəkdi.

- Bəs "GünAzTV"nin Bakı nümayəndəliyinin fəaliyyəti necə olacaq? Mərkəzin genişləndirilməsi planı varmı?

- Avropada və Azərbaycanda könüllü işçilərimiz var. Amma daha çox əməkdaşlarımız Bakıdadırlar. Çikaqoda yerləşən mərkəzimizdə isə hazır materialları alırıq və yayırıq. Bir də canlı yayımla telekörpü yaradırıq. 40 nəfərə qədər könüllümüz işləyir ki, onlar da Azərbaycan və Avropadadırlar.

- Güneydən necə, xəbər tutursunuz?

- Güneydən informasiya almaq üçün heç bir çətinliklə qarşılaşmırıq. Əlbəttə, məhdudiyyətlər var. İran açıq fəaliyyətə icazə vermir. Ona görə də orada nümayəndəliyimiz yoxdur. Amma Güney Azərbaycanda minlərlə könüllümüz var. Onlar məlumatları əldə edir və bizə göndərirlər. Bizə göndərilən xəbərlərlə yanaşı, videogörüntülər, fotolar da olur. Mən deyərdim ki, könüllü ordumuz var.

- Hazırda "GünAzTV"nin Güney Azərbaycanda önəm verdiyi əsas problem nədir?

- Bizim işimiz əsasən maarifləndirmədir və buna çox önəm veririk. Milləti məhdud şəraitdə tarix, ədəbiyyat, insan haqları, demokratiya və digər sahələrdə maarifləndiririk.

- ABŞ-da Güney Azərbaycan məsələsinə münasibət necədir? Televiziya olaraq bu istiqamətdə addımlarınız varmı?

- Təbii ki, ABŞ dövlət olaraq öz maraqları çərçivəsindən çıxış edir və biz bunu başa düşməliyik. ABŞ və ya hər hansı bir dövlət Güney Azərbaycan üçün plan hazırlamır ki, bizi azad etsin və ya hüquqlarımızın təminatçısı olsun. Sadəcə, maraqlarımızın üst-üstə düşdüyü yerdə onları nəzərə almalıyıq. Əsasən isə özümüz ayaq üstə durmağı bacarmalıyıq. Sayımız çoxdur. 30 milyondan artıq Güney, 9 milyon isə Quzey Azərbaycanda azəri türkü yaşayır. Digər ölkələrdə də soydaşlarımız işləyirlər. Hələ Türkiyədəkiləri nəzərdə tutmuram. Yəni sayımıza baxanda Güney Azərbaycandakı 30 milyon soydaşımızın ayaq üstə durmağına potensialı yetir. Hüququnu bilsə, öz tələblərini ümumdünya insan haqları çərçivəsində irəli sürərsə, buna qarşı heç bir ölkə çıxa bilməz. Biz də türk olaraq o çərçivədən kənara çıxmaq istəmirik və vətəndaş hüquqlarının bərpasını tələb edirik.

- Bəs ABŞ-ın yerli televiziyaları ilə əməkdaşlıq edirsinizmi?

- ABŞ televiziyaları ilə əməkdaşlıq etmirik. Əvvəla, biz ana dilində, onlar isə ingilis dilində fəaliyyət göstərirlər. Digər tərəfdən proqramlarımızın hamısı Azərbaycan haqqındadır. Hansısa dövlətin maraqlarını reklam etmək istəmirik. Amma "GünAzTV"nin təsiri ilə bəzi məlumatlar yayılır. Heç bu istiqamətdə biz çalışmırıq da. Çünki bizim əsas işimiz azərbaycanlıların maarifləndirilməsidir.

- Diaspor efirinizdən yararlanırmı?

- Təbii ki, "GünAzTV"ni ayaqda saxlayan diaspordur. Diasporun fəaliyyətinə isə yardımımız olur. Bu barədə proqramlar yayırıq.

- Son illərə qədər xaricdə yaşayan güneyli və quzeyli soydaşlarımız arasında bir düşüncə fərqi var idi. Onda bir-birinin tədbirlərinə az qatılırdılar. İndi necədir, bu fərqlilik aradan qalxıbmı və "GünAzTV" bu istiqamətdə təbliğat aparırmı?

- Biz parçalanmış millətik. Bir parçamız rus imperiyasının təsiri altında yaşayıb. 30 milyonumuz isə İranın təsiri altındadır və bizə fars mədəniyyəti sırıdılıb. Bunları təhlil edəndə 150 - 200 il mövcud olan ayrılığın yaratdığı kompleksləri anlamaq olur. Buna görə də fərqli düşüncə tərzi və ya fikir ayrılığını təbii qəbul etmək lazımdır. Son 15 - 20 ildə, Quzey Azərbaycan Cümhuriyyəti yaradılandan sonra həmin fərqlilik getdikcə azalır. Vaxt tapıb Azərbaycan məsələsi ilə məşğul olmayanlarımız da az deyil. İqtisadi durum, böhran, məişət problemləri bir çoxunun başını qatıb. Amma şükürlər olsun ki, onlar da artıq bütöv Azərbaycan məsələsini bilirlər və fikir birliyinə doğru sürətlə gedirik. Məsələn: Güney Azərbaycanda əsas şüarlar "Bakı, Təbriz, Ankara, biz hara, farslar hara!", "Azərbaycan bir olsun, mərkəzi Təbriz olsun!" kimi ifadələri özündə ehtiva edir. Ümumiyyətlə, Azərbaycanın bütövlüyü millətimiz arasında qəbul olunmaqdadır. Mən deməzdim ki, artıq hamı bunu qəbul edib, amma ən üstün fikir budur. Ayrılıq fikri yavaş-yavaş aradan qalxır.

- Yeri gəlmişkən, Güney Azərbaycanla bağlı fəaliyyət göstərən təşkilatlar arasında da ideoloji cəhətdən fikirlər müxtəlifdir. Siz necə düşünürsünüz?

- Mən heç vaxt Azərbaycanın ayrı qalmasının tərəfdarı olmamışam. Biz bir millətik, ona görə də bir dövlətimiz, bir bayrağımız olmalıdır. Təbii ki, bunun üçün addımlar atmaq, hazırlıqlar aparmaq lazımdır. Bu, 1 - 2 ilin işi deyil. Tələsmədən, təməlləri düzgün müəyyənləşdirib ona doğru irəliləmək lazımdır. Bundan da böyük hədəflərimiz ola bilər. Türklərin bir-birinə yaxınlaşması, türk cəmiyyətlərinin birlik, dövlətlərin iqtisadi birlik yaratması da mümkündür və bunların hamısı gələcəyin işidir. Amma indidən böyük işdən yapışsaq, bunun nəticəsi olmayacaq. Güney Azərbaycanın azadlığı hələ qarşımızda duran ən mühüm məsələdir. Bu istiqlal əldə ediləndən sonra biz birləşməyə doğru addımlar atmalıyıq və bu fikirlər indidən formalaşdırılmalıdır. Televiziya olaraq biz bu istiqamətdə işləyirik. 50 milyonluq Azərbaycan dünyanın güclü dövlətlərindən birinə çevrilə bilər.

Güney Azərbaycanla Naxçıvan arasında kürd "əraziləri" yaradılır

- Son zamanlar Güney Azərbaycanla Türkiyə sərhədində kürd məhəllələrinin salınması barədə məlumatlar yayılırdı. Bu barədə reportaj hazırladınızmı?

- İranın Güney Azərbaycanın Türkiyə ilə sərhədində yeni kürd məhəllələrinin salınması ilə bağlı bizdə dəqiq məlumatlar var. Eyni zamanda İran həm də Güney Azərbaycanla Naxçıvan arasında kürd əraziləri yaradır. Bu barədə təkzibolunmaz faktlarımız var və proqramlar da hazırlamışıq. Türkiyədən qaçan, İraqdan gələn PKK-çılara orada yer verirlər. Həm də onlara qaçaqmalçılıq üçün şərait yaradılır ki, kürdlərin maddi imkanları genişlənsin və azərbaycanlıların yerlərini pulla da alsınlar. İranın bizə qarşı hərtərəfli çalışmasını strateji baxımdan anlamalıyıq. SSRİ-nin dağılma ərəfəsində İranın Türkiyədəki səfiri Əkbər Gənci deyib ki, "əgər dünyada bir qarış torpaq Azərbaycan adı ilə dövlət sayılırsa, o bizim milli təhlükəsizliyimizə təhdiddir. Biz də buna qarşı işləməliyik".

Əli Zülfüqaroğlu
"Həftə içi" - 2010 - 12 may -N.82.-S.1, 3.

Azad Berlin Universitetində (Freie Universitaet Berlin) təhsil alan azərbaycanlı tələbələr bu təhsil ocağının beynəlxalq klubunda Azərbaycan gecəsi keçiriblər

Mayın 14-də Azad Berlin Universitetində (Freie Universitaet Berlin) təhsil alan azərbaycanlı tələbələr bu təhsil ocağının beynəlxalq klubunda Azərbaycan gecəsi keçiriblər. Azərbaycanın Almaniyadakı səfirliyinin dəstəyi ilə təşkil olunan tədbirdə universitetin tələbələri Afət Nəbiyeva və Mədinə Yaqubova ölkəmizin tarixi, mədəniyyəti, iqtisadiyyatı, milli-mənəvi dəyərləri və digər mövzularda ətraflı məlumat veriblər. 4 saat davam edən tədbirde onlarla almaniyalı, azərbaycanlı və əcnəbi tələbələr iştirak ediblər.

Gecədə Azərbaycan haqqında sənədli film nümayiş etdirilib, sonra tələbələr respublikamız barədə hazırlanmış məlumatları PowerPiont proqramından istifadə etməklə geniş ekran vasitəsilə qonaqlara təqdim ediblər. Tədbirdə həmçinin Azərbaycana aid sual-cavablardan ibarət oyun da təşkil olunub. Qonaqlar milli mətbəximizin ləziz nümunələri ilə də tanış ediliblər.

14 may 2010

Gürcüstanda yaşayan azərbaycanlı gənclərin I qurultayı keçirilmişdir

Mayın 15-də Azərbaycanlıların Mədəniyyət Mərkəzinin təşkilatçılığı və Diasporla İş Üzrə Dövlət Komitəsinin dəstəyilə Marneuli şəhərindəki Nəriman Nərimanov adına Mədəniyyət Evində Gürcüstanda yaşayan azərbaycanlı gənclərin I qurultayı keçirilmişdir. Marneulidəki Azərbaycanlıların Mədəniyyət Mərkəzinin rəhbəri Fazil Həsənov Diasporla İş Üzrə Dövlət Komitəsinə bildirib ki. Qurultayın əsas məqsədi azərbaycanlı gənclərin Gürcüstanın vətəndaş cəmiyyətinə inteqrasiyası, onların ictimai həyatda rolunun artırılması və bəzi problemlərin həllini müzakirə etməkdir. Tədbirdə Azərbaycanlı gənclərin ölkənin ictimai-siyasi həyatında rolu, "Gürcüstan Azərbaycanlı Gənclər İttifaqı"nın təsis olunması məsələləri olunacaq. Qurultayda 300-dək nümayəndənin iştirakı nəzərdə tutulub. Tədbirə ictimai təşkilatlarda çalışan azərbaycanlı gənclər, ali məktəb tələbələri, ziyalılar qatılacaq. Qurultayda Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndələri, həmçinin Gürcüstanın rəsmi dairələrinin təmsilçiləri də iştirak edəcəklər.

Mayın 15-də Marneuli şəhərində Gürcüstan azərbaycanlı gənclərinin Iqurultayı keçirilib. Marneulidəki Azərbaycanlıların Mədəniyyət Mərkəzinin təşkilatçılığı və Diasporla İş Üzrə Dövlət Komitəsinin dəstəyilə keçirilmiş qurultayda Azərbaycan Respublikasının Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Namiq Əliyev, Milli Məclisin deputatları Qənirə Paşayeva, Rauf Əliyev, Sabir Hacıyev, Gürcüstan parlamentinin üzvü Azər Süleymanov, Kvemo-Kartli qubernatorunun müavinləri Hüseyn Yusifov, Koba Kubiaşvili, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları iştirak ediblər.

Gürcüstan azərbaycanlı gənclərinin I qurultayının təşəbbüs qrupunun rəhbəri Leyda Məmmədova çıxış edərək qurultayın çağrılmasının məqsədi barədə danışıb. O qeyd edib ki, toplantının əsas məqsədi gürcüstanın azərbaycanlı gənclərini bir araya gətirmək və onların cəmiyyətə inteqrasiyası sahəsində ardıcıl layihələr həyata keçirməkdir. L.Məmmədova qurultayda 202 nəfər nümayəndədən 165 nəfərin iştirak etdiyini bildirib.

O, qurultayın işində Gürcüstandakı azərbaycanlı gənclərin təsis etdiyi 18 təşkilatın nümayəndəsinin iştirak etdiyini diqqətə çatdırıb. Toplantıda Gürcüstanın azərbaycanlıların yaşadığı bütün bölgələr təmsil olunub. Qurultayda təbrik sözü söyləyən Azərbaycan respublikasının Gürcüstandakı səfiri Namiq Əliyev Azərbaycan respublikasının Prezidenti cənab İlham Əliyevin qurultay iştirakçılarına salamlarını çatdırmışdır. O, bu tədbirin əhəmiyyətini yüksək qiymtələndirmiş və toplantının azərbaycanlı gənclərin cəmiyyətə inteqrasiyasına önəmli töhfələr verəcəyinə inamını ifadə etmişdir.

Milli Məclisin deputatı Qənirə Paşayeva son illərdə Gürcüstanda azərbaycanlıların problemlərinin həlli sahəsində bir sıra uğurlulayihələrin həyata keçirildiyini qeyd edib. O deyibki, Heydər Əliyev Fondu, Diasporla İş üzrə Dövlət Komitəsi, ARDNŞ və digər təşkilatların həyata keçirdiyi bu layihələr azərbaycanlıların cəmiyyətə inteqrasiyasını stimullaşdırır. Q.Paşayeva Gürcüstanın Azərbaycandilli məktəblərində gürcü dili kurslarının açılması nəticəsində dövlət dilini bilən yeni kadrların yetişdiyini vurğulayıb. Millət vəkili qurultayın azərbaycanlı gənclərin həyatında mühüm bir hadisə kimi tarixə düşəcəyinə inandığını bildirib.

Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Füzuli Nəcəfov qurultayın azərbaycanlı gənclərin problemlərinin həllinə layiqli töhfələr verəcəyinə inandığını deyib. O qeyd edibki, Gürcüstanda yaşayan azərbaycanlıların problemləri daim Azərbaycan dövlətinin diqqət mərkəzindədir və son illərdə həyata keçirilən bir sıra layihələr bunun parlaq sübutudur.

F.Nəcəfov qurultayda azərbaycanlılar yaşayan bütün bölgələrin və azərbaycanlı gənclərintəsis etdiyi əksər QHT-lərin nümayəndələrinin iştirakını yüksək qiymətləndirib. Toplantıda həmçinin Azərbaycan Respublikası Milli Məclisinin deputatları Rauf Əliyev, Sabir Hacıyev, Gürcüstan parlamentinin üzvü Azər Süleymanov, Kvemo-Kartli qubernatorunun müavinləri Hüseyn Yusifov, Koba Kubiaşvili və digərləri çıxış edərək gənclərə uğurlar arzulayıblar.

Qurultayda çıxış edən cənclər təşkilatlarının nümayəndələri onları narahat edən problemlərdən danışıb, azərbaycanlıların cəmiyyətə inteqrasiyası sahəsində həyata keçirilmiş layihələri təqdir etdiklərini bildiriblər. Çıxışlarda bəzi gənclərin dövlət dilini bilməməsi, dövlət idarəçiliyində soydaşlarımızın məhdud şəkildə təmsil olunması, hüquqi maarifləndirmə sahəsində mövcud olan çətinliklər, insan hüquqlarının pozulması halları ilə bağlı bir sıra problemlərə toxunulub. Çıxış edənlər Gürcüstan azərbaycanlı gənclərinin Iqurultayının çağırılmasını mühüm tarixi hadisə kimi qiymətləndiriblər.

Tədbirdə Gürcüstan Azərbaycanlı Gənclərinin İttifaqının yaradılması məsələsi müzakirə olunub. İştirakçılar belə bir qurumun yaradılmasının zəruri olduğunu bildiriblər. Çıxış edən gənclər təşkilatlarının nümayəndələri yeni yaradılacaq qurumun azərbaycanlı gənclərin problemlərinin həlli, cəmiyyətə inteqrasiyası sahəsində uğurlu layihələr həyata keçirəcəyinə inandıqlarını söyləyiblər. Müzakirələrin nəticəsi olaraq, Gürcüstan Azərbaycanlı Gənclərinin İttifaqının Nizamnaməsi səsə qoyulubvə böyük səs çoxluğu ilə təsdiq edilib.

Sonra nizamnaməyə uyğun olaraq 13 nəfərdən ibarət İdarə Heyəti seçilib. Toplantıda Gürcüstan azərbaycanlı gənclərinin Iqurultayının iştarakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Gürcüstan Prezidenti Mixail Saakaşviliyə müraciətlər qəbul edilib.

Toplantının sonunda Gürcüstan Azərbaycanlı Gənclərinin İttifaqının İdarə Heyətinin iclası keçirilibvə Marneuli Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin QHT-lərlə iş sektorunun rəhbəri Leyla Məmmədova İdarə Heyətinin sədri seçilib.

Tədbirdə Azərbaycanlıların Mədəniyyət Mərkəzinin müraciətinə əsasən AFFA-nın nümayəndəsi, millət vəkili Rauf Əliyev Gürcüstanda fəaliyyət göstərən Azərbaycan dilli 10 orta məktəbə idman geyimləri, digər məktəblərə isə futbol topları hədiyyə edib. Qeyd edilib ki, AFFA-nın bu köməyi gələcəkdə də davam etdiriləcək.

15 may 2010

İsveçdəki Azərbaycan diasporunun gənc fəalları yeni təşkilat yaradıblar

İsveçdəki Azərbaycan diasporunun gənc fəalları yeni təşkilat yaradıblar. Mayın 16-da Stokholmda bir araya gələn gənc soydaşlarımızın keçirdiyi təsis konfransında Linköping Universitetinin Beynəlxalq Əlaqələr fakültəsinin tələbəsi Mahirə Muxtarlı və Stokholm Universiteti Hüquq və Beynəlxalq Əlaqələr fakültəsinin tələbəsi Fərəc Quliyev təşkilatın nizamnaməsini geniş ekran vasitəsi ilə təqdim ediblər. Konfrans iştirakçılarının yekdil qərarı ilə İsveç Krallığında yaşayan azərbaycanlı gənclərin yeni təşkilatı "İsveçin gənc azərbaycanlıları" adlandırılıb. Konfransda təşkilatın idarə heyəti və rəmzləri təsdiqlənib.

İdarə heyətinə həm Azərbaycan Respublikasından, həm də əslən Güney Azərbaycandan olan tələbələr, eləcə də ayrı-ayrı idarələrdə, müəssisələrdə çalışan aktiv gənclər seçiliblər. Konfransa dəvət olunan qonaqlar öz çıxışlarında gənclərin bu təşəbbüsünə və onların gələcək fəaliyyətinə dəstək verəcəklərini bildiriblər. Sonda artıq isveçlilərin rəğbətini qazanmış reper Azərikim konfrans iştirakçıları qarşısında İsveç və Azərbaycan dilində çıxış edib. Qeyd edək ki, tezliklə İsveç Krallığında yaşayan soydaşlarımızın birgə fəaliyyətinin nəticəsi olaraq "İsveç Azərbaycanlıları Konqresi" yaradılacaq. Konqresin ilk qurultayı bu il iyunun 5-də Stokholmun "Radisson" otelində keçiriləcək.Ümumiyyətlə, son dövrlərdə İsveçdə yaşayan soydaşlarımız daha mütəşəkkil fəaliyyət göstərməyə başyalıblar. Bu ilin əvvəlindən bəri artıq bir neçə dərnək və cəmiyyət rəsmi qeydiyyatdan keçib və təşkilatlanmış şəkildə fəaliyyət göstərmək məqsədilə bir yerə toplanıblar.

16 may 2010

“Oğuz eposu Kitabi Dədə Qorqud və Dərbənd”
mövzusunda elmi-praktiki konfrans keçirilib

Dağıstan Respublikasının Dərbənd şəhərində Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin və Ümumrusiya Azərbaycan Konqresi Dağıstan regional bölməsinin birgə təşkilatçılığı ilə “Oğuz eposu Kitabi Dədə Qorqud və Dərbənd” mövzusunda elmi-praktiki konfrans keçirilib. Dərbəndin qədim məkanlarında biri olan yerlilərin “Maqal” adlandırdıqları mahalda yerləşən 3 saylı şəhər gimnaziyasının tədbirlər salonunda keçirilən konfransda çıxış edən Ümumrusiya Azərbaycan Konqresi Dağıstan regional bölməsinin sədri Seyran Rəhimov bu mövzuda konfrans keçirilməsinin məqsədləri haqqında məlumat verib və Azərbaycandan gəlmiş qonaqları iştirakçılara təqdim edib. Tədbirin yüksək səviyyədə keçirilməsi üçün təşkialtçıların xüsusi fəallıq göstərdiklərini bildirib.

Konfransda Dərbənd şəhəri merinin səlahiyyətlərini icra edən İmam Yarəliyev çıxış edərək “Oğuz eposu Kitabi Dədə Qorqud və Dərbənd” mövzusunda elmi-praktiki konfrans keçrilməsinin şəhərin ictimai həyatında mühüm hadisə olduğunu vurğulayıb və Dərbəndin qədim tarixinin öyrənilməsi, həmçinin gənc nəsilə çatdırılması baxımından tədbirin böyük əhəmiyyət daşıdığını söyləyib.

Tədbirdə Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi şöbə müdirinin müavini Elnar Məmmədov çıxış edərək elmi-praktiki konfransın Dağıstan tərəfdən təşkilatçılarına yüksək səviyyədə hazırlıq işlərinə görə təşəkkür edib. O, Azərbaycan Respublikasının Rusiya Federasiyasının bütün subyektləri, o cümlədən Dağıstan Respublikası ilə əlaqələrə xüsusi önəm verdiyini vurğulayıb.

Dərbənd şəhər Mədəniyyət İdarəsinin, Dərbənd İncəsənət və Mədəniyyət İnstitutunun, Dağıstan Dövlət Universitetinin Dərbənd filialının və ATXƏM təşkilatının dəstəklədiyi “Oğuz eposu Kitabi Dədə Qorqud və Dərbənd” mövzusunda elmi-praktiki konfransda mövzu ətrafında həm yerli, həm də Azərbaycandan gəlmiş alimlər çıxış ediblər. Diyarşünas alim Hüseynbala Hüseynov “Qədim Oğuz yazılı abidəsi olan Kitabi Dədə Qorqudun yaranma yeri məsələlərinə dair”, Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Folklor şöbəsinin müdiri Ağaverdi Xəlilov “Kitabi Dədə Qorqud və Dərbənd, qarşılıqlı epik əlaqələr və ümumi mənəvi mədəniyyət”, Azərbaycanlıların və Digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin sədri İlham İsmayılov “Tarixi ədəbiyyatın, o cümlədən Kitabi Dədə Qorqud kimi dastanların təbliğində QHT-lərin üzərinə düşən vəzifələr” və digər mövzularda məruzələr təqdim olunub.

Məruzələrdə Dədə Qorqudun Dərbənd şəhərində yaşaması, müxtəlif tarixi mənbələrdə, o cümlədən Evliya Çələbi və Adam Olearinin qeydlərində hətta Dədə Qorqudun məzarının Dərbənd şəhərində yerləşməsi haqqında məlumatların olduğu bildirilib. Eyni zamanda eposun dili, dastanda cərəyan edən hadisələr haqqında da ətraflı informasiyalar verilib. Sonra konfrans iştirakçıları Dədə Qorqudun məzarının yerləşdiyi iddia edilən yerə baş çəkiblər. Konfrans iştirakçıları həmçinin “Narın Qala” kompleksində qədim tariximizin nümunələri ilə tanış olublar.

17 may 2010

Marcanişvili teatrının kiçik salonunda görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının «Solğun çiçəklər» tamaşasının premyerası olub

Mayın 17-də Gürcüstan paytaxtında fəaliyyət göstərən Heydər Əliyev adına Tiflis Azərbaycan Dövlət Dram Teatrının aktyor qrupunun iştirakı ilə Marcanişvili teatrının kiçik salonunda görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının «Solğun çiçəklər» tamaşasının premyerası olub. APA-nın Gürcüstan bürosuna məlumatına görə, tamaşanı gənc rejissorlar Namiq Valehoğlu və Namiq Musayev səhnələşdirib. Tamaşanın quruluşu mənalı və tamaşaçı üçün maraqlı olub. Tamaşada Sara rolunda-Aida Tağıyeva, Bəhram rolunda-Aslan Məmmədov, Gülnisə rolunda - Şeyla Şamoyeva, Pəri rolunda - Leyla Qasımova və nökər Əbdül rolunda - Namiq Valehoğlu oynayıb. Gənc aktyorlar öz rollarını peşəkarlıq və ustalıqla nümayiş etdiriblər. Tamaşanın sonunda sürəkli alqışlar onların aktyorluq məharətlərinə verilən ən yüksək qiymət olub. Gənc rejissor Namiq Valehoğlu APA-ya açıqlamasında bildirib ki, Heydər Əliyev adına Tiflis Azərbaycan Dövlət Dram Teatrının fəaliyyət göstərdiyi 6 il ərzində C.Cabbarlının «Solğun çiçəklər»i ilk tamaşadır ki, bir ay ərzində yüksək peşəkarlıqla səhnələşdirilir. «Bu, yəqin ki, bizim Bakıda təkmilləşmə zamanı əldə etdiyimiz bilik və təcrübənin nəticəsidir.

Mən aktyorlarımıza minnətdaram. Onların bacarığı və istedadı həmişə uğurlu olur. Biz Gürcüstan Mədəniyyət Nazirliyinə təşəkkürümüzü bildiririk ki, bu gün bu salonu bizim ixtiyarımıza verib. Mən çox arzu edərdim ki, gənc azərbaycanlı aktyorlar öz peşəkarlığını, istedadını Tiflisin Qriboyedov, Marcanişvili və Rustaveli teatrlarında deyil, öz doğma teatrımızda göstərsin. Bu, bizim üçün ikiqat sevinc olar. Hələlik buna imkanımız yoxdur, teatrımızda təmir işləri gedir. Gələcəkdə Heydər Əliyev adına Tiflis Azərbaycan Dövlət Dram Teatrının səhnəsini təmir edib başa çatdıra bilsək, səhnəyə daha çox əsərlər qoya bilərik. Buna baxmayaraq aktyorlarımız rolların öhdəsindən sənətkarlıqla gəldilər». Gürcüstan Azərbaycanlılarının Konqresinin sədri Əli Babayev APA-ya bildirib ki, tamaşaya baxanda Azərbaycanın ruhu hiss olunur. «Aktyorlarımızın istedadının şahidi olduq.

Bu gün teatrın imkanları məhduddur, amma inanıram ki, bu gənc kollektiv gələcəkdə daha böyük teatr salonlarında uğurlar əldə edəcək və öz sözünü cəsarətlə söyləməyi bacaracaq. Ən başlıcası odur ki, hamı bu teatrı dəstəkləməlidir». Premyeranın tamaşasında Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşları, məktəb direktorları, Tiflisə yaxın olan rayonlardan tamaşaçılar, gürcü və azərbaycanlı ziyalılar iştirak ediblər. Xatırladaq ki, Heydər Əliyev adına Tiflis Azərbaycan Dövlət Dram Teatrında çalışan gənc rejissorlar - Namiq Valehoğlu və Namiq Musayev bu yaxınlarda Bakıda Musiqili Komediya Teatrında, Gənc Tamaşaçılar Teatrında və "Yuğ" teatrında görkəmli teatr xadimlərindən üç ay müddətinə təcrübə alaraq rejissorluq sənəti sahəsində daha da təkmilləşiblər.

17 may 2010

“Krımın Azərbaycanlı İcması” İctimai Birliyinin sədri Rəhim Hümbətov Ujqorod şəhər meri Sergey Ratuşnyaka Uşqorod Şəhər Şurasının qondarma “erməni soyqırımı”nı tanıması ilə bağlı məktub göndərib

“Krımın Azərbaycanlı İcması” İctimai Birliyinin sədri Rəhim Hümbətov Ujqorod şəhər meri Sergey Ratuşnyaka Uşqorod Şəhər Şurasının qondarma “erməni soyqırımı”nı tanıması ilə bağlı məktub göndərib. Rəhim Hümbətovun APA-ya verdiyi məlumata görə, məktubda Ujqorod rəhbərliyinin diqqəti qəbul olunan qərarın qanunsuz olduğuna yönəldilir: “Çünki Ujqorod Şəhər Şurası yerli idarəetmə orqanı kimi Ukrayna Konstitusiyası və qanunları çərçivəsində yalnız yerli əhəmiyyətli məsələlərlə bağlı müstəqil qərar vermək imkanına malikdir. Açıq-aşkar görünür ki, Ujqorod Şəhər Şurası bu qərarı qəbul etməklə səlahiyyətlərini aşıb.

Həmçinin qəbul olunan qərarın Ukraynanın dövlət maraqlarına zidd olduğunu da göz qabağındadır”. Məktubda Dağlıq Qarabağ münaqişəsi zamanı ermənilərin Xocalıda dinc sakinlərə qarşı soyqırımı törətdiyi bildirilir və bu soyqırımı haqqında çoxlu sayda film çəkildiyi, kitab və məqalələrin yazıldığı vurğulanır. Rəhim Hümbətov Ujqorod Şəhər Şurasından Xocalı soyqırımını da insanlığa qarşı cinayət kimi tanımağı, Ukrayna prezidentinə və Ali Radaya müraciət edərək Azərbaycan xalqını bu məsələdə dəstəkləməyi xahiş edib.

21 may 2010

28 May - Respublika Günü münasibəti ilə bir sıra tədbirlər keçirilmişdir

Mayın 22-də Berlində 28 May - Respublika Günü münasibətilə „Azərbaycan Respublıkasının Dövlət Himni saatı" adlı tədbir keçirilmişdir. Dövlət Himnimiz səsləndirildikldən sonra tədbirin giriş sözünü AAKM-nin icraçı direktoru Samirə Patzer-Ismayılova və Berlin Azərbaycan Kültür Ocağının sədri Hakan Ciflik deyəcəklər. Sonra "Integra" alman dili məktəbində Integrasiya kurslarının dosenti Naiba Hantel "Azərbaycan Respublikası Dövlət Himninin yaranma tarixi haqqında" məruzə təqdim edəcək. Tədbirdə Azərbaycan Respublikası Dövlət Himninin mətni və musiqisi haqqıda məlumat veriləcək, Dövlət Himnini tədbirin iştirakçıları birgə ifa edəcəklər.

Mayın 23-də Kiyevin 37 nömrəli ümumtəhsil məktəbinin Azərbaycan dili sinfində Azərbaycanın Respublika gününə həsr olunmuş dərs keçirilmişdir. Tədbir Heydər Əliyev adına Ukrayna-Azərbaycan Təhsil, Elmi-Mədəni, İdman Mərkəzi, Ukrayna Azərbaycanlıları Konqresinin (UAK) Kiyev nümayəndəliyi və məktəbin rəhbərliyi tərəfindən təşkil olunmuşdu. Azərbaycanın və Ukraynanın dövlət bayraqları, qızılgüllərlə bəzədilmiş sinifdə Azərbaycan Respublikasının Dövlət himni səslənmişdir. Azərbaycan dili müəllimi Səfiyə Naibova əvvəlcə sözü ölkəmizin Ukraynadakı səfiri Tələt Əliyevə vermişdir. Diplomat toplaşanlara Azərbaycan dövlətçiliyinin memarı, dahi lider Heydər Əliyevin müasir Azərbaycanın yaradılmasında və inkişafında əvəzsiz rolundan, respublikada bütün sahələrdə ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan uğurlardan danışmışdır. UAK-ın Kiyev nümayəndəliyinin sədri, Azərbaycanın və keçmiş SSRİ-nin Əməkdar İdman Ustası, sərbəst güləş üzrə Əməkdar Məşqçi Oleq Krapivin, Ukrayna-Azərbaycan Dostluğu Beynəlxalq Xeyriyyə Fondunun prezidenti İlqar Abbasov, Heydər Əliyev adına Ukrayna-Azərbaycan Təhsil, Elmi-Mədəni, İdman Mərkəzinin direktoru, professor Arif Quliyev və başqaları tədbir iştirakçılarını salamlamışlar. Sonra azərbaycanlı uşaqların iştirakı ilə konsert olmuşdur. Tədbirdə ölkəmizin Kiyevdəki səfirliyinin əməkdaşları, Azərbaycan diasporunun və Ukrayna ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Azərbaycan Demokratik Respublikasının (ADR) 92-ci ildönümü münasibətilə ABŞ Konqresində məşhur "Cannon Caucus" zalında təntənəli qəbul mərasimi keçirilib. Azərbaycanın ABŞ-dakı səfirliyindən APA-ya verilən məlumata görə, ziyafətdə ABŞ Konqresinin çoxsaylı üzvləri, Dövlət Departamenti, Müdafiə, Enerji və Ticarət Nazirliklərinin və digər ABŞ dövlət orqanlarının rəsmiləri, Vaşinqtondakı elmi tədqiqat mərkəzlərinin aparıcı ekspertləri, ABŞ şirkətlərinin vəzifəli şəxsləri, müxtəlif QHT-lərin nümayəndələri, ABŞ-da akkreditə olunmuş diplomatik missiyaların rəhbərləri, Azərbaycan diasporunun üzvləri, Azərbaycan Səfirliyinin əməkdaşları və digər şəxslər iştirak ediblər. Azərbaycanın ABŞ-dakı səfiri Yaşar Əliyev qonaqları salamlayaraq, ADR-in Azərbaycanın milli dövlətçilik ənənələrinin bərpasında önəmli rol oyandığını bildirib. O, 1991-ci ildə öz dövlət müstəqilliyini yenidən qazanmış Azərbaycanın inkişaf etməkdə davam etdiyini və regionun həm siyasi, həm də iqtisadi cəhətdən lider dövləti olaraq inamla irəliyə doğru addımladığını vurğulayıb.

Səfir Azərbaycan prezidenti İlham Əliyevin rəhbərliyi altında aparılan uğurlu modernləşmə siyasətinin Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və digər nüfuzlu beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirildiyini qeyd edib. O, həmçinin Respublika Günü münasibətilə təbrik bəyanatları ilə çıxış etmiş ABŞ konqresmenlərinə öz təşəkkürünü bildirib. ABŞ Konqresinin Nümayəndələr Palatasının Silahlı Qüvvələr, Təbii Ehtiyatlar və Nəqliyyat komitələrinin üzvü, həmçinin Azərbaycan üzrə İşçi Qrupunun həmsədri Bill Şuster ADR-in böyük tarixi önəmini vurğulayaraq, Azərbaycan xalqını və hökumətini bayram münasibətilə ürəkdən təbrik edib. Konqresmen çox dinamik və həssas regionda yerləşən Azərbaycanın ABŞ üçün son dərəcə önəmli müttəfiq olduğunu vurğulayıb. O, dünyada enerji təhlükəsizliyinin təminatında və ABŞ-ın Əfqanıstandakı və digər qaynar nöqtələrdəki sülhyaratma səylərində Azərbaycanın oynadığı rolu xüsusilə qeyd edib.

Konqresmen ABŞ-ın yaxın müttəfiqi olan Azərbaycana qarşı yönəlmiş ədalətsiz 907-ci əlavənin tezliklə ləğvinə çağırıb. Sonra Vaşinqton şəhəri merinin şəxsi nümayəndəsi, meriyanın protokol idarəsinin rəisi Patrisia Elvud çıxış edərək, mer Adrian Fentinin Azərbaycan Respublikasına və xalqına ünvanladığı təbrik məktubunu oxuyub. Məktubda ABŞ paytaxtının inkişafına verdiyi mədəni töhfəyə görə Azərbaycan səfirliyinə təşəkkür ifadə edilib. Mərasimdə Heydər Əliyev Fondunun hazırladığı kitablar, "İRS" jurnalının ADR-in ildönümünə həsr olunmuş ingilisdilli sayı, "LiderTV"nin hazırladığı film və Azərbaycandan bəhs edən digər nəşrlər iştirakçılar arasında paylanıb.ABŞ-ın Kaliforniya ştatının qubernatoru Arnold Şvartsnegger 28 may – Respublika Günü münasibətilə yerli Azərbaycan icmasına təbrik göndərib. APA-nın xəbərinə görə, A. Şvartsnegger ənənəvi təbrikində Azərbaycan icmasının Kaliforniyanın inkişafındakı rolundan məmnunluqla bəhs edib. San Xose şəhər meriyasından da yazılı təbrik daxil olub. Kaliforniyanın Oranj dairə rəhbərliyi isə 28 mayı bu dairə ərazisində "Azərbaycanın Milli Günü" elan edib.

Mayın 28-29-da isə Azərbaycan Respublikasının Almaniyadakı Səfirliyi Respublika Günü münasibətilə tədbir keçirəcək. Soydaşlarımıza və alman qonaqlara İsfar Sarabskinin ifasında caz musiqisindən ibarət konsert təqdim olunacaq. Mayın 30-da əməkdar artist Teyyub Aslanov Berlində Azərbaycan muğamı və xalq mahnıları ilə çıxış edəcək.

Heydər Əliyev adına Gürcüstan-Azərbaycan Tədris Universitetində Azərbaycanın Respublika Günü və Gürcüstanın Müstəqillik Günü münasibətinə həsr olunmuş tədbir keçirilib. APA-nın Gürcüstan bürosunun məlumatına görə, tədbiri universitetin rektoru Novruz Bayramov açaraq, hər iki bayram barəsində tədbir iştirakçıları olan müəllim və tələbə kollektivinə ətraflı məlumat verib. Sonra universitetin tarix müəllimi Sərdar Yusifov ənənəvi keçirilən müstəqillik bayramlarının tarixi və onların məhz Gürcüstanla bağlı olduğunu deyib və bu dövrdə baş verən tarixi hadisələrə xronoloji ardıcıllıqla açıqlama verib. Tədbirdə tələbələr canlı olaraq Gürcüstanın və Azərbaycanın himnlərini gürcü və Azərbaycan dillərində musiqinin müşaiəti ilə ifa ediblər. Sonra tələbələrdən Zemfira İsayeva, Həvva Tanrıverdiyeva, Esmira Ələkbərova, Təranə Hüseynova, Eliso Hümbətova, Çinarə Hüseynova, Nüşabə İsayeva və başqaları gürcü və Azərbaycan dillərində şeirlər söyləyiblər.

ABŞ-ın Nyu-Meksiko ştatının Santa Fe şəhərinin meri Devid Koss 28 mayı Azərbaycan Respublikası Günü elan edib. Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğundan APA-ya verilən məlumata görə, D. Koss bəyanatında Azərbaycan cəmiyyətindəki tolerantlıq və plüralizmi xüsusi vurğulayıb. Xatırladaq ki, daha əvvəl Santa Fe meriyası 10 mayı Heydər Əliyev Günü elan etmişdi. Nyu-Meksiko qubernatoru Bill Riçardson da Azərbaycan tərəfinə təbrik mesajı göndərib. O, 1918-ci ildə müsəlman dünyasında ilk demokratik respublikanın yaranmasının tarixi əhəmiyyətini qeyd edib. Qeyd edək ki, Nyu-Meksiko Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğunun fəaliyyət dairəsinə daxil olan 13 ştatdan biridir.

Birləşmiş Ərəb Əmirliklərinin Dubay Əmirliyində fəaliyyət göstərən "Azərbaycan" Cəmiyyətinin təşkilatlığı ilə JW Marriott otelinin " Zabil" salonunda 28 May – Respublika Günü münasibətilə tədbir keçirilib. Toplantıda Dubayda yaşayan azərbaycanılar, türk icmasının nümayəndələri, Iraq türkmənləri, Avropa dövlətlərindən və müxtəlif ərəb ölkələrindən olan diaspor təmsilçiləri, eləcə də yerli strukturlardan dəvət olunmuş qonaqlar iştirak ediblər. Bayram tədbirində Respublika Gününün tarixi haqqında məlumat verən cəmiyyətin sədri Samir İmanov qeyd edib ki, ilk parlamentli respublika olan Azərbaycan Xalq Cumhuriyyəti həm də Şərqdə ilk demokratik, hüquqi və dünyəvi dövlət idi.

O deyib ki, Azərbaycan Respublikası ötən əsrdə ikinci dəfə müstəqilliyini elan etdikdən sonra Azərbaycanın dövlətçiliyinin, suverenliyinin qorunub saxlanmasında, möhkəmlənməsində milli lider Heydər Əliyevin böyük tarixi xidmətləri olub. Azərbaycanın bu gün istər regionda, istərsə də dünyada əldə etdiyi lider mövqe barədə qonaqlara bilgi verən S.İmanov bildirib ki, bu gün Azərbaycan dövlətinin başçısı İlham Əliyevin uğurlu siyasəti nəticəsində ölkəmiz beynəlxalq aləmdə böyük nüfuz qazanıb, həm daxili, həm də xarici siyasətdə tərəqqi var, lakin respublikamızın daha da sürətlə inkişaf etməsinə mənfi təsir göstərən yeganə amil torpaqlarımızın 20 faizinin Ermənistanın işğalı altında olmasıdır. BMT Təhlükəsizlik Şurasının 4 və İslam Konfransı Təşkilatının bir neçə qətnaməsinə baxmayaraq, Ermənistan silahlı qüvvələri işğal etdiyi torpaqlardan çəkilmir və təəssüf ki, problemin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupu da münaqişənin çözülməsində qətiyyət göstərmir. Tədbirə qatılan türk ismasının üzvləri də öz çıxışlarında Dağlıq Qarabağ probleminin həllinin vacibliyini, bunun bölgədə sülh və əminamanlığın təminatında mühüm şərt olduğunu vurğulayıblar.

Sonra çıxış edən Birləşmiş Ərəb Əmirliklərinin rəsmisi və Oman vətəndaşı da Azərbaycanın onların təmsil etdiyi ölkələrlə və xalqlarla sıx, mehriban dostluq əlaqələrinin olduğunu deyiblər və Qarabağ müharibəsinin tezliklə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə ümid etdiklərini bildiriblər. Toplantıdakı çıxışlarda Dağlıq Qarabağda ermənilərin keçirdiyi "qondarma seçkilər" də pislənib. Son günlərdə Dubayda çıxan "Gulf News", "Khaleej Times" (ingilis dilində) və "Al-Bayan" (ərəb dilində) qəzetlərində dərc olunmuş və qondarma, qanunsuz seçkilərin əleyhinə çıxan, Azərbaycanın haqlı mövqeyini dəstəkləyən yazılar barədə də qonaqlara məlumat verilib. Tədbirdə Diasporla İş üzrə Dövlət Komitəsinin hazırladığı "Biz Azərbaycanlıyıq" sənədli filmi nümayiş etdirilib. Bundan başqa tədbirin keçirildiyi zalda Azərbaycan ərazilərinin müxtəlif dövrlərdə bir neçə dəfə dəyişdirildiyini əks etdirən foto-lövhə də təqdim olunub. Qonaqlara DİDK-nin göndərdiyi ingilis dilində "Azərbaycan haqda 100 suala cavab" kitabı, eləcə də Azərbaycan və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ərəb, ingilis, fransız dillərində hazırlanmış müxtəlif kitablar, broşurlar və DVD-lər hədiyyə edilib. Qeyd edək ki, BƏƏ Parlamentinin sədrinin 1-ci müavini Ahmad Sabib Al-Zahiri, Dubay Şeyxinin Aparatının (Divan) hüquq məsələləri üzrə müşaviri Dr. Balhul Lvey və Dubay İnsan Hüquqları İnstitutunun rəhbəri Abdulla Mohammad "Azərbaycan" cəmiyyətinin sədrinə zəng vuraraq 28 May- Respublika Günü münasibətilə BƏƏ-də yaşayan soydaşlarımızı və bütün Azərbaycan xalqını təbrik ediblər. Azərbaycanın Çexiyadakı səfirliyi "Praqa" hotelində 28 May–Respublika Günü münasibətilə ziyafət təşkil edilmişdir. Tədbirdə Çexiya Senatının Sədri P.Sobotka, Baş nazirin müavini, xarici işlər naziri Yan Kohout, Deputatlar Palatası sədrinin müavini Voytex Filip, xarici işlər nazirinin müavini Milan Sedlaçek, maliyyə nazirinin müavini Yan Malek, mədəniyyət nazirinin birinci müavini Frantişek Mikeş, Xarici İşlər Nazirliyi Avropa Baş İdarəsinin rəhbəri, Xarici İşlər, Müdafiə, Mədəniyyət və Regional İnkişaf nazirliklərinin idarə və departament rəhbərləri, Senat və Deputatlar Palatasının üzvləri, Çexiyada akkreditə olunmuş diplomatik nümayəndəliklərin və beynəlxalq təşkilatların rəhbərləri, iş adamları, tədris mərkəzlərinin nümayəndələri, Çexiyada yaşayan həmvətənlərimiz və burada təhsil alan tələbələr iştirak etmişlər.

Tədbiri giriş sözü ilə açan T.Tağızadə Azərbaycan-Çexiya əlaqələrindən danışmış, ümumdünya iqtisadi böhranı zamanı Çexiyanın Azərbaycanda səfirlik açmasını iki ölkə arasında sıx əlaqələrin və Çexiyanın ölkəmizə verdiyi önəmin göstəricisi kimi qiymətləndirmişdir. Səfir Dağlıq Qarabağla bağlı Çexiyanın tutduğu prinsipial mövqeyə görə təşəkkürünü ifadə etmiş, Çexiyanın Avropa İttifaqında sədrliyi dövründə əsası qoyulmuş "Şərq tərəfdaşlığı" və "Cənub Dəhlizi" layihələrinin həyata keçirilməsinin vacibliyi haqda danışmışdır. Çexiya Senatının Sədri Prjemısl Sobotka çıxışında iki ölkə arasında mövcud əlaqələrdən danışmış, Azərbaycanın müstəqilliyini və suverenliyini daha da gücləndirəcəyinə əmin olduğunu bildirmişdir.

Senat sədri bu yaxınlarda Azərbaycana səfərini xatırladaraq, bu səfərdən həm özünün, həm də onu müşayiət edən nümayəndə heyətinin üzvlərinin Azərbaycandan xoş təəssüratla qayıtdıqlarını qeyd etmişdir. Daha sonra azərbaycanlı opera müğənnisi Günel Ələkbərova və gənc skripkaçı Elvin Qəniyev Azərbaycan musiqi əsərlərini ifa etmiş, eləcə də qonaqlara azərbaycanlı rəssam Vüqar Ələkbərovun əsərləri nümayiş etdirilmişdir. Tədbir zamanı Səfirlik tərəfindən çex dilində nəşr edilmiş müxtəlif əsərlər, xəritələr, bukletlər paylanmış, iştirakçılara Azərbaycan mətbəxinin nümunələrindən ibarət ziyafət verilmişdir.

Azərbaycanın Rumıniyadakı səfirliyindən AzərTAc-a verilən məlumatda bildirilir ki, mayın 25-də səfirlikdə Respublika Günü münasibəti ilə rəsmi qəbul keçirilmişdir. Tədbirdə Rumıniya Prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşaviri Yulian Fota, Rumıniya Senatının sədri Mirçea Ceoana, iqtisadiyyat, ticarət və biznes mühiti naziri Adrian Videanu, yüksək vəzifəli hökumət rəsmiləri, senator və deputatlar, siyasi partiya rəhbərləri, ictimai təşkilat və fondların üzvləri, tanınmış din, ədəbiyyat və incəsənət xadimləri, Buxarest şəhərində akkreditə olunmuş xarici ölkələrin diplomatik nümayəndəliklərinin rəhbərləri, türk və tatar toplumunun təmsilçiləri, Heydər Əliyev Fondunun Rumıniyadakı nümayəndəliyi, ARDNŞ-in Rumıniyadakı nümayəndəliyinin, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin, Rumıniya-Azərbaycan Ticarət və Sənaye Palatasının əməkdaşları, Rumıniyada yaşayan və təhsil alan azərbaycanlılar iştirak etmişlər.

Tədbirdə iştirakçılara "Azərbaycan və Rumıniya – Əbədi dostluq" sənədli filmi, Azərbaycanın mədəniyyəti, tarixi və iqtisadiyyatından bəhs edən filmlər nümayiş etdirilmişdir. Göstərilən filmlərdə Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti, əldə olunan iqtisadi nailiyyətləri, uğurlu xarici siyasəti, Azərbaycan və Rumıniya arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələri, ikitərəfli səfərlər, Buxarest şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan parkın və Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyinin təntənəli açılış mərasimləri öz əksini tapmışdır.

Bunlarla yanaşı, qonaqlara rumın dilinə tərcümə olunub çap edilmiş "Heydər Əliyev-zəmanəmizin Atatürkü", "Azərbaycanın qısa tarixi", "Kitabi Dədə Qorqud", Məhəmməd Füzulinin "Leyli və Məcnun" poeması və "Qəzəlləri", Bəxtiyar Vahabzadənin, Anarın, Elçinin, Çingiz Abdullayevin, Elçin İskəndərzadənin, Əli İldırımoğlunun əsərləri və Azərbaycanda nəşr olunan "İrs" jurnalının Respublika Gününə həsr olunmuş xüsusi buraxılışı ilə tanışlıq imkanı yaradılmışdır. Kütləvi informasiya vasitələrində Respublika Günü ilə əlaqədar rumın, ingilis və türk dillərində məqalələr dərc etdirilmişdir.

Yeni yaradılmış Gürcüstanın Azərbaycanlı Gənclərinin İttifaqı mayın 26-da Azərbaycanın Respublika və Gürcüstanın dövlət müstəqilliyi gününə həsr olunmuş tədbir keçirib. Tədbirdə Gürcüstanın müxtəlif bölgələrindən gənclərlə çalışan QHT-in nümayəndələri, ali məktəb tələbələri, orta məktəblərin yuxarı sinif şagirdləri iştirak ediblər. Gənclər öncə Tbilisi şəhərində Gürcüstanın müstəqilliyi uğrunda həlak olanların xatirəsinə salınmış Qəhrəmanlar meydanındakı abidəni ziyarət edib, abidə önünə gül dəstələri qoyublar. Burada Qardabani rayon Qaratəhlə məktəbindəki gürcü dili kurslarının müəllimi Zairə Allahyarova Gürcüstanın müstəqillik tarixindən danışıb. Tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin büstü önünə də gül dəstələri qoyublar. Büstü ziyarət edən gənclərə milli liderin Azərbaycan dövlətçiliyinin qorunub saxlanması, möhkəmləndirilməsi məqsədilə göstərdiyi tarixi xidmətlər haqqında ətraflı məlumat verilib.

Tədbir iştirakçıları həmçinin Azərbaycan Xalq Cumhuriyyətinin banilərindən biri Fətəli Xan Xoyskinin və Həsən bəy Ağayevin Tbilisinin ən gözəl güşələrindən olan Nəbadət Bağındakı məzarlarını ziyarət ediblər. Müstəgillik günü ilə bağlı olan tədbirdə çıxış edən Gürcüstanın Azərbaycanlı Gəncləri İttifaqının sədri Leyla Məmmədova həm Gürcüstanın, həm də Azərbaycanın müstəqillik aktları, hər iki sənədin məhz Tbilisi şəhərində elan olunması barədə danışıb. O qeyd edib ki, azərbaycanlı gənclər hər zaman Gürcüstanı azad, müstəqil dövlət kimi görmək istəyir. Gürcüstanın müstəqilliyi uğrunda mübarizə aparanlar gənclərin vətənpərvər ruhda tərbiyələnməsinə bir nümunədir. Gürcüstanın Tarixçilər Assosiasiyasının üzvü Nərgiz Nəbiyeva Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasının tarixindən danışıb.

Elmi Araşdırmalar Assosiasiyasının prezidenti Ehtiram Əmirxanlı isə bildirib ki, 1918-ci ildə Gürcüstanın və Azərbaycanın müstəqillik tarixi eyni yoldan keçib və tarixən dost olan gürcü və Azərbaycan xalqlarının müstəqillik taleləri də eyni olub. Müvvəqəti fəaliyyət göstərən Zaqafkaziya Seymi dağıldıqdan sonra, bu qurumda fəaliyyət göstərən gürcü nümayəndələri və müsəlman fraksiyasının üzvləri ayrılaraq müstəqillik aktlarını tarixin səhifəsinə yazıblar. "Ziya" qəzetinin baş redaktoru Nizami Məmmədzadə öz çıxışında deyib ki, hər iki ölkənin tarixi gənclərimizə mükəmməl tədris olunmalıdır.

Gürcüstanda yaşayan hər bir azərbaycanlı gənc həm Azərbaycanın, həm də Gürcüstanın tarixini dərindən öyrənməli, onu gələcəyə ötürməli və bu tarixə öz tövhələrini verməyə çalışmalıdır. Nizami Məmmədzadə çıxışını Azərbaycan milli liderinin fikirləri ilə tamamlayıb: "Ulu öndərimiz Heydər Əliyevin bu müdrük kəlamı heç vaxt yadımızdan çıxmayacaq. "**Müstəgilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir".**

Azərbaycanın Almaniyadakı diaspor təşkilatları 28 May-Respublika Günü ilə əlaqədar tədbirlər keçirmişlər. Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi Azərbaycan Kültür Ocağı ilə birlikdə bayram tədbiri keçirmişdir. Berlində, həmçinin Alman-Azərbaycan Həmrəyliyi Cəmiyyəti Respublika Günü münasibətilə bədii proqram təqdim etmişdir. Hamburq Azərbaycan Mədəniyyəti Cəmiyyəti də bu şəhərdə bayram münasibətilə yığıncaq keçirmişdir. Almaniyada fəaliyyət göstərən Azərbaycanlı Tələbələr və Elmi İşçilər Birliyi (ATEİB) Qerolştayn şəhərində keçirdikləri "Almaniyada yaşayan azərbaycanlı tələbələr və elmi işçilər ili" adlı 3 günlük forumun ilk gününün əsas mövzusu Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə bağlı olmuşdur. Tədbirdə Xalq Cümhuriyyətininnin qurucuları haqqında iştirakçılara məlumat verilmiş, tariximizin bu şanlı səhifəsi ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Forumun rəsmi hissəsindən sonra 28 May-Respublika Günü qeyd olunmuşdur. Drezdendəki Alman-Azərbaycan Cəmiyyəti də dövlət bayramı münasibətilə soydaşlarımızı bir araya toplamışlar. Almaniyadakı daha bir Azərbaycan diaspor təşkilatı-Nürnberqdə fəaliyyət göstərən Nürnberq Azərbaycan-Alman Dostluq Mədəniyyəti Cəmiyyətinin təşkilatçılığı ilə bu ölkənin siyasi partiyalarının, türk və yəhudi icmalarının nümayəndələrinin iştirakı ilə tədbir keçirmişlər. Tədbirdə Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasından və ölkəmizin dövlətçilik tarixindən bəhs edən sənədli film göstərilmişdir. Axırda iştirakçılar Azərbaycan milli musiqisindən ibarət konserti dinləmişlər.

Azərbaycanın Almaniyadakı səfirliyində 28 May - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilmişdir. Səfir P.Şahbazov tədbiri açaraq müsəlman Şərqində ilk demokratik və dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixindən, onun Azərbaycanın tarixi-siyasi həyatındakı əhəmiyyətindən bəhs etmişdir. XX əsrin sonuna doğru Azərbaycanın öz müstəqilliyini yenidən bərpa etdiyini bildirən Azərbaycan səfiri ümummilli lider Heydər Əliyev tərəfindən müasir Azərbaycan dövlətçiliyinin əsasının qoyulduğunu, həyata keçirilmiş islahatlar nəticəsində Azərbaycanın siyasi-iqtisadi cəhətdən böyük tərəqqi əldə edərək güclü inkişaf xətti götürdüyünü qeyd etmişdir.

Səfir Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha da çiçəkləndiyini, nəhəng regional layihələrin müvəffəqiyyətlə həyata keçirildiyini bildirmişdir. O, Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətinin hələ də davam etdiyini diqqətə çatdıraraq, Prezident İlham Əliyevin problemi sülh yolu ilə və beynəlxalq hüquq normaları çərçivəsində həll etməyə çalışdığını bildirmişdir. Sonra Azərbaycanın tanınmış pianoçusu, Montreo festivalının qalibi İsfar Sarabski konsert proqramı ilə çıxış etmişdir. İ.Sarabskinin məharətli ifası qonaqlar tərəfindən böyük rəğbət və alqışlarla qarşılanmışdır. Qonaqlara Azərbaycan milli mətbəxindən ibarət ziyafət verilmişdir. Qəbul mərasimində AFR hökumətinin rəhbərləri, Almaniya Bundestaqının və Berlin Senatının üzvləri, fraksiya rəhbərləri, nazirliklərin, siyasi, elmi və mədəni dairələrin, mətbuatın, Berlindəki səfirliklərin, bu ölkədə yaşayan Azərbaycan diasporunun nümayəndələri iştirak etmişlər.

Los-Ancelesdəki nüfuzlu "Recensi" klubunda Azərbaycan Günü təntənəli şəkildə bayram edilib. Azərbaycanın Baş Konsulluğunun təşkil etdiyi tədbirdə Kaliforniyanın dövlət orqanlarının, ştat ictimaiyyətinin, eləcə də Azərbaycan, türk, yəhudi, gürcü və İran icmalarının 400-ə yaxın nümayəndəsi iştirak edib. Qəbulda Azərbaycanın və ABŞ-ın dövlət himnləri amerikalı soprano müğənni Demetra Corc-Mustafaoğlunun canlı ifasında səsləndirilib.Ziyafətin rəsmi hissəsində çıxış edən Los-Anceles dairəsinin şerifi Leroy Baka iştirakçıları bayram münasibətilə təbrik edib və bu yaxınlarda Bakıya səfəri barədə xoş təəssüratlarını bölüşüb. O, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın inkişaf templərini və dövlət başçısının uzunmüddətli strategiyasını yüksək qiymətləndirib. Şerif Baka Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə nizamlanacağına, bunun Ermənistanın regional inteqrasiyasına və onun qonşu dövlətlərlə münasibətlərinin normallaşmasına kömək edəcəyinə ümidini ifadə edib.

O, həmçinin, münaqişədən əziyyət çəkən müvəqqəti məcburi köçkünlərin yaxın vaxtlarda daimi yaşayış yerlərinə qayıtmasının vacibliyini də qeyd edib. Los-Anceles şəhər hakimiyyəti adından Şəhər Şurasının prezidenti Cen Perri mer Antonio Vallaraqios və Şuranın tam tərkibi adından Respublika Günü münasibətilə bəyannamə təqdim edib. Öz növbəsində, Los-Anceles dairəsinin protokol xidmətinin rəhbəri Lurdes Saab Dairə Rəhbərləri Şurasının bəyanatını oxuyub. Həmin bəyanatda 2009-cu ildə keçirilən və iki ölkə arasında mədəni əlaqələrin möhkəmlənməsində mühüm rol oynayan Azərbaycan musiqiçilərinin konsertləri xüsusi qeyd olunub. Şimali Kaliforniyada keçirilən Monterey şəhərinin meri adından bəyannaməni bunun üçün xüsusi olaraq Los-Ancelesə gəlmiş Şəhər Şurasının üzvü Nensi Selfric təqdim edib. Söz alan Beverli şəhərinin meri Cimmi Delşad 2008-ci ildə Azərbaycana səfərinin təəssüratlarını qonaqlarla bölüşüb. Kaliforniya qubernatoru Arnold Şvardseneggerdən və digər qərb ştatlarının qubernatorlarından daxil olan rəsmi təbrik məktubları da oxunub.

Ziyafətdə çıxış edən baş konsul Elin Süleymanov qeyd edib ki, Azərbaycan ADR-in təməl prinsipləri olan bərabərlik, tolerantlıq və aşkarlığa sadiq qalır. Daha sonra o, Baş Konsulluq adından fəxri fərmanlar təqdim edib. Onların arasında ABŞ - Azərbaycan münasibətlərinə verdiyi töhfələrə görə mükafatlandırılan Los-Anceles şəhəri protokol ofisinin başçısı Elqa Şarp, Los-Anceles konsulluq korpusunun rəsmisi Vendi Vaqner, yəhudi icma təşkilatlarının fəalları Maykl Tuşin və Robert Met, türk icmasının fəalı Məhmət Mustafaoğlu, AzərTAc-ın ABŞ-dakı xüsusi müxbiri Şəfəq Mehrəliyeva da var.Verilən yüksək qiymətə görə Baş Konsulluğa minnətdarlığını bildirən Maykl Tuşin deyib: "Hər gün televiziya ilə Yaxın Şərqdə baş verənləri izləyəndə, adamın içindən təəssüf və ümidsizlik hissi keçir. Lakin Azərbaycanda dini və etnik mənşəyindən asılı olmayaraq, bütün insanların tolerant bir cəmiyyətdə yaşadığını görəndə, başa düşürük ki, Yaxın Şərqin gələcəyi Azərbaycan və Türkiyə kimi ölkələrdən başlayır.

"Türk icmasının lideri Məhmət Mustafaoğluna Heydər Əliyev Fondunun hazırladığı Qarabağ musiqisi ustalarının əsərləri toplusu təqdim edilib.Kaliforniyada yaşayan Azərbaycanın xalq artisti Çingiz Sadıqov qısa nitqlə çıxış edib. Maestro bu yaxınlarda Prezident İlham Əliyev tərəfindən Azərbaycan musiqisinin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilib.Gecənin musiqi proqramı zamanı məşhur "Şttruns və Fərəh" qrupu, eləcə də Azərbaycanın əməkdar artistləri Namus və Aliyə Zöhrabovlar xalq rəqslərini ifa ediblər. Qəbul qonaqlar üçün rəqs proqramı ilə başa çatıb.

“BUTA” Azərbaycan-Koreya Tələbə təşkilatı Koreyanın Seul şəhərində “SONBUGK” mədəniyyət mərkəzində Azərbaycanın 28 May-Respublika günü münasibətilə bayram tədbiri keçirib. Tədbirdə Azərbaycanın bu ölkədəki səfirliyin nümayəndələri, Koreyada təhsil alan azərbaycanlı və xarici tələbələr, digər əcnəbi tələbə təşkilatlarının nümayəndələri, eləcə də “SONBUGK” mədəniyyət mərkəzinin üzvləri iştirak ediblər. Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanıb. Mərasimdə ölkəmizin tarixi, mədəniyyəti, incəsənəti, müasir inkişaf tempi barədə geniş məlumat verilib və qonaqlara Mədəniyyət və Turizm Nazirliyinin hazırladığı Azərbaycan haqqında tanıtım videoçarxı təqdim edilib. Sonra Koreyada təhsil alan tələbələrimizin ifasında milli rəqslərimiz, mahnılarımız, saz havaları ifa olunub. Mədəniyyət mərkəzinin rəhbərinə Azərbaycanla bağlı xatirə hədiyyəsi də verilib.

Krım Sənaye Pedaqoji Universitetində Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə tədbir keçirilmişdir. Krım Azərbaycanlıları Cəmiyyətindən Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinə bildirmişlər ki, universitetin rektoru, Ukraynanın milli qəhrəmanı Fevzi Yakubov tədbiri açaraq bayram münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.

Azərbaycan haqqında film nümayiş etdirilmişdir. Sonra universitetin professoru İsmayıl Kərimov Azərbaycan-Krım münasibətləri barədə məruzə ilə çıxış etmişdir. Tədbirdə universitetin professor-müəllim heyəti, tələbələr, şəhər rəhbərliyinin və ictimaiyyətinin nümayəndələri, Krımda səfərdə olan Bakı Dövlət Universitetinin rektoru, Milli Məclisin deputatı Abel Məhərrəmov iştirak etmişlər. Tədbir geniş konsert proqramı ilə başa çatmışdır. AzərTAc bildirir ki, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyi Moskvanın “Yevropeyski” Ticarət-Əyləncə Mərkəzində Azərbaycanın dövlət bayramı – Respublika Günü münasibəti ilə tədbir keçirmişdir. Tədbirdə Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyeva, Rusiya və Azərbaycanın rəsmi dairələrinin və ictimaiyyətlərinin nümayəndələri, xarici ölkələrin Moskvada akkreditə olunmuş səfirləri iştirak etmişlər. Əvvəlcə Azərbaycanın dövlət himni səslənmişdir. Ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu bu əlamətdar bayram münasibəti ilə toplaşanları təbrik etmişdir. O demişdir ki, 92 il əvvəl Şərqdə ilk demokratik respublika yaradılmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması barədə o zaman qəbul edilmiş Bəyannamə mahiyyət etibarı ilə müasir demokratik cəmiyyətimizin əsasını qoymuşdur.

1993-cü ildə görkəmli siyasi xadim, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə hərcmərcliyə son qoyuldu, Azərbaycan dinamik inkişaf etməyə başladı. Hazırda bu siyasi xətti Prezident İlham Əliyev uğurla davam etdirir. Bu gün Azərbaycan bir çox ölkələrin, ilk növbədə, Rusiya Federasiyasının etibarlı tərəfdaşıdır. Azərbaycan ilə Rusiyanı tarixi dostluq əlaqələri birləşdirir. Polad Bülbüloğlu demişdir: “Ölkələrimizin xalqlarını çox şeylər birləşdirir, onlar həmişə dost olacaqlar”. Diplomat əlavə etmişdir ki, müasir Azərbaycan fəal inkişaf edir, ölkədə bir çox dövlət proqramları həyata keçirilir. O demişdir: “Azərbaycanın həll olunmamış yeganə problemi Ermənistan-Azərbaycan münaqişəsidir.

Biz münaqişənin dinc yolla, beynəlxalq hüquq çərçivəsində həllinə tərəfdarıq. Sevindirici haldır ki, bu gün Rusiyada getdikcə daha çox ekspert, ictimai təşkilat, Rusiya ictimaiyyətinin nümayəndəsi bu problemi düzgün başa düşür”. Stats-katib, Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin Azərbaycan xalqını bayram münasibəti ilə təbrik etmişdir. O təbrik nitqində bildirmişdir ki, bu gün Rusiyada və onun hüdudlarından kənarda heç kim şübhə etmir ki, Azərbaycan dinamik inkişaf edən, tarazlaşdırılmış xarici siyasəti, habelə dövlətçilik işində qazandığı nailiyyətlər, cəmiyyətin sosial-iqtisadi və mədəni potensialının yüksəlməsi sayəsində beynəlxalq aləmdə böyük nüfuz qazanmış bir dövlətdir. Qriqori Karasin demişdir: “Rusiya Azərbaycanı məhz belə güclü, sabit, Qafqaz və Xəzər regionlarında sülh və təhlükəsizlik naminə əməkdaşlığa və birgə konstruktiv fəaliyyətə açıq bir ölkə kimi görmək istəyir.

Sevindirici haldır ki, təməli sovet dövrünün və zəmanəmizin görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulmuş ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsi xətti Azərbaycanın indiki rəhbərliyi tərəfindən inamla davam etdirilir. Rusiya və Azərbaycan prezidentləri Dmitri Medvedev və İlham Əliyev arasında qarşılıqlı anlaşma və ehtiram, ölkələrimizin rəhbərliklərinin münasibətlərimizin hərtərəfli inkişafına meyli Rusiya və Azərbaycan xalqlarının rifahı naminə iki ölkə arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsinin etibarlı təminatıdır. Əminəm ki, Rusiya və Azərbaycan siyasi, iqtisadi, humanitar əməkdaşlığın inkişaf etdirilməsi işində müsbət təcrübəni inkişaf etdirmək iqtidarındadırlar.

Bu vəzifənin uğurla həyata keçirilməsinin ən güclü arqumenti xalqlarımız arasında ənənəvi dostluq münasibətləridir". Rusiya diplomatı vurğulamışdır ki, əlaqələrimizin möhkəmliyi Böyük Qələbənin 65 illik yubileyinin bayram edildiyi günlərdə də təsdiqini tapdı. Rusiya xarici işlər nazirinin müavini demişdir: "Prezident İlham Əliyevin və Azərbaycan veteranlarının təntənəli mərasimlərdə, Azərbaycan hərbçilərinin Qızıl meydanda keçirilən paradda iştirakı ümumi tariximizə ehtiramın nümunəsidir. Bu tarix dəfələrlə xalqlarımızın çiyin-çiyinə ağır sınaqlardan çıxmasının və böyük qələbələr qazanmasının şahidi olmuşdur". Bayram gecəsi Azərbaycan və Rusiya mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə konsert proqramı ilə davam etdirilmişdir. Fransa paytaxtında mayın 28-də Respublika günü münasibətilə keçirilən tədbir Azərbaycanın dövlət müstəqilliyini qurmuş və yaşatmış insanların xatirəsinə həsr edilmişdi.

Həmin gün Azərbaycanın Avropa Şurasındakı daimi nəmayəndə heyətinin üzvü, Milli Məclisin deputatı Rafael Hüseynov, Azərbaycanın Fransadakı səfiri Elçin Əmirbəyov başda olmaqla səfirliyin, ölkəmizin YUNESKO yanındakı daimi nümayəndəliyinin əməkdaşları, diasporun təmsilçiləri, tələbələrimizdən ibarət böyük bir qrup Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Əlimərdan bəy Topçubaşovun Sen-Kludakı məzarını ziyarət emiş, görkəmli siyasi xadimin abidəsi önünə əklil qoymuşlar. Anma mərasimində çıxış edən deputat Rafael Hüseynov ilk Azərbaycan parlamentinə rəhbərlik etmiş Əlimərdan bəy Topçubaşovun məzarı qarşısında, Respublika günündə müstəqil Azərbaycanın Milli Məclisi üzvünün iştirakının rəmzi səciyyə daşıdığını, bunun istiqlalımızın dönməzliyi və sarsılmazlığının göstəricisi olduğunu söyləmişdir. Respublika gününün millətin və dövlətin ən əziz bayramı oldugunu vurğulayan R.Hüseynov demişdir: "XX əsrin əvvəllərində, çətin tarixi şəraitdə İstiqlal bəyannaməsini elan edərək müstəqil dövlətimizi qurmuş Əlimərdan bəy Topçubaşov və məsləkdaşları əbədi ehtirama və sevgiyə layiqdirlər. Lakin 1918-ci ildə qazanılmış və təssüf ki, 2 yaşına çatmadan qırılmış müstəqilliyimizin əsas ibrət dərsi ondan ibarətdir ki, istiqlalı əldə etmək bir şərəfdirsə, onu qoruyub saxlamaq və yaşatmaq ikiqat hünərdir. 1991-ci ildə tarixin hökmü ilə bizə ikinci dəfə yenidən qismət olmuş müstəqillik 1993-cü ildə yenə 2 yaşına çatmadan itirilə bilərdi. Lakin bu zaman tarix səhnəsində yenidən böyük dövlət adamı, milli öndər Heydər Əliyev göründü, müstəqilliyimizi XX əsrin son çərəyinin ağır sınaqlarından inamla keçirərək XXI yüzilliyə çatdırdı, müasir qüdrətli Azərbaycan dövlətinin memarına çevrildi.

Xalqımız istiqlal, müstəqillik içərisində xoşbəxt yaşadıqca daim o müstəsna insanı minnətdarlıqla anacaqdır". Əlimərdan bəy Topçubaşovun Praisdəki möhtəşəm abidəsinin yaranma tarixindən bəhs edən R.Hüseynov bildirmişdir: "Unudulmaz Heydər Əliyev sovet dönəmində dahi Hüseyn Cavidin nəşini uzaq Sibirdən Vətənə qaytararaq ona Azərbaycanda məqbərə ucaltmaqla mənəviyyat tariximizdə misilsiz vətəndaş qeyrəti nümayiş etdirdi. Bütün fəaliyyətində böyük Hedər Əliyev yolunun davamçısı olan Prezident İlham Əliyev bu istiqamətdə də əvəzsiz ustadına sadiq qaldı. Prezident İlham Əliyevin təşəbbüsü ilə Əlimərdan bəy Topçubaşovun Azərbaycanda hazırlanaraq Parisə gətirilən və indi Fransadakı soydaşlarımızın, bu dost ölkəyə qonaq olan azərbaycanlıların ən sevimli ziyarət ünvanlarından birinə çevrilmiş abidəsi əslində dövlət başçımızın müstəqilliyimiz yolunda can qoymuş bütün şəxsiyyətlərə ehtiramının ifadəsidir".

Mərasimə toplaşanları Respublika günü münasibətilə təbrik edən səfir Elçin Əmirbəyov Əlimərdan bəy Topçubaşovun diplomatik fəaliyyətindən, mühacirət illərində Azərbaycanın müstəqillik amalını yaşatmaq səylərindən bəhs eytmiş, onun gələcəyə yönələn kəlamını xatırlamışdır: "Biz xalqımızın müstəqil yaşaya biləcəyinə, hər hansı yolla müstəqillik əldə edəcəyinə inanırdıq. Belə dəyərli xoşbəxtliyin qarşısında heç vaxt geri çəkilməmişik və cəkilməyəcəyik də. Çünki bu səadətə bərabər olan hec nə tanımırıq". Tədbir iştirakçıları məzarın önünə əklil qoymuşlar. Azərbaycan istiqlalı və müstəqilliyi uğrunda mübarizlərdən olmuş Ceyhun Hacıbəylinin məzarı da ziyarət edilmişdir.

Azərbaycan Demokratik Respublikasının yaradılmasının 92-ci ildönümü-Respublika Günü münasibəti ilə Nyu-Yorkda silsilə tədbirlər keçirilib. Mayın 24-də Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyi Nyu Yorkda rəsmi ziyafət təşkil edib. Ziyafətdə BMT rəhbərliyinin nümayəndələri, üzv dövlətlərin BMT yanında Daimi Nümayəndəliklərinin rəhbərləri, ABŞ-da fəaliyyət göstərən Azərbaycan icmasının nümayəndələri, Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyinin əməkdaşları iştirak ediblər.Mayın 27-də Nyu Yorkda akkreditə edilmiş diplomatik korpusun nümayəndələri Azərbaycan Respublikasının BMT yanında Daimi nümayəndəsi, fövqəladə və səlahiyyətli səfir Aqşin Mehdiyevə təbrik məktubları ünvanlamış və bayram münasibətilə Azərbaycan rəhbərliyinə və xalqına xoş arzularını ifadə ediblər.

Mayın 28-də Nyu Yorkun mərkəzi Wall Street meydanında Azərbaycan Respublikasının Dövlət Bayrağının ucaldılması mərasimi keçirilib. Tədbiri Amerika-Azərbaycan Cəmiyyəti təşkil edib. Mərasimdə Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyinin müşaviri Tofiq Musayev, Amerika-Azərbaycan Cəmiyyətinin sədri Tomris Azəri, Türkiyənin Nyu Yorkdakı Konsulunun müavini Ayşə Üzer, İsrailin Nyu Yorkdakı Baş konsulunun müavini Benjamin Krasna çıxış ediblər. Tədbirdə Nyu York qubernatoru administrasiyasının nümayəndəsi qubernator David Patersonun təbrikini oxuyub və onun imzaladığı xüsusi Bəyannaməni təqdim edib. Daha sonra Amerika və Azərbaycan dövlət himnləri səsləndirilib və hər iki dövlətin bayraqları ucaldılıb.

Tədbirdə Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyinin əməkdaşları, Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndələri, ABŞ-da fəaliyyət göstərən Azərbaycan, türk və yəhudi icmalarının rəhbərliyi və üzvləri iştirak ediblər. Azərbaycan Respublikasının Litvadakı səfirliyindən verilən məlumata görə, səfirlik 28 May- Respublika Günü münasibətilə Vilnüsdə təntənəli mərasim və rəsmi qəbul təşkil etmişdir. Tədbirdə Litva Seymi sədrinin birinci müavini, ölkənin müdafiə naziri, seymin bir neçə komitəsinin rəhbərləri, Parlamentdə Azərbaycanla dostluq qrupunun sədri və üzvləri, deputatlar, Prezident Administrasiyası, Nazirlər Kabineti və XİN-in yüksək səviyyəli əməkdaşları, Litvada akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, ölkənin tanınmiş ictimai-siyasi, elm və mədəniyyət xadimləri, iş adamları, jurnalistlər və soydaşlarımız iştirak etmişlər.

Tədbir Azərbaycan və Litvanın dövlət himnlərinin səsləndirilməsi ilə başlamışdır. Səfir Nairə Şahtaxtinskaya Şərqdə, eləcə də müsəlman-türk aləmində ilk dəfə olaraq, Azərbaycanda demokratik respublikanın yaradılması tarixindən bəhs etmiş, müasir Azərbaycanın hərtərəfli inkişafı barədə məlumat vermişdir. Səfir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunmuş, Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə və işğalçı siyasətindən danışmış, münaqişənin bu gün də həllini tapmadığını vurğulamışdır. Bayram əhvali-ruhiyyəsində keçən tədbirdə qonaqlar təbrik və minnətdarlıqlarını bildirmiş, yüksək səviyyədə təşkil olunan mərasim ilə bağlı məmnunluqlarını ifadə etmişlər.

Tədbir konsert proqramı ilə davam etmişdir. Azərbaycandan dəvət olunmuş muğam ifaçıları Arzu Əliyeva, Toğrul Əsədullayev və Kamal Nuriyevin müşayiəti ilə qədim və misilsiz muğam nümunələri qonaqlara təqdim etmişlər. Əməkdar artist Rəna İbrahimovanın ifasında milli rəqslərimiz qonaqlarda xoş təəssürat oyatmışdır. Azərbaycanın Böyük Britaniyada yerləşən, eyni zamanda Danimarkada akkreditə olunmuş səfirliyi, Avropa-Azərbaycan Cəmiyyəti və Danimarkada yaşayan həmvətənlərimizin birgə təşkilatçılığı ilə Kopenhagenin mərkəzindəki "Ratuşa" meydanında 28 May - Respublika günü münasibətilə bayram tədbiri keçirilmişdir. Səfirlikdən AzərTAc-a bildirmişlər ki, tədbirdə bu ölkədə yerləşən diplomatik korpusun və beynəlxalq təşkilatların təmsilçiləri, habelə çoxsaylı Azərbaycan və türk icmasının nümayəndələri iştirak etmişlər.

Tədbirdə çıxış edən səfir Fəxrəddin Qurbanov bu günün tarixi əhəmiyyətindən danışmış və soydaşlarımıza bayram təbriklərini çatdırmışdır. Diplomat Respublika gününün Azərbaycan dövlətçiliyi və müstəqilliyimizin tarixində mühüm hadisə olduğunu vurğulamışdır. Açıq havada Azərbaycanın tarixinə, mədəniyyətimizin qədim və müasir dövrünə, xüsusilə Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinə, habelə milli mətbəximizə, milli musiqi alətlərinə həsr edilmiş fotosərgi təşkil olunmuş və tədbir iştirakçılarına bayram şirniyyatı paylanmışdır. Bundan əlavə Dövlət Rəqs Ansamblının bir qrup üzvü, habelə Əməkdar Artist Azərinin iştirakı ilə geniş konsert proqramı nümayiş olunmuşdur. AzərTAc bildirir ki, Rusiya Federasiyası Prezidenti yanında Rusiya Dövlət Qulluğu Akademiyasında (RDQA) "Azərbaycan Xalq Cümhuriyyəti: tarixi təcrübə və dərslər" mövzusunda "dəyirmi masa" keçirilmişdir. Tədbir Ümumrusiya Azərbaycan Konqresi tərəfindən RQDA-nın milli və federativ münasibətlər kafedrası ilə birgə təşkil edilmişdi.

İclas çərçivəsində Məmməd Səid Ordubadinin "Qanlı illər" kitabının təqdimat mərasimi keçirilmişdir. RQDA-nın prorektoru İqor Bartsis tədbirdə çıxış edərək tarixin bu dövrünün müzakirə edilməsinin həm Azərbaycan, həm də Rusiya üçün vacibliyini vurğulamışdır. İ.Bartsis təmsil etdiyi ali məktəb ilə Azərbaycan elmi ictimaiyyəti arasında münasibətlərin yüksək səviyyəsini qeyd edərək əmin olduğunu bildirmişdir ki, bu mövzuda diskussiyalar hər iki ölkənin ictimaiyyəti üçün faydalı olacaq, onların bir-birini daha yaxşı tanımasına və başa düşməsinə kömək edəcəkdir. ÜAK-ın prezidenti Məmməd Əliyev öz çıxışında "dəyirmi masa" iştirakçılarına müsəlman Şərqində ilk demokratik Respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, o dövrün ictimai-siyasi prosesləri və Azərbaycanda demokratiyanın inkişafının sonrakı mərhələləri barədə ətraflı məlumat vermişdir. RDQA-nın milli və federativ münasibətlər kafedrasının müdiri professor Vyaçeslav Mixaylov öz çıxışını Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev şəxsiyyətinin fenomeninə həsr etmişdir.

Alim Heydər Əliyevin demokratik ölkənin təşəkküləndə rolu, onun öz ölkəsini parçalanmaqdan xilas etmiş görkəmli dövlət xadimi kimi müdrikliyi və əzmkarlığı barədə danışaraq vurğulamışdır: "Əliyev dünya miqyaslı simadır. Mən Heydər Əliyevi postsovet məkanında birinci yerə qoyuram". Azərbaycanlı şərqşünas alim, ölkəmizin tarixinin həmin dövrünün tədqiqatçısı, tarix elmləri doktoru, professor Solmaz Rüstəmova-Tovhidinin çıxışı xüsusi maraqla qarşılanmışdır.

O, Azərbaycanın keçdiyi demokratiya yolunda üzləşdiyi ciddi maneələr barədə söhbət açmışdır. Diskussiyalarda iştirak edən rusiyalı və azərbaycanlı alimlər qeyd etmişlər ki, 28 May bayramını Azərbaycan dövlətçiliyinin dirçəlməsi günü hesab etmək olar və 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması Azərbaycan tarixinin ən parlaq səhifəsidir.

Sonrakı illər və onilliklər də ölkə həyatının əlamətdar hadisələrlə, Azərbaycan xalqının bütün sahələrdə böyük nailiyyətləri ilə yadda qalan mühüm mərhələlər olmuşdur, bütün bunlar indiki müstəqil Azərbaycanın iqtisadi, intellectual və mədəni potensialının təməlini qoymuşdur. Qeyd edilmişdir ki, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin obyektiv elmi cəhətdən öyrənilməsi bugünkü tarix elminin ən mühüm vəzifələrindən biridir.

Xalq Cümhuriyyətinin yaradılması və fəaliyyəti Azərbaycanın müstəqilliyini, Azərbaycan xalqının azadlıq arzularını həyata keçirmək qabiliyyətini ilk dəfə olaraq bütün dünyaya göstərmişdir. Tədbirdə Heydər Əliyev Fondunun RF-dəki nümayəndəliyinin rəhbəri Leyla Əliyeva, ÜAK Rəyasət Heyətinin üzvləri, ali məktəbin müəllimləri və tələbələri, Azərbaycan gənclərinin nümayəndələri, tarixçilər və politoloqlar iştirak etmişlər.

22-28 may 2010

“Hollandiyada “Azərbaycan cüdo günü” keçirilib

Bu gün diasporumuz Azərbaycanı ölkədən kənarda layiqincə təmsil edir. Belə ki, hazırda Hollandiyanın Maastrixt şəhərində fəaliyyət göstərən Vahid, Bölünməz və Demokratik Azərbaycan Uğrunda Birlik də keçirdiyi tədbirləriylə bu işə öz töhfəsini verir. Biz də ölkəmizdə qonaq olan sözügedən cəmiyyətin rəhbəri İradə Uluxanlı ilə həmsöhbət olub, diasporumuzun Hollandiyada bugünkü vəziyyəti və onların həyata keçirdikləri və keçirəcəkləri tədbirlər haqqında söhbət etdik.

- Cəmiyyətiniz əsasən hansı tədbirləri həyata keçirir?

- Azərbaycanı hər bir sahədə təmsil edirik. Təbii ki, bunlar da müxtəlif tədbirlər keçirilməsi şəklində olur. Azərbaycan siyasətini kitab yayımı şəklində təbliğ edirik. Bu yaxınlarda isə Azərbaycanın idman sahəsində əldə etdiyi uğurları təbliğ etdik. Hollandiyanın Margraten şəhərində Azərbaycan idman günləri keçirildi. Həmin tədbirdə Azərbaycan cüdoçularının əldə etdikləri nailiyyətlər, müxtəlif beynəlxalq yarışlarda qazandıqları uğurlardan danışıldı. Bundan başqa cəmiyyət olaraq Azərbaycanın milli-mədəni sərvətləri, milli bayramlarımızı təbliğ edirik. Bir sözlə cəmiyyətin fəaliyyəti genişdir və bütün sahələrdə Azərbaycanı layiqincə təmsil etməyə çalışırıq.

- Elə idmandan söz düşmüşkən, bu yaxınlarda Hollandiyada keçirdiyiniz “Azərbaycan cüdo günü”ilə bağlı məlumat verməyiniz maraqlı olardı?

- Aprelin 23 -də Hollandiyanın Margraten bələdiyyəsinin ərazisində “To-Zai” cüdo klubunda “ Azərbaycan cüdosu günü” keçirdik. Bu tədbiri keçirməkdə məqsədimiz Azərbaycanın idman sahəsində əldə etdiyi nailiyyətləri Hollandiya ictimaiyyətinə çatdırmaq olub. Mərasimin açılışında klubun rəhbəri Erik Klaessens (cüdo ustası, 4-cü dan qara kəmər) Azərbaycan idmançılarının əldə etdiyi uğurlardan bəhs edərək, onları alqışlayıb.Onun çıxışının ardınca Azərbaycanın tarixi, ədəbiyyatı, müasir, ictimai-siyasi durumu, işğal olunmuş ərazilərindən bəhs edən çeşidli ədəbiyyat klubun fonduna təqdim edilib. Sözügedən cüdo klubunun 10 yaşlı azərbaycanlı üzvü Cavidan Qasımov Azərbaycanı olimpiya oyunlarında təmsil etmiş çempion cüdoçularımız Elnur Məmmədli, Elman Qasımov və başqaları haqda klub üzvlərinə məlumat verib. “To-Zai” klubu da öz növbəsində Azərbaycana və onun idmançılarına olan maraqdan danışıb, gələcəkdə əməkdaşlıq etmək arzusunda olduqlarını bildiriblər. Dostluq rəmzi olaraq, Azərbaycan cüdoçularına dostluq hədiyyələri göndəriblər. Sonra klubun idmançıları Azərbaycan və Hollandiya bayraqları ilə bəzədilmiş salonda xatirə şəkli çəkdiriblər. Tədbirin sonunda holland cüdoçularına içində Azərbaycan bayrağı həkk olunmuş saatlar və respublikamızı xatırladan hədiyyələr təqdim olunub.

Bundan başqa bizim təşkilat tərəfindən Hollandiyanın Heerlen şəhərində Novruz bayramı qeyd olunub. Bayram tədbirində əsasən şəhərin yerli əhalisi iştirak edib. Mərasimə məhz hollandiyalıların dəvət olunması ölkəmizi və milli adətlərimizi daha da geniş təbliğ etmək məqsədi daşıyır. Ümumiyyətlə, biz keçirdiyi bütün tədbirlərə məhz yerli əhalini cəlb etməyə çalışırıq ki, Azərbaycan həqiqətlərini Hollandiyada tanıtmaq imkanları daha da genişlənsin və Hollandiya xalqı ölkəmizi yaxından tanısın.

Qeyd edim ki, Heerlendəki Novruz şənliyinin açılışını Hollandiya məktəblisi, 13 yaşlı Samanta edib və qonaqları Azərbaycan dilində salamlayaraq onlara bu bayram haqqında məlumat verib. Bayram Cəngi sədaları altında başlanıb. Bu musiqinin müşaiyəti ilə holland məktəblisi Tristan Zinzen at üstündə hər tərəfdən Azərbaycan bayraqları ilə bəzədilmiş meydana daxil olaraq tonqala od vurub. Sonra 7 holland məktəblisi Azərbaycan dilində şeirlərlə qonaqların Novruz bayramını təbrik ediblər. Məktəbin toplantı zallarından birində isə fransız fleytaçı İzabel Dosne, alman pianoçusu Michail Tuner və fleytaçı holland məktəblilərinin ifasında Azərbaycan bəstəkarlarının klassik və milli musiqisi səslənib, milli rəqslərimiz ifa olunub. Türkiyədən isə Tokat Universitetinin dosenti, həmyerlimiz Lalə Hüseynova Azərbaycan bəstəkarlarının əsərlərini skripkada çalıb. Həmin otaqda Azərbaycanın görkəmli bəstəkarları Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev, Arif Məlikovun həyat və yaradıcılığından bəhs edən stendlər də asılıb. Bayramın ən yaddaqalan məqamlarından biri sevimli mahnılarımızdan olan “Sarı gəlin”in sədaları altında bahar qızı 10 yaşlı Ashama Zinzenin meydana gəlməsi olub və şənlik iştirakçılarına plov təqdim edib. Sonra isə məktəbin müxtəlif millətlərdən olan şagirdləri “Yallı” rəqsini oynayıblar.

Tədbirdə milli adət-ənənələrimiz, tariximiz, musiqimiz və mətbəximizin geniş təbliği üçün bütün imkanlardan istifadə olunub. Azərbaycanın tarixi və dövlətçiliyi ilə bağlı zəngin stendlər hazırlanıb. Bundan başqa holland qonaqlara Azərbaycanın işğal altında olan əraziləri, Dağlıq Qarabağ münaqişəsi haqqında broşurlar, kitablar paylanıb. Bayram haqqında ətraflı məlumat və yerli əhalinin təəssüratları “Limburgs Dagblad” və “De limburger” qəzetlərində dərc olunub.

- Azərbaycan həqiqətlərini holland ictimaiyyətinə çatdırmaq istiqamətində hansı işləri görürsünüz?

- Sözügedən istiqamətlərdə bu günə qədər keçirdiyimiz tədbirlər ümumi xarakter daşıyıb. Sırf Dağlıq Qarabağ problemi və ya Xocalı soyqırımı ilə bağlı tədbirlərimiz olmayıb. Ancaq cəmiyyətin keçirdiyi əksər tədbirlərdə adı çəkilən məsələlərə də diqqət yetirilib. Bununla yanaşı biz qeyd edilən məsələlərlə bağlı xüsusi tədbirlər keçirməyi nəzərdə tuturuq. Hesab edirəm ki, növbəti tədbirlərimiz bu istiqamətlərdə olacaq. Ümumiyyətlə isə Hollandiyada bu işlə məşğul olan bir neçə cəmiyyət var ki, onlar bir cəmiyyət halında birləşərək Azərbaycanın Dağlıq Qarabağ problemini bu ölkənin ictimaiyyətinə çatdırmağa çalışırlar. Həmin cəmiyyət Hollandiyada mütəmadi olaraq Dağlıq Qarabağ problemi ilə bağlı tədbirlər keçirir. Onu da qeyd edim ki, sırf siyasi xarakterli tədbirlər keçirəndə holland cəmiyyəti buna bir qədər başqa cür yanaşır, həmin tədbirlərdə iştiraka o qədər də maraq göstərmirlər. Ancaq başqa ad altında keçirilən tədbirlərdə həmin mövzuları da proqrama daxil edirik. Bu yolla nəsə əldə etmək olur. Həmin tədbirlərdə biz ən çox kitab yayımına üstünlük veririk.

- Hollandiyada Azərbaycan diasporunun bugünkü vəziyyəti necədir?

- Etiraf etmək lazımdır ki, ümumilikdə Hollandiyada diasporamızın vəziyyəti istədiyimiz səviyyədə deyil. Ölkənin şimal bölgəsində cənuba nisbətən Azərbaycan diasporu daha aktivdir. Hesab edirəm ki, bunun da müxtəlif səbəbləri var. Birincisi, diasporamız yerli əhaliyə qaynayıb qarışmalı, kifayət qədər inteqrasiya olunmalıdır ki, onları ələ ala bilsinlər. İkincisi, ondan ibarətdir ki, Hollandiyada erməni təbliğatı bizə nisbətən daha güclüdür. Ancaq sağlam yolla təbliğata qaldıqda, əlbəttə ki, Azərbaycan diasporu qonşularımıza nisbətən daha sağlam təbliğat üsullarından istifadə edir.

- Hollandiyada fəaliyyət göstərən erməni diasporunun Azərbaycan diasporuna təsiri və sizin təşkil etdiyiniz bu və ya digər tədbirləri pozmağa çalışırlarmı?

- Təbii ki, dünyanın hər bir ölkəsində olduğu kimi Hollandiyada da ermənilər Azərbaycan diasporunun fəaliyyətinə mane olmağa çalışırlar. Ermənilər Hollandiyada hakimiyyət orqanları kimi yerli əhalini ələ ala biliblər. Onlar bizim keçirdiyimiz bu və ya digər tədbirlərə mane olmağa çalışsalar da, istənilən nəticəni əldə edə bilmirlər. Çünki həqiqət həmişə zəfər çalır. Çünki yalan nə qədər ayaq açıb yerisə də, bir gün dayanacaq. İstənilən halda ermənilər müxtəlif vasitələrlə Azərbaycan diasporunun fəaliyyətinə mane olmağa çalışsalar da, istənilən nəticəni əldə edə bilmirlər.

- Keçirdiyiniz tədbirlərdə iştirakçılara təqdim etdiyiniz kitab və broşurları hardan əldə edirsiniz?

- İlk olaraq onu qeyd edim ki, Azərbaycanla bağlı hollandlarda müəyyən qədər informasiya yaradacaq qədər kitablar var. Orda hər təqdim olunan kitabı götürmürlər. Biz Maastrixt şəhərindəki Mərkəzi Kitabxanaya ingilis dilində üç kitab verdik hansı ki, Azərbaycanın ictimai siyasi vəziyyətini əks etdirir. Bir neçə gündən sonra gördük həmin kitabları "Erməni guşəsinə" qoyublar. İsrarlı təkidimizlə həmin kitabları Azərbaycan guşəsinə yerləşdirdilər. Cəmiyyət olaraq bizim Diasporla İş üzrə Dövlət Komitəsi ilə çox gözəl əməkdaşlığımız var və Dövlət Komitəsi istədiyimiz materialı, vəsaiti bizə ayırır. Belçika və Niderlanddakı səfirliklərimiz də bizə lazımi qədər material, təbliğat vasitəsi verir və biz də onlardan istifadə edirik. Ümumiyyətlə, cəmiyyət olaraq bu sahədə bizim heç bir problemimiz yoxdur.

- Hər hansı bir qurumdan təşkilatınıza maliyyə dəstəyi varmı?

- Rəsmi fəaliyyət göstərdiyimiz beş il ərzində heç bir mənbədən maliyyə yardımı görməmişik və keçirdiyimiz tədbirlərdə müəyyən məkanlarda gerçəkləşir. Bir müddət əvvəl orta məktəblərdən birində tədbir keçirdik. Həmin məktəbin tələbələri kiçik bir aksiya keçirdilər, büdcə düzəltdilər və başqa bir humanitar cəmiyyətdə bizə maliyyə yardımı etdi. Artıq cəmiyyətimizin büdcəsində müəyyən miqdarda vəsait yarada bilmişik. Büdcəmizdə toplanmış həmin maliyyəyə uyğun olaraq layihəmiz çərçivəsində Azərbaycanda Gözdən Əlillər Cəmiyyətinin nəzdindəki məktəb ləvazimatları alıb verəcəyik. Çünki bu layihə çərçivəsində, ancaq biz məktəb ləvazimatları almalıyıq. Keyfiyyət baxımından nəzərdə tutulub ki, bu ləvazimatlar xaricdən alınıb gətirilməlidir. Yayda bu layihəni gerçəkləşdirəcəyik.

- Bu günlərdə cəmiyyətiniz hansısa layihə keçirməyi nəzərdə tutub?

- Yaxın bir həftə ərzində cəmiyyət özünün növbəti tədbirini keçirdi. Ona görə də yaxın günlərdə cəmiyyətin hansısa tədbiri planlaşdırılmayıb. Ola bilsin ki, yaxın iki-üç ay ərzində Hollandiyada Azərbaycan Musiqi Günləri keçirildi. Həmin tədbirdə Fransa və Almaniyadan gələn musiqiçilər iştirak edəcək. Onlar bizə Azərbaycan musiqilərini səsləndirməyə maraqlı olduqlarını bildiriblər. Bizdən notları istəyiblər ki, biz Azərbaycan musiqisi ifa etmək istəyirik. Bakıdan Hollandiyaya qayıtdıqdan sonra həmin tədbirə hazırlıq istiqamətində ciddi məşğul olacağıq. Amma Azərbaycan Musiqi Günlərinin hansı şəhərdə keçiriləcəyi hələlik tam dəqiqləşməyib. Çünki həmin musiqiçilərin bir hissəsi Fransada, digər hissəsi isə Almaniyada yaşayır, orada fəaliyyət göstərirlər. Onlar tez-tez Hollandiyanın Maastrixt şəhərinə gəlirlər. Hətta həmin musiqiçilərdən biri bizim bir müddət əvvəl keçirdiyimiz tədbirdə fleytada "Sarı gəlin" əsərini ifa etmişdi. Ondan sonra həmin şəxs bildirmişdi ki, biz qrup şəklində mütləq yenidən həmin əsəri, eləcə də bir sıra Azərbaycan mahnısını ifa etmək istəyirik.

- Hollandiyada keçiriləcək Azərbaycan Musiqi Günlərində Azərbaycanın incəsənət xadimlərinin də iştirakı nəzərdə tutulubmu?

- Budəfəki tədbirdə Azərbaycan incəsənət ustalarının iştirakı nəzərdə tutulmayıb. Cəmiyyətin bir müddət əvvəl keçirdiyi tədbirdə Azərbaycanı Türkiyədə təmsil edən, gözəl skripkaçımız Lalə Hüseynova iştirak edirdi. Həmin xanım Türkiyənin Tokat Universitetinin dosentidir və dəvətimizi qəbul edərək Hollandiyaya gəldi, təmənnasız olaraq bizim tədbirdə iştirak etdi. Lalə Hüseynova həmin tədbirdə gəldi həm özü ifa etdi, həm də uşaqlarla məşğul oldu. O, Arif Məlikov, Fikrət Əmirov, Qara Qarayevin əsərlərini ifa etdi. Lalə xanımın çıxışı orda mətbuatda işıqlandırıldı.

- Təşkilatınızın saytı varmı?

- İlk olaraq onu qeyd edim ki, ötən illər də qədər bizim tədbirlərimiz böyük miqyaslı deyildi. Amma 2008-ci ildən etibarən biz daha geniş miqyaslı tədbirlər həyata keçirməyə başlamışıq. Bu genişmiqyaslı tədbirlər səbəb olub ki, bu gün Diasporla İş üzrə Dövlət Komitəsi də bizim fəaliyyətimizlə maraqlanır və işbirliyi yaratmaq istəyir, eyni zamanda mətbuat fəaliyyətimizlə maraqlanır. Elə bu səbəbdən də təşkilatımızın rəsmi saytını bu günlərdə yaradacağıq.

Günay
"Paritet" – 2010 - 22-24 may - N.51.-S.10.

Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) II konfransı keçirilmişdir

AzərTAc xəbər verir ki, Moskvadakı Beynəlxalq Ticarət Mərkəzində Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) II konfransı keçirilmişdir. Konfrans təşkilatın birillik fəaliyyətinə yekun vurmuş, onun inkişaf perspektivlərini müəyyən etmişdir. Tədbirin əvvəlində Azərbaycan Respublikasının və Rusiya Federasiyasının dövlət himnləri səslənmişdir. Sonra RAGT-nin fəaliyyəti haqqında sənədli film nümayiş etdirilmişdir. RAGT-nin sədri Leyla Əliyeva tədbiri giriş sözü ilə açmışdır. O, gənclərin uğurlu işinə görə onlara təşəkkür edərək demişdir: "Real işlər, gerçəkləşdirilmiş ideyalar, əldə edilmiş məqsədlər bunu inamla söyləməyə əsas verir ki, RAGT uğurlu qurumdur. Bu gün RAGT Azərbaycan gənclərinin ölkə hüdudlarından kənarda yaradılmış ən fəal təşkilatıdır. İl ərzində təşkilatın iştirakçılarının sayı bir neçə dəfə artmışdır. Əminəm ki, bu sözləri bizim həmfikirlərimizin sayı barədə də deyə bilərik. Təşkilatın bölmələrinin sayı artıq 60-dan çoxdur. Regional bölmələr fəallıq baxımından mərkəzdən geri qalmır. Ötən bir ildə biz təkcə Moskvada və Bakıda deyil, Sankt-Peterburq, Tver, İvanovo, Smolensk, Murmansk və Yekaterinburq şəhərlərində də çoxlu tədbirlər, görüşlər, aksiyalar keçirmişik.

Biz fəaliyyətimizin lap əvvəlindən öz işimizi elə qurmağa çalışmışıq ki, o, mümkün qədər çox və müxtəlif sahə və istiqamətləri əhatə etsin. Mədəniyyətlərarası dialoqun genişləndirilməsi, Azərbaycanın zəngin mədəni və tarixi irsinin təbliğ edilməsi, müasir Azərbaycan reallıqlarının Rusiya cəmiyyətinə çatdırılması, humanitar və sosial sahə, eləcə də elm və təhsil məsələləri fəaliyyətimizin prioritet istiqamətləridir. Əlbəttə, Rusiya Federasiyasında yaşayan və təhsil alan vətəndaşlarımız barədə qayğı da diqqət mərkəzindədir".

Leyla Əliyeva təşkilatın fəaliyyətinin yekunlarından bəhs edərək demişdir: "Heydər Əliyev Fondu ilə birlikdə "Xocalıya ədalət" beynəlxalq kampaniyasının keçirilməsi fəaliyyətimizin ən mühüm tərkib hissələrindən biridir. Bu kampaniya çərçivəsində dünyanın müxtəlif ölkələrində 70 aksiya keçirilmişdir. Kampaniyanın məqsədi 1992-ci ilin fevral hadisələri barədə informasiyanı dünyanın bütün qitələrinin sakinlərinə çatdırmaqdır. Xocalı bizim ağrılı yerimizdir və dünya birliyinin bu faciədən, bütövlükdə Ermənistan-Azərbaycan münaqişəsindən xəbər tutması çox vacibdir. Biz həmin münaqişə ədalətli həllini tapana, Azərbaycanın ərazi bütövlüyü bərpa edilənə qədər bu istiqamətdə irəliləməkdə davam edəcəyik. Hesab edirəm ki, mədəniyyət hər bir dialoqun universal açarıdır. Biz Moskvada və Rusiyanın digər şəhərlərində Azərbaycan mədəniyyəti günləri və həftələri keçirmişik, musiqi gecələri, fotosərgilər, filmlərə baxışlar təşkil etmişik. Bu istiqamətdə fəaliyyətimizi gələcəkdə də davam etdirəcək, Azərbaycanın zəngin mədəniyyətini layiqincə təmsil edəcəyik.

Humanitar və sosial sahələrdə də böyük iş görülmüş, ehtiyacı olanlara konkret kömək göstərilmiş, xüsusən uşaq evlərinin sakinlərinə və xəstəxanalarda müalicə alan uşaqlara qayğı göstərilmişdir. Xəstə uşaqlar üçün qanvermə üzrə dərin rəmzi məna daşıyan "Qanın milləti yoxdur" layihəsini xüsusi qeyd etmək istəyirəm. Bu onu göstərir ki, Azərbaycan və Rusiya gənclərinin həyati dəyərləri eynidir. RAGT-nin təşəbbüsü ilə tütünün və alkoqolun insan orqanizminə təsiri haqqında reklam-maarifçilik kampaniyası keçirilmişdir. "Sağlam olduğunu yəqin et!" və "Xəstəliyə yox de!" proqramları çərçivəsində Azərbaycandan olan yüzlərlə insan Moskvada pulsuz müayinə edilmişdir. Biz bu humanitar fəaliyyətimizi gələcəkdə daha da genişləndirmək, onu daha məzmunlu etmək fikrindəyik. İdmanda da paralq nəticələr əldə etmişik. 2009-cu ildən başlayaraq, Moskvada Rusiyanın ali məktəblərində təhsil alan azərbaycanlı tələbələrdən ibarət 16 komandanın iştirakı ilə mini-futbol üzrə daimi çempionat keçirilir. Çox şadam ki, regionlar bu ideyanı nəinki dəstəkləmiş, hətta builki çempionatda 24 komanda iştirak etmişdir. Bu, bizim gənclərin idmana böyük maraq göstərməsini nümayiş etdirir. Bu yaxınlarda RAGT-nin rəsmi saytı yenilənmişdir. İndi bizim gənclər bir-biri ilə ünsiyyət saxlamaq, maraqlı məlumatları müzakirə etmək, müsabiqələrə qatılmaq imkanına malikdirlər. Qeyd etmək istəyirəm ki, bizim mətbu orqanımız – "RAGT" adlı yeni jurnalımız yaradılmışdır. Bu gün biz görülmüş işlərə yekun vuracaq, həmçinin gələcək fəaliyyətimizin strategiyasını müzakirə edəcəyik. Müxtəlif istiqamətlərdə fəaliyyətimizi genişləndirməyimiz çox vacibdir".

Leyla Əliyeva Rusiyanın və Azərbaycanın İdman və Gənclər nazirliklərinə, Azərbaycanın RF-dəki səfirliyinə, Ümumrusiya Azərbaycanlılar Konqresinə, habelə volonter tələbələrə təşəkkür etmişdir. RAGT sədri demişdir: "Biz, Azərbaycanın gənc nəsli dünyaya açıq gözlə baxmaq və daim Vətənimizi unutmamaq, köklərimizi və ənənələrimizi sevmək və qoruyub saxlamaq istəyirik. Biz eşitmək və eşidilmək istəyirik. Qarşıda görülməli işlərimiz çoxdur. Bizim ümumi uğurumuz həmin işlərin həyata keçirilməsindən asılıdır". Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu dərin razılıq hissi ilə bildirmişdir ki, RAGT ciddi problemlər həll edən, mədəni və humanitar sahələri əhatə edən vahid və sıx birləşmiş gənclər təşkilatına çevrilmişdir. O, xüsusi vurğulamışdır ki, bütün bunlar Azərbaycan gənclərinin lideri, Azərbaycan gənclərini sıx birləşdirmiş RAGT sədri Leyla Əliyevanın sayəsində mümkün olmuşdur. Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov ölkəmizin gənclər siyasəti barədə söhbət açaraq demişdir ki, bu konfrans Azərbaycan gənclərinin inkişafına, onların Rusiya cəmiyyətinə inteqrasiyasına, habelə Rusiya-Azərbaycan əlaqələrinin möhkəmlənməsinə yeni təkan verəcəkdir. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri Elnur Aslanov çıxış edərək demişdir ki, bu təşkilat qısa müddətdə həm Azərbaycanın, həm də Rusiyanın ictimai-siyasi həyatının mühüm tərkib hissəsinə çevrilmişdir.

RAGT-nin nüfuzu ilbəil artır, onun üzvlərinin sayı çoxalır, həll edilən və müzakirə olunan məsələlərin əhatə dairəsi genişlənir. E.Aslanovun sözlərinə görə, bu müddətdə RAGT yeni niyyətlərin, kreativ ideyaların ünsiyyətə və innovasiyalara meyilli gənclər arasında müzakirə edilməsi və həyata keçirilməsi üçün fəaliyyət meydanına çevrilmişdir. O demişdir: "Bu gün Azərbaycan dinamik inkişaf edən dövlətdir. Azərbaycan gəncləri qarşısında yeni perspektivlər açılır. XXI əsr yeni təşəbbüslər dövrüdür və siz isbat etmisiniz ki, bizim gücümüz birliyimizdədir. Yalnız vahid məqsədlər naminə ümumi, həmrəy və sıx birləşmiş qüvvələr sayəsində zirvələrə çatmaq olar". Rusiya Gənclər və İdman Nazirliyinin gənclər siyasəti departamentinin nümayəndəsi İqor Melniçenko konfrans iştirakçılarına nazir Vitali Mutkonun salamlarını çatdırmışdır. O, RAGT-nin fəaliyyətini yüksək qiymətləndirərək qeyd etmişdir ki, əməkdaşlıq haqqında saziş imzalanmağa hazırdır və yaxın vaxtlarda imzalanacaqdır.

"Gənc qvardiya" ictimai təşkilatının sədri Ruslan Qattarov da azərbaycanlı gənclər təşkilatının ünvanına xoş sözlər demiş və əməkdaşlığı daha da fəallaşdırmağı təklif etmişdir. Ümumrusiya Azərbaycanlılar Konqresinin prezidenti Məmməd Əliyev bildirmişdir ki, konqres RAGT-yə çox böyük ümid bəsləyir. O, konqres adından Dünya Azərbaycanlılarının Gənclər Təşkilatının yaradılması təşəbbüsü ilə çıxış etmişdir. Sonra Moskvanın və regionların gənclər təşkilatlarından olan tələbələr çıxış edərək görülmüş işlər barədə məlumat vermişlər. Rusiyanın 60 regionundan olan azərbaycanlı gənclərin adından çıxış edənlər bu gənclərin sıx birləşdirilməsinə və onların hər bir təşəbbüsünün dəstəklənməsinə görə, RAGT sədri Leyla Əliyevaya təşəkkür etmişlər.

Konfransın rəsmi hissəsindən sonra forum öz işini təhsil, elm və mədəniyyət, sağlam həyat tərzi və idman, iqtisadiyyat, biznes və sahibkarlıq, beynəlxalq əməkdaşlıq, gənclər və KİV seksiyaları üzrə davam etdirmişdir. Konfransın yekun hissəsində RAGT sədri Leyla Əliyevanın hesabatı əsasında hazırlanmış Qətnamə seksiyalarda müzakirə olunmuş və yekdilliklə qəbul edilmişdir. Leyla Əliyeva konfransa yekun vuraraq iştirakçılara, gənclərin nümayəndələrinə onların fəal mövqeyinə görə, həmçinin RAGT-nin fəaliyyətinə kömək edənlərin hamısına təşəkkürünü bildirmişdir. O demişdir: "Bu gün biz görülmüş işlər və keçilmiş yol barədə danışdıq. Lakin hələ görüləsi işlərimiz çoxdur. Çünki bizim yeni məqsədlərimiz və imkanlarımız yaranmışdır. Bizi bir-birimizə bağlayan amillər çoxdur, ən başlıcası isə bizim bir üstünlüyümüz var – biz gəncik, bu isə o deməkdir ki, ehtiyacı olanlara kömək etməyə imkanımız vardır".

Leyla Əliyeva xüsusi vurğulamışdır ki, RAGT hamı üçün açıqdır və istənilən təşəbbüsləri dəstəkləməyə hazırdır. O, əmin olduğunu bildirmişdir ki, onlar birlikdə daha böyük nəticələr və uğurlar qazana bilərlər. Foyedə "Azərbaycan" fotosərgisi təşkil edilmişdir. Burada Heydər Əliyev Fondunun nəşr etdirdiyi kitablar və hazırladığı disklər paylanmış, Azərbaycan xalçaları nümayiş etdirilmişdir. Forumun sonunda Azərbaycanın və Rusiyanın estrada ulduzlarının iştirakı ilə qala-konsert olmuşdur.

25 may 2010

Nazim İbrahimov Azərbaycanda səfərdə olan Belçika Senatının fəxri prezidenti və senator Ann Mari Lizinlə görüşüb

Mayın 25-də Diasporla İş üzrə Dövlət Komitəsi sədri Nazim İbrahimov Azərbaycanda səfərdə olan Belçika Senatının fəxri prezidenti və senator Ann Mari Lizinlə görüşüb. Görüşdə Nazim İbrahimov Azərbaycanın sürətli inkişafı, həyata keçirilən islahatlar, ölkəmizin regionda və dünyada möhkəmlənən mövqeyi, eləcə də Azərbaycan diasporunun yaranması, formalaşması, təşkilatlanması barədə ətraflı məlumat verib.

Dövlət Komitəsini sədri Belçikadakı Azərbaycan diasporunun inkişaf perspektivləri, onların yerli cəmiyyətə inteqrasiyası, Azərbaycan haqqında daha geniş və dolğun məlumatların, eləcə də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əsl həqiqətlərin Belçika ictimaiyyətinə çatdırılması üçün daha da fəallıq göstərmələrinin zəruriliyi və digər məsələlər barədə danışıb. Xanım A.M.Lizin də Azərbaycanda gördüyü iqtisadi inkişafı, sütərli dəyişiklikləri yüksək qiymətləndirdiyini bildirib.

Dağlıq Qarabağ münaqişəsi ilə yaxından maraqlandığını deyən belçikalı senator hesab edir ki, onun yaşadığı cəmiyyətdə Azərbaycan haqqında, xüsusilə də Qarabağ gerçəklikləri haqqıda geniş təbliğat aparılmasına ehtiyac var. Onun sözlərinə görə, Azərbaycan mədəniyyətinin Belçikada daha geniş tanıdılması məqsədilə də layihələr həyata keçirilməsi məqsədəuyğun olardı. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb. Görüşdə Belçikanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Filip Jettard iştirak edib.

25 may 2010

Riqanın "Konventa" konfrans zalında "Latviyada yaşayan azərbaycanlıların cəmiyyətə inteqrasiyasında diasporun rolu" adlı konfrans keçirilib

Riqanın "Konventa" konfrans zalında "Latviyada yaşayan azərbaycanlıların cəmiyyətə inteqrasiyasında diasporun rolu" adlı konfrans keçirilib. Konfransı "Ocaq" Latviya-Azərbaycan Mədəniyyət Mərkəzi ilə Diasporla iş üzrə Dövlət Komitəsi təşkil edibv. Tədbiri giriş sözü ilə "Ocaq" Latviya-Azərbaycan Mədəniyyət Mərkəzinin sədri, Latviya Təhsil Nazirliyinin məşvərət şurasının sədri, Latviya Respublikası Prezidenti yanında milli azlıqlar üzrə məşvərət şurasının üzvü Roman Əliyev açıb. Azərbaycan Respublikasının Latviyadakı fövqəladə və səlahiyyətli səfiri Tofiq Zülfüqarov tədbir iştirakçılarını salamlayıb və konfransın işinə uğurlar arzulayıb.

Tədbirdə Latviya Parlamentinin deputatları iştirak ediblər. Deputat Boris Tsileviç öz çıxışında Azərbaycanın iqtisadi və hümanitar inkişafından, Ermənistanın Azərbaycanın ərazisinin 20 faizini işğal etməsindən və qaçqınların problemlərinin müvəffəqiyyətlə həllindən danışıb. "Bunlar Azərbaycanın iqtisadi resurslarını düzgün istiqamətə yönəldilməsinin və Azərbaycan xalqının rifahı naminə görülən işlərin nəticəsidir". B.Tsileviç belə deyib. O əlavə edib ki. şübhəsiz Azərbaycanın Avropa Birliyinə inteqrasiyasını biz hər zaman dəstəkləyirik və bundan sonra da hər bir dəstəyi göstərməyə hazırıq. Latviyadakı azərbaycanlılar Avropa Birliyinin siyasəti ilə bağlı bizim müxtəlif ictimai təşkilatlarla apardığımız müzakirələrdə fəallıq göstərirlər, bu da Azərbaycanın Avropa ilə əlaqələrinin möhkəmlənməsində, Dağlıq Qarabağ münaqişəsinin həllinin tezləşdirilməsində rol oynaya bilər.

Deputat Oskars Kastens öz çıxışında bu il mayın 20-də Avropa Parlamentinin qəbul etdiyi qətnaməyə xüsusi diqqət çəkərək bildirib ki, bu sənəd Azərbaycanın Avropa Birliyi ilə əməkdaşlığı baxımından proqressiv mahiyyət kəsb edir. Deputat Avropa Birliyində, Belçika və Strasburqda yerləşən digər Avropa strukturlarında təmsil olunan Latviya nümayəndələrini Azərbaycanın mövqelərini daha fəal dəstəkləməyə çağırıb. Onun fikrincə, bu istiqamətdə Latviyada yaşayan azərbaycanlıların da həm Latviya Seyminin, həm Azərbaycan Milli Məclisinin deputatları, həm də digər müvafiq strukturlarla əməkdaşlığı vacibdir.

Latviya Ədliyyə Nazirliyinin nümayəndəsi İrina Vasilyeva "Ocaq" cəmiyyətinə onun ölkənin ictimai-siyasi, mədəni həyatında fəallığına və keçirdiyi bu cür ciddi tədbirlərə görə minnətdarlığını bildirib. O ölkədəki milli azlıqların, digər xaqların icmalarının yaratdığı təşkilatların fəaliyyəti haqqında da məlumat verib.

Riqa Dumasının təhsil idarəsinin rəisi İvars Balamovskis "Ocaq" cəmiyyətinin latışlar və digər milli azlıqlaın nümayəndələri ilə əlaqələrini və Azərbaycan Bazar günü məktəblərinin təşkilini yüksək qiymətləndirib. "Sizin alimləriniz, iş adamlarınız, tələbələriniz və müəllimləriniz milli azlıqların təhsil planının reallaşmasında və multi-mədəniyyət dialoqunun möhkəmləsində Riqa Dumasına hər zaman dəstək olublar" – deyə Balanovski bildirib.

Latviya-Azərbaycan Cəmiyyətinin fəalları-Eldəniz Medov, Adıgözəl Məmmədov və Aydın Əsgərov öz çıxışlarında bildiriblər ki, onların başlıca vəzifəsi həm Latviya vətəndaşları, həm də bu ölkədə yaşayan digər xalqlarla qarşılıqlı hörmət və tolerant şəraitdə yaşamaqdır. Bunun sayəsində milli mədəniyyətimizi qoruyub nəsillərdən nəsillərə ötürə bilərik. Bizim hər birimiz üçün Azərbaycanın Avropaya inteqrasiyası və əməkdaşlığı mühüm məsələlərdəndir.

Tədbirdə DİDK-nin şöbə müdiri Surəddin Hümbətov diaspor təşkilatlarının inteqrasiya proseslərində rolu mövzusunda çıxış edib.

26 may 2010

ABŞ-ın Kaliforniya ştatının bir sıra şəhər və bölgələrində mayın 28-i "Azərbaycan Milli Günü" elan ediləcəkdir

Amerika-Azərbaycan Şurasından AzərTAc-a verilən məlumata görə, ABŞ-ın Kaliforniya ştatının bir sıra şəhər və bölgələrində mayın 28-i "Azərbaycan Milli Günü" elan ediləcəkdir. Bu haqda diaspor təşkilatına Kaliforniya ştatının yerli icra hakimiyyətlərindən daxil olan təbrik məktublarında deyilir. Xüsusilə, Cənubi Kaliforniyanın Orenc dairəsinin və Irvin şəhərinin şuralarının qərarlarına görə, Amerikanın Azərbaycan mənşəli icmasının ştatın mədəni müxtəlifliyi, siyasi və iqtisadi həyatına verdiyi töhfələri nəzərə alaraq, onların yaşadıqları ərazilərin sakinləri Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının ildönümünü bayram edəcəklər. Təbrik məktublarında 1918-ci ildə müsəlman Şərqində yaradılan ilk dünyəvi parlament respublikasının insan haqları üzrə əldə etdiyi nailiyyətlər xatırlanır, müasir Azərbaycan Respublikasının ərazi bütövlüyünün ABŞ və BMT tərəfindən tanındığı vurğulanır.

Amerika-Azərbaycan Şurası ilə yanaşı, Birləşmiş Ştatlarda fəaliyyət göstərən Amerikanın Azərbaycan Cəmiyyəti, ABŞ Azərbaycanlıları Şəbəkəsi də Nyu-York ştatının qubernatoru, ABŞ Konqresinin üzvləri və ölkənin digər yüksək səviyyəli rəsmilərindən Azərbaycan Günü münasibətilə təbrik məktubları almışlar.

28 may 2010

Azərbaycanlı Tələbələr və Elmi İşçilər Birliyi Qerolştayn (Gerolstein) şəhərində 3 günlük forum təşkil edəcək

Mayın 28-30-da Almaniyada fəaliyyət göstərən Azərbaycanlı Tələbələr və Elmi İşçilər Birliyi Qerolştayn (Gerolstein) şəhərində 3 günlük forum təşkil edəcək. "Almaniyada yaşayan azərbaycanlı tələbələr və elmi işçilər ili" adı ilə keçirilən bu forumun ilk gününün əsas mövzusu Azərbaycan Xalq Cumhuriyyətinin yaranması ilə bağlı olacaq. Burada AXC-nin qurucuları haqqında forum iştirakçılarına məlumat veriləcək, tariximizin bu şanlı səhifəsi ilə bağlı fikir mübadiləsi aparılacaq. Həmin gün forumun rəsmi hissəsindən sonra 28 May – Respublika Günü qeyd olunanaq.Forumun ikinci günündə Almaniyada təhsil, iş, kariyera imkanları, integrasiya və digər mövzularda tələbə və doktorantların məruzələri dinlənilləcək, gələcək layihələr haqqında diskussiyalar aparılacaq.

Müzakirələr zamanı alman vətəndaşları olan həmyerlilərimiz keçdikləri təcrübələri gənclərlə bölüşəcəklər. Forumun sonuncu günündə ATEİB-nin illik toplantısı keçiriləcək. Toplantıda indiyə kimi görülən işlər haqqında hesabat veriləcək və idarə heyəti seçkilər vasitəsilə yenidən formalaşdırılacaq. Seçiləcək yeni İH isə növbəti illlərin iş planını müzakirəyə çıxaracaq və təsdiqləyəcək.Xatırladaq ki, ATEİB Almaniyanın Frayberq (Freiberg) şəhərində 2009-cu il yanvarın 12-də rəsmi qeydiyyatdan keçmiş QHT olaraq fəaliyyət göstərir. Birliyin rəsmi saytı www.vasw.de iki dildə, həm Azərbaycan, həm də alman dilində fəaliyyət göstərir.

28-30 may 2010

Azərbaycançılıq məfkurəsi qloballaşmanın mənəvi aşınma təzahürlərinə qarşı etibarlı sipərdir

"Bütün inkişaf etmiş ölkələr kimi, indi Azərbaycan da öz fəaliyyətini bazar iqtisadiyyatı prinsipi əsasında qurur. Əlbəttə, dünya praktikası artıq sübut edib ki, bu, ən mütərəqqi yanaşmadır. Ancaq bəzi hallarda əgər mənəviyyat itirsə, mənəvi dəyərlər bazar iqtisadiyyatı içərisində əridilirsə, bu, cəmiyyətin normal yaşamasına böyük təhlükə yarada bilər. Biz çalışmalıyıq ki, ölkəmizin uğurlu iqtisadi inkişafını şərtləndirən bütün amillərlə yanaşı, mütləq və mütləq mənəvi dəyərlər itməsin. Bizim ənənələrimiz, tarixi nailiyyətlərimiz saxlanılsın, qorunsun. Əlbəttə, ölkənin gücü, zənginliyi onun iqtisadi qüdrətindədir. Ancaq eyni zamanda, onun mənəvi gücündədir. Ona güc verən məhz mənəvi dəyərlərdir".

İlham Əliyev

XX əsrin sonlarından geniş vüsət alan qloballaşma prosesləri yeni dünya nizamının formalaşması ilə nəticələnir: son onilliklərdə dövlətlər arasında sərhədlər sürətlə aradan qalxır, iqtisadi inteqrasiya prosesləri dərinləşir, transmilli şirkətlərin beynəlxalq siyasi münasibətlər sistemində rolu güclənir. Bu mürəkkəb prosesi səciyyələndirmək üçün ilk növbədə, qloballaşmanın istiqamətlərini və konturlarını aydınlaşdırmağa çalışmaq, bu prosesin mənfi və müsbət təzahürlərini araşdırmaq lazımdır.

Şübhəsiz, qloballaşma kimin ona necə yanaşmasından asılı olmayaraq, qarşısıalınmaz prosesdir. Qloballaşma müasir dünyanın iqtisadi və siyasi sisteminə, beynəlxalq ictimai rəyə, habelə ayrı-ayrı xalqların tarixən formalaşan milli-mənəvi dəyərlər sisteminə müsbət və mənfi təsirləri olan obyektiv tarixi prosesdir.

Qloballaşma dünyanın və insanların universallaşması, həyat tərzi və davranışların vahid standartlarının yaranması, istehsal, istehlak və ticarətin unifikasiyasıdır. Bu proses dünya ölkələrini vahid və universal dəyərlər, texnologiya, nəqliyyat-kommunikasiya mexanizmləri, ticarət və maliyyə sistemləri ilə vahid mexanizmə çevirməyə hesablanıb. Yəni, qloballaşma prosesləri XXI əsrin başlanğıcında dövlətlərin bir-birindən siyasi, sosial-iqtisadi, sosial-mədəni və informasiya asılılığını daha da gücləndirib.

Dünya təsərrüfat sisteminin liberallaşması, investisiyaların qarşılıqlı qorunması, vergi sistemlərinin universallaşdırılması, iqtisadi və siyasi modellərin oxşarlığı elə həddə çatıb ki, milli və etnik sərhədlər az qala tamamilə aradan qalxmaq üzrədir. Biz hazırda mövcud olan Avropa Birliyi modeli fonunda bunun əyani şahidi oluruq. Yaxud Avropa Şurasına üzv dövlətlərin həyata keçirdiyi siyasi və hüquqi islahatların oxşarlığı onları qlobal məkanın subyektlərinə çevirir. Eləcə də Bolonya prosesinə qoşulan dövlətlər vahid təhsil sisteminə keçməklə oxşar standartları tətbiq edirlər və beləliklə, diplomların qarşılıqlı tanınması problemi də həllini tapır. Yəni, qloballaşma prosesi iqtisadi - ticari planda, genişmiqyaslı əməkdaşlıq anlamında daha çox mütərəqqi cəhətləri ilə diqqəti çəkir.

Ümumiyyətlə, bu gün iqtisadi qloballaşmaya bütün dünyada pozitiv yanaşma mövcuddur. Lakin bu proseslərdə ölkələrin inkişaf potensialının da nəzərə alınması vacibdir. Məsələn, son vaxtlar Yunanıstan iqtisadiyyatında yaranmış ciddi tənəzzül və büdcə kəsiri Avropa Birliyinin vahid maliyyə sisteminə ciddi zərbə vurub. Bu geosiyasi arealda vahid valyuta olan avronun məzənnəsi dollara nisbətən kəskin şəkildə aşağı düşüb. Proses onu göstərir ki, dünya iqtisadiyyatının təmərküzləşməsi prosesində ayrı-ayrı dövlətlərin daxili imkanları da nəzərə alınmalıdır.

Mübaliğəsiz deyə bilərik ki, bu gün müstəqil Azərbaycanın qlobal və siyasi-iqtisadi proseslərdə oynadığı həlledici rol dünyanın aparıcı siyasi və iqtisadi mərkəzlərində heyrətlə qarşılanır. Respublikamız liberal iqtisadi siyasət yeritməsinə, beynəlxalq təsərrüfat sisteminə sıx inteqrasiya olunmasına, investisiyalar üçün açıq ölkə kimi tanınmasına baxmayaraq, qlobal böhrandan ən az itki ilə çıxan dövlətlərdəndir. Bunu müxtəlif beynəlxalq maliyyə institutları, o cümlədən Beynəlxalq Valyuta Fondu da açıq etiraf edir. Bu mənada, respublikamızın özünəməxsus iqtisadi inkişaf modeli də ciddiliklə öyrənilir.

Amerikalı nəzəriyyəçi-filosof T. Fridmanın bir fikrini xatırlatmaq istərdim. Filosofun fikrincə, əgər ötən əsrdə böyük dövlətlər kiçikləri "udurdularsa", XXI əsrdə "sürətli" dövlətlər "ləng", "astagəl" dövlətləri "həzm edəcəklər". Bununla filosof hazırda dünya nizamında yeni geosiyasi reallıqların meydana çıxdığına, çevik xarici və daxili siyasət yeridən kiçik dövlətlərin beynəlxalq iqtisadi münasibətlər sistemindəki mövqeyinin əsaslı dərəcədə möhkəmləndiyinə işarə edir. Azərbaycan bu gün dünya neft ehtiyatlarının cəmi bir faizinə sahiblik etsə də, uğurlu və çevik diplomatiyası ilə beynəlxalq iqtisadi münasibətlər sistemində öz yerini möhkəmləndirib.

Fikrimcə, bu uğurumuzun əsasını ulu öndər Heydər Əliyevin böyük müdrikliklə irəli sürdüyü yeni neft strategiyası təşkil edir. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması, sonrakı mərhələdə "Bakı-Tbilisi-Ceyhan" neft və "Bakı-Tbilisi-Ərzurum" qaz kəmərlərinin, "TRASEKA" layihəsinin uğurla reallaşdırılması, nəhayət, "Bakı-Tbilisi-Qars" dəmiryolu xəttinin inşasına başlanılması Azərbaycanın qlobal iqtisadi proseslərdə iştirak imkanlarının yalnız üzdə olan hissəsidir.

Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan respublikamız bu məqsədlə təbii sərvətləri ilə yanaşı, əlverişli nəqliyyat-kommunikasiya imkanlarından da maksimum səmərəli istifadə edir. Bu gün Azərbaycanın iqtisadi imkanlarının artması onun özünü sərmayədar dövlətlərdən birinə çevirir. Respublikamızın milli şirkətləri, o cümlədən yerli sahibkarlarımız Türkiyə, Gürcüstan, Moldova və Orta Asiya respublikalarının iqtisadiyyatına investisiya yatırırlar. Türkiyənin nəhəng sənaye sütunu olan "Petkim"in və "Tekfen" Holdinqin səhmlərinin böyük bir hissəsinin ARDNŞ tərəfindən alınması da respublikamızın iqtisadi qüdrətinin bariz nümunəsidir. Bütün bunlar isə öz növbəsində Azərbaycanın iqtisadi qloballaşma proseslərindəki həlledici imkanlarını nümayiş etdirir.

Dünyanın inkaredilməz gerçəkliklərindən biri də budur ki, antiqlobalistlər məlum prosesin xalqların mental-əxlaqi dəyərlərinə, etnik özünəməxsusluğuna daha çox zərbə vurduğunu qeyd edir, mənəvi planda onu mənfi proses kimi qiymətləndirirlər. Hətta belə fikirlər də səslənir ki, qloballaşma iqtisadi sahədə nə qədər proqressiv xarakter daşıyırsa, mənəvi-ideoloji planda bir o qədər ziyanlıdır. Əlbəttə, belə fikirlərin real əsası var. Etiraf etməliyik ki, qloballaşma prosesləri pozitiv cəhətləri ilə yanaşı, həm də xalqların milli-mənəvi dəyərlər sisteminə qarşı yönəlib.

Qloballaşmanın əleyhdarları lokalizasiya adlanan prosesə rəvac veriblər. Bu gün qloballaşmadan ən çox ziyan çəkən milli mədəniyyət və digər milli dəyərlərdir. Çünki bu proses vahid dünya təsərrüfatı və iqtisadi sistemin yaradılmasından başqa, mənəvi, mədəni, siyasi, ictimai həyatın digər sahələrini də əhatə edir. Qərbin daha güclü strukturları elektron və digər kütləvi yayım vasitələrini işə salaraq, sözün həqiqi mənasında, xalqların milli-mənəvi irsinə qarşı, obrazlı desək, "səlib yürüşü"nə çıxırlar. Qərbin kosmopolit və universal "dəyərləri" ən mükəmməl, mütərəqqi sivilizasiya kimi, həm də cəlbedici şəkildə təbliğ edilir. Beləcə, milli mədəniyyətin, dilin, dinin, adət-ənənələrin sıxışdırılmasına və milli şüurun kosmopolitləşdirilməsinə cəhd göstərilir.

Bu proseslər fonunda, eyni zamanda, "güclünün zəifi əzməsi" kimi cəngəllik qanunu da işə düşür. Vaxtilə Taleyran deyirdi ki, "kimin döyüş meydanında informasiyası çoxdursa, o da qalibdir". Bir vaxtlar imperialist siyasət yeridərək zəif dövlətləri metropoliyaya çevirmək üçün hərbi zora əl atan dövlətlər indi də "mənəvi ekspansiya", mənəvi təcavüz yolu tutublar. Bu gün müəyyən dövlətlərin "qərbləşmə", "avropalaşma" adı altında yabançı dəyərləri yeni müstəqillik qazanmış xalqlara yeritmək cəhdləri özünü qabarıq göstərməyə başlayır. Görkəmli islam alimlərindən olan Yusif əl-Kərdavi yazır ki, "Müstəmləkəçiliyin növlərindən ən təhlükəlisi ideya müstəmləkəçiliyidir. O, torpaqları deyil, zehnləri zəbt edir, zəka isə toplardan deyil, qələmdən istifadə edir".

Təəssüf ki, belə mənfi təsirlər Azərbaycan gəncliyinin iradəcə zəif nümayəndələrinin həyata baxışlarına da təsirsiz ötüşmür. Nə gizlədək, Qərbin təsiri altında geyimini, həyat tərzini, imicini, hətta dilini dəyişməyə çalışan gənclərlə az qarşılaşmırıq. Neqativ meyillərin təsiri altında bəzi gənclərimiz narkotik vasitələrə, siqaretə, içkiyə və digər zərərli vərdişlərə meyillənirlər. Bəzi televiziya kanallarındakı qeyri-ciddi, şou xarakterli verilişlər də onların psixikasına mənfi təsir göstərir. Cənab İlham Əliyev belə bir mürəkkəb şəraitdə mənəviyyatlı və intellektual gəncliyin formalaşmasını milli-mənəvi intibah prosesində başlıca məsələlərdən sayır və bu sahəyə xüsusi diqqət yetirir. Təcrübə göstərir ki, normal ailədə böyümüş, düzgün tərbiyə, təhsil almış gəncin qurduğu ailə də möhkəm olur. Deməli, gənclərin erkən yaşlarından milli ruhda tərbiyə alması, yaxşı oxuması, bilikli, intellektli olması, işləmək, çalışmaq, karyera qurmaq vərdişlərinə yiyələnməsi ailənin monolitliyi baxımından vacib amillərdir.

Biz indi bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Kapital münasibətləri cəmiyyətin ümumi ruhuna, inkişaf harmoniyasına hakim kəsilib. Bazar iqtisadiyyatı şəraitində işgüzar insanların qanuni yolla varlanması, yaxşı yaşaması üçün daha geniş imkanlar var. Bacarıqlı, çalışqan insanlar öz potensiallarından istifadə edərək sosial təminatlarını yaxşılaşdırır, bizneslərini qururlar. Fikrimcə, bu cür imkanlı insanlar, iş adamları, səlahiyyət sahibləri öz övladlarının sağlam ruhda böyüməsinin, halal zəhmətə qatlaşmasının, aza qane olmasının qeydinə daha çox qalmalıdırlar. Təəssüf ki, bəzən zəhmət çəkmədən, oxumadan, gəlir əldə etmədən, sadəcə, valideyn hesabına yaxşı yaşamaq, bahalı maşın sürmək, malikanədə yaşamaq istəyən, meşşan həyat tərzinə meyilli olan, harınlayan gənclərə də rast gəlirik. Onlara elə gəlir ki, pulla bütün dəyərləri ala və sata bilərlər. Beləliklə ailə məsuliyyətini çəkməyə qətiyyən hazır olmur, evləndikdən sonra da valideynlərinin himayəsinə sığınırlar. Amma şükürlər olsun ki, belə gənclərin sayı ildən-ilə azalır. Azərbaycan gənclərinin böyük əksəriyyəti yaxşı dərk edir ki, müasirləşmə heç də milli-mənəvi dəyərlərdən uzaqlaşmaq, yabançı dəyərlərə tapınmaq demək deyildir. Bir məsələni də xüsusi vurğulamağa ehtiyac var. Müstəqillik tarixi o qədər də böyük olmayan Azərbaycan hələ ötən əsrin sonlarına doğru qloballaşma "qasırğası"na düşsə də, böyük tarixi şəxsiyyət Heydər Əliyevin müdrikliyi, uzaqgörən siyasəti sayəsində milli-mənəvi, dini dəyərlərini, çeşmə kimi saf dəyərlərini, adət- ənənələrini kənar təsirlərdən qorumağa nail olub. Ümummilli lider Heydər Əliyev 2000-ci il dekabrın 29-da - Yeni Əsr və Üçüncü Minillik münasibətilə xalqa müraciətində qloballaşmanın doğura biləcəyi mənfi fəsadlara da diqqət çəkirdi:

"Dünya inkişafının indiki mərhələsinin başlıca meyilləri mədəni inteqrasiya və qloballaşmadır. Əgər bəşəriyyət XX əsri elmi inkişafın nailiyyətlərinin yaratdığı xoş ümidlərlə qarşılamışdırsa, qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur. Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin perspektivləri hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin sabitliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı seçkiliyin aradan qaldırılmasına, xalqın rifah halının yüksəldilməsinə kömək etməlidir".

Bu siyasəti son 7 ildə inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev də milli-mənəvi irsin, milli mədəniyyətin və incəsənətin etibarlı hamisi kimi çıxış edir. Dövlət başçısı dəfələrlə bildirmişdir ki, hər bir xalqın özünəməxsusluğunu şərtləndirən amillər onun dövlətçilik ənənələri ilə yanaşı, həm də zəngin milli-mənəvi irsi, pak və ali dəyərləri, qlobal planda maddi və mənəvi mədəniyyət nümunələri əsasında müəyyənləşir. Qədim ənənələr, ritual və mərasimlər, mental baxışlardan qaynaqlanan mənəvi-əxlaqi normalar hər bir qədim etnosun milliliyinin, kamillik səviyyəsinin ifadəsi olmaqdan savayı, həm də bəşər sivilizasiyasına dəyərli töhfədir. Milli kimliyi ifadə edən dəyərlər eyni zamanda hər bir xalqın mənəvi sərvəti, toxunulmaz xəzinəsidir. Bu toxunulmaz sərvəti qorumaq, yaşatmaq, gələcək nəsillərə çatdırmaq isə hər bir azərbaycanlının borcudur.

Əsrlərin sınağından çıxmış mədəniyyətini, mənəvi dəyərlərini, adət-ənənələrini hifz etməyi bacaran Azərbaycan xalqı eyni zamanda ümumbəşəri mütərəqqi dəyərlərə tolerant münasibət bəsləyir, müasirliyə və yeniliyə can atır. Dövlət başçısı hesab edir ki, müasir dünyada qloballaşma proseslərinin nəticəsi kimi ortaya çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın milli-mənəvi və dini dəyərlərinin qorunması məsələsini çağdaş zamanın aktual məsələlərindən birinə çevirmişdir. Dövlət başçısı total mədəniyyətin mütərəqqi cəhətlərinin mənimsənilməsi tərəfdarı kimi çıxış etməklə yanaşı, xalqın özünəməxsusluğunu şərtləndirən milli və dini dəyərlərin qorunmasını da vacib məsələ kimi önə çəkir. Nazirlər Kabinetinin 2007-ci il noyabrın 22-də keçirilmiş iclasında çıxış edən Prezident İlham Əliyev milli-mənəvi dəyərlərin qorunmasını dövlət məmurları qarşısında da ciddi tələb kimi müəyyənləşdirmişdir: "Biz indi açıq cəmiyyətdə, azadlıq şəraitində yaşayırıq. Azərbaycanda bütün hüquqlar var. Azərbaycan xalqı bütün hüquqlardan istifadə edir. Heç bir məhdudiyyət yoxdur... Ancaq dövlət məmurları, vəzifəli şəxslər, onlar o etik qaydalara riayət etməlidirlər, bizə xas olmayan, mənfi, yabançı təsiri Azərbaycanda tətbiq etməməlidirlər. Bu, mənim dövlət məmurlarına tövsiyəm və onlardan tələbimdir. Dövlət məmuru, vəzifəli şəxs hər sahədə - işdə, ictimai işində və həyatda təvazökar olmalıdır. Əgər hansısa bir iş adamı, yaxud da başqa bir adam nəsə edirsə, bu onun öz işidir. O işləri görməklə özünü biabır edir və cəmiyyətdə gözdən salır. Bunu dövlət məmuru, vəzifəli şəxs edirsə, bu, artıq təkcə onun işi deyil. Bu, bütün dövlətə, idarəçiliyə, iqtidara şərəf gətirməyən hərəkətdir".

Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərlə bağlı fəlsəfi konsepsiyasına görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti milli dövlətçilikdir. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. İlham Əliyev hesab edir ki, dövlətçilik hisslərinə malik olmadan xalq öz milli dövlətini də inkişaf etdirə bilməz. Eyni zamanda, dövlət funksional imkanlarını işə salaraq xalqın milli-mənəvi dəyərlərinin və mədəniyyətinin qorunmasının təminatçısı qismində çıxış etməlidir. Milli dövlətçiliyin konkret mənəvi dəyərlər sistemi əsasında vahid məqsədə yönəldilməsi, xalqın tarixi yaddaş və mənəvi irsinin mühafizəsinə xidmət edən irimiqyaslı fəaliyyətin həyata keçirilməsi, milli ruhlu nəslin yetişdirilməsi, zəngin daxili aləmə malik azərbaycanlı obrazının bütün dünyada tanıdılması üçün zəruri olan qüvvə və potensialın səfərbər olunması cənab İlham Əliyevin dövlət başçısı kimi daim diqqət mərkəzində saxladığı məsələlərdir.

Möhtərəm Prezidentimizin bu sahədəki xidmətləri yalnız xalqın milli-mənəvi dəyərlərinə - mədəniyyətinə, ədəbiyyatına, folkloruna, incəsənətinə yüksək qayğı, diqqət nümunəsi kimi dəyərləndirilməsi bu fəaliyyətin gerçək miqyası üçün kifayət qədər dar çərçivə olar. Görülən bu işlər, sadəcə, qayğı və diqqət nümunəsi olmaqla məhdudlaşa bilməz. Bütün bunlar qədimlərdən bizə gəlib çatan müqəddəs mənəvi irsin gələcək nəsillərə əmanət edilməsi, qloballaşma dövründə azərbaycançılıq və türkçülük məfkurəsinin, əxlaqının, baxışlar sisteminin bütün dünyada təbliği, qəbul olunması üçün həyata keçirilən məqsədyönlü strategiyanın tərkib hissəsidir. Bu siyasət azərbaycançılıq ideologiyasını həyat tərzində, əxlaqda, mənəviyyatda, dildə, dində, ədəbiyyatda, bir sözlə, mənəvi mədəniyyətin bütün sahələrində istiqamətləndirici məfkurəyə çevirməyə xidmət edir. Azərbaycan Prezidenti hesab edir ki, xalqları milli-mənəvi ənənələr qədər birləşdirən ikinci qüvvə yoxdur. Azərbaycanlıları da vahid məqsədlər ətrafında birləşdirən məhz onların zəngin mədəniyyəti, mənəvi dəyərləri, adət-ənənələridir.

Xalqın da milli mədəniyyətinin yad təsirlərdən qorunması üçün, ilk növbədə, milli-mənəvi və əxlaqi dəyərlərin cəmiyyətdə tam intişar tapmasına, ictimai şüurda daha da möhkəmlənməsinə çalışmaq lazımdır. Azərbaycanda mədəni müxtəlifliyin təmin olunmasında, bəşəriyyətin nicatına, insanlığın yüksəlişinə xidmət edən nəcib və humanist dəyərlərin inkişafında Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın xidmətləri də xüsusi vurğulanmalıdır.

İnamla deyə bilərik ki, ulu öndərin ali ideyalarına tapınan, Azərbaycan Prezidenti İlham Əliyevin dövlətin inkişafı, qüdrətlənməsi naminə həyata keçirdiyi çoxşaxəli siyasətə töhfəsini verən Heydər Əliyev Fondu Azərbaycan xalqının milli mədəniyyətinin, milli-mənəvi dəyərlər sisteminin qorunmasında, habelə cəmiyyətdə saflıq, nəciblik, xeyirxahlıq kimi dəyərlərin təbliğində müstəsna xidmətlərə malikdir. Heydər Əliyev Fondunun prezidenti haqlı olaraq qloballaşmanın qarşısıalınmaz prosesə çevrildiyi, informasiya- kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi müasir dövrdə insani və mənəvi-əxlaqi dəyərlərin yad təsirlərdən qorunmasına daha çox ehtiyac olduğunu bildirir.

İqtisadi və geosiyasi plandakı bəzi pozitiv məziyyətlərinə baxmayaraq, qloballaşma ümumən milli-mədəni muxtariyyətə, suverenliyə, mədəniyyətə tuşlanmış təhlükəli silaha bənzəyir. Şübhəsiz, milli ideologiya da hər bir xalqın bu silahdan etibarlı şəkildə qorunması üçün bir növ möhkəm dəbilqə, sipər rolunu oynayır. Bu mənada, Azərbaycan xalqının da bəxti gətirib: ulu öndər Heydər Əliyev müstəqillik illərində azərbaycançılığın ayrı-ayrı komponentlərini vahid sistem halına gətirərək milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olub. Bu ideya ümummilli liderə xalqı öz ətrafında birləşdirmək, milli ideallar ətrafında səfərbər etmək imkanı yaradıb. Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində Azərbaycan dövlətinin qarşısında duran vəzifələri, onların Azərbaycan Respublikasına münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən təkmil konsepsiyadır. Ümummilli lider Heydər Əliyev milli-mənəvi dəyərlərimizin ümumbəşəri dəyərlərlə qovuşdurulmasına bütövlükdə qlobal məsələ kimi yanaşırdı və haqlı olaraq deyirdi ki, "Bu gün hər bir azərbaycanlının həm milli- mənəvi dəyərləri, həm də ümumbəşəri dəyərlərin mənəvi-əxlaqi mentaliteti onun ən böyük sərvətidir".

Azərbaycanın çağdaş fəlsəfi-siyasi fikrinin görkəmli tədqiqatçısı, Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev "Azərbaycançılıq - milli ideologiyanın kamil nümunəsi" əsərində qeyd etdiyi kimi, azərbaycançılıq xalqımızın çox əzab-əziyyətlər bahasına nail olduğu tarixi sərvətdir. Bu, ilk növbədə, real müstəqilliyə nail olmağın, vahid və bölünməz Azərbaycanın qorunub saxlanması və möhkəmləndirilməsinin siyasi əsasıdır. Bu gün azərbaycançılıq milli həyatın ahəngdarlığının, konfessiyaların dinc yanaşı yaşamasının təminatçısıdır. Ölkədə yaşayan bütün etnosların qardaşcasına qarşılıqlı əlaqəsi və təsirinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və gələcək müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə mübarizəsinin ümumi tarixi təcrübəsidir. Hörmətli akademik haqlı olaraq vurğulayır ki, azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi, demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapmışdır: "İdeologiya kimi azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfi-sosial doktrinasının sosiomədəni və etnik-geosiyasi cəhətlərini özündə birləşdirmişdir. O, qarşılıqlı dəstək, əməkdaşlıq və bərabərliyin mühüm əsasını təşkil edir. Bu deyilənlərdən görünür ki, ideya-nəzəri və siyasi baxımdan azərbaycançılıq və neokonservatizm bir-biri ilə sıx bağlıdır".

Qloballaşmanın doğurduğu mənəvi fəsadlar Azərbaycanın milli ailə modelinə də çox vaxt mənfi təsir göstərir. Qeyd edək ki, bu gün milli özünəməxsusluğunu yabançı Qərb dəyərlərinin dağıdıcı təsirindən qorumaq istəyən hər bir dövlət, ilk növbədə, cəmiyyətin təməli olan milli ailə institutunun tarixi ənənələr üzərində möhkəmlənməsinə çalışır. Hazırda xüsusən də Qərbdə - Avropa ölkələrində ailə institutunun zəifləməsi, bəzi hallarda tamamilə məhv olması ilə bağlı narahatçılığın güclənməsi məsələnin həyati əhəmiyyətini, aktuallığını bir daha nümayiş etdirir.

Zamanında Qərb ruhunda yetkinləşən alman filosofu Hegel "Estetika" əsərində yazırdı ki, "Biz Şərqdən gəlirik, ümumdünya tarixi Asiyadan Avropaya hərəkət edib. Şərqin ilkin şərti və zəmini isə ailəyə bağlılıqdır". Böyük mütəfəkkirin bu dahiyanə fikirləri tarixi reallıqlar fonunda tam təsdiqini tapır. Həqiqətən də Şərqdə ailə kultu mənəvi-əxlaqi normalar sisteminin daşıyıcısı kimi hər zaman üstün olub. Azərbaycana gəlincə, Şərq və Qərbin mədəniyyət təzahürlərinin tarixən qabarıq duyulduğu bu tolerant məkanda ailə institutunun monolitliyi həmişəki tək bu gün də qorunub saxlanılır. Milli ideologiyamızın - azərbaycançılığın mənşəyini də ailə kultundan kənarda təsəvvür etmək mümkün deyil. Milli ailə modelində azərbaycançılığın həm ilkin əsası, həm tarixən formalaşmış komponentləri real məzmun kəsb edir. Ailəyə bağlılıq azərbaycanlılarda tarixi kökdən, ənənələrdən, milli dəyərlərdən rişələnir.

Azərbaycan Prezidenti İlham Əliyev ailə dəyərlərinə qəlbən bağlı lider kimi Azərbaycanda bu institutun möhkəmlənməsinə, problemlərinin həllinə çalışır. Dövlət başçısı Nazirlər Kabinetinin 2009-cu ilin 1-ci rübünün yekunlarına həsr olunmuş iclasında demişdir: "Ailə və uşaq problemləri çox böyük əhəmiyyət daşıyır. Ailə dəyərləri xalqımız üçün həmişə çox doğma olub, çox əziz olub və deyə bilərəm ki, ailə dəyərləri, əslində, bizim milli dəyərlərimizdir. Azərbaycan dünya birliyinə inteqrasiya edir. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəklərdə olmalıdır".

Bu gün Avropa və Qərbdə ailə institutu ilə bağlı çox ciddi, çeşidli problemlərə rast gəlinir. Buna əsas səbəblərdən biri kimi "Kaliforniya sindromu" deyilən amil göstərilir. Qloballaşmanın nəticəsi olan bu dəhşətli sindrom insanların daha çox eqoistcəsinə davranmaları, rahatlıq və sərbəstliklərini daha çox düşünmələri, ailəni ikinci plana keçirmələri ilə nəticələnir. Qərbdə gənc oğlan və qızlar arasında erkən yaşlarından nikahdankənar münasibətlərin başlanması, habelə geniş vüsət alan "vətəndaş nikahı"nın az qala "müasirlik simvolu" kimi təqdim edilməsi cəhdləri ailə ənənələrinə ciddi zərbə vurur, boşanmaların çoxalması, doğuşun azalması demoqrafik problemlərin kəskinləşməsi ilə müşahidə olunur. Avropada "ailə institutu"nun sarsılması boşanma hallarının artması və demoqrafik problemin yaranması zəminində təzahür edir. Avropa Birliyinin statistika komitəsi olan "UROSTAT"ın hesablamalarına görə, Avropa Birliyi ölkələrində boşanmalar orta hesabla 40 faiz təşkil edir. Bunun əsas səbəblərindən biri də gender probleminin şişirdilərək feminizm səviyyəsinə çatdırılması, ailə münasibətləri fonunda fərdi şəxsiyyət azadlığının ziyanlı stereotip kimi qabardılmasıdır.

Qərblə Şərqin vəhdətində olan Azərbaycan məhz tarixən formalaşmış fundamental ailə dəyərləri ilə qloballaşma prosesinin bu mənfi təsirlərini özünə yaxın buraxmamağa çalışır. Xalqımızın tarixən formalaşmış mental keyfiyyətlərini, mənəvi-əxlaqi dəyərlərini bu gün də yaşadan azərbaycanlı gənci ailənin öz həyatında oynadığı müstəsna rolu düzgün dərk edir, nikaha girməyin, ailə başçısı olmağın məsuliyyətini dərk edir. Azərbaycan xalqının ailə modeli nəinki Qərbdə, həm Şərqdə unikal hesab olunan bir ailə modelidir. Ailədaxili münasibətlərin ciddi əxlaq normalarına söykənməsi - böyüklərə hörmət və ehtiram, kiçiklərə sevgi, mərhəmət və diqqət kimi ənənələr ta qədimdən bu günə kimi gəlib çatıb. Bu dəyərləri yaşatmaq, əslində, xalqın milli özünəməxsusluğunu qoruyub saxlamaq, mənfi meyillərə etibarlı müqavimət göstərmək deməkdir.

Qloballaşmanın mənfi fəsadlarından söz düşəndə nədənsə bir qayda olaraq Qərbdən gələn təsirlər önə çəkilir. Halbuki sivilizasiyaların qovuşduğu əlverişli məkanda yerləşən Azərbaycan bəzən Şərqin, o cümlədən müsəlman dünyasının mənfi təsirlərini də qabarıq hiss edir. Bu geosiyasi arealda təşkilatlanmış müəyyən dini-ekstremist qruplaşmalar zaman-zaman Azərbaycanı təbliğat məkanı kimi nəzərdən keçiriblər. Azərbaycanda müəyyən maraqlarını həyata keçirmək istəyən radikal dini qruplaşmaların neqativ meyilləri müstəqilliyin ilk illərində özünü çox ciddi problem kimi göstərirdi. Müxtəlif radikal-dini qruplaşmalar, missionerlər respublikamızda pozuculuq fəaliyyəti ilə məşğul olur, mövcud dini durumu gərginləşdirməyə çalışırdılar. Lakin ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbilə hakimiyyətə qayıtdıqdan sonra digər sahələrdə olduğu kimi, vicdan azadlığı sahəsində də vəziyyət kökündən dəyişdi. Ölkədə dini, milli, etnik münasibətlərin yüksək səviyyədə tənzimlənməsi, vicdan azadlığının tam bərqərar olması naminə ardıcıl tədbirlər həyata keçirildi. 1995-ci ildə Azərbaycanda ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyada hər bir ölkə vətəndaşının vicdan azadlığı birmənalı təsbit edildi.

Bu gün Azərbaycanda mövcud olan etnik-dini tolerantlıq hazırda bəzi inkişaf etmiş ölkələrə də örnək göstərilir. İnsan hüquqları üzrə ixtisaslaşmış beynəlxalq təşkilatların hesabatlarında Azərbaycanda müxtəlif dini sivilizasiyalar arasındakı münasibətlərin yüksək səviyyədə olduğu, dini azlıqların maraq və mənafelərinin qorunduğu razılıqla bildirilir. Bu ilin aprelində keçirilən Dünya dini liderlərinin Bakıda forumu bu reallığı bir daha təsdiqlədi.

Cənab İlham Əliyev son 7 ildə tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin dirçəldilməsi, xüsusən də dini ziyarətgahların əsaslı təmiri və yenidənqurulmasına da xüsusi diqqət ayırmışdır. Azərbaycan Prezidentinin islam mədəniyyəti nümunələri olan tarixi-memarlıq abidələrinin, məscidlərin, ziyarətgahların, müqəddəs dini sitayiş və inanc yerlərinin təmiri, bərpası ilə bağlı xüsusi sərəncamlar imzalaması və bu işi şəxsi nəzarətinə götürməsi deyilənləri bir daha təsdiqləyir. Son illərdə Bibiheybət, Təzəpir, Əjdərbəy və digər məscidlər əsaslı təmir olunmuş, onların təchizatına lazımi diqqət ayrılmışdır.

Azərbaycan Prezidentinin cəmiyyətin mühüm təbəqəsi olan dindarlarla mütəmadi görüşləri, onların dini-mənəvi ehtiyaclarına həssaslıqla yanaşması, dini bayram və mərasimlərdə şəxsən iştirak etməsi xalq arasında böyük razılıq və minnətdarlıqla qarşılanır, cəmiyyətdə etnik-dini dözümlülüyün təbliğində və təşviqində mühüm stimul rolu oynayır.

Azərbaycan xalqı sivil, demokratik və dünyəvi dövlət prinsiplərinə sadiq qaldığını bəyan edib. Respublikamızda din dövlət siyasətindən ayrıdır. Fəqət, respublikamızın bu konstitusion quruluşu səviyyəsində dini-mənəvi dəyərlərin inkişafı naminə atılan addımlarla, habelə xalqın qəlbində yer tapmış islami dəyərlərlə qətiyyən ziddiyyətə girmir. 70 illik totalitar sovet rejimi belə xalqın bu ülvi hiss və duyğularına hakim kəsilə bilməyib, onu öz milli-mənəvi, dini dəyərlərindən, adət-ənənələrindən ayıra bilməyib. 70-80-ci illərdə məhz Heydər Əliyevin himayəsi altında onlarca məscid tarixi abidə adı altında qorunub saxlanılıb, əsaslı təmir edilib, xalqa qaytarılıb. Bu siyasət bu gün də möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Fəqət, açıq demək lazımdır ki, son illərdə dini dəyərlərin təbliğində bəzi hallarda ifratçılığa, xurafata varma, dini ayinləri qəlbən dərk etmədən, imitasiya və görüntü naminə kor-koranə icra etmə, nəticə etibarilə islami dəyərlərin də mənəvi-əxlaqi təsir gücünün zəifləməsinə gətirib çıxarır.

Respublikamızda dini-mənəvi dəyərlərin təbliğində çox vaxt vicdanlı yanılmadan irəli gələn yanlış meyillərə, hansısa dini ayinin icrası ilə bağlı məcburetmə hallarına rast gəlinir. Hətta belə bir yanlış təsəvvür formalaşdırılır ki, guya qapalı geyim tərzinə malik insan daha əxlaqlı və tərbiyəli olur. Halbuki xalqımızın ən kamil əxlaqi, milli-mənəvi dəyərlərini sırf dini - sakral görüşlərlə bağlamaq düzgün olmazdı. Bu dəyərlər həm də bizim əsrlərdən bəri yol gələn folklorumuzda, etnik düşüncə tərzimizdə qorunub saxlanılır. Müstəqilliyin əldə edilməsi Azərbaycan qarşısında diktaturadan demokratiyaya, komanda iqtisadiyyatından sərbəst bazar iqtisadiyyatına, iki əsrlik işğalçılıq tarixi olan imperiyanın bir hissəsindən milli dövlətə çevrilmək, dünya miqyasında özünü təsdiq etmək kimi vəzifələr qoymuşdu. Şükürlər olsun ki, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi uğurlu təməl üzərində bu məqsədləri praktik surətdə gerçəkləşdirə bildik. Son 15 ildə iqtisadi sahədə həyata keçirilən islahatların başlıca qayəsini həm də dövlətsizləşdirmə prosesinin sürətləndirilməsi-iqtisadi cəhətdən güclü və müstəqil milli şirkətlərin yaradılması, insanların biznes təşəbbüskarlığının, özünüifadə imkanlarının artırılması, demokratik dəyərlərin ictimai şüurda möhkəmlənməsi kimi mühüm prinsiplər təşkil edib.

Bu konsepsiyanı uğurla davam etdirərək iqtisadi və siyasi islahatların uğurlu sintezinə nail olmuş dövlət başçısı İlham Əliyev də demokratik proseslərin davamlı şəkildə aparılmadığı hansısa dövlətin iqtisadi sahədə yüksək nəticələr əldə etməsini, beynəlxalq arenada layiqli yerini tutmasını, dünya təsərrüfat sisteminə inteqrasiyasını qeyri-mümkün sayır. Azərbaycan Prezidenti çıxışlarında dəfələrlə vurğulayıb ki, iqtisadi cəhətdən inkişaf etməmiş hansısa dövlətdə demokratikləşməyə və vətəndaş cəmiyyəti quruculuğuna yönələn cəhdlər uğursuzluqla nəticələnir. Cənab İlham Əliyev qeyd edib ki, demokratikləşmə və modernləşmənin fundamental şərti azadlıqdır. İnsanın tam azadlığı isə təkcə qanunun və hüquq qaydalarının deyil, həm də iqtisadi müstəqilliyin hökm sürdüyü cəmiyyətlərdə mümkün olur. Sosioloq Seymur Martin Lipsetin sözləridir - "Millət nə qədər varlı olsa, onun sabit demokratiyaya nail olmaq şansları da bir o qədər yüksəkdir".

Cənab İlham Əliyevin prezidentliyinin əsas konsepsiyası da məhz güclü iqtisadi bazanın yaradılmasından ibarətdir. Şübhəsiz, yalnız ölkənin iqtisadi cəhətdən güclənməsi, vətəndaşların maddi rifahının təmin edilməsi vasitəsilə cəmiyyətin mərhələli demokratikləşməsindən, keçid demokratiyasından möhkəmlənmiş, yəni, konsolidasiya olunmuş məkana transformasiyası barədə danışmaq olar.

İqtisadi modernləşmə və demokratikləşmə hər bir ölkənin milli inkişaf səviyyəsi ilə bağlı məsələ olduğundan bu iki təmayülü zorla hansısa dövlətdə sınaqdan çıxarmaq mümkün deyil. Daha dəqiqi, kənardan ixrac edilən demokratiya modelləri transformasiyalı cəmiyyətlərdə şəraitə uyğunlaşmağa heç də həmişə hazır olmur. Müasir dünyada demokratikləşmə prosesinin müəyyən universal tələbləri və meyarları olsa da, hər bir ölkənin özünəməxsus milli mentaliteti, tarixi, sosial-iqtisadi, siyasi və mədəni inkişaf xüsusiyyətləri, qeyri-bərabər başlanğıc imkanları nəzərə alınmalıdır. Bu gün Avropa dövlətlərində də eyni demokratiya modelinin mövcudluğundan danışmaq mümkün deyildir.

Akademik Ramiz Mehdiyev "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti" əsərində doğru olaraq yazır ki, bizə eyni vaxtda həm demokratiyaya, həm də bazar iqtisadiyyatına keçidi zorla qəbul etdirmək səyləri iqtisadi və siyasi dəyişikliklər arasında əsrlər boyu yaranmış qarşılıqlı əlaqələr modelini dəyişmək cəhdi, tarixi presedentləri olmayan eksperiment deməkdir.

Qloballaşma prosesləri şəraitində ictimai şüurda "həzm olunmayan" normalar hər bir xalqın mövcud həyat forma və strukturları ilə münaqişəyə girir. Son nəticədə cəmiyyət hətta mütərəqqi yeniliklərə də qeyri-adekvat münasibət bəsləməyə başlayır. Bəli, demokratik dəyərlər və modernləşmə strategiyası yalnız yüksək maddi rifah şəraitində özünə möhkəm ictimai dayaqlar tapa bilir.

Son illər vətəndaşlarımızın yaşayış tərzində, sosial rifah halında özünü qabarıq göstərməyə başlayan müsbət keyfiyyət dəyişiklikləri, hər bir hüquqi dövlətdə ictimai-siyasi sabitliyin başlıca təminatçısı sayılan orta təbəqənin - milli sahibkarlar ordusunun mövqelərinin ildən-ilə möhkəmlənməsi ümumbəşəri xarakter daşıyan demokratik-hüquqi normaların ictimai rəydə düzgün dərk olunmasına, qavranılmasına və qiymətləndirilməsinə əlverişli şərait formalaşdırır.

Azərbaycanın hazırkı sürətli iqtisadi inkişaf tempi cəmiyyətdə ictimai konsensusun əldə olunmasına, liberallaşmaya xidmət edən hüquqi-siyasi və demokratik islahatlar kursunun daha da genişləndirilməsini obyektiv zərurətə çevirir.

İmamverdi İsmayılov, Milli Məclisin deputatı
"Azərbaycan" – 2010 - 26 may -N 113.-S.4.

Azərbaycanın Diasporla İş Üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Latviyada konfrans keçirilib

Azərbaycan, Bakı, 26 may /Trend, müxbir K.Zərbalıyeva/

Azərbaycanın Diasporla İş Üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Latviyada konfrans keçirilib.

Komitənin mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, "Latviyada yaşayan azərbaycanlıların cəmiyyətə inteqrasiyasında diasporun rolu" adlı konfrans "Ocaq" Latviya - Azərbaycan Mədəniyyət Mərkəzi ilə birgə təşkil olunub.

Tədbiri "Ocaq" Latviya - Azərbaycan Mədəniyyət Mərkəzinin sədri, Latviya Təhsil Nazirliyi Məşvərət Şurasının sədri, Latviya Respublikası Prezidenti Yanında Milli Azlıqlar Üzrə Məşvərət Şurasının üzvü Roman Əliyev açıb. Azərbaycan Respublikasının Latviyadakı fövqəladə və səlahiyyətli səfiri Tofiq Zülfüqarov tədbir iştirakçılarını salamlayıb və konfransın işinə uğurlar arzulayıb. Latviya Parlamentinin deputatı Boris Tsileviç öz çıxışında Azərbaycanın iqtisadi və humanitar inkişafından, Ermənistanın Azərbaycan ərazisinin 20 faizini işğal etməsindən və qaçqınların problemlərinin müvəffəqiyyətlə həllindən danışıb. "Bunlar Azərbaycanın iqtisadi resurslarının düzgün istiqamətə yönəldilməsinin və Azərbaycan xalqının rifahı naminə görülən işlərin nəticəsidir", - deyə litvalı deputat bildirib.

O, Azərbaycanın Avropa Birliyinə inteqrasiyasını Litvanın hər zaman dəstəklədiyini deyib.

Deputat Oskars Kastens öz çıxışında bu il mayın 20-də Avropa Parlamentinin qəbul etdiyi qətnaməyə xüsusi diqqət çəkərək bildirib ki, bu sənəd Azərbaycanın Avropa Birliyi ilə əməkdaşlığı baxımından proqressiv mahiyyət kəsb edir. Deputat Avropa Birliyində, Belçika və Strasburqda yerləşən digər Avropa strukturlarında təmsil olunan Latviya nümayəndələrini Azərbaycanın mövqelərini daha fəal dəstəkləməyə çağırıb. Onun fikrincə, bu istiqamətdə Latviyada yaşayan azərbaycanlıların da həm Latviya Seyminin, həm Azərbaycan Milli Məclisinin deputatları, həm də digər müvafiq strukturlarla əməkdaşlığı vacibdir.

Latviya Ədliyyə Nazirliyinin nümayəndəsi İrina Vasilyeva "Ocaq" cəmiyyətinə, onun ölkənin ictimai-siyasi, mədəni həyatında fəallığına və keçirdiyi bu cür ciddi tədbirlərə görə minnətdarlığını bildirib. O, ölkədəki milli azlıqların, digər xaqların icmalarının yaratdığı təşkilatların fəaliyyəti haqqında da məlumat verib.

Latviya - Azərbaycan Cəmiyyətinin fəalları Eldəniz Medov, Adıgözəl Məmmədov və Aydın Əsgərov öz çıxışlarında bildiriblər ki, onların başlıca vəzifəsi həm Latviya vətəndaşları, həm də bu ölkədə yaşayan digər xalqlarla qarşılıqlı hörmət və tolerant şəraitdə yaşamaqdır.

trend@trend.az

26.05.2010

Lobbilərin və diasporların müharibəsi
Diasporumuz hər zaman erməni lobbisi ilə qarşı-qarşıya gəlməyə hazırdır

Son illər ölkəmizdə bir çox sahələr üzrə müsbət dəyişikliklərin və inkişafın şahidiyik. Bu cür inkişaf və tərəqqinin nəticəsidir ki, hazırda bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrimiz var. Belə müsbət əlaqələr sayəsində Azərbaycan haqqında həqiqət və nailiyyətlər dünya birliyinə olduğu kimi çatdırılır. Eyni zamanda ölkəmiz haqqında həqiqətlərin dünyaya çatdırılmasında diasporumuzun da rolu əvəzsizdir.

Uzun illərdir ki, İsveçdə yaşayan soydaşımız, hüquqşünas və www.azadtribun.net saytının yaradıcısı və rəhbəri Babək Azəri bildirdi ki, İsveçdə yaşadığı bu illər ərzində orda nəşr edilən mətbu orqanları daim izləyir və mütaliə edir: ”Mətbu orqanları izləməkdə məqsədim odur ki, ermənilər tərəfindən Azərbaycanla əlaqədar əgər bir xəbər və ya hər hansı bir hadisə ilə bağlı yerli mətbuatda məlumat dərc olunursa, mən o haqda bilim. Fikrimcə, ermənilərin İsveçdə güclü bir diaspor fəaliyyəti yoxdur. Əgər belə bir şey olardısa, biz onun əksinə informasiya vasitələrində görərdik. İsveçdə əsas problem erməni diasporu deyil. Əsas problem bundan ibarətdir ki, bəzi yerli siyasi qüvvələr dini və siyasi mülahizələrə görə ermənilərə və Ermənistana rəğbət bəsləyir və Ermənistanın xeyrinə informasiya vasitələrində məlumat yayırlar. Amma yaxşı hal bundan ibarətdir ki, azərbaycanlıların diaspor fəaliyyəti inkişaf prosesi keçirməklə formalaşır. Mən əminəm ki, bu fəaliyyətlər İsveç ictimai rəyinə Azərbaycanın nəfinə öz təsirin göstərəcək”.

Bəzi Qərb nəşrlərində Dağlıq Qarabağın müstəqil ölkə və ya Ermənistanın tərkib hissəsi kimi göstərilməsinə münasibət bildirən B. Azəri qeyd etdi ki, Ermənistan çalışır Qarabağı Ermənistanın tərkibində nişan verə, amma bu hədəfə çatmaq üçün məntəqədə və beynəlxalq miqyasda uyğun siyasi şərtlər lazımdır: ”Hazırda beynəlxalq şərtlər ermənilərin xeyrinə deyil. Qərb ölkələrində belə bir təmayül yoxdur ki, Orta Şərqdə ikinci İsrail yarana. Qərbdə gerçək siyasəti düşünən qüvvələr Qarabağ probleminin ədalətlə həll olunmasına maraq göstərirlər. Bunu da unutmayaq ki, əgər İranda ciddi siyasi dəyişikliklər baş versə, Cənubi Azərbaycan azadlığa çıxar, Qarabağın azadlığı Cənubi Azərbaycanın hərbi qüvvələrinin bir nömrəli problemi sayılacaq. Elə bu səbəblərə görə, dünya ictimaiyyəti Qarabağı Ermənistana bəxşiş etməkdə çox ehtiyatlıdır”. Birləşmiş Ərəb Əmirliklərində fəaliyyət göstərən Azərbaycan Cəmiyyətinin sədri Samir İmanovun fikrincə, erməni lobbisinin bu gün azəri və türklərə qarşı apardığı siyasət, yalan və təhrif edilmiş yazıları daha əvvəlki nəticəni vermir. “Belə ki, artıq Azərbaycan və türk alimlərinin və xaricdəki diaspor cəmiyyət və təşkilatların apardığı işlər ermənilərin daim yalan və öz xeyrlərinə dəyişdirilmiş məlumatları təbliğ etdiyini bütün dünyaya sübut edə bilir. Buna bir əyani misal kimi son bir neçə il ərzində BƏƏ-də yerli mətbuata verdiyim müsahiblərdə ermənilərin işğalçı, quldur olmaları, etdikləri vəhşiliklər konkret tarixi faktlarla qəzetlərdə dərc edilib. Ərəblərə və ərəb ölkələrində yaşayan digər xalqların nümayəndələrinə düzgün məlumat çatdırılıb, ermənilərin keçən əsrin əvvəllərindən başlayaraq yüz minlərlə dinc azərbaycanlını və türkü qətlə yetirməsi, Xocalı soyqırımı haqda dəqiq məlumat verilib.

Bunların təbii ki, yazılması adi insanlarda və dövlət rəhbərlərində ermənilərin 100 illərlə uydurduqlarının yalan olması haqda fikirlər yaradıb. ”S. İmanov qeyd edir ki, müxtəlif dövlət məmurlarının dilindən həqiqəti bilmədiklərini dəfələrlə eşidib. O, ermənilərin tarix boyu müsəlmanlara qarşı etdiyi vəhşilik və qırğınlardan çox yazılmadığından təəssüflənərək bildirir ki, media sahəsində işi gücləndirməli, daha güclü təbliğat maşınını işə salmalıyıq: “Osmanlı dövlətində (bütün tarixi arxiv və sənədlərdə göstərildiyi kimi) 1 milyon 300 min erməni yaşadığı halda, indi onlar 1.5-2 milyon ermənin qırılmasını (soyqırıma məruz qalaraq) iddia edirlər və təəssüf ki, bəzi Avropa dövlətləri bu məsələdə onları dəstəkləməyə çalışır. Bir çox tarixi mənbələrdə ermənilərin bizim bölgəyə əsir kimi gəldikləri göstərilir. Arnold Toynbi özünün “A Study of History” əsərində (Oksford 1963 il, səh 611) yazır ki, Böyük İskəndərin Anadoluya yürüşü zamanı ermənilər bu bölgədə dövlət şəklində deyil, İranın bir vilayətində icma kimi yaşayırdılar. Erməni tarixçiləri belə özlərinin haradan gəlməsinin köklərini dəqiq göstərə bilmirlər. Bəzi erməni alimləri onların eramızdan əvvəl 6-cı yüzillikdə Suriya və Kilikya torpaqlarında yaşayan hittilərdən olduqlarını, bəziləri isə Nuhun oğullarından olan Haykdan olduqlarını iddia edirlər. Göründüyü kimi erməni tarixçiləri öz kökləri haqda dəqiq bir fikir söyləyə bilmirlər. Belə olduğu halda ermənilərin hansısa bir əraziyə dövlətimiz və ya vətənimiz deməsi əsla düzgün deyil. Tarixi faktdır ki, ermənilər tarix boyu Makedoniya, Selevki, Roma, Parfiya, Sasani, Bizans, ərəb və türklərin hakimiyyəti altında yaşamışlar. Onların heç zaman tarixi vətənləri və dövlətləri olmayıb.” Daim “söz silahı” ilə düşmənə atəş açan İsveçdəki “Xəzər” Cəmiyyətinin sədri Leyla Kiyani deyir ki, erməni təbliğatının qarşısına Azərbaycan təbliğatı qoymaq lazımdır: “Amma məncə, bunu Azərbaycanda yaşayan jurnalistlər yazıb bizə göndərməlidir ki, (soyqırım və digər tarixi məlumatlar) biz də onu yaşadığımız ölkələrdəki mətbuata yerləşdirməyə çalışaq.” O, 1-2 il bundan əvvəl təsadüfən saytlardan birində İsveçdə bir erməni əsilli jurnalist-publisistin soyqırım mövzusunda çıxış edəcəyi barədə elan görüb: “Bu şəxsin məhz mən yaşadığım şəhərdə seminar verəcəyini biləndə sakit durmadım. Dərnək üzvlərimizə və digər türk dərnəklərinə xəbər verdim. 70 nəfərlik auditoriya yığışmışdı və burda isveçli jurnalistlər də var idi.

Faktlarla tariximizi (bu sözümə görə üzr istəyirəm) məruzəçinin "gözünə soxdum". O qədər onu sıxışdırdım ki, sonda göstərmək istədiyi filmi belə nümayiş etdirə bilmədən zalı tərk edib getdi. Sonra o adam İsveç mətbuatında bu barədə açıqlama verərək adımı yazmasa da, "bir azəri qadını mənim seminarımı bir-birinə vurdu" deyərək narazılıq etmişdi. Mən də təbii ki, onun yazdığı azəri qadını olduğuma görə, 1 ay müddətində onunla yazı mübarizəsinə girdim. Axırda dözə bilməyib məndən "onu rahat buraxmağımı" xahiş etdi." Leyla xanım bildirir ki, bu o qədər də böyük insident deyildi, amma damla-damla göl olar. Erməni lobbisinin güclü olduğu ölkələrdən biri də Kanadadır. Orada fəaliyyət göstərən Kvebek Azərbaycanlıları Assosiasiyasının (KAA) sədri Məsud Əliyev deyir ki, Kanadada ermənilərin düşmənçiliyinin nümunələrini tez-tez görürlər. Bildirir ki, Monrealda fəaliyyət göstərən CKDG-fm radiosunda Azərbaycan dilində həftədə yarım saatlıq proqrama başlayıblar. Bir-neçə verilişdən sonra ermənilərin təzyiqi ilə proqram "müvəqqəti" olaraq bağlanıb: "Ermənilər şikayət etdilər ki, biz verilişlərimizdə onlara qarşı "nifrət təbliğatı" aparırıq. Biz isə yalnız onların törətdikləri cinayətlərdən danışırdıq. Ermənilərin də bu radioda proqramları var və bizə qarşı çox şey danışırlar. Amma bizim aramızda ermənicə bilən bir adam yoxdur ki, onların dediklərini tərcümə etsin və biz də lazım gələndə gedib rəsmi orqanlara şikayət edək. Onlarınsa əksəriyyəti türk dilini anlayırlar."Norveç Azərbaycanlıları Gənclər Təşkilatının sədri Ramil Əliye isə bildirdi ki, erməni diasporu tərəfindən Azərbaycan-Qarabağla bağlı hələ ki Norveçdə hər hansı bir mətbu orqanda Azərbaycan əleyhinə elə bir ciddi təhriflərə yol verilmiş məqalə dərc edilməyib: "Ona görə ki, Norveç və Azərbaycan dost ölkələrdir. Eyni zamanda biz Norveç azərbaycanlıları olaraq, Norveçdə Azərbaycanla bağlı informasiya boşluğunu doldururuq. Qeyd edim ki, əksər hallarda ölkəmizə aid olan informasiya bizim tərəfimizdən yayıldığı üçün ətrafımızdakı insanların Azərbaycan reallıqları haqqında ətraflı və dolğun məlumatları var. Bu hal da ermənilərin və başqa təxribatçıların imkanlarını məhdudlaşdırır və gələcəkdə yarana biləcək hər hansı bir neqativ halın qarşısını alır". Ermənilərin Dağlıq Qarabağı Ermənistanın tərkib hissəsi kimi göstərilməsi faktı ilə Norveçdə hər hansı bir nəşrdə rastlaşmadığını deyən R. Əliyev qeyd etdi ki, belə bir hal yaransa, o zaman onlar bir sıra tədbirlər görəcəklər: "Bu kimi məsələlərlə bağlı təxribati məqalələr və şəkillər istənilən kiçik qəzet və s. yerlərdə verilə və nəşr edilə bilər. Təbii ki, bu cür təxribatlardan Norveç mətbuatı da sığortalanmayıb. Amma biz daim mətbuatı izləyirik, Azərbaycanla bağlı olaraq qərəzli yazılar olarsa biz onu araşdırıb öz reaksiyamızı göstəririk və bundan sonra da bu iş layiqincə edəcəyik". Əlbəttə, dünyanın bir sıra ölkələrində olduğu kimi, ABŞ-ın Hyuston şəhərində də erməni diasporu var, amma o qədər də güclü deyillər ki, ordakı mətbuatda Azərbaycanla və ya Qarabağla bağlı öz xeyrlərinə olan, ancaq yalnışlığa yol verilən məqalələr dərc etdirə bilsinlər" deyən Hyuston- Bakı Qardaşlaşmış Şəhərlər Assosiasiyasının sədri İradə Axundova bildirdi ki, Hyustona nisbətdə Los-Ancelesdə erməni diasporu və lobbisi güclüdür :"Hyustonda erməni diasporu fəal deyil, bu baxımdan da onların orda Azərbaycanla bağlı keçirilən tədbirlərə və görülən işlərə mane olmaq üçün öz yalnış fikirlərindən istifadə edə bilməyiblər. Biz buna heç vaxtda imkan verməmərik". "Tarixi təcrübənin müqayisə etsək, görərik ki, erməni diasporunun təcrübəsi və tarixi daha zəngindir, amma azəri diasporu yeni formalaşır. Eyni zamanda imkanlar fərqi var, bu da təcrübədən irəli gəlir"-deyən Diasporla İş üzrə Dövlət Komitəsinin Təbliğat, informasiya və analitik təhlil şöbəsinin müdiri Elşad Miraləm bildirdi ki, buna baxmayaraq bizim diaspor da qısa vaxt ərzində böyük yol keçməyə nail olub: "Bilirsiniz, bəzi ölkələr əsl həqiqətləri yox, eşitmək istədiklərini eşidirlər. Bu amil həm bizim diaspor fəaliyyətinə və həm də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına öz təsirini göstərir. Bütün bunlara baxmayaraq, hesab edirik ki, bizim diaspor elə bir gücə elə bir potensiala malik olmalıdır ki, biz öz həqiqətlərimizi dünya ictimaiyyətinə yüksək səslə çatdıra bilək". Lobbi quruculuğunun çox mürəkkəb və çox həssas məsələ olduğunu deyən şöbə müdiri qeyd etdi ki, hazırda dünyanın müxtəlif ölkələrində Azərbaycan diaspor təşkilatları fəaliyyət göstərirlər və Azərbaycanın təbliğatı ilə məşğul olurlar: "Amma onların lobbi quruculuğu istiqamətində konkret işlər görməsi üçün, bizim kifayət qədər potensialımız olmalıdır. Deyə bilərik ki, bu gün bizim bu potensialımız mövcuddur. İndi azərbaycanlılar yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştiraka və KİV-lə əməkdaşlığa, cəmiyyətə inteqrə etməyə çalışırlar. İndiyədək diaspor təşkilatlarımızın təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrindən Azərbaycana KİV nümayəndələri gəliblər. Azərbaycanla tanış olublar, qaçqın və məcburi köçkünlərin yaşadığı məkanlara gediblər. Bir çox diaspor təşkilatlarımızın bir sıra ölkələrin parlament üzvləri ilə əlaqələri var. Amma qarşımızda duran vəzifələrə nəzər yetirdikdə görürük ki, bu əlaqələr hələ o də qənaətbəxş səviyyədə deyil. Diaspor təşkilatlarımız elə sistemli əlaqələrə malik olmalıdırlar ki, bu əlaqələrdən istifadə edərək Azərbaycan həqiqətlərini daha effektiv şəkildə təbliğ edə və dünya ictimaiyyətinə çatdıra bilsinlər". Biz də ümid edirik ki, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diaspor təşkilatlarımız daha intensiv işləyərək və birləşərək Azərbaycan həqiqətlərini lazımi beynəlxalq təşkilatlara və dünya ictimaiyyətinə çatdıraraq düşmənlərimiz olan ermənilərin layiqli cavablarını verəcəklər.

Günay Əsədova, P.S. Bu yazı "Paritet" qəzetinin Prezident yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun dəstəyi ilə həyata keçirdiyi "Erməni terrorizminin ifşa olunmasına informasiya dəstəyi" layihəsi çərçivəsində dərc edilir. "Pari tet" – 2010 - 27-31 may.-N.53.-S.6.

«Xocalı ilə bağlı tədbirlərə 50-60 nəfər gəlir»

Azər Rövşən: "Almaniyada azərbaycanlılar ictimai fəallıq baxımından zəifdirlər»

«Keçirdiyimiz tədbirlər Diaspora Komitəsi və səfirlik üçün maraqlı olsaydı, diqqətlə yanaşardılar»

Almaniyada olarkən Hamburq Azərbaycanlıları Mədəniyyət Mərkəzinin rəhbəri Azər Rövşənlə də söhbətləşməyə imkan tapdıq. Onunla bu ölkədə yaşayan azərbaycanlıların durumu, təşkilatın gördüyü işlər, dövlətlə əlaqələri, problemləri, planları barədə söhbət etdik. Rövşən bəy soydaşlarımızın ictimai tədbirlərdə passiv olmasından gileyləndi. Eləcə də Almaniyadakı səfirliyimizin, Diaspora ilə İşi Üzrə Dövlət Komitəsinin fəaliyyətindən də narazı olduğunu söylədi. Azər Rövşənlə müsahibəni təqdim edirik.

- Azər bəy, 14 ildir Hamburqdasınız. Rəhbərlik etdiyiniz Hamburq Azərbaycanlıları Mədəniyyət Mərkəzi bu illərdə hansı işləri görüb?

- Əvvəla, mərkəz 2005-ci ildə Hamburqda rəsmi qeydiyyatdan keçib. Ona qədər mərkəz hər il Xocalı soyqırımı ilə əlaqədar müxtəlif səpkili tədbirlər düzənləyirdi. Biz çalışmamışıq ki, ermənilərin 1915-ci ildən bəri olan təbliğatlarını yalanlayaq. Yalnız heç də uzaq tarixdə olmayan 1988-ci ildən başlanan olayları, əsasən də Xocalı soyqırımını alman cəmiyyətinə çatdırmışıq. Hər zaman da türk diasporunun birləşdiyi Atatürk Mərkəzi ilə birgə çalışmışıq. Daha çox faciənin baş verdiyi gün - 26 fevralda küçələrdə tablolar yapmaqla, sdi-lər, alman dilində kitablar paylamaqla fəaliyyətimizi qurmuşuq.

- Bəs Almaniyada yaşayan azərbaycanlılardan istənilən dəstəyi almısınızmı?

- Etiraf etməliyəm ki, azərbaycanlılar ictimai fəallıq baxımından zəifdirlər. Bu yanaşmanın səbəbini tam anlaya bilmirəm. Ola bilər ki, bəzilərinin diqqəti daha çox biznesə, yaxşı yaşam qurmağa qarışıb, amma bunu izah etmək çətindir. Təsəvvür edin ki, Hamburqda 250 ailə yaşayırsa, tədbirlərimizə istənilən qədər soydaşlarımız gəlmir. Konkret olaraq, Xocalı ilə bağlı tədbirlərimizə təxminən 50-60 nəfər adam gələr. Mən bunu daha çox maliyyə problemləri ilə bağlayıram. Bilirsiniz, diasporadan yardım olmadığından özümüz ayaqda dayanmağa məcbur oluruq. Özünün də ayaqda dayanması üçün qapı-qapı gəzib aylıq kirayə və digər üzvlük haqları toplamalısan. Belə olanda isə azərbaycanlılar ictimai qurumlardan uzaq qaçırlar.

- Bəs Azərbaycanın Almaniyadakı səfirliyindən, yaxud Diaspora Komitəsindən sizlərə dəstək verirlərmi?

- Dəstək deyəndə Azərbaycanın tarixi, mədəniyyəti və son illərdə yaşadığı faciələri əks etdirən kitabları alırıq. Biz istəyirik ki, yaxın illərdə Hamburqun parklarının birində Xocalını xatırladan anma büst, yaxud başqa formada abidə qoyulsun. Hazırda Hamburq parlamentinə təqdim etmək üçün min beş yüzə qədər imza toplamışıq. Güman ki, parlament izn verəcək. Əgər müraciətimizə icazə verilsə, Azərbaycan səfirliyinə və ya Diaspora Komitəsinə abidənin qoyulması üçün yardım ayrılmasına müraciət edəcəyik.

- 2005-ci ildə təsis olunmuşunuz, bu illərdə səfirlik və komitə mərkəzlə maraqlanıbmı?

- Bu barədə danışmaq çətindir. Bilirsiniz, müraciət etmişəm ki, bizə yer almaqda yardım edin, cavab veriblər ki, bu cür məsələlərə baxmırlar. Səfirlik bizdən görəcəyimiz işlərin proqramını istəyib. Biz proqramı da yazıb göndərəcəyik. Ancaq yerimiz də olmalıdır ki, sərbəst iş görək. Düzdür, qeydiyyatdan keçən mərkəzə yer kirayə etmək olar, ancaq Almaniyada qiymətlər elə həddədir ki, bizim ona imkanımız yoxdur. Bütün hallarda həm komitə, həm də səfirlik üçün maraqlı olsaydı, diqqətlə yanaşardı. Əgər keçirdiyimiz tədbirlərə səfirliyin rəsmilərindən heç bir addım atılmırsa, hansı razılıqdan danışmaq olar? Bütün hallarda biz səfirliyimizin rəsmilərini tədbirlərimizə dəvət edəcəyik.

- Bəs Azərbaycan parlamentinin deputatları Hamburqda olanda Mədəniyyət Mərkəzinin üzvləri ilə görüşürmü?

- Fevralda Xocalı faciəsi ilə bağlı millət vəkili Qənirə Paşayeva Hamburqa gəlmişdi. Amma biz uydurma erməni soyqırımla bağlı yerli parlamentdə səsverməyə dəstək verən Haqqı Kəskinlə bir tədbirdə iştirak etdiyindən etiraz edərək qatılmadıq. Baxmayaraq ki, biz tədbiri təşkil edən Koordinasiya Şurasına əvvəlcədən məlumat vermişdik ki, Haqqı Kəskinin qatıldığı yığıncağa etiraz edirik. Bəlkə də Qənirə Paşayevaya bu barədə məlumat verməyiblər. Amma biz Qənirə xanımın gəldiyi nümayəndə heyətinə 28 fevralda keçirdiyimiz tədbirlə əlaqədar dəvətnamə göndərsək də, naməlum səbəblərdən qatılmadılar.

- Azər bəy, azərbaycanlılar Almaniyada daha çox hansı işlərlə məşğuldurlar?

- Kim iş tapırsa çalışır, qalanları hökumətin sosial yardımları hesabına dolanır. Bizim istəyimiz odur ki, buradakı azərbaycanlılar fəal olsunlar. Heç olmasa sabah məmləkətə dönəndə geriyə baxa bilsinlər. İkincisi gələnlərin əksəriyyəti Azərbaycandakı çətin yaşayışdan mühacir etdiyindən onları ictimai-siyasi məsələlər o dərəcədə maraqlandırmır.

- Bəs alman cəmiyyətinə inteqrasiya ola bilirlərmi?

- Bilirsiniz, Almaniyaya gələnlərə sərbəstlik o zaman verilir ki, vətəndaşlıq statusu alsın. Ancaq buna qədər övladlarını məktəbə qoymaq üçün bütün şəraitlər yaradılır, həm də valideynlərin yerli dili öyrənməsi üçün kurslara cəlb edirlər. Bütün hallarda Almaniyada vətəndaşlıq statusu almayana qədər müəyyən sıxıntılar olur. Bu sıxıntılar Avropanı sərbəst şəkildə gəzməkdə özünü büruzə verir. Bilirsiniz ki, Avropa Birliyinin üzv ölkələrində sərhədlər götürüldüyündən hər bir ölkənin vətəndaşı başqa ölkəyə getməkdə hər hansı problem yaşamaz. Ancaq çalışırıq ki, azərbaycanlılar alman cəmiyyətinə ciddi şəkildə inteqrasiya olsunlar. Bunun üçün yaxşı təhsil almaq hər şeydən vacibdir. Çünki Almaniyada savadlı insanlara hörmət hissi güclüdür, onlara bütün qapılar açıq olur.

- Bu illərdə Almaniyada Sizi daha çox heyrətləndirən nə oldu?

- Bunları saymaqla bitməz. Adi bir detal, Hamburq Avropada ən çox körpü olan şəhərdir, təsəvvür edin ki, Böyük Britaniya, Hollandiya və Fransa birgə götürülsə, Hamburq qədər körpüləri yoxdur. Buradan Azərbaycan kanallarında baxanda hansısa körpünün, yaxud ticarət mərkəzinin açılışında lentin kəsilməsinə, rəhbərlərin qatılmasına baxanda ironiya hissləri ilə dolu acı hisslər keçirirəm. Artıq dünyada belə şeylər yoxdur, yalnız geridə qalmış ölkələrdə bu cür hadisələrə rast gəlinər. Siz bir neçə gündür Hamburqdasınız, heç Merkelin portretinə rast gəldinizmi? Bilirsiniz belə məsələlər xalq tərəfindən anlaşılmazlıq kimi qarşılanır. Ona görə ki, siyasətçilər ictimai rəylə hesablaşırlar. Yaxud gördünüz ki, Hamburq parlamentində Azərbaycan jurnalistlərinin də ödül aldığı tədbirə giriş azad idi.

Təsəvvür edin ki, məktəbliləri kiçik yaşlarından parlamentə gətirib qanunverici orqanın tarixi ilə maraqlandırırlar. Onlara deyirlər ki, dərslərinizi əla oxuyun ki, gələcəkdə bu kreslolarda otura bilərsiniz. Bu əslində almanların ictimai-siyasi təfəkkürlərinin inkişafında bir addımdır. Gördünüzmü, parlamentin həndəvərində bir polisə rast gəldiniz, vəssalam. İkinci, deputatların əksəriyyəti iclaslara şəxsi avtomobilləri ilə yox, velosipedlə gəlirlər. Bu mənada Azərbaycanda da belə bir şəraitin yaranacağı arzusundayıq. Bütün hallarda azad ölkə və azad insanlar belə cəmiyyəti yarada bilirlər.

Natiq Cavadlı
“Bizim yol” – 2010 - 28 may - N 95.-S.7.

Kanadanın Toronto şəhərində Ontario əyalət parlamentinin binası qarşısında Azərbaycanın Dövlət bayrağı qaldırılmışdır

Kanadanın Toronto şəhərində Ontario əyalət parlamentinin binası qarşısında 28 May - Respublika Günü münasibətilə Azərbaycanın Dövlət bayrağı qaldırılmışdır. Tədbir Ontario əyalət parlamentinin üzvü Reza Moridinin təşəbbüsü və Torontoda yaşayan Azərbaycan icmasının dəstəyi ilə təşkil edilmişdir.

Bu münasibətlə keçirilən mərasimdə Azərbaycanın Kanadadakı səfirliyinin əməkdaşları, əyalət parlamentinin üzvləri, Türkiyənin Torontodakı baş konsulu və bu şəhərdə yaşayan Azərbaycan icmasının nümayəndələri iştirak etmişlər. Tədbirdə Azərbaycan səfirliyinin diplomatı, Ontario parlamentinin üzvləri və Türkiyənin Torontodakı baş konsulu təbrik nitqləri ilə çıxış etmişlər. Çıxışlardan sonra parlamentin binası qarşısında Azərbaycanın Dövlət bayrağı qaldırılmış və Dövlət himni səsləndirilmişdir. Mərasimdən əvvəl Azərbaycan səfirliyinin nümayəndəsini Ontario parlamentinin spikeri S.Peters qəbul etmişdir. Görüş zamanı Azərbaycan ilə Kanadanın Ontario əyaləti arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin inkişaf etdirilməsinin vacibliyi qeyd olunmuşdur.

Həmin gün Ontario parlamentinin üzvü R.Moridi parlamentin iclasında Azərbaycanın Respublika Günü münasibətilə bəyanatla çıxış etmişdir.

03 iyun 2010

Azərbaycan üçün azərbaycançılıq ideologiyası ilə!

1993-cü ildə hakimiyyətə qayıdışından sonra Heydər Əliyev sözün əsl mənasında Azərbaycan xalqının milli inkişafının ideya təməli ola biləcək konsepsiyanın - azərbaycançılığın banisi oldu.

Heydər Əliyevin azərbaycançılıq təlimində dövlətçiliyimizin və ideoloji düşüncəmizin tarixi kökləri, tarixiliklə müasirliyin nəzəri-təcrübi vəhdəti əsas yer tutur

Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı birləşdirən bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam".

Ümummilli lider Heydər Əliyevin bu kəlamı Azərbaycan təəssübkeşliyinin ən lakonik ifadəsidir - pafosdan, mübaliğədən, quru şüarçılıqdan çox-çox uzaq. Hey-dər Əliyevin bütün siyasi fəaliyyəti dövründə əsas məqsəd kimi uğrunda yorulmadan çalışdığı əsas ideya bu idi - vahid və bölünməz Azərbaycan ideyası, eləcə də bu ideyanın təməl prinsipi olan azərbaycançılıq. Və bu gün haqqında danışarkən fəxrlə işlədilən bölünməz Azərbaycan, azad və demokratik ölkə, azərbaycançılıq kimi qürur mənbəyi olan ifadələrin mənbəyi də, səbəbi də həmin düzgün və uğurlu siyasi kurs, təmiz və aydın vətənpərvər ideyadır.

Azərbaycançılıq ideyası zaman-zaman bir çox tarixi şəxsiyyət, istər siyasi, istər ictimai, istərsə də elm və mədəniyyət xadimlərimiz tərəfindən ön plana çəkildi. Bu, Cümhuriyyətin yaranmasından sonra daha aktual və mütəmadi olaraq meydana çıxan milli məsələlərdən birinə çevrildi. Bu mübarizələrin heç bir uğurlu nəticə verməməsi xalqın birlik və bərabərlik, bölünməz Vətən, müstəqillik ümidlərini söndürürdü. Zaman keçdikcə "haralısan" damarının toxumları cücərdi, boy atdı, budaqlandı. Azərbaycanlı olmaq, həmvətən olmaq, eyni millətin nümayəndəsi olmaq kimi müqəddəs hisslər müxtəlif bölgələrdən olma, yerlibazlıq düşüncəsinə məğlub oldu. Dövrün milləti parçalama siyasəti demək olar ki, uğurla tətbiq edilirdi. Azərbaycan xalqı hələ son dövrlərə qədər imperiyanın çürük siyasətinin töküntülərinin altından çıxa bilmirdi. Uzaq tarixi vərəqləməyək, elə müstəqilliyimizin ilk illərində ölkənin keçirdiyi dərin böhran təkcə Ermənistanın hərbi təcavüzü, Qarabağdakı erməni separatçılığı ilə bağlı deyildi. Hə-min dövrdə bütövlükdə respublikada milli-etnik ixtilaf, bölücülük tendensiyası, ayrı respublika ideyaları cücərməkdə idi və bəzi bölgələrdə özünü açıq-aşkar göstərirdi.

Lakin bütün bu mənfur niyyətlər niyyət, arzu olaraq ürəklərdə, plan olaraq kağızlarda qaldı. Xalqın "azərbaycanlıyam" hissi, milli birlik arzuları hər şeyə üstün gəldi. Çünki xalqın dili yaşayırdı. Onun hamıya doğmalıq və istilik gətirən, kin-küdurəti unutduran milli-mənəvi dəyərləri, humanizm məbədi olan dini, müqəddəs inancları, adət-ənənələri yaşayırdı. Çünki xalqın hər bir nümayəndəsinin özündən, öz soykökündən bir imza tapdığı musiqisi, incəsənəti, ədəbiyyatı, neçə minillik tarixi var idi. Çünki azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq, vahid Azərbaycanın ideya əsası, ölkədə bütün milli azlıqların, eləcə də böyük etnik birliklərin həmrəylik və anlaşma içində birgə yaşayışının tarixi təcrübəsi idi. Bu və digər bir çox digər səbəb, daha doğrusu, milli dəyərlər bütün siyasi planları pozdu. Onsuz da var olan bu müqəddəs birliyin və ali hisslərin sadəcə düzgün istiqamətləndirməyə və idarəetməyə ehtiyacı var idi. Bu idarəedicini də xalqın özü seçdi.

Birmənalı şəkildə qeyd etmək olar ki, bütün bu milli dəyər və hisslərin - azərbaycançılığın ümummilli ideya halına gəlməsi, dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil dövlətimizin ideya əsasına çevrilməsi məhz Heydər Əliyevin tarixi xidmətidir. 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Heydər Əliyev sözün əsl mənasında Azərbaycan xalqının milli inkişafının ideya təməli ola biləcək konsepsiyanın - azərbaycançılığın banisi oldu. Onun azərbaycançılıq təlimində dövlətçiliyimizin və ideoloji düşüncəmizin tarixi kökləri, tarixiliklə müasirliyin nəzəri-təcrübi vəhdəti əsas yer tuturdu. Bu isə azərbaycançılıq məfkurəsinin gələcəyə yönəlməsini, uğurlar qazanmasını təmin etdi.

Respublikamızda milli özünüdərk və milli-mədəni intibahın yüksəlişi Heydər Əliyevin hələ sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə başladı. Bu dövrdə Azərbaycan ədəbiyyatında, musiqisində, kinosunda, təsviri sənətində və digər sahələrdə xalqın ruhunu, tarixini, milli-mənəvi dəyərlərini təbliğ və tərənnüm edən çoxsaylı əsər meydana gəldi. Bu proses ulu öndər tərəfindən daim dəstəkləndi. Onun bu xalqı həm özünə, həm də dünyaya tanıtdırmaq üçün mədəni irsdən bacarıqla istifadə etməsi, onu xalqı irəli aparan, tarixdə yaşadan qüdrətli vasitə kimi dəyərləndirməsi prosesin prioritet istiqamətlərindən biri idi.

Ümummilli liderin alovlu, lakin cilovlanmış vətənpərvərlik hisslərinin və bun-dan qaynaqlanan uğurlu siyasətinin nəticəsidir ki, bu gün Azərbaycanın imzası dünyanın qabaqcıl dövlətlərinin imzaları içərisindədir, adı ən uğurlu inkişaf yolu keçən ölkələrin adları sırasında səslənir. Onun əsasını qoyduğu azərbaycançılıq iki təməl ideyanı - "dövlətçilik" və "vətənpərvərliyi" özündə birləşdirir.

Dövlətçilik mexanizmində hələ də onun ideyalarının işıqlandırdığı yollardan keçilir. Azərbaycançılığı realist milli inkişaf modeli kimi qəbul etmək və bundan bəhrələnmək müasir siyasi, mədəni, iqtisadi uğurların əsas mənbəyidir. Prezident İlham Əliyevin rəhbərliyi altında bu modelin - azərbaycançılığın ümummilli ideologiya olaraq möhkəmlənməsi istiqamətində dövlət siyasətinin bütün sahələrində ardıcıl addımlar atılır. Prezident Dünya Azərbaycanlılarının II qurultayında bunun əhəmiyyəti və perspektivləri haqqında danışarkən deyib: "Biz hər istiqamətdə çox sürətlə, düşünülmüş proqram və konsepsiya əsasında irəliləyirik. Mən istəyirəm ki, bu xalqın hər bir nümayəndəsinin həm Azərbaycanın dünyada təbliğ edilməsində, həm Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılmasında, həm də yaşadıqları ölkələrin ictimai-siyasi həyatında rolu daha da güclü olsun. Bu bizim mövqelərimizi möhkəmləndirir. Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük rəqəmdir. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək". Bu sözlər heç də yalnız söz xatirinə deyilən sözlər deyil. Azərbaycanın qüdrətli inkişafı, azərbaycanlıların dünya təhsil sistemində, elmində, eləcə də digər sahələrdə əldə etdiyi nailiyyətlər, diaspor təşkilatlarının, KİV-ləri, QHT-lərin gördüyü işlər, uğurları bu sözlərin hər birinin arxasında real işin, fəaliyyətin, gərgin əməyin durduğunun təsdiqidir.

Azərbaycançılıq ideologiyasının digər təməl prinsipi isə vətənpərvərlikdir. Vətən və xalq üçün görülən işlərin bu sahəsində çalışan insandan səmimi və isti münasibət, əsl vətən sevgisi, millətin dərdini duymaq, onun sevincini yaşamaq və paylaşmaq bacarığı tələb olunur. Azərbaycan üçün əsl azərbaycanlı kimi çalışmaq və davranmaq ən çox bu sahədə lazımdır. Hər bir siyasi oyundan və plandan uzaq olaraq, vətənə xidmət etmək. Musiqi ilə, incəsənətlə, mədəniyyətlə, milli olan hər bir dəyərimizlə, sahib olduğumuz bütün milli xüsusiyyətlərimizlə vətəni dünyaya tanıtmaq. Onu sərhədlərdən kənara, başqa ölkələrə, qitələrə, okeanın o tayına muğamı və segahı, xalçası, kinosu, neçə minillər bundan əvvələ dayanan tarixi abidələri, dilinin ən şirin şivələri ilə daşımaq. Dünyanın hansısa uzaq bir yerindən muğam səsinin gəlməsi - "Xanın səsinin havalanması". Bütün bunlar nə qədər qürurvericidirsə, bir o qədər də çətin və məsuliyyətli bir işdir.

Bu gün bütün dünyada gedən qloballaşma dünyanın dörd yanını bir-birinə bağlayır, o tayda baş verən olaylar qısa zaman ərzində bu tayda əks-səda doğurur. Təbii ki, belə olan halda Azərbaycanın qarşısında duran mühüm məsələlərdən biri qlobal inteqrasiya prosesində qabaqcıl dövlətlərlə ayaqlaşmaqdır. Lakin bu prosesdə milli əxlaq kodeksini pozmayaraq, xalqın milli "Mən"ini, soykökünü, tarixini, mədəni və milli zənginliyini layiqincə təmsil edərək, milli-mənəvi dəyərlərimizlə mütərəqqi dünya dəyərləri arasında bir sintez yaradaraq iştirak etmək vacib məqsədlərin birincisidir. Bu məqsədə aparan ana yol isə ölkənin milli inkişaf yolunun təmin edilməsindən, xalqın bütün təbəqələrini həmrəyliyinə şərait yaradan ümummilli ideyadan keçir. Azərbaycan tarixinin, mədəniyyətinin, xalqın böyük ədib və mütəfəkkirlərinin, alimlərinin və bunların birliyi nəticəsində bütövlükdə mədəni irsimizin beynəlxalq miqyasda tanıdılması bu məsuliyyətli işin mühüm tərkib hissəsidir. Bu barədə ölkə başçısı çıxışlarından birin-də bunları vurğulayıb: "Bu gün Azərbaycanın əsas prioritetlərindən biri milli adət-ənənələrimizin təmin olunması şərtilə dünya birliyinə inteqrasiya etməsidir. Biz müxtəlif dövrlərdə başqa-başqa dövlətlərin tərkibində yaşamışıq. Amma öz milli xüsusiyyətlərimizi itirməmişik. Nəyin hesabına? Onun hesabına ki, öz ana dilimizi, mədəniyyətimizi saxlaya bilmişik, ədəbiyyatımız inkişaf edib, milli ənənələrimiz qorunub saxlanılıb. Budur hər bir xalqın milli identifikasiyasını şərtləndirən əsas məsələlər".

Ən sevindirici hal isə odur ki, Azərbaycan üçün görülən işlər yalnız dövlət xətti, dövlət dəstəyi ilə aparılmır. Dövlət qurumları ilə bərabər, qeyri-dövlət təşkilatlarında da mühüm işlər görülür. Xüsusilə Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın bu istiqamətdə həyata keçirdiyi tədbirlər, Azərbaycan mədəniyyətinin, tarixinin təbliği, zəngin mədəni irsimizin beynəlxalq səviyyədə layiqincə təqdim olunması hər cəhətdən ölkəmizin beynəlxalq nüfuzuna, onun daha da möhkəmlənməsinə xidmət edir. Bütün bu işlər hər bir azərbaycanlıya örnək olmalıdır. Dünyanın harasında olmağımızdan, hansı məqsədə qulluq etməyimizdən asılı olmayaraq, Azərbaycan üçün əsl azərbaycanlı kimi nəsə etməyə çalışmaq və ya bunu etmək istəyən soydaşlarımıza dəstək vermək hər birimizin həyat şüarı, ən müqəddəs vəzifəsi olmalıdır. Vasitə fərqi yoxdur-diaspor təşkilatları tərkibində, tələbə qruplarında, internet bloqlannda, sərhəddə, təhsildə, tibdə, siyasətdə, elmdə bu xalqın, bu Vətənin adının ön sıralarda səslənməsi bu vətənin övladlarından-bizlərdən asılıdır. Vətən üçün vətən daşı olmağı gözə ala bilənlərdən, Azərbaycan üçün əsl azərbaycanlı kimi düşünən və çalışanlardan.

Elcan Salmanqızı Bu yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.
“Kaspi” – 2010 - iyun.-N.94.-S.12.

“Dağlıq Qarabağ probleminin həllində Türkdilli Dövlətlərin ictimai və diaspor təşkilatlarının dəstəyinin artırılması” layihəsi çərçivəsində beynəlxalq konfrans keçirilib

Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhərində “Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi” (ATXƏM) Türkiyə Uluslararası İlişkilər və Strateji Analizlər Mərkəzilə (TÜRKSAM) birgə “Dağlıq Qarabağ probleminin həllində Türkdilli Dövlətlərin ictimai və diaspor təşkilatlarının dəstəyinin artırılması” layihəsi çərçivəsində beynəlxalq konfrans keçirib. Tədbiri Azərbaycan Prezidenti Yanında QHT-lərə Dövlət Dəstəyi Şurası maliyələşdirib. Konfransın keçirilməsindən əsas məqsəd çağdaş Türkdilli dövlətlərdə fəaliyyət göstərən ayrı-ayrı türk xalqlarının diaspor təşkilatlarının, QHT və KİV təmsilçilərinin, ictimaiyyət nümayəndələrinin Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəbləri, bu münaqişənin ədalətli həll olunmasında qarşıya çıxan maneələr, onun Azərbaycanın iqtisadi inkişafına törətdiyi əngəllərlə bağlı məlumatlandırılması və bu qurumların diqqətini problemin həllinə yönəltməklə problemin beynəlxalq müstəvidə gündəmdə saxlanılması, onları problemin aradan qaldırılmasına səfərbər etməkdən ibarət olub. Beynəlxalq konfransda Türkiyədə fəaliyyət göstərən ictimai və diaspor təşkilatlarıyla yanaşı, millət vəkilləri, siyasi partiya nümayəndələri, Azərbaycanın Türkiyə Cümhuriyyətindəki Səfirliyinin əməkdaşları və münaqişələrin həlli sahəsində fəaliyyət göstərən analitiklər iştirak ediblər. Azərbaycan nümayəndə heyətinin tərkibində Diasporla İş üzrə Dövlət Komitəsinin təmsilçisi də konfransa qatılıb.

Konfransı giriş sözüylə açan TÜRKSAM başkanı Sinan Oğan tədbirin əhəmiyyətindən danışaraq bildirib: “Türkiyədə Dağlıq Qarabağ problemi ilə bağlı ilk dəfədir ki, hər iki qardaş ölkənin QHT-ləri belə bir formatda konfrans keçirirlər. Konfransın TÜRKSAM-da keçirilməsinin də böyük əhəmiyyəti var. Çünki TÜRKSAM-da bütün Türkiyədə fəaliyyət göstərən Strateji və Analitik Mərkəzlər bir araya gələrək, Koordinasiya Şurası yaradıblar. Ona görə də bu mərkəzdən çıxan hər bir sənəd beynəlxalq dairələrdə çox ciddi təsirə malik olur”.

ATXƏM-in sədri İlham İsmayılov öz çıxışında bildirib ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı problemi kökləri tarixin dərinliklərində və böyük güclərin bölgə ilə bağlı maraqlarında yatan, eyni zamanda ermənilərin “dənizdən dənizə böyük Ermənistan” xülyasından qaynaqlanan bir problemdir. İlham İsmayılov qeyd edib ki, indiyə qədər BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 822, 853, 874 və 884 saylı qətnamələr qəbul edib. Avropa Şurası Parlament Assambleyası (AŞ PA) 2005-ci ilin qış sessiyasında “ATƏT-in Minsk qrupuun məşğul olduğu Dağlıq Qarabağ münaqişəsi” adlı 1416 saylı qətnamə qəbul edib. Bu qərarlarda işğal edilmiş Azərbaycan ərazilərinin qeyd-şərtsiz və dərhal boşaldılmasının zəruriliyi vurğulanıb. 2008-ci ildə BMT-nin Baş Assambleyası “Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət” adlı qərar layihəsini müzakirə edərək, 9 bənddən ibarət qətnamə çıxarıb, Azərbaycanın ərazi bütövlüyünə dəstək verib. Lakin, Ermənistan hələ də beynəlxalq qurumların bu qərarlarına hörmət qoymur, öz işğalçılıq siyasətini davam etdirir. İ.İsmayılov deyib ki, Dağlıq Qarabağ probleminin ədalətli həlli üçün Azərbaycana beynəlxalq dəstək verilməsi vacibdir.

Konfransda Türkiyə Böyük Millət Məclisinin İnsan Hüquqları komisiyasının üzvü, millət vəkili Dr.Şenol Bal və BDU-nun professoru Musa Qasımlı da məruzə ilə çıxış edərək, Dağlıq Qarabağ probleminin həllində Türk xalqlarının vahid mövqe nümayiş etdirmələrinin zərurətindən danışıblar.

Konfransda “Ermənistan-Azərbaycan münaqişəsi barədə həqiqətlərin dünyaya çatdırılmasında diaspor və QHT-lərin əməkdaşlığı” mövzusunda məruzə ilə çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsi şöbə müdirinin müavini Elnar Məmmədov Ermənistanın ölkəmizə hərbi təcavüzünün nəticələri, Azərbaycan Respublikasının bu məsələdə tutduğu mövqe, Prezident İlham Əliyevin “Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və bu həqiqət heç vaxt dəyişməyəcək” bəyanatı barədə ətraflı məlumat verib, Türkiyə və Azərbaycan diaspor təşkilatlarının QHT-lərlə əməkdaşlığında bu məsələlərin nəzərə alınmasının zəruriliyini bildirib.

Azərbaycan Müəllif Hüquqları Agentliyinin əməkdaşı Araz Qurbanov, Türkiyə Strateji və Sosial Araşdırmalar Vakfı başkanı Şamil Ayrım və digərləri də çıxış edərək, problemin həllində bütün türk xalqlarının ortaq mövqedən çıxış etmələrinin əhəmiyyətini vurğulayıblar.

Konfransın sonunda 150-dən çox təşkilatın adından beynəlxalq ictimaiyyətə müraciət qəbul olunub.

01 iyun 2010

İsveç Azərbaycanlıları Konqresinin təsis qurultayı keçirilib

İyunun 5-də Stokholmdakı "Radisson Blue Royal Viking" otelinin konfrans salonunda 15 Azərbaycan diaspor təşkilatının iştirakı ilə İsveç Azərbaycanlıları Konqresinin təsis qurultayı keçirilib. İsveç Krallığında fəaliyyət göstərən bir neçə diaspor təşkilatımızın bu qurumu yaratmaqda məqsədi Azərbaycan həqiqətlərini, tarixini, mədəniyyətini yaşadıqları ölkənin ictimaiyyətinə çatdırmaq, Azərbaycan icmaları, cəmiyyətləri arasında əlaqələri inkişaf etdirmək, onların imkanlarını və güclərini səfərbər etmək, bu qurumların fəaliyyətini koordinasiya etmək, mövcud problemləri birlikdə həll etməkdir.

Qurultayda Azərbaycan Respublikasının İsveç Krallığındakı səfiri R.İbrahimov, Türkiyə və Gürcüstanın bu ölkədəki səfirliklərinin nümayəndələri, İsveç Türk Federasiyasının təmsilciləri, İsveç Krallığının Milli Azlıqlarla İş üzrə Dövlət qurumunun nümayəndəsi, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları iştirak ediblər. Tədbirdə, Azərbaycanın İsveçdəki səfiri R.İbrahimov, Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri İlham Məmmədov, İsveç Türk Federasiyasının sədri Hesen Dölek, İsveç Milli Azlıqlarla İş üzrə Dövlət qurumunun məsul işçisi Janne Holstrom çıxış ediblər.

Qurultayda İsveç Azərbaycanlıları Konqresinin İdarə Heyəti müəyyən edilib və Emil Mirzəyev Konqresin sədri seçilib.

05 iyun 2010

“Avstriya Atatürkçü Düşüncə Dərnəyi”nin təşəbbüsü ilə “Türk günü” bayramı qeyd edilmişdir

İyunun 6-da Vyanada “Avstriya Atatürkçü Düşüncə Dərnəyi”nin təşəbbüsü ilə “Türk günü” bayramı qeyd edilmişdir. Üçüncü dəfə qeyd olunan bayramda Avstriyada məskunlaşmış türklər, azərbaycanlılar və yerli sakinlər iştirak etmişlər. Bayram iştirakçıları Vyananın mərkəzində yerləşən Şvartsenberq meydanından yürüşə başlayaraq, şəhərin küçələrindən keçmiş, musiqi səsləri altında Türkiyə və Azərbaycanın bayraqlarını dalğalandırmış, onları maraqla seyr edən yerli sakinləri “Türk günü” bayramına dəvət etmişlər. İzdihamlı yürüş Vyananın Favoriten rayonundakı geniş idman mərkəzinə yetişdikdən sonra, burada bayram şənliyi davam etmişdir.

“Avstriya Atatürkçü Düşüncə Dərnəyi”nin sədri Erol Güclü açılış nitqində vurğulamışdır ki, belə tədbirlərin məqsədi Avropada yaşayan türklərdə birlik hissi aşılamaq, ölkə ictimaiyyətinə Avropa dəyərlərini qəbul edən çağdaş türk toplumunun varlığını göstərməkdir.

Bu bayramın eyni zamanda bütün türk xalqlarının həmrəyliyinin ifadəsi olduğuna toxunan natiq, bu kimi tədbirlərin yerli əhaliyə türkü daha yaxından tanımağa, zərərli stereotipləri məhv etməyə imkan yaratdığını söyləmişdir. E.Güclü qeyd etmişdir ki, böyük türk şairi Nazim Hikmətin dediyi kimi, Avropadakı türklər yerli əhali ilə „Bir ağac kimi tək və hürr, və bir orman kimi qardaşcasına yaşamaq“ arzusundadırlar. Daha sonar bayram tədbirində Türkiyənin müxtəlif bölgələrinə məxsus xalq rəqsləri nümayiş olunmuş, türk və Avstriya musiqi qrupları çıxış etmiş, uşaqlar arasında əyləncə xarakterli yarışlar keçirilmişdir.

Bayram tədbirində həmçinin Avstriyada fəaliyyət göstərən müxtəlif cəmiyyətlərin stendləri də maraqla qarşılanmışdır. Azərbaycan Akademik Birliyinin stendində Azərbaycanın Avstriyadakı səfirliyi tərəfindən təqdim edilmiş kitab, broşür və ölkəmizə həsr edilmiş digər informasiya materialları sərgilənmişdir.

06 iyun 2010

Rodhuspladsda “Anadolu Türk Günü” keçirilib

İyunun 7-də Kopenhagenin mərkəzi meydanı olan Rodhuspladsda “Anadolu Türk Günü” keçirilib. Tədbir Danimarkada yaşayan türklərin birliyini, tarixini, mədəniyyətini, qədim adət-ənənələrini yerli sakinlərə və şəhərin qonaqlarına tanıtmaq, nümayiş etdirmək məqdəsilə təşkil olunub. Danimarka parlamentinin türk üzvü Özgem Cekic tədbirə aparıcılıq edib. Rodhuspladsdakı mərasimdə bu ölkədəki türk icmaları ilə yanaşı Azərbaycan diaspor təşkilatlarından "Vətən" cəmiyyətinin, Danimarkadakı Azəri-Türk Qadınlar Birliyinin üzvləri iştirak ediblər. "Vətən" cəmiyyətinin sədri Səfər Sadiqi millət vəkili Özgem Cekicle söhbətdə türk və Azərbaycan diasporlarının birgə və əlaqələndirilmiş şəkildə fəaliyyət göstərməsinin zəruriliyi barədə fikir mübadiləsi aparıblar. Soydaşlarımız tədbir iştirakçılarına, qonaqlara Azərbaycanla bağlı kitablar və broşurlar təqdim ediblər.

Qeyd edək ki, bir həftə əvvəl həmin meydanda 28 May bayramı münasbətilə "Azərbaycan Günü" keçirilib. Tədbirdə Azərbaycanın Böyük Britaniya və Danimarkadakı fövqəladə və səlahiyyətli səfiri Fəxrəddin Qurbanov çıxış edib. "Azərbaycan Günü"ndə danimarkalılar və şəhərin qonaqları Azərbaycanın tarixi, mədəniyyəti və Qarabağ münaqişəsi haqqında məlumat əldə edib, Azərbaycanın milli geyimləri, musiqi alətlərini ilə tanış olublar. Onlara ölkəmizlə bağlı informasiya bülletenləri, kitabları, eyni zamanda Azərbaycan şirniyyatları təqdim olunub. Tədbirdə Danimarka Parlamentinin deputatı Tina Schon, "Xəzər" cəmiyyətinin sədri Leyla Kiani, "Qafqaz Evi" təşkilatının sədri İlyas Musayev, Danimarka Azəri-Türk Qadınlar Birliyinin sədri Anaxanım Hüseynova, Türk Gənclər Təşkilatının sədri Sərdar Taşpınar, Malmoda fəaliyyət göstərən "Azəri" cəmiyyətinin və “Azərbaycan Kültür Ocağının nümayəndələri iştirak ediblər.

07 iyun 2010

"Əsas məqsəd diasporumuzu hərəkətə gətirməkdir"

Tale Həsənov: "Diaspor strategiyasından lobbiləşmə strategiyasına keçməyin zamanıdır"

Yaşadığımız müasir dünyamız innovasiya və informasiyalar əsri olduğu üçün güclü dövlətlər, xalqlar bu vasitədən yararlanaraq mövqelərini gücləndirir, təsir imkanlarına malik olurlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev daim çıxışlarında qeyd etdiyi kimi, xaricdə fəaliyyət göstərən diasporumuz hücum strategiyasına keçməlidir, açıqlaması hər zaman mediada, ölkəmizlə bağlı keçirilən konfranslarda səslənir. Bu siyasətin uğurlu olmasını şərtləndirən əsas amil xaricdə fəaliyyət göstərən diaspor qurumlarımızın sistemli iş fəaliyyətinin qurulmasında keçir. Belə olan halda müasir sistemlərdən istifadə edib, ölkəmiz haqqında informasiya saytlarının yaranmasının zəruriliyi yaranır.

Bu günlərdə Avropa Azərbaycanlıları İnformasiya Mərkəzi adlı yeni sayt istifadəyə verildi. Sayt haqqında əlavə məlumat almaq üçün saytın baş redaktoru Tale Həsənovla etdiyimiz söhbəti oxucularımıza təqdim edirik.

- Tale bəy, istifadəyə verdiyiniz sayt haqqında oxucularımıza məlumat vermənizi istərdik.

- Öncə sizə öz təşəkkürümü bildirirəm, sayt haqqında maraqlandığınız üçün. Belə bir saytın istifadəyə verilməsi düşünürəm ki, diaspor sahəsində təbliğat metodunu gücləndirə bilər. Bu gün Azərbaycan dövlətinin elan etdiyi kimi, dövlətimizin xaricdə mövqeyi hücum strategiyasına əsaslandığı üçün belə bir saytın istifadəyə verilməsi lazımlı idi. Hazırda ölkəmiz haqqında həqiqətlərin düzgün çatdırılmasının ən əsas yolu bu yöndə saytlarımızın daha çox olmasından keçir. Bununla bərabər, sayt lobbiləşmə yolunda atılan ilk addımlardan sayılmalıdır. Saytda Azərbaycanın geniş tarixi, qədim dövlətlərimizin xəritələri, ədəbiyyatı, fəlsəfəsi, milli ideologiyası, milli mətbəxini özündə daşıyan zəngin kitabxana kataloqu var, həmçinin milli musiqilərimiz, son illər işğal altında qalan torpaqlarımızda viran edilən yurdlarımızın şəkilləri, ermənilərin məzarlıqlarımıza qarşı etdiyi barbarlıqları özündə əsk etdirən videogörüntülər, xarici ölkələrdə fəaliyyət göstərən diaspor qurumlarımızın rəhbərlərinin adları və ünvanları, ölkəmizin iqtisadiyyatı, turizmi haqqında geniş məlumatlar öz əskini tapıb. Olduqca unikal bir saytdır. Onu qeyd edim ki, saytı öz imkanlarımız daxilində qurmuşuq. Daimi olaraq da bundan sonra sayt sistemli şəkildə zənginləşdiriləcək, oxucularımızın istifadəsinə veriləcək.

- Sayt hansısa diaspor qurumunun nəzdində fəaliyyət göstərəcək?

- Sayt heç bir qurumla bağlı deyil, müstəqil fəaliyyət göstərəcək. Əgər sayt hansısa bir qurumun informasiya mərkəzi olarsa, onda o, obyektiv ola bilməz. Xaricdə fəaliyyət göstərən diaspor qurumlarımız haqqında informasiya yönümlü analitik yazılar və xəbərlər gedəcək. Yenə də əsas məqsəd diasporumuzu hərəkətə gətirməkdir. Xaricdə təhsil alan, yaşayan gənclərimizlə ünsiyyət qurmağa çalışacayıq və çünki diasporda gəncləri önə çıxartmağın zamanıdır. Burada təbii ki, söhbət ölkəsini sevən, intellektual səviyyəli gənclərimizdən gedir.

- Sizcə, belə saytın istifadəyə verilməsi ölkəmiz haqqında xaricdə təbliğatın güclənməsinə təkan verəcəkmi?

- Bilirsiniz, bu gün Azərbaycan haqqında hansısa bir informasiya saytı yaradılırsa, dünyada təbliğatımız güclənməsinə təkan verir. Bu, müasir informasiya dünyamızın əsas şərtidir. Əsas odur ki, belə saytlarımız işlək və müntəzəm olaraq informasiyalarla təmin olunsun. Müasir dünyamızda aparılan savaşların ana xəttində müasir texnologiyalardan düzgün istifadə etməklə hansısa nailiyyətlər qazanmaq olar. Xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımızın daha geniş şəkildə fəaliyyət göstərilməsini istəyirik. özü də bu, təsirli fəaliyyət olmalıdır. Daha reklam xarakterli olmasın. Sonradan bunun əziyyətini çəkirik. Həm də diaspor strategiyasından lobbiləşmə strategiyasına keçməyin zamandır. Bizim xaricdə güclü potensialımız var. Tələbə kontingentini də bura əlavə etsək, potensialımız artır. Əgər erməni diasporu başqa ölkələrin parlamentlərinə təsir edirlərsə, gec-tez bizim də belə bir güclü qurumlarımız formalaşmalı və sistemli mübarizə ilə hədəfə doğru getməliyik. Fikrimcə, sistemsiz görülən işlər, nəticə etibarilə bütün işlərimizə öz mənfi təsirini göstərir. Hər zaman bunun acısını yaşamışıq.

- Azerinfo.eu saytını digər saytlardan fərqləndirən amillər varmı? Yoxsa o da indiyə kimi yaranmış saytlardan fərqlənməyəcək?

-Gəlin, bu sualın cavabını oxucularımızın öhdəsinə buraxaq. Oxucularımızdan xahişimiz odur ki, saytımıza daxil olsunlar, daxil olan hər bir insan Azərbaycan haqqında geniş məlumatlar əldə edəcəklər.

Tale bəy, suallarımızı cavablandırdığınız üçün sizə öz təşəkkürümüzü bildiririk, gələcək işlərinizdə uğurlar arzu edirik.

- Mən də sizə və bütün həmkarlarınıza uğurlar arzulayıram.

Elnur Eltürk

" Təzadlar" – 2010 – 8 - 10 iyun -N 113/114.-S.12.

“Əsas məqsədimiz soydaşlarımızı bir araya gətirmək, Azərbaycanı təbliğ etməkdir”

Əli Nəsibov: “Bu işdə “İnternet radio”nun imkanlarından istifadə edirik”

Azərbaycan-Nyu-York Assosiasiyası (ANA)xaricdə fəaliyyət göstərən diaspor təşkilatı olaraq öz fəaliyyəti ilə seçilir. ANA sədri Əli Nəsibov “525”ə müsahibəsində təşkilatın fəaliyyət istiqamətləri barədə daha ətraflı danışıb.

– 1999-cu ildə məni alim olaraq dövlət tərəfindən Amerikaya dəvət etdilər və həmin vaxtdan etibarən Nyu-Yorkun Bruklin rayonunda yaşayıram. O vaxt orada azərbaycanlıların pərakəndə halda olduğunu görüb onları diaspor kimi bir yerə toplamaq qərarına gəldim. 2005-ci ildə soydaşlarımızla birlikdə Azərbaycan-Nyu-York Assosiasiyasını yaratdıq. Əsas məqsədimiz o idi ki, həm soydaşlarımız bir araya gəlsin, həm gənclərimiz arasında əlaqə yaransın, ailə qursunlar və xalqımız başqa millətin arasında əriyib getməsin. Bu bir faktdır ki, az sayda xalq başqa bir millətin arasına düşdükdə digər tərəfin təsirilə onun dili, mədəniyyəti, tarixi unudulur. Məhz bu məqsədlə assosiasiya yaratdıq ki, tariximizi, mədəniyyətimizi dünyaya tanıdaq və onlar bizim qədim tarixə malik dövlətimiz olduğunu bilsinlər. İndiyədək xaricdə ermənilər apardıqları təbliğatla bizi vəhşi, özlərini isə mədəni bir millət kimi təqdim ediblər. Biz də çalışırıq ki, bunun əksinə olduğunu, doğru tarixi onlara göstərək. Bilsinlər ki, ermənilər bu torpaqlarda yaşamayıblar və onlar buraya köçüb gəliblər, heç vaxt dövlətçilikləri olmayıb. Azərbaycan torpağı olan İrəvan xanlığında ilk dövlət yaradıblar. Onlar çox kiçik sayda xalq olsalar da, daim çalışıblar ki, türk xalqlarının torpağında özlərinə böyük dövlət yaratsınlar. Dünyaya da yaymağa çalışırlar ki, onlar qədim xalqdır və daim bu torpaqlarda yaşayıblar. Biz öz təbliğatımızda qeyd edirik ki, onlar Qafqaza gəlmə millətdirlər. Bütün mövcud əsaslar bizə bir cəmiyyət yaradaraq xalqımızı onun ətrafında toplamağa imkan verir.

– Assosiasiya tərəfindən hansı tədbirlər reallaşdırılıb?

– Bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri kimi 2005-ci il oktyabrın 18-də “bazar günü” məktəbi açdıq. Həftədə bir dəfə məktəbdə dərslər keçirilir, ana dili, tariximiz, mədəniyyətimizlə bağlı məlumat verilir. Hazırda məktəbdə tədris işi ilə Nyu-Yorkda yaşayan Azərbaycan dili müəlliməsi Münəvvər Vahabova məşğul olur. Orada yaşayan Azərbaycanın əməkdar rəssamı həmin məktəbdə uşaqlara dərs keçir və bu gün uşaqların hamısı ölkəmizin “Qız qalası”nı simvol olaraq çəkə bilərlər. 2007-ci ildə ilk dəfə olaraq Amerikada Azərbaycan qəzeti buraxdıq. Qəzet “Azərbaycan revyu” adlanır. İlk olaraq qəzeti Azərbaycan dilində nəşr etməyi düşündük, ancaq sonra bizim BMT-dəki nümayəndəmiz Aqşin Mehdiyev bildirdi ki, xaricilərə Azərbaycanı tanıtmaq məqsədilə onun ingilis dilində nəşr edilməsi daha məqsədəuyğun olar. Biz də bu fikirlə razılaşdıq və hazırda qəzetin 90 faizi ingilis dilində, kiçik bir hissədə isə Azərbaycan dilində son xəbərlər, məlumatlar öz əksini tapır. A. Mehdiyevlə belə qərara gəldik ki, 1000 nüsxə buraxılan qəzetin 500-ü BMT-dəki nümayəndələrə təqdim edilsin, qalanlarını isə pulsuz olaraq paylayırıq.

Qəzetdə öz əksini tapan məqalələrdən biri ermənilərin Qafqazda qədimdən yaşayan xalq kimi özlərini təqdim etməsi barədə idi ki, bununla bağlı da biz üç şəkil dərc etmişik. Səfir Qriboyedov İranda olarkən İran və Türkiyədən ermənilər Rusiya imperiyasına gətirib Azərbaycan torpaqlarında, xüsusən də Qarabağda yerləşdirməyə başladılar. 1978-ci ildə ermənilərin Qafqaza 150 il öncə gəlməsi münasibətilə heykəl qoydular. Həmin heykəlin üzərində də erməni dilində yazılıb ki, “İlk dəfə İrandan Qafqaza köçürülən ermənilərin 150 illiyinə həsr edilir”. Qarabağ münaqişəsindən sonra isə şəkildə görünür ki, həmin heykəli yox ediblər və orada ancaq park qalıb. Digər şəkildə isə biz həmin yerin qədim vəziyyətini təqdim etmişik. Biz faktlarla dünyaya göstərməyə çalışırıq ki, onlar tarixən burada yaşamayıb, heykəli dağıtmaqla sübuta yetirmək istəyirlər ki, onlar qədim Qafqaz millətidirlər. Bundan başqa assosiasiyamız tərəfindən Amerikada ilk dəfə olaraq “İnternet-radio” açılıb. Artıq 2 ildir ki, BMT-dəki nümayəndəliyimizin iştirakı ilə açılan bu radio fəaliyyət göstərir. Həftədə 2 dəfə olmaqla şənbə və bazar günləri 2 saat verilişlər təqdim olunur. Bir saat xəbərlər, sonra mədəniyyətimizlə bağlı veriliş, sonra musiqilərimiz yayımlanır. Azərbaycan dilində bu verilişləri təqdim etməklə çalışırıq ki, xalqımız öz mədəniyyətini unutmasın. Bazar günü həmin verilişlərdən sonra bir saat ancaq muğama həsr edirik. Muğam dünyada ən qədim musiqidir və xalqımız bununla fəxr edir. Bundan başqa iki ildir ki, biz cəmiyyətin tərkibində “Soydaş” adlı milli rəqs ansamblı yaratmışıq. Ansamblın rəhbəri Əməkdar artist Telman Cəlilovdur. İki qrupdan ibarət olan bu ansamblda milli geyimlərimizdən istifadə olunur. Diasporla İş üzrə Dövlət Komitəsi bu işdə bizə yaxından kömək etdi. Bizim ansambl çox yaxşı fəaliyyət göstərir.

– Qarşıda nə kimi layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulub?

– May ayının sonlarında “Türk yürüşü” olacaq və həmin tədbirdə də hər il bizim ansambl öndə gedir. Bu yürüş hər il bir dəfə Nyu-Yorkun mərkəzi küçələrinin birindən keçməklə təşkil olunur. Sonra isə parkda təşkil olunan tədbirdə hər türk xalqı öz mədəniyyətini təqdim edir. Bu tədbirdə DİDK-dən də nümayəndəmiz, xalqımız, ansambl iştirak edəcək. Digər bir planı da reallaşdırmağa çalışırıq və 6 ay öncə belə bir qərara gəldik ki, GUAM-a dəstək olaraq bir təşkilat yaradaq.

BMT-dəki nümayəndəmiz də bu fikri dəstəklədi və dekabrda gürcülər, ukraynalılar və moldovalıların cəmiyyətləri ilə birgə proqram hazırladıq. Hazırda Ukraynada yeni seçilən ölkə başçısının siyasəti ilə bağlı bir qədər gözləyirik. Ümumiyyətlə, bu təşkilat vasitəsilə çalışacağıq ki, Amerika GUAM dövlətlərinə köməyini əsirgəməsin. Hər il 28 May Respublika Günü ilə bağlı parkda tədbir keçiririk. Bu tədbir əsasən siyasi xarakterli deyil, mədəniyyətimizlə bağlı təşkil olunur. Müxtəlif xalqlar tərəfindən böyük maraqla qarşılanır. Bu il də bunu reallaşdırmağı düşünürük.

– Bu gün orada yaşayan ermənilər azərbaycanlıların fəallaşmasını necə qarşılayırlar?

– Onlar buna görə çox narahatdırlar. Hər il fevral ayının 26-da Ermənistanın BMT-dəki nümayəndəliyinin qarşısında Xocalı soyqırımına həsr edilən mitinq təşkil edirik. Polis tərəfindən verilən icazə əsasında iki saat davam edən bu aksiyada Xocalıda məhv edilən insanların hamısının adlarından ibarət siyahı hazırlayırıq və onu həmin nümayəndəliyin qarşısından asırıq. Oradan keçən hər kəsə göstəririk ki, bu bizim xalqımıza qarşı törədilən soyqırımdır. Ancaq onlar doğru olmayan "erməni soyqırımı"nı dünyaya çatdırmağa çalışırlar. 2008-ci ildə keçirdiyimiz Novruz tədbirinə bir neçə erməni gəlmişdi və biz onlara dəvətli olmadıqların bildirdik. Ancaq onlar bakılı olduqlarını bildirdilər, hay-küy salmağa başladılar və polis gəldi. Biz polisə başa saldıq ki, biz dəvət etmədən onlar özləri gəlib, indi də qarışıqlıq yaradırlar.

Ermənilər bunun müqabilində polisə bildirdilər ki, restoranın qarşısında Azərbaycanın bayrağı asılıb və bu düzgün deyil. Dövlət bayrağının asılması uyğun olmadığı üçün biz bayrağı götürdük, amma bu, ermənilərin növbəti təxribatı idi. Bundan başqa 23 fevralda Bruklinin ən böyük zallarından biri olan "Millenium" konsert zalında müharibə iştirakçıları üçün bayram konserti təşkil olunmuşdu və konsertdə SSRİ respublikalarından nümayəndələr iştirak etməli idi. Afişada Azərbaycan bayrağının altında bir erməni müğənninin adı yazılmışdı. Cəmiyyət üzvləri bununla bağlı mübarizə apararaq erməni adını çıxartdılar və iki nəfər orada yaşayan azərbaycanlı müğənni (Novruz və Samir) ilə "Soydaş" ansamblı iştirak etdi və böyük müvəffəqiyyət qazandılar.

– Digər diaspor təşkilatları ilə əlaqələriniz necə qurulub?

– Hələlik Nyu-Yorkda qeydiyyatda olan yeganə diaspor təşkilatı ANA-dır. Hər il biz türklərlə birgə aprelin 23-də Nyu-Yorkun mərkəzi meydanı olan "Times Square"də (Tayms Skver) yalançı erməni soyqırımı ilə bağlı tədbir keçiririk. Orada yerləşən meydanda tarixə aid xronikalar təqdim olunur, çıxışlar edilir. Bu çıxışlarda bizim diaspor daim ən aktiv olub bayraqlarla, şüarlarla çıxışlar edir. Broşürlər hazırlanır və tədbir zamanı maraqlanan vətəndaşlara təqdim edilir. Eyni zamanda biz çox vaxt dağ yəhudiləri ilə birgə işləyirik. Hətta onlarla birgə 2009-cu ildə "Diaspor ölkələri necə birləşdirir" mövzusunda konfrans keçirdik. Yəhudilər hər bir tədbirdə bizi, biz də onları dəstəkləyirik. Bundan başqa ilk dəfə Amerikada yaşayan Azərbaycan rəssamlarının sərgisini keçirdik. Bu kimi tədbirlərlə çalışırıq ki, gələcəkdə ölkəmizin təbliği istiqamətində əlimizdən gələni edək.

P. Sultanova
"525-ci qəzet" - 2010 - 10 iyun -N.103.-S.4.

“BUTA” Azərbaycan-Koreya Tələbə Təşkilatının internet səhifəsi (www.buta.kr) açılıb

Cənubi Koreya Respublikasında fəaliyyət göstərən “BUTA” Azərbaycan-Koreya Tələbə Təşkilatının internet səhifəsi (www.buta.kr) açılıb. Saytda təşkilata aid ümumi məlumatlar, xəbərlər, tədbirlər, elanlar və digər yeniliklərlə tanış olmaq mümkündür.

Xatırladaq ki, bu təşkilatın təsis konfransı 2009-cu il martın 21-də Cənubi Koreyanın Seul şəhərində keçirilib. Qurumun yaradılmasından əsas məqsəd Koreya Respublikasında təhsil alan azərbaycanlı tələbələrin təşkilatlanması, soydaşlarımız arasında milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi, Azərbaycan xalqının tarixi, müasir həyatı, sosial-iqtisadi inkişaf səviyyəsi, mədəniyyəti ilə bağlı məlumatların Koreya ictimaiyyətinə çatdırılmasıdır. “BUTA” Azərbaycan-Koreya Tələbə Təşkilatının sədri Koreyanın Gyeongsang Dövlət Universitetinin Beynəlxalq Münasibətlər İxtisası üzrə magistrı Eltay Aslanovdur.

11 iyun 2010

Alman- Azərbaycan Forumunun növbəti iclası keçirilib

İyunun 14-də Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzində Alman- Azərbaycan Forumunun növbəti iclası keçirilib. İclasda Azərbaycanın Almaniyadakı səfiri Pərviz Şahbazov, AAF-nun sədri, Azərbaycan Respublikasının Baden Vüttemberq torpağı üzrə fəxri konsulu Otto Hauser, eləcə də qurumun idarə heyətinin bütün üzvləri iştirak ediblər. Tədbirdə AAF-nun bu ilin I yarısında fəaliyyəti haqqında məruzə təqdim olunub, məruzə ətrafında müzakirələr aparılıb, bu cur tədbirlərin Almaniya ilə Azərbaycan arasındakı münasibətlərinin müxtəlif sahələrdə inkişafına müsbət təsirindən danışılıb.

Sonra iclasda 2010-cu ilin II yarımilliyi üçün nəzərdə tutulan tədbirlər planı təsdiqlənib. AAF-nin icraçı direktoru Pərviz Yazdani, Köln Ali Texniki İnstitutunun professoru Reza Talibi-Daryani, Potzdam Universitetinin professoru Vilfrid Furmann, qurumun İncəsənət və mədəniyyət şöbəsinin rəhbəri Samira Patzer-İsmayılova, CDU partiyasının təşkilati işlər üzrə direktoru Uli Roller və digərləri çıxış edərək Almaniya-Azərbaycan əlaqələrinin genişlənməsinə dair təkliflər irəli sürüblər.

14 iyun 2010

Murmansk şəhərindəki Azərbaycan diasporu 15 iyun - Milli Qurtuluş Gününə həsr olunmuş təntənəli tədbir keçirmişdir

AzərTAc xəbər verir ki, Rusiyanın Murmansk şəhərindəki Azərbaycan diasporu 15 iyun-Milli Qurtuluş Gününə həsr olunmuş təntənəli tədbir keçirmişdir. Murmansk Vilayəti İctimai Palatasının üzvü, Ümumrusiya Azərbaycan Konqresinin Murmansk bölməsinin sədri Afil Hüseynov yığıncağı açaraq ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda Azərbaycanda ictimai-siyasi sabitliyin bərqərar olmasında misilsiz xidmətlərindən danışmışdır. Natiq 1993-cü il iyunun 15-də ümummilli liderin hakimiyyətə qayıdışından əvvəl ölkədə hakimiyyət böhranının, hərc-mərcliyin hökm sürdüyünü, Azərbaycanın vətəndaş müharibəsi təhlükəsi qarşısında olduğunu diqqətə çatdırmışdır.

Tədbirdə çıxış edən ÜAK-ın regional bölməsinin rəyasət heyətinin üzvü Amil Vəliyev, iş adamları Şahin Kərimov, Yaqub Şükürov, Ramiz Məlikov, Murmansk vilayəti hökumətinin məsul işçisi Rimma Nikolayeva və başqaları Azərbaycan xalqının xilaskarı ulu öndər Heydər Əliyevin xidmətlərini diqqətə çatdırmışlar. Rusiya Azərbaycanlı Gənclər Təşkilatının Murmansk vilayəti üzrə nümayəndəliyinin rəhbəri, şəhərdəki Texniki Universitetin iqtisadiyyat fakültəsinin məzunu Vüsal İbrahimov ulu öndər Heydər Əliyevin gənc nəslin problemlərinə qayğı ilə yanaşmasından danışmışdır. Tədbirdə dahi azərbaycanlı, ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən film nümayiş etdirilmişdir.

16 iyun 2010

Ziqmund Freyd parkında milli mətbəx və musiqi nümunələrindən ibarət mədəniyyətləri tanıtma tədbiri təşkil etmişdir

Baş qərargahı Vyanada yerləşən "Mədəniyyətlərin dialoqu" Beynəlxalq İctimai Forumu şəhərin mərkəzindəki Ziqmund Freyd parkında 20-dən artıq ölkəni təmsil edən qeyri-hökumət təşkilatlarının iştirakı ilə milli mətbəx və musiqi nümunələrindən ibarət mədəniyyətləri tanıtma tədbiri təşkil etmişdir. YUNESKO-nun Mədəniyyətlər Dialoqunun Beynəlxalq Günü münasibətilə təşkil edilmiş tədbirdə ilk dəfə olaraq ölkəmizi Vyanada fəaliyyət göstərən Azərbaycan Akademik Birliyi təmsil etmişdir.

"Mədəniyyətlər süfrəyə dəvət edir" devizi altında keçirilən tədbirdə Azərbaycan üçün ayrılmış stend Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, Azərbaycanın Avstriyadakı səfirliyi, azərbaycanlı iş adamı Elnur Abdullayevin rəhbərlik etdiyi "Agro Team GmbH" şirkəti və Vyanada fəaliyyət göstərən "Qafqaz" xalça mağazasının dəstəyi ilə hazırlanmışdır. Mədəniyyətlərarası dialoqun təbliğinə xidmət edən bu tədbirdə Azərbaycan üçün ayrılmış guşədə milli xörəklər təqdim olunmuş, eyni zamanda müxtəlif kitab və broşürlər nümayiş etdirilmişdir. İştirakçı ölkələrin milli mətbəx nümunələrinin əks olunduğu kulinariya kitabına Azərbaycan xörəkləri də daxil edilmişdir.

21 iyun 2010

Beynəlxalq Qaçqınlar və Məcburi Köçkünlər Gününə həsr olunmuş tədbir keçirilib

Berlində Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin təşəbbüsü ilə Alman-Azərbaycan Həmrəylik Cəmiyyəti ilə birlikdə Beynəlxalq Qaçqınlar və Məcburi Köçkünlər Gününə həsr olunmuş tədbir keçirilib. Görüşdə Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Elnur Əliyev və Azərbaycanın Almaniyadakı Səfirliyinin 1-ci katibi Fikrət Axundov iştirak ediblər. Alman-Azərbaycan Həmrəylik Cəmiyyətinin sədri İsmayıl Əmikişiyev tədbiri açaraq qonaqları salamlayıb, belə bir tədbirin vacib əhəmiyyət daşıdığını vurğulayıb. AAKM-nin icraçı direktoru Samirə Patzer-İsmayılova isə Beynəlxalq Qaçqınlar və Məcburi Köçkünlər Gününün yaranma tarixi haqqında məlumat verib. O bildirib ki, 2000-ci il dekabrin 4-də Birləşmiş Millətlər Təşkilatının qərarı ilə 20 iyun Beynəlxalq Qaçqınlar və Məcburi Köçkünlər Günü elan edilib. 2001–ci ildə BMT-nın Qaçqınlar üzrə Ali Komissarlığının təsis edilməsinin 50 illik yubileyi qeyd olunub və Beynəlxalq Qaçqınlar və Məcburi Köçkünlər Günü də həmin tarixdən qüvvəyə minib.

Artıq 9 ildir ki, dünya ictimaiyyəti bu tarixi qeyd edir, bütün bəşəriyyətin problemi olan qaçqın və məcburi köçkün mövzusuna bir daha diqqət yönəldilir. S.Patzer-İsmayılova Azərbaycan diasporunun bu tarixi ilk dəfə qeyd qtdiyini də qonaqların qiqqətinə çatdırıb. DİDK-nin nümayəndəsi E.Əliyev öz çıxışında Azərbaycan tarixində 200 ildən artıq mövcud olan qaçqın və məcburi köçkün problemindən danışıb, bu problemi əks etdirən sarsıdıcı fakt və rəqəmləri açıqlayıb. O, həmçinin Azərbaycanda qaçqın və məcburi köçkünlərin problemlərinin həlli, həyat şəraitlərinin yaxşılaşdırılması sahəsində görülən işlər barədə geniş məlumat verib. Səfirliyin əməkdaşı Fikrət Axundov Almaniyada məskunlaşmış qaçqınların sosial problemlərinin həllindən söhbət açıb.

Qarabağdan, Ermənistan ərazisindən qacqın düşmüş və indi Almaniyada yaşayan cəmiyyət üzvləri öz mənəvi sarsıntılarını, Vətən həsrətlərini tədbir iştirakçıları ilə paylaşıb, üzləşdikləri problemləri açıqlayıb, eyni zamanda mövzu ilə bağlı qonaqlara suallar veriblər. Tədbirdə aparılan müzakirələrdə qaçqın və məcburi köçkün soydaşlarımızın taleyinə biganə qalmamağın, onların problemlərinin həllinə diqqət göstərməyin vacibliyi vurğulanıb. AAKM-nin rəhbərliyi Ermənistandan deportasiya olunmuş və Qarabağ müharibəsi zamanı ev-eşiyini, doğma torpağını itirmiş, indi Almaniyada yaşayan azərbaycanlılardan ibarət işçi qrupun yaradılmasını təklif edib. Çünki canlı şahid kimi məhz onların vasitəsilə Alman ictimaiyyətinə Azərbaycan həqiqətlərinin təqdim olunmasının əhəmiyyəti daha böyükdür.

23 iyun 2010

Estoniyanın «Radio-4» kanalında Azərbaycan dilində verilişlərin yayımına başlanacaq

Bu ilin payızında Estoniyanın «Radio-4» kanalında Azərbaycan dilində verilişlərin yayımına başlanacaq. Proqramın rəhbəri Tallində eston dili müəllimi işləyən, Azərbaycan Bazar Günü məktəbinin rəhbəri Sənəm Əliyevanın APA-ya verdiyi məlumata görə, ilk mərhələdə proqram həftədə bir dəfə yarım saat efirə çıxacaq. S. Əliyevanın sözlərinə görə, bu proqramı açmaq təşəbbüsü ilə 2 il əvvəl müraciət olunub, Estoniya radio və televiziya şirkətinin rəhbərliyi bu il layihəni təsdiqləyib, proqramın rubrikaları da təsdiq olunub: "Bu işdə bizə Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsi yardım edib. Hazırda Azərbaycan tərəfi ilə məsləhətləşmələr aparırıq".

S.Əliyeva bildirib ki, proqramda Azərbaycana aid xəbərlər, əsasən Dağlıq Qarabağ münaqişəsi, elm, mədəniyyət, təhsil sahəsi ilə bağlı xəbərlər, Azərbaycanın görkəmli şəxsiyyətləri haqqında verilişlər, "Bu maraqlıdır. Azərbaycan haqqında faktlar", "Azərbaycanın mədəniyyət və ədəbiyyat nümayəndələri" kimi rubrikalar olacaq. Hazırda Estoniyada 2 minə yaxın azərbaycanlının yaşadığını bildirən S. Əliyeva "Radio-4"-ün bir çox Avropa ölkələrinə yanlandığını, geniş dinləyici auditoriyasına malik olduğunu da qeyd edib. O, gələcəkdə bu radioda həm də eston və ingilis dillərində Azərbaycan haqqında məlumatları yaymaq arzusunun olduğunu da bildirib.

24 iyun 2010

Estoniyada “Azərbaycan radiosu” açmağı planlaşdırırıq

Sənəm Əliyeva: «Estoniya radio və televiziya şirkətinin rəhbərliyi layihəni və proqramın rubrikalarını təsdiqləyib»

Bu gün xaricdə yaşayan soydaşlarımız müxtəlif istiqamətlərdə fəaliyyət göstərməklə ölkəmizlə bağlı həqiqətləri çatdırmağa çalışırlar. Azərbaycanla bağlı informasiya bazasını genişləndirmək istiqamətində də bir sıra addımlar atılır. Bugünlərdə Bakıda səfərdə olan Estoniyadakı “bazar günü” məktəbinin rəhbəri Sənəm Əliyeva “Palitra”nın qonağı olarkən oradakı diasporumuzun fəaliyyəti, informasiya sahəsində həyata keçirilən tədbirlər barədə məlumat verdi:

- Mən 7 ildir ki, Estoniyada yaşayıram. Orada eston dilini öyrəndim, səviyyə imtahanları verdim və işləmək hüququ aldım. Beləliklə, eston məktəblərində, bağçalarında eston dilini tədris edirəm. Eyni zamanda Estoniyada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) işlərində yaxından iştirak edirəm. Eləcə də tərcüməçilik hüququ almışam və bu sahədə də fəaliyyət göstərirəm. Bundan başqa AMM-nin rəhbəri N. Hacıyev ilə bərabər Estoniyada “Azərbaycan radiosu” açmağı planlaşdırırıq. Bu layihə ilə bağlı Diasporla İş üzrə Dövlət Komitəsinə müraciət etdik və onlar da dəstək göstərdilər. Bu radio payızdan etibarən fəaliyyətə başlayacaq. Həftədə 1 dəfə yayımlanacaq verilişin eston, Azərbaycan və ingilis dilində yayımlanmasını istərdik. Ancaq hələki iki dildə reallaşdırmağı planlaşdırırıq. Radioda 6 bölmə üzrə verilişlər təqdim edəcəyik. İlk bölmədə həmin ay ərzində Azərbaycanda tarixi-xronoloji ardıcıllıqla baş verən hadisələr, sonra isə hər iki ölkənin mədəniyyət, incəsənət, təhsil, elm sahəsində xəbərlər təqdim olunacaq. Bundan başqa Azərbaycan haqda “Bu maraqlıdır” rubrikasında maraqlı faktlar, görkəmli şəxsiyyətlər barədə söhbət açılacaq. Sonda isə proqramı Azərbaycan ədəbiyyatı və musiqi nümunələri ilə bitirmək istərdik. Bu proqramı açmaq təşəbbüsü ilə 2 il əvvəl müraciət olunub, Estoniya radio və televiziya şirkətinin rəhbərliyi bu il layihəni və proqramın rubrikalarını təsdiqləyib. Onu da qeyd edim ki, “Radio-4” bir çox Avropa ölkələrinə yayımlanır, geniş dinləyici auditoriyasına malikdir. Estoniyadakı “bazar günü” məktəbinə soydaşlarımızın böyük marağı var. Hətta bəzən başqa millətin nümayəndələri də türk dili ilə bağlı, yaxın dil olduğu üçün bizə müraciət edirlər. Turist kimi Türkiyəyə səfərləri çox olduğu üçün həmin ölkənin dili ilə də maraqlanırlar. Bizim əsas məqsədimiz tariximizi, mədəniyyətimizi gələcək nəsillərə öyrətməkdir. Əyani vəsaitlərimiz çoxdur. Bakıdan lazım olan əyani vəsaitləri aparmışıq və mədəniyyətimiz, incəsənətimizlə bağlı çoxlu sayda plakatlarımız, bundan başqa çox böyük kitabxanamız var. Azərbaycan dövlət qurumları, Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi ilə əlaqələrimiz var və onlar lazımi dəstəyi göstərirlər. Mən hazırda orada bağçada uşaqlara dərs keçirəm. Ümumiyyətlə, Estoniyada uşaq bağçalarında mexanizm bizim ölkədən fərqlənir. Orada mexanizm əsasən tədris prosesidir, müəllim və köməkçi çalışır. Yalnız uşaqlarla deyil, valideynlərlə də işləyirik və həftədə iki dəfə valideynlərin qəbul günləridir. Uşaqlara əsasən eston dili, ətraf mühit, təbiətə, insanlara münasibət öyrədilir.

- Estoniyada yaşayan soydaşlarımız ölkəmizlə bağlı reallıqların çatdırılması istiqamətində hansı addımları atır?

- Estoniyada yaşayan soydaşlarımızla çox sıx əlaqələrimiz var. Hətta bayramları, toy mərasimlərini birlikdə qeyd edirik. Demək olar ki, bu gün Estoniyada üçüncü nəsil yaşayır və həqiqətən də estonların azərbaycanlılara çox böyük hörməti var. Azərbaycan adı gəldikdə çox müsbət fikirlər söyləyirlər. Hətta mən çalışdığım kollektivdən bir neçə nəfər eston Azərbaycana gəlib. Gəlmək istəyənlərin sayı daha da artır. Bakının çox gözəl şəhər olduğunu bildirirlər. Azərbaycan Mədəniyyət Günləri təşkil etməklə yanaşı milli mətbəximizi də təqdim edirik, musiqi günləri keçiririk. Bacardığımız qədər Azərbaycanı təbliğ edirik ki, buna da orada tam imkan yaradılır. Onlar Qarabağ münaqişəsi ilə əlaqədar hadisələri tam dəqiqliyi ilə bilmirdilər. Mən bacardığım qədər məlumatları çatdırıram, eyni zamanda onlar istər-istəməz azərbaycanlılarla tanış olduqdan sonra xalqımızın səmimiliyini görürlər. Ermənilər tərəfindən bizim haqqımızda informasiyalar tam başqa cür verilir və bizi işğalçı kimi təqdim edirlər. Biz Qarabağla bağlı faktları açıqlayırıq, plakatlar təqdim edirik. Hətta Estoniyada keçirilən parlamentlərarası konfransda çıxışında litvalı deputat bildirdi ki, Xocalı ilə bağlı filmə baxdıqdan sonra bir neçə gün yata bilməyib. Bu soyqırım onu dəhşətə gətirib. Oradakı diaspor təşkilatlarımız müxtəlif tədbirlər keçirirlər. Son tədbirlərdən biri mayın 27-28-də Tallin şəhərində Estoniya-Azərbaycan Mədəniyyət Mərkəzi və Estoniya-Azərbaycan Dostluq Qrupu birlikdə “Azərbaycanın Avropaya İnteqrasiyasında Baltikyanı ölkələrin rolu” mövzusunda konfrans oldu. Tallində həmçinin 28 may Respublika Gününə həsr olunmuş sərgi də açıldı. Konfransda Litva, Latviya və Estoniyanın dövlət nümayəndələrinin, parlament üzvlərinin, Azərbaycanın Baltikyanı dövlətlərdəki diplomatik korpuslarının təmsilçiləri, Baltikyanı ölkələrdəki Azərbaycan icmalarının üzvlərinin, yerli ictimai təşkilatların, eləcə də Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak edirdi. Bir sıra məsələlər, o cümlədən Qarabağ məsələsi müzakirə olundu.

- Milli azlıqlarla əlaqələr hansı səviyyədədir?

- Mən orada Milli Azlıqlarla İş üzrə İnteqrasiya İdarəsində də çalışıram. Burada isə milli azlıqlarla bağlı qərarların qəbulu ilə bağlı işlər aparılır. Orada yaşayan milli azlıqlarla soydaşlarımızın çox yaxşı münasibətləri var. Rusiya Mədəniyyət Mərkəzi ilə yaxşı əlaqələr qurulub. Estoniyada Azərbaycan Mədəniyyət Günləri keçirildikdə digər xalqlar da gəlib iştirak edirlər. Gürcüstan, Ukrayna, Dağıstan, Belarus xalqları ilə yaxşı münasibətlərimiz var. Keçirilən tədbirlərdə qarşılıqlı olaraq iştirak edirik. Ermənilər bizim tədbirlərə açıq şəkildə qarşı çıxa bilmirlər, bizim geniş fəaliyyətimizi də bəyənmirlər. Milli azlıqların nümayəndələri bizə çox inanırlar və hətta bəzən özləri də etiraf edirlər ki, ermənilər hər şeyi öz adlarına yazan bir millətdir. Ermənilər mətbəximizi belə öz adlarına çıxmağa çalışırlar. Məsələn, milli mətbəximizə aid olan dolmanı özlərininki kimi təqdim etsələr də, mən orada estonlara anlatdım ki, bu sözün kökü türk sözüdür. Onlar bu reallıqlara inanırlar. Məsələn, mənim haqqımda eston qəzetlərinin birində məqalə çıxanda ermənilər şərhlər vermişdi. Hətta eston televiziyasında estonlar bildirmişdi ki, bu məqaləyə verilən şərhlər yəqin ki, ermənilərə məxsusdur. Bizim müvəffəqiyyətlərə əlbəttə ki, sevinmirlər. Mən bir neçə dəfə eston televiziyasında çıxış etmişəm. Bu yaxınlarda Azərbaycanın ölkə başçısı Estoniyaya səfər etmişdi. Həmin ərəfədə də mən televiziyada çıxış etdim və bizi orada çox yaxşı tanıyırlar. Qarabağla bağlı fikirlərə gəldikdə isə biz hər çıxışımızda müharibə ilə əlaqədar geniş fikirlər səsləndirməyə ixtiyarımız yoxdur. Bu istiqamətdə yuxarı dairələr siyasi danışıqlar aparırlar. Biz isə sadəcə həqiqətləri çatdırmağa, azərbaycanlılarla bağlı yaradılan yanlış fikirləri düzəltməyə çalışırıq.

- Estonlarla azərbaycanlıların oxşar və fərqli cəhətləri hansılardır?

- Mənim estonların ən çox bəyəndiyim xüsusiyyətləri onların ana dilinə olan rəğbətidir. Bəlkə də azsaylı xalq olduqları üçün dillərini itirməkdən qorxurlar. Estonlar yaxşı xalqdır və hər kəsə daxili mədəniyyətinə görə hörmətlə yanaşırlar. Bizdə isə bəzən idarələrə daxil olduqda rus dilində danışmağa üstünlük verirlər. Sanki bəzən rus dilində danışmağı özlərinə şərəf bilirlər. Mən rus, türk, eston, ingilis dillərini bilsəm də hər zaman Azərbaycan dilində danışıram. Ailədə övladlarım da orada yaşamasına və bir neçə dil bilməsinə baxmayaraq mən onlarla başqa dildə deyil, ana dilində danışıram. Orada yaşayan soydaşlarımızın müsbət cəhətlərindən biri də odur ki, Azərbaycan dilini uşaqlarına öyrədirlər. Oxşarlığa gəldikdə hərflərin səslənməsi uyğun gəlir. Bir də maraqlı faktlardan biri, adların oxşarlığıdır. Həmçinin bizim xalqımız kimi onlar da rəhmlidirlər. Fərqlərə gəldikdə isə xaraktercə almanlara bənzəyirlər. Sakit və dəqiq millətdirlər.

- Orada yaşayışla bağlı soydaşlarımızın problemi varmı?

- Orada 2 minə yaxın azərbaycanlı yaşayır. Yaşayışla bağlı heç bir problem yoxdur. Uşaqları eston məktəblərinə qəbul edirlər, eyni zamanda gimnaziyalar var və heç bir xalqa fərq qoyulmur. Vətəndaşlıq almaq istəyəndə Estoniyanın konstitusiyasından imtahan verirlər. İki sistem işləyir, yəni yaşayış icazəsi almaqla yaşamaq olur.

Həyata keçirilən tədbirlərdən biri də odur ki, Tallin şəhərində "Azərbaycanlılar" kitabının təqdimatı oldu. Həmin tədbir yüksək səviyyədə keçdi, bu barədə qəzetlər yazdı, bir neçə televiziya kanalında nümayiş olundu. Silsilə olaraq buraxılan bu kitabın hər sayı bir xalqa həsr edilir. Həmin kitabın II nüsxəsi Azərbaycana həsr edilmişdi. Sonrakı dərclər Qazaxıstan və Belarusa aid idi. Bu kitab əslində millətlər haqqında informasiya, təbliğat kitabıdır. Bu yaxınlarda yeni bir kitab da işıq üzü görüb ki, burada hər millətin bir nümayəndəsi həmin xalqla bağlı məlumat verir. Bizim ölkəmizlə bağlı isə Estoniya parlamentinin nümayəndəsi Eldar Əfəndiyevin çıxışı verilib. Gələcək planlarımızdan biri də odur ki, Estoniyanın dövlət televiziyasında veriliş hazırlamaq istəyirik. Əgər radio özünü doğrultsa, televiziyada da bunu reallaşdırmağı planlaşdırırıq. Tarixi, mədəniyyəti hər zaman təqdim etmək lazımdır, amma istərdim ki, müharibə mövzusundan uzaq olaq.

Nigar
"Palitra" – 2010 - 25 iyun -N.67.-S.5.

Azərbaycançılıq - bizi birləşdirən dəyər

Azərbaycançılıq vahid və bölünməz vətən, birlik və həmrəylik, dünyanı tanımaq və dünyaya öz milli "mən"inlə tanınmaq deməkdir

XX əsrin əvvəlində bir müsəlman dövləti olaraq dünyaya ilk cümhuriyyəti, demokratik respublikanı vermiş Azərbaycan və azərbaycanlılar üçün bu gün "biz dünyada haradayıq" sualına cavab axtarmaq vacib və zəruridir. Bu baxımdan Azərbaycanın hazırkı dünyadakı yeri, nüfuz çevrəsi barədə söz edərkən dünyanın bizi, bizim isə dünyanı necə, hansı dəyərlərlə tanıyıb qəbul etməyimiz üzərində düşünmək lazımdır.

Bu gün bütün dünyada qloballaşma prosesi gedir. Qlobal inteqrasiya dünyanın dörd yanını bir-birinə bağlayır, dünyanın o tayında baş verən olaylar (mənfi və ya müsbət) bu tayda əks-səda və fəsad doğurur.

Belə bir vəziyyətdə Azərbaycanın qarşısında duran mühüm məqsədlərdən biri qlobal inteqrasiya prosesində qabaqcıl dövlətlərlə ayaqlaşmaq və bu zaman Azərbaycan xalqının milli "Mən"ini, milli zənginliyini dünyaya layiqincə təqdim etmək, milli-mənəvi dəyərlərimizin mütərəqqi dünya dəyərlərilə üzvi sintezinə nail olmaqdır. Qeyd olunan məqsədə nail olmaq üçün başlıca şərt bu inteqrativ prosesdə ölkənin milli inkişaf yolunu təmin edəcək, xalqın bütün kəsimlərinin həmrəyliyinə əsas yarada biləcək ümummilli ideyanın mövcud olmasıdır.

Qədim dövrlərdən başlayaraq bugünümüzə qədər Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası təşəkkül tapmışdır. Azərbaycan tarixən çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınmış və bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir. Xalqımızın böyük mütəfəkkirlərinin, dövlət adamlarının, ictimai xadimlərinin fəaliyyətində bu ideya zaman-zaman özünü göstərmişdir.

Lakin birmənalı şəkildə qeyd edə bilərik ki, azərbaycançılığın ümummilli ideya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi məhz Heydər Əliyevin tarixi xidmətidir. Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın müstəqilliyini möhkəmləndirməklə, onun güclü dövlətçilik xəttini, siyasi-iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli inkişafının ideya təməli ola biləcək konsepsiyanın - azərbaycançılığın banisi olmuşdur.

Vahid və bölünməz Azərbaycanın ideya əsası

Azərbaycançılıq iki təməl ideyanı - "dövlətçilik" və "vətənpərvərliyi" özündə birləşdirir. Məlumdur ki, müstəqilliyimizin ilk illərində Azərbaycanın düşdüyü dərin böhran təkcə Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü, Qarabağdakı aqressiv erməni separatçılığı ilə bağlı deyildi. Həmin dövrdə bütövlükdə respublikada milli-etnik ixtilaf, bölücülük tendensiyası cücərməkdə idi və bu, ayrı-ayrı bölgələrdə özünü göstərirdi.

Bu baxımdan Heydər Əliyevin azərbaycançılığı ümummilli ideologiya olaraq irəli sürməsi onun Azərbaycan dövlətçiliyi naminə göstərdiyi tarixi xidmətdir. Məhz azərbaycançılıq Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu. Çünki azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədə bütün konfessiya və etnosların həmrəylik və anlaşma içində birgəyaşayışının tarixi təcrübəsidir.

Heydər Əliyev öz çıxışlarında bir vacib məqamı hər zaman diqqətə çatdırıb ki, Azərbaycanın çoxmillətli, tolerant ölkə olması bizim böyük sərvətimizdir və biz bunu qoruyub saxlamalı, dünyaya ən yüksək səviyyədə təbliğ etməliyik:

"Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Azərbaycanın ən başlıca sərvətlərindən biri qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən adamlardır. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib".

Azərbaycançılıq ideologiyası, bir tərəfdən, Azərbaycan türklərinin ölkədəki digər etnik qruplara tolerant münasibətinin, sülh içində yaşamaq istəyinin bariz göstəricisidirsə, digər yandan, Azərbaycanın türk dünyasının ayrılmaz parçası olduğunun təsdiqidir. Odur ki, azərbaycançılığı realist milli inkişaf modeli olaraq qəbul edən Azərbaycan türk dövlətləri arasında da bəlağət və pafosdan uzaq, səmimi və qarşılıqlı faydalı tərəfdaşlıqdan yana olduğunu daima nümayiş etdirir.

Birlik və həmrəyliyin gerçək ifadəsi

Azərbaycanda vətəndaş sülhünü, ümumxalq vəhdətini, milli və dini tolerantlığı təmin edən ideologiya olaraq azərbaycançılığın digər tarixi missiyası dünya azərbaycanlılarının, müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın birlik və həmrəyliyinin təmin olunmasından ibarətdir. Heydər Əliyev hələ sovet Azərbaycanına rəhbərlik etdiyi zaman dövrün mövcud reallıqları çərçivəsində xaricdəki (təbii ki, ilk növbədə, SSRİ məkanında) azərbaycanlı diasporunun təşəkkül tapmasına mümkün dəstəyi göstərirdi. Ulu öndər müstəqil Azərbaycanın prezidenti olduqdan sonra bu fəaliyyəti dövlətimizin xarici siyasətinin prioritet istiqamətlərindən birinə çevirdi.

Prezident xarici dövlətlərə ilk səfərlərindən başlayaraq getdiyi hər bir ölkədə yaşayan həmvətənlərimizlə - oradakı azərbaycanlı icmasının böyük və ya kiçikliyindən asılı olmayaraq - görüşlər keçirir, onların problemləri, qayğıları ilə maraqlanır, tövsiyələrini verirdi. Azərbaycan diasporunun yeni mərhələdə inkişaf tezislərini də məhz böyük öndərin həmin görüş və çıxışlarda söylədiyi fikirlər, müddəalar təşkil etmişdir. Özü də bu hər zaman şüarçılıqdan uzaq, reallığı əks etdirən, zərurətdən doğan fikir və müddəalar olub.

Bu baxımdan Heydər Əliyevin 2001-ci ilin noyabrında Bakıda Dünya azərbaycanlılarının I qurultayında bəyan etdiyi tezislər əslində azərbaycançılığın, Azərbaycan təəssübkeşliyinin ən lakonik ifadəsi idi:

"Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı birləşdirən bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı yaşatmalıyıq".

Əminliklə qeyd etmək olar ki, bu nəcib arzu bu gün uğurla həyata keçməkdədir. Prezident İlham Əliyevin rəhbərliyi altında, dövlət siyasətinin bütün sahələrində olduğu kimi, azərbaycanlı diasporunun güclənməsi, azərbaycançılığın ümummilli ideologiya olaraq möhkəmlənməsi istiqamətində ardıcıl addımlar atılır.

Prezident dünya azərbaycanlılarının II qurultayında (mart 2006) bununla bağlı demişdir: "Biz hər istiqamətdə çox sürətlə, düşünülmüş proqram və konsepsiya əsasında irəliləyirik. Bu işdə Azərbaycan diasporunun böyük rolu var. Mən istəyirəm ki, həm Azərbaycanın dünyada təbliğ edilməsində, Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılmasında, azərbaycanlıların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakında bu rol daha da güclü olsun. Bu, bizim mövqelərimizi möhkəmləndirir. Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək".

Azərbaycanı dünyaya tanıdan milli-mənəvi irs

Azərbaycançılıq həm də Azərbaycanın tarixinin, mədəniyyətinin dünyada təbliği deməkdir. Azərbaycanın böyük ədib və mütəfəkkirlərinin, alimlərinin, mədəni irsimizin beynəlxalq miqyasda tanıdılması da bu şin mühüm tərkib hissəsidir.

Əlamətdar haldır ki, bu istiqamətdə dövlət qurumları ilə yanaşı, qeyri-dövlət xəttilə də mühüm işlər görülür. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın bu sahədə gördüyü işlər Azərbaycan mədəniyyətinin, tarixinin təbliğinə böyük töhfədir. Azərbaycanın zəngin mədəni irsinin beynəlxalq səviyyədə layiqincə təqdim olunması nəticə etibarilə ölkəmizin beynəlxalq nüfuzuna xidmət edir.

Dünyada qloballaşmanın yayıldığı zamanda bu prosesə öz milli-mənəvi irsi ilə qoşulmaq hər bir xalq üçün böyük önəm daşıyır. Azərbaycançılıq ideyası da məhz bu qlobal çağırışlara cavab verir.

Bu nöqteyi-nəzərdən azərbaycançılıq Azərbaycanın dünya birliyinə inteqrasiyasının ideya əsasını təşkil edir. Biz bu ideya ilə özümüzü dünyaya tanıdır, onu mütərəqqi dünya dəyərlərini (tolerantlıq, etnik müxtəliflik) özündə birləşdirən ideologiya kimi təbliğ edirik. Avropa ilə Asiyanın qovuşuğunda yerləşən Azərbaycan üçün bu ideologiya mədəniyyətlərarası dialoqa mühüm bir körpüdür.

Prezident İlham Əliyevin haqlı olaraq qeyd etdiyi kimi, bu gün "Azərbaycanın əsas prioritetlərindən biri milli adət-ənənələrimizin təmin olunması şərtilə dünya birliyinə inteqrasiya etməsidir". Bu inteqrasiyada Azərbaycanın öz yerini tapması, eyni zamanda, milli eyniyyətini, milli identifikasiyasını qoruyub saxlamaq müstəsna əhəmiyyət kəsb edir ki, onu da azərbaycançılıq fəlsəfəsi təmin edir: "Azərbaycan xalqı əsrlər boyu müstəqillik həsrətində idi. Biz müxtəlif dövrlərdə başqa-başqa dövlətlərin tərkibində yaşamışıq. Amma öz milli xüsusiyyətlərimizi itirməmişik. Nəyin hesabına? Onun hesabına ki, öz ana dilimizi, mədəniyyətimizi saxlaya bilmişik, ədəbiyyatımız inkişaf edib, milli ənənələrimiz qorunub saxlanılıbdır. Budur, hər bir xalqın milli identifikasiyasını şərtləndirən əsas məsələlər".

Digər tərəfdən, tolerantlığı, polietnik zənginliyi özündə ehtiva edən azərbaycançılıq ideologiyası Azərbaycanın şovinist siyasətli, monoetnik Ermənistanla apardığı informasiya mübarizəsində güclü siyasi və təbliğati silahdır. Çünki, ifrat ksenofobiya, davakar millətçilik üzərində köklənən ermənilik ideologiyasından fərqli olaraq, azərbaycançılıq sağlam vətənpərvərlik ideologiyasıdır, onun mayasında başqa xalqlarla sülh içində yaşamaq, milli və dini dözümlülük fəlsəfəsi dayanır. Bu baxımdan dünyaya açıq, mütərəqqi ümumbəşəri dəyərlərin təcəssümü olan azərbaycançılıq özünütəcrid üzərində köklənən, qonşu xalqlara düşmənçilik, milli nifrət aşılayan ermənilik ideyasının tam əksidir.

Odur ki, azərbaycançılıq fəlsəfəsini vahid Azərbaycanın ideya əsası, dünya azərbaycanlılarını birləşdirən ortaq dəyər və Azərbaycanı dünya tanıdan milli-mənəvi irs olaraq öyrənmək və təbliğ etməklə yanaşı, onu ölkəmizin milli təhlükəsizliyinin mühüm postulatı kimi də diqqətdə saxlamaq gərəkdir. Bu baxımdan əminliklə qeyd etmək olar ki, Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoyduğu, sürətlə dünyaya inteqrasiya olunduğu indiki vaxtda azərbaycançılığın milli-ideoloji plast olaraq dərindən tədqiqi, onun dünya azərbaycanlıları arasında və bütövlükdə beynəlxalq miqyasda təbliği təkcə bugünün deyil, həm də sabahın tələbidir.

Vüqar Orxan, Effektiv Təşəbbüslər Mərkəzinin analitiki
“Ədalət” – 2010 - 25 iyun -N.111.-S.4.

Nazim İbrahimov: “Azərbaycan diasporu mütəşəkkil təşkilatlanma prosesi keçib”

Trend-in məlumatına görə, bunu jurnalistlərə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov deyib: "Bu gün ümummilli liderimiz Heydər Əliyevin diaspora qayğısının ən yüksək nöqtəsi sayıla bilər: 8 il bundan öncə diasporun gördüyü işlərin nə qədər önəmli olduğunu görərək bəlkə də ilk dəfə yüksək dövlət təşkilatı yaratdı. İlk güdən diaspor təşkilatlarına Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması tapşırıqları verildi. Bu gün Azərbaycan diasporu dünyada tanınmış diaspordur".

Komitə sədri bildirib ki, Prezident İlham Əliyevin diaspor qarşısında qoyduğu tapşırıqlar layiqincə yerinə yetirilir: "İşğal olunmuş torpaqlarımızla bağlı dünyaya həqiqətlərin çatdırılmasında, Dağlıq Qarabağla bağlı məsələlərdə Azərbaycanın haqlı olduğunun dünyaya çatdırılmasında diasporun böyük rolu var. Onlar bu işdə böyük rol oynayırlar, artıq bir neçə təşkilatımız var, Almaniyada, ABŞ-da, Rusiyada çox böyük təşkilatlar yaranıb ki, bu təşkilatlar da həmin ölkələrin ictimai-siyasi həyatında öz sözlərini söyləyirlər".

Bu gün Azərbaycan dövlətinin diaspor siyasətini həyata keçirən dövlət qurumunun yaradılmasının 8 ili tamam olur. Bu qurum ulu öndər Heydər Əliyevin "Xarici ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" 2002-ci il 5 iyul tarixli Fərmanı ilə xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədi ilə yaradılıb. 2008-ci il noyabrın 19-da isə Prezident İlham Əliyev Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında Fərman imzalayıb. Qeyd edək ki, xaricdə yaşayan azərbaycanlılarla iş sahəsində dövlət siyasətinin əsasları 2002-ci il dekabrın 27-də qəbul edilmiş "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur. Bu Qanun Azərbaycan diasporunun inkişafına dövlət qayğısının daha da artırılması, bu sahədə ciddi nailiyyətlər əldə olunması məqsədi ilə vahid strategiyanın hazırlanması kimi mühüm məsələlərin həllinə imkan yaradan hüquqi prinsipləri müəyyənləşdirir.

Dövlət Komitəsinin fəaliyyət göstərdiyi 8 il ərzində xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, soydaşlarımız arasında milli-mənəvi dəyərlərin qorunub saxlanılması, həmvətənlərimizin hüquq və azadlıqlarının qorunması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilib. Eyni zamanda, Dövlət Komitəsi Dünya Azərbaycanlılarının Xartiyasını hazırlayıb və sənəd Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının 2008-ci il dekabrın 18-də Bakıda keçirilən iclasında qəbul edilib.

Dünyanın əksər ölkəsində 370-dək Azərbaycan icması fəaliyyət göstərir və diasporumuzun təşkilatlanma prosesi bu gün də davam edir.

05 iyul 2010

Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 8 ili tamam olur

Azərbaycan dövlətinin diaspor siyasətini həyata keçirən dövlət qurumunun yaradılmasının 8 ili tamam olur. Bu gün Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov başda olmaqla təşkilatın kollektivi Fəxri Xiyabana gələrək ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib, milli liderin heykəli önünə əklil qoyub. Ulu öndərin həyat yoldaşı, görkəmli oftolmoloq alim Zərifə Əliyevanın da xatirəsi yad edilib.

Bu qurum ulu öndər Heydər Əliyevin «Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında» 2002-ci il 5 iyul tarixli Fərmanı ilə Xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədi ilə yaradılıb. 2008-ci il noyabrın 19-da isə Azərbaycan Prezidenti İlham Əliyev Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diaspor ilə İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında Fərman imzalayıb. Xaricdə yaşayan azərbaycanlılarla iş sahəsində dövlət siyasətinin əsasları 2002-cü ilin dekabr ayının 27-də qəbul edilmiş «Xaricdə Yaşayan Azərbaycanlılarla bağlı Dövlət Siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur.

Bu qanun Azərbaycan diasporunun inkişafına dövlət qayğısının daha da artırılması, bu sahədə ciddi nailiyyətlər əldə olunması məqsədi ilə vahid strategiyanın hazırlanması kimi mühüm məsələlərin həllinə imkan yaradan hüquqi prinsipləri müəyyənləşdirir. Dövlət Komitəsinin fəaliyyət göstərdiyi 8 il ərzində xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, soydaşlarımız arasında milli-mənəvi dəyərlərin qorunub saxlanılması, həmvətənlərimizin hüquq və azadlıqlarının qorunması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilib. Eyni zamanda Dövlət Komitəsi Dünya Azərbaycanlılarının Xartiyasını hazırlayıb və sənəd Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının 2008-ci il dekabrın 18-də Bakıda keçirilən iclasında qəbul edilib. Dünyanın əksər ölkəsində 370-dək Azərbaycan icması fəaliyyət göstərir və diasporumuzun təşkilatlanma prosesi bu gün də davam edir.

05 iyul 2010

“Qaçqınlar və məcburi köçkünlər-insanlara qarşı yönəldilmiş cinayət “ mövzusunda diskussiya keçirilib

İyulun 7-də Alman Parlamentar Cəmiyyətində “Qaçqınlar və məcburi köçkünlər-insanlara qarşı yönəldilmiş cinayət “ mövzusunda diskussiya keçirilib. Bu tədbir 1992-ci ildən bəri Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı müharibə qurbanlarına- öz yurdlarından, doğma Vətənlərindən didərgin düşmüş bir milyon azərbaycanlının taleyinə və problemlərinə həsr olunub. Bu diskussiyanın məqsədi Alman Parlamentar Cəmiyyəti vasitəsilə alman ictimaiyyətində Azərbaycandakı qaçqınları və məcburi köçkünləri mənəvi dəstək qazanmaq, onların problemlərini tanıqmaq və Dağlıq-Qarabağ münaqişəsinin sülh yolla həllinə dair fikir mübadiləsi aparmaq olub. Disskussiyada bildirilib ki, Azərbaycan qaçqın və məcburi köçkünləri bu günə kimi müvəqqəti yaşayış məskənlərində yaşayırlar. Onların doğma torpaqlarına qayıtması haqqında tələbləri erməni işğalçıları rədd edir. Ümumiyyətlə insan hüquqlarının tapdalanmasına yönəldilmiş bu kimi faktlar sözsüz ki, Avropa Birliyini də biganə qoya bilməz.

Tədbiri Alman Parlamentar Cəmiyyətinin sədri, keçmiş Dövlət katibi, Alman Bundestaqın keçmiş üzvü cənab **Eduard Lintner** açıb. Sonra Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin icraçı direktoru **Samira Patzer-İsmayılova** Dağlıq Qarabağ münaqişəsi, Azərbaycandakı qaçqın və məcburi köçkünlər haqqında məlumat verib. Alman Bundestaqındakı Beynəlxalq inkişaf və əməkdaşlıq üzrə işçi qrupun rəhbəri **Holger Haybax** öz çıxışında problemin hüquqi aspektinə toxunub, qaçqın və məcburi köçkünlərin öz Vətənlərinə qaytarılması, ərazi bütövlüyü hüquqlarından danışıb.

Alman Bundestaqın üzvü, təhlükəsizlik və müdafiə komissiyasının üzvü **Florian Han** isə qaçqın və məcburi köçkünlərin acınacaqlı sosaial həyat tərzindən söhbət açıb və deyib ki, Avropa Birliyi onların vəziyyətinə biganə qalmamalıdır. Alman Bundestaqın üzvü, xarici əlaqələr və insan hüquqlarının müdafiəsi üzrə işçi qrupda Xristial Sosial Birliyi fraksiyasının rəhbəri **Tomas Silberhorn** qaçqın və məcburi köçkünlərin Vətənlərinə qaytarılması prosesində Avropanın daha fəal iştirak etməsi, mövcud münaqişələrin sülh yolla həllinə kömək göstərməsi zərurətini vurğulayıb. Tədbir Almaniyadakı erməni diasporunun böyük narahatlığına səbəb olub, təşkilatçılara erməni lobbisindən çoxsaylı etiraz məktubları göndərilib. Ermənilərin tədbiri pozmaq cəhdləri isə baş tutmayıb.

07 iyul 2010

“Xaricdə yaşayan azərbaycanlılar bizim üçün də dayaqdır”
Azərbaycan diasporu gənc olmasına baxmayaraq xeyli möhkəmlənib

Azərbaycanın hüdudlarından kənarda məskunlaşmış milyonlarla soydaşlarımızın vahid bir amal ətrafında birləşdirilməsi istiqamətində indiyədək əldə olunmuş bütün nailiyyətlər ümummilli liderimiz Heydər Əliyevin adı və məqsədyönlü fəaliyyəti ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan Respublikası dünya azərbaycanlılarının mənafe və maraqlarının təminatçısı olduğunu rəsmən bəyan etdi və xaricdə yaşayan azərbaycanlılarla dövlət səviyyəsində iş aparılmağa başlandı. Heydər Əliyevin əməyi sayəsində bu sahədə həyata keçirilmiş ən önəmli tədbirlərdən biri dünyanın müxtəlif ölkələrində yaşayan 50 milyonluq Azərbaycan xalqının bir araya gətirilməsi istiqamətində həyata keçirilən tədbirlər oldu. “XXI əsrin astanasında dünya azərbaycanlılarının həmrəyliyinə daha böyük ehtiyac vardır” deyən Heydər Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsasını qoydu. Ulu öndərin əsasını qoyduğu siyasət bu gündə davam etdirilir. Dövlət başçısı İlham Əliyev diasporumuzun formalaşdırılması sahəsində nailiyyətləri yeni inkişaf mərhələsinə qaldıraraq daim diqqət mərkəzində saxlayır. Prezidentin iş rejiminin gərginliyinə baxmayaraq Azərbaycan diasporu ilə bilavasitə bağlılığı olan xarici ölkə nümayəndələrini mütəmadi qəbul etməsi artıq ənənəyə çevrilib. Bu da Diasporla iş üzrə Dövlət Komitəsinin bu sahədəki fəaliyyətinə böyük təkan verir.

Diaspora nədir?

“Diaspor" qədim yunan sözü olub, hərfi mənada "səpələnmə" deməkdir. Bu sözün yaranma tarixi yunanların eramızdan xeyli əvvəl başladıqları işğal və köçürülmə dövrünə təsadüf edir. Müxtəlif ölkələrə hərbi yürüşlər zamanı yunan ordusu əsgərlərinin bir hissəsi işğal edilmiş ərazilərdə məskunlaşmış və buranın daimi sakinlərinə çevrilmişdilər. "Diaspor" kəlməsi də məhz onların dilindən yaranmışdır. Fəaliyyət dairəsindən, məşğuliyyətindən və dini etiqadından asılı olmayaraq hər hansı bir etnosa aid adamların müəyyən zaman kəsiyində öz tarixi vətənlərindən kənarda məskunlaşmaları və ictimai fəaliyyəti bilavasitə diasporun formalaşması ilə nəticələnir. Azərbaycanda "diaspor" anlayışı haqqında ilkin təsəvvürlər indi yaranmağa başlasa da, qeyd etmək lazımdır ki, həmvətənlərimizin dünyanın müxtəlif ölkələrində məskunlaşması prosesi hələ bir neçə əsr əvvəl başlanmışdı.

Digər xalqlarla müqayisədə azərbaycanlıların doğma torpağa daha çox bağlılığı üzündən Vətəni tərk edib qürbətdə yaşamları onlar üçün mənəvi baxımdan ağır olub. Təsadüfü deyil ki, Azərbaycan şifahi xalq ədəbiyyatında "Vətən - qürbət" mövzusu mühüm yer tutmuşdur. Bu mənəvi amilin özü də Azərbaycan diasporunun yaranmasının kifayət qədər qədim tarixə malik olduğunu təsdiqləyir. Bu gün "Azərbaycan diasporu" dedikdə xarici ölkələrdə məskunlaşmış azərbaycanlılar nəzərdə tutulur. "Xaricdə yaşayan azərbaycanlılar" anlayışının təfsiri "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Bu qanuna əsasən, "xaricdə yaşayan azərbaycanlılar" anlayışı Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına və onların övladlarına, əvvəllər Azərbaycan SSR-nin və ya Azərbaycan Respublikasının vətəndaşları olmuş və hazırda Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan şəxslərə və onların övladlarına, bu kateqoriyaya aid olmayan, lakin etnik, dil, mədəniyyət və ya tarixi əlaqələr baxımından özünü Azərbaycana bağlı və ya azərbaycanlı hesab edən şəxslərə aid edilir.

Diaspora və Heydər Əliyev

Azərbaycan müstəqillik əldə etdikdən sonra xaricdə yaşayan soydaşlarımızla əlaqələrin güclənməsi, onların tarixi vətənlərinə bağlılığının möhkəmlənməsi dövlət quruluculuğunun mühüm amilinə çevrildi. Bütün ölkələrdə diaspor məsələlərinə xüsusi önəm verildi. Təbii ki, burada əsas məqsəd xalqın milli birliyini təmin etməklə dövlətin qarşısında duran problemlərin həllinə yardımçı olmaq idi.

Diaspor məsələləri ölkəmizdə müstəqilliyin ilk illərindən aktuallıq kəsb etməyə başlasa da, bu sahəyə dövlət tərəfindən xüsusi qayğı göstərilməsi yalnız ümummilli lider, mərhum prezident Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra mümkün oldu. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan Respublikası dünya azərbaycanlılarının mənafe və maraqlarının təminatçısı olduğunu rəsmən bəyan etdi və xaricdə yaşayan azərbaycanlılarla dövlət səviyyəsində is aparılmağa başlandı. Heydər Əliyevin əməyi sayəsində bu sahədə həyata keçirilmiş ən önəmli tədbirlərdən biri dünyanın müxtəlif ölkələrində yaşayan 50 milyonluq Azərbaycan xalqının bir araya gətirilməsi istiqamətində həyata keçirilən tədbirlər oldu. “XXI əsrin astanasında dünya azərbaycanlılarının həmrəyliyinə daha böyük ehtiyac vardır” deyən Heydər Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsasını qoydu.

Baxmayaraq ki, bu günün təməli hələ Heydər Əliyev Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə qoyulmuşdu, lakin həmin ərəfədə belə bir əlamətdar hadisənin ölkə miqyası, eləcə də ondan kənarda qeyd edilməsi qeyri-mümkün idi. Məhz Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışından sonra bu tarix rəsmi şəkildə qeyd olunmağa başlandı. Heydər Əliyev daim diaspora işinə xüsusi önəm verir, bu sahəyə diqqət və qayğı göstərirdi. O, xarici ölkələrə səfərləri zamanı vaxt taparaq həmin ölkələrdə yaşayan azərbaycanlılarla görüşür, onların problemləri ilə maraqlanırdı. Dövlət başçısı hər vəchlə çalışırdı ki, xaricdə yaşayan soydaşlarımız təşkilatlanaraq yaşadıqları ölkələrdə həmin ölkələrin qanunlarına hörmətlə yanaşmaqla güclü diaspor yaratsınlar və lobbiçilik fəaliyyəti ilə xalqımızın haqq səsini dünya ictimaiyyətinin diqqətinə çatdırsınlar. Bu baxımdan xarici ölkələrdə fəaliyyət göstərən müxtəlif təşkilatlar və cəmiyyətlərlə xüsusi bir görüşün keçirilməsi, onlara müəyyən tapşırıq və tövsiyyələrin verilməsi zərurətə çevrilmişdi.

Bu zərurəti nəzərə alaraq Heydər Əliyev dünya azərbaycanlılarının birinci qurultayının keçirilməsi barədə 2001-ci il, mayın 23-də sərəncam imzalamış və qurultayın noyabrın 9-10-da Bakı şəhərində keçirilməsi qərara alınmışdı. Azərbaycan tarixində ilk dəfə olaraq keçirilən bu qurultayın əsas məqsədi və mənası xaricdə yaşayan həmvətənlərimizi və soydaşlarımızı bir ideya ətrafında-Azərbaycançılıq ideyası ətrafında birləşdirməkdən ibarət olmuşdur. Heydər Əliyev qurultaydakı çıxışında Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə kömək göstərməyi, azərbaycançılığımızı qorumağı, öz vətəninə biganə qalmamağı, mütərəqqi dəyərlərimiz və mənəviyyatımızı daha da zənginləşdirməyi tövsiyyə etmişdi. Bu dövrdə diaspora sahəsində atılan ən mühüm addımlardan biri də məhz Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması oldu. Heydər Əliyevin 2002-ci il, 5 iyul tarixli fərmanı ilə adı çəkilən Dövlət Komitəsi yaradıldı və dövlət-diaspor əlaqələrinin sıxlaşması üçün münbit ideya-nəzəri və təşkilati zəminin hazırlanması işi başa çatdı. Xaricdə yaşayan azərbaycanlılarla iş sahəsində dövlət siyasətinin əsasları isə 2002-ci il dekabrın 27-də qəbul edilmiş "Xaricdə Yaşayan Azərbaycanlılarla bağlı Dövlət Siyasəti haqqında" qanunla müəyyən olunurdu. Bu qanun Azərbaycan diasporunun inkişafına dövlət qayğısının daha da artırılması, bu sahədə ciddi nailiyyətlər əldə olunması məqsədi ilə vahid strategiyanın hazırlanması kimi mühüm məsələlərin həllinə imkan yaradan hüquqi prinsipləri müəyyənləşdirirdi. Dövlət Komitəsinin təsis edilməsi və müvafiq qanunun qəbul olunması Azərbaycan dövlətinin xaricdəki həmvətənlərimizlə əlaqələrinin daha da intensivləşməsinə, dünya azərbaycanlılarının təşkilatlanması prosesinin keyfiyyətcə yeni mərhələyə daxil olmasına şərait yaratdı. Dövlət Komitəsinin fəaliyyətinin başlıca qayəsi ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq ideologiyasının fundamental prinsiplərini həyata keçirməkdən ibarət idi ki, ötən müddət ərzində adı çəkilən dövlət qurumu bu istiqamətdə bir çox nailiyyətlərə imza atıb.

Dövlət Komitəsi yalnız icma və birliklərin yaradılması məsələsinə diqqət yetirməklə kifayətlənmir, müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarının vahid bir mərkəzdə birləşdirilməsinə çalışırdı. Məhz həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, hazırda dünyanın əksər ölkələrində 300-dən artıq Azərbaycan icması fəaliyyət göstərir və diasporumuzun təşkilatlanma prosesi bu gün də davam edir. Bu gün müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarının özlərinin mütəmadi olaraq nəşr edilən mətbu orqanları vardır ki, onların vasitəsilə Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, eyni zamanda soydaşlarımızın tarixi vətənləri haqqında obyektiv və intensiv şəkildə məlumatlandırılması, diaspor quruculuğu işinin təbliğ olunması, həmvətənlərimizlə əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində təqdirəlayiq addımlar atılır.

Hazırda Rusiya, Ukrayna, Belarus, Gürcüstan, Böyük Britaniya, Almaniya, Hollandiya, İsveç, Fransa, Avstraliya və s. ölkələrdə fəaliyyət göstərən Azərbaycan icma və birliklərinin nəzdində 30-dan artıq mətbu orqan, bir neçə televiziya və radio fəaliyyət göstərir. Diaspor işində milli şüurun formalaşması və qorunmasında əsas vasitə olan Azərbaycan dilinin yayılması və təbliğ edilməsi də əsas vəzifələrdən biridir. Ayrı-ayrı ölkələrdə Azərbaycan icmaları nəzdində çoxlu sayda "Bazar günü" məktəbi fəaliyyət göstərir ki, bu da ayrı-ayrı ölkələrdə Azərbaycan dilinin təbliği, onun geniş yayılması prosesinə mühüm töhfə verir.

Təşkilatlanmış Azərbaycan cəmiyyətlərinin fəaliyyət göstərdikləri ölkənin, bölgənin ictimai-siyasi həyatında fəsil iştirak etmələrini təmin etmək, bu və ya digər ölkələrdə keçirilən seçkilərə soydaşlarımızın təsiretmə mexanizmlərinin hazırlanmasına nail olmaq qarşıya əsas məqsəd kimi qoyulub və ötən dövr ərzində müəyyən nailiyyətlər əldə olunub. Soydaşlarımızın Estoniya, Gürcüstan, Moldova parlamentlərində təmsil olunmaları, Rusiyada keçirilən parlament seçkilərində ilk dəfə olaraq həmvətənlərimizin namizədliklərinin qeydə alınması, Ukraynada və Rusiyada soydaşlarımızın yerli qanunvericilik orqanlarına deputat seçilməsi həmvətənlərimizin ictimai-siyasi fəallığının yüksəlməsinin göstəricisidir.

Bu gün dünyada gedən qloballaşma şəraitində yeni ictimai-siyasi situasiya yaranır və təbii ki, Azərbaycan diaspor təşkilatları bu mühitə uyğunlaşmalıdırlar. Yəni həmvətənlərimizin təşkilatlanma prosesi daha geniş vüsət almalıdır ki, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların bu qlobal prosesdən kənarda qalmasına imkan verilməsin. Qeyd edək ki, təqribi sayı 50 milyon nəfər olan dünya azərbaycanlılarının 10 milyondan çoxu hazırda mühacirətdə yaşayır.

Dünyanın 5 qitəsində məskunlaşan azərbaycanlılar siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait, mənəvi dəyərlər kimi müxtəlifdir. Hazırda Amerika qitəsinin müxtəlif ölkələrində azərbaycanlılar yaşayır. Onların sayı ABŞ-da 1 milyona, Argentinada 12 minə, Braziliyada 75 minə, Kanadada 170 minə, Meksikada isə 27 minə çatır. Amerika qitəsi ölkələrində Honduras, Qvatemala, Peru və digərlərində də azərbaycanlılar məskunlaşıb. Avropada yaşayan soydaşlarımız isə əsasən Türkiyə və Rusiyadadır. Belə ki, sözügedən ölkələrdə yaşayan soydaşlarımız milyonlarladır. Ukrayna, Belarus və Almaniyada yüzminlərlədir. Digər Avropa ölkələrindən, Norveç, İsveç, Danimarka və bu kimi ölkələrdə də yaşayan soydaşlarımızın sayı çoxluq təşkil edir. Bu timsalda Afrika və Asiya ölkələrini də göstərmək olar. Avstraliya qitəsində isə təxminən 10 minə yaxın azərbaycanlının yaşadığı barədə məlumatlar var.

Diaspora təşkilatlarının fəallığının artması, azərbaycanlıların həmrəyliyi siyasətinin geniş miqyas alması Heydər Əliyevin layiqli davamçısı, ölkə başçısı İlham Əliyevin də əsas diqqət mərkəzində saxladığı ən mühüm məsələlərdəndir. Məhz İ. Əliyevin müvafiq sərəncamından sonra komitə Diasporlarla iş üzrə Dövlət Komitəsi adlandırıldı. Dövlət başçısı xarici ölkələrə səfərləri çərçivəsində həmişə Azərbaycan diasporu ilə görüşlərə böyük yer ayırması, onlarla söhbətlər aparması diaspora göstərilən qayğıdan xəbər verir. Prezident dəfələrlə bəyan edib ki, Azərbaycan dövlətinin möhkəm olması dünyada yaşayan azərbaycanlıların da mövqeyini möhkəmləndirir. "Eyni zamanda xaricdə yaşayan azərbaycanlılar bizim üçün də dayaqdır. Çünki Azərbaycan gənc müstəqil dövlətdir. Biz yalnız 15 ildir müstəqillik şəraitində yaşayırıq və təəssüflər olsun ki, bu günədək bir çox ölkələrdə Azərbaycan haqqında kifayət qədər dolğun məlumat yoxdur.

Bu məlumatı, Azərbaycan həqiqətlərini, Azərbaycanın problemlərini, eyni zamanda ölkəmizin artan nüfuzunu, önəmini dünya ictimaiyyətinə çatdırmaq, əlbəttə ki, bizim ümumi işimizə çox böyük töhfə olacaqdır". Dünya azərbaycanlılarının II qurultayının Bakıda keçirilməsi məhz İlham Əliyevin adı ilə bağlıdır. Həmin qurultay özünün möhtəşəmliyi, müzakirəyə çıxardığı məsələlərin aktuallığı və reallığı ilə seçilirdi. Cənab Prezident Azərbaycan diasporunun digər xalqların, xüsusilə qardaş türk xalqlarının lobbi təşkilatları ilə sıx əməkdaşlıq şəraitində çalışması naminə də az iş görməmişdi.

Dünya birliyi güclü Azərbaycan diasporasının qarşısında acizdir…

Son illər bu iş artıq əlaqələndirilmiş şəkildə aparılır. Xarici İşlər Nazirliyinin, Diasporla iş üzrə Dövlət Komitəsinin, Azərbaycan diasporlarının fəaliyyəti, müxtəlif ölkələrdə Azərbaycanla bağlı keçirilən tədbirlər, konfranslar, simpoziumlar, aksiyalar - bütün bunlar bizim mövqelərimizi möhkəmləndirir. Digər tərəfdən, Azərbaycan haqqında real məlumatı dünya birliyinə çatdırır. Etiraf etmək lazımdır ki, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən azərbaycanlı icmaları arasında əlaqələrin möhkəmləndirilməsi, soydaşlarımızın ayrı-ayrı ölkələrin ictimai-siyasi və mədəni həyatına, eləcə də qloballaşan dünyanın aktual problemlərinə təsirinin gücləndirilməsi hələ də tələb olunan səviyyədə deyil. Odur ki, diaspor təşkilatları və müvafiq dövlət qurumlarının bu istiqamətlərdə bütün resursların hərəkətə gətirilməsi üçün davamlı çalışması vacibdir.

Ədil Ədilzadə, yazı Diasporla iş üzrə Dövlət Komitəsi, Mətbuat Şurası və Heydər Əliyev adına Beynəlxalq Azərbaycan Forumunun Azərbaycan nümayəndəliyinin birgə təşkil etdiyi müsabiqəyə təqdim olunur.
"Olaylar" – 2010 - 13 iyul - N.114.-S.11.

Gürcüstandakı azərbaycanlı tələbə və gənclər təşkilatlarının bir qrup nümayəndəsinin ölkəmizə səfəri təşkil olunur

İyulun 26–dən 31-dək Gürcüstandakı azərbaycanlı tələbə və gənclər təşkilatlarının bir qrup nümayəndəsinin ölkəmizə səfəri təşkil olunur. Onlar Novxanı qəsəbəsindəki "Aquapark" Əyləncə Mərkəzində istirahət edəcək, Bakı və Bakı ətrafındakı əsas tarixi-mədəniyyət ocaqlar ilə tanış olacaqlar. Bu layihə "Gürcüstanda yaşayan azərbaycanlıların Gürcüstan cəmiyyətinə inteqrasiyası ilə bağlı tədbirlər planı"na uyğun olaraq Gürcüstanda yaşayan gənclərin tarixi Vətənləri ilə əlaqələrinin möhkəmləndirilməsi, milli-mənəvi dəyərləri, mədəniyyəti haqqında daha da geniş şəkildə məlumatlandırılması və yay tətilinin səmərəli təşkili məqsədi ilə həyata keçirilir. Layihə artıq 4 ildir ki, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə gerçəkləşdirilir.

Bir həftə ərzində Gürcüstanda yaşayan gənc soydaşlarımız iyulun 27-də Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edəcək və Şəhidlər Xiyabanında Vətən uğrunda şəhid olan qəhrəmanların xatirəsini yad edəcəklər. Tələbələrin Heydər Əliyev Fondu, İçəri Şəhərin memarlıq abidələri, Şirvanşahlar Sarayı və Qız Qalası ilə tanışlığı da proqrama daxildir. Bundan başqa soydaşlarımız Atəşgahı gəzəcək, Qobustan Dövlət Qoruğuna, həmçinin "Qala" Dövlət tarixi-etnoqrafik qoruğuna gedəcəklər.

Tələbələrə Azərbaycan tarixi mövzusunda mühazirələr söylənəcək, folklorumuz haqqında ətraflı bilgilər veriləcək, ayrıca olaraq Azərbaycan mətbəxi ilə bağlı seminar təşkil olunacaq. Soydaşlarımız Azərbaycan Respublikası Əsir və Girov Götürülmüş, İtkin Düşmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının nümayəndələri ilə də görüşəcəklər. Onlara Milli Təhlükəsizlik Nazirliyinin sənədli xronoloji materialları əsasında çəkilmiş "Azərbaycanda erməni terrorizminin izi ilə" filmi göstəriləcək. Gürcüstanda yaşayan azərbaycanıl gənclərin səfəri proqramına Azərbaycanda fəaliyyət göstərən gənclər təşkilatlarının təmsilçiləri ilə görüş də daxil edilib. Qeyd edək ki, 80 nəfərlik qrupa Gürcüstandakı azərbaycanlı gənclərdən ibarət QHT-lərin təmsilçiləri və bu ölkənin ali məktəblərində təhsil alan soydaşlarımız daxildir.

26-31 iyul 2010

Qənirə Paşayeva ilə Azərbaycanda səfərdə olan Gürcüstandakı azərbaycanlı tələbə və gənclər təşkilatlarının bir qrup nümayəndəsinin görüşü keçirilib

Millət vəkili, Milli Məclisin (MM) Azərbaycan-Gürcüstan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Qənirə Paşayeva ilə Azərbaycanda səfərdə olan Gürcüstandakı azərbaycanlı tələbə və gənclər təşkilatlarının bir qrup nümayəndəsinin görüşü keçirilib.

Gürcüstandakı azərbaycanlı tələbə və gənclər təşkilatlarının bir qrup nümayəndəsinin Azərbaycana məlum səfəri "Gürcüstanda yaşayan azərbaycanlıların Gürcüstan cəmiyyətinə inteqrasiyası ilə bağlı tədbirlər planı"na uyğun olaraq Gürcüstanda yaşayan gənclərin tarixi vətənləri ilə əlaqələrinin möhkəmləndirilməsi, milli-mənəvi dəyərləri, mədəniyyəti haqqında daha da geniş şəkildə məlumatlandırılması və yay tətilinin səmərəli təşkili məqsədi ilə reallaşdırılır.

Görüşü açan Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Füzuli Nəcəfov Q.Paşayevanın geniş təqdimata ehtiyacı olmadığını bildirərək qeyd edib ki, adıçəkilən millət vəkili Gürcüstan azərbaycanlılarına və ictimaiyyətinə çox yaxından tanış olan bir şəxsdir. "Qənirə xanım dəfələrlə Gürcüstanda olub, bu ölkədə yaşayan azərbaycanlılarla çoxsaylı görüşlər keçirib və gürcüstanlı soydaşlarımızın problemlərinin, qayğılarının həlli istiqamətində böyük səylər göstərib, böyük işlər görüb" - deyə F.Nəcəfov bildirib.

"Bura sizlərə yad yer deyil. Bura sizlərin də vətəni sayılır"–deyən Q.Paşayeva isə görüş iştirakçılarının çoxunun ona tanış olduğunu bildirib: "Mən bir çoxlarınızı şəxsən yaxından tanıyıram, ancaq sizlərdən elələri var ki onları ilk dəfədir görürəm. Mən bu görüşə sizinlə səmimi şəkildə müzakirə, diskussiya aparmaq üçün gəlmişəm. Bilmək istəyirəm ki, sizlər burada olduğunuz müddətdə nələrlə tanış olmusunuz, daha çox nələr yadınızda qalıb?" Buna cavab olaraq, görüş iştirakçılarından bəziləri Bakıda olduqları bir neçə gün ərzində Azərbaycanın tarixi memarlıq abidələri, konkret olaraq, Qız Qalası, Şirvanşahlar sarayı, Atəşgah abidəsi ilə tanış olduqlarını, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasında bir qrup tarixçi, Folklor İnstitutunun əməkdaşları ilə görüşdüklərini, həmçinin Şəhidlər Xiyabanını, Fəxri Xiyabanda Heydər Əliyevin məzarını ziyarət etdiklərini bildiriblər.

Q.Paşayeva öz növbəsində "millətinin tarixini bilməyən insana mən bütöv insan kimi baxmıram" - deyə bildirib və əlavə edib ki, tarixən Gürcüstanda, öz ata-baba yurdlarında yaşayan soydaşlarımız, xüsusilə gənc azərbaycanlılarımız dövlətləri Gürcüstanla yanaşı, xalqımızın tarixini və mədəniyyətini geniş şəkildə öyrənməli və təbliği istiqamətində öz bilik və bacarıqlarını əsirgəməməlidirlər. Millət vəkili görüş iştirakçılarına virtual məkanın imkanlarından da maksimum dərəcədə səmərəli istifadə etməyi məsləhət görüb: "Təəssüf ki, gənclərimizin bir hissəsi bu imkandan ağıllı istifadə etmək, yararlanmaq əvəzinə tamamilə başqa məqsədlərlə yararlanırlar. Ancaq mən hesab edirəm ki, sizlər bu virtual məkandan çox ağıllı şəkildə istifadə edərək həm özünüzə, həm gürcüstanlı soydaşlarımıza, həm də bütövlükdə Azərbaycan insanına çox böyük xeyirlər verə bilərsiniz".

Millət vəkili deyib ki, harada yaşamasından asılı olmayaraq Azərbaycanın torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal olunması, 1 milyon azərbaycanlının qaçqın və məcburi köçkün həyatı yaşaması hər bir azərbaycanlını ciddi narahat etməlidir və onlar ermənilərin yalan təbliğatlarının qarşısının alınması istiqamətində və Azərbaycan həqiqətlərinin yayılması istiqamətində fəal iş aparmalıdırlar. Millət vəkili gənclərə Heydər Əliyev fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə bu istiqamətdə görülən işlər barədə də danışıb. O bildirib ki, Azərbaycandan kənarda o cümlədən Gürcüstanda yaşayan Azərbaycanlılar daim Azərbaycan dövlətinin və prezidentinin diqqət mərkəzindədir. Qənirə Paşayeva prezident İlham Əliyevin göstərişləri əsasında Gürcüstanda həyata keçirilən layihələri və Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələri də xatırladıb və vurğulayıb ki, bu cür işlər iki ölkə arasındakı münasibətləri daha da inkişaf etdirmək, Gürcüstanın inkişafına dəstək göstərməklə yanaşı xüsusilə orada yaşayan soydaşlarımızın həyata şəraitinin, təhsilinin daha da yaxşılaşdırılmasına xidmət edir.

Görüş zamanı millət vəkili Gürcüstan azərbaycanlıları, xüsusilə qızlar arasında erkən nikah hallarının artmasından da narahatlığını bildirib və sözlərinə əlavə edib ki, bu problemin aradan qaldırılmasında hər kəs xüsusilə də qeyri-hökumət təşkilatları öz iradəsini ortaya qoymalı, kəndlərdə ciddi maarifləndirmə işləri aparmalıdırlar.

Görüş zamanı digər aktual məsələlər ətrafında da fikir mübadiləsi və diskussiya aparılıb. Sonda qeyd edək ki, 74 nəfərdən ibarət olan Gürcüstan azərbaycanlılarının Azərbaycana səfəri bu gün başa çatır. Bu layihə artıq 4 ildir Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə gerçəkləşdirilir.

31 iyul 2010

Ankarada yeni təşkilat – Türkiyə-Azərbaycan Dərnəyinin təqdimatı olub

Türkiyənin paytaxtı Ankarada yeni təşkilat–Türkiyə-Azərbaycan Dərnəyinin təqdimatı olub. "TürkSAM"ın Ankara ofisində baş tutan mərasimdə Azərbaycan və Türkiyənin siyasətçiləri, dövlət, hökumət nümayəndələri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, habelə Azərbaycan və türkiyə jurnalistləri iştirak ediblər. Toplantıda aktual problemlər, Türkiyə ilə Azərbaycan arasında əməkdaşlığın gücləndirilməsi və iki qardaş xalqın həmrəyliyinin gücləndirilməsində qeyri-hökumət təşkilatlarının rolu müzakirə olunub. Türk Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Sinan Oğan dərnəyin rəhbəri seçilib. O bildirib ki, "yeni təşkilat klassik mənada dərnək olmayacaq və peşəkar lobbiçilik siyasətinin yürüdülməsi məqsədilə yaradılıb.

Bu təşkilat Dağlıq Qarabağ münaqişəsinin əsl səbəbləri, Xocalı soyqırımı, ermənilərin Türkiyəyə və Azərbaycana qarşı əsassız torpaq iddiaları, erməni terroru kimi məsələlərin dünya ictimaiyyətinə çatdırılması və ermənilərin yalan üzərində qurulmuş siyasətinin iflası istiqamətində güclü iş aparacaq". Təqdimat mərasimində dərnəyin fəaliyyət istiqamətləri, həyata keçiriləcək intellektual tədbirlər ətrafında da fikir mübadiləsi aparılmış, təşkilati məsələyə baxılıb.

02 avqust 2010

NAYO-nun yeni saytı Azərbaycan və Norveç haqqındı məlumat mərkəzi olacaq

Ramil Əliyev: "Bu layihədə məqsədimiz iki ölkə arasında dostluğa, əməkdaşlığa dəstək verməkdir"

Müsahibimiz Norveç Azərbaycanlıları Gənclər Təşkilatının sədri, ötən il Norveçin ən aktiv və akademik gənci seçilən Ramil Əliyevdir.

- Norveç Azərbaycanlıları Gənclər Təşkilatı (NAGT(NAYO)) 2006-cı ildə yaradılıb. Təşkilatımızda aktiv kütlə, yeni həm norveçli, həm də azərbaycanlı gənclər təmsil olunur. Onu da qeyd edim ki, təşkilatımızın başqa diaspor təşkilatlarından fərqi ondadır ki, biz Azərbaycanı xaricdə akademik səviyyədə təmsil edirik. Təşkilatımız tərəfindən bir sıra maraqlı layihələr həyata keçirilib. Belə ki, Oslo Universitetində "Azərbaycanın Cənubi Qafqazdakı geosiyasi rolu", "Qafqaz müharibədən sonra" mövzusunda seminarlar keçirmişik. Bu seminarlardan sonra bir qrup norveçli tələbədə Azərbaycana çox böyük maraq yaranıb. Həmin tələbələr bizimlə əlaqə yaradıb və Azərbaycana gəlmək istədiklərini bildiriblər. Beləliklə, təşkilatımızın təşəbbüsü ilə Azərbaycana bir qrup norveçli gəncin gəlməsinə nail olduq. Onlar ölkəmizdən maraqlı məlumatlarla və xoş təəssüratlarla Norveçə dönüblər. Artıq bu cür layihələr səbəb olub ki, biz orada Azərbaycanın dostları olan kiçik bir cəmiyyət formalaşdırmışıq. Bundan başqa biz daha maraqlı bir mədəniyyət layihəsiylə də çıxış etmişik. Bu layihə Azərbaycandan gələn müğənnilərin sayına, ifaçıların janr müxtəlifliyinə, həm də auditoriyada olan insanların say çoxluğuna görə fərqli və maraqlı bir layihə olub. Eyni zamanda bu layihənin özəlliyi ondan ibarət idi ki, biz sözügedən layihə çərçivəsində Norveçdə olan Azərbaycan təşkilatlan ilə əməkdaşlıq etdik və həmrəy olduq.

Onu da qeyd edim ki, təşkilatımız 2009-cu ildə Norveçin Gənclər Konsulluğuna üzv seçilib. Xatırladım ki, sözügedən təşkilat "çətir" altında Norveçdə aktiv olan 70-dən çox təşkilatı birləşdirir. Çox sevindirici haldır ki, biz də belə bir təşkilata üzv olduq. Bura qəbul olunmağın əsas şərtlərindən biri odur ki, təşkilat demokratik və aktiv olmalıdır. Bu göstəricilər təşkilatımızda olduğu üçün bizi üzv kimi qəbul etdilər. Bundan sonra NAGT haqqında müəyyən məlumatlar virtual olaraq yayımlandı. Təşkilatımızın üzvlərinə gəldikdə qeyd edim ki, 2009- cu ilə qədər marağımızda deyildi ki, üzvlərimiz arasında sənədləşmə aparaq. Çünki biz buna ehtiyac hiss etmirdik. Ona görə ki, biz seminarlar, konsertlər və bir sıra başqa maraqlı layihələr həyata keçirmişik. Bu tədbirlərdə 340-600 nəfər arasında iştirakçı olub.

Yəni biz həmişə kiçik, ancaq insanların marağına səbəb olan müxtəlif layihələr keçirdiyimizə görə ola bilsin ki, üzvlərimiz zövqlərindən asılı olaraq bütün tədbirlərə eyni sayda gələ bilməyiblər. Hər kəs öz zövqünə və istəyinə uyğun tədbirə gəlir və iştirak edir. Amma biz Norveçin Gənclər Konsulluğuna üzv olduğumuz üçün onlar bir növ üzərimizə öhdəlik qoydular ki, biz üzvlərimizin sayını sənədləşdirməliyik. Bundan irəli gələrək 2009-cu ilin aprel ayından bu sənədləşmə işini apardıq.

Bu gün təşkilatımızın təxminən 150-160-a yaxın üzvü var. Qeyd edim ki, bunlar yalnız 26 yaşından aşağı olan gənclərdir. Onu da qeyd edim ki, təşkilatımızın adında gənclər sözü olmasına baxmayaraq biz orada həqiqətən Azərbaycanla bağlı böyük siyasi, ictimai layihələr həyata keçiririk. Məlumat üçün qeyd edim ki, 2007-ci ildə Norveçin Menecment İnstitutunda "Azərbaycanın yüksələn iqtisadi investisiya imkanları" mövzusunda biznes- forum keçirmişik. Forumda Norveçin böyük firmaları, banklar və başqa bir sıra nüfuzlu təşkilatlar iştirak ediblər. Bundan əlavə Norveçin Xarici İşlər institutunda "Azərbaycanın Cənubi Qafqaz geopolitikasında rolu" mövzusunda keçirdiyimiz seminarda Norveçdə olan xarici ölkə səfirləri və parlament üzvləri iştirak ediblər.

Biz milli bayramlarımızı, xalqımızın yaddaşına yazılmış tarixi faciələri hər il oradakı azəri diaspor təşkilatlan ilə həmrəy olaraq yüksək səviyyədə həyata keçiririk. Tədbirlərdə azərbaycanlılarla yanaşı norveçlilər və digər əcnəbilər də iştirak edirlər. Həmçinin NAYO tərəfindən bu il 20 Yanvar və Xocalı faciələri ilə bağlı genişmiqyaslı işlər görülüb. Xocalıya həsr etdiyimiz forumda Norveçin Xarici İşlər Nazirliyinin, Helsinki İnsan Hüquqları Komitəsinin, STATOYL neft şirkətinin nümayəndələri və ölkəmizin İsveçdəki səfiri Rafael İbrahimov da iştirak edib.

- Reallaşdırılması nəzərdə tutulan layihələrdən biri "Virtual Həftə Sonu" məktəb layihəsidir. Siz bu layihənin dünya azərbaycanlıları üçün əhəmiyyətini necə dəyərləndirirsiniz?

- Bu çox vacib bir layihədir, ona görə ki, Norveçdə yaşayan azərbaycanlıların Azərbaycan dilində akademik təhsil almaq imkanları yoxdur. Ailədə isə onlar ancaq Azərbaycan dilində ünsiyyəti öyrənirlər. Bu baxımdan da xaricdə yaşayan azərbaycanlılar, əsasən də cənubi azərbaycanlılar və gənc nəsilin nümayəndələri olan azərbaycanlıların Azərbaycan dilini akademik səviyyədə bilməsi çox vacibdir. Xaricdə yaşayan azərbaycanlıların əksəriyyəti ana dilində yazıb-oxuya bilmirlər, ancaq danışa bilirlər. Bu bizim əsas problemimizdir. Hazırda dünyada internet şəbəkəsi çox yaxşı inkişaf edib və hər kəsin də evində kompyuter var. Onun üçün də " Virtual Həftə Sonu" məktəb layihəsinin yaranması çox önəmlidir.

Bir maraqlı faktı da qeyd edim ki, mən Azərbaycana gəlməmişdən əvvəl Norveçdə olan başqa azərbaycanlı təşkilatlarla görüşüm olub ki, onlarla birgə Azərbaycan dili məktəbləri, yəni dərnəklər yaradaq və bu dil kurslarında Norveçdə təhsil alan azərbaycanlı tələbələr orada yaşayan azərbaycanlılara dil öyrətsinlər. Əminəm ki, yaxın gələcəkdə bu layihəmiz də gerçəkləşəcək.

- Sizcə, bu gün artıq diaspor təşkilatları təşkilatlanma işini bitirib praktik fəaliyyətə başlayıblar?

- Mən ancaq Norveç haqda danışa bilərəm. Ümumiyyətlə, təşkilatların formatları başqadır. Məsələn, bizim təşkilat qeyd etdiyim kimi, Azərbaycanın müsbət imicini akademik səviyyədə xaricdə təmsil edir. Biz təşkilatlanma mərhələsinə təşkilatımız yarananda, yəni 2006-cı ildən başlamışıq. Artıq bu mərhələ arxada qalıb. Eyni zamanda Norveçdə olan başqa təşkilatlarla əlaqə saxlayırıq və əməkdaşlıq da edirik. Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) keçirdiyi layihələr çərçivəsində Azərbaycana tez-tez dəvət olunuram. Bu zaman çox gözəl imkanlar yaranır ki, başqa ölkələrdə yaşayan azərbaycanlı təşkilatlarla ünsiyyət quraq və tanış olaq. Ötən ilin yayında Norveçdə konsert təşkil etdiyimiz zaman İsveç və Danimarkadan olan Azərbaycan təşkilatlan da bizə qatılmışdı və orada olan azərbaycanlılar konsertə gəlmişdilər. Gələcək layihələrimizin birində Norveçə Estoniyada fəaliyyət göstərən istedadlı sənətkar Rauf Avşarovun rəhbəri olduğu Kukla Teatrmı dəvət edəcəyik. Eyni zamanda Norveçdə azərbaycanlıların radiosu var və həftədə iki dəfə efirə çıxır. DİDK ilə əlaqələrimiz yaxşıdır. Komitə metodiki cəhətdən bizi istiqamətləndirməkdə yardımçı olur. Eyni zamanda bir sıra layihələrdə iştirakımıza imkan yaradır.

- Xarici ölkələrdə Azərbaycanla bağlı kitablar azdır. Bu sizə orada ölkəmizlə bağlı materiallar əldə etməkdə problem yaradırmı?

- Bu gün Azərbaycanla bağlı xarici ölkə kitabxanalarında kitablar azlıq təşkil edir. Çox istərdim ki, ölkəmiz haqqında Avropa düşüncəsinə uyğun olan elmi və tarixi kitablar yazılsın. Biz də onları imkanımız daxilində çalışdığımız xarici ölkələrdə kitabxanalar və insanlar arasında yayaq. Onu da qeyd edim ki, artıq təşkilatımızda belə bir ənənə formalaşıb ki, keçirdiyimiz sərgilərdə, tədbirlərdə Azərbaycanla bağlı kitab, jurnal, broşürləri tədbirə gələn norveçlilərə və əcnəbilərə hədiyyə edirik. Bizə əsasən dediyim istiqamətdə materiallar, kitablar Heydər Əliyev Fondu və DİDK tərəfindən verilir, eyni zamanda Norveçə gələn azərbaycanlı elm adamları ilə görüşəndə hədiyyə edirlər.

Erməni təbliğat maşım Norveçdə bir o qədər də geniş vüsət ala bilməyib. Norveçin müstəqil mətbuatında yazılanlar dövlətin, hökumətin mövqeyinin göstəricisi hesab oluna bilməz. Amma Norveçdə hər hansı mətbu orqanda Azərbaycan əleyhinə çox ciddi təhriflərə yol verilmiş yazıya rast gəlməmişəm. Norveç və Azərbaycan dost ölkələrdir. Eyni zamanda biz Norveç azərbaycanlıları olaraq Norveçdə Azərbaycanla bağlı informasiya boşluğunu doldurmaq üçün əlimizdən gələni əsirgəmirik. Çox hallarda ölkəmizə aid olan məlumatları cəmiyyətə NAYO ötürdüyü üçün çevrəmizdəki insanların Azərbaycan reallıqları haqqında ətraflı və dolğun bilgiləri var. Bu da erməni təbliğat və təxribatının qarşısını alır. İndiyədək Norveçdə hər hansı bir nəşrdə ermənilərin Dağlıq Qarabağı Ermənistanın tərkib hissəsi kimi göstərməsi faktı ilə qarşılaşmamışam. Ancaq təbii ki, bu kimi təxribatlardan Norveç mətbuatı da sığortalanmayıb. Mütəmadi olaraq mətbuatı izləyirik, belə halla rastlaşsaq, lazımi tədbirlər görəcəyik.

- Norveçliləri Azərbaycanla bağlı maraqlandıran tərəflər hansılardır?

- Yeni müstəqillik qazanmış dövlət kimi ümumilikdə Azərbaycan Norveç cəmiyyəti üçün yenidir və maraqlıdır. Eyni zamanda Azərbaycanda Norveçin böyük iqtisadi maraqları var. Hazırda bir sıra Norveç şirkətləri Azərbaycanda çalışır. Bu səbəbdən də Azərbaycanda cərəyan edən bir sıra siyasi-ictimai hadisələr Norveç mətbuatında işıqlandırılır. Elə bu da səbəb olur ki, norveçli tələbələr Azərbaycana gəlmək istəyirlər. Biz də imkan yaradırıq ki, qeyri-azərbaycanlılar ölkəmizə gəlsinlər və Azərbaycan haqqında ətraflı öyrənsinlər. Məsələn, bizim təşkilatın təşəbbüsü ilə polşalı fotoqraf xanım və bir norveçli jurnalist Azərbaycana gəlmişdi. Fotoqraf Azərbaycan haqqında maraqlı sərgi təşkil edib, jurnalist xanım məqalələrini Norveç mətbuatında dərc edib. Bu cür layihələr səbəb olur ki, Norveçdə Azərbaycanı tanıyır və sevirlər. Norveçlilərin ölkəmizdə daha çox sevdiyi tarixi məkanlar "Yanardağ" və "Qobustan" Tarixi-Memarlıq qoruğudur.

- Qarşıda hansı yeni planlarınız var?

- Bu il də ənənəvi olaraq. Norveçdə 1947-ci ildən fəaliyyət göstərən "Beynəlxalq Yay Məktəbi"nə qatılmışıq. 2005-ci ildən bu ilədək NAYO xüsusi bir layihə ilə "Beynəlxalq Yay Məktəbi"ndə Azərbaycanı təmsil edir: "Bu layihə çərçivəsində dünyanın 100-dən artıq ölkəsindən 650-yə yaxın gənc bir araya toplanıb. Gələcəyin tanınmış liderləri olacaq gənclərlə indidən əlaqələr qurmaq fikrindəyik. Orada festival keçirməyi, Azərbaycan mədəniyyətini, ənənələrini, tarixini dünya kontingentinə yüksək səviyyədə təqdim etməyi düşünürük. Bu il həmçinin Osloda böyük sərgi layihəsi, həmçinin 18 Oktyabr Müstəqillik Günü ilə bağlı böyük bir tədbir təşkil etməyi planlaşdırırıq. Sentyabr-oktyabr ayında parlamentlər səviyyəsində seminarın, eləcə də bu yaxınlarda Skandinaviya ölkələrində azərbaycanlı gənclərin forumunun hazırlıqları ilə məşğuluq. Qarşıda hələ həyata keçiriləcək çoxlu layihələr var. Zamanla bütün bu işlərin öhdəsindən gələcəyimizə inanıram.

Skandinaviya ölkələrində yaşayan azərbaycanlı gənclərlə əlaqə saxlayandan sonra qərara gəldik ki, NAYO-nun təcrübəsini başqa Skandinaviya ölkələrində də tətbiq edək. Hazırda Skandinaviya ölkələrində yaşayan azərbaycanlı gənclərin forumuna hazırlaşırıq və əminəm ki, bu, maraqlı bir layihə olacaq.

Hazırda NAYO-nun yeniləşmiş saytının tamamlanma işləri ilə məşğuluq. Bu çox vacib və böyük layihədir. internet səhifəsinin texniki hissəsi "İrəli" gənclər təşkilatının maliyyə dəstəyi ilə hazırlanıb. Layihənin ilkin mərhələsini sentyabrın 1-də bitirmək və səhifəni internetə yükləmək istəyirik. NAYO-nun yeni saytını həm Azərbaycan, həm də Norveç haqqında məlumat mərkəzi etmək istəyirik.

Bu layihədə məqsədimiz iki ölkəyə dair siyasi, mədəni, elmi, iqtisadi və digər sahələrdə informasiya bazası rolunu oynamaq və iki ölkə arasında dostluğa, əməkdaşlığa dəstək verməkdir. Düşünürük ki, ən qısa zamanda sayt Azərbaycan haqqında elmi iş yazan, tədqiqat aparan hər bir insan üçün uyğun və lazımi internet səhifəsi olacaq. İnternet səhifəmizdə xüsusən Qarabağ münaqişəsi, erməni vəhşilikləri və onların törətdikləri fəsadlar haqqında dünya ictimaiyyətini məlumatlandırmaq istəyirik. Yeniləşmiş internet səhifəsində mədəniyyət, turizm, gənclər, siyasət, tarix, coğrafiya, iqtisadiyyat, təhsil, Qarabağ münaqişəsi və sair bölmələr olacaq. Səhifədə eyni zamanda konsulluq xidmətləri, sərgilər, iki ölkə arasında ikitərəfli əlaqələr haqqında və digər rəsmi bölmələr yerləşdiriləcək. Bir sözlə, yeni səhifə azərbaycanlılar üçün Norveç haqqında ən geniş məlumat olan səhifə, norveçlilər üçün isə Azərbaycan haqqında dolğun məlumat mərkəzi olacaq. İlkin mərhələdə səhifəni Azərbaycan dilində hazırlayıb sonra Norveç və ingilis dillərinə tərcümə edəcəyik. Buna səbəb informasiyanın Azərbaycan dilində daha çox olmasıdır. Xüsusən də qeyd etməliyəm ki, ingilis və Norveç dilindəki səhifələr Avropa auditoriyası və psixologiyasına uyğun hazırlanacaq.

“Palitra” – 2010 - 3 avqust.-N.82.-N.6.

«Diasporumuzun güclü olması üçün sistemli işləmək lazımdır»

Tomris Azəri: "Adını diaspor qoyan üzdəniraq insanlar işimizi pozurlar"

Dünyanın hegemon dövləti olan ABŞ-da diaspor təşkilatlarımız fəaliyyət göstərir. Onların arasında Amerika Azərbaycanlıları Cəmiyyəti öz fəallığı ilə seçilir. Amerika Azərbaycanlıları Cəmiyyətinin digərlərindən fərqi həm də ondadır ki, onun yaranması çoxillik tarixə malikdir. Cəmiyyətin hazırkı sədri Tomris Azəri ilə söhbətimiz Azərbaycan diasporunun fəaliyyəti haqqında bu və ya digər məsələlərlə bağlıdır:

- Amerika Azərbaycanlıları Cəmiyyəti ötən əsrin 50-ci illərində yaranıb. Bu cəmiyyəti Amerikaya gələn ata-babalarımız yaradıb. Onların bu cəmiyyəti yaratmaqda məqsədləri Amerikada doğulub-böyüyən gələcək nəsillərə Azərbaycan dilini, tarixini, mədəniyyətini öyrətmək olub. Öz hesablarına cəmiyyət üçün bina alıb onun üzərinə vətənimizin bayrağını asıblar. Bizlərin hər biri o bayrağın altında böyüyüb. 1957-ci ildə Azərbaycanın milli bayrağı olmadığı halda biz buradakı amerikalılara xəritədə Azərbaycanı göstərirdik. Məktəblərdə vətənimizin tarixini öyrənir, milli rəqslərimizi oynayırdıq. Bizim üçün Azərbaycan var idi. Amerika Azərbaycanlıları Cəmiyyətini quran ata-babalarımız yalnız bunu istəyirdi. Onların övladları, nəvələri Azərbaycanı Amerikada yaşatsınlar.

- Tomris xanım, məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk sənaye maqnatları sizin babalarınız olublar. Bu faktorun özü Amerika Azərbaycanlıları Cəmiyyətinin yaranmasında nə kimi rol oynayıb?

- Mənim ata-babalarım üçün Azərbaycandan gözəl məmləkət, azərbaycanlılardan yaxşı insan yox idi. Onlar bu yurd sevgisini, vətənpərvərliyi bizə də öyrətdilər. Amerikada məskunlaşsalar da, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparmaqda davam edirdilər. Babam davamlı olaraq Amerikada yaşayan azərbaycanlıları cəmiyyətə toplamağı, onlarla söhbət etməyi xoşlayırdı. Onlar bilirdilər ki, ölkəmiz nə vaxtsa öz müstəqilliyini əldə edəcək və ona görə də bizi vətənpərvər ruhda böyüdərək həmin günlərə hazırlayırdılar.

- İndi isə belə bir missiya sizin üzərinizə düşüb. Müasir dövrdə Amerika Azərbaycanlıları Cəmiyyətinin fəaliyyəti sizi qane edirmi?

- Cəmiyyətin ilk qurulduğu günlərdə ata-babalarımız çox iş görüblər və istədiklərinə də nail olublar. 1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdikdən sonra diasporumuzun fəaliyyətinin genişləndirilməsi istiqamətində gördüyümüz işlər çoxdur. Lakin mən bunlarla qane olmuram. Çünki Amerika xalqı hələ də həqiqətləri bilmir. Bu ölkənin qanunvericiliyi bizim tərəfimizdə deyil. Onlar hələ də Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri təfərrüatı ilə bilmirlər. Əksinə, düşmənlərimizin bu istiqamətdə uydurduqları yalanlara daha çox inanırlar. Bütün bunları özlüyümdə düşündükdən, müqayisə etdikdən sonra bu qənaətə gəlirəm ki, demək, biz hələ yaxşı işləmirik.

- Necə düşünürsünüz, əvvəlki illərə nisbətən cəmiyyətin fəaliyyətində hansı irəliləyişlər var?

- Əgər Amerika Azərbaycanlıları Cəmiyyətinin fəaliyyətini əvvəlki illərlə müqayisə etsək, görərik ki, ideyalarımızda dəyişiklik var. Amma deyə bilərəm ki, ötən illərə nisbətən güclənmişik. Diaspor təşkilatlarının birləşməsi, onların gücləndirilməsi ideyası ilk dəfə 2001-ci ildə keçirilən Dünya Azərbaycanlılarının Qurultayında ümummilli liderimiz Heydər Əliyev tərəfindən ortaya qoyuldu. Onun bu istiqamətdə çıxışı bütün dünya azərbaycanlıları kimi məni də çox həyəcanlandırdı. Dahi rəhbərin belə bir çıxışı bizlərə böyük ümid və stimul vermiş oldu. İndi isə belə bir dəstəyi bizə prezidentimiz İlham Əliyev verir. İki il öncə Nyu-York şəhərində 50 illik yubileyimizi qeyd etdik. Bunun üçün Azərbaycan Prezidenti İlham Əliyev bizə çox böyük dəstək verdi. Diasporumuz gündən-günə güclənir, gördüyümüz işlər az deyil. Lakin buna baxmayaraq, həll olunmayan problemlərimiz də var.

İllər keçdikcə bizi birləşdirməyə çalışanlarla yanaşı, bölmək istəyənlər də tapılırdı. Təəssüf ki, bunlar azərbaycanlılar idilər və belə insanlar öz mənafelərini düşünərək bu addımları atırdılar. Amerikada gənclərimizə sahib çıxacaq heç kimimiz yoxdur. Bizim öz binamız və məscidimiz olsa da, görəcəyimiz işlər üçün vəsaitimiz yoxdur. Buna görə də bir yerə yığışıb toplantılar keçirə bilmirik. Əgər yerimiz yaxşı olsa, gənclər yığışar, işimizi davam etdirərlər. ABŞ böyük dövlətdir. Onun hər ştatında, hər şəhərində diasporumuzun fəaliyyət göstərməsi üçün məkan olmalıdır ki, azərbaycanlılar da yığışıb müxtəlif tədbirlər keçirə bilsinlər. Digər tərəfdən, Amerikanın ən böyük muzeylərindən olan Amerika Təbii Tarix Muzeyində və Amerika Tarix Muzeyində Azərbaycanı heç kim tanımır. Qafqaz respublikaları üçün bir yer ayrılıb, orada da yalnız Gürcüstan və Ermənistan təmsil olunur. Şəxsən mən və artıq beş ildir ki, cəmiyyətə üzv olan Erik Yevdayev nə qədər çalışsaq da, bu istiqamətdə bizə heç kim kömək etmir. Çünki adını diaspor qoyan üzdəniraq insanlar işimizi pozurlar. Elə bu səbəbdən Azərbaycan dünyanın ən böyük muzeylərində təmsil olunmur.

- İllər ötdükcə hər bir dövrün özünəməxsus tələbləri yaranır. Bu baxımdan təşkilatlar da öz fəaliyyətlərini həmin dövrün tələblərinə uyğun qururlar. Maraqlıdır, son illər Amerikadakı Azərbaycan diasporunun fəaliyyəti istiqamətində hansı dəyişikliklər yaranıb?

- Neçə illərdir ki, birlikdə çalışdığım gənclər Amerika azərbaycanlılarının İnternet şəbəkəsini yaradıblar ki, bunu irəliyə doğru addım hesab etmək olar. Bunun vasitəsilə eyni anda Amerika konqresinin bütün üzvlərinə, hakimlərə, prezidentə məktublar göndərmək olar. Bu bizim ən vacib fəaliyyətimizdir. Diaspor üzvlərimiz bu şəbəkə vasitəsilə Amerikadakı prezident seçkiləri zamanı çox fəallıq nümayiş etdirdilər.

- Müsahibələrinizdən birində bildirmisiniz ki, ABŞ-dakı erməni diasporu həqiqətən də hər baxımdan güclüdür. Onların Amerikanın hər bir ştatında nüfuzlu himayədarları, təşkilatları, birlikləri var. Sizcə əks-təbliğata qarşı təbliğat işini gücləndirmək üçün nə etmək lazımdır?

- Güclü olmaq üçün sistemli işləmək lazımdır, vahid əqidəmiz, inancımız olmalıdır. Hər bir ermənin inandığı bir məsələ var ki, o da guya Türkiyədə onların "soyqırımı"na məruz qalmalarıdır. Ermənilər bu istiqamətdə hərəkət edir və ona görə də çox güclüdürlər. Bəs bizim Qarabağ dərdimiz, öz ata-baba yurdundan didərgin düşən qaçqınlarımız? Biz də öz diasporumuzu bu istiqamətdə, bu sistemdə gücləndirməliyik.

- Amerika Azərbaycanlıları Cəmiyyətinin gələcək planları nədən ibarətdir?

- Cəmiyyətimizin bayaq adını çəkdiyim Amerika muzeylərində təmsil olunması uğrunda çalışacağıq. Kaliforniyadakı Amerika Azərbaycan Şurası ilə birlikdə iş fəaliyyəti planlarımız var. Ümumiyyətlə, planlarımız çoxdur. Sağlıq olsun.

- Siz Bakıda keçirilən Azərbaycan qadınlarının üçüncü qurultayında iştirak etmişdiniz. Üstündən vaxt keçsə də, toplantı ilə bağlı fikirlərinizi bilmək maraqlı olardı. Sizcə Azərbaycan qadını cəmiyyətdə öz yeri və nüfuzu baxımından hansı irəliləyişlərə nail ola bilib?

- İlk növbədə belə bir nüfuzlu qurultaya dəvət olunmağım mənə çox böyük qürur verdi. Mən Azərbaycanda qadınların güclü olduğunu bilirdim. Lakin Hicran Hüseynova, Bahar Muradova kimi yüzlərlə fəal xanımları gördükdən, dinlədikdən və onların gördükləri işlərlə tanış olduqdan sonra buna bir daha inandım. Bu, çox vacib toplantı idi və qadınlarımızın bir araya gəlməsindən qürur duyuram. Ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva məni hamıdan çox qürurlandırdı. Ümumiyyətlə, Mehriban xanımın şəxsində bu gün Azərbaycan qadınının kim olduğu, onun hansı qüvvəyə malik olduğu, bütün müsbət dəyərləri özündə cəmlədiyi bütün dünyaya məlumdur. Mehriban Əliyevanın Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, İSESKO və YUNESKO-nun xoşməramlı səfiri, millət vəkili kimi gördüyü işlər, beynəlxalq miqyasda həyata keçirdiyi xeyirxah tədbirlər onu bütün dünyaya sevdirib. İnanın ki, xaricdə yaşayan bütün azərbaycanlılar kimi mən də Mehriban xanımla, onun əməlləri ilə böyük qürur duyuram. Həmin qurultayda Leyla xanımın çıxışına hər birimiz heyran olduq. Bir daha əmin olduq ki, Azərbaycan qadınları hər zaman lider olub və öz haqlarına sahib çıxıblar. Bu gün isə biz bunun parlaq nümunəsini görürük.

- Bilirik ki, Amerikada keçirilən son prezident seçkilərində siz böyük fəallıq nümayiş etdirmisiniz. Bu barədə nə deyə bilərsiniz?

- Amerikada keçirilən son prezident seçkilərində Amerika Azərbaycanlıları Cəmiyyətinin üzvləri, eləcə də Amerika azərbaycanlıları fəallıq nümayiş etdirdilər. Mən özüm də daxil olmaqla prezidentin könüllülər ofisində telefonlarla kampaniyalara qoşulduq. Şəxsən mənim dəstəklədiyim Con Makkeyn qələbə əldə edə bilmədi. Amerikada yaşayan hər bir vətəndaş yeni seçilən prezidentə hörmət etməlidir. Biz də Amerika Azərbaycanlıları tərəfindən o zaman Amerikanın yeni prezidenti Barak Obamaya təbrik məktubu göndərdik. Ümid edirəm ki, Amerika-Azərbaycan münasibətləri yaxşı olacaq. Bu mənada ən vacib olanı Amerikadakı diasporumuzun güclü olmasıdır. Əgər bu ölkədəki Azərbaycan diasporu güclü olsa, ölkələrarası əlaqələr də intensiv olar.

"Kaspi" – 2010 -11 avqust -N 137.-S.8.

Azərbaycanın Koreya Respublikasındakı səfirliyində "BUTA" Azərbaycan-Koreya Tələbə Təşkilatının (AKTT) nümayəndələri ilə görüş keçirilmişdir

Azərbaycanın Koreya Respublikasındakı səfirliyində "BUTA" Azərbaycan-Koreya Tələbə Təşkilatının (AKTT) nümayəndələri ilə görüş keçirilmişdir. Səfirlikdən AzərTAc-a bildirmişlər ki, "BUTA" AKTT-nin sədri Eltay Aslanov səfir Rövşən Cəmşidova və görüşdə iştirak edən səfirliyin digər əməkdaşlarına rəhbərlik etdiyi təşkilatın bu ilin martında keçirilmiş ikinci ümumi yığıncağında seçilmiş idarə heyətinin altı aylıq fəaliyyəti barədə ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, bu müddətdə AKTT Azərbaycanın Koreyada daha yaxından tanıdılması məqsədi ilə təbliğat aksiyası keçirmiş, 28 May - Respublika Gününə həsr olunmuş tədbir təşkil etmişdir. Bundan əlavə, bir sıra yerli və xarici tələbə təşkilatları ilə münasibətlərin qurulması istiqamətində mühüm addımlar atılmış, təşkilatın rəsmi internet səhifəsi hazırlanıb istifadəyə verilmişdir.

Eyni zamanda, Eltay Aslanov "BUTA" AKTT-nin perspektiv planları haqqında danışmışdır. Səfir Rövşən Cəmşidov tələbələrin qeyd olunan istiqamətlərdə fəaliyyətini yüksək qiymətləndirmişdir. Diplomat Azərbaycanın Koreyadakı səfirliyinin bu işdə hər zaman tələbələrin yanında olacağını, onların faydalı təşəbbüslərinin reallaşmasına dəstək verəcəyini xüsusi vurğulamışdır. Rövşən Cəmşidov yaxın perspektivdə təşkilatın əyani vəsaitlər fondunun zəruri təbliğat materialları ilə təmin edilməsinə, Koreyada yaşayan müxtəlif xalqların təmsilçilərinin milli futbol komandaları arasında keçiriləcək turnirlərdə iştirak etmək məqsədi ilə yaradılacaq "BUTA" komandasının formalaşmasına hərtərəfli kömək göstəriləcəyini vəd etmişdir. Bundan əlavə, diplomat Koreyada təhsil alan azərbaycanlı tələbələrin ictimai fəaliyyətinin və akademik göstəricilərinin səfirlik tərəfindən mütəmadi qiymətləndiriləcəyini söyləmişdir. Sonda Rövşən Cəmşidov "BUTA" Azərbaycan-Koreya Tələbə Təşkilatının üzvlərinə bundan sonrakı fəaliyyətlərində uğurlar arzulamışdır.

20 avqust 2010

Avqustun 19-dan 20-nə keçən gecə "Borussiya" – "Qarabağ" oyununun yayımı zamanı Almaniyanın ZDF telekanalı tərəfindən təxribata yol verilib

Avqustun 19-dan 20-nə keçən gecə "Borussiya" – "Qarabağ" oyununun yayımı zamanı Almaniyanın ZDF telekanalı tərəfindən təxribata yol verilib. APA-nın xəbərinə görə, bu barədə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov bildirib. Onun sözlərinə görə, həmin oyun telekanal tərəfindən "Borussiya" - "Ağdam" oyunu kimi təqdim edilib. N. İbrahimov "Qarabağ" klubunun adının verilməsinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan üçün təbliğat xarakteri daşıyacağını deyərək, Almaniya kanalı tərəfindən bunun qarşısının alındığını bildirib: "Onlar "Qarabağ" futbol klubunu "Ağdam" klubu kimi təqdim etdilər. Bunu mən özüm gördüm, titrlərdə "Qarabağ" əvəzinə "Ağdam" yazılırdı. Ola bilsin ki, bu, texniki problem kimi görünə bilər. Ancaq hesab edirəm ki, bu, böyük bir təxribatdır və təsadüf olmaya bilər.

Futbol isə indi o qədər kütləviləşib ki, bu oyuna bütün dünya baxır. Bütün dünyanın Dağlıq Qarabağın Azərbaycana aid olmasını "Qarabağ" futbol klubunun adı ilə hiss etməsi ölkəmiz üçün böyük təbliğatdır. Amma görünür kimlərsə – bizi sevməyən qüvvələr bundan narahat olur. Biz belə faktlardan məyus olmamalıyıq, qarşımızda düşmənimiz, bizi sevməyən qüvvələr var. Belə məsələlərə qarşı mübarizədə hamımız aktiv olmalıyıq". N. İbrahimov məsələni araşdıracaqlarını, lazım gələrsə, müvafiq qurumlara müraciət edəcəklərini bildirib: "Bizim qurum yaranandan bu cür təxribatlarla demək olar ki, hər gün rastlaşırıq və hər dəfə onların qarşısının alınması istiqamətində işlər görülür".

20 avqust 2010

“Ankara Azərbaycan Evi”nin təqdimatı olub

Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının təşəbbüsü ilə Ankarada yeni diaspor təşkilatı – “Ankara Azərbaycan Evi”nin təqdimatı olub. Yeni təşkilata Ərdoğan Çeçen rəhbərlik edəcək. Təqdimat mərasimində çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin aparat rəhbəri Nəriman Qurbanov, Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) sədri Bilal Dündar, Türkiyə-Azərbaycan Dərnəyinin sədri Sinan Oğan bildiriblər ki, qardaş ölkədə fəaliyyət göstərən bütün dərnəklər fəaliyyətini birləşdirməli və əlaqələndirməlidirlər.

Onlar Azərbaycan həqiqətlərinin təkcə Türkiyədə deyil, habelə dünyanın müxtəlif ölkələrində təbliği üçün bütün imkanlardan, xüsusilə müasir texnologiyanın nailiyyətlərindən istifadə etməlidirlər. Dağlıq Qarabağ problemi, Xocalı soyqırımı, azərbaycanlıların soyqırımı günü və digər mühüm tədbirlərin Azərbaycanın və Türkiyənin diplomatik nümayəndəlikləri ilə sıx əməkdaşlıq şəraitində keçirilməsi də diaspor təşkilatlarımızın diqqət mərkəzində olmalıdır. TADEF-in təşəbbüsü ilə daha bir təşkilat - “Əskişəhir Azərbaycan Evi”nin də təqdimatı keçirilib.

23 avqust 2010

Qartəpə turizm rayonundakı parka Azərbaycan xalqının ulu öndəri, türk dünyasının dahi şəxsiyyəti Heydər Əliyevin adı verilib

AzərTAc xəbər verir ki, Türkiyənin Kocaeli vilayətindəki Qartəpə turizm rayonundakı parka Azərbaycan xalqının ulu öndəri, türk dünyasının dahi şəxsiyyəti Heydər Əliyevin adı verilib. Bununla bağlı protokolu Diasporla İş üzrə Dövlət Komitəsinin aparat rəhbəri Nəriman Qurbanov və Qartəpə bələdiyəsinin sədri Şükrü Qarabalıq imzalayıblar. Protokolun imzalanmasından əvvəl keçirilən görüşdə Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının sədri Bilal Dündar deyib ki, Qartəpə sakinləri Azərbaycanın milli liderinin adının öz rayonlarında əbədiləşdirilməsindən qürur duyurlar.

Qardaş ölkələrimiz arasında getdikcə möhkəmlənən və bütün dünyaya örnək olan həmrəyliyin əsasını da türk dünyasının dahi şəxsiyyəti Heydər Əliyev qoyub. Onun məşhur "bir millət, iki dövlət" kəlamı bu gün dövlət rəhbərlərimiz və siyasətçilərimizdən tutmuş sadə insanlaradək hamının dilindədir. Qartəpə bələdiyyəsinin sədri Şükrü Qarabalıq da başçılıq etdiyi turizm rayonunda Heydər Əliyevin adını daşıyacaq parkın olmasının bütün sakinləri məmnun etdiyini vurğulayıb, azərbaycanlı qardaşlarla ən qısa zamanda bu parkın açılışını keçirəcəklərini söyləyib.

23 avqust 2010

Türkiyənin Mardin şəhərində "Türk koalisiyası, türk diasporu: sosial-iqtisadi əlaqələr" mövzusunda Dünya Türk Forumu keçiriləcək

Oktyabrın 20-22-də Türkiyənin Mardin şəhərində "Türk koalisiyası, türk diasporu: sosial-iqtisadi əlaqələr" mövzusunda Dünya Türk Forumu keçiriləcək. Bu barədə AzərTAc-a məlumat verən Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin (ATXƏM) sədri İlham İsmayılov bildirmişdir ki, Forumun təşkilatçısı Türk Asiya Araşdirmalar Mərkəzi (TASAM) və Türkiyə Cümhuriyyətinin Mardin valiliyidir. Toplantıda bütün türkdilli dövlətlərin diaspor təşkilatlarının və bu istiqamətdə fəaliyyət göstərən QHT-lərin nümayəndələri iştirak edəcəklər.

ATXƏM-in sədri qeyd etmişdir ki, Dünya Türk Forumunda qlobal və regional problemlərin türk dünyasına təsiri, türk dünyası QHT-lərinin qarşılaşdığı problemlər, türk dünyasında təhsil, elm və mədəniyyət sahəsində QHT-lərin əməkdaşlığı, türk dünyasının gələcəyi üçün vahid layihələrin hazırlanması, türk dünyası mədəniyyət arenası, fərqli mədəniyyətlərdən mədəniyyətlərarası dialoqa, türk dünyasında sosial-iqtisadi vəziyyət, yeni əməkdaşlıq sahələri və təşkilatlanma, ermənilərin sözdə "soyqırım" iddiasına qarşı türk dünyasının vahid işbirliyi kimi mövzuların müzakirəsi nəzərdə tutulur.

24 avqust 2010

“Sərhədləri aşan qardaşlıq” devizi altında təşkil edilən
II Beynəlxalq Ramazan festivalı çərçivəsində Azərbaycan gecəsi keçirilib

Ankaranın Keçiörən rayonunda Mərkəzi Asiya, Afrika və Asiyanın müsəlman ölkələrinin iştirak etdiyi “Sərhədləri aşan qardaşlıq” devizi altında təşkil edilən II Beynəlxalq Ramazan festivalı çərçivəsində Azərbaycan gecəsi keçirilib. Tədbirdə Keçiörən bələdiyyəsinin başçısı Mustafa Ak, Azərbaycanın Türkiyədəki səfirliyinin müşaviri Rəşad Vahabzadə, Türkiyə-Azərbaycan Dərnəyinin sədri Sinan Oğan, Diasporla İş üzrə Dövlət Komitəsinin təmsilçisi Elnar Məmmədov çıxış ediblər. Çıxşlarda bildirilib ki, türk dünyasının dahi şəxsiyyəti, ulu öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamına uyğun olaraq qardaşlıq tellərini gündən-günə gücləndirən xalqlarımız ortaq mədəniyyətə malikdir. Tədbirin bədii hissəsində nümayiş etdirilən Azərbaycan milli rəqs nümunələri, müğənni Cavid Təbrizlinin konserti ankaralıların alqışları ilə qarşılanıb.

Tədbir iştirakçıları festival meydanında açılmış Azərbaycan guşəsi ilə də tanış olublar. Ölkəmizin Türkiyədəki səfirliyinin təşkil etdiyi guşədə Ankara sakinlərinə Azərbaycan haqqında ətraflı məlumat verilib, kitablar, broşürlər, CD-lər paylanıb. Bu kitabların əksəriyyəti ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edir. Tədbir iştirakçıları Azərbaycanın siyasi, iqtisadi və sosial sahədə nailiyyətlərindən bəhs edən filmə də tamaşa ediblər.

30 avqust 2010

Belçikanın "Le Soir" qəzeti dünənki sayında "Barış qadınlardan keçir" adlı konfransı yenidən gündəmə çıxarıb

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Azəri-Türk Qadınlar Birliyinin iştirakı ilə bu ilin may ayında Belçikada keçirilmiş "Barış qadınlardan keçir" adlı konfransı yenidən bu ölkənin nüfuzlu və ən çox oxunan "Le Soir" qəzeti dünənki sayında gündəmə çıxarıb. Bu barədə məlumat isə Belçikada türk dilində çıxan "Yeni Beltürk" qəzetində yer alıb. Qeyd edək ki, Belçika parlamentində keçirilmiş konfransa senatdakı Reform Hərəkatı fraksiyasına başçılıq edən Dominik Tilmans, Azəri-Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı, BMT-nin və xarici ölkələrin bu ölkədəki diplomatik nümayəndələri, eləcə də Ermənistan təmsilçisi qatılmışdılar. Bir neçə ay sonra bu konfransın və onun mövsuzunun yenidən "Le Soir" qəzetinin manşetinə çıxarılmasının səbəbi son günlərdə Azərbaycanla Ermənistan arasındakı cəbhə xəttində vəziyyətin gərginləşməsi, atəşkəsin pozulması nəticəsində əsgərlərimizin şəhid olması ilə bağlıdır. Qəzet Azərbaycanın həm NATO-nun üzvü olmasını, həm də Türkiyə ilə möhkəm strateji tərəfdaşlığını xüsusi vurğulayıb.

"Le Soir" Azərbaycan Prezidenti İlham Əliyevin BMT-yə müraciət etdiyi və bu qurumun qarşıdakı iclaslarında Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə bağlı məsələnin müzakirəsinin vacibliyini söyləməsini də oxuculara xatırladır. Yazıda qəzet Belçika senatoru Dominik Tilmansın da bu məsələ ilə əlaqədar açıqlamasını yayımlayıb. O deyib ki, 21 sentyabr-Beynəlxalq Sülh Günündə Tbilisidə keçiriləcək II konfransa Azəri-Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı ilə Ermənistan təmsilçisi Rima Arekelyan da dəvət olunub. Onlar cəbhə xəttində gərginləşmiş durumun aradan qalxması üçün qadınların hansı işləri görə biləcəyi mövzusunda müzakirələri davam etdirəcəklər. BMT, UNİFEM-in dəstəyi ilə keçiriləcək II konfransda növbəti tədbirin dekabrın 21-də Azərbaycan və ya Ermənistanda, dördüncü toplatının isə gələn il martın 8-də- Beynəlxalq Qadınlar Günündə keçirilməsi məsələsi də müzakirə olunacaq.

03 sentyabr 2010

"Diaspor təşkilatlarının rəhbərliyinə ictimai nüfuzu olmayan şəxsləri gətirirlər"

Elman Mustafazadə: "Belə olanda biz Diasporla İş üzrə Dövlət Komitəsindən inciyirik, həmin şəxslərə müqavimət göstəririk", "Elə erməni diasporunun mütəşəkkil fəaliyyətində də bizim günahımız var"

Qarabağın Hindarx kəndində 1957-ci ildə doğulan Elman Mustafazadə orta məktəbi Şuşada bitirib. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin məzunudur. 1990-cı ildə Polşaya mühacirət edib. 2000-ci ildən Hollandiyada yaşayır. "Azərbaycan dostları" Cəmiyyətinin rəhbəridir. O deyir ki, qürbətə gedəndən altı ay sonra Polşadakı azərbaycanlılarla birləşib diaspor fəaliyyətilə məşğul olmağa başlayıb: "İlk dəfə Polşada Azərbaycanla bağlı təşkilat yarandı. 1994-cü ildə isə "Azərbaycan dostları" Cəmiyyətini qurduq və bu günə kimi bütün Avropada fəaliyyət göstəririk. Son illər fəaliyyətimiz daha da güclənib. 1995-ci ildə qürbət mətbuatını bərpa etdik, "Xudafərin" jurnalının nəşrinə başladıq. Jurnal Azərbaycan, polyak və ingilis dillərində çıxırdı. Baş redaktoru olduğum 120 səhifəlik bu jurnalda Qarabağ problemindən tutmuş Azərbaycanın mədəniyyətinə, tarixinə dair hər cür materiallar yayımlanırdı. Artıq 21 ildir diaspor işilə məşğulam. Azərbaycanın işğal altında olan torpaqlarının məsələsi qaldırılan bir çox önəmli tədbirlərin təşkilatçılarından olmuşam - Polşada da, Belçikada da, Hollandiyada da, başqa ölkələrdə də. Geriyə baxanda görürəm ki, az iş görməmişik". Onun sözlərinə görə, erməni diasporu daha mütəşəkkil fəaliyyət göstərir. Bunda bizim də günahımız var. Bəzən təşkilat yaradıb şübhəli, heç bir ictimai nüfuzu olmayan adamları irəli çəkirlər. Belə olanda biz Diasporla İş üzrə Dövlət Komitəsindən inciyirik, həmin şəxslərə müqavimət göstəririk. Bu günlərdə komitənin sədri Nazim İbrahimovla görüşdüm. İki saata yaxın təkbətək söhbətimiz oldu. İş varsa, tənqid də olmalıdır. Komitəni ən çox tənqid edənlərdən biri də mənəm. Biz təhqir etmirik, tənqid edirik. Nazim müəllimə iradlarımı bildirdim, nəyə görə Avropanın müxtəlif ölkələrindəki gənclərimizi diaspor fəaliyyətinə qoşmadıqlarını soruşdum. O da çox haqlı olaraq mənə dedi ki, nə vaxt siz həmin gəncləri bizə təqdim etdiniz, biz də onları yaxın buraxmadıq? Düzü, duruxub qaldım, çünki komitə o gəncləri tanımaya bilər, onları komitəyə gərək biz tanıdaq. Məsələn, məlum oldu ki, "Azərbaycanın dostları" Cəmiyyətinin Almaniya şöbəsinin rəhbəri Fəxrəddin Hacıbəylinin və digər gənclərin Ermənistan prezidenti Serj Sərkisyanın Berlindəki çıxışı zamanı işğalçıya necə güclü etirazlar səsləndirməsindən komitənin xəbəri olmayıb. Nazim müəllim dedi ki, tədbirləriniz, gördüyünüz işlər barədə komitəyə məlumat çatdırmırsınız. Düzdür, bizim fəaliyyətimizdə də çatışmazlıqlar var. Amma bütün problemləri məsləhətləşmə, qarşılıqlı dialoq yoluyla həll etmək lazımdır". Elman Mustafazadə bildirir ki, Hollandiyada bir təşkilat yaratmışdılar və icraçı direktoru da özü idi: "Gənclərimiz, ziyalılarımız birləşib tədbirlər keçirirdik. Bir də gördük ki, bir nəfər dırnaqarası sədr televiziyaya çıxıb görülən işlərdən danışır. Bu, əməyimizin yerə vurulmasıydı. Başqalarının gördüyü işləri avropada heç bir fəaliyyəti olmayan, adı simvolik olaraq orda-burda hallanan insanların adına yazmaq haqsızlıqdır. Sovet dövründə əməkçilər bütün günü günün altında heydən düşənə qədər işləyirdilər, ömrü boyu kolxozda olmayan, sərgilərdə, tədbirlərdə boş-boş danışıb özünü göstərən adamı isə sədr seçirdilər. Bax diasporu bu kolxoza döndərmək istəyirdilər. Cahilin birini sədr kimi işlərin başına seçdikdə insanlar buna etiraz edir, işləmək istəmir. Biz qürbətdəyik, iqtidar və müxalifətə bölünsək, diasporumuz olmayacaq. Mənim savaşım buna görədir. Ziyalılarımızı, savadlı gənclərimizi toplayaraq qüvvəmizi düşmənə qarşı cəmləşdirməkiyik. Mən bu fikirlərimi Nazim İbrahimova çatdırdım, o, mənə dəstək verdi. Nazim İbrahimova bildirdim ki, siz bu iradlarımızı qəbul edirsiz, səsləndirdiyim fikirlərlə razısınız, lakin məsələ fəaliyyətə gələndə bunu başqa insanlara tapşırırsız. Mən qürbətdə yaşayıram, Azərbaycanda nə vəzifəyə gələnəm, nə də burada yaşamaq fikrim var. Amma mənim vətənim işğal altındadır, məni göynədən budur. Biz milli maraqlarımızı əsas tutub əl-ələ versək, mübarizə aparsaq, o halda fəaliyyətimiz effektli olacaq. Qürbətdə iqtidar-müxalifət davası aparmaq olmaz. Elə insanları seçib başımıza gətirirlər ki, onu diasporda heç kim tanımır. Fəaliyyətin düzgün qurulması üçün iş düzgün seçilmiş insanlara tapşırılmalıdır. Biz ətrafımıza hüquqlarını tələb etməyi bacaran, hesabat tələb etmək potensialına sahib gəncləri toplamalıyıq. Heç bir savadlı gənci valideyni vaxtilə müxalifətçi olub deyə diaspordan kənarlaşdırmaq olmaz. Azərbaycan davasını azərbaycanlılar aparmalıdır. Əgər diaspor işilə məşğuluqsa, diqqətimizi sırf bu istiqamətə yönəltməliyik. Şəxsi mənafe unudulmalıdır, milli mənafe önə çıxmalıdır. Diaspor işində komitə bir yandan, diplomatik korpus bir yandan, təcrübəli ziyalılar digər yandan əlaqəli şəkildə əl-ələ verib ağıllı siyasət yürütməlidir. Əsas dərdimiz də Qarabağ olmalıdır. Mən erməni diasporunun liderlərilə şəxsən tanışam, tədbirlərdə üz-üzə gəlirik. Həmişə bir-birimizlə mücadilədəyik. Əsgər səngərdə top-tüfənglə, biz isə qələmlə, sözlə, məntiqlə savaşırıq. Ancaq biz hələ çox zəifik. Gərək qüvvəmizi cəmləyib təbliğatımızı gücləndirək

Turqut
"Xalq Cəbhəsi" – 2010 - 9 sentyabr - N163.-S.6.

Azərbaycan Respublikasının Almaniyadakı səfirliyi və Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi ölkənin Şimali Rayn-Vestfallen əyalətinin Köln, Bonn, Düsseldorf şəhərlərində fəaliyyət göstərən diasporumuzun nümayəndələri ilə görüş keçirib

Kölndə Azərbaycan Respublikasının Almaniyadakı səfirliyi və Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi ölkənin Şimali Rayn-Vestfallen əyalətinin Köln, Bonn, Düsseldorf şəhərlərində fəaliyyət göstərən diasporumuzun nümayəndələri ilə görüş keçirib. Görüşü AAKM və Köln şəhərində fəaliyyət göstərən Vahid Azərbaycan Cəmiyyəti birgə təşkil edib. Tədbiri açan Vahid Azərbaycan Cəmiyyətinin sədri Elxan Kərimov Şimali Rayn-Vestfallen əyalətindəki Azərbaycan diasporunun fəaliyyəti barədə ətraflı məlumat verib. Azərbaycanın Almaniyadakı Səfirliyinin birinci katibi Fikrət Axundov diplomatik korpusun bu ölkədə fəaliyyət göstərən diaspor təşkilatları və Azərbaycan icması ilə əməkdaşlığından danışıb və bu əməkdaşlığı daha da inkişaf etdirməyin önəmli vəzifələrdən biri olduğunu bildirib.

Sonra çıxış edən AAKM-nin icraçı direktoru Samirə Patzer-İsmayılova isə qurumun fəaliyyətindən bəhs edib. O deyib ki, belə görüşlərin keçirilməsi vacib və əhəmiyyətlidir. Bu cür tədbirlər Azərbaycanın reallıqlarının və uğurlarının dünyada tanıdılması istiqamətində aparılan fəaliyyətin strategiya və taktikasının qurulmasına kömək edir və qarşılıqlı fəaliyyəti daha da gücləndirir. Azərbaycan Səfirliyinin konsulu Elşad Məcidov görüşə toplaşanları maraqlandıran suallara cavab verib. Şimali Rayn-Vestfallen əyalətindəki diaspor nümayəndələri belə bir görüşün təşkili üçün təşəkkürlərini bildirib, Azərbaycanın Almaniyadakı Səfirliyinin soydaşlarımıza göstərdiyi qayğını yüksək qiymətləndiriblər. Görüşdə gələcək birgə layihələr, planlar haqqında da fikir mübadiləsi aparılıb.

15 sentyabr 2010

Nazim İbrahimov Azərbaycanda səfərdə olan Latviyanın sabiq Prezidenti, BMT-nin baş katibinin xüsusi elçisi, Avropa İttifaqının Uzunmüddətli İnkişaf Proqramının həmsədri xanım Vayra Vike-Freyberqa ilə görüşüb

AzərTAc xəbər verir ki, sentyabrın 16-da Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Azərbaycanda səfərdə olan Latviyanın sabiq Prezidenti, BMT-nin baş katibinin xüsusi elçisi, Avropa İttifaqının Uzunmüddətli İnkişaf Proqramının həmsədri xanım Vayra Vike-Freyberqa ilə görüşüb. N.İbrahimov respublikamızın sürətli inkişafı, həyata keçirilən islahatlar, ölkəmizin regionda və dünyada möhkəmlənən mövqeyi, eləcə də Azərbaycan diasporunun yaranması, formalaşması, təşkilatlanması istiqamətində görülən işlər, onun fəaliyyəti barədə ətraflı məlumat verib. O, Latviyadakı Azərbaycan diasporunun inkişaf perspektivləri, onların yerli cəmiyyətə inteqrasiyasından danışıb.

Komitə sədri ölkəmiz haqqında daha ətraflı məlumatların, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əsl həqiqətlərin Latviya ictimaiyyətinə çatdırılmasında bu ölkədə yaşayan soydaşlarımızın yüksək fəallıq göstərmələrinin zəruriliyini qeyd edib. Xanım Vayra Vike-Freyberqa Azərbaycanda müşahidə etdiyi iqtisadi inkişafı, böyük dəyişiklikləri yüksək qiymətləndirib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan sabiq Prezident, ölkəsinin məsələnin sülh yolu ilə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarı olduğunu vurğulayıb.

Görüşdə Azərbaycan-Avropa İttifaqı münasibətlərinin vəziyyəti və perspektivləri müzakirə olunmuş, regional, qlobal və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

16 sentyabr 2010

Neva çayı sahilində Xatirə və Şərəf Beynəlxalq Memorial Kompleksi açılmışdır

Sentyabrın 18-də Leninqrad vilayətinin Kirov rayonu ərazisində Neva çayı sahilində Xatirə və Şərəf Beynəlxalq Memorial Kompleksi açılmışdır. Azərbaycan Respublikasının Sankt-Peterburq şəhərindəki Baş konsulluğunun mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, Böyük Vətən müharibəsində Leninqradın müdafiəsi zamanı gedən qanlı döyüşlərdə həlak olmuş əsgərlərin xatirəsini əbədiləşdirmək məqsədi ilə yaradılmış kompleksin təntənəli açılış mərasimində müharibə veteranları, administrasiya rəhbərləri, gənclər, diplomatik missiya rəhbərləri iştirak etmişlər. Baş konsulluq adından memorial kompleksin mərkəzi xatirə abidəsi önünə əklil qoyulmuş, həlak olmuş döyüşçülərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Kompleksin yerləşdiyi "Nevskiy platsdarm" adlanan ərazidə 1943-1944-cü illərdə gedən döyüşlərdə 280 mindən çox sovet əsgəri həlak olmuşdur. Kompleksdə bir sıra dövlətlər tərəfindən müharibədə həlak olmuş nümayəndələrinə xatirə abidəsi qoyulmuşdur. Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı Nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Xatirə və Şərəf Beynəlxalq Memorial Kompleksində və "Sinyavinskiye vısotı" memorial kompleksində Leninqradın müdafiəsində həlak olmuş azərbaycanlıların xatirəsini əbədiləşdirmək məqsədilə abidələr hazırlanmışdır. Hər iki memorial kompleksdə quraşdırılmış abidələrin açılış mərasimi cari ilin noyabrına planlaşdırılır.

18 sentyabr 2010

Berlində Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin ofisində Bundestaqın elmi işçisi, Hayko Langner „Geopolitik təsir və gərginləşən təhlükəsizlik mühitində Dağlıq Qarabağ münaqişəsi“ adlı mühazirə təqdim edib

Sentyabrın 21-də Berlində Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin ofisində Bundestaqın elmi işçisi, siyasi elmlər üzrə mütəxəssis Hayko Langner „Geopolitik təsir və gərginləşən təhlükəsizlik mühitində Dağlıq Qarabağ münaqişəsi“ adlı mühazirə təqdim edib. Tədbiri təşkil edən AAKM-in icraçı direktoru Samirə Patzer-İsmayılovanın Diasporla İş üzrə Dövlət Komitəsinə verdiyi xəbərə görə, Hayko Lanqner öz məruzəsində Qarabağ mühaqibəsi ilə bağlı mühüm məqamlara yer ayırıb. Siyasətçi qeyd edib ki, 1994-cü ildə münaqişə tərəfləri arasında atəşkəs haqqında anlaşma əldə olunduğu zamandan bəri ATƏT-in Minsk Qrupu Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsində vasitəçilik etməyə çalışır. Münaqişə tərəfləri isə öz başlanğıc mövqeyinden dönməyib: Azərbaycan tərəfi dövlətin suverenliyini, ərazi bütövlüyünü tənzimləyən beynəlxalq qanunvericiliyə istinad edir, işğal olumuş torpaqlarının qeyd-şərtsiz geri qaytarilmasını tələb edir, Ermənistan isə zəbt etdiyi ərazilərdən geri çəkilmir, Dağlıq Qarabağda qondarma dövlət yaradıb, üstəlik münaqişənin həllində Dağlıq Qarabağın erməni icmasının tərəf kimi qəbul olunmasını istəyir. „ATƏT-in Minsk qrupunun göstərdiyi səylərə baxmayaraq, münaqişənin qısa zamanda həll ediləcəyi ehtimalı azdır“ deyən Hayko Lanqner əlavə edib ki, əksinə, son vaxtlarda Qarabağ cəbhəsində atəşkəsin pozulması halları intensiv xarakter alıb və bunun yeni silahlı münaqişəyə çevrilməsi qorxusunu getdikcə artırır. Məruzəçi həmçinin regionda geosiyasi maraqları olan ATƏT-in Minsk qrupundakı dövlətlərin münaqişənin həlli üçün vacib olan addımları atmamasına səbəb olan amillər, niyə məhz bu dövlətlərin münaqişənin həllinə təsir göstərə bilməsi imkanları, habelə hələ də həllini tapmamış və dondurulmuş vəziyyətin zəbt olunmuş torpaqların humanitar və iqtisadi duruma təsiri və digər məsələlərdən danışıb. Tədbirin davamında Hayko Lanqner işğal edilmiş Azərbaycan ərazilərindən alman jurnalistlərinin 2010-cu ildə çəkdiyi və Şuşa, Laçın, Xankəndi, Ağdam, Əsgəran bölgələrindəki erməni vəhşiliklərini əks etdirən fotoları nümayiş etdirib.

Tədbirdə 1990-cı illərdə Almaniyanın ATƏT-in Minsk Qrupunda nümayəndəsi olmuş Dr. Frank Lambax, Bundestaqın elmi işçisi xanım İvon Bexlayn, Azərbaycanın Almaniyadakı Səfirliyinin əməkdaşları, dramaturq, jurnalist Lutz Layxtfus, doktorant və tələbələr, Azərbaycan və türk diaspor təşkilatlarının təmsilçiləri iştirak ediblər. Məruzədən sonra mövzu ətrafında fikir mübadiləsi aparılıb.

Məhz bu mövzuda tədbirin keçirilməsi Berlindəki erməni diasporunun nümayəndələrinin narahatlığına səbəb olub. Qeyd edək ki, Hayko Langner şimal-şərqi Avropa, Rusiya, Türkiyə, Qafqaz regionu üzrə mütəxəssisdir, bu bölgələrdəki proseslərə dair çoxlu məqalənin müəllifidir. 2009-cu ildə “Şərqi Qafqaz, Dağlıq Qarabağ, Abxaziya, Şərqi Osetiya-identitet, xalq hüquqları, geostrateji maraqlar mühitində” adlı kitabı nəşr olunub.

21 sentyabr 2010

Gürcüstan Azərbaycanlıları Konqresinin (GAK) internet saytı istifadəyə verilib

Gürcüstan Azərbaycanlıları Konqresinin (GAK) internet saytı istifadəyə verilib. GAK-ın fəaliyyətini əsk etdirən saytla www.gak.ge ünvanında tanış olmaq mümkündür. Sayt hələlik Azərbaycan və rus dillərində fəaliyyət göstərir. Saytda GAK-ın təşkil etdiyi tədbirlər və layihələr barədə məlumatlar, fotoqalereya, videolar, təşkilatın nəşr etdirdiyi aylıq "Gürcüstan Azərbaycanlıları" qəzeti yer alıb. Saytda həmçinin müxtəlif aktual mövzularla bağlı sorğular yerləşdiriləcək.

22 sentyabr 2010

Gürcüstanda “Azərbaycanlıların mədəniyyətinin inkişafı mərkəzi” adlı qeyri-hökumət təşkilatı təsis edilmişdir

AzərTAc xəbər verir ki, Gürcüstanda “Azərbaycanlıların mədəniyyətinin inkişafı mərkəzi” adlı qeyri-hökumət təşkilatı təsis edilmiş və ədliyyə orqanlarında qeydiyyatdan keçirilmişdir. Mərkəzin təsisçisi və rəhbəri Namiq Hacıyev bildirmişdir ki, təşkilatın məramı Gürcüstanda milli-mədəni dəyərlərimizin inkişafı, Gürcüstan mühitində adət-ənənələrimizin təbliği, teatr və digər mədəni qurumlarla əməkdaşlıq, onların fəaliyyətinə və inkişafına dəstəkdir.

23 sentyabr 2010

Diasporun problemləri həllini gözləyir

Abdulla Əmir Haşimi: "Biz təbliğatda müasir informasiya texnologiyalarının istifadəsindən məhrumuq"
Elşad Miraləm: "Xaricdə soydaşlarımız daha çox özünəqapanmış halda yaşayırlar"

Azərbaycan diasporasının problemlərinin mövcudluğu bu günün mövzusu olmasa da illərdir ki, həllini tapmır. Bunun isə müxtəlif obyektiv və subyektiv səbəbləri var.

Daha çox isə iqtisadi-maliyyə məsələləri önə çəkilir. Xaricdə fəaliyyət göstərən ermənilərin hər hansı bir Azərbaycana qarşı "uğur"undan sonra Azərbaycan diasporasının zəifliyi gündəmə gətirilir. Düzdür, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına böyük işlər görülsə də etiraf etmək lazımdır ki, həllini gözləyən problemlər uğurlarımızdan daha çoxdur.

Bir neçə ay bundan öncə Amerika Azərbaycanlıları Cəmiyyətinin sədri Tomris Azəri və "Azərbaycan Naminə" Cəmiyyətin sədri Elman Mustafaoğlunun Diasporla İş üzrə Dövlət Komitəsini bəzi maliyyə məsələlərində, diasporlar arasında nifaq salmasına xidmət göstərməsində itihamlaması vəziyyəti daha da gərginləşdirib. Azərbaycan Türk Kültür Dayanış Dərnəyinin sədri Ufuk Kamal Ufuk bildirib ki, Azərbaycan diasporasının ən böyük problemi koordinasiya məsələsindədir. Onun fikrincə xaricdə yaşayan azərbaycanlılar təmsil olunduqları dövlətlərin ictimai-siyasi həyatına nüfuz edə bilmirlər.

Güney Azərbaycan Konqresinin sədri Abdulla Əmir Haşimi (Cavanşir) isə sualımızı cavablandırarkən bildirib ki, Azərbaycan diasporasının yaranması, inkişafı və səmərəli rol oynaması barədə bir sıra işlər görülsə də, bizcə. diasporanın həlledici rol oynamasına gəlib çatmasında maneələr və problemlər öz yerində qalır: "Xaricdə yaşayan azərbaycanlılarımızın təşkilatlanması zəifdir, birliyini təmin etmək həddindən artıq çətindir. Buna da əsas səbəblər, siyasi-ideoloji fikir ayrılıqları, səliqə fərqlilikləri, fərdi-iqtisadi maraqlar və təbii ki, ən başlıcası xarici qüvvələrin xüsusilə İran və Ermənistan rejimlərinin təxribatları və anti - Azərbaycan fəaliyyətləri və əlbəttə ki, bizim türk mənşəli və islam dinli olduğumuz üçün Avropa və ABŞ tərəfindən dəstəklənməməyimizdir".

Abdulla Əmir Haşiminin fikrincə, İran rejimi, təkcə Azərbaycan diasporasına aid təşkilatlar və cəmiyyətləri yox, hətta Azərbaycan ailələrini də dağıtmaq üçün əlindən gələni əsirgəmir. Bu maneələr də, Azərbaycan həqiqətlərinin, mədəni irsinin və qədim tarixinin və xüsusilə Güney Azərbaycanda xalqımızın insani və milli haqq-hüquqlarının tapdalanması barədə və Ermənistan hərbi təcavüzü haqda həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında işimizi fövqəladə ləngidir, və nəticədə, diasporanın zəif qalmasına gətirib çıxarıb: "Biz, təbliğat işimizdə müasir informasiya texnologiyalarının istifadəsindən məhrumuq və həmin informasiya sahəsində də geri qalmağımız, bizi yaşadığımız ölkələrdə, istər Avropa, istər ABŞ və ya Kanada cəmiyyətlərində inteqrasiyamızın sürətini azaldır və o cəmiyyətlərdə təsiredici rol ala bilmirik.

Misal olaraq, nə Avropa, nə ABŞ, nə də Kanadada, ostan və bələdiyyə səviyyələrində keçirilən seçkilərdə bizdən 1-2 nəfər bizdən tapmaq çətindir. Əlbəttə ki, bu zəifliyin bir çox səbəbləri var - o cümlədən diaspor fəallarıyla Azərbaycan hökuməti ilə əlaqələrinin çox zəif olması, digər xalqların diaspor təcrübələrindən istifadə edilməməsi, Türk Dünyasında olan fövqəladə pərakəndəlik və hətta bəzən qarşıdurmalar, mövcud imkanların hədərə getməsi və hətta bu imkanların Azərbaycanın düşmənlərinin ixtiyarına verilməsi, gənclərin vətənpərvərlik ruhiyyəsində yox, fövqəladə eqoistik, qısqanclıq və vətənə biganəlik duyğusunda olmalarıdır".

Abdulla Əmir Haşiminin fikrincə, Azərbaycan dövlət orqanları arasında əməkdaşlığın zəifliyi də diasporanın güclənməsinə manea yaradır: "Demirik ki, Xarici İşlər Nazirliyilə xaricdəki təşkilatlar arasında əlaqələr yoxdur və yaxud Diasporla İş üzrə Dövlət Komitəsi xaricdə fəaliyyət aparmır, yox. Ancaq bu fəaliyyətlərin nəticəsi statistikaya baxanda bizi razı salmır.

Buna nümunə, Azərbaycandan kənarda, Azərbaycan məktəblərinin sayının azalmasını və yaxud xarici ölkələrdə yeni məktəblərin açılmamasını götürmək olar. Bu gün, Güney Azərbaycanda 35 milyonluq insanımızın bir dənə belə Azərbaycan türkcəsində məktəbinə rast gələ bilmirik. Əlbəttə ki, biz, Güney Azərbaycan məsələsini diaspora məsələsi ilə qatmırıq, çünki həmin o 35 milyon azərbaycanlı öz tarixi torpaqlarında və vətənlərində yaşayırlar - haqsız və hüquqsuz. Orada Güney Azərbaycan Milli Hərəkatının mücadiləsi gedir və ümid ki, inqilab ilə və ya radikal reformlar əsasında öz milli-müstəqillik və insani haqlarımıza nail olaq. Təbii ki burda da diasporanın xüsusi və geniş dəstəyinə ehtiyacımız var".

Diasporla İş üzrə Dövlət Komitəsinin informasiya və analitika bölməsinin rəhbəri Elşad Miraləm yuxarıda sadalanan bəzi problemlərin mövcudluğunu təsdiqləyib. Onun sözlərinə görə, cəmiyyətə inteqrasiya problemi mövcuddur və soydaşlarımız yaşadıqları ölkənin ictimai-siyasi həyatında kifayət qədər fəallıq nümayiş etdirmirlər: "Bir çox ölkələrdə Azərbaycan diaspor təşkilatlarının ideya və layihələrini həyata keçirməsində maliyyə problemləri də yaşanır.

Bunu təkcə bizə yox, elə türk diasporasına da şamil etmək olar. Amma soydaşlarımız bu problemin aradan qaldırılmasına cəhd göstərirlər". Elşad Miraləmin fikrincə,xaricdə soydaşlarımız daha çox özünəqapanmış halda yaşayırlar. Təmsil olunduqları dövlətin dilini, mədəniyyətini, adət-ənənəsini öyrənməkdə, QHT və dövlət strukturları, KİV-lə əlaqələr qurmaq məsələsində çox zəifdirlər.

Azərbaycan diaspor təşkilatları arasında koordinasiyanın olmaması məsələsinə gəldikdə isə Elşad Miraləm dedi ki, bu işdə bir sıra uğurlara imza atılıb: "Azərbaycan Türk Diasporları Təşkilatının Koordinasiya Şurası, Avropa Azərbaycanlıları Konqresi və Ümumrusiya Azərbaycanlıları Konqresi yaradılıb ki, onlar soydaşlarımızın bu istiqamətdəki fəaliyyətlərini koordinasiya edirlər". Komitə rəsmisinin sözlərinə görə, bütün diaspor təşkilatları azərbaycançılıq mövqeyindən çıxış etsələr də, müəyyən layihələrin həyata keçirilməsində baxışları fərqli ola bilər: "Amma əvvəlki illərə nisbətən Azərbaycan diasporası güclənib, təşkilatlanma işi sürətlənib və bu işdə komitə üzərinə düşən bütün vəzifələri layiqincə həyata keçirir".

Cavid

“Xalq Cəbhəsi”.- 2010 - 25-27 sentyabr -N 173.-S.5

Avropa Azərbaycan Cəmiyyətinin (AAC) dəstəyi ilə Londonda
"Qafqazda təhlükəsizlik: Avropanın astanasında münaqişə, enerji və imkan" adlı müzakirələr keçirilib

Liberal Demokrat Konfransı çərçivəsində Avropa Azərbaycan Cəmiyyətinin (AAC) dəstəyi ilə Londonda "Qafqazda təhlükəsizlik: Avropanın astanasında münaqişə, enerji və imkan" adlı müzakirələr keçirilib. AAC-dan APA-ya verilən məlumata görə, müzakirələrdə Gürcüstan və Türkiyənin Birləşmiş Krallıqdakı səfirləri Georgi Badridze və Ünal Çeviköz də iştirak ediblər. Tədbirdə Avropa Birliyinin (AB) Qafqaz strategiyasının aydınlaşmasına ehtiyac olduğu və Türkiyənin rolunun potensial vacibliyi vurğulanıb. Müzakirələrə sədrlik edən Xarici Siyasət Mərkəzinin direktoru Adam Hug (Adam Hug) bildirib ki, Sovet İttifaqı dağıldıqdan sonra Qafqazda başlanan münaqişələr inkişafa mane olur və onlara son qoymaq vacibdir. Avropa Federalistləri İttifaqının prezidenti və Avropa Parlamentinin liberal demokrat üzvü Endryu Daff (Andrew Duff) isə deyib ki, Avropa Rusiyanın və Türkiyənin regionda fəallığına laqeyddir.

Duff ümid edir ki, Avropa Komissiyası sədrinin birinci müavini Baronessa Ketrin Eşton (Catherine Ashton) AB-nin 27 üzv dövlətinin, ABŞ və NATO-nun mövqelərini birləşdirən dəqiq strategiya hazırlaya biləcək. O, Türkiyənin AB-yə üzvlüyünü bir daha dəstəklədiyini bildirib və Rusiya ilə danışıqlara başlamağı vacib sayıb. Xarici və Birlik İşləri Nazirliyinin Lordlar Palatasındakı nümayəndəsi Lord Uilyam Uolis (William Wallace) isə bildirib ki, Qafqazın problemi onun Avropa gündəliyində sonuncu yerlərdən birini tutması ilə bağlıdır. Çox az sayda siyasətçi regionda baş verənlərdən xəbərdardır. Lord Uolisin fikrincə, Ermənistan diasporun dəstəyinə arxalanır, Ermənistanın Dağlıq Qarabağı və yeddi ətraf rayonu işğal altında saxlaması isə Türkiyənin gələcəyinə təsir edir.

O, Rusiya ilə dialoqa ehtiyac olduğunu vurğulayıb və bildirib ki, AB regionun inkişafına uzunmüddətli maraq göstərməlidir. Avropa Parlamentinin keçmiş üzvü, Baronessa Emma Nikolson (Emma Nicholson) isə Türkiyənin AB-yə üzvlüyünü sabitləşdirici amil kimi dəstəklədiyini bildirib. Onun fikrincə, AB "daha geniş Avropa" konsepsiyasını nəzərə almalıdır. O, diqqəti Qazaxıstan və Azərbaycanın enerji ehtiyatlarına çəkərək, Qafqazı AB üçün vacib bölgə kimi dəyərləndirib. Baronessa Nikolson bəyan edib ki, Şərq Tərəfdaşlığı ideyasına həyat verilməlidir, bu, azad ticarət baxımından Kopenhagen Kriteriyasının elementlərini birləşdirir. Müzakirələrdə sonuncu "Qafqaz Proqramı, Barışıq İmkanları" layihəsinin meneceri Doktor Lorens Broers (Laurence Broers) çıxış edib. O, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vəziyyəti müzakirə edib və bildirib ki, vəziyyət çıxılmaz nöqtəyə yaxınlaşıb, AB bu məsələ ilə kifayət qədər yaxından məşğul olmur, ATƏT-in Minsk Qrupunun isə problemi həll etməyə gücü çatmır.

Onun fikrincə, dialoq kulminasiya nöqtəsinə yaxınlaşıb, ya "Madrid prinsipləri" uğurlu olmalı, ya da yeni plan qəbul edilməlidir. Broers hesab edir ki, Qafqaz regional oyunçular arasında "sıfır" nəticəli oyun qədər kiçildilməməlidir: "Münaqişələrdən heç biri dini və ya tayfa münaqişəsi hesab oluna bilməz". Onun fikrincə mövqelər aydın olmalı, AB regionda normal ədalətli proseslərə nail olmaq üçün diqqətini uzun müddətə bura yönəltməlidir. Broers həm də erməni diasporunun problematik fəaliyyətinə və AB-yə üzv olmaq istəyən Türkiyənin artan roluna toxunub.

28 sentyabr 2010

Ukraynada yaşayan soydaşlarımız müstəqil Azərbaycanı layiqincə təmsil edirlər

Ukrayna-Azərbaycan münasibətləri dərin tarixi köklərə malikdir. Dövlətlərarası siyasi, iqtisadi, mədəni əlaqələrin keyfiyyətli və davamlı inkişafı Ukrayna ilə Azərbaycan arasında tarixi dostluğunu təməlini günü gündən daha da möhkəmləndirir ki, artıq bu münasibətlər strateji tərəfdaşlıq kimi də qiymətləndirilir. Qeyd etmək yerinə düşərdi ki, 1997-ci ilin mart ayında Heydər Əliyevin Ukraynaya rəsmi səfəri iki dövlət arasında əməkdaşlığa yeni təkan vermiş və bu səfər zamanı tərəfdaşlıq münasibətlərinin dərinləşməsi haqqında bəyannamə imzalanıb. Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü xarici siyasətində də Ukrayna Azərbaycan əməkdaşlığı önəmli yer tutur və bu əməkdaşlıq bu gün də dinamik olaraq inkişaf edir. Təbii ki, dövlətlərarası sıx əməkdaşlıq iki xalq arasında səmimi dostluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsinə böyük zəmin yaradıb.

Hazırda Ukraynada 500 mindən artıq azərbaycanlı yaşayır. Bizneslə məşğul olmaqla yanaşı, soydaşlarımız həmçinin Ukraynanın dövlət qurumlarında, hüquq-mühafizə orqanlarında, nüfuzlu səhiyyə və təhsil ocaqlarında da bacarıqlı mütəxəssis kimi tanınaraq fəaliyyət göstərirlər. Bu ölkədə soydaşlarımız özlərini rahat, sərbəst, təhlükəsiz, öz doğma yurdlarında olduqları kimi hiss edirlər. Ukrayna xalqı azərbaycanlılara dərin hörmət və ehtiramla yanaşır. Təbii ki, bu da səbəbsiz deyil. İllər boyu bu ölkədə yaşayan azərbaycanlılar öz milli mədəniyyətləri, bilik və bacarıqları, səmimi münasibətləri ilə Ukrayna xalqında Azərbaycan və azərbaycanlılar haqqında müsbət rəy formalaşdırmağa nail olublar. Təkcə Kiyev şəhərində deyil, o cümlədən ölkənin digər vilayətlərində də azərbaycanlıların cəmiyyətləri, ictimai təşkilatları, mətbu orqanları fəaliyyət göstərir. Ümumiyyətlə Ukraynada azərbaycanlıların təşkilatlanma məsələsi, Azərbaycan diasporunun formalaşması başqa ölkələrlə müqayisədə çox böyük sürətlə həyata keçir.

Ukraynalılar azərbaycanlıların milli adət-ənənələrinə, musiqisinə, tarixinə, mədəniyyətinə yaxşı bələddirlər. Ukraynada Azərbaycanın mətbəx mədəniyyəti festivalının keçirilməsi və Ukrayna dilində "Kulina" jurnalının nəşri, dahi Azərbaycan şairi Səməd Vurğunun, ölməz bəstəkar Qara Qarayevin və digər görkəmli şəxsiyyətlərin yubiley gecələrinin keçirilməsi, Azərbaycanın tanınmış mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə təşkil olunan gecələr, "Azərbaycan xalq nağılları" toplusunun Ukrayna dilinə tərcüməsi və kitab şəklində nəşri bir daha Ukrayna xalqında Azərbaycanın mili mənəvi dəyərləri haqqında dolğun və mükəmməl anlayış yaratmışdır.

Azərbaycan muğamını Ukrayna səhnələrində heyranlıqla dinləyən dost xalqın nümayəndələri mili musiqimizi sirli-sehrli əfsanəyə bənzədirlər. Azərbaycanın elə bir bayramı yoxdur ki, həmin əlamətdar gün Ukraynada təntənəli şəkildə qeyd olunmasın. Belə tədbirlərdə Ukrayna ictimaiyyətinin, ziyalıların, mədəniyyət və incəsənət xadimlərinin, dövlət qurumları nümayəndələrinin iştirakı ənənə şəklini alıb. Milli bayramımız Novruz isə Ukraynada sanki iki xalqın bayramı kimi daha təntənəli şəkildə qeyd olunur. Qan yaddaşımız olan 20 Yanvar faciəsi, 31 Mart Azərbaycanlıların Soyqırımı günü, Xocalı soyqırımı ilə bağlı tədbirlər isə Ukraynada daha geniş auditoriyalarda keçirilir. Belə tədbirlər Azərbaycan həqiqətlərini Ukrayna xalqına olduğu kimi çatdırılmağına xidmət edir.

Ukraynada Ukrayna Azərbaycanlıları Konqresinin yaranması da bu ölkədə yaşayan azərbaycanlılar üçün əlamətdar bir hadisədir. Böyük bir quruma çevrilən konqres Kiyevlə yanaşı ölkənin 27 regionunu əhatə edir. Azərbaycanı tanıtmağı, Azərbaycan tarixini təbliğ etməyi, Qarabağ həqiqətlərini Ukrayna xalqına çatdırmağı öz qarşısında başlıca vəzifə kimi qoyan konqres bu istiqamətdə ardıcıl olaraq tədbirlər həyata keçirir. Konqresin fəaliyyəti nəticəsində bazar günləri fəaliyyət göstərən Azərbaycan məktəbləri açılmış, mətbu orqanlar təsis olunmuş, "Azərbaycan" ansamblı yaradılmışdır. Ukrayna Azərbaycanlıları Konqresi Ukraynanın ictimai həyatında da fəallıq göstərir. Qarşılıqlı əlaqələr iki dost xalq arasındakı münasibətlərin daha da möhkəmlənməsinə xidmət edir.

Konqresin Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycanın Ukraynadakı səfirliyi ilə sıx əlaqələri var. Ukrayna Azərbaycanlıları Konqresinə İlqar Abbasov rəhbərlik edir. O, təkcə azərbaycanlılar arasında deyil, ukraynalılar arasında da öz bacarığı, işgüzarlığı, ziyalılığı ilə böyük nüfuza malikdir. Məhz, onun gərgin əməyi nəticəsində konqresin fəaliyyəti günü-gündən genişlənir, inkişaf edir. İlqar Abbasov həm də Ukrayna-Azərbaycan dostluğu Beynəlxalq Fondunun prezidentidir.

Ukrayna-Azərbaycan dostluğunun inkişafına və daha da möhkəmlənməsinə 2008-ci il-dən Ukraynada fəaliyyət göstərən "Ukrayna-Azərbaycan dostluğu" Beynəlxalq Xeyriyyə Fondu böyük töhfələr verir. Fondun əsas məqsədi Ukrayna və Azərbaycan mədəni əlaqələrinin inkişafı ilə bağlı layihələrin hazırlanmasından, elmin, təhsilin inkişafına dəstək verməkdən, aztəminatlı insanlara kömək etməkdən, sağlam həyat tərzi, idman və bədən tərbiyəsi, ekologiya, turizmlə bağlı mədəni kütləvi tədbirlərin həyata keçirilməsindən, Azərbaycan diasporasının üzvlərinə maddi və mənəvi yardım göstərməkdən ibarətdir. Fond qısa müddət ərzində bir sıra layihələrin gerçəkləşməsinə nail olub.

Kiyev şəhərində Ukrayna Azərbaycan dostluğu gecəsinin. keçirilməsi, Azərbaycan kinomatoqrafları tərəfindən çəkilmiş "Əlvida, cənub şəhəri!" filminin Ukraynada geniş təqdimatı və nümayişi, GUAM ölkələri yazıçılarının görüşünün təşkili, ümummilli lider Heydər Əliyevə və müasir Azərbaycan ədəbiyyatına həsr olunmuş "Kiyevskaya Rus" jurnalının iki xüsusi buraxılışının işıq üzü görməsi, təhsil ocaqlarında xeyriyyə aksiyalarının keçirilməsi fondun gördüyü işlərin siyahısının yalnız bir hissəsidir. İlqar Abbasovun təsisçisi olduğu "Polissiya" şirkəti isə Ukrayna, Azərbaycan və Rusiya mətbəxinə aid 120 çeşiddə dondurulmuş yarımfabrikat istehsal edir. Yük-sək keyfiyyət, əvəzolunmaz dad, sərfəli qiymət prinsipi əsasında tam gücü ilə işləyən şirkətin məhsullarına ukraynalılar yaxşı bələddirlər. 5000 nəfər işçisi olan şirkət 30-dan artıq medala, 20 dəfə Qran Priyə, ölkənin "100 ən yaxşı müəssisəsi" və "100 ən yaxşı məhsulu" mükafatlarına layiq görülüb. Ancaq yerli əhali "Polissiya" şirkətini təkcə keyfiyyətli məhsulları ilə deyil, həm də xeyriyyəçi şirkət kimi tanıyır və alqışlayır. İlqar Abbasovun rəhbərliyi ilə şirkətin Ukrayna məktəblərində, uşaq evlərində, idman klublarında keçirdiyi aksiyalar ənənə şəklini alıb. Bütün varlığı ilə Vətənə bağlı olan, azərbaycançılıq prinsipinə yüksək dəyər verən və hədsiz sədaqət göstərən İlqar Abbasov o azərbaycanlılardandır ki, nə vaxtsa Ukraynada yaşayan soydaşlarımıza "bazar alverçiləri" deyənlərin fikrində köklü dəyişiklik etməyi bacarıb, bacarıqlı iş adamı, xeyriyyəçi, ziyalı kimi əsl azərbaycanlının kim və necə olduğunu sübut edib.

Bu gün Ukraynada yaşayan hər bir soydaşımız qürur hissi keçirir ki, bu ölkədə ulu öndər Heydər Əliyevin, akademik Zərifə xanım Əliyevanın, Azərbaycanın xalq şairi Səməd Vurğunun abidələri ucalır. Ukraynalıların Azərbaycana qarşı belə doğma münasibətini həmvətənlərimiz olduqca yüksək qiymətləndirir.

Ukraynada yaşayan soydaşlarımızın fəaliyyətini təbii ki, bir qəzet yazısında əks etdirmək mümkün deyil. Ancaq sonda, Ukraynada yaşayan bir azərbaycanlı kimi qeyd etmək istərdim ki, bu ölkədə yaşayan həmvətənlərimiz böyük Vətən sevgisi ilə müstəqil Azərbaycanımızı dost Ukrayna xalqına layiqincə tanıdır.

Azər Qardaşlı, Kiyev şəhəri
“525-ci qəzet” – 2010 - 29 sentyabr -N.177.-S.2.

Daşkənddə ulu öndər Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı olmuşdur

Bakı, 27 sentyabr (AzərTAc). Xəbər verdiyimiz kimi, sentyabrın 27-də Daşkənddə Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində Heydər Əliyev adına mədəniyyət mərkəzinin binasının əsaslı təmir və bərpadan sonra açılışı olmuşdur.

Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistanın Baş naziri Şavkat Mirziyayev iştirak etmişlər.

Prezident İlham Əliyev mərkəzin qarşısında ulu öndər Heydər Əliyevin abidəsi önünə əklil qoydu.

Bina ilə tanışlıq zamanı məlumat verildi ki, azərbaycanlıların yığcam yaşadıqları Daşkəndin Mirabad rayonunun mərkəzindəki Heydər Əliyev küçəsində yerləşən mərkəzdə Heydər Əliyev, Azərbaycanın dövlətçilik tarixi, Azərbaycan və Özbəkistanın müştərək tarixi muzeyləri fəaliyyət göstərir.

Prezident İlham Əliyev əvvəlcə Heydər Əliyev muzeyi ilə tanış oldu. Burada ümummilli liderimizin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar, dövlət rəhbərləri ilə görüşlərini əbədiləşdirən fotosənədlər, görkəmli şəxslərin Heydər Əliyev haqqında fikirləri toplanmışdır.

Azərbaycanın dövlətçilik tarixi muzeyi ilə tanışlıq zamanı Prezident İlham Əliyevə vaxtilə 400 min kvadratkilometr ərazisi olan respublikamızın xəritələri, tarixi sənədlər, görkəmli şəxsiyyətlər barədə ətraflı məlumat verildi.

Azərbaycanın və Özbəkistanın müştərək tarixi muzeyində toplanmış eksponatlar isə ölkələrimiz arasında qədim tarixi və mədəni əlaqələrdən, habelə bu gün inkişaf edən münasibətlərimizdən söhbət açır. Prezident İlham Əliyev mərkəzin konfrans salonuna baxdı.

Məlumat verildi ki, mədəniyyət mərkəzində Azərbaycanın musiqi, rəqs və folklor ansamblları da fəaliyyət göstərəcəkdir. Bundan əlavə, burada Azərbaycan məktəbi və kitabxana da yaradılmışdır.

Mərkəzlə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan diasporunun üzvləri ilə görüşdü.

Mərkəzin açılışı münasibətilə soydaşlarımızı təbrik edən Prezident İlham ƏLİYEV dedi:

- Mən sizi ürəkdən salamlayıram. Bu gözəl mədəniyyət mərkəzinin əsaslı təmirdən sonra açılışı münasibətilə sizi təbrik edirəm. Altı il bundan əvvəl hörmətli Şavkat müəllimlə bərabər biz burada Azərbaycan mədəniyyət mərkəzinin açılışını qeyd edirdik. O vaxtkı bina o dövr üçün bəlkə də məqbul idisə, bugünkü dövr üçün əlbəttə ki, bu bina daha uyğundur. Ona görə bu mədəniyyət mərkəzinin əsaslı təmiri haqqında qərar qəbul edildi və səfirliyin bilavasitə iştirakı, Özbək hökumətinin böyük dəstəyi ilə çox gözəl, əzəmətli, yaraşıqlı mərkəz yaradılıbdır. Yəni, onu demək istəyirəm ki, artıq bu mədəniyyət mərkəzinin altıillik tarixi vardır, ancaq bu gün onun yeni dövrü başlayır. Çünki əsaslı təmir çox yüksək keyfiyyətlə, zövqlə aparılıbdır.

Bu mərkəz əslində Özbəkistan-Azərbaycan dostluğunun təcəssümüdür. Bu mərkəzdə, eyni zamanda, Özbəkistan-Azərbaycan dostluğu muzeyi də fəaliyyət göstərir. Bu mərkəz ulu öndər Heydər Əliyevin adını daşıyır. Bu da çox əlamətdar haldır. Çünki ulu öndər Heydər Əliyev bütün dövrlərdə Azərbaycan ilə Özbəkistan arasındakı əlaqələrin inkişafı üçün böyük səylər göstərmişdir. Həm sovet dövründə xalqlarımız arasındakı münasibətlər çox yaxın idi, qardaşlıq zəminində qurulmuşdu. Həm də xüsusilə müstəqillik dövründə Heydər Əliyev və İslam Kərimov-iki ölkənin liderləri ikitərəfli münasibətlərin bax, bugünkü səviyyəyə gəlib çatmasında çox mühüm rol oynamışlar. Yəni, bizim dostluğumuzun böyük tarixi və tarixi kökləri vardır. Ancaq müstəqil ölkələr kimi Özbəkistan və Azərbaycan son illər bu əməkdaşlığı yüksək səviyyəyə qaldırmışlar.

Heydər Əliyev özbək xalqına həmişə böyük rəğbətlə, məhəbbətlə yanaşırdı. Mən çox şadam ki, Heydər Əliyevin xatirəsi ilə bağlı bu gözəl duyğular Özbəkistanda və özbək xalqının ürəyində yaşayır. Bu gün hörmətli İslam Əbdüqəniyeviçlə görüşdə bu tarix də qeyd edildi. Özbəkistan Prezidenti öz çıxışlarında ulu öndər Heydər Əliyev haqqında ürək sözlərini, səmimi sözlərini demişdir. Ölkələrimiz dost, qardaş ölkələrdir. Xalqlarımız da dost, qardaş xalqlardır. Bu gün görüşlərdə qeyd olunan kimi, bizə tərcüməçi lazım deyildir.

Biz bir-birimizin dilini başa düşür, anlayırıq və bütün beynəlxalq təşkilatlarda məsələlərə vahid mövqedən yanaşırıq. Mən bu gün xüsusilə qeyd etdim ki, Özbəkistan Azərbaycanın haqq işini daim dəstəkləyir, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını nəinki rəsmi bəyanatlarla dəstəkləyir, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin iclaslarında birmənalı şəkildə Azərbaycanın mövqeyinə səs verir. Bu gün Özbəkistanın Prezidenti bir daha bu prinsipial mövqeyini bildirmişdir.

Bizim aramızda çoxşaxəli münasibətlər vardır - həm iqtisadi, siyasi və həm də başqa sahələrdə. Ən əsası odur ki, biz səmimi dostuq, qardaşıq. Bu gün yəqin ki, münasibətlərimizin tarixində öz yerini tutacaqdır. Çünki bu gün gördüyümüz işlər münasibətlərimizin inkişaf etdirilməsində çox mühüm rol oynayacaqdır. Bu, mənim Özbəkistana ikinci rəsmi səfərimdir. Birinci səfərdə biz Azərbaycanın böyük oğlu Nizami Gəncəvinin abidəsini hörmətli Prezident Kərimov ilə bərabər açdıq. İki il bundan əvvəl İslam Kərimovun rəsmi səfəri zamanı Özbəkistan xalqının böyük oğlu Əlişir Nəvainin abidəsi Bakıda ucaldılmışdır.

Bu gün Heydər Əliyevin adını daşıyan mədəniyyət mərkəzinin yeni dövrü başlayır. Bütün bu hadisələr onu göstərir ki, aramızda olan münasibətlərin çox dərin kökləri və çox mənalı məzmunu vardır. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik etmək istəyirəm. Buraya Özbəkistanda yaşayan Azərbaycan diasporunun, özbək ictimaiyyətinin nümayəndələri toplaşmışlar. Siz Özbəkistanın dəyərli vətəndaşları kimi onun inkişafına töhfənizi verirsiniz. Ancaq eyni zamanda, siz Azərbaycanı da təmsil edirsiniz.

Mən bilirəm ki, burada azərbaycanlılar üçün bütün şərait yaradılıbdır. Yəni, burada heç bir ayrı-seçkilik yoxdur. Yəni, siz də burada dəyərli vətəndaşlar kimi bütün hüquqlara maliksiniz. Siz bir növ Özbəkistan ilə Azərbaycan arasındakı münasibətlərdə çox vacib funksiyanı daşıyırsınız. Çünki sizin burada işiniz, fəaliyyətiniz, yaşamağınız münasibətlərimizi gücləndirir. Əlbəttə, bilirsiniz ki, Azərbaycanda həmişə sizinlə maraqlanırlar, işlərinizə diqqət göstərilir. Biz bundan sonra da çalışacağıq ki, bütün başqa ölkələrdə, dünyada yaşayan azərbaycanlılarla işlərimiz, əlaqələrimiz daha da yüksək səviyyədə qurulsun. Bir daha sizi ürəkdən təbrik edirəm. Sizə uğurlar arzulayıram.

X X X

Özbəkistan Milli Elmlər Akademiyasının Mikrobiologiya İnstitutunun elmi işçisi Südabə MƏMMƏDOVA xarici ölkələrdə yaşayan azərbaycanlıları hər zaman diqqətdə saxladığı üçün dövlətimizin başçısına təşəkkürünü bildirdi:

- Cənab Prezident, Sizi Azərbaycanın diasporu adından salamlayıram. Özbəkistana xoş gəlmisiniz. Bu gün doğrudan da tarixi bir gündür ki, biz onu burada qeyd edirik. Cənab Prezident, məhz Sizin şəxsi təşəbbüsünüz ilə bu bina əsaslı təmir edildi, yenidən quruldu. İndi də bizə təqdim olunur. Biz hamımız Sizə təşəkkürümüzü bildiririk, minnətdarıq, çox sağ olun. Sizin Özbəkistana hər gəlişiniz bizi çox sevindirir. Sizə öz minnətdarlığımızı bildiririk. Biz də həmişə Vətənləyik. Harada olsaq da biz hamımız azərbaycanlı adımızı başqa dövlətlər, millətlər içində yüksək tutmağa çalışırıq və çalışacağıq. Çox sağ olun.

Prezident İlham ƏLİYEV: Sağ olun, təbrik edirəm.

Tədbir iştirakçıları xalqlarımız arasındakı dostluq və qardaşlıq əlaqələrinin inkişafına verdiyi töhfələrə görə Azərbaycan Prezidentinə bir daha təşəkkür etdilər.

Sonra xatirə şəkli çəkdirildi.

X X X

Daha sonra Prezident İlham Əliyev mədəniyyət mərkəzinin sərgi salonunda Səmərqənddə yaşamış mərhum azərbaycanlı heykəltəraş Eynulla Əliyevin əsərlərindən ibarət sərgiyə baxdı.

“Xalq qəzeti” – 2010 - 29 sentyabr - N 212.- S.2

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə "Türkdilli xalqların diasporları" adlı kitab nəşr olunub

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə yeni kitab nəşr olunub. "Türkdilli xalqların diasporları" adlı kitabın müəllifi Zaur Əliyevdir. Kitabda türkdilli xalqların diasporları, onların məskunlaşma coğrafiyası, təşkilati strukturu, müasir dürümü ilə bağlı məlumatlar toplanıb. Nəşrdə türkdilli dövlətlərin xarici siyasətinin formalaşmasında, türkdilli xalqların problemlərinin dünya ictimaiyyətinə çatdırılmasında diaspor amilinin rolunu əks etdirəm mıqamlara da toxunulub.

"Türkdilli xalqların diasporları" kitabı türkdilli xalqların tarixini və diaspor mövzusunu araşdıran tədqiqatçılar, alimlər və mütəxəssislər, eləcə də xarici ölkələrdə yaşayan azərbaycanllar üçün nəzərdə tutulub.

01 oktyabr 2010

"DAK-ın qurultayı Almaniyada olacaq"

Əjdər Tağızadə: "Tehran rejimi azərbaycanlıları təzyiq altında saxlayır"
"Güney məsələsi yenə də diqqət mərkəzində olacaq"

Dünya Azərbaycanlıları Konqresinin XI qurultayının sentyabrın 18-19-da Almaniyanın Frankfurt şəhərində keçirilməsi nəzərdə tutulsa da, tədbir planlaşdırılan zamanda gerçəkləşmədi. Buna səbəb kimi DAK rəhbərliyində təmsil olunan şəxslərin Milli Məclisə keçirilən seçkilərdə iştirakı göstərilir. Verilən məlumatlara görə, qurultayın Almaniyanın Bonn şəhərində dekabrın birinci ongünlüyündə keçirilməsi planlaşdırılır.

DAK qurultaya necə hazırlaşır? Həm bu məsələ, həm də İranda hazırkı durumla bağlı DAK Daimi Şurasının sədri Əjdər Tağızadənin fikirlərini öyrəndik. Müsahibimiz əvvəlcə Güneylə, irandakı vəziyyətlə bağlı mənzərənin qısa icmalını verdi.

- İran parlamentində 177 nəfər, vaxtilə Əhmədinejadın öz yanındakılar demək olar ki, indi başqa mövqe sərgiləyirlər. Onlar artıq deyirlər ki, Əhmədinejad özbaşınalıq edir. Aparıcı millət vəkillərindən olan Məhəmməd Rza Bahinər və digər tanınmış millət vəkilləri bildiriblər ki, prezidenti Məclisdə sorğu-sual etmək lazımdır. Görünür, Əhmədinejadın dəstəsi irəlilədikcə hətta Ayətulla Xamneyinin də marağı ona yavaş-yavaş azalır.

Sonuncu dəfə Məclisin iclasında Əhmədinejadın səhvlərini sıraladılar. Bildirdilər ki, hazırkı prezident indiki rəhbər olan Ayətulla Xamneyini təhqir edib, qanunları pozub. Bunu qabaq deməzdilər.

- ABŞ-ın dövlət katibi Hillari Klinton bildirdi ki, İranda ali ruhani təbəqəni dəyişmək lazımdır. Bildirdi ki, Əhmədinejadı ruhanilər yıxacaq. Yəni dövlət katibi nisbətən loyal ruhaniləri nəzərdə tuturdu. Varmı İranda belə təbəqə?

- Bəli, var. Ümumiyyətlə, ABŞ dövlətinin rəsmi bəyanatında da İran adlanan yerdə ancaq bir millətin olması göstərilir. Orda bir millət yoxdur. Bəlkə bu da biz Azərbaycan türklərinin az işlədiklərinə görədi ki, onlar hələ bu cür dərk edirlər. Biz Amerikada konqresdə, Dövlət Departamentində olmuşuq. Orda bunları başa salmaq lazımdır ki, İran adlanan yerdə təkcə fars toplumu deyil, başqa millətlər də var. Çoxluğu da türklər təşkil edir. Amerika maraqlıdır ki, burda bir hakimiyyət ötürməsi olsun.

- Dediklərinizdən məlum olur ki, İranın hakimiyyət dairələrində bir ziddiyyət mövcuddur. Yaranmış fikir ayrılıqları, sizcə, hakimiyyət çevrilişi üçün yetərlidirmi?

- Əhmədinejad Nyu-Yorka gedən vaxtı bildirdi ki, işin başında duran prezidentdir, əsas odur, o qərar verir. Xomeyni isə vaxtında demişdi ki, məsələlərin başında Məclis durur. İndi də Əhmədinejad deyir ki, mən nə desəm, odur. Getdi Nyu-Yorka, elə bildi ki, yaddan çıxacaq, amma çıxmadı. Bundan sonra mühafizəkar qanad hərəkətə gəldi ki, biz bunu sorğu-suala çəkəcəyik.

Yəni hakimiyyətin əsas qanadının içində dava gedir. Hakimiyyətin içində olan əsas qanadlar da o birisilərə, Yaşıllara qarşı vuruşurlar. Ziddiyyətlər artıq açıq müstəviyə çıxıb.

- İran hökuməti vurğulayır ki, onlara qarşı tətbiq edilən sanksiyalar nəticəsizdir. İqtisadiyyatda heç bir büdrəmə yoxdur. Nə dərəcədə səmimi açıqlamadır bunlar?

- İran adlanan yerdə yalançı iqtisadiyyat hökm sürür. İnflyasiya güclüdür, işsizlik çoxalıb. Gənclik işsizdir. Bununla bərabər sanksiyalar İran adlanan yerin belini qırmaqdadır. Xaricdəki bankları bağlandıqca, aparıcı adamların adları qara siyahıya düşdükcə vəziyyət gərginləşir. Almaniyanın polad zavodları İran adlanan yerə polad satışını dayandırıblar. Son zamanlar Tehran deyirdi ki, silahla savaşın dönəmi bitib, indi biz yumşaq savaşa hazırlanmalıyıq. Milyonlarla insanı buna hazırlayırdılar. Hətta bizim, DAK-ın saytını "vurdular". Hələ indiyə kimi düzəldə bilmirik.

Çox saytları, informasiya sistemlərini sıradan çıxardılar. Amma son günlər hansı dövlətdisə, güclü pulu olan bir kompaniyadırsa, elə bir virus buraxıb ki, birbaşa gedir, İrandakı nüvə silahı ilə məşğul olan böyük zavodların kompyuterinə və bütün informasiyaları çəkir. Bunu təkcə Fransa, İngiltərə, Almaniya, Amerika və Yaponiya edə bilər. Tehran rejimi hələ çıxıb deyir ki, onların sistemində heç bir dəyişiklik baş verməyib. Amma yavaş-yavaş ağızlarından qaçırırlar ki, həmin virus kompyuter sisteminin bir hissəsini sıradan çıxarıb. Tehran rejimi istəyirdi ki, bilgisayar savadları göstərə ki, bu istiqamətdə güclüdürlər. Amma gördülər ki, bu sahədə də bacara bilməzlər.

- İran prezidenti Əhmədinejadın Amerikaya səfərindən sonra vəziyyət necə dəyişib?

- Amerika torpağında, Birləşmiş Təşkilatın iclasında birbaşa Barak Obamanın üzünə demək ki, 11 sentyabrda binaları yəhudilərlə birlikdə özünüz partlatmısınız, bununla BMT-dəki yollarını da bağladılar. İrandakı bəzi adamlar deyirlər ki, Əhmədinejad yaxşı gedib danışıb. Amma ağıllı adamlar deyirlər ki, bunun ağlı yoxdur, gedib ağlına nə gəlirsə, danışır. Belə olub ki, Çin də artıq İrana qarşı fərqli mövqedən çıxış edir. Rusiya prezidenti də sanksiyalara qoşuldu. Yəni rejimin iki yaxın dostu Rusiya və Çin də geri çəkildilər. Hansı ki, həmin ölkələrlə İran adlanan yerin böyük ticarət dövriyyələri vardı.

- Xaricdən edilən təzyiqlər və daxili ziddiyyətlər fonunda azərbaycanlı fəalların yaranmış vəziyyətdən yararlanmaq istiqamətində hər hansı səyləri varmı?

- İran adlanan yerdə xarici basqılar artsa da, azərbaycanlılar yenə təzyiq altında saxlanılır. Lakin buna baxmayaraq indi hərəkat üzvləri daha mütəşəkkil şəkildə, ağıllı, düşüncəli şəkildə fəaliyyətlərini həyata keçirirlər. Biz bütün dünya ilə təmaslarımızı qurmağa çalışırıq. Cənubi Azərbaycanda yaşayan türklərin rejim tərəfindən hansı məhrumiyyətlərə məruz qaldıqlarını tam çılpaqlığı ilə göstərmək istəyirik. Məsələni xarici ölkələrin parlamentlərində qaldırmağa çalışırıq.

- DAK-ın qurultayında hansı məsələlərin gündəliyə salınacağı gözlənilir?

- Mən DAK-ın Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin sözçüsüyəm. XI qurultayın Almaniyanın Bonn şəhərində dekabrın birinci ongünlüyündə keçirilməsi planlaşdırılır. Qurultayda təşkilati məsələlər müzakirə ediləcək. Güney məsələsi diqqət mərkəzində olacaq, Azərbaycan türklərinin birgə fəaliyyəti istiqamətində fikir mübadiləsi aparılacaq.

Qurultay ərəfəsində DAK İran türklərinin haqları ilə bağlı bir sıra tədbirlər də keçirəcək. 11 Dekabr Dünya İnsan Haqları Günü və 12 Dekabr "21 Azər" Hərəkatı ilə bağlı Almaniyada və digər ölkələrdə də tədbirlərimiz olacaq.

- XI qurultayda Qulamrza Səbri Təbrizinin başçılıq etdiyi DAK-la birləşmə məsələsi gündəmə gələ bilərmi?

- Dünyada bir DAK var. O da beynəlxalq təşkilat kimi dünyanın bir çox ölkələrində qeydiyyatdan keçən və bizim təmsil olunduğumuz DAK-dır. Digər DAK adlı təşkilatların rəhbərləri bizim konqresdən çıxıb gedənlərdir. DAK-dan çıxıb bu adda bir təşkilat yaradan hər kəslə sonradan birləşmək adlı sənəd imzalamaq fikrimiz yoxdur. Bütün bu barədə gedən yazılar həqiqətə uyğun deyil.

- Konqresin Azərbaycanda keçirilən parlament seçkilərində iştirakı nədən ibarət olacaq?

- DAK-ın rəhbərliyində təmsil olunan Sabir Rüstəmxanlı və digər şəxslər Milli Məclisə namizədliklərini irəli sürüblər. Biz onları dəstəkləyəcəyik, eyni zamanda milli məfkurədə olan insanlar da bizə müraciət etdikləri təqdirdə dəstəyimizi əsirgəməyəcəyik.

Firdovsi
“Şərq” – 2010 -1 oktyabr - N.172.-S.10.

Diasporumuz Mətyu Brayzaya dəstək oldu
Onun səfir seçilməsi üçün BƏƏ-də yaşayan Azərbaycan diasporu ABŞ Prezidenti Barak Obamaya müraciət edib

İki ilə yaxındır ki, ABŞ-ın Azərbaycandakı səfirliyi səfirsiz fəaliyyət göstərir. Artıq səfir vəzifəsinə namizəd tapılıb-Mətyu Brayza ABŞ. Amma onun bu vəzifəyə seçilməsi üçün qarşı çıxan qüvvələr də üzə çıxıb. Nəhayət bu gün Mətyu Brayzanın ABŞ-ın Azərbaycandakı səfiri vəzifəsinə namizədliyi məsələsi Senatda müzakirəyə çıxarılacaq. Brayzanın səfir seçilməsinə dəstək olmaq üçün Birləşmiş Ərəb Əmirliklərində yaşayan Azərbaycan diasporu ABŞ Prezidenti Barak Obamaya müraciət ediblər. Qeyd edək ki, müraciəti bu haqda "Paritet"ə məlumat verən BƏƏ-dəki Azərbaycan Cəmiyyətinin sədri Samir İmanov göndərib. Onun sözlərinə görə B. Obamanın adına yazılan məktubun əsli Ağ Evə, məktubun surəti ABŞ Dövlət Departamenti və Senatına göndərilib.

Müraciətdə ABŞ rəsmilərinin çoxsaylı bəyanatlarında Azərbaycanın ABŞ-ın mühüm müttəfiqi kimi qeyd edildiyi vurğulanır: "Baxmayaraq ki, siz Mətyu Brayzanın namizədliyini Azərbaycana səfir kimi təklif etmişiniz və bu təklif Dövlət Departamenti və Senat üzvlərinin böyük əksəriyyəti tərəfindən dəstəklənib, lakin şəxsi maraqları olan bəzi senatorlar 20 ildən artıq ABŞ-ın xarici diplomatiyasında çalışan bacarıqlı və Qafqaz regionunun problemlərini yaxından tanıyan diplomatın namizədliyinin təsdiqinə əngəl törədirlər. Beləliklə də, Azərbaycan-ABŞ əlaqələrinin daha da sıx əməkdaşlığına mane olurlar".

Məktubda müraciətin İran Körfəzi ölkələrində uzun müddət yaşayan çoxsaylı Azərbaycan diasporu adından edildiyi bildirilir. Eyni zamanda Obamdan xahiş olunur ki, ABŞ xarici diplomatiyasının maraqlarına zidd addım atan, məlum səbəblərdən ermənilərdən asılı olan bir qrup senat üzvlərinə belə hərəkətlərin anti-ABS, anti-demokratik və dünya xalqlarına pis nümunə olmasını onların nəzərinə çatdırsın: "Özünü dünyanın ən demokratik dövləti sayan ABŞ kimi dövlətdə belə halların baş verməsi sizin və xalqınızın başını nəinki uca etmir, əksinə şəxsən sizin və ABŞ-ın nüfuzunu dünya xalqlarının gözündə xeyli aşağı salır. Bu məsələ dünyada yaşayan 50 milyon azərbaycanlılar tərəfindən müxtəlif dövlətlərin ictimai təşkilatlarının rəhbərləri və dövlət rəsmiləri ilə görüşlərində də Dağlıq Qarabağ problemilə bərabər müzakirə edilir və Azərbaycana səfirin indiyədək təyin edilməməsinin əsl səbəbləri onlara çatdırılır və təbii ki bu da dövlətinizin nüfuzuna böyük zərbədir".

Diasporumuz müraciətində ABŞ Prezidentinin hüquqi səlahiyyətlərindən istifadə edərək problemin ədalətli həllinə çalışacağına və tələblərinin yerinə yetirilməsi üçün səylərini əsirəgəməyəcəyinə əmin olduqlarını bildiriblər: "Fürsətdən istifadə edərək sizə gələcək işlərinizdə uğurlar arzulayıram və dünyada ədalətin bərqarar olması üçün ABŞ-ın öz səylərini daha da artıracağına ümid edirəm".

S. İmanov məktubun çox diplomatik tərzdə yazıldığın və heç kəsin təhqir edilmədiyini deyib: "Hər halda bir damla da olsa Prezidentə yazılan məktubumuz səfirin təyinatına dəstək ola bilər", deyə o əlavə etdi.

Fuad
"Paritet" -2010 - 5-6 oktyabr -N.103.-S.7.

Köln şəhərində Mədəniyyətlərarası Həftə (Interkulturelle Woche) keçirilir

Hər il sentyabrın 20-dən oktyabrın 3-dək Almaniyanın Şimali-Rayn-Vestfalen əyalətinin Köln şəhərində Mədəniyyətlərarası Həftə (Interkulturelle Woche) keçirilir. Bu çərçivədə təşkil olunan tədbirlərdən biri də Dünya ölkələrinin nağılları festivalıdır. İkigülük festivalda 20 ölkədən nağıllar təqdim edilib, müxtəlif xalaqların musiqilərindən nümunələr səsləndirilib. Köln Şəhər Bələdiyyəsinin təşkil etdiyi və İGNİS Mədəniyyət Ərkəzində keçirilən festivalda beş qitənin mədəniyyəti təmsil olunub və Azərbaycan nağılı da dinləyicilərin diqqətinə çatdırılıb. Tədbirə toplaşanlar Azərbaycanla yanaşı Bolqarıstan, Böyük Britaniya, Finlyandiya, İtaliya, Yaponiya, Kanada, Kolumbiya, Meksika, Qvineya, Kamerun, Çexiya, Litva, Ukraina və digər ölkələrdən olan uşaq və eyni zamanda böyüklər üçün də nəsihətlə dolu nağıllar səsləndirilib.

Tədbirdə ilk olaraq Azərbaycan nağılı-"Tık-tık xanim" qonaqlara təqdim olunub. Aparıcı Florian Sever Azərbaycan haqqında qəsa məlumat verib, sonra iki dildə-Azərbaycan və alman dillərində nağıl oxunub. -"Tık-tık xanim" nağılını alman dilində aktrisa Kristina-Mariya Qreve böyük ustalıqla oxuyub. Sonra Almaniyada yaşayan soydaşımız, Köln Konservatoriyasının dosenti, pianoçu Elnara İsmailova Azərbaycanın görkəmli bəstəkarı Fikrət Əmirovun miniatürlərini ifa edib. Azərbaycan nağılı gecəsinin təşkilində Köln Şəhər Bələdiyyəsinə Alman-Azərbaycan Forumu və Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi də dəstək verib.

05 oktyabr 2010

Horia Qırbyanın müəllifi olduğu "Azərbaycan–canlı alov"
("Azerbaijan – The Living Flame") kitabının təqdimat mərasimi keçiriləcək

Oktyabrın 7-də Almaniyanın Frankfurt şəhərində hər il təşkil olunan Beynəlxalq Kitab Yarmarkasında tanınmış rumın yazıçısı və dramaturqu, Buxarest Yazıçılar Assosiasiyasının sədri Horia Qırbyanın müəllifi olduğu "Azərbaycan–canlı alov" ("Azerbaijan – The Living Flame") kitabının təqdimat mərasimi keçiriləcək. Heydər Əliyev Fondunun dəstəyi ilə üç dildə-alman, ingilis və rumın dillərində çap olunmuş kitab Rumıniya Mədəniyyət Nazirliyinin təşkil etdiyi stenddə nümayiş etdiriləcək. Bu barədə məluamtı Diasporla İş üzrə Dövlət Komitəsinə Azərbaycan-Rumıniya Gənclər və Mədəniyyət Assosiasiyasının sədri İqbal Hacıyev verib.

Kitabda müəllifin Azərbaycana səfəri zamanı əldə etdiyi təəssüratlarla yanaşı, Azərbaycanın tarixi, ədəbiyyatı, coğrafiyası və mədəniyyəti, o cümlədən, Ermənistanın Azərbaycana qarşı təcavüzü və onun nəticələri, eləcə də Xocalı soyqırımı haqqında ətraflı məlumatlar öz əksini tapıb. Kitabın sonuna H.Qırbyanın müəllifi olduğu Şuşa, Xocalı soyqırımı və Quba məzarlığı haqqında şeirlər əlavə olunub. Eyni zamanda oktyabrın 15-də kitabın təqdimat mərasimi ilə bağlı Rumıniyanın "TVR Cultural" televiziya kanalında Buxarest Yazıçılar Assosiasiyasının sədri H.Qırbyanın iştirakı ilə veriliş efirə gedəcək.

06 oktyabr 2010

Tiflisdəki Biznes Hüquq Universitetində yeni tədris ili ilə bağlı tədbir keçirilib

Tiflisdəki Biznes Hüquq Universitetində yeni tədris ili ilə bağlı tədbir keçirilib. APA-nın Gürcüstan bürosunun məlumatına görə, universitetin rektoru, professor Kaxa Eradze bildirib ki, universitetdə 200-ə yaxın azərbaycanlı tələbə təhsil alır: "İstəyimiz odur ki, bizim universitetdə təhsil alan azərbaycanlı tələbələr gürcü cəmiyyətinə inteqrasiya olunmaqla bərabər, həm də bilikli və savadlı mütəxəssis kimi cəmiyyətin layiqli üzvü olsunlar. Universitetimizin müxtəlif ölkələrlə yanaşı, ABŞ və Azərbaycanın ali məktəbləri ilə sıx elmi əlaqələri mövcuddur.

Arzum budur ki, yetişdirdiyimiz tələbələrin sorağı yüksək tribunalardan gəlsin və onlar doktor, professor və ən yaxşı mütəxəssis kimi səmərəli elmi fəaliyyət göstərsinlər, Gürcüstanın hökumət və digər strukturlarında ləyaqətlə azərbaycanlıları təmsil etsinlər". Tədbirdə bir qrup azərbaycanlı ziyalı gürcü və Azərbaycan xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsində böyük xidmətlərinə görə təhsil ocağının fəxri doktoru diplomu ilə təltif edilib. Azərbaycanın Gürcüstandakı səfiri Namiq Əliyev, Azərbaycan Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov, ARDNŞ-in Gürcüstandakı nümayəndəliyinin rəsmisi Arif Əliyev, Kvemo-Kartli bölgə qubernatorunun müavini Hüseyn Yusifov, Azərbaycanlıların Mədəniyyət Mərkəzinin sədri Fazil Həsənov, Qafqaz İnkişaf Bankının əməkdaşı Ravil Qarayev və digər şəxslərə təntənəli şəraitdə fəxri doktor diplomu təqdim olunub.

06 oktyabr 2010

Türklər və azərbaycanlılar erməni diasporuna qarşı çıxacaq lobbi yaratmalıdırlar

Çağrı Erxan: "İki ölkənin cəmiyyətləri arasında da münasibətləri nizama salmaq vacibdir"

Azərbaycan və Türkiyə münasibətlərində qısamüddətli böhran ötən payız ilk dəfə ölkələr arasında ikitərəfli münasibətlərə baxış haqqında məsələni gündəmə qoyub.

Ankara Universitetinin Avropa Xalqlarını Öyrənmə Mərkəzinin direktoru Çağrı Erxan belə hesab edir: "Böhranın yeganə yaranma səbəbi fəaliyyətlərin kifayət qədər koordinasiya edilməməsidir". Strateji Araşdırmalar Mərkəzində "Türkiyə-Azərbaycan münasibətləri: gözləntilər və nəticələr" mövzusunda çıxış edən Çağrı Erxanın sözlərinə görə, ölkələr arasında strateji münasibətlər Türkiyə-Azərbaycan ittifaqının yeganə mexanizmində inkişaf etməlidir.

"Dağlıq Qarabağ münaqişəsi həll edilmədən Türkiyə ilə Azərbaycan arasında münasibətlərin normallaşması qeyri-mümkün idi və Ermənistan tərəfi bunu çox gözəl anlayırdı. Lakin mövcud məsələdə Türkiyə ilə Azərbaycan arasında fəaliyyət kifayət qədər koordinasiyası olmayıb"-deyə o hesab edir. Türkiyəli ekspertin sözlərinə görə, protokol testi Azərbaycana Türkiyə deyil, Rusiya vasitəsilə verilib: "Türkiyənin bu prosesə (Ermənistanla münasibətlərin normallaşması) Azərbaycan torpaqlarının işğalını dayandırmaq məqsədilə başlanmasına baxmayaraq, mövcud protokolla qarşıya qoyulan məqsədə çatmaq qeyri- mümkün idi və əksinə, bu, vəziyyəti daha da çətinləşdirdi". Ekspert bildirib ki, imzalanmış protokollar Türkiyə ilə Azərbaycan arasında münasibətlərin pisləşməsinə, Türkiyə Böyük Millət Məclisində vəziyyətin qeyri-sabitliyinə gətirib çıxardı və nəticədə Ermənistan parlamenti özü onu təsdiq etməkdən imtina etdi. Lakin onun sözlərinə görə, protokollar Türkiyə-Azərbaycan münasibətlərində boşluğun yaranmasına səbəb olub: "Türkiyə ilə Azərbaycan arasında bütün əməkdaşlıq sahələrində sazişlərin imzalanmasına baxmayaraq, bu münasibətlərin Türkiyənin ərəb ölkələri ilə hazırladığı mexanizmlərə oxşar mexanizmini işləyib hazırlamalıyıq". Buna misal olaraq o, Türkiyə ilə bir sıra ərəb ölkələri arasında viza rejiminin ləğvi, həmçinin Türkiyə, Suriya, Livan və İordaniya arasında azad ticarət zonasının yaradılmasını göstərib.

Erxan ölkələr arasında münasibətlərin yaxşılaşdırılmasında digər vacib amil kimi xaricdə Azərbaycan və Türkiyə diasporunun əməkdaşlığını hesab edir: "Azərbaycan mənşəli amerikalıların sayı ABŞ-da yaşayan türklərin sayını ötüb. Onların əksəriyyəti İrandan gəlmələrdir. Lakin əsas məsələ kəmiyyətdə deyil, keyfiyyətdədir. Xaricdə yaşayan türklər və azərbaycanlılar erməni diasporuna qarşı çıxacaq lobbi yaratmalıdırlar". Erxan, həmçinin qeyd edib ki, son bir neçə il ərzində ABŞ-ın Senat və Konqresində türk-azərbaycanlı lobbisinin kifayət qədər təsiri hiss olunmayıb və bu səbəbdən ötən yaz ABŞ Konqresi Aşağı Palatasının Xarici əlaqələr komitəsi qondarma erməni soyqırımını tanıyan sənəd qəbul edib: "Yalnız hökumətlərimiz arasında deyil, iki ölkənin cəmiyyətləri arasında da münasibətləri nizama salmaq vacibdir. Buraya mətbuat, universitetlər, beyin mərkəzləri daxildir. Bütün bunlar ümumi vahid strategiyada keçməlidir, yoxsa çox gec olacaq".

Azər Nuriyev
"Kaspi". -2010.-8 oktyabr.-N.177.-S.4.

Berlində fəaliyyət göstərən "Azərbaycan Kültür Ocağı"nda
Üzeyir Hacıbəyovun anadan olmasının 125 illik yubileyi qeyd edilib

Oktyabrın 9-da Berlində fəaliyyət göstərən "Azərbaycan Kültür Ocağı"nda dahi bəstəkar, Azərbaycan professional musiqisinin banisi, görkəmli ictimai xadim, musiqişünas, alim və pedaqoq Üzeyir Hacıbəyovun anadan olmasının 125 illik yubileyi qeyd edilib. Tədbiri "Azərbaycan Kültür Ocağı" və Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi birgə təşkil edib. Gecəni "Azərbaycan Kültür Ocağı"nın sədri Hakan Ciflik açaraq bu tədbirin Azərbaycan mədəniyyətinin ən önəmli səhifələrindən birinə həsr olunduğunu bildirib. Sonra "Azərbaycan Kültür Ocağı"nın üzvü Reyhan Qasımova Üzeyir Hacıbəyovun həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib, bəzi məqamlar üzərində xüsusilə dayanaraq "Arşın mal alan" musiqili komediyasının tarixindən yaddaqalan faktlar açıqlayıb. Bu ölməz əsərin ekranlaşdırılması tarixinə dair aşkar edilmiş faktlar qonaqların böyük marağına səbəb olub.

AAKM-nin icraçı direktoru Samirə Patzer-İsmayılova "Üzeyir dünyası" mövzusunda çıxış etməzdən öncə dahi bəstəkarın məşhur "Koroğlu" operasından Üvertüranın səsləndirilməsini təklif edib. S.Patzer-İsmayılova bəstəkarın Azərbaycan musiqi tarixində oynadığı roldan, dünya musiqisinə gətirdiyi yeniliklərdən, Azərbaycan mədəniyyəti qarşısındakı əvəzsiz xidmətlərindən, ümumiyyətlıə Üzeyir dühasının çoxşahəliliyindən danışıb, məhz Ü.Hacıbəyovun şərq və qərb mədəniyyətlərinin sintezini yaratdığını vurğulayıb. Tədbirdə həmçinin "Azərbaycan Kültür Ocağı"nın üzvü Mənsur Merqatinin hazıdladığı Üzeyir Hacibəyovun həyatının müxtəlif mərhələlərini əks etdirən və onun əsərlərindən ibarət fraqmentlər əsasında qurulmuş qısa film təqdim olunub. Gecədə Almaniyada yaşayan tarzən Cavad Mirzəyevin ifasında Azərbaycan musiqisindən parçalar da səslənib.

09 oktyabr 2010

Koreya Xarici Dillər Universitetinin Türk-Azərbaycan Dilləri Fakültəsində "BUTA Azərbaycan Mədəniyyət Dərnəyi" fəaliyyətə başlayıb

Koreya Xarici Dillər Universitetinin Türk-Azərbaycan Dilləri Fakültəsində "BUTA Azərbaycan Mədəniyyət Dərnəyi" fəaliyyətə başlayıb.

Dərnəkdə BUTA Azərbaycan-Koreya Tələbə Təşkilatının üzvləri Zaur Səfərov və Çinarə Ağacanova Koreyalı tələbələrə Azərbaycanın milli rəqslərini öyrədəcək. BUTA AKTT, həmçinin ölkəmizin tarixi, mədəniyyəti, incəsənəti barədə məlumatları müxtəlif formatlı tədbirlər keçirməklə koreyalı tələbələrə aşılayacaq. Azərbaycan dilini öyrənən koreyalı tələbələr üçün dərnəkdə "danışıq dərsləri"nin təşkil olunması da nəzərdə tutulub Koreyadakı Azərbaycan Səfirliyi, "BUTA Azərbaycan Mədəniyyət Dərnəyinə" dəstək olaraq Azərbaycan haqqında məlumat xarakterli materiallar vermiş, rəqs dərslərində istifadə olunması üçün milli paltarlarla təmin etmişdir. Məlumat üçün nəzərinizə çatdıraq ki, 2008-ci ilin sonunda KXDU-da rəsmi olaraq Türk-Azərbaycan dilləri fakültəsinin yaradılması haqqında qərar qəbul edilib. Fakültənin fəaliyyətə başlaması üçün hazırlıq işləri uğurla başa çatdıqdan sonra 2009-cu ilin yaz semestrindən etibarən Azərbaycan dili kurslarının tədrisi başlanılıb.

11 oktyabr 2010

Tbilisidə “Azərbaycanca-gürcücə” lüğət kitabının ikinci cildi çapdan çıxıb

Tbilisidə “Azərbaycanca-gürcücə” lüğət kitabının ikinci cildi çapdan çıxıb. Sözlük iki min tirajla buraxılıb. 454 səhifədən ibarət sözlüyün müəllifləri Gürcüstan azərbaycanlıları arasında gürcü dilini yayan cəmiyyətin sədri, professor Alı Musayev və Heydər Əliyev adına Tədris Universitetinin rektoru, professor Novruz Bayramovdur. Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə nəşr olunan 12 min sözdən ibarət sözlük gürcü dilini öyrənən tələbələrə və şagirdlərə pulsuz paylanacaq.

11 oktyabr 2010

Leyla Əliyeva və Polad Bülbüloğlu akademik B.V.Petrovski adına Rusiya Elmi Cərrahiyyə Mərkəzində tibb müəssisəsinin rəhbərləri ilə görüşmüşlər

AzərTAc xəbər verir ki, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) sədri, Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla Əliyeva və Azərbaycanın RF-dəki səfiri Polad Bülbüloğlu akademik B.V.Petrovski adına Rusiya Elmi Cərrahiyyə Mərkəzində (RECM) olmuş, ölkənin bu aparıcı tibb müəssisəsinin rəhbərləri ilə görüşmüşlər. RECM-in direktoru Sergey Dzemeşkeviç ilə görüşdə tibbi kadrların hazırlanması, təcrübə və mütəxəssislər mübadiləsi, eləcə də birgə tədbirlər və aksiyalar keçirilməsi sahəsində əməkdaşlığın perspektivləri müzakirə edilmişdir. Sonra Leyla Əliyeva mərkəzdə ordinatorlar və aspirantlar ilə görüşmüş, onlar təşəbbüslərini dəstəklədiyinə görə Leyla Əliyevaya təşəkkür məktubunu təqdim etmişlər. Görüş başa çatandan sonra Leyla Əliyeva Azərbaycanın tanınmış bəstəkarı və pianoçusu Rafiq Babayevin disklərinin Heydər Əliyev Fondu tərəfindən hazırlanmış kolleksiyasını mərkəzin muzeyinə hədiyyə etmişdir.

Leyla Əliyeva görkəmli sovet və Rusiya cərrahı, SSRİ Elmlər Akademiyasının həqiqi üzvü, 1957-ci ildə "Azərbaycanın Əməkdar Elm Xadimi" adına layiq görülmüş professor B.Petrovskinin memorial muzeyinin ekspozisiyası ilə tanış olmuşdur. Daha sonra RAGT-nin sədri Leyla Əliyeva böyrək və qara ciyər transplantasiyası şöbəsinə baş çəkmiş, burada Nijni Novqorod şəhərindən olan 11 yaşlı həmvətənimiz, Heydər Əliyev Fondunun vəsaiti hesabına müalicə olunan Camal Bəkirovla görüşmüşdür. Həmin gün İ.M.Seçenov adına Moskva Tibb Akademiyasının (MTA) binasında İÇV/QİÇS-ə qarşı mübarizə probleminə həsr edilmiş konfrans keçirilmişdir. RAGT-nin tibb seksiyası, Azərbaycanın RF-dəki səfirliyi və YUNEYDS (BMT-nin İÇV/QİÇS üzrə birgə proqramı) tərəfindən təşkil edilmiş konfransın məqsədi İÇV/infeksiya barədə gəncləri məlumatlandırmaq və xəstəliyin profilaktikasıdır. RAGT-nin sədri, Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla Əliyeva konfrans iştirakçılarını salamlamışdır. O qeyd etmişdir ki, müzakirə edilən mövzu müasir gənclərin ən ağrılı və ciddi problemlərindən biridir və bu konfrans gəncləri QİÇS-in təhlükəli xəstəlik olması barədə məlumatlandırmağa kömək edəcəkdir.

L.Əliyeva əksər hallarda gənclərin mübtəla olduğu bu xəstəliyin yayılması barədə statistik məlumatları açıqlamışdır. Leyla Əliyeva demişdir: "Aşkardır ki, QİÇS səhiyyənin ciddi problemlərindən biridir və onun həllini axtarmaq zəruridir. Heydər Əliyev Fondu Azərbaycanda səhiyyə məsələlərinə çox böyük diqqət yetirir. Fondun təşəbbüsü ilə respublikada bir neçə müasir tibbi mərkəz tikilmişdir, Beynəlxalq Diabet Federasiyası ilə fəal əməkdaşlıq edilir, talassemiya kimi təhlükəli xəstəliklərə qarşı mübarizə məsələsinə böyük diqqət yetirilir. Heydər Əliyev Fondu YUNESKO, İSESKO, YUNEYDS və digər beynəlxalq təşkilatlarla da səhiyyə sahəsində fəal əməkdaşlıq edir. Azərbaycan Səhiyyə Nazirliyi ilə birlikdə uşaqlar arasında qızılca, məxmərək və digər xəstəliklər əleyhinə kütləvi immunlaşdırma tədbirləri həyata keçirilmişdir. Bu ilin baharında isə Azərbaycanda QİÇS barədə məlumatın insanlara çatdırılması məqsədilə "Uşaq göy qurşağı" layihəsi həyata keçirilmişdir.

Fondun Rusiya nümayəndəliyinin rəhbəri vurğulamışdır ki, RAGT də səhiyyə problemlərindən kənarda qalmır və müntəzəm surətdə müxtəlif xeyriyyə tədbirləri keçirir. "Sağlam olduğunu yəqin et. Xəstəliyə yox de" layihəsi çərçivəsində həmvətənlərimiz pulsuz müayinə edilmişlər. Hər il "Qanın milləti yoxdur" donor aksiyası keçirilir. L.Əliyevanın sözlərinə görə, RAGT-nin regional bölmələri də QİÇS-in təhlükəli xəstəlik olması, onun qarşısının alınması və profilaktikası, eləcə də narkotiklərin, tütünün və alkoqolun zərəri barədə gəncləri məlumatlandırmaq üçün böyük iş aparırlar. Leyla Əliyeva sonda demişdir: "Biz sağlam həyat tərzini və gənclərin idman təşəbbüslərini həmişə alqışlayırıq.

Bugünkü konfrans QİÇS təhlükəsi barədə məlumatlandırma üzrə növbəti layihəmizdir. Əminəm ki, səylərimiz sayəsində gənclərin bilikləri artacaq və neçə-neçə insanın həyatı xilas ediləcəkdir. Bu isə o deməkdir ki, gördüyümüz bütün işlər çox vacibdir və biz bu istiqamətdə işi davam etdirməliyik". O, konfransın bütün iştirakçılarına və insanların həyatına biganə olmayan fəallara təşəkkür etmişdir. Azərbaycanın RF-dəki səfiri Polad Bülbüloğlu Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın rəhbərlik etdiyi təşkilat çərçivəsində gənclərin problemlərinə və sağlamlığına göstərilən diqqətə görə ona təşəkkürünü bildirmiş, bu konfransın gənc nəsil üçün əhəmiyyətindən söhbət açmışdır.

YUNEYDS proqramının Rusiya və Azərbaycan üzrə direktorları Denis Y.Brun və professor Həqiqət Qədirova bütün dünyada, o cümlədən Rusiya və Azərbaycanda İÇV-infeksiya ilə əlaqədar vəziyyət barədə məruzələrlə çıxış etmişlər. Tibb Akademiyasının 2-ci kurs tələbəsi Aytac Əliyeva gənclər adından çıxış edərək RAGT-nin QİÇS-ə qarşı mübarizə planları və bu problemlə əlaqədar təkcə Moskvada deyil, Rusiyanın başqa regionlarında da həyata keçirilməsi nəzərdə tutulan tədbirlər barədə məlumat vermişdir. Tədbirin sonunda məlumat xarakterli broşürlər paylanmışdır.

12 oktyabr 2010

ABŞ-ın eks-prezidenti Corc Buş və xanımı Laura Buş Main ştatının Portland şəhərindəki "Fort Williams" parkında İraqda müharibə zamanı həlak olmuş hərbçilərin ailələri ilə görüşərkən bir qrup azərbaycanlı keçmiş dövlət başçısına yaxınlaşaraq ona və həlak olanların yaxınlarına başsağlığı veriblər

ABŞ-ın eks-prezidenti Corc Buş və xanımı Laura Buş Main ştatının Portland şəhərindəki "Fort Williams" parkında İraqda müharibə zamanı həlak olmuş hərbçilərin ailələri ilə görüşərkən həmin vaxt parkda olan bir qrup azərbaycanlı keçmiş dövlət başçısına yaxınlaşaraq ona və həlak olanların yaxınlarına başsağlığı veriblər. Söhbət zamanı soydaşlarımız Portlənddəki azərbaycanlılar, onların fəaliyyəti barədə qısa məlumat veriblər. ABŞ-nın daxili və xarici siyasətini dəstəklədiklərini bildirən Azərbaycanlı gənclər onu da deyiblər ki, 20 ilə yaxın vaxt keçməsinə baxmayaraq Qarabağ münaqişəsinin hələ də həll edilməməsini Amerikanın ikili standartlara uyğun siyəsət yürütməsi isə bağlayırlar.

Corc Buşla söhbətdə Maindəki Azərbaycan icması və soydaşlarımızın gördüyü işlər, icmanın fəallarından olan Tərlan Əhmədovun digər xalqların diasporlarının nümayəndələri ilə qurduğu uğurlu əlaqələr, Elvin Həsənov, Rəsul Rəsulov kimi gənclərin "University of Southern Maine"də təhsil almaları ilə yanaşı tələbələrlə, yerli sakinlərlə öz bilgilərini paylaşmaları, onlara Qarabağ həqiqətlərini çatdırdıqları haqqında danışılıb. Gənclər Vaşinqtonda yaradılmış Qarabağ Fondu (Karabakh Foundation) ilə əməkdaşlıqları barədə də məlumat veriblər. Corc Buş da soydaşlarımızla söhbətdən məmnun qaldığını, onların fəaliyyətini dəstəklədiyini bildirib və gənclərə uğurlar arzulayıb.

13 oktyabr 2010

Benilüks Azərbaycanlıları Konqresinin (BAK) fəxri sədri Sahil Qasımovun təşəbbüsü və təklifi ilə qurumun sifarişi əsasında ölkənin rabitə nazirliyi rəsmi olaraq üzərində Heydər Əliyev Fondunun embleminin təsvir olunduğu poçt markaları dövriyyəyə buraxıb

Niderland krallığının Rotterdam şəhərində fəaliyyət göstərən Benilüks Azərbaycanlıları Konqresinin (BAK) fəxri sədri Sahil Qasımovun təşəbbüsü və təklifi ilə qurumun sifarişi əsasında ölkənin rabitə nazirliyi rəsmi olaraq üzərində Heydər Əliyev Fondunun embleminin təsvir olunduğu poçt markaları dövriyyəyə buraxıb. Markaların üzərində emblemanın təsviri ilə yanaşı ingilis dilində" Heydar Aliyev Foundation" sözləri yazılıb. Zərflərin üzərinə yapışdırılması nəzərdə tutulan bu markalı məktublar bütün Avropa ölkələrinə yayılacaq. Azərbaycanın Niderland Krallığındakı Səfirliyi də yeni markanın buraxılması ilə bağlı öz tövsiyələrini verib. Yaxın vaxtlarda yeni markanın təqdimatının keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, Azərbaycanla bağlı həqiqətləri Avropada yaymaqda xüsusi rolu olan Heydər Əliyev Fondu ilə ölkəmiz barədə onun hüdudlarından çox-çox uzaqlarda yerləşən Hollandiya vətəndaşlarını hərtərəfli məlumatlandıran BAK arasında sıx əməkdaşlıq mövcuddur. Bu əməkdaşıq fondun Hollandiyada yaşayan azərbaycanlı uşaqların ana dilində təhsil alması məqsədilə Amsterdam və Rotterdam şəhərlərində açılmış həftə sonu məktəblərini dərslik və dərs ləvazimatları ilə təmin etməsindən, onlara hərtərəfli qayğı göstərməsindən başlayıb. Bundan əlavə, fond Benilüks Azərbaycanlıları Konqresini Azərbaycan həqiqətlərindən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən, Xocalı soyqırımından bəhs edən kitablar, broşurlar və digər əyani vəsaitlərlə təmin edib.

15 oktyabr 2010

Almaniya Bundestaqının mətbuat zalında Almaniya-Azərbaycan Münasibətlərinin İnkişafı Cəmiyyəti Dağlıq Qarabağ (DQ) münaqişəsinə həsr olunmuş tədbir keçirib

Berlində Almaniya Bundestaqının mətbuat zalında Almaniya-Azərbaycan Münasibətlərinin İnkişafı Cəmiyyəti Dağlıq Qarabağ (DQ) münaqişəsinə həsr olunmuş tədbir keçirib. "Güc, təcavüz və müharibə sülhə və rifaha aparan yol deyil" adlı tədbirdə Azərbaycan Respublikasının Almaniyadakı səfiri Pərviz Şahbazov, Almaniya parlamentinin deputatları, müxtəlif ictimai təşkilatların nümayəndələri, eləcə də Almaniyadakı Azərbaycan diasporunun təmsilçiləri iştirak ediblər.

Tədbirə Alman Dalğası (Deutsche Welle) media qurumunun əməkdaşı Luts Layxtfus moderatorluq edib, Almaniya Bundestaqının deputatı Karl Qeorq Velman və Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin icraçı direktoru Samirə-Patzer İsmayılova isə məruzə ilə çıxış ediblər. Tədbiri açan Almaniya Bundestaqının keçmiş üzvü və Almaniya-Azərbaycan Münasibətlərinin İnkişafı Cəmiyyətinin icraçı direktoru E.Lintner Dağlıq Qarabağ da daxil olmaqla, Azərbaycan torpaqlarının 20 faizinin hələ də Ermənistanın işğalı altında saxladığını, son dövrlərdə sülhə nail olunması məqsədi ilə beynəlxalq ictimaiyyətinin göstərdiyi səylərin Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe üzündən hələ də nəticə vermədiyini bildirib. O, güc tədbiqinin, təcavüzün müasir dünyada qəbul olunmadığını və bu yolla sərhədləri dəyişdirməyin və ya yeni torpaqların əldə olunmasının qeyri-mümkünlüyünü vurğrlayıb. Sonra çıxış edən Bundestaqın üzvü Karl-Qeorq Velman Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların dalana dirənməsinin təmsil etdiyi qurumda narahatlıq doğurduğunu və ən yaxın zamanda danışıqlarda irəliləyiş əldə olunmasını arzu etdiklərini bildirib.

Bu ilin dekabr ayında ATƏT-in Astanada növbəti sammitinin keçiriləcəyini qeyd edən Bundestaq üzvü bu görüşdə AFR-in Ferderal Kansleri Anqela Merkelin də iştirak edəcəyini və müzakirə mövzularından birinin də Qafqazdakı münaqişələr olacağını ifadə edib. O, bu görüşdə Dağlıq Qarabağ münaqişəsi ilə də bağlı müəyyən irəliləyişə nail olacağına ümid etdiklərini söyləyib. Bundan əlavə, o qeyd edib ki, son proseslər bu münaqişə həll olunmadan Türkiyə-Ermənistan səhədlərinin açılmasına inanmağın əbəs olduğunu göstərir. Bundestaq deputatının fikrincə, Qarabağ münaqişəsinin həll olunacağı təqdirdə Ermənistanın hər iki ölkə ilə münasibətləri yaxşılaşacaq və iqtisadi rifaha nail olunacaq.

Daha sonra Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin icraçı direktoru Samirə-Patzer İsmayılovanın "Dağlıq-Qarabağ münaqişəsi – faktlar və nəticələr" mövzusunda məruzəsi dinlənilib. O münaqişənin yaratdığı fəlakətlərdən statistik faktlarla danışıb, bu münaqişənin Qərbi Avropaya təsirindən danışıb. Müzakirələr zamanı çıxış edən Azərbaycanın Almaniyadakı səfiri P.Şahbazov ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə aparılan danışıqların son durumu barədə məlumat verib. O, Minsk Qrupunun irəli sürdüyü yeniləşmiş Madrid prinsiplərinin Azərbaycan tərəfindən qəbul olunduğunu, Ermənistan tərəfindən isə hələ də qəbul olunmadığını bildirərək, münaqişənin həllində irəliləyişə nail olmaq üçün həm Avropa İttifaqının, həm də Almaniyanın Ermənistana təzyiq etməsinin vacibliyini diqqətə çatdırıb.

15 oktyabr 2010

Vətəndən uzaqlarda...
Maqadanda Azərbaycan dünyası

"Maqadan" sözü azərbaycanlılara coğrafiya dərslərindən, bir də yaxın tariximizin dəhşətli "1937-ci il" səhifəsindən məlumdur. Qərbi Sibirlə Sakit okean sahilləri arasında yerləşən bu diyar çukçaların, evenklərin, koryakların, eskimosların vətəni olsa da, Rusiya imperiyası bu yerləri işğal edib Sakit okeana çıxdıqdan sonra zəngin təbii sərvətlərdən faydalanmaq üçün ərazini ruslarla və digər xalqlarla məskunlaşdırmağa çalışıb. Uzun sürən qışı, 50-60 dərəcə şaxtası gəlmə adamları bu yerlərlə o qədər də bağlamayıb. Çar Rusiyası dövründə daha çox sürgün olunmuşlar və dustaqlar Maqadan quberniyasının qızıl mədənlərində işləməyə məhkum ediliblər. Yaponlar bu prosesi insan sümükləri üstündə məskunlaşma adlandırıblar.

Sovet dövründə bu məskunlaşmanı davam etdirmək, ərazini sovetləşdirmək üçün quberniyada Maqadan şəhəri mərkəz olmaqla vilayət, onun tərkibində isə yerli əhalinin çoxluq təşkil etdiyi Çukot Muxtar Mahalı yaradılıb. Sərt iqlimə, ölkə mərkəzindən 7-8 min kilometr uzaqlığa görə gələn könüllülər daim geri dönmüşlər. Vilayətin və şəhərin inkişafı məcburi gətirilənlərin ağır əməyi, bəlalı taleyi sayəsində mümkün olmuşdur. Bu barədə rus dissident yazıçısı A. Soljenitsinin "QULaq arxipelaqı" əsərində yazılanlar Maqadanı dünyaya tarixin dəhşətli əzab və ölüm düşərgələrindən biri kimi tanıdıb. Sovet dövləti özünün əsas qızıl mədənlərinin istismarından əlavə, əhalini bu yerə bağlamaq üçün vilayətdə maşınqayırma, yeyinti, yüngül və emal sənayesi sahələri yaratmış, balıqçılığı və gəmiçiliyi inkişaf etdirmiş, təhsil, elm, mədəni-məişət obyektləri yaratmışdır. Maqadanda zaman-zaman həbsdə, sürgündə və hərbi xidmətdə olmuş minlərlə soydaşımızın taleyində də bu yerdə keçirdikləri aylar və illər ağrı-acılı izlər qoymuşdur. Son illərdə Maqadanda tədqiqatlar aparmış jurnalist Binnət Əsgərov vilayətdə və onun dustaqxanalarında 10500-dən çox soydaşımızın məşəqqətlərə düçar olduğunu aşkar etmişdir. Hətta böyük şair Hüseyn Cavid də əvvəlcə buraya gətirilibmiş. Ona görə də "Maqadan" sözü ötənlərdə xalqımızda həmişə məcburi əməyin hökm sürdüyü, talesiz insanların məhkumluq keçirdiyi, məhv edildiyi, dünyadan uzaq, bütövlükdə, nəhəng bir həbsxana təsiri bağışlayan məkan təsəvvürü yaradıb.

SSRİ dağılandan, Azərbaycan müstəqillik qazanandan sonra sovet imperiyası ərazisində qalmış 2 milyondan artıq soydaşımızdan Maqadanda qalıb yaşayan varmı? Onların güzəranları necədir? Coğrafi uzaqlıq, yad mühit onları Vətəndən, milli varlığımızdan uzaq salmayıb ki? Bu suallara bu günlərdə bir görüşdə aldığımız cavablar Maqadan barədə bu vaxtadək eşidib-bildiklərimizin artıq keçmişdə qaldığını, vilayətdə və onun mərkəzində könüllü olaraq yaşayan soydaşlarımızın Azərbaycanla sıx bağlı olduğunu açıqladı. Bu yaxınlarda Moskva-Bakı təyyarə reysi ilə Vətənə birlikdə uçmuş jurnalist dostumuzla Maqadandakı Azərbaycan və Dağıstan xalqları təmsilçilərinin "Birlik" cəmiyyətinin sədri Mikayıl Səlimovun yol söhbətləri o qədər maraqlı olmuşdu ki, Uzaq Şərqdəki diaspor təşkilatlarımızdan birinin fəaliyyəti barədə oxucularımızı da məlumatlandırmaq üçün həmin qurumun rəhbərini redaksiyamıza dəvət etdik.

Mikayıl Səlimov 1954-cü ildə Xaçmaz rayonunun Üçgün kəndində anadan olub. 1974-cü ildə Bakı Politexnik Texnikumunu bitirib. 1976-cı ildə Başqırdıstanın paytaxtı Ufa şəhərində hərbi xidməti başa çatdırdıqdan sonra komsomol göndərişi ilə Çukotkaya gedib. 1977-ci ildə bu muxtar mahalın daxil olduğu eyniadlı vilayətin mərkəzi Maqadan şəhərinə gəlib. Mədəndə işləməklə yanaşı, buradakı Politexnik İnstitutunun tikinti şöbəsinə daxil olub. Onun Uzaq Şərqə gəlişi xoşluqdan olmasa da, bu yerlərin könüllü məskunlaşması üçün stimulların artdığı (nisbətən rahat təhsil, yüksək məvacib, karyerada yüksəliş, tez mənzil almaq və s.) bir dövrə düşdüyündən Mikayıl da taleyini qorxub-çəkinmədən Maqadanla bağlayıb. II Dünya müharibəsindən sonra yapon cəbhəsindən vilayətə gəlib mədən müdiri olmuş əmisinin bu yerlərdəki xətir-hörməti və himayəsi Mikayılı Maqadana bir az da möhkəm bağlayıb. İş icraçısı, usta, sahə rəisi vəzifələri ailəsini rahat dolandırmağa imkan verib. İllər keçdikcə şəhərdə nüfuzu da artıb. Yeni gələn azərbaycanlılara arxa-dayaq olub, fəaliyyəti ilə vilayət və şəhər rəhbərliyində mövqeyi artıb. 1989-cu ildə şəhərdə ilk kooperativlərdən birini yaradıb. Sonrakı illərdə yaratdığı "İnveststroy" şirkəti şəhərin həyatında əhəmiyyətli rol oynayır. Bütün bunlar onu, təbii olaraq, vilayətdəki azərbaycanlıların və dağıstanlıların liderinə çevirib. 3 il əvvəl "Birlik" cəmiyyətini təsis edən bir neçə həmyerlimizdən biri olub və tezliklə onun sədri seçilib. Mikayıl qürbətdə olduğu 36 il müddətində Vətənlə əlaqəsini nəinki kəsməyib, hətta ildən-ilə möhkəmləndirib. Həyat yoldaşını Azərbaycandan seçib aparan həmyerlimiz boya-başa çatdırdığı övladlarını - 1 oğlunu və 2 qızını doğma respublikamızda ev-eşik sahibi edib. Onun bu nümunəsi Maqadandakı soydaşlarımız üçün örnəkdir. 7 nəvəsini görmək, xeyriyyə tədbirlərini davam etdirmək üçün vaxtaşırı Bakıda və Xaçmazda olur. Kəndlərinə 2 kilometr uzunluğunda yol çəkdirib. Hazırda doğma obasında məscid tikdirir. Necə deyərlər, Maqadanda qazanılan pulların istisi Azərbaycanda çoxlarını qızdırır. Elə orada da Mikayıl dara düşən eloğlularının pənahıdır. Bütün bunlarla yanaşı, müsahibimizdən, suallarımıza cavab almaq çətin olmadı:

- Qürbətdə keçən illərə təəssüflənmirsiniz ki?

- Bu mənim taleyimdir. Əlbəttə, Azərbaycanda mənim kimiləri çox olduğundan özümə iş tapmaq, mənzil almaq, həyatımı qaydaya salmaq asan olmayacaqdı. Uzaq Şərqdəki təbii çətinliklərimin əvəzi olaraq həyatımı qaydaya saldım, ali təhsil aldım, sonrakı illərdə Sankt-Peterburq İqtisad Akademiyasını idarəçilik ixtisası üzrə qiyabi bitirdim. Uşaqlarımı böyütdüm, rəhbər kadr, iş adamı kimi formalaşdım, ictimai işlərdə tanındım. Vətəndən uzaqda olsam da, içimdə həmişə Azərbaycanı yaşatdım. İndi imkanlarım, əlaqələrim uzaq məsafəni yaxınlaşdırmaqda işimi yüngülləşdirib. Bir ayağım burada, bir ayağım oradadır.

- Sizinlə söhbətdən aydın oldu ki, Maqadan da artıq o qorxulu, ölüm kabusuna çevrilmiş Maqadan deyil. İndi orada dustaq və əsgəri xidmət keçən, taleyindən bezən soydaşlarımız deyil, özü üçün maraqlı fəaliyyət tapan həmyerlilərimiz yaşayır.

- Həqiqətən, belədir. Amma sovet dövrünün şüurlarda möhkəmlənmiş təsəvvürləri elədir ki, Maqadan sözünü eşidənlər diksinirlər. Düzdür, o yerlər cənnət də deyil. İqlim sərtdir, işləmək, çörək qazanmaq asan deyil. Lakin ağlı başında olanın, əziyyət çəkənin zəhməti hədər getmir. Necə deyərlər, indi Maqadanın cəfası ilə yanaşı, səfası da var. Vilayətdə müxtəlif səbəblərdən gəlmiş 2500-dək azərbaycanlı yaşayır. Onların 1500-ü Maqadan şəhərindədir. Vilayətdə yaşayan 260 min, onun mərkəzindəki 130 min əhali ilə müqayisədə heç də az deyil. Yeni gələn həmvətənlərimiz də var. Əvvəl gələnlərdən fərqli olaraq cəmiyyətimiz onların problemlərinin həllinə çox kömək edir.

- Cəmiyyətiniz hansı işlərlə məşğuldur?

- Əvvəla, "Birlik" hamını bir yerə toplayıb. Bir yerdə olmaqla həm gücümüzü, imkanımızı artırırıq, həm də milli dəyərlərimizi qoruyub-yaşadırıq. Cəmiyyət vilayətin və şəhərin ictimai-siyasi həyatında da fəal rol oynayır. Artıq bizi tanıyır, bizimlə hesablaşırlar. Layiq olduğumuz payı almaqda çətinliyimiz yoxdur. Dövlət, hökumət orqanları ilə əlaqələrimiz normal, faydalıdır. Qubernator Nikolay Dudov mənim dostumdur. Hər xahişimizə əməl edir. Milli bayramlarımızı birlikdə, yüksək səviyyədə keçiririk. Yerli tədbirlərdə də öz adımızla, milli kimliyimizlə çıxış edirik. Hamılıqda Uzaq Şərqin önəmli bir diyarında Azərbaycanı həm yüksək davranış və qabiliyyətimizlə tanıdır, həm də ölkəmizin milli dəyərlərini, indiki uğurlarını geniş təbliğ edirik. Vilayətdəki 20-dək etnik-mədəni qurum arasında fəallığımızla seçilirik. Bu cəmiyyətlərin bir çoxu bizdən sonra yaranıb. Dağıstan xalqları ilə bir yerdə olmağımız, müsəlman icmaları ilə sıx əlaqələrimiz mövqeyimizi gücləndirir. Təsəvvür edin ki, Rusiyanın başqa şəhərlərində min hoqqadan çıxan ermənilər həm sayca bizdən az olduqlarından, həm də gücümüzü, birliyimizi görüb əleyhimizə səslərini çıxarda bilmirlər.

- Azərbaycanlıların məşğuliyyəti nədir?

- Hər sahədə çalışanlar var. Xidmət sahələrində, milisdə və s. işləyənlər üzdə olduqlarından daha çox tanınırlar. Ədalət Təhməzov, Knyaz Həsənov, Babay Qasımov, Ceyhun Hüseynov, Əli Məmmədov kimi iş adamları, fermerlər həm fəaliyyətləri, həm də cəmiyyətimizdə iştirakları ilə seçilirlər. Elm, mədəniyyət, təhsil sahəsində, dövlət idarələrində çalışanlarımız da var. Xeyir-şər məclislərimiz milli qaydalarla keçirilir. Şəhərə tez-tez Bakıdan, Vladivostokdan, Novosibirskdən musiqiçilərimizi dəvət edirik. Sevincimiz də, kədərimiz də bir yerdədir. Bütün bunların sorağı, əlbəttə, Azərbaycana da çatır və yeni adamlar gəlir. Burada özünə iş, yer tapa bilməyənlər orada bizim köməyimizlə bu məsələləri asan və tez həll edirlər. Son vaxtlar Maqadana üz tutan özbəklərin, taciklərin, çinlilərin sayı sürətlə çoxalır, biz niyə çoxalmayaq?

- Adamların nə vaxtsa geri dönmək fikri varmı?

- Bilirsiniz, bu məsələ elədir ki, hamı bir dəfəyə geri dönə bilməz. Gedənlər də olur, gələnlər də. Təsəvvür edin ki, Vətəndən kənarda yaşayan 2 milyondan çox azərbaycanlı birdən geri dönsə, nə baş verər? Ümumiyyətlə, bu mümkündürmü, lazımdırmı? Əsas məsələ odur ki, harada olursansa ol, azərbaycanlı kimi yaşa, Azərbaycan üçün çalış. Ulu öndər Heydər Əliyevin bu məsələdə bizə göstərdiyi yol budur ki, başqa millətlər kimi, biz də dünyaya yayılaq, dünyadan faydalanaq, ilk və son ünvanımız olan Azərbaycan üçün gərəkli olaq.Biz Maqadanda yaşayan azərbaycanlılar Novosibirskdəki 40 min nəfərlik, Xabarovskdakı 60 minlik, Vladivostokdakı 20 minlik diasporlarımızla, Ümumrusiya Azərbaycan Konqresi ilə sıx, Vətənimizlə qırılmaz əlaqədə yaşayır, həyatımızı mənalandırır, yad diyarda milli varlığımızı qoruyub saxlayırıq. Özümüzü yaşatmaqdan əlavə, hər birimizin Azərbaycana az-çox köməyi də çatır. Maqadan vilayəti ilə respublikamız arasında məsafə uzaq olsa da müxtəlif sahələrdə faydalı əməkdaşlığın perspektivləri var. Azərbaycanın meyvə- tərəvəzinə orada böyük bazar var. Maqadanın dəniz məhsullarını respublikamıza gətirmək olar. Maqadana ehtiyac olan sahələr üzrə işçi briqadaları da göndərmək mümkündür və s. Biz övladlıq borcumuzla həmişə Vətənə bağlıyıq, xalqımızın yanındayıq. Vətənə sevgi və bağlılığımız uzaq məsafəni qısaldan etibarlı bir körpüdür. "Azərbaycan" sözü həmişə qəlbimizə məhəbbət, gözümüzə işıq, dizimizə təpər gətirir.

Tahir Aydınoğlu
"Xalq qəzeti "-2010.-16 oktyabr.-N 227.-S.6.

Leyla Əliyevanın və Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) rəhbərlərinin Rusiya ali məktəblərində təhsil alan azərbaycanlı tələbələrlə görüşü keçirilmişdir

AzərTAc xəbər verir ki, oktyabrın 16-da Moskvadakı "Bakı" kinoteatrında Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) sədri Leyla Əliyevanın və Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) rəhbərlərinin Rusiya ali məktəblərində təhsil alan azərbaycanlı tələbələrlə görüşü keçirilmişdir.

Görüşdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı, habelə ÜAK xətti ilə Moskvanın və Rusiya regionlarının ali məktəblərinə daxil olmuş azərbaycanlı tələbələr iştirak etmişlər. Bu, RAGT-ın rəhbəri Leyla Əliyevanın azərbaycanlı tələbələrlə ikinci görüşüdür. Görüşü ÜAK-ın prezidenti, Rusiya Tibb Elmlər Akademiyasının akademiki Məmməd Əliyev açaraq Azərbaycan rəhbərliyinin gənclərin xaricdə, o cümlədən Rusiyada təhsilinə, habelə ÜAK xətti ilə Rusiya ali məktəblərinə daxil olmuş tələbələrə diqqət və qayğısından danışmışdır. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri, RAGT-ın sədri Leyla Əliyeva tədbirin iştirakçılarını salamlayaraq demişdir: "Mən əminəm ki, bu il bizim üçün uğurlu, parlaq və maraqlı olacaqdır və biz həm təhsildə, həm də RAGT-ın bütün layihələrinin həyata keçirilməsində müvəffəqiyyət qazanacağıq". Leyla Əliyeva Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının çoxşaxəli fəaliyyəti və müxtəlif sahələrdə planları barədə ətraflı məlumat vermişdir.

O vurğulamışdır ki, bu il mayın 22-də Moskvada RAGT-ın yaradılmasının 1-ci ildönümünə həsr olunmuş konfrans keçirilmişdir. Tədbirə təkcə Moskva və Sankt-Peterburqdan deyil, İvanovodan, Tverdən, Vladivostoktdan, Yekaterinburqdan və Rusiyanın digər regionlarından yüzlərlə qonaq gəlmişdi. Leyla Əliyeva demişdir: "Gördüyünüz kimi, RAGT-ın coğrafiyası daim genişlənir və bu, çox sevindirici haldır. Bu gün Azərbaycanın gənclər klubları Rusiyanın bir çox təhsil müəssisəsində fəaliyyət göstərir və gənclərimizin Vətənimizi müxtəlif ali məktəblərdə layiqincə təmsil etmək imkanı vardır".

RAGT-ın fəaliyyətindən danışan L.Əliyeva bildirmişdir ki, təşkilat müxtəlif sahələrdə mütəmadi olaraq çoxlu tədbirlər – konsertlər, seminarlar, konfranslar, fotosərgilər, Azərbaycan mədəniyyəti günləri və həftələri keçirir. Leyla Əliyeva demişdir: "Təşkilatımızın fəaliyyətinin başlıca istiqamətlərindən biri Heydər Əliyev Fondu ilə birlikdə keçirilən "Xocalıya ədalət" beynəlxalq kampaniyasıdır. Tədbirdən məqsəd Azərbaycanın bu şəhərində 1992-ci ildə baş vermiş faciəli hadisələr barədə bütün qitələrin sakinlərinə həqiqəti çatdırmaqdır. RAGT gənclərimizin iştirakı ilə keçirilən bütün idman tədbirlərini dəstəkləyir və sağlam həyat tərzini təbliğ edir. Bu həftə Seçenov adına Moskva Dövlət Tibb Universitetində İÇV/QİÇS probleminə həsr olunmuş konfrans keçirilmişdir. İndi fəallarımız müxtəlif regionlarda olacaq, ayrı-ayrı ali tədris müəssisələrində və məktəblərdə gənclərə bu virus barədə məlumat verəcəklər.

Bildiyiniz kimi, artıq bir neçə ildir ki, RAGT-ın saytı fəaliyyət göstərir və onun istifadəçilərinin sayı daim artır. Yaxın gələcəkdə saytda RAGT-televiziya açılacaqdır. Burada fəallarımızın özlərinin çəkdiyi videosüjetlər yayımlanacaqdır. Bu il RAGT-ın jurnalının birinci nömrəsi çapdan çıxmışdır. Nəşrdə gənclərin həyatının müxtəlif sahələrini işıqlandırmağa çalışmışıq". Leyla Əliyeva qeyd etmişdir ki, jurnalın yeni nömrəsi hazırlanır. O, maraqlı ideya və təklifləri jurnala göndərməyi təklif etmiş və onların arasından ən maraqlılarının dərc olunacağını vəd etmişdir. Leyla Əliyeva bildirmişdir ki, yaxın gələcəkdə Moskvadakı Xarici Ədəbiyyat Kitabxanasında Azərbaycan zalı açılacaqdır.

Burada Azərbaycan ədəbiyyatı geniş təmsil olunacaqdır. O demişdir: "RAGT orada konfranslar, seminarlar, Azərbaycan dili, tarixi dərsləri təşkil edəcəkdir. Əlbəttə, biz təkcə həmyerlilərimizi deyil, bütün dostlarımızı orada görməyə şad olarıq". RAGT-ın rəhbəri qeyd etmişdir ki, 2009-cu ildə RAGT əlaçı tələbələr üçün mükafat təsis etmişdir. Bundan əlavə, Heydər Əliyev Fondu aztəminatlı ailələrdən olan tələbələr üçün illik təqaüd ayırmışdır.

O demişdir: "Ümidvaram ki, bu, tələbələrimiz üçün əlavə stimul olacaq və təhsildə və bütün digər işlərində daha yüksək nəticələr əldə etməkdə onlara kömək edəcəkdir". Leyla Əliyeva bütün gəncləri RAGT ilə daha sıx əməkdaşlığa çağıraraq vurğulamışdır ki, qarşıda çoxlu planlar, ideyalar və layihələr vardır. O demişdir: "Mən ölkəmizin, Vətənimizin rifahı naminə fəal işinizə və səylərinizə görə hamınıza təşəkkürümü bildirmək istəyirəm. RAGT-ın qapıları hamının üzünə açıqdır və biz bütün işlərinizdə sizə yardım etməyə və sizi dəstəkləməyə hazırıq". Sonra mükafatlar təqdim olunmuşdur.

Leyla Əliyeva RAGT-ın "Əlaçı mükafatı"nı, habelə Heydər Əliyev Fondunun mükafatlarını təqdim etmişdir. Təqdimat mərasimindən sonra Rusiya Humanitar Universitetinin 2-ci kurs tələbəsi Jalə Cavadova, Birinci Moskva Tibb Universitetinin 5-ci kurs tələbəsi, Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı xətti ilə təhsil alan Mirtapdıq Talıbov, habelə valideyn Mahirə Cəlilova çıxış etmişlər. Onlar ölkə vətəndaşlarının Rusiyada təhsili üçün yaradılan şəraitə görə Azərbaycan Prezidenti İlham Əliyevə, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinə, RAGT-a və ÜAK-a təşəkkürünü bildirmişlər. ÜAK-ın təhsil komitəsinin sədri Tofiq Məlikov Konqres adından əlaçı tələbələri təbrik etmişdir.

O, xüsusi vurğulamışdır ki, ÜAK-ın səyləri müsbət nəticələr verir və bu gün Rusiyanın ali məktəblərində 196 azərbaycanlı təhsil alır. Görüşün sonunda ÜAK-ın prezidenti Məmməd Əliyev bildirmişdir ki, ümummilli lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarının dünyanın ən yaxşı ali məktəblərində təhsil alması arzusu uğurla həyata keçirilir.

Qeyd olunmuşdur ki, "Lukoyl" Xeyriyyə Fondu da aztəminatlı ailələrdən olan tələbələr üçün xüsusi təqaüdlər təsis etmişdir. Bundan əlavə, ÜAK-ın prezidenti Məmməd Əliyev ali tibb məktəbində təhsil alan və maddi dəstəyə ehtiyacı olan iki tələbə üçün təqaüd ayırmışdır. Görüş tələbələrin iştirakı ilə maraqlı konsert proqramı ilə başa çatmışdır.

16 oktyabr 2010

Qarabağ Fondu Vaşinqton şəhərində növbəti tədbirini keçirməyə hazırlaşır

ABŞ-da fəaliyyət göstərən Qarabağ Fondu Vaşinqton şəhərində növbəti tədbirini keçirməyə hazırlaşır. AzərTAc xəbər verir ki, oktyabrın 17-18-də Fond Vaşinqton şəhərinin ən nüfuzlu sərgi salonu sayılan Gallery Centerdə "Mənim Qarabağım" adlı fotosərgi keçirəcək. Sərgidə Qarabağın işğalından əvvəl müxtəlif fotoqraflar tərəfindən çəkilmiş 100-ə yaxın fotoşəkil sərgilənəcək. Daha sonra eyniadlı sərgi digər mötəbər sərgi salonu Honfleur Galleridə oktyabrın 30-dək keçiriləcəkdir.

Bu sərgilərə Vaşinqton şəhərinin tanınmış sənətşünasları, incəsənət xadimləri, siyasətçilər, Azərbaycan və türk icmasının nümayəndələri dəvət olunmuşlar. Qarabağ Fondu 2009-cu ilin noyabrında ABŞ-da yaradılmışdır və qeyri-hökumət təşkilatlarına verilən yüksək 501 (C) 3 statusuna sahibdir. Fondun əsas məqsədi Azərbaycanı, onun Qarabağ bölgəsini və bütünlükdə Qafqazı amerikalılara tanıtmaq, Azərbaycan mədəniyyəti və musiqisini bu ölkədə tərənnüm və təbliğ etməkdən ibarətdir. Qarabağ Fondu bu məqsədlə müxtəlif sərgilər, ictimai proqramlar, forumlar keçirir, kitabların nəşrini, mübadilə proqramlarının həyata keçirilməsini təşkil edir.

17 - 18 oktyabr 2010

Azərbaycanın Dövlət Müstəqilliyinin 19-cu ildönümü ilə əlaqədar bir sıra tədbirlər keçirilib

Bu gün Gürcüstan Azərbaycanlıları Konqresinin (GAK) ofisində Azərbaycanın Dövlət Müstəqilliyinin 19-cu ildönümü ilə əlaqədar tədbir keçirilib. GAK-ın ofisində keçirilən dəyirmi masada Gürcüstanın müxtəlif ali məktəblərində təhsil alan azərbaycanlı tələbələr iştirak edib. Tədbir Azərbaycanın dövlət himninin səsləndirilməsilə başlayıb. Tədbirdə çıxış edən GAK sədri Əli Babayev Konqresin hər zaman Azərbaycanın dövlət bayramlarını qeyd etdiyini xatırladıb. Babayev Müstəqillik gününün tarixi barədə tələbələrə məlumat verib. "Gürcüstan azərbaycanlıları tarixi vətənləri olan Azərbaycanın tarixini yaxşı bilməlidirlər. Azərbaycanın müstəqilliyə gedən yolu keşməkeşli olub. Azərbaycan xalqı çətinliklə qazanılan dövlət müstəqilliyinin qədrini bilir. Müstəqil Azərbaycan və Gürcüstan münasibətləri çox yüksək səviyyədədir. Gürcüstanın azərbaycanlı gəncləri iki ölkə arasındakı dostluq münasibətlərinin daha da inkişaf etdirilməsinə öz töhvələrini verməlidirlər. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin dediyi kimi Azərbaycanın müstəqilliyi əbədidir və dönməzdir. Müstəqil Azərbaycan ümummili lider Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin etibarlı əllərindədir", - GAK sədri deyib. Tədbirin sonunda iştirakçılar "Vətənim Azərbaycan" sənədli filminə baxıblar.

18 oktyabr-Azərbaycanın Dövlət Müstəqilliyi Günü Birləşmiş Ərəb Əmirliklərində təntənə ilə qeyd edilmişdir. Tədbirdə Azərbaycan diasporunun nümayəndələri ilə yanaşı, türk diaspor təşkilatlarının üzvləri, İraq türkmənləri, ictimaiyyətin nümayəndələri iştirak etmişlər. Dubaydakı Azərbaycan Cəmiyyətinin sədri Samir İmanov 1918-ci ildə qazanılan və 1991-ci il oktyabrın 18-də yenidən bərpa olunan müstəqillik tariximiz, 1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Azərbaycanın dünyanın sivil və demokratik dövlətləri sırasına qoşulması, ulu öndərin əsasını qoyduğu siyasət nəticəsində əldə olunan uğurlar barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, Prezident İlham Əliyevin hakimiyyətdə olduğu son yeddi ildə bütün sahələrdə davamlı olaraq böyük uğurlar qazanılmış, Azərbaycan regionda lider dövlətə çevrilmişdir. Tədbirdə türk diasporunun nümayəndəsi Azərbaycan-Türkiyə əlaqələrindən danışmış, iki qardaş dövlətin bütün sahələrdə bir-birinə dəstək olduğunu qürurla qeyd etmişdir. Çıxışlardan sonra müstəqil Azərbaycanın tərəqqisindən bəhs edən sənədli film nümayiş olunmuşdur. Qonaqlar tədbirin keçirildiyi salonda Azərbaycanın müxtəlif illərdə xəritəsinin neçə dəfə dəyişildiyini və işğal altında olan ərazilərimizi əks etdirən lövhəni də maraqla izləmişlər.

Birləşmiş Ərəb Əmirliyində fəaliyyət göstərən "Azərbaycan" Cəmiyyəti 18 oktyabr-Dövlət Müstəqilliyi gününün 19 illiyini qeyd edib. Cəmyyətin sədri Samir İmanov mərasimdə çıxış edərək Azərbaycanın qədim tarixi, sovetlər birliyi dönəmində qarşılaşdığı çətinliklər, 1991-ci ildə ölkənin ikinci dəfə müstəqilliyini əldə etməsi və 1993-cü ildən başlayaraq milli lider Heydər Əliyevin rəhbərliyi altında nail olunan uğurlar, respublikanın daxili və xarici siyasətdə artan müvəffəqiyyələri barədə danışıb. Tədbirdə iştirak edən məşhur "Əl-Bayan" qəzetinin müxbiri mərasim və Azərbaycanın dövlət müstəqilliyi haqqında məqalə dərc etdirib. Qeyd edək ki, "Əl-Bayan" qəzeti hər ay "Azərbaycan" Cəmiyyətinin sədri S.İmanovun verdiyi məlumatlar əsasında ölkəmizdə aparılan quruculuq işləri, iqtisadi inkişaf, eləcə də Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparlan danışıqlar, Azərbaycan həqiqətlərini təbliği baxımından müxtəlif yazılar dərc edir.

18 oktyabr 2010

Bir millətin neçə diasporu olar?

Nazim İbrahimov Türk millətini vahid diaspor halında birləşdirmək iddiasındadır

"Azərbaycan türk dünyası arasında birliyin təmin olunmasına, əməkdaşlığın inkişaf etdirilməsinə hər zaman böyük önəm verib. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan türk dünyası ilə bağlı keçirilən bütün beynəlxalq tədbirlərin ən fəal iştirakçılarından olub, eyni zamanda bu cür tədbirlərin təşəbbüskarı və təşkilatçısı qismində çıxış edib".

Bunu İstanbulda keçirilən Dünya Türk Forumunda çıxışında Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov deyib. Komitənin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, N. İbrahimov türk dünyası üçün böyük əhəmiyyət daşıyan bu toplantının açılışı münasibətilə Azərbaycan prezidenti İlham Əliyevin qonaqlara və iştirakçılara salamlarını çatdırıb. Dövlət Komitəsinin sədri deyib ki, türkdilli ölkələrin dövlət başçılarının zirvə toplantıları, türk dövlət və cəmiyyətlərinin dostluq, qardaşlıq və əməkdaşlıq qurultayları və digər önəmli toplantılarda Azərbaycan da yaxından iştirak edib: "2007-ci ilin mart ayında Azərbaycan prezidentinin təşəbbüsü ilə Bakıda keçirilən Azərbaycan və Türk Diaspor Təşkilatları Rəhbərlərinin I Forumunda bu əməkdaşlığın konkret prinsip və istiqamətlərini müəyyənləşdirən "Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası" qəbul edilib. "Məhz bu strategiya əsasında bir vaxtlar yalnız arzu etdiyimiz xəyallar gerçəkliyə çevrilib - 2008-ci ildə Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması, 2009-cu ildə Ortaq Türk televiziyasının fəaliyyətə başlaması mümkün olub".

N. İbrahimov qeyd edib ki, 2010-cu ilin sentyabrında Türkiyədə keçirilmiş türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısı bütün türk dünyası üçün tarixi əhəmiyyət daşıyan qərarların qəbulu ilə yadda qalıb. Komitə sədrinin sözlərinə görə, türk xalqları arasında birliyin və həmrəyliyin daha da möhkəmləndirilməsi qarşıda duran vacib vəzifələrdəndir: "Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diasporu digər türk xalqlarının diasporları ilə sıx əməkdaşlıqdadır. Ulu öndərimiz Heydər Əliyevin söylədiyi "Bir millət iki dövlət" fikrinə, kəlamına əsaslanaraq "Bir millətin bir neçə diasporu ola bilməz, bizim vahid diasporumuz olmalıdır" prinsipilə fəaliyyətimizi davam etdiririk".

Bu tipli tədbirlərdən birinin Bakıda keçirilməsinin mümkünlüyünü qeyd edən Dövlət Komitəsinin sədri vurğulayıb ki, dünya dövlətlərində türk xalqlarının səsinin daha da yüksəklərdə eşidilməsi üçün Azərbaycan dövləti hər zaman bütün imkanlarını ortaya qoymağa hazırdır.

Komitə sədri onu da deyib ki, diasporumuzun gələcək fəaliyyətində soydaşlarımızın yaşadığı ölkələrdə doğulub təhsil almış, formalaşmış, həmin toplumun ictimai-siyasi mühitinin aktiv iştirakçısı olan övladlarına-gənclərinə xüsusi diqqət yetirməliyik. Onlar öz fəaliyyətlərində gələcəkdə türk dünyasına daha böyük töhfələr verə bilər. "Bu gənclərin daha yaxşı təşkilatlanması, əlaqələndirilmiş formada fəaliyyət göstərə bilmələri üçün konkret addımlar atırıq" deyən Nazim İbrahimov bildirib ki, məhz bu məqsədlə noyabrın 27-28-də Almaniyanın Frankfurt şəhərində Dünya Azərbaycanlı Gənclərinin I Konqresi keçiriləcək.

N. İbrahimov Dünya Türk Forumunun türk dünyasının birliyi ideyasına xidmət edəcəyinə inandığını deyib. Tədbirdə, həmçinin, Mardin Valisi Hasan Duruer, Türkiyə Böyük Millət Məclisinin (TBMM) üzvləri Şenol Bal, Hüseyn Pazarçı, TBMM-nin Avropa Birliyinə inteqrasiya komissiyasının nümayəndəsi Yusif Ziya İrbeç, TÜRKSOY-un baş katibi Dussanbay Kasseinov, Kosovadan türk əsilli nazir Mahir Yağcılar çıxış edib.

Qısa fasilədən sonra forum "Qlobal və regional problemlərin türk dünyasına təsiri" mövzusunda müzakirələrlə davam etdirir. Tədbir çərçivəsində "Türk dünyasında qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyətinin təşəkkül tapması önündəki problemlər", "Türk mədəniyyəti" və digər mövzularda seminarlar keçiriləcək.

Qeyd edək ki, dünən İstanbulda "Grand Cevahir Hotel"de Türk-Asiya Strateji Araşdırmalar Mərkəzinin (TASAM) təşkilatçılığı ilə "Türk Şurası, türk diasporu və sosial-iqtisadi əməkdaşlıq" mövzusunda Dünya Türk Forumu başlanıb. Tədbirin təşkilinə, Türkiyə hökumətilə yanaşı, Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsi də dəstək verib. Forumda 60 ölkədən türk dünyası və diasporlarının nümayəndələri iştirak edir.

"Bakı Xəbər".-2010.-22-24 oktyabr.-N 444.-S.6.

“Türk Şurası, türk diasporu və sosial-iqtisadi əməkdaşlıq” mövzusunda Dünya Türk Forumu başa çatıb

İstanbulda Türk-Asiya Strateji Araşdırmalar Mərkəzinin (TASAM) təşkilatçılığı, Türkiyə Cunhuriyyətinin Baş Bakanlığı və Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinın dəstəyi ilə keçirilmiş “Türk Şurası, türk diasporu və sosial-iqtisadi əməkdaşlıq” mövzusunda Dünya Türk Forumu başa çatıb. 60 ölkədən türk dünyası və diasporlarının nümayəndələrinin iştirak etdiyi tədbirə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun rəhbərlik etdiyi Dövlət Komitəsinin nümayəndə heyəti, Azərbaycan millət vəkilləri, alimləri və bir neçə ictimai təşkilatın rəhbəri, həmçinin fəal diaspor təşkilatlarımızın rəhbərləri qatılıblar.

Forumumun ikinci gunundə “Türk dünyasında qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyətinin təşəkkül tapması önündəki problemlər”, “Təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlıq və türk QHT-lərinin rolu”, “Ksenofobiya, sosial ayrımçılıq və türk diasporu”, “Türk dünyası mədəniyyəti məkanı: Mədəni fərqlilikdən mədəniyyətlərarası dialoqa”, “Sosial-İqtisadi əməkdaşlıq sahəsidə mövcud durum, yeni işbirliyi imkanları və təşkilatlanma” mövzularında seminarlar da keçirilib. Müzakirələrdə Azərbaycan Milli Məclisinin deputatları Fazil Mustafa, Qənirə Paşayeva, Sabir Rüstəmxanlı, Azəri-Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı, Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Geostrateji Araşdırmalar Mərkəzinin direktor müavini Elman Nəsirov, Bakı Slavyan Universiteinin dosenti Fərman İsayev, Amerika Türk Dərnəkləri Federasiyasının rəhbəri Ata Erim, digər türkdilli dövlətlərdən gəlmiş millət vəkilləri, QHT nümayəndələri, ziyalılar, o cümlədən müxtəlif ölkələrdəki türk diasporunun fəalları, Avropa ölkələri parlamentlərindəki türk əsilli millət vəkilləri və başqaları çıxış ediblər. Almaniyadakı Saksoniya parlamentinin üzvü Murad Kalmış, Danimarka əmək nazirinin müşaviri Bircan Ekər və digərləri Avropa və Amerikada mövcud olan ayrımçılıqla mübarizədə Azərbaycan və türk icmalarının səylərindən bəhs ediblər.

Türk Dil Qurumunun sədri Haluk Açıkalın, Türkiyə parlamentinin üzvü Cüneyt Yüksəl, Qazaxıstan Jurnalistlər İttifaqının sədri Seitkazi Matayev türk mədəni irsinin təbliği, bu sahədə diaspor təşkilatlarının rolu, sivilzasiyalararası dialoq məsələlərindən bəhs ediblər. TÜRKSOY-un baş katibi Dussanbay Kasseinov türk dövlətləri başçılarının zirvə görüşlərində qəbul olunan qərarların hər bir türkün, müxtəlif ölkələrdəki türk icmalarının üzərinə böyük məsuliyyət qoyduğunu bildirib. O reallaşdırılması nəzərdə tutulan layihələrdən danışarkən gələn ilin mart ayında BMT-də Novruz Bayramının yüksək səviyyədə qeyd olumasına hazırlıq görülməsi barədə məlumat verib.

Forumun ən maraqlı bölümü “Soyqırımı iddiaları: Türk dünyası diasporu və əməkdaşlıq” mövzusunda olub. Bu toplantıda Azərbaycan və Anadolu torpaqlarında erməni quldurlarının törətdikləri qətliamlardan, Xocalı soyqırımından, qondarma “erməni soyqırımı” təbliğatına qarşı diaspor təşkilatlarının birgə fəaliyyətindən danışılıb. Almaniya Bundestaqının keçmiş üzvü, Almaniya Türk Toplumunun fəxri sədri Haqqı Kəskin öz çıxışını Qarabağ münaqişəsinə və onun çözümünə dünyadakı Azərbaycan və türk diasporlarının hansı üsullarla təsir göstərə bilməsinə həsr edib. Haqqı Kəskin bildirib ki, erməni diasporu qondarma “soyqırım” məsələsini davamlı şəkildə dünya ictimaiyyətinə çatdırmaqla yanaşı, müxtəlif ölkələrin parlamentlərinin gündəminə daşıyır, məsələni beynəlxalq aləmdə yüksək səviyyədə diqqətdə saxlamağa çalışırlar. Erməni diasporunun Azərbaycan torpaqlarının 20 faizinin hələ də işğal altında saxlanmasını, ev-eşiyindən didərgin düşən 1 milyon insanın problemlərini unutdurmaq, Ermənistan dövlətinin işğalçılıq siyasətindən diqqət yayındırmaq məqsədilə 95 il əvvələ qayıdaraq və qondarma “erməni soyqırımı”nı gündəmdən düşməyə qoymurlar.

Haqqı Kəskinin sözlərinə görə, Azərbaycan torpaqları işğaldan azad olunmayınca Qafqazda sülhün bərqərar olması mümkün deyil. “İşğal faktorunu və onun dəhşətli nəticələrini Azərbaycan dövləti və xalqı unuda bilməz. Azərbaycan xalqı böyük bir haqsızlıq içindədir, ona görə də biz hamılıqla bu haqsızlığa qarşı çıxmalıyıq” deyən Haqqı Kəskin əlaqə edib: “Bu haqsızlığa qarşı çıxmaq üçün Qarabağ mövzusunu yaşadığımız ölkərin ictimaiyyətlərinə çatdırmaqla, parlamentlərinin müzakirəsinə çıxartmaqla erməni strategiyasını tərsinə çevirməliyik. Bundan sonra Xocalı soyqırımı gerçəkliklərini, Azərbaycan torpaqlarının 20 faizinin işğalını, 1 milyon qaçqın soydaşımızın problemini sürəkli gündəmə daşımalıyıq və bunun üçün real əməkdaşlığımız olmalıdır. Qarabağ məsələsinin həlli sadəcə fikir mübadiləsi formatında qalmamalıdır, bu münaqişəyə yaşadığımız dövlətlərin diqqətini yönəltməliyik”. Almaniya Türk Toplumunun fəxri sədri Haqqı Kəskin belə deyib.

TÜRKSAM-ın direktoru və Türkiyə-Azərbaycan Dərnəyinin (TAD) sədri Sinan Oğan isə öz çıxışında bildirib ki, diaspor işi təkcə xaricdə həyata keçirilən fəaliyyət deyil. İndi elə bir zamana, dünyadakı və bölgədəki proseslərin elə bir nöqtəsinə gəlmişik ki, artıq Türkiyədə də bir türk diasporundan danışmaq lazımdır. Çünki başqa ölkələrdə fəaliyyyətdə olan erməni diasporu indi də Türkiyədə öz planlarını həyata keçirmək üçün işləyir, mövcud imkanlardan istifadə edir, davamlı olaraq müxtəlif təbliğat üsulları, yalan məlumatlarla ictimaiyyəti yalnış yönləndirməyə çalışırlar. Sinan Oğan qeyd edib ki, Ermənistan və erməni diasporu 2015-ci il qondarma “erməni soyqırımı”nın 100 illiyini qeyd etməyə hazırlaşırlar. Ona görə də onlar hər bir imkanlarından istifadə edib Qarabağ münaqişəsinin həllini əngəlləşək istəyirlər.

Çünki bu münaqişə həll olunsa, erməni-türk münasibətləri də normallaşmağa başlayacaq. Bu zaman dünya ermənilərə "artıq sizin probleminiz çözüldü" deyəcək, 100 illik "yazıq, əzilmiş xalq" psoxologiyasının, imicinin sonu çatacaq.

Sinan Oğanın fikrincə, uydurduqları yalanın 100 illiyini qeyd etmək istəyən ermənilər qarşıdakı 4 ildə də qondarma "soyqırım"ı dünyaya qəbul etdirmək üçün əllərindəki imkanlardan hər cür istifadə etməyə cəhd göstərəcəklər. Bu səbəbdən də Qarabağ məsələsinin həlli, o cümlədən Türkiyə ilə Ermənistan arasında imzalanmış protokolların həyata keçirilməsi onların maraqlarına uyğun gəlmir. TAD sədri türk xalqlarının diasporlarının işbirliyinin məhz bu istiqamətdə verə biləcəyi tövhələr barədə də fikirlərini bölüşüb və Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun "bir millətin bir diasporu olmalıdır" fikrinə əsaslanaraq dünyadakı türk xalqlarının icmalarının əməkdaşlığının mühüm və səmərəli olduğunu deyib.

Tədbirdə çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Elnar Məmmədov diqqətə çatdırıb ki, Xocalı soyqırımı haqqında danışarkən "faciə" deyil, məhz "qətliam" ifadəsi işlədilməlidir və bu, qətliam olaraq dünyada tanınmalıdır. "Bu soyqırımı isə ermənilərin deyil, Ermənistan dövlətinin törətdiyi, məhz dövlətin məsuliyyət daşıdığı vurğulanmalıdır" deyə o əlavə edib. DİDK əməkdaşı türk dünyasının iş və əməl birliyinə, bunun üçün isə belə forumların təşkilinə böyük ehtiyac olduğunu deyib.

Toplantıda belə bir fikir də səslənib ki, soyqırım ittihamları ilə bağlı əsl həqiqətləri dünyaya tanıtmaq, erməni diasporunun iç üzünü açmaq üçün əslində mücadilə bu diasporla deyil, onlardan öz məqsədləri naminə istifadə edən dövlətlərlə aparılmalıdır. Bunun üçün isə xarici ölkələrdəki türk xalqlarının diasporlarının əlaqələndirilmiş fəaliyyəti zəruridir.

Sonda forumun işini yüksək qiymətləndirən Türk Asiya Strateji Araşdırmalar Mərkəzinin sədri Süleyman Şənsoy bütün iştirakçılara təşəkkürünü bildirib, tədbirin türk dünyası və diaspor təşkilatlarının həmrəyliyini gücləndirdiyini vurğulayıb

Forum yekun qətnamənin qəbulu ilə başa çatıb. Qətnaməyə görə, Dünya Türk Forumu iştirakçıları arasında səmərəli ünsiyyəti təmin etmək məqsədilə Azərbaycan, türk, ingilis, özbək, qırğız, türkmən dil və ləhcələrində ortaq internet portalı yaradılması nəzərdə tutulub. Bundan başqa sənədə əsasən "Ağsaqqallar qrupu" və "Ağ Təmas Qrupu" adlı iş qrupları yaradılacaq. Bu qruplar ildə azı bir dəfə toplanaraq zəruri məsələləri müzakirə edəcək, ildə bir dəfə düzənlənəcək Dünya Türk Forumunun əlaqələndirilməsi və gündəminin hazırlanması məsələlərini müzakirə edəcəklər. Dünya Türk Forumunun baş katibliyi İstanbulda yerləşəcək.

23 oktyabr 2010

Birləşmiş Ştatlar və Avropanın bizə, türkə qarşı bir düşmənçiliyi var

Səttar Sevgin: "Çünki bu regionda güclü bir erməni dövlətinin yaradılması Birləşmiş Ştatlar və Avropaya lazımdır və onların maraqlarına xidmət edir"

"İsveçdə Azərbaycan diasporu erməni diasporundan güclüdür"

"Azərbaycan Federasiyası İsveç"in rəhbəri Səttar Sevginin "OLAYLAR"-a müsahibəsi

- Səttar bəy, "Azərbaycan Federasiyası İsveç" nə zamandan fəaliyyət göstərir və ötən müddət ərzində federasiya hansı işlər görüb?

- Bu suala cavab vermək üçün ilk öncə xaricə getməyimizin tarixçəsinə nəzər salmaq lazımdır. İran inqilabından sonra Güney Azərbaycandan xarici ölkələrə gedənlərin sayı artmağa başladı. Mən özüm də 1985-ci ildən İsveçdə yaşayıram. Həmin dövrdən etibarən dərnəklərin, müxtəlif adda cəmiyyətlərin qurulmasına start verildi. Nəhayət, 1995-ci ildə İsveçdə federasiya yaradılması təşəbbüsü meydana çıxdı. Buna nail olmaq üçün dərnək və cəmiyyətlərlə çoxlu məsləhətləşmələr aparıldı. Aparılan uzun müzakirələr və məsləhətləşmələrdən sonra 1997-ci ildə 55 nümayəndənin iştirakı ilə təsis toplantısı keçirdik. Həmin toplantıdan istənilən nəticəni əldə edə bilməsək də, 1998-ci ildən etibarən federasiyanın təşkilatlanması istiqamətində ciddi addımlar atıldı. "Azərbaycan Federasiyası İsveç"in əsas məqsədi İsveçin daxilinə inteqrasiya etmək, vətəndaşların mənliyini, kimliyini, dilini qorumaq, övladlarımıza öz dilimizi öyrətməkdir.

Bununla yanaşı Güney Azərbaycanda millətimizə qarşı olan basqılar, insan haqlarının kobud şəkildə pozulması, soydaşlarımıza öz ana dilində təhsil almağa imkan verilməməsi məsələlərinə də diqqət yetiririk və bu sahədə də fəaliyyət göstəririk. Fəaliyyət göstərdiyimiz müddət ərzində istər Azərbaycanın xoş günləri, istərsə də ağrılı-acılı tarixləri ilə bağlı müxtəlif tədbirlər keçirmişik. Dağlıq Qarabağ problemi, bu problemin İsveç ictimaiyyətinə çatdırılması federasiyanın il ərzində həyata keçirməyi nəzərdə tutduğu tədbirlər sırasında yer alır və hər il bu məsələ ilə bağlı federasiya olaraq müxtəlif tədbirlər təşkil edirik. Eyni zamanda 20 yanvar faciəsinin ildönümü, Xocalı soyqırımı ilə bağlı hər il etiraz aksiyaları keçiririk. Son zamanlar "Azərbaycan Federasiyası İsveç" bu ölkənin millət vəkilləri ilə sıx təmas qurmağa üstünlük verib. Ümumiyyətlə, İsveç toplumunda Azərbaycan adını layiqincə təmsil etmək üçün əlimizdən gələni əsirgəmirik. Federasiyanın Azərbaycanla əlaqələri də tədricən inkişaf edir. İlk illər bu sahədə müəyyən problemlər olsa da, artıq həmin problemlər də aradan qalxır, qarşılıqlı səfərlər həyata keçirilir. Azərbaycanın müstəqillik əldə etməsindən sonra bu sahədə əl-qolumuz bir qədər də açılıb.

- İsveçdə yaşayan azərbaycanlılarla federasiya olaraq necə təmas qurursunuz?

- "Azərbaycan Federasiyası İsveç" daha çox bu ölkədə yaşayan insanlarımızın köməyi ilə bir sıra işlər görür. Bu ölkədə kifayət qədər cəmiyyətlər fəaliyyət göstərir və həmin cəmiyyətlər də azərbaycanlıların bir araya gəlməsində bizə köməklik göstərirlər. İsveçə yeni-yeni gələn insanlar da olur və onlarla da yaxından təmas qurur. Federasiya olaraq bizim üçün o qədər də maraqlı deyil ki, onlar İsveçə hansı münasibətlə gəlirlər. Düzdür, könül istər ki, bizim insanlar öz ölkələrində qalsınlar, burada işləyib yaşasınlar. Ancaq bəzən müxtəlif səbəblərdən İsveçə gələnlər olur. Son zamanlar Quzey Azərbaycandan İsveçə işləmək üçün gələnlər var. Biz də federasiya olaraq həmin insanların İsveç toplumuna inteqrasiyası üçün əlimizdən gələni edirik. İsveçin müvafiq qurumları da buna normal yanaşırlar. Xüsusilə gənclərimizi qorumaq, onlara dəstək vermək üçün bir sıra layihələrimiz var və onları həyata keçirməyə çalışırıq.

- Federasiyada təxminən nə qədər cəmiyyət təmsil olunur və ümumilikdə İsveçdəki azərbaycanlıların təşkilatlanması sizi qane edirmi?

- İsveçin əhalisi Azərbaycanın əhalisi qədər olsa da, bu ölkənin dünyanın siyasi səhnəsində çox böyük rolu var. Dünyada baş verən mühüm hadisələr içərisində mütləq bir isveçli baş rolda olur. Birləşmiş Ştatların İraqa girməsində ən mühüm raportu verən məhz İsveçdir. Eləcə də Yuqoslaviya məsələsində İsveçin xarici işlər naziri ən böyük rol oynadı. Nobel qardaşları İsveçdən olub. Bütün bunları nəzərə alaraq və İsveç təcrübəsindən istifadə edərək biz də cəmiyyət olaraq təşkilatlanma işlərinə xüsusi diqqət yetiririk.

Bu gün "Azərbaycan Federasiyası İsveç"in tərkibində 30-a yaxın cəmiyyət fəaliyyət göstərir. Azərbaycanlıların İsveçdə təşkilatlanmasına gəlincə, bu bizi tam qane etmir. Ancaq onu da nəzərə almaq lazımdır ki, "Azərbaycan Federasiyası İsveç" ən fəal təşkilatlardan biri olub. Ola bilsin ki, özümüzü tanıtdırmaq üçün reklamımız zəif olub. Əlbəttə istərdik ki, daha fəal formada fəaliyyət göstərək. Bundan sonra federasiya olaraq bir qədər də fəallıq nümayiş etdirəcəyik. Bu məqsədlə İsveç təşkilatları ilə sıx əlaqələr qururuq, parlament nümayəndələri ilə mütəmadi olaraq görüşlər keçiririk.

- Federasiya Dağlıq Qarabağ probleminin İsveç ictimaiyyətinə çatdırılması istiqamətində hansı addımlar atır?

- Ermənistan-Azərbaycan münaqişəsi, Azərbaycanın bu münaqişə nəticəsində üzləşdiyi problemlər, torpaqlarımızın işğal altında saxlanması faktını mütəmadi olaraq İsveçin Xarici İşlər Nazirliyinə çatdırırıq ki, bu haqsızlıq barədə məlumatlı olsunlar. Təbii ki, bu sahədə çalışmaq borcumuzdur.

- Güneydən müxtəlif ölkələrə gedən soydaşlarımızın siyasi proseslərdən bir qədər kənarda qaldığı bildirilir. İsveçdə də belə bir situasiya müşahidə edilirmi?

- Əlbəttə, İsveçdə də belə hallar müşahidə edilir. Etiraf etmək lazımdır ki, Azərbaycan məsələsi mürəkkəb məsələdir. Bu gün İranda mövcud olan rejim çox qəddar, dünyanın heç bir yerində mövcud olmayan rejimdir. Ona görə də bizim o ölkədə yaşayan vətəndaşlarımız iki yol seçməlidirlər. Ya, bu proseslərdən çıxmaq üçün bir yol tapmalı, ya da İrana qayıtmaq fikrindən yayınmalıdırlar. Əgər İran demokratik bir ölkə olsa, onlar da geri qayıdıb cəmiyyətin bir üzvü kimi fəaliyyət göstərərlər.

- İsveçdə Azərbaycan diasporunun bu günkü durumunu necə qiymətləndirirsiniz? Erməni diasporu ilə müqayisədə vəziyyət necədir?

- İsveçdə Azərbaycan diasporu erməni diasporundan güclüdür. Açıq etiraf etmək lazımdır ki, İsveçdə erməni diasporu çox zəifdir. Bundan başqa bu gün İsveçdə 100 minə yaxın Türkiyə türkü yaşayır. Ancaq təəssüflər olsun ki, nə biz, nə də Türkiyə türkləri xarici dairələrlə işləməyə üstünlük verməmişik, fəaliyyətimizi yalnız öz içərimizdə qurmuşuq. Ermənilər isə az olmalarına xarici dövlətlərlə işləməyə can atıblar və müəyyən mənada buna nail olublar. Ona görə də bu gün Birləşmiş Ştatlar və digər ölkələr erməni diasporunu dəstəkləyirlər. Həmin mərhələni biz indi yavaş-yavaş keçirik. Digər tərəfdən biz yeni mühacirlərik, təcrübəmiz bir qədər azdır. Hesab edirəm ki, gələcək nəsil bu istiqamətdə daha fəal olacaq.

- İsveçdə Azərbaycan diasporu erməni diasporundan güclü olmasına baxmayaraq hələ də Dağlıq Qarabağ problemini, Azərbaycanın haqq səsini dünyaya tam mənada çatdırmağa, Xocalı soyqırımını tanıtmağa nail ola bilməmişik. Elə isə bu güclülük özünü nədə göstərir?

- Burada acı bir gerçəklik var. Ancaq onu da nəzərə almaq lazımdır ki, bu məsələnin dərin, tarixi kökləri var və bu məsələdə ikili standartlar özünü göstərir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurası bu günə qədər 4 qətnamə qəbul edib və həmin qətnamələrə əsasən işğal altında olan Azərbaycan torpaqları dərhal boşaldılmalıdır. Bəs nə üçün həmin qətnamələr icra edilmir və işğal altında olan Azərbaycan torpaqları boşaldılmır? Buradan belə qənaətə gəlmək olar ki, sözügedən məsələdə beynəlxalq birlik, Avropa ikili oyun oynayır. Bu bir acı gerçəkdir və bu gerçəkliyi millət, dövlət olaraq qəbul etməliyik. Bundan çıxış yolu nədədir, məhz həmin yolu tapmalıyıq. Ona görə də bizim fəaliyyətlərimiz bir nəticə vermir. Digər tərəfdən biz başımıza gətirilən müsibətləri çox zaman daxildə müzakirə etmişik.

Yalnız öz vətəndaşlarımız arasında danışmışıq ki, bizim başımıza belə bir müsibətlər gətirilib. Ona görə də hazırda əsas diqqət xarici dairələrlə işləməyə yönəldilib. Bir şeyi də açıq şəkildə qeyd etmək lazımdır ki, Birləşmiş Ştatlar və Avropanın bizə, türkə qarşı bir düşmənçiliyi var. Çünki bu regionda güclü bir erməni dövlətinin yaradılması Birləşmiş Ştatlar və Avropaya lazımdır və onların maraqlarına xidmət edir. Bütün bu amillər bizim işlərimizi bir qədər çətinləşdirir. Ancaq biz ümidimizi üzməmişik və gələcəyə nikbin baxırıq. Bu uzun bir yoldur və bu yolda yorulmadan, usanmadan fəaliyyət göstərmək lazımdır.

Süleyman

"Olaylar". -2010.-23-25 oktyabr.-N.180.-S.4.

Buxarestdə "Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu" mövzusunda beynəlxalq konfrans keçirilib

Oktyabrın 25-də Buxarestdə Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Azərbaycan Respublikasının Rumıniyadakı Səfirliyinin və Rumıniya-Azərbaycan Mədəniyyət və Gənclər Assosiasiyasının birgə təşkilatçılığı ilə "Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu" mövzusunda beynəlxalq konfrans keçirilib. Tədbirdə "Avropanın enerji təhlükəsizliyinin və təchizatının təmin olunması: Çağırışlar, siyasətlər və gələcək öhdəliklər", "Avropa bazarlarına enerji resurslarının daşınmasında əsas iştirakçı və vasitəçilərin rolunun yenidən araşdırılması", "Avropanın enerji təhlükəsizliyinin və təchizatının təmin olunmasında Azərbaycan etimadlı və strateji tərəfdaş kimi", "Qloballaşma dövründə Qara Dəniz və Xəzər Dənizi regionlarında əməkdaşlıq. Milli perspektivlər" mövzularında panellər keçirilib, müzakirələr aparılıb.

Konfransda Rumıniya Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri, Rumıniya İqtisadiyyat, Ticarət və Biznes Mühiti Nazirliyinin dövlət katibi, Enerji təhlükəsizliyi məsələləri ilə bağlı xüsusi tapşırıqlar üzrə səfir, Rumıniyanın digər yüksək səviyyəli rəsmiləri, 32 ölkənin diplomatik nümayəndəliklərinin rəhbərləri və təmsilçiləri, Qara Dəniz-Xəzər Dənizi Əməkdaşlığı və Tərəfdaşlığı üzrə Beynəlxalq Fondun rəhbərliyi, ARDNŞ-nin Rumıniyadakı nümayəndəliyinin direktor müavini, Münaqişələrin qarşısının alınması və erkən məlumatlandırma Mərkəzinin direktoru,"Nabukko Beynəlxalq Qaz Boru xətti Konsorsiumu"nun ictimai işlər departamentinin direktoru, Risk, təhlükəsizlik və kommunikasiyanın idarə olunması üzrə Avropa İnstitutunun İcraçı Direktoru iştirak və çıxış ediblər. Tədbirdə həmçinin Azərbaycan Respublikasının Rumıniyadakı səfiri E.Həsənov, Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiriS.Hümbətov, Rumıniya-Azərbaycan Mədəniyyət və Gənclər Assosiasiyasının prezidenti İ.Hacıyev, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının geostrateji araşdırmalar mərkəzinin direktor müavini E.Nəsirov və mərkəzin tədqiqatçısı A.Əsgərzadə çıxış ediblər.

Çıxışlarda Şimal-Cənub və Şərq-Qərb nəqliyyat və enerji dəhlizləri boyunca əsas ticarət marşrutlarının kəsişməsində yerləşən Azərbaycanın geostrateji mövqeyi, ölkənin enerji və infrastruktur şəbəkəsinə çevrilməsi, əsasının Azərbaycan xalqının ulu öndəri lideri Heydər Əliyevin qoyduğu enerji siyasətini, neft strategiyasını bu gün Azərbaycan Prezidenti İlham Əliyevin uğurla davam etdirməsi, Azərbaycanda son texnologiyaya əsaslanan müasir infrastrukturun yaradılması, Azərbaycanın təsdiq olunmuş və potensial enerji ehtiyatları barədə ətraflı məlumat verilib. Şaxələndirilmiş neft və qaz marşrutları sayəsində Azərbaycanın enerji resurslarının Avropa bazarları ilə yanaşı Türkiyə, Gürcüstan, Rusiya, İrana ixrac edildiyi, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri, NABUCCO, İTGİ, AGRİ layihələrinin əhəmiyyəti və onların gerçəkləşdirilməsində Azərbaycanın rolu ətrafında geniş fikir mübadiləsi aparılıb. Azərbaycanın müstəqil və cəsarətli enerji siyasəti bir sıra region ölkələrinə örnək göstərilib.

Regionda mövcud olan münaqişələr, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mövcudluğunun Avropanın gələcək sabit enerji təchizatı və təhlükəsizliyi üçün real təhlükə olması xüsusilə qeyd edilib. Rumıniya Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Y.Fota Qara dəniz və Xəzər dənizi regionlarının inteqrasiyası üçün böyük potensialın olduğunu, bu potensialın reallaşdırılması üçün birgə maraqlara xidmət edən layihələrin gerçəkləşdirilməsinin zəruriliyini diqqətə çatdıraraq, AGRİ layihəsini bu istiqamətdə atılmış mühüm addım kimi qiymətləndirib. İqtisadiyyat, Ticarət və Biznes Mühiti Nazirliyinin dövlət katibi K.Borbeli enerji təhlükəsizliyinin mühüm siyasi səciyyə daşıyan ciddi məsələ olduğunu, Rumıniyanın qonşu ölkələrlə enerji bağlantılarını artırmaq və yeni enerji layihələrində iştirak etməklə öz enerji təhlükəsizliyini gücləndirdiyini bəyan edib. O, AGRİ layihəsinin Rumıniyanın enerji təchizat mənbələrinin şaxələndirilməsinə böyük töhfə verəcəyinə əminliyini bildirib.

"Nabukko" beynəlxalq qaz kəməri layihəsi GmBH-nin ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri D.Abaciyev deyib ki, Nabukko layihəsi Avropa İttifaqında Cənub dəhlizi boyunca yeganə səmərəli layihə hesab olunmasa da, indiki şəraitdə Avropa İttifaqı üçün ən prioritet layihədir. 2011-ci ildə layihənin gerçəkləşməsi istiqamətində Nabukko ölkələrinin dövlət başçılarının görüşləri keçiriləcək. O əlavə edib ki, Avropa İttifaqı fondlarından layihə üçün 200 milyon avronun ayrılması irəliyə atılmış ilk addımlardan biridir.

İraq və Gürcüstan üzərindən olan bağlantılar istisna olunmaqla Nabukkoya digər təchizatçı ölkələrin cəlb edilməsi gözlənilmir. Macarıstanın Rumıniyadakı səfiri Oskar Lazslo Füzes isə öz çıxışında vurğulayıb ki, Avropa İttifaqının 2011-ci ilin ilk yarındakı sədri kimi Macarıstan bir sıra siyasi, iqtisadi-sosial sahələrdə islahatlar aparacaq. "Macarıstan Azərbaycanı əlverişli tərəfdaş hesab edir.

Bu, Azərbaycanın tutduğu geostrateji mövqeyi və ya zəngin enerji resurslarına malik olması ilə əlaqələndirilməməlidir. Azərbaycan dialoqa və əməkdaşlığa açıq ölkədir, bu isə öz növbəsində Avropa İttifaqının Azərbaycana olan etimadını artırır" deyə səfir bildirib. Bolqarıstanın bu ölkədəki səfiri Valentin Radomirski deyib ki, Avropa İttifaqının vahid enerji siyasətinin hazırlanması, yeni strategiyaların müəyyənləşməsi Aİ üzv ölkələrinin müvafiq sahədə əməkdaşlıq mexanizmlərinin qurulmasına təkan verəcək.

Bu isə öz növbəsində Aİ-nin enerji sahəsində mövcud strateji tərəfdaşlarına da vahid yanaşmanın yaradılması deməkdir. “Əminəm ki, Azərbaycanın Bolqarıstan, Rumıniya və tranzit ölkələrlə apardığı fəal əməkdaşlıq Aİ-nin vahid enerji siyasətində xüsusi ilə nəzərə alınacaqdır”.

Səfir belə deyib. Qeyd edək ki, oktyabrın 25-də həmçinin Rumıniya Prezidenti Administrasiyasında Prezidentin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Yulian Fotanın Azərbaycan Respublikasının Rumıniyadakı Səfiri E.Həsənov, Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiriS.Hümbətov, Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının geostrateji araşdırmalar mərkəzinin direktor müavini E.Nəsirov və mərkəzin tədqiqatçısı A.Əsgərzadə ilə görüşü olub. Görüşdə iki strateji tərəfdaş ölkə arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin hazırkı inkişaf səviyyəsi və perspektivləri barədə fikir mübadiləsi aparılıb, keçirilmiş beynəlxalq konfransın əhəmiyyəti qeyd olunub.

25 oktyabr 2010

Həştərxanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsinin açılış mərasimi olmuşdur

AzərTAc xəbər verir ki, oktyabrın 27-də Həştərxanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsinin açılış mərasimi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Ulu öndər Heydər Əliyevin abidəsinin yerləşdiyi əraziyə gələn dövlətimizin başçısını Həştərxan vilayətinin rəsmi şəxsləri, ictimaiyyətin nümayəndələri və Azərbaycan diasporunun üzvləri hərarətlə qarşıladılar. Mərasimdə çıxış edən Həştərxan vilayətinin qubernatoru Aleksandr JİLKİN dedi:

Çox hörmətli İlham Heydər oğlu!
Mənim əziz dostlarım, qonaqlarım!

Təkcə Azərbaycan üçün deyil, bütün keçmiş Sovet İttifaqı, postsovet məkanı və bizim kiçik vilayət üçün də böyük siyasi xadim olan möhtərəm və hörmətli bir insanın abidəsi üçün məhz bu yerin – Həştərxan kimi ağ şəhərin seçilməsi təsadüfi deyildir. Ona görə ki, ölkədə istər o dövrdə, istərsə də postsovet dövründə baş verən ən müsbət proseslər bu insanın adı ilə bağlıdır. Heydər Əliyev islahatlardan sonrakı münasibətlərimizi möhkəmləndirən əsas sima idi. Bu gün bu böyük insanın xatirəsinə ehtiram əlaməti olaraq Sizə, İlham Heydər oğlu, bu nadir abidəni ən qısa müddətdə hazırlamış və onu burada ucaltmış bütün həmkarlarınıza böyük məmnuniyyətlə "Çox sağ olun" demək istəyirik. Bu abidə həm rusiyalıların, həm də azərbaycanlıların qardaşlığının, dostluğunun, onların ruhən və qəlbən birliyinin rəmzidir. Biz Həştərxan vilayəti barədə danışanda öz həyatımızı tərəfdaşlarımız - Xəzər sahilindəki qardaşlarımız olan azərbaycanlılarla ən sıx əlaqələr, iqtisadi və sosial sahədə inteqrasiya olmadan təsəvvür etmirik. Burada böyük bir Azərbaycan diasporu yaşayır.

Mən bu gün Sizə demişəm, indi bir daha hamının yanında deyirəm ki, azərbaycanlılar bizim ən etibarlı tərəfdaşlarımız, bütün iqtisadi və sosial layihələrdə iştirak edən, qanunlara hörmət bəsləyən vətəndaşlarımızdır. Buna görə mən onlara həmişə təşəkkür edirəm, bu gün Sizin yanınızda bir daha təşəkkür edirəm. Bizim Həştərxan şəhərində Sizi salamlamağa şadam. Sağ olun ki, bu gün imkan tapıb Həştərxan şəhərinə baxmağa vaxt sərf etmisiniz. Böyük məmnuniyyətlə Sizinlə birlikdə bu abidəni açmaq istəyirəm. Sağ olun. Azərbaycan Prezidenti İlham ƏLİYEV mərasim iştirakçılarına müraciət edərək dedi: -Hörmətli Aleksandr Aleksandroviç! Əziz dostlar! Bu gün ölkələrimiz arasında münasibətlərin tarixində həqiqətən əlamətdar, tarixi gündür. Bu gün Həştərxanda, simasını dəyişən və modernləşən bu gözəl şəhərdə Azərbaycanın dahi oğlu Heydər Əliyevin abidəsi açılır. Heydər Əliyev bütün ömrü boyu öz xalqının rifahı naminə çalışmış, eyni zamanda, o, Rusiyaya, rus xalqına həmişə çox böyük məhəbbət bəsləmişdir. Onun ömrünün bir hissəsi Rusiya ilə bağlı olmuşdur.

O, gənclik illərində Leninqradda, indiki Peterburqda təhsil almış, 80-ci illərdə Moskvada Sovet İttifaqı hökuməti sədrinin birinci müavini olmuş, Azərbaycan və rus xalqları arasında tarixi dostluq, qardaşlıq münasibətlərinin uğurla inkişaf etməsi üçün çox işlər görmüşdür. Mən bu gün əziz həştərxanlılara, ilk növbədə, qubernator Aleksandr Aleksandroviç Jilkinə Heydər Əliyevin xatirəsinə belə xeyirxah münasibətə görə səmimi qəlbdən təşəkkür etmək istəyirəm. Bu, bizim üçün çox dəyərlidir. Biz Azərbaycanda bunu çox yüksək qiymətləndiririk. Bu cür münasibətə, Heydər Əliyevin abidəsi üçün şəhərin mərkəzində belə gözəl yerin ayrılmasına görə bütün Azərbaycan xalqı adından dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu park Rusiya ilə Azərbaycan arasında dostluğun və qardaşlığın rəmzinə çevriləcəkdir.

Bu park çoxmillətli Rusiyada, çoxmillətli Azərbaycanda yaşayan bütün xalqlar arasında dostluq mərkəzi olacaqdır. Bu gün qubernatorun Həştərxanda yaşayan azərbaycanlılar haqqında dediyi tərifli sözləri eşitmək mənim üçün çox xoş idi. Onlar Rusiyanın layiqli vətəndaşları, Həştərxanın layiqli sakinləridirlər və bizim ikitərəfli münasibətlərin inkişafında mühüm amildirlər. Heydər Əliyev bütün ömrü boyu Azərbaycan xalqının daha yaxşı yaşamasına, Azərbaycanda müsbət proseslərin inkişaf etməsinə, islahatların həyata keçirilməsinə çalışırdı. Mən SSRİ-nin süqutunadək olan dövr barədə artıq danışmışam. Ən əsası budur ki, biz artıq vahid dövlətdə yaşamadığımız dövrdə - Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsi ilə Azərbaycan və Rusiya arasında münasibətlər sürətlə inkişaf etməyə başladı. Bütün bu illər boyu biz bütün istiqamətlərdə çox müsbət inkişaf görürük və bu gün bu, bizə - həm Rusiya, həm də Azərbaycan rəhbərliyinə münasibətlərimizi strateji tərəfdaşlıq kimi səciyyələndirməyə imkan verir. Biz qonşuyuq, o cümlədən Xəzərdə də qonşuyuq.

Biz birlikdə Xəzərin bundan sonra da sülh, dostluq, əməkdaşlıq, qarşılıqlı anlaşma dənizi olaraq qalması üçün Xəzər regionunda çoxtərəfli fəal əməkdaşlığı təmin etməyə çalışırıq. Biz Rusiya Federasiyası ilə birlikdə Xəzərdə ərazi sərhədlərimizi artıq çoxdan müəyyən etmişik. Bu il Rusiya Prezidenti Dmitri Anatoliyeviç Medevedevin Azərbaycana səfəri zamanı biz quruda dövlət sərhədinin müəyyənləşdirilməsi ilə bağlı məsələləri razılaşdırdıq. Bütün bu amillər regionumuzda ümumi atmosferə çox müsbət təsir göstərir. Bu gün iki Xəzər və iki Qafqaz ölkəsi kimi Rusiya və Azərbaycan regional əməkdaşlıq, regionda təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi, regionun inkişafı işində çox müsbət rol oynayırlar.

Mən əminəm ki, Rusiya və Azərbaycanın bölgədə sabitləşdirici rolu bundan sonra da regionun bütün ölkələri arasında daha tam anlaşmaya kömək edəcəkdir. Bizi Rusiya ilə çoxəsrlik dostluq, əməkdaşlıq telləri bağlayır, bizi ümumi keçmişimiz birləşdirir. Bu gün, siyasi münasibətlərimizin ən yüksək səviyyədə olduğu bir vaxtda biz iqtisadi əlaqələrimizi fəal inkişaf etdiririk, energetika məsələləri fəal həll olunur, xalqlarımızın nümayəndələri arasında ünsiyyətə çox böyük həvəs vardır. Azərbaycanda rus mədəniyyətinə, rus dilinə böyük qayğı ilə yanaşılır.

Həştərxanın Azərbaycan icması kimi, Azərbaycanın rus icması da öz ölkələrinin layiqli vətəndaşlarıdır və dövlətimizin inkişafına böyük töhfələr verirlər. Onlar həm də ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıran amildirlər. Bu gözəl gündə mən xüsusi qeyd etmək istəyirəm ki, Həştərxanın necə inkişaf etdiyini, burada necə sürətli inkişaf getdiyini görmək mənim üçün çox xoşdur. Mən bu gün heyranlıq doğuran hər şeyi – sahilyanı ərazini, evlərin bərpasını, abadlaşdırma işlərini və sizin tarixi irsinizə neçə yanaşdığınızı göstərdiyinə görə Aleksandr Aleksandroviçə minnətdaram. Mən bu gün tarixi yerdə - Kremldə oldum, bərpa işləri aparılır, şəhər abadlaşdırılır. Bütün bunlar Rusiyanın inkişafının, habelə vilayət rəhbərliyinin öz şəhərinə, onun sakinlərinə, həyatın daha da yaxşılaşması, şəhərin daha da gözəlləşməsi işinə olan sevgisinin göstəricisidir. Bakı və Həştərxan qonşu və qardaş şəhərlərdir. Bu gün mən buraya təyyarə ilə cəmi bir saata gəldim. Vaxtın necə keçdiyini heç hiss etmədim. Şəhərlərimiz arasında mövcud olan əlaqələr qədim tarixə malikdir. Bu gün onlar daha da möhkəmlənir, inkişaf edir. Əminəm ki, bu gün şəhərlərimizin, ölkələrimizin tarixində əbədi qalacaqdır. Əminəm ki, Rusiya ilə Azərbaycanı daha da yaxınlaşdırmaq üçün əlindən gələni etmiş Heydər Əliyevin obrazı ölkələrimiz və xalqlarımız arasında fəal əməkdaşlıq işində çox mühüm rol oynayacaqdır. Bir daha, ilk növbədə, şəhər sakinlərinə, rəhbərliyə, qubernatora, şəhər hakimiyyətinə, bu gözəl abidənin, bu parkın yaradılmasında əməyi olanların hamısına təşəkkürümü bildirmək və sizin hamınıza xoşbəxtlik və rifah arzulamaq istəyirəm. Çox sağ olun.

Sonra Prezident İlham Əliyev və Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin abidənin üzərindən örtüyü götürdülər, önünə gül dəstələri düzdülər. Azərbaycan diasporunun nümayəndələri ilə görüşən Prezident İlham Əliyev onlara vilayətdə aparılan quruculuq işlərində daha fəal iştirak etməyi tövsiyə etdi. Daha sonra abidə ətrafında yaradılmış parkla tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, 3,5 hektar ərazidə salınmış istirahət guşəsində geniş abadlıq və yaşıllaşdırma işləri aparılmış, mindən artıq ağac əkilmişdir. Burada müasir işıqlandırma sistemi quraşdırılmış və gözəl fəvvarə yaradılmış, oturacaqlar qoyulmuşdur. Park həştərxanlıların sevimli istirahət yerinə çevriləcəkdir. Parka toplaşan soydaşlarımız Azərbaycan Prezidentini hərarətlə alqışladılar. Dövlətimizin başçısı burada yaşayan azərbaycanlıların vəziyyəti ilə maraqlanaraq dedi:

- Necəsiniz, necə yaşayırsınız burada? Hər şey yaxşıdı? Çox şadam ki, siz burada yaxşı yaşayırsınız. Vilayətin rəhbəri də sizin fəaliyyətinizdən çox razıdır. Burada çox dəyərli vətəndaşlar kimi yaxşı fəaliyyət göstərirsiniz. Bu gün çox tarixi bir gündür. Ulu öndərin abidəsi açılıbdır. İndi gedib baxa da bilərsiniz. Gözəl istirahət yeridir. Sağ olun. Prezident İlham Əliyev soydaşlarımıza uğurlar arzuladı.

27 oktyabr 2010

“Qazaxıstan Azərbaycanlıları Assosiasiyası”nın birinci qurultayı keçirilir

Bu gün Almatı şəhərində “Qazaxıstan Azərbaycanlıları Assosiasiyası”nın birinci qurultayı keçirilir. Qurultaya Qazaxıstanın dövlət, hökumət strukturlarının nümayəndələri, millət vəkilləri ilə yanaşı QXA-na üzv olan müxtəlif xalqların etno-mədəni təşkilatlarının təmsilçiləri, ziyalılar, incəsənət xadimləri, o cümlədən Türkiyə, Rusiya, Qırğızıstan, Almaniya, Özbəkistan və digər xalqların Qazaxıstandakı mədəniyyət mərkəzlərinin rəhbərləri dəvət olunublar. Tədbirdə Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri F.Nəcəfov da iştirak edir.

Qurultayda Assosiasiyaya üzv olan vilayət, şəhər, rayon təşkilatları sədrlərinin və təftiş komissiyası rəhbərlərinin hesabatları dinlənilәcək, quruma yeni sədr seçiləcək. Qeyd edək ki, “Qazaxıstan Azərbaycanlıları Assosiasiyası” Prezident Nursultan Nazarbayevin sədrlik etdiyi Qazaxıstan Xalqları Assambleyasının (QXA) üzvüdür.

29 oktyabr 2010

Həmvətənlərimiz yaşadıqları ölkələrdə daima adımızı uca tutmuşlar

Dünən Marneuli rayon bələdiyyəsinin iclası olub. APA-nın Gürcüstan bürosunun məlumatına görə, soydaşımız İsfəndiyar Kərim oğlu Kərimov yekdilliklə Marneuli rayon bələdiyyəsinin sədri seçilib. Qeyd edək ki, İsfəndiyar Kərim oğlu Kərimov 1959-cu ildə Tiflis şəhərində ziyalı ailəsində anadan olub. Azərbaycan Pedaqoji İnstitutunun tarix fakültəsini bitirib. İsfəndiyar Kərimov bələdiyyə sədri seçilməmişdən əvvəl Marneuli rayon bələdiyyəsinin hüquq komissiyasının sədri işləyib.

AzərTAc xəbər verir ki, oktyabrın 31-də Ukraynada yerli özünüidarə orqanlarına seçkilər keçirilmişdir. Seçkilərdə namizəd kimi həmyerlilərimiz də iştirak etmişlər. Həmyerlimiz – Ukraynanın xalq deputatı, "Vorskla" (Poltava) futbol klubunun prezidenti Oleq Meydan oğlu Babayev Kremençukun meri seçilmişdir. Kremençukun meri Nikolay Qluxov Oleq Babayevi yerli özünüidarə orqanlarına seçkilərdə qələbə qazanması münasibətilə təbrik etmiş, ona Kremençuk meri vəzifəsində nailiyyətlər arzulamışdır.

31 oktyabr 2010

Ermənilərin Niderland Krallığında qondarma "Dağlıq Qarabağ Respublikası" ilə bağlı növbəti təxribatı soydaşlarımızın işə qarışması nəticəsində baş tutmamışdır

Ermənilərin Niderland Krallığında qondarma "Dağlıq Qarabağ Respublikası" ilə bağlı növbəti təxribatı soydaşlarımızın işə qarışması nəticəsində baş tutmamışdır. Benilüks Azərbaycanlıları Konqresindən AzərTAc-a bildirmişlər ki, BAK-ın üzvləri tərəfindən paytaxtın mərkəzi Vaterloo meydanı yaxınlığındakı supermarketlərin birində üzərində "Artsakh Fruit" sözləri yazılmış qida məhsullarıı aşkar edilmişdir. Onlar bu məhsulların mağazadan yığışdırılmasını müdiriyyətdən tələb etmişlər. BAK-ın apardığı araşdırmalar nəticəsində aydın olmuşdur ki, "Artsakh Fruit" adı ilə satışa buraxılmış qida məhsullarını Niderland Krallığının "Hayfood" şirkəti idxal edir. "Artsakh Fruit" şirkətinin 2007-ci ildə Xankəndidə yaradıldığı, əsasən meyvə və tərəvəz məhsulları istehsal etdiyi, "Hayfood"un beynəlxlaq normaları pozaraq bu məhsulları Ermənistandan deyil, bilavasitə Azərbaycanın əzəl torpağı olan Dağlıq Qarabağdan Avropa İttifaqı ölkələrinə qaçaqmal yolu ilə gətirdiyi müəyyənləşdirilmişdir.

BAK Niderland və qonşu Belçika krallıqlarının ərazilərində yerləşən və əsasən keçmiş SSRİ məkanında istehsal olunan məhsulları satan mağaza və marketləri ciddi nəzarətdə saxlamağa başlamış, faktla bağlı yerli şöbələrinə, o cümlədən Azərbaycanın Niderland Krallığındakı səfirliyinə məlumat vermişdir. Səfirlik isə öz növbəsində ermənilərin yolverilməz hərəkətləri haqda ölkənin Xarici İşlər Nazirliyinə öz etirazını bildrimişdir. BAK Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ölkəmizlə bağlı həqiqətlər, qondarma "Dağlıq Qarabağ Respublikası"nın heç bir dövlət və beynəlxlaq qurum tərəfindən tanınmaması və Hollandiyanın ermənilərin toruna düşmüş "Hayfood" şirkətinin beynəlxlaq hüquq normalarını kobud şəkildə pozması barədə Krallığın nüfuzlu "Shop Keurmerk" qəzetinə, "Kassa Vara" və "Tros Radar" televiziya kanallarına rəsmi məktubla müraciət etmişlər. Səfirliyin və BAK-ın məsələyə müdaxiləsi nəticəsində "Artsakh Fruit" adlı məhsullar satışdan çıxarılmışdır.

01 noyabr 2010

Azərbaycanın Polşadakı səfirliyinin təşkilatçılığı ilə
bu ölkədə fəaliyyət göstərən diaspor təşkilatlarının rəhbərlərinin toplantısı keçirilmişdir

Azərbaycanın Polşadakı səfirliyinin təşkilatçılığı ilə bu ölkədə fəaliyyət göstərən diaspor təşkilatlarının rəhbərlərinin toplantısı keçirilmişdir. Səfirlikdən AzərTAc-a bildirmişlər ki, "Birlik cəmiyyəti"nin rəhbəri Nəbi İbadov toplantıda Polşadakı diaspor təşkilatların fəaliyyəti haqqında məlumat vermiş, gələn il üçün nəzərdə tutulmuş tədbirlər və vahid strateji iş planı müzakirə edilmişdir. Azərbaycanın Polşadakı səfiri Həsən Həsənov diaspor təşkilatlarının fəaliyyəti ilə bağlı tövsiyələrini bildirmişdir.

Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) şöbə müdiri Surəddin Hümbətov təmsil etdiyi qurumun xarici ölkələrdəki diaspor təşkilatları ilə bağlı planları haqqında məlumat vermişdir. Toplantıda DİDK-nın nümayəndəsi F.Kərimov, Qdanskda fəaliyyət göstərən "Azərbaycan – Polşa mədəniyyət cəmiyyəti"nin rəhbəri K.Hacıyev, "Azərbaycan-Polşa cəmiyyəti"nin rəhbəri R.Rzayev, səfirliyin birinci katibi Ü.Baxışəliyev iştirak etmişlər.

03 noyabr 2010

Gələn ilin martında Dünya Azərbaycanlılarının III Qurultayı olacaq

Akif Ağatalıbov: "Biz xoşbəxtik ki, cənab Prezidentin dediyi kimi Azərbaycan azərbaycanlılarıyıq"

Xarici ölkələrdə məskunlaşmış türk xalqları arasında ortaq mənafe naminə əlaqələrin qurulması bu gün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan və Türkiyəyə qarşı yönəldilmiş təbliğatın neytrallaşdırılması, əsassız iddia və böhtanların aradan qaldırılmasında bu birlik və diaspor təşkilatları arasında sıx əməkdaşlıq günün tələbidir. Azərbaycan və Türkiyə diasporların vahid mənafe uğrunda fəaliyyətdə yaxınlaşdırılması siyasətinin davam etdirilməsinə xarici ölkələrdə yaşayan hər azərbaycanlı əməli kömək göstərməlidir. Məhz bu məqsədlə ötən ay İstanbulda Dünya Türk Forumu keçirilib. Həmin tədbirdə Özbəkistandakı Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyasının sədri Akif Ağatalıbov da iştirak edib. Qeyd edək ki, A. Ağatalıbov eyni zamanda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvüdür.

O, sözügedən forumla bağlı təəssüratlarını qəzetimizə bölüşərək bildirdi ki, tədbirdə türk dünyası və diasporlarının 60 ölkədən 700-dən artıq nümayəndəsi iştirak edib: "Foruma Azərbaycan dövlət və hökumət nümayəndələri, millət vəkilləri, o cümlədən fəal diaspor təşkilatlarımızın rəhbərləri də qatılmışdılar. Bizim nümayəndə heyətinin rəhbəri Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov idi. Mən çox xoşbəxtəm ki, orada Özbəkistanı, eləcə də Orta Asiyanı təmsil edirdim. Çox gözəl və alqışlara layiq tədbir keçirildi. Azərbaycan həmişə türk birliyinə çalışıb. Bu baxımdan DİDK-nin sədri N. İbrahimov da çıxışında Azərbaycanın türk dünyasının birliyinin təmin olunmasına, əməkdaşlığın inkişaf etdirilməsinə hər zaman böyük diqqət verdiyini qeyd etdi. Orada qərara gəlindi ki, bu tədbirlər tək Türkiyədə deyil, digər türk dövlətlərində də təşkil olunsun. Forumda millət vəkili Qənirə Paşayeva da çox əhəmiyyətli çıxış etdi".

"Ermənilərin törətdiyi soyqırım yaralarımız heç zaman unudulmamalıdır"

Forumda tək Azərbaycanın və ya Türkiyənin deyil, bütün türk dünyasının problemləri qaldırılıb. Forumun ən maraqlı bölümü "Soyqırımı iddiaları: Türk dünyası diasporu və əməkdaşlıq" mövzusunda olub: "Bu toplantıda Azərbaycan və Anadolu torpaqlarında erməni quldurlarının törətdikləri qətliamlardan, bizim ürək ağrımız olan Dağlıq Qarabağ münaqişəsindən, Xocalı soyqırımından, qondarma "erməni soyqırımı" təbliğatına qarşı diaspor təşkilatlarının birgə fəaliyyətindən danışıldı. Orada mən də öz fikirlərimi bildirdim. Qeyd etdim ki, ermənilərin törətdiyi soyqırım yaralarımız sağalmayıb və bunlar heç zaman unudulmamalıdır. Bu məsələlər Türk Dünyası səviyyəsində hər zaman diqqətdə saxlanılmalıdır. Hazırda bizim ən yaralı yerimiz Dağlıq Qarabağ problemidir. Bunu tək Azərbaycan həll etməməlidir. Bütün türkdilli xalqları həmrəyliyə və mehribançılığa və bir ocağa toplaşmağa səsləyib təkliflər irəli sürdüm".

Forumun türkdilli ölkələrin birləşməsindəki rolundan danışan həmsöhbətimiz özlərindən asılı olmayaraq vaxtilə türk xalqlarının parçalandığını bildirdi: "İndi məqam gəlib ki, biz birləşək. Bəziləri deyir ki, orada yığışırlar, burada yığışırlar. Bəs, möhkəmlənmək necə olur? Damcı-damcı bir araya gəlməliyik, yoxsa birdən-birə birləşə bilmərik. İstanbulda, Bakıda, Berlində, Daşkənddə və başqa şəhərlərdə toplanışların çox olması axırda bütün türkdilli xalqların bir araya gəlməsi məqsədinə xidmət edir. Biz hamımız bir millətik. Birləşəndən sonra heç bir dövlət, heç bir gözü götürməyən millət bizə bata bilməz".

İslam Kərimov əvvəllər də dediyi sözləri bir daha təsdiqlədi

A. Ağatalıbov söhbət əsnasında Özbəkistan-Azərbaycan münasibətlərinə də toxundu. Qeyd etdi ki, sentyabrın 27-də Prezident İlham Əliyevin Özbəkistana səfəri bu münasibətlərin möhkəmlənməsinə təkan verib: "Möhkəm və mehriban olan iki xalqın dostluğu əbədidir. Prezident İlham Əliyevlə görüşündə Özbəkistan Prezidenti İslam Kərimov "bizim ulduzlarımız müştərək, dilimiz bir, dinimiz bir, ürəklərimiz birdir" fikrini işlətdi. O dedi ki, qardaş Özbəkistanın Azərbaycana olan səmimiyyətinin bir əyani sübutu da bu ölkənin Dağlıq Qarabağ barədə mövqeyinin dəyişməz və daimi olmasıdır. Bununla əvvəllər də dediyi sözləri İslam Kərimov bir daha təsdiqlədi. Bu sözün özünün deyil, bütün Özbəkistan xalqının sözü olduğunu və bu xalqların həmişə bir olduğunu bildirdi. İslam Kərimov məqam çatanda sözünü deyərək öz sadiqliyini, müsəlmançılığın, dostluğunu və türklüyünü göstərdi".

A. Ağatalıbov ikitərəfli münasibətlərin inkişafında dövlət başçılarının səfərlərinin xüsusilə böyük əhəmiyyətə malik olduğunu bildirdi: "Azərbaycanla Özbəkistan arasında dostluq və əməkdaşlıq haqqında müqavilə" imzalanıb. Azərbaycan və Özbəkistan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi haqqında bu müqavilə böyük əhəmiyyət kəsb edir.

Bu sənəd iki ölkə arasında uğurlu əməkdaşlıq üçün güclü fundamental müqavilə-hüquqi əsas yaradıb. Buna görədir iki ölkə arasında ticari-iqtisadi və mədəni əlaqələr ildən-ilə genişlənir və biz bunu təqdir edirik".

Rəsmi Daşkəndin Azərbaycan diasporuna münasibətinə gəlincə A. Ağatalıbov dedi ki, doğrudan da özbək xalqı bizə ən yaxın, ən əziz xalqlardan biridir: "Mən həm Özbəkistanda uzun müddət fəaliyyət göstərən diaspor təşkilatının sədri, həm Orta Asiya azərbaycanlılarının koordinatoru, həm də uzun zamandır ki, orada yaşayan insan kimi bunu deyirəm. Hər şey göz qabağındadır. Cənab Prezident elə bir siyasət qurub ki, şəxsən Özbəkistanda yaşayan azərbaycanlıların nəinki özbək xalqı ilə, ümumiyyətlə, heç bir xalqla problemi yoxdur. İslam Kərimovun dediyi kimi Özbəkistan bizim ümumi evimizdir". O, özbək xalqının azərbaycanlılara qəlbən çox yaxın və doğma olduğunu vurğuladı: "Təbii ki, bu münasibətlər, bu sözlərin bünövrəsini qoyan ümummilli lider Heydər Əliyev olub. Heydər Əliyevin şəxsən özbək xalqına böyük hörməti var idi. Onun müdrik siyasətinin bu gün Prezident İlham Əliyevin davam etdirməsi Özbəkistanla münasibətləri bu səviyyəyə gətirib. Bizə çox xoşdur ki, orada Heydər Əliyev adına Mədəniyyət Mərkəzi, küçə, onun büstü, Nizami Gəncəvinin heykəli, Nizami Gəncəvi adına Pedaqoji Akademiya və s. var".

Həmsöhbətimiz Prezident İlham Əliyevin Özbəkistanda milli diaspor üzvlərimizlə görüşündən danışaraq bunu çox sevinclə gözlədiklərini dedi: "Orada bizim diasporumuz çox həyəcanlı idi. Biz bir sevinc, hörmət və izzətlə gözləyirdik ki, Prezident İlham Əliyevlə görüşək. O bir gün yarımlıq gəlmişdi, amma biz onu 4 il idi ki, gözləyirdik. Yəni gedən gündən gözləmişdik və gələn gün də bizim üçün böyük bir bayrama çevrilmişdi. Heydər Əliyev adına Mədəniyyət Mərkəzində Prezident İlham Əliyev bizimlə görüşündə dedi: "Baxmayaraq ki, siz Özbəkistanda yaşayırsınız, amma bilin ki, siz Azərbaycan azərbaycanlılarısınız. Siz hər zaman bizim fikrimizdə, ürəyimizdəsiniz. Bilin ki, sizin doğma vətəniniz Azərbaycan var". Biz xoşbəxtik ki, cənab Prezidentin dediyi kimi Azərbaycan azərbaycanlılarıyıq. Bu gün Azərbaycana gələn də sevinirik ki, vətənimiz günü gündən inkişaf edir".

"Məqsəd Orta Asiyada yaşayan azərbaycanlıları bir yerə toplamaqdır"

Diaspor üzvümüz ATXƏM-in Orta Asiya üzrə nümayəndəliyinin rəhbəri kimi hazırda gördüyü işləri də bizə açıqladı. Məqsədi Orta Asiyada yaşayan azərbaycanlıları arayıb bir yerə toplamaq olan A. Ağatalıbov illərdir diaspor sahəsində qazandığı təcrübəsini bu yolda sərf edəcəyini qeyd etdi: "Buna da vaxt lazımdır. Bu dəqiqə qiyabi işlər görülür. DİDK ilə məsləhətlər gedir, danışıqlar aparır, görüşlər keçiririk".

Onun sözlərinə görə, bu işlə bağlı bəzi narazılıqlar da yarana bilər: "Buna da hazır olmalıyıq. İndi bunları da siyasi yollarla, DİDK vasitəsilə başa salmalıyıq ki, bu işlərin hamısı azərbaycançılığımız naminədir. Mən heç kimi gedib evindən, işindən ayırmıram. Mən ancaq koordinator kimi fəaliyyət göstərəcəyəm. Əgər onlar güclüdürlərsə, koordinasiya yaratmaqla biz daha da güclü və fəal olacağıq. İdarə heyətinin hər ölkədən bir üzvü olacaq. Yəni burada mən bir diaspor sahəsində daha çox təcrübəsi olan bir ağsaqqal kimi seçilmişəm. Region ölkələrində bir rəhbər kimi bu işə başlayacağam".

"Əlimdən gələni edəcəyəm ki, ulu öndərin nəsihətlərini həyata keçirim"

Heç kimin həyatda əbədi olmadığını deyən həmsöhbətim illər sonra onun işini gənclərin davam etdirəcəyini vurğuladı: "Bu işdə mənim heç bir maliyyə marağım yoxdur. Əslində bu işə mən özüm maliyyə xərcləyirəm. Mənim qazancım odur ki, azərbaycançılıq ideyasını yaşadacam. Bu da ulu öndər Heydər Əliyevin bizə nəsihəti olub. Dünya Azərbaycanlılarının I Qurultayında o bizə nəsihət verdi ki, ayılın azərbaycanlılar, Azərbaycandan kənarda yaşasanız da, birliyinizi unutmayın. Ona görə ulu öndərin nəsihəti olaraq bu mənim borcumdur. Ömrümün axırınacan əlimdən gələni edəcəm ki, bu nəsihətlərini həyata keçirim".

O, bir məlumat da verdi ki, 2011-ci ilin martında Dünya Azərbaycanlılarının III Qurultayı olacaq: "Görürsünüz ki, müxtəlif ölkələrdə toplaşırıq. Bu ayın 26-28-də isə Almaniyanın Frankfurt şəhərində Dünya Azərbaycanlı Gənclərin I Konqresi keçiriləcək. Konqresin təşkili xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuğu işinə cəlb olunması, ictimai-siyasi fəallığının artırılması, tarixi Vətənlə əlaqələrinin möhkəmləndirilməsi məqsədinə xidmət edir. Mən də bu tədbirə DİDK tərəfindən dəvət almışam. Allah heç bir milləti rəhbərsiz etməsin. Bütün azərbaycanlı gəclərin, ümumiyyətlə dünya azərbaycanlılarının rəhbəri İlham Əliyevdir. Biz də o tədbirə qatılaraq gənclərə öz təcrübəmizdən bildiyimizi deyib onlara dəstək olacağıq".

Fuad

"Paritet". -2010.-4-5 noyabr.-N.116.-S.11

Voloqdada Heydər Əliyevin xatirə lövhəsinin açılış mərasimi olub

Ümumrusiya xalqlarının birlik günü münasibəti ilə Rusiyanın Voloqda şəhərində, Belyayev adına parkda Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışdığı dövrdə sözü gedən parkda əkdiyi ağacın önündə ulu öndərin memorial xatirə lövhəsinin təntənəli açılış mərasimi keçirilib.

Azərbaycanın Sankt-Peterburq şəhərindəki Baş Konsulluğunun mətbuat xidmətindən APA-ya verilən məlumata görə, mərasimdə Voloqda vilayətinin vitse-qubernatoru Nikolay Vinoqradov, Voloqda şəhərinin meri Yevqeniy Şulepov və digər rəsmi şəxslər, ictimaiyyət nümayəndələri, Sankt-Peterburqda akkreditə olunmuş Ukrayna, Belçika, Belarus, Qırğızıstan, Rumıniya, Tacikistan, Anqola, Peru və digər diplomatik missiya rəhbərləri, RF XİN-in Sankt-Peterburqdakı nümayəndəsi, Azərbaycan diaspor üzvləri, şəhərdə təhsil alan tələbələr, Rusiya və Azərbaycan kütləvi informasiya vasitələri nümayəndələri iştirak ediblər.

Memorial xatirə lövhəsinin acılışında cıxış edən Voloqda Vilayətinin vitse-qubernatoru N.Vinoqradov Azərbaycanın tərəqqisinə ömrünü həsr etmiş dünya şöhrətli siyasətçi Heydər Əliyevin həmcinin Azərbaycan-Rusiya arasında dostluq əlaqələrində də əvəzsiz xidmətlərini vurğulayıb. O qeyd edib ki, belə bir bayram günündə mermorial löhvənin acılışı iki dost ölkənin münasibətlərinin daha da sıx olmasına zəmin yaradacaq. Voloqda şəhərinin meri Yevqeniy Şulepov Heydər Əliyevin Azərbaycan-Rusiya əlaqələrinin inkişafında oynadığı rolu qeyd edərək, dahi rəhbərin ikitərəfli əlaqələrdə əsl dönüş yaratdığını vurğulayıb. Y. Şulepov görkəmli dövlət xadiminin Voloqda vilayətinin inkişafındakı rolundan danışaraq xatirə albomunda Heydər Əliyevin səfərləri zamanı cəkilən foto şəkilləri nümayiş etdirib.

Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Qudsi Osmanov acılışda Heydər Əliyevin siyasi həyatı və Azərbaycan xalqı qarşısında yüksək xidmətləri barədə danışaraq ulu öndərin Azərbaycandan kənarda yaşayan həmvətənlərinə daim yüksək diqqət və qayğı göstərdiyini bildirib. O, Voloqda şəhərinin sakinlərinin təşəbbüsü ilə ulu öndərin memorial löhvəsinin məhs Ümumrusiya xalqlarının birlik günü münasibətilə acılması bizim xalqlar arasındakı dostluğun baris nümunəsi olduğunu qeyd edib. Baş Konsul ümummilli lider Heydər Əliyevin siyasi irsini uğurla davam etdirən prezident İlham Əliyevin apardığı uğurlu siyasətin nəticəsi olaraq Rusiya ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq münasibətlərin yüksək templə inkişaf etdiyini vurğulayıb.

Q. Osmanov çıxışının sonunda Voloqda şəhərinin meri Yevqeniy Şulepova Heydər Əliyevin Rusiyada siyasi fəaliyyətinin əks etdirən "V Rossii çast moey duşi..." adı kitabı hədiyyə edib. Voloqda vilayəti xalqlarının assambleyasının sədri Aleksandr Bolotov Azərbaycan Respublikasının müstəqilliyində Heydər Əliyevin xidmətlərini, onun müdrik siyasi və dövlət xadimi olduğunu, bütün gücünü və enerjisini vətənin inkişafı və tərəqqisinə həsr etdiyini söyləyib. Daha sonra Memorial xatirə löhvəsinin rəsmi acılış mərasimi keçirilib. Tədbirin sonunda Heydər Əliyevin xatirə lövhəsinin önünə gül dəstələri qoyulub.

05 noyabr 2010

Türk dünyasının müxtəlif dərnək sədrlərinin təşkilatçılığı ilə Londonda tədbir keçirilmişdir

İngiltərədə fəaliyyət göstərən türk dünyasının müxtəlif dərnək sədrlərinin təşkilatçılığı ilə Londonda tədbir keçirilmişdir. Məqsəd türk dünyasına mənsub insanların problemlərini qərb ictimaiyyətinin diqqətinə çatdırmaq olmuşdur. AzərTAc xəbər verir ki, tədbirdə ölkəmizi İngiltərədə fəaliyyət göstərən "Azərbaycan House" dərnəyinin sədri doktor Əli Təkin Atalar təmsil etmişdir. Tədbirdə türk dünyasının Kipr, Qərbi Trakya, İraq Türkməneli və Azərbaycan kimi 4 regionu haqqında çıxışlar olmuşdur. Çıxış edənlər tədbirin Avropanın müxtəlif mərkəzlərində də keçirilməsinin vacibliyini vurğulamışlar. Azərbaycan dərnəyinin nümayəndəsi Sinan Əliyev Azərbaycanın problemləri haqqında danışmış, Azərbaycan türklərinin ağrılarını xatırlatmış, Qarabağ probleminin onların qanayan yarası olduğunu bildirmişdir.

05 noyabr 2010

ABŞ azərbaycanlıları ara seçkilərin strateji nəticələrindən razıdırlar

"Ermənipərəst konqresmenlərin neytral adamlarla əvəz olunması ABŞ-ın Azərbaycan və Türkiyə münasibətlərinə müsbət təsirini göstərməlidir"

Xəbər verdiyimiz kimi, noyabrın 2-si ABŞ-da keçirilən ara seçkiləri nəticəsində Respublikaçılar Partiyası mövqelərini xeyli gücləndirib. İndiyədək Konqresin hər iki palatasında üstünlüyə malik olan demokratlar seçkilərdən sonra Nümayəndələr Palatasında səs çoxluğunu respublikaçılara uduzsa da, Senatda nüfuzlarını qoruyub saxlaya bilmişdilər. Buna baxmayaraq, Nümayəndələr Palatası ilə yanaşı, bir sıra ştatların qubernator seçkilərində də respublikaçı namizədlərin qələbə çalması, Prezident Obama və Demokrat partiyasının siyasi kursuna amerikalılar arasında azalan dəstəkdən xəbər verir. Seçkilərin nəticələri ABŞ-ın bütün siyasi dairələrində təhlil olunarkən, ölkənin erməni və Azərbaycan mənşəli icmaları da itirib-qazandıqlarını nəzərdən keçirirlər. Nümayəndələr Palatasında siyasi qüvvələrin balansının dəyişməsi ermənipərəst mövqeləri ilə seçilən konqresin spikeri xanım Nənsi Pelozi və xarici münasibətlər üzrə komitənin sədri Hovard Bermanı bu vəzifələrindən uzaqlaşdırıb.

Konqresdə istənilən erməni qətnamələrinin fəal tərəfdarları olan bu iki kaliforniyalı təmsilçinin respublikaçı çoxluğa təslim etdikləri vəzifələrin itirilməsi Amerika ermənilər tərəfindən məğlubiyyət kimi dəyərləndirilir. Konqresin yeni sessiyasında spiker olacaq Ohayo ştatının təmsilçisi Con Bener isə hələ seçki bülletenləri "soyumamış" artıq erməni icma təşkilatları tərəfindən "soyqırımı" qətnaməsinə qarşı çıxdığına görə tənqid edilməyə başlanıb. Bununla yanaşı, Azərbaycana ABŞ səfiri namizədinin təsdiq edilməsini erməni elektoratının sifarişi ilə ləngidən kaliforniyalı senator Barbara Bokserin, konqresdə erməni məsələləri üzrə işçi qrupunun həmsədri nyu-cersili Frənk Pallonenin yenidən qanunverici orqana qayıtmalarını Amerika ermənilər seçki qələbəsi kimi qiymətləndirirlər. ABŞ azərbaycanlılarının ara seçkilərinin nəticələrinə münasibətini isə AzərTAc-a ABŞ Azərbaycanlıları Şəbəkəsinin (USAN) direktoru Adil Bağırov şərh etmişdir.

– ABŞ-da bu ara seçkilərinin nəticələri gözlənildiyi kimi oldumu?

–Bəli. Bu ilin yay mövsümündən artıq belə nəticələr proqnozlaşdırılırdı. Böyük bir sürpriz olmadı. Sadəcə siyasi qüvvələrin dəyişməsinin miqyası və konkret rəqəmlər müəyyənləşdi.

– Bizi daha çox Konqresdəki yeni siyasi balansın ABŞ-ın xarici siyasəti və xüsusilə də Türkiyə və Azərbaycanla münasibətlərinə təsiri maraqlandırır. Bildiyiniz kimi, respublikaçıların Nümayəndələr Palatasında qələbəsi nəticəsində demokrat spiker Nənsi Pelozi və xarici münasibətlər üzrə komitənin demokrat sədri Hovard Berman yeni sessiya zamanı bu vəzifələri artıq yerinə yetirməyəcəklər. ABŞ-ın türk dünyası ilə münasibətləri necə dəyişə bilər?

– ABŞ-ın dövlət siyasəti Administrasiya və Konqresin bir neçə yüksək səviyyəli nümayəndəsindən asılı olmasa da, onların hər biri öz izini qoyur və güclü təsirini göstərə bilir. Ona görə də, bütünlüklə ermənipərəst olan Konqres üzvlərinin neytral mövqedən çıxış edən adamlarla əvəz olunması ABŞ-ın Azərbaycan və Türkiyə ilə münasibətlərinə, təbii olaraq, müsbət təsirini göstərməlidir.

– Təəssüf ki, bu ara seçkilərində Azərbaycan icmasının Konqresdəki bəzi dostları da məğlubiyyətə uğradılar. O cümlədən, Konqresdə Azərbaycanla bağlı işçi qrupunun təsisçi və həmsədrlərindən biri Solomon Ortiz Texasda, qrupun ən fəal üzvlərindən olan Maykl MkMahon isə Nyu-Yorkda uduzdular.

– Bu, doğrudan da, Amerika azərbaycanlıları üçün məyusedici haldır. Solomon Ortiz sabiq konqresmen Kurt Veldonla birlikdə 2004-cü ildə Konqresdə Azərbaycanla bağlı işçi qrupunu yaratmışdı. O, əsl centlemen, siyasətin veteranı və ağsaqqalı idi. Onunla yaxından tanış olanlar bilirlər ki, son illər cənab Ortiz möhkəm yorulmuşdu, siyasəti tərk etmək haqda düşünürdü. Konqresmen MkMahon isə Azərbaycanla bağlı işçi qrupunun fəal üzvlərindən birinə çevrilmişdir. Onların məğlubiyyəti Demokrat Partiyasına siyasi mənsubluqlarına görə baş verdi – əksər amerikalılar ölkədə işsizliyin artması və iqtisadi böhrana görə demokratları günahlandırırlar.

– USAN daha hansı dairələrdəki seçkiləri yaxından izləyirdi? Ümumiyyətlə, bu ara seçkilərində Amerika azərbaycanlılarının itirib-qazandıqlarını necə qiymətləndirirsiniz?

– Ən əvvəl biz, müxtəlif yerli bələdiyyə və məhkəmə orqanlarına seçkilərdə iştirak edən beş nəfər türk mənşəli namizədin mübarizəsini yaxından izləyirdik. Onlardan ikisi – biri Texas, digəri isə Kaliforniya ştatında qalib gəlmişdir. Daha sonra bizi daim ermənilərin yedəyində gedən konqresmen və senatorlar, o cümlədən Frənk Pallone, Barbara Bokser, Maykl Bennet, Harri Rid və Mark Kerkin seçkilərdən hansı nəticə ilə çıxacaqları maraqlandırırdı. Bu Konqres üzvlərinin hər birinə Azərbaycana qarşı etdikləri çıxışlar və addımlarına etiraz kimi USAN üzvləri təkrarən məktublar göndərib. Onların hamısı yenidən qanunverici orqanda yer qazanıblar, lakin qələbələri rəqiblərindən cüzi sayda səs fərqi ilə mümkün olub. Bəlkə bu, onları daha sayıq hərəkətə vadar edər.

Çünki bu senatorların ədalətli və ya vətənpərvər olacağına ümid etmirəm. Xatırlayırsınızsa, senator Barbara Bokserin qeyri-vətənpərvərliyi hətta nüfuzlu "Uol Strit Cornal" tərəfindən də məsxərəyə qoyulmuşdu – xanım Bokseri Kaliforniyanın deyil, Ermənistanın senatoru adlandırırdılar.

Qısaca olaraq deyə bilərəm ki, seçkilərin nəticələri strateji baxımdan Azərbaycan icmasının maraqlarına cavab verdi, lakin praktiki olaraq Azərbaycan və türk mənşəli seçicilərin dəstəklədiyi namizədlərin heç biri qələbə qazanmadı. Həm Azərbaycan, həm də türk mənşəli ABŞ seçiciləri güclü seçici blokuna çevrilmək üçün hələ çox iş görməlidirlər. Sevindirici haldır ki, Azərbaycan və türk diasporunun gündən-günə artan siyasi fəallığı bizim düzgün istiqamətdə olduğumuzun əlamətidir.

– Seçkilər bitdikdən sonra, Ağ Evin Azərbaycana səfir kimi göndərmək istədiyi Mətyu Brayzənin namizədliyinin təsdiqlənməsi prosesinin yerdən qalxacağını gözləmək olarmı?

– Bu barədə müəyyən bir fikir deməyə çətinlik çəkirəm. Çünki cənab Brayzənin namizədliyinə qarşı çıxan hər iki senator – Barbara Bokser və Robert Menendez yenə də Senatda oturublar və indi erməni lobbisindən əvvəlkindən daha çox asılı olacaqlar.

"525-ci qəze t".-2010.-6 noyabr.-N.205.-S.7.

Frankfurt Əcnəbi Vətəndaşlar Şurasına seçkilər keçirilib

Noyabrın 7-də Frankfurt Əcnəbi Vətəndaşlar Şurasına seçkilər keçirilib. Seçkilərdə Cümə Məmmədov sözü gedən Şuranın deputatı seçilib.Qeyd edək ki, bu qurum magistratda və şəhər strukturlarında Frankfurtda yaşayan 168 mindən artıq xarici vətəndaşı təmsil edir. 37 deputatdan ibarət Əcnəbi Vətəndaşlar Şurası 5 il müddətinə seçilir. Bu günə kimi Frankfurt Əcnəbi Vətəndaşlar Şurasında postsovet məkanından heç bir nümayəndə təmsil olunmayıb. 2010-cu ildə keçirilən seçkilərdə Frankfurtda yaşayan soydaşımız Cuma Məmmədov sabiq SSRİ-dən olan vətəndaşların namizədlər qrupu tərkibində Xaricilər Şurasına namizədliyini irəli sürüb.

14 namizəddən ibarət qrup seçkilərdə bir mandat qazanıb və səsvermənin nəticələrinə görə soydaşımız Cuma Məmmədov deputat seçilib. Soydaşımız ümumi səsvermənin nəticələrinə görə, həm bu qrupda olan, həm də digər qruplarda təmsil olunan sabiq SSRİ vətəndaşlarının hamısından çox səs toplayıb. Azərbaycanın Almaniyadakı səfirliyi və ARDNŞ-in nümayəndəliyi həmyerlimizə seçkilərdə dəstək veriblər. Bundan başqa seçkilərin nəticələrinə Cuma Məmmədovun Almaniyanın ən nüfuzlu qəzeti olan "Frankfurter Allgemeine Zeitung"a verdiyi müsahibə də böyük təsir göstərib. Qəzet 473 namizəd arasından müsahibə götürmək üçün 5 nəfər seçib, onlardan biri də soydaşımız olub. Xatırladaq ki, Cumna Məmmədov əslən postsovet məkanından olan və Xaricilər Şurasına seçilən ilk şəxsdir.

07 noyabr 2010

Azərbaycanlıların Koordinasiya Mərkəzində (KAD) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuş tədbir keçirilib

Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzində (KAD) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuş tədbir keçirilib. Azərbaycanın Almaniyadakı Səfirliyinin dəstəyi ilə keçiriiən tədbirdə Frankfurt Sülh və Konflikt Araşdırmaları Fondunun əməkdaşı Dr. Azər Babayev "Dağlıq Qarabağ danışıqlarında son vəziyyət: Cənubi Qafqazda baş vermiş son geopolitik dəyişikliklər kontekstində aparılan çətin danişıqlar prosesinin şans və riskləri" adlı məruzə ilə çıxış edib. Tədbirə Almaniyanın Cənubi Qafqaz üzrə tanınmış eksperti Uve Halbax, jurnalistlər, siyasi fond və elm-təhsil müəssisələrinin nümayəndələri, Almaniyada təhsil alan azərbaycanlı tələbə və doktorantlar, eləcə də Almaniyadakı diasporumuzun nümayəndələri qatılıbılar.

A.Babayev Daglıq Qarabağ münaqişəsi ətrafında gedən danışıqlar prosesini təhlil edərək, bu prosesin dalana dirənməsinin səbəblərini tədbir iştirakçılarının diqqətinə çatdırıb. O, ATƏT-in Minsk Qrupu həmsədr ölkələrinin rəhbərləri tərəfindən təklif olunan yenilənmiş Madrid prinsiplərinin Ermənistan tərəfindən hələ də qəbul olunmadığını qeyd edərək, bu mövqeyin aparılan danışıqlar prosesinin sonrakı inkişafının müsbət nəticələr verməsinə olan ümidləri azaltdığını vurğulayıb. Fond əməkdaşı münaqişənin həllinə təsir etmək qüdrətinə malik olan əsas gücün Rusiya olduğunu bildirmiş, lakin bu dövlətin sözügedən münaqişənin həllində doğurdan da maraqlı olması məsələsinin sual altında olduğunu deyib. Dr.Babayev ABŞ və Avropanın münaqişənin həllinə daha yaxından qoşulmasının və əllərində olan vasitələrdən istifadə edərək, münaqişənin tezliklə həllinə təsir göstərmələrinin vacibliyini qeyd edib. Ona görə "nə müharibə, nə də sülh" vəziyyəti əbədi olaraq davam edə bilməz və buna inanmaq sadəlövlükdür. Məruzə maraqla qarşılanlb və çıxışdan sonra mövzu ətrafında müzakirələr keçirilib.

08 noyabr 2010

Brüssel şəhərində Avropa Azərbaycan Cəmiyyətinin (AAC) ofisi açılıb

Belçikanın və Avropa Birliyinin paytaxtı Brüssel şəhərində Avropa Azərbaycan Cəmiyyətinin (AAC) ofisi açılıb. Cəmiyyətdən APA-ya verilən məlumata görə, noyabrın 8-də keçirilmiş açılış mərasimində səfirlər, Avropa Parlamentinin üzvləri, səlahiyyətli nümayəndələr, diplomatlar və vətəndaş cəmiyyətinin nümayəndələri iştirak edib. AAC-ın təsisçisi və rəhbəri Tale Heydərov tədbirdə açılış nitqi ilə çıxış edərək əsasən Dağlıq Qarabağ və ətraf 7 rayonun Ermənistan tərəfindən işğalının davam etməsi üzərində dayanıb: "Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı Azərbaycan torpaqlarının qaytarılması və Azərbaycandakı çoxsaylı sərmayə imkanlarının tanıdılması üçün AAC Avropanın mərkəzində olmalıdır. Biz Avropa Birliyi və Azərbaycan arasındakı ikitərəfli ticarəti genişləndirmək üçün avropalı parlamentarlar və bu işdə marağı olan bütün ölkələrlə danışıqlar aparmalıyıq. AAC üçün ən əsası həqiqəti təbliğ etmək və qanunsuz təcavüzə son qoyması üçün Ermənistana təzyiqi artırmaqdır. Avropa Birliyi razılaşdırılmış, ardıcıl xarici siyasəti inkişaf etdirir və bu məqsədlə xarici siyasət idarəsini də yaradıb. Biz inanırıq ki, baronessa Eştonun rəhbərliyi Avropa Birliyinin regional sülh və stabilliyə nail olmasına əlavə təkan verəcək".

Daha sonra tədbir Avropa Parlamentinin üzvü, professor Georgi Şopflinin (György Schöpflin) nitqi ilə davam edib. Bir macarıstanlı olaraq o qeyd edib ki, Azərbaycanın dilemmasını anlayır, çünki 1989-cu ilə qədər bütün Şərq ölkələri Sovet İttifaqının tabeliyində idi və Qərbdə demək olar ki gözəgörünməz idilər, tanınmırdılar: "Azərbaycan üçün Avropaya aid olmaq vacibdir. Bu ölkə Brüsseldə ilk addımlarını atıb və bununla da öz yaxınlığını göstərib. Bu irəliləyiş onu göstərir ki, Azərbaycan Avropa ailəsinin bir üzvünə çevrilir və Avropanın periferiyaları mərkəzə daha da yaxınlaşır". Onun ardınca Avropa Parlamentinin üzvü, AB-Ermənistan, AB-Azərbaycan və AB-Gürcüstan parlament əməkdaşlığı komitələrindəki nümayəndə heyətinin sədr müavini, "Şərq Tərəfdaşlığı" Parlament Assambleyasındakı nümayəndə heyətinin üzvü, 1990-1992-ci illərdə Litvanın dövlət başçısı olmuş professor Vitautas Landsbergis söz alıb.

Regionu dərindən anlayan Landsbergis əsas diqqəti Dağlıq Qarabağ probleminə yönəldib: "Avropa Birliyinə yaxınlaşmaq Azərbaycan üçün sülh şəraitində tərəqqi və inkişafa nail olmağın yeganə yoludur. Azərbaycanın ən böyük qələbəsi sülh olacaq". Postsovet ölkələri arasında qarşılıqlı anlaşmanın yaranmasında gənclərin və qadınların roluna diqqəti çəkən Landsbergis qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi barədə Şöpflinin fikirlərini təkrarlayıb: "Azərbaycanın Avropaya, Avropanın da Azərbaycana ehtiyacı var". Tədbir Brüsseldə yaşayan Azərbaycanlı pianoçu və müğənni Nəzrinin çıxışı ilə davam edib. İştirakçılar həm də "Azərbaycan – Odlar Yurdu" adlı foto-sərgiyə də baxıblar. Burada Azərbaycan memarlığı, mədəniyyəti və təbiətini əks etdirən şəkillər nümayiş olunub. AAC-ın Brüsseldəki ofisinə Eliza Piter rəhbərlik edir.

10 noyabr 2010

Humboldt-Berlin Universitetində "Azərbaycan tarixi" kafedrası fəaliyyətə başlayıb

2010-cu ilin oktyabr ayından etibarən Almaniyanın qabaqcıl universitetlərindən biri olan Humboldt-Berlin Universitetində "Azərbaycan tarixi" kafedrası fəaliyyətə başlayıb. Azərbaycan XİN-in mətbuat xidmətindən APA-ya verilən məlumata görə, kafedranın açılmasına dair razılaşma keçən ilin dekabrın 3-də Humboldt-Berlin Universitetinin sabiq rektoru, professor Xristof Markşies və Azərbaycanın Almaniyadakı səfiri Pərviz Şahbazov arasında imzalanıb. Cari ilin iyun ayının 8-də "Azərbaycan tarixi" kafedrasının rəhbərliyinin seçilməsi məqsədilə həmin universitet tərəfindən yaradılmış komissiyanın yekun toplantısı keçirilib və kafedra müdiri vəzifəsinə Azərbaycan üzrə tanınmış mütəxəssis, Azərbaycanın elmi mühitinə yaxşı bələd olan və elm-təhsil müəssisələri ilə sıx əməkdaşlıq edən professor Eva-Mariya Auxun namizədliyi dəstəklənib.

Noyabrın 29-dan dekabrın 2-nə kimi universitetdə "Azərbaycanın elm və mədəniyyət həftəsi"nin keçirilməsi planlaşdırılır. Tədbirlər çərçivəsinə Azərbaycanla bağlı elmi fəaliyyət göstərən məşhur avropalı alimlərin toplaşdığı beynəlxalq elmi konfransın, gənclər forumunun, çoxsaylı mədəni tədbirlərin, konsertlərin və sərgilərin keçirilməsi daxildir.

10 noyabr 2010

Qarabağ Fondu yeni layihəyə start verib

ABŞ-da fəaliyyət göstərən Qarabağ Fondu yeni layihəyə start verib. Qarabağ Fondu Vaşinqtonun tanınmış New World Radiosu (www.wust1120.com) ilə muqavilə imzalayaraq ABŞ tarixində ilk dəfə olaraq Azərbaycanın mədəniyyəti, incəsənəti və musiqisinə həsr olunmuş "Qarabağın səsi" adlı həftəlik proqramın yayımlanmasına başlayıb. Bu barədə APA-ya Qarabağ Fondunun Avropa və MDB ölkələri üzrə nümayəndəsi Tural Kərimli məlumat veric. Bu proqram vasitəsi ilə Qarabağ Fondu Fredericksburg, Virginia, Baltimore və Maryland əyalətlərini əhatə edərək ümumilikdə 5 milyonluq auditoriyaya Azərbaycan mədəniyyətini tanıdacaq. Bu radio proqramda tanınmış ekspertlər, mədəniyyətşünaslar və ictmai xadimlər Azərbaycan mədəniyyəti, musiqisi, mətbəxi və muğamı haqqında ətraflı məlumat verəcək və müzakirələr aparacaqlar. Proqramda həmçinin Azərbaycan xalq mahnıları, muğam və klassik musiqilər səsləndiriləcək. "Qarabağın Səsi" radio proqramı iki hissədən ibarət olacaq, proqramın birinci hissəsi İngilis, ikinci hissə isə Azərbaycan dilində yayımlanacaq. ABŞ-da yaşayan hər kəs proqrama canlı yayımla aşağıdakı telefon nömrəsi ilə qatıla bilər: 712-432-6620. "Qarabağın Səsi" radio proqramını həmçinin Qarabağ Fondunun veb saytına daxil olaraq dinləmək olar (www.karabakhfoundation.org).

Xatırladaq ki, Qarabağ Fondu 2009-cu ilin noyabr ayında ABŞ-da yaradılıb və qeyri hökümət təşkilatlarına verilən yüksək 501 (C) 3 statusuna sahibdir. Fondun əsas məqsədi Azərbaycan, onun Qarabağ bölgəsi və bütünlükdə Qafqazı amerikalılara tanıtmaq, Azərbaycan mədəniyyəti və musiqisini Amerikada tərənnüm və təbliğ etməkdən ibarətdir. Buna nail olmaq üçün Qarabağ Fondu müxtəlif sərgilər, kitabların nəşri, ictimai proqramlar, forumlar, mübadilə proqramlarının həyata keçirilməsini nəzərdə tutur.

12 noyabr 2010

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin bəyanatı

Azərbaycan Respublikasının son illərdə qazandığı yüksək iqtisadi nailiyyətlər, milli dövlətçilik ənənələrinin möhkəmlənməsi, ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli yer tutması, siyasi nüfuzunun artması bəzi qüvvələrin ciddi narahatlığına səbəb olmaqdadır.

Ölkəmizin artan hərbi qüdrəti, böyük iqtisadi potensialı, demokratik ənənələrin təşəkkülü istiqamətində atdığı qətiyyətli addımlar həmin qüvvələri daha çirkin üsullara əl atmağa vadar edir. Vətən xaini, separatçı Əlikram Hümbətovun oğlu və qohumlarının bu günlərdə Niderland Krallığının Den Haaqa şəhərində Avropadakı bəzi siyasi dairələrdən aldığı qrantlar hesabına Azərbaycan dövləti əleyhinə təşkil etdiyi aksiya bunun bariz nümunəsidir.

Məkrli siyasi iddialarını həyata keçirə bilmədiklərinə görə bütün varlığı ilə Azərbaycana nifrət edən, onun uğurlarını gözü götürməyən bu adamlar yenə də öz xislətlərinə uyğun üsul seçərək əsl simalarını nümayiş etdirmişlər. Acı təəssüf hissi ilə qeyd edirik ki, aksiyada iştirak edənlər hələ də özlərini "azərbaycanlı" adlandırmağa cəsarət edirlər.

Azərbaycanı bölünmüş və parçalanmış görmək istəyən, bu mənfur arzunun həyata keçirilməsi naminə hər kəslə əməkdaşlığa hazır olan separatçılar getdikcə daha böyük pessimizmə və ümidsizliyə qapılaraq aqressivləşir və adi etik qaydaları kobud şəkildə belə tapdalamaqdan çəkinmirlər. Azərbaycan dövlətinin beynəlxalq imicinə zərbə vurmağa, onun nüfuzunu aşağılamağa çalışan bu qüvvələr hələ də dərk etmirlər ki, bu cür təşəbbüslər əbəsdir, Azərbaycan xalqının milli birliyinə və həmrəyliyinə, onun bütövlüyünə, dövlətimizin möhkəmliyinə, dövlətçiliyimizin qüdrətinə xələl gətirə bilməz.

Niderlandda və digər Avropa ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarından daxil olan müraciətləri nəzərə alaraq Dövlət Komitəsi Əlikram Hümbətovun oğlu Tural Hümbətov və onun yaxın ətrafı tərəfindən təşkil olunmuş bu cür aksiyaları separatçılıq, bölücülük və xəyanət kimi qiymətləndirir, xarici ölkələrdə yaşayan bütün soydaşlarımızı bu çirkin hərəkətlərə layiqli cavab verməyə çağırır. Əminik ki, vətəndaşlıq mənsubiyyətindən, siyasi baxışlarından və əqidəsindən asılı olmayaraq, hər bir azərbaycanlı bölücülüyü və separatçılığı təşviq edən bu təşəbbüslərə öz qəti münasibətini bildirəcəkdir.

“Xalq qəzeti”.-2010.-12 noyabr.-N 250.-S.6.

ABŞ-dakı Azərbaycan diasporu Kaliforniyanın Beynəlxalq Məsələlər Şurasına (WAC) məktub göndərmişdir

ABŞ-dakı Azərbaycan diasporu Kaliforniyanın Beynəlxalq Məsələlər Şurasına (WAC) məktub göndərərək, gələn həftə Şurada Dağlıq Qarabağ separatçılarının lideri Bako Saakyanın iştirakı ilə keçiriləcək tədbirlə bağlı təəssüf və etirazını bildirib. APA-nın Vaşinqton müxbirinin məlumatına görə, WAC-ın saytında noyabrın 19-da "Qafqazda çaxnaşma: millətin öz müqəddəratını təyinetmə hüququ və regional sabitliyin perspektivləri" mövzusunda konfrans keçiriləcəyi barədə xəbər yerləşdirilib.

"Bako Saakyan hər hansı respublikanın prezidenti deyil, o, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazisində, işğal olunmuş Qarabağda Ermənistan hakimiyyətinin yaratdığı marionet separatçı rejimin lideridir. O, hansısa mövcud olmayan "Artsax-Dağlıq Qarabağ Respublikası" pasportu ilə deyil, məhz Ermənistan pasportu ilə səfərə çıxır və ABŞ vizası alır. Bu rejimi heç kim, o cümlədən ABŞ hökuməti də tanımayıb. Bütün dünyada Qarabağ bölgəsi Azərbaycanın "de-jure" hissəsi kimi tanınır", -deyə ABŞ Azərbaycanlıları Şəbəkəsinin (USAN) WAC sədri Timor Rafiqə göndərdiyi məktubda bildirilir.

Məktubda qeyd olunur ki, Ermənistan və Azərbaycan arasında müharibə "Azərbaycandan azad olmaq" üçün aparılmayıb, bu, suveren Azərbaycana, onun müharibədən əvvəl və müharibə gedişində evindən didərgin salınmış əhalisinə qarşı açıq təcavüzdür. Bu, etnik təmizləmə və insanlığa qarşı cinayətlərlə, 1992-ci ildə Xocalı qətliamı ilə nəticələnən bir müharibədir. "Azərbaycan terrorizmə qarşı müharibədə ABŞ-ın strateji müttəfiqi və enerji sektorunda etibarlı tərəfdaşıdır.

Onun Ermənistanın potensialından bir neçə dəfə böyük, müstəqil və inkişaf edən iqtisadiyyatı var. Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı separatçı rejim isə ləng inkişaf, batmış iqtisadiyyat, geniş miqyaslı emiqrasiya və böyük həcmli borclara malikdir, çünki Azərbaycan ərazisinin hərbi işğalı onun iqtisadiyyatını əldən salıb", - deyə məktubda bildirilir. Azərbaycan diasporu WAC-ı konfransı təxirə salmağa çağırıb: "Çünki bu, Ermənistan Silahlı Qüvvələri tərəfindən qətlə yetirilmiş insanların xatirəsinə təhqir olardı". Diaspor, həmçinin Şuranı B.Saakyanı mövcud olmayan psevdo-dövlətin -"Artsax-Dağlıq Qarabağ Respublikası"nın "prezidenti" kimi təqdim etməməyə və tanımamağa çağırıb. "Bu tədbir ABŞ hökumətinin də vasitəçilik etdiyi münaqişənin həlli prosesinə heç nə verməyəcək, çünki bu cür tədbirlər ABŞ hökumətinin rəsmi siyasətinə ziddir", - deyə müraciətdə vurğulanır.

12 noyabr 2010

İsveç Azərbaycanlıları Konqresi (İAK) YUNESKO-nun baş katibi İrina Bokovaya etiraz məktubu göndərib

İsveş Azərbaycanlıları Konqresi (İAK) YUNESKO-nun baş katibi İrina Bokovaya etiraz məktubu göndərib. Etirazın səbəbi bu təşkilatın noyabrın 15-19-da Keniyada keçiriləcək 5-ci sessiyasında "Armenian cross-stones" ("Erməni xaçkarlar") adlı məqalənin müzakirəsinin nəzərdə tutulmasıdır. Belə bir məqalənin sessiyada müzakirəyə çıxarılacağı barədə qurumun internet saytında məlumat verilib. İsveçdə yaşayan azərbaycanlıları ətrafında birləşdirən İAK sözügedən məqalənin saxta faktlar əsasında hazırlandığını xanım İ.Bokovanın diqqətinə çatdırıblar. Məktubda deyilir ki, "Armenian cross-stones" ("Erməni xaçkarlar") məqaləsinin müəllifləri Qafqaz Albaniyası dövründən qalan qədim Azərbaycan abidələrin yaranma tarixlərini saxtalaşdırırlar. Bu isə Ermənistanın Azərbaycan tarixi abidələrini özününküləşdirməsi kimi təqdim olunmalıdır və bu, eyni zamanda xalqımızın mədəni və tarixi irsinin bir hissəsindən məhrum edilməsi kimi qəbul edilməlidir. Məktub müəllifləri yazırlar ki, məqalədə "Ermənistan tarixində xaçkarların müxtəlif dövrlər keçməsi – inkişafdan durğunluğa doğru (işğal dövrlərində), unudulması (Sovet ateizmi dövründə) və hətta məhv edilməsi (hərbi münaqişə nəticəsində)" kimi iddiaların xüsusən məyusedici və təəsüfləndiricidir.

"Biz hesab edirik ki, bu cür iddalarla dolu məqalənin müzakirəyə çıxarılması Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun həlli ilə bağlı YUNESKO-nun bəyan etdiyi mövqeyinə ziddir" deyə İsveçdəki soydaşlarımız bildirirlər. Məktubda daha sonra qeyd olunur: "Nor-Jugha xaçkarların məhvi…", "xaçkarlar "erməni soyqırımı" qurbanlarına həsr edilərək…", "Artsax hərəkatının döyüşçülərinə həsr edilərək…" "Almaniya, Fransa, Livan, Dağliq Qarabağ və Ermənistanda parklarda, kilsələrdə və məzarlıqlarda ucaldılmışdır" kimi ağlasığmaz ifadələr və iddialar məqalənin mahiyyətini, saxtakarlıqlara əsaslandığını bildirən digər nümunələrdir.

Azərbaycanın ayrılmaz hissəs olan Dağlıq Qarabağın müstəqil dövlətlər arasında göstərilməsi isə yolverilməzdir və bütün beynəlxalq hüquq normalarının kobudcasına pozulması deməkdir. İsveçdəki soydaşlarımız yazırlar ki, Azərbaycanın torpaqlarının 20 faizini Ermənistanın işğal etməsi və nəticədə Azərbaycanın tarixi abidələrinin vəhşicəsinə dağıdılması məlum faktdır. Ermənilər Qafqaz Albaniyası dövründən qalmış qədim Azərbaycan abidələrinin bir qismini məhv edib, bir qismini isə özününküləşdiriblər. "Eyni zamanda bildirmək istərdik ki, ermənlərin Nor-Jugha adlandırdığı Culfa adlı Azərbaycan ərazisində hər hansı erməni tarixi və ya mədəni abidəsi olmayıb. Həmin ərazidə yerləşən daş abidələr isə Azərbaycan xalqının əcdadları olan albaniyalılara məxsusdur. Həmçinin biz xüsusilə qeyd edirik ki, "Erməni xaçkarları" məqaləsinin sessiyada müzakirə üçün təsdiq olunması Cənubi Qafqazın bütün xalqlarının tarixi həqiqətlərinin saxtalaşdırılmasına göz yummağa bərabərdir. Biz hesab edirik ki, bu cür saxta məqalələr regionda yaşayan xalqlar arasında dözümsüzlüyə gətirir və xalqlararası dialoq və əməkdaşlığa təhlükə yaradır." Məktubda belə deyilir.İsveç Azərbaycanlıları Konqresinin YUNESKO-nun baş katibinə etiraz müraciəti bu fikirlərlə bitir: "Sizdən xahiş edirik ki, 2010-cu il noyabrın 15-19-da keçiriləcək sessiyada "Armenian cross-stones" ("Erməni xaçkarlar") məqaləsinin müzakirə olunmaması üçün səylərinizi əsirgəməyəsiniz. Eyni zamanda biz ümid edirik ki, bundan sonra Sizin rəhbərlik etdiyiniz təşkilatda Azərbaycana qarşı yönəlmiş hər hansı məsələnin qaldırılmasına və müzakirəsinə imkan verməyəcəksiniz."

13 noyabr 2010

Benilüks Azərbaycanlıları Konqresi bəyanat yayıb

Mərkəzi iqamətgahı Amsterdamda yerləşən Benilüks Azərbaycanlıları Konqresinin mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, vətən xaini, separatçı Əlikram və oğlu Tural Hümbətovların, onların yaxın qohumlarının heç bir məntiqə sığışmayan, fakta söykənməyən, böhtan xarakterli guya Azərbaycanda etnik qruplara qarşı təzyiqlər edildiyini, onların sıxışdırıldığını bəhanə gətirərərk Niderland Krallığının inzibati mərkəzi Haaqadakı ölkəmizin səfirliyinin qarşısında etriraz aksiya keçirmələri Avropanın ayrı-ayrı ölkələrində, o cümlədən Hollandiyada yaşayan və damarlarında əsl azərbaycanlı qanı axan soydaşalrımız tərəfindən qəzəb hissi ilə qarşılanmışdır. Krallıqda yaşayan azərbaycanlıların əksəriyyətini öz ətrafında birləşdirən, ölkəmizlə bağlı həqiqətləri olduğu kimi Benilüks ölkələrinın vətəndaşlarına çatdıran Benilüks Azərbaycanlıalrı Konqresi bir daha Azərbaycana qayıtmayacağını başa düşərək ona böhtanlar atan Əlikram və onun təsiri altına düşmüş, sapı özümüzdən olub, düşmən dəyirmanına su tökən üzdəniraq beş-altı nəfərin keçirdiyi aksiyaya münasibət bildirərək xüsusi bəyənat qəbul etmişdir.

Bəyanatda deyilir: Hələ keçən əsrin əvvəllərindən müstəqil Azərbaycan dövləti qurmaq uğrunda mübarizəyə qalxmış xalqımız 1918-ci ildə müstəqillik qazanmışdır. Amma bolşeviklərin hakimiyyətə gəlişi onun varlığına son qoymuşdur. Əsrin sonlarında isə xalqımız itirdiyi müstəqilliyini yenidən qazanmış və öz dövlətini qurmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında gənc və müstəqil Azərbaycan dövləti iqtisadiyyatda, sözün əsil mənasında, əsrin sıçrayışını etmiş, böyük nailiyyətlər qazanmış, Cənubi Qafqaz bölgəsində aparıcı dövlətə çevrilmişdir. Azərbaycanın əldə etdiyi nailiyyətlər, ölkənin sürətli inkişafı, əhalinin maddi vəziyyətinin ildən-ilə yaxşılaşması beynəlxlaq aləmdə onun imicinin artmasına səbəb olmuşdur. Daim yeniləşərək bu gün öz simasını tamam dəyişmiş Azərbaycanın əldə etdiyi uğurlara istər daxildə, istərsə də onun hüdudlarından kənarda yaşayan Əlikram Hümbətov kimi qüvvələr hər vəchlə qara yaxmağa çalışırlar.

Azərbaycanın ən ağır və çətin vaxtlarından öz xeyrinə istifadə etməyə, onu parçalamağa cəhd göstərmiş Ə.Hümbətovun azərbaycanlılar adından danışmağa nə hüquqi, nə də mənəvi haqqı vardır. Onun Azərbaycanda milli azlıqlarla bağlı yürütdüyü fikirlər heç bir məntiqə sığışımır. Azərbaycanda bütün milli azlıqlar tarix boyu yerli sakinlərlə mehriban və dostluq şəraitində yaşamış, onlar arasında heç bir ayrı-seçkiliyə yol verilməmişdir. Dünyada başqa xalqlarla münasibətdə tolerant bir ölkə kimi tanınmış Azərbaycanda dövlət milli azlıqların mədəniyyətininin, incəsənətininin, dillərinin və dinlərinin inkişafına hər cür qayğı göstərir. Avropanın bəzi siyasi dairələrindən qrant alan, ölkəmizə və xalqımıza gizli düşmən kəsilmiş qara qüvvələr tərəfindən maliyyələşdirilən vətən xaini, separatçı Əlikram Hümbətov və onun ətrafındakı beş-altı nankorun qədim və zəngin bir tarixə malik, hümanist ideyalarını Hizami dühası ilə bəşəriyyətə tanıdan böyük bir xalqın ünvanına böhtan demələri Azərbaycanın hüdudlarından kənarda yaşamalarına baxmayaraq qəlbləri daim Vətən həsrəti ilə döyünən hər bir azərbaycanlını qəzəbləndirmişdir. Xaricdə yaşayan Azərbaycanın hər bir layiqli övladı üzünü onlara tutaraq deyir: Vətən xainlərinə ar olsun! Bəyanatın sonunda qeyd olunur: Vətən xaini, separatçı Əlikram Hümbətov və onun oğlu ilə əlbir olub Vətənimizin və xalqımızın ünvanına qara yaxanların hərəkəti qətiyyətlə pislənilsin.

Belə şəxslər Holladiyada və ona qonşu ölkələrdə fəaliyyət göstərən Azərbaycan təşkilatları tərəfindən ictimai qınağa çəkilsin. Bu hadisəyə münasibət bildirməyən və gözləmə mövqeyi tutan təşkilatların hərəkətləri separatçı Əlikram Hümbətova dəstək kimi qiymətləndirilsin. Nəhayət, Ə.Hümbətov və onun tərəfdarlarının hərəkəti birbaşa Azərbaycana və xalqımıza xəyanət kimi dəyərləndirilsin. Benilüks Azərbaycanlıları Konqresi harada yaşamalarından asılı olmayaraq bütün həmvətənlərimizi Azərbaycan dövlətçiliyini və Azərbaycan xalqını hər cür böhtandan, iftiradan qorumaq uğrunda sağlam mübarizəyə, ölkəmizə qarşı şər qüvvələrin hərəkətlərinə vaxtında layiqli cavab verməyə çağırır. Qeyd edək ki, Niderlandda fəaliyyət göstərən ANA VƏTƏN Avropa Azərbaycanlı Qadınlar Birliyi də bu aksiyanı pisləmiş, onu təşkil edənləri "xain" adlandırmışdır.

18 noyabr 2010

Mançester şəhərində ilk dəfə olaraq “Azərbaycan gecəsi” təşkil olunub

Böyük Britaniyanın Mançester şəhərində ilk dəfə olaraq “Azərbaycan gecəsi” təşkil olunub. APA-nın məlumatına görə, gecənin təşkilatçıları Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclərin Beynəlxalq Forumu (ASAİF) və Azərbaycan Avropa Cəmiyyəti (TEAS) olub. Tədbirdə Böyük Britaniyada təhsil alan dünyanın müxtəlif ölkələrindən olan 100-dən çox tələbə, o cümlədən ali məktəblərin müəllim heyəti iştirak edib. Bununla yanaşı Böyük Britaniyanın digər şəhərlərindən də tədbirə maraq böyük olub. Tədbir dünyanın 111 ölkəsindən olan 3500 nəfər əcnəbi tələbəni özündə birləşdirən “The İnternational Society” xeyriyyə təşkilatının qərargahının konfrans zalında baş tutub. Mədəniyyət gecəsi Azərbaycanın zəngin irsi dəyərlərinə, onun musiqisinə, rəqslərinə, mətbəxinə, təbiətinə və tarixinə həsr olunub. Üç saatdan çox davam edən tədbirin qonaqları Azərbaycan haqqında daha geniş məlumatlar əldə edib, milli şirniyyat və yeməklərimizdən dadıb, həmçinin milli rəqslərimizlə tanış olma, onları öyrənmə və müxtəlif hədiyyələr qazanma şansı əldə ediblər.

Azərbaycanın ləziz dolması və Gəncə paxlavası qonaqların xüsusi diqqətinə səbəb olub. Tədbirin ən çox maraq doğuran hissəsi rəqslər olub. Dörd tələbəmiz - Murad Nəsibov, Fərman Fərmanov, Elin Malikzadə və Emin Əhmədzadə milli rəqsi ifa etdikdən sonra bütün qonaqlar onlara qoşulub və tədbirin sonunda milli musiqimiz olan yallı səsləri altında qonaqlarla birlikdə rəqs ediblər. Bundan sonra Elin Malikzadə “Qubanın ağ alması” xalq mahnısını pianoda ifa edib. Azərbaycanlı gənclər Dağlıq Qarabağ münaqişəsi və Ermənistanın işğalçı mövqeyi haqqında tədbir iştirakçılarına ətraflı məlumat veriblər. Tədbirdə Böyük Britaniyadan olan qonaqlar da çıxış edib, Azərbaycan haqqında olan xoş fikirlərini tədbir iştirakçıları ilə bölüşüb və Azərbaycanı görmə istəklərini dilə gətiriblər. Tədbirin məntiqi sonu olaraq Mançesterdə ilk “Azərbaycan icması” yaradıldığı bəyan olunub. ASAİF bu çərçivədə növbəti tədbirləri Böyük Britaniyanın London, York və Liverpul şəhərlərində keçirməyi planlaşdırır.

18 noyabr 2010

Gürcüstanın Mədəniyyət və Tarixi Abidələrin Mühafizəsi Nazirliyində Ombudsman Aparatının nəzdindəki Milli azlıqlar üzrə Şurada təmsil olunan qeyri-hökumət təşkilatları nümayəndələri ilə görüş keçirilib

Gürcüstanın Mədəniyyət və Tarixi Abidələrin Mühafizəsi Nazirliyində Ombudsman Aparatının nəzdindəki Milli azlıqlar üzrə Şurada təmsil olunan qeyri-hökumət təşkilatları nümayəndələri ilə görüş keçirilib. Bu barədə APA-ya Milli azlıqların hüquqlarının müdafiəsi üzrə Monitorinq Qrupundan məlumat verilib. Görüş Ombudsman Aparatı nəzdində Tolerantlıq şurası tərəfindən təşkil olunub. Milli azlıqların hüquqlarının müdafiəsi üzrə Monitorinq Qrupunun təmsilçisi Zemfira Əzizbəyova Mədəniyyət və Tarixi Abidələrin Mühafizəsi Nazirliyinin nümayəndəsinə Gürcüstanda etnik azərbaycanlıların kompakt yaşadığı yerlərdə fəaliyyət göstərən və əsrdən çox yaşı olan məscidlərin ölkənin tarixi irs siyahısına salınması ilə bağlı 18 müraciət təqdim edib. Müraciətə cavab olaraq nazirlik nümayəndələri araşdırma aparacaqlarını və müraciətin yerinə yetirilməsi imkanlarını nəzərdən keçirəcəklərini bildiriblər. Milli azlıqların hüquqlarının müdafiəsi üzrə Monitorinq Qrupunun təmsilçiləri həmçinin qeyd ediblər ki, hazırda milli azlıq nümayəndələrinin Gürcüstanın vətəndaş cəmiyyətinə inteqrasiya prosesinin sürətləndirilməsi üçün Mədəniyyət Nazirliyinin üzərinə böyük məsuliyyət düşür. Görüşdə bildirilib ki, Tbilisidə Erməni Dram Teatrında təmir-bərpa işləri aparılsa da, təəssüf ki, təmirə ehtiyacı olan Azərbaycan Dram Teatrında bu cür işlər həyata keçirilmir.

Nazirlik nümayəndələri təəssüflə qeyd ediblər ki, teatrda təmir işlərini aparılmaması teatrın binasında qeyri-qanuni məskunlaşan insanların oranı tərk etmək istəməməsi ilə bağlıdır. Qeyd edək ki, hazırda Gürcüstanda təxminən 200 məscid var, lakin onlardan heç birinin rəsmi statusu və dövlət qeydiyyatı yoxdur. Gürcüstanın Mədəniyyət və Tarixi Abidələrin Mühafizəsi Nazirliyində Ombudsman Aparatının nəzdindəki Milli azlıqlar üzrə Şurada təmsil olunan qeyri-hökumət təşkilatları nümayəndələri ilə görüş keçirilib. Bu barədə APA-ya Milli azlıqların hüquqlarının müdafiəsi üzrə Monitorinq Qrupundan məlumat verilib. Görüş Ombudsman Aparatı nəzdində Tolerantlıq şurası tərəfindən təşkil olunub. Milli azlıqların hüquqlarının müdafiəsi üzrə Monitorinq Qrupunun təmsilçisi Zemfira Əzizbəyova Mədəniyyət və Tarixi Abidələrin Mühafizəsi Nazirliyinin nümayəndəsinə Gürcüstanda etnik azərbaycanlıların kompakt yaşadığı yerlərdə fəaliyyət göstərən və əsrdən çox yaşı olan məscidlərin ölkənin tarixi irs siyahısına salınması ilə bağlı 18 müraciət təqdim edib. Müraciətə cavab olaraq nazirlik nümayəndələri araşdırma aparacaqlarını və müraciətin yerinə yetirilməsi imkanlarını nəzərdən keçirəcəklərini bildiriblər.

Milli azlıqların hüquqlarının müdafiəsi üzrə Monitorinq Qrupunun təmsilçiləri həmçinin qeyd ediblər ki, hazırda milli azlıq nümayəndələrinin Gürcüstanın vətəndaş cəmiyyətinə inteqrasiya prosesinin sürətləndirilməsi üçün Mədəniyyət Nazirliyinin üzərinə böyük məsuliyyət düşür. Görüşdə bildirilib ki, Tbilisidə Erməni Dram Teatrında təmir-bərpa işləri aparılsa da, təəssüf ki, təmirə ehtiyacı olan Azərbaycan Dram Teatrında bu cür işlər həyata keçirilmir. Nazirlik nümayəndələri təəssüflə qeyd ediblər ki, teatrda təmir işlərini aparılmaması teatrın binasında qeyri-qanuni məskunlaşan insanların oranı tərk etmək istəməməsi ilə bağlıdır. Qeyd edək ki, hazırda Gürcüstanda təxminən 200 məscid var, lakin onlardan heç birinin rəsmi statusu və dövlət qeydiyyatı yoxdur.

18 noyabr 2010

Koreya Xarici Dillər Universitətində "Türk və Azərbaycan dilləri fakültəsi"nin təşkilatçılığı ilə tələbə və məzunlar üçün "Homecoming Day'' adlı tədbir keçirilib

Noyabr 19-da Koreya Xarici Dillər Universitətində "Türk və Azərbaycan dilləri fakültəsi"nin təşkilatçılığı ilə tələbə və məzunlar üçün "Homecoming Day'' adlı tədbir keçirilib. Tədbirdə "Türk və Azərbayca dilləri fakültəsi"nin dekanı Oh Chong Jin çıxış edərək fakültə haqqında məlumat verib və hər il fakültədə təhsil alan tələbələrin sayının artdığını bildirib. Çıxışlardan sonra tələbələrin ifasında konsert proqramı təqdim olunub. BUTA Azərbaycan–Koreya Tələbə Təşkilatının Koreya Xarici Dillər Universitetində fəaliyyət göstərən mədəniyyət dərnəyinin koreyalı tələbələri Azərbaycanın "Naz eləmə" milli rəqsi ilə çıxış ediblər. Milli rəqsimizi tədbir iştirakçıları maraqla qarşılayıblar. Tələbələrin çıxışından sonra dərnəyin rəhbəri Zaur Səfərov onlara Azərbaycanla bağlı hədiyyələr təqdim edib. Tədbirdə həmçinin qonaqlar koreyalı tələbələrin ifasında türk mahnıları da dinləyiblər.

19 noyabr 2010

“Azərbaycan-Macarıstan: mədəniyyətlərin dialoqu” seriyasından
V beynəlxalq elmi konfrans işə başlamışdır

Noyabrın 22-də Azərbaycanın Budapeştdəki səfirliyində “Azərbaycan-Macarıstan: mədəniyyətlərin dialoqu” seriyasından V beynəlxalq elmi konfrans işə başlamışdır. İclasda Azərbaycan, Macarıstan, Ukrayna, Türkiyə və Polşadan 50-dək alim iştirak edir. Konfrans Azərbaycanın Macarıstandakı səfirliyinin təşəbbüsü, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) və Macarıstan Elmlər Akademiyasının (MEA) iştirakı ilə hər il təşkil olunur. Konfrans iştirakçılarına təbrik nitqi ilə müraciət edən Azərbaycanın Macarıstandakı səfiri Vilayət Quliyev demişdir: ”Macarıstan və Azərbaycan arasında məsafəyə baxmayaraq, iki xalq həmişə bir-birinə qarşı yaxınlıq və doğmalıq hiss etmişdir. Artıq beşinci dəfə keçirilən illik elmi konfrans qardaş ölkələr arasında əlaqələrin möhkəmlənməsinə növbəti töhfədir”.

Sonra söz konfransın birinci iş gününün moderatorları – Avropa Folklor İnstitutunun direktoru Mixay Hoppala və AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktoru Ərtegin Salamzadəyə verilmişdir. Onlar 2006-cı ildən etibarən Azərbaycanın Macarıstandakı səfirliyində keçirilən ötən konfranslar barədə qısa məlumat verərək bildirmişlər ki, məruzəçilərin sayının artması hər il təşkil olunan bu tədbirə elmi ictimaiyyətin marağının artdığını göstərir. Səfirin elmi forumun iştirakçılarına ünvanlanan təbrikinə qoşulan moderatorlar ümidva r olduqlarını bildirmişlər ki, konfransın işi səmərəli, çıxışlar isə maraqlı və orijinal olacaqdır. Naxçıvan Dövlət Universitetinin rektoru, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli konfrans iştirakçılarını salamlayaraq, Azərbaycan səfirliyinə rəmzi hədiyyə təqdim etmişdir. Konfrans 4 gün davam edəcəkdir. Birinci gün etnologiya, arxeologiya və folklor, ikinci gün ədəbiyyat və dilçilik, üçüncü gün tarix və etnologiya, dördüncü gün isə iqtisadiyyat və hüquq məsələləri müzakirə ediləcəkdir.

22 noyabr 2010

Frankfurtda Dünya Azərbaycanlı Gənclərin I Konqresi keçiriləcək
Tədbirdə Dünya Azərbaycanlı Gənclər Birliyinin yaradılması Planlaşdırılır
Konqres çərçivəsində "Virtual həftəsonu məktəbi"nin təqdimatı olacaq

Bu il noyabrın 27-28-də Almaniyanın Frankfurt şəhərində keçiriləcək Dünya Azərbaycanlı Gənclərin I Konqresinə hazırlıqlar başa çatmaq üzrədir. Tədbiri Diasporla İş üzrə Dövlət Komitəsi Gənclər və İdman Nazirliyi ilə birgə təşkil edəcək. Tədbir Azərbaycan Respublikası prezidentinin təsdiqlədiyi "Azərbaycan Gəncliyi Dövlət Proqramı"na uyğun olaraq keçiriləcək. Konqresdə Azərbaycan dövlət və hökumət nümayəndələrindən Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun, Gənclər və İdman naziri Azad Rəhimovun, millət vəkillərinin, Nazirlər Kabinetinin əməkdaşının, Azərbaycan Respublikasının Rusiya, Fransa, Avstriya, Almaniya, Böyük Britaniya, İsveçrə və Türkiyədəki fövqəladə və səlahiyyətli səfirlərinin, ölkəmizin Avropa Şurası, TürkPA, İKT Gənclər Forumundakı nümayəndələrinin, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi təmsilçilərinin iştirakı gözlənilir. Tədbirə dünyanın müxtəlif ölkələrindən 115 azərbaycanlı gənc, təxminən 40 diaspor təşkilatının rəhbərləri, Azərbaycanda fəaliyyət göstərən bir sıra gənclər təşkilatlarının rəhbərləri, eləcə də xaricdə təhsil alan tələbələr, eyni zamanda Almaniyada təhsil alan 40-dək azərbaycanlı tələbə və kütləvi informasiya vasitələrinin nümayəndələri qatılacaq. Bununla yanaşı, konqresə Rusiya Azərbaycanlı Gənclər Təşkilatının-RAGT-nin (AMOR) böyük bir nümayəndə heyətilə qatılması nəzərdə tutulub.

Dünya Azərbaycanlı Gənclərin I Konqresinin təşkili xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuğu işinə cəlb olunması, ictimai-siyasi fəallığının artırılması, tarixi Vətənlə əlaqələrinin möhkəmləndirilməsi məqsədinə xidmət edir. İkigünlük tədbirin açılışı "The Westin Grand" otelində olacaq. Konqresin işi dörd paneldən ibarətdir. "Azərbaycan həqiqətlərinin təbliği və diaspor quruculuğunda gəncliyin rolu" adlı ilk panelin aparıcısı Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının sədri, Milli Məclisin deputatı Fuad Muradov olacaq. Bu paneldə Türkiyə Azərbaycan Dərnəyinin sədri, Türkiyə Strateji Araşdırmalar Mərkəzinin (TÜRKSAM) başqanı Sinan Oğan "Gəncliyin diaspor quruculuğu və lobbiçilik fəaliyyətində rolu və yeri", "Bizim Nəsil" Gənclərin Regional İnkişaf Assosiasiyasının sədri Nurəddin Mehdiyev "Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və zəngin milli-mədəni irsimizin təbliğində xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin yeri", Azərbaycan Diplomatiya Akademiyasının icraçı dekanı Fariz İsmayılzadə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Azərbaycan gəncliyi", Böyük Britaniyanın York Universitetinin məzunu Səbuhi Rzayev "Xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi, onların tarixi Vətənə bağlılığının möhkəmləndirilməsi", Amerika Azərbaycanlıları Şurasının prezidenti, Amerika Azərbaycanlıları Şəbəkəsi "USAN"ın Los-Anceles və Kaliforniya regionu üzrə icraçı direktoru Cavid Hüseynov "Azərbaycan həqiqətlərinin təbliği, diaspor təşkilatları arasında qarşılıqlı əməkdaşlığın inkişafı və beynəlxalq əlaqələrinin genişləndirilməsi sahəsində müasir informasiya texnologiyalarının tətbiqi: mövcud təcrübə və gələcək perspektivlər" mövzularında məruzələr təqdim edəcəklər. Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun baş katibi Elşad İsgəndərovun aparacağı ikinci panel isə "Mədəniyyətlərarası dialoqun inkişafında gəncliyin rolu" adlanacaq.

Bu paneldə TürkPA-nın baş katibi Ramil Həsənov "Gənc siyasətçilərin Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafında yeri və rolu", Rusiya Azərbaycanlı Gənclər Təşkilatının təmsilçisi, Rusiya Gömrük Akademiyasının tələbəsi Fərid Həsənov "Azərbaycanın Avropaya inteqrasiyası prosesində ictimai dünyagörüşün uzlaşdırılması və milli- mənəvi dəyərlərin qorunması problemlərinə müasir gəncliyin baxışı", "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin icraçı direktoru Şahin Seyidzadə "Mədəniyyətlərarası dialoqun inkişafı, mədəni-etnik müxtəlifliyin təbliği problemləri və müasir Azərbaycan gəncliyi", ABŞ-ın Kolumbiya və İllinoys universitetlərinin məzunu, qloballaşma məsələləri üzrə ekspert Nicat Məmmədli "Azərbaycan və qloballaşan dünyanın reallıqları gənclərin gözüylə" mövzusunda çıxışlar edəcəklər. Eyni zamanda ikinci hissədə Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın təşəbbüsüylə həyata keçirilən "Xocalıya ədalət" beynəlxalq kampaniyası haqqında da ətraflı məlumat veriləcək. Konqresin üçüncü paneli "Xaricdə yaşayan azərbaycanlı gənclərin cəmiyyətə inteqrasiyası" adlanacaq.

Avropa Azərbaycanlıları Cəmiyyətinin sədri Tale Heydərovun aparıcılıq edəcəyi bu hissədə Azərbaycan Gənclərinin Avro-Atlantika Təşkilatının sədri Ziya Qazıyev "Xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin cəmiyyətə inteqrasiyası sahəsində problemlər və onların həlli yolları", Dünya Türk Gəncləri Birliyinin sədri, millət vəkili Əkrəm Abdullayev "Azərbaycanlı gənclərin ictimai-siyasi həyatda fəal iştirakının təmin olunması sahəsində qarşıda duran vəzifələr", BMT-nin Bakı ofisinin şöbə müdiri Məzahir Əfəndiyev "Xaricdə fəaliyyət göstərən azərbaycanlı gənclər təşkilatlarının yerli ictimai və dövlət qurumları, siyasi partiyalar, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələrilə əlaqələri",

Almaniyanın Höttinqen Universitetinin doktorantı Vüsal Əliyev "Xaricdə yaşayan azərbaycanlı gənclərin lobbi quruculuğu prosesində iştirakı", Avropa Azərbaycanlıları Konqresi (AAK) İcraiyyə Komitəsinin üzvü, Norveç Azərbaycan Gənclər Assosiasiyasının (NAYO) sədri Ramil Əliyev "Vətəndaş cəmiyyətinin formalaşdırılmasında gənclər təşkilatlarının rolu" barədə çıxışlar səsləndirəcəklər.

"İrəli" İctimai Birliyinin sədri Ceyhun Osmanlının aparıcılıq edəcəyi "İnsan hüquq və azadlıqlarının müdafiəsi gənclər təşkilatlarının fəaliyyətlərində" adlı sonuncu paneldə isə "Xaricdə yaşayan azərbaycanlıların hüquq və azadlıqlarının qorunması sahəsində gənclər təşkilatlarının rolu", "Ermənistanın Azərbaycana təcavüzü nəticəsində azərbaycanlıların məruz qaldıhı hüquq pozuntuları hallarının beynəlxalq məhkəmələrə çıxarılması perspektivi gənclər təşkilatının fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi", "Azərbaycan gənclər təşkilatlarının insan hüquqlarının qorunması sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əlaqələrinin qurulması və inkişaf etdirilməsi perspektivləri", "Vətəndaş cəmiyyətinin formalaşdırılmasında gənclər təşkilatlarının rolu" mövzularında məruzələr təqdim olunacaq. Bu məruzələrlə Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclərin Beynəlxalq Forumunun sədri Orxan Əkbərov, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin əməkdaşı Vüqar Fətəliyev, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Şahin İsmayılov, Gürcüstan Azərbaycanlıları Konqresi nəzdində Gənclər Təşkilatının sədr müavini, "Gürcüstan Azərbaycanlıları" qəzetinin baş redaktoru Ramilə Hüseynova çıxış edəcəklər. Bundan əlavə, tədbirdə Dünya Azərbaycanlı Gənclər Birliyinin (UWAY- The Union of World Azerbaijani Youth) yaradılması ideyası müzakirə ediləcək. Konqresin sonunda yekun sənədlər qəbul olunacaq.

Eyni zamanda konqres çərçivəsində "Virtual həftəsonu məktəbi"nin təqdimatı olacaq. Mərasim tədbirin ikinci günü baş tutacaq. Bu yeni layihə barədə iştirakçılara və qonaqlara AMEA-nın İnformasiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Rasim Əliquliyev məlumat verəcək. Layihənin məqsədi xarici ölkələrdə yaşayan azərbaycanlı uşaqlara və gənclərə müasir informasiya texnologiyaları vasitəsilə ana dili, Azərbaycan tarixi, mədəniyyəti və coğrafiyasının tədris edilməsi, soydaşlarımızın milli ruhda tərbiyə olunmasına xidmət göstərməkdir. "Virtual həftəsonu məktəbi" xarici ölkələrdə yaşayan və Azərbaycan haqqında yetərli bilgisi olmayan hər bir azərbaycanlı gəncə virtual məkanın imkanlarından istifadə edərək ana dilini öyrənmək, doğma Vətənin tarixini, coğrafiyasını, ədəbiyyatını və mədəniyyətini mənimsəmək imkanı yaradır. Burada bir neçə istiqamət üzrə məlumat əldə etmək mümkündür. "Ana dili" bölməsində Azərbaycan türkcəsinin qrammatikası, fonetika, leksika, morfologiya, köməkçi nitq hissələri, sintaksis dərsləri yerləşdirilib.

Burada Azərbaycan türkcəsinin qanunauyğunluqları barədə ətraflı məlumat əldə etmək olar. Bölmədə hər bir mövzu ayrıca dərs kimi yerləşdirilib. "Azərbaycan coğrafiyası" bölməsində Azərbaycanın fiziki və iqtisadi coğrafiyası barədə məlumatlar öz əksini tapıb. Burada Azərbaycanın relyefi, flora və faunası, iqlimi barədə ətraflı məlumat verilir. İqtisadi coğrafiya alt bölməsində Azərbaycanın iqtisadi regionları, onların ölkənin iqtisadi sistemində yeri və rolu, ölkəmizin təbii sərvətləri, sənaye və kənd təsərrüfatının inkişaf tempi barədə informasiyalar yer alıb. "Azərbaycan tarixi" bölməsi Azərbaycanın ən qədim dövrlərdən müasir günümüzə qədər olan tarixini əhatə edir. Bu bölmədə tarixi proseslər barədə xronoloji ardıcıllıqla məlumat verilib. Eyni zamanda "Azərbaycan tarixi" bölməsindən Azərbaycan ərazisində yaranmış dövlətlər, onların taleyi, xalqımızın görkəmli tarixi şəxsiyyətləri haqqında zəruri məlumatları əldə etmək mümkündür.

Qeyd edək ki, bu bölmə digər bölmələrdən daha genişdir və burada əyani vəsaitlərdən geniş istifadə edilib. "Azərbaycan ədəbiyyatı" bölməsində Azərbaycanın yazılı və şifahi ədəbiyyatı, xalqımızın əsrarəngiz ədəbi nümunələri, dünya miqyasında şöhrət qazanmış görkəmli şair və yazıçıların əsərləri, klassik ədəbiyyatımızın korifeyləri, onların həyat və yaradıcılığı barədə məlumat yerləşdirilib. Bundan əlavə, bölmədə şifahi xalq ədəbiyyatının ən sanballı nümunələrilə də tanış olmaq mümkündür. Layihənin üstünlüyü ondadır ki, burada mövzuları video və audio vasitələrdən istifadə edərək mənimsəmək imkanı var. Eyni zamanda mövzulara uyğun əyani vəsaitlər, foto, video və audio materiallar yerləşdirilib. Saytda müvafiq mövzulara dair vebsaytlara keçidlər də verilib. Semnebi optimistdir

Elxan Şahinoğlu: "Astana görüşü ərəfəsində tərəfləri mülayimləşdirməyə çalışırlar"

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebi Bakıya dünən başlanan səfəri zamanı bildirib ki, Qarabağ nizamlanmasında müəyyən sürətlənmənin gözlənildiyi, o cümlədən iki ölkə prezidentinin son görüşləri münaqişənin həlli prosesindəki mürəkkəb dövrün arxada qaldığını ehtimal etmək üçün əsas verir.

Turqut
“Xalq cəbhəsi ”.-2010.-23 noyabr.-N 210.-S.4.

Dünya Azərbaycanlı Gənclərinin I Konqresinin proqramı açıqlanıb

Noyabrın 27-28-də Almaniyanın Frankfurt şəhərində keçiriləcək Dünya Azərbaycanlı Gənclərinin I Konqresinə hazırlıqlar başa çatmaq üzrədir. Bu barədə "Mərkəz"ə Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) mətbuat xidmətindən məlumat verilib. Məlumata görə, konqresi İXİDK Gənclər və İdman Nazirliyi ilə birgə təşkil edəcək.

Azərbaycan Prezidentinin təsdiq etdiyi "Azərbaycan Gəncliyi Dövlət Proqramı"na uyğun olaraq keçiriləcək tədbirdə Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun, DİDK sədri Nazim İbrahimovun, gənclər və idman naziri Azad Rəhimovun, millət vəkillərinin, Nazirlər Kabineti əməkdaşının, Azərbaycanın Rusiya, Fransa, Avstriya, Almaniya, Böyük Britaniya, İsveçrə və Türkiyədəki səfirlərinin, Avropa Şurası, Türk-PA, İKT Gənclər Forumundakı nümayəndələrinin, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi təmsilçilərinin iştirakı gözlənilir.

Konqresə dünyanın müxtəlif ölkələrindən 115 azərbaycanlı gənc, təxminən 40 diaspor təşkilatının rəhbərləri, Azərbaycanda fəaliyyət göstərən bir sıra gənclər təşkilatlarının rəhbərləri, eləcə də xaricdə təhsil alan tələbələr, o cümlədən Almaniyada təhsil alan 40-dək azərbaycanlı tələbə və KİV nümayəndələri qatılacaq, Bununla yanaşı, konqresə Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının böyük nümayəndə heyəti ilə qatılması nəzərdə tutulub.

Qeyd edilir ki, Dünya Azərbaycanlı Gənclərinin I Konqresinin təşkili xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuğu işinə cəlb olunması, ictimai-siyasi fəallığının artırılması, tarixi Vətənlə əlaqələrinin möhkəmləndirilməsi məqsədinə xidmət edir.

İkigünlük tədbirin açılışı "The Westin Grand" hotelində olacaq. Konqresin işinin 4 paneldən ibarət olması nəzərdə tutulub. "Azərbaycan həqiqətlərinin təbliği və diaspor quruculuğunda gəncliyin rolu" adlı ilk panelin aparıcısı Azərbaycan Gənclər Təşkilatlan Milli Şurasının sədri, MiIli Məclisin deputatı Fuad Muradov olacaq. Bu paneldə Türkiyə-Azərbaycan Dərnəyinin sədri, Türkiyə Strateji Analizlər və Beynəlxalq Əlaqələr Mərkəzinin (TÜRKSAM) başqanı Sinan Oğan "Gəncliyin diaspor quruculuğu və lobbiçilik fəaliyyətində rolu və yeri", "Bizim Nəsil" Gənclərin Regional İnkişaf Assosiasiyasının sədri Nurəddin Mehdiyev "Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və zəngin milli-mədəni irsimizin təbliğində xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin yeri", Azərbaycan Diplomatiya Akademiyasının icraçı dekanı Fariz İsmayılzadə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Azərbaycan gəncliyi", Böyük Britaniyanın York Universitetinin məzunu Səbuhi Rzayev "Xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi, onların tarixi Vətənə bağlılığının möhkəmləndirilməsi", Amerika Azərbaycanlıları Şurasının prezidenti, Amerika Azərbaycanlıları Şəbəkəsi - USAN-ın Los-Anceles və Kaliforniya regionu üzrə icraçı direktoru Cavid Hüseynov "Azərbaycan həqiqətlərinin təbliği, diaspor təşkilatlan arasında qarşılıqlı əməkdaşlığın inkişafı və beynəlxalq əlaqələrinin genişləndirilməsi sahəsində müasir informasiya texnologiyalarının tətbiqi: mövcud təcrübə və gələcək perspektivlər" mövzularında məruzələr təqdim edəcəklər.

"Dialoq və Əməkdaşlıq Uğrunda" İslam Konfransı Gənclər Forumunun baş katibi Elşad İsgəndərovun aparacağı ikinci panel isə "Mədəniyyətlərarası dialoqun inkişafında gəncliyin rolu" adlanacaq. Bu paneldə Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibi Ramil Həsənov "Gənc siyasətçilərin Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafında yeri və rolu", Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının təmsilçisi, Rusiya Gömrük Akademiyasının tələbəsi Fərid Həsənov "Azərbaycanın Avropaya inteqrasiyası prosesində ictimai dünyagörüşün uzlaşdırılması və milli-mənəvi dəyərlərin qorunması problemlərinə müasir gəncliyin baxışı", "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin icraçı direktoru Şahin Seyidzadə "Mədəniyyətlərarası dialoqun inkişafı, mədəni-etnik müxtəlifliyin təbliği problemləri və müasir Azərbaycan gəncliyi", ABŞ-ın Kolumbiya və İllinoys universitetlərinin məzunu, qloballaşma məsələləri üzrə ekspert Nicat Məmmədli "Azərbaycan və qloballaşan dünyanın reallıqları - gənclərin gözü ilə" mövzusunda çıxışlar edəcəklər.

İkinci hissədə, həmçinin, "Dialoq və Əməkdaşlıq Uğrunda" İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət" beynəlxalq kampaniyası haqqında da ətraflı məlumat veriləcək. Konqresin üçüncü paneli "Xaricdə yaşayan azərbaycanlı gənclərin cəmiyyətə inteqrasiyasi" adlanacaq.

Bu panelə Avropa Azərbaycanlıları Cəmiyyətinin sədri Tale Heydərov aparıcılıq edəcək. "İrəli" İctimai Birliyinin sədri Ceyhun Osmanlının aparıcılıq edəcəyi "İnsan hüquq və azadlıqlarının müdafiəsi gənclər təşkilatlarının fəaliyyətində" adlı sonuncu paneldə isə "Xaricdə yaşayan azərbaycanlıların hüquq və azadlıqlarının qorunması sahəsində gənclər təşkilatlarının rolu", "Ermənistanın Azərbaycana təcavüzü nəticəsində azərbaycanlıların məruz qaldığı hüquq pozuntuları hallarının beynəlxalq məhkəmələrə çıxarılması perspektivi gənclər təşkilatının fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi", "Azərbaycanlı gənclər təşkilatlarının insan hüquqlarının qorunması sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əlaqələrinin

qurulması və inkişaf etdirilməsi perspektivləri","Vətəndaş cəmiyyətinin formalaşdırılmasında gənclər təşkilatlarının rolu" mövzularında məruzələr təqdim olunacaq. Tədbirdə həmçinin, Dünya Azərbaycanlı Gənclər Birliyinin (UWAY - The Union of World Azerbaijani Youth) yaradılması ideyası müzakirə ediləcək. Konqresin sonunda yekun sənədlər qəbul olunacaq.

"Mərkəz". -2010.-23 noyabr.-N.213.-S.4.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki separatçı erməni rejiminin başçısı Bako Sahakiyanın Los-Ancelesə səfəri kütləvi etirazla qarşılanmışdır

Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki separatçı erməni rejiminin başçısı Bako Sahakiyanın Los-Ancelesə səfəri kütləvi etirazla qarşılanmışdır. Kaliforniya ştatının Azərbaycan və türk icmasının üzvləri noyabrın 19-da Sahakiyanın çıxışının nəzərdə tutulduğu "Pacific Club" qarşısında toplaşaraq erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarını zəbt etməsi, bu ərazilərdə yaşayan Azərbaycan mənşəli əhalini etnik təmizləməyə məruz qoyması, eləcə də ABŞ və beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyi və qərarlarını əks etdirən şüarlar səsləndirmiş, vərəqələr paylamışlar. Azərbaycan və türk icmasının bir neçə üzvü separatçı rejimin başçısının çıxışını dinləmişdir. AzərTAc-ın müxbirinin Azərbaycan Amerika Şurasından aldığı məlumata görə, Bako Sahakiyanı erməni diaspor təşkilatlarına təqdim edən Ermənistanın Los-Ancelesdəki baş konsulu Qriqor Hovanesyan qondarma "Dağlıq Qarabağ Respublikası"nın öz müqəddəratını həll etmək yolunda əldə etdiyi "nailiyyətlərindən" danışmışdır. Sahakiyan isə Dağlıq Qarabağın müstəqil gələcəyi üçün də yol açdığını demişdir.

O, Dağlıq Qarabağın erməni icmasının sülh danışıqlarında birbaşa iştirakının zəruriliyini bildirmiş, münaqişəyə hətta yeni–"Azərbaycan-Qarabağ" münaqişəsi adı vermişdir. Erməni tərəfinin həmişəki qeyri-konstruktiv arqumentləri və təhrif edilmiş faktlarını təkrarlayan Sahakiyan Dağlıq Qarabağın "heç vaxt Azərbaycanın tərkib hissəsi olmayacağı"nı iddia etmişdir. Lakin, Sahakiyanın bu güvənli yanaşması Azərbaycan və türk icmasından ona verilən sualları cavablandırarkən əriməyə başlamışdır. Xüsusilə də, Ermənistan prezidenti Serj Sarkisyanın ingilis jurnalisti ilə söhbətində Xocalı faciəsinə görə məsuliyyəti boynuna almasına münasibət bildirmək haqqında suala birbaşa cavab verməkdən boyun qaçırmışdır.

Azərbaycanın hərbi qüdrətinin artmasını şərh edəndə isə, separatçı rejimin başçısı ümumiyyətlə özünü itirmiş, təmsil etdiyi "Dağlıq Qarabağ Respublikası"nın adını unutmuş, müharibə olacağı təqdirdə "erməni silahlı qüvvələrinin" müdafiəyə hazır olacağını bildirmişdir. Qeyd edək ki, hər il olduğu kimi, bu il də Dağlıq Qarabağ separatçı rejiminin başçısının məqsədi Amerikada Şükranlıq bayramı zamanı erməni diaspor təşkilatları tərəfindən keçirilən telemarafonda iştirak etməkdir. Noyabrın 25-də yayımlanacaq 12 saatlıq telemarafonda Los-Ancelesdə fəaliyyət göstərən "Ermənistan Fondu" Dağlıq Qarabağın kəndlərində su və irriqasiya sistemlərinin təkmilləşdirilməsinə kömək məqsədi ilə ABŞ-da yaşayan ermənilərdən ianələr qəbul edəcəkdir. Ötənilki telemarafonda Şuşanın bərpası adı ilə 16 milyon ABŞ dolları məbləğində vəsait yığılmışdır.

23 noyabr 2010

BUTA Azərbaycan-Koreya Tələbə Təşkilatı Koreya universitetlərində "Odlar Yurdu" adlı Azərbaycanla bağlı silsilə prezentasiyalar keçirir

BUTA Azərbaycan-Koreya Tələbə Təşkilatı azərbaycanlı tələbələrin təhsil aldığı Koreya universitetlərində "Odlar Yurdu" adlı Azərbaycanla bağlı silsilə prezentasiyalar keçirir. Bu sıradan ilk tədbir noyabr;n 19-da Kyungpook Dövlət Universitetinin Sosial Elmlər fakültəsində təşkil olunub. Kyungpook Dövlət Universitetinin tələbəsi Gülçin Tağıyeva və təşkilatın digər üzvü Anar Muradov tədbirdə iştirak edən tələbə, müəllim heyətinə ölkəmizin qədim və müasir tarixi, incəsənəti, iqtisadiyyatı, milli sərvətləri, Dağlıq Qarabağ münaqişəsi haqqında geniş məlumat veriblər. İştirakçılara Azərbaycanla bağlı video çarxlar göstərilib və onlara ölkəmiz haqqında ingilis və koraya dillərində müxtəlif jurnal, kitabca, broşurlar paylanıb.

Tədbirdə çıxış edən Sosial elmlər fakültəsinin Professoru Lee Jong Tae tələbələrin bu təşəbbüsünü yüksək qiymətləndirib, onlara uğurlar arzulayıb. Sonda tədbir iştirakçılarını maraqlandıran Azərbaycanla bağlı suallar cavablandırılıb. BUTA AKTT-nin "Odlar Yurdu" sislsilə prezentasiyaları keçirməkdən əsas məqsədi ölkəmizi tanıtmaq, Koreyadakı azərbaycanlı tələbələrin ictimai fəallığını artırmaq və onların təşkilatın işində yaxından iştirakını təmin etməkdən ibarətdir.

23 noyabr 2010

Norveç Azərbaycanlıları Gənclər Təşkilatı (NAGT-NAYO) Azərbaycanın qədim və zəngin mədəni irsinə daxil olan aşıq sənətinin xaricdə təbliği istiqamətində növbəti layihəni həyata keçirib

Norveçdə fəaliyyət göstərən Norveç Azərbaycanlıları Gənclər Təşkilatı (NAGT-NAYO) Azərbaycanın qədim və zəngin mədəni irsinə daxil olan aşıq sənətinin xaricdə təbliği istiqamətində növbəti layihəni həyata keçirib. Əsasən norveçlilər və Norveçdə yaşayan əcnəbilər üçün nəzərdə tutulmuş bu layihə Oslo Universiteti ilə NAYO-nun əməkdaşlığı çərçivəsində həmin universitetin kitabxanasında keçirilib. Tədbirdə Oslo Universitetinin professor və müəllim heyəti, eyni zamanda norveçli və əcnəbi tələbələr iştirak ediblər. Norveç Konservatoriyasının tələbəsi olan həmyerlimiz Əhməd Mirzəyevin ifasında aşıq havalarımız və dünya klassik irsinin dəyərli nümunələri canlı olaraq səsləndirilib. Ə.Mirzəyevin ifasını tədbirə toplaşan əcənəbilər böyük maraqla qarşılayıblar. Aşıq musiqisini norveçlilərin də xüsusi diqqətinə səbəb olub. Aşıq sənətinin təbliğini nəzərdə tutan "Lunsj med Kultur" layihəsi çərçivəsində gerçəkləşən bu tədbirdə Azərbaycan haqqında kitab və suvenirlərin də nümayiş olunduğunu deyən NAYO-nun sədri Ramil Əliyev bildirib ki, şifahi xalq sənətimizin dəyərli nümunəsi olan aşıq musiqimizin YUNESKO-nun qeyri-maddi mədəni irsi siyahısına daxil edilməsi Azərbaycan mədəniyyətinin uğurudur. "İndi aşıq musiqimiz dünyada daha yaxşı tanınmağa başlayıb və layiqincə təbliğ olunur. Biz də diaspor təşkilatı olaraq xalqımızın bu nadir mədəni incisinin Avropada təbliğini həyata keçirmək məqsədi ilə silsilə layihələri reallaşdırırıq" deyən R.Əliyev əlavə edib ki, təşkilatın gələcək layihələrində də bu musiqinin yer almasına səygöstəriləcək.

Bu günlərdə öz ecazkarlığı ilə hər kəsi heyrətə gətirən Azərbaycan xalçasının da YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsinin Norveçdə yaşayan azərbaycanlıları sevindirdiyini deyən R.Əliyev qeyd edib ki, biz gələcək layihələrimizdən birini də bu sənət növünə həsr edəcəyik. Onun sözlərinə görə, bu dəfə keçirilən tədbirdə də Azərbaycan xalçasının kiçik ölçülü nümunələri sərgilənib və xalçaların rəngarəngliyi tədbiri daha da maraqli edib. NAYO-nun üzvü, Norveçdə musiqi təhsili alan Əhməd Mirzəyev isə bildirib ki, bir azərbaycanlı sənətçi olaraq milli musiqimizin Avropada təbliğindən qürur duyur. "Bu yaxınlarda Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Aşıqlar Birliyinin təşkilatçılığı ilə Azərbaycan 1-ci Beynəlxalq Aşıq Festivalı keçirilməsi məni çox sevindirdi.

Mən də bu layihəyə öz töhvəmi Norveçdə NAYO-nun təşəbbüsü ilə aşıq sənəti ilə bağlı keçirilən mədəni layihədə çıxışımla verməyə çalışdım. İstədim ki, istər piano, istərsə də sazla ifa etdiyim milli musiqilərimizi layiqincə səsləndirərək onların gözəlliyini və bənzərsizliyini əcnəbilərə çatdırım"-deyə Ə.Mirzəyev bildirib. O deyib ki, bir azərbaycanlı olaraq Norveçdə aşıq sənətinin daha geniş və əhatəli təbliği üçün konsert proqramı və konfrans keçirilməsini, Azərbaycandan da buraya aşıqlar dəvət edilməsini çox istərdim.

23 noyabr 2010

Yeni reallıqlar və inkişaf naminə həmrəylik

Gənclər Dünya Azərbaycanlı Gənclərinin Birinci Konqresindən nə gözləyir?

Diaspor üzvləri də Azərbaycanın elçiləridir. Sizin fəaliyyətinizdən çox şey asılıdır. Siz Azərbaycana dəstəksiniz, Azərbaycanın da hökuməti və dövləti sizə dəstəkdir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımız, xüsusilə də azərbaycanlı gənclər yaşadıqları cəmiyyətə uğurla inteqrasiya olunurlar. Dünyanın nüfuzlu universitetlərində təhsil alan azərbaycanlı gənclərin Avropa, Amerika və digər ölkələrdə fəaliyyətləri onların həm də fərqli cəmiyyətlərdə Azərbaycanı təmsil etmələri deməkdir. Çünki hər bir əcnəbi Azərbaycanı onların simasında tanıyır, bu ölkənin mədəniyyəti, milli dəyərləri haqqında fikirləri də məhz soydaşlarımızın fəaliyyəti əsasında formalaşır. Odur ki, xarici ölkələrə mütəmadi səfərlər edən və ölkəmizdən kənarda yaşayan gənclərimizin üzərinə bir sıra vəzifələr düşür.

Bu vəzifələr təkcə mənsub olduğun xalqın tarixi keçmişini, adət-ənənələrini, mədəniyyətini bilmək və onu tanıtmaqla bitmir. Bu sıraya azərbaycanlı gənclərin təşkilatlanması, yaşadıqları cəmiyyətə fəal şəkildə inteqrasiyası, müxtəlif qurumlarda təmsili, lobbiçilik və diaspor sahəsində fəallıq göstərməsi, lazımi anda ölkə və xalqın maraqları baxımından həmrəylik nümayiş etdirmələri, ölkəmizlə sıx əlaqələrin saxlanılması və sair daxildir.

Bu baxımdan bu ilin noyabrın 27-28-də Almaniyanın Frankfurt şəhərində keçiriləcək Dünya Azərbaycanlı Gənclərinin Birinci Konqresi xüsusi önəm kəsb edir. Azərbaycan dövlət və hökumət nümayəndələrinin, millət vəkillərinin, Nazirlər Kabinetinin əməkdaşının, Azərbaycan Respublikasının Rusiya, Fransa, Avstriya, Almaniya, Böyük Britaniya, İsveçrə və Türkiyədəki fövqəladə və səlahiyyətli səfirlərinin, ölkəmizin Avropa Şurası, TürkPA, İKT Gənclər Forumundakı nümayəndələrinin, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi təmsilçilərinin, respublikadakı gənclər təşkilatları rəhbərlərinin, xarici ölkələrdəki diaspor təşkilatları sədrlərinin və fəal gənclərin, eləcə də xaricdə təhsil alan tələbələrin iştirak edəcəyi tədbir Diasporla İş üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi ilə birgə təşkil edilir.

Məqsəd xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuğu işinə cəlb olunması, ictimai-siyasi fəallığının artırılması, Vətənlə əlaqələrinin möhkəmləndirilməsinə xidmət etməkdir. Bununla yanaşı, konqresə Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının - RAGT-nin qatılması da nəzərdə tutulub. Azərbaycan diasporunun mədəni həyatının inkişafında keyfiyyətcə yeni mərhələ hesab edilən və bir sıra əhəmiyyətli layihələr ilə seçilən RAGT Leyla Əliyevanın rəhbərliyi ilə Rusiyada yaşayan və təhsil alan gənclərin təşkilatlanmasında, onların Azərbaycan mədəniyyətinin, irsinin və ölkə həqiqətlərinin Rusiya ictimaiyyətinə çatdırılmasında mühüm addımlar atmaqdadır. RAGT-ın konqresdə bir qrup nümayəndə ilə təmsil edilməsi, onların öz təcrübələrini digər həmkarları ilə bölüşmələrinə zəmin yaradacağı gözlənilir. Konqresin artıq dünya birliyinə inteqrasiya edən azərbaycanlı gənclərin təşkilatlanması işinin gücləndirilməsi və onların bundan sonrakı dövrdə əlaqəli fəaliyyət göstərmələri üçün mexanizmlərin axtarılmasında vasitəçi olacağı da şübhəsizdir. Azərbaycanlı gənclərin ictimai həyatında mühüm əhəmiyyət daşıyan bu tədbir Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi "Azərbaycan Gəncliyi Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilir.

Konqresdə Azərbaycan həqiqətlərinin təbliği və diaspor quruculuğunda gənclərin fəaliyyəti, mədəniyyətlərarası dialoqun inkişafında gəncliyin rolu, xaricdə yaşayan azərbaycanlı gənclərin cəmiyyətə inteqrasiyası, gənclər təşkilatlarının fəaliyyətində insan hüquq və azadlıqlarının müdafiəsi və s. mövzular müzakirə olunacaq. Konqresin yekununda həmçinin Dünya Azərbaycanlı Gənclər Birliyinin yaradılması da nəzərdə tutulub. Bu fakt bir daha onu göstərir ki, Azərbaycan gəncləri harada yaşamalarından asılı olmayaraq, bundan sonra da fəaliyyətlərini həmrəylik şəraitində, vahid bir ideologiya və mərkəzləşmiş qurum əsasında quracaqlar. Cəmiyyətin aparıcı qüvvəsini təşkil edən gənclərin bu Konqresin onların bundan sonrakı fəaliyyətinin daha da gücləndirilməsinə təkan verəcəyinə ümidləri böyükdür. Bu baxımdan bu mühüm tədbirə qatılmağa hazırlaşan bir neçə təşkilatın nümayəndələrinin fikirlərini öyrəndik.

Gülsel Səfərova, Azərbaycanlı Gənclərin Avropaya İnteqrasiyası Təşkilatının sədri:

- Gənclərə münasibət və onlara qayğı Azərbaycan dövlətinin gənclər siyasətində öz əksini tapıb. Son zamanlar gənclərin cəmiyyətdə fəallığı, onların təşəbbüsləri artmaqdadır və gənclərlə çalışan qeyri-hökümət təşkilatlarının sayının artması da bunu göstərir. Biz Azərbaycanlı Gənclərin Avropaya İnteqrasiyası Təşkilatı olaraq, Avropa təsisatları, eyni zamanda, xaricdə yaşayan azərbaycanlı gənclərlə əlaqəli şəkildə çalışırıq.

Təşkilatımızın üzvlərinin bir çoxu Avropanın nüfuzlu universitetlərində təhsil alırlar. Həmin gənclər Azərbaycan tarixi, mədəniyyəti, dəyərlərini tanıtmaqla yanaşı, Azərbaycanın həqiqətlərinin çatdırılması baxımından fəallıq göstərirlər. Bu proses təxminən on beş ilə yaxındır ki, gedir. Çoxdan vaxt gəlib ki, bu fəal gəncləri ümumi məqsəd və amal uğrunda toplayıb, Azərbaycan reallıqlarını dünya ictimaiyyətinə daha yaxşı tanıdılması istiqamətində işlər aparılsın. Dünya Azərbaycanlı Gənclərinin Birinci Konqresi bu baxımdan çox önəmlidir. Düşünürəm ki, bu nüfuzlu tədbirdə vacib məsələlər müzakirə ediləcək, zəruri qərarlar qəbul ediləcək. Tədbirin əhəmiyyətli cəhəti odur ki, fəal gənclərimizin bu konqresdə toplanması bizə imkan verəcək ki, onlarla fikir mübadiləsi aparaq. Birgə, əlaqəli fəaliyyət göstərsək, biz daha çox uğurlara nail ola bilərik. Bu baxımdan düşünürəm ki, ən böyük vəzifələr gənclərin, QHT-lərin üzərinə düşür. Bizim də AGAT olaraq, öz təklif və fikirlərimiz var.

Anar Süleymanov, Azərbaycan Tələbələr Birliyinin idarə heyətinin sədri:

- Konqresin ən yüksək səviyyədə keçəcəyinə ümid edirəm. Bu təkcə ölkəmizdə fəaliyyət göstərən gənclər üçün deyil, həm də xaricdə yaşayan gənclərimiz üçün böyük əhəmiyyət daşıyır. Mənə elə gəlir ki, konqresin bir məqsədi də dövlətimizin ölkədən kənarda yaşayan gənclərin fəaliyyətinə diqqətin göstərilməsi və onlarla ölkəmizdə yaşayan gənclər arasında əlaqələrin səmərəli şəkildə qurulmasına şəraitin yaradılmasıdır. Azərbaycanlı gənclər olaraq, belə bir devizimiz var: "Biz birlikdə daha güclüyük. " Elə gənclər var ki, xaricdə təhsil alandan sonra elə həmin ölkədə qalıb karyeralarını qurmağa üstünlük verirlər. İstəyimiz və təklifimiz odur ki, həmin gənclər Avropada, Amerika və digər ölkələrdə təhsil alan tələbələrimizə bələdçilik etsinlər, onların yeni mühitə uyğunlaşmasına kömək etsinlər, tələbələrimizə qarşılaşdıqları problemlərin həllində yol göstərsinlər. Xaricdə təhsil alıb gəlmiş gənclərlə əcnəbi ölkələrdə oxumağa hazırlaşan tələbələr arasında dialoq yarada biləcək treninqlər həyata keçirməyi düşünürük. Əsas məqsəd odur ki, həmin gənclər yaşadıqları ölkənin təhsil sistemi, onun fərqli cəhətləri ilə bağlı ətraflı məlumat versinlər. Çalışırıq ki, tələbələrimiz nüfuzlu universitetlərdə beynəlxalq təcrübə keçsinlər. Bu yaxınlarda təşkilatımızla Doğu Akdeniz Universiteti arasında memorandum imzalandı, memoranduma əsasən tələbələrimiz orada güzəştli şərtlərlə oxuya biləcəklər. Konqresdə dünyanın müxtəlif dövlətlərində təhsil alan və fəaliyyət göstərən gənclərlə görüşəcək, onlarla fikir mübadiləsi aparacağıq. Əsas məqsədimiz harada yaşamağımızdan asılı olmayaraq, Azərbaycana xidmət etmək, onu beynəlxalq ictimaiyyətdə layiqincə təmsil etmək, bunun üçün daha effektli yollar axtarmaqdır. Xaricdə təhsil alan gənclərlə görüşümüzdə çalışacağıq ki, təşkilatımızın xaricdə də qurumlarını yaradaq.

Vüqar Yaqublu, Həkimlər və Təbib Tələbələr İctimai Birliyinin sədri:

- Azərbaycanlı gənclər hansı ölkədə yaşamalarından asılı olmayaraq, ürəkləri Vətənlə döyünür. Bunu Almaniyada Heydelberq Universitetinin azərbaycanlı məzunu kimi söyləyə bilərəm. Həmin universitetin tibb fakültəsini bitirmişəm. Xaricdə təhsil alan və yaşayan tələbələr dünyagörüş və adətlərin fərqli olduğu bir mühitə düşürlər. Mən Almaniyada oxuyanda azərbaycanlı tələbə yoldaşlarımızla tədbirlərdə, şənliklərdə alman mədəniyyəti ilə tanış olmaqla yanaşı, alman dostlarımıza da milli mədəniyyətimizi tanıdırdıq. Sevimli milli bayramımız olan Novruz şənliyinə dəvət etdiyimiz alman dostlarımız Azərbaycan mədəniyyəti ilə bağlı xoş fikirlərini bildirirdilər. Ölkəmizdən kənarda fəaliyyət göstərən soydaşlarımızın, diaspor üzvlərinin mütəmadi olaraq Dünya azərbaycanlılarının qurultaylarında toplanması və gələcək fəaliyyət istiqamətləri haqda müzakirələr aparmalarını təqdir edirəm. Sevindirici haldır ki, artıq təşkilatlanma prosesi ölkəmizdən kənarda yaşayan gənclərimiz arasında da başlanıb. Buna görə də Dünya Azərbaycanlı Gənclərinin ilk Konqresinin təşkilinin əhəmiyyətini xüsusi vurğulamaq istərdim. Təhsildən sonra karyerasını ölkəmizdən kənarda qurmağı planlaşdıran gənclərin Vətəndən uzaqda ölkəmizi layiqincə təmsil etmələri də zəruridir. Çünki onların Azərbaycanı dolğun şəkildə tanıtmaq işində uğur qazanmaq imkanları daha çoxdur. Dünya Azərbaycanlı Gənclər Birliyinin yaradılması ideyasına gəldikdə isə, bu təşəbbüsü dəstəkləyirəm. Belə bir qurumun yaranması istər ölkədaxili, istərsə də ölkədən kənarda fəaliyyət göstərən gənclərin fəaliyyətini əlaqələndirməkdə, əməkdaşlıq etməkdə və dünyanın müxtəlif bölgələrində yaşayan azərbaycanlı gənclərin Vətənlə əlaqələrinin möhkəmləndirilməsində mühüm addım olacaq. Prezident İlham Əliyevin Azərbaycan Gəncliyi Dövlət Proqramını təsdiq etməsi, daim fəal, istedadlı gənclərə diqqəti və bu sahədə görülən işlər dövlətimiz üçün gənclər siyasətinin prioritet olmasından xəbər verir. Ümid edirəm ki, bu Konqres faydalı müzakirələri, fikir mübadilələri ilə yadda qalacaq və növbəti illərdə də Konqreslərin keçirilməsi ənənə halını alacaq.

Vüsal Məmmədov, Almaniyanın Höttinqen Universitetinin beynəlxalq münasibətlər üzrə doktorantı:

- 2006-2008-ci illərdə Azərbaycan Gənclərinin Avropa Forumuna rəhbərlik etdiyim dövrlərdə Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında bir sıra layihələr həyata keçirmişik. Azərbaycanlı gənclər Fransa senatında, Almaniya bundestaqında, İngiltərə parlamentində ölkəmizlə həmin dövlətlər arasında Dostluq Komissiyalarının üzvləri ilə görüşlər keçirmiş, onların Azərbaycanla qarşılıqlı münasibətləri və gələcək perspektivlərini müzakirə etmişlər.

Xaricdəki diaspor təşkilatlarımızın ən çox fəallıq göstərən üzvləri məhz gənclərdir. Bu baxımdan bu konqresdən çox şeylər gözləyirəm. İnanıram ki, konqresdə diaspor sahəsində gənclərin imkanlarından düzgün istifadə edilməsi, onların bu işdə uğur qazanmaları üçün imkanlar qiymətləndiriləcək.

"Azərbaycan lobbiçiliyi və Azərbaycan gəncləri" mövzusunda çıxışım planlaşdırılır. Bu gün qloballaşan dünyada Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması üçün lobbiçilik fəaliyyətinə ehtiyac var. Dünyanın müxtəlif ölkələrində güclü Azərbaycan lobbisini yaratmaq zəruridir. Bu sahədə gənclərimizin fəal olmasını arzulayıram. Çalışmalıyıq ki, lobbi qurarkən Azərbaycanı sevən, dəstəkləyən nüfuzlu əcnəbi dostlar; siyasətçilər, ictimai xadimlər qazanaq, onların dəstəyindən də yararlanaq. Ümid edirəm ki, konqresdə istər gənclərimizin diaspor sahəsində fəallığı, istərsə də xaricdə yaşayan, təhsil alan gənclərimizin Azərbaycanla əlaqələrinin səmərəli qurulması və digər mövzularda maraqlı müzakirələrdə iştirak edəcəyik.

İnanıram ki, Dünya Azərbaycanlı Gənclərinin bu konqresi bizə bundan sonra daha həvəslə çalışmağımıza stimul verəcək.

Gənclərin düşüncələrindən belə qənaətə gəlmək olar ki, Dünya Azərbaycanlı Gənclərinin Birinci Konqresinin keçiriləcəyi Frankfurt şəhəri iki gün ərzində qızğın müzakirələrin obyektinə çevriləcək və gənclərimizin diaspor quruculuğunda fəallığının artırılmasına, xaricdə Azərbaycanın daha yüksək səviyyədə təmsil etmələrinə xidmət edəcək.

Əfsanə Bayramızı
“Xalq qəzeti ”.-2010.-25 noyabr.-N 258.-S.6.

«The Westin Grand» otelində Dünya Azərbaycanlı Gənclərin I Konqresi başlanıb

Bu gün Almaniyanın Frankfurt şəhərindəki «The Westin Grand» otelində Dünya Azərbaycanlı Gənclərin I Konqresi başlanıb. Konqresi Diasporla İş üzrə Dövlət Komitəsi Gənclər və İdman Nazirliyi ilə birgə təşkil edib. Tədbir Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi «Azərbaycan Gəncliyi Dövlət Proqramı»na uyğun olaraq keçirilir. Tədbirdə Azərbaycan dövlət və hökumət nümayəndələrindən Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov, Gənclər və İdman naziri Azad Rəhimov, Nazirlər Kabinetinin Elm, mədəniyyət, təhsil və sosial problemlər şöbəsi müdirinin müavini Quban Əmirov, Azərbaycan Respublikasının Almaniyadakı səfiri Pərviz Şahbazov, Avropa Şurası yanındakı Daimi nümayəndəliyimizin rəhbəri, səfir Arif Məmmədov, Azərbaycanın Niderland Krallığındakı səfiri Fuad İsgəndərov, Azərbaycanın İsveçrədəki səfiri Murad Nəcəfbəyli, İslam Konfransı Təşkilatı Gənclər Forumunun baş katibi Elşad İsgəndərov, TürkPA-nın baş katibi Ramil Həsənov, Türkiyədənin Frankfurtdakı baş konsulu İshan Sayqılı, Şimali Kipr Yaxın Doğu Universitetinin qurucu rektoru Suat Günsel, Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Rasim Əliquliyev və digər qonaqlar iştirak edirlər. Ümumilikdə tədbirdə Azərbaycandan 41 gənclər təşkilatının nümayəndəsi, dünyaın 23 ölkəsindən 131 gənclər təşkilatının nümayəndəsi, 25 ölkədən 41 diaspor təşkilatının rəhbəri iştirak edir. Toplantıya fəaliyyət göstərdiyi qısa müddət ərzində kifayət qədər böyük işlər görməyə müvəffəq olmuş Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı–RAGT (AMOR) 23 nəfərlik nümayəndə heyəti ilə qatılıb. Qeyd edək ki, Dünya Azərbaycanlı Gənclərinin I Konqresinin təşkili xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuğu işinə cəlb olunması, ictimai-siyasi fəallığının artırılması, tarixi Vətənlə əlaqələrinin möhkəmləndirilməsi məqsədinə xidmət edir.

Konqresi Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov açıb və bütün iştirakçıları salamlayıb. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra çıxış edən Dövlət Komitəsinin sədri Nazim İbrahimov bildirib kibu toplantıda xarici ölkələrdə yaşayan azərbaycanlı həmvətənlərin diaspor quruculuğu işinə cəlb olunması, ictimai-siyasi fəallarının artırılması, milli-mənəvi dəyərlərimizin qorunması və mədəni irsimizin təbliğində ,habelə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasıda gənclərin daha fəal iştirakı ilə bağlı bir sıra məsələlər müzakirə olunacaq. "Azərbaycan gəncliyinin daim ölkədə gedən ictimai-siyasi proseslərin aparıcı qüvvəsi olub, respublikamızın inkişafında mühüm rol oynayıb. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev gənclərə hər zaman xüsusi diqqət və qayğı ilə yanaşıb, yüksək intellekual səviyyəyə, müasir dünya görüşünə malik gənc nəslin yetişməsinə xüsusi önəm verib"-deyən Nazim İbrahimov əlavə edib ki, 1970-ci illərdə milli liderin təşəbbüsü ilə SSRİ-nin 50-dən artıq böyük şəhərlərinin 170-dən çox ali təhsil müəssisələrində15 mindən artıq azərbaycanlı gənc təhsil alıb. Bu gün Azərbaycan diasporunun ən fəal üzvləri elə həmin o gənclər təşkil edir. Dövlət Komitəsinin sədri bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev bu siyasətə sadiq qalaraq, gəncliyə həmişə böyük diqqət və qayğıyla yanaşır.

Dövlət başçısının imzaladığı «Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)», "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı", habelə gəncləri təhsil səviyyəsinin yüksədilməsi, sosial müdafiəsinin yaxşılaşdırılması sahəsində imzaladığı digər sənədlər bunun parlaq sübutudur. Dövlət Komitəsi sədrinin sözlərinə görə, xarici ölkələrdə təhsil alan və yaşayan azərbaycanlı gənclər təhsil aldıqları ölkələrdə müxtəlif dərnəklər və ictimai birliklər yaradır, Vətənimizin problemləri barəsində dünya ictimaiyyətində obyektiv təsəvvürlərin formalaşdırılması prosesində fəal iştirak edirlər. Azərbaycan diaspor təşkilatlarının 40-dan çoxunu məhz gənclər təsis edib. "Xaricdə yaşayan azərbaycanlı gənclərin təşkilatlanması və diaspor quruculuğu işinə qoşulması prosesi bü gün də davam edir. 2009-cu ilin aprelində Moskvada Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının təsis edilməsi Azərbaycan diasporunun və xaricdə yaşayan azərbaycanlı dhəmvətənlərimizin həyatında mühüm bir hadisə hesab olunub. Leyla xanım Əliyevanın sədrliyi ilə bu təşkilat qısa müddət ərzində Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırılması,gənclərin milli diaspor quruculuğu işinə cəlb olunması istiqamətində çox mühüm addımlar atıb" deyə Nazim İbrahimov bildirib.

DİDK sədri əlavə edib ki, bu gün xarici ölkələrdə təhsil alan azərbaycanlı gənclərin milli maraqlarımızın müdafiəsi, xalqımızın tarixi və müasir həyatı, ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, zəngin maddi irsimizin təbliği sahəsində uğurlu işlər həyata keçirməsi təqdirə layiq haldır.

Dünyanın müxtəlif regionlarında -Avropada, Amerikada, Asiyada, MDB məkanında fəaliyyət göstərən azərbaycanlı gənclət təşkilatı Xocalı soyqırımını yaşadıqları ölkələrin ictimaiyyətinə, beynəlxalq təşkilatlara, müxtəlif ölkələrin parlament və hökumət üzvlərinin, kütləvi informasiya vasitələrinin məlumatlandırılması, məqsədi ilə müxtəlif kampaniyalar təşkil edir, elmi-praktiki konfranslar, etiraz aksiyaları keçirir. Müasir informasiya texnologiyalarının imkanlarından istifadə edərək Ermənista-Azərbaycan,Dağlıq Qarabağ münaqişəsinin nəticələri haqqında əsil həqiqətləri bu barədə məhdud informasiyaya malik dövlət və siyasət adamlarına, jurnalistlərə eləcədə sadə vətəndaşlara çatdırmağa çalışırlar. Nazim İbrahimov onu da deyib ki, xaricdə təhsil alan azərbaycanlı gənclər xalqımızın zəngin maddi irsininin ən fəal təbliğatçılarıdırlar.

Ötən müddətdə azərbaycanlı gənclər müxtəlif ölkələrdə Azərbaycan mədəniyyətinin tanıdılması məqsədilə onlarla layihə həyata keçirib, tədbirlər təşkil ediblər. Fransa,Almaniya,Böyük Britaniya, İtaliya, ABŞ, Kanada, Rusiya Federasiyası,Yaponiya, Misir, Koreya və digər ölkələrdə azərbaycanlı gənclər təşkilatlarının təşkil etdiyi bu tədbirlər Azərbaycan mədəniyyətini, xalqımızı və ölkəmizi tanıtmaq üçün təsirli bir vasitə olduğunu və gənclərimizin bu vasitədən kifayət qədər uğurla faydalandığını təsdiqləyir.Nazim İbrahimovun sözlərinə görə, bu həm də o deməkdirki, müasir Azərbaycan gəncləri hansı ölkədə yaşamasından və hansı sahədə təhsil almasından asılı olmayaraq öz xalqının tarixini, mədəniyyətini,onun milli maraqlarının, sərhədləri barədə dəqiq və aydın təsəvvürə malikdir. Bu mühüm amil ölkəmizin gələcək və bu gələcəyin sahibləri olan gənclərimiz haqqında optimist düşünməyə əsas verir.

Görünür elə buna görə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan gəncliyinə böyük etimad bəslədiyini ifadə edərək deyib: «Mən əminəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Çünki bizim bu günki gəncliyimiz sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir. Mən əminəm ki, müstəqil Azərbaycanın gələcəyini qoruyub saxlaya bilən gənc nəsillər yetişir».

“Ötən müddət ərzində qazanılmış nailiyyətlər yüksək qiymətləndirməklə yanaşı, qeyd etməliyikki, xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı gənclər təşkilatlarının qarşısında həllini gözləyən bir sıra taleyüklü vəzifələr də dayanır. Xaricdə yaşayan azərbaycanlı gənclərin cəmiyyətə daha sıx inteqrasiyası, ictimai-siyasi fəallağının artırılması, müxtəlif ölkələrin dövlət orqanları, parlament və hökumət üzvləri, kütləvi informasiya vasitələri ilə əlaqələrin möhkəmləndirilməsi, nüfuzlu beynəlxalq yəşkilatlarla əməkdaşlığın qurulması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmsı sahəsində daha ciddi və daha konkret nəticələrin əldə olunması və digər sahələrdə görüləsi işlər çoxdur. Lakin gəncliyin bü günkü ruhu, proseslərə baxışı, intellektual potensialı deməyə əsas verir ki, gənc soydaşlarımız bu vəzifənin öhdəsindən uğurla gələcəklər. Dünya azərbaycanlı gənclərin I Konqresi də əslində bu inamın və etimadın bir təzahürüdür!”. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri belə deyib.

26 noyabr 2010

Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri Leyla Əliyevanın müraciəti

RAGT-nin sədri Leyla Əliyevanın Dünya Azərbaycanlı Gənclərinin I Konqresinə müraciətini qurumun idarə heyətinin üzvü Emin Haciyev səsləndirib. Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri Leyla Əliyevanın müraciətində deyilir:

"Əziz dostlar!

Bu gün siz mühüm bir hadisənin – Dunya Azərbaycanli Gəncləri I Konqresinin iştirakçılarısınız. Bu forumun əhəmiyyəti ondan ibarətdir ki, ilk dəfə olaraq Avropa, Amerika, dünyanın fərqli qitələrində və ölkələrində, Vətənin hüdudlarından uzaqlarda yaşayan gənc həmvətənlərimiz mənəvi birliyi daha dolğun hiss edə biləcəklər. Ümumi məqsədlərə nail olmaq əzmi ilə çalışan insanlarla tanış olmaq imkanı əldə edəcəklər. Yaşadığımız yerdən asılı olmayaraq bizim hamımızı ümumi vətənimiz Azərbaycana olan məhəbbət birləşdirir.

Frankfurtda keçirilən Dunya Azərbaycanli Gənclərinin I Konqresi həmvətənlərimiz arasında yalniz dostluq və işgüzar əlaqələrin yaranması üçün gözəl meydan deyil, həmçinin Vətənlə əlaqələrin möhkəmlənməsi, gənc insanların ictimai-siyasi fəallığının güclənməsi üçün unikal, nadir bir imkandır. Bundan əlavə, Kongres dünya miqyasında fəaliyyət göstərən Azərbaycan diasporu daxilində əlaqələrin formalaşması və güclənməsi üçün yeni qüvvələrin cəlb edilməsinə şərait yaradır. Azərbaycan dövlətinin bu məsələyə böyük önəm verməsi bizim üçün vacib dəstəkdir. Bu bir daha bizim doğru yolda olduğumuzu və bu yolla uğurla irəlilədiyimizi sübut edir.

Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı – AMOR rəsmi olaraq iki ilə yaxındır ki, fəaliyyət göstərir və bu müddət ərzində gənc həmvətənlərimizin təşəbbüslərinin geniş mənada dəstəklənməsinə çalışmışdır. AMOR öten dövrdə öz fealiyyet coğrafiyasını xeyli genişləndirmişdir. İndi bizim bölmələrimiz Rusiya Federasiyasının demək olar ki, bütün regionlarında yaradılıb. Tədbirlərimizin hamısı gənclərimizin birliyinə istiqametlenib, biz onlara təhsil almasına kömək edir, sağlam həyat tərzinin geniş yayılması, mədəni və tarixi dəyərlərimizə diqqətin artırılması, gənclərimizin ana dilimizi, ədəbiyyatımızı və milli ənənələrimizi öyrənmək istəyini dəstəkləyirik. Bunların hamısı olduqca vacibdir.

Dünyanın bir sıra ölkəsini təmsil edən yüzlərlə gəncin konqresdə iştirakı Azərbaycan gənclərinin həmyaşıdları ilə ünsiyyətdə olmasının vacibliyini bir daha sübut edir. Əminəm ki, toplanti istirakcilarinin hamısı istedadlı, kamil, parlaq və yaradıcı insanlardır. Sizin hamınız keyfiyyətli ali təhsil almaq üçün dünyanın nüfuzlu ali məktəblərində çalışır, qarşınıza ciddi məqsəd qoyaraq, ona nail olmaqdan çəkinmirsiniz. Bu isə o deməkdir ki, siz Azərbaycanın gələcəyinin inam və dayağısınız. Sizin gələcəyiniz isə - ölkəmizin gələcəyidir.
Əminəm ki, iştirakçısı olduğumuz gənclər kongresi çərçivəsində Azərbaycan Gənclərinin Dünya Birliyinin yaradılması bizim gənclər diasporunun möhkəmlənməsi yolunda növbəti və çox vacib addım olacaqdır. Qarşıda isə bizi bu yolda mühüm vəzifələr gözləyir. Sizə yeni-yeni uğurlar və kongresin işinə isə müvəffəqiyyətlər arzu edirəm!"

Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri Leyla Əliyevanın konqresə müraciəti oxunduqdan sonra TürkPA-nın baş katibi Ramil Həsənov, İKT Gənclər Forumunun baş katibi Elşad İsgəndərov, Türkiyənin Frankfurtdakı baş konsulu İlhan Sayqılı, Azərbaycanın Almaniyadakı səfiri Pərviz Şahbazov təbrik nitqi ilə çıxış edib, konqresin əhəmiyyəti barədə fikirlərini çatdırıblar.

Sonra Gənclər və İdman naziri Azad Rəhimov çıxış edib. "Bu gün biz xalqımız üçün önəmli olan bir gündə tarixi bir hadisənin iştirakçılarıyıq. Əminəm ki, Dünya Azərbaycanlı Gənclərinin I Konqresi Azərbaycanın zəngin ictimai – siyasi tarixinin layiqli səhifələrindən birinə çevriləcək. İnanıram ki, bu tarixi tədbirin iştirakçısı olmaq qismətini əldə etmiş hər bir şəxs ömür boyu bununla qürur hissi duyacaq və müasir tariximizdə üzərinə düşən məsuliyyəti düzgün dərk edəcək." deyə nazir bildirib.

Azad Rəhimov bildirib ki, zaman-zaman müstəqilliyindən məhrum edilən Azərbaycan xalqı bu gün artıq öz taleyinin sahibinə çevrilib. Tarixin gedişatı nəticəsində bütün dünyaya səpələnmiş azərbaycanlıların milli dəyərlərə əsaslanaraq birləşməsinə geniş imkanlar yaranıb. O əlavə edib ki. Indi Azərbaycan dövləti öz tarixinin şanlı səhifələrini yaşayır. Ulu öndər Heydər Əliyevin nüfuzu, mübarizliyi, əzimkarlığı və güclü iradəsi nəticəsində yaranan möhkəm sütünlar üzərində Azərbaycan dövləti inişaf etməkdədir.

"Bilirsiz ki, Ümummili Liderimiz gənclərə daim xüsusi diqqət və qayğı göstərib. Ulu öndərmizin təşəbbüsü və rəhbərliyi altında reallaşan dövlət quruculuğu strategiyasının əsas istiqamətlərindən biri məhz gənclər siyasəti olub. Mənəvi cəhətdən saf, geniş dünyagörüşünə malik, fiziki cəhətdən sağlam, intellektual, milli dəyərlərə sadiq, vətənpərvər gənc nəslin tərbiyə edilməsi - milli gənclər siyasətimizin əsas vəzifəsi kimi qoyulub.

Milli liderimiz daim öz çıxışlarında gənclərin ictimai fəallığına şəraitin yaradılması və gənc peşəkarların müxtəlif məsul vəzifələrə irəli çəkilməsini aidiyyəti dövlət qurumları qarşısında vəzifə kimi qoyub". Azad Rəhimov belə deyib. Gənclər və idman naziri qeyd edib ki, bu illər ərzində gənclərin inkişafına yönəlmiş normativ-hüquqi baza formalaşdırılmış, bir sıra dövlət proqramları icra edilib. 200-dən artıq qeyri-hökumət gənclər təşkilatları yaranıb.

Gənclər bu təşkilatlarda birləşərək ölkəmizdə vətəndaş cəmiyyətinin qurulmasında fəal iştirak edir və müxtəlif sosial və mədəni layihələr həyata keçirirlər. Ümumilikdə, son 5 il ərzində hökumət tərəfindən gənclər təşkilatlarının 350-dən artıq layihəsinin dəstəklənmsəi üçün dövlət büdcəsindən 3.800.000 manat vəsait ayrılıb. "Qeyd edim ki, gənclərin ölkənin dövlət idarəetmə və seçkili orqanlarında təmsilçiliyi ildən-ilə artmaqdadır. Hazırda bələdiyyə üzvlərinin təxminən 30%-ə yaxını gənclərdir, onlardan 326-sı bələdiyyə sədridir. Gənclərlə aparılan iş 2003-cü ildən yeni mərhələyə qədəm qoyub. Təməli Ulu Öndərmiz tərəfindən qoyulan gənclər siyasəti bu gün Azərbaycan Prezidenti İlham Əliyevin müdrik rəhbərliyi altında həyata keçirilən dövlət siyasətinin əsas tərkib hissələrindən biridir. Gənclər və İdman nazirinin sözlərinə görə, indi Azərbaycan gəncləri 30-a yaxın nüfuzlu beynəlxalq təşkilatlarda təmsil olunur, bir neçə beynəlxalq gənclər platformalarının yaradılması təşəbbüsü ilə çıxış edirlər. Misal olaraq İslam Konfransı Təşkilatının Gənclər Forumunu, GUAM ölkələri Gənclər Forumunu və digərlərini qeyd etmək olar. Son dörd ildə Azərbaycan Avropa Gənclər Fondu tərəfindən ayrılmış qrantları əldə edən gənclər təşkilatlarının sayına görə Avropa miqyasında lider ölkədir. Son beş il ərzində 8 mindən artıq gənc (buraya müxtəlif ölkələrdən gələn gənclər və Azərbaycanda müxtəlif ölkələrə gedən gənclər aiddir) Gənclər və İdman Nazirliyinin xətti ilə keçirilən layihələr çərçivəsində beynəlxalq mübadilələrdə iştirak ediblər.

"Son illər ərzində xaricdə təhsil alan azərbaycanlı gənclərinin diaspor və lobbiçilik sahəsində fəaliyyəti güclənməkdədir. Bu işdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın xüsusi rolu var. Proqram çərçivəsində hər il Azərbaycan gəncləri müxtəlif ölkələrin nüfüzlu universitetlərində təhsil almağa göndərilirlər. Bu proqramın icrası Vətənimizin gələcək intellektual potensialının möhkəmlənməsinə, elmin və biznesin, eyni zamanda mədəniyyətin inkişafında gənclərin iştirakına yeni imkanlar yaradır". Sitat Azad Rəhimovdandır. Nazirin sözlərinə görə, təbii ki, bu cür şərait gənclik enerjisinin səmərəli istiqamətə yönləndirilməsini və mədəniyyətlərarası dialoqun formalaşmasını zəruri edir. Çünki, əldə edilən bilik və bacarığın düzgün və lazımi şəkildə tətbiqi də vacib məsələdir. Bir sıra ölkələrdə xaricdə yaşayan və təhsil alan azərbaycanlı gəncləri birləşdirən qeyri hökumət gənclər təşkilatları yaranmaqdadır. "Bunların içərisində Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın sədrlik etdiyi bu təşkilat Rusiyada fəaliyyət göstərən azərbaycanlı gənclər klublarını və təşəbbüs qruplarını birləşdirən və Rusiya Federasiyanın bütün subyektlərində təmsil olunan vahid bir platformaya çevrilib" deyən Azad Rəhimov əlavə edib ki, təşkilatın keçirdiyi layihələr Azərbaycanın mədəni irsinin və həqiqətlərinin Rusiyada təbliğ edilməsinə və iki ölkə gəncləri arasında əlaqələrin gücləndirilməsinə xidmət edir. Son bir neçə il ərzində Almaniyada, Fransada, Yunanıstanda, Avstriyada, Belçikada, Böyük Britaniyada və digər ölkələrdə xaricdə təhsil alan azərbaycanlı gənclərin forumları keçirilib. Forumlarda həmin ölkələrin parlament üzvləri, siyasət və iş adamları iştirak ediblər. Bununla yanaşı, ənənəvi olaraq hər yay tətili zamanı Azərbaycanda xaricdə təhsil alan azərbaycanlı gənclərin forumları keçirilir.

Artıq 8 forum keçirilib və bu il avqust ayında Xaricdə Təhsil alan və Məzun Olmuş Azərbaycanlı Tələbələrin Beynəlxalq Forumu adlı təşkilat təsis edilib. Azad Rəhimov onu da deiyb ki, XXI əsr qloballaşma ilə yanaşı digər bir çağırışı da gündəmə gətirib – güclü rəqabət. Bu gün güclü və artan rəqabət gənclərin biliyinin, bacarığının, təşəbbüsünün, iradəsinin çox yüksək olmasını tələb edir. Bütün bu keyfiyyətlər o qədər möhkəm və rəqabətli olmalıdır ki, gələcəkdə siz nəinki Azərbaycanın iqtisadiyyatına, elminə, mədəniyyətinə yeni biliklər və bacarıqlar tətbiq edəsiniz. Məhz bu səbəbdən dövlətimiz ölkəmizin təbii sərvəti olan neft və qazdan əldə olunan kapitalın ən səmərəli xərclər istiqamətlərindən biri - gənclər müəyyən edilib. Nazir belə deyib. Gənclər və İdman nazirinin sözlərinə görə, gənclər Azərbaycanın ərazi bütövlüyünün bərpası və Dağlıq Qarabağ probleminin ədalətli həlli istiqamətində fəaliyyətlərini daha da artırmalıdırlar. Bu istiqamətdə bütün səylər səfərbər edilməlidir. Belə ki, gənclər yaşadıqları ölkələrdə Azərbaycan haqqında həqiqətləri olduğu kimi təqdim etməli, bunun üçün ən effektiv təqdimat formalarından istifadə etməli və uzunmüddətli ictimai layihələrin həyata keçirilməsi istiqamətində təşəbbüslərini artırmalıdırlar. Azad Rəhimov çıxışını bu fikirlərlə bitirib: "Düşünürəm ki, Dünya Azərbaycanlı Gənclərinin I Konqresi gənclərin Azərbaycan naminə fəaliyyətini daha da əlaqələndirilməsinə, gücləndirilməsinə və təşkilatlanmasına təkan verəcək. İnanıram ki, aparılacaq müzakirələr və qarşılıqlı fikir mübadilələri hər birimizi yeni ideyalarla zəngiləşdirəcək və Dünya Azərbaycanlı Gənclərinin I Konqresinin nəticələri gələcək üçün faydalı olacaq. Prezident Administrasiyasi ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov öz çıxışında Azərbaycan dövlətinin gənclər siyasəti barədə geniş məlumat verib. O bildirib ki, dünyanın bütün xalqları və dövlətləri hər zaman gənclərlə bağlı xüsusi siyasət yürüdüb. "Gənclərinin qayğısına qalmayan dövlətin gələcəyi yoxdur" misalını xatırladan Əli Həsənov deiyb ki, hər bir dövlətin əsas missiyalarından biri gələcəyin etibar ediləcəyi, estafetin ötürüləcəyi nəsli hazırlamaqdır. "Diaspor siyasətimizin əsas istiqamətlərindən biri dünyada yaşayan azərbaycanlı gənclərlə iş, gənclər siyasətimizin əsas istiqaməti ölkəmizdə gənclərlə səmərəli və əlaqələndirilmiş fəaliyyətin qurulması, təhsil siyasətimizn əsas hissəsi isə yeni, saglam, güvənilən, müasir düşüncəli, intellektli, yüksək səviyyəli təhsili olan gənclərin yetişdirilməsidir" deyən Əli Həsənov bəyan edib ki, gənclər siyasəti hər bir dövlətin onurğa sütununu təşkil edir.

Azərbaycanda gənclər siyasətinin tarixinə diqqət çəkən Prezident Administrasiyasının rəsmisi xatırladıb ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışının ilk yaddaqalan addımlarından biri məhz 1994-də Gənclər və İdman Nazirliyinin yaradılması olub. "Cəmiyyətin siyasi həyatının tam iflasa uğradığı bir zamanda atdığı bu addımla, məhz gənclər siyasətindən başlamaqla milli liderimiz bu gunləri düşünürdü, gənclərin gələcəyini və bununla da dövlətimizin sabahını fikirləşirdi. Ulu öndər gənclər siyasətini düzgün və uğurlu formalaşdırmaqla dövlətin təməlini saglam qoyub". Əli Həsənov belə deyib. O, həm Azərbaycanda, həm da ölkəmizdən kənarda yaşayan və təhsil alan gənclərin dqarşısında duran qarşısında duran vəzifələr barədə də danışıb. O gənclərə müraciətlə deiyb ki, qarşınızda duran ən mühüm vəzifələrdən biri həm milli, həm də bəşəri dəyərlərə yiyələnmək, mükəmməl təhsil almaq, müasir dəyərləri mənimsəmək, amma heç bir zaman milli köklərimizi unutmamaqdır. "Sizin gücünüz, sizin intellektiniz Vətənin, dövlətin millətin gücü və intellektidir. Prezident İlham Əliyevin yürütdüyü siyasətin əsas vəzifələrdən biri də məhz sağlam və təhsilli gənclik yetişdirməkdir. Amma harada yaşamağınızdan asılı olmayaraq Vətənimizi, dilimizi, milli dəyər və adətlərimizi unutmayın. Yaşadığınız ölkədə xalqımızı və dövlətimizi necə təmsil etsəniz, hər kəs də bizi məhz bunun əsasında tanıya, sevə, hörmət edə və dəstək verəcək" deyən Əli Həsənov dünya virtual məkanındakı unsiyyət imkanlarından Azərbaycan həqiqətlərinin geniş təbliği məqsədilə səmərəli bəhrələnməyin, həmçinin bu virtual məkandan dünya azərbaycanlı gənclərinin ünsiyyət imkanlarını genişləndirmək üçün istifadə olunmasının vacibliyini də qeyd edib.

Prezident Administrasiyasının şöbə müdiri Dağlıq Qarabağ münaqişəsi və onun Azərbaycan dövlətinə, xalqına vurduğu ziyan barədə da gənclərə məlumat verib və bildirib ki, gənclərimizin qarşısında duran məsələlərdən biri də milli varlığımızı erməni qəsbkarlarından qorumaq, ermənilərin yalan və uydurmalarla dolu təbliğatının qarşısında dayana bilməkdir. Əli Həsənov çıxışını bu fikirlərlə yekunlaşdırıb: "Siz yaşadığınız ölkələrdə elə bir önəmli faktora, gücə çevrilməlisiniz ki, sizinlə hesablaşsınlar. Yaşadığınız və təhsil aldığınız dövlətlərin ictimai-siyasi mühitinə, cəmiyyətinə nə dərəcədə inteqrasiya etsəniz, nə dərəcədə söz sahibinə çevrilsəniz, bunun Azərbaycan dövlətinin haqq səsinin dünyaya yaymaqda böyük əhəmiyyəti olar. Bu istiqamətdə hər bir ölkədə fəaliyyətn göstərən türk diasporu ilə birlikdə hərəkət etməlisiniz. Bir-birinizin qarşılıqlı problemlərini birgə həll etməyə çalışmalısınız. Və eyni zamanda dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı gənclər olaraq bir-birinizi yaxşı tanımalısınız, çünki bir-birinizi tanımadan dünyada Azərbaycanı tanıda bilməyəcəksiniz. Ona görə də bu tədbirin verdiyi ünsiyyət imkanında yaxşı faydalanmaq lazımdır". Sitat Əli Həsənovdandır.

Açılışdan sonra 4 paneldən ibarət konqresin **«Azərbaycan həqiqətlrinin təbliği və diaspor quruculuğunda gəncliyin rolu»** mövzusunda ilk panel iclası keçirilib. Bu paneldə Türkiyə Azərbaycan Dərnəyinin sədri, Türkiyə Strateji Analizlər və Beynəlxalq Əlaqələr Mərkəzinin (TÜRKSAM) başqanı Sinan Oğan «Gəncliyin diaspor quruculuğu və lobbiçilik fəaliyyətində rolu və yeri», "Bizim Nəsil" Gənclərin Regional İnkişaf Assosiasiyasının sədri Nüreddin Mehdiyev «Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və zəngin milli-mədəni irsimizin təbliğində xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin yeri», Azərbaycan Diplomatiya Akademiyasının icraçı dekanı Fariz İsmayılzadə «Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Azərbaycan gəncliyi», Böyük Britaniyanın York Universitetinin məzunu Səbuhi Rzayev «Xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi, onların tarixi Vətənə bağlılığının möhkəmləndirilməsi», gənc iş adamı Anar Məmmədov "Azərbaycan və qloballaşan dünyanın reallıqları-gənclərin gözü ilə", Amerika Azərbaycanlıları Şurasının prezidenti, Amerika Azərbaycanlıları Şəbəkəsi "USAN"-nın Los-Anceles və Kaliforniya regionu üzrə icraçı direktoru Cavid Hüseynov «Azərbaycan həqiqətlərinin təbliği, diaspor təşkilatları arasında qarşılıqlı əməkdaşlığın inkişafı və beynəlxalq əlaqələrinin genişləndirilməsi sahəsində müasir informasiya texnologiyalarının tətbiqi: mövcud təcrübə və gələcək perspektivlər» mövzularında məruzələr təqdim ediblər.

26 noyabr 2010

Dünya Azərbaycanlı Gənclərin I Konqresi çərçivəsində
“Virtual həftə sonu məktəbi»nin təqdimatı olacaq

Noyabrın 27-28-də Almaniyanın Frankfurt şəhərində keçiriləcək Dünya Azərbaycanlı Gənclərin I Konqresi çərçivəsində “Virtual həftə sonu məktəbi»nin təqdimatı olacaq. Təqdimat mərasimi tədbirin ikinci günü baş tutacaq. Bu yeni layihə barədə iştirakçılara və qonaqlara Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Rasim Əliquliyev məlumat verəcək.

Layihənin məqsədi xarici ölkələrdə yaşayan azərbaycanlı uşaqlara və gənclərə müasir informasiya texnologiyaları vasitəsilə ana dili, Azərbaycan tarixi, mədəniyyəti və coğrafiyasının tədris edilməsi, soydaşlarımızın milli ruhda tərbiyə olunmasına xidmət etməkdir. "Virtual həftə sonu məktəbi" xarici ölkələrdə yaşayan və Azərbaycan haqqında yetərli bilgisi olmayan hər bir azərbaycanlı gəncə virtual məkanın imkanlarından istifadə edərək ana dilini öyrənmək, doğma Vətənin tarixini, coğrafiyasını, ədəbiyyatını və mədəniyyətini mənimsəmək imkanı yaradır. Burada bir neçə istiqamət üzrə məlumat əldə etmək mümkündür. “Ana dili” bölməsində Azərbaycan dilinin qramatikası, fonetika, leksika, morfologiya, köməkçi nitq hissələri, sintaksis dərsləri yerləşdirilib. Burada Azərbaycan dilinin qanunauyğunluqları barədə ətraflı məlumat əldə etmək olar. Bölmədə hər bir mövzu ayrıca dərs kimi yerləşdirilib. “Azərbaycan coğrafiyası” bölməsində Azərbaycanın fiziki və iqtisadi coğrafiyası barədə məlumatlar öz əksini tapıb.

Burada Azərbaycanın relyefi, flora və faunası, iqlimi barədə ətraflı məlumat verilir. İqtisadi coğrafiya alt bölməsində Azərbaycanın iqtisadi regionları, onların ölkənin iqtisadi sistemində yeri və rolu, ölkəmizin təbii sərvətləri, sənaye və kənd təsərrüfatının inkişaf tempi barədə informasiyalar yer alıb. “Azərbaycan tarixi” bölməsi Azərbaycanın ən qədim dövrlərdən müasir günümüzə qədər olan tarixini əhatə edir. Bu bölmədə tarixi proseslər barədə xronoloji ardıcıllıqla məlumat verilib. “Azərbaycan tarixi” bölməsindən, həmçinin Azərbaycan ərazisində yaranmış dövlətlər, onların taleyi, xalqımızın görkəmli tarixi şəxsiyyətləri haqqında zəruri məlumatları əldə etmək mümkündür. Qeyd edək ki, bu bölmə digər bölmələrdən daha genişdir və burada əyani vəsaitlərdən daha çox istifadə edilib. Azərbaycan ədəbiyyatı bölməsində Azərbaycanın yazılı və şifahi ədəbiyyatı, xalqımızın əsrarəngiz ədəbi nümunələri, dünya miqyasında şöhrət qazanmış görkəmli şair və yazıçılarının əsərləri, klassik ədəbiyyatımızın korifeyləri, onların həyat və yaradıcılığı barədə məlumat yerləşdirilib. Bu bölmədə, həmçinin şifahi xalq ədəbiyyatının ən sanballı nümunələri ilə də tanış olmaq mümkündür. Layihənin üstünlüyü ondadır ki, burada mövzuları video və audio vasitələrdən istifadə edərək mənimsəmək imkanı var. Bundan başqa mövzulara uyğun əyani vəsaitlər, foto, video və audio materiallar yerləşdirilmişdir. Saytda müvafiq mövzulara dair web-saytlara keçidlər də verilib.

Qeyd edək ki, bu ideya ilk dəfə olaraq, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2007-ci ilin noyabrın 17-19-da Bakıda keçirilmiş Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayında irəli sürülüb. Qurultay çərçivəsində türkdilli xalqlar arasında elm, texnika, mədəniyyət, təhsil, iqtisadiyyat, ticarət, turizm və maliyyə sahələrində əməkdaşlıq, türk dünyasının mədəni irsinin təbliği, türk gəncliyinin qarşısında duran vəzifələr, onların milli ruhda tərbiyə olunması problemləri, müasir qloballaşma proseslərinin xalqlarımızın həyatına təsiri ilə bağlı da məsələlər müzakirə edilib. Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Rasim Əliquliyev Qurultayın Elm, təhsil və texnologiya komissiyasının iclasındakı çıxışında xaricdə yaşayan soydaşlarımıza milli-mənəvi irsimizin, tariximizin öyrədilməsinə ciddi ehtiyac duyulduğunu nəzərə alaraq, bu sahədə virtual məkanın imkanlarından daha geniş şəkildə faydalanmağın vacibliyini vurğulayıb.

2008-ci il dekabrın 18-19-da Bakı şəhərində keçirilən Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının toplantısında Azərbaycan həqiqətlərinin təbliği, lobbi quruculuğu, soydaşlarımızın yaşadıqları ölkələrdə cəmiyyətə inteqrasiyası, ictimai-siyasi proseslərdə daha fəal iştirakının təmin olunması ilə bağlı bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Toplantı çərçivəsində rəy və təkliflər nəzərə alınmaqla əsas kimi qəbul olunan «Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası» layihəsinin 12.15.-ci bəndində xarici ölkələrdə yaşayan azərbaycanlı uşaqlara və gənclərə müasir informasiya texnologiyaları vasitəsilə ana dilini, Azərbaycan tarixini, mədəniyyətini, coğrafiyasını tədris etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutu ilə birlikdə "Virtual həftə sonu məktəbi"nin yaradılması nəzərdə tutulub.

Layihənin həyata keçirilməsinə 2009-cu ildə başlanılıb. Bu zaman müxtəlif ölkələrin bu sahədəki təcrübəsi öyrənilib. Layihə Azərbaycan Təhsil Nazirliyinin müvafiq tədris proqramları, dərs vəsaitləri, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının test vəsaitləri əsasında hazırlanıb.

27-28 noyabr 2010

Almaniyanın Frankfurt şəhərində Dünya Azərbaycanlı Gənclərinin I Konqresi keçirilir

Noyabrın 27-də Almaniyanın Frankfurt şəhərində Dünya Azərbaycanlı Gənclərinin (DAG) I Konqresi öz işinə başlamışdır.

Konqresi Azərbaycan Prezidenti İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Gəncliyi Dövlət Proqramı"na uyğun olaraq Diasporla İş üzrə Dövlət Komitəsi (DİDK) Gənclər və İdman Nazirliyi (GİN) ilə birgə təşkil etmişdir.

Konqresdə Azərbaycanın dövlət və hökumət rəsmiləri, 41 gənclər təşkilatının nümayəndələri, dünyanın 23 ölkəsindən 131 gənclər qurumunun, 25 ölkədən 41 diaspor təşkilatının rəhbərləri iştirak edirlər. Toplantıya fəaliyyət göstərdiyi qısa müddət ərzində kifayət qədər böyük işlər görməyə müvəffəq olmuş Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı (RAGT - AMOR) 23 nəfərlik nümayəndə heyəti ilə qatılmışdır.

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov konqresi açaraq iştirakçıları salamlamışdır.

Sonra Azərbaycanın dövlət himni səsləndirilmişdir.

N. İbrahimov çıxışına davam edərək demişdir ki, toplantıda xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuğu işinə cəlb olunması, ictimai-siyasi fəallığının artırılması, milli mənəvi dəyərlərimizin qorunması və mədəni irsimizin təbliğində, habelə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında gənclərin daha fəal iştirakı ilə bağlı bir sıra məsələlər müzakirə olunacaqdır. Azərbaycan gəncliyi ölkədə gedən ictimai-siyasi proseslərin aparıcı qüvvəsi olmuş, respublikamızın inkişafında mühüm rol oynamışdır.

Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev gənclərə hər zaman xüsusi diqqət və qayğı ilə yanaşmış, yüksək intellektual səviyyəyə, müasir dünyagörüşünə malik gənc nəslin yetişməsinə xüsusi önəm vermişdir. 1970-ci illərdə ümummilli liderin təşəbbüsü ilə SSRİ-nin 50-dən artıq şəhərinin 170-dən çox ali təhsil müəssisəsində 15 mindən artıq azərbaycanlı gənc ali təhsil almışdır. Bu gün Azərbaycan diasporunun ən fəal üzvlərini elə həmin şəxslər təşkil edirlər. Prezident İlham Əliyev ulu öndərin bu siyasətinə sadiq qalaraq, gəncliyə həmişə böyük diqqət və qayğı ilə yanaşır. Dövlətimizin başçısının təsdiq etdiyi "Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)", "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı", habelə gənclərin təhsil səviyyəsinin yüksəldilməsi, sosial müdafiəsinin yaxşılaşdırılması sahəsində imzaladığı digər sənədlər bunun parlaq sübutudur.

Dövlət Komitəsinin sədri demişdir ki, xarici ölkələrdə təhsil alan və yaşayan azərbaycanlı gənclər müxtəlif dərnəklər və ictimai birliklər yaradır, Vətənimizin problemləri barəsində dünya ictimaiyyətində obyektiv təsəvvürlərin formalaşdırılması prosesində fəal iştirak edirlər. Azərbaycan diaspor təşkilatlarının 40-dan çoxunu məhz gənclər təsis etmişlər. Xaricdə yaşayan azərbaycanlı gənclərin təşkilatlanması və diaspor quruculuğu işinə qoşulması prosesi bu gün də davam edir. 2009-cu ilin aprelində Moskvada Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) təsis edilməsi Azərbaycan diasporunun və xaricdə yaşayan azərbaycanlı gənclərin həyatında mühüm bir hadisə olmuşdur. Leyla xanım Əliyevanın sədrliyi ilə bu təşkilat qısa müddət ərzində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, gənclərin milli diaspor quruculuğu işinə cəlb olunması istiqamətində çox önəmli addımlar atmışdır.

N. İbrahimov diqqətə çatdırmışdır ki, dünyanın müxtəlif regionlarında - Avropada, Amerikada, Asiyada, MDB məkanında fəaliyyət göstərən azərbaycanlı gənclər təşkilatları Xocalı soyqırımı barədə yaşadıqları ölkələrin ictimaiyyətinin, beynəlxalq təşkilatların, parlament və hökumət üzvlərinin, kütləvi informasiya vasitələrinin məlumatlandırılması məqsədilə mütəşəkkil aksiyalar, elmi-praktiki konfranslar, etiraz yürüşləri keçirirlər. Onlar müasir informasiya texnologiyalarının imkanlarından istifadə edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nəticələri haqqında əsl həqiqətləri bu barədə məhdud informasiyaya malik dövlət və siyasət adamlarına, jurnalistlərə, eləcə də sadə vətəndaşlara çatdırmağa çalışırlar. Xaricdə təhsil alan azərbaycanlı gənclər xalqımızın zəngin mədəni irsinin ən fəal təbliğatçılarıdırlar. Bu həm də o deməkdir ki, müasir Azərbaycan gəncləri hansı ölkədə yaşamasından və hansı sahədə təhsil almasından asılı olmayaraq, öz xalqının tarixi, mədəniyyəti, onun milli maraqlarının sərhədləri barədə çox dəqiq və aydın təsəvvürə malikdirlər. Bu mühüm amil ölkəmizin gələcəyi və bu gələcəyin sahibləri olan gənclərimiz haqqında nikbin düşünməyimizə əsas verir. Elə buna görə də Prezident İlham Əliyev Azərbaycan gəncliyinə böyük etimad bəslədiyini ifadə edərək demişdir: "Mən əminəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Çünki bizim bugünkü gəncliyimiz sağlam düşüncəli, vətənpərvər, xalqını, millətini sevən gənclərdir. Mən əminəm ki, müstəqil Azərbaycanın gələcəyini qoruyub saxlaya bilən gənc nəsillər yetişir". Komitə sədri onu da bildirmişdir ki, xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı gənclər təşkilatlarının qarşısında həllini gözləyən bir sıra taleyüklü vəzifələr də dayanır.

Xaricdə yaşayan azərbaycanlı gənclərin cəmiyyətə daha sıx inteqrasiyası, ictimai-siyasi fəallığının artırılması, müxtəlif ölkələrin dövlət orqanları, parlament və hökumət üzvləri, kütləvi informasiya vasitələri ilə əlaqələrin möhkəmləndirilməsi, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığın qurulması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində daha ciddi və daha konkret nəticələrin əldə olunması və digər sahələrdə görüləsi işlər çoxdur. Lakin gəncliyin bugünkü ruhu, proseslərə baxışı, intellektual potensialı deməyə əsas verir ki, gənc soydaşlarımız bu vəzifələrin öhdəsindən uğurla gələcəklər. Dünya Azərbaycanlı Gənclərin I Konqresi də əslində bu inamın və etimadın təzahürüdür. Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov çıxış edərək Azərbaycan dövlətinin gənclər siyasəti barədə geniş məlumat vermişdir. O bildirmişdir ki, dünyanın bütün xalqları və dövlətləri hər zaman gənclərlə bağlı xüsusi siyasət yürütmüşlər. Gənclərinin qayğısına qalmayan dövlətin gələcəyi yoxdur. Hər bir dövlətin əsas missiyalarından biri gələcəyin etibar ediləcəyi, estafetin ötürüləcəyi nəsli hazırlamaqdır. Diaspor siyasətimizin əsas istiqamətlərindən biri dünyada yaşayan azərbaycanlı gənclərlə iş, gənclər siyasətimizin əsas istiqaməti ölkəmizdə gənclərlə səmərəli və əlaqələndirilmiş fəaliyyətin qurulması, təhsil siyasətimizin əsas hissəsi isə yeni, sağlam, güvənilən, müasir düşüncəli, intellektli, yüksək səviyyəli təhsili olan gənclərin yetişdirilməsidir. Gənclər siyasəti hər bir dövlətin onurğa sütununu təşkil edir. Azərbaycanda gənclər siyasətinin tarixinə diqqət çəkən Prezident Administrasiyasının şöbə müdiri xatırlatmışdır ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışının ilk yaddaqalan addımlarından biri məhz 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması olmuşdur. Cəmiyyətin siyasi həyatının tam iflasa uğradığı bir zamanda atdığı bu addımla, məhz gənclər siyasətindən başlamaqla ümummilli liderimiz bu günləri düşünürdü, gənclərin gələcəyini və bununla da dövlətimizin sabahını fikirləşirdi. Ulu öndər gənclər siyasətini düzgün və uğurlu formalaşdırmaqla dövlətin sağlam təməlini qoymuşdur. Ə. Həsənov həm Azərbaycanda, həm də ölkəmizdən kənarda yaşayan və təhsil alan gənclərin qarşısında duran vəzifələrdən də danışmışdır. O, gənclərə müraciətlə demişdir ki, sizin qarşınızda duran ən mühüm vəzifələrdən biri həm milli, həm də bəşəri dəyərlərə yiyələnmək, mükəmməl təhsil almaq, müasir dəyərləri mənimsəmək, amma heç bir zaman milli köklərimizi unutmamaqdır.

Sizin gücünüz, intellektiniz Vətənin, dövlətin, millətin gücü və intellektidir. Prezident İlham Əliyevin yürütdüyü siyasətin əsas istiqamətlərindən biri də məhz sağlam və təhsilli gənclik yetişdirməkdir. Amma harada yaşamağınızdan asılı olmayaraq Vətənimizi, dilimizi, milli dəyər və adətlərimizi unutmayın. Yaşadığınız ölkədə xalqımızı və dövlətimizi necə təmsil etsəniz, hər kəs də bizi məhz bunun əsasında tanıyacaq, sevəcək, hörmət edəcək və dəstək verəcəkdir. Dünya virtual məkanındakı ünsiyyət imkanlarından Azərbaycan həqiqətlərinin geniş təbliği məqsədilə səmərəli bəhrələnmək, həmçinin bu virtual məkandan dünya azərbaycanlı gənclərinin ünsiyyət imkanlarını genişləndirmək üçün istifadə olunması vacibdir. Prezident Administrasiyasının şöbə müdiri Dağlıq Qarabağ münaqişəsi və onun Azərbaycan dövlətinə, xalqına vurduğu ziyan barədə də gənclərə məlumat vermiş və bildirmişdir ki, gənclərimizin qarşısında duran məsələlərdən biri də milli varlığımızı erməni qəsbkarlarından qorumaq, ermənilərin yalan və uydurmalarla dolu təbliğatını puça çıxarmaqdır.

Əli Həsənov çıxışını bu fikirlərlə yekunlaşdırmışdır: "Siz yaşadığınız ölkələrdə elə bir önəmli amilə, gücə çevrilməlisiniz ki, sizinlə hesablaşsınlar. Yaşadığınız və təhsil aldığınız dövlətlərin ictimai-siyasi mühitinə, cəmiyyətinə nə dərəcədə inteqrasiya etsəniz, nə dərəcədə söz sahibinə çevrilsəniz, bunun Azərbaycan dövlətinin haqq səsini dünyaya yaymaqda o qədər də böyük əhəmiyyəti olacaqdır. Bu istiqamətdə hər bir ölkədə fəaliyyət göstərən türk diasporu ilə birlikdə hərəkət etməlisiniz. Bir-birinizin qarşılıqlı problemlərini birgə həll etməyə çalışmalısınız. Eyni zamanda dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı gənclər olaraq bir-birinizi yaxşı tanımalısınız. Çünki bir-birinizi tanımadan dünyada Azərbaycanı tanıda bilməyəcəksiniz. Ona görə də bu tədbirin verdiyi ünsiyyət imkanından yaxşı faydalanmaq lazımdır". Sonra RAGT-ın icraçı direktoru Emin Hacıyev Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri Leyla Əliyevanın Dünya Azərbaycanlı Gənclərinin I Konqresinə müraciətini oxunmuşdur. Müraciətdə deyilir:

"Əziz dostlar! Bu gün siz mühüm bir hadisənin - Dünya Azərbaycanlı Gənclərinin I Konqresinin iştirakçılarısınız. Bu forumun əhəmiyyəti ondan ibarətdir ki, ilk dəfə olaraq Avropa, Amerika, dünyanın fərqli qitələrində və ölkələrində, Vətənin hüdudlarından uzaqlarda yaşayan gənc həmvətənlərimiz mənəvi birliyi daha dolğun hiss edə biləcəklər. Ümumi məqsədlərə çatmaq əzmi ilə çalışan insanlarla tanış olmaq imkanı əldə edəcəklər. Yaşadığımız yerdən asılı olmayaraq, hamımızı ümumi Vətənimiz Azərbaycana olan məhəbbət birləşdirir. Frankfurtda keçirilən Dünya Azərbaycanlı Gənclərinin I Konqresi həmvətənlərimiz arasında yalnız dostluq və işgüzar əlaqələrin yaranması üçün gözəl meydan deyil, həmçinin Vətənlə əlaqələrin möhkəmlənməsi, gənc insanların ictimai-siyasi fəallığının güclənməsi üçün nadir bir imkandır. Bundan əlavə, Konqres dünya miqyasında fəaliyyət göstərən Azərbaycan diasporu daxilində əlaqələrin formalaşması və güclənməsi üçün yeni qüvvələrin cəlb edilməsinə şərait yaradır. Azərbaycan dövlətinin bu məsələyə böyük önəm verməsi bizim üçün vacib dəstəkdir. Bu bir daha bizim doğru yolda olduğumuzu və bu yolla uğurla irəlilədiyimizi sübut edir.

RAGT rəsmi olaraq iki ilə yaxındır ki, fəaliyyət göstərir və bu müddət ərzində gənc həmvətənlərimizin təşəbbüslərinin geniş mənada dəstəklənməsinə çalışmışdır. RAGT ötən dövrdə öz fəaliyyət coğrafiyasını xeyli genişləndirmişdir. İndi bizim bölmələrimiz Rusiya Federasiyasının demək olar ki, bütün regionlarında yaradılmışdır. Tədbirlərimizin hamısı gənclərimizin birliyinə istiqamətlənmişdir. Biz onlara təhsil almaqda kömək edir, sağlam həyat tərzinin geniş yayılması, mədəni və tarixi dəyərlərimizə diqqətin artırılması, gənclərimizin ana dilimizi, ədəbiyyatımızı və milli ənənələrimizi öyrənmək istəyini dəstəkləyirik. Bunların hamısı olduqca vacibdir. Dünyanın bir sıra ölkəsini təmsil edən yüzlərlə gəncin konqresdə iştirakı Azərbaycan gənclərinin həmyaşıdları ilə ünsiyyətdə olmasının vacibliyini bir daha sübut edir. Əminəm ki, toplantı iştirakçılarının hamısı istedadlı, kamil, parlaq və yaradıcı insanlardır. Sizin hamınız keyfiyyətli ali təhsil almaq üçün dünyanın nüfuzlu ali məktəblərində çalışır, qarşınıza ciddi məqsəd qoyaraq, ona nail olmaqdan çəkinmirsiniz. Bu isə o deməkdir ki, siz Azərbaycanın gələcəyinin inam və dayağısınız. Sizin gələcəyiniz isə - ölkəmizin gələcəyidir. Əminəm ki, iştirakçısı olduğumuz gənclər Konqresi çərçivəsində Azərbaycan Gənclərinin Dünya Birliyinin yaradılması bizim gənclər diasporunun möhkəmlənməsi yolunda növbəti və çox vacib addım olacaqdır. Qarşıda isə bizi bu yolda mühüm vəzifələr gözləyir.

Sizə yeni-yeni uğurlar və Konqresin işinə isə müvəffəqiyyətlər arzu edirəm !".

Gənclər və idman naziri Azad Rəhimov demişdir ki, DAG-ın Konqresi Azərbaycanın zəngin ictimai-siyasi tarixinin layiqli səhifələrindən birinə çevriləcəkdir. Azərbaycan xalqı bu gün öz taleyinin sahibidir. İndi Azərbaycan dövləti öz tarixinin şanlı səhifələrini yaşayır. Azərbaycan dövləti ulu öndər Heydər Əliyevin nüfuzu, mübarizliyi, əzmkarlığı və güclü iradəsi nəticəsində yaranan möhkəm sütunlar üzərində uğurla inkişaf etməkdədir. Gənclərlə aparılan iş 2003-cü ildən yeni mərhələyə qədəm qoymuşdur. Təməli ulu öndərimiz tərəfindən qoyulan gənclər siyasəti bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən dövlət siyasətinin əsas tərkib hissələrindən biridir. Gənclərin inkişafına yönəlmiş normativ-hüquqi baza formalaşdırılmış, bir sıra dövlət proqramları icra olunmuş, 200-dən artıq qeyri-hökumət gənclər təşkilatı yaranmışdır. Ümumilikdə, son 5 ildə hökumət tərəfindən gənclər təşkilatlarının 350-dən artıq layihəsinin dəstəklənməsi üçün dövlət büdcəsindən 3,8 milyon manat vəsait ayrılmışdır.

İndi Azərbaycan gəncləri 30-a yaxın nüfuzlu beynəlxalq təşkilatlarda təmsil olunur, bir neçə beynəlxalq gənclər platformalarının yaradılması təşəbbüsü ilə çıxış edirlər. Nazir, DAG-ın I Konqresinin gənclərin Azərbaycan naminə fəaliyyətinin daha sıx əlaqələndirilməsinə, gücləndirilməsinə və təşkilatlanmasına təkan verəcəyinə, gələcək nəsillər üçün faydalı olacağına inamını ifadə etmişdir. Azərbaycanın Almaniyadakı səfiri Pərviz Şahbazov gənclərə bütün məsələlərdə yardımçı olmaq barədə Azərbaycan rəhbərliyindən tapşırıq aldıqlarını və bu istiqamətdə hər bir yardımı etməyə hazır olduqlarını diqqətə çatdırmışdır. Konqres iştirakçıları qarşısında təbrik sözü ilə TürkPA-nın baş katibi Ramil Həsənov, İslam Konfransı Təşkilatı Gənclər Forumunun baş katibi Elşad İsgəndərov çıxış etmiş, tədbirlə bağlı fikirlərini bölüşmüşlər. Türkiyənin baş konsulu İlhan Sayqılı Türkiyə-Azərbaycan dostluğundan danışmış, çıxışını "Türkiyə ilə Azərbaycan bir ürək, bir candır" sözləri ilə bitirmişdir.

Sonra 4 paneldən ibarət konqresin "Azərbaycan həqiqətlərinin təbliği və diaspor quruculuğunda gəncliyin rolu" mövzusunda ilk bölmə iclası keçirilmişdir. Bu paneldə Türkiyə-Azərbaycan Dərnəyinin sədri, Türkiyə Strateji Araşdırmalar və Beynəlxalq Əlaqələr Mərkəzinin (TÜRKSAM) başkanı Sinan Oğan "Gəncliyin diaspor quruculuğu və lobbiçilik fəaliyyətində rolu və yeri", "Bizim Nəsil" Gənclərin Regional İnkişaf Assosiasiyasının sədri Nüreddin Mehdiyev "Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və zəngin milli-mədəni irsimizin təbliğində xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin yeri", Azərbaycan Diplomatik Akademiyasının icraçı dekanı Fariz İsmayılzadə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Azərbaycan gəncliyi", Böyük Britaniyanın York Universitetinin məzunu Səbuhi Rzayev "Xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi, onların tarixi Vətənə bağlılığının möhkəmləndirilməsi", gənc iş adamı Anar Məmmədov "Azərbaycan və qloballaşan dünyanın reallıqları gənclərin gözü ilə", Amerika Azərbaycanlıları Şurasının sədri, Amerika Azərbaycanlıları Şəbəkəsi "USAN"-ın Los-Anceles və Kaliforniya regionu üzrə icraçı direktoru Cavid Hüseynov "Azərbaycan həqiqətlərinin təbliği, diaspor təşkilatları arasında qarşılıqlı əməkdaşlığın inkişafı və beynəlxalq əlaqələrin genişləndirilməsi sahəsində müasir informasiya texnologiyalarının tətbiqi: mövcud təcrübə və perspektivlər" mövzularında məruzələrlə çıxış etmişlər. Məruzələr ətrafında çıxışlar olmuşdur. Konqres işini noyabrın 28-də davam etdirəcəkdir.

Vüqar Seyidov AzərTAc-ın xüsusi müxbiri, **Frankfurt**
"Xalq qəzeti".-2010.-28 noyabr.-N 261.-S.2.

Diaspordan lobbiçiliyə doğru

Bu məsələdə Azərbaycan diasporu üzərinə düşən böyük məsuliyyəti anlamalıdır

Dünya azərbaycanlılarının təşkilatlanması, müstəqil Azərbaycan Respublikası ilə siyasi, iqtisadi, mədəni və mənəvi əlaqələrin inkişaf etdirilməsi son dərəcə önəmli məsələlərdəndir. Tarix elə gətirib ki, 50 milyondan artıq azərbaycanlının beşdə birindən də azı müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Lakin nəzərə almaq lazımdır ki, bu, müasir dünya üçün o qədər də qeyri-təbii sayılmır. Qlobal dəyərlərin böyük əhəmiyyət kəsb etdiyi bir dövrdə azərbaycanlıların müxtəlif dövlətlərin vətəndaşları olması onların milli birliyi üçün mümkün qədər az maneə yaratmalıdır. Hər şeydən əvvəl ona görə ki, azərbaycanlıların siyasi iradəsini ifadə edən müstəqil dövləti, özünəməxsus adət-ənənələri, dili, dini, "azərbaycançılıq" ideologiyası və nəhayət, Heydər Əliyevin şəxsində ümummilli lideri mövcuddur.

Ulu öndər öz uzaqgörənliyi və müdrikliyi ilə xarici siyasətin strateji hədəflərini müəyyənləşdirərək müasir dövrdə hər bir dövlətin qüdrətinin yalnız iqtisadi resurslarla deyil, həm də onun xaricdə formalaşdırdığı diaspor və lobbinin gücü ilə ölçüldüyünü nəzərə almışdı. Azərbaycanda 31 dekabr - Dünya azərbaycanlılarının həmrəyliyi gününün bayram kimi qeyd olunması milli diasporun təşkilatlanmasında, Azərbaycan lobbisinin inkişafında başlıca məqamlardan biri olmuşdur.

Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə hansısa ciddi nailiyyətlər qazanmaq, eyni zamanda milli məsələlərin beynəlxalq müstəviyə çıxarılmasına nail olmaq mümkün deyil. Elə bu səbəbdən də ulu öndərimizin təməlini qoyduğu siyasəti bu gün də uğurla davam etdirən Azərbaycan hakimiyyəti dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün ardıcıl siyasət yeridir.

Diaspor quruculuğu sahəsində dövlət siyasətinin məqsədi xaricdə yaşayan soydaşlarımızın milli özünəməxsusluğunu qorumaq və inkişaf etdirmək, Azərbaycanla əlaqələrini genişləndirməkdən ibarətdir. Xaricdə yaşayan azərbaycanlılarla iş sahəsində dövlət siyasətinin əsasları 2002-ci ilin dekabr ayının 27-də qəbul edilmiş "Xaricdə Yaşayan Azərbaycanlılarla bağlı Dövlət Siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur. Bu qanun Azərbaycan diasporunun inkişafına dövlət qayğısının daha da artırılması, bu sahədə ciddi nailiyyətlər əldə olunması məqsədi ilə vahid strategiyanın hazırlanması kimi mühüm məsələlərin həllinə imkan yaradan hüquqi prinsipləri müəyyənləşdirir.

Ümummilli lider Heydər Əliyev bu sahədə sistemli dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə 2002-ci ildə "Xarici ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə" fərman imzaladı. Komitənin yaradılması diaspor təşkilatlarının fəaliyyətinin vahid mərkəzdən koordinasiyasına, dünya azərbaycanlılarının konsolidasiyasında, diaspordan lobbiyə doğru inkişafında yeni mərhələnin başlanğıcını qoydu.

2008-ci il noyabrın 19-da isə Prezident İlham Əliyevin sərəncamı ilə XÖYAİDK-nin əsasında yeni qurum-Diasporla İş üzrə Dövlət Komitəsi yaradılıb. Hazırda dünyada Azərbaycan diasporunun mütəşəkkil hala gətirildiyini deyən DİDK sədri Nazim İbrahimovun sözlərinə görə, diasporumuz inkişaf edib və artıq Azərbaycan həqiqətlərini dünyaya çatdırır: "Amma təcrübə az olduğu üçün təbii ki, səhvlər, yanlışlıqlar da olur".

Müasir dövrdə xarici ölkələrdə yaşayan azərbaycanlılar arasında milli-mənəvi birliyin möhkəmləndirilməsi, soydaşlarımızın təşkilatlanması prosesi keyfiyyətcə yeni məzmun kəsb etməkdədir. DİDK-dən verilən məlumata görə, hazırda dünyanın müxtəlif ölkələrində 370-dək Azərbaycan icması fəaliyyət göstərir və diasporumuzun təşkilatlanma prosesi bu gün də davam edir. Azərbaycan hakimiyyətinin apardığı düzgün siyasətin nəticəsidir ki, həmin təşkilatlar bu gün problemsiz olaraq müxtəlif ölkələrdə fəaliyyət göstərirlər.

"Biz harada olsaq da, azərbaycanlıyıq"

Özbəkistanda fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyasının sədri Akif Ağatalıbov "Paritet"ə açıqlamasında qeyd edib ki, soydaşlarımız vətəndən kənarda yaşamağına baxmayaraq, azərbaycançılığı təbliğ etməlidirlər: "Unutmamalıyıq ki, biz azərbaycanlıyıq. Ürəyimizdə olan bütün arzumuz budur ki, vətəndən kənarda Azərbaycanı layiqli təmsil edək. Biz xoşbəxtik ki, cənab Prezidentimizin dediyi kimi Azərbaycan azərbaycanlılarıyıq".

AMMA sədri dedi ki, başqa ölkənin vətəndaşı olsalar da, amma əsas odur ki, pasportun rəngindən asılı olmayaraq ürəyin, ağlın rəngi dəyişməsin: "Kimin nə gücü varsa çalışıb torpaqlarımızı azad etməliyik. Azərbaycana qayıdıb cənab Prezidentin ətrafında sıx birləşməyə həmişə hazırıq". Diasporumuzun ən kövrək ruhlu üzvlərindən biri də Azərbaycan-İsrail (AZİZ) Beynəlxalq Assosiasiyası yanında Azərbaycan Tarixi və Mədəni İrsinin Qorunması Komitəsinin sədri Yeganə Salmandır.

"Azərbaycan" sözünün həmişə onun fiziki gücünü, həyəcanlarını artırdığını deyən Y. Salman vətəni bir an belə unutmadıqlarını, Allaha yalvarıb Azərbaycanın ərazi bütövlüyünün bərpasını dilədiklərini bildirdi: "Ulu öndər Heydər Əliyevin "Mən fəxr edirəm ki, azərbaycanlıyam" sözləri damarlarından azərbaycanlı qanı axan hər bir insan üçün müqəddəsdir. Bu sözlər Azərbaycanın işıqlı gələcəyi naminə bizlərin vətənlə daim əlaqə saxlamağının başlıca təminatıdır".

Yeganə xanımım vətənə olan sevgisi o qədər əvəzsizdir ki, o hətta öz evində Azərbaycan Mədəniyyəti Mərkəzi yaradıb. Y. Salman deyir ki, mərkəzdə azərbaycanlı müəlliflərin kitabları, Azərbaycanın bu gününü və dünənini xarakterizə edən suvenirlər yer alıb: "Mərkəzdə Azərbaycan otağı da var. Əllə toxunmuş xalçaların döşəndiyi otaqda milli döşəkcələr, mütəkkələr, nərd, samovar, armudu stəkanlar buraya gələnlərə Azərbaycanı xatırladır".

Norveç-Azərbaycan Gənclər Təşkilatının (NAYO) sədri Ramil Əliyevsə deyir ki, xaricidə yaşadıqları ölkələrə nə qədər inteqrasiya etsələr də, etnik və fiziki görünüş baxımdan həmin ölkənin insanlarından fərqlənirlər: "Bu amil bizə daima daxildən köklərimizin yaşadığımız ölkə ilə yox, məhz Azərbaycanla bağlı olduğumuzu xatırladır. Biz bununla da yaşadığımız ölkədə Azərbaycanın təbliğatçısına və adət-ənələrimizin nümunəsinə çevrilirik".

"Bizim inteqrasiya etmək qabiliyyətimiz xalqımızın milli dəyəridir və bu alqışlanmalıdır" deyən R. Əliyevin sözlərinə görə, Norveçdə yaşayan azərbaycanlılar da yaşadıqları cəmiyyətə kifayət qədər inteqrasiya olublar. Amma öz dəyərlərimizi və adət-ənənələrimizi unudub yaşadığımız ölkənin dəyərlərində qərq olmamalıyıq. Bu səbəbdən Norveçdə Azərbaycan diaspor cəmiyyəti olaraq NAYO-nun üzərinə çox mühüm missiya düşür. Biz assimilyasiya ilə mübarizə aparırıq. Biz istəyirik ki, xaricidə doğulmuş və ya buraya köçüb gəlmiş azərbaycanlılar ölkəmizlə könüldən bağlı olsunlar. Çünki bizim hamımızın bir vətəni, Azərbaycanı var. Biz bunu unutmamalıyıq!".

NAYO sədrinin fikrincə, xaricidə savadlı və ziyalı vətəndaş olmaq üçün ölkəmizdə baş verən ictimai-siyasi və mədəni proseslər haqqında məlumatlı olmalıyıq: "Qarabağda atəşkəs olsa da informasiya müharibəsi davam edir. Biz xaricidə yaşayan azərbaycanlılar informasiya müharibəsinin ön səngərlərində vətənimiz uğrunda vuruşan əsgərləriyik. Daima xalqımıza qarşı törədilmiş erməni vəhşiliklərini, mədəni-maddi irsimizi və xalqımızın nailiyyətlərini dünyaya çatdırırıq. Çünki biz harada olsaq da, azərbaycanlıyıq".

Azərbaycanlıların cəmiyyətə inteqrasiyasının sürətləndirilməsi, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması Azərbaycan diasporunun qarşısında duran prioritet vəzifələrdir. Bu sahədə ötən müddət ərzində müəyyən nailiyyətlər əldə olunsa da, soydaşlarımızın cəmiyyətə daha sıx inteqrasiyasına nail olmaq, onların hüquq və azadlıqlarının müdafiəsi mexanizmlərini təkmilləşdirmək, siyasi təşkilatlarda, dövlət və hökumət strukturlarında təmsilçilik imkanlarının genişləndirilməsi, diaspor təşkilatlarının fəaliyyətində bu sahəyə diqqətin artırılması həllini gözləyən ən vacib məsələlər olaraq qalır.

Azərbaycan həqiqətlərinin təbliği

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında müxtəlif ölkələrin ictimai, siyasi və dövlət xadimləri, elm adamları, eləcə də KİV-lə əlaqələrin qurulması çox mühümdür. Azərbaycan diasporu bu məsələlərə daha çox diqqət yetirməli, bəzi ölkələrdə Azərbaycan haqqında erməni diasporu və lobbisi tərəfindən formalaşdırılmış yanlış təsəvvürlərin aradan qaldırılması üçün öz imkanlarını maksimum dərəcədə səfərbər etməyə çalışmalıdır. Bu məsələdə Azərbaycan diasporu üzərinə düşən böyük məsuliyyəti anlamalıdır. Onların bu cür faktlarla real olaraq birbaşa qarşılaşması şəksizdir.

Məsələn, Birləşmiş Ərəb Əmirliklərindəki Azərbaycan Cəmiyyətinin sədri Samir İmanovu erməni lobbisinə qarşı mübarizə aparan diaspor fəallarımızdan biri kimi tanıyırıq. Ermənilər bir neçə dəfə S. İmanova müxtəlif formada hədə-qorxu gəlsələr də, onu milli mübarizədən çəkindirə bilməyiblər. "Bizim işimiz haqq işidir" deyən həmvətənimiz bildirir ki, bu gün Azərbaycan lobbiçiliyi, diaspor işi dünyanın ən təcrübəli və güclü diasporları ilə müqayisə oluna bilər: "Erməni lobbisinin bu gün bizə və türklərə qarşı apardığı siyasət, yalan və təhrif edilmiş yazıları artıq 10 il və ondan daha əvvəl verdiyi nəticəni vermir.

Belə ki, artıq azərbaycanlı və türk alimlərinin, xaricdəki diaspor cəmiyyətlərinin apardığı işlər ermənilərin daim yalan və öz xeyirlərinə dəyişdirilmiş məlumatların təbliğ etdiyini bütün dünyaya sübut edə bilir. Buna bir əyani misal kimi son bir neçə il ərzində BƏƏ-də yerli mətbuata verdiyim müsahiblərdə ermənilərin işğalçı, quldur olmaları, etdikləri vəhşiliklər konkret tarixi faktlarla qəzetlərdə dərc edilib". O, ermənilərin tarix boyu müsəlmanlara qarşı etdiyi vəhşiliklərdən və qırğınlardan çox yazılmadığından təəssüflənərək bildirir ki, ermənilərə qarşı media sahəsində işi gücləndirməli, daha güclü təbliğat maşınını işə salmalıyq.

Leyla Kiani İsveçdəki "Xəzər" Cəmiyyətinin sədridir. Onu diasporumuzun söz silahı ilə düşmənə atəş açan "kovboy" xanımı hesab etmək olar. Leyla xanım deyir ki, erməni təbliğatının qarşısına Azərbaycan təbliğatı qoymaq lazımdır: "Amma məncə bunu Azərbaycan jurnalistləri yazıb bizə göndərməlidir ki, (soyqırım və digər tarixi məlumatlar) biz də onu yaşadığımız ölkələrdəki mətbuata yerləşdirməyə çalışaq. Hər kəs ermənilərə qarşı açıq etirazlarla çıxış etsə dünya ictimaiyyəti bizi görməyə və eşitməyə başlayar."

Müxtəlif ölkələrdə yaşayan soydaşlarımızla əlaqələrin genişləndirilməsini xarici siyasətdə prioritet istiqamətlərdən biri kimi nəzərdən keçirən dövlət başçısı İlham Əliyev ölkədəki sosial-iqtisadi inkişaf strategiyasının mahiyyətinə uyğun olaraq diaspor quruculuğu sahəsində dövrlə səsləşən genişmiqyaslı tədbirlərin həyata keçirilməsini vacib sayır. Bu yöndə DİDK tərəfindən aparılan dövlət siyasətinin mahiyyəti dünya azərbaycanlılarının potensial imkanlarını müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həlli naminə səfərbər etmək, milli birliyə, həmrəyliyə və mütəşəkkilliyə nail olmaqdır.

Fuad Hüseynzadə
"Paritet".-2010.-27-29 noyabr.-N.125.-S.11.

T. Heydərov: "Azərbaycan diplomatiyası və diasporunun fəaliyyəti nəticəsində Britaniya parlamentində Azərbaycan lobbisi erməni lobbisindən güclüdür".

APA-nın Frankfurta ezam olunmuş əməkdaşının məlumatına görə, bu barədə Dünya Azərbaycanlı Gənclərinin 1-ci Konqresində çıxış edən Avropa Azərbaycan Cəmiyyətinin təsisçisi və sədri Tale Heydərov bildirib. T. Heydərov deyib ki, cəmiyyətin London, Berlin, Brüssel və Bakıda ofisləri var. Təşkilatın əsas məqsədi Azərbaycanı Avropada siyasi, iqtisadi və mədəni aspektdən tanıtmaqdır: "Siyasi aspektdən tanıtma deyəndə, biz ilk növbədə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünyaya çatdırmağı nəzərdə tuturuq. Bizim nəşrlərimiz var, kitab, ingilis dilində «Vision of Azerbaijan» jurnalı nəşr edirik. Azərbaycan barəsində «100 suala cavab» kitabı nəşr olunub, hər ay bülletenlərimiz çıxır, bir sıra Avropa ölkələrinin parlament üzvlərinə paylanır. Xocalı qətliamı haqqında nəşr etdiyimiz kitab dünyanın müxtəlif universitet və institutlarına paylanıb".

T.Heydərov bildirib ki, Dağlıq Qarabağla bağlı nəşr olunan yeni kitabda yalnız Rusiya arxivlərində saxlanılan sənədlər əsasında ermənilərin Qafqaza, o cümlədən hazırkı Ermənistana köçürülməsi haqqında faktlar və məlumatlar əksini tapıb: "Üç cildən ibarət kitabın rus variantı artıq hazırdır, Azərbaycan və ingilis dili versiyaları isə hazırlanır. Bu kitab bütün dünyada yayılacaq". T.Heydərov Azərbaycan və Xocalı qətliamı haqqında filmlərin hazırlandığını, həmin filmlərin Avropanın müxtəlif telekanallarında nümayiş etdiriləcəyini də deyib.

O, Britaniya parlamentində «Azərbaycanın mühafizəkarlar dostu» qrupunun yaradılması barədə də məlumat verib, Xocalı qətliamının tanınması üçün imza toplandığını deyib. T.Heydərov bəyan edib ki, Azərbaycan diplomatiyası və diasporunun fəaliyyəti nəticəsində Britaniya parlamentində Azərbaycan lobbisi erməni lobbisindən güclüdür.

28 noyabr 2010

«The Westin Grand» otelində Dünya Azərbaycanlı Gənclərin I Konqresi işini davam etdirib

Almaniyanın Frankfurt şəhərində keçirilən «The Westin Grand» otelində Dünya Azərbaycanlı Gənclərin I Konqresi işini davam etdirib. Tədbirin ikinci günü "Virtual həftə sonu məktəbi»nin təqdimatı ilə başlayıb. Toplantını Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov açıb və layihə barədə məlumat verib. Layihənin təqdimatını Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Rasim Əliquliyev edib.

O bildirib ki, bütün dünya azərbaycanlılarını bir araya toplamaq üçün informasiya texnologiyalarından istifadə etmək ən müasir, səmərəli və zəruri vasitədir. O Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi altında sürətlə yaradılan informasiya cəmiyyəti haqqında geniş məlumat verib. "Virtual həftə sonu məktəbi» barədə danışan Rasim Əliquliyev deyib ki, layihənin məqsədi xarici ölkələrdə yaşayan azərbaycanlı uşaqlara və gənclərə müasir informasiya texnologiyaları vasitəsilə ana dili, Azərbaycan tarixi, mədəniyyəti və coğrafiyasının tədris edilməsi, soydaşlarımızın milli ruhda tərbiyə olunmasına xidmət etməkdir.

"Virtual həftə sonu məktəbi" xarici ölkələrdə yaşayan və Azərbaycan haqqında yetərli bilgisi olmayan hər bir azərbaycanlı gəncə virtual məkanın imkanlarından istifadə edərək ana dilini öyrənmək, doğma Vətənin tarixini, coğrafiyasını, ədəbiyyatını və mədəniyyətini mənimsəmək imkanı yaradır.

Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunun əməkdaşları layihənin bütün texniki incəlikləri və istifadə qaydası barədə iştirakçıları bilgiləndiriblər. Bildirilib ki, burada bir neçə istiqamət üzrə məlumat əldə etmək mümkündür.

"Ana dili" bölməsində Azərbaycan dilinin qramatikası, fonetika, leksika, morfologiya, köməkçi nitq hissələri, sintaksis dərsləri yerləşdirilib. Burada Azərbaycan dilinin qanunauyğunluqları barədə ətraflı məlumat əldə etmək olar. Bölmədə hər bir mövzu ayrıca dərs kimi yerləşdirilib. "Azərbaycan coğrafiyası" bölməsində Azərbaycanın fiziki və iqtisadi coğrafiyası barədə məlumatlar öz əksini tapıb. Burada Azərbaycanın relyefi, flora və faunası, iqlimi barədə ətraflı məlumat verilir.

İqtisadi coğrafiya alt bölməsində Azərbaycanın iqtisadi regionları, onların ölkənin iqtisadi sistemində yeri və rolu, ölkəmizin təbii sərvətləri, sənaye və kənd təsərrüfatının inkişaf tempi barədə informasiyalar yer alıb. "Azərbaycan tarixi" bölməsi Azərbaycanın ən qədim dövrlərdən müasir günümüzə qədər olan tarixini əhatə edir. Bu bölmədə tarixi proseslər barədə xronoloji ardıcıllıqla məlumat verilib. "Azərbaycan tarixi" bölməsindən, həmçinin Azərbaycan ərazisində yaranmış dövlətlər, onların taleyi, xalqımızın görkəmli tarixi şəxsiyyətləri haqqında zəruri məlumatları əldə etmək mümkündür.

Qeyd olunub ki, bu bölmə digər bölmələrdən daha genişdir və burada əyani vəsaitlərdən daha çox istifadə edilib. Azərbaycan ədəbiyyatı bölməsində Azərbaycanın yazılı və şifahi ədəbiyyatı, xalqımızın əsrarəngiz ədəbi nümunələri, dünya miqyasında şöhrət qazanmış görkəmli şair və yazıçılarının əsərləri, klassik ədəbiyyatımızın korifeyləri, onların həyat və yaradıcılığı barədə məlumat yerləşdirilib. Bu bölmədə, həmçinin şifahi xalq ədəbiyyatının ən sanballı nümunələri ilə də tanış olmaq mümkündür.

Layihənin üstünlüyü ondadır ki, burada mövzuları video və audio vasitələrdən istifadə edərək mənimsəmək imkanı var. Bundan başqa mövzulara uyğun əyani vəsaitlər, foto, video və audio materiallar yerləşdirilmişdir. Saytda müvafiq mövzulara dair web-saytlara keçidlər də verilib. Məktəbin vəsaitlərindən istifadə etmək üçün buraya üzv olmaq vacib şərt deyil. Lakin layihədə iştirak etmək və sertifikat almaq üçün hər bir istifadəçinin məktəbə üzv olması və "online" imtahandan keçməsi lazımdır. Bunun üçün saytda göstərilmiş məlumat blankını doldurmaq tələb olunur. Məlumat blankında göstərilmiş yanlış informasiyalara görə sənədi dolduran istifadəçi məsuliyyət daşıyır.

Qeyd edək ki, bu ideya ilk dəfə olaraq, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2007-ci ilin noyabrın 17-19-da Bakıda keçirilmiş Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayında irəli sürülüb.

Qurultay çərçivəsində türkdilli xalqlar arasında elm, texnika, mədəniyyət, təhsil, iqtisadiyyat, ticarət, turizm və maliyyə sahələrində əməkdaşlıq, türk dünyasının mədəni irsinin təbliği, türk gəncliyinin qarşısında duran vəzifələr, onların milli ruhda tərbiyə olunması problemləri, müasir qloballaşma proseslərinin xalqlarımızın həyatına təsiri ilə bağlı da məsələlər müzakirə edilib. Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Rasim Əliquliyev Qurultayın Elm, təhsil və texnologiya komissiyasının iclasındakı çıxışında xaricdə yaşayan soydaşlarımıza milli-mənəvi irsimizin, tariximizin öyrədilməsinə ciddi ehtiyac duyulduğunu nəzərə alaraq, bu sahədə virtual məkanın imkanlarından daha geniş şəkildə faydalanmağın vacibliyini vurğulayıb. 2008-ci il dekabrın 18-19-da Bakı şəhərində keçirilən Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının toplantısında Azərbaycan həqiqətlərinin təbliği, lobbi quruculuğu, soydaşlarımızın yaşadıqları ölkələrdə cəmiyyətə inteqrasiyası, ictimai-siyasi proseslərdə daha fəal iştirakının təmin olunması ilə bağlı bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Toplantı çərçivəsində rəy və təkliflər nəzərə alınmaqla əsas kimi qəbul olunan «Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası» layihəsinin 12.15.-ci bəndində xarici ölkələrdə yaşayan azərbaycanlı uşaqlara və gənclərə müasir informasiya texnologiyaları vasitəsilə ana dilini, Azərbaycan tarixini, mədəniyyətini, coğrafiyasını tədris etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutu ilə birlikdə "Virtual həftə sonu məktəbi"nin yaradılması nəzərdə tutulub.

Layihənin həyata keçirilməsinə 2009-cu ildə başlanılıb. Bu zaman müxtəlif ölkələrin bu sahədəki təcrübəsi öyrənilib. Layihə Azərbaycan Təhsil Nazirliyinin müvafiq tədris proqramları, dərs vəsaitləri, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının test vəsaitləri əsasında hazırlanıb.

Layihənin geniş təqdimatından sonra suallar verilib və təkliflər səsləndirilib. Çıxış edənlər gələcəkdə "Virtual Həftəsonu Məktəbi"ndə uşaq nağılları, mahnılarının səsli və görüntülü şəkildə yerləşdirilməsi, bu portalın linkinin diaspor təşkilatlarının internet saytlarında yer alması və digər maraqlı təkliflər irəlü sürüblər. Qeyd olunub ki, Azərbaycandan kənarda yaşayan ailələrdə yeni dünyaya gələn və ilk təhsili başqa cəmiyyətdə almağa başlayan uşaqlar Ana dilini o qədər də mükəmməl bilmirlər və onların doğma dilini bu portal vasitəsilə yaxşı öyrənə bilmələri üçün, eyni zamanda digər xalqların nümayəndələrinin də "Virtual Həftəsonu Məktəbi"ndən istifadə edə bilməsi məqsədilə saytın ingilis dilində variantının hazırlanması da vacibdir. Bu təklifin ən yaxın zamanda reallaşdırılması tövsiyə olunub. Gənc soydaşlarımız bu layihənin önəmindən danışaraq onu hazırlayan hər iki quruma və mütəxəssislərə təşəkkür ediblər.

Konqresin işi növbəti panellərlə davam edir. Tədbir bu gün yekun sənədlərin qəbulu ilə başa çatacaq. Qeyd edək ki, konqresi Diasporla İş üzrə Dövlət Komitəsi Gənclər və İdman Nazirliyi ilə birgə təşkil edib. Tədbir Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi «Azərbaycan Gəncliyi Dövlət Proqramı»na uyğun olaraq keçirilir. Tədbirdə Azərbaycandan 41 gənclər təşkilatının nümayəndəsi, dünyaın 23 ölkəsindən 131 gənclər təşkilatının nümayəndəsi, 25 ölkədən 41 diaspor təşkilatının rəhbəri iştirak edirlər. Toplantıya fəaliyyət göstərdiyi qısa müddət ərzində kifayət qədər böyük işlər görməyə müvəffəq olmuş Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı–RAGT (AMOR) 23 nəfərlik nümayəndə heyəti ilə qatılıb. Qeyd edək ki, Dünya Azərbaycanlı Gənclərinin I Konqresinin təşkili xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuğu işinə cəlb olunması, ictimai-siyasi fəallığının artırılması, tarixi Vətənlə əlaqələrinin möhkəmləndirilməsi məqsədinə xidmət edir.

28 noyabr 2010

Almaniyanın Frankfurt şəhərində keçirilən «The Westin Grand» otelində
Dünya Azərbaycanlı Gənclərin I Konqresi başa çatıb

Qeyd edək ki, konqresi Diasporla İş üzrə Dövlət Komitəsi Gənclər və İdman Nazirliyi ilə birgə təşkil edib. Tədbir Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi «Azərbaycan Gəncliyi Dövlət Proqramı»na uyğun olaraq keçirilir. Tədbirdə Azərbaycandan 41 gənclər təşkilatının nümayəndəsi, dünyaın 23 ölkəsindən 131 gənclər təşkilatının nümayəndəsi, 25 ölkədən 41 diaspor təşkilatının rəhbəri iştirak edirlər.

Toplantıya fəaliyyət göstərdiyi qısa müddət ərzində kifayət qədər böyük işlər görməyə müvəffəq olmuş Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı–RAGT (AMOR) 23 nəfərlik nümayəndə heyəti ilə qatılıb. Qeyd edək ki, Dünya Azərbaycanlı Gənclərinin I Konqresinin təşkili xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuğu işinə cəlb olunması, ictimai-siyasi fəallığının artırılması, tarixi Vətənlə əlaqələrinin möhkəmləndirilməsi məqsədinə xidmət edir.

Tədbirin ikinci günü "Virtual həftə sonu məktəbi»nin təqdimatı ilə başlayıb. Toplantını Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov açıb və layihə barədə məlumat verib. Layihənin təqdimatını Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Rasim Əliquliyev edib. O bildirib ki, bütün dünya azərbaycanlılarını bir araya toplamaq üçün informasiya texnologiyalarından istifadə etmək ən müasir, səmərəli və zəruri vasitədir. O Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi altında sürətlə yaradılan informasiya cəmiyyəti haqqında geniş məlumat verib.

"Virtual həftə sonu məktəbi» barədə danışan Rasim Əliquliyev deyib ki, layihənin məqsədi xarici ölkələrdə yaşayan azərbaycanlı uşaqlara və gənclərə müasir informasiya texnologiyaları vasitəsilə ana dili, Azərbaycan tarixi, mədəniyyəti və coğrafiyasının tədris edilməsi, soydaşlarımızın milli ruhda tərbiyə olunmasına xidmət etməkdir. "Virtual həftə sonu məktəbi" xarici ölkələrdə yaşayan və Azərbaycan haqqında yetərli bilgisi olmayan hər bir azərbaycanlı gəncə virtual məkanın imkanlarından istifadə edərək ana dilini öyrənmək, doğma Vətənin tarixini, coğrafiyasını, ədəbiyyatını və mədəniyyətini mənimsəmək imkanı yaradır.

Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunun əməkdaşları layihənin bütün texniki incəlikləri və istifadə qaydası barədə iştirakçıları bilgiləndiriblər. Bildirilib ki, burada bir neçə istiqamət üzrə məlumat əldə etmək mümkündür.

"Ana dili" bölməsində Azərbaycan dilinin qramatikası, fonetika, leksika, morfologiya, köməkçi nitq hissələri, sintaksis dərsləri yerləşdirilib. Burada Azərbaycan dilinin qanunauyğunluqları barədə ətraflı məlumat əldə etmək olar. Bölmədə hər bir mövzu ayrıca dərs kimi yerləşdirilib. "Azərbaycan coğrafiyası" bölməsində Azərbaycanın fiziki və iqtisadi coğrafiyası barədə məlumatlar öz əksini tapıb.

Burada Azərbaycanın relyefi, flora və faunası, iqlimi barədə ətraflı məlumat verilir. İqtisadi coğrafiya alt bölməsində Azərbaycanın iqtisadi regionları, onların ölkənin iqtisadi sistemində yeri və rolu, ölkəmizin təbii sərvətləri, sənaye və kənd təsərrüfatının inkişaf tempi barədə informasiyalar yer alıb. "Azərbaycan tarixi" bölməsi Azərbaycanın ən qədim dövrlərdən müasir günümüzə qədər olan tarixini əhatə edir. Bu bölmədə tarixi proseslər barədə xronoloji ardıcıllıqla məlumat verilib. "Azərbaycan tarixi" bölməsindən, həmçinin Azərbaycan ərazisində yaranmış dövlətlər, onların taleyi, xalqımızın görkəmli tarixi şəxsiyyətləri haqqında zəruri məlumatları əldə etmək mümkündür.

Qeyd olunub ki, bu bölmə digər bölmələrdən daha genişdir və burada əyani vəsaitlərdən daha çox istifadə edilib. Azərbaycan ədəbiyyatı bölməsində Azərbaycanın yazılı və şifahi ədəbiyyatı, xalqımızın əsrarəngiz ədəbi nümunələri, dünya miqyasında şöhrət qazanmış görkəmli şair və yazıçılarının əsərləri, klassik ədəbiyyatımızın korifeyləri, onların həyat və yaradıcılığı barədə məlumat yerləşdirilib.

Bu bölmədə, həmçinin şifahi xalq ədəbiyyatının ən sanballı nümunələri ilə də tanış olmaq mümkündür. Layihənin üstünlüyü ondadır ki, burada mövzuları video və audio vasitələrdən istifadə edərək mənimsəmək imkanı var. Bundan başqa mövzulara uyğun əyani vəsaitlər, foto, video və audio materiallar yerləşdirilmişdir. Saytda müvafiq mövzulara dair web-saytlara keçidlər də verilib. Məktəbin vəsaitlərindən istifadə etmək üçün buraya üzv olmaq vacib şərt deyil. Lakin layihədə iştirak etmək və sertifikat almaq üçün hər bir istifadəçinin məktəbə üzv olması və "online" imtahandan keçməsi lazımdır.

Bunun üçün saytda göstərilmiş məlumat blankını doldurmaq tələb olunur. Məlumat blankında göstərilmiş yanlış informasiyalara görə sənədi dolduran istifadəçi məsuliyyət daşıyır. Qeyd edək ki, bu ideya ilk dəfə olaraq, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2007-ci ilin noyabrın 17-19-da Bakıda keçirilmiş Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayında irəli sürülüb.

Qurultay çərçivəsində türkdilli xalqlar arasında elm, texnika, mədəniyyət, təhsil, iqtisadiyyat, ticarət, turizm və maliyyə sahələrində əməkdaşlıq, türk dünyasının mədəni irsinin təbliği, türk gəncliyinin qarşısında duran vəzifələr, onların milli ruhda tərbiyə olunması problemləri, müasir qloballaşma proseslərinin xalqlarımızın həyatına təsiri ilə bağlı da məsələlər müzakirə edilib.

Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Rasim Əliquliyev Qurultayın Elm, təhsil və texnologiya komissiyasının iclasındakı çıxışında xaricdə yaşayan soydaşlarımıza milli-mənəvi irsimizin, tariximizin öyrədilməsinə ciddi ehtiyac duyulduğunu nəzərə alaraq, bu sahədə virtual məkanın imkanlarından daha geniş şəkildə faydalanmağın vacibliyini vurğulayıb. 2008-ci il dekabrın 18-19-da Bakı şəhərində keçirilən Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının toplantısında Azərbaycan həqiqətlərinin təbliği, lobbi quruculuğu, soydaşlarımızın yaşadıqları ölkələrdə cəmiyyətə inteqrasiyası, ictimai-siyasi proseslərdə daha fəal iştirakının təmin olunması ilə bağlı bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Toplantı çərçivəsində rəy və təkliflər nəzərə alınmaqla əsas kimi qəbul olunan «Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası» layihəsinin 12.15.-ci bəndində xarici ölkələrdə yaşayan azərbaycanlı uşaqlara və gənclərə müasir informasiya texnologiyaları vasitəsilə ana dilini, Azərbaycan tarixini, mədəniyyətini, coğrafiyasını tədris etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutu ilə birlikdə "Virtual həftə sonu məktəbi"nin yaradılması nəzərdə tutulub.

Layihənin həyata keçirilməsinə 2009-cu ildə başlanılıb. Bu zaman müxtəlif ölkələrin bu sahədəki təcrübəsi öyrənilib. Layihə Azərbaycan Təhsil Nazirliyinin müvafiq tədris proqramları, dərs vəsaitləri, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının test vəsaitləri əsasında hazırlanıb.

Layihənin geniş təqdimatından sonra suallar verilib və təkliflər səsləndirilib. Çıxış edənlər gələcəkdə "Virtual Həftəsonu Məktəbi"ndə uşaq nağılları, mahnılarının səsli və görüntülü şəkildə yerləşdirilməsi, bu portalın linkinin diaspor təşkilatlarının internet saytlarında yer alması və digər maraqlı təkliflər irəlü sürüblər. Qeyd olunub ki, Azərbaycandan kənarda yaşayan ailələrdə yeni dünyaya gələn və ilk təhsili başqa cəmiyyətdə almağa başlayan uşaqlar Ana dilini o qədər də mükəmməl bilmirlər və onların doğma dilini bu portal vasitəsilə yaxşı öyrənə bilmələri üçün, eyni zamanda digər xalqların nümayəndələrinin də "Virtual Həftəsonu Məktəbi"ndən istifadə edə bilməsi məqsədilə saytın ingilis dilində variantının hazırlanması da vacibdir. Bu təklifin ən yaxın zamanda reallaşdırılması tövsiyə olunub. Gənc soydaşlarımız bu layihənin önəmindən danışaraq onu hazırlayan hər iki quruma və mütəxəssislərə təşəkkür ediblər.

Konqresin işi Dünya Türk Gəncləri Birliyinin sədri, millət vəkili Əkrəm Abdullayevin aparıcılıq etdiyi «Xaricdə yaşayan azərbaycanlı gənclərin cəmiyyətə inteqrasiyası» adlı üçüncü və «İnsan hüquq və aazadlıqlarının müdafiəsi gənclər təşkilatlarının fəaliyyətində» adlı 4-cü panellərlə davam edib. İlk olaraq Azərbaycan Respublikasının Belçikadakı səfiri Emin Eyyubov bu mpvzuda çıxış edib. Səfir bildirib ki, müxtəlif ölkələrdəki azərbaycanlıların yaşadıqları cəmiyyətə inteqrasiyası ən aktual məsələdir. Onlar Sovetlər Birliyi dağıldıqdan sonra, ölkəmizin müstəqilliyinin ilk illərində müxtəlif səbəblərdən digər dövlətlərə miqrasiya ediblər. Bu səbəbdən də onların yaşadıqları cəmiyyətə tam mənada interqrasuyasına hələ zaman lazımdır. Səfir Emin Eyyubov gənclərə tövsiyyə edib ki, təhsil aldıqları və yaşadıqları dövlətlərdə təmasda olduqları insalarla unsiyyət zamanı dərham Azərbaycanın qlobal problemlərindn danışmasınlar, çünki avropalılar sakit və sabit həyata alışdıqları üçün problemlərdən uzaq durmaq istəyirlər. "Bunun üçün də ilk olaraq onlarla dostlaşmaq, Azərbaycan tarixi, mədəniyyəti, ədəbiyyatı, mətbəxindən danışmaq, evlərinizə qonaq dəvət etməlisiniz və bu cür yaranan ünsiyyət əsnasında da tədricən onların diqqətini ölkəmizin problemlərinə yönəltməlisiniz". Səfir belə deyib. Emin Eyybovun sözlərinə görə, ermənilər məhz bu yolla oz problemlərini yaşadıqları cəmiyyətin probleminə çevirə biliblər. Səfir gənclərə arzu edib ki, onlar savadlı və fəal insanlara çevrilsinlər və bu yolla milli problemlərimizin həllinə yaşadıqları cəmiyyətin diqqətini çəkə və bu problemlərin həllinə onların dəstəyini qazana bilsinlər.

Daha sonra Azərbaycan Gənclərinin Avro-Atlantika Təşkilatının sədri Ziya Qazıyev «Xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin cəmiyyətə inteqrasiyası sahəsində problemlər və onların həlli yolları», Almaniyanın Höttinqen Universitetinin doktorantı Vüsal Məmmədov «Xaricdə yaşayan azərbaycanlı gənclərin lobbi quruculuğu prosesində iştirakı», Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Şahin İsmayılov «Azərbaycanlı gənclər təşkilatlarının insan hüquqlarının qorunması sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əlaqələrinin qurulması və inkişaf etdirilməsi perspektivləri», BMT-nin Bakı ofisinin şöbə müdiri Məzahir Əfəndiyev «Xaricdə fəaliyyət göstərən azərbaycanlı gənclər təşkilatlarının yerli ictimai və dövlət qurumları, siyasi partiyalar, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələri ilə əlaqələri», Avropa Azərbaycanlıları Konqresi (AAK) İcraiyyə Komitəsinin üzvü, Norveç Azərbaycan Gənclər Assosiasiyasının (NAYO) sədri Ramil Əliyev «Vətəndaş cəmiyyətinin formalaşdırılmasında gənclər təşkilatlarının rolu» barədə çıxışlar səsləndiriblər. mövzularında məruzələrlə çıxış ediblər. Tədbirdə həmçinin Avropa Azərbaycan Cəmiyyətinin sədri Tale Heydərov çıxış edərək rəhbərlik etdiyi qurumun yaranma tarixi və bu günkü fəaliyyəti haqqında ətraflı məlumat verib. O bildirib ki, cəmiyyətin London, Berlin, Brüssel və Bakıda ofisləri fəakiyyət göstərir. Təşkilatın əsas məqsədi Azərbaycanı Avropada siyasi, iqtisadi və mədəni aspektdən tanıtmaqdır: "Siyasi aspektdən tanıtma deyəndə, biz ilk növbədə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünyaya çatdırmağı nəzərdə tuturuq. Bizim nəşrlərimiz var, kitab, jurnal və qəzet nəşri ilə məşğuluq.Azərbaycan barəsində «100 suala cavab» kitabı nəşr olunub, hər ay qəzetimiz çıxır, bir sıra Avropa ölkələrinin parlament üzvlərinə paylanır.

Xocalı soyqırımı haqqında nəşr etdiyimiz kitab dünyanın müxtəlif universitet və institutlarına paylanıb". Tale Heydərov qeyd edib ki, cəmiyyət yalnız Rusiya arxivlərində saxlanılan sənədlər əsasında hazırlanmış ermənilərin Qafqaza, o cümlədən hazırkı Ermənistana köçürülməsi haqqında faktlar və məlumatlardan ibarət 3 cildlik yeni kitabı çapa hazırlayır. Kitabın rus variantı artıq hazırdır, Azərbaycan və ingilis dili versiyaları isə hazırlanır. Bu kitab bütün dünyada yayılacaq. AAC-nin sədrinin sözlərinə görə, Azərbaycan və ayrıca olaraq Xocalı soyqırımı haqqında filmlər hazırlanır və gələn ilin əvvəllərində həmin filmlər Avropanın müxtəlif telekanallarında nümayiş etdiriləcək. O, Britaniya parlamentində «Azərbaycanın mühafizəkarlar dostu» qrupunun yaradılması barədə də məlumat verib və əlavə edib ki, Xocalı qətliamının tanınması üçün təkcə bu il parlamentdə 30-dan çox imza toplanıb. Tale Heydərov qeyd edib ki, Azərbaycan diplomatiyası və diasporunun fəaliyyəti nəticəsində Britaniya parlamentində Azərbaycan lobbisi erməni lobbisindən güclüdür və ermənilr özləri də bunu etiraf edirlər. AAC sədri onu da deyib ki, qurum siyasətçilərin və deputatların Azərbaycana səfərlərini təşkil edərək ölkəmizin tanıdılması məqsədilə layihələr həyata keçirir. Tale Heydərov həmçinin lobbiçilik işində "online" kampanilayarın əhəmiyyətindən də danışıb və AAC-nin bu kampaniyalardan uğurla istifadə etdiyini bildirib. Onun fikrincə, dünyada yaşayan soydaşlarımızı, azərbaycanlı gəncləri məhz bu cür kampaniyalara səfərbər etmək lazımdır. O deyib ki, AAC Avropadakı digər diaspor təşkilatları və gənclərdən ibarət qurumlarla əməkdaşlığa və birgə layihələr həyata keçirməyə həmişə hazırdır. Sonra Kanada Azərbaycan Əməkdaşlıq Assosiasyasının sədri İlham Axundov xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin lobbi quruculuğu prosesində iştirakı barədə çıxış edib.Amerika Azərbaycan Cəmiyyətinin sədri Tomris Azəri, Böyük Britaniyadakı "Sara Xatun" Cəmiyyətiib sədri Simuzər Baloğlanova, Hyuston-Baki Qardaşlaşmış Şəhərlər Assosiasiyasının sədri İradə Axundova, Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının sədri Bilal Dündar, Avropa Azərbaycanları Konqresinin prezidenti Başar Kömür və digər diaspor təşkilatlarının rəhbərləri mövzu ilə bağlı fikirlərini bölüşüblər. Müzakirələrdən sonra tədbirin yekun sənədləri qəbul edilib. Əvvəlcə Dünya Azərbaycanlı Gənclərinin I Konqresii qətnaməsi oxunub və təkliflər nəzərə alınmaqla qəbul edilib. Qətnamədə deyilir: "Azərbaycan Respublikasının son illərdə əldə etdiyi iqtisadi və siyasi nailiyyətlər bütün vətənpərvər azərbaycanlılar kimi, xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərdə də qürur hissi doğurur. Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Ilham Əliyevin rəhbərliyi altında həyata keçirilmiş ardıcıl islahatlar nəticəsində müasir Azərbaycan regionun ən güclü dövlətinə çevrilib. Təqdirəlayiq haldır ki, bu nailiyyətlərin əldə olunmasında gəncliyin də özünəməxsus yeri və rolu var. Eyni zamanda respublikanın artan siyasi və iqtisadi imkanları gənc nəslin təlim-tərbiyəsinin daha yüksək səviyyəyə qaldırılmasına, müasir düşüncə tərzi, universal dünyagörüşü, dərin intellektə malik kadr potensialının formalaqşdırılmasına yönəlmiş layihələrin də həyata keçirilməsinə öz təsirini göstərir." Sənəddə daha sonra bildirilir ki, Azərbaycan gənclərinin qarşısında böyük perspektivlər açılıb. Azərbaycan gəncliyi bu gün hər addımda öz arxasında qüdrətli bir dövlətin dayandığını hiss etməkdədir. Bu gəncliyin yüksək vətənpərvərlik ruhunda yetişməsinə, özünə inamının artmasına gələcəyə daha optimist nəzərlərlə baxmasına stimul yaradır. Dövlətin diqqət və qayğısı, dərin ictimai etimad, milli mənlik şüurunun inkişafı azərbaycanlı gəncləri ümummilli problemlərin həllində daha fəal iştiraka sövq edən əsas amillərdir.

Qətnamədə o da bildirilir ki, bu gün Azərbaycan gəncliyinin qarşısında bir sıra mühüm vəzifələr dayanmaqdadır. Torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi, bir milyondan çox insanın bu təcavüz nəticəsində öz yurd-yuvalarından didərgin salınması və xalqımızın məruz qaldığı soyqırım aktları barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, XX əsrin ən dəhşətli bəşəri cinayətlərindən biri kimi tarixin yaddaşına həkk olunmuş Xocalı soyqırımı müəlliflərinin ifşa olunması prosesində gənclərin iştirakı olduqca vacibdir. Qətnaməyə görə *Dünya Azərbaycanlı Gənclərinin I Konqresi* Azərbaycan Respublikasının ötən dövr ərzində əldə etdiyi iqtisadi, siyasi, habelə diplomatik nailiyyətləri yüksək qiymətləndirərək, Azərbaycanlı gəncləri narahat edən bir sıra ümummilli məsələləri müzakirə edərək, Azərbaycanın qaşılaşdığı bir sıra problemlərin həllində gənclərin üzərinə düşən vəzifələrin məsuliyyətini, milli dövlət quruculuğu prosesində rolunun əhəmiyyətini dərk edərək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, xalqımızın məruz qaldığı terror və soyqırım aktları, Ermənistanın təcavüzkar siyasətinin nəticələri barədə dünya ictimaiyyətinin daha dolğun və obyektiv məlumatlandırılmasının zəruriliyini anlayaraq, diaspor təşkilatları arasında qarşılıqlı əməkdaşlığın dərinləşdirilməsinin önəmini başa düşərək, xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuğu işində daha fəal iştirakı, milli-mənəvi dəyərlərinin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi, yerli cəmiyyətə inteqrasiyasının vacibliyini nəzərə alaraq qərara alır ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən gənclər təşkilatları ilə xarici ölkələrdə yaşayan azərbaycanlı gənclər tərəfindən təsis olunmuş qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində səylər gücləndirilsin, xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin milli-mənəvi dəyərlərə uyğun tərbiyə olunması məqsədilə Azərbaycan Respublikasının elm, təhsil, gənclərlə iş, idman və mədəniyyət sahələri üzrə dövlət qurumları ilə əməkdaşlıq inkişaf etdirilsin, beynəlxalq aləmdə ümumi maraqlardan irəli gələn fəaliyyətin genişləndirilməsi məqsədlə BMT və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq inkişaf etdirilsin, müxtəlif ölkələrin yerli gənclər təşkilatları ilə işbirliyi dərinləşdirilsin.

Sənəd həmçinin xarici ölkələrdə təhsil alan və yaşayan azərbaycanlı gənclərin problemlərinin həllində səylərin birləşdirilməsini, yüksək nəticələr əldə etmiş gənclərə həvəsləndirici mükafatların verilməsini nəzərdə tutur. 1915-ci il hadisələri ilə bağlı ermənilərin saxta soyqırım iddialarının beynəlxalq miqyasda ifşa edilməsi məqsədilə türkdilli gənclərin təsis etdiyi diaspor təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi də konqresin qətnaməsinə daxil edilib. Qətnamənin daha bir bəndinə görə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, azərbaycanlıların məruz qaldığı terror və soyqırım aktları barədə beynəlxalq təbliğat kampaniyalarının təşkili istiqamətində səylər birləşdiriləcək. Sənəddə Islam Konfransı Təşkilatının Gənclər Forumunun həyata keçirdiyi «Xocalıya ədalət – Qarabağa azadlıq» beynəlxalq kampaniyasında xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin daha fəal iştirakının təmin edilməsi istiqamətində birgə tədbirlərin görülməsi, virtual məkandakı sosial şəbəkələrdə Azərbaycanın təbliği, xalqımızın tarixi və müasir həyatı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması məqsədilə həyata keçirilən layihələrdə azərbaycanlı gənclərin daha fəal iştirakı, habelə bu tipli yeni layihələrin yaradılması, xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin hüquq və azadlıqlarının müdafiəsi sahəsində azərbaycanlı gənclər təşkilatları arasında əməkdaşlığın genişləndirilməsi, bəzi ölkələrdə miqrantlarla bağlı qanunvericiliyin sərtləşdirilməsi ilə əlaqədar azərbaycanlı miqrantlar arasında maarifləndirmə işinin genişləndirilməsi, digər xalqların diasporları ilə məsləhətləşmələr əsasında bu dəyişikliklərin miqrantlar üçün yaratdığı çətinliklərin aradan qaldırılması istiqamətində tədbirlərin görülməsi, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı uşaq və gənclərin milli-mənəvi ruhda tərbiyə olunması, ana dilini mənimsəməsi, gənc istedadların öz potensialını reallaşdırılmasına dəstək verilməsi məqsədilə layihələrin həyata keçirilməsi, xarici ölkə vətəndaşları tərəfindən qəyyumluğa götürülmüş azərbaycanlı uşaqlarla əlaqələrin qurulması, onlarla mütəmadi görüşlərin təşkil edilməsi kimi müddəalar da əksini tapıb.

Konqresin işi Dünya Türk Gəncləri Birliyinin sədri, millət vəkili Əkrəm Abdullayevin aparıcılıq etdiyi «Xaricdə yaşayan azərbaycanlı gənclərin cəmiyyətə iteqrasiyası» adlı üçüncü və «İnsan hüquq və azadlıqlarının müdafiəsi gənclər təşkilatlarının fəaliyyətində» adlı 4-cü panellərlə davam edib. İlk olaraq Azərbaycan Respublikasının Belçikadakı səfiri Emin Eyyubov bu mpvzuda çıxış edib. Səfir bildirib ki, müxtəlif ölkələrdəki azərbaycanlıların yaşadıqları cəmiyyətə inteqrasiyası ən aktual məsələdir. Onlar Sovetlər Birliyi dağıldıqdan sonra, ölkəmizin müstəqilliyinin ilk illərində müxtəlif səbəblərdən digər dövlətlərə miqrasiya ediblər. Bu səbəbdən də onların yaşadıqları cəmiyyətə tam mənada interqrasuyasına hələ zaman lazımdır. Səfir Emin Eyyubov gənclərə tövsiyyə edib ki, təhsil aldıqları və yaşadıqları dövlətlərdə təmasda olduqları insalarla unsiyyət zamanı dərham Azərbaycanın qlobal problemlərindn danışmasınlar, çünki avropalılar sakit və sabit həyata alışdıqları üçün problemlərdən uzaq durmaq istəyirlər. “Bunun üçün də ilk olaraq onlarla dostlaşmaq, Azərbaycan tarixi, mədəniyyəti, ədəbiyyatı, mətbəxindən danışmaq, evlərinizə qonaq dəvət etməlisiniz və bu cür yaranan ünsiyyət əsnasında da tədricən onların diqqətini ölkəmizin problemlərinə yönəltməlisiniz”. Səfir belə deyib. Emin Eyybovun sözlərinə görə, ermənilər məhz bu yolla oz problemlərini yaşadıqları cəmiyyətin probleminə çevirə biliblər. Səfir gənclərə arzu edib ki, onlar savadlı və fəal insanlara çevrilsinlər və bu yolla milli problemlərimizin həllinə yaşadıqları cəmiyyətin diqqətini çəkə və bu problemlərin həllinə onların dəstəyini qazana bilsinlər.

Daha sonra Azərbaycan Gənclərinin Avro-Atlantika Təşkilatının sədri Ziya Qazıyev «Xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin cəmiyyətə inteqrasiyası sahəsində problemlər və onların həlli yolları», Almaniyanın Höttinqen Universitetinin doktorantı Vüsal Məmmədov «Xaricdə yaşayan azərbaycanlı gənclərin lobbi quruculuğu prosesində iştirakı», Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Şahin İsmayılov «Azərbaycanlı gənclər təşkilatlarının insan hüquqlarının qorunması sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əlaqələrinin qurulması və inkişaf etdirilməsi perspektivləri», BMT-nin Bakı ofisinin şöbə müdiri Məzahir Əfəndiyev «Xaricdə fəaliyyət göstərən azərbaycanlı gənclər təşkilatlarının yerli ictimai və dövlət qurumları, siyasi partiyalar, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələri ilə əlaqələri», Avropa Azərbaycanlıları Konqresi (AAK) İcraiyyə Komitəsinin üzvü, Norveç Azərbaycan Gənclər Assosiasiyasının (NAYO) sədri Ramil Əliyev «Vətəndaş cəmiyyətinin formalaşdırılmasında gənclər təşkilatlarının rolu» barədə çıxışlar səsləndiriblər. mövzularında məruzələrlə çıxış ediblər.

Tədbirdə həmçinin Avropa Azərbaycan Cəmiyyətinin sədri Tale Heydərov çıxış edərək rəhbərlik etdiyi qurumun yaranma tarixi və bu günkü fəaliyyəti haqqında ətraflı məlumat verib. O bildirib ki, cəmiyyətin London, Berlin, Brüssel və Bakıda ofisləri fəakiyyət göstərir. Təşkilatın əsas məqsədi Azərbaycanı Avropada siyasi, iqtisadi və mədəni aspektdən tanıtmaqdır: “Siyasi aspektdən tanıtma deyəndə, biz ilk növbədə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünyaya çatdırmağı nəzərdə tuturuq. Bizim nəşrlərimiz var, kitab, jurnal və qəzet nəşri ilə məşğuluq. Azərbaycan barəsində «100 suala cavab» kitabı nəşr olunub, hər ay qəzetimiz çıxır, bir sıra Avropa ölkələrinin parlament üzvlərinə paylanır. Xocalı soyqırımı haqqında nəşr etdiyimiz kitab dünyanın müxtəlif universitet və institutlarına paylanıb”. Tale Heydərov qeyd edib ki, cəmiyyət yalnız Rusiya arxivlərində saxlanılan sənədlər əsasında hazırlanmış ermənilərin Qafqaza, o cümlədən hazırkı Ermənistana köçürülməsi haqqında faktlar və məlumatlardan ibarət 3 cildlik yeni kitabı çapa hazırlayır.

Kitabın rus variantı artıq hazırdır, Azərbaycan və ingilis dili versiyaları isə hazırlanır. Bu kitab bütün dünyada yayılacaq. AAC-nin sədrinin sözlərinə görə, Azərbaycan və ayrıca olaraq Xocalı soyqırımı haqqında filmlər hazırlanır və gələn ilin əvvəllərində həmin filmlər Avropanın müxtəlif telekanallarında nümayiş etdiriləcək. O, Britaniya parlamentində «Azərbaycanın mühafizəkarlar dostu» qrupunun yaradılması barədə də məlumat verib və əlavə edib ki, Xocalı qətliamının tanınması üçün təkcə bu il parlamentdə 30-dan çox imza toplanıb. Tale Heydərov qeyd edib ki, Azərbaycan diplomatiyası və diasporunun fəaliyyəti nəticəsində Britaniya parlamentində Azərbaycan lobbisi erməni lobbisindən güclüdür və ermənilər özləri də bunu etiraf edirlər. AAC sədri onu da deyib ki, qurum siyasətçilərin və deputatların Azərbaycana səfərlərini təşkil edərək ölkəmizin tanıdılması məqsədilə layihələr həyata keçirir. Tale Heydərov həmçinin lobbiçilik işində "online" kampanilayarın əhəmiyyətindən də danışıb və AAC-nin bu kampaniyalardan uğurla istifadə etdiyini bildirib. Onun fikrincə, dünyada yaşayan soydaşlarımızı, azərbaycanlı gəncləri məhz bu cür kampaniyalara səfərbər etmək lazımdır. O deyib ki, AAC Avropadakı digər diaspor təşkilatları və gənclərdən ibarət qurumlarla əməkdaşlığa və birgə layihələr həyata keçirməyə həmişə hazırdır. Sonra Kanada Azərbaycan Əməkdaşlıq Assosiasyasının sədri İlham Axundov xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin lobbi quruculuğu prosesində iştirakı barədə çıxış edib.Amerika Azərbaycan Cəmiyyətinin sədri Tomris Azəri, Böyük Britaniyadakı "Sara Xatun" Cəmiyyətiib sədri Simuzər Baloğlanova, Hyuston-Baki Qardaşlaşmış Şəhərlər Assosiasiyasının sədri İradə Axundova, Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının sədri Bilal Dündar, Avropa Azərbaycanları Konqresinin prezidenti Başar Kömür və digər diaspor təşkilatlarının rəhbərləri mövzu ilə bağlı fikirlərini bölüşüblər. Müzakirələrdən sonra tədbirin yekun sənədləri qəbul edilib. Əvvəlcə Dünya Azərbaycanlı Gənclərinin I Konqresii qətnaməsi oxunub və təkliflər nəzərə alınmaqla qəbul edilib. Qətnamədə deyilir: "Azərbaycan Respublikasının son illərdə əldə etdiyi iqtisadi və siyasi nailiyyətlər bütün vətənpərvər azərbaycanlılar kimi, xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərdə də qürur hissi doğurur. Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Ilham Əliyevin rəhbərliyi altında həyata keçirilmiş ardıcıl islahatlar nəticəsində müasir Azərbaycan regionun ən güclü dövlətinə çevrilib.

Təqdirəlayiq haldır ki, bu nailiyyətlərin əldə olunmasında gəncliyin də özünəməxsus yeri və rolu var. Eyni zamanda respublikanın artan siyasi və iqtisadi imkanları gənc nəslin təlim-tərbiyəsinin daha yüksək səviyyəyə qaldırılmasına, müasir düşüncə tərzi, universal dünyagörüşü, dərin intellektə malik kadr potensialının formalaqşdırılmasına yönəlmiş layihələrin də həyata keçirilməsinə öz təsirini göstərir." Sənəddə daha sonra bildirilir ki, Azərbaycan gənclərinin qarşısında böyük perspektivlər açılıb. Azərbaycan gəncliyi bu gün hər addımda öz arxasında qüdrətli bir dövlətin dayandığını hiss etməkdədir. Bu gəncliyin yüksək vətənpərvərlik ruhunda yetişməsinə, özünə inamının artmasına gələcəyə daha optimist nəzərlərlə baxmasına stimul yaradır. Dövlətin diqqət və qayğısı, dərin ictimai etimad, milli mənlik şüurunun inkişafı azərbaycanlı gəncləri ümummilli problemlərin həllində daha fəal iştiraka sövq edən əsas amillərdir.Qətnamədə o da bildirilir ki, bu gün Azərbaycan gəncliyinin qarşısında bir sıra mühüm vəzifələr dayanmaqdadır. Torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi, bir milyondan çox insanın bu təcavüz nəticəsində öz yurd-yuvalarından didərgin salınması və xalqımızın məruz qaldığı soyqırım aktları barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, XX əsrin ən dəhşətli bəşəri cinayətlərindən biri kimi tarixin yaddaşına həkk olunmuş Xocalı soyqırımı müəlliflərinin ifşa olunması prosesində gənclərin iştirakı olduqca vacibdir. Qətnaməyə görə *Dünya Azərbaycanlı Gənclərinin I Konqresi* Azərbaycan Respublikasının ötən dövr ərzində əldə etdiyi iqtisadi, siyasi, habelə diplomatik nailiyyətləri yüksək qiymətləndirərək, Azərbaycanlı gəncləri narahat edən bir sıra ümummilli məsələləri müzakirə edərək, Azərbaycanın qaşılaşdığı bir sıra problemlərin həllində gənclərin üzərinə düşən vəzifələrin məsuliyyətini, milli dövlət quruculuğu prosesində rolunun əhəmiyyətini dərk edərək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, xalqımızın məruz qaldığı terror və soyqırım aktları, Ermənistanın təcavüzkar siyasətinin nəticələri barədə dünya ictimaiyyətinin daha dolğun və obyektiv məlumatlandırılmasının zəruriliyini anlayaraq, diaspor təşkilatları arasında qarşılıqlı əməkdaşlığın dərinləşdirilməsinin önəmini başa düşərək, xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuğu işində daha fəal iştirakı, milli-mənəvi dəyərlərinin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi, yerli cəmiyyətə inteqrasiyasının vacibliyini nəzərə alaraq qərara alır ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən gənclər təşkilatları ilə xarici ölkələrdə yaşayan azərbaycanlı gənclər tərəfindən təsis olunmuş qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində səylər gücləndirilsin, xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin milli-mənəvi dəyərlərə uyğun tərbiyə olunması məqsədilə Azərbaycan Respublikasının elm, təhsil, gənclərlə iş, idman və mədəniyyət sahələri üzrə dövlət qurumları ilə əməkdaşlıq inkişaf etdirilsin, beynəlxalq aləmdə ümumi maraqlardan irəli gələn fəaliyyətin genişləndirilməsi məqsədlə BMT və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq inkişaf etdirilsin, müxtəlif ölkələrin yerli gənclər təşkilatları ilə işbirliyi dərinləşdirilsin. Sənəd həmçinin xarici ölkələrdə təhsil alan və yaşayan azərbaycanlı gənclərin problemlərinin həllində səylərin birləşdirilməsini, yüksək nəticələr əldə etmiş gənclərə həvəsləndirici mükafatların verilməsini nəzərdə tutur. 1915-ci il hadisələri ilə bağlı ermənilərin saxta soyqırım iddialarının beynəlxalq miqyasda ifşa edilməsi məqsədilə türkdilli gənclərin təsis etdiyi diaspor təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi də konqresin qətnaməsinə daxil edilib.

Qətnamənin daha bir bəndinə görə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, azərbaycanlıların məruz qaldığı terror və soyqırım aktları barədə beynəlxalq təbliğat kampaniyalarının təşkili istiqamətində səylər birləşdiriləcək. Sənəddə Islam Konfransı Təşkilatının Gənclər Forumunun həyata keçirdiyi «Xocalıya ədalət-Qarabağa azadlıq» beynəlxalq kampaniyasında xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin daha fəal iştirakının təmin edilməsi istiqamətində birgə tədbirlərin görülməsi, virtual məkandakı sosial şəbəkələrdə Azərbaycanın təbliği, xalqımızın tarixi və müasir həyatı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması məqsədilə həyata keçirilən layihələrdə azərbaycanlı gənclərin daha fəal iştirakı, habelə bu tipli yeni layihələrin yaradılması, xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin hüquq və azadlıqlarının müdafiəsi sahəsində azərbaycanlı gənclər təşkilatları arasında əməkdaşlığın genişləndirilməsi, bəzi ölkələrdə miqrantlarla bağlı qanunvericiliyin sərtləşdirilməsi ilə əlaqədar azərbaycanlı miqrantlar arasında maarifləndirmə işinin genişləndirilməsi, digər xalqların diasporları ilə məsləhətləşmələr əsasında bu dəyişikliklərin miqrantlar üçün yaratdığı çətinliklərin aradan qaldırılması istiqamətində tədbirlərin görülməsi, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı uşaq və gənclərin milli-mənəvi ruhda tərbiyə olunması, ana dilini mənimsəməsi, gənc istedadların öz potensialını reallaşdırılmasına dəstək verilməsi məqsədilə layihələrin həyata keçirilməsi, xarici ölkə vətəndaşları tərəfindən qəyyumluğa götürülmüş azərbaycanlı uşaqlarla əlaqələrin qurulması, onlarla mütəmadi görüşlərin təşkil edilməsi kimi müddəalar da əksini tapıb. Dünya Azərbaycanlı Gənclərin I Konqresi işini başa çatdırıb. Qətnaməyə görə, Dünya Azərbaycanlı Gəncləri I Konqresi Niderland Krallığının Den Haaqa şəhərində keçirilmiş, Azərbaycan dövləti əleyhinə, Azərbaycan xalqının milli maraqlarına qarşı yönəlmiş aksiyanı qətiyyətlə pisləyir, bu cür təşəbbüsləri separatçılıq və bölücülük cəhdi kimi qiymətləndirir, bütün soydaşlarımızı belə qüvvələrə qarşı mübarizə aparmağa çağırır. Yekun sənədə görə Dünya Azərbaycanlı Gənclərinin Konqresləri üç ildən bir keçiriləcək və II Konqresin Moskva şəhərində keçirilməsi məqsədəuyğun hesab edilir. Qətnamə Azərbaycanlı gənclər təşkilatlarının diaspor quruculuğu, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, milli-mənəvi dəyərlərimizin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi, mədəni irsimizin təbliği istiqamətində fəaliyyətinin koordinasiya edilməsi məqsədilə Dünya Azərbaycanlı Gəncləri Birliyinin təsis edilməsi ideyasını dəstəkləyir.

Beləliklə, Konqresin qətnaməsinə əsasən sonda Dünya Azərbaycanlı Gəncləri Birliyinin təsis edilməsi ilə əlaqədar Təşəbbüs qrupu yaradılıb.

Sonra Dünya Azərbaycanlı Gənclərin I Konqresinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciəti qəbul olunub. Müraciətdə deyilir: "Biz-Dünya Azərbaycanlı Gənclərinin I Konqresi iştirakçıları xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuğu işinə cəlb olunması, ictimai-siyasi fəallığının artırılması, tarixi Vətənlə əlaqələrinin möhkəmləndirilməsi sahəsində qarşıda duran vəzifələri müzakirə etmək imkanı yaradan bu toplantının təşkilinə verdiyiniz yüksək dəstəyə görə Sizə öz dərin minnətdarlığımızı bildiririk. Müxtəlif ölkələrdə fəaliyyət göstərən Azərbaycan gənclər təşkilatları nümayəndələrinin iştirakı ilə keçirilən bu tədbir Azərbaycan Respublikasının gənclərin ictimai-siyasi həyatda iştirakına verdiyi xüsusi önəmin parlaq təzahürüdür. Biz Azərbaycan Respublikasının son illər ərzində əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirərək bildiririk ki, bu nailiyyətlərin davam etdirilməsi, eyni zamanda doğma Vətənin qarşısında duran bir sıra taleyüklü problemlərin həllinə öz töhfələrimizi verməyə hazırıq. İnanırıq ki, sivilizasiyaların qovşağında yerləşən Azərbaycan milli-mənəvi dəyərlərini qorumaqla, qloballaşan dünyaya sürətlə inteqrasiya edəcək, inkişaf etmiş ölkələrin sırasında dayanacaq. Ölkəmizin zəngin təbii sərvətləri, iqtisadi potensialı, yüksək intellektual imkanlara malik insani resursları və seçdiyi strateji yol belə düşünməyimizə əsas verən başlıca amillərdir. Dünya Azərbaycanlı Gənclərin I Konqresi milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi, diaspor və lobbi quruculuğu, Azərbaycan həqiqətlərinin təbliği, soydaşlarımızın yaşadığı ölkələrdə ictimai-siyasi həyata fəal inteqrasiyası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinin daha obyektiv məlumatlandırılması ilə bağlı bir sıra mühüm məsələləri müzakirə etdi. Azərbaycanlı gənclərin Vətənə məhəbbət, xalqımızın tarixi, mədəni irsi, dövlət dili və rəmzləri, milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə olunması, onların potensialının ölkəmizin inkişafına cəlb olunması, eyni zamanda yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakı, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən gənclər təşkilatları ilə əlaqələrinin qurulması və inkişaf etdirilməsi, hüquq və azadlıqlarının müdafiəsi məsələləri ətrafında geniş fikir mübadiləsi aparıldı. Diqqətinizə çatdırmaq istərdik ki, Konqres nümayəndələri ölkənin inkişafı və tərəqqisi, eləcə də milli diaspor quruculuğu və gənclərlə iş sahəsində Azərbaycan dövlətinin gördüyü işlərin əhəmiyyətini yüksək qiymətləndirir. Bununla yanaşı biz hesab edirik ki, azərbaycanlı gənclər bu siyasətə daha fəal dəstək verməli, ümummilli mənafelərdən irəli gələn məsələlərin həllində daha yüksək templə iştirak etməlidir. Dünya Azərbaycanlı Gənclərin I Konqresi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlar prosesi, eyni zamanda ölkəmizin milli maraqları ilə bilavasitə bağlı olan digər məsələlərdə Sizin nümayiş etdirdiyiniz qətiyyəti və prinsipial mövqeyi dəstəkləyir, Azərbaycan Respublikasının Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi ölkənin ərazi bütövlüyünün bərpası, torpaqlarımızın işğalçılardan təmizlənməsi haqqında qəbul edəcəyiniz qərarı səbirsizliklə gözləyirik.

Biz - Dünya Azərbaycanlı Gənclərin I Konqresinin iştirakçıları Sizi əmin edirik ki, dünyanın hər hansı bir ölkəsində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı gənc Azərbaycan xalqının milli maraqlarının qorunması naminə bütün gücü ilə mübarizə aparmaq, Azərbaycan Respublikası Prezidentinə daim dəstək vermək əzmindədir. "Tədbirin daha bir yekun sənədi olaraq Dünya Azərbaycanlı Gənclərin I Konqresinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına müraciət qəbul edilib. Müraciətdə deyilir: "Biz -Dünya Azərbaycanlı Gəncləri I Konqresinin iştirakçıları 22 ildir ki, davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dərin narahatlığımızı ifadə edir və bu münaqişənin regional sülhə və təhlükəsizliyə ən ciddi təhdid olduğunu bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırırıq. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 30 mindən çox azərbaycanlı qətlə yetiriib, Azərbaycan ərazilərinin 20 faizi işğal olunub, bir milyona yaxın insan doğma torpaqlarından didərgin salınaraq, qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, 50 mindən çox insan yaralanmış və ya əlil olub. 890 yaşayış məntəqəsi, 150 min ev, 7 min inzibati bına, 693 məktəb, 855 uşaq bağçası, 695 sağlamlıq mərkəzi, 927 kıtabxana, 44 məbəd, 9 məscid, 9 tarixi yer, 464 tarixi abidə və muzey, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü, 2300 km su kəməri, 2000 km qaz kəməri, 15 min km elektrik xətti, 280 min hektar meşə, 1 milyon hektar əkin sahəsi, 1200 km irriqasiya sistemi dağıdılaraq məhv edilib. Bir mühüm faktı da acı kədər hissi ilə xatırlatmaq istərdik ki, bu münaqişə bəşər tarixinə Xocalı soyqırımı kimi dəhşətli insanlıq cinayətinin yazılması ilə nəticələ**nib**. Erməni terrorçuları tərəfindən azərbaycanlılara qarşı həyata keçirilmiş bu soyqırıma beynəlxalq ictimaiyyətin zəruri hüquqi-siyasi qiymət verməməsi bütün dünyada sülhün və ədalətin təntənəsinə inanan biz gənclərdə dərin məyusluq hissi yaradıb.

Biz təəssüf hissi ilə qeyd edirik ki, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı 822, 853, 874 və 884 saylı qətnamələrində silahlı əməliyyatlara və düşmənçilik hərəkətlərinə son qoyulması, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması barədə tələblərin öz əksini tapması da təcavüzkarı dayandıra bilməyib. Avropa Şurası Parlament Assambleyasının 2005-ci il 1416 saylı qətnaməsində, 2005-ci il 1690 saylı tövsiyəsində Azərbaycan ərazilərinin ermənilər tərəfindən işğal olunduğu və separatçı qüvvələrin Dağlıq Qarabağ bölgəsinə nəzarət etdiyi qeyd ediib, münaqişə ilə bağlı Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələrində əks olunmuş tələblərin yerinə yetirilməsinin və silahlı qüvvələrin işğal olunmuş ərazilərdən çıxarılmasının vacibliyi vurğulanıb. Bundan başqa ATƏT-in faktaraşdırıcı missiyası nümayəndələrinin 2005-ci ilin martında Azərbaycanın işğal olunmuş ərazilərinə səfəri zamanı orada ermənilərin kütləvi şəkildə qeyri-qanuni məskunlaşdırıldığı təsdiq olunub və bu fakt təşkilatın yekun hesabatında da öz əksini tapıb. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunması faktı BMT Baş Assambleyasının «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" başlıqlı 7 sentyabr 2006-cı il tarixli 60/285 saylı və 14 mart 2008-ci il tarixli 62/243 saylı qətnamələri, 2006-cı ilin dekabrında qəbul olunmuş «ATƏT-in Nazirlər Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Bəyanatı» digər beynəlxalq təşkilatların sənədlərində də qeyd olunun. Lakin bütün bunlar Ermənistanı işğalçılıq siyasətindən çəkindirməyib. Artıq 16 ildir davam edən danışıqlar prosesi hər dəfə konkret nəticə yaxınlaşdıqda Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində uğursuzluğa düçar olur.

Azərbaycanın münaqişəni sülh yolu ilə və beynəlxalq hüquq normaları əsasında nizamlanması üçün göstərdiyi səylərə baxmayaraq, təcavüzkar dövlətin rəhbərliyi prosesin qeyri-müəyyən müddətə uzadılması üçün bütün imkanlarını səfərbər edir, müxtəlif bəhanələrlə beynəlxalq birliyin diqqətini yayındırmağa çalışır. Bu bir daha göstərir ki, beynəlxalq hüquq normalarının kobud şəkildə tapdalamaqda olan Ermənistanın işğalçılıq siyasətinə yalnız bəyanatlar və qətnamələrlə münasibət bildirmək yetərli deyildir. Beynəlxalq birlik Cənubi Qafqazda sülhün və əmin-amanlığın təmin olunması, insanların rahat və təhlükəsiz şəraitdə yaşaması naminə daha konkret və əməli addımlar atmalı, təcavüzkara qarşı sanksiyalar tətbiq etmək təcrübəsindən faydalanmalıdır. Yalnız bu halda Ermənistanın bilərəkdən danışıqlar prosesini uzatmaq cəhdlərinin qarşısını almaq, bölgədə həqiqi və davamlı sülhə nail olmaq mümkündür. Biz - Dünya Azərbaycanlı Gənclərin I Konqresinin iştirakçıları dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, sülhün və dostluğun tərəfində olan bütün ölkələrin rəhbərləri və parlamentlərinə müraciət edərək, Cənubi Qafqaz regionunun əmin-amanlığı, bu bölgədə yaşayan insanların təhlükəsizliyi, uşaqların gələcəyi naminə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün öz səylərini səfərbər etməyə çağırırıq. Biz əminik ki, yalnız dünya birliyinin ədalətli, qətiyyətli və prinsipial mövqeyi Cənubi Qafqazın təhlükəsiz gələcəyinin açarıdır. "Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Dünya Azərbaycanlı Gənclərin I Konqresinin işini yekunlaşdıraraq toplantının uğurla keçdiyini bildirib və bütün iştirakçıları təbrik edib. Bir daha bu konresin önəmini vurğulayan Nazim İbrahimov tədbirin gənclərə yaratdığı ünsiyyət imkanının gələcəkdə konkret əməkdaşlıqda, səmərəli layihələrdə əksini tapacağına ümid etdiyini deyib.

29 noyabr 2010

Frankfurtda Dünya Azərbaycanlı Gənclərin I Konqresi başa çatdı

Konqresdə Dünya Azərbaycanlı Gəncləri Birliyinin təsis edilməsi ilə əlaqədar təşəbbüs qrupu yaradılmışdır

Almaniyanın Frankfurt şəhərində keçirilən Dünya Azərbaycanlı Gənclərin I Konqresi noyabrın 28-də öz işini başa çatdırmışdır.

Tədbirin ikinci gününün birinci yarısı "Virtual həftəsonu məktəbi"nin təqdimatı ilə başlamışdır. Toplantını Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov açaraq layihə barədə məlumat vermişdir. Layihəni Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Rasim Əliquliyev təqdim etmişdir. O bildirmişdir ki, bütün dünya azərbaycanlılarını bir araya toplamaq üçün informasiya texnologiyalarından istifadə etmək ən müasir, səmərəli və zəruri vasitədir. O, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi altında sürətlə yaradılan informasiya cəmiyyəti haqqında ətraflı danışmışdır.

Demişdir ki, layihənin məqsədi xarici ölkələrdə yaşayan azərbaycanlı uşaqlara və gənclərə müasir informasiya texnologiyaları vasitəsilə ana dilinin, Azərbaycan tarixi, mədəniyyəti və coğrafiyasının tədris edilməsi, soydaşlarımızın milli ruhda tərbiyə olunmasına xidmət etməkdir. "Virtual həftəsonu məktəbi" xarici ölkələrdə yaşayan və Azərbaycan haqqında kifayət qədər məlumatı olmayan hər bir azərbaycanlı gəncin virtual məkanın imkanlarından istifadə edərək ana dilini öyrənmək, doğma Vətənin tarixini, coğrafiyasını, ədəbiyyatını və mədəniyyətini mənimsəmək imkanı yaradır. Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunun əməkdaşları layihənin bütün texniki incəlikləri və istifadə qaydası barədə iştirakçılara məlumat vermişlər. Məktəbin vasitələrindən istifadə etmək üçün buraya üzv olmaq vacib deyildir. Lakin layihədə iştirak etmək və sertifikat almaq üçün hər bir istifadəçinin məktəbə üzv olması və "online" imtahandan keçməsi lazımdır.

Qeyd edilmişdir ki, bu ideya ilk dəfə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2007-ci il noyabrın 17-19-da Bakıda keçirilmiş Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayında irəli sürülmüşdür. Layihə Azərbaycan Təhsil Nazirliyinin müvafiq tədris proqramları, dərs vəsaitləri, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının test vəsaitləri əsasında hazırlanmışdır. Layihənin geniş təqdimatından sonra suallara cavab verilmiş, təkliflər səsləndirilmişdir. Noyabrın 28-də günün ikinci yarısında öz işini "Xaricdə yaşayan azərbaycanlı gənclərin cəmiyyətə inteqrasiyası" və "İnsan hüquq və azadlıqlarının müdafiəsi gənclər təşkilatlarının fəaliyyətində" məsələlərinin müzakirəsinə həsr etmişdir. Azərbaycan Respublikasının Belçikadakı səfiri Emin Eyyubov çıxış edərək bildirmişdir ki, müxtəlif ölkələrdəki azərbaycanlıların yaşadıqları cəmiyyətə inteqrasiyası ən aktual məsələdir.

Diplomat gənclərə tövsiyə etmişdir ki, təhsil aldıqları və yaşadıqları dövlətlərdə təmasda olduqları insanlarla ünsiyyət zamanı Azərbaycanın qlobal problemlərindən danışmasınlar, çünki avropalılar sakit və sabit həyata alışdıqları üçün problemlərdən uzaq durmaq istəyirlər. "Bunun üçün də ilk olaraq onlarla dostlaşmaq, Azərbaycan tarixi, mədəniyyəti, ədəbiyyatı, mətbəxindən danışmalı, evlərinizə qonaq dəvət etməlisiniz və bu cür yaranan ünsiyyət əsnasında da tədricən onların diqqətini ölkəmizin problemlərinə yönəltməlisiniz ",- deyə səfir diqqətə çatdırmışdır. Səfir gənclərə savadlı və fəal insanlara çevrilməyi, bu yolla milli problemlərimizin həllinə yaşadıqları cəmiyyətin diqqətini çəkə və bu problemlərin həllinə onların dəstəyini qazana bilməyi arzulamışdır.

Azərbaycan Gənclərinin Avratlantika Təşkilatının sədri Ziya Qazıyev "Xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin cəmiyyətə inteqrasiyası sahəsində problemlər və onların həlli yolları", Almaniyanın Höttinqen Universitetinin doktorantı Vüsal Məmmədov "Xaricdə yaşayan azərbaycanlı gənclərin lobbi quruculuğu prosesində iştirakı", Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Şahin İsmayılov "Azərbaycanlı gənclər təşkilatlarının insan hüquqlarının qorunması sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əlaqələrinin qurulması və inkişaf etdirilməsi perspektivləri", BMT-nin Bakı ofisinin şöbə müdiri Məzahir Əfəndiyev "Xaricdə fəaliyyət göstərən azərbaycanlı gənclər təşkilatlarının yerli ictimai və dövlət qurumları, siyasi partiyalar, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələri ilə əlaqələri", Avropa Azərbaycanlıları Konqresi (AAK) İcraiyyə Komitəsinin üzvü, Norveç Azərbaycan Gənclər Assosiasiyasının (NAYO) sədri Ramil Əliyev "Vətəndaş cəmiyyətinin formalaşdırılmasında gənclər təşkilatlarının rolu" mövzularında məruzələrlə çıxış etmişlər.

Avropa Azərbaycan Cəmiyyətinin sədri Tale Heydərov çıxış edərək rəhbərlik etdiyi qurumun yaranma tarixi və bugünkü fəaliyyəti haqqında ətraflı məlumat vermişdir. Bildirmişdir ki, cəmiyyətin London, Berlin, Brüssel və Bakıda ofisləri fəaliyyət göstərir. Təşkilatın əsas məqsədi Azərbaycanı Avropada siyasi, iqtisadi və mədəni aspektdən tanıtmaqdır:

"Siyasi aspektdən tanıtma deyəndə, biz, ilk növbədə, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünyaya çatdırmağı nəzərdə tuturuq. Bizim nəşrlərimiz var, kitab, jurnal və qəzet nəşri ilə məşğuluq. Azərbaycan barəsində "100 suala cavab" kitabı nəşr olunmuşdur, qəzetimiz bir sıra Avropa ölkələrinin parlament üzvlərinə paylanır. Xocalı soyqırımı haqqında nəşr etdiyimiz kitab dünyanın müxtəlif universitet və institutlarına paylanmışdır ",- deyə o, məlumat vermişdir.

Tale Heydərov qeyd etmişdir ki, cəmiyyət yalnız Rusiya arxivlərində saxlanılan sənədlər əsasında ermənilərin Qafqaza, o cümlədən hazırkı Ermənistana köçürülməsi haqqında faktlar və məlumatlardan ibarət 3 cildlik yeni kitabı çapa hazırlayır. Kitabın rus variantı artıq hazırdır. Azərbaycan və ingilis dili versiyaları da tezliklə hazır olacaqdır. Bu kitab bütün dünyada yayılacaqdır. Azərbaycan və ayrıca olaraq Xocalı soyqırımı haqqında filmlər hazırlanır və gələn ilin əvvəllərində həmin filmlər Avropanın müxtəlif telekanallarında nümayiş etdiriləcəkdir. Britaniya parlamentində "Azərbaycanın mühafizəkarlar dostu" qrupu yaradılmışdır. Xocalı qətliamının tanınması üçün təkcə bu il parlamentdə 30-dan çox imza toplanmışdır.

Azərbaycan diplomatiyası və diasporunun fəaliyyəti nəticəsində Britaniya parlamentində Azərbaycan lobbisi erməni lobbisindən güclüdür və ermənilər özləri də bunu etiraf edirlər. AAC siyasətçilərin və deputatların Azərbaycana səfərlərini təşkil edərək ölkəmizin tanıdılması məqsədilə layihələr həyata keçirir. Tale Heydərov lobbiçilik işində "online" kampaniyalarının əhəmiyyətindən də danışmış və AAC-nin bu kampaniyalardan uğurla istifadə etdiyini bildirmişdir. Onun fikrincə, dünyada yaşayan soydaşlarımızı, azərbaycanlı gəncləri məhz bu cür kampaniyalara səfərbər etmək lazımdır.

Kanada Azərbaycan Əməkdaşlıq Assosiasiyasının sədri İlham Axundov xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin lobbi quruculuğu prosesində iştirakı barədə çıxışı maraqla dinlənilmişdir. Amerika Azərbaycan Cəmiyyətinin sədri Tomris Azəri, Böyük Britaniyadakı "Sara Xatun" Cəmiyyətinin sədri Simuzər Baloğlanova, Hyuston-Bakı Qardaşlaşmış Şəhərlər Assosiasiyasının sədri İradə Axundova, Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının sədri Bilal Dündar, Avropa Azərbaycanları Konqresinin prezidenti Başar Kömür və digər diaspor təşkilatları rəhbərləri mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Müzakirələrdən sonra Dünya Azərbaycanlı Gənclərin I Konqresinin qətnaməsi oxunmuş və təkliflər nəzərə alınmaqla qəbul edilmişdir. Qətnamədə deyilir: "Azərbaycan Respublikasının son illərdə əldə etdiyi iqtisadi və siyasi nailiyyətlər bütün vətənpərvər azərbaycanlılar kimi, xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərdə də qürur hissi doğurur. Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilmiş ardıcıl islahatlar nəticəsində müasir Azərbaycan regionun ən güclü dövlətinə çevrilib. Təqdirəlayiq haldır ki, bu nailiyyətlərin əldə olunmasında gəncliyin də özünəməxsus yeri və rolu var. Eyni zamanda, respublikanın artan siyasi və iqtisadi imkanları gənc nəslin təlim-tərbiyəsinin daha yüksək səviyyəyə qaldırılmasına, müasir düşüncə tərzi, universal dünyagörüşü, dərin intellektə malik kadr potensialının formalaşdırılmasına yönəlmiş layihələrin də həyata keçirilməsinə öz təsirini göstərir.

Qətnamədə vurğulanır ki, bu gün Azərbaycan gəncliyinin qarşısında bir sıra mühüm vəzifələr dayanır. Torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi, bir milyondan çox insanın bu təcavüz nəticəsində öz yurd-yuvalarından didərgin salınması və xalqımızın məruz qaldığı soyqırımı aktları barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, XX əsrin ən dəhşətli bəşəri cinayətlərindən biri kimi tarixin yaddaşına həkk olunmuş Xocalı soyqırımı müəlliflərinin ifşa olunması prosesində gənclərin iştirakı olduqca vacibdir.

Qərara alınmışdır ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən gənclər təşkilatları ilə xarici ölkələrdə yaşayan azərbaycanlı gənclər tərəfindən təsis olunmuş qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində səylər gücləndirilsin, xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin milli mənəvi dəyərlərə uyğun tərbiyə olunması məqsədilə Azərbaycanın elm, təhsil, gənclərlə iş, idman və mədəniyyət sahələri üzrə dövlət qurumları ilə əməkdaşlıq inkişaf etdirilsin, beynəlxalq aləmdə ümumi maraqlardan irəli gələn fəaliyyətin genişləndirilməsi məqsədlə BMT və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq inkişaf etdirilsin, müxtəlif ölkələrin yerli gənclər təşkilatları ilə işbirliyi dərinləşdirilsin. 1915-ci il hadisələri ilə bağlı ermənilərin saxta soyqırımı iddialarının beynəlxalq miqyasda ifşa edilməsi məqsədilə türkdilli gənclərin təsis etdiyi diaspor təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi də konqresin qətnaməsinə daxil edilmişdir.

Sənəddə İslam Konfransı Təşkilatının Gənclər Forumunun həyata keçirdiyi "Xocalıya ədalət - Qarabağa azadlıq" beynəlxalq kampaniyasında xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin daha fəal iştirakının təmin edilməsi istiqamətində birgə tədbirlərin görülməsi, virtual məkandakı sosial şəbəkələrdə Azərbaycanın təbliği, xalqımızın tarixi və müasir həyatı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması məqsədilə həyata keçirilən layihələrdə azərbaycanlı gənclərin daha fəal iştirakı, habelə bu tipli yeni layihələrin yaradılması, xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin hüquq və azadlıqlarının müdafiəsi sahəsində azərbaycanlı gənclər təşkilatları arasında əməkdaşlığın genişləndirilməsi və s. müddəalar da əksini tapmışdır.

Qətnaməyə görə, Dünya Azərbaycanlı Gənclərin I Konqresi Niderland Krallığının Den Haaqa şəhərində keçirilmiş, Azərbaycan dövləti əleyhinə, Azərbaycan xalqının milli maraqlarına qarşı yönəlmiş aksiyanı qətiyyətlə pisləyir, bu cür təşəbbüsləri separatçılıq cəhdi kimi qiymətləndirir, bütün soydaşlarımızı belə qüvvələrə qarşı mübarizə aparmağa çağırır.Yekun sənədə əsasən, dünya azərbaycanlı gənclərin konqresləri üç ildən bir keçiriləcək və II Konqresin Moskva şəhərində keçirilməsi məqsədəuyğun hesab edilir. Qətnamədə Azərbaycanlı gənclər təşkilatlarının diaspor quruculuğu, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, milli mənəvi dəyərlərimizin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi, mədəni irsimizin təbliği istiqamətində fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Dünya Azərbaycanlı Gəncləri Birliyinin təsis edilməsi ideyası dəstəklənmişdir.

Konqresin qətnaməsinə əsasən Dünya Azərbaycanlı Gəncləri Birliyinin təsis edilməsi ilə əlaqədar təşəbbüs qrupu yaradılmışdır. Dünya Azərbaycanlı Gənclərin I Konqresinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciəti qəbul olunmuşdur. Müraciətdə deyilir: "Biz - Dünya Azərbaycanlı Gənclərin I Konqresinin iştirakçıları xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuğu işinə cəlb olunması, ictimai-siyasi fəallığının artırılması, tarixi Vətənlə əlaqələrinin möhkəmləndirilməsi sahəsində qarşıda duran vəzifələri müzakirə etmək imkanı yaradan bu toplantının təşkilinə verdiyiniz yüksək dəstəyə görə Sizə öz dərin minnətdarlığımızı bildiririk. Müxtəlif ölkələrdə fəaliyyət göstərən Azərbaycan gənclər təşkilatları nümayəndələrinin iştirakı ilə keçirilən bu tədbir Azərbaycan Respublikasının gənclərin ictimai-siyasi həyatda iştirakına verdiyi xüsusi önəmin parlaq təzahürüdür. Biz Azərbaycan Respublikasının son illər ərzində əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirərək bildiririk ki, bu nailiyyətlərin davam etdirilməsi, eyni zamanda, doğma Vətənin qarşısında duran bir sıra taleyüklü problemlərin həllinə öz töhfələrimizi verməyə hazırıq. İnanırıq ki, sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycan milli-mənəvi dəyərlərini qorumaqla, qloballaşan dünyaya sürətlə inteqrasiya edəcək, inkişaf etmiş ölkələrin sırasında dayanacaqdır. Ölkəmizin zəngin təbii sərvətləri, iqtisadi potensialı, yüksək intellektual imkanlara malik insani resursları və seçdiyi strateji yol belə düşünməyimizə əsas verən başlıca amillərdir.

Dünya Azərbaycanlı Gənclərin I Konqresi milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi, diaspor və lobbi quruculuğu, Azərbaycan həqiqətlərinin təbliği, soydaşlarımızın yaşadığı ölkələrdə ictimai-siyasi həyata fəal inteqrasiyası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinin daha obyektiv məlumatlandırılması ilə bağlı bir sıra mühüm məsələləri müzakirə etdi. Azərbaycanlı gənclərin Vətənə məhəbbət, xalqımızın tarixi, mədəni irsi, dövlət dili və rəmzləri, milli mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə olunması, onların potensialının ölkəmizin inkişafına cəlb olunması, eyni zamanda, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakı, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən gənclər təşkilatları ilə əlaqələrinin qurulması və inkişaf etdirilməsi, hüquq və azadlıqlarının müdafiəsi məsələləri ətrafında geniş fikir mübadiləsi aparıldı.

Diqqətinizə çatdırmaq istərdik ki, Konqres nümayəndələri ölkənin inkişafı və tərəqqisi, eləcə də milli diaspor quruculuğu və gənclərlə iş sahəsində Azərbaycan dövlətinin gördüyü işlərin əhəmiyyətini yüksək qiymətləndirir. Bununla yanaşı, biz hesab edirik ki, azərbaycanlı gənclər bu siyasətə daha fəal dəstək verməli, ümummilli mənafelərdən irəli gələn məsələlərin həllində daha yüksək templə iştirak etməlidir. Dünya Azərbaycanlı Gənclərin I Konqresi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlar prosesi, eyni zamanda ölkəmizin milli maraqları ilə bilavasitə bağlı olan digər məsələlərdə Sizin nümayiş etdirdiyiniz qətiyyəti və prinsipial mövqeyi dəstəkləyir, Azərbaycan Respublikasının Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi ölkənin ərazi bütövlüyünün bərpası, torpaqlarımızın işğalçılardan təmizlənməsi haqqında qəbul edəcəyiniz qərarı səbirsizliklə gözləyirik.

Biz - Dünya Azərbaycanlı Gənclərin I Konqresinin iştirakçıları Sizi əmin edirik ki, dünyanın hər hansı bir ölkəsində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı gənc Azərbaycan xalqının milli maraqlarının qorunması naminə bütün gücü ilə mübarizə aparmaq, Azərbaycan Respublikası Prezidentinə daim dəstək vermək əzmindədir. "Tədbirin daha bir yekun sənədi-Dünya Azərbaycanlı Gənclərin I Konqresinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına müraciət qəbul edilmişdir. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Dünya Azərbaycanlı Gənclərin I Konqresinin işini yekunlaşdıraraq toplantının uğurla keçdiyini bildirmiş və bütün iştirakçıları təbrik etmişdir. Bir daha bu konqresin əhəmiyyətini vurğulayan Nazim İbrahimov tədbirin gənclərə yaratdığı ünsiyyət imkanının gələcəkdə konkret əməkdaşlıqda, səmərəli layihələrdə əksini tapacağına ümid etdiyini demişdir.

Vüqar Seyidov AzərTAc-ın xüsusi müxbiri Frankfurt
“Xalq qəzeti ”.-2010.-30 noyabr.-N 262.-S.

Humbold Universitetində azərbaycanlı rəssam Əşrəf Heybətovun əsərlərinin təqdimatı olmuşdur

Almaniyada davam edən Azərbaycan Elm və Mədəniyyət Həftəsi çərçivəsində Humbold Universitetində azərbaycanlı rəssam Əşrəf Heybətovun əsərlərinin təqdimatı olmuşdur. Humbold Universitetinin "Azərbaycan tarixi" kafedrasının müdiri professor Eva-Mariya Aux tədbiri açaraq qeyd etmişdir ki, fırça ustası Heybətov dünyanın bir sıra ölkələrində, o cümlədən Vatikanda da məşhurdur. Onun əsərləri bir sıra nüfuzlu vernisajlarda nümayiş etdirilmişdir.

Təqdimat mərasimində çıxış edən rəssam öz gənclik illəri, yaradıcılıq axtarışları barədə danışmışdır. Əşrəf Heybətov Azərbaycan təsviri sənətinin korifeyi, onun müəllimi olmuş, aralarında 40 ilə yaxın yaş fərqi olmasına baxmayaraq dostluq etdiyi Səttar Bəhlulzadə barədə çox səmimi fikirlər söyləmişdir. Rəssam etiraf etmişdir ki, onun işlərinin əsas mövzusu Azərbaycan və bu diyarın xalqıdır. Əslən içərişəhərli olan Əşrəf Heybətov öz əsərlərinin çoxunda Bakının bu qədim hissəsindəki doğma dar küçələri təsvir etmişdir. Lakin son vaxtlar ümumtürk miqyaslı mövzular onu daha çox maraqlandırır. Rəssam emosional hisslərini belə ifadə etmişdir: *"Bakı Azərbaycanın ürəyi, Şuşa isə onun ruhudur"*.

01 dekabr 2010

Bilal Dündar Almaniyanın Frankfurt şəhərində keçirilən Dünya Azərbaycanlı Gənclərin I Konqresini qardaş ölkədəki dərnəklər üçün də mühüm tədbir kimi dəyərləndirmişdir

Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) sədri Bilal Dündar Almaniyanın Frankfurt şəhərində keçirilən Dünya Azərbaycanlı Gənclərin I Konqresini qardaş ölkədəki dərnəklər üçün də mühüm tədbir kimi dəyərləndirmişdir. Konqres barədə təəssüratlarını bölüşən Bilal Dündar AzərTAc-a demişdir ki, diaspor təşkilatlarında gənclərin geniş şəkildə təmsil olunmasına Türkiyədə də böyük diqqət göstərilir. Türkiyədəki gənclər Leyla xanım Əliyevanın rəhbərliyi ilə İslam Konfransı Təşkilatının Gənclər Forumunun həyata keçirdiyi "Xocalıya ədalət – Qarabağa azadlıq" beynəlxalq kampaniyasında fəal iştirak edirlər. Mən azərbaycanlı rəsmilərə bu ay açılışı olacaq Kocaeli bələdiyyəsinin Qartəpə rayonundakı Heydər Əliyev parkı, federasiyamızın fəaliyyəti barədə geniş məlumat verdim.

Mənimlə birlikdə tədbirdə iştirak edən TADEF-ın baş katibi Saleh Bayrakdar və Cavid Əliyev də gənclərlə görüşlər keçirdilər, konqresdə çıxış etdilər. Avropa Azərbaycanlıları Konqresinin sədr müavini kimi mən də orada çıxış etdim və növbəti Konqresin Türkiyədə keçirilməsini təklif etdim. TADEF-ın sədri bildirmişdir ki, onun rəhbərlik etdiyi federasiya bu cür tədbirləri həm də Avropada və bütün dünyada Azərbaycan və Türkiyə diaspor təşkilatlarının həmrəyliyinin daha da güclənməsi baxımından əhəmiyyətli hesab edir. İndi bunun üçün gözəl şərait vardır. Çünki Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan diaspor təşkilatlarımızın güclənməsinə hər zaman diqqət və qayğı göstərirlər.

01 dekabr 2010

Fəxr edirəm ki, Azərbaycanlıyam

Dünyada çox nadir ölkələr vardır ki, coğrafi ərazi baxımından kifik olsalar da, burada yaşayan xalqlar bəşər sivilizasiyasına layiqli töhfələr verə bilmişlər. Qədim tarixə, zəngin mədəniyyətə, milli mənəvi dəyərlərə və təbii sərvətlərə malik Azərbaycan bu ölkələr sırasında özünəməxsus yer tutur. Uzaq-yaxın tariximizin səhifələrini vərəqləsək görərik ki, Azərbaycan xalqının varlığında böyüklük, insanpərvərlik, sülhsevərlik, quruculuq kimi ali keyfiyyətlər cəmləşmişdir.

Xislətində vandalizm, talançılıq, qəsbkarlıq və 'xəbislik olan düşmənlərimiz xalqımızdakı bu ali keyfiyyətlərdən daim narahatçılıq keçirmişlər. Bu xalqın üzərinə əli qılınclı, toplu-tüfəngli kimlər gəlməyib ki... Lakin ruhunda qəhrəmanlıq, Vətənə ilahi bir sevgi yaşadan Azərbaycan xalqı bu tarixi qovğalardan, ölüm-dirim savaşlarından alnıaçıq çıxmış, daxili gücünün tükənməzliyi hesabına tarixin səhnəsində mərdi-mərdanə dayana bilmişdir.

Azərbaycan əsrlər boyu burada yaşayan bütün millət və xalqların ümumi vətəni anlayışını uğurla doğrultmuşdur. Əsrlərdir ki, çoxmillətli tərkibə malik Azərbaycan tolerant və dözümlü bir ölkə kimi dünyaya nümunədir. Azərbaycan əhalisinin çoxmillətli tərkibi bizim sərvətimiz, üstünlüyümüzdür. Azərbaycanlı sözü tarix boyu birləşdirici, həmrəylik və həmfikirlilik missiyasının daşıyıcısı olmuşdur. Hər birimizə yaxşı məlumdur ki, xalqımızın düşmənlərinin əsrlər boyu ən böyük arzusu da bu bütövlüyü pozmaq olmuşdur. Bu məqsədlə düşmənlərimiz tərəfindən Azərbaycanda yaşayan millət və xalqlar arasında nifaq toxumu səpməyə, qardaşlıq və inam hissini sarsıtmağa, separatizm meyillərini yaymağa cəhdlər göstərilmişdir. Bu məqsədlə onlar müxtəlif təxribatlar planlaşdırmış, çirkin yollarla bəzi səbatsız və Vətənə xəyanət yolu tutan satqınların xidmətindən yararlanmağa çalışmışlar.

Azərbaycan adı ilə və Azərbaycanlı olmaqla fəxr duyulası şanlı tarix, örnək hadisələr çoxdur. Bu baxımdan hazırda 20- dən çox xalqın və millətin nümayəndəsinin yaşadığı Zaqatalamızın timsalında bəzi faktları qeyd etmək istərdim. Bu bölgədə yaşayan insanlar Azərbaycanın düşmənləri ilə mübarizədə qəhrəmanlığı ilə həmişə fərqlənmişlər. Tarix boyu burada yaşayan xalqlar və millətlər arasında qarşılıqlı inam hissi çox güclü olmuşdur.

Vahid Azərbaycan naminə mübarizəyə qalxan zaqatalalılar 1803-cü ildə Rus qoşunlarının Şimal-Qərb istiqamətindən işğalçılıq məqsədi ilə keçidinin qarşısını almışlar. Bu həssas bölgəyə qonşu ölkələr tərəfindən torpaq iddiaları zaman-zaman səslənmişdir. Məsələn 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaranan ilk çağlarda zaqatalalılar bir araya gələrək talelərinin həmişə Azərbaycanla bir yerdə olduğunu bəyan etmiş, Şərqdə ilk demokratik respublikanın idarə edilməsində, milli ordunun formalaşmasında müstəsna xidmətlər göstərmişlər. Burada Azərbaycançılıq ruhunun güclü olmasına dair bir-birindən maraqlı çoxlu sayda faktlar gətirmək mümkündür. Sadəcə buna sübut kimi bolşevik istilasına qarşı 1920-ci ilin yayında Zaqatalada və Gəncədə baş verən üsyanları nümunə göstərə bilərik. Hər iki üsyanda Zaqatalada yaşayan müxtəlif xalqların və millətlərin nümayəndələri istiqlaliyyətin qorunması uğrunda canlarından keçmişlər.

Zaqatalalıların azərbaycanlı olmaqları ilə qəlblərinin daxilində yaşatdıqları fəxr hissi artıq 20-ci ilinə qədəm qoyan müstəqilliyimizin bütün dönəmlərində özünü yeni keyfiyyətdə nümayiş etdirmişdir. Vətənimizin dilbər guşəsi olan Qarabağ uğrunda gedən qanlı döyüşlərdə yüzlərlə zaqatalalı gənc erməni işğalçılarına qarşı igidliklə vuruşaraq bölgənin tarixinə şanlı səhifələr yazmışlar. Onları bu ölüm-dirim savaşında güclü edən, şücaətə ruhlandıran Vətənə olan sədaqət, Azərbaycanlı olmaqdan doğan məsuliyyət hissləri olmuşdur.

Fəxr etməli haldır ki, tarix boyu Azərbaycanımızın inkişafında və onun yadelli işğalçılar- dan müdafiəsində böyük əməyi olan zaqatalalıların indiki müstəqilliyimizin möhkəmləndirilməsindəki xidmətləri də diqqətdən kənarda qalmamışdır. Zaqatalalıların əməyi dövlətimizin başçısı İlham Əliyev tərəfindən özünün yüksək qiymətini almışdır: "Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində zaqatalalıların çox böyük xidməti olmuşdur. Bu gün siz öz əməyinizlə, zəhmətinizlə ümumi işimizə böyük töhfə verirsiniz".

Azərbaycan müstəqil bir dövlət kimi nailiyyətlərini artırdıqca yeni tarixi şəraitə uyğun olaraq Azərbaycançılığın və Azərbaycanlı olmağın yeni modeli yaranır. Bu modeldə nəzərə çarpan ilk cəhət Azərbaycanlı olmağın məsuliyyətinin artması ilə bağlıdır. Bu gün Azərbaycanlı olmağımızdan qürur duyduğumuz çox şeylər mövcuddur. Əvvəla, ölkəmiz dünya birliyinin yeni üzvü kimi son beş-altı ildə ən inkişaf etmiş ölkələrin sırasında yer almışdır. Azərbaycanın siyasi və iqtisadi gücü ona müstəqil siyasət yeritməyə, bölgədəki liderlik mövqeyini artırmağa imkan yaradır. Digər tərəfdən Azərbaycan dövlətinin ali məqsədi vətəndaşlarının rifah halını durmadan yüksəltmək, insan hüquq və azadlıqlarının daha dolğun təminatını həyata keçirməkdir. Görülən qlobal işlər Azərbaycançılığın və azərbaycanlı olmağın yeni tarixi şərait- də həm hüquqi, həm də siyasi baxımdan inkişaf istiqamətlərini müəyyənləşdirir.

Bir vaxtlar hərc-mərclik girdabında boğulan, aclıq və səfalətə sürüklənən, vətəndaş müharibəsi həddinə gəlib çatan Azərbaycan ölkəsindən indi əsər-əlamət belə qalmamışdır. Azərbaycan inkişaf baxımından onillikləri arxada qoyan bir mərhələyə çatmışdır ki, bu da vətəndaş fəallığının güclənməsinə səbəb olmuşdur.

Yeniləşən, modernləşən və müasirləşən Azərbaycanda ictimai mühitin saflaşması, müstəqilliyin real bəhrələri azərbaycanlıların düşüncə tərzinə də yeni çalarlar gətirmişdir. İlk növbədə vətəndaşlarımızda müstəqilliyimizin dönməzliyinə, əbədiliyinə və sarsılmazlığına inam hissi güclənmişdir. İctimai-siyasi sabitliyin möhkəm bərqərar olduğu Azərbaycanda vətəndaşların cəmiyyətin sabahı üçün daşıdıqları məsuliyyət hissi vətənin taleyi ilə vəhdət təşkil edir. Müstəqil dövlət quruculuğunda bu önəmli və vacib amildir. Diqqəti çəkən başqa bir məsələni də qeyd etmək lazımdır. Bu da Azərbaycançılğın və Azərbaycanlı olmağın coğrafi anlamda geniş şəkil almasıdır. İndi dünyanın hansı ölkəsində olmasından və yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı yaxşı dərk etməyə başlayır ki, onun Azərbaycan kimi bir vətəni var. Vaxtilə taleyin hökmü ilə qürbətdə yaşamağa məhkum olmuş, onilliklər boyu Vətən həsrətini ürəklərində daşıyan azərbaycanlılar indi müstəqil Azərbaycana öz doğma ata ocağı kimi baxırlar.

Azərbaycan dövlətinin apardığı uğurlu diaspor siyasəti, bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq dünyanın dörd bir yanına səpələnmiş azərbaycanlıların bir araya gəlməsində, Vətənlə əlaqələrinin bərpasında və güclənməsində önəmli rol oynayır. Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra Azərbaycançılıq ideologiyası öz ətrafında insanlarımızı birləşdirir, Azərbaycanlı fəlsəfəsinə və düşüncə tərzinə uyğun milli mənlik şüurunun formalaşmasında tarixi missiyasını uğurla yerinə yetirir. Ümummilli liderimiz Heydər Əliyevin təbiri ilə desək, "Azərbaycançılıq öz milli mənsubiyyətini, milli mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafını təmin etmək deməkdir".

Azərbaycançılığın ideya və mənəvi baxımdan yeniləşməsi sovet dönəmində azərbaycanlılar barədə formalaşmış baxışların kökündən yanlış olduğunu üzə çıxarmışdır. İndi azərbaycanlı deyəndə işgüzarlığı, qəlb genişliyi ilə seçilən, təfəkküründə yeniliyə daha çox üstünlük verən, yaşadığı hər hansı bir ölkədə öz mövqeyini ortaya qoymağa can atan bir xalqın nümayəndəsi göz önünə gəlir. Həmvətənlərimizin qürbətdə ana dilimizə, adət-ənənələrimizə, milli dəyərlərimizə və mədəniyyəti- mizə münasibətlərində də vətənpərvərlik hisslərinin artması duyulur ki, bu da Azərbaycançılığın imicinə yeni keyfiyyətlər gətirir. Məni belə düşünməyə vadar edən xaricdə yaşayan həmvətənlərimizdə son vaxtlar gördüyüm və müşahidə etdiyim Azərbaycançılığa bəslədikləri hörmət və ehtiram hisslərinin qat-qat artmasıdır. Vətənə hər gəlişlərində istər paytaxtımız Bakıda, istərsə də boya-başa çatdıqları bölgələrdə sürətli inkişafı, müasir dəyişiklikləri görən soydaşlarımız bundan qürur hissi keçirdiklərini gizlətmir, məskunlaşdıqları ölkələrdə Azərbaycan həqiqətlərini daha inandırıcı şəkildə çatdırmağa çalışırlar.

Yeni tarixi şəraitdə azərbacanlıların birgə fəaliyyəti üçün vahid dövlət siyasəti mövcuddur. Bu məqsədlə Dünya Azərbaycanlılarının Bakı şəhərində keçirilən birinci və ikinci qurultayları gələcək fəaliyyət üçün istiqamətləri müəyyənləşdirmişdir. Bu qurultaylar yenidən Azərbaycançılıq ideyasını gündəmə gətirmiş, 50 milyondan çox bir xalqın iradəsinin, gücünün Vətən naminə birgə fəaliyyətinin- bir sözlə, onilliklər boyu istifadəsiz qalan maddi və mənəvi potensialının reallaşması baxımından önəmli işlərin başlanmasına rəvac vermişdir. Azərbaycanlıların bir araya gəlməsində 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik gününün təsis olunmasını da yüksək qiymətləndirmək lazımdır. Bu günün əhəmiyyəti ondadır ki, sürətlə dəyişən XXI əsrdə dünya Azərbaycanlılarının birgə qeyd etdikləri təqvim günü vardır. Bu gündə Azərbaycanlıların biri-birinə olan hissləri daha da doğmalaşır.

İnsanın xisləti elədir ki, o mənsub olduğu ölkəni başqalarından çox sevir. Biz azərbay- canlılarda vətən sevgisi başqa bir anlamda, müqəddəsləşmiş halda qəbul edilir. Yaşadığımız bu dönəmdə Vətənə olan sevgimizi mənsubiyyət etibarı ilə azərbaycanlı olmağımızdan keçirdiyimiz fəxr hissimiz daha da qüvvətləndirir. Azərbaycanlı olmaq bu gün daha əzmlə yaratmaq, sabaha inamla baxmaq kimi duyğularımızı gücləndirir. Biz millətlər içərisində imzasını şərəflə təsdiq edən şanlı və qədim bir ölkənin- Azərbaycanın vətəndaşlarıyıq. Azərbaycandan bu gün dünyaya istilik, hərarət, səmimiyyət, xalqların azad yaşamaq haqlarına hörmət hissi yayılır. Öz taleyinin sahibi olan bir dövlətdə yaşamaq, yaratmaq, arzularının gerçəkləşdiyinin şahidi olmaq böyük səadət deyilmi? Zaman yetişib ki, biz Azərbaycanlı olmağımızla fəxr hissi keçirək, taleyimizə düşən xoşbəxt günlərimizi yaşayaq. Belə bir ölkədə dünyaya gəlmək həqiqətən böyük səadətdir. Uca Allahıma minnətdarlıq edərək qürurla deyirəm: fəxr edirəm ki, mən Azərbaycanlıyam!

İbrahim İbrahimov, "Zaqatala" qəzetinin redaktoru
Məqalə Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir
"İkisahil".-2010.-7 dekabr.-N.227.-S.12.

Leyla Əliyeva azərbaycanlı döyüşçülərin xatirə lövhəsinin təntənəli açılış mərasimində iştirak etmişdir

AzərTAc xəbər verir ki, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin başçısı Leyla Əliyeva Leninqradın müdafiəsi zamanı həlak olmuş azərbaycanlı döyüşçülərin xatirə lövhəsinin təntənəli açılış mərasimində iştirak etmişdir.

Xatirə lövhəsinin açılışı "Nevski Pyataçok" Əsgəri Memorialın Beynəlmiləl şöhrət və xatirə xiyabanında olmuşdur. Abidənin yaradılması layihəsi Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin hamiliyi altında Leninqrad vilayəti hökumətinin dəstəyi ilə həyata keçirilmişdir. Leninqrad vilayətinin vitse-qubernatoru Aleksandr Kuznetsov mərasimdə çıxış edərək demişdir: "Əsgər və zabitlər burada öz borclarını şərəflə yerinə yetirmişlər. Abidənin açılışı göstərir ki, bizim dövlətlərin xalqları və rəhbərləri həlak olmuş ata-babalarımızın xatirəsinə sadiqdir". Leyla Əliyeva Leninqradın müdafiəsi uğrunda gedən döyüşlərdə həlak olmuş azərbaycanlı əsgərlərin xatirəsini anmaq üçün "Nevski Pyataçok"a toplaşmış tədbir iştirakçılarına səmimi qəlbdən minnətdarlığını bildirərək demişdir ki, keçmiş Sovet İttifaqı xalqlarının Böyük Vətən müharibəsi illərində göstərdiyi rəşadətin bəşəriyyət tarixində tayı-bərabəri olmamışdır. Hitler faşizmi üzərində Qələbəyə Azərbaycan xalqı böyük töhfə vermişdir. Döyüş meydanlarında 300 mindən çox azərbaycanlı həlak olmuşdur. O demişdir: "Təyyarəçi Hüseynbala Əliyevin göstərdiyi hünər məlumdur. O, Leninqrad ətrafında döyüşlərdə bir uçuşda 2 düşmən təyyarəsini, o cümlədən ikincisini ölümcül yaralanmış vəziyyətdə məhv etmişdir.

Bu qəhrəmanlığına görə ali hökumət mükafatına-"Lenin ordeni"nə layiq görülmüşdür. Leninqradın mühasirəsi 900 gün davam etmişdir. Aclıq, soyuq və bombardmanlar üzündən yüz minlərlə insan həlak olmuşdur. Amma nə artilleriya atəşləri, nə də daimi ölüm qorxusu leninqradlıların dəmir iradəsini və vətənpərvərlik ruhunu qıra bilmədi. Şəhər davam gətirdi və bu gün inkişafda olan Sankt-Peterburq dünyanın mədəni paytaxtı statusunu təsdiq edir". L.Əliyeva bildirmişdir ki, Azərbaycan Respublikasının Xatirə Kitabında Leninqradın faşistlərin mühasirəsindən azad edilməsi uğrunda Nevski pyataçokda və Sinyavinsk yüksəkliklərində gedən döyüşlərdə həlak olmuş 850 azərbaycanlının adı yer almışdır. O demişdir: "Nevski pyataçok" döyüş meydanı hərb tarixinin ən rəşadətli və faciəli səhifələrindən biridir. Döyüş meydanının müdafiəçilərinin tərkibi, demək olar, hər gün büsbütün yenilənirdi – həlak olanları yeni döyüşçülər əvəz edirdi. Artıq peterburqlu heykəltəraş tərəfindən abidə hazırlanmışdır və gələn il Fondun nümayəndəliyinin hamiliyi altında, Leninqrad vilayəti hökumətinin dəstəyi ilə Sinyavinsk yüksəkliklərində ucaldılacaqdır. Döyüşçülərin rəşadəti gələcək nəsillərin xatirəsində əbədi yaşayacaqdır. Sevindirici haldır ki, bu gün mərasimdə çoxlu gənc iştirak edir. Onların vətən uğrunda canlarından keçmiş ata və babalarının xatirəsini uca tutmaları çox vacibdir. Xalqlarımızın birliyi və dostluğu sayəsində biz Böyük Qələbə qazana bildik.

Bu Qələbə belə bir danılmaz həqiqəti təsdiq etdi ki, biz sülhə, əmin-amanlığa və vətəndaşlarımızın xoşbəxt gələcəyinə ancaq bir yerdə nail ola bilərik". Sonda L.Əliyeva bu layihəni dəstəklədiklərinə görə Leninqrad vilayətinin qubernatoru Valeri Serdyukova, vilayət hökumətinə, həmçinin layihəni icra edən istedadlı heykəltəraşlar Gennadi Belousova və Andrey Rıtova minnətdarlığını bildirmişdir. Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Qüdsi Osmanov çıxışında 1941-1944-cü illərdə Leninqrad uğrunda gedən döyüşlərdə həlak olmuş döyüşçülərin xatirə lövhəsinin açılmasının tarixi əhəmiyyətini vurğulayaraq bildirmişdir ki, Böyük Qələbəni məhz xalqlarımızın dostluğu və birliyi sayəsində əldə etmək mümkün olmuşdur. Müfti Cəfər Ponçayev həlak olmuş döyüşçülərin ruhuna dua oxumuşdur. Çıxışlardan sonra Leyla Əliyeva və Aleksandr Kuznetsov xatirə lövhəsini açmışlar. Tədbir iştirakçıları lövhənin qarşısına güllər düzmüşlər. Mərasim iştirakçıları qarşısından keçən fəxri qarovul dəstəsi qəhrəmanların xatirəsinə ehtiramını bildirmişdir. Leyla Əliyeva, həmçinin "Leninqrad blokadasının yarılması" qoruq-muzeyində olmuşdur. Qoruğun işçiləri muzeyin mərkəzi ekspozisiyasından - Leninqradın müdafiəsi tarixində dönüş yaratmış 1943-cü il hadisələrini canlandıran dioramdan danışmışlar.

Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin başçısı həlak olmuş qəhrəmanların nurlu xatirəsinə qayğıkeş münasibət göstərdiklərinə görə muzeyin əməkdaşlarına minnətdarlığını bildirmiş, Heydər Əliyev Fondunun dəstəyi ilə nəşr edilmiş, Leninqrad uğrunda döyüşlərdə canlarından keçmiş azərbaycanlıların (850 nəfər) adbaad siyahısı olan "Leninqradın faşist blokadasından azad edilməsi uğrunda qəhrəmancasına həlak olmuş azərbaycanlılar" kitabını muzeyə hədiyyə etmişdir. Təntənəli mərasimdə RF XİN-in Yekaterinburqdakı nümayəndəsi Vladimir Zapevalov, Leninqrad vilayəti Kirov rayonunun başçısı Nikolay Yemelyanov, Yaponiyanın və Litvanın baş konsulluqlarının, Qırğızıstanın fəxri konsulluğunun, habelə Azərbaycan diasporunun nümayəndələri, Rusiyanın şimal paytaxtının ali məktəblərində təhsil alan azərbaycanlı tələbələr iştirak etmişlər.

07 dekabr 2010

“Diaspor işində gənclərin, xüsusilə tələbələrin rolu daha da artacaq”

Emin Həsənli: “Dünya azərbaycanlı gənclərin Frankfurtdakı Konqresi bu sahədə bu sahədə güclü fəallaşmaya səbəb olacaq”

Məlum olduğu kimi, noyabrın 27-28-də Almaniyanın Frankfurt şəhərində Dünya Azərbaycanlı Gənclərin I Konqresi keçirilib. Konqresi Diasporla İş üzrə Dövlət Komitəsi Gənclər və İdman Nazirliyi ilə birgə təşkil edib. Azərbaycan prezidentinin təsdiqlədiyi “Azərbaycan Gəncliyi Dövlət Proqramı”na uyğun olaraq keçirilən tədbirə Azərbaycandan rəsmi şəxslərlə yanaşı gənclər təşkilatlarının nümayəndələri də qatılıblar. Onların arasında Tərxis Olunmuş Hərbçi Gənclərin Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli də vardı. Konqresin gedişi və nəticələr barədə “525”ə danışan E. Həsənli deyib ki, ümumilikdə tədbirdə Azərbaycandan 41 gənclər təşkilatının nümayəndəsi, dünyanın 23 ölkəsindən 131 gənclər təşkilatının təmsilçisi, 25 ölkədən 41 diaspor təşkilatının rəhbəri qatılmışdı. Konqresin əsas məqsədi xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuğu işinə cəlb olunması, ictimai-siyasi fəallığının artırılması, tarixi Vətənlə əlaqələrinin möhkəmləndirilməsi, onların bir mərkəzdə birləşməsidir. O qeyd edib ki, diaspora fəaliyyətində gənclərin, xüsusilə tələbələrin rolu çox mühümdür: “Məlumdur ki, 2001-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Birinci Qurultayı keçirildi. 2006-cı ildə isə ikinci qurultay oldu. Bəzən deyirlər ki, gənclərin konqresinin indi keçirilməsi bir qədər yubanıb. Amma bu Konqresin indi keçirilməsi zəruri idi. Çünki xaricdə təhsil alan tələbələrimizin orda yerləşməsi, sayının artması, təşkilatlanması, diaspor qurumlarının gənclər qolunun yaradılması üçün müəyyən vaxt lazım idi. Bütün bunlar baş verəndən sonra gənclər bir mərkəzdə birləşə bilərdilər. Ona görə də Konqres məhz bu il təşkil olundu”. E. Həsənli Konqresin açılışından sonra bir neçə istiqamət üzrə işini davam etdirdiyini vurğulayıb. “Məqsəd həm Azərbaycanın gənclər qurumlarının təşkilatlanması, onların bir-birləri ilə əlaqə qurmaları, Avropaya inteqrasiya, ölkəmizin haqq işinin dünyaya çatdırılması idi. Bilirsiniz ki, iki ildir, Heydər Əliyev Fondunun Moskva nümayəndəliyinin rəhbəri, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə “Xocalıya ədalət” beynəlxalq kampaniyası həyata keçirilir. Tədbirdə bu kampaniyanın daha da genişlənməsi, Qarabağ həqiqətlərinin dünyaya çatdırılması əsas vacib məsələlər kimi səsləndi”.

E. Həsənli deyib ki, xaricdə təhsil alan tələbələrin müəyyən spesifik problemləri olur. Onların təhsil aldıqları ölkəyə uyğunlaşması, ali məktəbi bitirdikdən sonra orda qalıb işləmələri, ölkəyə qayıtmaları kimi məsələlər var ki, bunlar da Konqres çərçivəsində müzakirə edilib. “Sevindirici haldır ki, bizim tələbələr xaricdə yüksək səviyyədə təhsil alırlar, geniş dünyagörüşə malikdirlər və ölkəmizi layiqincə təmsil edirlər. Son illər Azərbaycanın diaspora hərəkatı, xeyli genişlənib. Konqresdə Türkiyənin Frankfurtdakı konsulunun və türk diaspor nümayəndələrinin iştirakı da sübut edir ki, azərbaycanlılar bir çox məsələlərdə, xüsusilə, 1915-ci ildə uydurma erməni soyqırımı ilə bağlı türk diasporuna açıq dəstək verir. Türk diasporu isə Azərbaycanın haqq işinin təbliğində bizi dəstəkləyir”. E.Həsənli Konqresin gedişində bir çox maraqlı çıxışlar, təkliflər olduğunu xatırladıb. Bildirib ki, tədbirin ən maraqlı məqamlarından biri kimi Azərbaycanın Milli Elmlər Akademiyasının İnformasiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Rasim Əliquliyevin təqdim etdiyi “Virtual həftəsonu məktəbi” layihəsi xüsusilə yaddaqalan alınıb. Layihənin məqsədi xarici ölkələrdə yaşayan azərbaycanlı uşaqlara və gənclərə müasir informasiya texnologiyaları vasitəsilə ana dili, Azərbaycan tarixi, mədəniyyəti və coğrafiyasının tədris edilməsi, soydaşlarımızın milli ruhda tərbiyə olunmasına xidmət etməkdir. “Virtual həftəsonu məktəbi” xarici ölkələrdə yaşayan və Azərbaycan haqqında yetərli bilgisi olmayan hər bir azərbaycanlı gəncə virtual məkanın imkanlarından istifadə edərək ana dilini öyrənmək, doğma Vətənin tarixini, coğrafiyasını, ədəbiyyatını və mədəniyyətini mənimsəmək imkanı yaradır. Burada bir neçə istiqamət üzrə məlumat əldə etmək mümkündür. Ən əhəmiyyətli hadisələrdən biri də bu oldu ki, iki gün ərzində azərbaycanlı gənclər Avropada və dünyada fəaliyyət göstərən Azərbaycan gənclər təşkilatları ilə ikitərəfli əlaqələr qurdular, birgə layihələrin işlənməsi, tədbirlərin keçirilməsi üçün fikir mübadiləsi apardılar”. E. Həsənli hesab edir ki, bütün bunlar təşkilatların qarşılıqlı əlaqələrinin gələcəkdə daha da genişlənməsinə gətirib çıxaracaq. “Tədbirin sonunda qəbul edilən qətnamədə göstərildi ki, hər üç ildən bir bu forumlar keçirilsin. Növbəti Konqres 2013-cü ildə Moskvada təşkil olunacaq və orada Dünya Azərbaycanlı Gənclərin Birliyinin yaradılması qarşıya məqsəd qoyuldu, təşəbbüs qrupu yaradıldı. İnanırıq ki, bu təşəbbüs qrupu iki ildə yaxşı işləyərək, qarşıya qoyulan məqsədə nail olacaq və bu birlik yaradılacaq”. E.Həsənli vurğulayıb ki, istənilən ictimai-siyasi prosesdə, xüsusilə də diaspora işində ağırlıq gənclərin üzərinə düşür: “Azərbaycan gəncləri indiyə qədər bu istiqamətdə xeyli işlər görüblər və ümidvarıq ki, bu işlər bundan sonra daha ardıcıl təşkil edilərək, vahid mərkəzdən idarə ediləcək. Bu da Azərbaycanın haqq işinin dünyaya çatdırılmasında çox yaxşı bir vasitə olacaq”.

P.Sultanova, **“525-ci qəzet”. -2010.-7 dekabr.-N.223.-S.2.**

Şimali Kiprdəki Lefke Avropa Universitetində
“XXI əsrdə türk dünyası” simpoziumu keçirilmişdir

AzərTAc xəbər verir ki, Şimali Kiprdəki Lefke Avropa Universitetində Avrasiya İqtisadi Əlaqələr Dərnəyinin təşkilatçılığı ilə “XXI əsrdə türk dünyası” simpoziumu keçirilmişdir. Simpoziumda Türkiyə, Azərbaycan, Türkmənistan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və digər ölkələrdən deputatlar, alimlər iştirak etmişlər. Tədbirdə çıxış edən Milli Məclisin deputatı Qənirə Paşayeva Azərbaycan dövlətinin və deputatlarının son illərdə türk dünyasının birliyi və tərəqqisi üçün atdığı addımlardan ətraflı bəhs etmişdir.

Şimali Kipr türklərinin lideri Dərviş Əroğlu, Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının baş katibi Xəlil Akıncı və digər natiqlər türk ölkələri arasında əməkdaşlığın vəziyyəti və perspektivlərindən danışmışlar. Simpoziumda türk dünyası qarşısındakı xidmətlərinə görə Milli Məclisin deputatı Qənirə Paşayevaya, TÜRKSOY-un baş katibi Düsen Kaseinova, Ankaranın Keçiören bələdiyəsinin sədri Mustafa Aka, Türk Strateji Araşdırmalar Mərkəzinin sədri, Türkiyə-Azərbaycan Dərnəyinin rəhbəri Sinan Oğana “Əhməd Zəki Vəlidi Toqan xidmət mükafatı” təqdim olunmuşdur.

07 dekabr 2010

"Bir günəşin zərrəsiyik..."

Harada olursaq olaq, Azərbaycanla olaq!

Qloballaşan dünyamızda güclü, təşkilatlanmış diaspor hər bir müstəqil dövləti olan xalqın ayaq üstə durması, çətinlikləri dəf etməsi yönündə əsas şərtlər sırasında yer alıb. Xüsusən yeni qurulan gənc dövlətlərin beynəlxalq güclərin və süperdövlətlərin beyin mərkəzləri ilə işləməyi, lobbiçilik fəaliyyətini yüksək səviyyədə təşkil etməyi bacarması üçün güclü diaspor dəstəyinə ehtiyacı var.

TÜRK DÜNYASININ KÖRPÜSÜ

Bu baxımdan Azərbaycan üçün diaspor məsələsi özəlliyi ilə fərqlənir. Məsələ ondadır ki, Azərbaycan Türk Dünyasının bir parçasıdır və bu mənada Türk Dünyasının hər bir parçası böyük mənada bir diaspordur. Lakin Türk Dünyasını əsrlərlə parçalamağa, türk xalqlarını keçmişindən, kökündən ayırmağa çalışan böyük qüvvələr bu gün də mövcuddurlar və hər vəchlə Türk Dünyasının birliyinə mane olmağa cəhd göstərirlər. Ona görə də Azərbaycan da daxil olmaqla, Türk Dünyasının bütün parçalarının, dövlət və toplumlarının problemlərinin həlli və dünyada cərəyan edən proseslərə əhəmiyyətli təsir edə biləcək gücə sahib olmaları isə ilk növbədə onların qüvvələrinin, səylərinin birləşdirilməsindən keçir.

Bunun da yolu böyük mənada Türk Dünyasının bir parçası olan xalqların özünüdərkindən başlamalı və özünüdərk prosesinin sürətlənməsi ilə dönməz xarakter almalı idi. Bu məntiqdən çıxış etsək, Türkiyə ilə strateji müttəfiqlik və Orta Asiyanın türk respublikaları ilə əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın müstəqillik qazandığı ilk illərdən başlayaraq xarici siyasətlə əsas kurs olmalı idi və böyük dövlət xadimi, ulu öndər Heydər Əliyevin Azərbaycan və Türkiyə ilə bağlı "Bir millət, iki dövlət" tezisini irəli sürməsi də bu məntiqi əks etdirirdi. Tale Azərbaycanı geopolitik nöqteyi-nəzərdən də Türk Dünyasının körpüsü statusu məsuliyyətini çiynində daşımaq məcburiyyəti ilə üz-üzə qoyub. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərlərinə də daha çox Türk Dünyasının inteqrasiyasına xidmət edən layihələr kimi baxmaq lazımdır.

Günümüzdə həmin kəmərlər Azərbaycan və Türkiyəni birləşdirir, artıq Qazaxıstan Bakı-Tbilisi-Ceyhan kəməri ilə neftinin mühüm hissəsini ixrac etməyə başlayıb, Türkmənistan Bakı-Tbilisi-Ərzurum qaz kəmərinə bir vaxt qaz resurslarını Avropaya çıxaracaq potensial layihə kimi baxır. Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədov Xəzəryanı ölkələrin dövlət başçılarının Bakıda keçirilən son sammitində Xəzər dənizindən keçməklə kəmərlərin çəkilməsi məsələsinin həllini tapmasının zəruriliyini vurğulaması da bu baxımdan təsadüfi deyildi. ABŞ və Avropa kimi güc mərkəzlərinin qısqanclıqla yanaşdıqlarını gizlətmədikləri, maliyyələşdirmək istəmələrinə rəğmən Azərbaycanın iradəsi və iqtisadi gücü ilə tikilməkdə olan Bakı-Tbilisi-Qars dəmir yolu da Türk Dünyasının birliyinə yönələn layihələr sırasındadır. Dövlət başçısının tapşırığına uyğun olaraq Diasporla İş üzrə Dövlət Komitəsi də yaradılandan sonra ötən 8 il ərzində Türk Dünyasına yönəlik fəaliyyəti diqqət mərkəzində saxlayıb. Türk Dövlət və Cəmiyyətlərinin Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı, Azərbaycan-Türk Diaspor Təşkilatları Koordinasiya Şurasını birgə toplantısı, o cümlədən Türkdilli Dövlətlərin Parlament Assambleyasının yaradılması prosesində Azərbaycanın fəallığı və qətiyyəti diqqət çəkib. Artıq bu fəaliyyətin real nəticələri də ortadadır. Bir il əvvəl Türk Dünyasını parçalamağa çalışan böyük güclərin səyi nəticəsində Türkiyə və işğalçı Ermənistanın sərhədlərinin açılması gündəmə gələndə Türkiyə cəmiyyətində mütləq əksəriyyət buna mənfi münasibət bəslədiyini ortaya qoydu, ölkədəki siyasi qüvvələr də bunu nəzərə almaq məcburiyyətində qaldı. Sadə dillə desək, faktiki Türkiyə cəmiyyəti Azərbaycan üçün təşkilatlanmış bir diaspor missiyasını yerinə yetirdi, bir Günəşin zərrəsi olduq. "Harada olursaq olaq, Azərbaycanla olaq" məntiqi əsas oldu.

DİASPORUMUZUN BU GÜNÜ VƏ SABAHI

Azərbaycanın diaspor quruculuğunda ikinci istiqamət zaman-zaman dünyanın müxtəlif ölkələrinə səpələnmiş Azərbaycan xalqının nümayəndələrinin, diasporumuzun təşkilatlanması və son nəticədə lobbiçilik fəaliyyətinə başlamalarını əhatə edir. Bu istiqamətdə ilkin uğurlar diqqət çəkməkdədir. Almaniyada, ABŞ-da, Rusiyada çox böyük diaspor təşkilatlar yaranıb və bu təşkilatlar da həmin ölkələrin ictimai-siyasi həyatında rol oynamağa, işğal olunmuş torpaqlarımızla bağlı dünyaya həqiqətlərin çatdırılmasında, Dağlıq Qarabağla bağlı məsələlərdə Azərbaycanın haqlı olduğunun dünyaya çatdırılmasına səy göstərirlər. Diasporumuzun yaşadıqları ölkələrin icra qurumları və parlamentləri ilə əməkdaşlıqları intensivləşir. Yeri gəlmişkən, bu günlərdə Vaşinqtonda Azərbaycan radiosunun fəaliyyətə başlaması diasporumuzun böyük uğurudur. Dünyanın super dövlətlərinin birinin paytaxtında Azərbaycan həqiqətlərinin davamlı və sistemli bir şəkildə çatdırılması üçün belə KİV-lərə xüsusi ehtiyac var.

Azərbaycanın üzləşdiyi mövcud durum diasporumuzun sürətlə lobbiçilik fəaliyyətinə keçməsini, xarici ölkələrin icra və qanunverici strukturları, ictimai təşkilatları ilə əməkdaşlığı genişləndirməsini, Azərbaycan həqiqətlərini yaymasını zəruri edir. Çünki zaman gözləmir, müasir dünyada proseslər çox sürətlə cərəyan edir. Diaspor quruculuğunda mütəşəkkil təşkilatlanmaya və diaspor quruculuğundan lobbiçilik fəaliyyətinə keçid prosesini sürətləndirməyə nail olmaq yönündə gənclərin potensialından yararlanmamaq da yanlış olardı. Çünki gənclik özündə böyük enerji və potensialı əks etdirir. Bu baxımdan Azərbaycan prezidentinin təşəbbüsünə uyğun olaraq bu il 27-28 noyabr tarixlərində Almaniyanın Frankfurt şəhərində Diasporla iş üzrə Dövlət Komitəsi və Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Dünya Azərbaycanlı Gənclərin I Konqresinin keçirilməsi əlamətdar bir hadisədir. Dünya Azərbaycanlı Gənclərin I Konqresinin təşkili xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuğu işinə cəlb olunması, ictimai- siyasi fəallığının artırılması, tarixi Vətənlə əlaqələrinin möhkəmləndirilməsi məqsədinə xidmət edib. Bu toplantıda xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuğu işinə cəlb olunması, ictimai-siyasi fəallığının artırılması, milli-mənəvi dəyərlərimizin qorunması və mədəni irsimizin təbliğində, habelə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında gənclərin daha fəal iştirakı ilə bağlı bir sıra məsələlər müzakirə olunub. Tədbirdə ötən müddət ərzində qazanılmış nailiyyətləri yüksək qiymətləndirməklə yanaşı, obyektiv olaraq vurğulanıb ki, xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı gənclər təşkilatlarının qarşısında həllini gözləyən bir sıra taleyüklü vəzifələr dayanır. Xaricdə yaşayan azərbaycanlı gənclərin cəmiyyətə daha sıx inteqrasiyası, ictimai-siyasi fəallığının artırılması, müxtəlif ölkələrin dövlət orqanları, parlament və hökumət üzvləri, kütləvi informasiya vasitələri ilə əlaqələrin möhkəmləndirilməsi, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığın qurulması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində daha ciddi və daha konkret nəticələrin əldə olunması və digər sahələrdə görüləsi işlər çoxdur. Dünya Azərbaycanlı Gənclərin I Konqresi xarici ölkələrdəki azərbaycanlı gənclərinin qüvvələrini, enerjilərini Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması yönündə birləşdirməklə bağlı mükəmməl və yeni bir mərhələyə keçidin əsasının qoyulması deməkdir. Təsadüfi deyil ki, tədbirdə Dünya Azərbaycanlı Gəncləri Birliyinin təsis edilməsi ilə əlaqədar Təşəbbüs Qrupu yaradılıb.

Diaspor quruculuğu sahəsində yeni bir mərhələnin başlaması fonunda bir məsələyə də artıq xüsusi diqqət yetirilməsi gərəkdir. Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən sonra böyük ziyalı kütləsi Avropa və ABŞ-a mühacirət edib. Bu insanlar 70 ilə yaxın Azərbaycanın haqq davasını aparıblar. Bu sırada Əbdürrəhman Fətəlibəyli-Düdənginski, Cahangir bəy Kazımoğlu, İsrafil bəy Məmmədov, Süleyman Təkinər və digərlərinin adını çəkmək olar. 1920-ci ildən 1991-ci ilə, biz müstəqillik əldə edənə qədər bu insanlar Azərbaycanın ərazi bütövlüyü, bolşevik və erməni işğalı ilə bağlı BMT-dən başlamış, Avropanın əksər təşkilatlarına bəyanatlar göndərib, müraciətlər edib, çox əhəmiyyətli konfranslar keçiriblər. 70 illik dövrdə mətbuatımızın böyük və ən əhəmiyyətli qismi xaricdə dərc olunub. Söhbət "Yeni Qafqaziyyə", "Azəri türk", "Mücahid", "Azərbaycan yurd bilgisi", "Azərbaycan" jurnalları, "Azərbaycan" qəzeti və digər mətbu orqanlardan gedir. Bu insanlar Azərbaycan həqiqətlərini mətbuat vasitəsi ilə Türkiyə və Avropa ictimaiyyətinə necə, hansı yolla çatdırıblar? Bütün bunları, Ceyhun Hacıbəyli, Mirzə Bala Məmmədzadə, Əhməd Cəfəroğlu, Çingiz Göygöl və digərlərinin fəaliyyətini də öyrənməliyik. Azərbaycana ürəklərində böyük sevgi yaşadan bu insanların övladlarının, nəvələrini, yaxınlarının diaspor və lobbi quruculuğu prosesində aktiv iştirakına nail olmaq üçün çalışmalıyıq. Çünki diaspor quruculuğu və lobbiçilik fəaliyyəti sahəsində böyük uğur qazanmış xalqların təcrübəsi göstərir ki, illərlə formalaşmış bazisdən və ənənələrdən faydalanmaq ancaq uğur gətirir. Digər tərəfdən, bu gün savadlı və enerji gənclərimizin yaşadıqları xarici ölkələrin elmi ictimaiyyəti ilə də sıx əlaqə qurmaq yolları tapması yönündə də fəallıq göstərmələri gərəkdir. Yaxşı olardı ki, həmin ölkələrin ölkənin elmi ictimaiyyətinin diqqətini Azərbaycana, ümummilli problemimiz olan Dağlıq Qarabağ münaqişəsinə, maddi-mənəvi irsimizə, Azərbaycanın əldə etdiyi uğurlara cəlb etmək üçün illik elmi nəşrlər hazırlansın və məhz həmin ölkələrin elm adamları, tarixçiləri bu elmi nəşrlərdə məqalələrlə çıxış etsinlər. Xarici ölkələrin nüfuzlu elm adamlarının, xüsusən də tarixçilərin Azərbaycan xalqının tarixi, etnoqrafiyası, tarixi coğrafiyası ilə bağlı obyektiv araşdırmalar aparmaları üçün gənclər müxtəlif təşəbbüslərlə çıxış etməlidirlər. Çünki bizim bu ölkələrin elmi ictimaiyyətində qazanacağımız dostlar lobbi quruculuğunda önəmli rol oynayacaq.

Ramiz Mikayıloğlu Qeyd: Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün hazırlanıb
"Kaspi".-2010.-8 dekabr.-N.216.-S.13.

Ən böyük azərbaycanlı

Azərbaycanın özü qədər əbədi şəxsiyyət

7 il öncə, 2003-cü il oktyabrın 1-də ulu öndər Heydər Əliyev Azərbaycan xalqına son müraciətini etdi, tövsiyəsini verdi. Dünyanın ən böyük azərbaycanlısı bu müraciətində həm də uğurlu fəaliyyətinin, daha doğrusu, Azərbaycanın qazandığı zəfərlərin formulunu belə açıqlayırdı: "Mənim Azərbaycan Respublikasına bütövlükdə rəhbərliyimin 34, müstəqil Azərbaycan dövlətinə Prezident kimi rəhbərliyimin isə 10 ili tamam olur. Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, prezidenti kimi mənim həyat amalım yalnız sizə- bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

34 il və Azərbaycan - Heydər Əliyev vəhdəti...

10 il və Azərbaycan - Heydər Əliyev zəfər yolu...

Bu, tarixin statistik göstəricisi deyil! Bu, tariximizin az təsadüf edilən şərəf və qeyrət, ucalıq və intibah, layiqli dövlətçilik və fədakar vətəndaşlıq səhifəsinin ən möhtəşəm sətirləridir! Heydər Əliyev haqda yazılan külliyyatların, çəkilən filmlərin, deyilən fikirlərin sayı bu Şəxsiyyətin malik olduğu qüdrətin heç onda birini də vəsf etməyə kifayət deyil! Bu tərs-mütənasibliyin səbəbini heç də ortada olan sənət nümunələrinin yaradıcı uğursuzluğunda, yaxud da səslənən mülahizələrin və münasibətlərin əsassızlığında axtarmağa lüzum yoxdur. Əksinə... Səbəb sözün ən səmimi, ən uca, ən bəkarətli məqamının da Heydər Əliyev zirvəsindən çox aşağıda olmasıdır. Ən ali söz belə, bu İnsanın xalqı və dövləti qarşısında göstərdiyi misilsiz xidmətləri, eləcə də millətinin bütün nailiyyətlərinə, sevinclərinə, ən nəhayət, uzun illər həsrətini çəkdiyi normal yaşayışına görə Liderinə bəslədiyi münasibəti əks etdirməkdə gücsüzdür. Əslində, söz və onun müəllifləri müasirlərini təhlil etməkdə tam obyektiv ola bilməz, həmçinin onların qiymətləndirmə əmsalı da həqiqətin və dərketmənin yükünü tam çəkməyə qadir deyil!

Bu fikirlərdə nə mübaliğə, nə də ki şişirtmə var. Bir neçə ildən sonra Azərbaycan vətəndaşı yeni neft strategiyasının daha böyük uğurlarının bəhrəsini dadanda, sərhəd qonşuluğunda məskunlaşan dövlətlərin zəifliyini və məmləkətimizə daha çox möhtaclığını görəndə, beynəlxalq miqyasda ölkəsinin qəbuledilmə səviyyəsinin daim yüksəlməsindən qürur duyanda, elminə, təhsilinə, mədəniyyətinə, demokratik nailiyyətlərinə, yaşayış şəraitinə, bir sözlə, azad və inkişaf etmiş dövlətin vətəndaşı olmağına görə yaşadığı fəxarət hissinin səbəbinin, daha doğrusu, Səbəbkarının əsl qiymətini tam dolğunluğu ilə verəcək. Zamanı yazan, tarixi yaradan bütün dahilərin taleyidir bu!

Bəli, belə dahilərin əsl qiymətini yazdıqları zamana uyğun olaraq tarixin özü verir, kiminə beş ildən sonra, kiminə isə on ildən...

xxx

Heydər Əliyevin "ulduz"u Azərbaycanın siyasi kəhkəşanında 41 il öncə parladı. Bu İnsanın iyerarxiya irəliləyişlərinin əsl səbəbi malik olduğu şəxsi keyfiyyətləri, qabiliyyəti və bacarığı idi. Hələ məlum 1969-cu ilin 14 iyulundan çox illər öncə Onun fərdi xüsusiyyətləri yüksək qiymətləndirilir və ölkənin kadr potensialında minimum səviyyədə təmsil olunan milli kontingentin ən perspektivli nümunəsi kimi xarakterizə edilirdi. O özünə həmişə etimad qazandırmağı bacarıb. Və məhz bu etimadı gözlənilərdən də yüksək dərəcədə doğrultmağı bacardığından etimadlar silsiləsini daim genişləndirməyə müvəffəq olub. Əvvəl kiçik rəislərdən, sonra vəzifəli şəxslərdən, daha sonra isə xalqından...

İlk böyük administrativ irəliləyişi 1967-ci ildə Dövlət Təhlükəsizlik Komitəsinə sədr təyin edilməsi idi. Uzun onilliklər, daha dəqiq desək, son 40 il ərzində qeyri-azərbaycanlıların rəhbərlik etdiyi və azərbaycanlıların milli hissləri üzərində "at oynatdığı" bu qorxulu komitəyə yeni sədrin təyinatı məmləkətimizin o dövrkü ictimai məntiqi ilə heç cür izah edilə bilmirdi. Çünki Heydər Əliyev əməliyyat müvəkkilliyindən komitə sədrinin müavinliyinə qədər keçdiyi yolda Azərbaycanın da məngənəsində olduğu rejimin öz kadrlarından gözlədiyi öhdəliklərin heç birini yerinə yetirməmişdi. Nə azərbaycanlı millətçilərin ifşası ilə bağlı istintaq aparmış, nə də bu məqsədlə Ona tapşırılmış əməliyyat tədbirlərini "uğurla" başa vurmuşdu. Apardığı istintaq işlərinin nəticəsinə görə isə heç bir azərbaycanlı siyasi motivlə məsuliyyət daşımırdı.

Yəni, çekist Əliyev çekist "planını" doldura bilmirdi!

Bir sözlə, "çekistin milləti və hissləri olmur" kredosu ilə Heydər Əliyevin fəaliyyəti daban-dabana zidd idi.

Ancaq yeni dəyişən mərkəzi rəhbərlik İttifaqı bürümüş xruşşovsayağı çürük və biabırçı idarəçiliyə xitam verməк üçün güclü kadrlara ehtiyac duyurdu. Brejnev və Andropov riskə getdi.

Nəhayət ki, bu rejimdən Azərbaycan da qazandı!

Pəncərələrindən düz 57 il aramsız olaraq Azərbaycan dilində qışqırıqlar, ağlaşma sədaları ucalan bu qorxulu binada məmləkətin əsl sahibi olmalı millətin aman diləyən səsini bu Kişi kəsdi. Artıq bu pəncərələrdən Bağırovla bağlı məhkəmədən qurtulmağa müvəffəq olmuş erməni-rus çekistlərin azərbaycanlılara uddurduqları qanın sorulan hesabatı eşidilirdi, özü də AZƏRBAYCAN DİLİNDƏ!

MTN-in muzeyində DTK-nın "ÇK" olan vaxtından, yəni, 1920-ci ildən 1969-cu ilədək olan dövrlərdə komitədə çalışan əməkdaşların milli mənsubiyyət göstəricisinin şkalası asılıb. Görməyənlərə izahat: bu şkalada azərbaycanlıların göstəricisi 1967-ci ildən etibarən 90 dərəcəli bucaq altında şaquli artır, ermənilərin, rusların göstəriciləri isə eyni bucaq və forma altında aşağı enir. Elə bu fakt Heydər Əliyevin həyatının və fəaliyyətinin DTK dövrünü tam əks etdirməyə yetərlidir!

Heydər Əliyev Azərbaycan qarşısında ilk sınaqdan uğurla və ALNIAÇIQ çıxdı. Azərbaycan Onu daha geniş səlahiyyətlərlə, daha ali missiya ilə gözləyirdi...

xxx

Artıq Azərbaycan tarixinin əsrlərdir ki tamarzı qaldığı möhtəşəm səhifəsi açılırdı, təqvimdə 1969-cu ilin iyulu idi.

Azərbaycan kommunistləri ölkəyə rəhbərliyi 46 yaşlı Heydər Əliyevə həvalə etdilər. Ölkə rəhbərliyində dəyişikliklər özünü yalnız yaş göstəricilərində büruzə vermirdi, əsas fərqlilik təfəkkürdə, məmləkətə və xalqa münasibətdə, milli potensialın istifadəsində təzahür edirdi. Heydər Əliyev "başlamaq" üçün gözləmədi, dərhal fəaliyyətə keçdi. Təyinatından düz 3 həftə sonra növbədənkənar plenum çağırıldı. Və şəxsən "birincinin" özü cəmiyyətdə, idarəçilikdə baş alıb gedən özbaşınalığın, qanunsuzluğun mövcudluğundan danışır, ən əsası isə hamını şoka salan bəyanat verirdi: içimizdə rüşvətxorlar var və rüşvət cəmiyyəti içindən yeyir. Plenumun gənc nümayəndələrinin "Kişi yaman başladı" narahatlığını partiya intriqalarında saç-saqqal ağartmış "qoca qurdların" gülərək "əsas odur ki, yaxşı da qurtara bilsin" ironik münasibəti müşayiət edirdi. Zaman çox qısa müddət ərzində Heydər Əliyevin gücünü, bacarığını, saraydaxili intriqaları hansı taktika ilə neytrallaşdırdığını hər kəsə sübut etdi!

Bu, Heydər Əliyev idi, sadə azərbaycanlının mifik təfəkküründəki adil hökmdarın müasir prototipi, ədalət mücəssəməsi və canlı idarəçilik ensiklopediyası!

Qorxmalı olan Ondan qorxur, sadə vətəndaş sevir, vəzifəli şəxslər isə fəaliyyətlərini Əliyev metodları ilə qururdular.

Bu İnsan əsl azərbaycanlı örnəyi yaradırdı!

Vətəndaş qürur duymağa rəhbər, bənzəməyə kamil nümunə, problemlərinin həllini bacaran həmdəm tapmışdı. Heydər Əliyevin ilk idarəçiliyi 13 il 4 ay çəkdi. Bu epoxanı tam mənasında dərk edə bilmişikmi? Deyəsən, bu mərhələ də tarixin qiymətini dolğunluğu ilə almayıb. Həmin illərin uğur təzahürləri tək Azərbaycanın iqtisadi gücünün artırılıb, iqtisadi muxtariyyətin bərqərarı ilə yekunlaşmadı. Bu, milli-mənəvi, mədəni, ədəbi yüksəlişlərlə, əsl azərbaycanlı düşüncə tərzinin və şüurunun yaranması ilə davam etdi. Saxta beynəlmiləlçilik dalğasında milli mənliyini itirən, dilini unudan, kimliyini danan, tarixindən imtina edən, əcdadından dönən azərbaycanlı dövlətin təzyiqi ilə qarşılaşdı. Bəli, Heydər Əliyev azərbaycanlıya azərbaycanlı olduğunu qəbul etdirmək, Azərbaycana Azərbaycan ruhunu qaytarmaq üçün bütün administrativ resursları ilə hücuma keçmişdi.

Bu Şəxs Heydər Əliyev olmazdı ki, islahatlarının hüquqi əsaslarını formalaşdırmasın. Əvvəl ali və orta məktəblərin sayının bir neçə dəfə artırılması, milli ədəbiyyata, folklora, mədəniyyətə və incəsənətə dövlət qayğısının gücləndirilməsi barədə qərarlar verildi, daha sonra Azərbaycan dili dövlət dili kimi ölkə Konstitusiyasında təsbit edildi. Azərbaycanda Azərbaycan ruhu və azərbaycanlı mahiyyəti hakim idi.

Azərbaycan heç vaxt olmadığı kimi azərbaycanlıların idi!

Milli ruh, milli mənəviyyat, milli keçmiş, milli intibah artıq adi söz deyildi, bunlar cəmiyyətin və vətəndaşın əsas xüsusiyyət göstəriciləri idi. Heydər Əliyev Azərbaycanı müstəmləkə kimi deyil, iqtisadi və milli-mənəvi muxtariyyəti olan ölkə tək yaşadırdı.

Heydər Əliyev mərkəzi rəhbərliyin partiya funksionerləri üçün "cızdığı cızıqdan" çoxdan çıxmışdı, bununla kifayətlənməyərək hələ rəhbərlik etdiyi Azərbaycanı da İttifaqın "cızığından" çıxarırdı. O, fəaliyyəti ilə tarixə ibrət dərsi verirdi ki, ən qəddar tiranların idarəçiliyində, ən qanlı imperiyaların məngənəsində olanda da öz ölkənə, xalqına xidmət edə bilərsən. Bunun üçün tələb olunan yeganə şərt yerli rəhbərin müti olmaması, şəxsi mənafeyi naminə dövlətini və millətini aşağılamamasıdır.

Bu idarəçilik nümunəsi İttifaqın mövcudluğu dönəmində Azərbaycanda nə Heydər Əliyevdən əvvəlki dövrdə, nə də postəliyev zamanında göstərilmişdi. Heydər Əliyev Azərbaycanın taleyində saysız-hesabsız müsbət istisnaların müəllifidir!

Növbədə məmləkətimizin "altına qoyulmuş gec partlayan bomba" - Dağlıq Qarabağ Muxtar Vilayətində Azərbaycan üsuli-idarəsini bərpa etmək idi. Rəhbər DQMV-də meydan sulayan erməni hikkəsini elə ustalıqla yatırdı ki, vilayət ermənіləri bir də ən adi məsələyə görə də rəsmi Bakının icazəsinin alınması qərarını oxuyanda ayıldılar. Ermənilərin "göz dağına" çevrilmiş bu Kişi bütün azərbaycanlıları, Qarabağı ermənilərə "göz dağı" etdi. Heydər Əliyevdən əvvəlki və sonrakı ölkə rəhbərliyi Moskvanın qarşısında necə mütilik edirdilərsə, bu Liderin idarəçiliyi dönəmində də DQMV-nin rəhbərliyi, vilayət ermənіləri rəsmi Bakının, Heydər Əliyevin qarşısında təzim göstərirdilər.

Azərbaycan böyük bir tikinti meydanına, quruculuq məkanına çevrilmişdi. Kəndlərə şəhər siması gətirən Rəhbər bu məntəqələrdə müasir tipli məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları, ictimai-iaşə obyektləri inşa etdirirdi. Şəhərlərdə hər kvartalda yeni fabrik və zavodların açılması ənənə halını almışdı. Mərkəzin həyata keçirdiyi "bütün respublikaların bir-birindən iqtisadi və xammal asılılığı siyasəti" Azərbaycanda iflasa uğradı. Yeni istehsal sahələri ölkənin iqtisadi müstəqilliyinin daha da artmasını şərtləndirirdi. Əhalinin sosial durumu qat-qat artırdı. Sənaye, kənd təsərrüfatı, istehsal dinamik inkişaf edirdi. Neft sektoruna diqqət isə xüsusi əlahiddə əhəmiyyət kəsb edirdi. Ucsuz-bucaqsız imperiyanın kiçik əyalətində gedən böyük quruculuğun yeganə Müəllifinin öz vətəndaşını layiqli yaşatmaq və halallıqla dolandırmaq üçün göstərdiyi fədakarlıqlar bitib- tükənmirdi...

xxx

Heydər Əliyevin adı artıq bütün İttifaq boyu yayılmışdı. Bu gənc qafqazlının kiçik respublikada gördüyü böyük işlər hamının diqqətini cəlb edirdi. Kimisi Onu beynəlmiləlçilik prinsiplərindən və Ümumittifaq mənafeyindən kənara çıxan şovinist-millətçi, kimisi isə yaxın müddətdə Kreml kabinetlərində yerləşəcək perspektivli kadr kimi dəyərləndirirdi. O isə öz işində, quruculuğunda, xidmətində idi.

Hər il növbəti qırmızı ulduzun sancıldığı bayraq ağırlıqdan qəddini nə qədər əyirdisə, Azərbaycanın adı və onun birincisinin nüfuzu dəfələrlə yüksəlirdi!

"Heydər Əliyev Azərbaycana sığmır, Moskvanın da ona ehtiyacı var" - ötən əsrin 80-ci illərinin ilk illərində İttifaq iyerarxiyasının ən ali pilləsində - Siyasi Büroda gedən müzakirələrin əsas mövzusu bu idi. Ancaq daş qayaya rast gəlmişdi. Siyasi Büronun üzvlüyünə namizəd seçilsə də, Kreml yenə də Heydər Əliyevin "könlünü ala" bilmirdi. O, Azərbaycanı tərk etmək niyyətində deyildi. Yağlı vədlər, daha yüksək mənsəb və səlahiyyət də bu İnsanı fikrindən, daha doğrusu, missiyasından döndərmək gücündə deyildi.

1982-ci ildə İttifaq rəhbərliyində böyük dəyişikliklər baş verdi. Yeni rəhbər Andropovun başladığı yenidənqurma siyasəti (bu siyasəti 3 il sonra dünyanın ən məkrli avantüristlərindən biri mənimsəyərək məhv edəcəkdi) İttifaqda onilliklər boyu formalaşan bürokratik aparatı ləğv etmək, ölkə ərazisində sənayeni, iqtisadiyyatı, aqrar sektoru gücləndirmək, əhalinin sosial vəziyyətini stimullaşdırmaq kimi prinsipləri ehtiva edirdi. Baş katibin peşəkarlara ehtiyacı vardı. Kremlin mahir intriqanları İttifaq üçün belə taleyüklü prosesi aparmağa qadir deyildilər. Nəzərlər yenə də Heydər Əliyevə dikilmişdi. Bu dəfə etiraz etmək mümkün deyildi. Çünki Kremlin yeni sahibindən Əliyevsiz qalacaq Azərbaycana heç bir zərər toxunmayacaqdı. Heydər Əliyev artıq dünyanın altıda birini təşkil edən böyük bir dövlətin ən ali rəhbərliyində dördüncü adam idi (Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən yüksək yalnız üç post var idi: baş katib, Ali Sovetin sədri və Nazirlər Sovetinin sədri). "Kremlə sancılan əzəmətli Türk Bayrağı" İttifaqın bütün sənayesinə, iqtisadiyyatına, təsərrüfatına, elminə, təhsilinə, mədəniyyətinə, səhiyyəsinə, tikintisinə, bir sözlə, bütün strateji sahələrinə birbaşa rəhbərlik edirdi. O, Siyasi Büronun üzvü kimi dövlətin xarici və daxili siyasətini müəyyənləşdirən əsas simalardan sayılırdı. Bu, Azərbaycana və azərbaycanlıya olan çox böyük etimad idi. Bu, yalnız bir fərdin yüksəlişi deyildi, bütünlüklə dövlətimizin və xalqımızın uca zirvəni fəth etməsi idi. Bu, siyasət fatehi ilə qürur duyan kiçik bir məmləkətin misilsiz sevincinin növbəti təzahürü idi.

Heydər Əliyev yeni postunda tam 5 il çalışdı. Azərbaycanı böyük tikinti meydanına çevirən İnsan fəaliyyətini indi daha geniş müstəvidə davam etdirirdi. Brestdən Vladivostokadək, Norilskdən Həştərxana qədər on minlərlə tikinti meydanının, Baykal-Amur magistralının baş inşaatçısına çevrilən bu böyük Azərbaycanlının xidmətlərini indi Belarusda, Latviyada, Ukraynada, Gürcüstanda, Özbəkistanda və daha neçə-neçə keçmiş müttəfiq respublikalarda böyük hörmətlə xatırlayırlar. Bu müddətdə Heydər Əliyev, şübhəsiz ki, vətənini unuda bilməzdi. Həmin illərdə mərkəzdən Azərbaycana ayrılan vəsaitlərin həcmi dəfələrlə artırılmış, respublikada gedən quruculuq işlərinə daha geniş və münbit zəmin yaranmışdı. Onun təşəbbüskarlığı tək maddi quruculuq məsələləri ilə bağlı deyildi. O, sistemdə, ideoloji prinsiplərdə, idarəçilik metodlarında islahatlar aparmaq təklifini cəsarətlə irəli sürürdü.

Siyasi Büronun iclaslarında Heydər Əliyevin "müttəfiq respublikalara sərbəstlik verilməlidir, onlar vəsaitlərinin məsrəfində müstəqil olmalıdırlar, Qərbdən gələn demokratikləşmə və yeniləşmə dalğasına hazır olmalıyıq" çağırışları qəlibləşmiş stereotiplərin və "parçala, hökm sür" hökmünün daşıyıcısı olan çinovniklərin yuxusuna haram qatmışdı. Xarici səfərlərində tək jurnalistlərin və həmin dövlətlərin ictimaiyyətinin deyil, həm də ölkə rəsmilərinin də diqqətini cəlb etməsi, səfərlərindən sonra həmin xarici dövlətlərin mətbuatında haqqında yüksək fikirlər səsləndirilməsi Ona Kreml kuluarlarında qısqanc münasibət formalaşdırırdı.

1985-ci ildə yeni baş katibin seçimi ilə bağlı gedən müzakirələrdə tez-tez səslənən "Siyasi Büronun ən cavan, ən nüfuzlu, ən bacarıqlı üzvü baş katib seçiləcəyi təqdirdə, dövlət və partiya nüfuzunu bərpa edə bilər" məntiqi seçimi alternativsiz olaraq məhz Heydər Əliyevin üzərinə yönəltdiyindən "baş katib slavyan mənşəli olmalıdır" hökmü özünü çox gözlətmədi. Və təsadüfi deyil ki, seçimi "bu türkün məqsədi İttifaqı möhkəmləndirmək yox, onu dağıtmaqdır" qeybətlərinin əsas müəlliflərindən olan M.Qorbaçov "qazandı".

Bəli, bacarığı və qabiliyyəti Heydər Əliyevi dünyanın ən güclü iki dövlətindən birinin rəhbərliyinə doğru sürətlə aparırdısa da, onun milli mənsubiyyəti bu yüksəlişdə maneəyə çevrilirdi. "Azərbaycanlı kimi dünyaya gəldiyimə, Azərbaycan dilində danışdığıma, Azərbaycanı təmsil etdiyimə görə özümü çox xoşbəxt sayıram" sözlərinin müəllifi bu münasibətdən kədərlənə, milli mənsubluğundan heyifsilənə bilərdimi? "Bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam" fikrinin sahibi başqa cür ola bilərdimi?.. Bilmədi də!

Bu arada sevimli ömür-gün yoldaşını itirdi. Bu, itkilərin başlanğıcı idi...

Artıq bu böyük İnsanın mənəvi dünyasında qayğıları günü-gündən artırdı. Yeni rəhbərliyin cəsarətinə sığışdırıb açıq apara bilmədiyi, ancaq pərdə arxasında daim genişləndirdiyi intriqalar, partiya yoldaşlarının buqələmun xislətləri, Onun xofu ilə yaşayan səriştəsiz kadrların irəli çəkilməsi, daha sonra isə baş katibin xeyir-duası ilə Ermənistanın separatçı meyillərinə münbit şəraitin yaradılması, Azərbaycana qarşı mənfi münasibətin daha da kəskinləşməsi, ən ağrılısı isə respublikada Onun siyasi kursuna xəyanət edilməsi Heydər Əliyevi mənən ağrıdırdı. Azərbaycanın rəhbərləri M.Qorbaçovun diktəsi ilə Onunla münasibəti də kəsmişdilər. Hətta ürəyindən müalicə olunanda belə, Onu Azərbaycandan ziyarət edənlər yalnız sadə vətəndaşlar, statussuz ziyalılar, elm, sənət xadimləri idi. Bu müddətdə Azərbaycandan aldığı təskinlikverici teleqramların sayı günü-gündən artdığı kimi, bu məmləkətdən onun əleyhinə Kremlə göndərilən donosların da sayı çoxalırdı. Bu, xəyanət idi! Dost hesab etdiklərinin, əllərini çörəyə çatdırdıqlarının, mənsəb sahibi etdiklərinin, etimad göstərdiklərinin, özünə varis saydıqlarının, qayğısını çəkdiklərinin xəyanəti! Bu, bütün dahilərin taleyidir ki, Heydər Əliyev də bu taleyi bölüşməyə məhkum idi...

Bəziləri zənn edirdi ki, artıq Heydər Əliyevin qürubu başlanıb. Bəziləri sonralar da Heydər Əliyevin qürubu ilə bağlı proqnoz zənlərində yanılacaqdılar. Siyasi qürub bu İnsana heç vaxt yaxınlaşa bilməyib, yaxınlaşa bilməzdi də! Bu İnsan infarktdan sonra böyük siyasətə qayıtmağı, siyasi mühacirətdən sonra hakimiyyətə dönməyi, ağır cərrahiyyə əməliyyatından sonra gərgin fəaliyyətinə baxmayaraq səhhətini qısa müddətdə bərpa etməyi, yıxıldıqdan və qabırğalarını zədələdikdən sonra yenidən zala qayıtmağı bacaran, buna cəsarəti çatan, ən nəhayət, mənəvi mövcudluğu ilə əbədiyaşarlıq haqqı qazanmış KİŞİdir!

Müqavimət göstərmək əbəs idi. Bu böyük İnsan istefa ərizəsini yazmağa heç bir çətinlik çəkmədi. 1987-ci ilin 21 oktyabrında İttifaq rəhbərliyində daşıdığı vəzifədən və Siyasi Büro üzvlüyündən ayrıldı. O, bir daha sübut etdi ki, hakimiyyət Onun üçün məqsəd deyil, sadəcə, dövlətinə və xalqına, Ona etimad bəsləyənlərə xidmətdir. O, nümayiş etdirdi ki, daşıdığı vəzifə nə qədər yüksək olsa da, malik olduğu hakimiyyət nə qədər ali səciyyə daşısa da, Heydər Əliyevin yalnız elə quruca adı bu iyerarxik məqamlardan həmişə yüksəkdə dayanıb!

Vəzifələr ona hörmət gətirməyib, O, bütün vəzifələrə şərəf bəxş edib!

1987-ci ilin 21 oktyabrında Heydər Əliyev vəzifəsindən və Siyasi Büro üzvlüyündən istefa verdi. İki həftə sonra Dağlıq Qarabağ münaqişəsində 60 il davam edən atəşkəs pozuldu. Heydər Əliyevin vəzifəsizliyinin on günlüyünü ermənilərin belə qeyd etməsi bu Kişinin mübaliğəsiz olaraq AZƏRBAYCANIN GÜCÜ olduğunu ən bariz şəkildə göstərirdi! Rəhbər postlardan istefa verməklə isə Heydər Əliyevin Azərbaycan tarixində ikinci QURTULUŞ missiyası başladı.

xxx

İttifaq əhəmiyyətli təqaüdçü həyatını Kreml bağlarında dincəlməklə davam etdirə bilməzdi. Belə bir ömür Heydər Əliyevə əsla yaraşmazdı, özü də həyatını həsr etdiyi dövləti və xalqı böyük məşəqqətlərin məngənəsində olduğu bir vaxtda. Artıq Heydər Əliyevə qarşı qanlı repressiya maşını işə düşmüşdü. Ailəsi olmazın problemlərə düçar edilmişdi. Oğlu İlham və qızı Sevil iş yerlərini itirmişdilər. Bakıda yaşayan qohumları daim təhlükə içində idilər.

Onunla Azərbaycanda əlaqə saxlayanların da günü xoş keçmirdi. Onu Azərbaycana qayıtmağa da qoymurdular. Ancaq O nə geri çəkildi, nə də sındı. Çünki bilirdi ki, dövləti və xalqı Onu gözləyir. Kreml və Bakı rəhbərliyi hətta ən qanlı terror ssenariləri, mənəvi təzyiqlərlə də Heydər Əliyev qarşısında tərksilah oldular. 1990-cı ilin iyununda Heydər Əliyev Azərbaycana qayıtdı.

Artıq Onun Azərbaycanda yürüdəcəyi yeni fəaliyyətin konturlarını xalq müəyyənləşdirmişdi, özü də Heydər Əliyevlə məsləhətləşmədən. Onun davamlı etirazlarına baxmayaraq, deputatlığa namizədliyi irəli sürüldü, kəskin şəkildə imtinasına əhəmiyyət vermədən xalq onu Azərbaycanın və Naxçıvanın ali sovetlərinə deputat seçdi. Xalq Ondan əl çəkə bilməzdi! Çünki qurtuluşu 1969-cu ildə olduğu kimi, yalnız O, bəxş edə bilərdi!

Bu, Azərbaycanın seçimi idi!

1991-ci ilin əvvəllərində Heydər Əliyev Azərbaycan parlamentinin deputatı kimi gərgin fəaliyyətə başladı. Çıxışlarının əsas leytmotivi Dağlıq Qarabağ probleminin həlli ilə bağlı rəsmi Bakının daha cəsarətli mövqe tutması və Kremlə əsassız yerə güvənməkdənsə, əhalinin müdafiəsinin təşkilinin dövlətin himayəsinə verilməsi idi. Yeni İttifaq müqaviləsinə qoşulmaq üçün keçirilən referenduma qarşı çıxan Heydər Əliyev həmin zaman Azərbaycanın perspektiv müstəqilliyinin yeganə tərəfdarı kimi çıxış edirdi. "Komblok"un boşboğaz ittihamlarını "Demblok"un avantüraları müşayiət edirdi. Siyasi gərginliyin və hərbi təcavüzün yaratdığı xaosdan bəhrələnərək hakimiyyət bölgüsünü yenidən həyata keçirmək istəyən hər iki düşərgə üçün yeganə qorxu var idi: xalqın Heydər Əliyevə hədsiz rəğbəti və Onu özünə alternativsiz rəhbər kimi görməsi.

Bakıdakı ucuz intriqalar, saray çəkişmələri iyrənc xarakter almışdı. Heydər Əliyev bir qədər dincəlmək üçün Naxçıvana qayıdır. Ancaq Ona dincəlmək qismət deyil! Özünün qəti etirazlarına, rəsmən imtinasına baxmayaraq, Naxçıvan sakinlərinin uzunmüddətli mitinqlərindən sonra muxtar respublikanın Ali Məclisinə rəhbərlik etməyə razılaşır. O, xalqın arzu və istəkləri ilə yenidən siyasi olimpə doğru irəliləyirdi.

Naxçıvan Azərbaycanın müstəqillik savaşının ideya və real fəaliyyət mərkəzinə çevrildi. Məhz ilk dəfə Naxçıvanda dövlət atributları rəsmən qəbul olundu, bayrağımız rəsmi formada dalğalandı, "Sovet Sosialist" sözündən imtina edildi, sovet qoşunları ərazini tərk etdi, sərhəd məntəqələrində Azərbaycan bayrağı ucaldıldı, tarixi ədaləti və müstəqil dövlətçilik prinsiplərini bərqərar edən fərmanlar imzalandı. Heydər Əliyevin bu təşəbbüslərini sonradan Azərbaycan Milli Şurası da rəsmiləşdirməyə məcbur oldu.

Heydər Əliyev Azərbaycan məkanında əsl müstəqillik və layiqli dövlətçilik nümunəsini formalaşdırdı. Blokadada olan bölgəni yaşatmağa müvəffəq oldu. Əhalinin təhlükəsizliyini təmin etdi. İşğalın qarşısını aldı. Xalqın qarşısında müqayisə üçün iki siyasi xətt var idi: siyasi intriqa və dövlətə xəyanət timsallı avantüristlər, yaxud da dövləti qorumağı, vətəndaşı yaşatmağı bacaran kamil idarəçilik sistemi. Seçim Azərbaycanın xeyrinə idi. 1993-cü ilin iyun hadisələri Azərbaycanın intizarla sözünü gözlədiyi İnsanın hakimiyyətə dönüşünü tezləşdirdi. Azərbaycanın taleyində yeni səhifə açıldı.

xxx

Heydər Əliyev Azərbaycana ordu, əsgərə ehtiram, qürur bəxş etdi! Heydər Əliyev Azərbaycana sabitlik, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi! Heydər Əliyev vətəndaşına ən ali hüquq və azadlıqlar, sərbəstlik, təkmil konstitusiya, azad və ədalətli seçkilər, xalqın səsi ilə ərsəyə gələn parlament verdi! Heydər Əliyev MDB-də ilk dəfə olaraq torpaq islahatı apardı və torpağı minilliklərlə ölçülən tariximizdə kəndliyə təmənnasız bağışladı!

Heydər Əliyev nefti "fəlakət mənbəyindən" yüksəlişin əsas amilinə və ümumxalq sərvətinə çevirdi. Və onu yalnız maddi inkişafın elementinə çevirmədi, həm də millətin və dövlətin əsrlər boyu davam edəcək intibahının və təhlükəsizliyinin əsas təminatı etdi. Heydər Əliyev şəffaf özəlləşdirmə prosesinin banisi oldu, xalqı mülkiyyətçiyə, sahibkara, pul yiyəsinə çevirdi, halallıqla dolanmağı və çörək qazanmağı öyrətdi. Heydər Əliyev Azərbaycana milyardlarla dollar həcmində sərmayə, yüz milyonlarla vəsaitin ümumiləşdiyi Neft Fondu, həcmi milyard dolları ötən valyuta ehtiyatı gətirdi. Heydər Əliyev məcburi köçkünü bataqlıqdakı çadırdan müasir evlərə köçürdü, onların öz doğma yurdlarına dönmələri üçün isə dünyanı, beynəlxalq təşkilatları qarış-qarış gəzərək Azərbaycanın haqq səsini qəbul etdirdi və Ermənistanın təcavüzkar siyasətini ifşa edərək qələbəmizin siyasi, diplomatik və informativ zəminini formalaşdırdı. Ən əsası isə xalqda böyük zəfərə inam yaratdı. Heydər Əliyev Azərbaycan kişisini yoxsulluqdan övladlarını normal dolandıran ailə başçısına çevirdi, sabahına inamsızlığı daha uğurlu perspektivə olan ümidlə əvəzlədi, ruh düşkünlüyünü aradan qaldırdı. Heydər Əliyev Azərbaycanda vətəndaş qarşıdurmasını yox etdi, vətəndaş birliyini, sülhünü və həmrəyliyini yaratmaq məqsədilə on minlərlə insana amnistiya və əfv tətbiq etdi, hətta onun fiziki qəsdinə çalışan cinayətkarları bağışladı. Heydər Əliyev Azərbaycan insanına güclü və qüdrətli dövlət, Azərbaycana isə uğrunda canından keçməyə hazır olan vətəndaşlar bəxş etdi. Heydər Əliyev elə bir siyasi kursun əsasını qoydu ki, bu kurs Azərbaycan durduqca məmləkətimizin dövlətçilik konsepsiyasi kimi yaşayacaq!

Ən nəhayət, Heydər Əliyev Azərbaycana elə bir layiqli siyasi davamçı bəxş etdi ki, qurduğu dövlət və yaşamaq haqqı verdiyi millət bu gün Ona - Prezident İlham Əliyevə alternativsiz inam, etimad ünvanı kimi yanaşır!

İndi Heydər Əliyev qurduğu dövlətin, yaşatdığı və ucaltdığı millətin əbədi rəhbərinə çevrilib. O, Azərbaycanın əbədiyyətinə çevrilməyə layiqli ömür yaşadı və bu haqqı fəaliyyəti, əməlləri ilə qazandı. Ona bu haqqı Azərbaycan verdi. Hər kiçik nailiyyətimizə görə də bizim Ona böyük borcumuz var. Biz hələ onilliklər sonrası da Onun təməlini qoyduğu planların bəhrələrini dadanda bu İnsanın necə böyük Vətəndaş, Şəxsiyyət, Lider olduğunu dərk edəcəyik. O, uğurlarda, zəfərlərdə, Azərbaycan tarixində yaşayacaq!..

Heydər Əliyevin taleyi, əslində, bir insanın ömür yolu deyil, bu, Azərbaycanın tarixidir, qurtuluş, inkişaf, milli tərəqqi salnaməsidir!

Bu taleyi - bu tarixi indi Prezident İlham Əliyev yaşayır, yaradır!

Dünyanın ən böyük Azərbaycanlısının sözüdür: "Nə qədər ki Azərbaycan var, Mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!"

Bu əbədiyaşarlıq həm də Azərbaycanın milli intibahının əsas təminatıdır!..

İxtiyar Hüseynli
"Azərbaycan".-2010.-9 dekabr.-N 270.-S.2.

DAK yenidən təşkilatlandı

Dekabrın 4-5-də Almaniya Federativ Respublikasının qədim paytaxtı Bonn şəhərində "Günnewig Hotel Residence"in konfrans salonunda Dünya Azərbaycanlıları Konqresinin (DAK) XI Qurultayı öz işinə başladı. Qurultayda 20 ölkədən 200-dən çox nümayəndə iştirak edirdi. Onların arasında Azərbaycanın müxtəlif hökumət orqanlarının nümayəndələr-Prezident Administrasiyasının şöbə müdiri Qafar Əliyev, Diasporla İş üzrə Dövlət Komitəsinin rəsmisi Tahir Hacıyev, Əsir və İtkin düşmüş, Girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi Şahin Sayılov, Azərbaycan, Türkiyə və türk dövlətlərinin diaspor təşkilatlarının nümayəndələri, Azərbaycan və Rusiya Milli Elmlər akademiyalarının (AMEA) alimləri, tədqiqatçı alim Aygün Həsənoğlu, Güney Azərbaycan Demokrat Partiyasının (GADP) sözçüsü Mahmud Bilgin, quzeyli və güneyli ziyalılar, fars şovinist rejiminin basqısı nəticəsində İranı tərk etmək məcburiyyətində qalaraq xarici ölkələrdə mühacirət həyatı yaşayan soydaşlarımız və s. var. Bunlardan 149 nəfəri səsvermə hüququna malik olan mandatlı nümayəndələr idi. Qurultayı DAK həmsədri Firidun Pərviznia açaraq qurultaya qatılan bütün nümayəndələri salamladı və müxtəlif təşkilatların təbriklərini onların diqqətinə çatdırdı. Bundan sonra Azərbaycanın quzeyində Qarabağ müharibəsində şəhid düşmüş və Güney Azərbaycanda aparılan milli mücadilə zamanı canlarını fəda etmiş soydaşlarımızın ruhu bir dəqiqəlik sükutla yad edildi. Daha sonra Azərbaycanın dövlət himni oxundu. Bundan sonra səsvermə yoluyla Mandat Komissiyası, Katiblik, Say Komissiyası, Redaksiya Heyəti və Divan üzvləri seçildi. Mandat Komissiyasına Samir Əsədli, Qeys Məmmədov və Mehman Hüseynov, Katibliyə Real Cəfərli və Emil Bağırov, Say Komissiyasına Adilə Məmmədova, Elşən Tağızadə, Fuad Turan, Elçin Məlikov və Asəf Həsənov, Redaksiya Heyətinə Samir Adgözəlli, Samir Turan, Roman Ağayev, Elçin Rəcəbli və Əli Dəmirov, Divana isə Əjdər Tağızadə, Məhəmməd Müştaq, Hüseyn Vüsuqi, Behruz Həqqi və Əhməd Əbilov seçildilər. Daha sonra DAK həmsədrləri Sabir Rüstəmxanlı və Firidun Pərviznia, DAK-ın Azərbaycan nümayəndəliyinin sədri Səftər Rəhimli, DAK-ın Ukrayna nümayəndəliyinin sədri Möhlət Hüseynov və DAK-ın Rusiya nümayəndəliyinin sədri Mirəşrəf Fətiyev hesabat məruzələrilə çıxış etdilər.

Bundan əlavə, DAK həmsədrlərinin MDB dövlətləri üzrə müavini Abuzər Bağırov, DAK həmsədrlərinin Türk Dünyası üzrə müşaviri Tənzilə Rüstəmxanlı, güneyli hərəkatçı Mahnı Zənganlı və Güney Azərbaycan Demokrat Partiyasının (GADP) sözçüsü Mahmud Bilgin danışdı. Daha sonra hesabat məruzələrinə qiymət verildi. DAK Nəzarət-Təftiş Komissiyasının üzvü Ramiz Haqverdi çıxış edərək görülən işləri yüksək qiymətləndirdi. Bundan sonra çıxışlar səsə qoyularaq dayandırıldı və qurultay da səs çoxluğuyla DAK İdarə Heyətinin fəaliyyətini kafi dəyərləndirdi. Eyni zamanda Vaqif Arzumanlı, Abuzər Bağırov, Oktay Hüseynov, Sevil Nuriyeva, Adil Minbaşı, Əlövsət Əliyev, Rövşən Qəmbər qurultay adından dünya ictimaiyyətinə, parlamentlərə müraciət hazırlamaq üçün Təşkilat Komitəsinə üzv seçildilər. Daha sonra DAK Nəzarət-Təftiş Komissiyasının sədri Aqil Ələsgər avtomobil qəzasısına düşdüyündən və qurultaya gələ bilmədiyindən qurumun katibi Samir Əsədli hesabat verərək DAK İdarə Heyətinin üzvlərinin hamısının olmasa da, bəzilərinin fəaliyyətini yüksək qiymətləndirdiklərini bildirdi. Hesabat səs çoxluğuyla təsdiqləndi. Hətta DAK-ın keçmiş sədri Cavad Dərəxti zəng açaraq qurultay iştirakçılarını təbrik etdi. Bundan əlavə, Xəzər Emin, Məhəmməd Müştaq, Əjdər Tağızadə, Rəşad Xasayoğlu və Azər Əxş çıxış etdilər. Bundan sonra DAK-ın İdarə Heyətinə seçkilər başladı. DAK-ın İdarə Heyətinə namizəd olan 39 nəfər özünü qısaca təqdim etdikdən sonra gizli səsvermə keçirildi. Konqresin Nizamnaməsinə uyğun olaraq DAK İdarə Heyətinə 17 üzv seçildi. Bunlar Sabir Rüstəmxanlı, Səftər Rəhimli, Adil Minbaşı, Vaqif Arzumanlı, Baba Tağıyev, Mirəşrəf Fətiyev, Oqtay Hüseynov, Tahir Hacıyev, Abuzər Bağırov, Firudin Pərviznia, Möhlət Hüseynov, Hüseyn Vüsuqi, Nurəddin Qərəvi, Əjdər Tağızadə, Fəramərz Quluzadə, Məhəmməd Müştaq və Behruz Həqqidir. DAK İdarə Heyətinin üzvləri isə ilk yığıncağını keçirərək konqresin Nizamnaməsinə uyğun olaraq öz aralarından həmsədrləri seçdilər. Sabir Rüstəmxanlı və Firidun Pərviznia yenidən DAK-ın həmsədrləri seçildilər. Eyni zamanda DAK İdarə Heyətinin üzvləri yekdilliklə Əjdər Tağızadəni DAK Daimi Şurasının sədri seçdilər. Bundan əlavə, Abuzər Bağırov DAK həmsədrlərinin MDB dövlətləri üzrə müavini, Xəzər Emin isə humanitar məsələlər üzrə müavin təyin olundu. Eyni zamanda DAK İdarə Heyətinin üzvləri bəzi ölkə nümayəndəliklərini də təsdiqlədilər. Beləliklə, Səftər Rəhimli DAK-ın Azərbaycan, Mirəşrəf Fətiyev Rusiya, Möhlət Hüseynov isə Ukrayna nümayəndəliklərinin rəhbərləri təyin edildilər. Bundan əlavə, açıq səsvermə yoluyla 8 namizəd arasından 7 nəfər DAK NTK üzvü seçildi. Bunlar Samir Əsədli, Babək Tağızadə, Samir Adgözəlli, Ramiz Haqverdi, Mustafa Kərimov, Nadir Həsənov və Xaliq Ələsgərovdur. DAK NTK üzvləri də ilk yığıncağını keçirərək konqresin Nizamnaməsinə uyğun olaraq öz aralarından sədrlərini və katiblərini seçdilər. Samir Əsədli yekdilliklə DAK NTK sədri, Babək Tağızadə isə müavin seçildi.

Real Cəfərli

***" Xalq Cəbhəsi" .*-2010.-9 dekabr.-N 222.-S.4.**

Diasporla İş üzrə Dövlət Komitəsinin kollektivi Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

Azərbaycanın mərhum prezidenti, ulu öndər Heydər Əliyevin vəfatından yeddi il ötür. Bu gün Diasporla İş üzrə Dövlət Komitəsinin kollektivi Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib, önünə gül dəstələri qoyub, milli liderin xatirəsinə ehtiram bildirib. Bu münasibətlə Azərbaycanın bütün bölgələrində, o cümlədən paytaxt Bakıda Heydər Əliyevin anım mərasimləri təşkil olunub. Qeyd edək ki, Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Naxçıvanda anadan olub. 1944-cü ildən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə qurumun sədri vəzifəsində işləyib, təhlükəsizlik orqanlarında general-mayor rütbəsinə qədər yüksəlib. Həmin illərdə Leninqradda xüsusi ali təhsil alan Heydər Əliyev 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirib.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib və sabiq SSRİ-nin rəhbərlərindən biri olub.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sov. İKP MK Siyasi Bürosunun və baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa verib. 1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edən Heydər Əliyev Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edib.

O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk edib. 1990-cı ilin iyulunda Azərbaycana qayıdan görkəmli ictimai-siyasi xadim ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşayıb, həmin il həmçinin Azərbaycan Ali Sovetinə deputat seçilib. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olub.

Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilib. 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilən Heydər Əliyev iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayıb. 1993-cü il oktyabrın 3-də keçirilən seçkilər nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib. O, 1998-ci il oktyabrın 11-də keçirilən növbəti prezident seçkilərində yenidən Azərbaycan Respublikasının Prezidenti postuna seçilib. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirakdan imtina edib. Uzun müddət ABŞ-ın Klivlend klinikasında müalicə olunan Heydər Əliyev 2003-cü il dekabrın 12-də dünyasını dəyişib.

12 dekabr 2010

“Azərbaycan Cəmiyyəti”, Gürcüstan Azərbaycanlılarının Gənclər İttifaqı və Gürcüstan Azərbaycanlıları Konqresi milli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirib

Birləşmiş Ərəb Əmirliklərindəki “Azərbaycan Cəmiyyəti” milli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anma mərasimi keçirib. Tədbirdə Azərbaycan, türk və qırğız diasporunun nümayəndələri, İraq türkmənləri və yerli qonaqlar iştirak ediblər. Cəmiyyətin sədri Samir İmanov çıxış edərək müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin ömür yolundan, zəngin dövlətçilik təcrübəsindən, ölkəmizin inkişafındakı müstəsna xidmətlərindən danışıb. Tədbirə qatılan BƏƏ-dəki türk icmasının rəhbərliyi də ulu öndərlə bağlı fikirlərini bölüşüb, onun Azərbaycan-Türkiyə münasibətlərinin inkişafındakı rolundan bəhs edib. Anma mərasimində “Ayrılarmı könül candan” sənədli filmi nümayiş etdirilib, milli liderin həyat və fəaliyyəti ilə bağlı fotosərgi təşkil olunub, eləcə də qonaqlara ulu öndər haqda ərəb, ingilis və Azərbaycan dillərində olan müxtəlif kitablar, broşurlar və Heydər Əliyev Fondunun nəşri olan “Qarabağ həqiqətləri” kitabı paylanıb.

Gürcüstan Azərbaycanlıları Konqresi (GAK) dekabrın 12-də Azərbaycanın milli lideri Heydər Əliyevin vəfatının yeddinci ildönümü ilə əlaqədar anım mərasimi keçirib. GAK üzvləri və gənc fəalları Tbilisidə Heydər Əliyevin büstü önünə əklil qoyub və ruhunu dərin ehtiramla yad ediblər. Daha sonra GAK-ın ofisində “Heydər Əliyev və Gürcüstan” mövzusunda dəyirmi masa keçirilib. GAK sədri Əli Babayev dəyirmi masa iştirakçılarına Heydər Əliyevin Gürcüstan və Azərbaycan arasında dostluq əlaqələrinin dərinləşdirilməsi və möhkəmləndirilməsi istiqamətindəki əvəzsiz xidmətlərindən danışıb.

Gürcüstan Azərbaycanlılarının Gənclər İttifaqı ulu öndər Heydər Əliyevin anım gününü qeyd edib. Tbilisidə Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub, xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Milli lider Heydər Əliyevin büstü önündə keçirilən tədbirdə GAGİ-nin sədri Leyla Məmmədova milli liderin tarixi xidmətlərindən danışıb. Tədbir Marneuli Bələdiyyəsinin iclas salonunda davam etdirilib. Kvemo Kartli qubernatorunun müavini Hüseyn Yusifov ulu öndərin tarixi xidmətlərini yada salaraq qeyd edib ki, Heydər Əiiyev dünyada yaşayan bütün azərbaycanlıların lideridir. Sonra çıxış edən Marneuli qamqebelisinin müavini Heydər Musayev vurğulayıb ki, gənclərin belə tədbirləri keçirməsi təqdirəlayiq haldır. Biz hər zaman gəncliyin sağlam düşüncəli olmasını istəyirik. Qardabanidən “Gənclərə yardım və marifləndirmə dərnəyi”nin sədri Musa Hacıyev, Dmanisidən “Başkeçid Dirçəliş Təşkilatı”nın sədri Kamran Xıdıroğlu və digər çıxış edənlər milli lider Heydər Əliyevin keçdiyi ömür yoluna nəzər salaraq bildiriblər ki, bu ömür yolu gənclərə bir həyat məktəbidir. İttifaqın hazırladığı ulu öndər Heydər Əliyevə həsr olunmuş sənədli slayd-göstərinin təqdimatı da olub. Sonda Diasporla İş üzrə Dövlət Komitəsinin və AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu ilə birgə hazırladığı “Virtual məktəb” portalının təqdimatı keçirilib.

12 dekabr 2010

Rumın-Amerikan Universitetində (RAU) Azərbaycana həsr olunmuş konfrans keçirilib

Dekabrın 13-də Buxarestdəki Rumın-Amerikan Universitetində (RAU) Azərbaycana həsr olunmuş konfrans keçirilib. Tədbir universitet rəhbərliyinin, Buxarest Yazıçılar Assosiasiyasının, Azərbaycanın Rumıniyadakı səfirliyinin və Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyinin təşəbbüsü və dəstəyi ilə təşkil olunub.

Tədbirdən əvvəl Rumın-Amerikan Universitetinin rektoru doktor Ovidiu Folkuts (Ovidiu Folcut) ilə Buxarest Yazıçılar Assosiasiyasının sədri doktor H.Qırbya, Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyinin rəhbəri İqbal Hacıyev və səfirliyin humanitar məsələlər üzrə attaşesi Fəxri Kərimli arasında görüş olub. Görüş zamanı O.Folkuts Azərbaycan haqqında belə bir tədbirin keçirilməsinə çoxdan hazırlaşdıqlarını, bu işdə həmin ali məktəbin müəllimi olan Şerban Corceskunun böyük əməyinin olduğunu bildirib. O, həmçinin başçılıq etdiyi universitet ilə Azərbaycandakı ali məktəblər arasında əməkdaşlıq əlaqələrinin qurulması, gələcəkdə RAU-da təhsil almaq üçün Azərbaycandan tələbələrin cəlb olunması kimi layihələri həyata keçirmək niyyətində olduqlarını qeyd edib. Soydaşlarımız bildiriblər ki, Rumın-Amerikan Universiteti kimi nüfuzlu ali məktəbdə Azərbaycana dair ilk tədbirin keçirilməsi olduqca müsbət hal kimi qiymətləndirilməlidir və Azərbaycan tərəfi perspektivdə bu universitet ilə bütün sahələrdə əməkdaşlıq etməyə hazırdır. Söhbət zamanı universitetdə ənənəvi olaraq təşkil olunan tələbələrlə əcnəbi diplomatların görüşü layihəsi çərçivəsində Azərbaycan Respublikasının Rumıniyadakı səfirinin bu ali məktəbə dəvət olunması barədə ilkin razılıq əldə olunub.

Universitetin konfrans salonunda keçirilən Tədbirdə Buxarest Yazıçılar Assosiasiyasının sədri doktor Horia Qırbya Azərbaycan haqqında təəssüratlarını bölüşüb, ölkəmizə aid əlamətdar məqamları özündə ehtiva edən və şəxsən özünün müəllifi olduğu fotosərgini nümayiş etdirib. H.Qırbya Ermənistanın Azərbaycana qarşı təcavüzünün ağır nəticələrindən bəhs edib və XX əsrin ən qanlı səhifələrindən biri olan Xocalı faciəsi zamanı erməni silahlı qüvvələrinin törətdiyi vəhşilikləri xüsusilə vurğulayıb. Rumın yazıçısı, eyni zamanda, 20 Yanvar hadisələri, azərbaycanlıların soyqırımı və Quba kütləvi məzarlığı haqqında da ətraflı məlumat verib. H.Qırbya qeyd edib ki, xristianlığın dövlət dini elan edildiyi ilk ölkə Ermənistan deyil və Azərbaycanda daha erkən dövrlərə aid xristian abidələrinin aşkar edilməsi bu faktı bir daha sübut edir. Konfransın sonunda Rumın-Amerikan Universitetinin rektoru doktor Ovidiu Folkuts, Buxarest Yazıçılar Assosiasiyasının sədri doktor H.Qırbya, Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyinin rəhbəri İ.Hacıyev və səfirliyin humanitar məsələlər üzrə attaşesi F.Kərimli Azərbaycanla bağlı, o cümlədən Ermənistanın Azərbaycana təcavüzü, Dağlıq Qarabağ münaqişəsinin kökləri və Azərbaycan dövlətinin problemin həllinə dair mövqeyi ilə bağlı sualları cavablandırıblar

13 dekabr 2010

Heydər Əliyev adına Beynəlxalq Sosial Elmlər İnstitutunun yaradılmasının 10 illiyinə həsr olunmuş tədbir keçirilib

Azərbaycanlı Gənclər Birliyinin təşkilatçılığı və Azərbaycanın Ukraynadakı səfirliyinin dəstəyi ilə Kiyev şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Beynəlxalq Sosial Elmlər İnstitutunun yaradılmasının 10 illiyinə həsr olunmuş tədbir keçirilib. Ukrayna Regionlararası Heyətin İdarəolunma Akademiyasının prorektoru İqor Pilyayev tədbirin açılışında Ukraynada Heydər Əliyev kimi dahi şəxsiyyətin adına elm ocağının fəaliyyət göstərməsindən fərəh hissi keçirdiyini vurğulayıb. O, bildirib ki, 10 il bundan öncə Kiyev şəhərində fəaliyyətə başlayan Heydər Əliyev adına Beynəlxalq Sosial Elmlər İnstitutu (BSEİ) indiyədək minlərlə yerli və xarici tələbənin təhsil aldığı ən nümunəvi elm ocaqlarından birinə çevrilib.

Dünya şöhrətli siyasi xadimin adını daşıyan ali təhsil ocağına rəhbərlik etməsindən qürur hissi keçirdiyini bildirən Heydər Əliyev adına BSEİ-nin direktoru İvan Bidzyura Azərbaycanla Ukrayna arasındakı dostluq əlaqələrinin inkişaf etdirilməsində ulu öndərin müstəsna xidmətlərindən danışıb. Heydər Əliyev adına BSEİ-nin yaradılmasının 10 illiyinin yüksək səviyyədə qeyd olunmasına görə Ukrayna Azərbaycanlı Gənclər Birliyinin fəallarına dərin minnətdarlığını bildirən Bidzyura azərbaycanlı gənclərin təşəbbüsü ilə yaxın zamanlarda institutun nəzdində Heydər Əliyev muzeyinin yaradılacağını deyib. Toplantıda çıxış edənlər Heydər Əliyev kimi dahi şəxsiyyətin adını daşıyan elm ocağında təhsil almağın şərəfli və məsuliyyətli olmasından danışıblar. Üç yüzdən çox yerli və xarici tələbənin iştirak etdiyi tədbirdə Azərbaycan və Ukrayna dövlət televiziyalarının birgə istehsalı olan "İnsanlara bağışlanan ömür" sənədli filmi nümayiş etdirilib.

13 dekabr 2010

Məqsədimiz - Azərbaycanın qüdrətlənməsidir

Tofiq Əlizadə
«Dünya Azərbaycanlı Gənclərinin Beynəlxalq Həmrəyliyi» cəmiyyətinin prezidenti

Azərbaycan , Azərbaycançılıq və Türkçülük dərin mənalı və tale yüklü bu 3 kəlmə söz, artıq 20 ilə yaxındır ki, müstəqil bir dövlətdə, yaşadığımız məmləkətimizdə, hər gün eşidilməkdədir. Azərbaycan müstəqillik qazanandan sonra bu şüar günümüzün aktual məsələsinə çevrildi. Azərbaycanın müstəqilliyə qədəm qoyduğu illər torpaqlarımızı işğal edən ermənilərlə müharibə zamanına təsadüf etdi. Müstəqilliyin ilk illərini çox çətin yaşadıq. Bir tərəfdə düşmənlərimizin Qarabağı işğal etməsi, Xocalı faciəsi kimi hadisələr, digər tərəfdə də iqtisadi çətinliklər.

Bu illərdə Azərbaycan, demək olar ki, meydanda tək qalmışdı. Bizim ədalətli haqq səsimizə və harayımıza qardaş Türkiyədən başqa səs verən olmurdu. Belə bir çətin dövrdə dünyanın müxtəlif ölkələrinə səpələnmiş Azərbaycan türklərinin səsinə, onların milli həmrəylik nümayiş etdirməsinə daha çox ehtiyac duyulurdu. Axı, ötən əsrin 70 ilində Azərbaycanda sovet hakimiyyəti hökmranlıq etdiyindən xaricdəki soydaşlarımızla əlaqələrin qurulması yasaq idi. 1991-ci ildən sonra xaricdəki soydaşlarımız tarixi vətənlərinə sərbəst gəlib-getməyə başladılar. Həmin ilin dekabrından isə «31 dekabr Dünya Azərbaycanlılarının həmrəylik günü» rəsmi qeyd olunmağa və xaricdəki Azərbaycan cəmiyyətləri ilə yeni əlaqələr qurulmağa başlanıldı.

Indi, o çətin illərdən çox vaxt keçib. «Bu illər ərzində dünya azərbaycanlılarının birliyinə nail ola bildikmi?» sualına mən cəsarətlə deyərdim ki, hələlik yox. Ancaq, müstəqil Azərbaycanın qüdrətlənməsi və inkişafında xarici ölkələrdə yaşayan azərbaycanlıların köməyinə bu gün daha çox ehtiyac duyulur. Hazırda dünyanın 72-yə qədər ölkəsində soydaşlarımız yaşamaqdadırlar və onlar, yaşadıqları 1 ölkələrin ictimai - siyasi həyatında iştirak edirlər. Apardığım tədqiqatlara görə, indi dünyada yaşayan Azərbaycan türklərinin sayı 58 milyona yaxındır. Yəni, daha dəqiq 57.774.540 nəfərə qədərdir. Bu gün, Azərbaycanın hüdudlarında isə,, 350-yə qədər Azərbaycan mədəniyyət mərkəzləri və cəmiyyətləri fəaliyyət göstərməkdədir.

Dövlət müstəqilliyimizin ilk illərindən başlayaraq xaricdəki azərbaycanlıların taleyi, onların milli birliyi ziyalıları çox düşündürürdü. Bu sahədə çalışaraq soydaşlarımızın birliyinə nail olmaq üçün yaradılan təşkilatlardan biri də 1995-ci il noyabr ayının 10-da Bakıda təsis edilmiş «Dünya Azərbaycanlı Gənclərinin Beynəlxalq Həmrəyliyi» cəmiyyəti idi. Ətrafında Azərbaycanın tanınmış ziyalılarmı toplayaraq qürbət ellərdə məskunlaşmış soydaşlarımızın təşkilatlanması, xaricdəki milli icmalarımızın formalaşması sahəsində fəal iş aparan cəmiyyət azərbaycanlı gənclər arasında azərbaycançılıq, doğma vətənə məhəbbət hissləri aşılamaq, ümumiyyətlə, dünya azərbaycanlılarının milli birlik və həmrəyliyinin təşkilinə nail olmaq idi.

Təşkilatın ilk quruculuq illəri çox çətin oldu. Biz istər vətəndə, istərsə də xaricdə bu sahədə mühüm təbliğat işləri aparmağı qarşımıza məqsəd qoymuşduq. Amma, bunun həyata keçməsi üçün maddi- texniki baza olmalı idi. 1995-ci ilin dekabrında təşkilatın yaranması və ideoloji istiqamətlərin düzgün qurulması baxımından məsləhətlər üçün o zaman fəal elmi fəaliyyətdə olan, Azərbaycan Milli Elmlər Akademiyasının Beynəlxalq Münasibətlər İnstitutunun yaradıcısı və direktoru, professor Vaqif Arzumanlı ilə görüşdüm. Vaqif müəllim ilk görüşümüzdə ideyamızı ürəkdən dəstəkləyərək bu sahənin Azərbaycan üçün nə qədər vacib, şərəfli və eyni zamanda çətin olduğunu söylədi. O bu sahəyə bütün varlığımla bağlandığımı görərək məni rəhbərlik etdiyi institutun «Azərbaycan diasporu» şöbəsinə elmi işçi kimi çalışmağa dəvət etdi. Bu təklifi məmnuniyyətlə qəbul etdim.

Belə epizodları yaddaşlardan silmək olmaz, çünki bu, təşkilatımızın tarixidir. Onu da qeyd edim ki, DAGBH cəmiyyətinin yaranmasından sonra təşkilatın ilk təəssübkeşləri və ideoloji məsləhətçiləri xalq artisti Lütfiyar İmanov, prof. Vaqif Arzumanlı, xalq şairləri Nəbi Xəzri, Söhrab Tahir, yazıçı Anar, filologiya elmləri namizədi Nazim Rizvan olmuşlar. Qurumumuz tərəfindən istər vətəndə, istəsə də yurd xaricində müxtəlif səpkidə ideoloji baxımdan vacib olan tədbirlər keçirməyi planlaşdırırdıq. Belə tədbirlərin mövzuları həm dünya azərbaycanlılarının milli həmrəyliyi məsələsinə, həm də azərbaycançılıq ideyalarının təbliğinə istiqamətlənirdi. Eyni zamanda Qarabağımızdan məcburi köçkün düşmüş bacı-qardaşlarımıza humanitar yardımların təşkil olunmasına çalışırdıq və çox zaman da üzləşdiyimiz çətinliklə- rə baxmayaraq, işlərimiz uğurlu almırdı. «Dünya Azərbaycanlı Gəncləri- nin Beynəlxalq Həmrəyliyi» cəmiyyəti fəaliyyət göstərdiyi 15 il ərzində özünün daimi mənzil qərargahı və güclü maddi texniki bazası olmadığı halda 1995 - 2010-cu illərdə dövlətçilik və azərbaycançılıq ideyalarl ilə 170-dən çox elmi konfrans və s. tədbirlər keçirmiş, dövrü mətbuatda xaricdəki soydaşlarımızın milli birliyi, təşkilatlanmaları ilə bağlı 250-ə qədər məqalə və müsahibələr dərc etdirmiş, teleradio məkanlarında 50-dən çox çıxışlar etmiş, AR Milli Məclisinə təşəbbüslə müraciət nəticəsində ictimai təşkilatlara qoyulan əlavə dəyər vergisinin ləğv edil- məsinə nail olmuşdur. Təşkilatamız tərəfindən Qarabağ uğrunda həlak olmuş şəhidlərimizin xatirələrinin əbədiləşdirilməsi sahəsində işlər görməyə səylər göstərilmiş, müharibə qazilərinə və məcburi köçkün ailələrinə humanitar yardım kompaniyaları təşkil edilmiş bu işlərə xaricdəki soydaşlarımızın da cəlb olunmasına nail olunmuşdur.

1997-1998-ci illərdə DAGBHC tərəfindən Azərbaycanda ilk dəfə olaraq « Dünya Azərbaycanlı Gənclərinin 1-ci konqresinin keçirilməsi layihəsi hazırlanaraq Gənclər və İdman Nazirliyinə təqdim olunmuşdu. Nazirlikdə də bu ideya bəyənilmiş və bona dövlətin dəstəyi verilmişdi. Sevindirici haldır ki, nəhayət bu ideyanın və layihənin yaranmasından 12 il sonra bu il noyabr ayının sonlarında Almaniyada «Dünya Azərbaycanlı Gənclərinin 1-ci konqresi» keçirildi. Bundan öncə isə, bildiyimiz kimi, 2001- ci il noyabr ayının 10-da Bakıda «Dünya Azərbaycanlılarının 1-ci qurultayı» keçirilmişdi. Bu illər ərzində, DAGBHC tərəfindən, Azərbaycanda ilk dəfə olaraq 15 bənddən ibarət olan «Xaricdəki Azərbaycan cəmiyyət və mədəniyyət mərkəzlərinin fəaliyyəti» üçün iş proqramı hazırlanmışdır. Təəssüf ki, bu proqramla indiyədək maraqlanan belə olmayıb.

DACBHC Azərbaycanda yeganə qeyri-hökumət təşkilatıdır ki, özünün musiqili himni var. Himn 2004 -cü ildə yazılmışdır. Onun musiqisi dünya şöhrətli sənətçimiz, xalq artisti, təşkilatımızın ağsaqqal- larından olan mərhum Lütfiyar İmanova, sözləri isə Nazim Rizvana məxsusdur. Daimi mənzil qərargahının və maddi-texniki imkanlarının olmamasına baxmayaraq, DAGBHC 15 il ərzində bütün əzablardan keçərək bu günə qədər gəlib çıxmış, həmişə təşkilatın adı cəmiyyətdə nüfuz və hörmətlə çəkilmişdir. Bütün bu işlərə görə təşkilatımız dəfələrlə Azərbaycanın Gənclər və İdman Nazirliyi, başqa nazirlik və qurumlar tərəfindən fəxri fərmanlarla, diplomlarla təltif edilmişdir. Onu da qeyd edək ki, bu illər ərzində bir çox tədbirlərin keçirilməsinə Gənclər və İdman Nazirliyi, gənclər təşkilatlarının milli şurası köməklik göstərmişdir. Təəssüflənirəm ki, 15 il ərzində dünya azərbaycanlılarının milli həmrəyliyi sahəsində əlimizdən gələni etsək də soydaşlarımızın milli birlik və həmrəyliklərinə nail ola bilmədik, necə deyərlər, «türk hər şeyə nail oldu, amma birliyə və vəhdətə nail ola bilmədi.» Axı, necə ola bilər ki, 12 milyonunun vətən xaricində yaşadığı 58 milyonluq Azərbaycan türkləri tale yüklü məsələ sayılan Qarabağ məsələsində milli birlik və həmrəylik nümayiş etdirə bilməsin? Dünyada sayları cəmi 7 milyona çatan ermənilər isə Qarabağ məsələsində birləşdilər. Hər dəfə də yeni-yeni fəsadlarla bizə qarşı kin və nifrətlərini gizlətmirlər. Amma, halal torpaqlarımız işğal altında olan, 1 milyona yaxın məcburi köçkünlərimizin və minlərlə, şəhidlərimizin olduğu halda, biz haqlı səsimizi dünyaya lazımı səviyyədə çatdırmağa çətinlik çəkirik. Xaricdəki azərbaycanlılarla iş, onların milli birliyinə kömək göstərmək çox çətin sahə olsa da, Azərbaycanın gələcək inkişafı naminə zəhmət çəkən insana şərəf və ləyaqət gətirir: Təəssüf ki, xarici siyasətimizin əsas prinsiplərindən sayılan, xaricdəki azərbaycanlılarla iş, onların birlik və həmrəyliyinin təşkili məsələsi, hələ də, həll olunmamış qalır.

Bütün bunlara baxmayaq, dünyada yaşayan bütün azərbaycan türkləri, Müstəqil Azərbaycanın dövlət rəmzləri olan - Bayrağı, Gerbi, Himni ilə fəxr etməli və ana vətənimiz Azərbaycanın daim qüdrətlənməsi və iqtisadi inkişafı barədə düşünməli, bu sahədə əllərindən gələni əsirgəməməlidirlər. Ümumiyyətlə hər bir xalq, millət, yalnız mütəşəkkil olanda və milli birlik nümayiş etdirdikdə güclü sayılır.

Hələ XX əsrin əvvəllərində yaşamış, türk dünyasının böyük ideoloqlarından sayılan Əli bəy Hüseynzadə uzaqgörənliklə bu günümüzü görərək demişdir: «Əgər Türk öz oğlunun inkişafına vaxtında para, pul qoymursa, onda dünyada türkləri sevməyənlər, türklərə qarşı lazımı işləri görərək, para, pul toplayıb, türklərin məhv olması şərəfinə abidə ucaldacaqlar. Ümumiyyətlə, Azərbaycan deyilən məmləkətimiz, Allahımızın sevdiyi, qoruduğu və cənnət nemətləri ilə zənginləşdirdiyi bir məkandır. Biz hamımız, bu məmləkətin övladı kimi müqəddəs və bərəkətli torpağımızın, tarixi vətənimizin qədrini bilməli, lazım gəldikdə də isə, onun uğrunda canımızdan belə, keçməyə hazır olmalıyıq. Bu isə ,bizim vətəndaşlıq borcumuzdur.

Azerbaijan, Azerbaijanism and Turkizm those 3 deep meaningful words have been being heard for nearly 20 years in our independent country. After Azerbaijan gained its independence this slogan turned to our daily topical issue. Azerbaijan's gaining independence comeş across to the period of the war with Armenia. First years of independence were really hard for Azerbaijan. During those years Azerbaijan was almost alone on the field. There was no one to reply our just voice except Turkey.

“EURO Xəbər”.-2010.-15-28 dekabr.-N.23.-S.6.

“Xocalıya ədalət” beynəlxalq təşviqat kampaniyasının onlayn fəaliyyəti təqdim edilmişdir

Dekabrın 15-də “Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması” İctimai Birliyinin qərargahında Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Təşkilatı Gənclər Forumunun (İKGF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Xocalıya ədalət” beynəlxalq təşviqat kampaniyasının onlayn fəaliyyəti təqdim edilmişdir. AzərTAc bildirir ki, birliyin və İKGF-nin təşkil etdikləri tədbir İnsan Hüquqları Bəyannaməsinin ildönümünə həsr olunmuşdu. İctimai birliyin rəhbəri, Şuşa rayon İcra hakimiyyətinin başçısı Bayram Səfərov tədbir iştirakçılarını və qonaqları, o cümlədən Qətər, Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı və Fələstin səfirliklərinin rəhbərlərini və təmsilçilərini, Litva Respublikası Seyminin üzvü Mantas Varaşkanı salamlamışdır. B.Səfərov demişdir ki, beynəlxalq hüquq norma və prinsiplərini kobud surətdə pozan Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, silahlı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal olunmuş, bir milyondan artıq soydaşımız məcburi köçkün vəziyyətində yaşamaq məcburiyyətində qalmış, ağır mənəvi sarsıntılar keçirməyə məruz qalmışlar. Azərbaycan xalqının öz torpaqları uğrunda erməni işğalçılarına qarşı mübarizəsində bir çox faciələr olmuşdur. Bunların içərisində ən qanlı və dəhşətlisi Xocalı soyqırımıdır. Xocalı faciəsi erməni silahlı dəstələrinin azərbaycanlı əhaliyə qarşı törətdiyi vəhşiliklərin ağır miqyasından xəbər verir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni qatillərinin törətdikləri kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilmiş, 1275 nəfər dinc sakin əsir götürülmüşdür.

Bu qanlı faciə nəticəsində 487 nəfər Xocalı sakini yaralanmış, 150 nəfər itkin düşmüş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Erməni təcavüzkarları bir gecədə bu şəhəri yer üzündən silmişlər. Natiq vurğulamışdır ki, Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində ayrı-ayrı dövlətlər və beynəlxalq təşkilatlar səviyyəsində xeyli iş görülür. İslam Konfransı Təşkilatı Gənclər Forumu Xocalı həqiqətlərinin dünyaya tanıdılması istiqamətində gördüyü işlər nəticəsində xüsusi fəaliyyəti ilə seçilir. "Xocalıya ədalət" kampaniyası Forumun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilir. Kampaniyaya 2008-ci il mayın 8-də, Şuşanın işğalı günü start verilmişdir. İndiyə qədər təxminən 75 ölkədən 130 min nəfər bu kampaniyanı dəstəkləmişdir. Beynəlxalq informasiya və təbliğat kampaniyası iki il ərzində 50-dən çox ölkədə tədbirlər və aksiyalar keçirmiş, Xocalı soyqırımı haqqında həqiqi məlumatların dünyada 500 milyondan artıq insan arasında yayılmasına nail olmuş, ermənilərin törətdiyi bu vəhşi əməllər bəşəriyyətə qarşı cinayət kimi təbliğ edilmişdir. B.Səfərov BMT, Avropa Parlamenti, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı və digər beynəlxalq təşkilatlarda müxtəlif dövrlərdə əsl həqiqəti əks etdirən qətnamə və qərar qəbul olunduğunu xatırlatmış, lakin bütün beynəlxalq hüququn norma və prinsiplərini pozan təcavüzkar Ermənistanın bu qətnamə və qərarlara əhəmiyyət verməyini diqqətə çatdırmışdır. Vurğulamışdır ki, Xocalı soyqırımının miqyası barədə həqiqətləri dünyaya tanıtmaq, bu soyqırımı faktına beynəlxalq hüquqi qiymətin verilməsinə nail olmaq üçün hamımız fəal vətəndaş mövqeyi nümayiş etdirməli, haqq səsimizi beynəlxalq ictimaiyyətə çatdırmaq üçün əlimizdən gələni əsirgəməməliyik.

İKGF-nin Baş katibi Elşad İskəndərov 2008-ci ildən bəri kampaniya çərçivəsində görülən işlərdən söz açmış, Xocalı faciəsinin insanlığa qarşı cinayət kimi tanınması ilə bağlı beynəlxalq qurumların qəbul etdiyi sənədlərin əhəmiyyətini diqqətə çatdırmışdır. O, “Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması” İctimai Birliyi ilə əməkdaşlığın perspektivlərindən danışmış, İKGF-nin fəaliyyətinə qarşı ermənilərin əks kampaniyalarını xatırlatmışdır. Məlumat vermişdir ki, “Xocalıya ədalət” sənədli filminin çəkilişinə başlanmışdır. Kampaniyanın əlaqələndiricisi Nicat Məmmədli yeni internet saytı, onun Facebook, Twitter və Youtube kimi sosial şəbəkələrdəki fəaliyyəti barədə geniş məlumat vermişdir. Milli Məclisin deputatları Elman Məmmədov, Aqil Abbas, Fuad Muradov, Ceyhun Osmanlı, birliyin idarə heyətinin üzvü, Xocavənd rayon İcra hakimiyyətinin başçısı Eyvaz Hüseynov çıxış etmiş, təkliflərini irəli sürmüşlər. Xüsusi vurğulanmışdır ki, beynəlxalq ictimaiyyətlə onun başa düşdüyü dildə “işləmək” lazımdır. “Xocalıya ədalət, Qarabağa azadlıq” kampaniyası bu dillərdən biridir. Dünyada haqq səsimizi eşitmək istəməyən “karlarla” bərabər vicdanlı insanlar da vardır. Təklif edilmişdir ki, www.justiceforkhojaly.org saytının domeni (org) hökumət domeninə (gov) dəyişdirilsin. Saytda materiallar həm də türk və ərəb dillərində yerləşdirilsin. Bakının müxtəlif yerlərində paytaxtdan işğal altındakı rayonlarımıza qədər məsafəni diqqətə çatdıran göstəricilər olsun. ABŞ-da sosial mövzularda yaradıcılığı ilə tanınmış Toni Bləkmanın və Azərbaycanın “Dəyirman” qrupunun ifasında rep üslublu “Xocalıya ədalət” mahnısı səsləndirilmişdir. Tədbir iştirakçıları kampaniya çərçivəsində Xocalı soyqırımına dünya ictimaiyyəti tərəfindən hüquqi-siyasi qiymət verilməsi məqsədi ilə hazırlanmış petisiyaya beynəlxalq imzatoplama aksiyasında iştirak etmiş və sənədi imzalamışlar.

15 dekabr 2010

“Azerbaijani Diary” (“Azərbaycan Gündəliyi”) adlı təbliğat xarakterli təqvimli qeyd kitabının növbəti sayının nəşri Strasburqda yerləşən “Bateliers” adlı nəşriyyat tərəfindən başa çatmışdır

AzərTAc xəbər verir ki, dekabrın 16-da “Azerbaijani Diary” (“Azərbaycan Gündəliyi”) adlı təbliğat xarakterli təqvimli qeyd kitabının növbəti sayının nəşri Strasburqda yerləşən “Bateliers” adlı nəşriyyat tərəfindən başa çatmışdır. Nəşrin işıq üzü görməsində əsas məqsəd Beynəlxalq təşkilatlarda Azərbaycan Respublikasına və xüsusilə Dağlıq Qarabağ münaqişəsinə dair məlumatların təbliğ edilməsi və ölkəmizin dünya arenasında imicinin artırılması ilə bağlıdır. Bu səbəbdən “Azerbaijani Diary”nin hazırkı sayı kitab formasına salınmış və Azərbaycanın maraqlarına uyğun gələn müxtəlif sahələr əlavə olunaraq, 50 bölməyə, 283 səhifəyə çatdırılmışdır. Kitabın müəllifləri-Azərbaycanın Avropa Şurası yanındakı daimi nümayəndəsi Arif Məmmədov və nümayəndəliyin əməkdaşı Əfqan Mehtiyev nəşrin işıq üzü görməsində böyük əməyi olmuşdur.

Kitaba “Qafqazın xəritəsi”, “AR haqqında faktlar və ölkə xəritəsi”, “Tarix”, “Coğrafiya”, “Azərbaycan Respublikasının bayrağı”, “Azərbaycan Respublikasının Prezidenti”, “Azərbaycan Respublikasının ümummilli lideri”, “Heydər Əliyev Fondu”, “Heydər Əliyev Fondunun rəhbəri”, “Azərbaycan Respublikasının Avropa Şurasına üzvlüyünün 10 ilinin tamam olması”, “Azərbaycan Respublikasının tanınmış şəxsiyyətləri”, “Bakı rəsmlərdə”, “Bakı keçmişdə”, “Bakı indiki dövrdə”, “Bakı gecə vaxtlarında”, “Bakı gələcəkdə”, “Bakının tarixindən maraqlı məqamlar”, “Qız qalası”, “İçəri şəhər”, “Şirvanşahlar sarayı”, “Atəşgah”, “Yanar bulaq”, “Yanar dağ”, “Qobustan”, “Naxçıvan”, “Azərbaycanda göllər”, “Azərbaycanda dağlar”, “Azərbaycanda çaylar”, “Azərbaycanda din azadlığı”, “Milli bayramlar”, “20 Yanvar faciəsi”, “Xocalı soyqırımı”, “Azərbaycanlıların soyqırımı günü və Dağlıq Qarabağ müharibəsi”, “Milli oyunlar”, “Azərbaycanda idman”, “Milli xalçalar”, “Milli zinət əşyaları”, “Milli qədimi sikkələr”, “Milli geyimlər”, “Milli mətbəx”, “Azərbaycan kürüsü”, “Milli rəqslər”, “Milli musiqi alətləri”, “Şuşa – Azərbaycan musiqisinin beşiyi”, “İşğal olunmuş ərazilərin fotoşəkilləri”, “Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş əraziləri barədə məlumat”, “İşğal olunmuş ərazilərin Azərbaycan Respublikasına mənsub olmasını göstərən beynəlxalq sənədlərdən çıxarışlar”, “Atları ilə tanınmış Qarabağ”, “Azərbaycan gündəliyi - 2011”, “Zəruri telefon nömrələri” bölmələri əksini tapmışdır.

2009-cu ildə olduğu kimi, “Azerbaijani Diary” əsasən Avropa Şurasının və Birləşmiş Millətlər Təşkilatının yüksək vəzifəli şəxsləri, AŞ yanında Daimi nümayəndəliklərin rəhbərləri, Strasburq şəhər meriyası və bələdiyyə rəhbərləri, Strasburq şəhərində yerləşən ali təhsil ocaqlarının rəhbərləri və tanınmış professor heyəti, nüfuzlu həkimlər, sahibkarlar və digər maraqlarımıza uyğun olan şəxslər arasında paylanacaq. Bununla yanaşı, 2010-cu il dekabrın 30-dək “Azerbaijani Diary” AR-də fəaliyyət göstərən xarici ölkə səfirliklərinin rəhbərlərinə, bütün nazir və nazir müavinlərinə paylanacaq. Xatırladaq ki, 2010-cu ildə “Azerbaijani Diary” 500 nüsxədə nəşr olunmuşdusa, hazırkı tələbatı və sifarişləri nəzərə alaraq, budəfəki tiraj 7 min nüsxəyə çatdırılmışdır. 2011-ci il yanvarın 25-də Avropa Şurasında kitabın təqdimatının keçirilməsi nəzərdə tutulmuşdur.

16 dekabr 2010

ABŞ Azərbaycanlıları Şəbəkəsi (USAN) Azərbaycan icma təşkilatlarının başçıları və fəalları üçün növbəti seminarını təşkil etmişdir

AzərTAc bildirir ki, ABŞ Azərbaycanlıları Şəbəkəsi (USAN) Azərbaycan icma təşkilatlarının başçıları və fəalları üçün növbəti seminarını təşkil etmişdir. Seminar çərçivəsində müzakirələr bu dəfə ABŞ Konqresində aparılmışdır. ABŞ Azərbaycanlıları Şəbəkəsinin direktoru Adil Bağırov, Milli Məclisin deputatı Asim Mollazadə, "Qarabağ" Fondunun direktoru Diana Koen Altman, ötən ABŞ seçkilərində respublikaçı partiyanın qanunverici orqana namizədi Con Əmirəl, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Cavanşir Vəliyev Azərbaycan mənşəli amerikalıların Konqreslə təmasları və qurduqları əməkdaşlıq, diaspor üzvlərinin ABŞ-Azərbaycan münasibətlərinə təsiri, həmvətənlərimizin daha səmərəli təşkilatlanması, eləcə də Azərbaycanın beynəlxalq aləmdə artan rolu mövzularında məruzələrlə çıxış etmişdilər. Seminarı giriş sözü ilə açan USAN-ın direktoru Adil Bağırov qeyd etmişdir ki, bu səpkidə müzakirələr son il ərzində Amerika azərbaycanlılarının sıx məskunlaşdığı digər şəhərlərdə, o cümlədən Los-Anceles, Hyuston, Mayami və Çikaqoda da keçirilmişdir.

2008-ci ilin əvvəlindən fəaliyyət göstərən USAN az vaxtda Amerika azərbaycanlılarını səfərbər edərək diasporumuzun mühüm hesab etdiyi məsələləri ABŞ-da ictimai diskussiyanın bir hissəsinə çevirə bilmişdir. A.Bağırov demişdir ki, şəbəkənin üzvləri konqresmenlər, senatorlar, Ağ ev, Dövlət Departamenti, eləcə də yerli icra və qanunverici orqanlarına iki yüz mindən çox məktub göndərərək onların diqqətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın ABŞ üçün strateji əhəmiyyəti, Azərbaycan mənşəli amerikalıların Birləşmiş Ştatlarda bütün sahələrə verdiyi töhfələr məsələlərinə cəlb etməyə müvəffəq olmuşdular. Bu məktublar mütəmadi olaraq yerli ştatların qəzetlərində çap edilir. USAN-ın səyləri nəticəsində ABŞ-da 2010-cu il əhalinin siyahıya alınması zamanı ölkədə yaşayan azərbaycanlılar etnik mənşələrini əvvəlki kimi "türk" və yaxud "iranlı" kimi deyil, məhz "azərbaycanlı" göstərmişlər ki, bu da azərbaycanlıların rəsmi statistikasını dəyişdirmişdir. Adil Bağırov diasporun hər bir üzvünü bacardığı qədər fəal olmağa, seçkilərdə səs verməyə, USAN-ın keçirdiyi tədbirlərə qoşulmağa, digər türkdilli etnik təşkilatlarla sıx əlaqələr yaratmağa, yaşadıqları icmalara fayda verməyə çağırmışdır. Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Asim Mollazadə isə çıxışında ölkəmiz müstəqilliyini bərpa etdikdən bəri Azərbaycan-ABŞ münasibətlərinin dinamikasını təhlil etmişdir.

O bildirmişdir ki, respublikamızın müstəqilliyinin qorunub saxlanılmasında ABŞ-ın dəstəyi də rol oynamışdır. Xəzər hövzəsinin enerji ehtiyatlarını Qərb bazarlarına daşıyan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələrinin reallaşmasına Vaşinqtonun dəstəyi strateji əməkdaşlığımızın əsasını qoymağa kömək etmişdir. Azərbaycanın Avropa və Asiyanın kəsişməsində yerləşməsi ölkəmizin ABŞ üçün vacibliyini müəyyənləşdirir. ABŞ-ın başçılığı ilə anti-terror koalisiyasında silahlı qüvvələri ilə iştirak edən Azərbaycan, müttəfiq qüvvələrə qeyri-hərbi təchizatının çatdırılmasında əsas tranzit nöqtələrindən biridir. O demişdir: "Mənim ABŞ qanunvericiləri ilə bir çox görüşlərimdə onlardan bəziləri, erməni mənşəli seçicilərinin istəklərini yerinə yetirməli olduqlarını açıq etiraf edirlər. Soruşanda ki, biz Azərbaycana necə kömək edə bilərik, mən deyirəm ki, öz ölkənizin milli maraqlarına xidmət etsəniz bizim üçün bu, kifayətdir".

Azərbaycanın inkişaf perspektivlərindən danışan deputat bildirmişdir ki, neft gəlirlərinin gənc nəslin təhsili və mədəni inkişafı, eləcə də yüksək texnologiyalara yatırılması Azərbaycanı yaxın gələcəkdə daha qüdrətli dövlətə çevirəcəkdir. O vurğulamışdır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtidar qüvvələri məhz belə siyasət yürüdür. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bütün Qafqaz bölgəsinin inkişafı üçün maneə olduğunu bildirən deputat demişdir ki, Azərbaycan münaqişənin dinc yolla həllinin tərəfdarıdır və beynəlxalq təşkilatların bu istiqamətdə çıxardığı strateji sənədləri əsas tutur. Seminarın sonunda iştirakçıların sualları cavablandırılmışdır.

16 dekabr 2010

Nazim İbrahimovun mətbuat konfransı keçirilmişdir

Dekabrın 17-də Yeni Azərbaycan Partiyasının qərargahında Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun mətbuat konfransı keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi diaspor siyasətinin uğurla həyata keçirildiyini bildirən Nazim İbrahimov başa çatmaqda olan 2010-cu ilin yekunları barədə ətraflı məlumat vermişdir. O bildirmişdir ki, Diasporla İş üzrə Dövlət Komitəsi 2010-cu il ərzində xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, cəmiyyətə inteqrasiyası, soydaşlarımızın ictimai-siyasi həyatda iştirak səviyyəsinin artırılması, tarixi Vətənlə əlaqələrinin genişləndirilməsi, habelə diaspor təşkilatları arasında səmimi əməkdaşlıq münasibətlərinin yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirmişdir. Dövlət Komitəsi sədrinin sözlərinə görə, bu il ərzində xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. 2010-cu il aprelin 4-də Türkiyə Respublikasının Ankara şəhərində Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının Qurultayı keçirilmişdir. Qurultayda təşkilatın ötən dövrdəki fəaliyyəti ilə bağlı hesabatlar dinlənilmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. Qurultayda təşkilatın rəhbər orqanlarına seçkilər keçirilmişdir. 2010-cu il iyunun 5-də isə Stokholmda 15 Azərbaycan diaspor təşkilatının iştirakı ilə İsveç Azərbaycanlıları Konqresinin təsis qurultayı keçirilmişdir. Bu qurumu yaratmaqda məqsəd Azərbaycan həqiqətlərini, tarixini, mədəniyyətini yerli ictimaiyyətə çatdırmaq, Azərbaycan icmaları, cəmiyyətləri arasında əlaqələri inkişaf etdirmək, onların imkanlarını və güclərini səfərbər etmək, bu qurumların fəaliyyətini koordinasiya etmək, mövcud problemleri birlikdə çözməkdir. Oktyabr ayında keçirilən "Qazaxıstan Azərbaycanlıları Assosiasiyası"nın birinci qurultayında da quruma üzv olan vilayət, şəhər, rayon təşkilatları sədrlərinin və təftiş komissiyası rəhbərlərinin hesabatları dinlənilmiş, görülmüş işlər və qarşıda duran vəzifələr ətrafında fikir mübadiləsi aparılmış, assosiasiya rəhbərliyinə seçkilər keçirilmişdir. 2010-cu il dekabr ayının 4-5-də Almaniyanın Bonn şəhərində Dünya Azərbaycanlıları Konqresinin (DAK) XI Qurultayının keçirilmişdir. Qurultayda Dünya Azərbaycanlıları Konqresinin hesabatı dinlənilmiş və gələcək iş planı müəyyən olmu, DAK-ın rəhbərliyinə seçkilər keçirilmiş və qətnamə qəbul olunmuşdur.

Nazim İbrahimov əlavə etmildir ki, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarının təbliğat sahəsində fəaliyyətinin daha da gücləndirilməsi, Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı beynəlxalq aləmin məlumatlandırılması və bu faktın dünya dövlətlərinin parlamentlərinin, siyasi dairələrinin müzakirəsinə çıxarılması Dövlət Komitəsinin diqqət yetirdiyi əsas məsələlərdən olmuşdur. Başa çatmaqda olan 2010-cu ildə Azərbaycan diaspor təşkilatlarının nəzdində yeni kütləvi informasiya vasitələri təsis edilmiş, eyni zamanda ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən KİV-lərdə Azərbaycanla bağlı məqalə və materialların işıqlandırılması istiqamətində tədbirlər görülmüşdür.

DİDK sədri məlumat vermişdir ki, il ərzində «20 Yanvar» faciəsinin 20-ci ildönümü, Xocalı soyqırımının 18-ci ildönümü, 31 Mart azərbaycanlıların soyqırımı günü ilə əlaqədar İsveç, İsveçrə, Finlandiya, Norveç, Niderland Krallığı, Böyük Britaniya, Belçika, Latviya, Litva, Estoniya, Rusiya Federasiyası, Ukrayna, Belarus, Bolqarıstan, Türkiyə, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Gürcüstan, ABŞ, Kanada, Yaponiya, Yeni Zellandiya, Avstraliya, Birləşmiş Ərəb Əmirlikləri, Misir, Cənubi Koreya, Almaniya, Fransa, Çexiya, Macarıstan, Rumıniya və digər ölkələrdə müxtəlif formatlı tədbirlər təşkil edilmişdir. Ölkəmizin taleyüklü problemlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində mühüm işlər görən Heydər Əliyev Fondu Xocalı soyqırımının 18-ci ildönümü ilə əlaqədar xarici ölkələrdəki Azərbaycan icma və birliklərini müvafiq məlumatlar və sənədlərlə təmin etmişdir.

İslam Konfransı Təşkilatının (İKT) üzvü olan Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ilin may ayında elan edilmiş "Xocalıya Ədalət" (Justice for Khodjaly) beynəlxalq məlumat və təşviqat kampaniyası çərçivəsində 2010-cu il ərzində dünyanın bir çox ölkələrində etiraz aksiyaları, elmi-praktik konfranslar və digər tədbirlər həyata keçirilmişdir. Kampaniyada Azərbaycan diaspor təşkilatları da fəal şəkildə iştirak edir.

Nazim İbrahimov qeyd etmişdir ki, 2010-cu ilin mart ayında Avropa Azərbaycan Cəmiyyəti (AAC) Böyük Britaniyanın baş naziri Qordon Braunun rəsmi internet saytında Böyük Britaniya vətəndaşlarının da imzalamağa çağırıldığı müraciətdə Xocalı qətliamının qınanılmasına çağırışla çıxış etmişdir. Müraciətdə həmçinin Ermənistan hökumətindən BMT Təhlükəsiz Şurasının 4 qətnaməsinə uyğun olaraq suveren Azərbaycan ərazisindən öz ordusunu çıxartmaq tələb edilmişdir. Avropa Azərbaycan Cəmiyyətinin təşəbbüsü ilə Böyük Britaniyanın parlamentlərinin klubu olan Erkən Gün Hərəkatı da (EGH) (Early Day Motion (EDM)) Xocalı faciəsi ilə bağlı müzakirələr aparmışdır. Təşkilat Böyük Britaniya hökumətini Xocalı soyqırımının 17-ci ildönümünü tanımağa, bundan istifadə etməklə yeni beynəlxalq sülh səylərinə başlamağa çağırmışdır. Müraciəti Böyük Britaniya parlamentinin və Erkən Gün Hərəkatının üzvü olan 32 parlamentari imzalamışdır.

Bundan başqa, 2010-cu il fevralın 2-də Çexiyanın Lidise İcra Hakimiyyəti Lidise qəsəbəsində yeni salınan küçələrin birinə Xocalı adı vermək qərarı qəbul etmişdir. Mart ayının 1-də isə Xocalı Şəhər İcra Hakimiyyəti ilə "Lidise Xatirə Kompleksi" arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

Fevralın 19-da AAKM tərəfindən internet vasitəsilə Bundestaqa və Almaniya siyasi partiyalarının fraksiyalarına, ictimai qurumlarına, mətbuat və informasiya vasitələrinə, qeyri-dövlət qurumlarına, diaspor təşkilatlarına, mədəniyyət və elm nümayəndələrinə Xocalı faciəsinin həqiqətlərini əks etdirən müraciət məktubu yayımlanmışdır. Aprelin 13-də Almaniyanın ARD telekanalında "Aghet" adlı film yayımlanmışdır. Qeyd edək ki, qondarma "erməni soyqırımı"na həsr olunan bu filmdə ermənilərin bütün dünyaya söylədikləri yalan və uydurmaların gerçək olduğu göstərilməyə cəhd olunur. Bu hadisə ilə əlaqədar Almaniyanın bir sıra şəhərlərində Azərbaycan və türk icmaları tərəfindən etiraz aksiyaları keçirilmişdir.

Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin bildirdiyinə görə, Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının (Azİz) təşəbbüsü və Dövlət Komitəsinin dəstəyi ilə 2009-cu il may ayının 5-də Tel-Əviv şəhərində «Ön Asiya: kütləvi informasiya vasitələri və regional münaqişələr» mövzusunda seminar-konfrans keçirilmişdir. Konfransa Azərbaycan və İsralin dövlət və hökumət nümayəndələri, parlament üzvləri, Azərbaycan, İsrail, ABŞ, Almaniya, Rusiya, Gürcüstan və Ukraynada fəaliyyət göstərən rusdilli kütləvi informasiya vasitələrinin rəhbərləri, tanınmış politoloqlar, habelə Azərbaycandakı yəhudi icmalarının rəhbərləri də qatılmışdır. Konfansda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, habelə regiondakı digər münaqişələr barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində problemlər, region ölkələrinin qarşılıqlı münasibətlərinin inkişaf perspektivləri, sivilizasiyalararası dialoq məsələləri, iştirakçı ölkələrin kütləvi informasiya vasitələri arasında əməkdaşlıq imkanlarına dair müzakirələr aparılmışdır.

Konfransın yekunu olaraq birgə bəyannamə qəbul edilmişdir. Bəyannamədə konfransın ənənəvi xarakter almasının vacibliyi öz əksini tapmış və gələcəkdə bu cür konfransların təşkil edilməsi qərara alınmışdır. Bəyannamədə həmçinin Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyası, Diasporla İş üzrə Dövlət Komitəsi, İsrail Xarici İşlər Nazirliyi və iştirakçı ölkələrin nümayəndələrindən ibarət Koordinasiya Şurasının yaradılması qərarı da öz əksini tapmışdır. May ayının 13-də İqdır Qondarma Erməni İddiaları ilə Mübarizə Dərnəyi 1914-1918-ci illərdə ermənilər tərəfindən törədilmiş soyqırım ilə bağlı konfrans keçirmişdir. Konfransda erməni quldurlarının törətdikləri vəhşiliklərlə bağlı müzakirələr aparılmışdır.

İyunun 3-9-da Berlinin Moviemento kino evində mühacir erməni rejissoru Don Askaryanın „Dağlıq Qarabağ"adlı filminin nümayişi ilə əlaqədar AAKM Moviemento kino evinə etiraz məktubu göndərmişdir. AAKM məktubda belə filmlərin göstərilməsinə qarşı etiraz etmiş, ermənilərin cinayətkar simasını Xocalı faciəsinin faktları ilə açıqlamışdır. İyunun 6-da Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası ilə Kocaeli-Azərbaycan Evi Dərnəyi «Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Dağlıq Qarabağ münaqişəsi, Cənubi Qafqazda dondurulmuş münaqişələrin dünyada sülhə və təhlükəsizliyə yaratdığı real təhdidlər» mövzusunda elmi praktik konfransı keçirmişdir. AAKM iyun ayının 17-də AFR Bundestaqına "Dağlıq-Qarabağda mədəni abidələrin qorunmasına dair" müraciət ünvanlamışdır. Erməni silahlı qüvvələrinin Dağlıq Qarabağ və ətraf rayonların işğal etməsinin nəticəsi olaraq, bu regionda tarixi baxımdan qiymətli mədəni abidələrin sistematik şəkildə dağıdılması siyasəti yeridilməsindən bəhs edən məktubda, AAKM AFR Bundestaqından milli abidələrin qorunub saxlanılması istiqamətində beynəlxalq normaların dəstəkləməsini xahiş etmişdir.

Ermənistan prezidenti Serj Sarkisyanın iyunun 21-23-də Almaniyaya rəsmi səfəri çərçivəsində KonradAdenauer Fondunda „Cənubi Qafqazda təhlükəsizlik və inkişaf haqqında: Ermənistanın bu proseslərdə rolu"mövzusunda məruzə ilə çıxışına etiraz olaraq Azərbaycan diasporu etiraz piketi təşkil etmişdir. 2010-cu ildə İsveç parlamentində qondarma erməni soyqırımının tanınmasına dair qətnamənin qəbulu ilə əlaqədar bu ölkədə yaşayan Azərbaycan və türk icmalarının nümayəndələri Stokholm şəhərinin mərkəzi meydanında etiraz aksiyası keçirmişlər. Tədbirdə, ermənilərin törətdikləri cinayətlər, Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması, o cümlədən Xocalı soyqırımının tanınması ilə bağlı şüarlar səsləndirilmişdir.

Nazim İbrahimov daha sonra məlumat vermişdir ki, Azərbaycan diaspor təşkilatları Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycanın qədim mədəniyyətini, zəngin irsini uğurla təbliğ edir, xalqımızın zəngin mədəniyyətini tanıtmaq məqsədilə müxtəlif tədbirlər keçirirlər. Eyni zamanda 2010-cu ildə ulu öndər Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü ilə əlaqədar dünyanın müxtəlif ölkələrində Azərbaycan diaspor təşkilatları tərəfindən elmi-praktik konfranslar, simpoziumlar, sərgilər təşkil edilmiş, filmlər nümayiş etdirilmiş, yubiley mərasimləri keçirilmişdir. Bu tədbirlərdə yerli kütləvi informasiya vasitələrinin təmsilçiləri, parlament üzvləri, dövlət rəsmiləri də iştirak etmişlər.

2010-cu ildə 28 may Respublika Günü ilə bağlı Azərbaycan diaspor təşkilatlarının fəaliyyət göstərdiyi bütün ölkələrdə bayram tədbirləri, elmi-praktiki konfranslar, konsert proqramları təşkil olunmuşdur. Bu tədbirlərdə diplomatlar, ictimaiyyət nümayəndələri, kütləvi informasiya vasitələrinin təmsilçiləri də fəal iştirak etmişlər. Bu il Azərbaycanın dahi bəstəkarı, Azərbaycan professional musiqisinin banisi, görkəmli ictimai xadim, musiqişünas, alim və pedaqoq Üzeyir Hacıbəyovun anadan olmasının 125 illik yubileyi də xarici ölkələridəki soydaşlarımızın diqqətindən kənarda qalmamış, Şərqdə operanın banisi kimi onun özünün və əsərlərinin dünyada daha da geniş tanıdılması məqsədilə bir sıra tədbirlər təşkil edilmişdir.

2010-cu ildə Niderland krallığının Rotterdam şəhərində fəaliyyət göstərən Benilüks Azərbaycanlıları Konqresinin (BAK) fəxri sədri Sahil Qasımovun təşəbbüsü və təklifi ilə qurumun sifarişi əsasında ölkənin rabitə nazirliyi rəsmi olaraq üzərində Heydər Əliyev Fondunun embleminin təsvir olunduğu poçt markalarını dövriyyəyə buraxmışdır. Qeyd edək ki, Azərbaycanla bağlı həqiqətləri Avropada yaymaqda xüsusi rolu olan Heydər Əliyev Fondu ilə BAK arasında sıx əməkdaşlıq mövcuddur. Bu əməkdaşıq fondun Hollandiyada yaşayan azərbaycanlı uşaqların ana dilində təhsil alması məqsədilə Amsterdam və Rotterdam şəhərlərində açılmış həftəsonu məktəblərini dərslik və dərs ləvazimatları ilə təmin etməsindən, onlara hərtərəfli qayğı göstərməsindən başlayıb.
2010-cu ildəDağıstan Respublikasının Dərbənd şəhərində Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin və Ümumrusiya Azərbaycan Konqresi Dağıstan regional bölməsinin birgə təşkilatçılığı ilə "Oğuz eposu Kitabi Dədə Qorqud və Dərbənd" mövzusunda elmi-praktiki konfrans keçirilmişdir. Məruzələrdə Dədə Qorqudun Dərbənd şəhərində yaşaması, müxtəlif tarixi mənbələrdə, o cümlədən Evliya Çələbi və Adam Olearinin qeydlərində hətta Dədə Qorqudun məzarının Dərbənd şəhərində yerləşməsi haqqında məlumatların olduğu bildirilmişdir.

Nazim İbrahimov əlavə etmişdir ki, Diasporla İş üzrə Dövlət Komitəsi xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları ilə türk və yəhudi diasporu arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm tədbirlər görmüşdür. 2010-cu ilin yanvarında Bakıda I Azərbaycan-Rusiya Humanitar Əməkdaşlıq Forumu keçirilmişdir. Forumun Qeyri Hökumət Təşkilatları seksiyasının iclası Diasporla İş üzrə Dövlət Komitəsində təşkil olunmuşdur. Toplantıda iki ölkə arasındakı münasibətlərin müasir durumu, Rusiyadakı Azərbaycan diasporunun uğurları və problemləri ilə bağlı geniş müzakirələr aparılmışdır.

Fevralın 27-də İstanbulda Türkiyə Hökumətinin Xaricdə yaşayan türklərlə iş üzrə Baş idarəsinin yaradılması ilə əlaqədar toplantı keçirilmişdir. Dövlət naziri Faruk Çelikin təşkilatçılığı ilə keçirilən tədbirə ABŞ-dan Avstraliyaya qədər bütün dünyada yaşayan türk icmaları ilə yanaşı Türkiyədəki Qafqaz, Balkan dərnəklərinin təmsilçiləri də qatılmışlar. Toplantıda Azərbaycandan da rəsmi nümayəndə heyəti iştirak etmişdir. Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın da iştirak etdiyi toplantıda bu idarənin yaradılması haqqında hazırlanmış qanun layihəsinin mahiyyəti barədə məlumat verilmiş, müzakirələr nəticəsində diaspor nümayəndələrinin də rəy və təklifləri öyrənilmişdir.

Mətbuat konfransında bildirilmişdir ki, 2010-cu ildə İsrailə səfəri çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov İsrailin bir sıra rəsmi şəxsləri ilə də görüşmüşdür. Mayın 5-də İsrailin Turizm naziri Stas Misejnikovla görüşdə iki ölkənin turizm potensialı ətrafında fikir mübadiləsi aparılmışdır. Stas Misejnikov Azərbaycanın turizm imkanları ilə maraqlanmış, ölkəsinin bu sahədə Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu bildirmişdir. S.Misejnikov Azərbaycanın turizm potensialı ilə yaxından tanış olmaq, habelə azərbaycanlı turistləri İsrailə cəlb etmək məqsədilə danışıqlar aparmaq üçün cari ilin iyul ayında ölkəmizə səfərə gəlmək və Azərbaycan Respublikasının Mədəniyyət və Turizim naziri ilə görüşmək istədiyini bildirmişdir.

Daha bir görüş Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovla İsrail Baş nazirinin dəftərxanası yanında əlaqələr üzrə büronun rəhbəri xanım Naomi Ben-Ami arasında olmuşdur. Görüşdə Azərbaycan ilə İsrail arasında münasibətlər, hər iki ölkənin KİV-ləri arasında əlaqələrin genişləndirilməsi, Azərbaycan və yəhudi diapsorları arasında əməkdaşlığın potensialı və perspektivləri və digər aktual mövzular müzakirə olunmuşdur. Səfər çərçivəsində DİDK sədri Nazim İbrahimov həmçinin parlamentin beynəlxalq münasibətlər komissiyasının sədri, «İsrail Bizim Evimizdir" partiyasının parlament fraksiyasının rəhbəri Robert İlatovla da görüşmüşdür. Görüşdə Azərbaycanla İsrail arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri, parlamentlərarası əlaqələr və digər məsələlər müzakirə olunmuşdur. İsrailə səfəri çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsinin sədri N.İbrahimov Gürcüstan Parlamentinin vitse-spikeri, professor Paata Davitaya ilə də görüşmüşdür.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmış, Gürcüstanda yaşayan azərbaycanlıların problemlərinə toxunulmuşdur. Görüşdə Azərbaycan və Gürcüstanın qarşılaşdığı problemlərin dünya ictimaiyyətinə çatdırılması üçün həmçinin iki ölkənin kütləvi informasiya vasitələri arasında əməkdaşlığın genişləndirilməsinin zəruriliyi vurğulanmışdır. DİDK sədrinin daha bir görüşü isə mayın 6-da İsrailin Xarici İşlər naziri Aviqdor Libermanla olmuşdur. Görüşdə ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılmışdır. Dostluq münasibətlərinin inkişafında diaspor təşkilatlarının iştirakı ilə beynəlxalq tədbirlərin, "dəyirmi masa"ların, görüşlərin keçirilməsinin vacibliyi qeyd olunmuşdur.

Mayın 25-də Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Azərbaycanda səfərdə olan Belçika Senatının fəxri prezidenti və indi müstəqil senator olan Ann Mari Lizinlə görüşmüşdür. Görüşdə qonağa Azərbaycanın sürətli inkişafı, həyata keçirilən islahatlar, beynəlxalq əhəmiyyətli layihələr, ölkəmizin regionda və dünyada möhkəmlənən mövqeyi, eləcə də Azərbaycan diasporunun yaranması, formalaşması, təşkilatlanması barədə ətraflı məlumat verilmişdir. Xanım A.M.Lizin qeyd etmişdir ki, onun yaşadığı cəmiyyətdə Azərbaycan haqqında, xüsusilə də Qarabağ gerçəklikləri haqqında geniş təbliğat aparılmasına ehtiyac var.

Onun sözlərinə görə, Azərbaycan mədəniyyətinin Belçikada daha geniş tanıdılması məqsədilə də layihələr həyata keçirilməsi məqsədəuyğun olardı. Sentyabrın 16-da Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Azərbaycanda səfərdə olan Latviyanın sabiq Prezidenti, BMT-nin baş katibinin xüsusi elçisi, Avropa İttifaqının Uzunmüddətli İnkişaf Proqramının həmsədri xanım Vayra Vike-Freyberqa ilə görüşmüşdür. Görüşdə Azərbaycan-Avropa İttifaqı münasibətlərinin cari vəziyyəti və perspektivləri müzakirə olunmuş, regional, qlobal və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

2010-cuildə"Azərbaycanın Avropaya İnteqrasiyasında Baltikyanı ölkələrin rolu" və AB ölkələri parlamentlərində Azərbaycanla dostluq qruplarının məşvərət şurasının təşkili" mövzularında konfranslar keçirilmişdir. Tədbir Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycanın Latviya Respublikasındakı Səfirliyi, Estoniya Parlamenti və Azərbaycan-Estoniya Parlament dostluq qrupunun, həmçinin "Aydan" Eston-Azərbaycan Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutmuşdur.

Konfransda Azərbaycan və Estoniyanın dövlət rəsmiləri, parlament üzvləri, qeyri hökumət təşkilatları və Kütləvi İnformasiya Vasitələrinin təmsilçiləri iştirak edib. Toplantıda əsasən AB ölkələri parlamentlərindəki Azərbaycanla dostluq qruplarının məşvərət şurasının yaradılması məsələsi müzakirə edilib. Tədbir çərçivəsində həmçinin Baltikyanı dövlətlərin və Azərbaycanın QHT Forumları arasında birgə əməkdaşlıq haqqında anlaşma əldə olunmuşdur.

2010-cu ildə İstanbulda Türk-Asiya Strateji Araşdırmalar Mərkəzinin (TASAM) təşkilatçılığı, Türkiyə Cunhuriyyətinin Başbakanlığı və Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinın dəstəyi ilə "Türk Şurası, türk diasporu və sosial-iqtisadi əməkdaşlıq" mövzusunda Dünya Türk Forumu keçirilmişdir. 60 ölkədən türk dünyası və diaspor nümayəndələrinin iştirak etdiyi tədbirə Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndə heyəti, Azərbaycan millət vəkilləri, alimləri və bir neçə ictimai təşkilatın rəhbəri, həmçinin fəal diaspor təşkilatlarımızın rəhbərləri qatılmışlar. Forumda qəbul olunmuş yekun Qətnaməyə görə, Azərbaycan, türk, ingilis, özbək, qırğız, türkmən dil və ləhcələrində ortaq internet portalı yaradılması nəzərdə tutulmuşdur.

Il ərzində azərbaycanlıların hüquq və azadlıqlarının və ictimai-siyasi fəallığın artırılması işinə də xüsusi önəm verilmişdir. 2010-cu ildə azərbaycanlı alim Natiq Atakişiyev Meksikanın inkişafına töhfə vermiş şəxsiyyətlərin sırasına daxil edilmişdir. Belə ki, Meksikanın Milli Miqrasiya İnstitutunun dərc etdiyi "Dünyanın bizə hədiyyə etdiyi 200 meksikalı" adlı kitabda azərbaycanlı fizik, 1994-cü ildən Meksikada yaşayan və çalışan Latın Amerikası Azərbaycanlıları Assosiasiyasının sədri Natiq Atakişiyevin həyatı və mühacirət tarixçəsi barədə də məlumat əksini tapmışdır. Xatırladaq ki, Natiq Atakişiyevin rəhbərlik etdiyi "Latın Amerika Azərbaycanlıları Assosiasiyası" 2008-ci ilin sonunda fəaliyyətinə başlamışdır.

Moldova Azərbaycanlıları Konqresinin sədri Vüqar Novruzov millətlərarası dostluq münasibətlərinin möhkəmləndirilməsi, inkişafı və milli mədəniyyətlərin qarşılıqlı zənginləşməsi işində, həmçinin məhsuldar təşkilati və ictimai fəaliyyətinə görə Moldova Respublikasının Dövlət mükafatı olan "Gloria Muncii" ordeni ilə təltif edilmişdir. Buxarestdəki Avropa Nikolae Titulesku Fondunda Rumıniyada təhsil almış azərbaycanlı tədqiqatçıların doktorluq elmi işlərindən ibarət kitabların təqdimat mərasimi keçirilmişdir. Tədbir Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyi və Rumıniya-Azərbaycan Gənclər və Mədəniyyət Assosiasiyasının dəstəyi ilə həyata keçirilmişdir.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri vurğulamışdır ki, noyabrın 7-də Frankfurt Əcnəbi Vətəndaşlar Şurasına keçirilmiş seçkilərdə Azərbaycan diasporunun fəal üzvlərindən olan Cümə Məmmədov Şuranın deputatı seçilmişdir. Qeyd edək ki, bu qurum Frankfurtda yaşayan 168 mindən artıq xarici vətəndaşı təmsil edir. 37 deputatdan ibarət Əcnəbi Vətəndaşlar Şurası 5 il müddətinə seçilir. Azərbaycanlı deputat Frankfurt Əcnəbi Vətəndaşlar Şurasında postsovet məkanından təmsil olunan ilk və yeganə şəxsdir.

2010-cu ildə Riqada «Ocaq» Latviya-Azərbaycan Mədəniyyət Mərkəzi və Diasporla iş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Latviyada yaşayan azərbaycanlıların cəmiyyətə inteqrasiyasında diasporun rolu" adlı konfrans keçirilmişdir. Konfransda Latviya parlamentinin deputatları, Azərbaycan və Latviyanın müvafiq dövlət orqanlarının nümayəndələri, diasporumuzun fəalları iştirak etmişlər. Tədbirdə azərbaycanlıların yerli cəmiyyətə inteqrasiyası sahəsində qazanılmış uğurlar, bu prosesə Latviya dövlətinin verdiyi dəstək, iki ölkə arasında əməkdaşlığın müasir durumu və perspektivləri müzakirə olunmuşdur.

Xaricdə yaşayan azərbaycanlı gənclərin milli-mənəvi dəyərlərimizə sədaqətinin qorunub saxlanılması, onların ökəmizin maraqlarının qorunmasında fəal iştirakının təmin edilməsi dövlət gənclər siyasətinin prioritet istiqamətlərindəndir. Diaspor quruculuğunda və Azərbaycan lobbisinin yaradılmasında gənclərin fəal iştirakı daha ciddi nailiyyətlər qazanmağa imkan yaradır. Bu mühüm amili nəzərə almaq və onun real həyatda öz təsdiqini tapmasına stimul yaratmaq məqsədilə ötən dövrdə bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Bu barədə danışan Dövlət Komitəsinin sədri demişdir: "Rusiya Azərbaycan Gəncləri Təşkilatı (RAGT) artıq 3 ildir ki, "Qanın milləti yoxdur" şüarı altında geniş xeyriyyə aksiyası keçirir. Aksiyanın təşəbbüskarı RAGT-nin başçısı, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyevadır. Xeyriyyə aksiyasından məqsəd onkoloji xəstəliklərdən əziyyət çəkən uşaqlara yardım göstərməkdir.

Rusiya qanunlarına əsasən xeyriyyəçilik məqsədilə verilən qan üçün də pul ödənildiyi üçün əldə olunan vəsait N.Bloxin adına Rusiya Elmi Uşaq Onkologiyası və Gematologiyası Mərkəzinin hesabına köçürülür və xəstə uşaqların müalicəsinə sərf olunur. Qeyd edək ki, RAGT Moskvada mütəşəkkil qanvermə aksiyası keçirən ilk təşkilatdır. Bu aksiya müntəzəm olaraq hər ay keçiriləcək. Moskvada təhsil alan azərbaycanlı tələbələr, İ.M.Seçenov adına Moskva Tibb Akademiyasının həkimləri, habelə Azərbaycan gənclərinin nümayəndələri könüllü qan vermişlər."

DİDK rəhbərinin sözlərinə görə, 2010-cu ilin fevral ayında Diasporla İş üzrə Dövlət Komitəsi ilə Şimali Kipr Yaxın Doğu Universiteti (YDU) arasında əldə olunmuş anlaşmaya uyğun olaraq yeni tədris ilindən etibarən hər il 20 azərbaycanlı gəncin Yaxın Doğu Universitetində ödənişsiz əsaslarla təhsil almasına şərait yaradılmışdır. Təlim ingilis dilində olan universitetdə azərbaycanlı tələbələr «Turizm və otel idarəçiliyi», «Avropa Birliyi ilə münasibətlər», «Maliyyə və bank işi», «İqtisadiyyat, idarəetmə, marketinq», «Siyasət elmləri», «Beynəlxalq münasibətlər», «Beynəlxalq menecment», «Qəzetçilik, radio, televiziya və kino» ixtisasları üzrə təhsil almaq imkanı əldə ediblər. Dövlət Komitəsi Gürcüstanda yaşayan azərbaycanlı gənclərin cəmiyyətə inteqrasiyasına dəstək vermək, habelə yüksək ixtisaslı gənc kadrların hazırlanmasına yardım göstərmək məqsədilə protokolda nəzərdə tutulmuş 20 yerə namizədlərin Gürcüstanda yaşayan və qəbul imtahanlarında yüksək bal toplayan, lakin müsabiqədən keçməyən azərbaycanlı gənclər arasından seçilməsini məqsədəuyğun hesab etmişdir.

Yaxın Doğu Universitetinin rəhbərliyinin, yerli dövlət və ictimaiyyət nümayəndələrinin, abituriyentlərin valideynlərinin, iştirakı ilə keçirilmiş açıq müsahibənin nəticəsi olaraq 18 nəfər soydaşımız müxtəlif ixtisaslar üzrə universitetə təhsil almaq üçün göndərilmişdir. Dövlət Komitəsi Yaxın Doğu Universitetinə qəbul olunmuş tələbələrin əksəriyyətinin aztəminatlı ailələrdən olduğunu nəzərə alaraq, onların hər birinə 300 ABŞ dolları məbləğində təqaüd verilməsini öhdəsinə götürmüşdür.

Gürcüstanda yaşayan azərbaycanlıların Gürcüstan cəmiyyətinə inteqrasiyası ilə bağlı olaraq orada yaşayan gənclərin tarixi vətənləri ilə əlaqələrinin möhkəmləndirilməsi, milli-mənəvi dəyərləri, mədəniyyəti haqqında daha da geniş şəkildə məlumatlandırılması və yay tətilinin səmərəli keçirilməsi məqsədi ilə 2010-cu il iyulun 26–dan 31-dək Gürcüstandan 80 nəfər azərbaycanlı tələbənin və gənclər təşkilatının fəallarının Novxanı qəsəbəsindəki "Aquapark" Əyləncə Mərkəzində istirahəti təşkil edilmişdir.

Nazim İbrahimov demişdir ki, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə 2008-2010-cu illərdə Gürcüstanda fəaliyyət göstərən 124 Azərbaycandilli məktəblərin 84-də «Gürcü dili» kursları açılmışdır. Kurslara ümumilikdə 1700 şagird cəlb olunmuşdur ki, bunlardan da 510 nəfəri orta məktəb məzunlarıdır. Bundan başqa, 2009-cu ildə Azərbaycan məktəblərini bitirmiş və məhz gürcü dilini zəif bildiyinə görə ali məktəblərə qəbul oluna bilməyən gənclər də həmin kurslara cəlb edilmişdir.

Diasporla İş üzrə Dövlət Komitəsi Gürcüstanda yaşayan soydaşarımızın gürcü dilini mənimsəməsinə daha yaxşı şərait yaratmaq məqsədilə müvafiq dərslikləri, əyani vəsaitlərin hazırlanması istiqamətində də tədbirlər həyata keçirmişdir. Belə ki, Dövlət Komitəsinin dəstəyi ilə gürcü dilinin tədrisi üçün hər biri 2000 nüsxə olmaqla «Gürcü dilini öyrənənlər üçün dərslik», «Gürcücə-Azərbaycanca danışıq lüğəti», «Gürcü dilinin qrammatikası» kitabları, həmçinin gürcü dilinin qrammatikasına dair (hər birində 44 ədəd olmaqla) 300 dəst cədvəl hazırlanaraq Azərbaycandilli məktəblərə və gürcü dili kurslarına təqdim edilmişdir. Komitənin dəstəyi ilə 20 min sözdən ibarət iki cildlik «Azərbaycanca-Gürcücə» lüğət nəşr edilmişdir. 2010-cu ildə Gürcüstan Azərbaycanlıları Konqresinin təşəbbüsü ilə «Azərbaycanca-Gürcücə qısa dəftərxana və mühasibat terminləri lüğəti», «Azərbaycanca-Gürcücə, Gürcücə-Azərbaycanca danışıq lüğəti», «Azərbaycanca-gürcücə hüquq terminləri lüğəti» (1000 nüsxə) çap edilmişdir.

Təhsil haqqında Qanuna uyğun olaraq, Gürcüstanda 12 illik təhsil sisteminə keçidlə əlaqədar 2009-cu ildə Azərbaycandilli məktəblərdə buraxılış nəzərdə tutulmadığından Azərbaycan məktəblərində təşkil edilmiş dil kurslarında təhsil alan gənclərin gürcü dilini daha yaxşı mənimsəyə bilməsi üçün iki illik şans yaranmışdır.

Nazim İbrahimovun verdiyi məlumata görə, gürcü dili kurslarının səmərəli fəaliyyəti nəticəsində ötən müddət ərində azərbaycanlı gənclərin Gürcüstanın ali məktəblərinə qəbul faizi əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, 2006-2007-ci tədris ilində Gürcüstanda fəaliyyət göstərən ali təhsil müəssisələrinə keçirilmiş qəbul imtahanlarında iştirak etmiş azərbaycanlı abuturiyentlərdən 20 nəfər (3 dövlət, 17 özəl), 2007-2008-ci tədris ilində 40 nəfər (19 dövlət, 21 özəl), 2008-2009-cu tədris ilində 245 nəfər (55 dövlət, 190 özəl) tələbə adına layiq görülmüşdürsə, 2010-2011-ci tədris ilində bu rəqəm artaraq 458 nəfər (215 dövlət, 243 özəl) təşkil etmişdir. Qeyd edək ki, bu il Gürcüstan ali məktəblərinə qəbul olmuş 458 nəfər tələbənin 352 nəfəri Dövlət Komitəsinin dəstəyi ilə təşkil edilmiş «Gürcü dili» kurslarının dinləyiciləri olmuşdur.

Hesabat ilində Diasporla İş üzrə Dövlət Komitəsi Gürcüstanda yaşayan azərbaycanlıların Gürcüstan cəmiyyətinə inteqrasiyasına dəstək məqsədilə Gürcüstanda fəaliyyət göstərən Azərbaycanlıların Mədəniyyət Mərkəzinin "Region press" qəzeti və "Meydan" jurnalını, Gürcüstan Azərbaycanlıları Ziyalılar Birliyinin "Ziya", "Qeyrət" xalq hərəkatının "Qeyrət", Gürcüstan Azərbaycanlıları Konqresi "Gürcüstan Azərbaycanlıları", Maarif" Hüquqi Elmi-Metodiki Maarifləndirmə Mərkəzinin «Maarif" qəzetlərinin nəşrinə dəstək göstərmişdir.

Gürcüstanda fəaliyyət göstərən “Tolerans” İnsan hüquqlarının müdafiəsi ictimai birliyinin bir sıra layihələri Komitə tərəfindən dəstəklənmiş və uğurla həyata keçirilmişdir. Bu istiqamətdə “Tolerans” İnsan hüquqlarının müdafiəsi ictimai birliyi tərəfindən mart ayında Kvemo-Kartli regionunda yaşayan yoxsul təbəqədən olan əhalinin hüquqi yardımdan istifadə etmək imkanı” mövzusunda layihə həyata keçirilmişdir. Həmçini Dövlət Komitəsinin dəstəyi ilə “Tolerans” İnsan hüquqlarının müdafiəsi ictimai birliyi tərəfindən Gürcüstan Konstitusiyasının layihəsi azərbaycan dilinə tərcümə olunmuş və çap edilmişdir.

2010-cu il mayın 15-də Gürcüstan azərbaycanlı gənclərinin I qurultayı keçirilmişdir. Qurultayda çıxış edən gənclər təşkilatlarının nümayəndələri onları narahat edən problemlərdən danışmış, azərbaycanlıların cəmiyyətə inteqrasiyası sahəsində həyata keçirilmiş layihələri təqdir etdiklərini bildirmişlər. Çıxışlarda bəzi gənclərin dövlət dilini bilməməsi, dövlət idarəçiliyində soydaşlarımızın məhdud şəkildə təmsil olunması, hüquqi maarifləndirmə sahəsində mövcud olan çətinliklər, insan hüquqlarının pozulması halları ilə bağlı bir sıra problemlərə toxunulmuşdur. Çıxış edənlər Gürcüstan azərbaycanlı gənclərinin I qurultayının çağırılmasını mühüm tarixi hadisə kimi qiymətləndirmişlər.

Qurultayda Gürcüstanda yaşayan azərbaycanlı gənclərin cəmiyyətə inteqrasiyası sahəsindəki mövcud problemlər müzakirə olunmuş və Gürcüstan Azərbaycanlı Gənclərinin İttifaqı təsis edilmişdir. Toplantıda Gürcüstan azərbaycanlı gənclərinin I qurultayının iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Gürcüstan Prezidenti Mixail Saakaşviliyə müraciətlər qəbul edilmişdir.

Gənclərimizin fəallığının artırılması istiqamətində digər ölkələrdə də mühüm işlər görülmüşdür. 2010-cü il aprelin 24-də Ukrayna Azərbaycanlıları Konqresinin Dnepropetrovsk vilayət təşkilatının təşəbbüsü ilə bu şəhərdə Ukraynada yaşayan azərbaycanlı gənclərin I forumu keçirilmişdir. Forumda Ukraynada yaşayanazərbaycanlı gənclərin əlaqələndirmə şurası yaradılmışdır. Forum aprelin 24-nün Ukraynada yaşayan azərbaycanlı gənclərin həmrəylik günü kimi qeyd olunması ilə bağlı qərar qəbul etmişdir.

2010-cu ildə Koreya Respublikasının Xarici Dillər Universitetinin Türk-Azərbaycan Dilləri Fakültəsində “BUTA Azərbaycan Mədəniyyət Dərnəyi” fəaliyyətə başlamışdır. Dərnəkdə BUTA Azərbaycan-Koreya Tələbə Təşkilatının üzvləri Zaur Səfərov və Çinarə Ağacanova Koreyalı tələbələrə Azərbaycanın milli rəqslərini öyrədəcək. BUTA AKTT, həmçinin ölkəmizin tarixi, mədəniyyəti, incəsənəti barədə məlumatları müxtəlif formatlı tədbirlər keçirməklə koreyalı tələbələrə aşılayacaq. Azərbaycan dilini öyrənən koreyalı tələbələr üçün dərnəkdə “danışıq dərsləri”nin təşkil olunması da nəzərdə tutulmuşdur.

17 dekabr 2010

Dünya azərbaycanlıları vahid amal ətrafında səfərbər olurlar

Londonda DAK-ın XI Qurultayı keçirilmişdir

Bu gün sürətlə inkişaf edən, mövcud olduğu regionun lideri statusunu daşıyan Azərbaycan beynəlxalq hüququn müstəqil, fəal subyekti kimi dünya miqyasında mövqeyi daim güclənən, nüfuzu yüksələn dövlətlər sırasında yer alır. İstər ölkədə, istərsə də onun hüdudlarından kənarda yaşayan hər bir azərbaycanlı bu gün böyük nailiyyətlərə imza atan Azərbaycanın uğurları ilə fəxr edir, beynəlxalq məkanda dövlətimizlə qürur duyduğunu iftixarla bəyan edir. İndi hər bir azərbaycanlı dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, Azərbaycanın təbliğatını aparmağı, onun səsini dünyaya çatdırmağı özünə borc bilir.

Ölkəmizin sərhədlərindən kənarda yaşayan milyonlarla soydaşımızın vahid bir amal ətrafında birləşdirilməsi istiqamətində indiyədək əldə olunmuş bütün nailiyyətlər ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu istiqamətdə həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsində mümkün olmuşdur. Ulu öndərin siyasi kursunun layiqli davamçısı, onun müəyyənləşdirdiyi inkişaf strategiyasını müvəffəqiyyətlə həyata keçirən Prezident İlham Əliyev isə Azərbaycan diasporunun formalaşdırılması sahəsində əldə olunan nailiyyətləri yeni inkişaf mərhələsinə qaldırmış və bunu hər zaman xüsusi diqqət mərkəzində saxlamışdır. Məhz dövlət başçısının diqqəti sayəsində diaspor məsələlərinə diqqət daha da artırılmışdır. Xaricdə yaşayan həmvətənlərimizin təşkilatlanması, onların vahid ideya ətrafında birləşdirilməsi siyasəti müvəffəqiyyətlə davam etdirilməkdədir. Cənab İlham Əliyev əksər xarici səfərlərində Azərbaycan diasporunun nümayəndələri ilə görüşür, onları narahat edən problemlərlə maraqlanır, dəyərli tövsiyələrini verir. Bütün bunlar təbii ki, dünyanın müxtəlif bölgələrində olan soydaşlarımızın təşkilatlanması, onlar arasında ideya-mənəvi birliyin daha da möhkəmləndirilməsi, diaspor quruculuğu işinin müvəffəqiyyətlə həyata keçirilməsi baxımından çox böyük əhəmiyyətə malikdir.

Hazırda dünya miqyasında fəaliyyət göstərən soydaşlarımız tərəfindən yaradılmış xeyli sayda diaspor təşkilatları mövcuddur. Azərbaycanı dünyada təbliğ edən, onun reallıqlarını, haqq səsini beynəlxalq ictimaiyyətə çatdıran belə təşkilatlardan biri də Dünya Azərbaycanlıları Konqresidir (DAK). Sözügedən konqresin dekabrın 10-dan 14-dək London şəhərində XI Qurultayı keçirilmişdir. Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağın və ona bitişik yeddi rayonun Ermənistan tərəfindən işğal edilməsi faktını bir daha Böyük Britaniya və dünya ictimaiyyətinin diqqətinə çatdırmaq üçün qurultaydan bir gün əvvəl London şəhər rəhbərliyi ilə əvvəlcədən razılaşdırılmış şəkildə BBC radiostansiyasının ofisi qarşısında aksiya keçirilmişdir.

Bu barədə məlumat verən DAK İdarə Heyətinin üzvü, əməkdar artist Ağalar Bayramovun sözlərinə görə, 250 nəfərədək insanın iştirak etdiyi aksiyada Ermənistana göstərilən hərbi, siyasi və iqtisdi yardımların dayandırılması, Dağlıq Qarabağ və ona bitişik digər Azərbaycan ərazilərinin erməni işğalından azad edilməsi kimi tələblər irəli sürülmüşdür. Aksiyanın sonunda qətnamə oxunmuş və professor Qulamrza Səbri Təbrizi tərəfindən BBC-nin ofisinə təqdim olunmuşdur.

DAK-ın XI Qurultayı dekabrın 12-də öz işinə başlamışdır. Dünyanın 16 ölkəsindən 230 nəfər nümayəndənin iştirakı ilə keçirilən qurultayda əsasən təşkilati məsələlərlə bağlı qərarlar qəbul olunmuşdur. Buvaxtadək DAK-ın İdarə Heyəti 21 nəfərdən ibarət idi. XI Qurultayda qəbul olunmuş qərarla İdarə Heyəti üzvlərinin sayı 19-a endirilib. Onların 3 nəfəri Azərbaycanı təmsil edir. Bunlar professor Paşa Qəlbinur, Bakı Dövlət Universitetinin professoru Vaqif Sultanlı və Ağalar Bayramovdur.

DAK İdarə Heyətinin qərarı ilə təşkilatın həmsədrləri də seçilmişlər. Bunlar Azərbaycandan Paşa Qəlbinur, ABŞ-dan isə GünAz TV-nin rəhbəri Əhməd Obalıdır. İdarə heyətinin digər qərarları ilə Əsmayət Cavadova DAK-ın Qadınlar Şurasının sədri, Nadir Orucov DAK-ın Azərbaycan nümayəndəliyinin rəhbəri seçilmişlər. Qurultay iştirakçılarının yekdil qərarı ilə Edinburq Universitetinin professoru Qulamrza Səbri Təbrizi və M.Ə.Rəsulzadənin nəvəsi Rəis Rəsulzadə DAK-ın fəxri sədrləri seçilmişlər. Bununla da DAK-ın XI Qurultayı öz işini başa vurmuşdur.

"Azərbaycan".-2010.-17 dekabr.-N 277.-S.3.

Dünyanın müxtəlif ölkələrində 370-dən çox Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir

Azərbaycan Prezidenti İlham Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən biri olan diaspor siyasəti cari ildə də uğurla həyata keçirilmişdir.

Bunu Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) sədri Nazim İbrahimov dekabrın 17-də Yeni Azərbaycan Partiyasının qərargahında başa çatmaqda olan 2010-cu ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında demişdir. N.İbrahimov bildirmişdir ki, DİDK 2010-cu il ərzində xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, cəmiyyətə inteqrasiyası, soydaşlarımızın ictimai-siyasi həyatda iştirak səviyyəsinin artırılması, tarixi Vətənlə əlaqələrinin genişləndirilməsi, habelə diaspor təşkilatları arasında səmimi əməkdaşlıq münasibətlərinin yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirmişdir.

Azərbaycan diaspor təşkilatlarının nəzdində yeni kütləvi informasiya vasitələri təsis edilmiş, eyni zamanda, ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən KİV-lərdə Azərbaycanla bağlı məqalə və materialların işıqlandırılması istiqamətində tədbirlər görülmüşdür. İl ərzində 20 Yanvar faciəsinin 20-ci, Xocalı soyqırımının 18-ci ildönümü və 31 Mart azərbaycanlıların soyqırımı günü ilə əlaqədar İsveç, İsveçrə, Finlandiya, Norveç, Niderland, Böyük Britaniya, Belçika, Latviya, Litva, Estoniya, Rusiya, Ukrayna, Belarus, Bolqarıstan, Türkiyə, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Gürcüstan, ABŞ, Kanada, Yaponiya, Yeni Zelandiya, Avstraliya, Birləşmiş Ərəb Əmirlikləri, Misir, Koreya Respublikası, Almaniya, Fransa, Çexiya, Macarıstan, Rumıniya və digər ölkələrdə müxtəlif formatlı tədbirlər təşkil edilmişdir.

Ölkəmizin taleyüklü problemlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində mühüm işlər görən Heydər Əliyev Fondu Xocalı soyqırımının 18-ci ildönümü ilə əlaqədar xarici ölkələrdəki Azərbaycan icma və birliklərini müvafiq məlumatlar və sənədlərlə təmin etmişdir. Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ilin may ayında elan edilmiş "Xocalıya ədalət" (Justice for Khodjaly) beynəlxalq məlumat və təşviqat kampaniyası çərçivəsində 2010-cu il ərzində dünyanın bir çox ölkələrində etiraz aksiyaları, elmi-praktik konfranslar və digər tədbirlər keçirilmişdir. Kampaniyada Azərbaycan diaspor təşkilatları da fəal şəkildə iştirak edirlər.

Bundan başqa, 2010-cu ilin fevralında Çexiyanın Lidise İcra Hakimiyyəti Lidise qəsəbəsində küçələrin birinə Xocalı adı vermək qərarı qəbul etmişdir. İl ərzində azərbaycanlıların hüquq və azadlıqlarının, ictimai-siyasi fəallığının artırılması işinə də xüsusi önəm verilmişdir. Xaricdə yaşayan azərbaycanlı gənclərin milli-mənəvi dəyərlərimizə sədaqətinin qorunub saxlanılması, onların ölkəmizin maraqlarının qorunmasında fəal iştirakının təmin edilməsi dövlət gənclər siyasətinin prioritet istiqamətlərindəndir. Diaspor quruculuğunda və Azərbaycan lobbisinin yaradılmasında gənclərin fəal iştirakı daha ciddi nailiyyətlər qazanmağa imkan yaradır. Dövlət Komitəsinin sədri demişdir: "Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı (RAGT) artıq 3 ildir ki, "Qanın milləti yoxdur" şüarı altında geniş xeyriyyə aksiyası keçirir. Aksiyanın təşəbbüskarı RAGT-nin sədri, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyevadır. Xeyriyyə aksiyasından məqsəd onkoloji xəstəliklərdən əziyyət çəkən uşaqlara yardım göstərməkdir. RAGT Moskvada mütəşəkkil qanvermə aksiyası keçirən ilk təşkilatdır. Bu aksiya müntəzəm olaraq hər ay keçiriləcəkdir. DİDK rəhbərinin sözlərinə görə, 2010-cu ilin fevralında Diasporla İş üzrə Dövlət Komitəsi ilə Şimali Kipr Yaxın Doğu Universiteti (YDU) arasında əldə olunmuş anlaşmaya uyğun olaraq yeni tədris ilindən etibarən hər il 20 azərbaycanlı gəncin Yaxın Doğu Universitetində ödənişsiz əsaslarla təhsil almasına şərait yaradılmışdır.

Nazim İbrahimov demişdir ki, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə 2008-2010-cu illərdə Gürcüstanda fəaliyyət göstərən 124 azərbaycandilli məktəbin 84-ündə "Gürcü dili" kursları açılmışdır. Kurslara ümumilikdə 1700 şagird cəlb olunmuşdur ki, bunların da 510 nəfəri orta məktəb məzunlarıdır. 2010-cu il ərzində xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Bu dövrdə dünyanın bir neçə ölkəsində, o cümlədən Almaniya, İsveç, Polşa, Ukrayna, Rusiya, Türkiyə, Qazaxıstan, Koreya Respublikası və Gürcüstanda ümumilikdə 15 yeni diaspor təşkilatı təsis edilmişdir. Ümumiyyətlə, dünyanın müxtəlif ölkələrində 370-dən çox diaspor təşkilatı fəaliyyət göstərir. Nazim İbrahimov əlavə etmişdir ki, Diasporla İş üzrə Dövlət Komitəsi xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları ilə türk və yəhudi diasporu arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm tədbirlər görmüşdür.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri jurnalistlərin suallarını da cavablandırmışdır.

“Xalq qəzeti”.-2010.-18 dekabr.-N 278.-S.3

BDM Türkiyədə bir sıra tədbirlər keçirib

«Səfərdə əsas hədəfimiz - İrəvandan, o cümlədən Qərbi Azərbaycanın digər yerlərindən qovulmuş azərbaycanlıların haqlarının beynəlxalq müstəviyə çıxarılması, həmçinin, ulu öndər Heydər Əliyevin anım gününün keçirilməsi idi»

Beynəlxalq Diaspor Mərkəzi (BDM) Qərbi Azərbaycandan vəhşiliklə və zorla qovulmuş soydaşlarımızın pozulmuş hüquqlarının beynəlxalq arenada tanınması uğrunda başladığı mübarizədə yeni mərhələyə qədəm qoyub. Mərkəz artıq bu məsələyə dünya ictimaiyyətinin diqqətini cəlb etmək üçün ölkə sərhədlərindən kənarda müxtəlif tədbirlərin keçirilməsinə start verib. Belə ki, bugünlərdə «Biz mütləq o torpaqlara qayıdacağıq» devizi altında qardaş Türkiyənin İqdır şəhərində böyük nümayəndə heyətinin iştirakı ilə görüşlər keçirilib. Azərbaycan türklərinin böyük igidi Kərbəlayi İsmayılın və başqalarının Daşburun kəndindəki qəbirlərinin ziyarəti ilə başlayan törənlər Heydər Əliyev adına Liseydə ümummilli liderin anım günü, siyasi partiyalar və qeyri-hökumət təşkilatları, ictimai birliklərlə Qərbi Azərbaycandan zorla qovulmuş soydaşlarımızın hüquqlarının beynəlxalq müstəviyə çıxarılması yollarına dəstək üçün keçirilən konfranslarla davam etdirilib. Bütün bu tədbirlər barədə daha ətraflı məlumat almaq üçün BDM-in sədri İsmayıl Ağayevlə həmsöhbət olduq.

- İsmayıl müəllim, İqdırda keçirdiyiniz görüşlərlə bağlı bir qədər ətraflı məlumat verməyinizi xahiş edərdik…

- Nəzərinizə çatdırım ki, biz BDM olaraq artıq bir neçə ildir Türkiyənin müxtəlif şəhərlərində silsilə tədbirlər həyata keçiririk. Buna misal olaraq, 1915-ci ildə Çanaqqalada şəhid olan 3 minə yaxın soydaşımızın xatirəsinin əbədiləşdirilməsi, Nuru Paşanın başçılığı ilə 1918-ci ildə bolşevik-daşnak işğalından qurtarması üçün Qafqaz-İslam Ordusunun Azərbaycana gəlişinin qeyd edilməsi, Türkiyə-Ermənistan sərhədlərinin açılması məsələsi gündəmdə olan zaman Əlican sərhəd-keçid məntəqəsində 10 min nəfərə yaxın insanın iştirakı ilə keçirdiyimiz aksiyanı, ümumiyyətlə, İqdırda yaşayan Azərbaycan türkləri ilə bağlı BDM-in atdığı addımları qeyd edə bilərik.

Bundan əlavə, biz BDM olaraq Leyla xanım Əliyevanın başlatdığı «Xocalıya Ədalət» kampaniyasına dəstək olaraq İstanbulun «Taksim» meydanında toplantı düzənləmişik, yürüş-mitinq keçirmişik. Yəni bu cür milli məsələlərlə bağlı bizim artıq BDM olaraq Türkiyədə kifayət qədər fəaliyyətimiz, orada bizimlə eyni düşüncələri bölüşən dostlarımız var. Budəfəki səfər də əvvəlki tədbirlərin davamı kimi düşünülən növbəti bir səfər idi. Bilirsiniz ki, Türkiyə ilə Azərbaycan arasında yüksək xətlə inkişaf edən hazırkı yaxınlaşma prosesini gözü götürməyən, həzm etməyən bəzi qüvvələr də var. Heç kimə sirr deyil ki, həmin qüvvələr bu münasibətlərə kölgə salmaq üçün bəzi işlər də görürlər.

Biz buna görə yalnız təəssüf edirik. Həm bu kimi məsələlərin aradan qaldırılması və yerindəcə müzakirələr aparmaq, digər tərəfdən, ulu öndər Heydər Əliyevin anım gününü xatırlamaq üçün Türkiyənin İqdır bölgəsinə səfər etməyi qərara aldıq. Məlumdur ki, ulu öndərin anım günü təkcə Azərbaycanda deyil, Azərbaycanın sərhədlərindən xeyli uzaqlarda da qeyd olunur. Həmin gün Azərbaycanın diplomatik nümayəndəliklərində, azərbaycanlıların yaratdıqları ictimai təşkilatlarda ulu öndərin anım günü qeyd edilir. Təbii ki, biz bütün azərbaycanlıların hörmətlə xatırladıqları bu günü nəzərdən qaçıra bilməzdik.

Səfər zamanı, ələlxüsus da, Qərbi Azərbaycandan, indiki Ermənistan Respublikasının ərazisindəki dədə-baba torpaqlarından soydaşlarımızın sonuncu dəfə didərgin salınmalarının 22-ci ildönümünün tamam olması münasibətilə keçirəcəyimiz tədbirlər mühüm əhəmiyyət daşıyırdı. Qərbi Azərbaycandan qovulmuş insanların hüquqlarının beynəlxalq müstəviyə çıxarılması istiqamətində BDM-in başladığı tədbirlər özünü bizim səfər proqramında da tapmışdı. Beləliklə, səfərdə əsas hədəfimiz - İrəvandan, o cümlədən Qərbi Azərbaycanın digər yerlərindən qovulmuş azərbaycanlıların haqlarının beynəlxalq müstəviyə çıxarılması, həmçinin, ulu öndər Heydər Əliyevin anım gününün keçirilməsi idi.

- Nümayəndə heyəti neçə nəfərdən ibarət idi və səfər marşrutu necə seçilmişdi?

- 16 nəfərdən, 4 avtomobildən ibarət karvan İran İslam Respublikasından Naxçıvana, Naxçıvandan da İqdıra keçmək marşrutu seçməklə buradan yola çıxdıq. Səfər proqramı çox zəngin idi. Səfərin əsas təşkilatçısı qismində BDM çıxış edirdi. BDM Məşvərət Məclisinin sədri, millət vəkili kimi Gülər xanım Əhmədovanın səfərin təşkilatçısı kimi əməyini burada qeyd etmək həm düzgün olardı, həm də yerinə düşərdi.

Bizim qeyri- hökumət təşkilatı kimi, Gülər xanımın da bundan əlavə həm Yeni Azərbaycan Partiyasından olan millət vəkili, həm də dövləti təmsil edən bir şəxs kimi iştirak etdiyi bu səfər çox uğurla başladı. Biz dekabrın 11-də İqdır valiliyinin tapşırığı ilə Əlican keçid məntəqəsindən ayrılmış xüsusi polis müşaiyəti ilə İqdıra çatdıq. İqdırdakı «İmperator» hotelində yerləşdikdən sonra dekabrın 12-də səhər tezdən İqdırdan 20 kilometr aralıda yerləşən Daşburun kəndində 1905-1907 və 1918-1933-cü illər ərzində Qərbi Azərbaycanın Vedibasar, Dərələyəz və Zəngəzur mahalından qovularkən həmin ərazidə məskunlaşmış insanların yaxınları, nəvə-nəticələri ilə görüşdük.

Ələlxüsus da, Azərbaycanın Qarsdakı keçmiş baş konsulu və hazırda İstanbulda fəaliyyət göstərən baş konsulu Həsən Zeynalov tərəfindən Kərbəlayı İsmayıl və onun tərəfdarlarının xatirəsinə ucaldılmış abidənin önündə toplantı və görüş keçirdik. Görüşdə Azərbaycandan gəlmiş nümayəndə heyəti, Azərbaycanın Türkiyədəki konsulluğunun İqdır nümayəndəsi Rafiq bəy, Daşburun bələdiyyə başqanı Nəsib Aksu, Milliyyətçi Hərəkat Partiyasının vilayət başqanı Cahid bəy və başqa dostlarımızla bərabər, biz Daşburun kəndində Kərbəlayi İsmayılın qəbrini ziyarət etdik, onun məzarı önünə gül-çiçək dəstələri düzdük. Daha sonra çıxışlar oldu.

Bundan sonra Azərbaycandan özümüzlə gətirdiyimiz hədiyyələri - tarixi kitabları Kərbəlayi İsmayılın qardaşı nəvəsinə, yaxın qohumlarına təqdim etdik. Daha sonra nümayəndə heyəti Əlican sərhəd-keçid məntəqəsinə getdi. Keçiddəki durumla maraqlandıq. Oradan Ermənistan tərəfini seyr etdik. Çünki Əlican sərhəd-keçid məntəqəsi bir neçə ay öncə Azərbaycanda ən çox səslənən, ən çox müzakirə olunan məsələlərdən biri idi. Nümayəndə heyətinin üzvləri oradan birbaşa 1905-1907 və 1918-ci ildə ermənilər tərəfindən qətlə yetirilmiş soydaşlarımızın xatirəsinə qoyulmuş soyqırım abidəsinin ziyarətinə yollandılar. Ziyarətdə həm Türkiyə ictimaiyyətinin nümayəndələri, həm də qeyri-hökumət təşkilatlarının üzvləri iştirak edirdilər. Oradan millət vəkili Gülər Əhmədova və mən Ermənistan ictimaiyyətinə bir mesaj da göndərdik. Gülər xanım erməni daşnaklarının analarına müraciət edərək övladlarının bu çirkin olaylardan əl çəkməsini, qan tökməmələrini məsləhət etdi. Mən də bildirdim ki, İqdırdakı soyqırım abidəsi 5 qollu qılıncdan ibarətdir. Dedim ki, əgər bunlar soyqırım kimi hərəkətlərindən əl çəkməsələr, deportasiya olunanların haqlarını tanımasalar, Qarabağı işğaldan azad etməsələr, dəymiş maddi və mənəvi ziyanı ödəməsələr, burada simvol olan qılıncı əlimizə almağa məcburuq. Çünki torpaqlarımızı qorumaq bizim borcumuzdur və ermənilərə tezliklə Qarabağdan çıxmaları üçün qətiyyətlə mesaj verdik.

- Səfər zamanı vilayət rəsmiləri ilə təmaslarınız gerçəkləşdimi?

- Dekabrın 12-də nümayəndə heyətinin üzvlərini İqdır valisi çox hərarətlə qəbul etdi və ulu öndər Heydər Əliyevin əziz xatirəsinə anım gecəsi təşkil olundu. Anım gecəsində Azərbaycandan getmiş nümayəndə heyəti, İqdır valiliyinin əməkdaşları, həm də İqdırda fəaliyyət göstərən ictimai təşkilatların yetkililəri iştirak edirdilər. Anım gecəsində həm ulu öndər Heydər Əliyevin, həm Türkiyə cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün, həm də cəmi qazilərimizin və şəhidlərimizin ruhlarına dualar oxundu. İqdır valisi tərəfindən müasir Azərbaycanın qurucusu - ulu öndər Heydər Əliyevin vəfatının 7-ci ildönümü ilə bağlı ehsan süfrəsi verildi. Nümayəndə heyətinin dekabrın 12-nə olan nəzərdə tutulmuş səfər proqramı bununla yekunlaşdı.

Dekabrın 13-də səhər saat 10:00-da İqdır valisi öz iş otağında bizi rəsmi şəkildə qəbul etdi. Qəbul zamanı Türkiyə-Azərbaycan münasibətlərindən, Türkiyə-Azərbaycan qardaşlığından strateji əməkdaşlığa doğru görülən işlərdən bəhs olundu. Əsas məsələ - ötən əsrin əvvəllərində Qərbi Azərbaycanda erməni daşnaklarının zülmündən cana doyaraq İqdıra köç etmiş soydaşlarımızın nəvə-nəticələrinin, yaxın qohumlarının vəziyyəti ilə bağlı idi.

Qeyd edim ki, onların hamısı Türkiyə vətəndaşlarıdır. Lakin buna baxmayaraq onlar bütün görüşlərində özlərini həm də Azərbaycan vətəndaşları kimi aparırlar, özlərini azərbaycanlı kimi təqdim edirlər. Görüş zamanı İqdır valiliyi ilə gələcəkdə birgə görəcəyimiz işlərlə bağlı geniş fikir mübadiləsi apardıq. Azərbaycandan özümüzlə apardığımız xatirə hədiyyələrini İqdır valisinə təqdim etdik. Vali də, öz növbəsində, bizə xatirə hədiyyələri təqdim etdi. Biz belə qərarlaşdırdıq ki, növbəti tədbirlərdən biri İqdırda fəaliyyət göstərən televiziya və qəzet jurnalistlərinin, ictimai təşkilatların nümayəndələrinin Azərbaycana səfərinin təşkil edilməsi olsun. Digər tərəfdən isə Ağrıdağı ilə Babadağın qardaş dağ olmasının elan edilməsi istiqamətində addımlar atmaq istəyirik. Biz bu tədbirin də həyata keçirilməsi üçün vali ilə razılıq əldə etdik. Bundan sonra - saat 12 radələrində İqdır şəhərinin mərkəzində Atatürkün və ulu öndər Heydər Əliyevin heykəlləri önündə əklilqoyma mərasimi oldu. Burada Azərbaycan Respublikasının və Türkiyə cümhuriyyətinin dövlət himnləri səsləndirildi.

Günün ikinci yarısında ulu öndər Heydər Əliyev adına Fənn Liseyində müəllim-şagird heyəti ilə görüşümüz oldu. Görüş zamanı ulu öndərin həyatı və yaradıcılığı haqqında film nümayiş olundu. Fənn Liseyində Azərbaycandan gələn nümayəndə heyətini çox sevinclə qarşıladılar. Biz də onlara Azərbaycanın mədəniyyəti, tarixi, ulu öndərin keçdiyi yol, Qarabağla bağlı, Azərbaycan türklərinin deportasiya və soyqırımları barədə məlumatlar verdik, bu məsələlərlə bağlı BDM-in hazırladığı filmi nümayiş etdirdik. Özümüzlə apardığımız Heydər Əliyev Fondu tərəfindən hazırlanan çoxsaylı kitabları, Xocalı faciəsinə aid filmləri, diskləri liseyə verdik. Liseydə bizdən bir sıra digər ləvazimatın onlara çatdırılmasını xahiş etdilər. Biz gələcəkdə onlara bu yardımı çatdıracağımıza söz verdik. Daha sonra İqdır şəhərinin Əmniyyət (polis - S. Həmid) Müdirliyindən bizi qəbul etməsini xahiş etdik. Nümayəndə heyətinin başında, təbii ki, Gülər xanım Əhmədova dayanırdı. Beləliklə, nümayəndə heyətinə daxil olan insanlar Əmniyyət Müdirliyində oldular.

Orada olarkən mən əmniyyət müdirindən buradakı Azərbaycan türklərinin durumu, vəziyyəti, ümumiyyətlə, onların qanun pozuntularına yol verib-verməmələri barədə bəzi bilgilər istədim. Hal-hazırda İqdır vilayətində bir nəfər də olsun Azərbaycan türkünün həbsdə olmaması bizi sevindirdi.

Bu bizim üçün çox önəmli məsələdir. Biz orada son vaxtlar PKK-nın o bölgədə işinin zəifləməsi, azərbaycanlıların durumunun daha da yaxşı olması istiqamətində müzakirələr apardıq və aprel ayının 10-da İqdırdakı Əmniyyət Müdirliyində keçiriləcək tədbirə bizi dəvət etdilər. Qeyd edim ki, aprelin 10-u Türkiyədə polis günü kimi qeyd olunur. Biz onlara söz verdik ki, BDM-in Poeziya şöbəsinin yaxından iştirakı ilə onların tədbirlərində iştirak edəcəyik.

- Səfər zamanı Qərbi Azərbaycanlı qaçqınların pozulmuş hüquqlarının beynəlxalq müstəvidə bərpası yönündə keçirdiyiniz konfransla da bağlı məlumat vermənizi istərdik…

- Qeyd edim ki, İqdır Əmniyyət Müdirliyində keçirdiyimiz görüşlə dekabrın 13-nə olan səfər proqramımız yekunlaşdı. Dekabrın 14-də ən əsas məsələ Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların hüquqlarının beynəlxalq müstəvidə qorunması ilə bağlı əvvəlcədən razılaşdırılmış formada keçirəcəyimiz tədbir oldu. Burada əsas Milliyyətçi Hərəkat Partiyasının təşəbbüsü və təşkilatçılığı ilə 6 siyasi partiyanın - ana müxalifət partiyası olan cümhuriyyət Xalq Partiyasının, Ana Vətən Partiyasının, Türkiyə Partiyasının və bir neçə digər siyasi partiyanın bölgə təşkilatı rəhbərlərinin iştirakı ilə MHP-nin ayarladığı İrəvandan qovulmuş azərbaycanlıların haqq və hüquqlarının beynəlxalq müstəviyə çıxarılması üçün müzakirələrə başladıq. Saat 11-də başlayan konfrans çox səmərəli oldu, bir sıra təkliflər irəli sürüldü və biz əvvəlcədən hazırladığımız müraciəti konfrans iştirakçılarının diqqətinə çatdırmağa nail ola bildik.

Müraciəti «Xural» qəzetinin baş redaktoru Əvəz Zeynallı oxudu. Türkiyə türkcəsində yazılmış və bütün iştirakçıların imzaladığı müraciət BMT Təhlükəsizlik Şurasına, Avropa Birliyinə, Avropa Şurası Parlament Assambleyasına, Avropa İnsan Hüquqları Məhkəməsinə, Azərbaycan Respublikasının Prezidentinə, Türkiyə cümhuriyyətinin Prezidenti Abdullah Gülə və Türkiyə cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğana ünvanlandı. Daha sonra Azərbaycandan gətirdiyimiz xatirə hədiyyələri siyasi partiyaların bölgə təşkilatlarının rəhbərlərinə təqdim olundu. Onlar da qarşılıqlı olaraq bizə xatirə hədiyyələri təqdim etdilər. Onların özlərinin bildirdiklərinə görə, hələ Azərbaycandan gəlmiş hansısa bir təşkilatın öz ətrafında 6 siyasi partiyanın vilayət rəhbərini toplayaraq mühüm bir sənədi imzalaması halı baş verməmişdi.

- Səhv etmiriksə, Qərbi Azərbaycan zorla qovulmuş soydaşlarımızla bağlı QHT-lərin iştirakı ilə digər bir böyük konfransınız da gerçəkləşib…

«Mübarizəmizi davam etdirməliyik»

Beynəlxalq Diaspor Mərkəzi (BDM) Qərbi Azərbaycandan vəhşiliklə və zorla qovulmuş soydaşlarımızın pozulmuş hüquqlarının beynəlxalq arenada tanınması uğrunda başladığı mübarizədə yeni mərhələyə qədəm qoyub. Mərkəz artıq bu məsələyə dünya ictimaiyyətinin diqqətini cəlb etmək üçün ölkə sərhədlərindən kənarda müxtəlif tədbirlərin keçirilməsinə start verib. Belə ki, bugünlərdə «Biz mütləq o torpaqlara qayıdacağıq» devizi altında qardaş Türkiyənin İqdır şəhərində böyük nümayəndə heyətinin iştirakı ilə görüşlər keçirilib.

Azərbaycan türklərinin böyük igidi Kərbəlayi İsmayılın və başqalarının Daşburun kəndindəki qəbirlərinin ziyarəti ilə başlayan törənlər Heydər Əliyev adına Liseydə ümummilli liderin anım günü, siyasi partiyalar və qeyri-hökumət təşkilatları, ictimai birliklərlə Qərbi Azərbaycanda zorla qovulmuş soydaşlarımızı hüquqlarının beynəlxalq müstəviyə çıxarılması yollarına dəstək üçün keçirilən konfransla davam etdirilib. Bütün bu tədbirlər barədə daha ətraflı məlumat almaq üçün BDM-in sədri İsmayıl Ağayevlə həmsöhbət olduq.

- Səhv etmiriksə, Qərbi Azərbaycandan zorla qovulmuş soydaşlarımızla bağlı QHT-lərin iştirakı ilə digər bir böyük konfransınız da gerçəkləşib…

- Bəli. Siyasi partiyaların yerli təşkilatları ilə müzakirlərimiz başa çatdıqdan dərhal sonra əvvəlcədən razılaşdırdığımız qaydada qaldığımız «İmperator» hotelinin böyük konfrans zalında İqdırda və yaxın bölgələrdə fəaliyyət göstərən qeyri-hökumət və hüquq təşkilatları ilə birlikdə Qərbi Azərbaycanlıların hüquqlarının beynəlxalq müstəvidə qorunması ilə bağlı konfransımız başladı. Sizə səmimi şəkildə demək istəyirəm ki, bu konfransımız çox gərgin bir vəziyyətdə keçdi.

Konfransın açılışı çox yaxşı olsa da, bir gərginlik yarandı. Gərginlik nədə oldu? Ümumiyyətlə, konfrans çox açıq, səmimi bir şəkildə keçirilərkən, bəzi hallarda Turqut Ər kimi insanların Azərbaycan dövlətçiliyinin qarantı və banisi haqqında söylədiyi fikirlərə biz öz münasibətimizi bildirdik. Təbii ki, bu zaman QHT-lər arasındakı çoxluq bizi müdafiə etdi və Türkiyə-Azərbaycan dostluq və qardaşlığına xələl gətirən insanları lənətlədilər.

Ancaq içəridə bəziləri də oldu ki, Azərbaycanda nədən bayraqların enməsi problemini qaldırdılar. Yəni, təbii ki, öyrədilmiş bəzi bu kimi çıxışlar da oldu. Ancaq buna baxmayaraq ümumilikdə 36 QHT, jurnalist birlikləri, televiziya işçilərinin adından BDM-in təşkilatçılığı ilə keçirilən bu konfransda İqdır bəyannaməsi qəbul olundu. Bu bəyannamə tərəfimizdən bütün televiziya kanallarına çatdırılacaq. 5 bənddən ibarət müraciətdə Ermənistan törətdiyi əməllərə görə qınanılır.

Müraciətdə Ermənistan Respublikası ərazisində Azərbaycan türklərinin toplu yaşadıqları bölgələrdə İrəvan Muxtar Respublikasının yaradılmasını, Xocalı soyqırımının beynəlxalq arenada tanınmasını, müxtəlif illərdə dədə-baba torpaqlarını tərk edən soydaşlarımızın uğradığı maddi və mənəvi ziyanın Ermənistan Respublikası tərəfindən təzminat olaraq ödənilməsini, ermənilərin Türkiyəyə qarşı irəli sürdükləri qondarma soyqırım və torpaq iddialarına son qoyulmasını tələb etmişik. Tərəfimizdən irəli sürülən bu tələblərin hamısı konfrans iştirakçıları tərəfindən yekdilliklə qəbul olundu. Xatirə şəkilləri çəkdirildi və bu tələbin arxasında axıradək dayanmaq, axıradək getmək qərarına gəlindi. Və biz bu tələbimizi, başladığımız bu işi artıq Türkiyənin başqa şəhərlərinə, başqa bölgələrinə yayaq. Növbəti tədbirlərimizi Türkiyənin başqa bölgələrində keçirməklə Türkiyənin bütün vətəndaş cəmiyyətini bu məsələ ətrafında ayağa qaldıraraq, ümumiyyətlə dünya ictimaiyyətini məlumatlandırmaq olacaq.

- Dediklərinizdən belə qənaətə gəlmək olar ki, səfəriniz uğurlu keçib…

- Hesab edirəm ki, nümayəndə heyətinin səfəri çox səmərəli keçdi, uğurla yekunlaşdı. Düşünürəm ki, qəbul etdiyimiz müraciətin real nəticəsini əldə etmək üçün çox çalışmalıyıq. Biz qayıdarkən avtomobil karvanımız yenə də İran İslam Respublikasının ərazisindən keçirdi. Bu zaman İran tərəfindən Azərbaycan torpaqlarına qarşı aparılmış vandalizm, qəbuledilməz hərəkətləri gördük. Bizim ərazimizdə böyük bir su anbarı inşa olunub. Həmin su anbarı Zəngilan rayonunun bir neçə kəndinin bəzi hissəsini su altında qoyub. Su anbarı təxminən 15 kilometrə yaxın ərazini özündə birləşdirir. Azərbaycanın işğal olunmuş torpaqlarında su anbarının tikilməsi, ümumiyyətlə qəbuledilməzdir. Biz Xudafərin körpüsünü də gördük. Körpünün şəkillərini çəkdik. Körpü, demək olar ki, əvvəlki formadadır. Lakin körpüyə su anbarı tərəfindən təhlükə var. Suyu azacıq artırsalar, su körpünü tamamilə yuyub apara bilər. Bu da, ümumiyyətlə qəbuledilməz haldır.

Hal-hazırda bizim işğal olunmuş torpaqlarımızda erməni əsgərləri yerləşiblər. Biz bunu da gördük. Həmin torpaqlarımız 50-100 metr aralıdan da görünür. Biz bunu çox böyük ürəkağrısı ilə qarşıladıq. Mən bu mənzərədən sonra özümə gələ bilmirdim. Hətta elə bir vəziyyət yarandı ki, az qala, qəzaya uğramaq dərəcəsinə gəlib çatdım. Mən ilk dəfə idi ki, o kəndləri öz gözlərimlə görürdüm. Qanında Azərbaycan, türk qanı axan hər kim o torpaqları o vəziyyətdə görsə, dərhal əlinə silah götürüb onların üzərinə atılmağa məcbur olar. Bizim kəndlərimizi çox acınacaqlı duruma salıblar. Təəssüflər olsun ki, müsəlman qardaşlarımız, özlərini şiə adlandıran İran xalqı və dövləti də bu məsələdə ermənilərin yardımçısı olurlar. Onlar Ermənistanla öz aralarında bir neçə körpü də tikiblər. Həmin o körpülər vasitəsilə gözümüzün önündəcə nəqliyyat vasitələri sərbəst, rahat, açıq-aşkar hərəkət edirdilər.

Təəssüflər olsun ki, bunu Azərbaycan torpaqları vasitəsilə edirlər. İranla Ermənistan münasibətlərini Azərbaycan torpaqları vasitəsilə qururlar. Mən güman edirəm ki, aidiyyəti təşkilatlar bu məsələni diqqətdə saxlayacaqlar. Mən də səlahiyyətimdən istifadə edərək bütün diaspor təşkilatlarını, o cümlədən özlərini Dünya Azərbaycanlıları Konqresi kimi təqdim edən insanlara, Dünya Azərbaycanlıları Konqresinin fəal üzvlərinə bu məsələni gündəmdə saxlamağı, bu məsələ ilə bağlı öz nümayəndələrini həmin bölgələrə ezam etməyi xahiş edirəm.

Fürsətdən istifadə edərək xüsusi vurğulamaq istərdim ki, BDM-in Rusiya nümayəndəsi Ələmdar Nəbiyev Rusiyadan nümayəndə heyətinin tərkibinə qatılmışdı. Bilirsiniz ki, BDM-in Avropanın bir neçə ölkəsində nümayəndəlikləri var. O cümlədən Rusiyada da nümayəndəliyimiz fəaliyyət göstərir. Ələmdar Nəbiyev özünün şəxsi avtomobili ilə bizimlə bərabər getmişdi. Mən ona böyük təşəkkürümü bildirirəm. BDM-in departament rəhbərləri bu səfərdə iştirak edirdilər. Səfərdə BDM sədrinin müşaviri Cümşüd Nuriyev, departament rəhbəri Əziz Ələkbərli və bir çox başqa üzvlərimiz iştirak edirdilər. Xüsusilə, Azərbaycandan nümayəndə heyətinin tərkibində olan insanlara öz təşəkkürümü bildirmək istəyirəm ki, onlar yorulmadan bu günlər ərzində avtomobil sürdülər, orada təşkilatçılıq işlərində iştirak etdilər, zəhmət çəkdilər. Hesab edirəm ki, Dağlıq Qarabağ, digər rayonlarımız işğaldan azad olmadıqca, İrəvandan qovulmuş azərbaycanlılar öz dədə-baba yurdlarına qayıtmadıqca, biz bütün imkanlarımızı səfərbər etməliyik. Ən azı 3, 5, 10 nəfəri əsl həqiqətlərə inandırmalıyıq. Biz bu mübarizəmizi davam etdirməliyik.

Bu bir haqq mübarizəsidir. Bu gün ölkə prezidenti cənab İlham Əliyev tərəfindən artıq ortaya konkret bir mövqe qoyulub. Biz İrəvana qayıtmalıyıq. «Biz mütləq o torpaqlara qayıdacağıq» devizini artıq cənab prezidentimiz bizim üçün müəyyənləşdirib. Biz də diaspor təşkilatı olaraq əlimizdən gələn işləri görməyə çalışırıq ki, ölkədən kənarda yaşayan soydaşlarımız ürəkli olsunlar, onlar bu işlərdə yetkin bir mübarizə yolu tutsunlar.

“Mərkəz”. -2010.-17 dekabr.-N.231.-S.5, 18 dekabr.-N.232.-S.5.,21 dekabr.-N.233.-S.3

Sloveniyanın Nova-Qoritsa şəhərində yeni yaradılmış Sloveniya-Azərbaycan Dostluq Cəmiyyətinin ilk iclası keçirilmişdir

AzərTAc bildirir ki, dekabrın 17-də Sloveniyanın Nova-Qoritsa şəhərində yeni yaradılmış Sloveniya-Azərbaycan Dostluq Cəmiyyətinin ilk iclası keçirilmişdir. Nova Qoritsada yerləşən qədim Kromberk qəsrində təşkil edilən iclasın açılışında şəhər merinin müavini Mitya Trtnik və Azərbaycanın Sloveniyadakı müvəqqəti işlər vəkili Emil Həsənov giriş sözü ilə çıxış etmişlər.

Daha sonra tədbir iştirakçıları cəmiyyətin sədrinin, sədr müavinlərinin və müşahidə şurası üzvlərinin seçilməsi məsələsinə baxmışlar. Veteranlar Cəmiyyətinin üzvü İvan Başın cəmiyyətin sədri seçilmişdir. İclasda həmçinin, iki ölkə arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi, qarşılıqlı əlaqələrin qurulması və inkişaf etdirilməsini məqsədi ilə yaradılmış Dostluq Cəmiyyətinin fəaliyyət proqramı qəbul edilmişdir. Proqram iqtisadiyyat, təhsil, elm, mədəniyyət, turizm, idman və digər sahələri əhatə edəcəkdir. Proqrama əsasən, həm Sloveniyada, həm də Azərbaycanda birgə layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

Hazırda Dostluq Cəmiyyətinin Sloveniyanın müxtəlif dövlət və ictimai təşkilatlarının nümayəndələrindən, iş adamlarından, alimlərdən, jurnalistlərdən, İkinci Dünya müharibəsi veteranlarından "Mixaylo" təxəllüslü Sofet İttiqafı qəhrəmanı Mehdi Hüseynzadənin silahdaşlarından ibarət 80-ə yaxın sloveniyalı üzvü vardır.

İclasdan sonra tədbir iştirakçıları incəsənət professoru xanım Vesna Çrnivets tərəfindən hazırlanmış və Azərbaycanın qədim yaşayış məskəni olan İsmayıllı rayonunun Lahıc qəsəbəsinə həsr edilmiş fotosərgi ilə tanış olmuşlar.

17 dekabr 2010

2011 - ci ildə Dünya Azərbaycanlılarının III qurultayı keçiriləcək

Nazim İbrahimov: "Biz növbəti qurultaya çox ciddi hazırlaşırıq. İnanıram ki, bu tədbir yüksək səviyyədə keçiriləcək" Dünən Yeni Azərbaycan Partiyasının mərkəzi qərargahında keçirilən növbəti ənənəvi mətbuat konfransında Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov ötən dövr ərzində komitənin gördüyü işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat verdi.

Komitə sədri 2010-cu il ərzində xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində bir sıra mühüm tədbirlərin həyata keçirildiyini söylədi: "2010-cu il aprelin 4-də Türkiyə Respublikasının Ankara şəhərində Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının Qurultayı keçirilmişdir.Qurultayda təşkilatın ötən dövrdəki fəaliyyəti ilə bağlı hesabatlar dinlənilmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. 2010-cu il iyunun 5-də isə Stokholmda 15 Azərbaycan diaspor təşkilatının iştirakı ilə İsveç Azərbaycanlıları Konqresinin təsis qurultayı keçirilmişdir.

Bu qurumu yaratmaqda məqsəd Azərbaycan həqiqətlərini, tarixini, mədəniyyətini yerli ictimaiyyətə çatdırmaq, Azərbaycan icmaları, cəmiyyətləri arasında əlaqələri inkişaf etdirmək, onların imkanlarını və güclərini səfərbər etmək, bu qurumların fəaliyyətini koordinasiya etmək, mövcud problemleri birlikdə çözməkdir".

N. İbrahimov il ərzində 20 Yanvar faciəsinin 20-ci ildönümü, Xocalı soyqırımının 18-ci ildönümü, 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar İsveç, İsveçrə, Finlandiya, Norveç, Niderland Krallığı, Böyük Britaniya, Belçika, Latviya, Litva, Estoniya, Rusiya Federasiyası, Ukrayna, Belarus, Bolqarıstan, Türkiyə, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Gürcüstan, ABŞ, Kanada, Yaponiya, Yeni Zelandiya, Avstraliya, Birləşmiş Ərəb Əmirlikləri, Misir, Cənubi Koreya, Almaniya, Fransa, Çexiya, Macarıstan, Rumıniya və digər ölkələrdə müxtəlif formatlı tədbirlərin təşkil edildiyini bildirdi.

Ölkəmizin taleyüklü problemlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində mühüm işlər görən Heydər Əliyev Fondu Xocalı soyqırımının 18-ci ildönümü ilə əlaqədar xarici ölkələrdəki Azərbaycan icma və birliklərini müvafiq məlumatlar və sənədlərlə təmin etmişdir.Komitə sədri İslam Konfransı Təşkilatının üzvü olan Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ilin may ayında elan edilmiş "Xocalıya Ədalət" (Justice for Khodjaly) beynəlxalq məlumat və təşviqat kampaniyası çərçivəsində 2010-cu il ərzində dünyanın bir çox ölkələrində etiraz aksiyaları keçirildiyini söylədi.

Qeyd etdi ki, həmçinin, keçirilən kampaniya ərəfəsi elmi - praktik konfranslar və digər tədbirlər də həyata keçirilibdir. Bu kampaniyada Azərbaycan diaspor təşkilatları da fəal şəkildə iştirak ediblər: "Bundan başqa, 2010-cu il fevralın 2-də Çexiyanın Lidise icra hakimiyyəti Lidise qəsəbəsində yeni salınan küçələrin birinə Xocalı adı vermək qərarı qəbul etmişdir. Mart ayının 1-də isə Xocalı şəhər icra hakimiyyəti ilə "Lidise Xatirə Kompleksi" arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandum imzalanmışdır. Fevralın 19-da AAKM tərəfindən internet vasitəsilə Bundestaqa və Almaniya siyasi partiyalarının fraksiyalarına, ictimai qurumlarına, mətbuat və informasiya vasitələrinə, qeyri - dövlət qurumlarına, diaspor təşkilatlarına, mədəniyyət və elm nümayəndələrinə Xocalı faciəsinin həqiqətlərini əks etdirən müraciət məktubu yayımlanmışdır. Aprelin 13-də Almaniyanın ARD telekanalında "Aghet" adlı film yayımlanmışdır.

Qeyd edək ki, qondarma "erməni soyqırımı"na həsr olunan bu filmdə ermənilərin bütün dünyaya söylədikləri yalan və uydurmaların gerçək olduğu göstərilməyə cəhd olunur. Bu hadisə ilə əlaqədar Almaniyanın bir sıra şəhərlərində Azərbaycan və türk icmaları tərəfindən etiraz aksiyaları keçirilmişdir". Komitə sədri 2010-cu ildə İsveç parlamentində qondarma erməni soyqırımının tanınmasına dair qətnamənin qəbulu ilə əlaqədar bu ölkədə yaşayan Azərbaycan və türk icmalarının nümayəndələrini Stokholm şəhərinin mərkəzi meydanında etiraz aksiyası keçirdiyini bildirdi: "Tədbirdə ermənilərin törətdikləri cinayətlər, Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması, o cümlədən, Xocalı soyqırımının tanınması ilə bağlı şüarlar səsləndirilmişdir".

N. İbrahimov Diasporla İş üzrə Dövlət Komitəsinin xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları ilə türk və yəhudi diasporu arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm tədbirlər hazırladığını söylədi. Komitə sədrinin sözlərinə görə, 2010-cu ilin yanvarında Bakıda I Azərbaycan-Rusiya Humanitar Əməkdaşlıq Forumu keçirilmişdir. Forumun Qeyri - Hökumət Təşkilatları seksiyasının iclası Diasporla İş üzrə Dövlət Komitəsində təşkil olunmuşdur. Toplantıda iki ölkə arasındakı münasibətlərin müasir durumu, Rusiyadakı Azərbaycan diasporunun uğurları və problemləri ilə bağlı geniş müzakirələr aparılmışdır.

Fevralın 27-də İstanbulda Türkiyə hökumətinin Xaricdə Yaşayan Türklərlə İş üzrə Baş İdarəsinin yaradılması ilə əlaqədar toplantı keçirilmişdir. 2010-cu ildə İsrailə səfəri çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov İsrailin bir sıra rəsmi şəxsləri ilə də görüşmüşdür.

2010-cu ildə İstanbulda Türk-Asiya Strateji Araşdırmalar Mərkəzinin təşkilatçılığı, Türkiyə Cümhuriyyətinin baş bakanlığı və Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə "Türk Şurası, türk diasporu və sosial - iqtisadi əməkdaşlıq" mövzusunda Dünya Türk Forumu keçirilmişdir. 60 ölkədən türk dünyası və diaspor nümayəndələrinin iştirak etdiyi tədbirə Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndə heyəti, Azərbaycan millət vəkilləri, alimləri və bir neçə ictimai təşkilatın rəhbəri, həmçinin, fəal diaspor təşkilatlarımızın rəhbərləri qatılmışlar.

Forumda qəbul olunmuş yekun Qətnaməyə görə, Azərbaycan, türk, ingilis, özbək, qırğız, türkmən dil və ləhcələrində ortaq internet portalı yaradılması nəzərdə tutulmuşdur. N. İbrahimov onu da bildirdi ki, xaricdə yaşayan azərbaycanlı gənclərin milli - mənəvi dəyərlərimizə sədaqətinin qorunub saxlanılması, onların ölkəmizin maraqlarının qorunmasında fəal iştirakının təmin edilməsi dövlət gənclər siyasətinin prioritet istiqamətlərindəndir. Diaspor quruculuğunda və Azərbaycan lobbisinin yaradılmasında gənclərin fəal iştirakı daha ciddi nailiyyətlər qazanmağa imkan yaradır. Bu mühüm amili nəzərə almaq və onun real həyatda öz təsdiqini tapmasına stimul yaratmaq məqsədilə ötən dövrdə bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilmişdir: "Rusiya Azərbaycan Gəncləri Təşkilatı artıq 3 ildir ki, "Qanın milləti yoxdur" şüarı altında geniş xeyriyyə aksiyası keçirir.

Aksiyanın təşəbbüskarı RAGT - nin başçısı, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyevadır. Xeyriyyə aksiyasından məqsəd onkoloji xəstəliklərdən əziyyət çəkən uşaqlara yardım göstərməkdir. Rusiya qanunlarına əsasən xeyriyyəçilik məqsədilə verilən qan üçün də pul ödənildiyi üçün əldə olunan vəsait N. Bloxin adına Rusiya Elmi Uşaq Onkologiyası və Gematologiyası Mərkəzinin hesabına köçürülür və xəstə uşaqların müalicəsinə sərf olunur.

Qeyd edək ki, RAGT Moskvada mütəşəkkil qanvermə aksiyası keçirən ilk təşkilatdır. Bu aksiya müntəzəm olaraq hər ay keçiriləcək. Moskvada təhsil alan azərbaycanlı tələbələr, İ.M.Seçenov adına Moskva Tibb Akademiyasının həkimləri, habelə, Azərbaycan gənclərinin nümayəndələri könüllü qan vermişlər". Komitə sədri onu da bildirdi ki, 2010-cu il may ayının 22-də Moskvadakı Beynəlxalq Ticarət Mərkəzində Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının II Konfransı keçirilmişdir: "Konfrans təşkilatın birillik fəaliyyətinə yekun vurmuş, onun inkişaf perspektivlərini müəyyən etmişdir.

Təşkilatın sədri Leyla xanım Əliyeva tədbiri giriş sözü ilə açaraq, demişdir ki, real işlər, gerçəkləşdirilmiş ideyalar, əldə edilmiş məqsədlər bunu inamla söyləməyə əsas verir ki, RAGT uğurlu qurumdur. O, qeyd etmişdir ki, təşkilatın bölmələrinin sayı artıq 60-dan çoxdur və regional bölmələr fəallıq baxımından mərkəzdən geri qalmır. Konfransın yekun hissəsində RAGT sədri Leyla Əliyevanın hesabatı əsasında hazırlanmış Qətnamə seksiyalarda müzakirə olunmuş və yekdilliklə qəbul edilmişdir.

Həmçinin, 2010-cu il oktyabrın 16-da Moskvadakı "Bakı" kinoteatrında Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri Leyla Əliyevanın və Ümumrusiya Azərbaycanlıları Konqresinin rəhbərlərinin Rusiya ali məktəblərində təhsil alan azərbaycanlı tələbələrlə görüşü keçirilmişdir. Görüşdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı, habelə, ÜAK xətti ilə Moskvanın və Rusiya regionlarının ali məktəblərinə daxil olmuş azərbaycanlı tələbələr iştirak etmişlər. 2010-cu ildə RAGT-nin regional bölməsi tərəfindən Udmurtiyanın İjevsk şəhərindəki 66 nömrəli ümumtəhsil məktəbi bazasında Azərbaycan həftəsonu məktəbi açılmışdır.

Bu məktəbdə Azərbaycan dili və Azərbaycan tarixi fənləri tədris edilir". N. İbrahimov, həmçinin, mətbuat konfransında onu da söylədi ki, 2011-ci ildə Dünya Azərbaycanlılarının III Qurultayı keçiriləcək. Onun sözlərinə görə, sonuncu dəfə Dünya Azərbaycanlılarının Qurultayı 2006-cı ildə keçirilib. Qurultayın hər beş ildən bir keçirildiyi qeyd edən N. İbrahimov bu tədbirin növbəti dəfə gələn ilin mart ayında baş tutacağını bildirib: "Bu gün dünyanın hər yerində yaşayan azərbaycanlılar aktiv ictimai fəaliyyətlə məşğuldurlar.

Biz növbəti qurultaya çox ciddi hazırlaşırıq. İnanıram ki, bu tədbir yüksək səviyyədə keçiriləcək". N. İbrahimov DAK-ın ayrı-ayrılıqda müxtəlif ölkələrdə qurultaylar keçirməsinə də münasibət bildirdi: "Biz də birliyin tərəfdarıyıq. Lakin hər birimiz yaxşı bilirik ki, bu birlik baş tutmur. Ona görə ki, kimlərinsə münaqişəsi bu birliyi pozur. Bir olub heç bir iş görməməkdənsə, iki olub iş görmək daha yaxşıdır. Bu, bizim işimizə yarayır". Sonda komitə sədri media nümayəndələrini maraqlandıran sualları cavablandırdı.

2010 - 18 dekabr

“DAK-ın bizdən ayrılan qanadını ilə birləşdirmək üçün komissiya yaradılıb”

Paşa Qəlbinur: “İlk işimiz araşdırma aparıb, problemləri müəyyənləşdirmək olacaq”

Dekabrın 11-12-də London şəhərində Dünya Azərbaycanlıları Konqresinin(DAK) 11-ci qurultayı keçirilib. Qurultayda müzakirə olunan məsələlər, qəbul edilən qərarlar barədə “525”ə müsahibəsində DAK-ın həmsədri, tanınmış oftalmoloq, ictimai xadim Paşa Qəlbinur məlumat verib.

– Paşa müəllim, DAK-ın növbəti qurultayı artıq başa çatıb. Siz qurultayın yekunlarını necə qiymətləndirirsiniz?

– Qurultayda əvvəlki illərdə olduğu kimi bir sıra vacib məsələlər, Dağlıq Qarabağ münaqişəsi, İranda öz tarixi torpaqlarında yaşayan soydaşlarımızın qarşılaşdıqları problemlər, diasporanın təşkili və digər məsələlər gündəmdə oldu. Eyni zamanda seçkili orqanlar səsvermə yolu ilə yenidən formalaşdı. Bilirsiniz ki, dünyanın hansı nöqtəsində, Cənubi Azərbaycanda, ABŞ-da, Avropada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının qayğı və problemləri həm də bizim qayğı və problemimizdir. Dünyanın fərqi yoxdur hansı nöqtəsində bir azərbaycanlı varsa, onun qədəm qoyduğu yer həm də bizim vətənimizdir. Bu məsələlər qurultayda bir daha vurğulandı. Bundan başqa, 19 nəfərdən ibarət İdarə Heyəti, 3 nəfərdən ibarət isə Nəzarət-Təftiş Komissiyası seçildi. İdarə Heyətinin tərkibinə Azərbaycandan 3 nəfər mən, professor Vaqif Sultanlı və qiraət ustası Ağalar Bayramov seçildi. DAK-ın Azərbaycan nümayəndəliyinin rəhbəri Nadir Orucov, həmsədrləri mən və Çikaqodan Gün Az TV-nin yaradıcısı Əhməd Obalı seçildi. DAK-ın iki həmsədr institutu saxlanıldı.

Bilirsiniz ki, həmsədrlərin biri güney, digəri isə quzeydən olur. Bundan əlavə, DAK-ın birinci qurultaydan indiyə kimi 4 fəxri sədri olub. Bunlardan biri mərhum Məhəmməd Kəngərli artıq həyatda yoxdur. Qurultay iştirakçıları onun xatirəsini ehtiramla yad etdilər. Bu gün həyatda olan 3 fəxri sədrin- Qulamrza Səbri Təbrizinin, Məmməd Əmin Rəsulzadənin nəvəsi Rəis Rəsulzadənin və doktor Xeştinin fəaliyyətini qurultay iştirakçıları yüksək qiymətləndirdilər. Əmir Pəhlivan DAK-ın Strateji Araşdırmalar üzrə rəhbəri, Ağalar Bayramov isə yenidən mədəniyyət bölümünün sədri seçildi. Qurultayda İsveç, İngiltərə, ABŞ, Norveç, Almaniyadan, ümumilikdə 20 ölkədən 200-dən artıq nümayəndə iştirak edirdi. Biz həmçinin sonda beynəlxalq qurumlara, insan haqları təşkilatlarına, o cümlədən BMT-yə, Avropa Şurası Parlament Assambleyasına müraciətlər qəbul etdik. Müraciətlərdə İran adlanan ölkədə 40 milyona yaxın soydaşımızın yaşadığı, ancaq onlara heç bir hüquq verilmədiyini, ana dilində məktəblərinin, universitetlərinin olmadığını qeyd etmişik. Dünya ictimaiyyətinə İran adlanan ölkədə çoxluq təşkil edən soydaşlarımızın adi elementar insan hüquqlarının tapdandığı və bu hüquqların qorunması, bərpası barədə müraciətlər oldu.

Yeri gəlmişkən, Londonda Bi-Bi-Si radiosunun önündə İrada yaşayan azərbaycanlıların hüquqlarının pozulması ilə bağlı icazəli etiraz aksiyaları oldu. İranda yaşayan ərəblər də aksiyaya qoşulmuşdular və onlar da öz hüquqlarını tələb edirdilər. Aksiya bir saat davam etdi və sonra biz etiraz aksiyasının qətnaməsini BBS-yə təqdim etdik.

– Bəs, bu qurultayda hər hansı yeni təklif və ideyalar səsləndimi?

– Mən bir sıra təkliflər irəli sürdüm və onlar razılıqla qarşılandı. Təkliflərdən biri bu oldu ki, biz nəinki dünyada olan türkdilli diaspor təşkilatları ilə eyni zamanda başqa xalqlardan olan, amma müəyyən maraqları bizim maraqlarımızla üst-üstə düşən məsələn, yəhudi diasporası –onların təcrübəsi daha çoxdur- və digərləri ilə iş birliyi, əlaqələr qura bilərik. Onlarla bizim xeyli məqsəd və məramımız bir növ üst-üstə düşür və təcrübələrindən yararlana bilərik. Digər təklifim isə DAK-ın bizdən ayrılan qanadı ilə –orda sədr Sabir Rüstəmxanlı ilə Pərviz Niyazovdur- gələcəkdə birləşmək üçün bir komissiyanın yaradılmasından ibarət idi. Bunun üçün beş nəfər İdarə Heyəti üzvlərindən ibarət komissiya yaradıldı və o komissiyanın da rəhbəri mənəm. Biz danışıqlar aparıb, müəyyən ortaq nöqtələr tapmağa çalışacağıq ki, gələcəkdə birləşməyə nail ola bilək. Düşünürəm ki, bu, yalnız işin xeyrinə ola bilər. Hərçənd ayrı-ayrılıqda fəaliyyət göstərsək də məqsədimiz, hədəfimiz eynidir, eyni nöqtəyə vururuq, amma birləşmə daha yaxşı olar.

– Qarşı tərəfi sizə münasibətdə daha sərt yanaşdığı hiss olunur. Bu özünü digər DAK rəhbərlərinin mətbuata açıqlamalarında da göstərir. Deyirlər ki, DAK-ın möhürü və sənədləri onlardadır. Bu nə dərəcədə doğrudur?

– DAK 1997-ci ildə Los-Ancelesdə təsis olunub, ordakı sıxma möhür və o sənədlər bizdədir. Yəni birinci qurultayda təsis olunan və ABŞ-da qeydiyyatdan keçən DAK-ın sənədləri də, möhürü də bizdədir. Biz təkamüllə gələn və ABŞ-da yaradılan təşkilatın varisləriyik. Bununla belə mən onlara qarşı heç bir ittiham irəli sürmürəm və bütün üzvləri ilə normal münasibətlərim var. Çoxu ilə dostluq münasibətlərim bu gün də davam edir. Ümumiyyətlə, mənim insan problemim yoxdur. Mən həkiməm və insana Allahın möcüzəsi kimi baxıram. Dinindən, irqindən, doğmalığından, harda yaşamasından asılı olmayaraq, bütün insanlara eyni münasibət bəsləyirəm. Mənim insan problemim olmadığı kimi hər hansı bir təşkilatla da problemim yoxdur.

– Bayaq qeyd etdiyiniz komissiya fəaliyyətə başlayıbmı?

– Qurultay yeni başa çatıb, bir-iki günə komissiya fəaliyyətə başlayacaq. Biz münasibətləri tənzimləmək məqsədilə bu komissiyanı yaratmışıq. İlk işimiz araşdırmalar aparmaq olacaq. Müəyyən etməyə çalışacağıq ki, arada anlaşılmayan hansı məqamlar, problemlər var. Biz bunun üçün qarşı tərəflə də görüşməyi nəzərdə tutmuşuq. Bir çay süfrəsi arxasında, dəyirmi masa ətrafında söhbət edəcəyik. Çünki aramızda bölünməyən malımız yoxdur axı. Bayaq dediyim kimi hədəfimiz eynidir. Başlıca hədəfimiz də güneydə yaşayan soydaşlarımızın hüquqları, Qarabağ düyünümüzdür. Nizamnaməyə, sənədlərə baxsanız ikisi də eynidir. Ona görə də biz bir araya gəlib danışmalı, nə problem varsa, onu üzə çıxarmalıyıq.

– Qurultayın nəticələrindən razı qaldınızmı?

– Əlbəttə, çox razı qaldım. Qurultay qarşılıqlı anlaşma şəraitində keçdi. Heç bir uyğunsuzluq olmadan, gizli səsvermə yolu ilə rəhbərlik seçildi. Mən həmsədr kimi hesabat məruzəsi ilə çıxış etdim və iki ildə gördüyümüz işlərin xülasəsini çox qısa çatdırmağa çalışdım. Çünki DAK-ın fəaliyyəti təkcə Cənubi Azərbaycanla məhdudlaşmır. Güney məsələsi bizim fəaliyyət istiqamətlərimizdən biridir.

Biz Gürcüstan, Qazaxıstan, Rusiya, xüsusilə Dağıstan, Sankt-Peterburq və digər yerlərdə yaşayan soydaşlarımızın daim problemləri ilə maraqlanıb, onları həll etməyə çalışırıq.

Ötən müddət ərzində bizim Avropa Parlamentində üç görüşümüz olub. İki dəfə İsveçrə parlamentində, İspaniyadakı görüş keçirmişik. Görüşlər çox maraqlı olub. Hər görüşdə də güneydəki soydaşlarımızın problemlərinə, Qarabağ münaqişəsinə diqqəti yönəltmişik. Bəzən bizə elə gəlir ki, problemlərimizdən dünya xəbərdardır. Amma təmaslar, görüşlər zamanı aydın olur ki, heç də hamı hər şeyi bilmir. Ona görə biz hər birimiz çalışmalıyıq ki, harda olmağımıza baxmayaraq Azərbaycan həqiqətlərini təbliğ edək. Bunun üçün isə vacib olanı sənədlər, faktlardır. Biz bir müddət əvvəl Sankt-Peterburda Şederen adına kitabxanada çox nadir xəritələr tapdıq. Orda əsasən ermənilərin Qarabağa köçürülmələri əks olunurdu. Rus tarixçiləri yazırlar ki, ermənilər Qarabağa köçürüləndə Qarabağ ağsaqqalları deyiblər ki, bunlar başımıza iş açacaqlar. Biz bütün bu sənədləri əldə etdik. Almaniyanın ən böyük Mərkəzi Kitabxanasının rəhbərini Bakıya dəvət etdik və o sənədlər açıqlandı. Bir sözlə, fəaliyyət çox şaxəlidir. Güneydən olan tələbələrin məişət və tədris qayğıları da bizim çiynimizdədir. Bu gün Gürcüstanda yaşayan soydaşlarımızın xeyli problemləri var.

Bunlara misal kimi sərhəd, dərslik, məktəblərlə bağlı problemləri göstərmək olar. Vaxtilə Qazaxıstana sürgün edilmiş çoxlu sayda soydaşlarımız var ki, onlar da bu kimi problemlərlə qarşılaşırlar. Biz adıçəkilən respublikalara, həmçinin Rusiyanın Dərbənd vilayətində yaşayan soydaşlarımızın hər birinə 6 mindən çox dərslik, kompüterlər aparmışıq. Görüşlər zamanı onların problemləri, qayğıları ilə maraqlanmışıq. Hər an bacardığımız qədər bu problemlərin həllinə yardımçı olmağa çalışırıq. Qurultayın Nəzarət Təftiş Komissiyası hesabatımı təqdir etdi və təsdiqlədi. İşim məqbul qəbul olunduğundan yenidən DAK-ın həmsədri seçildim.

Onu da qeyd edim ki, qurultayda xarici KİV-lər də iştirak edirdi. İngiltərədə oxuyan, həmçinin təhsilini başa vuran gənc azərbaycanlı tələbələr, mütəxəssis və alimlər qurultaya qatılmışdılar. Sonda isə Araz Elsəs möhtəşəm konsert proqramı ilə çıxış etdi.

– Paşa müəllim, yeri gəlmişkən, DAK-ın digər qanadı mətbuata Təbrizi tərəfindən sizin həmsədrlikdən uzaqlaşdırıldığınızı bildirib...

– Xeyr, bu düzgün deyil. 11-ci qurultayda yenidən DAK-a həmsədr seçildim. Qulamrza bəy heç DAK-ın İdarə Heyətinin də üzvü deyil. O, məni necə həmsədrlikdən uzaqlaşdıra bilər? Digər tərəfdən rəhbərlik səsvermə yolu ilə seçilib. Mənim də işim təqdir olunduğundan yenidən qurultay etimad göstərdi.

– Sizin rəhbərliyə, İdarə Heyətinə və digər qurumlara seçilən şəxslərlə bağlı fikirləriniz necədir?

– Mən o insanların hamısını dəstəkləyirəm. Həmin insanlar mənim və onları tanıyan başqa yaxın adamların təqdimatı ilə müzakirə, ümumi səsvermə ilə seçilib. Bizdə təsadüfi insan yoxdur. Gördüyünüz kimi DAK-da təmsil olunanlar hamısı ziyalılar, ictimai xadimlərdir. Onların içində professorlar, elmlər doktorları var. Qurultayımız çox möhtəşəm, yaxşı əhval-ruhiyyədə keçdi. Bir maraqlı məqamı da deyim ki, qurultay Londonun mərkəzində, Viktoriya-Albert muzeyinin yanında keçirilirdi.

Dünyanın ən böyük xalçası olan "Şeyx Səfi" xalçası orda saxlanılır. Həmin xalçaya əvvəl İran xalçası olduğu yazılmışdı. Amma bizim də çoxlu müraciətlərimiz oldu və bu dəfə gördük ki, Azərbaycan xalçası yazılıb. İnsan bundan çox böyük qürur duyur. Dünyanın hər yerindən bura çoxsaylı turistlər gəlir və Leonardo do Vinçinin "Cokonda"sı kimi gülləkeçirməyən şüşənin içində "Şeyx Səfi" nümayiş olunur. Düzdür, Azərbaycan kiçik ölkədir. Amma bizim tariximiz, mədəniyyətimiz həm çox qədim, həm də zəngindir. Bu qədimlik və zənginlik həmişə dünyanı heyran qoyub. Dünyanın hansı nöqtəsində də Azərbaycanın adı çəkilirsə, bu ad bizə böyük qürur verir.

P. Sultanova

"525-ci qəzet".-2010.-18 dekabr.-N.232.-S.14.

Ümumrusiya Azərbaycanlıları Konqresinin Mərkəzi Şurasının ilin yekunlarına həsr olunmuş illik iclası keçirilmişdir

Moskvanın "Bakı" kinokonsert kompleksində Ümumrusiya Azərbaycanlıları Konqresinin Mərkəzi Şurasının ilin yekunlarına həsr olunmuş illik iclası keçirilmişdir. ÜAK-ın prezidenti, akademik Məmməd Əliyev Azərbaycan diasporunun nümayəndələrini salamlayaraq təşkilatın fəaliyyətinin əsas yekunları və növbəti il üçün qarşıda duran vəzifələrdən danışmışdır. ÜAK-ın icraçı direktoru Eldar Quliyev görülmüş işlər barədə hesabat məruzəsi ilə çıxış etmişdir. Məruzədə deyilir ki, fəaliyyət göstərdiyi doqquz il ərzində ÜAK real qüvvəyə malik ən böyük və nüfuzlu ictimai təşkilata çevrilmişdir. O, ölkənin ictimai həyatında fəal iştirak edir, dövlət qurumları və ictimai təşkilatlarla yaxşı əlaqələr qurmuş, həmvətənlərimizin milli özgürlüyünü, dilini, mədəniyyətini və ənənələrini qoruyub saxlamasına kömək edir. O, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ÜAK-ın yaradılmasında və Rusiyada yaşayan soydaşlarımız üçün ümumi evə çevrilməsində rolunu xüsusi vurğulamışdır. ÜAK-ın icraçı direktorunun müavini İlqar Hacıyev təşkilatın regional bölmələrinin fəaliyyəti və təhsil sahəsində görülən işlər barədə məruzə etmişdir. O, Rusiya Federasiyasının, demək olar ki, bütün subyektlərini əhatə edən regional təşkilatların uğurlarından söz açmışdır. Bildirilmişdir ki, ölkənin bütün regionlarında diasporumuz ictimai həyatda fəal iştirak edir.

İ.Hacıyev ÜAK-ın təhsil sahəsində fəaliyyətindən danışaraq bildirmişdir ki, Azərbaycan vətəndaşlarının Rusiya ali məktəblərində təhsil alması proqramı uğurla həyata keçirilir. Hazırda Rusiyada ÜAK-ın xətti ilə 194 tələbə təhsil alır və onların sayı ilbəil artır. ÜAK-ın nümayəndələri təşkilatın mətbu orqanı olan "Azərbaycan konqresi" qəzetinin fəaliyyətindən danışmış və nəşri daha kütləvi etməyin, abunəçilərin sayının artırılmasının zəruriliyindən danışmışlar. İclasda millətlərarası münasibətlərlə bağlı vəziyyətlə əlaqədar Rusiya rəhbərliyinə müraciətin layihəsi oxunmuşdur. Müraciətdə son vaxtlar Rusiyada müşahidə olunan etnik qarşıdurmadan narahatlıq ifadə olunur. Sonra Konqresin regional bölmələrinin başçıları İslam Hüseynov (Ulyanovsk vilayəti), Ədalət Hüseynov (Həştərxan vilayəti), Seyran Rəhimov (Dağıstan), Əlirza Salayev (İrkutsk vilayəti) çıxış etmişlər. Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı adından MDBMİ-nin aspirantı Natiq Əliyev çıxış etmişdir.

Çıxışlarda diaspor təşkilatlarının uğurlarından və qarşıda duran problemlərdən, Rusiyanın Azərbaycan icmasının inkişafı yollarından danışılmışdır. Görüş iştirakçılarının təklif və tövsiyələri dinlənilmişdir. ÜAK-ın vitse-prezidenti Tofiq Məlikli Hamilik şurasının, habelə diaspor üçün əhəmiyyətli məsələlərdə vahid mövqeyin formalaşdırılması üçün Əlaqələndirmə komitəsinin yaradılmasını təklif etmişdir. Hamilik Şurasına təşkilata maliyyə yardımı edə biləcək məşhur azərbaycanlılar daxil ediləcəkdir. Çıxışlardan sonra Məmməd Əliyev görüşə yekun vurmuş, təşkilatın fəaliyyətini bütövlükdə müsbət qiymətləndirmişdir. O demişdir ki, qarşıdakı dövr ÜAK-ın təxminən 2011-ci ilin yazında keçiriləcək üçüncü qurultayına hazırlığa həsr ediləcəkdir.

O xatırlatmışdır ki, təşkilatın birinci qurultayında ümummilli lider Heydər Əliyev, ikinci qurultayda isə prezidentlər İlham Əliyev və Dmitri Medvedev iştirak etmişlər. Bu səbəbdən üçüncü qurultayın hansı miqyasda keçiriləcəyini müəyyən etmək lazımdır. İclasın rəsmi hissəsi Konqresin fəal üzvlərinə xatirə mükafatlarının təqdim edilməsi ilə başa çatmışdır. Məmməd Əliyev ÜAK adından təşkilatın vitse-prezidenti Araz Ağalarova 55 illik yubileyi ilə əlaqədar Ümumrusiya Azərbaycanlıları Konqresinin yubiley medalını təqdim etmişdir. Sonra Məmməd Əliyev ÜAK-ın regional bölmələrinin fərqlənən rəhbərlərinə xatirə medalları təqdim etmişdir. Ulyanovsk regional bölməsinin sədri İslam Hüseynov, Həştərxan vilayəti bölməsinin sədri Ədalət Hüseynov "Diaspor qarşısında xüsusi xidmətlərinə görə" medalına layiq görülmüşlər. Sərdar Abdullayev (Tver vilayəti), Sərraf Məmmədov (İvanovo vilayəti), Mərdan Novruzov (Vladivostok), Əlirza Salayev (İrkutsk vilayəti) və Azərbaycan diasporunun digər fəallarına da medallar təqdim olunmuşdur. İclasda Azərbaycanın Rusiyadakı səfirliyinin nümayəndələri, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları, Azərbaycan gənclərinin nümayəndələri iştirak etmişlər.

20 dekabr 2010

Ümumrusiya Azərbaycan Konqresi 2010-cu ildəki fəaliyyətinə yekun vurur

Ümumrusiya Azərbaycan Konqresinin icraçı direktoru, fövqəladə və səlahiyyətli səfir Eldar Quliyev AzərTAc-ın müxbirinə Rusiyanın çoxsaylı Azərbaycan diasporunun başa çatmaqda olan ildəki fəaliyyətinin yekunlarından danışmışdır.

E.Quliyev bildirmişdir ki, bu il ÜAK-nın yaradılmasından doqquz il ötür. Təşkilatı haqlı olaraq təkcə Rusiyada deyil, həm də bütün dünyada ən böyük və nüfuzlu Azərbaycan ictimai qurumu adlandırırlar. Hazırda Rusiyanın 75 subyektində ÜAK-nın bölmələri fəaliyyət göstərir, on minlərlə həmvətənimizi bir araya gətirərək ictimai işlərə cəlb edir.

E.Quliyev demişdir: "ÜAK-nın səyləri həmvətənlərimizin, xüsusilə, əmək miqrantlarının Rusiya cəmiyyəti həyatının sosial-mədəni şəraitinə uyğunlaşdırılmasına və inteqrasiyasına, onların bu ölkənin tarixi və mədəni ənənələri ilə tanış olmalarına kömək göstərilməsinə yönəlmişdir. Hər dəfə həmvətənlərimizin yaşayıb-yaratdıqları yerlərdə, Rusiyanın müxtəlif güşələrində olarkən konqresin real gücünə və fəaliyyətinin səmərəliliyinə əmin oluruq. Onlar Rusiya vilayətlərinin ictimai-siyasi həyatı üçün son dərəcə əhəmiyyətli layihələr həyata keçirir, xeyriyyə aksiyalarında və diasporumuzun nüfuzunun, ölkələrimiz və xalqlarımız arasında dostluğun, qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, əlaqələrin inkişafına yönəlmiş digər tədbirlərdə iştirak edirlər. Rusiya regionlarının rəhbərləri həmvətənlərimizin bu fəaliyyətini yüksək qiymətləndirirlər. Onların bu münasibəti "Azerbaydjanskiy Konqres" qəzeti vasitəsilə ictimaiyyətə çatdırılır". E.Quliyev vurğulamışdır ki, ÜAK icraiyyə aparatı 2010-cu ildə kadr siyasətinə xüsusi diqqət yetirmişdir. Çünki təşkilatın hər bir vəsiləsinin, bütövlükdə özünün işinin keyfiyyəti regional bölmələrə konkret olaraq kimin başçılıq etməsindən asılıdır. ÜAK-nın icraçı direktoru xüsusi vurğulamışdır ki, konqres Rusiyanın ictimai həyatında fəal iştirak edir, RF Prezidenti Administrasiyasının humanitar siyasət və ictimai əlaqələr departamenti ilə qarşılıqlı fəaliyyət göstərir. 2007-ci ilin noyabrında RF İctimai Palatasının üzvü seçilmiş ÜAK-nın prezidenti Məmməd Əliyev palatanın işində yaxından iştirak etmişdir.

Konqres imzalanmış sazişlər əsasında RF Federal Şurası Dövlət Dumasının Millətlərin İşləri Komitəsi, Moskva şəhəri Regionlararası Əlaqələr və Milli Siyasət Komitəsi, "Yedinaya Rossiya" Partiyası Siyasi Şurası, M.V.Lomonosov adına MDU-nun tarix fakültəsi ilə sıx əməkdaşlıq edir. ÜAK-nın rəyasət heyəti, həmçinin Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil, Mədəniyyət və Turizm Gənclər və İdman nazirlikləri ilə sıx əlaqələr saxlayır. ÜAK-nın icraiyyə aparatı "Yedinaya Rossiya" Partiyası ilə yaxşı əlaqələr yaratmışdır. Konqres "Yedinaya Rossiya"nın təşkil etdiyi bir çox tədbirlərdə, milli siyasət problemlərinin müzakirəsində iştirak edir. Moskva Millətlər Evində və RF Prezidenti yanında Rusiya Dövlət Xidməti Akademiyasında "Azərbaycan diasporu Rusiya sosiologiyasının aynasında", "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması Şərqdə milli dövlətin Avropa modelini tətbiq etməsi üzrə ilk təcrübədir" mövzularında elmi-praktik konfranslar keçirilmişdir.

ÜAK-nın rəyasət heyəti Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyi ilə sıx işgüzar əlaqələr yaratmış, onunla birlikdə Moskvada, eləcə də Rusiyanın regionlarında bir sıra əhəmiyyətli tədbirlər keçirmişdir. Konfranslarda, "dəyirmi masa"larda, forumlarda müstəqil Azərbaycanın tarixi və müasir reallıqları, problemləri və perspektivləri, Qarabağ münaqişəsinin kökləri və bu münaqişənin həlli yolları barədə həqiqətlər Rusiya ictimaiyyətinə çatdırılmışdır. E.Quliyev demişdir: "Həm müasir Azərbaycanın tarixi taleyində, həm də təşkilatımızın bioqrafiyasında ulu öndər Heydər Əliyevin rolu əvəzolunmazdır. O, harada yaşamalarından, hansı ölkəyə getmələrindən asılı olmayaraq, bütün həmvətənlərimizə öz köklərini, dilini, adət-ənənələrini unutmamağı, onlara əməl edib qorumağı vəsiyyət etmişdir. Heydər Əliyev rus dilini mükəmməl bilməyin nə dərəcədə əhəmiyyətli olduğunu dəfələrlə vurğulamışdır. Bir vaxtlar Azərbaycan ümumbəşəri dəyərlər, Avropa dəyərləri ilə məhz Rusiya vasitəsilə tanış olmuşdur.

Ümummilli lider milli ixtilafı və birliyin olmamasını çatışmazlıqlarımızdan sayırdı. Heydər Əliyev Qarabağ cəbhəsində uğursuzluqlarımızın əsas səbəblərindən birini milli həmrəyliyin daha çox tələb olunduğu o tarixi məqamda belə birliyin olmamasında görürdü. Bugünkü Azərbaycan Prezidenti İlham Əliyev ətrafında, böyük dövlət xadimi Heydər Əliyevin vəsiyyət etdiyi məqsəd və vəzifələr ətrafında ümummilli birlik və həmrəylik nümayiş etdirir. Bu həm tarix, həm də müdriklik dərsidir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin xəttinə sadiq qalan Azərbaycan Prezidenti İlham Əliyev xaricdə yaşayan həmvətənlərimizin problemlərinə həmişə diqqətlə yanaşır. Rusiya azərbaycanlılarının həyatı və qayğıları da Prezidentin daim diqqət mərkəzindədir. ÜAK-nın 2004-cü ildə keçirilmiş II qurultayında İlham Əliyevin Vladimir Putinlə birlikdə iştirak etməsi, habelə qurultayda çıxış etməsi onun Rusiyada yaşayan həmvətənlərimizin taleyinə xüsusi diqqət və qayğı ilə yanaşdığını bariz şəkildə sübut edir". Azərbaycan dilini qoruyub saxlamaq və inkişaf etdirmək, həmvətənlərimizin hüquq və mənafelərini müdafiə etmək, yerlərdə hüquq-mühafizə komitələrinin fəaliyyətini genişləndirmək və Azərbaycan diasporunun fəaliyyəti ilə bağlı digər məsələlər ÜAK-nın əsas vəzifəsi olaraq qalmaqdadır.

Eldar Quliyev nəzərdə tutulan işlərdən danışarkən bildirmişdir ki, ÜAK-nın fəaliyyətinin miqyası ilə yanaşı, onun məsuliyyəti də xeyli artır, vəzifələri və hər dəfə ortaya çıxan ictimai-siyasi və maliyyə-təşkilati məsələlər qat-qat mürəkkəbləşir. ÜAK-nın icraiyyə aparatı konqresin növbəti III qurultayının hazırlıq işlərinə başlamışdır. Yerli hakimiyyət, hüquq mühafizə orqanları, miqrasiya xidməti ilə sıx əlaqələrin yaradılması, yerli və vilayət hakimiyyət orqanlarına seçki kampaniyalarında fəal iştirakın təmin olunması, Rusiyaya yenicə gəlmiş həmvətənlərin sənədlərinin rəsmiləşdirilməsində, işlə təmin olunmalarında onlara yardım göstərilməsi işləri davam etdiriləcəkdir.

Söhbəti yekunlaşdıran Eldar Quliyev demişdir ki, ÜAK-nın əsas ideya və məqsədi-diasporumuzun möhkəmlənməsi, Rusiya və Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına dəstək göstərilməsi qurumun mərkəzi şurasının fəaliyyətinin bütün istiqamətlərindən qırmızı xətt kimi keçməlidir. Hər bir azərbaycanlı bilməlidir ki, onun arxasında Ümumrusiya Azərbaycan Konqresi dayanmışdır.

“Azərbaycan”.-2010.-21 dekabr.-N 280.-S.4.

ÜAK-ın yaradılmasından doqquz il ötür

Ümumrusiya Azərbaycan Konqresinin icraçı direktoru, fövqəladə və səlahiyyətli səfir Eldar Quliyev AzərTAc-ın müxbirinə Rusiyanın çoxsaylı Azərbaycan diasporunun başa çatmaqda olan ildəki fəaliyyətinin yekunlarından danışmışdır. E.Quliyev bildirmişdir ki, bu il ÜAK-ın yaradılmasından doqquz il ötür. Təşkilatı haqlı olaraq təkcə Rusiyada deyil, həm də bütün dünyada ən böyük və nüfuzlu Azərbaycan ictimai qurumu adlandırırlar. Hazırda Rusiyanın 75 subyektində ÜAK-ın bölmələri fəaliyyət göstərir, on minlərlə həmvətənimizi bir araya gətirərək ictimai işlərə cəlb edir. E.Quliyev demişdir: "ÜAK-ın səyləri həmvətənlərimizin, xüsusilə, əmək miqrantlarının Rusiya cəmiyyəti həyatının sosial-mədəni şəraitinə uyğunlaşdırılmasına və inteqrasiyasına, onların bu ölkənin tarixi və mədəni ənənələri ilə tanış olmalarına kömək göstərilməsinə yönəlmişdir. Hər dəfə həmvətənlərimizin yaşayıb-yaratdıqları yerlərdə, Rusiyanın müxtəlif güşələrində olarkən Konqresin real gücünə və fəaliyyətinin səmərəliliyinə əmin oluruq. Onlar Rusiya vilayətlərinin ictimai-siyasi həyatı üçün son dərəcə əhəmiyyətli layihələr həyata keçirir, xeyriyyə aksiyalarında və diasporumuzun nüfuzunun, ölkələrimiz və xalqlarımız arasında dostluğun, qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, əlaqələrin inkişafına yönəlmiş digər tədbirlərdə iştirak edirlər.

Rusiya regionlarının rəhbərləri həmvətənlərimizin bu fəaliyyətini yüksək qiymətləndirirlər. Onların bu münasibəti "Azerbaydjanskiy Konqres" qəzeti vasitəsilə ictimaiyyətə çatdırılır". E.Quliyev vurğulamışdır ki, ÜAK icraiyyə aparatı 2010-cu ildə kadr siyasətinə xüsusi diqqət yetirmişdir. Çünki təşkilatın hər bir vəsiləsinin, bütövlükdə özünün işinin keyfiyyəti regional bölmələrə konkret olaraq kimin başçılıq etməsindən asılıdır. ÜAK-ın icraçı direktoru xüsusi vurğulamışdır ki, Konqres Rusiyanın ictimai həyatında fəal iştirak edir, RF Prezidenti Administrasiyasının humanitar siyasət və ictimai əlaqələr departamenti ilə qarşılıqlı fəaliyyət göstərir. 2007-ci ilin noyabrında RF İctimai Palatasının üzvü seçilmiş ÜAK-ın prezidenti Məmməd Əliyev palatanın işində yaxından iştirak etmişdir.

Konqres imzalanmış sazişlər əsasında RF Federal Şurası Dövlət Dumasının Millətlərin İşləri Komitəsi, Moskva şəhəri Regionlararası Əlaqələr və Milli Siyasət Komitəsi, "Yedinaya Rossiya" Partiyası Siyasi Şurası, M.V.Lomonosov adına MDU-nin tarix fakültəsi ilə sıx əməkdaşlıq edir. ÜAK-ın rəyasət heyəti, həmçinin Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil, Mədəniyyət və Turizm Gənclər və İdman nazirlikləri ilə sıx əlaqələr saxlayır. ÜAK-ın icraiyyə aparatı "Yedinaya Rossiya" Partiyası ilə yaxşı əlaqələr yaratmışdır. Konqres "Yedinaya Rossiya"nın təşkil etdiyi bir çox tədbirlərdə, milli siyasət problemlərinin müzakirəsində iştirak edir. Moskva Millətlər Evində və RF Prezidenti yanında Rusiya Dövlət Xidməti Akademiyasında "Azərbaycan diasporu Rusiya sosiologiyasının aynasında", "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması Şərqdə milli dövlətin Avropa modelini tətbiq etməsi üzrə ilk təcrübədir" mövzularında elmi-praktik konfranslar keçirilmişdir.

ÜAK-ın rəyasət heyəti Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyi ilə sıx işgüzar əlaqələr yaratmış, onunla birlikdə Moskvada, eləcə də Rusiyanın regionlarında bir sıra əhəmiyyətli tədbirlər keçirmişdir. Konfranslarda, "dəyirmi masa"larda, forumlarda müstəqil Azərbaycanın tarixi və müasir reallıqları, problemləri və perspektivləri, Qarabağ münaqişəsinin kökləri və bu münaqişənin həlli yolları barədə həqiqətlər Rusiya ictimaiyyətinə çatdırılmışdır. E.Quliyev demişdir: "Həm müasir Azərbaycanın tarixi taleyində, həm də təşkilatımızın bioqrafiyasında ulu öndər Heydər Əliyevin rolu əvəzolunmazdır.

O, harada yaşamalarından, hansı ölkəyə getmələrindən asılı olmayaraq, bütün həmvətənlərimizə öz köklərini, dilini, adət-ənənələrini unutmamağı, onlara əməl edib qorumağı vəsiyyət etmişdir. Heydər Əliyev rus dilini mükəmməl bilməyin nə dərəcədə əhəmiyyətli olduğunu dəfələrlə vurğulamışdır. Bir vaxtlar Azərbaycan ümumbəşəri dəyərlər, Avropa dəyərləri ilə məhz Rusiya vasitəsilə tanış olmuşdur. Ümummilli lider milli ixtilafı və birliyin olmamasını çatışmazlıqlarımızdan sayırdı.

Heydər Əliyev Qarabağ cəbhəsində uğursuzluqlarımızın əsas səbəblərindən birini milli həmrəyliyin daha çox tələb olunduğu o tarixi məqamda belə birliyin olmamasında görürdü. Bugünkü Azərbaycan Prezidenti İlham Əliyev ətrafında, böyük dövlət xadimi Heydər Əliyevin vəsiyyət etdiyi məqsəd və vəzifələr ətrafında ümummilli birlik və həmrəylik nümayiş etdirir. Bu, həm tarix, həm də müdriklik dərsidir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin xəttinə sadiq qalan Azərbaycan Prezidenti İlham Əliyev xaricdə yaşayan həmvətənlərimizin problemlərinə həmişə diqqətlə yanaşır.

Rusiya azərbaycanlılarının həyatı və qayğıları da Prezidentin daim diqqət mərkəzindədir. ÜAK-ın 2004-cü ildə keçirilmiş II qurultayında İlham Əliyevin Vladimir Putinlə birlikdə iştirak etməsi, habelə qurultayda çıxış etməsi onun Rusiyada yaşayan həmvətənlərimizin taleyinə xüsusi diqqət və qayğı ilə yanaşdığını bariz şəkildə sübut edir". Azərbaycan dilini qoruyub saxlamaq və inkişaf etdirmək, həmvətənlərimizin hüquq və mənafelərini müdafiə etmək, yerlərdə hüquq mühafizə komitələrinin fəaliyyətini genişləndirmək və Azərbaycan diasporunun fəaliyyəti ilə bağlı digər məsələlər ÜAK-ın əsas vəzifəsi olaraq qalmaqdadır.

Eldar Quliyev nəzərdə tutulan işlərdən danışarkən bildirmişdir ki, ÜAK-ın fəaliyyətinin miqyası ilə yanaşı, onun məsuliyyəti də xeyli artır, vəzifələri və hər dəfə ortaya çıxan ictimai-siyasi və maliyyə-təşkilati məsələlər qat-qat mürəkkəbləşir.

ÜAK-ın icraiyyə aparatı Konqresin növbəti III qurultayının hazırlıq işlərinə başlamışdır. Yerli hakimiyyət, hüquq mqhafizə orqanları, miqrasiya xidməti ilə sıx əlaqələrin yaradılması, yerli və vilayət hakimiyyət orqanlarına seçki kampaniyalarında fəal iştirakın təmin olunması, Rusiyaya yenicə gəlmiş həmvətənlərin sənədlərinin rəsmiləşdirilməsində, işlə təmin olunmalarında onlara yardım göstərilməsi işləri davam etdiriləcəkdir. Söhbəti yekunlaşdıran Eldar Quliyev demişdir ki, ÜAK-ın əsas ideya və məqsədi - diasporumuzun möhkəmlənməsi, Rusiya və Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına dəstək göstərilməsi qurumun Mərkəzi Şurasının fəaliyyətinin bütün istiqamətlərindən qırmızı xətt kimi keçməlidir. Hər bir azərbaycanlı bilməlidir ki, onun arxasında Ümumrusiya Azərbaycan Konqresi dayanmışdır.

21 dekabr 2010

İlqar Hacıyev: " Konqres fəaliyyətə başlayarkən ilk olaraq təhsil komitəsi yaratmışdır"

Ümumrusiya Azərbaycan Konqresinin fəaliyyətinin başlıca istiqamətlərindən biri miqrantların yeni şəraitə uyğunlaşmasında, onların qəbul edən ölkənin, şəhərin, regionun sosial və mədəni həyatına tezliklə inteqrasiya olunmasında mühüm rol oynayan təhsildir. ÜAK İcraiyyə Komitəsi sədrinin birinci müavini İlqar Hacıyev AzərTAc-a bildirmişdir ki, Konqres fəaliyyətə başlayarkən ilk olaraq təhsil komitəsi yaratmışdır. Komitənin başlıca məqsədlərindən biri müasir təhsil proqramı sayəsində diasporun nümayəndələrinin intellektual potensialını artırmaqdır. O demişdir: "Başlıca vəzifə mədəni, ictimai-siyasi mühitə inteqrasiya etməkdə, eyni zamanda, milli dəyərləri itirməməkdə Azərbaycan gənclərinə kömək etməkdir.

Moskvada uğurla fəaliyyət göstərən 157 nömrəli etnomədəni komponentli məktəb, 1331 nömrəli məktəb bu məqsədə nail olunmasına kömək edir. Hazırda bu cür məktəblərin sayının təkcə Moskvada deyil, Rusiyanın digər regionlarında da artırılmasına böyük ehtiyac vardır". İ.Hacıyevin sözlərinə görə, Konqresin fəaliyyətinin növbəti mərhələsi Azərbaycan gənclərinin Rusiya ali məktəblərində təhsil almasına şərait yaratmaqdır. 2003-cü ildə ÜAK hər il Rusiya Təhsil Nazirliyindən Rusiyada yaşayan azərbaycanlı gənclər üçün müəyyən sayda kvota ayrılması barədə təklif irəli sürmüş və bu təklif Azərbaycan rəhbərliyi, ölkənin Təhsil Nazirliyi tərəfindən dəstəklənmişdir. Azərbaycanın Tələbə Qəbulu üzrə Dövlət Komissiyası 2004-cü ildən başlayaraq ÜAK-ın himayəsi altında Moskvada qəbul imtahanları keçirir və namizədləri Rusiya Təhsil Nazirliyinə təqdim edir. İmtahandan uğurla çıxanlara Azərbaycan Təhsil Nazirliyi təqaüd ayırır.

İ.Hacıyev bildirmişdir ki, ilk vaxtlar abituriyentlərin qəbulunda çətinliklər yaranmışdı. Gənclər Azərbaycan vətəndaşları üçün təhsilin pulsuz olmasından xəbərsiz idilər. Bu problemin həlli üçün icra aparatının əməkdaşları məktəb direktorlarının müşavirələrində çıxış etmiş, məktəblərdə elan asmış, "Azərbaycan Konqresi" qəzetində məqalələr dərc etdirmişlər. Bu gün təşəbbüs, demək olar, özünü doğrultmuşdur. Əgər ilkin mərhələdə imtahanlarda 20-30 abituriyent iştirak edirdisə, 2008-2010-cu illərdə bu göstərici 80-150 nəfərə çatmışdır. Nəticədə 2004-2008-ci illərdə 37 nəfər təhsil almışdısa, son 3 ildə Rusiya ali məktəblərinə 182 nəfər daxil olmuşdur. Hazırda tələbələrimiz Rusiyanın şəhərlərində (Həştərxan, Belqorod, Volqoqrad, Tümen, İvanovo, Omsk, Tula və s.), Bauman adına Texniki Universitetdə, Rusiya Xalqlar Dostluğu Universitetində, Humanitar Universitetdə, Plexanov adına İqtisad Universitetində, Linqvistika Universitetində və digər mötəbər ali məktəblərdə təhsil alırlar.

ÜAK-ın İcraiyyə Komitəsi tələbələrin davamiyyətinə daim nəzarət edir, hər sessiyadan sonra ali məktəblərdən semestrin yekunları barədə informasiya daxil olur. Fəal təşkilat işləri Heydər Əliyev Fondunun Leyla xanım Əliyevanın rəhbərlik etdiyi Rusiya nümayəndəliyi və RAGT ilə sıx əməkdaşlıq şəraitində aparılır. Məsələn, bu il oktyabrın 16-da 700-dən çox tələbənin iştirakı ilə görüş keçirilmişdir. Görüşdə aztəminatlı ailələrin uşaqlarına ÜAK Prezidentinin, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin, Aydın Qurbanov Fondunun, "LUKoyl" Xeyriyyə Fondunun təqaüdləri təqdim olunmuşdur. Leyla xanım Əliyeva RAGT mükafatlarını əlaçı tələbələrə təqdim etmişdir.

21 dekabr 2010

"Azərbaycan: 100 sual və cavab" kitabı alman, fransız və ərəb dillərində nəşr edilib

Avropa Azərbaycan Cəmiyyətinin dəstəyi ilə "Azərbaycan: 100 sual və cavab" kitabı alman, fransız və ərəb dillərində nəşr edilib. Avropa Azərbaycan Cəmiyyətindən APA-ya verilən məlumata görə, kitab alman və fransız dillərinə Almaniyanın "TMC" nəşriyyatı, ərəb dilinə isə Livanda yerləşən tanınmış "Dar İl İlm" nəşriyyat evi tərəfindən tərcümə edilərək nəfis şəkildə çap olunub. "Azərbaycan: 100 sual və cavab" kitabı xarici auditoriyanı Azərbaycan barədə ən çox soruşulan və maraq doğuran mövzular haqqında sadə və cəlbedici formada məlumatlandırmaq məqsədilə nəşr edilmişdir.

Kitabda əhatə olunan mövzular əsasən Bakıda yaşayan xaricilər arasında aparılmış sorğular və mütəxəssislərin tövsiyyələri əsasında müəyyən edilmişdir. Kitabda verilən 100 sual çərçivəsində oxucuya Azərbaycanın müasir vəziyyəti, dövlət quruluşu, iqtisadiyyatı, mədəniyyət və incəsənəti, ədəbiyyatı, həmçinin elm və təhsil sistemi, adət-ənənələri, mətbəxi və sair məsələlər haqqında müfəssəl məlumat verilməklə bərabər, xoş təəssürat yaradan nadir illüstrasiyalar təqdim olunur. Sözügedən nəşr Avropa Azərbaycan Cəmiyyəti tərəfindən 2006-cı ildə ingilis dilində, 2008-ci ildə isə rus dilində nəşr edilib. Qeyd edək ki, "Azərbaycan: 100 sual və cavab" kitabının ingilis nəşri «Waterstone Books» dükanları da daxil olmaqla, Böyük Britaniyanın ən böyük kitab dükanları şəbəkələrində yayılır. Kitabı həmçinin, internetdən Amazon.com saytından da əldə etmək olar. Kitabın ərəb dilində olan nüsxələrinin "Dar İl İlm" nəşriyyatı tərəfindən ərəb ölkələrində də yayılması nəzərdə tutulur.

21 dekabr 2010

Diasporların müharibəsi

Azərbaycan və türk diaspor təşkilatları Nensi Pelosinin təşəbbüsünə qarşı birgə hərəkətə keçirlər

2011-ci ilin yanvar ayında yerini Respublikaçılar Partiyasından Con Beynerə verəcək ABŞ Konqresi Nümayəndələr Palatasının Demokrat partiyalı sədri Nensi Pelosi "erməni soyqırımı" qətnaməsinin Palatanın rəyasət heyətində müzakirəyə çıxarılmasını istəyib. Xatırladaq ki, qətnamə bu ilin mart ayında Palatanın Xarici Əlaqələr Komitəsində komitənin sədri Hovard Bermanın böyük səyləri ilə qəbul edilib. Hal-hazırda Konqresin 435 üzvündən 148-i qətnaməni dəstəkləyir. Qətnamə layihəsi ABŞ Konqresinin Nümayəndələr Palatasına göndərilməyib. Bununla belə, dekabrın 21-dək fəaliyyətinə ara verən Nümayəndələr Palatası Yeni ilə qədər - gələn həftənin əvvəlində daha bir neçə gün fəaliyyət göstərəcək. Bu səbəbdən uydurma "erməni soyqırımı" ilə layihənin Palataya təqdim olunması ehtimalı qalır.

Bu arada Amerika-Erməni Milli Komitəsi (ANCA) da Konqresin iş müddətinin uzanmasının həm faydalarına, həm də zərərlərinə ola biləcəyinə diqqət çəkib. Türk mediasının yazdığına görə, ABŞ-da yaşayan erməni pornoulduz Kim Qardaşiyan sosia şəbəkələrdəki fanatlarını layihənin qəbulu üçün səfərbər edib. O, Pelosinin elektron ünvanını açıqladıqdan sonra həmin ünvana minlərlə pornosevərin erməni yanğılı məktubu daxil olub. Hazırda həm Türkiyənin ABŞ-dakı səfirliyi, həm də bu ölkədəki türk və azəri təşkilatları ABŞ rəhbərliyi və Konqreslə bu qətnamənin qəbulunun əngəllənməsi istiqamətində fəaliyyət göstərir. Turkish Coalition of America (TCA) təşkilatının sədri Linkoln Mak Kurdi Konqres üzvlərinə Nümayəndələr Palatasına gəldiyi halda belə, layihənin "Türkiyə-ABŞ əlaqələrinə böyük zərərlər verə biləcəyini" bildirib. ABŞ-da fəaliyyət göstərən təxminən 250 türk dərnək və təşkilatını birləşdirən Türk Amerikan Dərnəkləri Federasiyası və Türk Amerikan Dərnəkləri Assambleyası rəhbərləri də Nümayəndələr Palatası üzvlərinə yazdıqları birgə məktubda, onları "erməni soyqırımı"na dair qətnamə layihəsinin əleyhinə səs verməyə çağırıblar. Konqres üzvlərinə yazılan məktubda Amerikada yaşayan 500 min türk adından çıxış etdiklərini bildirən türk icması liderləri, qətnamə layihəsinin Türkiyə və müsəlmanları haqsız ittiham etdiyini və layihənin qəbul olunacağı təqdirdə Vaşinqtonun bölgədə etibarının sarsılacağını bildiriblər.

Onlar erməni iddiaları ilə bağlı müzakirəni siyasətçilərin deyil, tarixçilərin aparmalı olduğunu vurğulayıblar. Türk Amerikan Dərnəkləri Federasiyası (TADF) və Türk Amerikan Dərnəkləri Assambleyası (ATAA) rəhbərləri Kaya Boztəpə və Günay Övünç ABŞ Nümayəndələr Palatası üzvlərinə yazdıqları birgə məktubda onları "erməni soyqırımı"na dair qətnamə layihəsinin əleyhinə səs verməyə çağırıblar. Erməni iddiaları ilə bağlı müzakirəni siyasətçilərin deyil, tarixçilərin aparmalı olduğunu vurğulayıblar. Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu isə Birləşmiş Ştatların dövlət katibi Hillari Klintona zəng edib. O, amerikalı həmkarından ABŞ administrasiyasının ''erməni soyqırımı''na dair qətnamə layihəsinin Konqresin Nümayəndələr Palatasında müzakirəsinə mane olmasını istəyib. Söhbət zamanı Hillari Klinton ABŞ administrasiyasının bu məsələdəki mövqeyinin dəyişməz qaldığını və sənədin Konqresin aşağı palatasının gündəliyinə salınmaması üçün səylərini əsirgəməyəcəklərini bildirib. ABŞ Dövlət Departamenti Konqresin Nümayəndələr Palatasında "erməni soyqırımı" ilə bağlı qətnamə layihəsinin müzakirəsinə qəti surətdə qarşıdır.

Bu barədə keçirdiyi brifinqdə Dövlət Departamentinin rəsmi nümayəndəsi Filip Krouli bəyan edib ki, ABŞ Türkiyə və Ermənistanın ümumi tarixinə baxışın ən yaxşı yolunun normallaşdırma prosesindən keçdiyinə inanmaqda davam edir. Türkiyənin Vaşinqtondakı səfirliyi Amerikadakı lobbi şirkətlərindən biri ilə birgə hazırladığı strategiya çərçivəsində fəaliyyətə başlayıb. Türkiyənin Vaşinqtondakı səfiri Namik Tan yaydığı yazılı bəyanatda bildirib ki, Vaşinqton administrasiyası və Konqresin Türkiyə ilə Birləşmiş Ştatlar arasındakı münasibətlərin əhəmiyyətini bilən üzvləri qətnamə layihəsinin qəbul edilməsinin əlaqələrə vura biləcəyi zərbənin miqyasını dərk edirlər.

N. Tanın Twitter sosial şəbəkəsində "Erməni təşkilatları 1915-ci il olayları ilə bağlı iddiaların mövcud olduğu qətnamə layihəsinin Nümayəndələr Palatasında bu gün və ya sabah səsə qoyulması üçün kampaniyaya başlayıblar. Bütün türk, amerikalı ictimaiyyətinin lazımi həssasiyyəti göstərəcəyindən əminəm" açıqlamasını yerləşdirməsinin ardından, ABŞ-da fəaliyyət göstərən türk qeyri-hökumət təşkilatlarının nümayəndələrinin ABŞ-da yaşayan türklərlə birlikdə qətnaməyə səs verəcək Konqres üzvlərinin "əleyhinə" səsini vermələri üçün birgə kampaniyaya başladıqları məlum olub.

Tan Ağyev, Milli Təhlükəsizlik Şurası, Dövlət Departamenti və Pentaqonun nümayəndələri ilə görüşlər keçirib. Türkiyəyə yaxın Konqresmenlər və türk diasporu layihənin müzakirəyə çıxarılmaması üçün səy göstərirlər. Birləşmiş Ştatlardakı türk icmasına müraciət edən qurumlar onları Konqres üzvlərinə zəng edərək, Nümayəndələr Palatasının gündəliyə çıxarıla biləcək layihəyə qarşı çıxmağa çağırıblar. Məlumata görə, ABŞ-dakı Azərbaycan diasporu da uydurma "erməni soyqırımı" haqqında qətnamənin Konqresin Nümayəndələr Palatasında qəbuluna qarşı kampaniyaya başlayıb.

ABŞ Azərbaycanlıları Şəbəkəsi (USAN) bununla bağlı bəyanat yayıb. Bəyanatda deyilir: “Bu qətnamə layihəsi dünyanın heç bir yerində sülh və sabitliyə töhfə verməyəcək, gərginlikləri artıracaq, ABŞ-Türkiyə və ABŞ-Azərbaycan əlaqələrini pisləşdirəcək. Bu layihə həmin dövrdə erməni silahlı birləşmələrinin fəaliyyəti nəticəsində türklərin və digər müsəlmanların düşdüyü ağır vəziyyətə etinasız yanaşır, ABŞ-ın Qafqazda, Mərkəzi Asiyada, Anadoluda və Böyük Orta Şərqdəki milli təhlükəsizlik maraqlarına ciddi ziyan vurur”.

Birləşmiş Ərəb Əmirliyindəki Azərbaycan Cəmiyyətinin sədri Samir İmanov da Nümayəndələr Palatasının spikerinin və ümumilikdə Konqresin ünvanına etiraz məktubu göndərib. Məktubda qeyd olunur ki, artıq dünya xalqları ermənilərin ABŞ-da etdikləri cinayətkar əməllərindən agah oldu. “Əldə edilən bu vəsaitlərin bəzi ABŞ Konqresi üzvlərinin hesablarına göndərilməsi də məlum oldu”, deyə məktubda vurğulanır.

Eyni zamanda sənəddə erməni silahlı qüvvələrinin 1992-ci ilin fevralında Azərbaycanın Xocalı şəhərində soyqırım törətməsi də xatırladılır: “Biz, Birləşmiş Ərəb Əmirliyində yaşayan Azərbaycan diasporu ABŞ Konqresində yenidən müzakirəyə çıxarılacaq “erməni soyqırımı”nın müzakirəsinə qarşı qəti etirazımızı bildiririk. Sizdən və bütün ABŞ Konqresi üzvlərindən tələb edirik ki, 95 il müzakirəsi davam edən və baş verib verməməsi məlum olmayan “erməni soyqırımı”nı müzakirə etmək əvəzinə 18 il əvvəl baş vermiş Xocalıdak soyqırıma öz diqqət və gücünüzü sərf edəsiniz”.

Həmçinin burada Türkiyə ilə əlaqələrin pisləşdirilməsinin ABŞ hökuməti və xalqının maraqlarına uygun olmadığı da qeyd olunur: “Belə ki, Türkiyə dövləti ABŞ-ın xarici siyasətini dünyada ən çox dəstəkləyən dövlətlərdəndir. Ümid edirik ki, ABŞ Konqres üzvləri bu qətnamənin təsdiqinə qarşı çıxacaq və öz ədalətli mövqeyini nümayiş etdirəcəkdir”.

Fuad
“Paritet”. -2010.-21-22 dekabr.-N.135.-S.3.

Diasporla İş üzrə Dövlət Komitəsi bütün soydaşlarımızı müstəqil Azərbaycan ətrafında birləşdirir

Nazim İbrahimov: "Diasporumuzun gələcəyi uğurlu və işıqlıdır"

Diaspor quruculuğu və lobbiçilik xaricdə təmsil olunan xalqın və dövlətin maraqlarının müdafiəsində, həmin xalqa mənsub soydaşların təşkilatlanmasında əsas rol oynayır. Bu baxımdan Azərbaycan diasporunun gənc olmasına baxmayaraq, qazandığı uğurlar, dünyanın müxtəlif regionlarında yaşayan soydaşlarımızın ölkəmizdə baş verən dəyişiklikləri beynəlxalq ictimaiyyətə çatdırması, xaricdə yaşayan azərbaycanlıların təşkilatlanmasında rolu yüksək qiymətləndirilməlidir. Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi diaspor siyasətinin uğurla həyata keçirilməsi diasporumuzun mütəşəkkil təşkilatlanmasında mühüm rol oynayır. Başa çatmaqda olan il Azərbaycan diasporunun həyatında mühüm işlər və fəaliyyətlərlə yadda qalıb.

Hər il olduğu kimi, bu ildə də Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, cəmiyyətə inteqrasiyası, onların ictimai-siyasi həyatda iştirak səviyyəsinin artırılması, tarixi Vətənlə əlaqələrinin genişləndirilməsi, habelə, diaspor təşkilatları arasında səmimi əməkdaşlıq münasibətlərinin yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirilib. Görülən işləri bir neçə istiqamətdə dəyərləndirmək olar. Birinci istiqamət diaspor təşkilatları arasında əlaqələrin gücləndirilməsi, qarşılıqlı fikir və əməkdaşlığın müzakirəsi ilə bağlıdır. Bu il İstanbulda Türk-Asiya Strateji Araşdırmalar Mərkəzinin (TASAM) təşkilatçılığı, Türkiyə Cünhuriyyətinin Baş Nazirliyi və DİDK-in dəstəyi ilə "Türk Şurası, türk diasporu və sosial-iqtisadi əməkdaşlıq" mövzusunda keçirilmiş Dünya Türk Forumu onlardan biridir. Altmış ölkədən türk dünyası və diaspor nümayəndələrinin iştirak etdiyi Forum faydalı fikir mübadiləsi ilə yadda qaldı. Forumda qəbul olunmuş yekun Qətnaməyə görə, Azərbaycan, türk, ingilis, özbək, qırğız, türkmən dillərində ortaq internet portalı yaradılması qərara alındı. Bu, türksoylu xalqların diaspor əlaqələrinin daha da güclənməsində və informasiya mübadiləsində əhəmiyyətli rol oynaya bilər.

Diaspor təşkilatlarının fəaliyyətinin daha da gücləndirilməsi, Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı beynəlxalq aləmin daha çox məlumatlandırılması və bu faktın dünya dövlətlərinin parlamentlərinin müzakirəsinə çıxarılmasına nail olunması Dövlət Komitəsinin diqqət yetirdiyi əsas məsələlərdən olub.

Xaricdə yaşayan azərbaycanlı gənclərin milli-mənəvi dəyərlərimizə sədaqətinin qorunub saxlanılması, onların ökəmizin maraqlarının qorunmasında fəal iştirakının təmin edilməsi dövlət gənclər siyasətinin prioritet istiqamətlərindəndir. Diaspor quruculuğunda və Azərbaycan lobbisinin yaradılmasında gənclərin fəal iştirakı daha ciddi nailiyyətlər qazanmağa imkan yaradır. İlin yekunlarına dair keçirilmiş konfransda DİDK-in sədri Nazim İbrahimovun son illər gənclərin diaspor quruculuğu işində və Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında fəallığını qeyd etməsi artıq bu sahədə gələcəkdə mühüm rol oynaya biləcək diasporçuların yetişməsindən xəbər verir.

İslam Konfransı Təşkilatının (İKT) üzvü olan Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ilin may ayında elan edilmiş "Xocalıya Ədalət" beynəlxalq məlumat və təşviqat kampaniyası bu il də bir sıra ölkələrdə etiraz aksiyaları, elmi-praktik konfranslar və digər tədbirlərlə öz işini davam etdirib və kampaniyada diaspor təşkilatlarımız da fəal şəkildə iştirak ediblər. Rusiyanın ictimai-sosial həyatında fəallıq göstərən Rusiya Azərbaycan Gəncləri Təşkilatı həmçinin orada yaşayan və təhsil alan gənclərimizin təşkilatlanmasında və onların cəmiyyətə inteqrasiyasında əsaslı addımlar atır.

Yadda qalan uğurlardan biri də bir sıra diasporçuların mükafata layiq görülməsi oldu. Azərbaycanlı alim, Latın Amerikası Azərbaycanlıları Assosiasiyasının sədri Natiq Atakişiyevin Meksikanın inkişafına töhfə vermiş şəxsiyyətlərin sırasına daxil edilməsi, Meksikanın Milli Miqrasiya İnstitutunun dərc etdiyi "Dünyanın bizə hədiyyə etdiyi 200 meksikalı" adlı kitabda onun barəsində məlumatın yer alması, Moldova Azərbaycanlıları Konqresinin sədri Vüqar Novruzovun millətlərarası dostluq münasibətlərinin möhkəmləndirilməsi, inkişafı və milli mədəniyyətlərin qarşılıqlı zənginləşməsi işində ictimai fəaliyyətinə görə Moldovanın Dövlət mükafatı olan "Gloria Muncii" ordeni ilə təltif edilməsi buna nümunədir.

Gürcüstanda-öz tarixi Vətənlərində yaşayan azərbaycanlıların həmin cəmiyyətə inteqrasiyası və orada yaşayan gənclərin ölkəmizlə əlaqələrinin möhkəmləndirilməsi, milli-mənəvi dəyərləri, mədəniyyəti haqqında daha da geniş şəkildə məlumatlandırılması da diqqət mərkəzində olub. Bu məqsədlə yay tətilinin səmərəli keçirilməsi məqsədi ilə bu il iyulun 26-dan 31-dək Gürcüstandan 80 nəfər azərbaycanlı tələbənin və gənclər təşkilatı fəallarının Novxanı qəsəbəsindəki "Aquapark" Əyləncə Mərkəzində istirahətinin təşkili və Türkiyənin Şimali Kipr Yaxın Doğu Universiteti ilə Dövlət Komitəsi arasında anlaşma əldə edilməsi həmin gənclərin Vətənlə əlaqələrinin möhkəmləndirilməsinə və hərtərəfli inkişafına xidmət edir.

Anlaşmaya əsasən yeni tədris ilindən etibarən hər il Gürcüstandan olan 20 azərbaycanlı gəncin bu universitetdə ödənişsiz əsaslarla təhsil almasına şərait yaradılıb. Məqsəd Gürcüstanda yaşayan azərbaycanlı gənclərin cəmiyyətə inteqrasiyasına dəstək vermək, habelə, yüksək ixtisaslı gənc kadrların hazırlanmasına yardım göstərməkdir. Protokolda nəzərdə tutulmuş 20 yerə namizədlər qəbul imtahanlarında yüksək bal toplayan, lakin müsabiqədən keçməyən gənclər arasından seçilib. Artıq 18 nəfər soydaşımız müxtəlif ixtisaslar üzrə təhsil almaq üçün universitetə göndərilib. Diasporla İş üzrə Dövlət Komitəsi Gürcüstanda yaşayan soydaşarımızın gürcü dilini mənimsəməsinə daha yaxşı şərait yaratmaq məqsədilə müvafiq dərsliklərin, əyani vəsaitlərin hazırlanması istiqamətində də tədbirlər həyata keçirib. Belə ki, Dövlət Komitəsinin dəstəyi ilə gürcü dilinin tədrisi üçün "Gürcü dilini öyrənənlər üçün dərslik", "Gürcücə-Azərbaycanca danışıq lüğəti", "Gürcü dilinin qrammatikası" kitabları Azərbaycandilli məktəblərə və gürcü dili kurslarına təqdim edilib. Gürcüstan azərbaycanlı gənclərinin həyatında ən əlamətdar hadisə isə mayın 15-də onların I qurultayı oldu.

Gənclərimizin fəallığının artırılması istiqamətində digər ölkələrdə də mühüm işlər görülüb. 2010-cu il aprelin 24-də Ukrayna Azərbaycanlıları Konqresinin Dnepropetrovsk vilayət təşkilatının təşəbbüsü ilə bu şəhərdə Ukraynada yaşayan azərbaycanlı gənclərin I forumunun keçirilməsi gənclərin həmrəyliyinin artırılmasında bir addım oldu. 2010-cu ildə Koreya Respublikasının Xarici Dillər Universitetinin Türk-Azərbaycan Dilləri fakültəsində "BUTA Azərbaycan Mədəniyyət Dərnəyi"nin fəaliyyətə başlaması isə ölkəmizlə bağlı Koreyalı gənclərin daha ətraflı bilik almasına müsbət töhfə oldu. İlin ən yadda qalan və mötəbər hadisələrindən biri isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Gəncliyi Dövlət Proqramı"na uyğun olaraq, noyabrın 27-28-də Almaniyanın Frankfurt şəhərində keçirilmiş Dünya Azərbaycanlı Gənclərinin I Konqresi oldu.

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin Gənclər və İdman Nazirliyi ilə birgə təşkil etdiyi tədbirdə xaricdə yaşayan azərbaycanlı həmvətənlərin diaspor quruculuğu işinə cəlb olunması, ictimai-siyasi fəallığının artırılması, mədəni irsimizin təbliğində, habelə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında gənclərin daha fəal iştirakı ilə bağlı bir sıra məsələlər müzakirə olundu. Azərbaycandan 41 və 23 ölkədən 131 gənclər təşkilatının nümayəndəsinin, diaspor təşkilat rəhbərlərinin qatıldığı toplantının yekununda qəbul edilmiş üç mühüm sənəd - "Dünya azərbaycanlı gəncləri I Konqresinin Qətnaməsi", "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət" və "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına müraciət" diqqəti cəlb edir.

İlin yekunlarına dair konfransda çıxış edən komitə sədri konqresin nəticələrini yüksək dəyərləndirdiyini və tədbirə qatılan gənclərimiz haqqında yüksək təəssüratlara malik olduğunu vurğulayıb: "Sizi əmin edirəm ki, Azərbaycan diasporunun gələcəyi həqiqətən də çox uğurlu və işıqlıdır. Konqresə toplaşan gənclərin fikirlərindən, çıxışlarından, göstərdikləri təşəbbüskarlıqdan gəldiyim qənaətə əsasən söyləyə bilrəm ki, Azərbaycan gəncliyi həqiqətən də gələcəkdə ölkəmizin reallıqlarını dünyaya çatdırmaqda çox böyük işlər görəcək." Konqres çərçivəsində Dövlət Komitəsinin AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu ilə birgə hazırladığı və təqdim edilən "Virtual həftəsonu məktəbi" isə xarici ölkələrdə yaşayan azərbaycanlı uşaqların və gənclərin müasir informasiya texnologiyaları vasitəsilə ana dili, Azərbaycan tarixi, mədəniyyəti və coğrafiyasını öyrənməsi baxımından mühüm addımdır. 2010-cu il həm də Almaniya, İsveç, Polşa, Ukrayna, Rusiya, Türkiyə, Qazaxıstan, Cənubi Koreya və başqa ölkələrdə yeni diaspor təşkilatlarının fəaliyyətə başlaması ilə əlamətdar oldu. Həmin ölkələrdə ümumilikdə 15 yeni diaspor təşkilatı təsis edilib.

Gələn il diasporumuzun həyatında çox mühüm hadisələr gözlənilir. Bunlardan ən vacibi Dünya Azərbaycanlılarının III Qurultayıdır. Dünya azərbaycanlılarının II qurultayının Qətnaməsində növbəti qurultayların hər beş ildən bir keçirilməsi nəzərdə tutulub. Tədbirin gələn ilin mart ayında keçirilməsinin nəzərdə tutulduğunu bildirən Dövlət Komitəsinin sədri əlavə edib ki, bununla bağlı dövlət başçısının müfaviq sərəncam imzalaması gözlənilir. II Qurultaydan keçən dövr ərzində Azərbaycan diasporunun həyatında kifayət qədər böyük dəyişikliklər baş verib. Gələnilki qurultaydan sonrakı növbəti 5 ildə Azərbaycan diasporunun daha da yüksəliş dövrünün olacağı gözlənilir. Gələn il həm də Dünya Azərbaycanlı Gənclər Birliyinin təsis konfransının keçirilməsi nəzərdə tutulur.

Diasporumuzun qarşısında duran və həyata keçiriləsi işlər hələ çoxdur. Onların fəaliyyət istiqamətinin təhlili gələn il də bu sahədə böyük nailiyyətlər qazanmağa ümid verir.

Əfsanə Bayramqızı
“Xalq qəzeti”.-2010.-24 dekabr.-N 283.-S.

Londondakı “Azərbaycan Evi” diaspor mərkəzinə çevrilir

Əli Təkin Atalar: “Kitabxanamızda hazırda 1000 nüsxədən artıq kitab var və biz bu vəsaitlərin sayını daha da artırmağa çalışırıq”

Xaricdəki diaspor təşkilatlarının fəaliyyəti getdikcə genişlənməkdədir. Bu təşkilatlar yeni layihələr reallaşdırmaqla ölkəmizin xaricdə daha da tanınmasına, reallıqların daha dəqiq çatdırılmasına çalışırlar. Bu gün xaricdə öz fəaliyyəti ilə seçilən belə diaspor təşkilatlarından biri də Londonda fəaliyyət göstərən “Azərbaycan Evi” Mədəniyyət və Dostluq Mərkəzidir. Müsahibimiz bugünlərdə Bakının qonağı olan “Azərbaycan Evi”nin rəhbəri Əli Təkin Atalardır.

- Hazırda xaricdə fəaliyyət göstərən diaspor təşkilatları sırasında “Azərbaycan Evi” davamlı tədbirləri ilə seçilənlərdən hesab edilir. Mərkəz fəaliyyətini əsasən hansı istiqamətdə qurub?

- Londondakı “Azərbaycan Evi” Mədəniyyət və Dostluq Mərkəzi Britaniyada yaşayan bir qrup azərbaycanlı ziyalı, gənc mütəxəssis və tələbənin təşəbbüsü ilə qurulub. Tamamilə qeyri-siyasi və maddi mənfəət güdməyən bir təşkilat kimi fəaliyyət göstərən mərkəzin məqsədi Azərbaycanla Britaniya arasında mədəni və dostluq bağlarını möhkəmləndirmək, Londondakı Azərbaycan icmasına xidmət etməkdir. 2006-cı ildə fəaliyyətə başlayan “Azərbaycan Evi” Mədəniyyət və Dostluq Mərkəzinin rəsmi açılış mərasimi 2008-ci il, 14 noyabr tarixində London Hackney Bələdiyyəsi spikeri İan Rathbone, Azərbaycanın Britaniyadakı səfiri Fəxrəddin Qurbanov, Britaniya Parlamenti Lordlar Palatasının üzvü Lord Fraserin də iştirakı ilə həyata keçirilib. Qurulduğu gündən bəri “Azərbaycan Evi”ndə müxtəlif tədbirlər, mühazirə və çıxışlar, seminarlar, görüşlər, konfranslar, sərgi, film nümayişləri, konsert proqramları, təqdimatlar və s. təşkil olunub. Ümumiyyətlə, “Azərbaycan Evi” mədəniyyətimizin təbliği istiqamətində bütün institut və qruplarla əməkdaşlıq etməyə hazırdır. Tədbirlərimizdə milli adət-ənənələrimizi, tariximizi, mədəniyyətimizə daxil olan hər bir şeyi, musiqimizi, qədim tarixə malik xalçaçılığımızı və s. çatdırmağa çalışırıq.

- “Azərbaycan Evi”nin fəaliyyətində öz əksini tapan amillərdən biri də geniş kitabxanasının olmasıdır. Bu istiqamətdə hansı yeniliklər var?

- “Azərbaycan Evi” kitabxanası mərkəzin ən önəmli xidmətlərindən biridir. Kitabxananın məqsədi oxucuları Azərbaycanın tarixi, mədəniyyəti, siyasi sferası, iqtisadiyyatı və s. haqqında müxtəlif dillərdə olan çeşidli kitab, buklet, jurnal, qəzet, CD və digər informasiya vasitələri ilə təmin etməkdir. Kitabxana mərkəzin zirzəmisində yerləşir və burada “Azərbaycan Evi”nin üzvləri internetdən istifadə imkanına malikdirlər. Burada müxtəlif filmləri izləmək, görüşlərin və müzakirələrin, təqdimatların həyata keçirilməsi üçün hər bir şərait var. Kitabxanamızda hazırda 1000 nüsxədən artıq kitab var və biz bu vəsaitlərin sayını daha da artırmağa çalışırıq. Diasporla İş üzrə Dövlət Komitəsi ilə sıx əməkdaşlığımızın nəticəsidir ki, komitə kitabxanamızın vəsaitlə təmin olunmasında öz əməyini əsirgəmir.

- Son zamanlar hansı tədbirləri reallaşdırmısınız?

- Ümumiyyətlə, Azərbaycanın bütün milli bayramları, faciəli günlərilə bağlı tədbirlər təşkil edirik. Xocalı faciəsini, erməni işğalçıları tərəfindən xalqımıza qarşı törədilən vəhşilikləri çatdırmağa çalışırıq. Bu tədbirlərdə biz türk diaspor təşkilatı ilə birgə çıxış edirik. Biz “Azərbaycan Evi” Mədəniyyət və Dostluq Mərkəzinin açılışının bir illiyi ilə bağlı ötən il noyabrın 14-də mərkəzin binasında tədbir keçirdik. Tədbirdə Azərbaycan səfirliyinin təmsilçiləri, icmamızın nümayəndələri, Azərbaycanla maraqlanan əcnəbi qonaqlar iştirak etdi. Yubiley proqramında şotlandiyalı fotoqraf Colin J.Rosienin lentə aldığı Bakının şəkillərindən ibarət sərgi təşkil edildi. Tədbirdə “Azərbaycan Evi”nin fəaliyyəti dövründə əldə etdiyi uğurlarla bağlı məlumat verdik, sonra mərkəzin fəaliyyəti ilə bağlı hazırlanmış videofilm nümayiş etdirildi. Daha sonra Colin J.Rosie çəkdiyi fotoşəkillər haqqında danışaraq foto-slide nümayiş etdirdi. Yubiley tədbirinin sonunda musiqili hissə keçirildi. İlk olaraq Britaniyada yaşayan azərbaycanlı skripkaçı və gənc pianoçumuz çıxış edərək Azərbaycan və dünya klassikasından nümunələr ifa etdilər. Həyata keçirdiyimiz tədbirlərdən biri də Londonda yerləşən Puşkin Evində Azərbaycanın Londondakı səfirliyi və “Azərbaycan Evi” Mədəniyyət və Dostluq Mərkəzinin birgə dəstəyi ilə gerçəkləşən görkəmli Azərbaycan şairi Nəsimiyə həsr olunmuş gecə idi. Tədbirdə britaniyalı sənətsevərlər, Azərbaycan və rus icmasının nümayəndələri iştirak etdilər. Tədbirin aparıcısı, “Gruntlers Arts” qrupunun rəhbəri Devid Perri Nəsiminin həyat və yaradıcılığı haqqında məlumat verərək bu tədbirin Şərqin böyük şairinin ilk dəfə olaraq Böyük Britaniya ictimaiyyətinə çatdırılması baxımından xüsusi önəmini vurğuladı. Səfir Fəxrəddin Qurbanov görkəmli şairin həyat və yaradıcılığından danışaraq onun Azərbaycan və bütövlükdə Şərq fəlsəfi fikri və ədəbiyyatı tarixində özünəməxsus yer tutduğunu bildirdi. Tədbirin sonunda “Nəsimi” bədii filmindən fraqmentlər nümayiş etdirildi, uelsli şair Neycel Hamfreyzin ifasında Nəsimiyə həsr olunmuş şeirlər ifa edildi. Tədbirdə ingiltərəli aktyorun ifasında Nəsiminin şeirləri əsasında hazırlanmış monoloq ifa edildi.

Son tədbirlərdən biri kimi ümummilli lider Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar Azərbaycanın Böyük Britaniyadakı səfirliyində anma mərasimi keçirildi ki, bu mərasimdə orada fəaliyyət göstərən Azərbaycan təşkilatları, o cümlədən Azərbaycan Beynəlxalq Bankı, Dövlət Neft Şirkəti, "Azərbaycan Hava Yolları" şirkətinin Londondakı nümayəndələri, eləcə də "Azərbaycan Evi"nin nümayəndələri iştirak edirdi. Biz öncə Heydər Əliyevin səfirliyin binasında yerləşən büstü önünə əklil qoyduq. Səfir Fəxrəddin Qurbanov ümummilli liderin həyat yolu və siyasi fəaliyyətindən, onun Azərbaycan xalqı və dövlətçiliyi qarşısında misilsiz xidmətlərindən söhbət açdı və ötən əsrin 90-cı illərində dövlətçiliyimizin qorunub saxlanması, ölkəmizin dünya birliyində özünə layiqli yer tutması, eləcə də davamlı iqtisadi inkişafın möhkəm özüllərinin atılmasının məhz onun liderliyi sayəsində mümkün olduğunu bildirdi. Həmin siyasi kursun bu gün də uğurla davam etdirildiyi, ölkə başçısının rəhbərliyi altında Azərbaycanın bütün istiqamətlərdə öz mövqelərini günü-gündən gücləndirdiyi vurğulandı. Ulu öndərin Azərbaycan xalqı qarşısında xidmətləri əvəzsizdir. Heydər Əliyev xarici ölkələrdəki Azərbaycan diasporunun güclənməsi və milli maraqların beynəlxalq səviyyədə müdafiəsini hər zaman diqqət mərkəzində saxlayıb və onun xatirəsi daim Azərbaycan xalqının qəlbində yaşayacaq. Həmin mərasimdə ümummilli liderin həyat və siyasi fəaliyyətini əks etdirən sənədli film nümayiş etdirildi. Qarşıdan Dünya Azərbaycanlılarının Həmrəylik Günü gəlir. Biz bu münasibətlə də tədbir planlaşdırmışıq. Bu gün həqiqətən də bütün dünya azərbaycanlılarının həmrəyliyi vacibdir. Hazırda bir çox diaspor təşkilatları fəaliyyət göstərir və mənim fikrimcə, bu gün onların fəaliyyətinin daha da güclənməsinə ehtiyac var. Mən Diasporla İş üzrə Dövlət Komitəsinə, Azərbaycanın Böyük Britaniyadakı səfirinə öz təşəkkürümü bildirirəm ki, onlar bir sıra tədbirlərin reallaşmasında bizə dəstək olurlar.

- Londonda "Uçan xalça ilə nağıllara" adlı geniş bir layihə gerçəkləşdi. Bununla bağlı nə deyə bilərsiniz?

- Böyük Britaniyada Azərbaycan mədəniyyəti ilə bağlı bir sıra layihələr gerçəkləşdirilir. Biz də bu tədbirlərin bir çoxunun təşkilatçısı və iştirakçısı oluruq. Son tədbirlər sırasında "Uçan xalça ilə nağıllara" layihəsi mühüm yer tutur. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın səyi nəticəsində Azərbaycan xalçası YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil olub. Bu o deməkdir ki, artıq Azərbaycan xalçasını biz bu gün dünyada tanıtdıra bildik. Hər bir xalqın, millətin incəsənəti, mədəniyyəti o vaxt tanınır ki, o, beynəlxalq miqyasda dəstəklənir. YUNESKO-nun siyahısına daxil olmaq bizim üçün çox əhəmiyyətlidir. Hazırda Azərbaycan xalçası haqqında xarici ölkələrdə nəşr edilən jurnallarda da məqalələr dərc olunur. Londonda nəşr edilən "Xalı" jurnalında da Azərbaycan xalçası haqqında məqalələr nəşr edilib. Noyabrın 15-dən 21-dək Londonda Azərbaycan xalçalarına həsr olunmuş "Uçan xalça ilə nağıllara" adlı sərgi keçirildi. Sərgidə 380-ə yaxın yüksək səviyyəli qonaq, o cümlədən Lord Mendelson, Lord Braun, Türkiyənin Britaniyadakı səfiri Ünal Çeviköz, səfir F. Qurbanov, Belarusun, Ukraynanın, Koreyanın Britaniyadakı səfirləri iştirak etdi. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyeva sərginin açılışında iştirak etdi. Səfir F. Qurbanov Azərbaycan xalçalarının Londonda nümayiş etdirilməsinə verdiyi dəstəyə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya və fondun Rusiya nümayəndəliyinin rəhbəri, "Baku" jurnalının baş redaktoru Leyla Əliyevaya minnətdarlığını bildirdi, Azərbaycan mədəniyyətinin qədim qollarından biri olan xalçaçılıq sənəti haqqında danışdı. Sərginin keçirilməsini yüksək dəyərləndirən İngiltərə-Azərbaycan Cəmiyyətinin həmsədri Lord Freyzer son illərdə Azərbaycanda güclü inkişafın müşahidə olunduğunu bildirdi. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyeva tədbirdə çıxış etdi və sərginin Azərbaycanın qədim və heyrətamiz nağıl aləmi ilə tanışlıq baxımından əhəmiyyətini vurğuladı, xalqımızın xalçaçılıq sənətinin tarixindən söz açdı. Böyük Britaniyanın mədəniyyət naziri Ed Vaizey Azərbaycanla İngiltərə arasında mədəni əlaqələrdən danışaraq sərginin ölkələrimizin münasibətlərinin daha da güclənməsinə xidmət etdiyini dedi. Sonra tədbir iştirakçıları Azərbaycan xalçalarından ibarət sərgiyə baxdılar. Sərgidə coğrafi mövqeyinə, naxış kompozisiyasına, texniki xüsusiyyətlərinə görə Azərbaycan xalçaçılıq məktəbinin bütün istiqamətləri təmsil olunmuşdu. Burada nümayiş etdirilən Quba, Abşeron, Şirvan, Gəncə, Qazax, Qarabağ və digər xalçaçılıq məktəblərinin nümunələri sərgiyə gələnlərdə böyük maraq doğurdu. Sərgidə səslənən Azərbaycan musiqisi də maraqla qarşılandı. Bundan sonra da biz bu səpgidə tədbirlərin reallaşmasına çalışacağıq.

Nigar
"Palitra". -2010.-24 dekabr.-N.139.-S.5.

Dünya azərbaycanlılarına
(24 dekabr 2010-cu il)

Əziz həmvətənlər!
Hörmətli soydaşlar!

Hər birimizdə böyük sevinc və səmimi duyğular oyadan 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində sizi ürəkdən salamlayır və ən xoş arzularımı yetirirəm.

Müstəqil Azərbaycan dövlətinin mövcudluğu dünya azərbaycanlıları arasında milli birliyin daha da güclənməsi və həmvətənlərimizin təşkilatlanması üçün geniş imkanlar yaradır. Eyni zamanda, xaricdə yaşayan soydaşlarımız da ölkəmizin inkişafına, qarşıya çıxan problemlərin həllinə yaxından kömək göstərməyə çalışırlar. Bu köməyin səmərəli olması məhz həmvətənlərimizin möhkəm birliyi, mütəşəkkilliyi və yaxşı təşkilatlanması sayəsində mümkündür. Ona görə də Azərbaycan dövləti diaspor quruculuğu işinə böyük əhəmiyyət verir və bu prosesə hərtərəfli yardım göstərir. Sevindirici haldır ki, xaricdəki həmvətənlərimiz arasında azərbaycançılıq ideyaları, milli mənəvi dəyərlərimiz getdikcə daha dərin kök salır. Onlar məskunlaşdıqları ölkələrin ictimai-siyasi, mədəni və işgüzar həyatında mühüm mövqelərə sahib olmaqla yanaşı, həm də Azərbaycanın dünyaya təqdim olunmasına, maddi və mənəvi irsimizin təbliğinə, ölkəmiz əleyhinə yönəlmiş ideoloji təxribatların qarşısının alınmasına öz töhfələrini verirlər. Düşünürəm ki, diaspor qurumlarımız bu sahədəki səylərini bundan sonra da artırmalı, intellektual potensialı ilə maddi resurslarını birləşdirməli, xarici ölkələrdəki diplomatik korpuslarımızla əlaqələrini genişləndirməlidirlər. Gələn il Bakı şəhərində Dünya Azərbaycanlılarının III Qurultayı keçiriləcəkdir. Əminəm ki, qurultayda diaspor təşkilatlarının fəaliyyəti dərindən təhlil olunacaq, qəbul edilən qərarlar soydaşlarımızın mütəşəkkilliyinin və təşkilati çevikliyinin gücləndirilməsinə təkan verəcəkdir.

Azərbaycan dövlətinin iqtisadi-siyasi, sosial-mədəni qüdrətinin artması və dinamik inkişafı bütün dünya azərbaycanlılarının arzusudur. Yola salmağa hazırlaşdığımız 2010-cu ildə bütün sahələrdə nəzərdə tutulmuş proqramlar uğurla icra edilmişdir. Ölkəmizdə yaradılmış güclü inkişaf potensialı, səmərəli idarəetmə sistemi dövlətimizin çətin sınaqlardan alnıaçıq çıxmasına imkan verir.

Hazırda respublikamızda sabit və sağlam ictimai-siyasi mühit hökm sürür. Cari ilin noyabrında keçirilmiş parlament seçkiləri ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun təntənəsini və xalqımızın bu kursa inamını, cəmiyyətimizin siyasi yetkinliyini və mütəşəkkilliyini bir daha nümayiş etdirdi.

Qazandığımız uğurlara baxmayaraq, hələ də müharibə şəraitində yaşadığımızı unutmamalıyıq. Hazırda qarşımızda ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdən vacib vəzifə yoxdur. Bu, bizim ümummilli işimizdir. Məhz bu amil bizi dövlətimizin müdafiə qabiliyyətinin artırılmasına, silahlı qüvvələrin gücləndirilməsinə xüsusi diqqət yetirməyə sövq edir. Biz yenidən qan tökülməsinin, dağıntıların və humanitar faciələrin qarşısının alınması üçün hələ də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə çalışırıq. Lakin Azərbaycanın bu məsələ ilə bağlı prinsipial mövqeyi dəyişməz qalır: Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Fəxrlə deyə bilərəm ki, bu gün Azərbaycan həmişəkindən daha güclüdür. Bizim gücümüz tək iqtisadi və hərbi qüdrətimizlə deyil, həm də sıx birliyimizlə ölçülür. Ona görə də harada yaşamağımızdan asılı olmayaraq milli birlik və həmrəylik ideyaları, bizi birləşdirən əsas dəyərlər kimi, hər birimizin düşüncəsinə hakim kəsilməlidir.

Əziz bacı və qardaşlar!

Dünya Azərbaycanlılarının Həmrəylik Günü soydaşlarımızın Vətən sevgisini, xalqımızın tarix və mədəniyyətinə hörmətini, dövlətimizə və azərbaycançılıq ideyalarına sədaqətini əks etdirir. Bu bayram münasibətilə hamınızı səmimi qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, firavanlıq və bütün işlərinizdə uğurlar arzulayıram!

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 24 dekabr 2010-cu il.

“Xalq qəzeti”. -2010.- 25 dekabr.-№ 284.-S. 1.

Azərbaycan və türk diaspor təşkilatları ABŞ-da fəaliyyətlərini genişləndirirlər

31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür

ABŞ dünyanın ən qüdrətli dövlətlərindən biridir. Ona görə də bu ölkədə baş verən hadisələr çox vaxt bütün dünyada əks-səda doğurur. Müəyyən bir problem barədə rəsmi Vaşinqtonun tutduğu mövqe həmin problemin həllində aparıcı rol oynayır. Demokratiyanın beşiyi sayılan ABŞ-da dövlət qərarlarının qəbul olunmasında və həyata keçirilməsində ictimaiyyətin rəyi həmişə nəzərə alınır. Təbii ki, ictimai rəyin formalaşmasına təsir göstərən mühüm amillərdən biri də təbliğatın düzgün qurulmasıdır. Məhz bu məqamda həmin ölkədəki diaspor təşkilatlarının fəaliyyətinin əhəmiyyəti və vacibliyi açıq-aşkar ortaya çıxır.

Müşahidələr göstərir ki, müxtəlif diasporlar tərəfindən ardıcıl aparılan təbliğat gec-tez öz bəhrəsini verir. Əsas odur ki, nə vasitə ilə olursa-olsun, irəli sürülən arqumentlərin həqiqəti əks etdirdiyini sübuta yetirəsən. Bəlkə də "sübutların" söykəndiyi elə bir ciddi fakt da yoxdur. Ancaq məsələdən hali olmayanlar üçün bəzən əsassız arqumentlər də öz-özlüyündə inandırıcı təsir bağışlaya bilər. Bu isə, o vaxt baş verir ki, həmin dezinformasiya yayanları ifşa edən "qüvvə" olmur.

ABŞ-dakı erməni lobbisi də uzun zamandan bəri belə bir üsulla öz yalanlarını ölkə ictimaiyyətinə sırıyıb. Əvvəllər bunu rahat həyata keçirsələr də, son vaxtlar çox ciddi maneələrlə qarşılaşırlar. Bu manea isə gündən-günə güclənən Azərbaycan və Türkiyə diasporudur. Dünyanın bir sıra ölkələrində olduğu kimi, ABŞ-da da diasporumuz Azərbaycan Prezidenti İlham Əliyevin "bir millətin iki diasporu ola bilməz" - kəlamını rəhbər tutaraq qan qardaşlarımızla birgə fəaliyyətlərini daha da genişləndirirlər.

Onların məqsədi Azərbaycan və Türkiyə xalqlarının yüksək milli-mənəvi dəyərləri barədə Amerika ictimaiyyətini məlumatlandırmaq, erməni lobbisinin yalan üzərində qurulmuş təbliğatını darmadağın etmək, xüsusilə də 20 faiz Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması həqiqətini ABŞ ictimaiyyətinə çatdırmaqdır. Sevindirici haldır ki, Amerikada bu missiyanı həyata keçirən onlarca Azərbaycan və türk cəmiyyətləri fəaliyyət göstərir. Bu cəmiyyətlər arasında Amerika Azərbaycanlıları Cəmiyyəti öz aktivliyi ilə daha çox seçilir. Hazırda cəmiyyətə Tomris Azəri rəhbərlik edir. Onunla internet vasitəsilə əlaqə yaradaraq diasporumuzun Amerikadakı fəaliyyəti barədə fikirlərini öyrəndik. Tomris xanım əvvəlcə cəmiyyətin yaranma tarixi barədə məlumat verdi:

- Cəmiyyətimiz 1956-cı ildə Nyu-Cersi ştatında yaşayan soydaşlarımız tərəfindən yaradılıb. Əsas məqsəd ABŞ-dakı azərbaycanlılar arasında həmrəylik yaratmaq və bu yolla öz milli-mənəvi dəyərlərimizi qorumaqdır. Çalışırıq ki, Amerikada yaşayan vətənpərvər azərbaycanlıların bizə əmanət etdiyi bu mədəniyyət və birlik ocağının fəaliyyətini daha da genişləndirək. Cəmiyyətin üzvlərinin demək olar ki, əksəriyyəti ABŞ-da uzun zamandan bəri yaşayan azərbaycanlılardır. Yəni üçüncü, dördüncü nəslinin nümayəndələridir. Bundan başqa, hazırda Amerikaya oxumağa, işləməyə gələn azərbaycanlılar da bizim cəmiyyətə üzv olurlar. Yəni, cəmiyyətimiz gündən-günə daha da güclənir. Hər il mütəmadi olaraq xalqımızın bütün milli bayramlarını Nyu-Cersidə qeyd edirik. Hər tədbirdə də şəhərdəki binamız soydaşlarımızla dolub-daşır. Hətta, bir çox hallarda o qədər soydaşımız gəlir ki, içəridə yer qalmır. Əslində, bu sevindirici haldır. Çünki bu onu göstərir ki, ABŞ-da azərbaycanlıların sayı durmadan artır, bununla bərabər, onlar arasında həmrəylik hissləri də güclənir.

- Cəmiyyətiniz ABŞ-ın ictimai-siyasi həyatında Azərbaycan həqiqətlərini gündəmə gətirə bilirmi

- Mən cəmiyyətin sədri seçildikdən sonra çalışmışam ki, bu istiqamətdə ardıcıl fəaliyyət göstərim.Çalışırıq ki, ABŞ senatorları, konqresmenləri ilə əlaqələr yaradaq. Onlara Azərbaycan barədə ətraflı məlumat verək. Dağlıq Qarabağın və onun ətrafında olan rayonların Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğunu, bunun nəticəsində minlərlə azərbaycanlının öz doğma el-obasından, ev-eşiyindən didərgin düşdüyünü senatorların və konqresmenlərin diqqətinə çatdıraq.

Buna müəyyən mənada nail olmuşuq. Biz həmin şəxslərlə ya üzbəüz görüşürük, ya da məktublar yazaraq, Azərbaycan həqiqətlərini onlara çatdırırıq. Biz tədbirlər keçirməklə də öz haqq səsimizi ucaldırıq. Məsələn, hər il 20 Yanvar, Xocalı faciələrinin ildönümlərini qeyd edirik. İnanın ki, tədbirlərimizdə iştirak edən amerikalılar biz azərbaycanlıların başına gətirilən müsibətləri öyrəndikdə dəhşətə gəlirlər və göz yaşlarını saxlaya bilmirlər. Həmin andan etibarən, onlar da Azərbaycanımızın dərdinə şərik olur, onun haqq səsinin müdafiəçilərinə çevrilirlər. Biz doğma Vətənimizin şanlı tarixini, mədəniyyətini, ədəbiyyatını, incəsənətini də təbliğ edirik. Azərbaycan mədəniyyəti, musiqisi bizim ən ideal təbliğat vasitəmizdir. Çünki Azərbaycanın mədəniyyətindən xəbərdar olan hər kəs "Odlar yurdu"na heyran qalır.

- ABŞ-dakı Azərbaycan və Türkiyə diasporları arasındakı əməkdaşlıq hansı səviyyədədir?

- Qətiyyətlə deyə bilərəm ki, bizim əməkdaşlığımız çox yüksək səviyyədədir. Demək olar ki, bütün tədbirlərimizi birgə həyata keçiririk. Azərbaycan və Türkiyə diasporlarının birlikdə fəaliyyət göstərməsi, bizim gücümüzü xeyli artırır.

Etiraf etmək lazımdır ki, əvvəllər həm Azərbaycan, həm də Türkiyə tərəfi diaspor fəaliyyətlərinə o qədər də diqqət ayırmırdı. Ancaq ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Bakıda Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi ilə, sanki həm Azərbaycan, həm də Türkiyə diasporları bu biganəlikdən xilas oldu. Heydər Əliyevin bu qurultaydakı nitqi bütün dünyada əks-səda doğurdu və diaspor fəaliyyətlərini daha da sürətləndirdi. Xüsusən, qurultaydan sonra diasporlarımızın fəaliyyəti ilə daim maraqlanan dövlət komitəsinin yaradılması müsbət istiqamətdə gedən bu prosesə təkan verdi. İndi biz komitə ilə daim əlaqə saxlayırıq, əməkdaşlıq edirik.

Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyətinin təmini istiqamətində ilk təşəbbüs də Azərbaycan rəhbərliyi tərəfindən göstərildi. 2007-ci il mart ayında Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumu keçirildi. Foruma 48 ölkədən 513 nəfər qatıldı. Onlardan 173-ü Azərbaycan, 140-ı türk diasporunun nümayəndələri idi. Ən önəmlisi odur ki, forumda Azərbaycan və Türkiyə diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası müəyyənləşdirildi. Bakı Bəyannaməsi, türkdilli xalqlara müraciət, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə müraciət qəbul olundu. Həmrəyliyin təmin olunması baxımından Bakı Bəyannaməsinə uyğun olaran 2008-ci il martın 27-də Almaniya Federativ Respublikasının Berlin şəhərində Azərbaycan və Türk Diaspor Təşkilatları Koordinasiya Şurasının illik iclası keçirilməsi də əhəmiyyətli hadisə oldu.

Sizi əmin edirəm ki, bizim bu şəkildə ardıcıl və birlikdə fəaliyyət göstərməyimiz erməni lobbisinə psixoloji baxımdan çox mənfi təsir edir. Mən Berlindəki iclasda da bildirdim ki, Amerikadakı erməni icması Azərbaycan və türk diasporunun birgə fəaliyyətindən narahatlıq keçirir. Çünki məhz bizim sıx əməkdaşlığımız sayəsində ABŞ Konqresində həm Azərbaycan, həm də Türkiyə dostluq qruplarının sıraları durmadan genişlənir. Artıq 3 ildir ki, fəaliyyət göstərən "US Azeri Network" şəbəkəsi vasitəsiylə diaspor üzvləri bütün zəruri sənədlərdən, tədbirlərdən operativ xəbər tutur, öz mövqeləri barədə ABŞ Konqresinin üzvlərini daha tez məlumatlandırmaq imkanı qazanırlar.

- ABŞ Konqresi demişkən, bu günlərdə Nümayəndələr Palatasında qondarma "erməni soyqırımı"na dair qətnamə müzakirəyə çıxarılacaqdı. Ancaq bu baş tutmadı. Təbii ki, bundan ən çox ermənilər məyus oldular...

- Həqiqətən də çox çətin bir vəziyyət yaranmışdı. Çünki qondarma "erməni soyqırımı" barədə qanun layihəsinin müzakirəyə çıxarılması haqda heç bir məlumat yox idi. Biz bu barədə xəbəri Nümayəndələr Palatasının keçmiş sədri Nensi Pelosinin dekabrın 17-də verdiyi açıqlamadan öyrəndik. Hər halda erməni lobbisi və ermənipərəst konqresmenlər bu xəbəri məqsədli şəkildə son günlərədək gizli saxlayırdılar. Onlar Amerikada artıq kifayət qədər güc toplamış Azərbaycan və türk diaspor təşkilatlarının, eyni zamanda, Türkiyə və Azərbaycanın məsələyə müdaxilə edəcəyindən ehtiyatlanırdılar. Həqiqətən də bu barədə xəbəri öyrənən kimi, ermənilərin qorxduqları baş verdi. Amerikada dərhal etiraz səsimizi yüksəltdik. Konqresmenlərə internet vasitəsiylə yüzlərlə mesaj ünvanladıq, onların ofislərinə zəng etdik, birbaşa görüşlər keçirildi. Ümumi səylər nəticəsində ermənilər yenə də məyus oldular. Belə məqamda bir daha anlaşılır ki, ABŞ-da diaspor fəalliyətinə önəm verməkdə heç də səhv etməmişik.

Unutmamalıyıq ki, erməni lobbisi Türkiyənin və Azərbaycanın əleyhinə uzun illərdir təbliğat aparır. Onlar həmişə Türkiyə və Azərbaycana düşmənçilik mövqeyindən yanaşıblar. Daim bizi ləkələmək, ölkələrimizdə gedən prosesləri təhrif etmək, yalan, böhtan kampaniyasını aparmaq onların əsas peşəsidir. Biz bunun qarşısına öz təbliğat mexanizmimizi qoymalıyıq və qoyuruq da. Ona görə də biz daim güclənməliyik, təşkilatlanma prosesini davam etdirməliyik. Yaşadığımız ölkələrin siyasi dairələrinə, siyasi təsisatlarına daha fəal inteqrasiya etməliyik. Budur, türk qardaşlarımız artıq müxtəlif ölkələrin qanunvericlik orqanlarında təmsil olunurlar, onlardan hökumət nümayəndələri var. Bu, çox önəmlidir.

- Təbbi ki, qondarma "erməni soyqırımı" məsələsi ətrafında cərəyan edən prosesləri biz də diqqətlə izləyirdik və əldə olunan nəticə Azərbaycanda da məmnuniyyətlə qarşılandı. Ancaq Ermənistan mətbuatının yazdığına görə, bu məsələ yenidən gündəmə gətirilə bilər.

- Əlbəttə, ermənilər həmişə çalışacaqlar ki, qondarma soyqırımı məsələsini daim gündəmdə saxlasınlar. Xüsusən, hər il aprelin 24-dən əvvəl Konqresdə bu məsələnin gündəmə gətirilməsinə çalışırlar. ABŞ Prezidentinin hər il aprelin 24-də ermənilərə ənənəvi müraciətində "soyqırımı" sözünü işlətməsi üçün də fəal iş aparırlar. Ancaq bunun müqabilində biz də fəallığımızı artırırıq və lazımi addımları atırıq. Ermənilər çalışır ki, 1915-ci ildə baş verən hadisələrin 100-cü ildönümünədək, yəni 2015-ci ilədək ABŞ qondarma soyqırımını tanısın. Buna nail ola bilməsələr hadisələrin 100-cü ilində daha geniş kampaniya aparacaqlar. Lakin biz də çalışacağıq ki, yalan üzərində qurulmuş bu təbliğata qarşı tədbirlər görək.

- Ermənilər yenə də iddia edirlər ki, onların lobbisi ABŞ-da çox güclüdür. Guya, buna səbəb onların burada sayca çoxluq təşkil etmələridir. Yəni həqiqətən də ermənilər ABŞ-da azərbaycanlılardan və türklərdən sayca çoxdurlar?

- Qətiyyən belə deyildir. Onların sayının çox olması barədə deyilənlərin hamısı dezinformasiyadır. ABŞ-dakı erməni lobbisi ancaq maliyyə baxımından güclüdür. Yəni bu lobbi, əslində 5-10 erməni milyonerindən ibarətdir. Onlar müxtəlif yollarla senatorlarla, konqresmenlərlə əlaqə yaradır və yeri gələndə, əxlaqsızlığa da yol verərək, onlara rüşvət təklif edirlər ki, ermənilərin maraqlarını müdafiə etsinlər. Son kampaniyalarında Kim Kardaşyan adlı erməni qadınını ortaya atmışdılar. Görün, bunlar nə günə düşüblər ki, artıq ümidləri yüngül həyat tərzi keçirən qadınlara qalıb. Sizə yaxın tarixdən bir misal deyim: 2000-ci ildə ABŞ-da prezident seçkiləri keçirələndə, ermənilər Corc Buşdan xahiş ediblər ki, sözdə soyqırım iddialarının tanınmasında onlara kömək etsin, bunun qarşılığında Kaliforniya ştatında yaşayan 1 milyon erməni Buşa səs verəcəkdir... Və Corc Buş məhz Koliforniya ştatında məğlubiyyətə uğradı. Bu da onu göstərir ki, ermənilər öz saylarını saxta yollarla şişirdirlər.

Əslində, ABŞ-da azərbaycanlıların və türklərin sayı ermənilərdən qat-qat çoxdur. Hələ bura Orta Asiyadan olan qan qardaşlarımızı da əlavə etsək, görərik ki, ABŞ-da çox güclü potensialımız vardır. Biz, necə deyərlər, əvvəldən təşkilatlanmadığımıza görə, az görünürük. Ancaq son dövrlərdə bu çatışmazlıqlar da ortadan qaldırılır. İstər Azərbaycan, istərsə də Türkiyə diasporu qısa vaxt ərzində sürətlə inkişaf edib və bu proses davam edir. Mən əminliklə deyirəm ki, yaxın zamanlarda ABŞ-da türk lobbisi yaranacaqdır və bunun tərkibində türklərlə bərabər çox sayda amerikalılar da olacaqdır.

Doğrudur, ABŞ Konqresindəki dostluq qruplarında say baxımından ermənilər hələ də bizdən öndədir. Ancaq bunu da nəzərə almaq lazımdır ki, ermənilərin bu qrupu 20 ildən çox fəaliyyət göstərir. Türkiyə - Amerika dostluq qrupu isə cəmisi 3 ildir ki, yaradılıb. Bu, çox böyük uğurdur. Ən önəmlisi isə odur ki, erməni birliyindən ayrılaraq Türkiyə - Amerika dostluq qrupuna qoşulanların sayı gündən-günə artır.

-Təbii ki, siz Vətənimiz Azərbaycan ilə bağlı müntəzəm olaraq kütləvi informasiya vasitələrində yayılan məlumatları izləyir, ölkəmizin inkişafını və beynəlxalq aləmdə qazandığı uğurlardan xəbərdar olursunuz. Bu, hər bir azərbaycanlını sevindirir, amma belə düşünürəm ki, Azərbaycanda yaşayanlardan çox Vətən həsrətində olan sizlər-xaricdə yaşayan azərbaycanlılar bu səpkidə olan xəbərlərə daha çox sevinirsiniz.

-Tamamilə doğrudur. İnsan Vətəndən uzaqda olanda onun həsrətini daha çox çəkdiyi üçün orada baş verənləri də diqqətlə izləyir. Biz Azərbaycanın hər bir uğuru barədə qəzetdən bir məlumatı oxuyanda və ya televiziyadan izləyəndə inanın sevincimizin həddi-hüdudu olmur. Bu hisslərimizi izah etməyə sözlər yetməz, anlamaq üçün ancaq bunu yaşamaq lazımdır.

Məni ən çox sevindirən odur ki, Azərbaycan sürətlə inkişaf edir, güclənir, böyük uğurlar qazanır. Buna paralel olaraq beynəlxalq aləmdə də onun mövqeləri xeyli güclənir. Mən hər dəfə Azərbaycana gələndə burada böyük inkişafın, müsbət dəyişikliklərin şahidi oluram. Bakımızın gözəlliyi insanı heyran edir. İnanıram ki, Azərbaycan bundan da yüksək zirvələri fəth edəcək. Elə bir zirvəyə yüksələcək ki, ora heç bir düşmənin nə əli çatacaq, nə də ünü yetəcək.

Rauf Əliyev
“Xalq qəzeti ”.-2010.-28 dekabr.-N 286.-S.5.

“Azərbaycançılıq dünya azərbaycanlılarını birləşdirən və onlara kimliyini tanıdan milli ideologiyadır”

Əliyar Orucov
Fövqəladə Hallar Nazirliyi Akademiyasının Humanitar fənlər kafedrasının müəllimi, fəlsəfə doktoru, ehtiyatda olan baş leytenant

XIX əsrin 60-cı illərindən başlayaraq, rus və xarici mətbuatda çap olunan kitablarda, dövri mətbuatda «Azərbaycan», «azərbaycanlı» terminlərinə rast gəlinmirdi. Bu cəhətdən görkəmli ictimai xadim, «Şərqi-Rus» qəzetinin təsisçisi Məhəmməd Ağa Şahtaxtlının 1891-ci ildə «Kaspi» qəzetinin 93-cü sayında «Zaqafqaziya müsəlmanlarını necə adlandıraq» adlı məqaləsi ilə çıxış etməsi maraqlıdır. O, Zaqafqaziya müsəlmanlarının rus dilində «tatar» adlandırılmasını düzgün hesab etmir, Azərbaycan türkü ilə daxili quberniyaların tatarı arasında dildə, zahiri görünüşdə, adətlərdə, xasiyyətdə böyük fərqin olduğunu göstərərək yazır: «Zaqafqaziya məhəmmədlilərinin (yəni müsəlmanlarının - Ə.O.) danışdığı dil əsas: osman, səlcuq, Azərbaycan dialektlərinə bölünən türk qrupuna aiddir.… Zaqafqaziya türkləri, əlbəttə, farslar da deyillər. Bu xalqlar bir-birindən dilinə görə fərqlənirlər, türk və fars dilləri tamamilə müxtəlif dillərdir. Zaqafqaziya müsəlmanlarını - azərbaycanlılar, onların dillərini isə - Azərbaycan dili adlandırmaq daha münasib olardı».

Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yubiley üzrə dövlət komissiyasının iclasındakı giriş sözündə ümummilli lider Heydər Əliyev məhz məsələnin etik-mənəvi aspektinə diqqət verərək, xalqın özünü tanımasını təmin etmək zərurəti haqqında deyirdi: «Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin. Milli yubileyin keçirilməsi indiki nəslin, xüsusən gənclərin tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə necə töhfələr verdiyini bir daha dərk etməsinə şərait yaradacaq və hər bir azərbaycanlıda, ilk növbədə milli iftixar, vətənpərvərlik hissini daha da yüksəldəcəkdir. Bunun özü müstəqil Azərbaycanda bizim üçün çox gərəkli bir amildir». Həqiqətən də torpaq, ərazi o zaman vətənə çevrilir ki, o, milli ideyanın daşıyıcısı olsun. Əlbəttə ki, dərk olunmuş vətənpərvərlik təbii ki, daha dayanıqlı və faydalı olur. Millətin milli şüurunun, milli özünüdərketməsinin inkişafı üçün milli ideologiya lazımdır. Xalqı müstəqilliyə və istiqlaliyyətə apara biləcək yeganə dünyagörüşü varsa, o da milli ideologiyadan ibarətdir. XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan xalqının apardığı milli mübarizənin məntiqi nəticəsi kimi Azərbaycan Xalq Cümhuriyyəti yarandı.

Qeyd edək ki, bütün türk mənşəli dövlətlər əsasən dini təməl üzərində qurulduğu halda, Azərbaycan Xalq Cümhuriyyəti dünyəvi təməl üzərində qurulan ilkin türk dövləti idi və Şərqdə ilk demokratik respublika idi. Cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci il aprel ayının 28-də sovet Rusiyası qoşunları tərəfindən işğal edilməsi ilə xalqın milli özünüdərki nəticəsində əldə edilmiş milli azadlıq və dövlət müstəqilliyinə son qoyuldu. Buna baxmayaraq, milli özünüdərkdən gələn milli azadlıq ideyaları bu zaman ölməmiş və əksinə, daha da inkişaf edərək yüksək zirvəyə çatıb. Lakin dövlət müstəqilliyini itirmiş Azərbaycanda ideoloji mübarizə davam edirdi və bu mübarizə Azərbaycan xalqının mənəvi mədəniyyətində və ilk növbədə onun ölkədaxili və mühacirətdə yaradılan ictimai-siyasi və fəlsəfi fikrini təmsil edən və sovet hakimiyyətinin pantürkist, panislamist adlandırıb mübarizə etdiyi irsdə əksini tapdı. Xalqda yaşayan islamçılıq, türkçülük və azərbaycançılıq ideyaları onun milli özünüdərkində, XX əsrin sonlarında istiqlal mübarizəsində göstərdi. Bu zaman sovet dövləti süqut etdi və Azərbaycan yenidən müstəqil respublikaya çevrildi.

Beləliklə, XX yüzillikdə dəfələrlə istiqlal savaşına qalxmış xalq, nəhayət tarixi torpaqlarımızın bir hissəsində - Şimali Azərbaycanda özünün qədim dövlətçilik ənənələrini dirçəldə bilmişdi. Bu zaman müstəqil, doğma Azərbaycanımız yenidən siyasi varlığa çevrilib. Sovet imperiyasının dağılmasından sonra keçmiş SSRİ-nin bütün millət və xalqları kimi Azərbaycan xalqı da azadlıq şəraitində milli şüurunun və milli özünüdərk ideyalarının inkişafı üçün geniş imkan əldə etdi. Sovet rejiminin süqutundan sonra formalaşan milli dövlətçiliyimiz artıq inkişaf yoluna çıxmaq üçün geniş imkan qazandı. Milli ideya xalqı və hakimiyyəti birləşdirən bir zəmin olaraq müstəqil yaşamaq hüququ əldə edən Azərbaycan Respublikasına öz tarixi milli özünüdərk ənənələrini yeni demokratik dövlət təsisatları ilə üzvi surətdə əlaqələndirmək imkanı verdi. Milli ideyanın gücü dövlətdirsə, dövlətin gücü isə milli ideyaya, milli şüurun inkişafına xidmət etməkdədir.

1989-cu il, dekabrın son günlərində Azərbaycan millətinin, Arazın hər iki sahilinə sərhəd yürüşü, dəmir tikanlı məftilləri qırması, özünü suya vurub öz doğma qardaşlarına qovuşmaları, azərbaycanlıların bir millət olduğunu dünyaya bir daha çatdırdı. Həmrəylik günü bu birləşmək istəyinin simvolik nişanıdır. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu il, dekabrın sonlarında Naxçıvanda sərhədlərin (SSRİ-İran sərhədləri) dağılması zamanı qoyuldu. Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəkləri dağıdıldı. 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq SSRİ-İran dövlət sərhədindəki tikanlı məftil qurğularının söküldüyü 1989-cu ilin 31 dekabrını - Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi.

Beləliklə, bütün azərbaycanlılar üçün əziz olan 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi bayram edilir. Müasir Azərbaycan Respublikasını Azərbaycan Xalq Cümhuriyyətinin qanuni varisi sayan ulu öndər Heydər Əliyev 20 mart 2001-ci il tarixli fərmanı ilə Azərbaycanın dövlət müstəqilliyinin onuncu ildönümünə həsr olunmuş tədbirlər planını təsdiq etdi. Plana uyğun olaraq respublikamızın müstəqilliyinin 10-cu ildönümünün təntənə ilə qeyd olunduğu bir vaxtda, 2001-ci il noyabr ayının 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi.

Dünya Azərbaycanlılarının I Qurultayında 35 xarici dövlətdə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatı təmsil edən 403 nümayəndə və 63 qonaq iştirak etdi. Eyni zamanda bu qurultayda ABŞ, Türkiyə, Rusiya, Böyük Britaniya, Avstraliya, Avstriya, Kanada, Fransa, Almaniya, Rumıniya, İsveçrə, Danimarka, Hollandiya, Finlandiya, Latviya, Estoniya, Belarus, Ukrayna, İsrail, Özbəkistan, Qazaxıstan, Moldova və s. dövlətlərdə fəaliyyət göstərən milli mədəniyyət mərkəzlərinin və cəmiyyətlərin nümayəndələri iştirak ediblər.

Bu da öz növbəsində milli şüurun, milli özünüdərk ideyalarının dərinləşməsinin və daha da canlandırılmasının başlıca şərtlərindən biridir. Noyabrın 9-da ümummilli lider Heydər Əliyev Dünya Azərbaycanlılarının I Qurultayındakı nitqində xalqın milli özünüdərkindən bəhs edərək deyib: "Hər insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı, Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıdır. Azərbaycan dilinin inkişafı haqqında qəbul etdiyimiz geniş qərar məhz bu məqsədi daşıyır". Azərbaycançılıq termini ölkəmizin ictimai-siyasi həyatında yaxın illərdən başlayaraq istifadə olunur.

Xalqın milli mənlik şüuru və milli özünüdərkinin inkişafı kimi azərbaycançılıq ideologiyası mühüm funksional elementlərlə zəngindir. Onun mahiyyəti xalqı mənəvi və fiziki baxımdan zəiflətmək cəhdlərindən qorumaqdır. Bu ideologiya unitar, hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmlənməsinə və inkişafına yönəlib. Milli özünüdərk ideyaları əsasında yaranan azərbaycançılıq müstəqil və bənzərsiz Azərbaycanı sivil dövlətlər sırasına çıxaran bir yoldur. Eyni zamanda azərbaycançılıq xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi sosial və mənəvi sərvətdir. Belə ki, o, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir.

Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin bildirdiyi kimi, azərbaycançılıq Azərbaycanın fəlsəfi-sosioloji doktrinasının sosial-mədəni və etnocoğrafi-siyasi cəhətlərini özündə birləşdirir. O, qarşılıqlı dəstək, əməkdaşlıq və bərabərlik prinsipidir. Milli özünüdərkdən gələn azərbaycançılıq ideologiyası xalqımızın dövlətyaratma mənafelərinin ümumiliyi və demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədidir. Eyni zamanda bu ideya dünya azərbaycanlılarının mütəşəkkilliyi, vəhdəti və birliyidir. Bundan əlavə azərbaycançılığın başlıca məqsədi müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi ilə bərabər xalqımızın milli mənlik şüurunun, tarixi milli özünüdərk ideyalarının təsiri sayəsində milli özünüdərketməsinin yüksəldilməsindən ibarətdir.

2003-cü ildən diaspor quruculuğu siyasətini yeni dünya nizamının gerçəkliklərinə uyğun davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev müxtəlif səbəblərdən Azərbaycanın hüdudlarından kənarda yaşayan azərbaycanlıların vahid azərbaycançılıq ideologiyası və milli-mənəvi dəyərlər sistemi ətrafında birləşməsinə, onların malik olduğu böyük potensialın ümummilli problemlərin həllinə yönəldilməsinə xidmət edən mühüm tədbirlər həyata keçirib. Ölkəmizin dinamik iqtisadi inkişaf mərhələsinə qədəm qoyması ilə bərabər dünya azərbaycanlılarının milli məqsədlərinin reallaşdırılması ruhunda köklənməsi, qarşıda duran ən strateji hədəflərin müəyyənləşdirilməsini zərurətə çevirib. Prezident İ. Əliyevin 8 fevral 2006-cı il tarixli sərəncamı əsasında 2006-cı il, martın 16-da Bakıda Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi də məhz bu reallıqla şərtlənib, həmin möhtəşəm tədbirdə xaricdə yaşayan azərbaycanlıların problem və qayğıları, onların birliyi və təşkilatlanması sayəsində mövcud vəziyyət ətraflı təhlil olunub.

Eyni zamanda ölkə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, diaspor quruculuğu işinin təkmilləşdirilməsi sahəsində qarşıda duran vəziyyətlər müəyyənləşdirilib. Qeyd edək ki, mühüm qərarların qəbulu ilə yadda qalmış həmin qurultaydan sonra xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması prosesi daha geniş vüsət alıb, onların ictimai-siyasi həyatda iştirak səviyyəsi yüksəlib, respublikanın ziyalı təbəqəsi diaspor quruculuğu prosesinə daha fəal qoşulub. Həmçinin Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, xaricdə yaşayan həmvətənlərimizin birlik və həmrəyliyinin möhkəmlənməsi, mədəni irsin təbliği, digər xalqların diaspor təşkilatları ilə hərtərəfli əlaqələrin inkişafı, türk dünyasının birliyi istiqamətində fəaliyyətinin güclənməsində irəliləyişlər əldə edilib.

Qeyd edək ki, Dünya Azərbaycanlılarının II Qurultayında 49 ölkədən 1218 nümayəndə və 388 qonaq iştirak edib. Qurultayda çıxış edən Prezident İ.Əliyev «Mən çox istərdim ki, azərbaycanlılar yaşadıqları ölkənin ictimai-siyasi həyatında mühüm rol oynasınlar.

Bu, bizim mövqeləri möhkəmləndirir. İqtisadi baxımdan bizim mövqelərimiz möhkəmdir, indi də siyasi baxımdan möhkəmlənmək lazımdır»-fikrini vurğulayıb və daha sonra «Bizim gücümüz sizin fəaliyyətinizdə, sizin də gücünüz Azərbaycan dövlətinin gücündədir. Ölkəmiz nə qədər güclü olsa, siz də o qədər güclü olacaqsınız» - deyə dünya azərbaycanlılarına müraciət edib. Bu gün də Prezidentin fəaliyyətində bu amal ardıcıl və uğurla həyata keçirilməkdədir. Beləliklə, milli şüurun təşəkkül və inkişafında tarixi milli özünüdərk ənənəsinin təsiri nəticəsində bu gün cəmiyyətimizdə milli şüurun formalaşması milli özünüdərk prosesinin güclənməsi bilavasitə dövlətçiliyin ideoloji bazasının möhkəmləndirilməsinə gətirib çıxarır. Eyni zamanda Azərbaycan cəmiyyətində milli ideologiya, milli-mənəvi birlik yaradılmasına xidmət etməklə bərabər, bütövləşməyə və həmrəyliyə xidmət edir.

Prezident İ.Əliyevin uğurlu siyasi-iqtisadi siyasəti nəticəsində yaxın müddətdə ölkədə baş verən sıçrayışlar milli ideologiyamızın sosial-iqtisadi bazasını zənginləşdirib. Belə ki, milli iqtisadiyyatın milli özünüdərki təmsil edən milli ideologiya ilə vəhdəti dövlətçiliyimizin daha da möhkəmlənməsi və sabitləşməsi yolunda parlaq nəticə göstərib. Bu gün xalqımız Prezidentin rəhbərliyi ilə Azərbaycan dövlətçiliyinin mənəvi dayağı olan azərbaycançılıq ideologiyası əsasında özünün varlığını dərk edir, maddi-mənəvi sərvətlərinin sahibi olur. Beləliklə, Azərbaycanda milli şüurun və milli özünüdərkin bütün formalarının yüksək vüsət almasına imkan sürətli inkişaf strategiyasının Prezident İ.Əliyev tərəfindən seçilməsi və uğurla həyata keçirilməsi ölkəmizdə istehsal, elm, mədəniyyət, Azərbaycan dilinin inkişafı sahəsində əldə edilmiş tərəqqi, milli mənlik şüurun inkişafına, milli özünüdərkin yüksəlməsinə və müstəqil Azərbaycan dövlətinin inkişafına xidmət edən uzaqgörən planın tərkib hissəsidir.

“Palitra”.-2010.-29 dekabr.-N.141.-S.5.

Milli birlik bizi birləşdirən əsas dəyərdir

Sürətlə, dinamik inkişaf edən müstəqil Azərbaycan dünyanın müxtəlif bölgələrində yaşayan soydaşlarımız arasında milli birliyin daha da güclənməsi və onların təşkilatlanması üçün insan hüquqlarına dair beynəlxalq sənədlərdə əksini tapmış prinsipial müddəalardan çıxış edərək onların hüquqlarının qorunması üçün əməli tədbirlər görür. Xaricdə yaşayan soydaşlarımız da öz növbəsində ölkəmizin inkişafına, qarşıya çıxan problemlərin həllinə getdikcə daha çox kömək göstərirlər.

Hazırda həmvətənlərimiz yaşadıqları xarici ölkələrdə fəal toplum kimi çıxış edir, cəmiyyətin iqtisadi, ictimai-siyasi və mədəni həyatına daha çox inteqrasiya olunur, həmin ölkələrlə Azərbaycan arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında əhəmiyyətli rol oynayırlar. Bu da təbiidir. Azərbaycan dövləti diaspor quruculuğu işinə böyük əhəmiyyət verir və bu prosesə hərtərəfli yardım göstərir. Halbuki, dünya azərbaycanlılarının təşkilatlanması, Bakı ilə siyasi, iqtisadi, mədəni və mənəvi əlaqələrin yaranması müstəqilliyimizin ilk günlərindən həyati tələbat kimi özünü göstərsə də, o vaxtlar dünya azərbaycanlılarını bir araya gətirmək, həmrəylik gününü bayram kimi qeyd etmək hakimiyyətdə olan qüvvələrin imkanı xaricində idi. Demək olar ki, milli diasporun formalaşması istiqamətində heç bir addım atılmamışdı. Azərbaycan lobbisi yox idi və bunun nəticəsi idi ki, 1991-1993-cü illərdə beynəlxalq aləmdə ölkəmizin mənafeyinin əleyhinə bir sıra qərarlar qəbul edilirdi.

Milli diasporun formalaşması və dünyada Azərbaycan lobbisinin inkişafı isə məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər hələ Naxçıvan Ali Məclisinin Sədri olarkən bu məsələnin vacibliyini nəzərə alaraq Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd olunması barədə təşəbbüs irəli sürmüş, Naxçıvan MR Ali Məclisi 1991-ci il 16 dekabr tarixli qərarı ilə dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunması barədə qərar qəbul etmişdi. Həmin tarixi qərara imza atan Heydər Əliyevin bu missiyası bütünlüklə milli diasporun formalaşmasına zəmin yaratdı. Ümummilli lider dünya azərbaycanlılarına müraciətində deyirdi: "Biz istərdik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşları kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Çünki bizi birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir... Vətənini, millətini sevən hər bir azərbaycanlı müstəqilliyimizin dönməzliyi üçün ciddi səy göstərməli, Vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır".

Müstəqillik illərində dünya azərbaycanlılarının xalqımızın milli-mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqına mənsubluq, Vətənə bağlılıq, azərbaycançılıq duyğularına əsaslanan həmrəylik ideyası isə Heydər Əliyevin sayəsində ictimai təşəbbüslərdən əməli işə, çoxşaxəli fəaliyyət planına və dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilmişdir.

Ulu öndər Heydər Əliyevin sayəsində azərbaycanlıların yığcam yaşadıqları ölkələrdə təşkilatlanması, birlik və mütəşəkkilliyinin gücləndirilməsi, tarixi Vətənlə əlaqələrinin möhkəmləndirilməsi istiqamətində davamlı və məqsədyönlü tədbirlər görülmüşdür. Nəticədə xaricdəki həmvətənlərimiz arasında azərbaycançılıq ideyaları, milli-mənəvi dəyərlərimiz getdikcə daha dərin kök salmış, onlar məskunlaşdıqları ölkələrin ictimai-siyasi, mədəni və işgüzar həyatında mühüm mövqelərə sahib olmaqla yanaşı, həm də Azərbaycanın dünyaya təqdim olunmasına, maddi və mənəvi irsimizin təbliğinə, ölkəmiz əleyhinə yönəlmiş ideoloji təxribatların qarşısının alınmasına öz töhfələrini verməyə başlamışlar.

1995-ci ildən başlayaraq diaspor quruculuğu geniş vüsət almış, azərbaycanlıların yığcam yaşadıqları ölkələrdə təşkilatlanması, birlik və mütəşəkkilliyinin gücləndirilməsi, tarixi vətənlə əlaqələrinin möhkəmləndirilməsi istiqamətində davamlı və məqsədyönlü tədbirlər görülmüşdür. 2001-ci il noyabrın 9-10-da Bakıda ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Bu qurultay xaricdəki soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birləşərək təşkilatlanması baxımından tarixi əhəmiyyət kəsb edərək diaspor hərəkatının inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması, müxtəlif ölkələrdə dilimizin, tariximizin, mədəniyyətimizin yüksək səviyyədə təbliği, Ermənistanın təcavüzkarlıq siyasətinin ifşası, bədnam erməni lobbisinə qarşı sistemli və ardıcıl əks-hücumun təşkili məsələləri qurultayın qarşıya qoyduğu başlıca vəzifələr idi.

Ulu öndər Dünya Azərbaycanlılarının I qurultayında demişdir: "Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Azərbaycanın xaricində yaşayan azərbaycanlılar isə gərək, indi müstəqil Azərbaycan ilə daha da sıx əlaqələr qursunlar.

Bunlar hamısı dünyada olan bütün azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtlərdir... Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!!!

Qurultaydan sonra ulu öndər Heydər Əliyev bu sahədə sistemli dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədi ilə 2002-ci ildə "Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə" fərman imzaladı. Həmin ildə Milli Məclisdə qəbul olunmuş "Xarici ölkələrdə yaşayan soydaşlarımıza dövlət qayğısı haqqında" qanun isə o vaxtdan xaricdəki azərbaycanlılara dövlət qayğısının hüquqi əsaslarını müəyyənləşdirir. Diaspor təşkilatlarının fəallığının artması, azərbaycanlıların həmrəyliyinin geniş miqyas alması Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin də əsas diqqət mərkəzində saxladığı mühüm məsələlərdəndir. Dövlət başçısı cənab İlham Əliyev xarici ölkələrə səfərləri çərçivəsində həmişə Azərbaycan diasporu ilə görüşlər keçirir, onlara dəyərli tövsiyələr verir.

Cənab İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycan dövlətinin möhkəm olması dünyada yaşayan azərbaycanlıların da mövqeyini möhkəmləndirir. Dünya Azərbaycanlılarının 2006-cı il mart ayının 16-da keçirilmiş II qurultayı isə Azərbaycan diasporunun fəaliyyətində yeni mərhələnin əsasını qoydu. Həmin qurultayda diaspor quruculuğu istiqamətində görülən işlərə yekun vuruldu, xaricdə yaşayan soydaşlarımızın üzləşdiyi bəzi problemləri, yaşadıqları ölkələrin iç siyasətinə təsir imkanları müzakirə olundu, onların tarixi vətənlə daha geniş əlaqələrinin qurulmasına xidmət edən tədbirlər müəyyənləşdirildi. Azərbaycan diasporunun fəaliyyətinin əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, ölkə həqiqətlərinin, xalqımıza qarşı törədilmiş terror və soyqırımı aktları ilə əlaqədar çoxsaylı faktların dünya ictimaiyyətinə çatdırılmasının daha müasir metodlarının hazırlanması, digər xalqların diaspor təşkilatları ilə əlaqələrinin gücləndirilməsi məsələləri önə çəkildi.

Dünya Azərbaycanlılarının II qurultayında çıxış edən Prezident İlham Əliyev dedi: "Xaricdə yaşayan soydaşlarımızın fəallığı bizi çox sevindirir. Biz də buna çalışırıq və əlimizdən gələni edirik ki, bu proseslər daha da sürətlə getsin. Azərbaycanda iki dəfə - 2001-ci ildə və 2006- cı ildə dünya azərbaycanlılarının qurultayları keçirilmiş və bunların nəticəsi çox müsbət olmuşdur".

Qurultayda Azərbaycan diasporunun fəaliyyət konsepsiyasının hazırlanması barədə qəbul edilən qərar, dünya azərbaycanlılarına müraciət, habelə Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı xüsusi bəyanat, işğal olunmuş ərazilərdə tarixi abidələrimizin, mədəni irsimizin dağıdılması ilə bağlı beynəlxalq təşkilatlara müraciətlər və digər sənədlər istər təbliğati, istərsə də səmərəli əks-hücumun təşkili baxımından böyük əhəmiyyət kəsb edir. Gələn il Bakı şəhərində Dünya Azərbaycanlılarının III qurultayı keçiriləcəkdir. Sözsüz ki, bu qurultayda qəbul ediləcək qərarlar soydaşlarımızın mütəşəkkilliyinin və təşkilat çevikliyinin güclənməsinə yeni təkan verəcəkdir. Prezident İlham Əliyev dekabrın 24-də 31 dekabr həmrəylik günü münasibətilə Dünya Azərbaycanlılarına təbrikində demişdir: "Fəxrlə deyə bilərəm ki, bu gün Azərbaycan həmişəkindən daha güclüdür. Bizim gücümüz tək iqtisadi və hərbi qüdrətimizlə deyil, həm də sıx birliyimizlə ölçülür. Ona görə də harada yaşamağımızdan asılı olmayaraq milli birlik və həmrəylik ideyaları, bizi birləşdirən əsas dəyərlər kimi, hər birimizin düşüncəsinə hakim kəsilməlidir. Dünya Azərbaycanlılarının Həmrəylik Günü soydaşlarımızın Vətən sevgisini, xalqımızın tarix və mədəniyyətinə hörmətini, dövlətimizə və azərbaycançılıq ideyalarına sədaqətini əks etdirir".

Əhməd Məmmədov, Sumqayıt şəhər prokurorunun köməkçisi, ədliyyə müşaviri
“Azərbaycan”.-2010.-30 dekabr.-N 288.-S.10.

2011-ci ildə Azərbaycanın diaspor həyatını çox mühüm hadisələr gözləyir

Nazim İbrahimov: "hər bir diasporadan onların imkanlarından daha yüksək nələrsə gözləmək düzgün deyil"

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun müsahibəsi

-Nazim müəllim, dünya azərbaycanlılarının həmrəyliyi istiqamətində atılan addımlar və diasporumuzun bu günkü fəaliyyətini necə qiymətləndirirsiniz?

-31 dekabr dünya azərbaycanlılarının həyatında çox önəmli günlərdən biridir. Bu gün dünya azərbaycanlıları öz həmrəyliyini nümayiş etdirir, öz birliyini ortaya qoyur. Bu günü bizə bəxş etmiş Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevin bu günkü gün məzarını ziyarət etmək hər birimizin borcudur. Hər il olduğu kimi bu il də biz özümüzə borc hesab edirik ki, ümummilli liderimizin xatirəsini yad edək, ona öz hesabatımızı verək, onun böyük ürəklə qoyduğu yolun davam etdiyini söyləyək. Bu yol Azərbaycan prezidenti cənab İlham Əliyev tərəfindən bu gün çox inamla davam etdirilir. Bu gün dünya azərbaycanlılarının hər biri, dünyada yaşayan 50 milyonluq xalqın hər bir nümayəndəsi "Mən Azərbaycanlıyam" deyə fəxr edə bilir. Bu da azərbaycanlıların birliyinin ən yüksək nöqtəsi sayıla bilər. Dünyada olan Azərbaycan diasporası çox inkişaf edir, daha keyfiyyətli iş mərhələsinə qədəm qoyur.

Dünyanın müxtəlif ölkələrində olan Azərbaycan diaspor təşkilatları yeni iş metodlarını öyrəniblər. Azərbaycandan gedən və ölkəmizin problemlərini daha dərindən bilən xalqımızın nümayəndələri diaspor işində daha fəal iştirak etməyə başlayıblar ki, bu da işin keyfiyyətini daha yüksəklərə qaldırır. İndi diaspor təşkilatları Azərbaycan həqiqətlərini ortaya qoyub dünya ictimaiyyətinə çatdırmaqda böyük uğurlar əldə ediblər. Cənab prezidentə "Jurnalistlərin dostu" mükafatının təqdim olunma mərasimində dövlət başçısının qeyd etdiyi kimi artıq Azərbaycan informasiya müharibəsində udub. Hesab edirik ki, cənab prezidentin dediyi bu fikirlərdə Azərbaycan mətbuatının böyük rolu olduğu kimi həmçinin dünyada yaşayan azərbaycanlıların, diaspor təşkilatlarının, onların mətbuat səhifələrinin də çox böyük rolu vardır. Nə qədər ki, Dağlıq Qarabağ problemi həll edilməyib, torpaqlarımız geri qaytarılmayıb bütün dünyada olan Azərbaycan diaspor təşkilatlarının əsas vəzifələri dünya ictimaiyyətinə Azərbaycan həqiqətlərini, ölkəmizin haqq işini çatdırmaqdır. Bu sahədə diasporanın çox böyük əməyi var.

-Bir sıra ölkələrdə, o cümlədən bir müddət əvvəl Moskvada baş verən hadisələr və həmin hadisələrdə azərbaycanlıların zərər görməməsi üçün komitə hansı addımlar atır?

-Dünyada 370-dən artıq diaspor təşkilatı var və həmin diaspor təşkilatlarının Azərbaycanın, onun vətəndaşlarının, və ya Azərbaycana aid olan hər bir kəsin həyatına aid ən xırda məsələlərdə müəyyən iştirakları, rolu olub, proseslərdə çox aktiv şəkildə iştirak ediblər. Ola bilər ki, bir çox insanlar gördüyü işləri hər dəqiqə mətbuat səhifələrində işıqlandırmırlar. Hər kəs onu ümdə, ana vəzifəsi hesab edir. İstər Moskvada, istərsə də digər yerlərdə baş verən hadisələrlə bağlı müvafiq işlər görülüb. Əməkdaşlarımız Moskvada baş verən hadisələrlə bağlı bu şəhərə ezam olundular, orada Azərbaycan diaspor təşkilatlarının yığıncaqları keçirildi. Həmçinin ÜmumRusiya Azərbaycanlıları Konqresinin yığıncağı oldu. Baş verə biləcək hər hansı bir hadisənin qarşısının alınması üçün müəyyən profilaktik işlər görüldü. Əlbəttə ki, bu hadisələr sırf azərbaycanlılara qarşı deyildi. Bu xaotik olaraq baş vermiş hadisə idi və bunun da qarşısı tez alındı. Bir-iki hadisəni nəzərə almasaq azərbaycanlıların həyatına qarşı bizi narahat edə biləcək bir hadisə baş vermədi. Ümumiyyətlə, istənilən ölkədə bu istiqamətdə baş verən hər hansı hadisə ilə bağlı bizə aid olan və imkanımız daxilində olan hər bir işi görürük. Hər bir hadisəyə diaspor təşkilatları yetərincə reaksiya verir. Avropa Parlamentinin üzvünün Dağlıq Qarabağa səfərinə bütün dünyada olan diaspor təşkilatları çox böyük təpki göstərdilər. Azərbaycanın dövlət strukturları ilə bərabər diaspor təşkilatları da bu məsələdə aktiv iştirak etdilər.

-Moskvada baş verən hadisələrdən sonra kütləvi şəkildə Azərbaycana qayıdanlar olubmu?

-Zaman-zaman belə məsələlər mətbuatda daha çox şişirdilir. Bəlkə də bu Azərbaycanda dünya azərbaycanlılarına olan yüksək diqqətdən irəli gəlir. Ancaq elə bir hal yoxdur və şəxsən biz heç bir şeylə rastlaşmamışıq. Əlbəttə ki, 3-5 nəfər ailəsindən, uşaqlarından ehtiyat edib onları Azərbaycana gətirə bilərlər. Bunlar hamısı az-az hallardır.

-Dünya Azərbaycanlılarının növbəti qurultayının vaxtı dəqiqləşibmi?

-Prinsipcə qurultayın vaxtı müəyyənləşib. Gələn ilin mart ayında dünya azərbaycanlılarının üçüncü qurultayı keçiriləcək. Cənab prezident İlham Əliyev qurultayın keçirilməsi məsələsini bu il dünya azərbaycanlılarına müraciətində də artıq qeyd etdi. Konkret gün yəqin ki, yaxın vaxtlarda texniki cəhətdən müəyyənləşdiriləcək. Martın birinci yarısında üçüncü qurultay baş tuta bilər. Ümumiyyətlə, 2011-ci ildə Azərbaycanın diaspor həyatını çox mühüm hadisələr gözləyir. Dünya Azərbaycan Gənclərinin birliyinin yaradılması ideyası yəqin ki, gerçəkləşəcək. Hesab edirəm ki, dünya azərbaycanlılarının üçüncü qurultayı da Azərbaycan diasporunun həyatında mühüm tarixi hadisə olacaq.

-Nazim müəllim, nəhayət ki, Metyu Brayza ABŞ-ın Azərbaycana səfiri təyin edildi. Sizcə bu təyinatda ABŞ-dakı Azərbaycan diasporunun rolu nə dərəcədədir?

-Təbii ki, hər bir diasporadan onların imkanlarından daha yüksək nələrsə gözləmək düzgün deyil. Hər bir diasporanın həmin ölkədə öz rolu var. Onların imkanları çatdığı qədər Azərbaycana ABŞ-ın səfiri təyin olunma məsələsində bu ölkənin müvafiq dövlət qurumlarına müraciətlərini ediblər. Eyni zamanda bu məsələnin tezləşdirilməsini istəmişdilər. Əlbəttə ki, bu istəkdən daha çox yuxarı gedə bilməz. Diaspor təşkilatlarından bəzən biz normadan artıq bir şeylər gözləməməliyik. Nəzərə almaq lazımdır ki, təşkilatlarımızın aktiv fəaliyyətinin çox az yaşı var. Ümummilli liderin Azərbaycanda ikinci dəfə hakimiyyətə gəldikdən sonra diaspor təşkilatları konkret olaraq bu sahədə iş görməyə başlayıblar. Digər tərəfdən nəzərə almaq lazımdır ki, diaspor təşkilatlarının ictimai təşkilat kimi çox böyük köməyə ehtiyacları var. Onun üçün bəzi hadisələrdə diaspor təşkilatlarının üzərinə getmək diasporların fəaliyyətinə bir balaca kölgə salmaq kimi bir şey olar.

- Gürcüstandakı soydaşlarımızın təhsillə bağlı problemləri mütəmadi olaraq gündəmə gətirilir. Dövlət Komitəsi olaraq bu istiqamətdə hansı işləri görürsünüz?

- Artıq iki ildir ki, Gürcüstan azərbaycanlıları üçün orta məktəblərdə gürcü dili kursları açılıb. 2 mindən artıq yuxarı sinif şagirdləri Dövlət Komitəsi tərəfindən maliyyələşdirilən həmin kurslara gedirlər. Keçən illərlə 2010-cu ili müqayisə etsək görərik ki, əvvəlki illərdə Gürcüstan ali məktəblərinə 17-20 nəfər azərbaycanlı qəbul olurdusa, bu il orta məktəbi bitirən 540-dan artıq gənc universitetlərə daxil olub. Paralel olaraq Dövlət Komitəsinin Şimali Kipr Türk Respublikasının Yaxın Doğu Universiteti ilə protokoluna əsasən 20 tələbə tam pulsuz təhsil alırlar. Bağlanan müqavilədə göstərilən şərtlərdən biri də odur ki, həmin uşaqlar universiteti bitirdikdən sonra Gürcüstana qayıtmalıdırlar. Onlar ingilis və gürcü dilini bildikləri üçün həmin gənclərin Gürcüstanın dövlət orqanlarında müvafiq işlə təmin olunmasında da problem olmayacaq.

- Qarşıdan gələn 20 Yanvar faciəsi və Xocalı soyqırımının ildönümü ərəfəsində diaspor təşkilatları hansı tədbirlər həyata keçirəcəklər?

- Rusiya Azərbaycan Gənclər Təşkilatının sədri Leyla xanım Əliyevanın təşəbbüsü ilə aparılan "Xocalıya Ədalət" kampaniyasına biz hamımız yardım edirik. Çünki belə işlərdə parçalanmalar, müxtəlif istiqamətlərdə fəaliyyət göstərmək bəzən öz effektini vermir. Ona görə də biz Dövlət Komitəsi olaraq dünyada olan bütün diaspor təşkilatlarına xahiş, rica etmişik ki, "Xocalıya Ədalət" kampaniyasında yaxından iştirak etsinlər, Leyla xanım Əliyevanın başladığı bu fəaliyyətdə diaspor təşkilatları onların yanında olsunlar, yardım etsinlər. Nəticə etibarilə Xocalı məsələsi, Azərbaycanın həyatında baş vermiş bu böyük faciənin dünyada tanıdılmasını təmin etsinlər.

- Hər il 24 aprel ərəfəsində erməni lobbisi qondarma "soyqırım"ın tanıdılması istiqamətində fəallaşırlar. Qarşıdan gələn ildə Azərbaycan diaspor təşkilatları türk diasporu ilə birlikdə hansısa qabaqlayıcı addımlar atmağı düşünürmü?

- Hər zaman bir yerdə olmuşuq. Hətta bəzi ölkələrdə ki, türk diasporu yoxdur, həmin ölkələrdə də biz Azərbaycan diasporu olaraq qondarma "soyqırım" məsələsi gündəmə gələndə həm öz, həm də türk qardaşlarımızın əvəzinə sözünü deyir, səy göstərirlər ki, bu məsələnin dünyada tanınmasına nail olunmasın. Bu bizim Türkiyəyə xoş gəlsin deyə olan hərəkətimiz deyil. Çünki Türkiyə bizim üçün qardaş ölkədir, biz "Bir millət, iki dövlətik". Ona görə də bir millətin iki diasporu olmaz deyə vahid bir diaspora şəklində hər yerdə fəaliyyət göstəririk. Hesab edirik ki, türk diasporu da Azərbaycana aid olan məsələlərdə çox fəal iştirak edir.

Süleyman İsmayılbəyli

"Olaylar".-2010.-31 dekabr-10 yanvar.-N.225.-S.9.

Milli həmrəyliyimizin banisi
Ulu öndər Heydər Əliyevin milli birlik və azərbaycançılıq ideyaları
Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir

XX əsrin sonunda dövlət müstəqilliyini bərpa etdikdən sonra dünya birliyinin tamhüquqlu üzvünə çevrilən Azərbaycan Respublikasının qarşısında duran başlıca və aktual vəzifələrdən biri də dünya azərbaycanlılarının vahid bir ideya ətrafında birləşdirilməsi idi. Digər tərəfdən Ermənistanın ölkəmizə qarşı təcavüzünün açıq müstəviyə qədəm qoyduğu, ermənilərin dünyada antiAzərbaycan təbliğatı apardıqları bir vaxtda müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın həmrəyliyinin və diaspor təşkilatlarının fəaliyyətinin gücləndirilməsi də olduqca mühüm əhəmiyyət kəsb edirdi.

Tarixin müxtəlif mərhələlərində düçar olduqları məhrumiyyətlər, haqsızlıqlar və digər səbəblərdən dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlıların təşkilatlanmasının dövlət müstəqilliyinə yeni nail olmuş respublikamızın beynəlxalq birlikdəki yerinin möhkəmləndirilməsi işinə böyük töhfələr verəcəyi şübhəsiz idi. Dünya azərbaycanlılarının müstəqil dövlətimiz və vahid məqsəd ətrafında birləşdirilməsi ideyasının müəllifi XX əsrin sonlarına doğru Azərbaycan tarixinin və dövlətçiliyinin şərəfli səhifələrini yaradan Heydər Əliyev olmuşdur. Bu məsələdə xüsusi həssaslıq nümayiş etdirərək ilk addımı ulu öndər atmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" 1991-ci il 16 dekabr tarixli qərarı ilə dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etmişdir. Sonra bu bayramın bütün ölkədə qeyd olunması üçün Azərbaycan Respublikasının Ali Soveti də qərar qəbul etmişdir.

Dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması milli diasporun formalaşmasında, xarici ölkələrdə Azərbaycan lobbisinin inkişafında başlıca məqamlardan biri olsa da, təəssüf ki, müstəqilliyimizin ilk illərində dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsi ilə bağlı dövlət siyasəti yürüdülmədi. O dövrdə hakimiyyətdə olan siyasi qüvvələr bu məsələdə maraqlı olmadılar. Ona görə birlik və həmrəylik ideyalarının özünə yer tapmaması özünü ciddi problem kimi göstərərək o dövrdə milli inkişafı əngəlləyən amillərdən birinə çevrildi. Heydər Əliyevin 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıdışından sonra ölkədə davamlı sabitlik və iqtisadi tərəqqinin əsası qoyulmaqla yanaşı, milli birliyə nail olundu, azərbaycançılıq anlayışı milli təfəkkür tərzinə çevrildi, Azərbaycan dünyanın ayrı-ayrı ölkələrində məskunlaşmış soydaşlarımız üçün milli iftixar, mənəvi dayaq və güvənc yeri oldu. Ona görə ən yeni tariximizdə dünya azərbaycanlılarının milli həmrəyliyinə nail olunması ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən biridir.

Azərbaycanlıların həmrəyliyinin həm ölkəmiz üçün, həm də dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız üçün xüsusi əhəmiyyət kəsb etdiyini düzgün dəyərləndirən Heydər Əliyev xaricdəki azərbaycanlıların birliyi və təşkilatlanması məsələlərini diqqət mərkəzində saxlayırdı. Ulu öndər xarici ölkələrə etdiyi səfərlər zamanı Azərbaycan diasporunun nümayəndələri ilə görüşlər keçirər, onların problem və qayğıları ilə yaxından maraqlanar, daha sıx təşkilatlanmalarına dair dəyərli tövsiyələr verərdi. "Harada olursa-olsun azərbaycanlıların birlikdə, bərabər olması əsas şərtlərdən biridir. Biz çalışırıq ki, Azərbaycanın daxilində bütün qüvvələri toplayaq.

Eyni zamanda Azərbaycandan kənarda yaşayan azərbaycanlılar da öz qüvvələrini toplamalıdırlar. Ayrı-ayrı qüvvələrin, qrupların arasında fikir müxtəlifliyi ola bilər. Bu təbii haldır. Ancaq Azərbaycanın müstəqilliyini qorumaq, ərazi bütövlüyünü saxlamaq üçün hamı bütün başqa fikirləri kənara qoyub birləşməli, bir hədəfə vurmalı, bir məqsədə xidmət etməlidir"-deyə ulu öndər bildirmişdir. 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilən Dünya azərbaycanlılarının birinci qurultayı milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri oldu.

Ümummilli lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı sərəncama əsasən keçirilmiş bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmalarının, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratdı. Bu qurultayın keçirilməsi milli idealların, azərbaycançılıq ideyalarının gerçəkləşməsi yolunda mühüm addım idi.

Qurultay həm də müstəqil Azərbaycanın və eləcə də bütün dünya azərbaycanlılarının həyatında tarixi ictimai-siyasi hadisə kimi yadda qaldı. Qurultayda ən yaddaqalan məqam isə ümummilli lider Heydər Əliyevin proqram xarakterli çıxışı oldu. Ulu öndər dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi, Azərbaycan dilinin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, inkişaf etdirilməsi zərurəti ilə bağlı tövsiyə xarakterli fikirlərini söylədi.

I qurultaydan sonra diaspor təşkilatlarının fəaliyyətində canlanma yarandı, soydaşlarımızın birləşdiyi cəmiyyətlər dünyanın hər yerində daha aktiv fəaliyyət göstərməyə başladılar. Diaspor hərəkatı sahəsində dövlət siyasətini daha səmərəli həyata keçirmək üçün Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi (indiki Diasporla İş üzrə Dövlət Komitəsi) yaradıldı. Komitənin yaradılması xaricdəki Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətlərinin vahid mərkəzdən koordinasiyasına, habelə onların dövlət qayğısı ilə əhatə olunmasına geniş imkanlar verdi. Milli Məclis isə "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" qanun qəbul etdi. Dövlət komitəsinin yaradılması və qanunun qəbulu dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da sürətləndirdi, soydaşlarımızın tarixi Vətənlə əlaqələrinin genişləndirilməsini təmin etdi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına stimul verdi.

Ulu öndər Heydər Əliyevin milli birlik və azərbaycançılıq ideyaları bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısı dünya azərbaycanlılarının həmrəyliyinə verdiyi töhfələrlə, ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəldilməsinə çalışmaqla, bu sahədə məqsədyönlü fəaliyyətin ideoloji-siyasi konturlarını müəyyənləşdirməklə, milli birliyə xidmət edən addımları ilə bütün dünya azərbaycanlılarının dərin rəğbətini qazanmışdır. Ötən illərin büdcə zərfində diaspor quruculuğuna ayrılan vəsaitlərin ildən-ilə artırılması da milli həmrəyliyə yüksək diqqət və qayğının bariz nümunəsi kimi diqqəti çəkir. Prezident İlham Əliyev xaricdə yaşayan hər bir azərbaycanlının maraq və mənafeyinin qorunmasını Azərbaycan dövlətinin başlıca vəzifəsi hesab edir. Prezident İlham Əliyev ölkə diplomatlarının iştirakı ilə Xarici İşlər Nazirliyində keçirdiyi geniş tərkibli müşavirələrdə diaspor quruculuğu işini xarici siyasət sahəsində prioritet istiqamətlərdən biri kimi qiymətləndirmiş və bu fəaliyyətin daha da gücləndirilməsinin vacibliyini önə çəkmişdir. Prezident İlham Əliyevin 8 fevral 2006-cı il tarixli sərəncamı ilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II qurultayının keçirilməsi diaspor quruculuğu işinə və milli həmrəyliyimizin möhkəmlənməsinə yeni təkan verməklə ötən illərin əlamətdar hadisələrindən biri kimi yadda qalmışdır. Qurultayda Azərbaycan diasporunun hazırkı vəziyyəti müzakirə edilmiş, bu sahədə çalışan təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, ölkə həqiqətlərinin, xalqımıza qarşı törədilmiş terror və soyqırımı aktlarının faktlarla dünya ictimaiyyətinə çatdırılmasının daha müasir metodlarının hazırlanması, digər xalqların diaspor təşkilatları ilə əlaqələrin gücləndirilməsi məsələləri xüsusilə önə çəkilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev qurultaydakı dərin məzmunlu çıxışında xaricdəki azərbaycanlılara və respublikanın müvafiq dövlət qurumlarına bu sahədə görülmüş işlərdə arxayınlaşmamağı, daha böyük nəticələrə nail olmağı tövsiyə etmişdir.

Bu gün Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan soydaşlarımızın və həmvətənlərimizin respublikamızla əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin yaradılması işində mühüm rol oynamaqdadır. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd edilməsi isə bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir. Milli birlik və azərbaycançılıq ideyalarını layiqincə davam etdirən Prezident İlham Əliyevin hər il Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində soydaşlarımıza ünvanladığı təbriklər ümummilli lider Heydər Əliyevin siyasi ideyalarına əsaslanan milli həmrəylik siyasətinin dövlət səviyyəsində və çox böyük uğurla həyata keçirildiyini nümayiş etdirir. Bu günlərdə dünya azərbaycanlılarına müraciətində dövlətimizin diaspor quruculuğuna böyük diqqət yetirdiyini bildirən Prezident İlham Əliyev həmçinin, həmvətənlərimizin azərbaycançılıq ideyası ətrafında sıx birləşmələrindən razılığını ifadə edib: "Müstəqil Azərbaycan dövlətinin mövcudluğu dünya azərbaycanlıları arasında milli birliyin daha da güclənməsi və həmvətənlərimizin təşkilatlanması üçün geniş imkanlar yaradır. Eyni zamanda xaricdə yaşayan soydaşlarımız da ölkəmizin inkişafına, qarşıya çıxan problemlərin həllinə yaxından kömək göstərməyə çalışırlar. Bu köməyin səmərəli olması məhz həmvətənlərimizin möhkəm birliyi, mütəşəkkilliyi və yaxşı təşkilatlanması sayəsində mümkündür. Ona görə də Azərbaycan dövləti diaspor quruculuğu işinə böyük əhəmiyyət verir və bu prosesə hərtərəfli yardım göstərir. Sevindirici haldır ki, xaricdəki həmvətənlərimiz arasında azərbaycançılıq ideyaları, milli-mənəvi dəyərlərimiz getdikcə daha dərin kök salır".

31 dekabr tarixinin xüsusi yükü və böyük qayəsi həm də ondan ibarətdir ki, bu əlamətdar gün Azərbaycanın dirçəlişi və inkişafı yolunda əvəzsiz xidmətlər göstərmiş ümummilli lider Heydər Əliyevin bilavasitə təşəbbüsü, yenilməz iradəsi sayəsində təsis edilmiş, ümumxalq, ümummilli bayrama çevrilmişdir. Qədim tarixə malik xalqımız Dünya Azərbaycanlılarının Həmrəylik Gününü uzun illərdən bəri yaranmış, qorunub saxlanılmış ənənələrinə, mədəniyyətinə, tarixi köklərinə xas olan ən xoş amal və duyğularla keçirir. Bu bayram ildən-ilə daha geniş vüsət taparaq ürəklərdə vətən eşqi, milli və mənəvi birlik, həmrəylik hissləri bəsləyən hər bir soydaşımız tərəfindən güclü dəstək alır.

Rəşad Cəfərli
"Azərbaycan".-2010.-31 dekabr.-N289.-S.5.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə Azərbaycan Respublikası Milli Məclisinin müraciəti

Əziz soydaşlar, dəyərli həmvətənlər!

Uca və qüdrətli millətimiz üçün sonsuz qürur hissi ilə qeyd etdiyimiz Dünya Azərbaycanlılarının Həmrəylik Günündə hər birinizi ürəkdən salamlayırıq.

On doqquz il öncə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə elan edilmiş milli-mənəvi birliyə çağırış günü ümumxalq mənafelərimizin həyata keçirilməsi naminə soydaşlarımızın azərbaycançılıq ideyası əsasında sıx birləşməsi prosesinin başlanğıcını qoymuşdur. Bu gün xalqımızın söz, əqidə və əməl birliyinə nail olmaq üçün Azərbaycan dövləti tərəfindən görülən işlərin miqyası ildən-ilə genişlənir. Dünyanın dörd bir yanına səpələnmiş on milyonlarca azərbaycanlı gücün birlikdə olması həqiqətini getdikcə daha aydın dərk edir. Azərbaycan diasporları və icmaları arasında bağlar möhkəmlənir, soydaşlarımız milli hüquqların müdafiəsi işində bir-birinə dayaq durur, tarixi Vətənlə əlaqələrini gücləndirirlər. Onlar yaxşı başa düşürlər ki, milli-mənəvi bütövlüyün möhkəm təməli üzərində qurulan Azərbaycan bütün soydaşlarımızın və həmvətənlərimizin güvənc yeri olan qüdrətli bir dövlətə çevriləcəkdir.

Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının doğma ata-baba yurdudur. Odur ki, Asiyada, Avropada, Amerikada və digər qitələrdə məskən salmış soydaşlarımız Vətəndə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi heyrətamiz uğurlarla fəxr edirlər.

Dövlət müstəqilliyinin iyirminci ilini yaşayan Azərbaycan Respublikası tarix baxımından çox qısa bir dövr ərzində qərinələrə bərabər inkişaf yolu keçmişdir. Bu gün Azərbaycanımız dünyanın iqtisadi cəhətdən ən dinamik inkişaf edən ölkələri sırasındadır. Hüquqi, demokratik dövlət quruculuğu, vətəndaş cəmiyyəti yaradılması, bazar iqtisadiyyatının bərqərar edilməsi məqsədi ilə genişmiqyaslı islahatlar davam etdirilir. İnsan hüquqları və azadlıqları etibarlı surətdə təmin edilir, Azərbaycanın Avropa xalqları ailəsində nüfuzu artır. Bu ilin noyabr ayında Milli Məclisə keçirilmiş azad, ədalətli və şəffaf seçkilər Azərbaycanın demokratik inkişafında yeni bir mərhələ açmışdır.

Elmi əsaslar üzərində qurulmuş xarici siyasət xətti ölkəmizin beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsini təmin edir. Azərbaycanın haqq səsinin dünya birliyinə çatdırılması üçün həyata keçirilən düşünülmüş tədbirlər müsbət nəticələr verir. Xalqımızın ağrılı yeri olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında ərazi bütövlüyü prinsipi beynəlxalq təşkilatlar və xarici ölkələr tərəfindən təməl prinsip kimi qəbul olunur.

Azərbaycanın uğurlarını öz uğurları, problemlərini isə öz problemləri sayan soydaşlarımız Qarabağ dərdinin sağalacağı, 1 milyondan çox qaçqın və köçkünlərimizin doğma yurdlarına dönəcəyi günü intizarla gözləyirlər. Şübhə yoxdur ki, dövlət rəhbərliyinin həyata keçirdiyi uzaqgörən siyasətin köməyi ilə bu problemin də nizama salınmasına nail olacağıq. Ancaq bütün dünya azərbaycanlıları səylərini birləşdirsələr, problemin həllini daha da yaxınlaşdıra bilərlər. Soydaşlarımız və həmvətənlərimiz Azərbaycanın dünyaya daha yaxından tanıdılması, xalqımızın zəngin mədəniyyətinin təbliğ edilməsi sahəsində də çox iş görə bilərlər.

Əziz bacı və qardaşlarımız!

Sizi ümummilli məqsədlərimizin gerçəkləşməsi, xalqımızın mənafelərinin qorunması naminə birliyə çağırırıq. Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə hamınızı ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, ailə səadəti, Azərbaycanımıza işıqlı gələcək arzulayırıq!

Hörmətlə,

Azərbaycan Respublikasının Milli Məclisi
(Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2010-cu il 30 dekabr tarixli iclasında qəbul edilmişdir).
"Xalq qəzeti".-2010.-31 dekabr.-N 289.-S.

Azərbaycanlıları birləşdirən dəyərlər- milli birlik və həmrəylik ideyaları

Həyatının bütün məqamlarında taleyin xalqına, Vətəninə sədaqətlə və şərəflə xidmət etmək fürsəti verdiyi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev dünyanın siyasət ponteonunda da bu gün özünəməxsus bir zirvədə yer almışdır. Bu siyasət dahisinin irsinin tədqiqi göstərir ki, ulu öndər Heydər Əliyev hətta Sovetlər birliyi dönəmində hakimiyyətdə olduğu illərdə, bu quruluşun sərt və amansız rejiminə baxmayaraq, Azərbaycanın gələcək dövlət müstəqilliyi yolunda göstərdiyi misilsiz xidmətlərilə adını tarixə yazmışdı.

Bu parlaq şəxsiyyətin məhz həmin illərdəki fəaliyyətini izləyəndə, onun təpədən dırnağa Böyük Azərbaycanlı, Vətənini hədsiz dərəcədə sevən, onun tarixinə, keçmişinə, mədəniyyətinə, ədəbiyyatına son dərəcə böyük sevgi və qayğı ilə yanaşan bir dövlət xadimi olduğunu görür və heyrətə gəlirsən. Onun 30 illik siyasət epoxası xalqımızın yüz illərlə həsrətində olduğu Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsi, onun azad inkişafı və yüksəlişi naminə apardığı mübarizələr və qələbələr tarixidir.

Bu siyasət nəhənginin siyasi-fəlsəfi portretini dünya şöhrətli qırğız yazarı Çingiz Aytmatov belə açıqlayır: "Heydər Əliyev həqiqətən də tarixi, hətta əfsanəvi bir şəxsiyyətdir. Bu, sovet dövründə də belə idi, bugünki MDB məkanında, xeyli çətinləşmiş müasir dünya şəraitində də belədir. Heydər Əliyev hər zaman xalqının xidmətində olmuşdur.

Heydər Əliyev onun yaşıdlarının və hətta ondan cavan olan bir çox siyasi xadimlərin bacarmadığı xüsusiyyəti - müasir dövrün ən aktual çağırışlarına hazır olmağı nümayiş etdirə bilmişdir. Məhz Heydər Əliyevin zəngin siyasi təcrübəsinin və humanitar dünyagörüşünün genişliyi nəticəsində indi Azərbaycanda sabitlik, tolerantlıq, mədəniyyət, maarifçilik hökm sürməkdədir. Bütün bunlar isə Azərbaycan dövlətinin müasir inkişafını və tərəqqisini təmin edəcək əsas amillərdir.

Bütün bu həqiqətlər qloballaşan bazar iqtisadiyyatı şəraitində dünyanın gözü önündə cərəyan edir. Müstəqillik dövründə qarşılaşdığı çox böyük çətinliklərə, problemlərə baxmayaraq, Azərbaycan həm bölgədə, həm də dünyada layiqli, demokratik yerini tutmuşdur. Bu məsələdə isə həlledici rol, tarixi missiya Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin öhdəsinə düşür. Çünki o müasir dövrün siyasi liderləri arasında böyük ehtiyac duyulan bir şəxsiyyətdir. Heydər Əlirza oğlu XX əsrin ən böyük liderlərindəndir. O, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünki qurucularından biridir". Filosof-yazıçının hər bir ifadəsi müasir tariximizdə gerçək təsdiqini tapmışdır. Təbii ki, bunların hər birinin ayrı-ayrılıqda təhlilini və gerçək dəyərini tarixçilərimiz, filosoflarımız və politoloqlarımız verir. Mən sadəcə, ulu öndərin müstəsna xidmətlərindən biri olan - xalqın azərbaycançılıq fəlsəfəsi ətrafında birliyinə necə böyük ustalıqla nail olmasını bir qədər geniş açıqlamaq istərdim.

Təbii ki, hər bir xalqın müstəqillik mübarizəsində, tarixin dönüş nöqtələrində kükrəyib-coşan, inqilabçı əhval-ruhiyyəli kütlənin ümumi məqsədə xidmətə yönəltmək üçün onun xarizmatik bir liderə, hamının inandığı və etibar etdiyi təcrübəli, sınanmış və istənilən məqamda doğru qərar verməyi bacaran öndərə ehtiyacı var. 1987-ci ildə riyakaermənilərin məkrli planlarının həyata keçməsinə xidmət edən Qorbaçov Heydər Əliyevi siyasi hakimiyyətdən uzaqlaşdırarkən, ona elə gəlirdi ki, o artıq ermənilərin "Azərbaycan xalqını lidersiz qoymaq" sifarişini yerinə yetirib. Məhz buna arxayınlaşıb 1990-cı il yanvarın 20-də Bakının küçə və meydanlarında, digər şəhər və rayonlarda Azərbaycan xalqının qətliamına hökm verildi. Lakin başsız və kimsəsiz qalan xalqına qarşı yönələn bu qanlı işğala heç cür biganə qala bilməyən Heydər Əliyev sərt və ciddi bəyanatla imperiyanın baş şəhərini lərzəyə salanda, Azərbaycan xalqının sönmüş ümidlərinə yenidən can gəldi. Bu bəyanat, şübhəsiz xalqımızın toparlanmasında, işğalın şokundan ayılmasında müstəsna rol oynadı. Amma etiraf edək ki, xalqın arzuları ilə hesablaşmayan qüvvələr Heydər Əliyevin nəinki hakimiyyətə gəlməsini, heç siyasətə dönməsini belə istəmirdilər. İstər o zamankı kommunist hakimiyyəti, istərsə sonradan hakimiyyəti ələ keçirən Xalq Cəbhəsi heç vəchlə Heydər Əliyevin siyasi meydanda görünməsilə barışa bilmirdilər.

Özlərinin Heydər Əliyev xarizması, siyasi nüfuzu, xalq məhəbbəti qarşısında cılız olduqlarını dərk etdiklərindən, ən müxtəlif yollarla onun siyasi arenaya çıxmasını əngəlləyirdilər. Azərbaycanda isə vəziyyət gündən-günə ağırlaşırdı. İstər iqtisadi, istər siyasi, istərsə humanitar böhran dərinləşirdi. Ölkənin əraziləri işğal olunur, qaçqınların sayı sürətlə artır, Azərbaycanın beynəlxalq siyasi arenada mövqeləri günü-gündən zəifləyirdi. Gənc müstəqil ölkə bütün cəbhələrdə iflasa doğru gedirdi. 1993-cü ildə Heydər Əliyevin Bakıya, siyasi hakimiyyətə çağırılması isə artıq hakimiyyətdə olan qüvvələrin barışmaq məcburiyyətində olduqları bir zərurətə çevrilmişdi. Çünki Azərbaycanın siyasi, iqtisadi mənzərəsi, hakimiyyətsizliyin və xaosun arxada buraxdığı izlər təlaş və vahimə doğururdu. Ermənistanın təcavüzü genişlənir, Azərbaycan strateji mövqelərini bir-bir əldən verirdi. Müharibəyə cəlb edilmiş gənc müstəqil respublikanın taleyi, nizami ordu yaradılmadığından, siyasiləşdirilmiş könüllü batalyonların ümidində idi. Belə hərbi birləşmələrdə hökm sürən intizamsızlıq, vahid komandanlığın olmaması, qarşıdurma əhval-ruhiyyəsi Azərbaycanın düşmənə qarşı döyüş qabiliyyətini heçə endirmişdi.

Hakimiyyət kürsüsü uğrunda gedən kəskin çəkişmlər, quruplararası ziddiyyətlər, tayfa münasibətlərini kəskinləşdirən ədavət hissləri, xəyanət və satqınlıqlar dövlət idarəçiliyindəki tabeçilik prinsiplərini heçə endirmişdi. Ölkədə sözün həqiqi mənasında anarxiya hökm sürürdü. Gənc, müstəqil dövlətin xarici siyasət kursu olmadığından, ölkə beynəlxalq aləmdə bunsuz da ürəkaçan olmayan nüfuzunu heçə endirmiş, strateji cəhətdən mühüm əhəmiyyət daşıyan qonşu ölkələrlə münasibətlərdə soyuqluq yaranmışdı. Müharibə aparan ölkənin iqtisadi durumu böhran həddinə çatmış, xarici iqtisadi əlaqələr pozulmuş və nəhəng sənaye müəssisələri çökmüşdü.

Ölkənin daxilində aparılan siyasətin nəticələri daha ağır idi. Milli münasibətlər bilərəkdən kəskinləşdirilmiş və Azərbaycan parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Ölkə həqiqi mənada vətəndaş müharibəsinin astanasında idi. Sonralar bu tarixi məqamları dəyərləndirərkən ulu öndər Heydər Əliyev deyirdi:"Yaxın və uzaq tarix göstərir ki, bütün bu hücumlara Azərbaycan xalqı cavab verməyə qadir idi. Əgər o zaman xalqı hiddətləndirən vahid, sarsılmaz qüvvə kimi bir araya toplayan milli qürur və oyanış hisslərindən konstruktiv istifadə olunsaydı, biz bu gün Dağlıq Qarabağ probleminin həlli ilə məşğul olmazdıq". Dahi siyasətçi milli həmrəyliyin və birliyin dövlət quruculuğunda və onun inkişafında müstəsna əhəmiyyət daşıdığını çox gözəl bilirdi.

Xüsusilə, Azərbaycanın imperiyadan qopub müstəqilliyə doğru getdiyi dönəmdə bu daha çox vacib idi. Məhz buna görə Heydər Əliyevin təşəbbüsü ilə hələ 1991-ci ildə Naxçıvan Ali Məclisində 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis edilməsi barədə qərar qəbul olundu və bu tarixi günün bütün ölkə ərazisində bayram kimi qeyd olunması ilə bağlı Azərbaycan Milli Məclisi qarşısında məsələ qaldırılmışdı. 1993-cü ildə Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə bütün Azərbaycan vətəndaşlarının, dilindən, dinindən, etnik mənşəyindən asılı olmayaraq, ölkənin azadlığını və müstəqilliyini dəstəkləyən insanların vahid dövlətçilik ətrafında birləşdirilməsi üçün ciddi iş aparıldı.

Heydər Əliyev azərbaycançılıq ideyasına tamamilə yeni bir məzmun verərək, onu Azərbaycanın milli etnik xüsusiyyətlərinə, müasir dövrün tələblərinə və dünyanın hazırkı dönümünə uyğunlaşdırdı. Azərbaycançılıq ideologiyası məhz Heydər Əliyevin həyata keçirdiyi ardıcıl siyasi xətti ilə mükəmməl ideoloji bir təlim kimi ölkənin dövlət siyasətinə çevrildi. Məhz bu dövrdə azərbaycanlıların həmrəyliyi və birliyi ideyası artıq bütün dünyada yaşayan soydaşlarımızın düşüncələrinə hakim kəsildi, dövlət siyasətinin prioritetlərindən birinə çevrildi.

Yaşadıqları ölkələrdə soydaşlarımızın təşkilatlanması, azərbaycanlı icmalarının fəaliyyətinin genişlənməsi, tarixi Vətənlə-Azərbaycan Respublikası ilə əlaqələrinin güclənməsi istiqamətində çox böyük işlər görüldü. Heydər Əliyev azərbaycançılığı bütöv bir xalqın - bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycanla hər hansı şəkildə bağlılığı olan bütün soydaşlarımızın və həmvətənlərimizin milli birlik simvoluna və milli ideologiyasına çevirdi. Ümumən bu mövzuda söhbət açılanda istər-istəməz gözlərimiz önündə ulu öndərin xarici ölkələrə səfərləri zamanı mütləq bu ölkələrdə yaşayan azərbaycanlı icmaları ilə görüşü canlanır. Onun bir lider olaraq verdiyi tövsiyələr, diaspor quruculuğu istiqamətində əməli fəaliyyətə çağırışları heç şübhəsiz ki, öz işini görürdü. Nəhayət, 2001-ci il noyabrın 9-10-da məhz ulu öndərin təşəbbüsü və himayəsi ilə Bakıda keçirilən Dünya Azərbaycanlılarının I qurultayı xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması baxımından tarixi dönüş nöqtəsi oldu.

Böyük təşkilatlanmanın start tədbirinə çevrilən bu qurultaydan sonra dünyanın hər yerində Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti canlandı, Azərbaycan dövlətinin diaspor quruculuğu və onların fəaliyyətlərinin əlaqələndirilməsi istiqamətində səyləri gücləndi. Prezident Heydər Əliyev bu sahədə sistemli dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə 2002-ci ildə "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" fərman imzaladı. 2002-ci ildə Milli Məclisdə qəbul olunmuş "Xaricdə yaşayan soydaşlarımıza dövlət qayğısı haqqında" Qanun xaricdəki azərbaycanlılara dövlət qayğısının hüquqi əsaslarını müəyyənləşdirdi. Dünyanın 36 ölkəsindən 403 nümayəndənin, bütövlükdə 1105 nümayəndənin iştirak etdiyi Dünya Azərbaycanlılarının I qurultayında bütün azərbaycanlıların lideri Heydər Əliyev çıxış edərkən dedi: "İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini qoruyub saxlasın. Dünyada, eyni zamanda da assimilyasiya prosesi var.

İnsanlar-mən azərbaycanlılar haqqında danışıram, - gərək yaşadıqları ölkədə, yenə deyirəm, o şəraiti mənimsəyərək, orada özləri üçün yaxşı mövqelər tutsunlar. Ancaq daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olsunlar. Bizim hamımızı birləşdirən məhz bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir". Ulu öndərin azərbaycançılıq fəsləfəsinə söykənən həmrəylik və birlik siyasəti Prezident İlham Əliyevin idarəçiliyi dövründə keyfiyyətcə yeni mərhələyə qədəm qoydu.

Möhtərəm prezidentimizin Dünya Azərbaycanlılarının II qurultayının keirilməsilə bağlı 8 fevral 2006-cı il tarixli xüsusi sərəncamı bir daha göstərdi ki, dünyaya səpələnmiş soydaşlarımızın milli birliyini inkişaf etdirmək, yeni səviyyəyə qaldırmaq daim dövlət siyasətinin prioritetlərindən biri kimi qalacaqdır. Ötən dövr ərzində görülən işlərin nəticəsi də göz qabağında idi. Artıq II qurultaya dünyanın 49 ölkəsindən 1218 nümayəndə seçilmiş və 388 qonaq dəvət olunmuşdu.Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışında qarşıda duran əsas vəzifələrin nədən ibarət olduğunu bəyan edərək dedi: "Azərbaycan xalqı böyük xalqdır. Biz 50 milyonuq.

Bu, dünya miqyasında böyük xalqdır. Bizim hamımızın bir vətəni var - Azərbaycan. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək". Çox böyük fəxrlə demək olar ki, Azərbaycan qətiyyətlə və zəfərlərə imza ata-ata məhz bu istiqamətdə irəliləməkdədir. Bu gün beynəlxalq maliyyə qurumlarının və Avropa təşkilatlarının hesabatlarında müstəqil Azərbaycanın inkişafının və tərəqqisinin həcmini göstərən çox böyük rəqəmlər və iftixar doğuran rəylər var.

Təbii ki, bunlar, harada yaşamasından asılı olmayaraq hər bir Azərbaycanlıda böyük qürur və fərəh hissi doğurur. Məhz bütün bunları nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dünya azərbaycanlılarına ünvanladığı son təbrikində deyir: "Fəxrlə deyə bilərəm ki, bu gün Azərbaycan həmişəkindən daha güclüdür. Bizim gücümüz tək iqtisadi və hərbi qüdrətimizlə deyil, həm də sıx birliyimizlə ölçülür. Ona görə də harada yaşamağımızdan asılı olmayaraq, milli birlik və həmrəylik ideyaları, bizi birləşdirən əsas dəyərlər kimi, hər birimizin düşüncəsinə hakim kəsilməlidir".

Allahverdi Mahmudov DİN-in Polis Akademiyasının kriminalistika kafedrasının rəisi, polis polkovniki,
“Xalq qəzeti”.-2010.-31 dekabr.-N 289.-S.8.

Dünya azərbaycanlılarının birliyi müstəqil Azərbaycanı daha da qüdrətləndirir

Azərbaycan xalqı böyük xalqdır. Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Bizim hamımızın bir Vətəni var-Azərbaycan. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Ümummilli lider Heydər Əliyevin öz xalqı və milləti qarşısında göstərdiyi misilsiz xidmətlərdən biri də dünya azərbaycanlılarının birliyidir. Böyük azərbaycanlı Heydər Əliyev həmişə deyərdi ki, dünya azərbaycanlılarının birliyi müstəqil Azərbaycanı daha da qüdrətli edər. Məhz ulu öndərin uzaqgörənliyi və qətiyyəti sayəsində dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar bir-biri ilə sıx əlaqə qurur, təşkilatlanır, bir bayraq altında birləşir və yaşadıqları ölkələrin həyatında fəal rol oynayırlar.

Xalqımızın böyük oğlu Heydər Əliyev kommunist ideologiyasının tüğyan etdiyi bir vaxtda respublikaya rəhbərlik edən zaman bildirirdi ki, harada doğulması və yaşamasından asılı olmayaraq Azərbaycanı sevən hər bir azərbaycanlı əzizdir və onlar Azərbaycanla müntəzəm, həm də sıx əlaqə saxlamalı, Vətənə gəlmək imkanına malik olmalıdır. Həmin çətin illərdə o, xaricdə yaşayan azərbaycanlıları milli-mənəvi dəyərlər əsasında birləşdirməyi qərara almışdı. Heydər Əliyev xaricdə yaşayan azərbaycanlılara Azərbaycan xalqının dayağı kimi baxırdı, onların Vətənə gəlmələrinə şərait yaradır və bu məsələni daim diqqət mərkəzində saxlayırdı. Bütün bunların hamısı ona görə edilirdi ki, xarici ölkələrdə yaşayan həmvətənlər doğma Vətən - Azərbaycan haqqında düzgün, dolğun təsəvvürə malik olsunlar,

Azərbaycan xalqının qazandığı nailiyyətləri əyani şəkildə görsünlər, vətənpərvər olsunlar və yaşadıqları ölkələrdə milli adət-ənənələrimizi təbliğ etsinlər. Böyük öndər Heydər Əliyev xalqına, Vətəninə yüksək məhəbbəti sayəsində xarici ölkələrdə yaşayan azərbaycanlılarla sistemli əlaqələrin qurulması məsələsini hətta sovet dövlət rəhbərliyi qarşısında da qaldıra bilmişdi. Ulu öndər hesab edirdi ki, azərbaycanlıların dünyada yayılması tarixi-siyasi şərait ucbatından baş verib. Buna baxmayaraq, soydaşlarımızla əlaqələrin qurulması və əməkdaşlığın yaradılmasını çox vacib hesab edirdi. Xarici ölkələrdə yaşayan azərbaycanlılar onlara qarşı isti münasibətlər və Vətənə gəlmək üçün şərait yaradıldığını hiss etdikcə doğma diyarla - Ana Vətənlə əlaqələr qurmağa çalışır, bundan ötrü əlverişli yollar axtarırdılar. Onlar sovet dönəmində Azərbaycanda baş verən köklü dəyişiklikləri, azərbaycanlılara olan münasibətin yaxşılığa doğru getdiyini gördükcə daha da inamlı olmuşdular. Təbii ki, bu inam müdrik siyasi xadim Heydər Əliyevin dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıları bir bayraq altında birləşdirmək istiqamətində gərgin fəaliyyəti nəticəsində yaranmışdı.

Heydər Əliyev düşünürdü ki, xarici ölkələrdə yaşayan həmvətənlərlə əlaqələrin qurulması və möhkəmləndirilməsi işi ilə sistemli və müntəzəm məşğul olan ictimai təşkilatın yaradılmasına böyük ehtiyac var. Məhz ulu öndərin təşəbbüsü ilə Azərbaycan KP MK bürosunun 1973-cü il 28 avqust tarixli iclasının qərarı ilə Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinəzdində xaricdə yaşayan həmvətənlərlə əlaqə şöbəsi yaradıldı. Heydər Əliyev tərəfindən təklif edilən və qəbul olunan qərarda deyilirdi: "1. Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin nəzdində tərkibi üç nəfərdən ibarət olan xaricdəki həmvətənlərlə əlaqə şöbəsi yaradılsın. 2. Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın ki, şöbənin yaradılması və saxlanılması ilə bağlı məsələyə baxsın və həll etsin". Bundan sonra xaricdə yaşayan həmvətənlərimizlə əlaqə qurmağa imkan və şərait yarandı. Şöbənin işini daha da gücləndirmək, xaricdə yaşayan həmvətənlərimizin sayı, onların fəaliyyəti haqqında ətraflı məlumat əldə etmək, soydaşlarımızla sıx əlaqə yaratmaq məqsədilə Heydər Əliyev "Vətən" cəmiyyətinin yaradılması üçün müvafiq strukturlara tapşırıqlar verdi. Ulu öndər bu tapşırıqları verənə qədər belə bir cəmiyyətin yaradılması ilə əlaqədar artıq Moskva ilə danışıqlar aparmışdı. Kommunist ideologiyasının hökmranlıq etdiyi bir vaxtda "Vətən" cəmiyyətinin yaradılması bu təşəbbüsdə olanlara "millətçi" damğası vurulması ilə nəticələnə bilərdi. Buna baxmayaraq Heydər Əliyevin uzaqgörənliyi və müdrikliyi bu işi uğurla nəticələndirdi.

Xarici ölkələrdə yaşayan həmvətənlərlə əlaqələrin qurulması işinə daha sistemli, miqyaslı və mükəmməl yanaşılması, onlara doğma Vətən haqqında əsl həqiqətlərin olduğu kimi çatdırılması prioritet vəzifə kimi qarşıya qoyulmuşdu. Ulu öndərin həyata keçirdiyi tədbirlər sayəsində xarici ölkələrdə yaşayan həmvətənlərimiz Azərbaycana böyük maraq göstərir, sovet sisteminin müəyyən qadağalarına baxmayaraq, doğma Vətənə səfərlər edir, mədəniyyət, elm, təhsil və iqtisadiyyat sahəsindəki inkişafı gördükcə qürur hissi keçirirdilər. Artıq ulu öndər Heydər Əliyev o vaxtlar dünya azərbaycanlılarının rəhbəri və lideri kimi qəbul edilirdi. Onun Moskvaya yüksək vəzifəyə dəvət olunması hər bir azərbaycanlıda qürur hissi yaratmışdı. Ümummilli lider dünyanın harasında yaşamasından və işləməsindən asılı olmayaraq çalışırdı ki, hər bir azərbaycanlı doğma Vətənlə - Azərbaycanla əlaqə qursun, özünü əsl azərbaycanlı kimi hiss etsin, xalqını, millətini, Azərbaycanı, respublikada qazanılan uğurları təbliğ etsin. Moskvada işləyərkən Azərbaycanı bir an da olsun unutmadı.

Xarici ölkələrdə yaşayan həmvətənlərlə işin aparılması, onların Vətənə gəlib-getmələri üçün yaradılmış şərait, qarşıya qoyulan vəzifələrin uğurla həyata keçirilməsi, bu sahədə daha vacib işlərin aparılması təcrübəsi Azərbaycanın ikinci dəfə müstəqilliyini bərpa etdikdən sonra diaspor yaradılması sahəsində böyük rol oynadı. Bu dəfə də ümummilli lider Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi, xalqına, millətinə böyük sevgi və məhəbbətlə bağlılığı özünü göstərdi.

Azərbaycan ikinci dəfə müstəqilliyini bərpa etdikdən sonra hakimiyyəti ələ alan qüvvələrin idarəetmədəki naşılığı bütün sahələrdə olduğu kimi xarici ölkələrdə yaşayan soydaşlarımızla əlaqələrin qurulmasında da özünü göstərdi. Müstəqillik yolunda öz kövrək addımlarını atan Azərbaycanın beynəlxalq aləmlə əlaqələri demək olar ki, yox dərəcəsində idi. Belə məqamlarda xaricdə yaşayan həmvətənlərimizlə əlaqə qurmaq ölkəmizin müstəqil dövlət kimi tanınmasında onların imkanlarından istifadə etmək sanki o vaxtkı dövlət rəhbərlərini maraqlandırmırdı. Onlar dərk etmirdilər ki, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar yaşadıqları ölkələrin ictimai-siyasi həyatında çox mühüm rol oynayırlar. Məhz onlarla sıx əlaqə yaratmaq yolu ilə Azərbaycan barəsində ətraflı məlumatlar yaymaq mümkündür. Dünyanın bütün azərbaycanlıları həmrəylik nümayiş etdirsələr, qarşıya qoyulan hər hansı bir vəzifəni uğurla həyata keçirmək olar. Bu dəfə də dünya azərbaycanlılarını bir araya dəvət etmək, onların həmrəyliyini yaratmaq ideyası ulu öndər Heydər Əliyev tərəfindən irəli sürüldü. Onun təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi 1991-ci ilin sonunda 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü elan etdi, bu günün bütün ölkə miqyasında dövlət bayramı kimi qeyd olunması üçün Azərbaycan Respublikasının Ali Soveti qarşısında vəsadət qaldırdı.

1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gələn Heydər Əliyev xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin yaradılmasını prioritet vəzifə kimi qarşıya qoydu. Ulu öndər xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması, məskunlaşdıqları dövlətlərin ictimai-siyasi həyatında yaxından iştirak etməsi, orada azərbaycançılıq ideyasının, milli-mənəvi dəyərlərimizin təbliği ilə daha geniş şəkildə məşğul olmaları üçün bütün imkanlardan istifadə etdi Soydaşlarımızı tarixi Vətənlə-Azərbaycanla əlaqələrinin genişləndirilməsi məsələsini daim diqqət mərkəzində saxladı, onların problemlərinin həllini və hüquqlarının müdafiəsini təmin etmək üçün mühüm əhəmiyyətli tədbirlərin həyata keçirilməsinə nail oldu. Dünya azərbaycanlıları arasında təşkilatlanma geniş vüsət alır və onların bir-biri ilə əlaqələri mütəmadi xarakter daşıyırdı. Ulu öndərin bu istiqamətdə həyata keçirdiyi tədbirlər nəhayət, 2001-ci ilin noyabrında özünün kuliminasiya nöqtəsinə çatdı. Məhz qüdrətli şəxsiyyət Heydər Əliyevin təşəbbüsü və sərəncamı ilə həmin vaxt Bakıda Dünya Azərbaycanlılarının I qurultayı keçirildi.

Qurultay xaricdə yaşayan soydaşlarımızın ümumi məqsəd, vahid azərbaycançılıq ideyası ətrafında birləşməsi yolunda mühüm əhəmiyyət kəsb etmiş, diaspor hərəkatının tarixində keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoymuşdur. Müstəqil Azərbaycanın tarixində müstəsna rol oynayan qurultayda aparılmış müzakirələr, fikir mübadiləsi, qurultayın qərarları bütün dünyada yaşayan azərbaycanlıları bir -biri ilə daha sıx birləşdirdi. Məhz bu qurultaydan sonra ulu öndər Heydər Əliyevin fərmanı ilə diasporla iş sahəsində dövlət siyasətinin həyata keçirilməsini, dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının dünya azərbaycanlıları ilə bağlı fəaliyyətinin əlaqələndirilməsini təmin etmək üçün xarici ölkələrdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı. 2002-ci ilin dekabrında qəbul edilmiş "Xarici ölkələrdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanun isə bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin əsas vəzifələrini və hüquqi prinsiplərini müəyyən etmişdir. Bütün bu tədbirlər Azərbaycan həqiqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında çox böyük rol oynamış, dünya azərbaycanlılarının bir bayraq altında birləşməsinə güclü təkan vermişdir. Bundan sonra xaricdə yaşayan soydaşlarımız fəallıqlarını xeyli artırmış, xalqımızın başına gətirilən faciələr barədə, xüsusilə 20 Yanvar, Xocalı soyqırımı, erməni terroru, torpaqlarımızın 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması, azərbaycanlıların öz doğma ev-eşiklərindən, ata-baba torpaqlarından zorla çıxarılması barəsində doğru-dürüst məlumat yaymışlar.

Ümummilli lider Heydər Əliyevin daxili və xarici siyasətini böyük müvəffəqiyyətlə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev dünya azərbaycanlıları ilə əlaqələrin möhkəmləndirilməsi, Azərbaycan diaspor və lobbisinin daha da gücləndirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsinə nail oldu. Dövlət başçımız hər dəfə xarici ölkələrə səfər edən zaman orada yaşayan azərbaycanlılarla görüşür, azərbaycanlı icmaların təşkil etdikləri tədbirdə iştirak edir. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2006-cı il martın 6-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının II Qurultayı daha möhtəşəm oldu. Qurultayın işində 49 ölkədən 1218 nümayəndə, eləcə də 388 qonaq iştirak etmişdir. Qurultayın gedişi bir daha təsdiqlədi ki, I qurultaydan ötən dövrdə xaricdə yaşayan soydaşlarımız arasında əməkdaşlıq daha da möhkəmlənmiş, öz tarixi vətənləri ilə - Azərbaycanla əlaqələrin genişləndirilməsi istiqamətində həyata keçirilən mühüm əhəmiyyətli tədbirlər öz bəhrəsini vermişdir. Dünya azərbaycanlıları arasında milli birliyin təmin olunması ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun daha da artmasına öz təsirini göstərmiş, dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların gələcəyə olan inamını artırmış, doğma Vətənin maraqları naminə daha sıx birləşərək fəaliyyət göstərmələri üçün zəmin yaratmışdır.

Qurultayda Prezident İlham Əliyev ölkəmizin ikinci dəfə müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin müdrikliyi sayəsində Azərbaycanın əldə etdiyi uğurlar, dünya birliyinə inteqrasiyası barədə ətraflı məlumat verdi. Azərbaycanın beynəlxalq aləmdəki əlaqələrinin daha da möhkəmləndirilməsində, ölkəmizin haqq işinin qalib gəlməsində, Ermənistanın işğalçı dövlət kimi tanınmasında diasporların, Azərbaycan icmalarının üzərinə böyük vəzifə düşdüyünü onların diqqətinə çatdırdı. Azərbaycan Prezidenti qurultaydakı tarixi çıxışında demişdi: "Biz öz tədbirlərimizi görməliyik, biz möhkəmlənməliyik. Azərbaycan öz iqtisadi potensialını, hərbi potensialını, siyasi imkanlarını tam şəkildə işə salır. Biz hər istiqamətdə çox sürətlə, düşünülmüş proqram və konsepsiya əsasında irəliləyirik. Yenə də qeyd etmək istəyirəm ki, bu istiqamətdə Azərbaycan diasporunun çox böyük rolu var. Mən istəyirəm ki, həm Azərbaycanın dünyada təbliğ edilməsində Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılmasıda, azərbaycanlıların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakında bu rol daha da güclü olsun. Məsələn, mən çox istəyirəm ki, azərbaycanlılar yaşadıqları bütün ölkələrin siyasi həyatında daha fəal rol oynasınlar. Siyasi partiyalara üzv olsunlar. Çalışsınlar ki, o ölkələrin qanunvericilik orqanlarına seçilsinlər. Bu, bizim mövqelərimizi möhkəmləndirir".

Prezident İlham Əliyevin xaricdə yaşayan soydaşlarımıza göstərdiyi yüksək diqqət və qayğının nəticəsi olaraq hazırda onların doğma Vətənlə əlaqələri xeyli genişlənmişdir. İndi onlar Azərbaycanın sosial-iqtisadi inkişafına öz töhfələrini verir, doğulduqları bölgələrdə abadlıq və quruculuq işlərinə imkanları daxilində kömək edir, yaşadıqları ölkələrdə fəaliyyətlərini gücləndirirlər. Müxtəlif mərasimlərdə fəal iştirak etməklə Ermənistanın Dağlıq Qarabağı və ətraf rayonları işğal etməsi barədə yerli əhaliyə dolğun məlumatlar verir, Azərbaycanın sülhsevər dövlət olduğunu faktlarla əsaslandırırlar. Dövlətimizin başçısı bu günlərdə dünya azərbaycanlılarına ünvanladığı müraciətində bu məsələni xüsusi vurğulayır: "...Sevindirici haldır ki, xaricdəki həmvətənlərimiz arasında azərbaycançılıq ideyaları, milli mənəvi dəyərlərimiz getdikcə daha dərin kök salır. Onlar məskunlaşdıqları ölkələrin ictimai-siyasi, mədəni və işgüzar həyatında mühüm mövqelərə sahib olmaqla yanaşı, həm də Azərbaycanın dünyaya təqdim olunmasına, maddi və mənəvi irsimizin təbliğinə, ölkəmiz əleyhinə yönəlmiş ideoloji təxribatların qarşısının alınmasına öz töhfələrini verirlər. Düşünürəm ki, diaspor qurumlarımız bu sahədəki səylərini bundan sonra da artırmalı, intellektual potensialı ilə maddi resurslarını birləşdirməli, xarici ölkələrdəki diplomatik korpuslarımızla əlaqələrini genişləndirməlidir".

Mirkazım Kazımov, Milli Məclisin deputatı
“Xalq qəzeti”.-2010.-31 dekabr.-N 289.-S.7.

Nazim İbrahimov: “İnformasiya müharibəsində qalib gəlməyə başlamışıq”

“31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günündə Heydər Əliyevin qəbrini ziyarət etmək hər bir azərbaycanlının borcudur”.

Lent.az-ın verdiyi məlumata görə, bunu Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov söyləyib. Nazim İbrahimov deyib ki, Heydər Əliyev həmişə azərbaycanlı olması ilə fəxr etdiyini bildirib: “İndi hər bir azərbaycanlı azərbaycanlı olması ilə fəxr etdiyini deyə bilər”.

Dövlət Komitəsinin sədri dünya ölkələrində sayı 370-i keçən diaspor qurumlarımızın yeni iş metodlarına keçdiyini, Azərbaycan və Qarabağ həqiqətlərinin dünyada yayılması istiqamətində fəaliyyət göstərdiklərini vurğulayıb: “Artıq Ermənistanla və erməni diasporu ilə informasiya müharibəsində qalib gəlməyə başlamışıq. Bu uğurların qazanılmasında diaspor qurumlarının da rolu var. Azərbaycan torpaqlarının işğal altında olduğu müddətdə diaspor qurumlarının əsas məqsədi bu olacaq”.

31 dekabr 2010

Nazim İbrahimov:"Azərbaycan diasporunun vəziyyəti, inkişafı və dünyada real gücə, söz sahibinə çevrilməsi dövlət başçısının daim diqqətindədir"

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri **Nazim İbrahimovun "Milli Məclis"** jurnalına müsahibəsi

- **Nazim müəllim, noyabr ayında Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsindən 9 il ötdü. Məhz 2001-ci ilin noyabrında keçirilən ilk qurultay diasporumuzun formalaşdırılması və gücləndirilməsi işini dövlət siyasətinin prioritetlərindən biri kimi qarşıya qoydu. Azərbaycançılıq ideologiyasına sadiqlik dünya azərbaycanlılarının əsas şüarına və tarixi missiyasına çevrildi. İstərdik bir qədər bu proseslərin tarixinə nəzər salasınız.**

- Ulu öndərimiz Heydər Əliyev 1993-cü ilin yayında xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımızın vahid ideologiya və milli-mənəvi dəyərlər ətrafında birləşməsinə, onların malik olduğu güclü potensialın milli problemlərin həllinə yönəldilməsinə xidmət edən bir sıra tədbirlər həyata keçirməyə başladı. Ümummilli liderimiz cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər gördü, xalqın birliyinin siyasi və nəzəri əsaslarını irəli sürdü. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam", - deyən Ulu öndərimiz yeritdiyi siyasətlə dünya azərbaycanlılarının liderinə çevrildi. Ümummilli lider Heydər Əliyev dünya azərbaycanlılarının müstəqil dövlətimiz və vahid məqsəd ətrafında birləşdirilməsi ideyasının müəllifidir. Xaricdə yaşayan soydaşlarımızın tarixi vətənə bağlılığını təmin edən azərbaycançılıq ideologiyasının müəyyənləşdirilməsi də Ulu öndərin tarixi xidmətidir. Bu gün azərbaycançılıq həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideyaya çevrilib. Ümummilli lider bütün dünyada yaşayan soydaşlarımıza bu ideya ətrafında birləşməyi təlqin edir və bildirirdi ki, azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafını təmin etməkdən ibarətdir.

Heydər Əliyev xarici ölkələrdə Azərbaycan diasporunun formalaşdırılmasının vacibliyini, lobbiçilik fəaliyyətinin əsas istiqamətlərini və perspektivlərini bəyan edib. Ulu öndər öz uzaqgörənliyi və müdrikliyi ilə xarici siyasətin strateji hədəflərini müəyyənləşdirərək müasir dövrdə hər bir dövlətin qüdrətinin yalnız iqtisadi resurslarla deyil, həm də onun xaricdə formalaşdırdığı diaspor və lobbinin gücü ilə ölçüldüyünü nəzərə alıb. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə hansısa ciddi nailiyyətlər qazanmaq, eyni zamanda, milli məsələlərin beynəlxalq müstəviyə çıxarılmasına nail olmaq mümkün deyil.

31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününün tarixi də Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1991-ci ildə Naxçıvan Muxtar Respublikasında Ali Məclisin Sədri vəzifəsində çalışdığı vaxt Heydər Əliyev dünyanın bütün qütblərində yaşayan soydaşlarımızın milli maraqlar ətrafında bir araya gələrək düşdüyü çətin vəziyyətdən çıxmaqda Azərbaycana dəstək verməsini labüd və tarixi zərurət saydı. Elə bu məqsədlə də Ulu öndər Naxçıvan Ali Məclisinin 1991-ci il 16 dekabr tarixli iclasında dünya azərbaycanlılarına üz tutdu. Onları birliyə, həmrəyliyə, Azərbaycanın köməyinə səslədi. Azərbaycanlıların yaşadığı bütün ölkələrdə əks-səda verən bu çağırış azərbaycançılıq adlı bir ideologiyaya, müstəqil Azərbaycan dövlətinin xilas yoluna çevrildi. Məhz Ümummilli liderin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi hər il 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsi barədə qərar çıxardı. Beləliklə, bu tarix dünya azərbaycanlılarının birlik, həmrəylik günü kimi tarixə həkk olundu. Ulu öndərimizin təməlini qoyduğu siyasəti bu gün uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün üzərinə düşən tarixi missiyanı uğurla yerinə yetirir, bu sahədə ardıcıl siyasət yürüdür.

- **Başa çatmaq üzrə olan 2010-cu ildə Azərbaycan diasporunun fəaliyyətini necə qiymətləndirirsiniz?**

- Diasporla İş üzrə Dövlət Komitəsi 2010-cu ildə də xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, soydaşlarımızın hüquq və azadlıqlarının müdafiəsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, milli-mənəvi dəyərlərimizin təbliği məqsədilə bir sıra tədbirlər həyata keçirib. Demək olar ki, Azərbaycan diasporu artıq daha geniş və əhatəli fəaliyyət göstərir. Formalaşmış və tam təşkilatlanmış diasporumuz indi praktiki işlər görmək mərhələsindədir. Bu mərhələnin də özünəməxsus çətinlikləri və mürəkkəblikləri var. Demək olar ki, diaspor təşkilatlarımıza siyasi cəhətdən yetkin insanlar rəhbərlik edir, bu qurumlarda getdikcə siyasi və ideoloji cəhətdən daha hazırlıqlı insanlar cəmləşir. Onlar yaşadıqları ölkələrdəki siyasi proseslərə, eləcə də dünya siyasəti müstəvisində baş verənlərə Azərbaycanın maraqları baxımından reaksiya verə bilirlər. Azərbaycan diaspor təşkilatları artıq müasir iş üsulları ilə çalışırlar, inkişaf etmiş informasiya texnologiyalarını öz fəaliyyətlərinə tətbiq edirlər.

Bu da Azərbaycanın haqq səsinin daha geniş və əhatəli duyulmasına şərait yaradır. Artıq Azərbaycanın qarşılaşdığı problemlər dünya ictimaiyyətinə daha tez çatdırılır. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında diasporumuzun əvəzsiz rolu var.

Dünyadakı Azərbaycan diasporunu azərbaycançılıq məfkurəsi ətrafında birləşdirən Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev də diaspor quruculuğuna ən mühüm məsələlərdən biri kimi yanaşır. Bu yöndə ardıcıl və sistemli tədbirlərin həyata keçirilməsini təmin edən Prezident İlham Əliyev müxtəlif ölkələrə səfərləri çərçivəsində soydaşlarımızla keçirdiyi görüşlərdə milli diaspor təşkilatlarının vahid, mütəşəkkil qüvvə kimi təşkilatlanması zərurətini önə çəkir, bunun ideoloji-siyasi kontur- larını müəyyənləşdirir. Dövlət başçısı müasir dövrdə bu sahəyə xüsusi diqqət ayırmadan xarici siyasətdə ciddi uğur qazanmağın qeyri-mümkünlüyünü çıxışlarında dəfələrlə vurğulayıb. Azərbaycan diasporunun vəziyyəti, inkişafı və dünyada real gücə, söz sahibinə çevrilməsi dövlət başçısının daim diqqətindədir.

Diasporla İş üzrə Dövlət Komitəsi Prezident İlham Əliyevin tövsiyələri əsasında diaspor təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, ölkə həqiqətlərinin, xalqımıza qarşı törədilmiş terror və soyqırımı aktları ilə əlaqədar çoxsaylı faktların dünya ictimaiyyətinə çatdırılmasının daha müasir metodlarının hazırlanması, digər xalqların diaspor təşkilatları ilə əlaqələrinin gücləndirilməsi sahəsində müntəzəm tədbirlər həyata keçirir. Təbii ki, müasir dövrdə diaspor quruculuğu konkret zamanla məhdudlaşmayan, daimi fəallıq və zəhmət tələb edən uzunmüddətli prosesdir. Xaricdəki Azərbaycan diasporunun imkanlarından geniş istifadə olunması, ölkə həyatının müxtəlif sahələrində meydana çıxan problemlərin həllində onun fəal iştirakının gerçəkləşdirilməsi istiqamətində hələ çox işlər görməyə ehtiyac var. Prezident İlham Əliyevin bu sahədə ardıcıl, məqsədyönlü və prinsipial siyasət aparması nəticəsində qarşıdakı illərdə Azərbaycan diasporu dah da güclənəcək, ölkənin taleyüklü problemlərinin həllində daha yaxından iştirak edəcək.

- Təbii ki, bu ilin ən yaddaqalan hadisələrindən biri Dünya Azərbaycanlı Gənclərinin I Konqresidir. Belə bir tədbirin keçirilməsi hansı zərurətdən irəli gəldi?

- Dünya Azərbaycanlı Gənclərinin I Konqresinin keçirilməsi Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi "Azərbaycan Gəncliyi Dövlət Proqramında nəzərdə tutulub. Dünya Azərbaycanlı Gənclərinin I Konqresinin təşkili xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuğu işinə cəlb olunması, ictimai-siyasi fəallığının artırılması, tarixi vətənlə əlaqələrinin möhkəmləndirilməsi məqsədinə xidmət edir. Gənclər Azərbaycan diasporunun ən fəal hissəsidir və biz onların fəaliyyətinə böyük ümidlər bəsləyirik. Gənclərlə iş bizim fəaliyyətimizin əsas istiqamətlərindən birini təşkil edir. Xarici ölkələrdə təhsil alan və yaşayan azərbaycanlı gənclər də dövlətin yaxın dəstəyi və yardımı sayəsində təhsil aldıqları ölkələrdə müxtəlif dərnəklər və ictimai birliklər yaradır, vətənimizin problemləri haqda dünya ictimaiyyətində obyektiv təsəvvürlərin formalaşdırılması prosesində fəal iştirak edirlər. Biz gənclərin diaspor hərəkatındakı aktivliyindən daha da səmərəli istifadə etməliyik. Bakıda belə bir konqresin keçirilməsi də bu zərurətdən irəli gəlib. Ümid edirik ki, bu konqresdən sonra dünyanın müxtəlif ölkələrində yaşayan və təhsil alan gənclərimiz daha da mütəşəkkil fəaliyyət göstərəcəklər.

- Bu gün Azərbaycan diasporunun təşkilatlanması mərhələsi başa çatıb. Azərbaycanın icma və diaspor təşkilatları artıq konqreslər və federasiyalar halında birləşirlər. Bu proses necə gedir və Azərbaycan lobbisinin formalaşdırılması ilə bağlı hansı işlər görülür?

Diaspor quruculuğu sahəsində dövlət siyasətinin məqsədi xaricdə yaşayan soydaşlarımızın milli özünəməxsusluğunu qorumaq və inkişaf etdirməkdən, Azərbaycanla əlaqələrini genişləndirməkdən ibarətdir. Diasporla İş üzrə Dövlət Komitəsi fəaliyyət göstərdiyi müddətdə bu məqsədə nail olmaq üçün xeyli iş görüb. İndi dünyanın əksər ölkələrində 370-dən çox Azərbaycan icması fəaliyyət göstərir və diasporumuzun təşkilatlanması prosesi bu gün də davam edir. Azərbaycan icmalarının strukturunun təkmilləşdirilməsi, işinin keyfiyyətcə yeni müstəviyə qaldırılması, müxtəlif ölkələrdə yeni Azərbaycan icmalarının təsis edilməsi, eyni ölkədəki icmaların fəaliyyətlərinin əlaqələndirilməsi məqsədilə onların vahid mərkəzdə birləşdirilməsi zəruridir. Bu sahədə əhəmiyyətli irəliləyişlər müşahidə olunmaqdadır.

Son illərdə Dövlət Komitəsi diaspor qurumlarının təşkilatlanması, ayrı-ayrılıqda fəaliyyət göstərən Azərbaycan icmalarının bir qurumda toplaşması, birlikdə və daha səmərəli işləmələri üçün vahid mərkəzdən koordinasiya edilməsi məqsədilə addımlar atıb. Bu gün diaspor və lobbi quruculuğunun genişlənməsi Azərbaycanın diaspor təşkilatlarının fəaliyyət göstərdiyi ölkələrin siyasi və dövlət xadimləri ilə əlaqələr qurmasına, qeyri-hökumət təşkilatları, dövlət orqanları ilə əməkdaşlıq yaratmasına səbəb olub. Xarici dövlətlərdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının həmin ölkələrin mühüm dövlət orqanları ilə görüşləri və qarşılıqlı əməkdaşlığı intensivləşib. Onlar ölkəmizin mənafeyinə zidd olan addımlara adekvat cavab verməklə mühüm işlər görürlər. Azərbaycan diasporu ölkəmizin milli maraqları ilə bilavasitə bağlı olan məsələlərə daim ciddi, operativ reaksiya verir. Lobbi quruculuğunun uğurlu təşkilinin ən vacib şərtlərindən biri müxtəlif ölkələrin parlament və hökumət üzvlərinin, eyni zamanda, dövlət orqanlarının nümayəndələri ilə əməkdaşlıq əlaqələrinin qurulmasına nail olmaqdır.

Ötən dövr ərzində Azərbaycan lobbisinin təşkilində yardım göstərə biləcək bir sıra ölkələrin nümayəndələri ilə keçirilmiş görüşlərdə soydaşlarımızın təşkilatlanması və onların hüquqlarının daha etibarlı qorunmasının təmin edilməsi məqsədilə geniş müzakirələr aparılıb. Lobbi quruculuğu işinin əsas istiqamətlərindən biri də milliyyətcə azərbaycanlı olmasa da, Azərbaycanı özünə yaxın sayan, ölkəmiz haqqında həqiqətlərin dünyaya çatdırılmasında fəal iştirak edən digər millətlərin
nümayəndələri ilə əlaqələrin inkişaf etdirilməsidir ki, soydaşlarımız bu istiqamətdə də yorulmadan fəaliyyət göstərirlər.

2010-cu ildə də Diasporla İş üzrə Dövlət Komitəsi dünyanın müxtəlif ölkələrində yaşayan tanınmış siyasət adamları, ictimai xadimlər, ziyalılarla əlaqələrin inkişaf etdirilməsi, Azərbaycana dost münasibət bəsləyən insanlarla əməkdaşlığın genişləndirilməsi, güclü Azərbaycan lobbisinin formalaşdırılması istiqamətində tədbirləri davam etdirib.

- Azərbaycan və türk diasporunun birgə fəaliyyəti də Azərbaycan dövlətinin diaspor siyasətinin prioritetlərindəndir. Bu gün Azərbaycan və türk diasporlarının əməkdaşlığı hansı səviyyədədir?

- Diasporlarımızın əməkdaşlığı yüksək səviyyədədir. Həm Azərbaycan, həm Türkiyə üçün taleyüklü məsələlərin həllində diasporlarımız hər zaman bir-birinin yanındadır. Qeyd etmək istəyirəm ki, diaspor siyasətindəki ən mühüm nailiyyətlərdən biri də Azərbaycan və türk diasporları arasında əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində atılmış addımlardır. Çünki Azərbaycan türk dünyası arasında birliyin təmin olunmasına, əməkdaşlığın inkişaf etdirilməsinə böyük önəm verir. 2007-ci ilin mart ayında Azərbaycan Prezidentinin təşəbbüsü ilə Bakı şəhərində keçirilmiş Azərbaycan və Türk Diaspor Təşkilatları Rəhbərlərinin I Forumunda bu əməkdaşlığın konkret prinsip və istiqamətlərini müəyyənləşdirən "Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası" qəbul edilib. Bir millət, iki dövlət fikrinə, kəlamına əsaslanaraq Ulu öndərimiz Heydər Əliyevin söylədiyi kimi: "Bir millətin bir neçə diasporu ola bilməz, bizim vahid diasporumuz olmalıdır", - prinsipi ilə fəaliyyətimizi davam etdiririk.

Türkiyə ilə Azərbaycanın milli mənafeləri, dövlət maraqları, tarixin sınaqlarından çıxmış dostluq telləri iki xalqın diasporlarının sıx əməkdaşlığını, taleyüklü məsələlərin həllində birgə fəaliyyətini zərurətə çevirib. Təqdirəlayiq haldır ki, bu gün Azərbaycan və türk diasporları bir çox məsələlərdə ortaq mövqedən çıxış edirlər. Ümumiyyətlə, Azərbaycan diasporunun digər xalqların diaspor təşkilatları ilə əməkdaşlığının ən əsas hədəfi dünyadakı şişirdilmiş erməni təbliğatının, erməni yalanlarının qarşısını almaq, bu sahədə konkret addımlar atmaqdır. Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyətində bu məqam əsas istiqamətlərdən biri kimi müəyyən edilib. Xüsusilə vurğulamaq lazımdır ki, türk dövlətlərinin, xalqlarının, diaspor təşkilatlarının vahid məqsədlər uğrunda mübarizəsi, ideoloji məsələlərdə eyni mövqedən çıxış etməsi, erməni təbliğatına qarşı birgə mübarizəyə qoşulması Prezident İlham Əliyevin siyasətinin əsas istiqamətlərindəndir. Bu, bütövlükdə türkdilli xalqların dünya siyasətindəki yerini, təsir imkanlarını, nüfuzunu təmin etməyə yönəlmiş tarixi missiyadır.

- Nazim müəllim, xarici ölkələrdə yaşayan soydaşlarımızın cəmiyyətə inteqrasiyası, ictimai-siyasi fəallığı, seçkili orqanlarda təmsil olunması ilə bağlı vəziyyət necədir?

Təbii ki, bu, çox əhəmiyyətli məqamdır. Soydaşlarımız yaşadıqları cəmiyyətdə nə qədər yüksələ bilsələr, nə qədər ictimai-siyasi baxımdan fəal olsalar dövlətimizin səsi bir o qədər lazımi dairələrə çatar, beynəlxalq aləmdə xalqımızın problemlərinə, tarixi gerçəkliklərimizə bir o qədər zəruri diqqət yönəldə bilərik. Xarici ölkələrdə yaşayan soydaşlarımızın cəmiyyətə inteqrasiyası, ictimai-siyasi fəallığı, seçkili orqanlarda təmsil olunması ilə bağlı vəziyyət ilbəil daha da ürəkaçan səviyyəyə yüksəlir. Estoniya, Gürcüstan parlamentlərində, Ukraynada, Rusiyada yerli seçkili orqanlarda azərbaycanlılar təmsil olunurlar. Bu yaxınlarda bir soydaşımız Ukraynada mer postunu qazandı. Bundan başqa, Litvada Milli Azlıqlar Şurasına azərbaycanlı rəhbərlik edir. Daha bir həmyerlimiz Moldovada Millətlərarası Əlaqələr Bürosunda Koordinasiya Şurasının həmsədridir. Bir azərbaycanlı xanım elə bu günlərdə keçirilən Münhen parlamentinin Xaricilər Məclisinə seçkilərə qatılıb. Bu siyahını uzatmaq da olar. Demək istəyirəm ki, soydaşlarımızın yaşadıqları ölkələrdə ictimai-siyasi aktivliyin artması diaspor işinin keyfiyyətinin yüksəldilməsinin əsas şərtlərindəndir. Bu məsələdə də Azərbaycan və türk diasporlarının əməkdaşlığının uğurlu nümunələri var. Almaniya Bundestaqına keçirilən seçkilərdə, eləcə də bu yaxınlarda ABŞ-dakı seçkilərdə soydaşlarımız böyük fəallıq nümayiş etdirərək türk namizədlərə dəstək verdilər. Ortada konkret nəticələr olsa da, biz hələ bu istiqamətdə çox işlər görməliyik. İstərdik ki, soydaşlarımız Qərb ölkələrinin parlamentlərində və yerli seçkili orqanlarda təmsil olunsunlar və bunun üçün Dövlət Komitəsi bundan sonra da səlahiyyətləri çərçivəsində hər bir dəstəyi göstərməyə hazırdır.

- Xaricdə məskunlaşmış soydaşlarımızın bir neçə nəsil sonra assimilyasiyasının qarşısını almaq üçün onların kompakt yaşadığı yerlərdə məktəblərin açılmasına nail olması, dərs vəsaitləri, mədəni təbliğat vasitələri və s. göndərilməsi labüddür. Xaricdə Azərbaycan dilində televiziya və radio verilişlərinin, "Həftə sonu" məktəblərin təşkili hansı vəziyyətdədir?

- Azyaşlı soydaşlarımızın, yeniyetmələrin, gənclərin milli-mənəvi ruhda tərbiyə olunması, ana dilinə mükəmməl şəkildə yiyələnməsi məqsədilə Dövlət Komitəsi xarici ölkələrdə yeni "Həftə sonu" məktəblərinin yaradılması istiqamətində işlər görüb. 2005-ci ildən etibarən Rusiyanın ayrı-ayrı regionlarında, Qazaxıstanın Astana, Karaqanda, Almatı şəhərlərində, Özbəkistanın Daşkənd, Səmərqənd şəhərlərində və Qırğızıstanın Kant və Bişkek şəhərlərində, eləcə də Ukraynada, Latviyada, Estoniyada, Çexiyada, Böyük Britaniyada, Niderlandda, İsveçdə, Finlandiyada, Kanadada, ABŞ-da "Həftə sonu" məktəbləri açılıb. Dövlət Komitəsi onların hamısına ibtidai sinif dərslikləri və tədris vəsaitləri çatdırıb, digər zəruri əyani vasitələrlə təmin edib və bu proses mütəmadi olaraq davam etdirilir.

Sevindirici haldır ki, bəzi şəhərlərdə "Həftə sonu" məktəblərə azərbaycanlılarla yanaşı digər xalqların nümayəndələri və yerli sakinlərin övladları da maraq göstərirlər. Bundan başqa, bir neçə ildir Moskvada 157 saylı etnoməktəb fəaliyyət göstərir. Daha bir Azərbaycan dili təmayüllü məktəbin açılması ideyası da var ki, onun reallaşdırılması üzərində işlər gedir. Bu məktəbdə Azərbaycan dili ilə yanaşı digər mühüm dillər də tədris olunacaq. Ümumiyyətlə, müxtəlif ölkələrdə 200-dən çox Azərbaycan dilinin, tarixinin və mədəniyyətinin öyrədildiyi müxtəlif tədris müəssisələri var. Bunlarla yanaşı vurğulamaq istəyirəm ki, Ukraynadakı, Fransadakı, Almaniyadakı, Koreyadakı bir neçə ali təhsil müəssisəsində Azərbaycan dili və tarixinin tədrisi ilə bağlı bölmələr fəaliyyət göstərir. Əsas məqsəd həmin universitetlərin tələbələrinə dilimizi, tariximizi və mədəniyyətimizi öyrətməkdir və bu işlə məhz Azərbaycan diasporunun fəal simaları, tanınmış ziyalılar məşğul olurlar. Xarici ölkələrdə Azərbaycan dilində elektron medianın inkişafına gəlincə, son illərdə bu sahədə də irəliləyişlər var. Artıq Nyu-Yorkda, Strasburqda, Tallində və digər bir neçə şəhərdə müxtəlif radioların tərkibində Azərbaycan dilində mütəmadi verilişlər yayımlanır. Təbii ki, bunun sayının artmasını və gələcəkdə televiziyada efir vaxtının olmasını da arzu edirik və bu istiqamətdə işləri davam etdiririk.

Azərbaycan dilinin, tarixinin, mədəniyyətinin dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız arasında təbliğini gücləndirmək, onların milli-mənəvi dəyərlərimizə bağlılığını qorumaq və möhkəmləndirmək məqsədilə yeni, mühüm bir layihə üzərində işi başa çatdırmışıq. Diasporla İş üzrə Dövlət Komitəsi "Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası"na uyğun olaraq Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutu ilə birlikdə "Virtual Həftə sonu" məktəbi yaradıb. Layihənin məqsədi xarici ölkələrdə yaşayan azərbaycanlı uşaqlara və gənclərə müasir informasiya texnologiyaları vasitəsilə Azərbaycan dilini, tarixini, mədəniyyətini, coğrafiyasını tədris etməkdən ibarətdir. Ən yaxın vaxtlarda layihənin tətbiqinə başlanacaq.

- Diasporla İş üzrə Dövlət Komitəsinin Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlikləri, konsulluqları ilə əməkdaşlığı necə qurulub?

- Komitə Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələrinə, müvafiq qanunvericilik aktlarına uyğun olaraq, Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik və konsulluqları ilə sıx əməkdaşlıq şəraitində dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların problemlərini daim diqqət mərkəzində saxlayır, səlahiyyətləri çərçivəsində onların həllinə çalışır, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına, xalqımızın zəngin mədəni irsinin və tarixinin təbliğ edilməsinə səy göstərir. Azərbaycanın diplomatik korpusları azərbaycanlıların təşkilatlanması, onların hüquq və azadlıqlarının müdafiəsi, diaspor təşkilatlarının fəaliyyətinin koordinasiya olunması işində Dövlət Komitəsinə yaxından dəstək verir, bu sahədəki bütün tədbirlər birgə məsləhətləşmələr əsasında həyata keçirilir.

- Bildiyimiz kimi, Dövlət Komitəsinin məşğul olduğu əsas istiqamətlərdən biri də Gürcüstanda yaşayan soydaşlarımızın hüquqlarının qorunması, onların Gürcüstan cəmiyyətinə inteqrasiyası və bu yolda ortaya çıxan problemlərin həllidir. Bu sahədə hansı layihələr həyata keçirilib?

Dövlət Komitəsinin fəaliyyətinin prioritet istiqamətlərindən biri də Gürcüstan azərbaycanlılarının cəmiyyətə inteqrasiyası sahəsində mövcud problemlərin aradan qaldırılmasıdır. Bildiyiniz kimi, 2008-ci ildə Gürcüstanda fəaliyyət göstərən 124 Azərbaycan məktəbinin 50-də "Gürcü dili" kursları açılıb. 2009-cu ildə isə bu iş davam etdirilərək əlavə 34 Azərbaycan məktəbində də "Gürcü dili" kursu açılıb. Artıq bu ildən etibarən həmin kursları bitirən şagirdlər ali məktəblərə qəbulda yüksək nəticələr göstəriblər. Bu il Gürcüstanın ali məktəblərinə qəbul olan azərbaycanlı tələbələrin ümumi sayı 466 nəfərdir ki, onların 352 nəfəri "Gürcü dili" kurslarının dinləyiciləridir. Müqayisə üçün bildirim ki, iki il əvvəl Gürcüstanın ali məktəblərinə 245 azərbaycanlı qəbul olunmuşdu. 4 il əvvəl isə onların sayı cəmi 20 nəfər idi. Belə bir göstəricinin əldə olunmasında bizim açdığımız "Gürcü dili" kurslarının böyük rolu var. Gürcüstanda 12 illik təhsil sisteminə keçidlə əlaqədar 2009-cu ildə Azərbaycandilli məktəblərdə buraxılış nəzərdə tutulmadığından Azərbaycan məktəblərində təşkil edilmiş dil kurslarında təhsil alan gənclərin gürcü dilini daha yaxşı mənimsəyə bilməsi üçün ikiillik şans yaranması da builki qəbul imtahanlarında soydaşlarımızın uğurunu şərtləndirən amillərdəndir. Bundan başqa, Dövlət Komitəsinin dəstəyi ilə gürcü dilinin tədrisi üçün hər biri 2000 nüsxə olmaqla "Gürcü dilini öyrənənlər üçün dərslik", "Gürcücə-Azərbaycanca danışıq lüğəti", "Gürcü dilinin qrammatikası" kitabları, həmçinin gürcü dilinin qrammatikasına dair hər birində 44 ədəd olmaqla 300 dəst cədvəl hazırlanaraq Azərbaycandilli məktəblərə və gürcü dili kurslarına təqdim edilib.

Komitənin dəstəyi ilə 20 min sözdən ibarət iki cildlik "Azərbaycanca-Gürcücə lüğət" nəşr edilib. 2010-cu ildə Gürcüstan Azərbaycanlıları Konqresinin təşəbbüsü ilə "Azərbaycanca-Gürcücə qısa dəftərxana və mühasibat terminləri lüğəti", "Azərbaycanca-Gürcücə, Gürcücə-Azərbaycanca danışıq lüğəti", "Azərbaycanca-Gürcücə hüquq terminləri lüğəti" çap olunub.

Dövlət Komitəsinin Şimali Kiprin Yaxın Doğu Universitetinin rəhbərliyi ilə əldə etdiyi anlaşmaya əsasən bu tədris ilindən etibarən hər il 20 azərbaycanlı gəncin həmin universitetdə ödənişsiz əsaslarla təhsil almasına şərait yaradılıb. Dövlət Komitəsi Gürcüstanda yaşayan azərbaycanlı gənclərin cəmiyyətə inteqrasiyasına dəstək vermək, habelə yüksək ixtisaslı gənc kadrların hazırlanmasına yardım göstərmək məqsədilə nəzərdə tutulmuş 20 yerə namizədlərin Gürcüstanda yaşayan və qəbul imtahanlarında yüksək bal toplayan, lakin müsabiqədən keçməyən gənc soydaşlarımız arasından seçilməsini məqsədəuyğun hesab edib. Bu ilin avqust ayında yerli dövlət və ictimaiyyət nümayəndələrinin, abituriyentlərin valideynlərinin iştirakı ilə keçirilmiş açıq müsahibənin nəticəsi olaraq 18 nəfər soydaşımız müxtəlif ixtisaslar üzrə universitetə təhsil almağa göndərilib. Dövlət Komitəsi Yaxın Doğu Universitetinə qəbul olunmuş tələbələrin əksəriyyətinin aztəminatlı ailələrdən olduğunu nəzərə alaraq, onların hər birinə 300 ABŞ dolları məbləğində təqaüd verilməsini öhdəsinə götürüb.

Dövlət Komitəsi Gürcüstanda yaşayan soydaşlarımızın problemlərinin həlli istiqamətində Gürcüstanın müvafiq dövlət orqanları ilə əməkdaşlıq edir.

«Milli Məclis ».–2010.-№11-12.-S.38-43.

Azərbaycan diasporunun inkişaf istiqamətləri

Qənirə Paşayeva,
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Azərbaycanda diaspor mövzusunun elmi-tədqiqat obyektinə çevrilməsində ulu öndər Heydər Əliyevin mühüm rolu olmuşdur. Xalqımızın ümummilli lideri, Prezident Heydər Əliyev öz çıxışlarında, xarici ölkələrə etdiyi səfərləri zamanı söylədiyi nitqlərdə, burada məskunlaşan soydaşlarımızla görüşlərində, mətbuata verdiyi müsahibələrdə vətəndən kənarda yaşayan azərbaycanlıların həmrəylik nümayiş etdirməsini, doğma yurd-yuvalarını unutmamalarını daim tövsiyə etmişdir. Heydər Əliyevin "Mən fəxr edirəm ki, azərbaycanlıyam" sözləri uzun illər vətəndən uzaqda qürbət həyatı yaşayan soydaşlarımızın diaspor formalaşdıraraq vətəndaşı olduqları dövlətin - maraqlarını, mədəniyyətini, dilini, tarixini, problemlərini dünya ictimaiyyətinə çatdırmaq istiqamətində fəaliyyətin canlanmasına səbəb olmuşdur və mövzunun elmi cəhətdən öyrənilməsini aktual etmişdir.

Qeyd edək ki, uzun illər Azərbaycan diasporu mövzusu sovet təhlükəsizlik orqanları tərəfindən nəzarət altında saxlandığından, xaricdəki soydaşlarımızla əməkdaşlıq və onların problemlərinin öyrənilməsi qeyri-mümkün olmuşdur. Eyni zamanda, o illərdə Azərbaycan dövləti müstəqil olmadığından XIX əsrin sonları, XX əsrin əvvəllərinə qədər dünyanın müxtəlif bölgələrində mühacir həyatı yaşayan soydaşlarımız diaspor formalaşdıra bilməmişlər. İcma halından diaspora keçid edən azərbaycanlılar bu gün bir çox problemlərlə üzləşməli olublar. Bizim üçün diaspor mövzusunun aktual olmasının mühüm səbəblərindən biri də, yaranan problemlərin elmitərəflərini öyrənib, dövlətin qarşısın qoyduğu məqsədlərə çatmaqda dünya azərbaycanlılarının dəstəyinə nail olması işində yardımçı olmaqdır.

Azərbaycanda "diaspor" anlayışı haqqında ilkin təsəvvürlər son dövrlərdə yaranmağa başlasa da, qeyd etmək lazımdır ki, soydaşlarımızın dünyanın müxtəlif ölkələrində məskunlaşması prosesi hələ bir neçə əsr əvvəl başlanmışdır. Digər xalqlarla müqayisədə azərbaycanlıların doğma torpağa daha sıx bağlılığı üzündən Vətəni tərk edib qürbətdə yaşamaları etik-mənəvi baxımdan daha ağrılı olmuşdur. Təsadüfi deyil ki, Azərbaycan şifahi xalq ədəbiyyatında, dastanlarda, nağıllarda, poeziya nümunələrində "vətən", "qürbət" mövzusu mühüm yer tutmuşdur. Mənəvi köklərə söykənən amil Azərbaycan diasporunun yaranmasının nə qədər qədim tarixə malik olduğunun bariz göstəricisidir. Sovet İttifaqının süqutu bütün respublikalarda olduğu kimi, Azərbaycanda da milli oyanış prosesinin vüsət alması üçün ciddi təkan oldu. 70 illik bir dövr ərzində imperiyanın şovinist siyasətinin dəmir məngənəsində sıxılan azərbaycanlılar bütün təzyiqlərə və məhrumiyyətlərə baxmayaraq, milli mənlik şüurunu və tarixi yaddaşını qoruyub saxlamağa müvəffəq olmuşlar. Bu barədə tanınmış Azərbaycan alimi Y.Mahmudov yazır: "1989-cu ilin şaxtalı və soyuq qış günlərində tarixin qaranlıq səhifələrini zamanın gündəliyindən birdəfəlik qoparıb atmaq arzusu yüz minlərlə azərbaycanlını tikanlı sərhəd məftilləri ilə əhatələnmiş Araz çayının sahilinə topladı. Heç kimin, hətta İttifaq rəhbərliyinin belə gözləmədiyi "sərhəd hərəkatı" başlandı. Bu hadisə təkcə böyük və vahid bir xalqın tarixi ədalətsizlik faktına etiraz aksiyası deyildi, həm də bütün dünya azərbaycanlılarının milli birliyinin və siyasi həmrəyliyinin nümayişkaranə təzahürü idi." (4, s. 43-54).

1991-ci il 18 oktyabrda Azərbaycanın dövlət müstəqilliyi elan edildi. Bu tarixdən etibarən Azərbaycan diasporu ilə müstəqil Azərbaycan Respublikası arasında münasibətlər formalaşmağa başladı. Məhz o dövrlərdə ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan Ali Məclisi hər il dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi keçirilməsi haqqında tarixi qərarı 16 dekabr 1991-ci ildə təsdiqlədi. Bu qərar bilavasitə Heydər Əliyevin təşəbbüsü və böyük zəhməti hesabına hazırlanmışdı. Burada xalqımızın keçdiyi tarixi yol, sovet rejimi, eləcə də çar Rusiyası dövründə qarşılaşdığı faciələr, məruz qaldığı təqiblər, sarsıntılar ümumiləşdirilmiş şəkildə öz əksini tapmışdı. Bu qərar xaricdə yaşayan soydaşlarımızla müntəzəm əlaqə yaratmaq sahəsində qəbul edilmiş ilk dövlət sənədidir. Həmin qərarda deyilir: "...Uzun əsrlik tarixə malik olan Azərbaycan türkləri öz inkişafının müxtəlif mərhələlərində dəfələrlə xarici istilaya məruz qalmış, onun ərazisi zəbt edilmiş və parçalanmış, dövlət müstəqilliyi və iqtisadiyyatı əlindən alınmışdır. Gülüstan (1813-cü il), Türkmənçay (1828-ci il) müqavilələri ilə Azərbaycan türkləri və onun tarixi ərazisi bir daha parçalanaraq, Rusiya ilə İran dövlətləri arasında mənafe dairələrinə bölünmüşdür" (1, s. 9-10). Mühüm tarixi əhəmiyyətə malik olan sənədi həmin il dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası da qəbul etdi. Ümummilli siyasi liderimiz Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olan bu tarixi sənədin Azərbaycan diasporu tərəfindən rəğbətlə qarşılanmasını hər il dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi böyük təntənə və bayramla qeyd olunmasında görmək olar. 1993-cü ildən başlayaraq Azərbaycan diasporuna dövlət səviyyəsində böyük diqqət verilməsinə başlandı. Ölkə başçısı Heydər Əliyevin bu istiqamətdə başladığı iş elə ilk günlərdən öz müsbət nəticələrini verdi. Prezidentin xarici dövlətlərə etdiyi səfərlər zamanı Azərbaycan diasporu qarşısında konkret məqsəd və vəzifələr qoyuldu.

Bu, xaricdəki azərbaycanlıların formalaşmasını, təşkilatlanmasını və lobbiçilik etməsinin zəruriliyini bildirən Heydər Əliyevin Azərbaycan diasporunun yaranması istiqamətindəki işlərinin göstəricisidir. Prezidentin 23 may 2001-ci ildə "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" 724 saylı sərəncamı Azərbaycan dövlətinin qarşısında diasporun mühüm amil olduğunu göstərən bariz nümunədir (3, s. 4).

Qeyd edək ki, 9-10 noyabr 2001-ci ildə Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi Azərbaycanda diaspor tarixinin formalaşmasının ən önəmli hadisələrindən biridir. I Qurultay Azərbaycan diasporunu keyfiyyətcə yeni mərhələyə çıxartdı. Qurultayda Azərbaycan diasporu - Azərbaycan Respublikasının beynəlxalq əlaqələri, dünya azərbaycanlıları və onların həmrəyliyi, həmvətənlərimizin qüvvəsinin və diqqətinin Azərbaycana yönəlməsi kimi vacib problemlərin həm nəzəri, həm də əməli tərəflərilə bağlı bir çox məsələləri müzakirə obyekti oldu. Yüksək səviyyədə keçirilən bu mötəbər məclisə soydaşlarımız böyük həvəslə gəlmiş, tarixi Vətən qarşısında hesabatlarla çıxışetmişdilər. Bu qurultay dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin yaranması və inkişafı sahəsində mühüm əhəmiyyətə malik olmaqla yanaşı, müstəqil Azərbaycanın ictimai-siyasi həyatında tarixi hadisəyə çevrilmişdir.

"Bu gün keçirilən qurultay xaricdə yaşayan soydaşlarımızın daha da həmrəy olması, təşkilatlanması üçün yeni bir mərhələnin başlanğıcıdır" - deyə onun əhəmiyyətini xüsusi vurğulayan ümummilli lider Heydər Əliyev öz nitqində dünya azərbaycanlıları ilə əlaqələri təmin edən dövlət qurumunun yaradılmasına ehtiyac duyulduğunu da bildirərək göstərmişdir: "Mən qurultayın sonunda belə nəticəyə gəldim ki, həqiqətən Azərbaycanda diaspor ilə iş üçün xüsusi bir dövlət orqanı yaradılmalıdır. Güman edirəm ki, biz bu günlərdə belə bir orqanı yaradacağıq, əlaqələr daha da genişlənəcək, inkişaf edəcək, irəliyə doğru gedəcəkdir" (5, s. 3).

Qurultay dövlət başçısının dünya azərbaycanlılarını birləşdirmək ideyasının reallığa çevrilməsi üçün əsl mərhələ olmuşdur. Qurultayda milli birliyimiz, həmrəyliyimiz. xaricdə yaşayan həmvətənlərimizin diaspor şəklində formalaşması, təşkilatlanması və azərbaycançılıq ideyalarını geniş ölçüdə müdafiə etmələri üçün strateji proqram müəyyən edildi. Dünya Azərbaycanlılarının I Qurultayının mühüm nəticələrindən biri də Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının yaradılması oldu. Bu qurumun səlahiyyətlərinə isə dünya azərbaycanlılarının təşkilatlanması və milli-mənəvi dəyərlərin qorunub saxlanılması kimi məsələlər daxil edildi.

Bu istiqamətdə aparılan işlərin məntiqi davamı olaraq ölkə Prezidentinin 2002-ci il 5 iyun tarixli 730 saylı Fərmanına uyğun olaraq Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi (2008-ci ilin noyabr ayından etibarən Diasporla İş üzrə Dövlət Komitəsi) yaradıldı. Komponent bir dövlət qurumu olan komitə yarandığı gündən etibarən aktiv fəaliyyət göstərməkdədir. Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi dünya ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları arasında olan ziddiyyət və fikir ayrılıqlarının aradan qaldırılması istiqamətində də bir sıra mühüm addımlar da atır.

Xaricdəki diaspor təşkilatlarının konqres, federasiya və konfederasiya halında birləşməsi prosesini sürətləndirən bu komitə əsas prinsip olaraq azərbaycançılıq ideologiyasını təbliğ etməyə önəmli yer verdi. Qarabağ problemini Azərbaycan diasporunda prioritet məsələyə çevirmək üçün də bu Dövlət Komitəsi bir sıra işlər aparır. Diqqətəlayiq haldır ki, cənab Heydər Əliyevin dünya azərbaycanlılarının milli-əxlaqi dəyərləri və tarixi vətənlərinin şərəfini qorumağı öz müqəddəs borcları hesab etməsi istiqamətində apardığı işi Dövlət Komitəsi səylə davam etdirir. Ümummilli lider Heydər Əliyev 21 fevral 2003-cü ildə "Xaricdə Yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununu təsdiq etməklə dövlət-diaspor münasibətlərində yeni mərhələnin bünövrəsini qoydu.

"Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətihaqqında" Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikası Prezidentinin həyata keçirməsi dövlət başçısının diasporumuza ümdə əhəmiyyət verməsinin bariz nümunəsidir.

Bu Qanunun qəbul olunması ilə Azərbaycan Dövləti və Azərbaycan diasporu arasında olan bütün əlaqələr və fəaliyyət istiqamətləri müəyyən edildi. Bununla dövlətimiz Azərbaycan diasporu ilə olan əlaqələri nəzarətə götürdü. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev diaspor məsələlərinə diqqətini artıraraq, xaricdə yaşayan həmvətənlərimizin təşkilatlanması, onların vahid ideya ətrafında birləşdirilməsi siyasətini müvəffəqiyyətlə davam etdirir. Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin elan etdiyi prinsip və ideyaları inkişaf etdirərək, soydaşlarımızın vətənin ümumi mənafeləri çərçivəsində həmrəyliyinin təmin olunmasına, milli maraqlarımızın qorunmasında diasporun imkanlarından daha səmərəli istifadə edilməsinə istiqamətlənmiş bir siyasət aparır. Prezident İlham Əliyev əksər xarici səfərlərində Azərbaycan diasporunun nümayəndələri ilə görüşür, onları narahat edən problemlərlə maraqlanır, dəyərli tövsiyələrini verir, onları qarşılıqlı əməkdaşlıq üçün vətənə dəvət edir.

Dünya azərbaycanlılarının I Qurultayı qeyd etdiyimiz bu nəticələrin əldə olunmasına səbəb oldusa, 2006-cı ilin 8 fevral tarixində cənab İlham Əliyevin fərmanı ilə həmin ilin mart ayının 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi işlərin daha da geniş müstəviyə çıxarılmasına şərait yaratdı.

Dünya Azərbaycanlılarının II Qurultayı ilk növbədə yeni dövr üçün qarşıda duran əsas vəzifələri müəyyənləşdirdi. Çünki I qurultaydan keçən dövr ərzində diaspor quruculuğu sahəsində bir çox işlər görülüb, irəliyə doğru mühüm addımlar atılmışdı. Artıq yeni vəzifələrin həyata keçirilməsinə başlama ərəfəsi yetişmişdi. Qeyd edək ki, Azərbaycan icmaları fəaliyyət göstərdikləri ölkələrin ictimai-siyasi həyatında da fəal iştirak etməyə başlamış, başqa xalqların diaspor təşkilatlan ilə əlaqələrini gücləndirməyə cəhd edirdilər. Digər tərəfdən, həm də ən mühüm vəzifələrdən biri də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması Azərbaycan dövləti üçün xüsusi əhəmiyyət kəsb edən məsələdir. Bu nöqteyi-nəzərdən Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının II Qurultayındakı çıxışında bildirir: "Mən çox istərdim ki, azərbaycanlılar yaşadıqları ölkənin ictimai-siyasi həyatında mühüm rol oynasınlar. Bu, bizim mövqeləri möhkəmləndirir. İqtisadi baxımdan bizim mövqelərimiz möhkəmdir, indi də siyasi baxımdan möhkəmlənmək lazımdır. Bizim gücümüz sizin fəaliyyətinizdə, sizin də gücünüz Azərbaycan dövlətinin gücündədir. Ölkəmiz nə qədər güclü olsa, siz də o qədər güclü olacaqsınız" (2, s. 2).

Bu gün Azərbaycan diasporu ölkənin dünyada təbliğində, Azərbaycan reallıqlarının beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynayır. Bu baxımdan Azərbaycan diasporunun yeni təbliğat üsullarından istifadə etməsinə də ehtiyac var. Fikrimizcə, qurultaydan sonra bu sahədə də əsaslı dönüş yaranmışdır. Prezident İlham Əliyevin diaspor quruculuğu sahəsindəki siyasəti ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş ideya və prinsiplərin konseptual istiqamətlərinə əsaslanır. Bu siyasətin əsas məqsədi böyük öndərimizin müəyyənləşdirdiyi siyasi xəttə uyğun olaraq dünya azərbaycanlılarının vahid təşkilatda birləşdirilməsinə nail olmaqdır.

Qloballaşmanın bütün dünyada gedən ictimai-siyasi proseslərə təsir göstərmək imkanına malik faktora çevrilməsi, eyni zamanda ölkəmizin qarşılaşdığı problemlər Azərbaycan diaspor quruculuğunun daha təkmil səviyyədə aparılmasını, mövcud siyasi və iqtisadi reallıqları nəzərə alan və praktik imkanlara malik konsepsiya kimi həyata keçirməsini zərurətə çevirmişdir. Bütün bunları nəzərə alaraq, Prezident İlham Əliyev 2008-ci ilin noyabrında komitənin yeni formatda işləməsi üçün sərəncam verdi. Sərəncama əsasən Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı.

Bu sahədə son dövrdə əldə olunmuş nailiyyətləri və qarşıda duran vəzifələri nəzərdən keçirərkən tam aydın şəkildə görmək mümkündür ki, diaspor quruculuğunun müasir mərhələsi bir neçə mühüm istiqaməti özündə ehtiva edir:

- Azərbaycan Respublikası dünya azərbaycanlılarının birliyini milli mənafelər və dövləti maraqlar kontekstində ortaya çıxan təbii tarixi zərurət kimi qiymətləndirir;
- Dünya azərbaycanlılarının birliyi məsələsi -"Azərbaycançılıq ideologiyasının" reallaşdırılması mexanizmi kimi qəbul edilir və bu sahədə həyata keçirilən bütün tədbirlər məhz həmin amala əsaslanır. Başqa sözlə desək, bu ideya dünya azərbaycanlılarının birliyinin fəlsəfi-nəzəri əsasları kimi çıxış edir;
- Azərbaycan dövləti dünya azərbaycanlılarının birliyini, mövcud iqtisadi və siyasi gerçəklikləri, eyni zamanda dünyada gedən ictimai-siyasi proseslərin meydana çıxardığı reallıqları nəzərə alaraq həyata keçirməyə çalışır;
- Dünya azərbaycanlıları müstəqil Azərbaycan Respublikasının beynəlxalq aləmlə münasibətlərinin inkişafında, ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında iştirak etmək imkanına malik ən fəal qüvvəyə çevrilməlidir.
- Diaspor quruculuğunun ən vacib istiqamətlərindən biri də məhz soydaşlarımızın tarixi vətənin maraqlarından irəli gələn bu prosesdə daha fəal iştirakını təmin etməkdir. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən seçilmiş düzgün strateji istiqamət, Azərbaycan diasporu ilə sağlam və tam demokratik əlaqələrin qurulması istiqamətində aparılan məqsədyönlü siyasət qüdrətli Azərbaycan diasporunun yaranması ilə nəticələnmişdir və bu yolda görülən işlər Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

«Dirçəliş XXI əsr».–2010.-№141-142.–S.349-355.

MÜNDƏRİCAT

Azərbaycan diasporu: 2010……...1
Azərbaycan diasporunun etibarlı hamisi.....2
Virtual dünya diaspor quruculuğu işinə rasional yanaşma tələb edir 7
Diaspor - faciələrimiz, problemlərimiz və uğurlarımız 10
Qürbətdə vətən eşqi ilə döyünən ürək 14
DAK-lara birləşmək təklif olunur.....16
“Norveçdə Azərbaycanı tanıyırlar və sevirlər” 17
Vidadi Salahov: "Azərbaycanlılar Qazaxıstanın bütün dövlət orqanlarında çalışırlar".....20
Dünya azərbaycanlılarının bir Vətəni var – Azərbaycan……22
"Almaniyadakı türk toplumu Qarabağ məsələsində Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir" 25
“Hollandiya və Belçika kitabxanalarına Azərbaycanla bağlı kitablar təqdim etmişik” 28
Qadınlar diaspor işində.....30
"İranda islam rejimi süquta gedir".....31
Ukraynadakı Azərbaycan diasporundan ermənilərə ciddi zərbə 33
Neftin iyi çoxlarını Azərbaycana aşiq edir.....35
Türkdilli xalqların diasporları arasında əməkdaşlıq yeni mərhələdə……..……38
Xaricdə yaşayan türklərlə iş üzrə idarə yaradılıb……39
Azərbaycan və türk icmalarının nümayəndələri Stokholm şəhərinin mərkəzi meydanında etiraz aksiyası keçirmişlər……...40
DAK-ın XI qurultayı keçiriləcək.....41
“Bu, maliyyə vəziyyəti yaxşı olan bir siyasi lobbinin apardığı kampaniyadır” 42
“Güclü lobbiçilik üçün bir sıra yollar aranmalıdır”.....44
Diasporumuz etiraz edir 46
Moldovadakı soydaşlarımız vahid ideya ətrafında birləşmişlər 47
Azərbaycan diasporu yeni inkişaf mərhələsində……..……...48
Bezanson şəhərində keçən əsrin 90-cı illərinin əvvəllərindən ənənə halını almış “Dünya ətrafına 80 boşqabla səyahət” adlı tədbir keçirilmişdir……50
Özbəkistandakı diasporumuz dünya parlamentlərini ədalətli qərarlar çıxarmağa çağırır 51
Türkdilli Xalqların diaspor rəhbərliyi "Bakı-Xəbər"in qonağı oldu.....53
Domodedovo şəhərində, “Bor” sanatoriya-sağlamlıq kompleksində Novruz bayramı təntənəli şəkildə qeyd edilmişdir……..…56
Avstraliya Azərbaycan Türk Dostluğu Birliyi Novruz bayramı münasibəti ilə Obörn şəhərində yerləşən Türk Evində şənlik keçirmişdir……..……57
Azərbaycanın Belçika Krallığında və Lüksemburq Hersoqluğundakı səfirliyi və Avropa İttifaqı yanında daimi Nümayəndəliyi ilə birlikdə martın 23-də Novruz bayramı münasibətilə qəbul təşkil etmişdir……..……..58
Avropada təhsil alan Azərbaycanlı Tələbələrin (FASE) dördüncü forumu keçirilir……..…59
Almaniyada, Qazaxıstanda Novruz Bayramı münasibətilə bir neçə tədbir keçirilib…….60
Avropa Azərbaycan Cəmiyyəti (AAC) Böyük Britaniyanın baş naziri Qordon Braunun rəsmi internet saytında müraciətlə çıxış edib……..…61
Azərbaycanlı Tələbələrin IV Forumu çərçivəsində etiraz aksiyası keçirilmişdir……..……...62
Buxarestdəki Avropa Nikolae Titulesku Fondunda bu ölkədə təhsil almış azərbaycanlı tədqiqatçıların doktorluq elmi işlərindən ibarət kitabların təqdimat mərasimi keçirilmişdir.....63
31 Mart - Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar diaspor təşkilatları müxtəlif tədbirlər keçirir…..…64
Hollandiya telekanalları Xocalı soyqırımı haqda film göstərib.....67
Qılıncoynatma üzrə Dünya Çempionatı keçirilmişdir……..……..……69
N.İbrahimov: "Əlişir usmanov bizim türk qardaşımızdır"……..……...70
"Azərbaycan və Türkiyə diasporu birləşib Xocalı soyqırımını dünyaya tanıda bilər" 72
Berlində etiraz aksiyası keçirilib……..……..……...73
Diaspor təşkilatlarının fəaliyyəti Prezident İlham Əliyevin diqqət mərkəzindədir……..……...74
Niyazi Hacıyev: "Mən şadam ki, Estoniyada azərbaycanlılar haqqında yaranmış stereotip aradan qaldırılıb"……..……80
Nyu-York şəhərində yerləşən Türk Mərkəzində Novruz Bayramı münasibəti ilə tədbir keçirilib…….....81
Türkiyədəki diasporumuz ermənipərəst yalanı ifşa etdi……..……...82
Rusiya Qəhrəmanı David Paşayev 70 yaşında Moskvada vəfat etmişdir……..……..……...84
Tariyel Azərtürk: Amerika Güney Azərbaycana dəstək versə, İran bir ilin içində diz üstə çökər 85

Ukraynanın Dnepropetrovsk şəhərində bu ölkədəki azərbaycanlı gənclərin forumu keçiriləcək……..…….....90
Ermənilərin həyata keçirdiyi soyqırım və deportasiya siyasətini…..…….....91
Diaspor + Lobbiçilik 93
Bakıda keçirilmiş qılıncoynatma üzrə kadetlər və gənclər arasında dünya çempionatının yekunları ilə bağlı mətbuat konfransı keçirilib…….....……95
N.Nərimanovun 140 illik yubileyi Rusiya Federasiyasında və Gürcüstanda qeyd edilir…….....……..96
Almaniyanın Maynts şəhərində SWR televiziyasının binasının önündə bu ölkənin ARD telekanalında "Aghet" adlı filmin yayımlanmasına etiraz məqsədi ilə mitinq keçirilib…….....……97
"Kaşqar ekspediyası: mavi qızılın izi ilə" adlı verilişdə Azərbaycandan geniş bəhs edilmişdir…….....…….98
Lobbiçilik və diaspor işində keyfiyyətcə yeni mərhələ…….....……99
Türkiyə və Azərbaycan diasporunun nümayəndələri Türkiyənin Sidneydəki Baş Konsulluğun önünə toplaşıb…….....……102
Ottava şəhərində parlamentin binası qarşısında bu ölkədəki Azərbaycan icmasının üzvləri Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti əleyhinə nümayiş keçirmişlər……..….....103
"Can Azərbaycan" televiziyasında əsasən milli mədəniyyətimiz təbliğ olunur 104
Ştutqart şəhərində "Uzaq Qafqaz ümidi- Azərbaycanda alman izləri" sənədli filminin təqdimatı olub….....…106
Stokholmda 1918-ci ilin martında ermənilərin Azərbaycanda həyata keçirdikləri soyqırımı ilə bağlı simpozium keçirilib…….....……107
Gürcüstan Azərbaycanlılarının Konqresinin (GAK) üzvləri Türkiyənin Tiflisdəki səfirliyi qarşısında aksiya keçirib…….....….108
«Diasporun mövqeyni qətiyyətlə pisləyirəm» Fəzail Ağamalı: «Məhkəmələr korporotiv maraqlardan ədalətsiz hökmlər çıxarır» «Sizin bu dəqiqə ağzınızdan od-alov yağır, iqtidarı da, məni də ittiham edirsiniz”..…109
Hollandiyanın Margraten bələdiyyəsinin ərazisində olan "To-Zai" cüdo klubunda Azərbaycan cüdosu günü keçirilib…….....…….112
Amerika Türklərindən və Amerika Azərbaycanlılarından ibarət 300 nəfərlik dəstə erməni nümayişçilərə və onların yalanlarına etiraz olaraq Türkiyənin Vaşinqtondakı Səfirliyi qarşısına toplaşıb……113
Ukraynada yaşayan azərbaycanlı gənclərin I forumu keçirilib…….....……..114
Moskvada "Ukrayna" mehmanxanasının yeni "Radisson Royal Hotel, Moscow" brendi adı altında təntənəli açılış mərasimi keçirilib……..……..……115
"I Gürcü Rəqs Olimpiadası" keçirilib…..……..……116
Azərbaycan lobbisi Ağ Evə hücuma keçir Dağlıq Qarabağa yardımlar dayandırılmalı, 907-ci düzəliş isə ləğv edilməlidir…….……..….117
"Dəfələrlə birləşmə adı altında DAK ən nüfuzlu ziyalıları itirib"…….……..….118
"Azərbaycan və Avstriya dostluq görüşü" adlı konsert keçirilib……..……...……120
Azərbaycançılıq ideyası azərbaycanlıların milli birliyinin təminatçısıdır …….....121
Məmməd Xəlil oğlu Məmmədovun xatirəsi xüsusi ehtiramla anılmışdır…….……..……124
DİDK-nın sədri Nazim İbrahimov İsrail Baş nazirinin dəftərxanası yanında əlaqələr üzrə büronun rəhbəri ilə görüşüb…….……....125
Təl-Əvivdə "Ön Asiya: kütləvi informasiya vasitələri və regional münaqişələr" mövzusunda beynəlxalq konfrans keçirilib……..…….……..126
Nazim İbrahimov mayın 6-da İsrailin xarici işlər naziri Aviqdor Libermanla görüşüb……..……127
Dünya azərbaycanlılarının diaspor kimi təşkilatlanması Ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır…….....128
Hadera şəhərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adını daşıyacaq xiyabanın təməlqoyma mərasimi olub……..…….…….131
Hollandiyada erməni təbliğatı daha güclüdür.....132
Berlin şəhərində Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə beynəlxalq boks turniri keçirilmişdir…….....….134
Böyük Vətən müharibəsində Qələbənin 65-ci ildönümü münasibəti ilə tədbir olmuşdur……..……....135
"Kükenhof" gül parkında ulu öndər Heydər Əliyevin adına yetişdirilmiş zanbaq əkilmişdir…….....……..……136
Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibəti ilə bir çox ölkələrdə bir sıra tədbirlər keçirilmişdir…….....……..……137
Heydər Əliyev və milli dövlətçilik təlimi – azərbaycançılıq 141
Azərbaycanın Almaniyadakı səfirliyi və "Azərbaycan evi" Cəmiyyətinin birgə təşkilatçılığı ilə Almaniyada yaşayan II Dünya müharibəsinin azərbaycanlı veteranları ilə görüş keçirilmişdir…….....……145
Amerikada yaşayan azərbaycanlılar Şuşa şəhərinin ermənilər tərəfindən işğal olunmasının 18-ci ildönümü ilə bağlı bəyanat yayıblar…….……..146
Fransanın azadlığı uğrunda döyüşlərdə azərbaycanlı döyüşçülərin xatirəsi yad edilmişdir…….....…….147

"50 milyonluq Azərbaycan güclü dövlətə çevriləcək" 148
Azad Berlin Universitetində (Freie Universitaet Berlin) təhsil alan azərbaycanlı tələbələr bu təhsil ocağının beynəlxalq klubunda Azərbaycan gecəsi keçiriblər……...……..150
Gürcüstanda yaşayan azərbaycanlı gənclərin I qurultayı keçirilmişdir…….……..151
İsveçdəki Azərbaycan diasporunun gənc fəalları yeni təşkilat yaradıblar…….…….…….153
“Oğuz eposu Kitabi Dədə Qorqud və Dərbənd” mövzusunda elmi-praktiki konfrans keçirilib……..……154
Marcanişvili teatrının kiçik salonunda görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının «Solğun çiçəklər» tamaşasının premyerası olub……...……..….155
“Krımın Azərbaycanlı İcması” İctimai Birliyinin sədri Rəhim Hümbətov Ujqorod şəhər meri Sergey Ratuşnyaka Uşqorod Şəhər Şurasının qondarma “erməni soyqırımı”nı tanıması ilə bağlı məktub göndərib…....156
28 May - Respublika Günü münasibəti ilə bir sıra tədbirlər keçirilmişdir…….…….157
“Hollandiyada “Azərbaycan cüdo günü” keçirilib.....165
Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) II konfransı keçirilmişdir……...…..168
Nazim İbrahimov Azərbaycanda səfərdə olan Belçika Senatının fəxri prezidenti və senator Ann Mari Lizinlə görüşüb……...…….....170
Riqanın “Konventa” konfrans zalında “Latviyada yaşayan azərbaycanlıların cəmiyyətə inteqrasiyasında diasporun rolu” adlı konfrans keçirilib…….....171
ABŞ-ın Kaliforniya ştatının bir sıra şəhər və bölgələrində mayın 28-i “Azərbaycan Milli Günü” elan ediləcəkdir…….....172
Azərbaycanlı Tələbələr və Elmi İşçilər Birliyi Qerolştayn (Gerolstein) şəhərində 3 günlük forum təşkil edəcək……...…..173
Azərbaycançılıq məfkurəsi qloballaşmanın mənəvi aşınma təzahürlərinə qarşı etibarlı sipərdir…….…..174
Azərbaycanın Diasporla İş Üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Latviyada konfrans keçirilib……..…180
Lobbilərin və diasporların müharibəsi.....181
«Xocalı ilə bağlı tədbirlərə 50-60 nəfər gəlir» 183
Kanadanın Toronto şəhərində Ontario əyalət parlamentinin binası qarşısında Azərbaycanın Dövlət bayrağı qaldırılmışdır……...……..…185
Azərbaycan üçün azərbaycançılıq ideologiyası ilə!.....186
“Dağlıq Qarabağ probleminin həllində Türkdilli Dövlətlərin ictimai və diaspor təşkilatlarının dəstəyinin artırılması” layihəsi çərçivəsində beynəlxalq konfrans keçirilib.....188
İsveç Azərbaycanlıları Konqresinin təsis qurultayı keçirilib.....189
“Avstriya Atatürkçü Düşüncə Dərnəyi”nin təşəbbüsü ilə “Türk günü” bayramı qeyd edilmişdir.....190
Rodhuspladsda “Anadolu Türk Günü” keçirilib.....191
"Əsas məqsəd diasporumuzu hərəkətə gətirməkdir" Tale Həsənov: "Diaspor strategiyasından lobbiləşmə strategiyasına keçməyin zamanıdır"…….....192
“Əsas məqsədimiz soydaşlarımızı bir araya gətirmək, Azərbaycanı təbliğ etməkdir”…....……..193
“BUTA” Azərbaycan-Koreya Tələbə Təşkilatının internet səhifəsi (www.buta.kr) açılıb…….....….....…..195
Alman- Azərbaycan Forumunun növbəti iclası keçirilib.....196
Murmansk şəhərindəki Azərbaycan diasporu 15 iyun - Milli Qurtuluş Gününə həsr olunmuş təntənəli tədbir keçirmişdir…….....197
Ziqmund Freyd parkında milli mətbəx və musiqi nümunələrindən ibarət mədəniyyətləri tanıtma tədbiri təşkil etmişdir……....……..198
Beynəlxalq Qaçqınlar və Məcburi Köçkünlər Gününə həsr olunmuş tədbir keçirilib……...……....199
Estoniyanın «Radio-4» kanalında Azərbaycan dilində verilişlərin yayımına başlanacaq……....…….200
Estoniyada “Azərbaycan radiosu” açmağı planlaşdırırıq Sənəm Əliyeva: «Estoniya radio və televiziya şirkətinin rəhbərliyi layihəni və proqramın rubrikalarını təsdiqləyib……...……..201
Azərbaycançılıq - bizi birləşdirən dəyər Azərbaycançılıq vahid və bölünməz vətən, birlik və həmrəylik, dünyanı tanımaq və dünyaya öz milli "mən"inlə tanınmaq deməkdir……....……...…203
Nazim İbrahimov: “Azərbaycan diasporu mütəşəkkil təşkilatlanma prosesi keçib”.....206
Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 8 ili tamam olur 207
“Qaçqınlar və məcburi köçkünlər-insanlara qarşı yönəldilmiş cinayət“ mövzusunda diskussiya keçirilib.....208
“Xaricdə yaşayan azərbaycanlılar bizim üçün də dayaqdır” Azərbaycan diasporu gənc olmasına baxmayaraq xeyli möhkəmlənib……...…….....209
Gürcüstandakı azərbaycanlı tələbə və gənclər təşkilatlarının bir qrup nümayəndəsinin ölkəmizə səfəri təşkil olunur.....212
Qənirə Paşayeva ilə Azərbaycanda səfərdə olan Gürcüstandakı azərbaycanlı tələbə və gənclər təşkilatlarının bir qrup nümayəndəsinin görüşü keçirilib…….....……..213

Ankarada yeni təşkilat – Türkiyə-Azərbaycan Dərnəyinin təqdimatı olub……..…….....……..214
NAYO-nun yeni saytı Azərbaycan və Norveç haqqındı məlumat mərkəzi olacaq 215
«Diasporumuzun güclü olması üçün sistemli işləmək lazımdır» 218
Azərbaycanın Koreya Respublikasındakı səfirliyində "BUTA" Azərbaycan-Koreya Tələbə Təşkilatının (AKTT) nümayəndələri ilə görüş keçirilmişdir…….....……220
Avqustun 19-dan 20-nə keçən gecə "Borussiya" – "Qarabağ" oyununun yayımı zamanı Almaniyanın ZDF telekanalı tərəfindən təxribata yol verilib…….....……221
"Ankara Azərbaycan Evi"nin təqdimatı olub…….....……222
Qartəpə turizm rayonundakı parka Azərbaycan xalqının ulu öndəri, türk dünyasının dahi şəxsiyyəti Heydər Əliyevin adı verilib…….....…….223
Türkiyənin Mardin şəhərində "Türk koalisiyası, türk diasporu: sosial-iqtisadi əlaqələr" mövzusunda Dünya Türk Forumu keçiriləcək……..……....……..224
"Sərhədləri aşan qardaşlıq" devizi altında təşkil edilən II Beynəlxalq Ramazan festivalı çərçivəsində Azərbaycan gecəsi keçirilib……...……..225
Belçikanın "Le Soir" qəzeti dünənki sayında "Barış qadınlardan keçir" adlı konfransı yenidən gündəmə çıxarıb.....226
"Diaspor təşkilatlarının rəhbərliyinə ictimai nüfuzu olmayan şəxsləri gətirirlər".....227
Azərbaycan Respublikasının Almaniyadakı səfirliyi və Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi ölkənin Şimali Rayn-Vestfallen əyalətinin Köln, Bonn, Düsseldorf şəhərlərində fəaliyyət göstərən diasporumuzun nümayəndələri ilə görüş keçirib.....228
Nazim İbrahimov Azərbaycanda səfərdə olan Latviyanın sabiq Prezidenti, BMT-nin baş katibinin xüsusi elçisi, Avropa İttifaqının Uzunmüddətli İnkişaf Proqramının həmsədri xanım Vayra Vike-Freyberqa ilə görüşüb.....229
Neva çayı sahilində Xatirə və Şərəf Beynəlxalq Memorial Kompleksi açılmışdır……..……..…….....230
Berlində Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin ofisində Bundestaqın elmi işçisi, Hayko Langner „Geopolitik təsir və gərginləşən təhlükəsizlik mühitində Dağlıq Qarabağ münaqişəsi" adlı mühazirə təqdim edib.....231
Gürcüstan Azərbaycanlıları Konqresinin (GAK) internet saytı istifadəyə verilib……...……232
Gürcüstanda "Azərbaycanlıların mədəniyyətinin inkişafı mərkəzi" adlı qeyri-hökumət təşkilatı təsis edilmişdir.....233
Diasporanın problemləri həllini gözləyir…….....…….……..…...234
Avropa Azərbaycan Cəmiyyətinin (AAC) dəstəyi ilə Londonda "Qafqazda təhlükəsizlik: Avropanın astanasında münaqişə, enerji və imkan" adlı müzakirələr keçirilib.....236
Ukraynada yaşayan soydaşlarımız müstəqil Azərbaycanı layiqincə təmsil edirlər…….....……....237
Daşkənddə ulu öndər Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı olmuşdur….....239
Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə "Türkdilli xalqların diasporları" adlı kitab nəşr olunub.....241
"DAK-ın qurultayı Almaniyada olacaq"……..242
Diasporumuz Mətyu Brayzaya dəstək oldu…….…244
Köln şəhərində Mədəniyyətlərarası Həftə (Interkulturelle Woche) keçirilir…….…...245
Horia Qırbyanın müəllifi olduğu "Azərbaycan–canlı alov" ("Azerbaijan – The Living Flame") kitabının təqdimat mərasimi keçiriləcək…….……...246
Tiflisdəki Biznes Hüquq Universitetində yeni tədris ili ilə bağlı tədbir keçirilib……..……..247
Türklər və azərbaycanlılar erməni diasporuna qarşı çıxacaq lobbi yaratmalıdırlar ……248
Berlində fəaliyyət göstərən "Azərbaycan Kültür Ocağı"nda Üzeyir Hacıbəyovun anadan olmasının 125 illik yubileyi qeyd edilib……..249
Koreya Xarici Dillər Universitetinin Türk-Azərbaycan Dilləri Fakültəsində "BUTA Azərbaycan Mədəniyyət Dərnəyi" fəaliyyətə başlayıb……..……..……250
Tbilisidə "Azərbaycanca-gürcücə" lüğət kitabının ikinci cildi çapdan çıxıb……..…251
Leyla Əliyeva və Polad Bülbüloğlu akademik B.V.Petrovski adına Rusiya Elmi Cərrahiyyə Mərkəzində tibb müəssisəsinin rəhbərləri ilə görüşmüşlər…….....……..…….……252
ABŞ-ın eks-prezidenti Corc Buş və xanımı Laura Buş Main ştatının Portland şəhərindəki "Fort Williams" parkında İraqda müharibə zamanı həlak olmuş hərbçilərin ailələri ilə görüşərkən bir qrup azərbaycanlı keçmiş dövlət başçısına yaxınlaşaraq ona və həlak olanların yaxınlarına başsağlığı veriblər…….253
Benilüks Azərbaycanlıları Konqresinin (BAK) fəxri sədri Sahil Qasımovun təşəbbüsü və təklifi ilə qurumun sifarişi əsasında ölkənin rabitə nazirliyi rəsmi olaraq üzərində Heydər Əliyev Fondunun embleminin təsvir olunduğu poçt markaları dövriyyəyə buraxıb…….…….....……254

Almaniya Bundestaqının mətbuat zalında Almaniya-Azərbaycan Münasibətlərinin İnkişafı Cəmiyyəti Dağlıq Qarabağ (DQ) münaqişəsinə həsr olunmuş tədbir keçirib……..…….255
Vətəndən uzaqlarda... Maqadanda Azərbaycan dünyası……..……..……..…….256
Leyla Əliyevanın və Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) rəhbərlərinin Rusiya ali məktəblərində təhsil alan azərbaycanlı tələbələrlə görüşü keçirilmişdir……..…….……..……258
Qarabağ Fondu Vaşinqton şəhərində növbəti tədbirini keçirməyə hazırlaşır……...…260
Azərbaycanın Dövlət Müstəqilliyinin 19-cu ildönümü ilə əlaqədar bir sıra tədbirlər keçirilib……..….261
Bir millətin neçə diasporu olar? ……..…….262
“Türk Şurası, türk diasporu və sosial-iqtisadi əməkdaşlıq” mövzusunda Dünya Türk Forumu başa çatıb…….263
Birləşmiş Ştatlar və Avropanın bizə, türkə qarşı bir düşmənçiliyi var ……..…….265
Buxarestdə “Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu” mövzusunda beynəlxalq konfrans keçirilib……..……..267
Həştərxanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsinin açılış mərasimi olmuşdur…..…269
“Qazaxıstan Azərbaycanlıları Assosiasiyası”nın birinci qurultayı keçirilir……..……..271
Həmvətənlərimiz yaşadıqları ölkələrdə daima adımızı uca tutmuşlar……..……..272
Ermənilərin Niderland Krallığında qondarma “Dağlıq Qarabağ Respublikası” ilə bağlı növbəti təxribatı soydaşlarımızın işə qarışması nəticəsində baş tutmamışdır…….……273
Azərbaycanın Polşadakı səfirliyinin təşkilatçılığı ilə bu ölkədə fəaliyyət göstərən diaspor təşkilatlarının rəhbərlərinin toplantısı keçirilmişdir……..……..……...…274
Gələn ilin martında Dünya Azərbaycanlılarının III Qurultayı olacaq …….275
Voloqdada Heydər Əliyevin xatirə lövhəsinin açılış mərasimi olub……..……277
Türk dünyasının müxtəlif dərnək sədrlərinin təşkilatçılığı ilə Londonda tədbir keçirilmişdir……...……..278
ABŞ azərbaycanlıları ara seçkilərin strateji nəticələrindən razıdırlar …….279
Frankfurt Əcnəbi Vətəndaşlar Şurasına seçkilər keçirilib……..……..281
Azərbaycanlıların Koordinasiya Mərkəzində (KAD) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuş tədbir keçirilib……..……..282
Brüssel şəhərində Avropa Azərbaycan Cəmiyyətinin (AAC) ofisi açılıb……..…...……..283
Humboldt-Berlin Universitetində “Azərbaycan tarixi” kafedrası fəaliyyətə başlayıb……..……..284
Qarabağ Fondu yeni layihəyə start verib……..……..……285
Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin bəyanatı…….……...…...286
ABŞ-dakı Azərbaycan diasporu Kaliforniyanın Beynəlxalq Məsələlər Şurasına (WAC) məktub göndərmişdir…287
İsveç Azərbaycanlıları Konqresi (İAK) YUNESKO-nun baş katibi İrina Bokovaya etiraz məktubu göndərib…..288
Benilüks Azərbaycanlıları Konqresi bəyanat yayıb……..……..289
Mançester şəhərində ilk dəfə olaraq “Azərbaycan gecəsi” təşkil olunub……...……..290
Gürcüstanın Mədəniyyət və Tarixi Abidələrin Mühafizəsi Nazirliyində Ombudsman Aparatının nəzdindəki Milli azlıqlar üzrə Şurada təmsil olunan qeyri-hökumət təşkilatları nümayəndələri ilə görüş keçirilib……291
Koreya Xarici Dillər Universitətində “Türk və Azərbaycan dilləri fakültəsi”nin təşkilatçılığı ilə tələbə və məzunlar üçün “Homecoming Day‘’ adlı tədbir keçirilib…….……..…292
“Azərbaycan-Macarıstan: mədəniyyətlərin dialoqu” seriyasından V beynəlxalq elmi konfrans işə başlamışdır……...…… 293
Frankfurtda Dünya Azərbaycanlı Gənclərin I Konqresi keçiriləcək Tədbirdə Dünya Azərbaycanlı Gənclər Birliyinin yaradılması Planlaşdırılır Konqres çərçivəsində "Virtual həftəsonu məktəbi"nin təqdimatı olacaq...….294
Dünya Azərbaycanlı Gənclərinin I Konqresinin proqramı açıqlanıb……..……...…296
Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki separatçı erməni rejiminin başçısı Bako Sahakiyanın Los-Ancelesə səfəri kütləvi etirazla qarşılanmışdır…….……...298
BUTA Azərbaycan-Koreya Tələbə Təşkilatı Koreya universitetlərində “Odlar Yurdu” adlı Azərbaycanla bağlı silsilə prezentasiyalar keçirir……...…….299
Norveç Azərbaycanlıları Gənclər Təşkilatı (NAGT-NAYO) Azərbaycanın qədim və zəngin mədəni irsinə daxil olan aşıq sənətinin xaricdə təbliği istiqamətində növbəti layihəni həyata keçirib…….…….300
Yeni reallıqlar və inkişaf naminə həmrəylik.....301
«The Westin Grand» otelində Dünya Azərbaycanlı Gənclərin I Konqresi başlanıb.....304
Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri Leyla Əliyevanın müraciəti……..…..306
Dünya Azərbaycanlı Gənclərin I Konqresi çərçivəsində “Virtual həftə sonu məktəbi»nin təqdimatı olacaq….....309
Almaniyanın Frankfurt şəhərində Dünya Azərbaycanlı Gənclərinin I Konqresi keçirilir……...310
Diaspordan lobbiçiliyə doğru 313
T.Heydərov: "Azərbaycan diplomatiyası və diasporunun fəaliyyəti nəticəsində Britaniya parlamentində Azərbaycan lobbisi erməni lobbisindən güclüdür"…….……..316

«The Westin Grand» otelində Dünya Azərbaycanlı Gənclərin I Konqresi işini davam etdirib……..…….....317
Almaniyanın Frankfurt şəhərində keçirilən «The Westin Grand» otelində Dünya Azərbaycanlı Gənclərin I Konqresi başa çatıb…….……...…319
Frankfurtda Dünya Azərbaycanlı Gənclərin I Konqresi başa çatdı.....326
Humbold Universitetində azərbaycanlı rəssam Əşrəf Heybətovun əsərlərinin təqdimatı olmuşdur……...…329
Bilal Dündar Almaniyanın Frankfurt şəhərində keçirilən Dünya Azərbaycanlı Gənclərin I Konqresini qardaş ölkədəki dərnəklər üçün də mühüm tədbir kimi dəyərləndirmişdir……..…….....330
Fəxr edirəm ki, Azərbaycanlıyam……..……..331
Leyla Əliyeva azərbaycanlı döyüşçülərin xatirə lövhəsinin təntənəli açılış mərasimində iştirak etmişdir……..333
“Diaspora işində gənclərin, xüsusilə tələbələrin rolu daha da artacaq”.....334
Şimali Kiprdəki Lefke Avropa Universitetində “XXI əsrdə türk dünyası” simpoziumu keçirilmişdir……..……335
"Bir günəşin zərrəsiyik..."..... 336
Ən böyük azərbaycanlı ……..……..……338
DAK yenidən təşkilatlandı……...…344
Diasporla İş üzrə Dövlət Komitəsinin kollektivi Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib…….....345
“Azərbaycan Cəmiyyəti”, Gürcüstan Azərbaycanlılarının Gənclər İttifaqı və Gürcüstan Azərbaycanlıları Konqresi milli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirib……..…….....346
Rumın-Amerikan Universitetində (RAU) Azərbaycana həsr olunmuş konfrans keçirilib……..…….....347
Heydər Əliyev adına Beynəlxalq Sosial Elmlər İnstitutunun yaradılmasının 10 illiyinə həsr olunmuş tədbir keçirilib……..…….....348
Məqsədimiz - Azərbaycanın qüdrətlənməsidir……..……..…….…349
“Xocalıya ədalət” beynəlxalq təşviqat kampaniyasının onlayn fəaliyyəti təqdim edilmişdir…….…….....351
“Azerbaijani Diary” (“Azərbaycan Gündəliyi”) adlı təbliğat xarakterli təqvimli qeyd kitabının növbəti sayının nəşri Strasburqda yerləşən “Bateliers” adlı nəşriyyat tərəfindən başa çatmışdır……..…….....352
ABŞ Azərbaycanlıları Şəbəkəsi (USAN) Azərbaycan icma təşkilatlarının başçıları və fəalları üçün növbəti seminarını təşkil etmişdir…….…….....353
Nazim İbrahimovun mətbuat konfransı keçirilmişdir……..……354
Dünya azərbaycanlıları vahid amal ətrafında səfərbər olurlar.....360
Dünyanın müxtəlif ölkələrində 370-dən çox Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir……..…….....361
BDM Türkiyədə bir sıra tədbirlər keçirib.....362
Sloveniyanın Nova-Qoritsa şəhərində yeni yaradılmış Sloveniya-Azərbaycan Dostluq Cəmiyyətinin ilk iclası keçirilmişdir……..……..…366
2011 - ci ildə Dünya Azərbaycanlılarının III qurultayı keçiriləcək…….…….....367
“DAK-ın bizdən ayrılan qanadını ilə birləşdirmək üçün komissiya yaradılıb” 369
Ümumrusiya Azərbaycanlıları Konqresinin Mərkəzi Şurasının ilin yekunlarına həsr olunmuş illik iclası keçirilmişdir.....371
Ümumrusiya Azərbaycan Konqresi 2010-cu ildəki fəaliyyətinə yekun vurur 372
ÜAK-ın yaradılmasından doqquz il ötür.....374
İlqar Hacıyev: " Konqres fəaliyyətə başlayarkən ilk olaraq təhsil komitəsi yaratmışdır"……...…….376
"Azərbaycan: 100 sual və cavab" kitabı alman, fransız və ərəb dillərində nəşr edilib…….....……..377
Diasporların müharibəsi 378
Diasporla İş üzrə Dövlət Komitəsi bütün soydaşlarımızı müstəqil Azərbaycan ətrafında birləşdirir.....380
Londondakı “Azərbaycan Evi” diaspor mərkəzinə çevrilir.....382
Dünya azərbaycanlılarına (24 dekabr 2010-cu il)…….....….....384
Azərbaycan və türk diaspor təşkilatları ABŞ-da fəaliyyətlərini genişləndirirlər.....385
“Azərbaycançılıq dünya azərbaycanlılarını birləşdirən və onlara kimliyini tanıdan milli ideologiyadır”…....…388
Milli birlik bizi birləşdirən əsas dəyərdir….....391
2011-ci ildə Azərbaycanın diaspor həyatını çox mühüm hadisələr gözləyir 393
Milli həmrəyliyimizin banisi Ulu öndər Heydər Əliyevin milli birlik və azərbaycançılıq ideyaları Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir…….....….395
Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə Azərbaycan Respublikası Milli Məclisinin müraciəti……..…. 397
Azərbaycanlıları birləşdirən dəyərlər- milli birlik və həmrəylik ideyaları…….....…398
Dünya azərbaycanlılarının birliyi müstəqil Azərbaycanı daha da qüdrətləndirir…….....…..401
Nazim İbrahimov: “İnformasiya müharibəsində qalib gəlməyə başlamışıq”…….....……404

Nazim İbrahimov:"Azərbaycan diasporunun vəziyyəti, inkişafı və dünyada real gücə, söz sahibinə çevrilməsi dövlət başçısının daim diqqətindədir"…….....……405
Azərbaycan diasporunun inkişaf istiqamətləri…….……...……...410